AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

İSGƏNDƏR BƏY MÜNŞİ TÜRKMAN

DÜNYANI BƏZƏYƏN ABBASIN TARİXİ

(Tarixe-aləmaraye-Abbasi)

“ŞƏRQ-QƏRB”

Bakı – 2010

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur

Layihənin rəhbəri, redaktor və ön sözün müəllifi:
Yaqub Mahmudov Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

Fars dilindən çevirən:
Şahin Fərzəliyev (Şahin Fazil) tarix elmləri doktoru, professor

Rəyçilər:
Vasim Məmmədəliyev AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor

Vaqif Piriyev tarix elmləri doktoru, professor

Tofiq Cahangirov filologiya üzrəfəlsəfə doktoru, dosent

İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi).
Bakı, "Şərq-Qərb Nəşriyyat evi, 2010, 1144 səh.

"Dünyanı bəzəyən Abbasın tarixi" Azərbaycan tarixini öyrənmək üçün qiymətli ilk mənbədir. İsgəndər bəy Münşi Şah Abbasın sarayında xidmət etmiş və bu əsərini fars dilində yazmışdı. Dünyanın tanınmış şərqşünasları öz tədqiqatlarında bu qiymətli ilk mənbəyə dönə-dönə istinad etmişlər. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin başlanğıc hissəsi O.Ə.Əfəndiyev və N.S.Musalı tərəfindən dilimizə tərcümə olunmuş və 2009-cu ildə nəşr olunmuşdur. Hazırkı tərcümə isə əsəri bütövlükdə əhatə edir və Azərbaycan tarix elminin mənbə bazasının zənginləşməsi baxımından çox mühüm hadisədir.

ISBN 978-9952-34-620-6

© AMEA Tarix İnstitutu, 2010
© "Şərq-Qərb Nəşriyyat evi, 2010

BÖYÜK AZƏRBAYCAN TARİXÇİSİNİN MƏŞHUR ƏSƏRİ DOĞMA DİLİMİZDƏ

İsgəndər bəy Münşinin "Tarixe-aləmaraye-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərinin Şahin Fazil tərcüməsinə

ÖN SÖZ

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda Azərbaycan tarixinin indiyədək öyrənilməyərək qalan çoxsaylı problemlərinin tədqiq olunması diqqət mərkəzinə götürülmüşdür.

Azərbaycanın müxtəlif tarixi dövrlərdə itirilmiş torpaqlarının tarixinin araşdırılaraq bugünkü nəsillərə olduğu kimi çatdırılması tarixçilərin əsas tədqiqat obyektinə çevrilmişdir.

Azərbaycan tarixinin xüsusi məqsədlərlə təhrif olunmuş və saxtalaşdırılmış səhifələri də yenidən yazılır.

Tarixçilərimiz yuxarıda göstərilən şərəfli və mürəkkəb vəzifələri həyata keçirərkən son dərəcə ağır çətinliklərlə üz-üzə qalırlar. Başlıca çətinlik ilk mənbələrin qıtlığıdır. Daha doğrusu, müxtəlif xarici dillərdə olan və dünyanın bir çox ölkələrində saxlanılan ilk mənbələrin ölkəmizə gətirilərək nəşr olunmasına və tədqiqatçılara çatdırılmasına indiyədək lazımınca diqqət yetirilməmişdir. Bu bir yana qalsın, hətta ölkəmizdə saxlanılan arxiv sənədləri də nəşr olunmamış, geniş elmi dairələrə və oxucu kütləsinə çatdırılmamışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Tarix İnstitutu xarici ölkələrin arxiv və kitabxanalarmda saxlanılan ilk mənbələrin Azərbaycana gətirilərək nəşr olunması kimi çox mühüm bir layihənin həyata keçirilməsinə başlamışdır.

Az vaxt içərisində Tarix İnstitutunda bu layihənin həyata keçirilməsi sahəsində mühüm uğurlar qazanılmışdır.

"Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Böyük Britaniyanın arxiv sənədlərində" (Bakı, 2008), "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı"nın I cildi (Bakı, 2009), "İrəvan əyalətinin müfəssəl dəftəri" (Bakı, 2009), "İrəvan əyalətinin icmal dəftəri" (Bakı, 2009), İsgəndər bəy Münşinin "Tarixe-aləmarayi - Abbasi" əsərinin doğma dilimizə tərcüməsi (Bakı, 2009), "Gəncə-

Qarabağ əyalətinin icmal dəftəri" (Bakı, 2010), "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri" (Bakı, 2010), "Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı. III cild. Xatirələr" Sənədlər toplusu (Bakı, 2010), "Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər). I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri" (Bakı, 2010), "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. II cild, I kitab. Gəncə quberniyası", "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı" və digər nəşrlər institut əməkdaşlarının Azərbaycan tarix elminə mühüm töhfələridir.

Azərbaycanın görkəmli orta əsr tarixçisi İsgəndər bəy Münşinin fars dilində yazdığı "Tarixe-aləmaraye-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərinin bütöv halda doğma dilimizdə işıq üzü görməsi Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda icra olunan "Azərbaycan tarixinə dair ilk mənbələrin nəşri" layihəsinin həyata keçirilməsi sayəsində əldə olunan növbəti uğur, həm də ən mühüm nailiyyətlərdən biridir.

İsgəndər bəy Münşinin adı yuxarıda qeyd olunan əsərinin ana dilinə çevrilərək geniş oxucu kütləsinə təqdim olunması, hər şeydən əvvəl, qədim tarixçilik ənənələrinə malik olan xalqımızın orta əsrlərdə də möhtəşəm tarix əsərləri yaratdığını sübut edir. Başqa sözlə, Azərbaycan xalqı A.A.Bakıxanovun "Gülüstani-İrəm"indən çox-çox əvvəl də tariximizə dair qiymətli ilk mənbələr yaratmaq ənənəsinə və bu cür ilk mənbələri ərsəyə gətirən İsgəndər bəy Münşi kimi görkəmli tarixçilər yetirmək dühasına malik olmuşdur.

Azərbaycanın orta əsrlər tarixini, xüsusilə Səfəvi imperiyasının tarixini araşdırmaq üçün son dərəcə qiymətli ilk mənbə olan "Tarixe-aləmaraye-Abbasi"nin doğma dilimizə bütöv halda tərcüməsi Azərbaycan tarix elminə çox mühüm töhfədir.

Yeri gəlmişkən, böyük Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin məşhur əsərinin ana dilimizə tərcüməsinin özü də bir tarixdir. Bu əsəri hələ 1939-1950-ci illərdə Muxtar Əfəndizadə, F.Babayev və A.Qasımov Azərbaycan dilinə çevirməyə təşəbbüs göstərmişlər. Hazırda "Tarixe-aləmaraye-Abbasi"nin Muxtar Əfəndizadə tərəfindən tərcümə edilmiş 285 səhifəsi, F.Babayev tərəfindən dilimizə çevrilmiş 102 səhifəsi və A.Qasımov tərəfindən tərcümə olunmuş 27 səhifəsi Tarix İnstitutunun Elmi Arxivində saxlanılır (Bax: inventar №№ 934,910, 2078).

Bu qiymətli əsərin dilimizə peşəkar tarixçilər tərəfindən çevrilməsinə hələ XX əsrin 50-ci illərində tarixçi alim Əbülhəsən Rəhmani tərəfindən başlanmışdı. Lakin Ə.Rəhmani bu qiymətli ilk mənbəyə ayrıca tədqiqat əsəri[1] həsr etsə də, nədənsə, tərcüməni başa çatdıra bilməmişdi.[2] Sonralar bu iş institutun elmi tədqiqat planına daxil edilmiş və İsgəndər bəy Münşinin məşhur əsərinin bütövlükdə deyil, yalnız Azərbaycana aid məlumatlarının tərcümə olunması qərara alınmışdı. Əlbəttə, bu yanlış qərar idi. Və qərar olaraq da qalırdı. Nəhayət, 2004-cü ildə Tarix İnstitunda rəhbərliyə başladıqdan sonra bizim təklifimizlə İnstitutun Elmi Şurası böyük Azərbaycan tarixçisinin "Tarixe-aləmaraye-Abbasi" əsərinin bütöv halda tərcümə olunmasını qərara aldı və həmin qərarın icrasına başlandı. Nəhayət, 2009-cu ildə "Tarixe-aləmaraye-Abbasi"nin Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü O.Ə.Əfəndiyev və onun yetirməsi N.S.Musalı tərəfindən tərcümə olunmuş başlanğıc hissəsi çapdan çıxdı.[3] Bu, əlbəttə, Səfəvi tarixinin öyrənilməsi işinə çox mühüm töhfədir.

Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru, professor Şahin Fərzəliyevin (Şahin Fazilin) oxuculara təqdim olunan bu tərcüməsi isə tam tərcümədir, daha doğrusu "Tarixe-aləmarayi-Abbasi"nin bütövlükdə tərcüməsidir.

"Dünyanı bəzəyən Abbasın tarixi"nin ("Tarixe-aləmaraye-Abbasi"nin) bütöv halda dilimizə çevrilməsi Azərbaycan tarix elminin mənbə bazasının zənginləşməsi baxımından çox mühüm hadisədir. Böyük Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin fars dilində yazdığı bu qiymətli əsərin müəllifin öz ana dilində nəşr olunması Azərbaycanın geniş oxucu kütlələrinin Səfəvi dövlətinin tarixi ilə bağlı biliklərini, məlumat dairəsini daha da genişləndirəcəkdir. Bu qiymətli ilk mənbə bizim üçün həm də ona görə dəyərlidir ki, orada yazılanlar xalqımızın tarixi barədə bizim öz tarixçimizin - Azərbaycan tarixçisinin yazdıqlarıdır.

---

[1] А.А. Рахмани. «Тарих – и алем арай-и Аббаси» как источник по истории Азербайджана. Баку, 1960.

[2] Ə.Rəhmaninin "Tarixe-aləmaraye-Abbasi"dən etdiyi tərcümənin bir hissəsi (cəmi 47 səhifə) AMEA Tarix İnstitutunun Elmi Arxivində saxlanılır (Bax: inventar № 49).

[3] O.Ə.Əfəndiyev və N.S.Musalı "Tarixe-aləmaraye-Abbasi" əsərini İran alimi İrəc Əfşarın nəşrindən tərcümə etmişlər. Bax: İsgəndər bəy Türkman Münşi. "Tarix-i aləmaray-i Abbasi" (Abbasın dünyanı bəzəyən tarixi), I cild, Bakı, 2009.

İsgəndər bəy Münşi öz dövrünün görkəmli alimlərindən biri idi. Hərtərəfli biliyə, geniş dünyagörüşlü İsgəndər bəy tarix sahəsində zəngin biliyə malik olmaqla yanaşı, həm də şair, nasir, xəttat idi. Hesab elminə də yiyələnmiş, musiqi sahəsi ilə də maraqlanmışdı. Farscanı, ərəbcəni mükəmməl bilirdi. 1560-1634-cü illərdə ömür sürmüş İsgəndər bəy gənc yaşlarında Səfəvi ordusunda xidmət etmiş, Azərbaycan qızılbaş döyüşçülərinin hərbi həyatını yaxından müşahidə edə bilmişdi. Sonralar Şah Abbas sarayında münşi vəzifəsində çalışmış İsgəndər bəy Münşi Səfəvi hökmdarını və onun vəziri Hatəm bəy Ordubadini bir çox hərbi səfərlərdə müşayiət etmiş, gördüklərini qələmə almış və "Tarixe-aləmaraye-Abbasi" adı ilə məşhur olan mükəmməl bir Səfəvi tarixi yaratmışdır.

"Tarixe-aləmaraye-Abbasi" üç cilddən ibarətdir. Əsərin I cildi 1571-1586, II cildi 1587-1616, III cildi isə 1617-1629-cu illəri əhatə edir və iki kitabda çap olunmuşdur.

Bu qiymətli əsərin yazılmasına müəllif ömrünün 14 ilini (1616-1629) həsr etmişdir.

"Tarixe-aləmaraye-Abbasi"nin əlyazmaları dünyanın müxtəlif ölkələrinin kitabxanalarında, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Dünya ölkələrinin bir çox məşhur tarixçiləri, o cümlədən Azərbaycan tarixçiləri Azərbaycan, Cənubi Qafqaz, İran və digər Yaxın və Orta Şərq ölkələrinin tarixindən bəhs edərkən İsgəndər bəy Münşiyə dönə-dönə istinad etmişlər. Bu qiymətli əsərin müxtəlif hissələri Osmanlı türkcəsinə, ingilis, rus və başqa dillərə də tərcümə olunmuşdur. İsgəndər bəy Münşinin "Tarixe-aləmaraye-Abbasi" əsəri Azərbaycan Səfəvi sülaləsinin və dövlətinin, bütövlükdə Səfəvi imperiyasının tarixini araşdırmaq üçün ən qiymətli ilk mənbədir. Əsərdə bəhs olunan hadisələrin böyük əksəriyyəti müəllifin şəxsi müşahidələrinə əsaslanır. Və real tarixi faktlardır. Səfəvi hökmdarı Böyük Şah Abbas Səfəvi imperiyasının tarixi torpaqlarını geri qaytarmaq üçün qalibiyyətli müharibələr apardığından Səfəvilərin hərbi-siyasi tarixini, xüsusilə Azərbaycan Səfəvi döyüşçülərinin cəngavərlik tarixini və xalqımızın hərbi sərkərdəlik keçmişini öyrənmək üçün "Tarixe-aləmaraye-Abbasi" əsəri misilsiz ilk mənbədir. Xüsusilə ona görə ki, İsgəndər bəy Münşi sadəcə olaraq salnaməçi deyildi. O, qələmə aldığı mövzuya ilahi bir münasibət bəsləyir, "Quran" ayələrindən faydalanır, hər hansı bir hadisədən bəhs edərkən özündən əvəlki

müəlliflərə də müraciət edir, onlardan iqtibaslar gətirir, yeri gəldikdə müqayisələr aparır, qələmə aldığı hadisələri və faktları təhlil edir. Bütün əsər boyu verdiyi çoxsaylı şeir parçaları, zərbi-məsəllər onun həm də istedadlı şair və xalq həyatının mahir bilicisi olduğunu göstərir.

Məsələn, İsgəndər bəy Münşi yüzillərlə müxtəlif Azərbaycan dövlətlərinin paytaxtı olmuş Təbriz barədə, bütövlükdə Azərbaycan haqqında çox qiymətli məlumatlar verir. O, qeyd edir ki, Təbriz "uzun müddət fərman verən padşahların səltənət mərkəzi olmuşdur" ("Dünyanı bəzəyən Abbasın tarixi", Şahin Fazilin əlyazması səh. 560). Təbrizin "abadlığı və əhalisinin sayı elə bir həddə gəlib çatmışdı ki, bütün İslam şəhərləri arasında onun kimi əzəmətli, əhalisi çox olan və abad yer yox idi"("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 561). Bir çox ilk mənbələr kimi "Tarixe-aləmaraye-Abbasi" əsərində də vurğulanır ki, Azərbaycan bütövlükdə "İranın", yəni Səfəvi imperiyasının əsas güc qaynağı idi ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 561). İsgəndər bəy Münşi qeyd edir ki, Azərbaycan bütün "İran məmləkətinin əsas ləşkər (hərbi qüvvə - Y.M.) yığımı mərkəzidir" ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 558). Bu məlumat hərb tariximizi öyrənmək üçün çox qiymətli tarixi faktdır.

İsgəndər bəy Münşi Azərbaycanın digər şəhərləri və tarixi yerləri barədə də olduqca maraqlı məlumatlar verir. O, Şəki şəhəri və Şəki bölgəsindən bəhs edərkən "olduqca uca və möhkəm qala" olan Gələsən-Görəsən qalasından bəhs edir və yazır ki, "hələ şövkət sahiblərinin heç biri bu qalanı fəth edə bilməyib" ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 163). İsgəndər bəy Münşi dədə-babadan Şəkini idarə edən "Şirvanşahiyyə kökündən olan" Həsən bəydən və Şəki hakimliyindən bəhs edərkən bu diyarın möhkəm qalaları içərisində Sığnaq qalasının da adını çəkir, Şah Təhmasibin özünün məşhur sərkərdələrindən birini - möhürdar Şahqulu Sultan Ustaclını "qüvvətli döyüşçülərdən ibarət bir dəstə ilə Sığnaq qalasını fəth etmək üçün göndərdiyini" qeyd edir ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 163).

İsgəndər bəy Münşinin "Tarixe-aləmaraye-Abbasi" əsərində Şirvan haqqında, xüsusilə Şah Təhmasibin 1538-ci ildə Şirvana yürüşü barədə, "Şirvanın ən möhkəm qalası" olan Gülüstan qalası müdafiəçilərinin Səfəvi hərbi qüvvələrinə qəhrəmancasına

müqavimət göstərməsinə dair çox maraqlı məlumatlar vardır ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 158).

"Tarixe-aləmaraye-Abbasi"də Dərbənd səddi ("İsgəndər səddi"), Narınqala, Dərbənd şəhəri barədə də maraqlı məlumatlar vardır. İsgəndər bəy Münşi qədim Azərbaycan şəhəri olan Dərbəndi, haqlı olaraq, "Şirvan Dərbəndi" adlandırır ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 487).

İsgəndər bəy Münşinin Naxçıvan, Ordubad, Şamaxı şəhərləri, Bakı qalası, Lənkəran, Şindan qalası, Qəhqəhə qalası və digər şəhərlərimiz, qalalarımız haqqındakı məlumatları olduqca maraqlıdır.

"Tarixe-aləmaraye-Abbasi" əsərinin çox qabarıq nəzərə çarpan xüsusiyyətlərindən biri də budur ki, onun müəllifi İsgəndər bəy Münşi öz əsərini zamanın tələbi ilə farsca yazsa da, müəllif bütün əsər boyu doğma Azərbaycanına sonsuz məhəbbət bəslədiyini oxuculara açıq-aydın hiss etdirir. İsgəndər bəy öz əsərində onun üçün doğma olan dahi Azərbaycan şairi Nizami Gəncəviyə tez-tez müraciət edir, onu "ariflərin ən böyüyü, adlı-sanlı Şeyx Nizami" adlandırır ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 278), dahi şairimizdən tez-tez beytlər gətirir. Və yaxud böyük Azərbaycan şairi Əfzələddin Xaqanidən bəhs edərkən yazır ki, Əfzələddin Xaqani Məhuçöhrü mədh etdiyi üçün özünə "Xaqani" təxəllüsü götürmüşdür. İsgəndər bəy Münşi digər bir məlumatında isə Şeyx Səfiəddin Səfəvi ilə İran şairi Şeyx Müslihiddin Sədi Şirazinin görüşündən bəhs edir və azərbaycanlı şeyxinin iranlı şeyxdən razı qalmadığını qeyd edir: "Şeyx Səfiəddin Şeyx Müslihiddin Sədi ilə söhbət etdi, amma onunla həmsöhbət olmaqdan xoşlanmadı" ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 28).

"Tarixe-aləmaraye-Abbasi"nin Azərbaycanla bağlı məlumatları içərisində Ordubad, Nəsirəddin Tusi və Hatəm bəy Ordubadi haqqında yazdıqları da tarixi keçmişimizin doğru-düzgün öyrənilməsi baxımından çox qiymətlidir. Qədim Azərbaycan şəhəri Ordubaddan ürəkdolusu söhbət açan İsgəndər bəy Münşi bu diyarı "bütün aləmdə məşhur olan cənnətməkan" adlandırır, Səfəvi-Osmanlı müharibələri zamanı işğalçılara dəfələrlə müqavimət göstərdiyi üçün Ordubadın hədsiz dağıntılara məruz qaldığını və buna görə də Böyük Şah Abbas tərəfindən bütün dövlət vergilərindən azad olunduğunu qeyd edir.

İsgəndər bəy Münşi öz əsərində Azərbaycan xalqının dahi oğlu "bəşəriyyətin ustadı", "millətin və dinin himayəçisi" Nəsirəddin Tusinin və böyük dövlət xadimi, Böyük Şah Abbasın baş vəziri Hatəm bəy Ordubadinin də məhz Ordubaddan olduqlarını xüsusi olaraq vurğulayır ("Dünyanı bəzəyən Abbasın tarixi", səh. 791).

Əlbəttə, böyük Azərbaycan tarixçisinin Azərbaycan-Səfəvi hökmdarı Böyük Şah Abbasın şərəfinə yazdığı "Tarixe-aləmaraye-Abbasi" kimi çox mötəbər bir tarixi mənbədə dahi Nəsirəddin Tusinin və böyük dövlət xadimi Hatəm bəy Ordubadinin Azərbaycan xalqının övladları olmasına dair tarixi həqiqətin təsdiq olunması Azərbaycan tarixinə çox qiymətli töhfədir.

"Tarixe-aləmaraye-Abbasi"nin bir ilk mənbə kimi digər bir xüsusiyyəti də Azərbaycan oxucusu üçün maraqlıdır. İsgəndər bəy Münşi öz əsərində yeri gəldikcə, daha doğrusu qələmə aldığı hadisəni fars dilində sərrast mənalandırmaq mümkün olmadıqda, öz doğma dilinə - Azərbaycan türkcəsinə müraciət edir. Və bununla həm doğma dilinin üstünlüklərini, həm də özünün milli mənsubiyyətini nəzərə çapdırır.

Bir sözlə, xalqımıza məxsus olan "Tarixe-aləmaraye-Abbasi" kimi qiymətli bir ilk mənbənin doğma dilimizdə bütövlükdə nəşr olunması tarix elmimizə çox mühüm töhfədir. Və bu töhfə oxucularda, keçmişimizlə maraqlanan hər kəsdə doğma tariximizə sevgini daha da artıracaqdır.

Bir neçə söz bu böyük, olduqca əhəmiyyətli və son dərəcə ağır işi başa çatdıran Şahin Fərzəliyev (Şahin Fazil) haqqında. Şahin ölkəmizdə fars dilinin ən yaxşı bilicilərindəndir. İxtisasca şərqşünasdır. Tarix elmləri doktorudur. Professordur. Tərcümə etdiyi əsərdə bəhs olunan dövrlə bağlı qiymətli tədqiqat əsərlərinin müəllifidir. Ömrünün 13 ilini Əfqanıstanda yaşamış, tərcüməçilik etmişdir. Əfqanıstanın dövlət medalları ilə təltif olunmuşdur. Şahin həm də görkəmli qəzəlxanımızdır. Onlarla şeir kitabı, bir neçə divanı və poemaları var. Azərbaycan şairlərinin əsərlərini farscaya çevirərək Kabulda, əfqan şair və yazıçılarının əsərlərini isə Azərbaycan dilinə çevirərək Bakıda nəşr etdirmişdir. Şahin Fazil bir sıra beynəlxalq elmi məclislərdə tariximizin ayrı-ayrı məsələlərinə həsr olunmuş məruzələrlə çıxış etmişdir.

Şübhə etmirəm ki, böyük tarixçimiz İsgəndər bəy Münşinin "Tarixe-aləmaraye-Abbasi" əsərinin bütöv halda doğma dilimizdə ilk nəşri tarix elmimizin tarixində mühüm hadisədir. Və "Tarixe-

aləmaraye-Abbasi"nin ölkəmizdə fars dilinin ən yaxşı bilicilərindən olan görkəmli alimlərimiz akademik Vasim Məmmədəliyev, tarix elmləri doktoru, professor Vaqif Piriyev və filologiya üzrə fəlsəfə doktoru, dosent Tofiq Cahangirovun yüksək qiymət verdikləri Şahin Fazil tərcüməsi uzunömürlü olacaqdır.

Yaqub Mahmudov
Əməkdar elm xadimi,
AMEA-mn müxbir üzvü,
tarix elmləri doktoru, professor

TƏRCÜMƏÇİDƏN

Təxəllüsü vəzifəsinə uyğun "Münşi", özü isə Azərbaycan türklərinin türkman tayfasına mənsub olan İsgəndər bəy Münşi (1560-1634), şərqşünaslıq aləmində çox tanınan müəlliflərdəndir və o, bu şöhrətə məhz ilk Səfəvilərin, xüsusilə Şah Abbasın tarixini əks etdirən "Tarixe-aləmaraye-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") adlı əsərini yazmaqla yetişmişdir.

1560-cı ildə doğulan, gənclik illərində "dövlət qulluqçuları"na ("ərbabi-dövlət") qulluq edən, 26 yaşından etibarən səfəvi sarayında münşi (katib) olan və 74 il ömür sürən bu tarixçi, şair, xəttat və münəccim yaşadığı dövrdə baş vermiş bir çox hadisələri şəxsən müşahidə edərək onları öz kitabında əks etdirmişdir. Artıq bir neçə əsrdir ki, "Tarixe-aləmaraye-Abbasi" əsərindən, demək olar ki, dünyanın bütün şərqşünaslıq mərkəzlərində geniş istifadə olunur. Mirzə Fətəli Axundov "Aldanmış kəvakib" əsərini məhz bu kitabın bir süjetindən əxz etmişdir.

XVI əsr və XVII əsrin ilk 30 ilində Azərbaycanın ictimai, iqtisadi, siyasi, mədəni, diplomatik, ideoloji həyatında baş verən hadisələr İsgəndər bəy Münşinin ilkin mənbə kimi son dərəcə qiymətli olan bu əsərində ətraflı işıqlandırılmışdır. Buna görə də AMEA A.Bakıxanov adına Tarix İnstitutu böyük tarixçimizin qələmindən çıxmış "Tarixe-aləmaraye-Abbasi" kitabını bütünlüklə fars dilindən Azərbaycan dilinə çevirmək və onu oxuculara təqdim etmək qərarına gəldi. Olduqca böyük zəhmət tələb edən bu iş artıq yerinə yetirilmişdir və fəxr edirəm ki, mənə olunan təklifə əməl etmişəm. Əsər 3 dibaçəni, 1 xatiməni[4], habelə bir neçə "səhifə" ("cild") və "məqsəd"i əhatə edən mürəkkəb bir kitabdır.

[4] Qeyd: "Tarixe-aləmaraye-Abbasi" əsərində müəllif "xatimə" adlanacaq gələcək hissədən söz açaraq yazır: "Xatimə-köhnə kitablardan oxuduğum və həyatım boyu müşahidə etdiyim qəribə hekayətlər, maraqlı rəvayətlər və dövranın nadir hadisələri haqqındadır. İnşallah, əgər ömür vəfa edərsə, o hissə üçüncü cilddə yazılacaqdır "(Bax: İsgəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi", I kitab, Tehran, hicri 1382 (miladi 2003), Şahin Fazil tərcüməsi, səh. 16). Görünür ki, İsgəndər bəy kitabının yazılmasını nəzərdə tutduğu "Xatimə" hissəsini yazmamışdır, çünki biz də kitabda həmin hissəyə təsadüf etmədik. Bu fikri "Tarixe-aləmaraye-Abbasi" kitabı haqqında məlumat verən ÇA.Stori (Bax: Ч.А.Стори. Персидская литература. Био-библиографический обзор. Переработал и дополнил Ю.Э.Брегель, часть II, Москва, 1972, с. 875), həmçinin İsgəndər bəy Münşinin kitabının I cildini fars

İsgəndər bəyin planına görə demək olar ki, "Tarixe-aləmaraye-Abbasi" 3 "cild"ə, 12 "Məqalə"yə və müxtəlif fəsillərə (zikr, şərh, goftar) bölünməli idi. Kitabı nəşrə hazırlayan və çap edən İran tədqiqatçısı İrəc Əfşar həcmcə qeyri-bərabər 3 cilddən (səhifədən) ibarət olan bu tarixi salnaməni oxuculara 2 hissədə (bəxş) təqdim etməsinin səbəbini belə izah edir: "Bu kitabın cildlərinin bərabər həcmdə olmaması səbəbindəndir ki, onun birinci səhifəsi və ikinci səhifəsinin yarısı I hissədə, ikinci səhifənin ikinci yarısı və üçüncü səhifə isə göstəricilərlə birlikdə II hissədə çap olunmuşdur". Qeyd olunmalıdır ki, İsgəndər bəy Münşi tərəfindən "Müqəddimə", "Məqalə" və "Səhifə" adlandırılan ifadələr hcç də bizim qəbul etdiyimiz mənada bir neçə vərəqdən ibarət yazı anlayışına uyğun gəlmir və kitabın hər iki hissəsini əhatə edir.

İsgəndər bəyin özü şair olduğu üçün kitabında özündən və başqa şairlərdən yüzlərlə beytdən ibarət məsnəvi, nəzm, qitə, rübai, maddeyi-tarix və s. poetik nümunələr vermişdir. Onun müxtəlif hadisələrlə əlaqədar misal gətirdiyi şeir parçaları içərisində bizim Nizami Gəncəvidən və məşhur İran şairi Əbülqasim Firdovsidən çoxsaylı beytlər mövcuddur. "Tarixe-aləmaraye-Abbasi"də dəfələrlə Quran ayələri misal gətirilmiş, bəzi tarixi mənbələrdən istifadə olunmuş və zərbül məsəllərdən nümunələr verilmişdir.

Hər şeydən əvvəl qeyd etmək istərdim ki, bu tərcümə işi əsərin İran tarixçisi İrəc Əfşar tərəfindən çap olunan hicri tarix ilə 1382-ci il (miladi 2003) üçüncü nəşri əsas götürülməklə yerinə yetirilmişdir.[5]

Görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşi Türkman haqqında ölkəmizdə ilk dolğun məlumatı mərhum həmkanmız, tarix elmləri doktoru Əbülhəsən Əli oğlu Rəhmani vermişdir.[6] İsgəndər bəyin özünü və sözünü qiymətləndirən və əsərindən istifadə edən bir sıra tədqiqatçılar olmuşdur (məs., Süheyli

---

dilindən azərbaycancaya çevirən Oqtay Əfəndiyev və Namiq Musalı (Bax: İsgəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi"), I cild, Bakı, 2009, səh. 36) da qeyd etmişlər. Lakin III cildin sonunda "Kitabın xətmi haqqında bir neçə kəlmə (fəqərə)" adlanan kiçik bir "xatimə" vardır ki, bu "xatimə" İsgəndər bəyin yazmasını nəzərdə tutduğu "Xatimə" deyildir.

[5] İsgəndər bəy Türkman. Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), I və II hissələr, Tehran, h. 1382 (m. 2003).

[6] А.А.Рахмани. "Тарих-и алам арай-и Аббаси" как источник по истории Азербайджана. Баку, 1960, с. 8-15.

Xansari, Nəsrullah Fəlsəfi, Rzazadə Şəfəq, İ.RPetruşevski, O.Ə.Əfəndiyev, M.X.Heydərov, S.M.Onullahi, Ş.F.Fərzəliyev, Ş.K.Məmmədova və başqaları), lakin bir daha qeyd etməliyəm ki, Ə.Ə.Rəhmaninin ilk tədqiqat işi məhz İsgəndər bəy Münşinin qələmindən çıxan və bu salnaməçinin yaşadığı dövr tarixinin ilkin mənbəyi olan "Tarixe-aləmaraye-Abbasi"nin ("Dünyanı bəzəyən Abbasın tarixi") tədqiqinə yönəldiyindən o, bu haqda daha çox yazmış, nəticədə özündən sonra mühüm bir monoqrafik əsər yadigar qoymuşdur.

1560-cı ildə Azərbaycanın "türkman" adlı türk qəbiləsində dünyaya göz açan İsgəndər bəy gənc yaşlarından mühasibat (siyaq) elmi işlə məşğul olmuş, səfəvi hökmdarı Şah Məhəmməd Xudabəndənin (hakimiyyət illəri 1578-1587) süvari qulamlar xidmətinə qatılmış, 32-33 yaşında I Şah Abbas Səfəvinin (hakimiyyət illəri 1587-1629) münşilərindən (katib) biri kimi ali divanda işləməyə başlamışdır. Ə.Rəhmaninin gəldiyi qənaətə görə, onun bir münşi kimi saray xidmətinə cəlb edilməsində Səfəvilər dövlətinin etimadlısı (etimadüddövləsi), həmyerlimiz Hatəm bəy Ordubadinin rolu olmuşdur. "Tarixe-aləmaraye-Abbasi"də İsgəndər bəylə Hatəm bəy arasında olan dostluq münasibəti barədə dəfələrlə məlumat verilmişdir.

Qeyd olunmalıdır ki, İsgəndər bəy gənc yaşında ikən bir döyüşdə də iştirak etmişdir. Şah Məhəmməd Xudabəndənin oğlu Həmzə Mirzə Səfəvinin üsyankar əmirlərlə qarşıdurmasına həsr olunmuş hissədə (hicri 995/miladi 1586) müəllif yazır ki, onun 26 yaşı olarkən könüllü olaraq şah dəftərxanasını tərk edir, əyninə zirehli paltar geyinir, silaha sarılır və Həmzə Mirzənin döyüşçü dəstəsinə qoşulur. Əsərdə oxuyuruq: "Bu sətirlərin müəllifi deyir ki, o zaman ömrünün həyat mərhələlərindən iyirmi altısı ötmüşdür və o, nəvvab şahzadənin qələm ərbabı silkindən olub, divana mənsub şəxslərdən biri idi, iyirmi altı yaşlı adamlara xas olan nəfs cəhaləti və dərrakəsizlik üzündən əyninə zireh geyinib, silaha sarılıb, sivri nizə tutub, igidlik ərbabı zümrəsinə daxil olub, nəvvab şahzadənin xidmətindən ayrılıb fəthə qədər onunla birlikdə oldu, hadisələri öz gözləri ilə gördü, gördüyü kimi də yazdı."[7]

[7] İsgəndər bəy Türkman. Tarixe-aləmaraye-Abbasi, Şahin Fazil tərcüməsi, I hissə, səh. 609.

İsgəndər bəy mənşə etibarilə kimdir? Onun əslən azərbaycanlı olmasının sübata heç bir ehtiyacı yoxdur. Lakin ingilis tədqiqatçısı Ç.A.Stori "Fars ədəbiyyatı" adlı bio-biblioqrafik kitabında tarixçi Əbülhəsən bəy İbrahim Qəzvininin "Fəvaide-səfəviyyə" ("Səfəvilərin faydaları") adlı tarix əsərinə əsaslanaraq[8] "Tarixe-aləmaraye-Abbasi" müəllifini "İsgəndər əş-şəhir bi Monşi", yəni "Münşi kimi məşhur olan İsgəndər" adlandırır. Ç.Storiyə görə, İsgəndər h. 969 (m. 1561/62)-ci ildə doğulmuşdur. Alimin gətirdiyi bu doğum tarixinin təshihə ehtiyacı vardır. Tədqiqatçılardan Y.E.Breqel və N.D.Mikluxo-Maklay yuxarıda göstərilən 1561/62-ci il tarixini dəstəklədikləri halda, İrəc Əfşar, O.Əfəndiyev, Ə.Rəhmani, S.Onullahi, Ş.Fərzəliyev və başqaları İsgəndər bəyin 1560-cı ildə doğulduğunu yazmışlar.[9] Sonralar O.Əfəndiyev və N.Musalı müəllifin öz materiallarından istifadə edərək, onun təvəllüdünün 1560/61-ci ilə təsadüf etdiyini bildirmişlər.[10]

Ç.Stori İsgəndər bəyin əsil-nəcabəti haqqında "ehtimal ki, heç nə məlum deyildir" yazır.[11] Doğrudur, İsgəndər bəyin özü də bu haqda heç nə demir. Orta əsr salnaməçiləri, ümumiyyətlə, özləri haqqında xəsisliklə məlumat verirlər, Amma bizim tarixçinin adına əlavə olunan və mənşəcə kimliyini bildirən "türkman" ifadəsi məgər onun məşhur türk tayfalarından birinə mənsubluğunun sübutu deyilmi? Axı azərbaycanlıların etnogenezisində fəal iştirak etmiş türkman tayfası XV-XVII əsrlər tariximizin dövlət quruculuğu sahəsində böyük nüfuz və fəaliyyətə malik olmuş, müstəsna xidmət göstərmişdir. Səlcuqilərin tərkibində İrana, Azərbaycana və Kiçik Asiya torpaqlarına gələn türkmanlar sonralar tərəfdarı olduqları ağqoyunlulardan ayrılaraq qızılbaş tayfa birliyinin yaranmasında fəal iştirak etmişlər. Məgər Cənubi Azərbaycandakı Türkman, Türkmançay (bu toponim bizim ədəbiyyatımızda bu günədək səhvən

[8] Ч.А.Стори. Персидская литература. Био-библиографической обзор. Переработал и дополнил. Ю.Э. Бретель, Москва 1972, Часть III, с. 1741.

[9] İsgəndər bəy Türkman. Göst.əsər, I hissə. İrəc Əfşarın müqəddiməsi, səh. 15; Октан Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, Баку, 1981, с. 24; А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, Баку, 1981, с. 6.; S.M.Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi, Bakı, 1982, s. 17; Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə, II nəşr, Bakı, 1999, səh. 18.

[10] İsgəndər bəy Münşi. Tarixe-aləmaraye Abbasi (Abbasın dünyanı bəzəyən tarixi), Fars dilindən tərcümə edənlər Oqtay Əfəndiyev və Namiq Musalı, Bakı, 2009, səh. 4.

[11] Yenə orada, II hissə, s. 873.

"Türkmənçay" kimi yazılır - Ş.F.), Türkmankəndi, eləcə də Göyçay və Bərdə rayonlarındakı türkman kəndləri[12] "türkman" toponimi ilə müstəqil əlaqədar deyilmi? Bugünkü İranda 60 min nəfərdən çox türkmanın (!) yaşadığı da məlumdur.[13] Türkman tayfa üzvləri haqqında belə məlumatların olması İsgəndər bəy Türkmanın mənşəyinin türk olması xüsusunda heç bir sorğu-sual doğurmur. Belə olan halda, qətiyyətlə deyə bilərik ki, "Tarixe-aləmaraye-Abbasi" kitabının müəllifi İsgəndər bəy Münşi Türkman azərbaycanlıdır!!!

Şah Abbas məiyyətinin tərkibində müxtəlif səfərlərə və hərbi yürüşlərə çıxan İsgəndər bəy əsasən İsfahanda yaşamışdır. Onun ailəsi və övladları haqqında da əsərində məlumat yoxdur, amma müəllif özünün ən yaxın qohumu kimi qardaşı oğlu Məhəmməd Salehi tərifləyir və bu şairin şerlərindən misallar gətirir ki, bu haqda aşağıda məlumat verəcəyik.

İsgəndər bəy Şah Abbasla birlikdə Azərbaycanın, demək olar ki, bütün böyük şəhərlərində, o cümlədən Təbriz, Ərdəbil, Naxçıvan, Əhər, Xoy, Maku, Gəncə, Ordubad, Şamaxı, Bakıda olmuş, öz münşilik fəaliyyətinə uyğun tapşırıqları yerinə yetirmişdir.

Bəzi müəlliflərə görə, İsgəndər bəy 1629-cu ildə vəfat etmişdir. Bu tarixin səhv olduğunu bildirən Ə.Rəhmani tarixçinin 1634-cü ildə öldüyünü göstərir ki, bu fikir həqiqətə tam uyğundur, çünki yazdığı "Tarixe-aləmaraye-Abbasi"dən başqa, onun yenə də fars dilində yazdığı "Kitabe-tərəssol min münşəate-Xacə İsgəndər bəy Münşi" ("Xacə İsgəndər bəy Münşi tərəfindən yazılan sənədlər kitabı") və "Zeyle-tarixe aləmaraye-Abbasi" ("Dünyanı işıqlandıran Abbasın tarixinin ardı") kimi daha iki əsəri qələmə alınmışdır[14] ki, "Zeyl...", əlbəttə, birinci kitabından sonra yazılmışdır.

İsgəndər bəy səfəvi hökmdarları tarixinə həsr etdiyi öz məşhur əsərini iki variant halında hazırlamışdır. I variant hicri tarix ilə 1025-ci ildə (miladi 1616) tamamlanmış, II variant isə hicri 1038-ci ildə (miladi 1629) bitirilmişdir. Variantların birincisi həcm etibarilə çox böyük olan və 12 məqaləyə bölünən "Müqəddimə"ni

[12] Azərbaycan Sovet Ensiklopediyası, c. IX, Bakı, 1986, səh. 402.
[13] D-r Məhəmməd Moin. Fərhənge-farsi, c. V, Tehran, h. 1378, səh. 387.
[14] Ç.A.Stori. Göst. əsər. II hissə, s. 873-874; Ə.Rəhmani. Göst. əsər, səh. 17.

və müəllif tərəfindən "Səhifə" adlanan iki cildi əhatə edir. Variantların ikincisi isə yenə "Səhifə" adlanan üç cildi əhatə edir ki, I cilddə 12 məqalə əks olunur, lakin qədim Tehran nüsxəsinə əsasən İrəc Əfşar "Tarixe-aləmaraye-Abbasi"nin I məqaləsini sonrakı 2-12-ci məqalələrdən ayırmış və həmin 11 məqalə kitabın ikinci hissəsinin 1099-1116-cı səhifələrində verilmişdir.

Birinci məqalə səfəvilərin Şah Abbasa qədərki nəsil şəcərəsini və ondan əvvəlki 4 səfəvi hökmdarının (I Şah İsmayıl, I Şah Təhmasib, II Şah İsmayıl və Şah Məhəmməd Xudabəndə) tarixçəsini, qalan 11 məqalə isə birinci məqalə kimi müfəssəl olmadan tam yığcam şəkildə Şah Abbasın fərdi xüsusiyyətlərini, habelə quruculuq işlərini və hərbi-siyasi fəaliyyətini əhatə edir.[15] Həmin 11 məqalənin hamısı Şah Abbas ömrünün 38 və 39-cu illərini əhatə edən hicri 1033 (miladi 1624)-cü ildən sonra yazılmışdır.[16] Möhtərəm oxucu, indi isə həmin 11 məqalənin təkcə sərlövhələrinə diqqət yetirmək müəllifin Şah Abbasa olan böyük məhəbbət və ehtiramının inikası kimi diqqətəlayiqdir. İsgəndər bəy onların adlarını bir-bir belə sadalayır və onlara bir neçə səhifə ayırrr:

İkinci məqalə: O həzrətin (Şah Abbasın - Ş.F.) Allah dərgahına diqqət və hədsiz bağlılığının (esteğraq) zikridir;

Üçüncü məqalə: [O həzrətdə] təqdir səhifəsinə uyğun ilahi məhəbbət və biliyin oturuşu (esabat), habelə gördüyü işlərin gözəlliyi haqqında;

Dördüncü məqalə: [O həzrətə verilən] sahibqranlıq rütbəsinin ləyaqəti, baş verən təhlükələrin və xoş sonluqla başa çatan səadətli qranların (ulduzların nəhslik və bədbəxtliklərindən qurtulma - Ş.F) zikri;

Beşinci məqalə: [O həzrət tərəfindən] ədalətpərvərliyin, yolların əmniyyətinin və insanların yaşayış şəraitinin yüksəldilməsi barədə;

Altıncı məqalə: [O həzrət tərəfindən] ilahi hikmətlərdən olan sərt hökmlərin icrası haqqında;

Yeddinci məqalə: [O] həzrətin cahandarlıq tərzi (ayin) və hökmranlıq etmə qaydaları haqqında;

---

[15] Ç.A.Stori. Göst. əsər, II hissə, s. 874; İsgəndər bəy Münşi. Tarixe-aləmaraye-Abbasi (Oqtay Əfəndiyev və Namiq Musalı tərcüməsi), səh. 9.

[16] İsgəndər bəy Türkman. Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), Müqəddimə, səh. 18.

Səkkizinci məqalə: O həzrətə xas anlaşılmaz xasiyyəti (bitəəyyoni), dərvişanə xisləti (dərvişnehadi), xudbin olmaması (bitəkəllofi) və onda iki təzadlı xüsusiyyətin mövcudluğu haqqında;

Doqquzuncu məqalə: [O həzrətin] xidmətkarların hüquqi haqlarını qoruması və onların mülkiyyətlərinə toxunmamasının zikri;

Onuncu məqalə: [O həzrətin] xoş xisləti (şəkoftətəbi), onun aləmdəki vəziyyət və ümmət təbəqələri ilə tanışlığı haqqında;

On birinci məqalə: O həzrət tərəfindən xeyriyyə təsisatları və imarətlər inşasının zikri;

On ikinci məqalə: [O həzrətin] Humayun hakimiyyəti vaxtı baş verən hadisələr, müharibələr və qələbələrin zikri."[17]

Qeyd olunmalıdır ki, yuxarıdakı on bir məqalənin sərlövhələri "Fars ədəbiyyatı" kitabında olduqca yığcam tərcümə olunmuşdur.[18]

"Tarixe-aləmaraye-Abbasi" kitabının I cildini bitirən müəllif II cildi davam etdirməyə başlayır və onun qələmi Şah Abbasın taxta cülusundan başlayaraq onun hakimiyyətinin ilk otuz ilini yazmağa yönəlir (1587-1616-cı illər). III cild isə 1629-cu ilədək davam edir.

İsgəndər bəy Münşi mükəmməl savada malik şəxs olmuşdur ki, bunu onun qələmindən çıxan hər cümlə sübut edir. Siyasi hadisələr haqqında nisbətən asan və hamının başa düşəcəyi bir dillə yazmışdır, qalan məsələlər isə (elmi, iqtisadi, dini-ideoloji, diplomatik və s.) olduqca qəliz söz, cümlə və ibarələrlə ifadə olunmuşdur. Kitabı oxuyarkən səfəvi sarayının görkəmli münşisi olan İsgəndər bəy həm də şeri, musiqini, yaşadığı dövrün rəvacda olan elmlərini mükəmməl bilən bir sima kimi nəzəri cəlb edir.

İsgəndər bəy Münşinin qələmə aldığı bu məlum mənbənin müxtəlif əlyazma nüsxələri (tam, yaxud hissələrlə) dünyanın bir çox ölkələrindəki kitabxanalarda hifz olunmaqdadır. "Fars ədəbiyyatı" kitabının məlumatına əsasən bilmək olur ki, bir çox məşhur şəhərlərdə (Moskva, Leninqrad, Daşkənd, İstanbul, Edinburq, Kabul, Bağdad, Tehran, Berlin, İrəvan, Lahur, Pəncab, Məşhəd,

[17] Tarixe-aləmaraye-Abbasi (Şahin Fazil tərcüməsi), Bakı, 2010, səh. 676-710.
[18] Ç.A.Stori. Göst. əsər, II hissə, səh. 874-875.

Aliqarx, Qahirə, Mədrəs, Bakı, Tiflis, İsfahan və s.) bu məşhur kitabın müxtəlif nüsxələri vardır.[19]

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Tarixe-aləmaraye-Abbasi"nin iki cildini əhatə edən dörd əlyazma nüsxəsi mövcuddur.[20]

İsgəndər bəy Münşinin kitabı yazıldığı vaxtdan başlayaraq məşhurlaşmış və dəfələrlə nəşr olunmuşdur. Əsərin ayrı-ayrı hissələri hələ XIX əsrdə rus şərqşünasları B.Dorn və V. V.Velyaminov-Zernov tərəfindən tərcümə və dərc olunmuşdur.[21] Mənbə tam olaraq 1896-cı ildə İranda Mirzə Şərif adlı şəxs tərəfindən üç cilddən ibarət litoqrafik şəkildə çap olunmuşdur.[22] 1555-1556-cı illərdə əsər tədqiqatçı İrəc Əfşarın redaktəsi ilə iki kitaba sığışdırılaraq üç cild halında çap olundu, az sonra isə həmin nəşr daha iki dəfə /1971, 2003/ Tehranda işıq üzü görmüşdür.[23] 1985-ci ildə İranda Şahrudi "Tarixe-aləmaraye-Abbasi"nin daşbasına mətnini bir kitab şəklində ofset üsulu ilə təkrar çap etdi, 1998-ci ildə isə Məhəmməd İsmayıl Rizvani də mənbənin litoqrafik mətni əsas götürülməklə onu üç cilddən ibarət çap etdirdi.[24] "Fars ədəbiyyatı" kitabında verilən məlumata görə "Tarixe-aləmaraye-Abbasi" əsəri hələ 1718-1730-cu illərdə Osmanlı dövlətinin baş vəziri Damad İbrahim paşanın əmrinə görə müdərris Məhəmməd Nəbih Əfəndi tərəfindən osmanlı dilinə tərcümə olunmuşdur.[25] O.Əfəndiyev və N.Musalı həmin tərcümənin əlyazma nüsxəsinin hazırda İstanbulun Topqapı sarayında hifz olunduğunu bildirirlər.[26] Lakin digər bir məlumata görə Türk Tarix Kurumu Kitabxanasında (şifr № Ter./51) mənbənin türk dilinə başqa bir tərcümə variantı da

[19] Ç.A.Stori. Göst. əsər, II hissə, səh. 875-881.
[20] Tarix-i aləmaray-i Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi), Ön söz, səh. 11-12.
[21] Ç.A.Stori. Göst. əsər, II hissə, s. 880. Tarixe-aləmaraye-Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi), Ön söz, səh. 14.
[22] Tarix-i aləmaray-i Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi) Ön söz, səh. 14.
[23] Tarix-i aləmaray-i Abbasi (İrəc Əfşar nəşri), I cild, səh. 6; Tarixe-aləmaraye-Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi), Ön söz, s. 14.
[24] Tarix-i aləmaray-i Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi), Ön söz, səh. 14-15.
[25] Ç.A.Stori. Göst. əsər, II hissə, səh. 881.
[26] Tarix-i aləmaray-i Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi), Ön söz, səh. 15.

mövcuddur ki, 1944-1945-ci illərdə Əli Gəncəli tərəfindən tərcümə edilmişdir.[27]

Mənbənin I cildindəki I Şah Təhmasib dövründə yaşayıb-yaradan məşhur xəttatlara həsr olunmuş 7 səhifədən ibarət kiçik bir hissə isə tədqiqatçı O.F.Akimuşkin tərəfindən rus dilinə çevrilmiş və onun yazdığı məqaləyə daxil edilmişdir.[28] Mənbənin mətnindən Türkmənistan tarixinə dair iqtibaslar 1938-ci ildə A.A.Romaskeviçin redaktəsi altında rus dilinə tərcümə olunmuşdur.[29] O.Ə.Əfəndiyev "Azərbaycan Səfəvilər dövləti XVI əsrdə" adlı monoqrafiyasında İsgəndər bəy Münşinin I Şah Təhmasib dövrünün sonundakı qızılbaş əmirlərinə həsr etdiyi cəmi iki səhifəlik bir parçanın rus dilinə tərcüməsini vermişdir.[30] "Tarixe-aləmaraye-Abbasi" əsəri 1978-ci ildə R.M.Seyvəri tərəfindən ingilis dilinə tərcümə olunaraq çap edilmişdir.[31]

İsgəndər bəy Münşinin kitabının bəzi hissələri 2004-2006-cı illərdə Şahin Fazil tərəfindən tərcümə olunaraq AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin nəşr etdiyi "Şərq" adlı tərcümə toplusunun 1, 2 və 3-cü saylarında 92 səhifədə çap olunmuşdur.[32]

Biz illər boyu yüzlərlə mənbəni dönə-dönə tədqiq etdiyimiz üçün orta əsr tarixçilərinin yaradıcılıq qabiliyyətləri ilə yanaşı, onların şəxsiyyətləri ilə də tanış olmaq imkanı əldə etmişik. Əsərlərində istifadə etdikləri məxəzləri göstərməyən və onları səhifə-səhifə köçürərək öz kitablarına daxil edən (kompilyasiya!) tarixçilərlə yanaşı, nə yaxşı ki, Həsən bəy Rumlu və İsgəndər bəy

---

[27] İ.Münşi. Tarih-i Alam-Aray-i Abbasi, Çeviren Ali Genceli (Yayınlanmamış), TTK Kütübhanesi, Ter. /51.

[28] Ç.A.Stori. Göst. əsər, II hissə, səh. 881; Краткие сообщения Института Народов Азии, т. 39, Москва, 1963, с. 20-32; Tarixe-aləmaraye-Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi), Ön söz, səh. 16.

[29] Ç.A.Stori. Göst. əsər, II hissə, s. 880-881; Tarixe-aləmaraye-Abbasi (O.Əfəndiyev və N.Musalı tərcüməsi) Ön söz, s. 15.

[30] O.Əfəndiyev. Göst. əsər, s. 216-218.

[31] İskandar Beq Monshi of Shah Abbas the Qreat (translated by R.M/ Savory), 2 vols, Boulder, Colorado: Westviyev Press, 1978. Tarixe-aləmaraye-Abbasi /O.Əfəndiyev və N.Musalı tərcüməsi), Ön söz, s. 16.

[32] "Şərq", AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Tərcümə Toplusu, № 1, Bakı, 2004, s. 26-56. Yenə həmin toplu, № 2, s.26-64; Yenə həmin toplu, № 3, Bakı, 2006, s. 299-324.

Qeyd: Bizim bu tərcüməmizdən O.Əfəndiyevin və N.Musalının məlumatları olduğu halda, onlar bu tərcümə işi haqqında susmuşlar - Ş.F.

Münşi kimi salnaməçilər vicdanlı fəaliyyət göstərmişlər. İsgəndər bəy təkcə tarixi mənbələrin adlarını və müəlliflərini xatırlatmır, o həmçinin bir çox nəzm və nəsrlə elmi, dini-fəlsəfi, ədəbi, coğrafi və s. kitabların adlarını bir-bir yazır, yeri gəldikcə onlara əsaslanır, yaxud həmin kitabların müəlliflərini oxuculara təqdim edərkən onların yaradıcılığında əsas yer tutan əsərlərini də bir-bir sadalayır. Belə ki, İsgəndər bəyin istifadə etdiyi tarixi qaynaqlar aşağıdakılardır:

"Əhsənüt-təvarix", "Tarixe-Əkbəri", "Tarixe-Həbibüs-ciyər", "Tarixe-Təbəristan", "Tarixe-cəhanara", "Rövzətüs-səfa", "Xülasətül-əxbar", "Zəfərnamə", "Foruhate-Yəmini", "Lübbət-təvarix", "Mətləüs-sədeyn və məcməül-bəhreyn", "Cəngnamə", "Cameye-Abbasi" və s.

İsgəndər bəyin mütaliə və məlumat diapazonunun geniş olmasının sübutu üçün aşağıdakı kitabların təkcə adlarını çəkmək kifayətdir:

"Qurane-Kərim", "İncil", "Təcrid", "Əxlaqe-Cəlali", "Əxlaqe-Mohseni", "Əxlaqe-Naseri", "Təzkireye-Mir Təqi Kaşi", "Təşrihəl-əflak", "Cameəl-osul", "Cameəl-hekayat", "Çehel hədis", "Haşiyeye-qəvayede-şəhid", "Haşiyeye-şərhe-eşarat", "Haşiyeye-təfsire-Qazi", "Haşiyeye-mətul", "Həblol-mətin", "Zübdətül-osul", "Hədayeqül-salehin", "Haşiyeye-şərhe-moxtəsəre-osul", "Həyəvətül-həyəvan", "Xüləsətül-hesab" "Xolseye-mələkutiyyə", "Şərhüş-şərhe-Çəğmini", "Şərhe-şəfaye-Şeyx Əbu Əli", "Şərhe-Koleyni", "Səfvətüs-Səfa", "Suratül-müstəqim", "Rəvaşehe-səmaviyyə", "Səbe-Şəddad", "Surətül-əqalim", "Orvətül-Vəsəqi", "Sovərül-əqalim", "Əcayebül-məxluqat", "Fərəc bəd-əş-şeddət", "Kəşkül", "Gülüstan", "Qiyasate-həqqül-yəqin fi hədusül-aləm", "Eynül-həyat fi təfsirül-ayat", "Məxzənül-əsrar", "Əyunəl-məsayel", "Nüzhətül-qülub", "Həft-bənde-Mövlana Həsən Kaşi", "Məsalekül-məmalik", "Sidrətül-məntəha", "Haşiye-şərhe moxtəsəre-osule-Mir Damad", "Məşre-qüs-şəmseyn", "Miftahül-fəllah", "Divane-Kəmaləddin İsmail", "Divane-Lisanülqeyb Hafiz Şirazi" və s.

"Tarixe-aləmaraye-Abbasi" əsəri artıq çoxdandır ki, bir sıra dünya ölkələri tədqiqatçılarının nəzərini özünə cəlb etmişdir. XX Alimlərdən V.Hins, H.R.Romer, H.Horst, H.Busse, H.Braun, R.Luft, G.Herman, K.Rorborn, M.Mazzoi, S.Şuster, B.Palombiani, E.Qlassen, B.Hofman, H.Müller, E.Eberhard, H.Zirke, iranşünas Avropa müəlliflərindən A.Ləmbton, R.Seyvori, Ç.Melvill,

A.Morten, E.Herziq, J.Oben, J.Kalmar, M.Handa, J.Baqe-Qramon, L.Rabino, M.Zuppe, A.Pimontese, B.Skarçia, V.Flor, R.Mati, M.Dikson, R.Çesni, A.Hyuman, həmçinin rus şərqşünasları İ.Petruşevski, A.Romaskeviç, O.Akimuşkin, N.Mikluxo-Maklay, Türkiyə və İran tədqiqatçılarından F.Sümər, B.Kütükoğlu, F.Kırzıoğlu, H.Fəlsəfi, Ə.Nəvai, İ.Əfşar, Ə.Mənzəvi, E.Eşraqi, İ.Dehqan, Ə.Süheyli-Xansari və başqaları dəfələrlə "Tarixe-aləmaraye-Abbasi"dən və onun müəllifindən bəhs etmişlər.

"Tarixe-aləmaraye-Abbasi" əsərini bir sıra vətən tarixçilərimiz, o cümlədən Ə.Rəhmani, O.Əfəndiyev, M.Heydərov, S.Aşurbəyli, Y.Mahmudov, M.Nemətova, S.Onullahi, Ə.Rəcəbli, Ş.Məmmədova, T.Nəcəfli, X.Qasımov, R.Ağayev, T.Cəfiyev, M.Ağalarov, Fərəh Hüseyn və b. mütəmadi olaraq tədqiqata cəlb etmiş, bu dəyərli kitabı XVI-XVII əsrlər Səfəvi tarixşünaslığının önəmli mənbələrindən ən dəyərlisi hesab etmişlər.

"Tarixe-aləmaraye-Abbasi" kitabının mühüm fayda və əhəmiyyəti barədə aşağıdakıları demək olar:

XVI-XVII əsrlərdə idari və hərbi təsisatlar, həmçinin maddi və şəri məsələlərin işıqlandırılması;

Səfəvilərə qonşu olan bir sıra ölkə xalqlarının (osmanlılar, gürcülər, teymurilərin Hindistanda hakimiyyətdə olan padşahları, Mavərənnəhr türkləri və s.) adət və ənənələrinin təsviri;

Başqa kitablarda təsadüf olunmayan tarixi hadisələrin təsviri;

Səfəvi dövrünün alimləri, üləmaları, qoşun başçıları, hökumət vəzifədarları, rəssamlar, xəttatlar, şairlər və musiqiçilərlə bağlı məlumatların verilməsi;

Dövlət və hərbi aparatda hakimiyyəti illərində bir sıra tayfalar və onların başçıları, həmçinin müxtəlif vəzifələr haqqında geniş məlumatın nəzərə çatdırılması;

Dövrümüzdə artıq unudulmuş nadir söz və istilahların işlədilməsi.[33]

Kitabın bu faydalı cəhətlərini xatırlatmaqla kifayətlənən İrəc Əfşarın məlumatlarının sayını xeyli artırmaq olar. Məsələn, dövlətin quruluşu və diplomatiyası; bir sıra rəsmi məktubların tam mətninin, yaxud məzmunlarının əks olunması; İsgəndər bəy Münşi tərəfindən geniş işlədilən türk-monqol istilahlarının tez-tez nümunə

[33] Tarixe-aləmaraye-Abbasi (Şahin Fazil tərcüməsi), I hissə, səh. 93.

gətirilməsi; bir sıra vergi və mükəlləfiyyətlər haqqında qiymətli məlumatların verilməsi; əhalinin köçürülmə siyasəti; II Şah İsmayılın vəfatından sonra və Məhəmməd Xudabəndənin hakimiyyətə başlamasından əvvəl bir neçə ay hakimiyyəti öz əlində saxlamış Pərixan xanımın (I Şah Təhmasibin qızı - Ş.F.) olduqca orijinal tərzdə yazılan diplomatik fəaliyyətinin İsgəndər bəy qələmi ilə əks etdirilməsi; dövlətlərarası və tayfalararası ixtilaf və münaqişələrə münasibət; əsərdə hadisələrin məzmunu ilə bağlı 1000 misradan çox şer parçalarının, habelə atalar sözləri və zərbülməsəllərin verilməsi və s.

Bəzi tarixçilərə yüksək qiymət verən İsgəndər bəy yazır: "İlahinin seçdiyi o həzrətin (Şah Təhmasibin - Ş.F.) gözəl sifətlərinin vəsfi qədərindən artıq, onun haqqında yazmaq isə qələmin qüdrətindən və darülinşa (dəftərxana - Ş.F) katiblərinin barmaqları (bənan) imkanından kənardır. Uca dövlətin onun dövründə baş vermiş hadisələrinin təsvirini, apardığı müharibələri, aldığı ölkə və şəhərləri, habelə başqa böyük əhvalatları rumlu tarixçi (movərrex) mərhum Həsən bəy o həzrətin dövründə yazdığı və "Əhsənüt-təvarix" adlandırdığı kitabında elə təsvir etmişdir ki, bu həqir zərrədə ("zərreyi həqiq" - İsgəndər bəy Münşi özünü təvəzökarlıqla belə adlandırır - Ş.F) elə yazmaq qabiliyyəti yoxdur.

Yol tapım mən necə şah məclisinə?
Qapıçı timsalı yoxdur qədrim.
Necə təlim eləyim elmi ki, var
Məndə vəsfiyçün onun az təlim.

Mənim niyyətim əlahəzrət zilləllah şahın (Şah Abbasın - Ş.F.) dövründə baş vermiş hadisələri yazmaq olduğundan sözümü uzatdığıma (ətnab) görə üzr istəyirəm. Bu aləmi bəzəyən "Aləmara" kitabı (nosxe) o cahan şəhriyarının başına gələnlərin tam şərhinə həsr olunduğu üçün "Abbasnamə"ni yazan qələmim (xame) gücüm çatana qədər söz bəzəməkdən uzaqlaşmayacaqdır".[34]

Bir daha vurğulamaq lazımdır ki, "Tarixe-aləmaraye-Abbasi" əsərindəki məktublar, onlardan ayrı-ayrı parçalar, yaxud məktubların yığcam məzmununun verilməsi, sünnü məzhəbindən olan özbəklərin şiə qızılbaşlara münasibətlərini əks etdirən iki böyük

[34] Tarixe-aləmaraye-Abbasi (Şahin Fazil tərcüməsi), I hissə, səh. 93.

məktubun surəti, bir osmanlı döyüşçüsünün Şah Abbasın Bağdad üzərinə hücumu zamanı öz ölkəsinə göndərdiyi osmanlı üslubunda yazdığı namə, Roma papasının Şah Abbasa ünvanladığı məktub kitabın qiymətini daha da artıran və bizə miras qalan epistolyar irs sayıla bilər.

Qeyd etmək lazımdır ki, XVII əsrdə səfəvi və osmanlı saraylarından Qərb ölkələrinə göndərilən rəsmi dövlət məktubları, əsasən, fars, qismən də türk dillərində yazılırdı. Məsələn, 1618-ci ildə Rusiya çarı tərəfindən Səfəvi hökmdarının yanına yollanan yüksək dərəcəli elçinin göndərdiyi məktub türk dilində yazılmışdı. İsgəndər bəy yazır: "Həmçinin bu il o uca sülalənin (romanovların - Ş.F.) mötəbər əmir və knyazlarından (kənnas) ibarət böyük bir elçi heyəti Xəzər dəryası və o çöllərdən keçərək Şirvanın Dərbəndinə gəldi və Humayun şah məiyyətinin ardınca Ərdəbildən [çıxıb] Qəzvin darüssəltənəsinə çatdı. O elçi də Səadət [abad] meydanında şahla görüş səadətinə yetişdi və mütərcim [tərcoman] vasitəsilə padşah tərəfindən özlərinin ehtiyac (niyazməndi) xahişini və möhkəm birlik (ettehad) istəyini ərz edərək, türk dilində yazılmış uzun bir məktubu şaha təqdim etdi".[35]

Səfəvi sarayının məşhur əmirlərindən olan Əmir xan Türkman və Şah Təhmasibin qızı Fatimə Sultanın toyu münasibətilə həmin xanımda gözü olan, lakin "bəzi məsləhətlərə görə" məqsədinə çata bilməyən Müseyib xan Şərəfəddinoğlu Təkəlinin incik tərzdə Azərbaycan dilində yazdığı bir rübai poeziya dilimizin səciyyəvi xüsusiyyətləri baxımından olduqca maraqlıdır. "Tarixe-aləmaraye-Abbasi"də oxuyuruq:

"Əmir xanın toyu oldu..., cənnətməkan şahın qızı Fatimə Sultan xanım Əmir xanın evinə aparılıdı... Müseyib xan özünü Əmir xandan yüksək tuturdu. Səltənət dənizinin həmin pakizə gövhərində (yəni Fatimə Sultan xanımda - Ş.F.) onun da gözü var idi, lakin bəzi məsləhətlərə görə bu iş baş tutmadı və o böyük töhfə Əmir xana nəsib oldu. Müseyib xan razılıq barmağını gözünün üstünə qoyub, şahın əmri ilə solduşluğu qəbul etdi, türkcə bu rübaini yazıb İsgəndər şanlı nəvvaba (Şah Məhəmməd Xudabəndəyə - Ş.F.) göndərdi:

Rübai

[35] Tarixe-aləmaraye-Abbasi (Şahin Fazil tərcüməsinin əlyazması), II hissə, səh. 940.

Ey şahe-cəhan, biəsər oldi deməgim,
"Dutdi qəm-əli, ələm tikani-ətəgim.
Yüzyildi ki, xidmətimlə dərgahində!
Solduş əməgimə döndi axir əməgim"[36]

İndi də əsərdə işlənən bir vacib istilah barədə misal gətirmək istərdik: "azərbaycanlı (azərbaycani)" istilahı. İsgəndər bəy "azərbaycanlı" sözünü əsərinin bir neçə yerində işlədir. Mən şəxsən bu istilahın o dövrün başqa farsdilli mənbələrində verilməsinə hələlik təsadüf etməmişəm. İsgəndər bəy isə yazır: "[Əlahəzrət] müzəffər əsgərlərin bir dəstəsini Məhəmməd Tağı bəy Təbrizi adlı azərbaycanlı (azərbaycani) tüfəngçilərin minbaşısının (minbaşiye-tofəgçiyane-azərbaycani) sərkərdəliyi altında o qala üzərinə yolladı".[37]

Yaxud "İsmayıl bəy Tüfəngçibaşı iki yüz nəfər azərbaycanlı (azərbaycani) tüfəngçi ilə həmin qalanın (Gürcüstanın Torağan qalası - Ş.F.) mühafizəsinə təyin olundu".[38]

Azərbaycanlı (azərbaycani) ifadəsi kitabın başqa yerində də nəzərimi cəlb etdi: "Ondan sonra azərbaycanlı (azərbaycani) tüfəngçilərin (töfəgçiyane-azərbaycani) minbaşısı Məhəmməd Tağı bəy Təbrizi gələrək, cəngin necə aparılması, savaşın xüsusiyyətləri və əsir götürülənlərin adları barədə təfsilatla məlumat verdi".[39]

Mühüm tarixi mənbə olan "Tarixe-aləmaraye-Abbasi" əsəri, demək olar ki, bütün Şərq ölkələrində səda doğurmuşdur. XIX əsrin çox böyük mütəfəkkirlərindən olan Mirzə Fətəli Axundov (1812-1878) tərəfindən də oxunan zəngin məlumatlı bu qaynaqdakı bir epizod məşhur "Aldanmış kəvakib" ("Aldanmış ulduzlar") povestinin əsasını təşkil etmişdir. Belə ki, Şah Abbas hakimiyyətinin 7-ci ilində (1592) saray münəccimləri ulduz falı vasitəsilə "həyatına təhlükə yaranacağını" bu gənc səfəvi padşahına bildirmiş və onlar təhlükənin qarşısını qabaqcadan almaq üçün "ulduzları aldatmaq"

[36] Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), I cild, səh. 260.
[37] Bu misal və sonrakı daha iki misal "Tarixe-aləmaraye-Abbasi"nin 11 kitabındandır (Bax: İrəc Əfşar nəşri, səh. 874). II kitabın tərəfimizdən tərcümə olunan əlyazma nüsxəsi nəşriyyatda hələ səhifələnmədiyi üçün əsərin İrəc Əfşar nəşrinə istinad etməli olduq - Ş.F.).
[38] Yenə orada.
[39] Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), I cild, səh. 936.

tədbiri barədə düşünmüşlər. Münəccimlər şahdan müvəqqəti olaraq şahlıqdan əl çəkməsini, onun əvəzində isə ölüm cəzasına məhkum olunan bir "nöqtəvi" kafirinin[40] padşahlıq taxtına əyləşməsini xahiş etdilər. Şahın yerinə üç gün şah olan Yusif Sərrac ("Tarixe-aləmaraye-Abbasi"də bu ad "usta Yusifiye-tərkeşduz", yəni "yəhərtikən usta Yusifi", yaxud "Mövlana Yusifi" kimi verilir - Ş.F.) dövlətdə baş verəcək təhlükənin artıq sovuşduğu üçün dərhal öldürüldü.[41]

Abbasqulu ağa Bakıxanov da (1794-1847) İsgəndər bəyin bu tarixi mənbəyindən bəhrələnmişdir.[42]

İsgəndər bəy Münşinin məşhur əsərindən müasir dövrdə yaşayan, habelə dünyanı tərk edən azərbaycanlı yazarlar o qədər yazmışlar ki!.. Bu işdə böyük xidməti olmuş Ə.Ə.Rəhmanini yuxarıda xatırladıq. Onun hər iki monoqrafik əsərində (namizədlik və doktorluq dissertasiyaları) İsgəndər bəyə hörmət və "Tarixe-aləmaraye-Abbasi"yə diqqət vardır. Birinci monoqrafiya bütövlüklə, ikincisi isə qismən o salnaməçinin materiallarından istifadə olunmaqla yazılmışdır. Prof. O.Ə.Əfəndiyev "Azərbaycan Səfəvilər dövləti XVI əsrdə" adlanan kitabında 78 dəfə İsgəndər bəy Münşini xatırlamış, dəfələrlə onun salnaməsinə istinad etmişdir. Prof. M.X.Heydərov "XIII-XVII əsrlərdə Azərbaycan şəhərlərində sosial-iqtisadi münasibət və sənətkarlıq təşkilatları" və "XIII-XVII əsrlərdə Azərbaycan şəhərləri və şəhər sənətkarlığı" monoqrafiyalarında istinadlarının 30-nu İsgəndər bəyin əsərinə əsaslanaraq elmi dövriyyəyə gətirmişdir. Prof. S.M.Onullahi "XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi" üzərində işləyərkən 23 dəfə "Tarixe-aləmaraye-Abbasi"dən bəhrələnmişdir. Prof. Ş.F.Fərzəliyev "Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə)" və "Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə" monoqrafiyalarında 12 dəfə İsgəndər bəy Münşiyə

[40] Nöqtəviyyə - Bu cərəyanın nümayəndələri "nöqtəvilər", yaxud "pəsixanilər" adlanırdılar. Mahmud Pəsixani Gilani adlı bir şəxs hicri 800-ci ildə "nöqtəvi" adlandırdığı bir məzhəb yaratdı. Əvvəllər hürufiçilərdən olan Mahmud sonradan bu cərəyanı tərk etdi və "nöqtəviçi" oldu. Onun bu yeni məzhəbi səfəvi şahları tərəfindən aradan götürüldü, çünki nöqtəvilər bütün yaranışın və hər şeyin əsasını təkcə torpaqda görür, ölümdən sonra yenidən dirilməyə (rəstaxiz), cənnətə və cəhənnəmə inanmırdılar (Bax: D-r M.Moin, c. VI, səh. 2141).

[41] Tarixe-aləmaraye-Abbasi /İrəc Əfşar nəşri/, II hissə, səh, 887; Ə.Ə.Rəhmani. Göst. monoqrafiya, səh. 28-29.

[42] A.Bakıxanov. Gülüstani-İrəm, Bakı, 1951, səh. 93.

müraciət etmişdir. Tarix elmləri namizədi Ş.K.Məmmədova üzərində işlədiyi "Xülasətət-təvarix" əsərinin müəllifi Qazi Əhməd Quminin məlumatları əsasında İsgəndər bəy Münşinin həyatı və fəaliyyəli haqqında maraqlı qeydləri nəzərə çatdırmışdır. Belə ki, "Xülasətət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi" kitabında oxuyuruq: "Qazi Əhmədin yazdığından aydın olur ki, məşhur Azərbaycan tarixçisi, "Tarixe-aləmaraye-Abbasi" əsərinin müəllifi İsgəndər bəy Münşi hələ kiçik yaşlarında onun şagirdi olmuşdur. Qazi Əhməd Qumi "Gülüstani-hünər"də İsgəndər bəy Münşi haqqında ətraflı məlumat verir: "İsgəndər bəy Münşi mənim övladım kimidir. Onun xoşagələn xasiyyəti və gözəl keyfiyyətləri vardır. Əvvəllər şahın dəftərxanasına getmişdi və şəriət dəftərxanasında yazıçılığa başladı, təliq xəttini gözəl yazırdı. Elə ki, həmin dəftərxananın işi mənə həvalə olundu, mən sənədləri və işləri ona tapşırdım. Bir müddət səfərlərdə bir yerdə olurduq. Onda böyük istedad müşahidə etdiyimə görə bəzi hökmlərin və müxtəlif hadisələrin yazılmasını ona tapşırdım. Mənimlə olan dostluğu sayəsində inşa işlərində, şahların hökmləri haqqında, kitab yazmaq sahəsində get-gedə püxtələşdi və bu işə alışdı. Bir-iki ildən sonra Divanın vəzarətindən azad olaraq Darül-İnşaya getdi. Onun kimi sayaq (siyaq - Ş.F.) elmində mahir şəxs, xoşnevis və münşi az tapılır. Sənədlərin tərtibi və tarixi kitabların yazılması indi ona tapşırılıb. [İsgəndər bəy Münşi] sürətlə və zərif kitablar yazmaqda dünyada yeganədir".[43]

Yuxarıda işarə olunduğu kimi, həm İsgəndər bəyin özü, həm də onun qardaşı oğlu Məhəmməd Saleh şer yazmaq məharətinə malik şəxslər olmuşlar. Ç.A.Stori yazır: "İsgəndər bəy Münşinin qardaşı oğlu Məhəmməd Salehin yazdığı üç maddeye-tarix (xronoqramma) "Tarixe-aləmaraye Abbasi"də xatırlanır (İrəc Əfşar nəşri, II hissə, səh. 837, 968, 1013)".[44] Ç.Stori Məhəmməd Saleh tərəfindən yazılan "İnşa" adlı əsərin Tehran Universitetində mikrofilm şəklində saxlandığını da bildirir.[45] Həqiqətən də, İsgəndər bəy bu qardaşı oğlunu qiymətləndirmiş və onu "Əziz fərzənd" ("Fərzənde-ərcoməND"), əsərinin iki yerində isə "bu vərəqlər

[43] Şükufə Məmmədova. "Xülasətət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi, Bakı, 1991, səh. 11-12.
[44] Ç.A.Stori. Göst. əsər, III hissə, səh. 1471.
[45] Ç.A.Stori. Göst. əsər, III hissə, səh. 1471.

müəllifinin qardaşı oğlu fərzənd Məhəmməd Saleh" kimi qələmə vermişdir.

İsgəndər bəy Münşinin şairliyinə gəldikdə isə, deyə bilərik ki, o, əsərində təsvirini verdiyi Dəmdəm qalasının möhkəm bürclərindən birinin "Hatəm bəy Ordubadi tərəfindən alınmasını və həmin tutulan bürcün bu qalanın fəthi demək olduğunu bildirərək özünün bir rübaisini oxucunun nəzərinə çatdırır.[46]

"Tarixe-aləmaraye-Abbasi"nin bir neçə yerində Nizami Gəncəvi bir neçə dəfə xatırlanmış, onun şerlərindən misallar gətirilmişdir. Kilabda həmçinin oxuyuruq: "Şah [bundan sonra] çıxıb Ordubada yollandı. O vilayətin havası əlahəzrətin külək sürətli atının qopardığı tozanaqdan ətirləndi. Məşhur söz ustadı (soxənvərenami) Şeyx Nizami həmin məmləkətin vəsfində demişdir:

"Turac, kəklik salıb elə qaraltı,
Quşlarla doluydu ağaclar altı.[47]

İsgəndər bəy Münşi Ordubadda olarkən fars poeziyasının görkəmli nümayəndələrindən biri olan Hafiz Şirazini (1325-1390) xatırlayaraq yazır:

"Ordubad olduqca ürəkaçan və ürəyəyatan bir qəsəbədir. Onun şimal tərəfindən Araz çayı axır ki, Şirazın söz sahibi Xacə Hafiz o yerin gözəl sahillərinin mədhində buyurmuşdur:

Ey səba, keçsən Araz sahillərindən sən əgər,
Torpağından busə al ki, qoy ətirlənsin nəfəs".[48]

(Tərcümə Şahin Fazilindir).

Yaxud başqa bir misal: "Tarixe-aləmaraye-Abbasi"nin müəllifi öz kitabında Xacə Nəsirəddin Tusi və Hatəm bəy Ordubadidən, habelə bir daha Ordubaddan söz açaraq, bu "cənnətməkan yer" haqqında şair Əli Nəqi Kəmrəinin şeirindən bir beyt gətirməklə belə yazır:

[46] Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), II kitab, səh. 808.
[47] Yenə orada, səh. 878.
[48] Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), II kitab, səh. 722; Bax: "Şərq" tərcümə toplusu, № l, Bakı, 2004, səh. 26.

"Ordubad Qapan (Qafan - Ş.F.) dağının ətəyində yerləşmişdir və suyunun təmizliyi, bağ-bağatının meyvəsi, çeşmələrinin gözəlliyi ilə bütün aləmdə məşhurdur. Dünyada elə bir yer və ölkə yoxdur ki, bu lətafətdə və şirinlikdə su çeşmələrinə malik ola bilsin. Oranın camaatı möhkəm təşəyyəxislətdirlər (qatı şiədirlər - Ş.F.), kəramətli səfəviyyə xanədanına sadiq olmaları ilə məşhurdurlar. Belə ki, məhz buna görə də rumiyyənin (osmanlıların - Ş.F) ağalığı vaxtı bir neçə dəfə qətliam olunmuşdur. O zaman həmin cənnətməkan yer dağıldı, əhalisinə, xüsusilə ustadül-bəşər və nəsirül-millət və din (bəşər ustadı və millət və dinin himayəçisi - Ş.F) olan Xacə Tusinin ali nəsriyyə-tusiyyə təbəqəsinə böyük sədəmə dəydi. Həmin pərişanlığın iqbal qüvvəsi ilə aradan qaldırıldığı bu vaxtlarda Ordubad şahanə inayətə layiq görüldü, bütün divan vergilərindən azad olundu, Azərbaycan vilayətində oraya bənzər başqa bir yerə bu imtiyazlar verilmədi. Cəm (Cəmşid padşah - Ş.F) iqtidarlı etimadüddövlə (dövlətin etimadlı adamı, yəni baş vəzir - Ş.F) Hatəm bəy də o ali silsiləyə mənsubdur. Bu sətirlərin müəllifi uzun müddət həmin fələk ehtişamlı alicənab şəxsin məclislərində iştirak etdiyindən və onunla həmsöhbət olduğundan, o ali sülalə üzvlərindən bir neçəsi barədə məlumat verməyi məqsədə müvafiq sayır.

Xülasə, o uca təbəqə öz ulu babalarının fəzilət və əqli üstünlüklərindən bəhrələnmişdir. Həmin iqbal sahibləri barədə Şeyx Əli Nəqi Kəmrəi nəzm yazmış, gözəl beytlər və ürəkaçan mənalı sözlər söyləmişdir:

"Ordubad torpağının hətta tikanlıqları da
Daima fəzlü hünər meyvəsinə sahibdir"

(Tərcümə Şahin Fazilindir).

Onların (Hatəm bəy Ordubadi nəslinin - Ş.F) əksəriyyəti göfünüşcə gözəgəlimli, pəhrizkar, daxili qabiliyyətə və istedada malik, nəfsi tox, gözəl əxlaqlı olduqlarından o diyarın bütün camaatı tərəfindən həmişə sevilmişlər. O da (Hatəm bəy Ordubadi - Ş.F) yüksək rütbəli dövlət xadimi olub, təmiz əxlaqlı, nəfsi tox, xalqın yaxşılığını istəyən adam idi və qabiliyyəti, işgüzarlığı ilə məşhur olduğundan ali divanın vəziri rütbəsi ilə şərəflənərək, iyirmi iləd ək

divan vəziri kimi cahan işlərinin həlli və əqdi (həyata keçirilməsi - Ş.F) ilə məşğul olmuş, onları tənzimləmişdi".[49]

İsgəndər bəy Münşinin dilində çoxlu türk sözləri və ifadələri də vardır. Məşhur dövlət xadimi, vilayət hakimi və qoşun başçısı olan azərbaycanlı Fərhad xanın Şah Abbasın əmri ilə qətl olunması hadisəsi ilə bağlı oxuyuruq: "Açıq-aşkar görünən sübutlar hümayun şahın xan barəsindəki fikrini qətiləşdirdi, onun şüurunun işığı bu məqsədə yönəldi və xan şaha olan etibarı ələn verdi. Nəticədə qəzavü-qədər icraçıları onun qətlinə hazır oldular. Allahverdi xana, bəzi əmirlərə və qulamlara bu işin yerinə yetirilməsi tapşırıldı, onlar da onun evinə gedərək işini bitirdilər. Allahverdi xan əlini uzadıb onun xəncərini belindən çıxararkən, xan artıq məsələnin nə yerdə olduğunu anladı. Fərhad xan türk ibarəsi ilə təkcə belə deyə bildi: "Beləmi oldu? ", yəni "Mənim işim beləmi oldu?" (farscası "Karema çenin şod? ").[50]

Yuxarıda bildirildiyi kimi, "Tarixe-aləmaraye-Abbasi" əsərinin dili mürəkkəb və rəngarəngdir, həmçinin "Qurani Kərim"dən gətirilən ayələr,[51] müxtəlif hadisələrdən misallar və zərbülməsəllərlə zəngindir.

Əsərin I cildində bir dibaçə (ön söz),[52] 94 başlıq, 110 yarımbaşlıq, 607 misra şer parçası, II cildində 153 başlıq, 207 yarımbaşlıq, 546 misra şer parçası, III cildində isə bir dibaçə, 88 başlıq, 20 yarımbaşlıq və 280 misra şer parçası vardır. Beləliklə, İsgəndər bəyin əsərində üç dibaçə, 335 başlıq, 337 yarımbaşlıq, 1423 misra müxtəlif şerlərdən nümunələr, habelə bir xatimə (son söz) nəzərə çarpır.

Biz İsgəndər bəy Münşinin əsərinin adı haqqında da bir neçə kəlmə deməyi münasib bilirik. Fars dilindəki izafət tərkibli sözlərin sıralanmasına görə bu kitab "Abbasın dünyanı bəzəyən tarixi" adlanmalıdır, lakin İsgəndər bəy öz salnaməsini "Tarixe-

---

[49] Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), II kitab, səh. 722; Bax: "Şərq" tərcümə toplusu, Mbl, Bakı, 2004, səh. 26-27.

[50] Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), II kitab, səh. 575.

[51] Əsəri tərcümə etdikcə orada müəllif tərəfindən Qurandan gətirilən onlarla surə və ayələrin adlarının göstərilməməsi / "Zəlzələ" surəsindən başqa/ işimi bir qədər çətinləşdirdiyindən mənim xahişimlə onların ərəb dilindən tərcüməsi ərəbşünas dostum Valeh Tağı vasitəsilə həyata keçirildi ki, ona bir daha minnətdarlığımı bildirirəm.

[52] Əsərin hər üç cildinin əvvəllində "dibaçə" sözü yazılmayan dibaçələr mövcuddur.

aləmaraye-Abbasi"dən başqa "Tarixe-aləmara", yəni "Dünyanı bəzəyən tarix" (1095-ci səhifədə) və "Aləmara" ("Dünyanı bəzəyən") da (46, 92, 541, 765, 939, 995, 1052, 1094-cü səhifələrdə) adlandırmışdır. Beləliklə, bir neçə tarixçi tərəfindən "Abbasın dünyanı bəzəyən tarixi" kimi tərcümə edilən (məsələn, İ.P.Petruşevski, O.Ə.Əfəndiyev və N.S.Musalı) və kitabın müəllin tərəfindən "Dünyanı bəzəyən" kimi adlanmasına görə onu "Dünyanı bəzəyən Abbasın tarixi" şəklində də tərcümə etmək olar zənnindəyəm, çünki İsgəndər bəy Münşinin bu tarix kitabı aləmi bəzəyən Abbasın tarixidir.

İsgəndər bəy 1560-cı ildə doğulub. İndi isə 2010-cu ildir. İsgəndər bəyin təvəllüdündən 450 il keçir. Bəli, möhtəşəm bir tarix əsəri yazan bu bəy hələ də yaşayır. Uzunömürlüdür İsgəndər bəy. 1560-cı ildən başlayan yaş hələ də davam edir. Dünya durduqca davam edəcək bu yaş. Əlbəttə, həyalda iz qoyan şəxslər çox olmuşdur. İsgəndər bəyin pozulmaz izi var - kitab izi.

Yeri gəlmişkən, İsgəndər bəy Münşi özü öz qüvvəsinə bələd tarixçi kimi, hələ tamamlamadığı, yazmaqda olduğu kitabının qiymətini yaxşı bilirdi və belə yazırdı: "Əgər o ali nəsəbli vəlinemət [Şah Abbas] öz diqqət işığını bu şərif nüsxənin tamamlanmasına saçardısa, mənim bəhanə gəzən təbim zaman fərmanverəninin fərmanı önündə başını aşağı əyər, asiman qüdrətinin yardımı və mənalar bazarında dükan bəzəyənlərin köməyi sayəsində söz məclisini daha da hərarətləndirər və bu rəmzləri şərif ibarələr və lətif istiarələrlə (metafora, məcazi mənada işlənən söz, ya ifadə - Y.M.) yazı İpinə düzər, onu münasib, qiymətli şeirlərlə bəzəyər, təbiət üzgücüsü (qəvvas), təbiətin qüvvəsi (fetrət) və himayəsi (paymərdi) ilə bilik dənizindən sahilə qiymətli (səmin) ləllər və zəngin mənalar çıxarardı, beləliklə, bu uca məqamlı padşahın yaratdıqları dövranın sultanları üçün dəsturüləməl olduğu kimi, bu müflis (ur) şəxsin (İsgəndər bəy Münşinin) yazdığı kitab fəzilət şüarlı, istedadlı adamlardan ötrü zərbülməsələ çevrilərdi:

Beyt[lər]

Əgər indi mənə bəxtim olsa yar,
Ədəb mücrüsündən qıfılı açar.
Cavan şahzadəyə bəsləyib inam,
Alimlik mülkündə təxt ucaldaram.

Məna güllərindən yığıb rəngbərəng,
Hikmət dükanına verərəm bəzək.
Çoxlu dürr çıxarıb elm bəhrindən
Caham dürr ilə dolduraram mən ".[53]

Qələmim "Tarixe-aləmaraye-Abbasi" üzərində tərcümə işimi bitirdikdən sonra İsgəndər bəyə bir qəsidə də yazdı. Qədim şairlərin yazdıqları qədim şerlər üslubunda bir qəsidə. Məncə, bu kiçik qəsidə böyük tarixçimizin həyatı haqqında yazılan ilk şerdir. Ola bilsin ki, gələcəkdə onun kitabını tərcümə edən və canında şairlik cövhəri olan mütərcimlərdən kimsə ona şer yazacaq. Bu isə o böyük tarixçiyə həsr olunan ilk şerdir.

Yaşa, İsgəndər bəy Münşi. Yaşayacaqsan!

Qəsidə

Hədərə verməyərək bir anı İsgəndər bəy
Etdi təsvir Azərbaycanı İsgəndər bəy.

Çox kitab yazmış olan çoxlu yazar var, amma
Bir kitab ilə tapıb ad-sanı İsgəndər bəy.

İranın tarixinə nəsr ilə "Şahnamə " yazıb
Bir də tərif elədi İranı İsgəndər bəy.

Əllərində qələmi tutması məlum məsələ,
Həm də tutmuşdu qılınc-qalxam İsgəndər bəy.

Var idi bir neçə tarixçi Həsən Rumlu kimi,
Oldu tarixçilərin aslanı İsgəndər bəy.

Qazi Əhməd var idi, vardı Budaq Qəzvini,
Yaxşı ki, qoymadı boş meydanı İsgəndər bəy.

Topladı tarixi məktublarını şahlərin,
Münşi təkyazdı neçə fərmanı İsgəndər bəy.

[53] Tarixe-aləmaraye-Abbasi (İrəc Əfşar nəşri), I kitab, səh. 4,

Üləma əhli var idi o dövrdə - mahir,
Oldu bir çox üləma sarbanı İsgəndər bəy.

Meyli çox olsa da, məhdudidi imkanı fəqət,
Meylə uyğun elədi imkanı İsgəndər bəy.

Yazdı Hafiz ilə Sədi və Nizami babadan,
Oxudu məsnəvini, divanı İsgəndər bəy.

Sevdi çox fənni, bilib cəbri, nücum elmini də,
Gözəl öyrəndi gözəl Quranı İsgəndər bəy.

Söz bağından dəmət hazırladı bağban sayağı,
Yığaraq dəstəhdi reyhanı İsgəndər bəy.

Arabir yazdı coşub sevgi-məhəbbətdən də,
Hurini yad elədi, qılmanı İsgəndər bəy.

Etməmişdən hələ dünya evini tərk, əhsən,
Oldu üqba evinin heyranı İsgəndər bəy.

Şah Xətai - Səfəvilər bağının bağbanı!
Oldu tarix bağının bağbanı İsgəndər bəy.

Özü haqqında xəsisliklə yazıbdır, lakin
Gözləyibdi ədəbi-ərkanı İsgəndər bəy.

"Çox gəzən çox da bilər" söylədi əcdadlarımız,
Neçə yol gəzmədimi Şirvanı İsgəndər bəy?!

Vəsfini eylədi türk ellərini sevgiylə,
Şəruru yazdı, Baki-Şabranı İsgəndər bəy.

Qəndəhar torpağını seyr eylədi rəğbətlə,
Gördü Gürcüstanı, Luristanı İsgəndər bəy.

Gəzdi dərviş sayağı çox yerini Qafqazın,
Süzdü tarixçi kimi çox yanı İsgəndər bəy.

Təhrizin təsvirini verdi, Bəmə söz yazdı,
Xatirə saldı Reyi, Tehranı İsgəndər bəy.

Yazdı Dərbənd qalasından, ehdi Gəncəni vəsf
Muganı, Naxçıvanı, Arranı İsgəndər bəy.

Şəkidən, Qəhqəhədən, Kiş qalasından yazdı,
Qələmə aldı neçə üsyanı İsgəndər bəy

Qanalardan danışarkən o Gülüstan yazdı,
Sürxabı vəsf ehdi, Sindanı İsgəndər bəy.

Yazdı cürətli qələmlə tatar həngaməsini
Tuş edib tənqidə bir çox xanı İsgəndər bəy.

Qələmə aldı Moğol dövlətinin tarixini,
Səy ilə izlədi Hindistanı İsgəndər bəy.

Necə osmanlı-qızılbaş savaşından yazdı,
Yazdı onlarla qopan tüğyanı İsgəndər bəy

Çox səfərlərdə ki, Şah Abbasa həmrah oldu,
Tərif etdi o böyük sultanı İsgəndər bəy.

Bilmirəm etdi ürəkdənmi Şah Abbasə dua?
Olmağa hazır idi qurbanı Isgəndər bəy.

Ordubad əhli olan var idi hir Hatəm bəy,
Etdi təqdir o böyük insanı İsgəndər bəy

Sufi tək girdi təsəvvüf deyilən ümmanə,
Bildi arif oluban irfanı İsgəndər bəy.

Təqdim etdi neçə xəlqi oxucu kütləsinə —
Ərəbi, həm giləki, əfqanı İsgəndər bəy.

Ölməyibdir, kitabı etdi onu var Şahin,
Demirəm qeyrisi tək mən "Hanı İsgəndər bəy? "

* * *

Tərcümə prosesində tərəfimizdən anlaşılmaz olduğu üçün bəzi şeir nümunələrini (cəmi 5-10 beyt) ixtisar etdik. Əsərdə bir neçə cümlədən ibarət cüzi ixtisarada yol verilmiş, tərcümə olunmayan yerə nöqtələr qoyulmuşdur. Tərcüməmizin səhifələrinin haşiyələrindəki rəqəmlərə gəldikdə isə onlar əsərin 2003-cü il Tehran nəşrinin və İrəc Əfşar tərəfindən istifadə olunmuş "Tarixe-aləmaraye-Abbasi"nin Tehran əlyazma nüsxəsinin səhifələrini göstərir. Məsələn, 1(2) rəqəmlərindəki" 1"- Tehran nəşrinin, ("2") isə əsərin Tehran əlyazma nüsxəsinin səhifələridir. Tarixe-aləmaraye-Abbasi" kitabının hazırlanmasında göstərilən diqqət və qayğıya görə AMBA A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, t.e.d., prof. Yaqub Mahmudova, elmi işlər üzrə direktor müavinləri t.ü.f.d. Cəbi Bəhramova, t.ü.f.d. Tofiq Nəcəfliyə, elmi katib l.ü.f.d. Gövhər Məmmədovaya, rəyçilər akademik Vasim Məmmədəliyevə, t.e.d., prof. Vaqif Piriyev Buduqluya və f.ü.f.d., dos. Tofiq Cahangirova, həmçinin kitabdakı Qurandan gətirilən ərəbcə surə və ayələrin, o cümlədən ifadələrin tərcüməsində köməklik göstərən Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi Ərəb dili kafedrasının baş müəllimi Valeh Tağıyevə minnətdarlığımı bildirirəm.

Müəllif kitabın hazırlanmasında zəhməti olan AMEA Tarix İnstitutu İnformasiya Mərkəzinin müdiri, t.ü.f.d. Elmar Məhərrəmova, işçiləri Nuranə Əhədovaya, Nailə Məmmədovaya, Səbinə Məmmədovaya, Ramilə Şıxəliyevaya, İradə Əliyevaya, "Şərq-Qərb" Nəşriyyat evinin əməkdaşları Rasim Müzəffərliyə, Hacı Quliyevə, Rövşən Ağayevə, Allahverdi Kərimova, Sevinc Yusifovaya və Gültəkin Yusifovaya təşəkkür etməyi özünə borc bilir.

Şahin Fazil

İSGƏNDƏR BƏY MÜNŞİ TÜRKMAN

DÜNYANI BƏZƏYƏN ABBASIN TARİXİ

(Tarixe-aləmaraye-A bbasi)

Bismillahir-rəhmanir-rəhim!*

Ağıl (oqul) və xəyal (ovham) dairəsindən kənar olan əzəmətli İlahinin gözəl xüsusiyyətləri barədə yazmaq bəşər səviyyəsindən (məhamed) və insan zəkasından (modrek) uzaq olduğu üçün vahidlik (əhədiyyət) sarayının (bargah) mədhi (səna) təsəvvürə sığmazdır və Onun mərhəməti haqqında yazmaq isə barmağın (bənan) və qələmin qüdrəti ilə mümkün olan iş deyildir. Elə bir gözlənilməz (qəflətəfza) arzunu həyata keçirməkdən ötrü özlərinin məqsəd yoluna cəsarət addımını atan adamlar fəqət heyrət çölünün sərgərdan adamlarındandırlar ki, elə ilk təmənna və minnətdarlıq addımında palçığa batıb qalmışlar. Onlar huşyarlıq və zəka cahanından uzaq düşərək, nadanlıq məhəlləsinin (kuy) başında əyləşən şəxslərdirlər. Onlar [Allah-təalanın] əbədilik (səmədiyyət) nəşəsini qavramaq gümanı ilə bilik məclisində fərziyyə qilü-qalı içərisində qalmışlar və yəqinlik şamı yandıraraq, bu beytin məzmununda deyildiyi kimi:

Beyt

Ağlın gücü çatmaz Səni isbat eləyim,
Mahiyyətini məgər bilən vardırmı?[54]

çox çətin xəyala düşüb dayanmışlar. Mən də naqis ağlımı və biliksizliyimi nəyəsə yararlı hesab edərək istədim ki, öz fikir (əndişe) qədəmimi axtanşdan (təkapu) uzaqlaşdırım və onu sükut (xamuşi) ətəyinə bürüyüm, bilik bazarmda yeri və əlində mayası olmayan hövsələsiz adamlar kimi sakitcə əyləşim, ürəyimə ədəb möhürü vurum, acizlik və çarəsizlik əlimi üzrxahlıq ətəyindən asaraq, öz tərif dilimi bu beytlərin məzmununa uyğunlaşdırım:

Beytlər:

Əzminlə kamal bəxş edibsən bizə Sən,

[54] Beytin farscası:
Konhe-xerədəm dor xore esbate - to nist,
Danəndeyi-zate-to becoz zate-to nist.
(Qeyd: Kitabdakı bütün ş'erlərin tərcüməsi bu sətirlər müəl-lifinindir - Ş.F.)

Aləm özü nəmdir o əta bəhrindən.
Bizlər nəçiyik qüdrətini vəsf eləyək?
İndi Sənə layiq nə deyim, ya Rəbb, mən?[55]

Şah sarayını (bargah) bəzəyən seçkin (estefa) və qənaətbəxş istiqamətin (erteza) mürşidləri olan müqəddəs peyğəmbərin (nəbəvi) peyğəmbəranə cah-cəlalı, [həzrət Əlinin] tərifəlayiq (mənaqeb və eftexar) fəaliyyəti, həmçinin pak imamların tərifi Allahın sifətlərini əks etdirir. Elə buna görə də, mən özümü savad kəsb etməməkdə bəhrəsiz görməmək, heyrət və nadanlıq səhrasında sərgərdan etməməkdən ötrü çətinlikdən çəkinməməyin gərəkli, məqsədə uyğun və biədəblilikdən xali olduğunu düşündüm. Bu [kitabdakı] məqalələri (məqalat) yazmaqdan məqsəd budur ki, mən, yəni [Allah] qullarının kiçiyi olan və Münşi kimi tanınan İsgəndər* cavanlıq nəşəsinə daldığım vaxtlarda ağlı gödək dünyapərəst adamların təhriki ilə, öz xislətimə Liyğun gələn dəbdə olan elmləri (olume-motədavele) öyrənməkdən əl çəkib siyaq elminə** (dəqiq mühasibat elmi - Ş.F.) həvəs göstərdim, bir müddət bu natamam peşə (şöğle-natəmam) ilə məşğul oldum, naqis etiqadımla özümü kamal rütbəsinə çatdırdım. [Bir müddət] dəyərli vaxtımı dövlət adamlarına [xidmətdə] sərf etdikdən sonra uzaqgörən ağlım məni qəflət yuxusunun xumarlığından (sokr) oyatdı və öz-özümə dedim: "Qurşandığın bu kiçik (xəsis) iş səni fəzilət və kamaldan yüz mərtəbə uzağa atdı. Sən ki, mənalar dalğaları ilə dolu olan dənizdə üzgüçülük etmisən, heç rəvadırmı ki, mərəkə axtaran şəxslərin yoluyla gedib surətpərəstliyə aldanasan?" Ətraflı düşünüb bildim ki, vaxtım boş-boşuna keçmiş, mənim vücudum peşimançılıqla dolmuşdur. [Amma], qabiliyyət və istedada malik və inşa elminə (məktub və başqa sənədlərin fəsahət və bəlağətlə yazılması - Ş.F.) bələd olmuş bəzi izzətli adamların feyzli söhbətlərindən işıqlandım, həmin adamlarla həmsöhbət olduğum vaxtlarda onların nəzm və nəsrdə zərnigar qələmlə bəyan səhifəsinə yazdıqları faydalı və şirin sözləri dinlədikdə, mənim yoxsul

[55] Beytlərin farscası:
Anca ke kəmal kebriyaye-to bovod,
Aləm nəmi əz bəhre-ətaye-to bovəd.
Ma-ra çe hədd həmd o sənaye-to bovəd?
Həm həmd-o sənaye to səzaye-to bovəd.

(doryuze) ilhamım həmin şəxslərin tərifəlayiq fikirlərinə rəğbətləndi:

Misra

Ürəyimdə o həvəs canlandı[56]

Ətəyimi əvvəlki işimdən üzərək, ürək tarlasına [yeni] həvəsin toxumunu səpdim, şövq əli ilə o əziz adamların ətəklərindən yapışdım. Beləliklə də, mən hümayun ləqəbləri "bəşər övladının (xeyrül-bəşər) ən xeyirlisi olan həzrət Məhəmmədin - ona və nəslinə salam olsun[57] - astanasının torpağı", "on iki umamın haqlı məzhəbinin rəvac verəni (mərəvvəc) möminlər əmiri həzrət Heydərin - ona və onun pak övladlarına Allahın salamı olsun - sədaqətli qulamı"[58] kimi dürr səpən (dornesar) sözlərdən ibarət olan və bununla da hər iki dünyanın bəzəyi olan, pak əhli-beytə xidmət edən və bunu özü üçün iftixar sayan, özünü mələklər yuvası Nəcəf bölgəsindəki (şəhərindəki - Ş.F.) [İmam Əli] astanasının iti bilən, iki nisbətdən - [yəni] əzəmət və fayda (movhəbət) [baxımından] dünya başçıları (sərvərane-aləm) və başqa sabiq padşahlarla müqayisədə [böyük] sərvərlik rütbəsinə malik olan, mübaliğəsiz deyə bilərik ki, Allahın kölgəsi olmaq nuru (zilbllahi) hümayun alnında (nasiye) parlayan və ədalət günəşi hamının üstündə işıq saçan uca məqamlı padşah, səfəvilərin ən çox fərqlənəni (səfvətnehad), musəvi və hüseyni nəsilli, Heydər nəsəbli*, ölkələr tutan xaqanın (Şah Abbasın - Ş.F.) sarayında xidmətə götürüldüm. Bu varaqlarının yazılmasının əsas məqsədi o sultanlar sultanının mübarək əhvalatlarının əks etdirilməsidir.

Şer

Dinli bir şahdır ədalətəsas,
Xəbfe-sedqe-Mortəza-Abbas.**

---

[56] Misranın farscası:
An həvəs dər deləm pədid amәd

[57] İfadənin ərəbcəsi: "xeyru-l-bəşəri salla-1-lahu aleyhi və alihi".

[58] İfadənin ərəbcəsi: "Həzrətu əmiru-1-mominina Heydər səlamu-1-lahi əleyhi və ovladihi-əl-əthəri murucu məzhəbi həqqi əimməti isna əşər əleyhim salavatu-1-lahi əl-məliku-1-əkbəru həzrətu əmir-ul-möminina Heydər səlamu-1-lahi əleyhi və ovladi-l-əthəri".

Sayəsində nə kədər, ah olsun,
Aləmə bir əbədi şah olsun[59]

Beləliklə, mən xilafət nişanlı sarayın münşilər silkinə qəbul olundum. Bu böyük vəzifədə (moşgəleyi-əzim) gecə-gündüz çalışdım və bu ləyaqətli işə bağlandım. Cidd-cəhd (himmət) istəyən, fəhm və istedad (fetrət) tələb edən bu işi öyrənmək hələ mənə müyəssər olmurdu, amma xəcil kamal və böyük çalışqanlıqla onu öyrənmyə giriftar oldum.

Lakin, bu böyük vəzifədə (məşğoleye-əzim) hər gecə-gündüz davam edən məşğuliyyətim mənim istəyimə (hemmət), dərrakəmə (fəhm) və istedadımın ləyaqətlə davam etməsinə mane oldu. İşin gedişində fürsət tapan kimi seyr və xəbərlə dolu kitabların mütaliəsi ilə məşğul olub, həmin şərafətli peşədən bəhrələnməyimi arzuladım:

Beyt:

Hər zərrəsində hava olan bir ürəyim var,
Dilənçi paltarı tək ürəyimdə yamaqlar.[60]

Sözün qısası, bütün xidmətim (molazimət) müddətində Cəm məqamlı o padşahın (Şah Abbasın - Ş.F.) sələfləri haqqında yazılan kitablardan və onun özünün bəyənilən hərəkətlərindən öz gözlərimlə müşahidə etdiklərimi ağıl tərəzisinin gözünə qoydum, fəzilətli alimlər və bəlağətli tarixçilər tərəfindən bizim əvvəlki sultanlarımızın yaxşı xüsusiyyətlərindən və vaqiələrindən bəhs edən və maraqlı ibarə və istiarələrlə* zəngin olan neçə-neçə kitabı cidd-cəhdlə oxudum, öyrəndim ki, yüksək qədir-qiymətli cahangirlərin heç biri ona (Şah Abbasa - Ş.F.) bərabər olmamışlar. Düşündüm ki,

[59] Beytin farscası:
Şahi bi din-o dade-ədlosas,
Xələfe-sedqe-Mortəza-Əbbas
Ke əz-u ruzgar xorrəm bad,
Ta əbəd padşahe-aləm bad.
[60] Beytin farscası:
Darəm deli ke darəd hər zərreəş həvayi,
Çon xerqeyi-gədayan hər pareyi ze cayi

mən əgər bu yüksək məqamlı padşahın qulamı olmaq şərəfinə layiq görülmüşəmsə, nə üçün kamal fənləri üzrə başqa istedad sahiblərindən üstün olmayım? Nə üçün dünyanı özündə əks etdirən güzgünün müqabilində dayanıb öz şer təbimin tutisini dilləndirməyim? Niyə xəyal səhifəsində misilsiz (bihemal) ali nəsilli şəhriyarın gözəl amallı əhvalatlarını gövhərlər səpən qələmlə öz bəyan səhifəmə yazmayım? Neçin müqəddəs aləmin və pak ünsiyyət sarayının ən yaxşısı və ən çox seviləni olan, cahanı bəzəyən və məclislərə (bəzm) yaraşıq verən söz şahidlərinin qulaq və boyunlarını şaha layiq dürlərlə bəzəməyim ki, əgər yüksək istedad sahibi olan adamlardan üstün olmasam da, bu səadətli əməyin uğur qazanmasından ötrü başqalarından üstün olmayım?

Beytlər:

Bax əvvəlkilərin əsərlərinə
Cahanda qalacaq sözdən başqa nə?
Şahdan yazacağın bu kitab ki var,
Nə üçün qalmasın səndən yadigar?[61]

Bəzən uzaqgörən əqlin ədəb sahibi (yəni İsgəndər bəy Münsi - Ş.F.) hərdənbir bu arzunun hələ tifil olan rüxsarını şillələyib (təpançə) deyirdi: Sən hələlik elm dəbistanının* əbcədxanısan,** belə olan halda ruzigar alimləri ilə bu nə şəriklik cəfəngiyyatı və özbaşınalığıdır? Nə üçün bihudə yerə özünü istedad sahiblərinin danlağına gətirirsən? Hansı yüksək sözün mərtəbələri daha uca ola bilər ki, himməti qısa olan hər adamın əli onun izzət libasının ətəklərinə çata bilsin? Məna bəzəyən hansı bəlağət və fəsahət (soxənsəra) sahibinin [söz] təkyəgahı*** daha gözəl ola bilər ki, hər hansı bir nadan və ad-sansız adam oraya daxil ola bilsin?

Sözün bənzəri var təmiz cövhərə,
Söz səmadan enib gəlmişdir yerə.

[61] Beytin farscası:
Bebin ta ze asare-pişiniyan,
Çe baqi bovəd coz soxən dər cəhan?
Çera vəsfe-an namvər şəhriyar
Nəmanəd be qiti ze to yadigar?

İstəsə əsrarı edə aşikar
Müqəddəs kəslərlə ülfət bağlayar.
Əlçatmaz bir çölün ürkək ahusu
Hər kəslə ünsiyyəl etməz doğrusu.
Söz elə quşdur ki, uçuş zamanı
Ondan yerə düşər tace-Kəyani.
Hər kimin başına qonsa bu hüma
İsgəndərdən üstün olar daima[62]

Heyhat, heyhat! Bu həqir zərrə, yəni hərflərin və nöqtələrin təcəssümü olan [İsgəndər Münşi] məna aləminin günəşi ilə necə eyni səviyyədə dura bilər? Qədir-qiymətsiz səhradakı balaca saxsı parçasının (xəzəfrize) dərin ümmanın mirvariləri ilə bərabərlik iddiası ola bilərmi?

Misra

"De görüm, sən hara, bəs xam olan bu arzu hara? "[63]

Haqlı sual olduğuna görə mən bu fikirdən çəkinirdim, hərdənbir də ümid gülşənimdə yuva quran qəlbimin şövqlü bülbülü min bir dillə belə nəğmə oxumaqda idi: Hərçənd ki, məhd etməkdə və qabiliyyət səhifəsinin yazılmasında sənin fikir qələmin kütdür, amma mədh etdiyin şəxsin dünyanı dolaşan ləyaqət [kəhəri], keyfiyyət və fəxarət covlangahında sürətlə addımlamaqdadır [sənin bu sahədə qələm itiləməyin] bəd bir xislət və himmətsizlikdir.

---

[62] Şerin farscası:
Zəhi qədre-soxən k-an covhəre-pak
Ze ərş amәd be suye-aləme-xak.
Ço xahəd xəlvəti ba kaşefe-raz
Nəgərdəd coz be əhle-qods dəmsaz.
Key in vəhşi ğəzale-dəşte olya
Begirəd ons ba hər xakpeyma?
Soxən morğıst k-əndər porfeşani
Foru barəd əz-u tace-Kəyani.
Kəsi-ra k-in homa bər sər neşinəd,
Be bala dəste-Eskəndər neşinəd.
[63] Misranın farscası:
To koca-vo arizuye-xam kordən əz koca?"

Beyt

Səni Allah yaratmış və təbin var sənin,
Bil ki, minlərlə hünər var elm yurdunda[64]

Sən niyə belə bəd xasiyyətə və sadəlövhlüyə razılıq verirsən və qələm seyrinin cilovunu əyri yola yönəldir və onu ümid yolu axtarışından çəkindirirsən? Sağlam düşüncəli adamlar tərəfindən hamıya məlum olan tarix kitablarının oxunmasının faydasını, xüsusilə yaxın vaxtlarda baş vermiş hadisələrə onların böyük rəğbətlərinin mövcudluğunu və söz ustadlarının bu sahədə imkanlarının çoxluğunu nəzərə aldıqda, [məlumdur ki,] daha gözləmək vaxtı deyildir. [Buna görə də,] son öz qədəmini himmətin istəyinə uyğun at və Allahın sənə uğur gətirməsini və Allah tərəfindən diləyinin qəbul olunmasını istə:

Bu yola himmətlə qədəmini at,
Sənə şah iqbalı versin qol-qanad.
Elə hir xəzinə görünə sənə,
Şahanə mirvari gələ əlinə.
Cahanda dönəsən məşhur adama,
Allahın lütjuylə yetəsən kama[65]

Bu fikirlərlə günlərimi başa vurdum. Mən öz bəhanə axtaran təbiətim (məzac) və inadkar təbimlə çarpışmaqdaydım. Nəhayət uzaqgörən rəyim belə qərarlaşdı ki, padşahlıq taxt-tacını (deyhim) bəzəyən hökmdarın (Şah Abbasın - Ş.F.) qiymətli ömür rəmzlərini (romuzat) ibarə səlisliyi, münasib sözlər, habelə bəzəkli ifadə və mənalara qapılmadan yazım və yazılanları fikir və amal dəftərində qeyd edim ki, əgər ömür vəfa edərsə, aidiyyətli (təəlləq)

[64] Beytin farscası:
To-ra ke çide be balay həm bovəd dər təb
Hezar cense-honər əz diyare-danayi.
[65] Beytlərin farscası:
Ze hemmət qədəm neh dər in şahrah
Be niruye-bəxt-o be eqbale-şah.
Ze gəncur-o gəncineye-ruzgar
Be dəst ar in loloye-şahvar
Ke, ta bər zəbanha rəvəd name-to,
Bərayəd ze lotfe-Xoda kame-to.

adamların ruzigarın müxtəlif işləri ilə məşğul olmaqdan başqa çarələri qalmadığı kimi, vaxt tapıb fürsət əldə edim. Belə ki, Gəncəli arif (Nizami Gəncəviyə işarədir - Ş.F.) bu iki beyt [şeri] ilə sirri aşkara (kaşefi-raz) çıxaran bir adama çevrildi:

Şer

O gövhər ki, tutub əlində qərar
Başqa bir gövhərə ehtiyacmı var?
Çox yığma, daş-qaşun kifayət edər,
Nə fayda alanı olmasa əgər?[66]

Əgər o ali nəsəbli vəlinemət (Şah Abbas - Ş.F) diqqət işığını bü şərif nüsxənin (kitabın - Ş.F.) tamamlanmasına salarsa, mən bəhanə gəzən təbimlə zaman fərmanverəninin (fərmandeh) fərmanı önündə başımı aşağı əyər, asiman qüdrətinin yardımı və mənalar bazarında dükan bəzəyənlərin köməyi sayəsində söz məclisini daha da hərarətləndirər və bu rəmzləri şərif ibarələr və lətif istiarələrlə (metafora-Ş.F.) yazı ipinə düzər, onu münasib, qiymətli şerlərlə bəzəyər, təbiət üzgüçüsü (qəvvas) kimi təbiətin qüvvəsi (fetrət) və himayəsi (paymərdi) ilə bilik dənizindən sahilə qiymətli (səmin) ləllər və zəngin mənalar çıxarardım, [beləliklə,] bu uca məqamlı padşahın yaratdıqları dövranın sultanları üçün dəsturüləməl olduğu kimi, bu müflis (ur) şəxsin (İsgəndər bəy Münşinin - Ş.F.) yazdığı kitab şüarı fəzilət olan istedadlı adamlardan ötrü zərbülməsələ çevrilərdi:

Beytlər

Əgər indi mənə bəxtim olsa yar,
Ədəb mücrüsündən qıfılı açar.
Cavan şahzadəyə bəsləyib inam,
Alimlik mülkündə təxt ucaldaram.
Məna güllərindən yığıb rəngbərəng,

[66] Beytlərin farscası
To-ra ba çenin govhəre-ərcoməND
Həmi hacət ayəd be govhər pəsənd.
Mətaye - geranmaye dari bəsi,
Çe sudət bovəd çon nəxahəd kəsi?

Hikmət dükanına verərəm bəzək.
Çoxlu dürr çıxarıb elm bəhrindən,
Cahanı dürr ilə dolduraram mən.[67]

Əql mürşidindən və himmət ağsaqqalından (pir) icazə aldığım üçün bu bağdan gül dərməyə tələsdim. Söz meydanında çoxlu Abbasi qələmiylə fikir-xəyalın söz kəhərini hərəkətə gətirib, şahın əbədi dövlətində baş verən hadisələri onun doğulduğu gündən bu günəcən ki, hal-hazırda min iyirmi beşinci (miladi 1616) ilə bərabərdir və [şahın] şərafətli yaşının qırx yeddiyə çatdığı günlərdir, habelə onun cavanlıq dövrü və dövlətinin bahar əyyamıdır, yazmağa başladım, şüur şüalarının işığı çatan məqama qədər həmin hadisələri təfərrüata varmadan və nöqsana yol vermədən qələmə aldım, geniş məlumatı olmayan əhvalatları, zərurət üzündən, onları mənə danışan adamlara etibar edərək, olduğu kimi yazı ipinə düzdüm, bu son dərəcə gözəl əsəri (segerfnamə) və qiymətli səhifəni* "Tarixe-aləmaraye-Abbasi" adlandırdım, yazdıqlarımı xasiyyət və xüsusiyyətə (təbaye') məlal gətirən qaranlıq iqtibas və ibarələrdən təmizləməyi lazım bildim, [Baş verən] hadisə və xəbərlərin parlaq surətini və gözəl müşahidələrimi sadə bir libasla bəzədim, onları ərsəyə gətirdim. Amma, [mənim etdiklərim] ümumi səciyyə daşıyan yol deyildir. Bəzən olur ki, təbiət gülüstanının bülbülü budaqda oturub nəğmə oxuyur, bəzən də şirin nitqli tuti [quşu] şəkəristanda ibarələr deməyə başlayır və dilinin ləzzəti daha da çoxalır. Xülasə, hər bir ibarə şirin xurmadır. Yaxud, bəzən elə də olur ki, kitabı yazarkən qələmin dilinə hər nə gəlirsə elə onunla da kifayətlənir və razılaşırsan, daha heç bir münasib şerə aludə olmursan. Yaxud da, nadir hallarda [sənin tərəfindən] iki-üç beyt yazılırsa da, bunların hamısı fikir və səliqə-sahmandan və təb' saflığından doğan bir nəticədir. Kitabı yazarkən bədahətən bəzi tarixi hadisələr də

[67] Beytlərin farcası
Əgər bəxtəm konun yari nəmayəd,
Ze dorce - mərifət qəflət qoşayəd.
Be eqbale-şəhənşahe cəvanbəxt
Zənəm bər keşvəre-daneşvəri təxt.
Begune-gune golhaye-məani
Beyarayəm dokane-noktedani.
Ze bəhre-daneş arəm an qədr dor
Ke gərdəd aləm əz dorre-səmin por.

xatirimə düşdü, qələmin dili ilə bəyan olundu və onlar mənim sözlü qələmimlə yazıldı. Hərçənd ki, bu varaqları (ovraq) yazmaqdan əsl məqsəd o həzrətin xoş amallı tərcümeyi-halını onun təvəllüdündən hakimiyyətə yüksəlişinəcən bəyan etmək olmuşdur, amma, xəbərlər vadisində qalan adamların susuzluqlarını yatırmaqdan ötrü indi cənnət sarayında yer tutan Cəm məqamlı (cənnət bargah) padşahın** dəhşətli (hayele) vəfatını, İsmayıl Mirzənin*** və cənnətdə yeri olan (rezvan caygah) İsgəndər şanlı nəvvab Sultan Məhəmməd paşdahın****, həmçinin başqa şahzadələrin həyatlarını, özbəkiyyənin* və rumiyyənin** hücumlarını da yığcam şəkildə qələmə aldım ki, gözlərin kökləri bir-birinə yapışsın və əsl məqsədlə bağlı olan başqa məsələlər gizli qalmasın. Mən bu kitabımda o həzrətin (Şah Abbasın - Ş.F.) məşhur adını (name-nami) və yüksək ismini (esme-sami) "əlahəzrət zilləllah şah" ("Allahın kölgəsi olan şah"- Ş.F.) onun atasının adını "nəvvabi-İsgəndərşan"*" (İsgəndər şanlı nəvvab - ŞF), böyük babasının mübarək adını "şahe-cənnətməkan"**** ("məkanı cənnətdə olan şah" -Ş.F) və şərafətli ulu babasının (cədd) ismini "xaqane-Süleymanşan" ("Süleyman şanlı xaqan") kimi yazdım. Kitabda adı "nəvvabe-Məryəmşane-Məhdülya" kimi qeyd olunan məqsəd o həzrətin (Şah Abbasın - Ş.F) anasını xatırlatmaqdır. Mənim "Həzrəte-cəhanbanr ("cahanın əsasını qoyan həzrət" - Ş.F.) adını yazmağımın məqsədi isə nəvvab Sultan Həmzə Mirzəni**** xatırlatmaqdır. Əgər o həzrətin (Şah Abbasın - Ş.F) şərafətli meyli (təb) bu şərafətli nüsxə (kitab) tamamlandıqdan sonra onu dastan-dastan oxumağa yönəlsə və əgər orada həqiqətdən uzaq bir yazı görsə, qoy həmin yerləri hoqiqət bıçağı ("qəzleke-rasti") ilə məhv etsin. Əgər bəzi hadisələrdə [verdiyim] məlumat az olarsa, diqqət yetirilsin ki, bu sadiq qələmimlə onları [yenidən] tətbiq və təsdiq edə bilim. Əvvəlcə, "müvəffəqiyyət və təbərrüklə"[68] mənşəyi peyğəmbərlik (nübüvvət) və vəlilik (vəlayət) xanədanı (dudman) içərisindən çıxmış o həzrətin (Şah Abbasın - Ş.F) cahanın başqa sultanlarından və dövranın qeyri xaqanlarından fərqlənən əsil-nəsəbini, bəyənilən hərəkətlərini və layəqətli vəsfini bu kitabın müqəddiməsində (dibaçə) yazdım ki, icmal şəklində bu haqda sonradan təfsilatla yazmağa başlayım. Bu vəlayətnişan xanədanın sadiq bəndəsi və duz-çörəyi ilə boya-başa çatan bir adam kimi haqqım vardır ki, söz-sovlu mədhiyyəçilər (vəssaf) və sözləri

[68] İfadənin ərəbcəsi: "Təmimən və təbərrokən"

bəlağətlə yazan [başqa] tarixçilər (movərrex) kimi, öz vəlinemətimin bəyənilən vəsfi və əxlaqı (seyər) barədə biri-yüz, yüzi isə min edə-edə yazaraq, yazılanları ruzigar səhifəsində yadigar qoyum, amma o həzrətin düzgünlüyə (həqqaniyyət) olan sağlam meyli həqiqətdən uzaq və bühudə sözlər yazan yazarların (səxənsəra) yazılarından xoşlanmadığı üçün, biz onların bəyənilməz üsullarından sərfnəzər etdik, qələmimizin cilovunu hiyləgərlik (təkəlluf) meydanının axtarışından (təkapu) və ibarəli bəzək - düzəyindən (ibarətarayi) kənara çəkdik, həqiqət zinətindən (həliyye) xali olan məsələləri bu səhifədə bəyana gətirmədik, bu hümayun (şahanə, şaha məxsus - Ş.F.) kitabı müqəddimə, iki səhifə və xatimədən ibarət yazdıq ki, Allah təalanın köməyi ilə iki-üç cilddə tamamlanacaqdır.

* * *

Birinci səhifə

Müqəddimə: [Bu hissə] o həzrətin (Şah Abbasın - Ş.F) hümayun nəsəbinin zikri, mənəvi səltənət və yol göstərmək (erşad) taxtında əyləşmiş görkəmli (sami), ali və yüksək rütbəli böyük şeyxlərin (məşayex)* bəyanı, bu xanədana məxsus dövlətin yaranması (zohur), o həzrətin səadətli təvəllüd və həyatının yığcam vəsfini əhatə edən on iki məqalədən** ibarətdir.

Birinci məqalə: Xoşbəxt (kamkar) padşahların və o ali nəsilli (alitəbar) şəhriyarın hakimiyyəti zamanı baş verən hadisələrin (vaqiə) zikri, həzrət cənnətməkan şahın (Şah Təhmasibin - Ş.F) vəfatı hadisəsi, İsmayıl Mirzənin və İsgəndər şanlı nəvvabın (Şah Məhəmməd Xudabəndənin - Ş.F) hakimiyyətlərinin zikri, hümayun cülus sahibinin (Şah Abbasın - Ş.F) İranın müzəffər səltənət taxtında bərqərar olması;

İkinci məqalə: O həzrətin ilahi dərgaha olan diqqəti və ulu əcdadlarından miras götürdüyü keyfiyyətlərinin zikri;

Üçüncü məqalə: Allahın ona bəxş etdiyi fikir və elmin, habelə qəzavü qədərin istəyi ilə baş verən qarşılıqlı anlaşma (hosne-tədbir);

Dördüncü məqalə: Sahibqranlıq*** rütbəsinin ləyaqəti və səadətli əyyamı zamanı sahibqranın (Şah Abbasın - Ş.F) təhlükələrə məruz qalmasının zikri;

Beşinci məqalə: [Şahin] ədalətpərvərliyi və bəndələrin rifahı haqqında; şəhərin, ölkənin, vilayətin (belad) nizamına səbəb olan yollar barədə;

Altıncı məqalə: İlahinin sonsuz hikmətlərindən olan bəzi işlər (əmr), qəddarlıq və tündxasiyyətlilik (atəşməcazi) haqqında;

Yeddinci məqalə: Padşahlıq (cəhandari) məsələlərində ortaya çıxan qayda-qanun haqqında;

Səkkizinci məqalə: Qeyri müəyyənlik (bitəəyyoni), dərvişxislətlilik, öz borcunu yerinə yetirməmək (bitəkəllofi) və təzadlı xüsusiyyətləri haqqında;

Doqquzuncu məqalə: Xidmətçilərin hüquq və haqlarının zikri, mərdlik (fotovvəf)* və mürüvvət" aləmində həqi-qətgəzənlərin hüquqi imtiyazlarının yerinə yetirilməsində [şahın] onların mülkiyyətlərindən uzaq olmasının zikri;

Onuncu məqalə: Aləm sultanları haqqında xoş sözlər, Adəm övladlarının (bəni - Adəm) dərəcələri, yeddi iqlimdəki məmləkətlərin və yolların (məsalik) xüsusiyyətləri haqqında;

On birinci məqalə: [Əlahəzrətin] xeyirxah işləri və məmləkətlordə ali binalar inşa etməsinin zikri;

On ikinci məqalə: Ali hümayun dövlətin hakimiyyəti vaxtı baş verən müharibə, qələbə və fəthlərinin bəyanı haqqında.

İkinci səhifə

Səadətli cülusun xoş amallı çağından başlayaraq bu kitabın yazılmasına - min iyirmi beşinci (miladi 1616) il tarixinədək baş verən əhvalatların zikridir.

Xatimə: Köhnə kitablardan oxuduğum və həyatım boyu müşahidə etdiyim qəribə hekayətlər, maraqlı rəvayətlər və dövranın nadir hadisələri haqqındadır. İnşaallah, əgər ömür vəfa edərsə, o [hissə] üçüncü cilddə yazılacaqdır. Yazdıqlarımız barədə bəsirət ərbablarından xahişimiz budur ki, yazılanlara, - pis, ya yaxşı -, bəsirət gözü və insafla baxsınlar, xırdaçılığa aludə olmasınlar. Əgər o dövr (ruzigar) hadisələrinin çatışmazlığı barədə bəlağət nəzərli şəxslər (baleğnəzəran) [hansısa] ziddiyyətli məqamlar (tənaqoz) görərlərsə, fikir müxtəlifliyinə dözərək, eybaxtaran nəzərlərini onlardan kənar etsinlər.

BİRİNCİ SƏHİFƏNİN BİRİNCİ MƏQALƏSİ ƏLAHƏZRƏT ZİLLƏLLAH ŞAHIN HÜMAYUN NƏSƏBNAMƏSİ, MEYDANA ÇIXMA (RESALƏT) VƏ İDARƏETMƏ (VƏLAYƏT) DUDMANININ QƏDRİ ALİ OLAN ƏCDADININ MƏQAMLARININ ZİKRİ

Yüksək bəsirət sahiblərindən gizli deyildir ki, bu sülalənin şəcərəsi sonuncu Peyğəmbər (xatəmül-ənbiya) və Əliyyül-mürtəza (İmam Əli - Ş.F.) əleyhüssəlamlarla bağlıdır. [Həmin şəcərə] belədir: Əbülmüzəffər Şah Abbas ibn Sultan Məhəmməd padşah ibn Şah Təhmasib ibn Şah İsmayıl ibn Sultan Heydər ibn Sultan Cüneyd ibn Sultan İbrahim ibn Şeyxşah ibn Sultan Sədrəddin Musa ibn Şeyx Səfiəddin İshaq ibn Əminəddin Cəbrayıl ibn Saleh ibn Qütbəddin ibn Səlahəddin Rəşid ibn Məhəmməd əl-Hafiz ibn Əvəz əl-Xəvas ibn Firuzşah ibn Məhəmməd ibn Şərif ibn Məhəmməd ibn Həsən ibn Məhəmməd ibn İbrahim ibn Cəfər ibn Məhəmməd ibn İsmayıl ibn Məhəmməd ibn Əhmədül Ərabi ibn Əbi Məhəmməd əl-Qasim ibn Əbül-Qasim Həmzə İbnül-İmamül Hümmam Əbi İbrahim Musaül-Kazim ibn İmamün - natiq Cəfərüs-Sadiq ibnül-İmam Məhəmməd əl-Bagir ibnül-İmam Əli Zeynalabdin ibnül-İmam Əbi Abdullah əl-Hüseyn ibn əmirəl-möminin və imamül-məttəqin əsədullahül-qalib Əli ibn Əli Talib əleyhüssalam. Üləmalar və bəlağətli tarixçilərin hamısı bu fikirdədir ki, o həzrət (İmam Əli - Ş.F.) və həzrət xatəmül-ənbiya Xəlil gülzarının gülləri və İsmayıl bostanının fidanlarıdırlar ki, onlara salamlar olsun. Onların əzəmətli ata-babaları və Ədnandan həzrət əbülbəşər (bəşərin atası - Ş.F.) Adəm əleyhüssalama qədər bir-biriləri ilə əlaqədar olmamışlar. Tarixçilər (ərbabe-əxbar) peyğəmbərin məşhur sələflərinin və ulu əcdadlarının başlarına gələn hadisələr, həmçinin onların hər birindən zahir olmuş və həzrət xerül-bəşərin (Məhəmməd peyğəmbərin - Ş.F.) nurlu zühuruna qədər baş verən qəribə əlamətlər (əlamat) barədə yazmışlar, həmçinin onların fəzilətləri və gözəl xislətləri (mənaqeb) haqqında risalələr tərtib etmişlər. Bu həqir zərrə [İsgəndər bəy Münşi] imkan olduqca bu fənn (şəcərə fənni - Ş.F.) üzrə məlumatlı ustadlara əsaslanaraq, onlar barədə aşağıdakı yığcam məlumatı verir:

HƏZRƏT XEYRÜL-ƏNAMIN (MƏHƏMMƏD PEYĞƏMBƏRİN NİSBƏLƏRİNDƏN BİRİ - Ş.F.) KƏRAMƏTLİ ATA- BABASININ BƏYANI

Abdullah Abbas* - Allah ondan razı olsun[69] - barədə yazırlar ki, həzrət rəsul salavatullahın özü böyüdükdən sonra öz nəsəbi haqqında danışarkən, Ədnana çatdıqda möcüzbəyan bir dil ilə belə buyurur: "Mənim nəsəbimin Ədnandan əvvəllərə gedib çatması həqiqətdən uzaqdır"[70]. Ədnanın iki oğlu vardı. Amma, nəbinin və vəli əleyhüssəlamın nuru, səhih hədis məlumatına uyğun olaraq - "Mən və Əli vahid bir nurdanıq"[71], onun böyük oğlunda vardı. "Rövzətül-əhbab" kitabının müəllifinin sözünə görə onun (Ədnanın oğlunun - Ş.F) səkkiz oğlu vardı. Amma həmin nurun daşıyıcısı Nezar olmuşdur ki, onun konyələri (adları) Əbu Rəbiə və Əhv Əyaddır. Nezar doğulanda atası onun alnında parıldayan nuru görərək, qurban kəsmə mərasiminə və adamlara ehsan süfrəsi açmağa başladı. Həmin işıqlı nur onun doğma (solb) oğlu Məzərə nəql olundu. Məzər daim gözəl Allah (Rəbbe-cəlil) yolunda Hənif İbrahimin hənəfi adamlarına və İsmayıl əqidəsinə uyğun olaraq gözəl Rəbbə ibadət edirdi. Həmin aləmi bəzəyən nur onun hümayun hüsnündən təcəlla edir və gecənin zülmətini işıqlandırırdı. Olduqca gözəl çöhrəsi vardı. Ərəblər arasında deyilən "xedəme-şotoran" ("dəvələr xadimi, müşayiətçisi" - Ş.F.) nisbəsi ona mənsubdur. Günəş kimi parlaq olan o işıqlı nur sonra oğlu İlyasda göründü. İlyas təkallahlığa inanan (movəhhed), dinpərvər və pəhrizkar adam idi. Fərzəndinin təvəllüdündən, qoca sinnində olarkən doğulduğu üçün, atası kədərlənmişdi. Çarəsiz qalaraq onu İlyas adlandırdı. O, Xəlil övladının mənsub olduğu tayfanın böyüyü və İsmayıl xələflərinin başçısı (sərvər) oldu. Deyirlər ki, İlyas Kəbə evinə getdi, oğlundan təlbiyə* avazını eşitdi, bundan çox təəccübləndi, onun nuru oğlunun camal aynasında parıldayırdı. Oğlunun adı Amir idi. Ondan sonra həmin nur onun oğlu Xüzeymənin alnında parladı, aləmi bəzədi. O günəş nurlu işıq sonra onun oğlu Kənanənin üzündə parlayıb cahanın çöhrəsini işıqlandı. Əvvəlki adı Əbu Nəsr idi, sonrası Qüreyş adı ilə şöhrətləndi. Bütün qüreyş qəbilələri onun

[69] İfadənin ərəbcəsi: "Radiyə-l-lahu ənhu".
[70] İfadənin ərəbcəsi: "Kizbu-n-nəsəbi ilə ma fəuqa Ədnan".
[71] İfadənin ərəbcəsi: "Ənə və Əliyyun min nurin vahedin"

nəslindəndirlər. Onun nurlarının daşıyıcısı oğlu Malik idi. Ondan sonra bu səadət oğlu Fəhrə nəsib oldu. Sonra nur oğlu Qalibə çatdı, daha sonra Qalibin oğlu Ləvi üçün ötürüldü. Sonra oğlu Kəəbə, daha sonrasa onun çoxsaylı oğlanlarına paylandı. Sonra Bəni-Qüreyş nəslinin böyüyü Kəlab həmin nurla şərəfləndi. Nur sonra Kəlabın oğlu Qəsiyə çatdı. Qəsinin övladlarından Əbu Manaf öz qardaşlarından həmin nurun ona ötürülməsi səadəti ilə şərəfləndi. Onun sadiq oğlu ləqəbi Əmrül-Əla olan Haşim idi ki, elə bu ləqəblə də şərəfləndi. O, qüreyş qəbiləsinin sərvəri idi. Səadət nurları onun surətində parlayır, onun günəş simalı camalında igidlik və böyüklük nişanələri görünürdü. Qüreyşlərin arasında Bəni-Haşimin şərəfi və yeri böyükdür. Həmin nuru daşımaq haqqı onun oğlanlarından Əbdülmütəllibə** verilmişdi.

Əbdülmütəllibin Abdullahı nəzir deməsi və qurbanlıq vermək istəyi:

O, əzəmətli, şan-şöhrəti və tutduğu uca məkana görə qureyş qəbilə adamları və sərvərləri içərisində fərqlənən adamdı, qureyşlər onun böyüklüyünü qəbul etmiş və ona tabe olmuşdular. Onun adı Şeybə idi, amma tarix kitablarında Əbdülmütəllib kimi məşhurlaşdı. Kəbə evinin açarı onun əlinə yetişdi və hecabət mənsəbi ona verildi. Zəmzəm*** quyusunun qazılması (hefr) onun dövründə icra olundu. Əhməd nurunun (nure-Əhmədi) onda olması sayəsində Allahın dərgahında xahiş olunan hər duası Allaha çataraq (eqteran) qəbul (ectenab) olunurdu. Onun iki oğlu vardı. "Rövzətüs-səfa"* və "Xülasətül-əxbar"** kitablarının müəlliflərinin fikrincə Əbdül Mütəllibin səkkizinci övladı sonuncu Peyğəmbərin (xatəmül-ənbiya) atası Abdullahdır. Əbdülmütəllib nəzir etmişdi ki, hər şeyi minnətsiz verən Allah-təala, əçər ona on övlad verərsə, ən izzətli övladını onun yolunda qurban edəcəkdir. Əbdülmütəllibin bu arzusu baş tutdu və o, etdiyi nəzirinə vəfa etmək xatirinə fərzəndləri arasında püşk (qore) atdı. Püşk Abdullah adına düşdü. Abdullah bu şad xəbərdən şadlandı, İlahinin təqdirinə boyun əydi. Əbdülmütəllib onun bu qərara tabeliyindən və alinejad anasının razılığından sevindi və oğlu ilə birlikdə qurbangaha yollandı. Bundan xəbərdar olan Qüreyş onların ardınca gedərək onu bu işdən çəkindirdi, bu məsələ xüsusunda həmin dövrdə başqalarından seçilən bir kahinə qadın ilə məsləhətləşdi. Kahinə nəziri fidyə*** ilə əvəz etməyi məsləhət

bildi, qərara aldı ki, on övladın sayı qədər dəvəni Abdullahın fidyəsi etsinlər və onunla dəvələrin arasında püşk alsınlar, əgər püşk yenə də Abdullahın adına düşərsə püşkatmanı davam etdirsinlər və hər dəfə dəvələrin sayını on-on artırsınlar. Əbdülmütəllib bu qərara əməl etdi və püşk hər dəfə Abdullahın adına çıxdı. Dəvələrin sayı yüzə çatdıqda, bu dəfə Allah-təalanın köməyi ilə püşk dəvəyə düşdü. Bu işi bir neçə dəfə təkrar etdilər və Abdullah sakitləşdi (təşəffi), yüz dəvə qurban etdi. Həzrət Xeyrül-ənam belə buyurmuşdu: "Mən Abdullah və İsmayıl kimi göstərilən ibnüz-Zəbeyhəm"[72]. Tarix kitablarında yazılmışdır: Nure-Əhmədinin şüaları və Məhəmmədi nurlarının işığı Abdullahın alnında parlamaqdaydı. Yəhudilər bir neçə dəfə ona qəsd etdilərsə də, hər dəfə nifrət və paxıllıqdan qeybdən gələn qüvvə ilə yardım olundu, düşmən xətərindən qurtuldu. Abdullahın nurunun parıltısından bütün qüreyş xatunları onun günəş kimi işıqlı camalına vurularaq, onunla evlənməyə rəğbətlənirdilər, amma o xoşbəxtlik Vəhbin qızı Aminəyə* nəsib oldu, Abdullahın amal ağacı murad meyvəsi ilə calaşdı, fil ilində (amel-fil) o əzəmətli qızdan xatəmül-ənbiya doğuldu, zülmətə qərq olan aləm onun cahanı bəzəyən camal nuru ilə işıqlandı. Hamiləlik, doğum, böyümə (reza), cavanlıq əyyamından peyğəmbərliyə çatma (bəisət) müddətinə qədər o nəbilər sərvərinin və onun möhtərəm anasının başına bir çox qəribə işlər gəldi ki, bu haqda bir sıra hekayətlər (qesəs) və tarix kitablarında məlumatlar (7) vardır. Sözün qısası, günəş batmazdan əvvəl (qürub vaxtı - Ş.F) Adəmin oğlu seyid timsallı cahanı bəzəyən camalı olan Abdullah iyirmi beş yaşında ikən Mədineyi-təyyibədə** (gözəl Mədinə - Ş.F.) hər iki dünya Rəbbinin rəhmətinə qovuşdu, müqəddəs Yəsrib (Mədinə - Ş.F.) torpağında dəfn olundu. Peyğəmbər doğuluşunun (milad) yeddinci ilində Aminə vəfat etdi, Əbdülmütəllib o Batha və Yəsrib sərvərini (Məhəmməd Peyğəmbəri - Ş.F) özü böyütməyə başladı, [amma] həmin miladın səkkizinci ilində özü də rəhmətə qovuşdu, o "Dorre-yetim"in böyüyüb boya-başa çatması Əbu Talibin*** öhdəsinə düşdü. İmran ismi ilə tanınan Əbu Talib Əbdülmütəllibin yeddinci oğlu idi və qüreyş qəbilələri arasında onun şöhrəti və layiqli yeri vardı. Həzrət xatəmül-ənbiya həmin ali qədir-qiymətli əmisinin mehribanlıq və nəvaziş (otufət)

[72] İfadənin ərəbcəsi: "Ənə bnu-z-Zubeyhi əşarəhu bi Abdi-1-lahi və İsmailin".

şəfəqləri sayəsində böyüdü. Ona peyğəmbərliyin verilməsinin (bəisət) onuncu ilinədək o sərvər (Əbu Talib) sağ idi, o həzrətə səylə köməklik göstərirdi. Onuncu ildə Allahın dəvətini qəbul edib öldü. Həzrət rəsul (səlləllahu aleyhi və səlləm) Əbu Talibin, ondan sonra isə Xədiceyi-Kübranın**** (Peyğəmbərin zövcəsinin - Ş.F.) vəfatlarından sonra, dərin hüznə qərq olmuşdu. Əbu Talib "kafirlərin və müşriklərin qənimi, aləmlər Rəbbinin dostu (həbib), əzəmətli Allahın şiri, möminlər əmiri olan Heydəri-Kərrarın"[73] - "Əli ibn Əbu Talibin" hörmətli atası idi. Tərəfdarlarının və müxaliflərinin yazdıqlarına görə, "Ətim ətindən, qanım qanındandır" hədisində buyurulduğu kimi[74], [Həzrət Əli] böyük fəzilət və istedad sahibi olan məşhur bir sima idi. Həzrət Məhəmməddən sonra Adəm övladının əşrəfi olan Əli ibn Əbu Talib əleyhis-səlam asimandan gələn işarə ilə Zöhreyi-Zəhra və Bətule-Üzra ilə (Məhəmməd Peyğəmbərin qızı Fatimənin ləqəbləri - Ş.F.) izdivac etdi. İlahinin o iki sirlər xəzinəsindən (məxzənül-əsrar) və o iki sonsuz nurlar mədənindən (mədəne-dudmane-namotənahi) iki parlaq nübüvvət ulduzu (İmam Həsən və İmam Hüseyn - Ş.F.)* iki asimanın iki ulduzu kimi dünyaya gəldi. Behişt əhli olan o cavanların (İmam Həsən və İmam Hüseyn - Ş.F.) böyüklüyü barədə mirvari kimi qiymətli sözlər deyilmişdir. On iki çeşmə kimi bütün dünyanı qucaqlayan və asimanın möhkəm qalaları olan o kəslərin uca adları, [həmçinin] möhtərəm və uca məqamlı övladları haqqında çoxlu sözlər zikr olunmuşdur. Onların birincisi Həzrət Əli (ə) və sonuncusu Həzrət Mehdi** (ə)-dir. Həmin şəcərə ağacının kökü və mübarək nəsli on iki nəfərdir və əzəmətli padşah (Şah Abbas - Ş.F.) yer üzərində Allahın kölgəsidir. Buna görə də, mən söz dəftərimi o həzrətin əcdadının və böyük atalarının zikri ilə bəzəyirəm.

Nübüvvət və imamət gülzarının iki dəstə gülü və şücaət və kəramət bostanının iki sərvi olan o adamlar musəvi və hüseyni xanədanına mənsubdurlar ki, onlar nəsilbənəsil möhtərəm və uca məqamlı adamlar olmuşlar və yuxarıda işarə olunduğu kimi onların şəcərəsi on iki imamın yeddincisi imam Museyi-Kazimə*** çatır,

[73] İfadənin ərəbcəsi: "Heydər Kərrar qatili-1-kəfərə bi-1-muşrikinə vəsa həbibu rəbbi-1-aləminə əsədu-1-lahi-l-ğalib əmiru-1-möminiinə Əli ibn Əbi Talibin əleyhi-s-səlamu".

[74] İfadənin ərəbcəsi: Bi hokmi hədisi "Ləhmi min ləhmikə, dəmi min dəmikə"

ondan törəyir. Buna görə də "Günəşə və onun işığına and olsun"[75] ayəsində deyildiyi kimi, günəşdən də parlaq olan o böyük imamların zikri ilə sözə başlayıram ki, mənim dilim o həzrətin uca məqamlı sələflərinin adlarının zikri ilə daha da şirinləşsin. Ənsab elminin (şəcərə elminin - Ş.F) übmalarının hamısı belə əqidədədirlər ki, onlar (səfəvilər - Ş.F) həzrət imam Museyi-Kazimin və ali məqamlı imamzadə Əbülqasim Həmzənin nəslindəndirlər. Düzgün olan məlumata görə imam Museyi-Kazim Tərşizin Susefid adlı yerində dəfn olunmuşdur və onun şərafətli məzarı əhalinin ziyarətgahı və təvaf yeridir. İbn Bəzzaz* kimi tanınan Dərviş Təvəkkül ibn İsmayıl Şeyx Sədrəddin Musanın sağlığında o həzrətin, şeyxlərin və övliyaların bəyanı xüsusunda bir kitab yazmış və onu "Səfvətüs-səfa" adlandırmışdır. Həmin kitab Firuzşah Zərrinkolahla başlayır.** Bu sətirlərin müəllifi də İbn Bəzzazın yoluyla gedərək, özünün zərrin qələminin köməyi ilə "Abmara" [kitabının] səhifəsini o həzrətin (Firuzşahın - Ş.F) zikri ilə bəzəyir.

Firuzşah Zərrinkolah": "Səfvətüs-səfa" [kitabının] müəllifi yazır: "Təriqət sultanının fərzəndlərindən biri İbrahim Ədhəmdir. O, mülk tutmaq bayraqlarını qaldıraraq daim qəza (müqəddəs müharibə - Ş.F) və cihadla məşğul idi. O vaxtlarda Muğan, Aran və o hüdudda yerləşən yerlərin əhalisi iman zinətindən kənar, islam şərəfindən bəhrəsiz idilər. Peşəsi qəza olan o sultan (sultane-qəzapişe) kəskin qılıncının şöləsi ilə o vilayətin hər yerini islam nuru ilə işıqlandırdı, küfr və zalimlik qaydasını (rosum) aradan götürdü, zahiri (suri) və mənəvi cəmiyyət [üzvləri] arasında həm dini, həm də dünyəvi idarəçilik qabiliyyəti olan Əmir Firuzşahı Ərdəbilin və oraya tabe olan yerlərin sərvəri və əmiri etdi. Onun var-dövləti, qoşunu, heyvanı və qənimətləri o qədər çox idi ki, Ərdəbilə sığınırdı. Oradan çıxıb Gilan meşəsinin kənarına getdi və yaxşı bir yerdə dayandı (rəhle-eqamət əndaxt), həmin vilayətdə dini məsələlərin təlqini ilə məşğul oldu, fəzilət və ənam süfrəsini açdı. Əmir Firuzşah dünyadan köç cilovunu əcəlin əlinə verdikdə, onun igid (rəşid) oğlu Əvəzül-xəvas sədaqətli adamların işlərinin icrası və sərvərliklə məşğul oldu, həmin yerdən Ərdəbilə tabe olan Əsfərəncan kəndinə (qərye) getdi, qoşun və təbəələri ilə orada məskunlaşdı. O da, böyük atası kimi öz səxavəti (kərəm) və qonaqpərvərliyi ilə xalq arasında (beynəl-comhur) məşhurlaşdı.

[75] İfadənin ərəbcəsi: "Bi məntiq va-ş-şəms va-d-duha hə".

Ənam süfrəsini ziyafət və səxavət evində bağlayıb, üqba (axirət evi - Ş.F) mehmanxanasına getdikdə, onun bənzərsiz oğlu Məhəmməd əl-Hafiz atasının yerində qaimməqam oldu. Qəribə hadisələrdəndir ki, o, yeddi yaşında ikən atasının evindən çıxmışdı və ondan heç bir xəbər-ətər yoxdu. Həmin xanədanın üzvləri nə qədər axtardılarsa da onu tapmadılar, məyus olub təziyəsini tutdular. Yeddi il keçəndən sonra on dörd gecəlik ay cövza bürcündə* görünərkən o, ata evinin qapısı önündə zahir oldu. Onun ayrılığından göz yaşları, ah-nalə içərisində olan o sülalənin xidmətçi və müridləri asiman kəramətlə o ayı (bədr) o ərazidə gördükdə s.10 öz təziyələrini şadlıqla əvəz etdilər, ondan başına gələnləri (8) soruşdular. Dedi: "Doğru yol silkinə mənsub olan (salek) bir dəstə müsəlman cini (əcinnə) məni öz yanlarına apardılar, üzümə şəfəq qapılarını açaraq şəriət və Quran öyrətdilər, beləliklə də mən yeddi il onların arasında yaşayıb fəzilətlərlə (fəzayel) məşğul oldum, hal-hazırda isə vətənə qayıtmışam". İradət (istək) yolunun adamları onun bu zəruri gedişini dini və dünyəvi səadət üçün səmərəli sayaraq, onu əzəmətli babalarının hidayət taxtına əyləşdirdilər. O da alinejad əcdadı kimi yaşayıb, öz qövmünün hidayət və irşadı ilə məşğul oldu. Həyatı sona yetdikdə ata-babalarının vəzifəsi möhtərəm fərzəndi Səlahəddin ər-Rəşidə çatdı, o, hidayət və kəramət taxtını əzəmətli əcdadı kimi zinətləndirdi, Ərdəbilin Kəlxaran adlı yerində məskunlaşdı, iradət ərbablarının verdikləri nəzir və hədiyyələrdən gözünü çəkdi, əkinçiliyə (ziraət) meyl etdi, özünün dost (əshab) və təbəələrini də əkinçiliyə həvəsləndirdi, əhali tarlasında məhəbbət və şəfqət toxumu becərdi. Ömrünün mərhələlərindən yetmiş mərhələ bitdiyi vaxt öz varlıq yükünü axirət mənzilinə apardı. Möhtərəm oğlu Əmir Qütbəddin* öz alimiqdar atasının qaimməqamı oldu, həmin müqəddəs nəslin sərvərinə və rəhbərinə çevrildi, bu sülalə üzvlərini öz nəvazişi və şəfqəti altına alaraq, qiymətli əcdadı kimi irşad yolunu tutdu. O ləyaqətli əmirin sağlığında gürcü hakimlərinin biri bir dəstə kafir döyüşçü ilə qəfildən Ərdəbil vilayətinə hücum etdi, bu hücumdan islam əhlinə çox zərər yetişdi. Onların qorxusundan Əmir Qütbəddin öz iffət sarayının qadınlarını Ərdəbil darülirşadına köçürərək onları etibarlı bir yerdə gizlətdi. Bir gün axşam çağında o, onları yoluxmaq məqsədilə gizləndiyi yerdən çıxdıqda kafirlərin biri qarşısına çıxıb o sərvəri ağır yaraladı, əmir yaralı halda öldürülən adamların arasında qaldı. Baş vermiş bu qorxulu vaqiədən sonra cərrahlar onun müalicəsinə başladılar, yara sağaldı və onun mübarək

zatı sağ-salamat qaldı. Bu hadisədən sonra hidayət və irşad taxtı [yenə] onun vücudunun işığı ilə zinətləndi, əhalinin müşkülatı onun dürlər çəpən dili ilə öz həllini tapdı. Bir neçə il nəvəsi Səfiəddin İshaqın (səftil-həqq və-1-həqiqə) səadətli təvəllüdü dövründə həyatda qaldı, bir neçə il qiymətli [nəvəsini] gördü. Sözün qısası, ölümünə az qalmış həmin gözəl xasiyyətli əmir öz qiymətli əcdadından miras qalan və qorunan o irfan və irşad cəvahirini istəkli fərzəndi Seyid Salehə* verərək, bu aşağı dünyaya vida etdi və onun pak ruh quşu ülvi aləmə pərvazlandı. Seyid Saleh vəlayət və irşad bəhrindəki sədəflərin incisi, hidayət, məsləhət və mürşidlik bürcündəki dürlərdəndi. O, möhtac adamların vəziyyətlərinin yaxşılaşdırılmasına atasından daha çox çalışdı. Xalq indiyəcən onun şan-şöhrəti barədə danışmaqdadır. Onun səadətli qapısı həmişə fəqir və möhtac adamların üzünə açıq olurdu və heç vaxt onların çoxluğundan şikayətlənmirdi. Seyid Salehin dünyadan köçmə zamanı yaxınlaşanda axirət səfərinə hazırlaşdı, şərafətli ruhu saleh və sadiq adamların ruhlarına qoşuldu, həyat bağının cavan tingi (novnehal) Seyid Cəbrayıl* o həzrəti Kəlxaran darülamanında dəfn etdi.

Sultan Seyid Cəbrayıl:*** Allahı tanıyıb onun səcdəsinə əyləşən şəxslərin (səccadeneşinane-xoda) ən məşhuru idi. Təqva (dindarlıq, möminlik, zahidlik - Ş.F.) pəhrizkarlıq, taət (Allaha itaət) və ibadətdə ali dərəcəli adamdı. Öz alicənab atası kimi, doğulduğu Ərdəbil Kəlxaranında qaldı. O diyarın camaatı o möhtərəmin müqəddəs nəfəsindən səadət nurları əxz etməkdəydi. Nəhayət Allahın mərifət zövqü onu zəmanənin qeyri adamlarının söhbətlərindən kənara çəkdi, ona mücahidlik və pəhrizkarlıq, ziyarət rəsmini öyrətdi, zahirini və batinini irfan nuru ilə işıqlandırdı, dilini xamuşluq kamına çəkdi. Adamlarla az danışardı. Məqamının şöhrəti hər yana yayıldı. Hörmətli və şərafətli tayfa əyanından doğulan və dövrün Rabiəsi olan Dövləti adlı bir banu o alinejadla həyat qurdu... onların birliyindən o iffətli [xanım] övliyalar və seçkin şəxslərin sultanı səfiül-həqq və-1-həqiqət vəddin İshaqdan hamilə oldu. Hamiləlik dövründə o mübarək camallı qadın aləmi o qədər işıqlandırırdı ki, sanki dövlətübhü və səadət nurları onun işıqlı alnından parlayırdı. İbn Bəzzaz "Səfvətüs-səfa" kitabında Sultan Sədrəddin dövründəki fəzilət sahiblərindən olan Movlana Məhyəddinin* dilindən Seyx Səfiəddin* və onun kamalına dair, həmçinin onun doğulması və südəmərliyi (reza) dövründəki qəribə

nişanələr və əlamətlər haqqında o qədər məlumat vermiş və söz açmışdır ki, həmin məlumatlar bu kitaba yerləşməz. Xülasə, aləmi işıqlandıran o nur (yəni Şeyx Səfiəddin - Ş.F.) elə ki, səadət üfüqündən doğuldu, altı yaşında olarkən möhtərəm atasına Allahdan "onu darüssalama çağıran "Vallah" nidası gəldi"[76] və o, dünyasını dəyişdi, elə o yerdə də - böyük atasının məzarının yanında dəfn olundu. Həqiqətən də, o həzrətin mübarək qəbri işıq və rəhmət zöhrəsi kimi sanki cənnətin bir parasıdır. Əlahəzrət zilləllah şah o qəbrin üstündəki onun gözünə həqir görünən (mohəqqer) sabiq imarətin üstünü götürüb, onu olduqca səliqə-səhmanlı (təkəllof) və gözəl bir gümbəzlə əvəz etdi. O həzrətin [Sultan Şeyx Cəbrayılın] fərzəndi hidayət taxtının sultanı, pakların pakı və övliyaların dəlili (bürhanı) olan Şeyx Səfiül-millət vəd-dindir. Onun ali məqam və ali tərifini saymaqla qurtarmaz. [Şeyx Səfiəddinin] nurlu qəbri feyz və rəhmət nurunun məskən tutduğu məkandır. Böyük atasının vəfatından sonra, möhtərəm anası İlahinin işıqlandırdığı [Səfiəddini] böyütməklə məşğul oldu. Hələ cocuqluq vaxtından başlayaraq, onda Allah kəramətinin işartıları görünürdü və asiman onun hümayun nurundan parlayırdı. Ondan həmişə qəribə işlər müşahidə olunurdu (məsələn qəbirlərin kəşfi, ölüm hallarının təsviri və bu kimi başqa xüsusiyyətlər). O, bunları anasına danışar və anası da yetişəcəyi yüksək mərtəbələr və böyük dərəcələr münasibətilə oğluna müjdə verərdi. Fəzilət və kəmalət öyrənməklə bir müddət vaxt keçdi. Məna aləmindən zövq almaq, bu aləmi müşahidə etmək və mənimsəmək şövqü şeyxə üstün gəldi, o, mücahidə və pəhrizkarlıq vadisinə qədəm basdı, çünki bilirdi ki, irşad sahibinin (mürşid) köməyi olmadan kamal zirvəsinə yüksəlmək mümkü n deyildir. [Buna görə də] arabir hər ikisi Şeyx Cüneyd Bağdadi nəslindən olan Şeyx Fərrux Ərdəbili və Şeyx Əbu Səidin məzarlarını ziyarət edər, orada ibadətlə məşğul olar, hərdənbir də vaxtını ilahi (rəbbani) mərifətə qovuşmuş Şeyx Səhabəddin Mahmud Amerinin qəbrinin üstündə keçirər, özünə kamil mürşid* axtarışında olardı. O, Şeyx Nəcibəddin Bozegş (?)** Şirazinin vəziyyətini və onun fəzələt dərəcələrinini çoxluğunu bildikdə onu görmək istəyi ilə Şiraza yola düşdü. Özündən böyük olan, Şirazda var-dövlət və etibar qazanan varlı və şan-şöhrətli bir şəxsin qızı ilə evlənərək bu şəhərdə də qalan öz böyük qardaşı Səlahəddinlə

[76] İfadənin ərəbcəsi: "Vallah yəd'u ib dan-s-sələmi"

görüşməyi bəhanə etmiş şeyx mehriban anasından icazə almış və Şiraza rəvan olmuşdu. Yolda rastlaşdığı hər bir Allah adamıyla, dərvişlərlə, Allah əhli (əhlüllah) ilə söhbət edər, onların sözlərini diqqətlə dinləyərdi. Şiraza gəldiyi vaxt Şeyx Nəcibəddin Bozeğş artıq dünya evindən köçmüşdü. O, bu diyarın şeyxləri ilə görüşdükdə istəyində olduğu feyz işığını onlardan ala bilmədi. O əsnada şeyx zəmanə üləmalarından olan Mövlana Rəziəddinlə görüşdü, "Zəlzələ" surəsinə qədər Qur'anın təfsirini birlikdə müzakirə etdi, ondan təfsir dərsinin icazəsini aldı. [Sonra] Şeyx Müslihəddin Sədi*** ilə söhbət etdi, amma onunla həmsöhbət olmaqdan xoşlanmadı. Şeyx Səfiəddini - əxlaqda, hərəkət tərzində, davranışda (süluk) özlərindən yüksək görən o vilayətin dərvişləri və hidayət sahibləri onu seyidlər zümrəsi və dövrün bilikli adamlarının on biliklisi olan Əmir Abdullahın yanına göndərdilər. Elə ki, onunla görüşdü, həqiqətən də onda hərtərəfli biliyə və kamala malik sifətlər müşahidə etdi, cəlal və camal təcəssümü (məzhər) gördü. Həzrət Şeyx Səfiəddin başına gələnləri ona danışdı. O isə bir ləhzə fikrə getdikdən sonra dedi: "Ey cavan türk". Sənin indiyədək riyazət və mocahede**** (nəfsin tərbiyəsi - Ş.F) barədə öyrəndiklərin mənim bəsirət gözümü hələ cəlb etməmişdir. Sənin böyük işlərin hələ qabaqdadır, amma sən axtardığın malları bu bazarda tapa bilməyəcəksən. Bu gün sənin gözlərindən örtüyü qaldırmağı bacaran bir adam var ki, o da ilahi maarif arifi olan və sizin vilayətə yaxın yerdə - Gilanda dərya kənarında inzivaya (xəlvət) çəkilən və xəlvətgahı olan Şeyx Zahid Gilanidir".* [Beləliklə] Şeyx Zahidin gözəl xüsusiyyətləri barədə ona çox danışdı. O, həzrət də, Fars şeyxlərini tərk edərək Şeyx Zahidin saf daxili aləmindən kömək diləyib vətəninə yollandı. Qardaşının ona qiymətli şeylər vermək istəyinə baxmayaraq, o həzrət onları qəbul etmədi və tələb ayağını məqsəd yoluna atdı, Allah-təalanın aman vermək zəmanəti ilə sağ-salamat gəlib Ərdəbil darülirşadına çatdı. Şeyx Zahid o həzrətin zöhdə (zahidliyə - Ş.F.) və batini elmə malik olduğunu kəşf yoluyla bilib, üzünü müridlərinə tutaraq dedi: "Həqiqət axtarışıyla Ərdəbildən buraya bir cavan adam gələrək, mənimlə görüşmək istəyir. Onunla həzrət Rəbb arasında təkcə bir pərdə (hicab) qalmışdır." Xülasə, Şeyx Səfiəddin Şeyx Zahidin olduğu yeri öyrənib oraya üz tutdu, onun kəramətli xanəgahına çatdı, ibadətgahda (sovmee) namaz qılmaqla məşğul oldu. Mübarək ramazan ayı idi. Şeyx Zahidin belə bir adəti vardı: O mübarək ay

gələn vaxt öz məhrəm otağına (hərəmsəra) təşrif aparar və gecə-gündüz taət və ibadətlə məşğul olardı. İftarı öz əhli-əyali ilə açar, fitrə bayramınadək müridlər zümrəsi ilə görüşməzdi. Şeyx Səfiəddinin o ali yerə gəlib çatdığı gün Şeyx Zahid öz xəlvətgahından çıxıb bir xidmətçisinə dedi: "Bu gün ruzigarın haqq-tələb adamlarından biri bizə qonaq gəlmiş və ibadətgahda namaz qılmaqdadır. Namazını qurtardıqdan sonra onu mənim yanıma gətir". Xidmətçi haqq yolunun o arif yolçusunu (salik) gətirdi və o, şeyxlə görüşdən şərəfləndi. Şeyx ona "Səfiəddin" deyə xitab etdi, onun yüksək mərtəbələrə və böyük məqama yetişəcəyi barədə deyilənlərin həqiqət olduğunu gördü, bağlılıq əlini onun ətəyindən asdı və ləyaqətli xidmətinə görə onun xüsusi məhrəmlərindən biri oldu. Nəfsinin təmizliyi (təzkiye)" və pəhrizkarlığı (rəyazət) həzrət Şeyx Səfiəddini həftədə bir yol deyil, üç gündə bir kərə ifrat açmağa sövq etdi. Şeyx onun bu adətini də dəyişdi və o, hər gün iftar etmək barədə qərar verdi. Amma, Şeyx Səfiəddin fəqət bir loğma quru düyü çörəyi ilə kifayətlənib, bol çeşidli yeməklərdən sərfnəzər etdi və qətiyyən ət yemədi. [Ümumiyyətlə] Şeyx Səfiədinin adət və kəramətləri haqda çoxlu məlumat vardır ki, bunlar haqqında "Səfvətüs-səfa" və Yəməni Herəvinin* kitablarında daha çoxdur. Sözün qısası, o kamil sifətləri olan zat daim ruhlar və kabuslar (əşbah) aləmi barədəki dərki çətin məsələləri öz bəsirət gözü ilə açır və doğru yuxular (röyaye-sadeqe) görürdü. Onlardan biri beləydi: Bir gecə yuxuda gördü ki, belində qılınc, başında isə samur dərisindən bir papaq var. Papağı başından çıxaran kimi onun hümayun başının düz ortasından (fərq) aləmi işıqlandırmaqdan ötrü bir günəş parlayırdı. O, gördüyü yuxunu Şeyx Zahidə danışdı və onun yozumunu (təbir) ondan xəbər aldı. İşıqlı fikri olan şeyx onun yuxusunu təbir edərək buyurdu: "Qılınc və günəş güclü bir padşahın zühuru və aradan getməsinin (zühur və xüruc) əlamətidir. Yaxın vaxtlarda sənin belindən (solb) bəxti günəş kimi hamıya işıq saçan, iti qılıncı isə ərbabların zülmünü yox edən bir şəxs peyda olacaqdır". Xülasə, Şeyx Səfiəddin mübarizə və pəhrizkarlıqda çox inkişaf etdi və onun işıqlı batinində ilahi sirlər nuru parlamağa başladı. Şeyx Zahid onu öz kəşflərindən (mosaherat) agah edərək, Zöhreyi-Zəhradan (Məhəmməd Peyğəmbərin qızı - Ş.F.) işıqlanan Fatimə adlı pak qızını onunla evləndirdi. Baxmayaraq ki, Şeyx Zahid hələ sağlığında ona irşad və səcdəyə oturma icazəsi (mürşidlik - Ş.F.) vermişdi, amma o, bunu qəbul etmirdi. Həmin hidayət və vəlayət

taxtının sahibi (Şeyx Zahid - Ş.F.) vəfat edərkən o həzrətlə əhd edərək, onun qabiliyyət qamətinə həmin köynəyi geyindirdi (yəni onu mürşid elan etdi - Ş.F). Qərəzkar adamlar Şeyx Zahidə etirazla dedilər: "Sənin sadiq oğlun kamallı və yetkin Cəmalləddin Əlini irşadla şərəfləndirməkdənsə, niyə Şeyx Səfiəddini bu ali taxta qaldırırsan?" Şeyx müridlərin şübhəsini aradan qaldırmaq və onları sakitləşdirməkdən ötrü oğlunu və Şeyx Səfiəddini sınamaq məqsədilə dedi: "Oğlumun xəlvət yeri haradır?" Dedilər: "Xanəgahın məhrəm yerində." Buyurdu: "Səfinin xəlvət yeri haradır?" Dedilər: "Şeyx Səfiəddinin yerindən oraya yarım fərsəx* yol var." Dedi: "İndi mən onların hər ikisini buraya çağıracağam, siz onların hansının bu rütbə və məqama layiq olduğunu görəcəksiniz." O, oğlunu üç dəfə səslədisə də ondan səs gəlmədi, amma Səfini çağırmaqla ondan cavab eşidildi: "Ləbbeyk, ey şeyx, ey mürşid" və özü də gəlib çıxdı. Şeyx soruşdu: "Səfi, sən haradaydın?" Dedi: "Öz xəlvət yerimdəydim. Şeyxin şövqlü nidasını eşidib onun xidmətinə gəldim." Şeyx üzünü qohumlarına tutub dedi: "Mənim nəzərimcə, "Allah-təala"[77] mənim nəzərdə tutduğumu Səfiyə vermişdir, Cəmaləddinə yox. Mən də Allahın əmanətinə xəyanət etmədən onu öz sahibinə verdim." Xülasə, Şeyx Zahid Gilanın Savrud adlı yerində yeddi yüzüncü ildə (miladi 1300/01) üqba aləminə yollandı və elə vəfat etdiyi yerdə də dəfn olundu. Həzrət sultanül-övliya Şeyx Səfiəddin iradəti, geyim-keçimi (xirqə) və irşadı (mürşidlik nişanələridir -Ş.F.) baxımından Şeyx Zahiddən, Şeyx Zahid - Seyid Cəmaləddindən, Seyid Cəmaləddin - Şəhabəddin Mahmud Ameridən, Şeyx Şəhabəddin - ondan yeddi nəsil əvvəl yaşamış Şeyx Cüneyd Bağdadidən, Şeyx Cüneyd - Səri Səqətidən, Səri Səqəti - "Kerexi-Xadim" kimi tanınan Həzrət İmam Əbülhəsən Əli İbn Musa ər-Rizadan götürmüşdür. Nəticə etibarilə [deyə bilərik ki,] Şeyx Zahidin vəsiyyətinə görə həzrət Şeyx Səfiəddin hidayət və irşad taxtına əyləşdi, əhalini şəriət, təriqət və həqiqətin müstəqim (doğru) yoluna çatdırmağa başladı. O həzrətin Şeyx Zahidin qızından Sədrəddin Musa* adlı bir fərzəndi doğuldu. Həzrət Şeyx Səfiəddin pəhrizkarlığının çoxluğundan zəiflədi və bir müddət öz dini dərdinin darmanını təsəvvüf aləmində tapdı və buna sevindi. Nəhayət, onun zəifliyi qüvvətləndi, şcyx natəvanlıq yatağına düşdü. Xəstəlik vaxtında ağrıdan narahatlığına baxmayaraq, Şeyx Zahidin uyuduğu

[77] İfadənin ərəbcəsi: "Allah sobhanə və təalə"

ətirli (möəttər) qəbrin ziyarətinə gedərək, orada bir az arxayınlaşdı, vəziyyəti yüngülləşdi. Bir gün ağrının şiddətindən möhtərəm zövcəsinə (həbilə) dedi: "Məni mənim evimə aparın". O həzrətin xidmətçiləri ona dedilər: "Siz öz evinizdəsiniz." Buyurdu: "Mənim əsl evim oradadır", (yəni Şeyx Zahidin yanındadır – Ş. F.). [Beləliklə,] Şeyxi oraya apardılar. Bu hal bir neçə dəfə təkrarlandı. Vəfat edən vaxt müqəddəs nişanlı səfəviyyə müridlərini bir yerə topladı, səhabələrinə və övladlarına pak şəriət yolundan və şeyxlər təriqətindən dönməməyi buyurdu, kasıblara (füqəra) ənam vermələrini vəsiyyət etdi. Şeyx Sədrəddin Musa haqqında isə dedi: "Səcdəyə oturmaq və irşad hüquqi fərzəndim Sədrəddinə çatır". Sonra möizə və nəsihətlərə başladı. Nəhayət, gücünü qeyb aləmindən alan ecazkar dili danışıqdan qaldı, son sözü bu oldu: "Ona (Məhəmməd Peyğəmbərə - Ş.F.) salavat göndərin - gözəl bir salam"[78] Yeddi yüz otuz beşinci ilin (miladi 1334) məhərrəmül-həram ayının on ikisində, düşənbə günü sübh namazından sonra o, əcəl saqisinin əlindən şərbət içdi, dünya aləminin iztirab evini (aşubxanə) müşahidə etməkdən gözünü çəkdi. Onun möhtərəm xanımı da, Allah dərgahından etdiyi dua və xahişə görə on səkkiz gündən sonra vəfat edərək həzrətlə birləşdi, cənnət bağçasına yollandı. "Mən Allaha mənsubam və ona da qayıdacağam. Allahın övliyaları ölmürlər, lakin dəyişirlər"[79]

Beytlər

Ölməyir, ölməzdir sadiq adamlar,
Ölüm aid deyil onlara qəti.
Fəna zövqünü sən dadıb bilərsən,
Bahardan üstündür xəzan xələti.[80]

[78] İfadənin ərəbcəsi: "Səllə əleyhi və səlləmə təsliman".
[79] İfadənin ərəbcəsi: "İnnənə li-1-lahi və innənə ileyhi raciunə illə ənnə ovliyaə-1-lahi və yəmutunə və lakin yənqəlibunə".
[80] Beytlərin farscası:
Hərgez nəmordeənd - o nəmirənd əhle-del,
Namist hərfe-mərg bər in qovme-torcoman.
Zovqe-fəna noyafteyi v-ər nə dər nəzər
Rəngintər əz bəhar bovəd xələte-xəzan.
Qeyd: Bir din qardaşımız Altay Cəmil bu beytləri tərcümə etmişdir ki, məzmun və məna baxımından opijinala uyğun olduğu üçün onun tərcüməsini də burada verməyi münasib bildik. - Ş.F.

Yəmənin "Fütuhat" kitabında belə yazılmışdır: "O həzrətin vəsiyyətinə görə onun qüslü və kəfənlənməsi Seyid Cəmaləddin İsfahani tərəfindən icra olundu, Sultan Sədrəddinsə o vaxt Sultaniyyədə idi. Səfəviyyə sülaləsinin üzvləri onun pak cəsədini həzrət şeyxin özünün buyurduğu yerdə dəfn etdilər ki, həmin yer indi "Təvaf yeri" ("Mətafe-təvayef") adlanır".

Sultan Sədrəddin Musa*: Sərvərlik asimanından çıxan ay (bədr) və xoşbəxt ulduzlarla dolu göydən doğan günəş idi. Uşaqlıq və cavanlıq dövründə onun hümayun alnında zöhd və təqva nurları parlayır, çöhrəsində xeyirxahlıq və cəsarət (səlah və rəşad) əlamətləri aydın görünürdü. Başçılıq etməkdə və irşadda sərəfraz bir sərv, alicənablıqda (olovv) isə başqalarından fərqlənən və üstün olan bir adam idi. Qiymətli atası tərəfdən üstünlük (səyadət) və kəramət bürcündən, xoşbəxt ulduzlu anası tərəfdən isə irşad sədəfindən doğan ulduz idi. O, hidayət və zahidlik səccadəsində əyləşən yeddinci şeyx idi. "Fütuhate-Yəməni"də yazılmışdır: "Şeyx Zahidin qızı ilə həzrət sultanül-övliya (Şeyx Səfiəddin - Ş.F.) arasında kəbin kəsilən gün şeyx kəbinkəsmə mərasimində ayağa durub [sanki] bu məclisdə iştirak etməyən məchul bir şəxsə böyük təzim və ehtiram nümayiş etdirdi. Məclisdə olan adamlar ondan bunun sirrini soruşdular. Şeyx buyurdu: "Mənim nəvələrim olacaq Səfiəddin övladlarının təcəssümünü gördüm. Onlarınsa arasında elə bir səadətli adam gözümə dəydi ki, mənim və Səfinin qaimməqamı olacaqdır. Elə buna görə də, mən bu adamda ali bir məqam görərək ona təzim etdim". Elə ki, taleyin doğuş üfüqündən o ayüzlü (mahtələt) şeyx (Sədrəddin Musa - Ş.F.) çıxaraq aləmi işıqlandırdı, həzrət sultanül-Övliya iradət ərbablarına və rəşadətli səhabələrinə belə bir xəbər verdi: "Bu qiymətli cövhər o səadətli fərzənddir ki, Şeyx Zahid kəbin mərasimində ona təzim etmişdi". Sədrəddin Musa öz böyük atasının yanında bir neçə il fəzilətə və yüksək xüsusiyyətlərə malik olmağı öyrəndi, zahiri və batini ülviliyin kamal mərtəbələrini qət etdi, onun hidayət və irşad sahibi olması xəbəri (seyt) bütün dünyaya yayıldı. "Nəfəhatül-üns"* kitabının müəllifi

---

Könül yolçuları ölməyir, ölməz.
Ölüm onlar üçün qəlbin xilası.
Kim fəna zövqünü dadmasa, bilməz
Ki, yazdan əlvandır xəzan libası."

"bütün dövrlərin sirrlərini kəşf edən (kaşef)"** Seyid Qasım Ənvarın*** mədhində belə deyir: "Hələ məlum deyildir ki, bütün dünyada pak imamlardan sonra Seyid Qasım Ənvar kimi başqa bir adam tapıla bilsin." Sonra sözlərini izhar edib yazır: "İradət və müridçilik baxımından Allahın o arif bəndəsi (arife-rəbbani) həzrət Şeyx Sədrəddin Ərdəbilinin davamcısıdır." Xülasə, o həzrət yüksək nejadlı atasının vəfatı vaxtı irşad sərvətinin xəzinədarı oldu, səadətli atasının vəfatından sonra isə Sultaniyyə səfərindən qayıtdı. O ali sülalənin üzvləri onun aləmi bəzəyən cəmalını müşahidə edib şeyxi yas libasından çıxarmaqdan ötrü bir təziyə məclisi qurdular, düzgün yolu (təriqe-möbin) müəyyənləşdirənlər əməlinin paklıq və niyyətinin xoşxahlıq olduğuna görə o həzrəti həzrət şeyxin vəsiyyətinə əsasən irşad taxtına əyləşdirdilər, ona itaət etdilər [və o irşad taxtı] məliklər və şərafətli şəxslər üçün səadət qapısı oldu. Moğol (monqol - Ş.F.) əmir və əyanlarının o irşad xəzinələrinin xəzinədarına böyük etimadları vardı və şeyx gün-gündən izzət və sərvərlik meracına yüksəlirdi.

Onun himmət memarı hal-hazırda hamının ziyarətgahına (motafe-təvayef) çevrilən böyük bir bina, sultanül-övliyanın şərəfinə mübarək bir türbə (mərqəd) tikdirdi, həmçinin oranın mühafizə evini (darül-heffaz) və başqa tikililəri öz vəsaiti ilə olduqca gözəl görünüşdə inşa etdirdi, o yerlərə xoş səsli Quran qiraətçilərini (hafezan) cəlb etdi. O tarixdən bu tarixədək həmin işıq və rəhmət məskənindən gecə-gündüz Quran təlavəti eşidilməkdədir.

Beytlər

O pak məzar üstə şövqə gələrək
Bir türbə ucaltdı cənnət qəsritək.
İlahi feyz ilə özül qoyuldu,
Ayla gün o qəsrin kərpici oldu.
Göylərə baş vurdu başı qübbənin
Hər görən "tayıdır,- dedi.-Kə'bənin".
Türbə hafizləri gündüz və gecə
Təsbih və təhlillə[81] məşğuldur necə![82]

[81] Qeyd: Təsbih - "sübhanallah", təhlil isə "Lə iləhə illəllahu vəh-dəhu lə şərikə ləhu. Ləhul mulku və ləhul həmdu və huvə alə kıılli şə'yin qadirun" ifadəsinin zikridir. Təsbihdəki sübhanallah - "Allah pak və nöqsansızdır" deməkdir; Təhlildəki cümlə isə

Elə ki, o müqəddəsin ömrü Allah axtarışı və şəriət pərvərlik yolunda sona yetdi, öz hörmətli atasının yanında fəzilət və kəmalət öyrənən, həmçinin irfan bəzəyi ilə bəzənən ləyaqətli fərzəndi Xacə Əli* o ehtirama layiq (sotudexesal) həzrətin qaimməqamı oldu, böyük atasının pak cəsədini əvvəlki övliyalar kimi sultanül-övliyanın qübbəsi göylərə ucalan türbəsində dəfn etdi, həmin şərif məkanın şərəfini daha da çoxaltdı. Sultan Xacə Əli mücahidə, riyazət, nəfs toxluğu, batin saflığında "öz əcdadlarının yolunu davam etdirən layiqli oğul kimi"[83] ləyaqətli şeyxlərdən olan ata-babasının yolunu davam etdirdi, rəbbani rəmzlərdən və asimani sirlərdən xəbərdar oldu. Baş vermiş vaqiədən sonra o, hidayət və irşad taxtını öz hümayun parlaqlığıyla bəzədi, müqəddəs Səfəviyyə xanədanının saf sufitari** həmin saf adamdan feyz və nur aldılar. Onlar o həzrətin adət və xüsusiyyətlərini daim müşahidə etməkdəydilər. Deyilənə görə, Sultan Xacə Əli böyük əmir sahibqran Əmir Teymurla*" üç dəfə üzbəüz görüşdü. İlk görüş onun (Əmir Teymurun - Ş.F.) Xorasana yürüş əmri ilə Ceyhun çayını keçib* gəlməsi zamanına təsadüf etdi. O vaxt əmirin qamçısı (tazyane) çaya düşmüşdü. Nimdaş geyimli bir dərviş həmin qamçını sudan çıxarıb ona verdi. Əmir Teymur bu əhvalatın yozumunu (təfal) dərvişdən xəbər aldıqda o, dedi: "Vətənim Ərdəbil, doğumum Dizfuldur, məzanın isə Qüdsi-Xəlil** olacaq". Bu sözlər batini aləmdən xəbər verən o həzrətə aid misallardan biridir. Əmir Teymur Bağdaddan Xüzistana ləşkər çəkən vaxt Dizful çayındakı körpüdə çiyninə qara bir xirqə*** salmış bir dərviş ona dedi: "Mən Ceyhun

---

belə tərcümə olunur: "Allahdan başqa ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, hakimiyyət (mülk) Ona məxsusdur. Bütiin tə'riflər (həmd) Ona aiddir. Və O hər şeyə qadirdir."

[82] Beytlərin farscası:
Dər an mərqede-pak minusereşt
Fekənde benayi ço qəsre-beheşt.
Homayun məqami ze feyze-ilah
Məh-o mehr xeşli əz an bargah.
Səre- qobbe bər çərx əfraşte,
Həriməş ze Kəbe neşan daşte.
Şəb-o ruz hafeze-an asitan
Be təsbih-o təhlil çon qodsiyan.

[83] Ərəbcəsi: "Əl-vələdu hurrun yaqtədi bi əbəihi-1-ğuru"

çayının sahilində tazyanəni sənə verən həmin dərvişəm. Bizim daha bir görüşümüz isə Ərdəbildə olacaqdır". Bir neçə ildən sonra Əmir Teymur Rum səfərindən qayıdaraq, əsir tutduğu bir dəstə rum adamı ilə gəlib Ərdəbil darülirşadına çatdı. Möhtərəm Şeyx Səfiəddinin tərifini, yüksək dərəcələrini və məqamının ucaldığını eşidib, onun mübarək qəbrinin ziyarətinə gəldi. Ziyarət mərasimini bitirdikdən sonra həmin türbənin səccadəneşinlərini (yüksək rütbəli namaz qılanlarını - Ş.F.) də görmək fikrinə düşdü. Ona Sultan Xacə Əli barədə məlumat verdilər. Əmir Teymur onunla görüş üçün şeyxin xəlvətsarayına gəldi. Şeyx ibadət səccadəsi üstündə oturub, ilahi həmd ilə məşğuldu. Xadimlərin padşahın gəldiyini bildirmələrinə baxmayaraq, şeyx ona iltifat göstərməklə, oturmağı təklif etdi, əyləşərək moizə və nəsihət xəsinəsinin qapılarını onun üzünə açdı, əmirin diqqətini xəlqullah barədəki fikirlərlə zənginləşdirdi. Ürəyinə yatacaq hərəkət müqabilində öz iradət əlini o həzrətin hidayət çiyninə toxundurmaq məqsədilə Əmir Teymur özü ilə üç şey götürmüşdü ki, onların hər üçünü, Əmir Teymurun əgər istəyi ürəyində tutduğu kimi baş versə, onun iradət əlinə təqdim edib onun hidayətini eşitsin. Hər üçü könlü istədiyi kimi oldu. Buna görə də, iradət əlini həzrət şeyxə verib, şeyxdən nə xahiş edəcəyini soruşdu. Fəqirlik və məna padşahlarının məgər surətə**** ehtiyacları vardırmı? Bu alçaq dünyanın xırda saxsı tör-töküntülərinin (xəzəf) ilahi mərifətin qiymətli cəvahirlər bazarı ilə nə əlaqəsi? Şeyxin parlaq beyni dünyəvi işlərdən uzaq, şərafətli istəyi isə dünya ilə zahiri əlaqələrdən kənar olduğu üçün o, şeylər barədə öz mübarək dilini danışdırmadı. Padşahın təkidindən sonra, Allah rizası naminə Rum əsirlərinin azad buraxılmasını xahiş etdi. Əmir Teymur öz razılıq barmağını gözünün üstünə qoyaraq, bütün əsirlərin azad olunması barədə hökm verdi, Ərdəbildə və onun hüdudunda olan bir neçə kəndi və məhsuldar tarlanı da öz halal pulu ilə alaraq, o müqəddəs türbəyə bağışladı, o şərafətli məkanı pənah və bəst* yeri elan etdi, həmin yerin xəracının o ali sülaləyə (Səfəvilərə - Ş.F) verilməsini buyurdu. O tarixdən etibarən, həqiqətdə dudmanın azad etdiyi həmin əsirlər bu vəlayət nişanlı sülalənin pak etiqadlı müridləri və sufiləri silkinə daxil oldular. Camaat arasında belə danışırlar: Əmir Teymurun həzrət Sultan Sədrəddin Musa ilə görüşü olmuş və yuxarıda yazılanlar onların arasında baş vermişdir. Amma, məsələnin düzgünlüyü (əsəh) bundadır ki, [Teymurla] söhbət edən Sultan Sədrəddin Musa deyil, məhz Sultan Xacə Əli olmuşdur. Mən

tarix kitablarında, yaxud bu sülalə haqqındakı mənzum və mənsur yazılarda bu haqda heç nə oxumamışam, amma yuxarıda söylənənlərin şayiə (təvatöre-əfvah) olduğunu bildim və bu barədə məlumat verdim. [Eyni vaxtda bildirirəm ki,] qızılbaşların Bəlxə yürüşü və Əndxəd qalasının qazilər tərəfindən alınması vaxtı monqolların al tamğası (möhür) və Əmir Teymurun möhürünün əlaməti olan bir vəqf dəftəri (dəftəre-vəqfiyyə) qazilərin əlinə keçmiş və əlahəzrət zilləllah şaha göstərilmişdir ki, həmin vəqf dəftərində həzrət Sultan Xacə Əlinin bəzi kəramətləri haqqında məlumat vardır. Xülasə, heç vaxt mənəvi təvaf və ziyarətdən qalmayan Allahsevərlik yolunun o yolçusu şəriət qayda-qanununun tələbi üzrə öz məqsəd Kəbəsinə getmək şövqü ilə həmin istiqamətə yola düşdü, irşad taxtını (məsnəd) və cənnət əcaclı (cənnətnehad) rovzənin seyidliyini (səyadət) və vəlayotini böyük bir ağacın (dəvhe) bəhrəsi olan Sultan Şeyx İbrahimə" tapşırdı. Bir dəstə haqq ohli (əhli-Haqq) və yoqinlik [yolunun] ərbabı ilə birgə "hər kim Allahın şüarlarını (şəayer) uca tutarsa"[84] [ayəsinə] əməl edib, beytullah Həccinə tərəf yola düşdü, "ləbbeyk" ("eşidirəm və itaət edirəm") deyə-deyə və səadət yolunu axtara-axtara həmin əminlik (eymən) vadisinə çatdı.

Onun səadətli oğlu atasından ayrılığa tab gətirə bilmədi, o da faydalı Hicaz* səfərinə başladı, tələb vadisinə səy qədəmi ataraq uzun yol getdi, Kəbə ziyarətinə yetişərək, mələk xislətli atasının ayağını öpməklə şərəfləndi. Ata ilə oğul birlikdə Həcc ziyarətini başa vurub oradan Qüdsi-Xəlilə yollandılar, orada ənbiyanın (nəbilərin - Ş.F.) ruhlarının (ərvah) ziyarəti və Əqsa məscidinin təvafı ilə feyziyab oldular. Elə o müqəddəs yerdə də Sultan Xacə Əlinin şərafətli məzacı öz təbii axarından dönüb axirət səfərinin hazırlığına başladı. O, irşad dəvəsinin (naqe) cilovunu öz sevimli fərzəndinin əlinə verdi, o səfərdə yol yoldaşları olanlarla vidalaşdı, həyat nəqdini Qüds aləminin xəzinədarına təhvil verdi. Şeyxin oğlu dəfn mərasiminə başlayıb, o pak cəsədi həmin müqəddəs torpaqda dəfn etdi. [Sonra] müridlər və yoldaşlar (rəfiqan) zümrəsi ilə birlikdə o xoşbəxt (meymənətəsər) səfərdən qayıtdı və Ərdəbil darülirşadı onun hümayun gəlişiylə çiçəklənməyə (13) başladı. Onunla görüş xanədan üzvlərinin gözlərini işıqlandırdı və onlarm dilləri bu şer kimi danışmağa başladı:

[84] İfadənin ərəbcəsi: "Və mən əzzəmə şəaira-1-lahi"

O sərv ayağını çəksə də yerdən,
Onun yadigarı cahanda sənsən.
Dostlar qoy səninlə unutsun yası,
Səninlə ucalsın zəka binası.[85]

Sultan Şeyx İbrahim əlahəzrət zilləllah şahın hakimiyyəti dövründə "Şeyxşah" kimi tanınırdı. O, "Mən atalarımın ... ardıcılıyam"[86] kimi düzgün dcyimin məzmununa uyğun öz ata-babalasının göstərişi (dəstur) ilə irşad taxtına əyləşdi və düzgün yolun tələbələrini (taleban) müstəqim şəriət və dinpərvərlik təriqətinə yönəltdi. Şeyx xəlifələri (küləfa) və əyanları ətraf yerlərə göndərərək, az vaxt ərzində şöhrətləndi. Camaat onun torpağını (torab) öz etibar gözlərinin sürməsi (kehəlül-cəvahir) bilir, ona etibar edirdilər. İradətli adamların çoxluğu (ezdeham) onların [Şeyx İbrahimin] izzətli rövzəsinə gəlişlərini və onunla görüşlərini çətinləşdirirdi. Şan-şöhrəti gün-gündən çoxalır, o vilayət sakinlərindən heç kim onun zəruri fərmanlarının ziddinə getmirdi.

Şeyxin bol ənamlarından və səxavətlərindən kasıblar (foqəra) və ehtiyacı olan adamlar (mohtacan), bütünlüklə o diyarın bütün sakinləri faydalanırdılar. İnşa etdiyi aşbazxana (mətbəx) qızıl və gümüş qablarla doluydu, onun verdiyi bəxşiş və ehsanlar ata-babalarının verdiklərindən çox, xasiyyəti şahanə, bəyənilən görünüşü padşahanə idi. Oyunbaz fələyin şivəsindən idi ki, onun hümayün zatı müxtəlif xəstəliklərə məruz qaldı, zəmanə o sülalənin şadimanlıq büsatını əlindən aldı və onları uzun sürən xəstəliklərə düçar etdi, Şeyx İbrahimin də ömür payəsi yıxıldı, nurlu üzünü sanki ildırım (bareqe) vurdu, həyat və ölümün fayda və ziyanından gözünü çəkdi. "Rəbbindən razı və Rəbbini razı salmış halda Allahına dön"[87] [ayəsinə uyğun] mərəz onun canını aldı. Sadiq adamlar və bu sülalənin üzvləri hamıya üz rutaraq, bütün varlı və kasıb, cavan və qocaları bu vaqiədən agah etdilər, onları moizə, nəsihət və

[85] Beytlərin farscası:
Əgər rəfte an sərv oz cuybar,
To başi be giti ze-vey yadegar.
Dele-dustan əz roxət şad bad,
Benaye-xerəd əz to abad bad.
[86] İfadənin ərəbcəsi: "Va ittəboət millətə abai
[87] İfadənin ərəbcəsi: "İrciəi ilə Rəbbikə radiyətən və mərdiyətən"

vəsiyyətlərə əsaslanaraq, şeyxin bənzərsiz fərzəndi Sultan Cüneydin* lehinə meyilləndirdilər, onu vəliəhd və canişin elan etdilər. Sonsuz ehtiramını saxladılar. "Bu sizə tapşırığımızdır. Bu tapşırıq sizə iki evdə (burada ev "dünya" mənasındadır - Ş.F.) tapşırdığımızdır."[88] Şeyxin şərafətli vəsiyyətinin icrasından sonra əzadarlığa başladılar, həzrət Sultan Cüneyd dəfn mərasiminə başlayıb atasını əzamətli babalarının yanında dəfn etdi.

Sultan Cüneyd ənginliyə üçan şahbaz, fələk vüqarlı şah (xosrov), səxavət (fotovvət) və irşad asimanından parlayan ay, xilafət üfüqündən zahir olan günəş idi. Elə ki, sərvərlik və dinpərvərlik taxtına əyləşdi, əhalini öz səltənət və padşahlıq iddiası ilə irşad elminin və dinin yardımından agah etdi. İradət əhli olan adamlar hər tərəfdən sədaqətlə onun yanına gəlməkdəydilər. O, iradət ərbablarını azğın kafirlərlə qəza* və cəhada** şirnikləndirirdi (təhris). Ətrafındakı adamlar gün-gündən çoxalırdı və onların arasında iradətli və sədaqətli insanların sayı artmaqdaydı. Dövrün padşahı və İraqeyn və Azərbaycanın hökmdarı olan Mirzə Cahanşah*** Türkman Sultan Cüneydin başına çoxlu adamın toplaşması və onların böyük hərbi silaha malik olduğunu eşidərək, o həzrətə qarşı pis münasibətdə oldu. O, öz mülk və dövlətinin zavala uğrayacağından qorxuya düşdü, amma adının bədnam olacağından çəkinib onunla hərb etməyi özünə layiq bilmədi. [Lakin,] dəfələrlə o həzrətin yanına adam yollayaraq gizli, ya açıq şəkildə ona bildirirdi ki, dövlət mərkəzindən çıxsın, şərafətli fikri haranı istəyirsə oraya da getsin. O həzrət vaxtın məsləhətinə uyğun olaraq Diyarbəkrə getməyi özünə məsləhət bildi və o tərəfə yollandı. Səfəviyyə dudmanının və saf səfiyyə təriqətinin tərəfdarlarından ibarət çoxlu adamla oraya yola düşdü və hamını öz səadət bayrağının kölgəsi altına yığdı, təm-təraqla gələrək Hisn-Keyfdə**** dayandı. O vaxt Diyarbəkirin yarı hissəsinin valisi Mirzə Cahanşaha ibadət etməyən Əbu Nəsr Həsən bəy Ağqoyunlu**** idi. Onların arasında düşmənçilik qapıları açılı, get-gol yolları qapalı idi. [Həsən bəy Ağqoyunlu] Sultan Cüneydin məsud ordusunun gəlişindən şad olub, o həzrəti izzət və ehtiramla qarşıladı, sufiyyə əyanının hər birinə münasib yer təyin etdi, şeyxin gəlişini dövlət və iqbalın yüksəlişi kimi qiymətləndirdi, onların aralarında ünsiyyət (movanesət) və birlik (ettehad) yarandı, nəhayətdə isə onların münasibətləri dostluq

[88] İfadənin ərəbcəsi: "Həzə mə əhədna ileykum va-1-əhdətu fi-d-dəreyni əleykum"

və qohumluqla nəticələndi. Öz əyan baçısı (həmşirə) Xədicə bəyimi o həzrətə ərə verdi, beləliklə bu qohumluğa görə öz dövlət nağarasının avazını qüvvətləndirdi. Sultan Cüneyd o diyarda bir müddət qaldıqdan sonra onun qəlbində "Vətən məhəbbəti imandandır"[89] hədisi baş qaldırdı, Əmir Həsən bəydən tapşırıq (dəstur) aldı və az vaxt ərzində Ərdəbil darülirşadı "heç bir ölkədə yaranmamış sütunlara malik olan İrəmə"[90] döndü. Hümayün gəlişi ilə şərəfləndi, onun cahanı bəzəyən üzünü görən adamların gözləri işıqlandı. Bunu bilən Mirzə Cahanşahın zatındakı həsəd tonqalı yenidən alovlandı, [Cüneydin] Əmir Həsən bəylə qohumluğuna görə olan qorxusu daha da çoxaldı. O, Sultan Cüneydin işini bitirmək üçün faydasız fikirlərə düşdü. Bundan agah olan o həzrət iradət ərbablarını yanına çağırmaqdan ötrü ətraf yerlərə külək sürətli qasidlər yolladı, səltənət xəyalı ilə öz dövlət bayrağını ucaldıb, qəza və cəhad fikrinə düşdü, sufiyyə qazilərindən (qozzat) on min nəfərədək adam topladı və onlar Çərkəz* qəzası iddiası ilə Şirvana rəvan oldular. "Fotuhate-Yəməni" kitabında yazılıbdır: [Şeyx] şirvanşahla müharibə etmək və Şirvan mülkünü tutmaq iddiası ilə o tərəfə rəvan oldu. Şirvan vilayətinin valisi Sultan Xəlil Təbərsəran qiyamçılarının (taği) təhriki (əğva) ilə Sultan Cüneydə qarşı müxalifət təbilini çalaraq, onun Çərkəz[istana] getməyinə mane oldu. O, döyüşkən bir ləskər toplayıb onunla vuruşmağa yollandı, zəfər pənahlı qoşunun önündə səf düzüb döyüşə başladı. Qarşı tərəfdən də kamil mürşidin yolunda ölməyi özlərinə sədaqət mərtəbəsi bilən sufiyyə qaziləri hümayün məiyyətlə birlikdə döyüş səfi bəzədilər və hər iki tərəfdən hərb atəşi alovlandı. Yamanlıq qılıncları işə düşdü, iti qanadlı qartallar biri-digərinin qəsdi üçün pərvaza başladılar. Canlardan keçən qazilər öldürülmələri həqiqətən də gərəkli olan din yolundan azmış o quldurların (əşrar) şərini aradan qaldırmaqdan ötrü qətiyyətlə cidd-cəhd etdilər. Sultan Cüneydin özü şəxsən döyüşə çıxdı:

Beytlər

Döyüşə başladı o Düldülsüvar,
Etdi hər həmləsi yağıları zar.

[89] İfadənin ərəbcəsi: "Hübbü-l-vətəni min ə-1-imani"
[90] İfadənin ərəbcəsi: "İrəm zəm-1-imədi əlləti ləm yuxləq misluhə fi-l-bilədi"

Almas tək bərq vuran qılıncı çəkdi.
Düşmənin qanını torpağa tökdü.[91]

O həzrətin şəhadəti qəzavü qədərdə yazıldığı üçün şirvanşah döyüşçüləri onu "ayın haləsi kimi"[92] əhatəyə alıb, cahanı gəzən atını ayaqdan saldılar. O həzrət döyüş zamanı hadisə saqisinin əlindən şəhadət şərbəti içdi. Meydanda öz səbat ayaqlarını möhkəm saxlayan qazilər də şəhadət qanına bulaşdılar, amma onların bəziləri "Dözülməz şeydən qaçmaq haqqında" hədisində deyildiyi kimi[93] fərar etdilər. "Fotuhate-Yəməni"də yenə də yazılıbdır ki, səfəviyyə xanədanının sufiləri o hidayət sultanının şərafətli cəsədini darülirşada gətirib müqəddəs rövzədə dəfn etdilər. Amma bu həqir şəxsə (yəni İsgəndər bəyə - Ş.F.) məlum olan budur ki, həmişə bu sülalənin tərəfdarları olan bir dəstə Təbərsəran əhli o həzrətin pak cəsədini döyüş meydanından çıxarıb münasib bir yerdə dəfn etdilər. Elə indi də həmin şərif məkan o vilayət adamlarının feyz, rəhmət və ziyarət yeridir. Xülasə, Sultan Cüneyd vaqiəsindən sonra onun candan artıq istədiyi fərzəndi (fərzənde-canpeyvəndəş), vilayət taxtının sultanı, hidayət sarayının vəliəhdi və böyük əmir Əbu Nəsr Həsən bəyin bacısı oğlu olan Sultan Heydər* öz ali məqamlı atasının qaimməqamı oldu.

Sultan Heydər vəlayət bürcündən doğan (tolu) günəş və səltənət ümmanının sədəfindən çıxan dürr kimi ortaya çıxdı. O, ata-babasının yolunu davam etdirmək istədi. Öz iqbalının qüvvəsi ilə Mirzə Cahanşahı** ayaqdan salıb, ölkənin padşahı olmuş mərhum Həsən padşah o vəlayət və sərvərlik asimanının günəşi (mehr) ilə [Sultan Heydərlə - Ş.F.] daha da yaxın olmaq istəyinə düşdü, bu dudmanla (səfəvi şeyxləri ilə - Ş.F.) əlaqələrini möhkəmləndirmək naminə Ələmşah bəyim* kimi məşhur olan sevimli qızı Həliməbəyim ağam ona ərə verərək, iffət bürcünün o Zöhrəsini** səadət göyünün Müştərisi*** ilə birləşdirdi. O həzrət özündən əvvəlki şeyxlərdən daha yüksək dövlət və sərvərlik meracına qalxdı.

---

[91] Beytlərin farscası:
Bor ayine-sultane-Doldolsəvar
Be hər həmle əz cəm'e-an xaksar
Ze əlmasgun şoleye-tabnak
Fekəndi goruhi bər in tire xak.
[92] İfadənin ərəbcəsi: "Kə-1-ihatəti bi-l-bədri"
[93] İfadənin ərəbcəsi: "Hədisu-1-firar mimmə lə yutaqu"

Onun ali rövzəsi daim yaxın-uzaq adamların toplaşdığı yer idi. Bir gecə, sonralar həqiqətə çevrilən bir röya (röyaye-sadeqe) gördü: Qeyb aləminin xəbər gətirənləri (monhi) onun öhdəsinə qoydular ki, o gərək isna əşəriyyət (on iki imam - Ş.F.) əlaməti olan qırmızı zolaqlı bir papaqla öz tərəfdarlarının başını bəzəsin. Sultan [Heydər] bu yuxunu gördükdən sonra başına şadimanlıq papağı qoyub o vaxtlarda dəbdə olan türkman papağını on iki zolaqlı "Heydər papağı" ("tərəke-Heydəri") ilə əvəz etdi. Onun arxasınca gedən və ona itaət edən adamlar da o həzrətin əqidəsinə tabe (eqteda) oldular və bu xanədanın bütün üzvləri həmin dəyərli papağı başlarına qoymaqla başqa adamlardan seçildilər. Elə buna görə də, o şan-şöhrətli adamlar "qızılbaş"**** ifadəsi ilə məşhur oldular. Xülasə, o həzrətin həşəməti gün-gündən artırdı. Sədaqətli adamların onun başı göyə ucalan dərgahına gəlişləri daim çoxalır, bütün əhali onun fəzlindən bəhrələnirdi. [Sultan Heydər] zahiri və mənəvi səltənəti öz əlində cəmləşdirib, batində irşad və dinpərvərlik yolunun yolçuları olan şeyxlərin və əhlüllahların (Allah adamlarının - Ş.F), zahirdəsə taxt bəzəyən sultanların sərvərinə çevrildi. Böyük əmir Həsən padşah, işlərinin icrası zamanı Heydərin mülazimləri ilə dostluq və razılıq (vefaq və vodud) tərzində davranır, qətiyyən bu baçısı oğlu və damadının razılaşmadığı işlərə razılıq vermirdi. Bir müddət kamiranlıqla vaxt keçirən Həsən bəyin iqbal ağacı Tuba***** ağacı kimi özünün kamal zirvəsinə ucaldı. Türkman sultanları tarixinin müəllifi Mövlana Əbubəkr Tehraninin****** təfsilatla yazdığına görə o, səltənət taxtına vida etdikdən sonra oğlu Sultan Xəlil,**** '* ondan sonrasa Sultan Yaqub* hökmranlıq taxtına əyləşdilər. Qəzaya çıxmaq qərarı təbiətinə üstün gələn Sultan Heydər öz dayısı oğlu (xal) Sultan Yaqubun hərəkətlərini ətraflı müşahidə etməkdəydi. O, sufiyyə əmirləri və səfəviyyə sülaləsinin tərəfdarları ilə məsləhətləşdi və onun cahanı bəzəyən fikri sakinlərinin imandan uzaq və cahillik yoluna yaxın olduğu Dağıstana yürüş etmək və çərkəz kafirlərinə qarşı qəzaya getmək qərarına yönəldi, saf xasiyyətli (nehad) sufiləri və pak etiqadlı mülazimləri bir yerə toplamaqdan ötrü qəmər sürətli (qəmərməsir) qasidlər yolladı. Sadiq mücahidlər onun izzət və təmtəraqlı çadırlarında yığışdılar, çoxlu silahlı adam (15) da onlara qoşuldu. O həzrət məqsədinə doğru yürüş bayrağı qaldırdı. Həmin ləşkərin hərəkət xəbəri Şivanşah [Xəlilullahın oğlu] Sultan Xəlilin** (Fərrux Yəsarın - Ş.F) səbat və qərar binasına zəlzələ saldı. O, düşündü ki, Sultan Heydər atasının

qanını almaq və Şirvana qəsd etməkdən ötrü gələcəkdir. [Sultan Xəlil] "məhəbbət və nifrət irsən keçir"[94] misalına uyğun olaraq [Sultan Heydərə] qarşı nifaq məqamına gəldi. Həmin qaniçən (xunxar) ləşkərə müqavimət etmək onun qüvvət və qüdrəti xaricində olduğu üçün şirvanşah, bir-birinin ardınca külək sürətli qasidləri özünün damadı olan Sultan Yaqubun yanına göndərdi və bildirdi: "Sultan Heydər zahirən Çərkəz qəzasına getməkdədir, amma, mümkündür ki, o, Dərbənd və Təbərsərana çatdıqda yürüş cilovunu Şirvana tərəf yönəldib, qəsbkarlıq (molksetani) bayrağını göylərə qaldırsın. Bir halda ki, bu gün məmləkət (Şirvan - Ş.F) onun əlinə keçməyib, gərək döyüşkən ləşkər toplanılsın və şeyxin niyyəti həyata keçməsin. Əgər onun məqsədi yerinə yetərsə, təkcə mən həqir bəndənin vilayəti ilə kifayətlənməyəcək və işğalçılıq qapılarını öz istəyincə daha geniş açacaq". Mehr göyünün o sərvəri ilə (Sultan Heydərlə - Ş.F) nifaq məqamında olan Sultan Yaqub şirvanşaha mərhəmət etdi, amma beynindəki düşmənçilik hissi baş qaldırdı. Sultan Bəyçioğlunu (?) dörd min türkman süvarisi ilə onun köməyinə göndərdi. Sultan Yaqubun köməyi şirvanşahı sevindirdi, Şamaxıda çoxlu Şirvan və türkman əsgərləri bir yerə toplaşdı. Amma, Sultan Heydər peşələri qəza olan qazilərlə Şirvanın şimalındakı Şəkiyə gəldi, onun müzəffər ləşkəri oradan Dərbənd qalasına yollandı. O şəhər cahanın abad şəhərlərindəndir və Babül-əbvab (Qapılar qapısı - Ş.F.) kimi məşhurdur. Göylərə baş vuran qalası İsgəndər səddi kimi möhkəmdir. Basqına sinə gərməyi və özünü qorumağı ilə məşhurdur. Deyilənə görə onun hər bürcü fələyin bütün bürclərinə bərabərdir. Qoruyucuları (pasiban) sakinləri ilə dilbir və canbirdir. Oranın əhalisi inadkarlıq edərək öz hücum əllərini irəli uzatdı. O iqbal sahibi (Sultan Heydər - Ş.F.) onları cəzalandırmaq qərarına gələrək, qazilərə o şəhər və qalanın tutulması üçün əmr verdi. İgidlər öz himmət sifətlərini qalanın fəthinə doğru çevirdilər və az bir vaxtda o möhkəm qalam titrətdilər. Qalanın alınması az qala müyəssər olacaqdı ki, Heydər dudmanının tərəfdarlarından və ləşkərin qol başçısı olan Qara Piri Qaçar arxadan gələrək söylədi ki, türkman ləşkəri çayı keçmişdir, şirvanşah Şirvan əsgəri ilə artıq ona birləşmişdir və onlar ləşkərlə hərb iddiasındadırlar. O qəddarların gəlişi haqda ard-ardınca xəbər gəlib

[94] İfadənin ərəbcəsi: "Əl-hubbu yətəvarasu və-1-buğdu yətəvarasu"

çatmaqda idi. Dinpərvər sultan qala ayağından qalxaraq, o pis əməlli (nabekar) adamlarla döyüşə amadə oldu. Xülasə, Təbərsəran yaxınlığında o iki qaniçən ləşkər bir-birlərinə çatdı. Hər iki tərəf qoşunun hərb hazırlığına başlayaraq, öz döyüş səflərini bəzədi. Hərb atəşi elə şölələndi ki, bir çox dəst və düşmənin ömür xırmanını yandırıb-yaxdı.

Beytlər

Elə ki, tutdular gəlib səhranı,
Hər iki ləşkərin töküldü qanı.
Bütün qılınclardan şölə çıxırdı,
Oxlardan torpağa al qan axırdı.[95]

Bu tərəfdən sufiyyə döyüşçüləri öz şirin canlarından əl çəkib, qılınc və oxlara qarşı gedirdilər. Xülasə, elə hərb başlandı ki, sabiq dövrlərdə o cür döyüş az olmuşdur. Vuruş əsnasında Sultan Bəyçioğlu döyüş meydanının bir dəstəsi ilə o başıuca (sərəfraz) sultanın qarşısına çıxıb o sərvərə qəsd etdi. Sultan Heydər də o talesizin (bədəxtər) qarşısına çıxaraq, nizəsi ilə o qiymətsizi (bədgövhər) at üstündən yerə saldı, qara torpaqla bir etdi. Bəyçioğlu onu tanıyıb qanından keçməsi üçün yalvardı, Sultan Heydər də kifəyətlənib onun qətlindən keçdi, Bəyçioğlu yenidən atına süvar oldu. Müqəddəs ordu mülazimləri Şeyx Heydərdən ondan bu mərhəmətin səbəbini soruşdular. Dedi: "Onun əcəli hələ gəlib-çatmayıb, amma mənim ömür günəşimin zavalı gəlib-çatmaqdadır. Mən bu döyüşdə şəhadət şərbəti içəcəyəm. Qismətə çarə yoxdur". Xülasə, bu xanədanın dövlət günəşinin doğuşu hələ müəyyənləşməmişdi. Cəng əsnasında can üzən bir ox qəza kamanından çıxaraq döyüş meydanının o şahsüvarına dəyib istədiyi işi yerinə yetirdi. Bu vəqiyyəni görən qazilərin əlləri işdən, işləri əldən düşdü və o sülalənin yüksəlişdən ötrü açılan dövlət bayrağı zillət torpağına yıxıldı. Bu kəramətli dudmanın canlarından keçən

[95] Beytlərin farscası:
Dər an dəşle-pormohnəte - hovlnak
Bəramixt xune-do ləşkər be xak.
Dəme-tiğ çon şo'le atəşfeşan
Senanha ze zəxme-yəlan xunçekan.

bir çox sufisi o dinpərvərlik asimanındakı ayın müqəddəs qoşununda əcəl saqisinin əlindən ölüm badəsi içdi, cansız halda torpağa düşdü. "Fotuhate-Yəməni"də yazılmışdır ki, o (tarixçi Yəməni -Ş.F) məsələnin necə baş verməsini Süleyman şanlı xaqanının (Şah İsmayıl - Ş.F) əmri ilə o cəng meydanında olmuş Hüseyn bəy Lələ, Fərrux ağa və başqalarından soruşmuş və ona deyilənləri qələmə almışdır. Xülasə, Səfəviyyə xənadanının sufiləri o xeyrül-bəşər mücəssəməsinin mübarək cəsədini Təbərsəranda dəfn etdilər. Süleyman şanlı xaqanın ikinci dəfə Şeyxşahı cəzalandırmaq üçün Şirvana hücumu zamanı Sultan Heydərin şəhadətindən iyirmi iki il ötmüşdü. O, onun pak nəşini dəfn olunduğu yerdən çıxarıb Ərdəbil darülirşadına apardı, böyük əcdadlarının qəbrləri yanında dəfn etdi. O hadisə səkkiz yüz doxsan üçüncü ildə (miladi 1488) baş vermişdir. Allah ona rəhmət etsin. O, comərdlik bostanının sərvindən (Sultan Heydərdən - Ş.F.) və Həsən padşahın qızından "Həbibüs-Siyər"* və "Tarixi-cəhanara"** kitablarının müəllifləri belə yazırlar: Xoşbəxt ulduzlu üç şahzadə vücuda gəldi ki, onların hər biri vilayət gülzarından çıxan, nihal və xilafət asimanından doğan ulduz olmuşdu: Əhali arasında Sultanəli padşah kimi tanınan Sultanəli Mirzə, İsmayıl Mirzə və Seyid İbrahim Mirzə. Xülasə, qələbədən sonra Sultan Bəyçioğlu Təbrizə qayıtdı. Sultan Heydərin ortaya çıxmasından (xoruc) vahiməyə düşmüş Sultan Yaqubun qorxusu aradan getdi.

SULTANƏLİ PADŞAH İBN SULTAN HEYDƏRİN SƏADƏT MİNVALLI ƏHVALI VƏ BÖYÜK XALİQİN TƏQDİRİ İLƏ O HƏZRƏTİN ŞƏHADƏTƏ YETİŞMƏYİNİN ZİKRİ

İradət və sədaqət məmləkətlərinin fatehləri olan bu xanədanın səadət nişanlı sufiləri alinejad adamların övladı olan o dindar sultanla (Sultan Heydərlə - Ş.F.) vidalaşdıqdan sonra iradət təriqətini sədaqət qədəmləri ilə adlayaraq, qalib bəxtinin köməyi sayəsində Ərdəbildə bir yerə yığılıb, yaşına görə səltənət və irşad taxtına layiq olan həzrət Sultanəliyə öz əqidə birliklərini izhar və ona beyət*** edir, hərb alətlərinin tədarükündə olurdular. İftiraçı adamlar (ərbabe-qəmz və səayət) Sultan Yaquba dedilər ki, Sultan Heydərin əziz (ərcoməND) oğlu səadətli atasının yerinə qaimməqam olmuşdur və onun dövlət bayrağı tezliklə göyə ucalacaqdır. Sultan

Yaqub Ələmşah bəyim kimi məşhurlaşan və ali mənzilli şahzadələrin anası olan əzəmətli bacısı Həlimə bəyimin həqpərəst məsləkini, qohumluğunu və incikliyini (azərm) gördü və ona öz məhəbbətini göstərdi. Belə ki, sultan məşhur əmirlərdən birini böyük bir türkman dəstəsi ilə Ərdəbilə göndərib, o kamkarlıq bəhrinin dürrünün (yəni Sultanəlinin - Ş.F.) ələ gətirilməsini, Farsda yerləşən Estəxr qalasına aparılmasını, həmin diyarın hakimi Mənsur bəy Pornaka tapşırılmasını və qalada qalıb yaşamasını tapşırdı ki, bundan sonra onun iradət əli və sufiyyə təbəqəsinin əlləri o dövlətə (Ağqoyunlu dövlətinə - Ş.F.) tərəf uzanmasın. Amma, [Sultan Yaqub] bunu bilmədi ki, Xaliqin istəyi və təqdiri xəlq olunanın (xəlayiq) tədbir və qüdrətindən yüksəkdir "De: "Ey Malikül-Mulk (Mülkün Sahibi - Ş.F) olan Allahım! Son dilədiyinə mülkü bəxş edər, dilədiyindən mülki geri alarsan. Dilədiyini əziz qılar, dilədiyini zəlil edəlsən."[96] Allah-taala məmləkəti özünün məsləhət bildiyi adama verəcəkdir. Sultan Yaqubun bu əməli Allaha xoş gəlmədi, onun dövlət ruxsarına xal vurdu. Xülasə , göndərilən adamlar gedib Ərdəbilə çatdılar. Sultanəli padşah zəmanəyə görə məsləhət bildi ki, bir neçə vaxt sağ-salamat qalaraq, zəmanəyə saz olsun. Çarəsizlikdən, o, hər şeyin Xalqinə təvəkkül etdi, böyük qoşunu, möhtərəm anası və əziz qardaşları ilə birlikdə Estəxr qalasına doğru üz tutdu, onlar qorxu və vəhşətlə dolu olan o zindanda yerləşib ruzigarın cəfa və möhnətinə dözdülər:

Şer

Zindan şan-şərəfdir comərd insana,
Yusif bu səbəbdən düşdü zindana[97]

Bu hadisə səkkiz yüz doğsan altıncı ildə (miladi 1490) baş verdi. Xülasə, həmin qalanın torpağı bir müddət onların etibar gözləri üçün etibarlı sürmə, o məmləkət isə onların fəzilət nihallarından ötrü cənnət bağı (xolde-bərin) oldu. Nadir hallardan

[96] İfadənin ərəbcəsi: "Qul: Allahummə məliku-l-mulki tuətti-l-mulkə mən təşau və tunəzziu əl-mulkə mimmən təşau və təuzzu mən təşau və təzullu mən təşau bari subhanəhu və təala" (Ali-İmran, 26)

[97] Beytlərin farscası:
Mərd be zendan şərəf arəd bedəst,
Yusif əz an ruy be zendan neşəst.

biri də budur ki, "xolde-bərin" ifadəsi həmin ibrətamiz hadisənin [əbcəd hesabı ilə] tarixidir.* Bəli, neysan buludundan düşən yağış qətrəsi** əgər uca asimandan düşməyərək sədəfin köksündəki zülmətin məhbusu olmazsa, dünya şəhriyarlarının taclarındakı dürrə çevrilə bilməz, tikanın cövrünü çəkməyən heç bir gül iqtidarlı padşahların çalmasına (dəstar) sancılmaz. Sınaqdan çıxmış bu misal həqiqətə çevrildi, hümayün fal sahibi həzrət Süleyman şanlı xaqan Əbülbəqa Şah İsmayıl Bahadır xan kiçik yaşlarında ikən o məlalla dolu zindanda Yusif kimi giriftar oldu, nəhayətdə taxta çıxdı, az vaxt müddətində həşəmət və kamranlıq qapılarını dövlət övliyalarının üzünə açdı. Xülasə, Mənsur bəy Pornak fərmana tabe olub, o xilafət dudmanının övladlarına qalada yer verdi, əqidə və sədaqəti üzündən həmin ali məqam sahiblərinə öz ehtiramını göstərdi, hər məsələdə onlarla məsləhətləşməyi vacib bildi. Ali gövhərli şahzadələr bir müddət sədəf içərisindəki dürr kimi qalada qaldılar, ruzigarın təcrübəsindən çıxdılar, zəmanənin pərvərişi ilə böyüdülər. Etdiyi hörmətsizliyə görə Sultan Yaqubun həyat ağacı əcəlin gəlişi ilə yıxıldı, Qarabağda ikən axirət mənzilinə yollandı. Tarix kitablarında yazılmışdır: Türkman əmirləri iki dəstəyə ayrıldı. Onların bir dəstəsi [Sultan Yaqubun] qardaşı Məsih Mirzənin, başqa dəstəsi isə oğlu Baysunqur Mirzənin padşahlığını istədi. İş tərəflərarası hərblə nəticələndi və Baysunqur səltənət taxtına əyləşdi. Rüstəm Mirzə ibn Maqsud Mirzə ibn mərhum padşah Həsən bəy öz əmisinin tərəfdarı kimi "Məsihçilər" silkinə mənsub olmuşdu. O, Məsih Mirzənin qətlindən sonra həbs edilib Ələnciq qalasına göndərildi, qala kutvalı* Qırıq(?) Seydi Əliyə tapşırıldı. Baysunqurun padşahlığından bir müddət ötdü. Əbih Sultan** Ələnciqə gedərək, Qırıq Seydini hiyləgərliklə özünə müttəfiq etdi, Rüstəm Mirzəni qaladan çıxarıb padşah etmək fikrinə düşdü. Qarabağ döyüşündə məğlub olan adamlar və başqaları onlara qoşulub Təbrizə getmək və Baysunqurla hərb etmək niyyətinə düşdülər. Onlar Ərəşin*** kənarına gələrək orada dayandılar. Mirzə Rüstəm fitnəsini dəf etməkdən ötrü Mirzə Baysunqur Təbrizdən çıxaraq Mərəndə çatdı. Qaravuli**'* etmək üçün göndərdiyi adamlar ona bifəfalıq edib Mirzə Rüstəmə birləşdilər. Get-gedə bütün orduya təfriqə düşdü və Mirzə Baysunqurun ordusu elə hala düşdü ki, o, ordunu bir yerə toplamaqdan aciz qaldı, zərurət üzündən padşahlıq imtiyazlarından keçib, az miqdar xidmətçiləri ilə fərar vadisinə üz tutdu, Qaraca dağın Əhər yolu ilə Şirvana getdi, dayısı

(xal) olan şirvanşaha birləşdi*. Mirzə Rüstəm isə dövlət başçılığına nail olub zəfərlə Təbrizə gəldi, səltənət taxtına əyləşdi. Türkman əmrlərinin hamısı itaət kəmərlərini bellərinə çəkdilər, Rüstəm qoşun və rəiyyətin işləri ilə məşğul olmağa başladı. Amma, şirvanşah öz bacısı oğlu və damadının köməyinə başlayıb Mirzə Baysunqurun səltənətinin davamı üçün çalışırdı. Mirzə Rüstəm isə Mirzə Baysunqurun işini bitirmək fikrinə düşərək, onun dəf olunması barədə bayanduri" əmir və dövlət başçıları ilə məsləhətə başladı. Nəhayət xeyrxah düşüncəli adamların məsləhətləri ilə o, qərara gəldi ki, xilafət asimanının parlaq ulduzlarını (yəni, həbsdəki Səfəvi qardaşlarını - Ş.F.) Estəxr qalasından çıxarıb, sərvərlik və sərdarlığa tam layiq olan Sultanəli Mirzənin şövkət bayrağını şahanə təmtəraqla göyə ucaltsın, onu Baysunqur fitnəsinin dəfi və baba və atasının qanını almaqdan ötrü Şirvana yollasın. Belə ki, Sultanəli Mirzənin qalib gələcəyi, yaxud məğlub olacağının [Rüstəm padşahdan ötrü] fərqi yoxdur və onun zahiri və batini istəyi [hər iki halda] yerinə yetəcəkdir. Mirzə Rüstəm bundan ötrü zahirən möhtərəm bibisinin (əmmə) özü ilə yaxınlığı, qohumluğu və bu məsələdə razılığından istifadə etdi və şahzadələrin yanına gətirilmələri hökmünü verdi. Səkkiz yüz doxsan səkkizinci ildə (miladi 1492), Estəxr qalasında dörd il yarım qaldıqdan sonra Sultanəli Mirzə yola düşüb, izzət və cah-cəlalla Təbrizə çatdı, Rüstəm Mirzə o həzrəti öz mehribanlıq qucağına çəkdi, onu nəvazişləndirdi. Özlərinin şöhrətsizlik (xəmul) və nakamlıq zaviyələrinə sığınmış olan bu müqəddəs nişan üzvləri və sadiq tərəfdarları (yekcəhətan) onun yanına gəlməyə başladılar və həmin əqidəli adamların sayı getdikcə çoxaldı. Bu əsnada Mirzə Baysunqurun Şirvan qoşunu ilə Azərbaycan səmtinə gəlmə xəbəri əmirzadə Rüstəmə gəlib çatdı və o, Sultanəli padşahı Əbih Sultan*** və bir dəstə turkman əsgəri ilə birlikdə Baysunqurun və şirvanlıların üzərinə yolladı. Onlar Ərəs çayı kənarına çatıb, orada dayandılar. Hər iki tərəf çayda körpü (cəsr) çəkdi, amma, aralarında oxdan başqa get-gəl olmadı. Fəthin çöhrəsini görmək heç bir tərəfə qismət ola bilmirdi. Tərəflər burada dayanmaqdan təngə gəldilər, Baysunqur Şirvana, Sultanəli padşah və Əbih Sultan Təbrizə getdilər. Bu hadisələrin baş verdiyi vaxt, İsfahan hakimi Kosa (Kusə) Hacı Bayandur əmirzadə Rüstəmə qarşı üsyana qalxdı, dövlət xütbəsini Baysunqurun adına oxudu. Bu məsələ Baysunqurun yenidən Azərbaycana qayıdışına və oraya saysız-hesabsız ləşkər

çəkməsinə bais oldu. Əmirzadə Rüstəm ikinci dəfə sərvərlik göyünün günəşi olan Sultanəli Mirzəni Əbih Sultan və bir dəstə sufiyyə və türkman əsgəri ilə onun qarşısına yolladı. Hər iki acıqlı və kinli ləşkər Əhər və Meşkin yaxınlığında bir-birinə çatdılar, aralarında qızğın döyüş başlandı. Hidayət taxtının sultanı olan [Sultanəli] qədəminin yüngüllüyündən, baysunqurlular məğlub edildilər və Baysunqur öldürüldü, Sultanəli Mirzə zəfər, əzəmət və iqtidarla Təbrizə gəldi, əmirzadə Rüstəm ona qarşı dostanə etiram nümayiş etdirdi. [Sonra] Sultanəlini böyük izzət və ehtiramla Ərdəbilə göndərdi. Dinpərvərlik asimanının o qəməri də, həmin cənnətmisal məkanda öz ata-babaları kimi, hidayət və irşad taxtına əyləşdi, [beləliklə də] əqidə və ixlas sahiblərinin onun yanına gediş-gəlişləri başlandı. Sufiyyə camaatının və iradət ərbablarının çoxluğu Rüstəm Mirzənin həsədinə səbəb oldu və o, həmin həzrəti qardaşlarıyla Təbrizə gətirdi. Onlara qarşı zahirən hörmət (18) göstərməkdəydi, amma bu vəziyyətdən xəbər tutan bəzi paxıl (hares) adamlar sufiyyə təbəqəsindən olanların şahın yanında qalmaqlarına imkan vermək istəmədilər. Sufilər və etiqadlı adamlar yenə də Sultanəlinin yanına gələrək, xəlvətcə ona nəzirlər gətirir, öz sədaqət sikkələrini (nəqd) onun imtahan məhək daşına vururdular. Bundan agah olan əmirzadə Rüstəm Sultanəlinin (mətndə səhvən Sultan Heydər yazılmışdır - Ş.F.) dəf olunması fikrinə düşdü, bir xəta yola meylləndi.

Amma, o həzrətin məclis dostlarından biri onu padşahın belə qəddar niyyətindən hali etdi. Bu hiyləgərlik işığı [Sultanəlinin] ürəyinə çatdıqda, "dözülməz bir işdən qaçmaq peyğəmbərlərin ənənələrindəndir"[98] fikrinə uyğun olaraq, bir gecə xəbərdarlıq etmədən ata süvar olub Təbrizdən çıxdı, Ərdəbil yolunu önə tutdu. Əmirzadə Rüstəm* Mirzə Əbih Sultanı** dörd min suvari ilə o ali qədrli sultanın təqibinə göndərdi. Onlar Ərdəbil şəhərinə tabe olan Şəmasbi (?) adlı bir yerdə o həzrətə çatdılar. Deyirlər ki, o vaxt Sultanəli Mirzənin yanındakı mülazimlərin sayı yeddi yüz nəfərdən çox deyildi. O, belə az adamla həmin çox adamın qarşılaşması barədə düşündükdə, o həzrətin bir dəstə tərəfdarı döyüşə mane oldu və onlar çarə fikirləşməyə başladılar. Özünün şəhadəti ərəfəsində Allahın təqdirini müşahidə edən o həzrət səfəvi dudmanının sufi və

[98] İfadənin ərəbcəsi: "Əl-firar mimmə lə yutaqu min sinəni-l mursəlin"

tərəfdarlarını toplayaraq, onlara bu mərəkədə şəhadətə yetəcəyi xəbərini verdi, hümayun alnında cahandarlıq nuru parıldayan öz xoşbəxt ulduzlu qardaşını, yəni Süleyman şanlı xaqanı vəliəhd və qayimməqam elan etdi, ali qədirli atasından və ad-sanlı əcdadlarından irşad vaxtı bu xanədan mürşidlərinə miras qalan sirr rəmzlərini ona əmanət (vədiət) verdi və özünün mübarək tacını o həzrətin başına qoyaraq, [qardaşını] etibarlı adamlarına möhkəm-möhkəm tapşırdı və dedi: "Mürtəzəvi"*** dudmanın dövlət çırağı onun üzündə parlamaqdadır və tezliklə onun dövlət asimanının bayrağı çox yüksəyə qalxacaq, ədalət şüaları bütün adamların başları üzərində parlayacaqdır". [Sultanəli] vəsiyyətini tamamladıqdan sonra döyüş meydanına qədəm atdı, eləcə sidq-niyyətlə dediyi, kimi müxaliflər qalib gəldilər və o həzrət şəhadət şərbəti içdi. Bu canlar yandıran hadisə baş verəndən sonra əqidə sahiblərinin arasına parçalanma düşdü və hərə bir tərəfə səpələndi. Hüseyn bəy Lələ - o zaman Xadim bəy kimi tanınan xəlifətül-xüləfa və Dədə bəy o həzrətin pak cəsədini darülirşada gətirib nurlu səfəviyyə məqbərəsində dəfn etdilər.

SÜLEYMAN ŞANLI XAQAN ŞAH İSMAYIL BAHADIR XAN, ALLAH-TƏALA ONU CƏNNƏT BAĞLARINDA SAKİN ETDİ[99], ƏHVALATININ ZİKRİ, O UCA MƏKANLI XOSROVUN ZÜHURUNUN BƏYANI VƏ ALƏMİ FƏTH ETMƏYİNİN ŞƏRHİ

Ürəkaçan məclisin nəğməoxuyanları və söz bəzəmə meydanının mərəkə axtaranları o mənəviyyatlı (sotude seyər), ləyaqətli (həmide) insanı, fatehlik meydanının səflər bəzəyini (səfara), axtarış səhrasını (badiyeye-cuyayi) mərhələ-mərhələ qət edəni, cah-cəlal asimanının dünyanı bəzəyən iqbal günəşinin məşəldarını, Heydər dövlətinin cahanı göstərən camını, on iki (isnaəşəri) Haqq məzhəbinin ayinəsini, sultanlar sultanını, Kəyan* məmləkətləri taxtının sahibini, yəni Süleyman şanlı xaqanı aşağıdakı təranə ilə bəyana gətirmiş, çox qiymətli və Mürtəza xislət və nəsəbli o şəhriyarın sücaətini, döyüşkənliyini (rəzmazmayı), cahangirliyini hədislər bəzəyən məclisdə bu tərzlə (nəmət) söyləmişlər: Saf əxlaqlı

[99] İfadənin ərəbcəsi: "Əskənəhu Allah-təalə fi firadisi-l-cinani"

(sefvətnehad) qardaşının şəhadətindən sonra pak etiqadlı sufilər məşhur qardaşının vəliəhdi olan o hökmranlıq bürcünün dürrünü (yəni İsmayıl Mirzəni - Ş.F.) gizlicə şəhərə gətirmişdilər. O, məxfi bir yerdə bir neçə gün gizli saxlanıldı. Qırx gündən sonra yüksək əqidə axtarışında olan (əqidətgəzin) sufilər təbəqəsi düşmən kələyindən (keyd) qorxaraq, onun Ərdəbildə qalmasını məsləhət bilmədilər, möhtərəm anası ilə məsləhətləşib vaxta münasib olaraq Gilana getməyini daha düzgün sandılar. O ismətli (əfifə) qadın fərzəndlərinin ayrılığı ilə razılaşmalı oldu. O əyyamda sufiyyə əyanları, xüsusilə Hüseyn bəy Lələ Şamlı, sonralar "Xəlifətül-xühfa"** adlandırılacaq Xadim bəy Talış, Abdal bəy Dədə Zülqədər və başqaları hər iki məşhur qardaşı götürüb, iki yüz nəfər mülazimlə Gilana rəvan oldular. Tarix kitablarında, xüsusən "Həbibüs-siyər"də yazıldığına görə, onlar Gilan vilayətinə gəlib çatdılar və bir neçə gün Rəştdə dayandılar, oranın valisi onlara xidmət göstərdi. Sonra, Lahican ölkəsi (xotte) o cənnət bağının bu fidanlarından ötrü rövzeyi-rizvana (cənnət bağına) döndü. Şan-şöhrətinə və məqamının ucalığına, əsil-nəsəbinə, xasiyyət və davranışına görə başqa Gilan valilərindən seçilən və seyidlər dudmanından olan o vilayət valisi Karkiya Mirzə Əli igidlik bostanının o tər fidanını və onun əziz qardaşı Seyid İbrahimi izzət və ehtiramla qarşıladı, onlara səmimi (19) ehtiram və mehriban insanlıq münasibəti göstərdi. [Amma] o həzrətin qardaşı Seyid İbrahimə anasının yanına getmək istəyi üstün gəldi. O, dərvişliyə və dərvişanə xislətə malik olduğundan, başına türkman papağı qoyub Ərdəbilə qayıtdı, o həzrət isə onun yolunda canlarını fəda etməyə hazır olan az miqdar xidmətçi ilə həmin vilayətdə qalaraq, qeybdən gələsi hadisəni gözləməyə başladı. O vaxt o həzrətin şərafətli sinni yeddi yaşdan çox deyildisə də, fəhm və fərasətdə, ağıl və bilikdə fərqlənirdi. Cahandarlıq ayini onun hümayun alnında zahir olunmaqdaydı. Xilafət çəməninin bu fidanını özlərinin etiqadıyla bəzəyən mülazimlər qeybdən gələn ilhamla onu "şah" adlandırır, yaşının azlığına baxmayaraq, düzgün əqidəsinə və iradəsinə görə ona "kamil mürşid" ("mörşide-kamel") və "padşah" deyirdilər. Söylənilənə görə, o, Gilanda altı il yarım qaldı. Bəzən Biyəpəsdə*, bəzi vaxtlarda isə Lahicanda vaxt keçirirdi. O, Mövlana Şəmsəddin Lahicinin yanında "Qurani-məcid"i öyrəndi. Karkiya Mirzə Əli və qardaşı Karkiya Sultan Həsən onun xidmətində dayanmışdılar. Əhali arasında gedən sözlərə və "Tarixi-cahanara" kitabında yazıldığına görə, ilk vaxtda həmin bəxtiyarlıq dəryasının

qiymətli dürrünü geri aparmaqdan ötrü türkman padşahı əmirzadə Rüstəm tərəyindən Gilana tez-tez adam gələrdi. Karkiya Mirzə Əli isə onlarla ağıllı davranıb, gələn adamları üzrxahlıqla geri qaylarmaqdaydı. Belə vəziyyət mərhum Həsən padşahın övladı olan türkman sultanzadələri arasında hərc-mərclik (extelal) düşənədək davam etdi. Onların başı bir-birinə qarışmışdı. O sülalə [üzvləri öz aralarında] elə iğtişaş (şureş) və ayrılığa düçar oldular ki, başqa adamlarla düşmənçilik etməyə girişmədilər. O həzrətin [Gilanda] qaldığı müddətdə sufi və iradət əhlinin gediş-gəlişi onun kəramətli dərgahını boş qoymurdu. Böyüyə-böyüyə o, gah şikar nəşəsi ilə məşğul olur, gah da o vilayətin görməli yerlərini gəzirdi. Alın lövhəsində cahandarlıq nəqş olunduğundan, onun ənginliyə uçan himmətinin şahin quşu məmləkət qartalını ovlamaq məqsədilə daim pərvaza gəlməkdəydi.

Beytlər:

Ona qətilik himməti yar idi,
Niyyətinə həxti mədədkar idi.
Istədi olsım cahana şəhriyar,
Eylədi yardım ona Pərvərdigar.
Yardı ona ədl ilə din işləri,
Fikri bu idi doğulandan bəri.[100]

Türkman Ağqoyunlu* sultanları dövlətində baş verən iğtişaş və çaxnaşma xəbərini eşidən Süleyman şanlı xaqanın cahanı bəzəyən fikri Gilandan çıxmaq oldu. Ev sahibinə xas olan qonaqpərvərlik və dövlətxah ehtiyatkarlığı nəzərə alan Karkiya Mirzə Əli onun bu istəyinə qarşı çıxıb dedi: "Hələlik dövlət gülüstanının çiçəklənmə vaxtı gəlib çatmamışdır, yəni ali nəvvabın (İsmayıl Mirzə - Ş.F.) zühur etmək vaxtı sinninin az, düşmənlərinin çox, yar-yoldaşının seyrək olması səbəbindən yetişməmişdir. Qoy

[100] Beytlərin farscası:
Be əzme-qəvi hemmətəş yar bud,
Dər an kar bəxtəş mədədkar bud.
Bexater hədise-cahandariyəş
Ze Dadar darənde bod yariyəş...
Be del budəş əz atəşe-dad-o din
Ze ruze əzəl bud fekrəş həmin.

bir müddət fürsət gözləsin ki, bu ali mətləbin həyata keçməsinin şəraiti Allahın təsdiqi (təyid) ilə lazimi səviyyədə yaransın". O həzrət bir müddət də Karkiyanın xatirinə gözlədi. Doqquz yüz altıncı ildə (miladi 1500) Həsən padşahın nəvələri Sultan Murad ibn Yaqub və Mirzə Əlvəndin Yusif Mirzə arasında mübarizə getməkdəydi. Nəhayət, həmin mübarizə sülh (müsalehə) ilə nəticələndi və İran məmləkətləri iki əmioğlu arasında bölündü. Gilanda qalma müddəti altı il yarım olan Süleyman şanlı xaqanın orada dayanmaq səbri tükəndiyindən, qeybdən gələn ilhamla həmin mülkdən çıxmağa hazırlaşdı, Karkiya ilə vidalaşaraq, kiçik bir dəstə əqidəli xidmətçi və tərəfdarlarıyla birlikdə, münasib bir saatda məqsədə doğru hərəkətə başladı. İmkanı daxilində əli çatan vəsaiti ona verən Karkiya Mirzə Əli öz layiqli xidmətini başa vurdu və onu bir neçə fərsəx* müşaiyət etdi. Güclü dövlətin iqbal əncüməni (cəmiyyət - Ş.F) taxtının mülazimətindəki ağsaqqallar öz vəsiyyətlərini edərək, həzrət Allah-təalanın amanına sığınıb, mətləbə doğru rəvan oldular. Amma, o il Astara vilayətinin Ərcivan kəndində şaxta və soyuq (bord) qoşununun hücumuna məruz qalıb orada qışladılar. Təvalış (talış - Ş.F) camaatı onların xidmətində dayandılar. Baharın başlanğıcında yer səfəvi dudmanın tərəfdarlarının ümid bağçası kimi İlahi lütfün bulud damcıları (rəşəhate-səhab) sayəsində yaşıllaşan vaxtda qışlaq yurdundan hərəkətə gələrək ikinci dəfə Ərdəbil darülirşadına təşrif gətirdilər. Əvvəlcə, həzrət sultanül-övliyanın" rövzəsini və yerləri cənnətlik olan əcdadlarının qəbirlərini ziyarət etməklə şərəfləndilər. Duaların yerinə yetirilmə (estecabət) məkanı və uca Allahın ehtiramına layiq olan o yerdə özlərinin Haqq sevən batinlərindəki ali mətləblərinin icrasını Allah-təaladan xahiş etdilər. Ziyarət qayda-qanununu yerinə yetirdikdən və dualarının müstəcəb olma parıltılarını gördükdən sonra, o həzrət möhtərəm ana və qardaşının görüşü ilə şadiman oldu. Baş vermiş hadisələrin, o həzrətin hümayun fallı zühurunun hakimiyyətə gəlişinin və fatehliyinin müfəssəl təsvirini vermək, həmçinin onun üzünə (20) zəfər və yardım açan ilə fəth qapılarının necə açıldığını yazmaq bizim sınıq qələmimizin imkanından çox, bəlağətli tarixçilərin yazı məharətindən yuxarı olan bir işdir. "Həbibüs-siyər" kitabının məlumatları, rumlu tarixçi Həsən bəyin* "Əhsənüt-təvarix"ində dərc olunanlar və Mir Yəhya Seyfi Qəzvininin* "Lübbət-təvarix"ində söylənənlər baş verənlərin onda biri (əşri əz əşar), bəlkə də mindən biridir. Bizim yazdığımız bu

kitab dünya fatehi (gitisetan) o şəhriyarın müfəssəl tarixini özündə yerləşdirə bilmədiyindən, o barədə müxtəsər və icmal (mücməl) şəklində məlumat verəcəkdir, çünki əsl mətləbimiz əlahəzrət zilləllah şahın cülusundan etibarən baş verən hadisələri yazmaqdır. Xülasə, [o həzrət] böyük əcdadlarının və kəramətli şeyxlərin müqəddəs ruhlarından kömək xahiş edib, Ərdəbil darülirşadından Qarabağa yollandı. Dünyanı tutan orduya iradət sahibləri toplanmaqdaydılar. O, Qarabağda Mirzə Cahanşahın nəvələrindən olan və hələ də üzə çıxmaq və yüksəlmək xəyalıyla yaşayan Sultanhüseyn Barani*** ilə görüşdü. Onun hərəkətlərində kələk və amansızlıq müşahidə edən o həzrət ondan ayrılaraq Göycə Təngizə**** təşrif apardı və Ərzincanadək irəlilədi. Orada üç-dörd minə qədər sufi və başqa əqidəli adamlar Şam, Diyarbəkr, Sivas, Bayburd və oraya yaxın yerlərdən o həzrətin yanına gəlib çıxdılar. Xan Məhəmməd Ustaclı çoxsaylı adamla bellərinə ehram bağlayıb, aləmpənah dərgahın mülazimi kimi gələrək, xidmət etmək səadətinə yetişdi, o həzrət tərəfindən qiymətləndirildi. Ərzincanda məsləhət-məşvərətdən sonra Şirvana yürüş etmək və şirvanlılardan intiqam almaq onun nurlu qəlbinə yol tapdı, səkkiz min nəfər sadiq və əqidəli sufi ilə Şirvana tərəf yollandılar. İyirmi min süvarisi və bir neçə min nəfər də piyada döyüşçüsü olan Şirvan valisi Fərrux Yəsarla Gülüstan qalası yaxınlığında döyüş başlandı. O həzrət qələbə çaldı, Fərrux Yəsar isə şir ovlayan qazilərin intiqam qılıncı ilə bir çox Şirvan böyükləri və o diyarın piyada və süvarilərindən ibarət çoxlu adamlarıyla birlikdə axirət evinə yollandı, o diyarda o həzrətin (İsmayılın - Ş.F.) səltənət və şəhriyarlıq təbili uca səslə çalınmağa başladı. O qış Şirvanın Mahmudabad adlı yerində qaldılar. Şirvanşahın "Şeyxşah" ləqəbli oğlu Şeyx İbrahim gəmiyə minib dərya yoluyla Gilana gəldi. Şirvan vilayətinin əksəriyyəti [o həzrətə] itaət etdi, ölkədə və qalalarda saxlanılan bütün xəzinə və dəfinələr Süleyman şanlı xaqanın sərkarına* verildi. Bəzi qalaların, xüsusilə Bakı qalasının əhalisi xilaf məqamına gələrək, bir az itaətsizlik (sərkeşi) və qaladarlıq (qələdari) etdilərsə də, qala dövlətin gücü ilə zavalsız fəth olundu.

Bakı qalası üç tərəfdən dərya suyu ilə əhatələnmiş qaladır. Heç bir şan-şöhrət sahibinin əli hələ onun ətəyinə (xakriz) dəyə bilmirdi. Qalanın torpaq olan tərəfində aqillərin fikri kimi geniş dərin xandaq (xəndəq) qazılmışdır.

Şirvan əhalisinin bəzi hissəsi Gülüstan qalasında olduğundan [o həzrət] Bakı qalasından çıxaraq, Gülüstan qalasının yaxınlığına gəldi.

Şirvan vilayətinin uca və məşhur qalalarından olan bu qala mühasirəyə alındı. Mühasirə vaxtı qeyb aləmindən xəbər gətirən mələk (soruş) o həzrətə Azərbaycanın səltənət taxtına və padşahlığına yetişmək müjdəsi verdi. Həmin mələk röya aləmində ona belə demişdi: "Həqir bir alacəhrə quşu (sə ve) iqbal ənginliyinin uca uçan şahbazını ovlaya bilməz". O həzrət əzəmətli əmirləri çağırıb onlara dedi: "Sizə Gülüstan qalası lazımdır, ya Azərbaycan taxtı?". Müqəddəs Səfəvi xanədanına etiqadı olan adamlar sədaqət və müdriklik aləminə qapılıb, ilham dilinin sidq sözlərini bəyan edərək, bu fikri düzgün sandılar, Azərbaycan taxtının müjdəsi ilə öz sevinc sözlərini Keyvan** eylamnadək (eyvane-Keyvan) ucaltdılar. Bu əsnada əmirzadə Əlvəndin*** artıq türkman əsgərləri ilə Naxçıvana gəlmə və Süleyman şanlı xaqanla döyüşməkdən ötrü türkman döyüşçü dəstələrini təyin etmə xəbəri gəlib-çatdı.

O həzrətin işıqlı qəlb ocağında (kanune-zəmire-monir) qeyrət şöləsi alovlandı və Gülüstan qalasını tutmaqdan birdəfəlik əl çəkərək, qeyb aləminin xəbərgətirənlərinin (monhiyane-aləme-ğeyb) işarəsi ilə qala ayağından qalxdı və Azərbaycana yollandı.

SÜLEYMAN ŞANLI XAQANIN MİRZƏ ƏLVƏND TÜRKMANLA HƏRBİ VƏ ONUN ALLAHIN KÖMƏYİ İLƏ ZƏFƏR ÇALMASININ ZİKRİ

[Əmirzadə Əlvənd] Naxçıvanda olarkən, Süleyman şanlı xaqanın Azərbaycana yürüş xəbərini eşitdi, ordusundakı otuz min döyüşçüsü ilə o həzrətin qarşısına yollandı. Amma Süleyman şanlı xaqanın sücaəti və qorxmazlığı (delavəri), həmçinin pərvanə kimi özlərini atəşə vurub ölümü əbədi həyat bilən qızılbaşların fədəkarlığı (fədəviyyət) türkmanları bərk qorxuya salmışdı. Doqquz yüz yeddinci ildə (miladi 1501), Naxçıvanın Şərurunda tərəflər bir-biriylə qarşılaşdılar. Yeddi min nəfərdən ibarət qızılbaş ləşkərinin dilavərləri fədai kimi döyüş meydanına qədəm ataraq, onlara qarşı mərdanəlik göstərdilər, qarşı tərəfdən də türkman döyüşçüləri bacardıqları qədər cidd-cəhd etməyə başladılar. Amma, Allahın istəyi ilə zəfər, qələbə və tale (eqbal) amalları zəfər olan (zəfərməal) qızılbaşlara nəsib oldu, əmirzadə Əlvənd məğlub edildi,

türkmanların böyük əmirlərinin və əyan-əşrafının çoxu, habelə saysız-hesabsız döyüşçüsü həmin mərəkədə öldürüldü, qalibiyyətli qoşuna bol qənimət qismət oldu. Azərbaycanda qalmağa macal tapmayan Mirzə Əlvənd Ərzincana qaçdı, Süleyman şanlı xaqan isə zəfərlə Təbriz darüssəltənəsinə çataraq, padşahlıq taxtına əyləşdi və islamın isnaəşəri haqq məzhəbi zühura gəldi. Minbərlərdən imamiyyə* xütbəsi eşidildi, pulların (dənanir) üstündə "La ilahə illəllah və Məhəmməd rəsulillah və Əli vəliyullah" yazıldı və sikkələr "Allah" sözü ilə bəzəndi. Zəlalət sahiblərinin (ərbabe-zolal) dinsiz adətlərindən əcər-əlamət qalmadı. Gözəl əxlaq və pak davranışlı əhli-beytin şiyələri, yəni indiyədək öz dini əqidələrini gizlədənlər (təqiyyə), imamiyyə haqq məzhəbinə gəldilər, buna müxalif olanlarsa zaviyələrdə gizləndilər. O həzrətin mətanəti (səlabət) və qüvvəti (qəhhari) barədə xəbər ətrafa yayıldı, onun atəş yağdıran qılıncının şöləsi fələyə ucaldı. Mirzə Əlvənd bir dəstə adam toplayıb Əzrincandan Azərbaycana yürüşə başladı. Şahın qələbə ayəli qoşunu Tərcan yoluyla Əzrincana yollanan vaxt [Əlvənd] Təbriz darüssəltənəsinə çatıb rəiyyətin və varlı adamların mallarına əl uzatdı, oradan Ucana* getdi. Cahanlar tuta biləcək ordunun ona yaxınlaşdığını bilib, orada qalmayaraq, Ucandan Həmədana getdi, oradan da Bağdada üz tutdu. İşi gətirmədiyindən və orada Qasım bəy Pornakla döyüşməyi bacarmadığından, Diyarbəkrə gəldi, o həzrətlə döyüş əmri ilə Həmədan yaxınlığına qayıtdı. Türkman döyüşçülərindən yetmiş min nəfərədək adam toplayan Əlvəndin üç yüz araba topu, zərbzəni və yaraq-yasaqı vardı. Bu tərəfdənsə, Süleyman şanlı xaqan inadkar iqbal döyüşçüləri ilə İlahinin inayətinə və müqəddəs imam ruhlarının köməyinə bel bağlayaraq, müqəddəs qoşunundakı yüksək qızılbaş tayfalarından on iki min döyüşçü ilə düşmənə qarşı yola düşdü. Allah ona yar olsun!

SÜLEYMAN ŞANLI XAQANIN SULTAN MURADLA MÜHARBƏSİ VƏ ALLAHIN KÖMƏYİ İLƏ İRAQİ-ƏCƏMİN, FARSIN VƏ KİRMANIN FƏTH OLUNMASININ ZİKRİ

Doqquz yüz səkkizinci il zilhiccə ayının iyirmi dördü (miladi 1503, 21 iyun) şənbə günü Həmədanın Alma bulağı adlı yerində onların arasında böyük hərb oldu. Süleyman şanlı xaqanın

heydəri qol gücü və isnaəşəri dövlət günəşinin xoşbəxt doğuşuna görə o, müqayisəsiz ləşkərə qalib gələrək, həmin mərəkədə türkman döyüşçülərinin kələyini kəsdi. Süleyman şanlı xaqanın həmişə "Namurad" adlandırdığı Sultan Murad**, eləcə adlandırıldığına uyğun olaraq, bəxti dönük və muradsız halda (namurad) fərar yoluna düşüb Şiraza getdi. Bü döyüşdə müzəffər əsgərlərin əlinə bol qənimət çatdı, atlar və hər diyardan toplanılan saysız-hesabsız başqa mallar keçdi, Süleyman şanlı xaqan ətraf yerlərə fəthnamələr* göndərdi. Ətraf yerlərin məlikləri və başqa-başqa məmləkətlərin əyanları türkman sultanlarının uğursuz və bəxti dönük olduqları barədə yəqinliq hasil etdilər, şahın ucalan dövlətinə ümüdvar olaraq, aləmpənah dərgaha gəldilər, yer-yerdən onun hüzuruna elçilər* yollanıldı. Dünya sultanlarının fəthlərinin ziynəti (təraz) olan bu fəth dildən-dilə düşdü, [şaha] təbriklər və peşkəşlər göndərildi. Müzəffər ordu o baharı Əlvənd dağının ətəyində keçirib, bahar günlərini həmin cənnət gözəlliyində olan yerdə eyş-işrət, seyr və söhbətlə başa vurdu. O, əsnada münhilər** xəbər gətirdilər ki, Sultan Murad Şiraz darülmülkündə əyləşib, Fars məmləkətlərində özünü möhkəmlətməklə məşğuldur. Süleyman şanlı xaqan öz istirahətini saxlayıb Təxti-Süleyman səmtinə yollandı, uca bəxtli müzəffər əsgərləri ilə İsfahan darülmülkünə təşrif apardı, ordansa Şiraza tərəf hücumla rəvan oldu. Hümayun şah qoşununun (rayat) gəlişi xəbərini eşidəndə Sultan Murad qorxdu, hümayun dövlətin hücumuna qarşı çıxmaq üçün özündə güc görməyərək Şüstərə tərəf qaçdı. Müzəffər ordu isə şan-şöhrət və kamranlıqla Təxti-Süleyman yüksəkliyinə qədəm basdı və Şiraz darülmülkü bu sərəfraz padşahın iqamət yeri oldu. Fars [vilayətinin] camaatı və əyanları onun ali sarayına gələrək layiqli peşkəşlər gətirdilər, bütün fars əhalisi Mürtəza xislətli o padşahın ədalət kölgəsi altında dövr hadisələrindən asudə yaşamağa başladılar. Amma, namurad Sultan Murad müzəffər qazilərin hücumunun qorxusundan Şüstərdə qala bilməyib, oradan Bağdada yollandı. Oranın da vəziyyətini, Barik Pornakın o yerləri istila etdiyinə görə özünə münasib görmədi. Hümayun xaqan ordusunun oraya yürüş xəbəri yayıldıqda dayana bilməyərək adı çəkilən Bariklə birlikdə Hələbə getdi, bir neçə vaxt Misir və Şam padşahı Sultan Qansunun*** dövlət kölgəsi altında güzəran keçirdi, oradan çıxdıqdan sonra Diyarbəkr və Rüstəmdara getdi, zülqədər faydasının hakimi və Mürqəş (?) ölkəsinin varisi olan Əlaüddövləyə sığınmaqdan ötrü onun yanına yollandı. Sultan Muradın gələcək

vəziyyəti barədə aşağıda məlumat veriləcəkdir. Xülasə, Cahan padşahının zəfər ayəli ordusu Fars darülmülkünün işləri nizamlandıqdan sonra İraqa tərəf hücuma keçdi. Allahın köməyi ilə!

İRAQ İNADKARLARININ (MOTƏMƏRREDAN) TƏNBEH OLUNMALARI, QALALARIN FƏTHİ VƏ CAHAN XOSROVUNUN (ŞAH İSMAYILIN - Ş.E) QƏLƏBƏSİNİN ZİKRİ

Bütün Rüstəmdarı, Firuzgah dağlarını (cəbal), Dəmavəndi, Həbəlrudu (?) və o yerlərin ətrafını öz əlinə alan və on iki min döyüşkən süvarisi, saysız piyadası olan Hüseyn Kiya Cəlladi (?) qalalarının möhkəmliyinə, dağlarının ucalığına arxalanıb, müxaliyətə və inadkarlığa başladı. O, başını üsyan cibindən çıxarıb ətrafdakı (həvaşi) İraq məmləkətlərinə əl uzatmaqdaydı. İraq mahallarında vəziyyəti zəyifiəyən bayanduri türkmanları Murad bəyin sərkərdəliyi ilə Rüstəmdar dağlarına və Əmir Hüseyn Kiyanın dərgahına arxalanıb, onun yanında cəm olmuşdular. Getdikcə həsəd və qürura qapılan Hüseyn Kiya [Şah İsmayılın] mülazimləri ilə ədəbsiz davranmağa başladı. Böyük ordu Fars məmləkətlərinə yollanan vaxt [şah] İlyas bəy Ənutoğlunu* bir dəstə ilə onun şərini dəf etməyə yolladı. Bu xəbəri eşidən Əmir Hüseyn Kiya İlyas bəyin qızılbaş qoşununun bir yerə yığmasından əvvəl ona hücuma keçdi, İlyas bəy Vəramin qalasına getməli oldu. Cəlladilər qala ayağına gələrək, oranı bir müddət mühasirədə saxladılar. Nəhayət, əhd-peymanla onunla görüşən Hüseyn Küya o sadədil türkü və mülazimlərini məkr və hiyləgərliklə Reyin Kobud Günbəd adlı yerində səhadətə yetirdi. Əmir Hüseyn Kiyanın itaətsizliyi, özbaşnalığı və ədəbsiz cəsarəti xəbəri şahın cah-cəlal qulağına yetişdikdə həmin bəd əməlli (bədkirdar) əmirin fitnəsini dəf etmək və Rüstəmdar dağlarının div xislətli adamlarını cəzalandırmaq fikrinə düşdü, doqquz yüz doqquzuncu ilin (miladi 1503) baharının əvvəlində Qum qışlağından zəfər şüarlı əsgərlərlə ona tərəf hərəkətə başladı. Əvvəlcə, möhkəmliyinə görə dünyanın ən uca qalalarına bərabər olan Gülxəndanı mühasirəyə aldı, Allahın köməyi və heydəri pəncəsinin gücü ilə Xeybər qalası kimi möhkəm olan həmin qalanı fəth etdi, qaladakılan qətli-ama yetirdi. Oradan, Firuzkah qalasına getdi, o qala da qalibiyyətli (firuz) dövlət iqbalının qüvvəsi ilə Gülxəndan qalası kimi alındı. Qala hakimi (kutval) olan Əmir Əli

Kiya uzun döyüşdən sonra qaladarlıq etməkdən aciz olub, padşahın əfvinə pənah apardı və buna görə də, hərbdən əl çəkmiş başqa adamları ilə birlikdə, salamat qaldı, qalan adamlarsa cəzalandırıldı. Özünün on iki min süvarisi və piyadası ilə zəfər şüarlı əsgərlərin yolunu kəsərək, qəddarlıq pusqusunda dayanan Əmir Hüseyn Kiya [qızılbaşlarla] məkr və hiylə ilə döyüşmək istəyirdi. Həmin iki uca qalanın fəthini və qaladakıların qətliam xəbərini eşidən Kiya bərk qorxuya düşdü, qəflət yuxusundan oyanaraq, öz əməlindən peşiman oldu. Yanında olan bir neçə nəfərlə o vilayətin ən möhkəm qalası olan Osta qalasına pənah apardı, oraya sığındı. Şəhriyarın hümayun fallı qoşunu qala ayağına çataraq, qalatutma silahlarının hazırlığına başladı. Bir müddət sonra atışma başlandı və tərəflərarası hərb üz göstərdi. Qala ayağından böyük bir çay axırdı ki, qala əhalisi çaydan yol ayırıb qalaya oradan su arxı çəkmişdi. Bu iş şahın cahanı bəzəyən fikrini işıqlandırdı, xislət bəhrinin himməti onu bu qərara doğru yönəltdi ki, gərək çayın su yolunu başqa səmtə döndərsinlər. Suyun çoxluğu və coşqunluğundan bu işi yerinə yetirmək çətin olsa da, şücaət ümmanının o fatehi bu işin baş tutmasına çalışdı və bir neçə gündə çaydan böyük bir arx ayıraraq suyu o səmtə yönəltdi. Cəlladilər sudan kənara düşən balıq kimi çırpınmağa başladılar. Çarəsiz qalıb bir neçə gün də dözdülər, nəhayət susuzluqdan fəryad etməyə başladılar və həmin qala öz möhkəmliyinə baxmayaraq otuz üç gün ərzində qüvvətli dövlət övliyalarının əlinə keçdi. Qalanın yaş və quru adamları düşməni yandıran, amma dosta yanan padşahın qəhr atəşi ilə yandırıldı, o qantökən tayfa iti qılınclara tapşırıldı. Qələm əhli olan adamlardan başqa həmin tayfadan heç kim nicat tapa bilmədi. Muradbəy Cahanşahlını qəhr atəşi ilə yandırdı və kinli əsgərlər onun ətini yedilər. Əmir Hüseyn bayquş kimi dəmir bir qəfəs viranəsində həbsə girifdar oldu, amma qoruyucuların səhlənkarlığı üzündən özünü yaraladı və bir neçə gündən sonra Reyin Kəbud Günbədində onun ruh quşu bədən qəfəsini tərk edib uçdu. Qəribə hadisələrdəndir ki, o, İlyas həy Ayqutoğlunun[101] qızılbaşlarla qətlə yetirildiyi yerdə öz əməlinin cəzasını çəkdi və elə oradaca axirət sarayına yollandı. Elə onsuz da qəfəsə salınmış quru bir cəsəd (kalbod) idi, onun xəbis cüssəsi qəhr qəhrəmanının (Şah

[101] İlyas bəyin adı bu dəfə düzgün yazılmışdır. Yuxarıda yazılan "Ənutoğlu" sözü sadəcə olaraq mətbəə xətası üzündən səhv getmişdir - Ş.F.

İsmayıl - Ş.F.) atəşi ilə yandırıldı. O əsnada, türkman sultanzadələrinin hakimiyyəti zamanı Əbrquhun daruğəsi olmuş və Süleyman şanlı xaqan tərəfindən Əbrquh əyalətinə sahiblənmiş Məhəmməd Kərrənin üsyan etməsi xəbəri eşidildi. O həzrət (Şah İsmayıl - Ş.F.) Rüstəmdarın fəthi ilə məşğul olan vaxt ona belə bir xəbər yetişdi: Məhəmməd Kərrə Yəzdə hücum edib, özünü qəfildən şəhərə çatdırmış, oranın hakimini qətlə yetirmiş, qürur və itaətsizlik bayrağını göyə ucaltmışdır. O qorxubilməz üsyankar adamın cəzalandırılması üçün Yəzd darülibadəsinə hümayün yürüşə başlandı. Şəhər və onun qalasının iki aylıq mühasirəsindən sonra nəhayət o talesiz zəlil adam (məxzul) şəhəri hifz etməkdən və döyüşdən yorulub ərkə* sığındı. Axırda, qalibiyyətli əsgərlər o hasarı (qalanı - Ş.F.) alaraq, Məhəmməd Kərrəni ərkin nağaraxanasında ələ keçirdilər, onu dəmir bir qəfəsə saldılar, başqa adamları da öz cəzalarına çatdırdılar. Amma Süleyman şanh xaqanın qəzəb şöləsi daha da ucaldı, onun cəsədini də İsfahanan Nəqşi-Cahan meydanında babası Əmir Hüseyn Kiya Cəlladi kimi həmin qəfəsin içində yandırdılar. Bu yürüş zamanı Allahın köməyi ilə İraq mülkünün başqa üsyançıları da siyasət şəhnəsi" tərəfindən məhv edildilər, həmin vilayət üsyankarlardan təmizləndi. Bir dəstə türkmanın fitfası ilə Xorasana hücum etmiş cığatay ləşkərindən ədəbsizlik baş vermişdi. Mərhum padşah Sultan Hüseyn Mirzə "cığatayların" hücumunun qarşısının alınması və cəzalandıralmasından ötrü Əmir Kəmaləddin Sədri [Şah İsmayılın] yanına göndərdi. Sədrin gətirdiyi məktub nəinki şahın xoşuna gəlmədi, hətta onun qəzəb tonqalını belə alovlandırdı. O Yəzddən Təbəsə hücum edərək şəhərə girdi, şəhərdə yaşayan cığatayların əksəriyyətini fəna qılıncı ilə yox etdi, yalnız qan axıdılmasının çoxluğunu gördükdən sonra onun qəzəb şöləsi təskinlik tapdı, bir həftədən sonra geri qayıtdı. "Əhsənüt-təvarix"də belə yazılmışdır: Bu hadisədə yeddi min adam qətlə yetirildi və gələn ilin baharında o Həmədan yaylağına getdi, qışı Xoy və Səlmasda keçirdi, fitnəkarlığa başlayaraq Urumi* vilayətinə gələn, orada o məmləkətin ətraf yerlərinə əl uzadan Kürd Saromun şərini dəf etməkdən ötrü Bayram bəy Qaramanlını və "xəlifətül-xüləfa" kimi məşhur olan Xadim bəyi oraya göndərdi. Onun qardaşı, oğlu və əksər sirdaşları ələ keçirildi və möhkəm cəzalandırıldılar, bütün eli (il) və ulusu hadisələrin taracına getdi. Durmuş xanın atası Əbdi bəy Şamlı və Sarı Əli Möhdar Təkəli həmin səfərdə öldürüldülər. Rəşt valisi Əmir

Hüsaməddinin də bəyənilməz hərəkətlərindən qəzəblənən şah doqquz yüz on birinci ildə (miladi 1505/06) onu cəzalandırmaqdan ötrü qoşun göndərdi. Hümayun ordunun özü də Taromdan Rəştə gəldi. Həmin əmir ona əl açıb tərcüman rəsmi** üzrə layiqli töhfə və hədiyyələr göndərdi, Əmir Nəcməddin Məsud Rəştinin köməyi sayəsində onun taxsırını əfv edib geri qayıtdı. Elə o il hökm olundu ki, Sultan Heydərlə cəngə getmiş hər hansı bir müxalif adamı qətlə yetirsinlər. O vaxt qorçibaşı*** olan Abdal bəy Dədə bu işi yerinə yerilməyə göndərildi və buna görə də türkman və başqa tayfalardan çoxlu adam cəzalandırıldı.

MİR ƏLAÜDDÖVLƏ ZÜLQƏDƏRİN DƏFİ ÜÇÜN YOLLANAN HÜMAYUN YÜRÜŞ, DİYARBƏKR HADİSƏLƏRİ VƏ ALLAHIN KÖMƏYİ İLƏ O DİYARIN FƏTH OLUNMASININ ZİKRİ

Ertəsi il hümayun [şah] eşitdi ki, Sultan Murad Mərəş və Əlbostan hakimi olan Əlaüddövlə Zülqədərin yanına getmiş, Əlaüddövlə onu öz damadı etmiş, o isə zülqədər və Mosul türkmanlarından, habelə o ətrafdakı başqa adamlardan ibarət ləşkər hazırlayaraq, Diyarbəkr vilayəti və ətrafdakı qalaların zəbti ilə məşğul olmuş, həmin vilayətdə istibdad və istiqlaldan dəm vurmağa başlamışdı. Süleyman şanlı xaqanın məğrur qeyrəti belə tələb etdi ki, həmin səmtə bayraq qaldırsın və öz hümayun ürəyini həmin mülkün o fitnəkar adamları sarıdan arxayınlaşdırsın. Məmləkət ləşkərlərinin çağırılması üçün iti sürətli qorçilər* göndərildi. Onlar doqquz yüz on üçüncü ildə (miladi 1507) fəth ayəli bayraqlarını Azərbaycana tərəf qaldırdılar. Elə ki, ordu öz kölgəsini o diyarın üstünə saldı, Əlaüddövlə qızılbaşların yaxınlaşmalarından xəbər tutdu, özünün döyüşkən ləşkəri ilə Əlbostana tərəf gedərək Kuhi-Dumabad (?) adı ilə tanınan uca bir qalaya sığındı, cəngə hazırlaşıb gözləməyə başladı. "Həbibüs-siyər" və "Fətuhate-Yəməni" kitablarının məlumatlarına görə, Süleyman şanlı xaqanın hümayun fallı ordusu Əlbostana tərəf hərəkətə gəldi. Tərəflər qarşılaşanda hər iki tərəf səf bəzəməyə başladı. Hərb atəşi elə şölələndi ki, qılınc və oxların parıltısından göydə ülkər ulduzunun (pərvin) quyruğu od tutub yanır, Əlbostan torpağı öldürülən adamların qanından Bədəxşan ləli kimi qızarırdı. O qorxulu mərəkədə zülqədər tayfası öz səbat ayağını yerə möhkəm basaraq, hərbin birinci günü sübhdən

axşamadək vuruşdu. Hər iki tərəf arasına zülmət pərdəsi çökən vaxt döyüşçülərin hər iki hissəsi öz aramgahlarına qayıdıb, sübhədək ön (tələye) və arxa qoşun dəstələrinin hazırlığı ilə məşğul oldular. Üçüncü gün Süleyman şanlı xaqan özünün bənzərsiz bədəninə zirehli libas geyinib, qızılbaş ləşkərinin dilavərlərinə düşmənlə döyüşməkdən ötrü ürək-dirək verərək, meydana qədəm atdı və döyüşə başladı. Qarşı tərəfdən də çaş-baş qalmış zülqədərlilər şah ordusunun müqabilinə çıxarıldı. Oluqca qızğın hərb başlandı. Vəziyyətlərində acizlik və süqut halını müşahidə edən zülqədər düşmənləri fərar etmək qərarına gəldilər, fəth və qələbə nəsimləri isə qızılbaşların fələyə ucalan bayraqlarını dalğalandırdı, onlar o tayfanın kələyini kəsdilər. Zülqədərlərin əlinə keçən Diyarbəkr qalası qəhr və qələbə ilə alındı və o vilayət həmin il Xanməhəmməd Ustaclıya verildi.

O vaxtlarda Gülabi bəy Mosullu Türkmanın oğlu Əmir bəy Mosul Diyarbəkrindən aləmpənah dərgaha gəlib iltifata yetişdi. Süleyman şanlı xaqan o vilayətin işlərini tənzimləyərək geri qayıtdı. Amma "Əhsənüt-təvarix"in müəllifi Həsən bəy Süleyman şanlı xaqanla onların arasında hərbin olmadığını yazmışsa da, o zaman sağ olan "Həbibüs-siyər"in müəllifi buna etiraz etmişdir. Buna görə də bu həqir zərrə (yəni İsgəndər bəy - Ş.F.) hər iki fikri [öz əsərində] bəyana gətirdi: Allah bilən məsləhətdir[102].

Xülasə, bu hadisənin baş verməsindən sonra Xanməhəmməd Diyardəkrə gəldi. Həmid şəhərində olan Çülabi bəy Mosullunun oğlu Qayıtmaz bəy [ona qarşı] müxalifətə başlayaraq qalanı bağladı və onun şəhərə girməsinə mane oldu, Xanməhəmməd isə məcbur olaraq səhrada dayandı. O yerlərin kürdləri qızılbaş ordusuna qarşı çox əluzunluq etdilər, buna görə də Xanməhəmməd onların üzərinə yollandı və aralarında güclü hərb baş verdi. Kürdlərdən yeddi min nəfər qətl olundu və Xanməhəmməd kürdlərlə döyüşdən qalib çıxaraq geri qayıtdı. Qayıtmaz bəyin də ona müqavimət etmək tabı yox idi, [buna görə də,] o, Əlaüddövlə Zülqədərin yanına bir adam yollayaraq, ondan kömək xahiş etdi, söz verdi ki, şəhəri alıb ona verəcək. [Bir az əvvəl] böyük məğlubiyyətə uğrayan Əlaüddövlə Həmid şəhərinə sahiblənmək həvəsi ilə

[102] İfadənin ərəbcəsi: "Əl-ilmu ində-l-lahi" (Hərfi tərcüməsi: "Elm Allaha məxsusdur" - Ş.F.)

Qayıtmaz bəyin xahişini qəbul etdi, elə həmin qış yenidən döyüşkən bir ləşkər toplayıb onları "Sarı Qaplan" kimi tanınan oğlu Qasım bəy və Ərdəvanə bəylə Xanməhəmmədin üstünə Diyarbəkrə yolladı. Qoşununun azlığına baxmayaraq Xanməhəmməd Ustaclı zavalsız şah iqbalına güvənib, ustaclı tayfasıyla birlikdə o ulduz saylı döyüşçülərin önündə qətl səfi bəzədi, yenilməz dövlətin iqbal gücü sayəsində döyüşdən qalib çıxdı. Öz şücaəti və dilavərliyinə görə Əlaüddövlənin başqa övladlarından seçilən Sarı Qaplan və qardaşı Ərdəvanə bəy çoxlu adamla ələ keçirilib qətlə yetirildilər, Xanməhəmməd isə zəfər qazanaraq, əzəmətlə Qayıtmaz bəy Türkmanın üstünə yollandı. O, şəhərin darvazalarını bağlayaraq, qaladarlıq məqamında dayandısa da, bir iş görə bilmədi. Həmid şəhərinin əhalisi ondan dönüb, şəhərə girmələrindən ötrü qazilərə yol verdi, Qayıtmaz bəy tutulub qətl edildi. Diyarbəkr hakimliyini ələ gətirən Xanməhəmmədin şöhrət və həşəmət xəbəri o ətrafa yayıldı.

Oğlanlarının başına gələn hadisədən rahətliyini itirən Əlaüddövlə özünün pərakəndə hala düşmüş ləşkərlərini bir daha toplayaraq, onları oğlanları Kor Şahruxun və Əhməd bəyin sərdarlıqları altında qardaşlarının qanını almaqdan ötrü Xanməhəmmədin üzərinə göndərdi. Xanməhəmməd də mərd-mərdanə müdafiə olunmaq məqsədi ilə şəhərdən çıxdı, zülqədər ləşkəri ilə döyüşə başladı. Onun min nəfər adamı vardı. Deyilənə görə səflərin düzülüşündən sonra tazi və tula itlər Zülqədər qoşunundan çıxaraq ustaclı itləri ilə davaya başladılar. Xanməhəmməd o itlərinin qapışmasına baxıb fal açdı. Təsadüfən ustaclıların itləri üstün gəlib zülqədərlərin itlərini qaçırtdılar. Bu vəziyyəti müşahidə edən Xanməhəmməd ürəklənərək qaziləri zəfər çalacaqları xəbəri ilə müjdələdi. Aralarında güclü döyüş başlandı. Xanməhəmməd bu dəfə də hümayun şahın zavalsız iqbal gücü sayəsində o çoxsaylı ləşkərə qalib gəldi. Əlaüddövlənin övladları Kor Şahrux və Əhməd bəy əsir alındılar, onun çoxlu qohumu, təbəələri və əmirləri həmin mərəkədə öldürüldü. Baş vermiş qəribə hadisələrdən biri də budur: Ustaclıların arasında döyüşə gəlmiş bir kor da var idi. Yoldaşlarının məzəmmətinə qarşı deyirdi: "Allah-təaladan diləyirəm ki, nə olaydı dinpənah şahın iqbalı o koru (Əlaüddövlənin oğlu Kor Şahruxu - Ş.F.) bu korun (yəni özünün - Ş.F.) əlinə verəydi". İlahidən gələn qəzavüqədər sayəsində Kor Şahrux onun əlində giriftar oldu, düşmənlərin yerdə qalan

döyüşçüləri isə fərara başladılar. Bu məğlubiyyətindən sonra Əlaüddövlə öz fərzəndləri və qohumları arasında qara keçədən (nəməd) libas geyinməyə başladı. Onun əmirləri də çiyinlərinə qara keçələr salaraq təziyə saxlamağa başladılar ki, [indiyə kimi] belə bir təziyə mərasimi heç vaxt olmamışdı. Əlaüddövlə tamah dişini Diyarbəkrdən çəkərək, bihudə səylər etdisə də, onun dövləti özünə gələ bilmədi. Əlaüddövlənin ard-ardınca üz verən məğlubiyyətlərindən, həmçinin onun övlad, əmir və döyüşçülərinin öldürülməyindən xəbərdar olan Rum padşahının ürəyində ona qarşı qədim bir kin vardı. O, fürəsti qənimət bilərək, Əlaüddövlənin üzərinə ləşkər çəkdi və aralarında hərb başlandı, rumilərlə olan o döyüş vaxtı Əlaüddövlə öldürüldü, onun dövləti süqut etdi. Zülqədər tayfasının bir hissəsi xandgarın (Rum sultanı - Ş.F.), başqa hissəsi ilə Süleyman şanlı xaqanın mülazimətinə gəldi. Bu Əlaüddövlə Mərəş və Əlbostan vilayətinin və həşdad min zülqədər evinin sahibi idi. O silsilədən dörd nəfər həmin vilayətdə hökmranlıq etmişdilər: Məlik Aslan, Nasirəddin və Əlaüddövlə (üç nəfər olmalıdır - Ş.F.), amma ata-babalarına nisbətən Əlaüddövlə daha çox iqtidar və istiqlala yiyələnmiş oldu. O, Rum və Misir padşahları ilə hiyləgərliklə davranmaqdaydı. Yanına Rum elçiləri gəldikdə, bütün mülazimlərinə Misir cəng libasları geyindirib onlara deyirdi: "Bu libasları mənə Misir padşahı göndərmişdir. O, Rum ləşkərini dəf etməkdən ötrü mənə belə kömək göstərməkdədir, çünkü mən xandgarın dostluğuna inanmıram". Əlaüddövlə Misir padşahına da bu qayda üzrə sözlər söyləyir, onların hər ikisindən faydalanırdı. Onun həmişə dediyi bu cümlələr məşhurdur: "Mənim iki qızıl quşum var ki, biri gümüş, o birisi isə qızıl yumurta doğur". Xülasə, zülqədərlərlə cəng gedən vaxtlarda Əlaüddövlənin yanına gedərək onun damadı olmuş Sultan Murad rumilərin əlinə keçdi. Sultan Səlim ehtiram edib onu bir müddət öz yanında saxladı. Süleyman şanlı xaqanın üzərinə hücuma keçən illərdə Rum padşahı, Sultan Muradı yanında saxlamağı məsləhət bilmədi. Buna görə də o, rumilərdən ayrıldı, ətrafına yığılan bir dəstə adamla Sultan Qacarın kiçik sarayı (soraçe) üzərinə yürüş etdi. Səkkiz yüz nəfərlə hərbə yollanan Sultan Murad onun səkkiz minlik ləşkərinə qalib gəlsə də, həmin mərəkədə öldürüldü. Əcə Sultan (?) onun başını və üzüyünü bir nişanə kimi aləmpənah dərgaha göndərdi və “Miş Sultan” adı ilə ləqəbləndirildi*. Sultan Muradın qətli ilə ağqoyunlu sultanlarının dövləti süqut etdi. Bu hadisənin İraqi-Ərəbin fəthindən sonra baş

verməsinə baxmayaraq, biz yeri düşdüyünə görə bu haqda məlumat verdik.

HÜMAYUN MƏİYYƏTİN İRAQİ-ƏRƏBƏ YÜRÜŞÜNÜN ZİKRİ, O VİLAYƏTİN FƏTHİ VƏ BAŞ VERƏN [BAŞQA] HADİSƏLƏRİN BƏYANI

O vilayətin fəthi belə olmuşdur: İraqi-Ərəb məmləkətlərinin əyanları Sultan Murad əhvalatından xəbər tutduqda, türkman əmirlərindən Barik adlı birisi o mülkü zəbt etdi və onun mühafizəsinə başladı. Həmin vilayəti tutmaq fikri humayun şahın da işıqlı beyninə yol açdığı üçün, o, əvvəlcə Barik üçün zərlə işlənmiş tac, kəmər və xüsusi xələt göndərdi,* onu itaətə dəvət etdi. Barik məsələnin başlanğıcında şah xələtini həvəslə qəbul edərək, türkman papağını başından götürüb şahın tac və xələtini özünə iftixar bildi, özü də bargah adamlarından ötrü layiqli peşkəşlər yolladı, o vilayət idarəsinin onun ixtiyarında saxlanılması xahişini etdi. Amma hümayun şahın nəzəri onun göndərdiyi şeylərə qonmadı və Barikə məktubla bildirdi: "Mənim ürəyimə ali müqəddəslərin ziyarətgahlarına (ətəbat) getmək fikri düşmüşdür və bu işi yerinə yetirməliyəm (fəsxe-an nəmişəvəd). Əgər sənin sözlərindən sədaqət qoxusu gəlirsə, yubanmadan aləmpənah dərgaha gəl və əmirlər silkinə daxil ol, əks təqdirdə bu dərgaha məkr və hiylə yolu qapalıdır". Barik bir neçə gün dövlətxahlıq şüarını öz şüarı etdi. Hümayun yürüşün o səmtə başlanacağı aydınlaşanda qaladarlaq ehtiyatı və silah-sursat toplamağa başladı. Şahın gəlişinə maneçilik törətmə şeypurunu çalaraq, zərrin tacı başından atdı. Elə buna görə də o tərəfə hümayun yürüş başlandı. Şah, Hüseyn bəy Lələni qoşunun münqəlayı** edib, irəli yolladı. Hüseyn bəy Bağdadın iki mənzillik*** məsafəsinə çatdıqda Barik qorxuya düşdü. O vilayətin əksər əyanı şah bargahının adamlarına itaətə meyilləndi, Barik isə özündə qarşılaşma (moqabele) və qaladarlıq qüdrəti görməyərək, bir gecə gizlicə Dəcləni keçdi, Sultan Muradla birlikdə yorğun halda (təəb) Hələbə qaçdı, onlar da oradan çıxıb, yuxarıda yazıldığı kimi, zülqədərlərə qoşuldular. Ertəsi gün şəhərin əhalisi və əyanları Nəcəf seyidlərindən olan və o vilayətin ixtiyar sahibinə çevrilən, amma Barik tərəfindən yüksək şah dövlətinin tərəfdarı kimi quyuya salınan Seyid bəy Kəmunəni quyudan çıxarıb şahsevənlik şüarı**** elan etdilər. Seyid Məhəmməd Kəmunə cümə günü came məscidə gedib,

hümayun şahın adına isnaəşəri xütbəsi oxudu. O. Hüseyn bəy Ləlәni qarşılayaraq, onu Mirzə Pirbudaq bağına* gətirdi. Hüseyn bəy Bağdadın fəthinin şah dərğahı sayəsində mümkün olduğunu ərz etdi. Əzəmətli ordu ov edə-edə tələsmədən gedib zəfər və kamranlıqla darüssəlama (Bağdada - Ş.F.) çatdı. Əhali şadlıqlarını izhar edərək onları istiqbal etdi, dua mərasiminə başladı. Süleyman şanlı xaqan darüssəlamın fəth olunması münasibəti ilə o mülkə şükürlər diləyib doqquz yüz on dördüncü il cəmadüs-sani ayının iyirmisində (miladi 1508, 16 oktyabr) darüssəlama təşrif gətirdi, Seyid Məhəmməd şahın izzət və ehtiramı ilə şərəfləndi və iftixar etdi, o vilayətin idarəçiliyi Xadim bəyə verildi, şah onu orada "əbülmənsur" və "xəlifətül-xüləfa" adları ilə ləqəbləndirdi. Şah oradan çıxaraq öz ehtiyat və sədaqət üzünü pak Kərbəla torpağına tərəf tutdu, Əbi Əbdullah əl-Hüseynin və Kərbəla çölü şəhidlərinin nurlu qəbirlərini ziyarət etməklə müşərrəf oldu, behişt ehtiramlı o rövzənin gözəlləşməsinə və mücavirlərə ənamlar verilməsinə böyük diqqət göstərdi. Oradan çıxaraq pak, nurlu vəlayətpənah (İmam Əlinin - Ş.F.) yəni "o pak nurun, Allah vəlisinin"[103] cənnət mənzilli təvaf* ehramını*** geyindi, Hillədən Nəcəfi-Əşrəfə getdi, bu böyük səadətə yetişib xoşbəxt (fayez) oldu, səxavət əlini oranın xidmətçilərinə ehsan vermək üçün açdı. O, Nəcəfi-Əşrəfin vəqf qəyyumluğunu (tovliyət) İraqi-Ərəbin bəzi mahalları ilə birlikdə Seyid Məhəmməd Kəmunəyə verdi və [Kəmunə] həmin işlərlə məşğul olmağa başladı. [Şah] darüssəlama qayıdaraq, ali nejadlı imamlar olan Əbi İbrahim Musa əl-Kazimin və Məhəmməd Təqi əl-Cavadın məzarlarının ziyarəti ilə müşərrəf oldu. Oradan Samirəyə gedərək həmin şərafətli məkanda dua, ziyarət, ənam və ehsan rəsmlərini icra etdi.

İraqi-Ərəb məsələlərini nizamladıqdan və mübarək ocaqlara zəruri diqqətini yetirdikdən sonra [şah] Xuzistan fəthinə bayraq qaldırıb, o tərəfə rəvan oldu. Xuzistan hüdudunda Hüseyn bəy Lələ və Bayram bəy Qaramanlını qələbə nişanlı əsgərdən on min nəfərlə birlikdə Luristan hakimi Məlik Rüstəmin üstünə göndərdi, humayun ordu isə Həvizəyə tərəf hərəkət etdi. Həmin vilayətdə yaşayan müşəşə ərəbləri* o vaxtlarda azğınlıq (zəlalət) yoluna düşərək, şahi-vilayət pənahın (Həzrət Əlinin - Ş.F) Allah

[103] İfadənin ərəbcəsi: "Mutəhhiru ənvarin ınnəmə vəliyəkum Allahu"

məqamında olduğunu (Üluhiyyət) iddia edirdilər. Qəribə hadisələrdən biri də budur: Xalq arasında söylənildiyinə görə, müşəşələr öz ibadətlərini icra etdikləri zaman onlara bıçaq, ya şəmşir zərbəsi təsir etmirdi. Onlar şəmşirin ucunu öz qarınlarına dirəyərək "əliyullahlıq" yəni "Əli Allahdır" və başqa batil sözlər söyləyirlər və bu vaxt şəmşir kaman kimi əyilir, amma bədənlərinə zərər dəymirdi. Həmin tayfa hakimi həmişə seyidlər arasından seçilirdi. Qızılbaşlar oraya göndərildikləri vaxtda isə Sultan Fəyyaz ibn Sultan Möhsün onların hakimi və öz atasının qayimməqamı idi. O tayfa üçün şəriət ehkimlarının icrası qadağandı və onlar azğınlıq yoluna daha çox düşmüşdülər, Fəyyazın üluhiyyətini etiraf edirdilər.

Cah-cəlallı ordu Həvizəyə yaxınlaşanda, "Həbibüs-siyər" əsəri müəllifinin sözünə görə, Fəyyaz müşəşə təbəqəsi ilə iqbal qoşununun müqabilində səf bəzəyərək döyüşə hazır oldu. Həvizə kənarında böyük hərb başlandı, Həvizə torpağı müşəşəçilərin axan qanlarından ləl rənginə döndü, bəd niyyətli (sekal) Fəyyaz o azğınların çoxu ilə birlikdə amalları zəfər olan qazilərin iti qılıncları vasitəsilə ədəm yoluna tələsdi:

Nəzm

Qanı müşəşənin o təhər axdı,
Sanki yer üstünə lalələr çıxdı.
O qədər töküldü qan o başlardan,
Fələk qurşağacan oldu qızıl qan.
Üst-üstə qalandı elə çox ölü,
O çölə bağlandı küləyin yolu.[104]

Luristana getmiş olan əzəmətli əmirlər əhd-peymanla onların yanına gələn Məlik Rüstəmi özləri ilə ali saraya gətirdilər. Məlik əmirlərlə qarşılaşandan sonra fərar etmiş, yolları olduqca keçilməz olan dağlara pənah aparmış, Bəhram intiqamlı əsgərlər

[104] Nəzmin farscası belədir:
Ze xune-moşəşe dər an sadə dəşt
To gofti zəmin-o zəman lale gəşt.
Ze bəs xun dər an sərzəmin kəlle bəst
Fələk ta kəmərgah dər xun neşəst.
Ze bəs koşte bər ruy həm uftad,
Dər an badiye bəste şod rahe-bad.

dağın ətrafını əhatəyə almış, onun işi çıxılmaz olmuş və o aman diləyi, əhdü peymanla əmirlərin yanına gəlmişdi. Məlik Rüstəm sarayda lur dilində şirin sözlər danışaraq şahın iltifat nəzərinə layiq oldu. Onun uzun saqqalı vardı. Süleyman şanlı xaqan onun saqqalını dürr və ləllərlə bəzədi və o, bir müddət hümayun orduda qaldı. [Sonra] Luristanın hakimliyi ona verildi və məqsədinə yetərək, öz diyarına rəvan oldu.

Xülasə, müşəşəyə qalib gəldikdən sonra [şah] Həvizə hakimliyini əzəmətli əmirlərin birinə verib Şüştər və Disfula getdi. Oranın hakimi itaət yolunu tutaraq ali saraya gəldi, şəhərin və qalanın açarlarını təhvil verdi, həmin məmləkətlər Səlasil qalası ilə birgə dərya ürəkli şəhriyarın əlinə keçdi. Süleyman şanlı xaqan başı fələyə dəyən o qalanı etibarlı adamların birinə verib öz zəfər bayrağını Fars vilayətinə doğru qaldırdı, şikar edə-edə Şiraz darülmülkünə yetişib, həmin darülmülkdə kamranlıq və rəiyyətpərvərlik taxtına qədəm basdı. Lar və Hörmüz valilərinin elçiləri xilafət ehtişamlı saraya gələrək, layiqli peşkəşlər təqdim etdilər, o məmləkətlərdə xütbəni və sikkəni hümayin şəhriyarın adı və soyadı ilə bəzədilər. Şah qış fəslini cah-cəlal ilə (fərr) Şirazda, baharı isə Həmədanda keçirdi, bir neçə vaxt da Əlvənd dağında istirahət etdi, oradan yola düşdü və Təbriz darüssəltənəsi İran hökmdarının şərafətli qədəmi ilə ətirləndi. Şirvan tərəfdən Şeyxşahın yenidən o vilayətə sərvərlik bayrağı qaldırması və (ödəyəcək) bac-xəracı ləngitməsi xəbəri gəldi. Şahın qiyamət zəbanəli (qiyamətləhəb) qəzəb atəşi şölələndi, qışın oğlan çağı və soyuğun şiddətli vaxtı yürüş cilovunu Şirvan istiqamətinə yönəltdi, Cavadda körpü (cəsr) asıb, oradan sağ-salamat keçdi. Şiravanşah ona müqavinıət edə bilməyərək, Biğord qalasına tərəf qaçdı, cəlal ordusu zəfər və iqballa Şirvana daxil oldu. [Şah] o vilayəti Lələ bəyə verdi və gəlib Şamaxıda dayandı. Bakı (Badkubə) və Şabranın qoruyucuları itaətə gəlib qapı açarlarını təhvil verdilər. Qalalarının möhkəmliyinə və qala ətəyinin yüksəkliyinə (xakrız) güvənən Dərbənd əhalisi bir neçə gün əl-ayaq atdılar, sonra əllərini aman ətəyinə uzadaraq [şaha] itaət mərasimi təqdim etdilər. Süleyman şanlı xaqan həmin qış fəslində Şirvandan çıxaraq Qarabağa təşrif gətirdi, baharın əvvəlində Sultaniyyəyə tərəf hərəkət etdi, Xorasana yürüş tiçün yaraq-yasaq hazırlığına başladı.

XORASAN FƏTHİ DASTANININ BAŞLANMASI

Rəvayətlər gülşəninin bülbül nəvalı adamları və hekayət əncuməninin yeni xəbərlər (əxbare-bədaye) yazan dastançıları Süleyman şanlı xaqanın atəşlər yağdıran qılıncının parıltısı ilə müyəssər olan Xorasan fəthini aşağıdakı kimi bəyan etmişlər: Elə ki, ölkələr alan xosrovun şimşək gurultulu nağarasının təntənəli avazı bütün dünyada (ərseye-cəhan) səsləndi, cahan sultanları o şəhriyarın cahangirlik qorxusundan çıxmaqdan ötrü, o həzrətə xələtlər gətirməyə və onunla yekdil (vəfaq) olmağa başladılar. Onlar müvafiqət və sədaqət yoluyla töhfə və hədiyyələr göndərir, məktub və elçilər yollayırdılar. Xorasan, Şahican Mərvi, Xarəzm, Təxarıstan, Zabilistan, Qəndəhardan tutmuş Kabul və Bədəxşan hüdudunadək hökmran olan, müzəffər hakimiyyəti uzun illər davam edən və çoxlu oğlu və nəvələri olan xaqan Əbülqazi Sultan Hüseyn Mirzə Bayqara əqlinin və uzaqgörənliyinin dəlaləti ilə həzrətlə sədaqət və dostluq məqamında durur, ona həmişə məhəbbət izhar edirdi. Süleyman şanlı xaqan da o, uca məqamlı padşahla oğul-ata davranışında olub, teymuriyyə sülaləsinə və aralarındakı sabiq əlaqələrə ehtiramla yanaşırdı. Buna görə də, o, öz fatehliyinin əvvəllərində müzəffər şahın zəbtindəki məmləkətlərə hücum etmirdi, aralarındakı məktublaşma və gediş-gəliş qapıları daim açıq olurdu. "Həbibüs-siyər"də yazıldığına görə, o alicah padşahın vəfatından sonra fərzəndlərinin bir-biriləri ilə nifaqından, xüsusilə onlardan iki-üç nəfərin - Bədiüzzaman Mirzənin, Müzəffər Hüseyn Mirzənin və Köpək Mirzənin istiqlal iddiasından həmin sülalə arasına çaxnaşma düşdü. Şeybanilər nəslindən olan Mavərənnəhr valisi Sultan Əhməd Mirzə ibn Sultan Əbu Səid Gurəkanın hakimiyyəti dövründə nökərlikdən sultanlığa qədər ucalmış Məhəmməd xan Şeybani ibn Budaq Sultan ibn Əbülxeyr xan ibn Dövlət Seyxoylu ibn Cuci ibn Çingiz xan Özbək o məmləkətlərdə fərman sahibi olan padşah oldu. O, vəziyyəti və teymuri* şahzadələri arasındakı ayrı-seçkiliyi eşidib, Xorasan mülkünə tamah saldı və müzəffər xaqanın (Sultan Hüseyn Bayqaranın -Ş.F.) övladlarını aradan götürmək fikrinə düşdü. Doqquz yüz on altıncı ildə (miladi 1507) Xorasana ləşkər çəkərək həmin tədbirsiz şahzadələrlə döyüşlər keçirdi, onlara qalib gəldi və onların həyat iplərini kəsməyə başladı. Xülasə, tarix kitablarında yazıldığı kimi, Bayqara dudmanından dud (tüstü) çıxardı və onların məmləkətləri

özbəklərin zəbt və işğalı altına keçdi. Əhali arasında "Şahi bəy" kimi tanınan Məhəmməd xan Şeybani Türküstan qəzalarından başlayaraq İraqa qədər olan yerləri fəth etdi, onun əzəmət və iqtidar bayrağı zirvəyə (oyuq) ucaldı, qürur buxarı beyin qəsrini elə bürüdü ki, o, heç bir şövkətli ixtiyar sahibini saya salmadı və fələyə ucalan şah sarayının xidmətkarları ilə xilaf məqamına gəldi. Ölkolər alan ordunun ikinci dəfə Şirvana tərəf yürüşü vaxtı özünün bir dəstə əsgərini biyaban yolu ilə Kirman üzərinə yolladı və həmin vilayətdə onlar cürbəcür dağıntılar, qətl-qarət işləri törətdilər. Süleyman şanlı xaqan buna görə də, dövranın bacarıqlı (mostəed) məşhurlarından Şeyxzadə Lahıcının başçılığı ilə özünün dilli-dilavər elçilərini iki-üç dəfə onun yanına göndərdi, onu fitnəkarlığı və savaşı tərk etməyə çağırdı. O, isə bəxtinin dönüklüyündən [şaha] cavab məktubunda xoşa gəlməz mənasız (gəzaf) laf sözlər yazıb fikrini belə izah etdi: "İslamın Həccini ürəyə salmaq fikri o qədər də nüfuzlu (rosux) deyildir. De görək harada qarşılaşacağıq?". Süleyman şanlı xaqan onun məktubunun cavabında belə yazdı: "İmam əl-cin və -l-ünsün ("cinlər və adamlar imamının", yəni İmam Rzanın - Ş.F.) nurlu qəbrini ziyarət etmək fikri bizim qəlbimizdə özünə möhkəm yer tutmuşdur. Allah qoysa, görüş yerimiz müqəddəs Məşhəddə olacaqdır". Doqquz yüz on altıncı ildə (miladi 1510) şah Xərrəqan yaylağında qalibiyyət nişanlı əsgərlərin toplanması barədə əmr verdi, güclü niyyət və geniş (fəsih) istəklə Xorasana yürüş etdi, Semnandan keçərək, Xorasan vilayətinə igidliklə qədəm basdı. Xorasan vilayətindəki özbək hakimləri duruş gətirməyib hər biri öz dövlətinin mərkəzini boş qoyaraq Heratda yığışdı. Həzarə* yürüşündən qayıdıb, Heratda olan Şahi bəy xan Süleyman şanlı xaqanın cürət və qorxmazlığından və onun qorxu bilmədən Xorasana gəlməyindən bərk qorxuya düşüb, fikir-xəyal dəryasına qərq oldu. Süleyman şanlı xaqanın qorxusu onun qəlbində günbəgün çoxalmaqda idi. Zəfər ayəli ordunun müqəddəs Məşhəd hüduduna gəlib-çatma xəbərini eşidən [Məhəmməd xan Şeybani] özündə o həzrətlə heç bir qarşılaşma qərarı tapa bilmədi, qohumu olan Canvəfa Mirzəni Herat qalasında qoyub, özü Şahican Mərvinə tərəf hərəkət etdi. Canvəfa Mirzə də müqavimətə tab gətirə bilməyərək, onun ardınca Mərvə yollandı. Süleyman şanlı xaqan şadimanlıqla, asudə ürəklə və xatircəmliklə müqəddəs Məşhədə gəlib, yeri mələk aşiyanlı Xorasan sultanının (İmam Rzanın - Ş.F.) ziyarətinə getdi, dua etmə mərasimini keçirdi, Kəbə mərtəbəsi misalında olan

həmin məzar yerinin (ətəbə) seyid və mücavirlərini nəvazişlərə layiq gördü, o vəlilik və imamət sarayının sultanının müqəddəs ruhundan kömək istəyib Şahi bəy xanın təqibincə Mərvə yollandı. Müzəffər ləşkərinin münqəlayındakı (ordunun ön hissəsi - Ş.F.) əzəmətli qazilər elə ki, Mərvin cəng meydanına çatdılar, Canvəfa Mirzə çoxlu ad-sanlı Özbək bahadırları ilə birlikdə onların qarşısına çıxdı, Mərvin Tahirabad adlı yerində aralarında çətin müharibə başlandı. Qızılbaş ləşkərinin sərdarı Danə Məhəmmədin o hərb zamanı öldürülməyinə baxmayaraq, Canvəfa Mirzə böyük məğlubiyyətə uğradı, fərar etdi. Qızılbaş ləşkəri qala ayağınadək özbəkləri qovub, onların böyük hissəsini həlak etdi. Bu hadisə baş verən vaxt xaqan özünün hümayun fallı çadırım Mərvin kənarında tərk edərək gəldi və öz bargahını qalanın qarşısında qurdu. Şahi bəy xan bu məsələdən bərk qorxuya düşüb, Mərv qalasına sığındı, şəhər və qalanın mühafizəsini gücləndirdi, Mavərənnəhrə adamlar göndərərək, özbək tayfa sultanlarının çağırılması haqqında fərman verdi. Tərəflər arasında hər gün döyüşlər gedir, hər iki tərəfdən adamlar qırılırdı. Bu minvalla bir neçə gün ötsə də, fəth görsənmədi. Dost-düşmənlə üzbəüz döyüşməyi qala ayağında dayanıb döyüşməkdən üstün bilən Süleyman şanlı xaqan istədi ki, Şahi bəy xanı şirdən qaçıb deşiyə girən tülkü kimi oradan eşiyə çıxarsın. Buna görə də köçmə təbilini çalaraq qala ayağından çəkildi, Məhəmməd xana bir məktub göndərdi: "Sən mənimlə İraq və Azərbaycanda döyüşməyi vəd etsən də, sözünə əməl etmədin. Biz isə öz vədimizə sadiq qalıb, Xorasana gəldik. Sən orada da bizim qarşımıza çıxmadın. Hazırda Azərbaycanda baş verən bəzi hadisələr səbəbindən geri qayıtmağımız vacib olmuşdur ki, biz buna görə buradan gedirik. Siz haçan döyüşə hazır olsanız və Allah istərsə, bizim görüşümüz baş tuta bilər". Şahi bəy xan Süleyman şanlı xaqanın geriyə qayıdışını acizlik əlaməti kimi düşündü, istədi ki, fərar edib qalaya sığınmaqla özünü bir müddət qızılbaş qoşununun hücumundan xilas edə bilmək arından təmizləsin. Buna görə də o vaxt yanında olan otuz min nəfər özbək döyüşçüləri, məşhur əmirləri və sərdarları ilə şəhərdən çıxdı. Verilən fərmana görə üç yüz nəfərlə ləşkərin arxasında olan Əmir xan Mosullu özbək döyüşçülərinin qaladan çıxdıqlarını müşahidə edib, hümayun xaqanın işarəsi ilə fərar etdi və gəlib müzəffər orduya qoşuldu. Məhəmməd xan [Şeybani] fərarı qızılbaş ləşkərinin zəifliyi kimi anlayıb onları izləməyə ürəkləndi. Xanın hücumundan xəbər tutan

Süleyman şanlı xaqan onun şəhərin üç fərsəxliyindən axan çaydan keçməsini bir qədər gözlədi, sonra bir neçə nəfəri o körpünü dağıtmağa göndərdi, ordusundakı on yeddi min nəfərlə Mərvin Mahmudabad adlı yerində özbək döyüşçülərinin müqabilində səf bəzədi. Şahi bəy xan naçar qalaraq müharibə etmək fikri ilə döyüş meydanına üz tutdu. Özbək bahadurları və qızılbaş igidləri bir-birilərinə qarışdılar. Elə bir hərb başlandı ki, qanlar tökən Bəhramın ürəyi o mərəkədə öldürülən adamların halına yandı.

Nəzm

O cahan şahının yar oldu baxtı,
Yıxıldı torpağa özbək bayrağı.
Tökülən qanlardan qızardı çəmən,
Fələk fəth ayəsi oxudu həmən.[105]

Can Vəfa Mirzə, Qənbər bəy və əksər özbək əmirləri həmin meydanda öldürüldü, Şahibəy xan isə məğlubiyyətə uğramış bir dəstə özbəklə çaşqın halda fərar atlarını qurtuluş yolu olmayan bir sahəyə sürdülər, bataqlıqda (siyəhabi) bir-birinin üstünə çıxıb yüz ah-fəryadla can verməyə başladılar. "Adı Bahadır" kimi tanınan və bozculu qazilərindən olan Əzizağa adlı bir döyüşçü Şahi bəy xanı bir neçə meyidin altından çıxardı, qüruru üzündən heç bir sərvərin başını taca layiq bilməyən Şahi bəy xanın başını bədənindən ayırdı, kəlləni üzərində əjdaha rəsmi çəkilmiş bayrağın kölgəsində dayanan [şahın] dünyagəzən atının (səmənd) ayağı altına tulladı. Süleyman şanlı xaqan ilahiyə şükür edib, onun əzalarının hər bir üzvünü bir vilayətə yolladı, başının dərisini soyub samanla doldurdu və onu Rum padşahı Sultan Bayazid ibn Sultan Məhəmməd Qaziyə göndərdi. "Əhsənüt-təvarix" müəllifinin sözünə görə [xanın] kəlləsini qızıla tutdu və həmin kəllə nişat məclislərində uzun illər əldən-ələ gəzdi. Bu beyt Şahi bəy xanın halına münasibdir:

[105] Nəzmin farscası:
Be niruye-eqbale-sahe-cəhan
Negunsar şod rayəte - özbəkan
Ze xune-yəlan gəşt golgun zəmin,
Fələk xand ayate-fəthe-mobin

Beyt

Eylədi viran fələk əllərdə sərgərdan məni,
Badə etdi kəlləmi zar eyləyib dövran məni[106]

Xacə Kəmaləddin Mahmud Şahi bəy xanın vəzirinin məşhur sağərçisi* idi və buraya Mərv qalasından gəlmişdi. Şəhriyar (Şah İsmayıl - Ş.F.) həmin qızıla tutulmuş kasanı işrət qədəhi kimi əlinə götürüb mey içirdi, xacə isə əsir tutulmuş [özbəklərlə] o iqbal asimanı günəşinin (Şah İsmayılın -Ş.F.) qarşısında dayanmışdı. Süleyman şanlı xaqan ona xitab edərək buyurdu: "Xacə, sən bu kəllə kasasını tanıyırsanmı? Bu sənin padşahının başıdır". [Xacə] dedi: "Sübhanallah! O necə də çoxlu dövlət sahibi olmuşdur! Onun sərvəti hələ də qalmaqdadır və sən kimi bir iqbal sahibinin əlindədir və ondan dəmadəm nişat meyi içməkdəsən". Onun bu incə sözləri şahın xoşuna gəldi, xacəni iltifata layiq gördü, onu Xorasana vəzir təyin etməklə şərəfləndirdi.

Mazandaran padşahı Ağa Rüstəmin ölümü:

Mazandaran vilayətini saxtakarlıqla istila etmiş Ağa Rüstəm Ruzəfzun adlı bir adam da şahın mülazimlərinə qarşı çıxaraq həmişə deyərdi: "Mənim əlim Şahibəy xanın ətəyindədir". Elə bu vaxtlarda Süleyman şanlı xaqan Şahi bəyin bir əlini kəsib özünün bir yasovuluna** verdi və ona tapşırdı ki, əli Mazandarana aparsın və Ağa Rüstəmin ətəyinə atıb desin: "Sənin əlin onun ətəyinə çata bilmədi, amma indi o əl sənin ətəyinə dəydi". Həmin yasovul Ağa Rüstəmin Təbəristan sərdarları ilə ali bir ziyafət məclisində olduğu vaxt məclisə daxil oldu, qorxu bilmədən öhdəsinə qoyulan tapşırığı icra edib dərhal geri döndü, hətta heç kimin onunla danışmağa macalı olmadı. Bu təhtidli gəlişdən Ağa Rüstəmin bağrı yarıldı, vahimədən ürəyi xəstəliyə düşdü, gün-gündən zəiflədi və üqba aləminə yollandı.

Xülasə, bu fəthdən sonra ətraf yerlərə fəthnamələr göndərildi, Xorasan vilayətinin hər yerində xütbə və sikkə

[106] Beytin farscası:
Kaseye-sər şod qədəh əz ğərdeşe-dövran məra,
Darəd in deyre-xərababad sərgərdan məra.

səlavatullah on iki pak imamın və hümayun şahın məşhur adları ilə bəzəndi, Ceyhun çayının kənarına qədər olan torpaqlar qızılbaş əmirlərinin ixtiyarında oldu, hidayətli imamiyyə məzhəbi bütün Xorasan ölkəsində bərqərarlaşdı, qalibiyyətli ordu Herata getdi, müzəffər xaqanın təxtgahı tacın və uca sarayın bəzəyi ilə (yəni Şah İsmayılla - Ş.F.) bəzəndi. Bu qəribə hadisənin (əbcəd hesabı ilə) tarixi "fəthe-şahe-dinpənah "dır, [yəni "din pənahı olan şahın fəthi"].

O qış fəsli fəxarətli Herat şəhəri o kamil sifətli şahın qışlaq yeri oldu, ətraf yerlərin vali və hakimləri yuvası iqbal olan dərgaha gələrək, Xorasanın fəthi münasibətilə özlərinin təbrik və mübarəkbadlıq dillərini işə saldılar. O cümlədən Xanmirzə adı ilə məşhur olan Sultan Üveyis Mirzə ibn Sultan Mahmud Mirzə ibn Sultan Əbu Səid Gürəkan Bədəxşandan səltənət nişanlı saraya gəldi və xüsusi nəzərə yetişdi, dostluqla şərəfləndi, Hisare-Şadmanın və Bədəxşanın idarə olunma sənədini (nişan) götürüb geri qayıtdı. Həmçinin Məhəmmədyar Mirzə ibn Ömər Şeyx Mirzə ibn Sultan Əbu Səid Gürəkan Kabuldan şaha dilli-dilavər elçilər yollayıb öz sədaqətini izhar etdi. Ölkələr alan ordu baharın əvvəlində Mavərənnəhri tutmaq əzmi ilə Heratdan çıxdı, Meyməndə (müasir Əfqanıstandakı Meymənə şəhəri - Ş.F.) və Faryaba çatdıqda özbək sultanları, [həmçinin] atasının qətlindən sonra Səmərqənddə səltənət bayrağı qaldıran Məhəmməd Teymur Sultan, Buxara hakimi Abdulla xan, Canı bəy Sultan və Mavərənnəhrin başqa sultanları bir-birlərinə qoşularaq çay kənarına çatdılar, ali saraya adamlar göndərib sədaqətlərini izhar etdilər, layiqli peşkəşlər yolladılar, öhdələrinə götürdülər ki, əgər şah çayın o tərəfini onlara inayət etsə, bütün ömürləri boyu xidmətkarlıq yolundan kənara çıxmayacaqlar. Süleyman şanlı xaqan onların xahişləri ilə razılaşaraq İraqa yollandı, Xorasan fəthinin təbriki üçün Misir, Şam və Rumdan ali saraya elçilər gəldilər. Onlardan sonra Mazandaran hakimləri gəlib xilafət hüquqlu saraya yetişdilər. Mazandaranın yarısı böyük mirin (mire-bozorg) övladlarından olan Mir Əbdül Kərimə, o biri yarısı isə Ağa Məhəmməd Ruzəfzuna şəfqət olundu, onların hər ikisi bununla razılaşıb geri qayıtdı. Gilanat* hakimləri və Şirvanın valisi Şeyxşah öhdələrinə bac və xərac ödəmək öhdəliyi, çiyinlərinə isə itaətkarlıq çulu (ğaşiye) götürdülər. Amma, özbək sultanları əhd-peymana əməl etməyib, humayun şah çıxıb getdikdən sonra, məmləkətin ətrafına əliuzunluq etməyə başladılar.

Zəhirüs-səltənə olan Məhəmməd Babur Mirzənin xahişinə əsasən belə bir humayun hökm verildi: Onun Məvarənnəhr vilayətindən fəth edə biləcəyi hər yer qoy onun özünə qalsın! [Babur] Kabuldan öz irsi (movrus) mülkünə getdi, Bədəxşanda Xan Mirzəni özünə yoldaş (məshub) etdi və Hisare-Şadmana yollandı. Hisarın və Bədəxşan vilayətinin hakimləri olan Cəmşid xan və Mehdi Sultan özbək cığatay ləşkəri ilə hərbə başladı. Məhəmməd Babur Mirzə onların üzərində qələbə çaldı və hər iki özbək sərdarı o mərəkədə öldürüldü, humayun nişanla (Şah İsmayıl fərmanı ilə - Ş.F.) Hisar və Bədəxşan vilayəti Xanmirzəyə verildi. Bu əhvalatın necə baş verdiyini ali saraya ərz edən Babur bu sözləri yazdı: "Əgər humayun şah tərəfindən kömək gəlib çatarsa, Mavərənnəhrin başqa yerlərinin də fəth olunmasına ümid vardır". Süleyman şanlı xaqan Əhməd Sultan Sufioğlunu və Şahrux Sultan Möhrdar Əfşarı döyüş meydanının bir sıra igid döyüşçüsü ilə birlikdə onun köməyinə göndərdi, Məhəmməd Babur Mirzə əzəmətli əmirlərə qoşulub Səmərqəndə yollandı. Məhəmməd Babur Mirzənin qızılbaşlarla birlikdə hücumundan xəbər tutan özbək sultanları öz dövlət paytaxtlarını tərk edib, Türküstana tərəf getdilər, Babur Mirzə isə Səmərqənd şəhərində-müzəffər əcdadının taxtgahında padşahlıq taxtına əyləşərək, həmin cənnətnişan şəhərdə o həzrətin (Şah İsmayılın - Ş.F.) adına isna əşəri xütbəsi oxutdu, qızılbaş əmirlərinə qayıtmaq rüxsəti verdi, şaha layiqli peşkəşlər göndərdi. Amma, əmirlərin çıxıb getmələrindən sonra, özbək sultanları yenidən qalın qoşun və dağ əzəmətli ləşkərlə Mavərənnəhrə gəldilər. Babur Mirzə az miqdar adamıyla düşmən qarşısına çıxıb, cəng səfi bəzədi və onların aralarında böyük bir döyüş başlandı. Cənab Baburun mülazimlərinin əksəriyyəti qətlə yetirildi və məğlubiyyətə düçar oldular. Mavərənnəhrdə duruş gətirmək imkanı olmayan Babur Mirzə Hisari-Şadmana gəldi. Özbək sultanları da onun təqibincə qalaya yollandılar. Qalada qalıb möhkəmlənən Babur Mirzə Bəlxə - Bayram xan Qaramanlının** yanına adam yollayıb ondan kömək istədi və Bayram xan bir dəstə qızılbaş döyüşçüsünü [onun köməyinə] göndərdi. Qızılbaş ləşkərinin gəlişindən xəbər tutan Özbəklər mühasirədən əl çəkib Mavərənnəhrə qayıtdılar. Bu əhvalatın baş verməsi və özbəklərin tüğyan etmələri xəbəri cah-cəlal sarayına çatdıqda, Əmir Nəcme - Sani Xorasana rəvan oldu. O ali divanın vəkili olmaqla sərəfraz olmuş, ali dərgahda və xalq arasında əzəmət, kamranlıq, böyüklük, etibar və iqtidarına görə məşhur bir

şəxsə çevrilmişdi. Onun Xorasan işlərinin nizamlanması və özbəklərin şərini orada dəf etməsi barədə "Həbibüs-siyər"də bir qədər məlumat verilmişdir.

Bayram xanın qətli, Əmir Nəcmin öldürülməsi,
Şah İsmayılın ikinci dəfə Xorasan yürüşünə getmək qərarı:

Bəlx hüduduna gəlib-çatan Əmir Nəcm humayun şahın əmri və işarəsi olmadan Mavərənnəhri tutmaq fikrinə düşdü, Herat hakimi Hüseyn bəy Lələ, Xorasanın əzəmətli əmirləri və Bəlx hakimi Bayram xanla Amuyə çayını keçdi. Hısar tərəfdən də Məhəmməd Babur Mirzə özünü ona çatdıraraq qızılbaş qoşununa qoşuldu. Onlar əvvəlcə Hərar (?), sonrasa Qərşi qalalarını aldılar. Qərşidə Əmir Nəcm qətliam hökmünü verdi və orada Şeyxəm Mirzə Özbək və on beş min nəfər əsgər və rəiyyət qətl olundu. Mirzə Babur, əhalisi cığatay camaatı olan Qərşi əhalisindən, qan (qan bahası!)** xahiş etməsinə rəğmən onun xahişinə əməl olunmadı. Buna görə də, onların aralarında ədavət (neqar) başlandı. Əmir Məhəmməd Yusif Sədrin də came məscidinə yığışan seyidlərdən (sadat) bu haqda etdiyi xahiş qəbul edilmədi, buna görə də seyidlərin əksəriyyəti qətlə yetirildi. Bu əməl Əmir Nəcmin xoşuna gəlmədi.

Bu hadisədən sonra o, Məhəmməd Teymur Sultan və Əbu Səid Sultanın yerləşdikləri Qəcdəvan qalasına gələrək, həmin qalanı dörd ay mühasirədə saxladı. [Buna görə də] qızılbaş ordusunun ərzaq və başqa ehtiyatları (məkulat) azalmağa başladı. Döyüşçülər azuqə və əliqdən*** ötrü mal-qaranı (dəvab) kəsməyə başladılar.

Abdullah xan və Cam bəy Sultan Buxarada idilər. Onlar qızılbaşların düşdükləri çətinlikdən (əsrət) xəbərdar olub, nizama salınmış ləşkərlə Əmir Nəcmin üstünə getdilər. Məhəmməd Teymur Sultan da qaladan çıxıb onlara qoşuldu. Ramazanın otuzunda yekşənbə günü Gəcdəvanın kənarına çatdılar, aralarında bərk döyüş oldu. Həmin döyüşdə canuzən bir ox qızılbaş ləşkərinin sərdan və çərxçisi* olan Bayram bəy Qaramanlıya dəydi və o, atdan yıxıldı. Bu hadisə çərxçilərin məğlubiyyətinə və özbəklərin ürəklənmələrinə səbəb oldu və özbək dəstələri hamılıqla hücuma keçdilər. Qızılbaş əmirləri təlaşa düşdülər və ləşkərin qol hissəsi bir-birinə dəydi. Məhəmməd Babur Mirzə hərbdən yan olub öz ləşkəri ilə qalaya üz tutdu. Əmir Nəcmin qürur və yekəxanalığından təngə gəlmiş

qızılbaş əmirləri, onu hifz etməyə səy etdilərsə də, lakin o, ələ keçirilib öldürüldü. Xorasanın bəzi böyükləri fərar yoluna düşdülər, Kərki keçidindən keçib Xorasana getdilər. Bu hadisə doqquz yüz on səkkizinci ildə (miladi 1512) baş verdi.

Özbək sultanlarının fəth və zəfərindən sonra onlar Xorasanı tutmaq əzmi ilə çaydan keçdilər və Xorasanın müxtəlif yerləri bir neçə vaxt özbəklərin tapdağı altında qaldı. Bu xəbər uca saraya çatdıqda, şah yenidən Xorasan yürüşünü qərarlaşdırıb, hücum cilovunu oraya tərəf istiqamətləndirdi. Kalpuş adlı yer dərya kimi qaynayan ləşkərin gəlib-çatdıqları yer olduğu zaman bəzi əmirləri bir dəstə müzəffər döyüşçü ilə Tus istiqamətinə göndərdilər. Zəfərli şah ordusunun gəlib-çatma xəbərini eşidən özbək sultanları bərk lərzəyə düşdülər və onların orada dayanma ayaqları sustaldı, qayıdış cilovunu döndərib Mavərənnəhrə getdilər. O məmləkət yenidən şahın uca dövlət övliyalarının əlinə keçdi. Süleyman şanlı xaqan bir neçə müddət Xorasanda dayanıb, özbəklərlə müharibədə süstlük göstərən bəzi əmirləri cəzalandırdı, o cümlədən Mərv hakimi Dədə bəyin başına çadra (məcər) örtüb onu bərk cəzaya məruz qoydu. Həmçinin, hümayun ordunun burada olmadığı vaxt özbəklərə yardım edərək, şiə əhalisinə sədəmə yetirən bəzi fitnəkarlar zaman qəhrəmanının atəş qəzəbi ilə yandırıldılar, o vilayət tör-töküntüdən (xəs-o xaşak) təmizləndi. Şah Heratın hakimliyini və Xorasanın işlərini Zeynalxan Şamlıya verib geri qayıtdı.

ALLAHIN KÖMƏYİ İLƏ SÜLEYMAN ŞANLI XAQANIN RUM PADŞAHI SULTAN SƏLİMLƏ ÇALDIRANDA DÖYÜŞÜNÜN ZİKRİ

Süleyman şanlı xaqanın Həmədan yaylaqlarında və həmin vilayətin ürəkaçan və pak (monəzzeh) yerlərində istirahət etdiyi doqquz yüz iyirminci ildə (miladi 1514) Rum xandgarı (sultanı - Ş.F.) Sultan Səlimin gəlişi xəbəri eşidildi. Bu məsələnin müxtəsər (bər səbile - ecmal) bəyanı belədir: Süleyman şanlı xaqanın ortaya çıxdığı vaxt (xoruc) Rum məmləkətlərinin hökmdarı Sultan Bayazid idi. O, o həzrətlə dostluq və məhəbbət münasibətində olub, həmişə yaxınlıq və birlik nümayiş etdirməkdəydi. Arada dostluq (vedad) mövcud idi. Doqquz yüz on yeddinci ildə (miladi 1512) Sultan Səlim atası ilə düşmənçilik məqamına gəldi və onların arasında cəng başladı. Ləşkərin arif adamları, xüsusilə yeniçəri* tayfası birləşib,

Sultan Səlimi padşah, Sultan Bayazidi isə səlahiyyətsiz elan etdilər. O, bu dərddən xəstələnib doqquz yüz on səkkizinci ildə (miladi 1512/13) bəqa aləminə yollandı, Sultan Səlim isə taxtın bəzəyi (sərirara) və tac (deyhim) sahibi oldu. Anadoluda olan Sultan Əhməd ibn Sultan Bayazid xütbəni öz adına oxutdu, [amma] əmirlər və vəzirlər onu hiyləgərliklə İstanbula çağırıb qətlə yetirdilər, oğlu Sultan Muradın üstünə ləşkər göndərdilər. O, əmisinin əsgərlərindən vahiməyə düşərək, şahın (Şah İsmayılın -Ş.F.) yanına yolandı, İsfahanda onunla görüşərək nəvazişə layiq görüldü, elə o vaxtlarda də təbii əcəllə öldü. [Amma] Sultan Muradın qüvvətlənməsini, Ərzincan hakimi Nurəli Xəlifə Rumlunun onunla birləşib rumilərlə cəng etməsini və buna görə də Sinanpaşanın çoxlu döyüşçüsü ilə qətlə yetirilməsini güman edən Sultan Səlim o həzrətlə inad mövqeyində durdu və aralarında düşmənçilik başladı. Kax qalası və Diyarbəkrin bəzi başqa qalaları da dava-dalaşa səbəb oldu, get-gedə onların aralarında bir-birlərinə qarşı vəhşət yarandı, [Sultan Səlim] yuxarıda göstərilən ildə saysız-hesabsız döyüşkən əskərlərlə Azərbaycana yürüşə keçdi, Süleyman şanlı xaqana namə yollayıb ona öz gəlişini elan etdi. O həzrət də İsfahandan çıxıb, Həmədan yaylaqlarına gəlib çıxdı. Rumilərlə hərb baş verəcəyi haqda fikir şahın xəyalına belə gəlmədiyindən və sultanın vaxtsız-vədəsiz yürüşündən yenicə xəbər tutduğundan o, İran məmləkətləri qoşunlarının toplanması ilə əməlli-başlı məşğul ola bilmədi, fələyə ucalan bayrağının kölgəsində olan az miqdar döyüşçüsü ilə düşmənin qarşısına cumdu, həmin ilin rəcəb ayının ikisində, çəharşənbə günü Çaldıran səhrasında Xoy adamlarından olan iyirmi min döyüşçüsü ilə həmin çoxlu ləşkərin qarşısında döyüş səfi bəzədi. Rumilərin döyüş qaydasına görə onlar özlərinin ön və arxalarını ərradələr* və zəncirlərlə çəpərlədilər, on iki min nəfər tüfəngli yeniçəriyə arabaların daxilindən döyüş atəşi açmalarını tapşırdılar. Sultan Səlim həmin atəşli qalanı özünə hasar düzəltdi, ordunun qəlbini (mərkəz hissə - Ş.F.) və hər iki cinahını bəzədi.

Qarşı tərəfdənsə Xanməhəmməd döyüş günü topxananın möhkəmləndirilməyini məsləhət görməyib deyirdi: "Onlarla gərək köç vaxtı cəngə başlanılsın". Durmuş xan isə qürurlanıb bu sözü qəbul etmirdi. Həzrət Süleyman şanlı xaqan belə buyurdu: "Mən karvanbasan quldur (hərami) deyiləm. İlahi nə buyursa, qoy o da olsun". Xanməhəmməd sakitləşdi, Süleyman şanlı xaqan Diyarbəkrdən münəzzəm qoşunla gəlmiş Xanməhəmmədi müzəffər

ləşkərə çərxçi təyin etdi və Müntəşa Sultanının qardaşı Sarı Pirə Qorçibaşı Ustaclı onunla yoldaş oldu. Əzəmətli əmirlərdən Durmuş xan Şamlı, Nurəli Xəlifə Rumlu, Xüləfa bəy, Hüseyn bəy Lələ və Xəlil Sultan Zülqədər sağ qolda, ustaclı xanları və sultanları, Baba İlyas Çavuşlunun oğlanları və bir dəstə başqa adam sol qolda dayandı, hümayun mərkəz (qəlb) isə o həzrətin (Şah İsmayılın - Ş.F.) vücudu ilə bəzəndi.[107] Əmirlər silkindən olan Seyid Məhəmməd Kəmunə, Mir Əbdülbaqi Vəzir, Mir Seyid Şərif Sədr o həzrətlə qolda dayandılar, hər iki tərəfin dilavərləri igidlik addımlarını irəli atdılar və hərb atəşi alovlandı.

Şah İsmayıl şücaətinin bəyanı və şəxsən onun özündən döyüşə girməyi:

"Tarixi-cahanara"da yazılmışdır və xalq arasında da belə deyilir ki, o həzrət özünün döyüş səfləri düzələn vaxt bildirçin ovu ilə məşğul idi. O, yalnız hərb qızışandan sonra meydana gəlib-çıxdı. Rumiyyənin adlı-sanlı dilavərlərindən və dövranın şücaətli adamlarından olan Malqoçoğlu rumlu çərxiçiləri zümrəsindən idi. O həmişə rumlu böyükləri arasında özünü tərifləyərək [belə] deyirdi:

"Qarşı qoşunda şahdan başqa mənimlə hərb edə biləcək başqa bir kimsə yoxdur". Döyüş vaxtı həmin bədxislətli alçaq adam Süleyman şanlı xaqanla vuruşmaq məqsədilə döyüşkən rumi şücaətlilərinin arasında olub, hümayun qəlbə hücum etdi, o həzrəti döyüşə çağırdı. Həmin hövlnak adamın elə bir alicah padşahla hərbə girməsinin ləyaqətli olmamasına baxmayaraq, o həzrət qeyrətinin çoxluğu üzündən, dövlətxah əmirlərinin narazılıqlarına baxmayaraq, qoşuna imdad etmək naminə onunla döyüşməkdən ötrü qorxmazlıq atını irəli sürdü, özünün zülfüqar nisbətli heydəri qılıncını qınından sıyıraraq, o bədbəxtə elə qəzəblə həmlə etdi ki, [Malqoçoğlu] bu şahanə hücumdan sarsıldı və hərəkət etmə macalı belə olmadı. [Amma] o cəsarət meşəsinin şiri öz heydəri qolunun gücü ilə [Malqoçoğluya] elə bir zərbə endirdi ki, onun polad dəbilqəsi və zirehli geyimi (xeftan) birlikdə ikiyə bölündü, xəbis cəsədi ölüm torpağına sərildi. Hər iki ləşkərdən qışqırtı və fəryad (ğəriv) qopdu, yuxarı aləmin mələkləri (kərrubiyan) o ələ və qola "afərin" dedilər.

[107] Mətndə "qəlb" əvəzinə səhvən "qol" yazılmışdır - Ş.F.

Xanməhəmməd Ustaclının öldürülməsi:

Xülasə, hər iki dəstənin dilavərləri bir-birinin üstünə tökülüşdülər. Toz-torpağın çoxluğundan göy qapqaranlıq oldu. Süleyman şanlı xaqan o hövlnak mərəkədə şəxsən cəngə başlayıb elə döyüşdü ki, "Sam və İsfəndiyar" dastanını* geridə qoydu.

Rumiyyə arasında məşhurdur ki, həmin döyüşdə alicah şah özünün səadətmənd atını bir neçə dəfə ərradə və çəpərin kənarınacan sürdü və ərradəni şəmşir zərbəsi ilə parçaladı.

Qızılbaş dilavərləri ərradələrə yaxınlaşıb, üç yüzədək yeniçərini ərradələrin arxasında parça-parça doğradılar, [amma] yeniçərilər və topçular atəş açmağa başladılar. Top, tüfəng atəşlərindən və zərbzənlərdən* işıqlı gündüz qaraldı. Qızılbaş ləşkərinin əksər igidləri qorxu bilmədən özlərini o atəş dəryasına vurdularsa da, tüfəng atəşlərinin qarşısında çarəsiz qaldılar, öz həyat xırmanlarını yandırdılar.

Çərxçi olan Xanməhəmməd Ustaclıya bir top mərmisi dəydi və o, bir dəstə ustaclı döyüşçüsü ilə birlikdə həmin mərəkədə Ədəm yoluna yollandı.

Seyid Məhəmməd Kəmunənin, Mir Əbdülbaqinin və Mir Seyid Şərif Sədrin öldürülmələri:

Rumilərə məlum olmuşdu ki, humayun qol aliçah padşahsız qalmışdır. [Buna görə də] onlar o tərətə hücuma keçdilər. Döyüş alovun şöləsindən və aramsız atılan toplardan, zərbzənlərin döyəclənməsindən qoldakı ləşkər bir-birinə dəydi, nəticədə Seyid Məhəmməd Kəmunə, Mir Əbdülbaqi və Mir Seyid Şərif - hər üçü qolda şəhadət şərəfinə yetişdilər. Əzəmətli əmirlərdən Sarı Pirə Qorçibaşı Ustaclı, Hüseyn bəy Lələ, Xanməhəmməd, Baba İlyas Çavuşlunun oğlanları və başqaları bu cəngdə öldürüldülər. Sultanəli Əfşar da rumiyyənin əlində giriftar oldu. Rumilər onu Süleyman şanlı xaqan olduğunu zənn edib, Sultan Səlimin yanına apardılar. O, öz adını çəkən kimi elə oradaca qətlə yetirdilər.

Düşmənin çoxluğunu, öz ləşkərinin pozulduğunu və hümayun qəlb əsgərlərinin dağıdılmasını müşahidə edən Süleyman şanlı xaqan kərrənay** çalınması əmrini verdi və üç yüz adam onun

başına yığıldı. Bu dövlətxah adamlar zərurət üzündən meydandan qayıtdılar. Onlar bu zaman qızılbaş qoşununu məğlubiyyətə uğradaraq geri qayıdan bir dəstə rumi ilə üz-üzə gəldilər, onların səflərini dağıtdılar. Yola düşdükləri vaxt Süleyman şanlı xaqanın atı bataqlığa batdı. Bunu görən Xızır ağa Ustaclı öz atını irəli çəkdi və o həzrət atlandı. Xızır ağa isə o həzrətin atını çıxarıb onun ardınca rəvan oldu, Dərczində o həzrətə çataraq, nəvazişləndi.

Xülasə, o həzrət öz adamlarıyla döyüş meydanından çıxıb Dərczinə gəldi ki, qalibiyyətli əskərləri bir yerə toplayaraq, yenidən qətiyyətlə (əz ruye-eqtedar) rumilərlə hərbə başlasın. Sultan Səlim [isə] fəxrlə Təbriz şəhərinədək gəldisə də, orada altı gündən çox qala bilmədi. Qızılbaş tayfaları arasında gedən çəkişmənin (müharibə) şiddətindən [şahın] şan-şöhrəti o həddə çatdı ki, tayfa üzvülərinin etiqadları müstəqim din və iman yolundan döndü, [onlar] qələt fikirlərə düşdülər.

Beləliklə, Çaldıran hadisəsinin üz verməsindən sonra [şah] Diyarbəkr hakimliyini Xanməhəmməd Ustaclının qardaşı Qara xana verib onu o səmtə göndərdi. Qara xan Mardində qərar tutmuşdu. Mardinin əhalisi ona bivəfalıq edərək, rumiləri gətirib Qara Həmid adı ilə məşhur olan şəhəri onlara verdi, Qara xan isə Mardində qalıb, rumilərin dəfinə hazırlaşmağa başladı. Rumilər onun qarşısına beş min döyüşçü yolladılar və Qara xan döyüşərək onlara qalib gəldi, belə ki, rumilərin əksəriyyəti qətlə yetirildi. O, şəhərə yaxınlaşan vaxt əhalinin rumiyyə ilə müttəfiq olduğunu gördü, hasarı almaqdan əlini üzdü və məmləkət rumilərin əlində qaldı. Onun hakimliyinin ikinci ili olan doqquz yüz iyirmi ikinci ilində (miladi 1516) rumiyyə iyirmi min piyada və süvari əskərlə onunla döyüşə yollandı. Qara xan Durmuşxan Qacarla birlikdə onlarla cəngə başladı, Mardinin yuxarı başındakı ələngdə* onların arasında hərb başlandı, Qara xan həmin çoxsaylı qoşuna qalib gəldi. Təqib zamanı təsadüfən bir güllə ona dəydi və atdan yıxılıb öldü. Bu əhvalatdan sonra qızılbaşlar (qızılbaşiyyə) pərakəndə oldular, rumiyyə əsgərləri isə alçaldıcı məğlubiyyətdən qalib kimi çıxdılar, xandgardan kömək alıb, Diyarbəkri işğal etdilər, [beləliklə də] qızılbaşlar o vilayətdən əl çəkməli oldular. Bu əhvalat Süleyman şanlı xaqana çatdıqda, Qara xana kömək üçün hazırladığı qoşunu xanın vəfatı ilə əlaqədar daha irəli göndərmədi.

Xülasə, baş vermiş bu hadisələrdən sonra Süleyman şanlı xaqan məmləkətlərin zəruri işləri ilə məşğul olmasına baxmayaraq,

gecə-gündüz Rum diyarına hücum hazırlamaq (seybəarayı) və ləşkər çəkmək fikrindəydi, [amma] doqquz yüz iyirmi altıncı i ldə (miladi 1520) Sultan Səlim bəqa aləminə yollandı, yerinə oğlu Sultan Süleyman qayimməqam oldu. Onun tərəfindən qızılbaşlara qarşı müxalifət görsənmədi, çünki onun üləmaları düşmənin (burada - qızılbaşların -Ş.F.) hərəkətə başlamayacağı təqdirdə ləşkər çəkməyi ona məsləhət bilmədilər.

Sultan Süleyman cülusdan sonra rus və firəng (Avropa - Ş.F) diyarlarına qoşun çəkərək qəza və cəhadla* məşğul olmaqdaydı. Sultan o həzrəti də (Şah İsmayılı - Ş.F.) kafərlərlə cəhada şirnikləndirdi. Buna görə də Süleyman şanlı xaqan qəza etmək naminə qalibiyyətli əskərlərini Gürcüstan qəzasına yollayar, özü isə eyş-işrətlə məşğul olardı. "Tarixi-cahanara" kitabının məlumatına görə, o, kamyab şahzadələrin birinə Xorasan əyalətini verib, onu həmin diyara göndərdi. [Şah] birinci dəfə böyük oğlu olan və hümayun alnına cahandarlıq ayini yazılan Təhmasib Mirzəni oraya yolladı və Əmir xan Mosullu Türkman onun lələsi** və işlərinin icraçısı oldu. Bir neçə vaxtdan sonra o həzrəti (Təhmasib Mirzəni - Ş.F.) ali saraya gətirib Sam Mirzəni Durmuş xanla birlikdə oraya yolladı. O həzrətin ömrünün sonunadək Xorasan məmləkətləri əmin-amanlıqdaydı.

Birinci Şah İsmayılın vəfatı:

Doqquz yüz iyirmi altmcı ildə (miladi 1520) Şirvan valisi Şeyxşah öz istək (iradət) və sədaqət üzünü iqbal yuvalı (eqbalaşiyan) saraya tutdu, var-yoxunu peşkəş gətirdi və özünü bu astananın bəndələri zümrəsindən hesab etdi. Şeyxşah şirvanşah dudmanının iffət otağında (hiclə) böyüyüb boya-başa çatan qızını (səbiyye) ismət pərdəsi altına salmanlar (yəni hərəmxana - Ş.F) silkinə mənsub etdi və bu yaxşı xidmətləri müqabilində Şirvan vilayəti yenidən şirvanşaha verildi. Doqquz yüz otuzuncu ildə (miladi 1524), qəddar rüzgarın ən qədim adətlərindən birinə tabe olaraq, o xosrovun və zəmanə Keyqubadının həyatı sona yetdi, cavanlıq əyyamına və nəfsani ləzzətlərə, yaşı otuz yeddini keçdiyi və otuz səkkizə başladığı bir vaxtda, səltənətə və kamranlığa vida edərək, Sərab mahalının Mənqutay adlı bir yerində boqa aləminə yollandı, həzrət sultanül-övliyanın (Şeyx Səfiəddinin - Ş.F.)

müqəddəs rövzəsində dəfn olundu. "Tab mozcəhu"[108] [deyimi] həmin tarixə müvafiq gəldi və "Xosrovi-din"[109] ifadəsi də o həzrətin və o sultannişan sultanın vəfat tarixidir. Onun başqa maddeyi-tarixi isə başqa bir [şairin ifadəsində]) "zell"dir (yəni, "kölgə" - Ş.F.) ki, o, bu haqda belə demişdir:

Nəzm

Aləmin şahı olan İsmail
Gün kimi gizli oldu gözlərdən.
"Zell" olub maddeyi-tarixi,
"Kölgə" gün tarixi imiş, əhsən![110]

O həzrətdən dörd adlı-sanlı şahzadə yadigar qaldı. Onların hamısı azyaşlı idilər. Təhmasib Mirzə və Bəhram Mirzə türkman mosullu əmirlərindən birinin hörmətli qızından, Əlqas Mirzə və Sam Mirzə isə müxtəlif xatunlardan doğulmuşlar. [O həzrətin] qızlarının adlarını çəkməyin elə bir faydası yoxdur. Şer yazmaqda o həzrətin ali təbi vardı, amma türkcə şer yazmağa meyli daha çoxdu. Təxəllüsü "Xətai" idi. Sultan Səlimlə həm müasir olduğu üçün, Mövlana Ümidi öz qitəsində bu məsələyə işarə edərək yazmışdı:

Şer

Təsadüfən böyüklük məskənində
Səlim ilə Xətai oldu birgə.[111]

---

[108] "Məzan işıqlansın" ifadəsi [bu vəfatın] maddeyi-tarixidir.
[109] "Xosrove-din" ifadəsi də Şah İsmayılın vəfatı tarixidir.
[110] Nəzmin farscası:
Şahe-gərdunpənah İsmail
Anke çon mehr dər neqab şode,
Əz cəhan rəft-o "zell" şödəş tarix
"Saye" tarixe-afiab şode.
[111] Şerin farscası:
Qəza dər kargahe-kebriyayi
Fekənde tərhe-Eslimi Xətai.

MƏRHƏMƏTLİ (ĞOFRANPƏNAH), CƏNNƏTMƏKAN, XOŞ AQİBƏTLİ (ƏBÜLBƏQA) ŞAH TƏHMASİBİN – ONA RƏHMƏT VƏ CƏNNƏT NƏSİB OLSUN-XOŞBƏXT AMALLI ƏHVALATININ ZİKRİ

Cəm* məqamlı (Cəmcah), cənnətməkan, alışan şahın şahzadələr zümrəsinin izzətli və böyük övladı [olan Təhmasib Mirzə] qələbə bəxtli (firuzbəxt) Kəsra** və Keyqubad taxtına layiq [bir padşah] idi. O həzrətin səadətli təvəllüdü (veladət) doqquz yüz on doqquzuncu ilin zülhiccətül-həram ayının*** iyirmi altısında (miladi 1514, 26 fevral) çəharşənbə günündə İsfahana məxsus Şəhabad kəndində (qərye) doğulmuşdur. Ağahlıq məclisinin uzaqgörən (durbin) adamları o həzrətin təvəllüdünü "Şəhabade-mobarək" ("Mübarək Şəhabad") və "meymun" ("xoşbəxt") sözləri ilə əlaqələndirərək onun padşahlığı və cahandarlığı barədə fal açmışlar. Üstürlab-danlar**** onun xoşbəxt taleli ziclərinə (zayece)***** əsasən sübut etdilər ki, tezliklə şərafətli vücudu xosrovluq taxtının (ovrəng) bəzəyi olacaq, dövlət günəşi aləmi işıqlandıracaqdır. Qeyb****** aləmindən gələn "aftabe-aləməfruz" ("aləmi işıqlandıran günəş") sözləri onun təvəllüdünün maddeyi-tarixidir. Süleyman şanlı xaqan yaşadığı dövrdə yaşının azlığına baxmayaraq, Xorasan mülkünün idarəçiliyində başqa qardaşlarından artıq imtiyaz sahibi oldu, Herat şəhərində böyüdü. Amma, onun lələsi olan Əmir xandan bəzi bəyənilməz hərəkətlər göründüyündən [şahzadə] hakimlikdən çıxarıldı, ali saraya çağırıldı. Bir müddət möhtərəm atasının yanında qaldı. Səltənət və cahandarlıq əsəri onun bütün hümayun hərəkətlərində özünü göstərməkdəydi. Hümayun alnında ilahi nurlar şüa saçmaqdaydı. Məkanı cənnət olan xaqanın (Şah İsmayılın - Ş.F.) göydən nazil olmuş hadisəsindən (vəfatından - Ş.F.) sonra [Təhmasib Mirzənin] qaməti öz ölçülərinə görə səltənət və padşahlıq köynəyi ilə bəzəndi, on bir yaşında ikən Allahın - "Allah sizə əmr edir ki, əmanətləri yiyələrinə qaytarasınız"[112] - hökmü ilə şahlıq taxtının və padşahlıq məclisinin bəzəyi oldu. [O həzrətin] hümayun cülusu doqquz yüz otuzuncu ilə müvafiq olan meymun ilinin (piçi) rəcəb ayının* on doqquzu (miladi 1524, 23 may) düşənbə gününə təsadüf etdi və o öz möhtərəm atasının

[112] İfadənin ərəbcəsi: "İnnə-l-lahə yə'mumkum ən-tu-əddil-əmanəti".

yerində qərar tutdu, qeyb aləmindən gələn "caye-pedər gerefti" ("ata yerini tutdun") sözləri onun maddeyi-tarixinə müvafiq oldu.

[Maddeyi-] tarix

Allahın izniylə ey aləm şahı Təhmasib,
Qazi o şahdan sonra fəth elədin o təxti.
Tutub atayerini bütün cahanı tutdun,
Padşahlıq tarixindir "Caye-pedər gerefti".[113]

Peyğəmbər sirlərinin məhrəmi olan həzrət vəlayətpənah şaha hədsiz sədaqət və etiqad bəslədiyi üçün o Özünü "şahe-vəlayətpənahın bəndəsi" ("bəndeyi-şahe-vəlayətpənah") adlandırırdı. Gözəl təsadüflərdəndir ki, "bəndeye-şahe-vəlayət Təhmasib" ("şahe-vəlayətin bəndəsi Təhmasib") sözləri hümayun cülusun maddeyi-tarixidir və bu sözlərin onun fərman üzüyündə yazılması vacib görüləsi oldu:

Nəcəfin şahına bir bəndə olub
Şahlığa etdi bidayət*** Təhmas
Möhrünün nəqşi cülus tarixidir:
"Bəndeye-şahe-vəlayət Təhmas ".[114]

O həzrət dindar və şəriətpərvər padşah, ədalətli bir şəhriyar idi. İlahinin buyurduqlarını təsdiq edən (moəyyed), sonsuz uğurlara müvəffəq, elm öyrənən, ruzigarın alimlərinə yardımçı olan, yeddi və dörddən (həft və cəhar) alınan nəticələrin (?) ümumiləşdiricisi (xolaseye-nətayec), hikmət* və elmdə Ərəstudan** və İsgəndərdən***, artıq, cahandarlıq ayinlərində isə [qayda qanunlarında) Cəm və Kəsradan irəli olan insan idi. O həzrətin

[113] Maddeyi-tarixin farscası:
Təhmasp şahe-aləm k-əz nosrəte-İlahi
Ca bə'd şahe-qazi bər təxte-zər qerefti.
Caye-pedər gerəfti, kərdi cəhan mosəxxər,
Tarixe-səltənət şod "Caye-pedər gerefti".
[114] Beytlərin farscası:
Şərəfe-bəndegiye-şahe-Nəcəf,
Yafte çon ze bedayət Təhmasp.
Nəqşe-mohrəş şode tarixe-çolus,
"Bəndeye-şahe-vəlayət Təhmasp".

hökmranlığının əvvəllərində dövlət işləri bir neçə istiqamətdə (cəhət) pozulmuşdu (extelal). Belə bir günün arzusunda olan aqibətsiz alçaq adamlar həm Şərqdə, həm də Qərbdə cahan abadlığının son nəticəsi (xolase) kimi Kəyan təxtgahı olan İranda fitnə-fəsad törətməyə başladılar, əmirlərin və dövlətin sultanları olan şəxslərin arasında vəkalət vəzifəsi və tayfapərəstlik təəssübkeşliyi (təəsəbe-oymaqeyyət) üstündə çəkişmə (monazee) başlandı və qətllərlə nəticələndi. Baxmayaraq ki, dərgahın əzəmətli əmirlərindən, yaxud dövlətxah ağsaqqallardan biri vəkalət**** vəzifəsini apararaq, dövlət işlərində ixtiyar sahibi (cahebexteyar) ola bilərdi, amına o həzrət baş verən hadisələrin başlanğıcında yaşının azlığından dövlət işlərinə baş qoşmur, hərdən qəzavü-qədərin (karxaneye-təqdir) işlərinə tamaşa etməklə məşğul olur, hərdən də müdrik adamların (pire-xerəd) ali təbiətinə (fetrət) və təliminə diqqət yetirir, həqiqət***** və vəfa sahiblərindən (ərbab) özünə ixlas cövhəri götürür, şərafətli uncudunu naqis cövhərli dövlәttələb şəxslərin şərindən qorumaqla keçirirdi. Taleyinin gücü (niruye-eqbal) və cavan bəxtinin göstərişi ilə düşmənlərin çoxluğuna, köməkçilərin (ənsar) isə azlığına baxmayaraq həm xoşbəxt amallı həyatını qoruyur, həm də zavalsız dövləti mühafizə edirdi. Dövlət və kamranlıq çəmənində tuba ağacına (behişt ağacına) bənzər iqbalı [get-gedə] boy atır və ucalırdı. [Beləliklə,] Allahın köməyi, rəyinin möhkəmliyi, biliyinin və kamil əqlinin çoxluğu sayəsində öz iddialı əmirlərini və xudpəşənd üsyançıları tədbirlə aradan götürdü, müstəqil sultan və hökmran oldu. [Amma] bu dövlətin düşmənləri [hələ də] məmləkətin pusqusunda (kəmin) durmuşdular. Onların hamısı onun atəş yağdıran qılıncının şüalarından məhv oldular. Həmişəbahar səllənət və hökmranlıq gülşəninin murad qönçəsi tamam gülləndi, o elə möhkəmliyə və istiqlala malik oldu ki, heç kim onun sözündən boyun qaçıra bilmədi. İlahinin seçdiyi o həzrətin [Şah Təhmasibin] gözəl sifətlərinin vəsfi qədərindən artıq, onun haqqında yazmaq isə qələmin qüdrətindən və darül-inşa (dəftərxana - Ş.F.) katiblərinin barmaqları (bənan) imkanından kənardır. Uca dövlətin onun dövründə baş vermiş hadisələrinin təsvirini, apardığı müharibələri, aldığı ölkə və şəhərləri, habelə başqa böyük əhvalatları rumlu tarixçi (movərrex) mərhum Həsən bəy o həzrətin dövründə yazdığı və "Əhsənüt-təvarbe" adlandırdığı kilabında elə təsvir etmişdir ki, bu

həqir zərrədə (zərreyi-həqir, yəni İsgəndər Münşi özünü təvazökarlıqla belə adlandırır - Ş.F) elə yazmaq qabiliyyəti yoxdur.

Nəzm

Yol tapım mən necə şah məclisinə?
Qapıçı timsalı yoxdur qədrim.
Necə tərif eyləyim elmi ki, var
Məndə vəsfiyçün onun az təlim.[115]

Mənim niyyətim əlahəzrət zilləllah şahın (Şah Abbasın - Ş.F.) dövründə baş vermiş hadisələri yazmaq olduğundan, sözümü uzatdığıma (ətnab) görə üzr istəyirəm. Bu aləmi bəzəyən "Aləmara" kitabı (nosxe) o cahan şəhriyarının başına gələnlərin tam şərhinə həsr olunduğu üçün "Abbasinamə"ni yazan qələmim (xame) gücüm çatana qədər söz bəzəməkdən uzaqlaşmayacaqdır.

Cah-cəlal dairəsinin mərkəzi olan o şahın (Şah Təhmasibin - Ş.F) hümayun cülusu şadlıq və xoşbəxtliklə baş tutduğundan, hökmranlıq taxtı onun mələk sifətli zatı ilə bəzəndi. O zaman vəkalət işi Div Sultan Rumlunun əlində idi. O, Bəlxdən gələrək, Çayan Sultan Ustaclının[116] vəfatından sonra əmirül-üməra oldu. Bir il ötdü və dərgah əmirlərinin əzəmətlisi və qoşun başçısı olan Köpək Sultan vəkalət mənsəbi və səltənət işlərini idarə etmək (qət'-o fəsle-mohhame-səltənət) üstündə Div Sultanla rəqabətə başladı, onların arasında mübarizə getdi. Elə bu əsnada Kucəm xan və Übeydulla xanın Xorasana gəlmələri xəbəri orduya yayıldı. Div Sultan zəmanəyə görə Köpək Sultanla danışaraq, vəkalət vəzifəsinin onda qalması ilə razılaşdı. Köpək Sultan özbəklərə qarşı çıxmaq məqsədilə Xorasana getməyi bəhanə edib, həmin səmtə rəvan oldu. Əslindəsə, o, Farsın və İraqın əzəmətli əmirləriylə belə razılıq əldə etdi ki, Div Sultana qarşı birləşərək düşmənə qarşı hərəkətə başlasınlar. Lar yaylağında dayandığı bir neçə gündə xüsusən

[115] Nəzmin farscası:
Çe şetabəm be məfhele-şahi
Ke, dər u nist qədre-dərbanəm
Çe nevisəm sənaye-daneş ra
Ke, yeki əz hezar nətvanəm.

[116] Kitabın bu yerində "Çayan" əvəzinə səhvən "Xanan" yazılmışdır - Ş.F.

məşhur əmirlərdən İsfahan hakimi Cuhə Sultan Təkəli, Qaraca Sultan Təkəli, Şiraz hakimi Əli Sultan və başqaları saysız-hesabsız döyüşçülərlə gələrək onun başına yığışdılar.

Div Sultan əzəmətli ləşkər başçılarının bəzilərini danışıq yoluyla, bəzilərini isə onlara ehsanlar, hədiyyələr və başqa şeylər verməklə özünə ram etdi, vəkalət mənsəbini Köpək Sultandan almaq üçün onların razılığını aldı. Xorasanın işləri iqbalın gücü və asiman qüvvələri vasitəsi ilə sona çatdıqda, Div Sultan qələbəylə ali şah ordusu səmtinə rəvan oldu. Ustaclı əmirlərinin Köpək Sultana düşməni dəf etmək və mübarizə alovunu yandırmaq təklifini etmələrinə baxmayaraq o, [bu təklifi] qəbul etməyib dedi: "Heyfdir ki, bir dərgah mülazimləri və həzrət şahın dostları olan iki döyüşkən ləşkər arasında saxta dünya vəzifələri üstündə dava-dalaş başlasın". Köpək Sultan Div Sultanın vəkil olması ilə razılaşıb, Təbrizdən çıxdı və onu qarşılamaq üçün Türkmankəndiyə gəldi. Onlar bir-biriylə dostanə tərzdə görüşdülər, birlikdə ali dərgaha rəvan oldular, Təbrizin Çərəndab adlı yerində kamyab şəhriyarın səcdəsinə yetişməklə şərəfləndilər, vəkalət vəzifəsi Div Sultana verildi. Div Sultan isə fitnə-fəsad mayası güman etdiyi Qarınca Sultanı və başqa bir neçə nəfəri qətlə yetirərək, Köpək Sultanı bütün ustaclı el və oymağı ilə birlikdə Gürcüstan qəzasına yolladı, onu saraydan uzaqlaşdırdı. Bununla da kifayətlənməyərək, onların orada olmadığından istifadə edib tiyullarını*, təkəli əmirlərini razı salmaqdan ötrü, əllərindən aldı, onların cəzalanmalarını istədi. Əlbəttə, bu iş dövlətçiliyə və ağsaqqallığa yaraşan iş deyildi və qarşı tərəfdən də nifaq qapılarının açılmasına, ittifaq qapılarının bağlanmasına bais oldu. Doqquz yüz otuz ikinci ildə (miladi 1525/26) o, qoşunla Sultaniyyəyə gəldi, orada başqa ustaclı əmir və əyanları, o cümlədən Müntəşa Sultan (mətnin bu yerində səhvən Mosənna Sultan yazılmışdır - Ş.F.), Faruq Sultan, Qılınc xan və başqaları onun başına toplaşaraq, Div Sultana və adamlarına qarşı müharibəyə başladılar. Bu tərəfdən də Div Sultan və Cuhə Sultan sülh barədə danışıq aparmaq, onlara nəsihət verməkdən ötrü Qasım Xəlifə Vərsaqı göndərdilər. Onun məqsədi tərəfləri şahm göylərə ucalan (fələkfarsa) çətiri altında toplamaq və hərbin qarşısını almaq idi, amma Qasım bəy bu fitnə tonqalını və savaş məşəlini söndürməyə çox çalışdısa da, onlar Div Sultanın etibarına bel bağlamadılar. Allahın istəyi (eradeye-əzəli) onların hərb etmələrinə tərəf olduğundan Qasım bəyin elçiliyinin heç bir xeyri olmadı,

tərəflər səf bəzəməyə başladılar. Sadiq adamlar qarşı-qarşıya dayanan hər iki ləşkəri qanlı ürək və yaşlı gözlə seyr edir və təəssüflənirdilər ki, nə üçün hər iki dəstə fələk əzəmətli hümayun qoşunla bir olub düşmənlərin dəfinə birgə də yollanmayalar?

Xülasə, onların arasında böyük hərb başlandı. Təkəli əmirləri ustaclılara məğlub oldular, Burun Sultan və Qaraca Sultan Təkəli öldürüldülər. Köpək Sultan və Müntəşa Sultan hümayun qola yaxınlaşdılar. Onların gözləri zərlə bəzənən hümayun çətirin asimana ucalan bayrağına (ləva) sataşdıqda, döyüşdən əl çəkib geri döndülər. Zəfərli şah qoşunundakı əzəmətli əmirlər və qorçilər Div Sultanın əmri ilə onlan təqibə başladılar, böyük-kiçiyə baxmadan bir çox adamı qətlə yetirdilər. Ustaclılar isə məğlubiyyətlə Əbhərə gələrək, oradan Gilana getdilər, Rəşt valisi Müzəffər Sultana pənah apardılar. Vali onların köməyinə yeddi-səkkiz min piyada əskər yolladı və ustaclı əmirləri yenidən döyüş əzmi ilə hümayun ordu üzərinə yürüşə keçdilər. Bu hərəkət şahm xoşuna gəlmədi və onun qiyamət alovuna bənzər (qiyamətləhəb) qəzəb şöləsi rəvanə çəkdi, şəxsən özü onların üzərinə hücuma keçdi. [Şah] Div Sultanı, Cuhə Sultanı və Məhəmməd xan Zülqədəroğlunu bir dəstə döyüşçü ilə irəli göndərdi. Müzəffər (mənsur) ordunun münqolay döyüşçüləri Məncil və Hərzəvilə çatdıqda ustaclı əmirləri Gilan meşəsindən (cəngəl) çıxdılar və qətl alovu yenidən şölələndi. Nəticədə, zəfər nəsimi şah əmirləri qoşununun bayrağına tərəf əsdi, gilanlıların böyük hissəsi öldürüldü, Köpək Sultan, Müntəşa Sultan və Qazaq Sultan məğlub olub, böyük çətinliklə Gilana getdilər.

Badımcan Sultan Rumlunun öldürülməsi:

Köpək Sultan gecə-gündüz Div Sultandan və Cuhə Sultandan intiqam almaq və vəkalət işinə yiyələnmək fikrində idi. O doqquz yüz otuz üçüncü ildə (miladi 1526/27) yenidən Gilandan çıxdı, Ərdəbil darülirşadına yollandı. Doxsan yaşı olan və yaşının çoxluğundan xərifləyən Badımcan Sultan Rumlu o vaxt Ərdəbildəydi. O, rumlu, çəkəni və talış tayfalarından üç-dörd min adam toplayaraq, cəng etmək üçün ustaclı əmirlərinin qarşısına yollandı. Qaradərədə onların arasında hərb oldu, Badımcan Sultan əmirlər tərəfindən, qoşununun çox olmasına baxmayaraq, məğlubiyyətə uğradı, fərar etdiyi vaxt öldürüldü, ustaclı əmirləri isə zəfərlə şəhərə gəlib həzrət sultanül-övliyanın və əzəmətli səfəvi

şeyxlərinin - "Allah onların sirlərini arındırsın"[117] - ziyarəti ilə şərəfləndilər, oradan çıxıb Təbrizə rəvan oldular. Cəm məqamlı, cənnət məkanlı şah bunu bilərək, Div Sultanı, Cuhə Sultanı və Məhəmməd xan Zülqədəroğlunu səkkiz min əskər və min nəfər əzəmətli qorçi ilə onları dəf etməyə yolladı. Köpək Sultan və yoldaşları Div Sultanın, əmirlərin və şah qorçilərinin gəlişlərindən xəbər tutaraq Çuxur-Sədə tərəf getdilər. [Amma] əmirlər və qorçilər Şəmrda onlara çatıb döyüş səfi bəzədilər. Ustaclı əmirləri o gün elə vuruşdular ki, Samın* ruhu onlara "afərin" söylədi. Vurhavur əsnasında Məhəmməd xan Zülqədər ustaclı teypinin** arxasından onlara həmlə etdi, Köpək Sultan ağır yaralanıb öldü, Cuhə Sultan isə təkəli döyüşçüləri ilə ön hissəyə at sürdü. Köpək Sultan öldüyündən, ustaclı tayfası məğlubiyyətə uğrayaraq fərar yolunu önə tutdu. Müntəşa Sultan və Faruq onların qoşun səfini yarıb, o mərəkədən mərdanəliklə çıxdılar, böyük əziyyətlə özlərini Gilana çatdırdılar. Diyarbəkr hadisələrində ustaclılara məğlub olub, atası Kor Şahruxun və qardaşlarının qətlə yetirildiyi Zülqədəroğlu bu döyüşdə onların qarşısına çıxmadı.

Şamlı və təkəlilərin cəngi:

Xülasə, ustaclıların sağ qalan hissəsi Gilanda bir qədər vaxt keçirdilər. Doqquz yüz otuz dördüncü il (miladi 1527) olan sonrakı ildə isə Cuhə Sultanın təhriki (əngiz) ilə Div Sultan öldürüldü və vəkalət mənsəbi ona çatdı. Ustaclıların Gilanda qalmalarından iyirmi ilədək vaxt keçən doqquz yüz otuz altıncı ildə (miladi 1529/30) zəfər ayəli şah ordası Üheyd xan Özbəyin fitnəsini dəf etməkdən ötrü ikinci dəfə Xorasana yollandı. Gilanda olan Müntəşa Sultanın atası, Faruq Sultan, Qazaq Sultan və başqa ustaclı əyanları fələk şöhrətli dərgaha öz istəkləri və sədaqət hissi ilə gəlib, əllərində qılınc və kəfən tutaraq, dünya şəhriyarının yanına cumdular. Şah onlara qarşı rəğbət məqamında olmadı, amma düşmənçilik və inad mövqeyində də dayanmadı. Onlar da şahla barışıq şəraitində yaşamağa başladılar. Amma, şah Cuhə Sultandan razı idi və onun rəftar tərzi şahın xoşuna gəlirdi. [Buna görə də] Cuhə Sultanın ixtiyar və iqtidarı get-gedə çoxalırdı. Təkəli tayfasının isə xüdpəsəndlikləri həddən aşmaqdaydı. Bunu görən

[117] İfadənin ərəbcəsi: "Qəddəsə-l-lahu əsrarəhum".

şahın mübarək qəlbində onlara qarşı təşviş (ğobar) yaranmağa başladı. Doqquz yüz otuz yeddinci ildə (miladi 1530/31) Hüseyn xan Şamlı Şirazdan gələrək İsfahanın Kəndoman adlı yerində səltənət sarayına daxil olub, şahanə nəvazişlərə layiq görüldü. [Bunu görən] Cuhə Sultan ona qarşı inad məqamında duraraq onu öldürmək fikrinə düşdü. Bunu bilən təkəlilər bir gecə özlərinin qoşununu yaraqlandırıb, Cuhə Sultanın çadırına (xeymə) hücum etdilər. Cuhə Sultan bu məsələdən pərişan olub, özünü hümayun divanxana xeyməsinə çatdırdı, mübarək dövlətxana hərəmxanasında şamlılar və təkəlilər arasında cəng başlandı. Keşikdə dayanan zülqədər qorçilərindən Misir adlı quroğlu [tayfasının bir üzvü] Cuhə Sultanı yaralayıb öldürdü, [amma] təkəlilər onun öldüyünü məxfi saxlayıb, yenə də özlərini müdafiə etməkdəydilər. Hüseyn xan həmin qaranlıq gecədə çox çalışdı, amma sübh dəstə-dəstə və qoşun-qoşun gələn təkəli əmirlərinin hücumundan məğlub olub fərar etdi, məqsədinə yetməyərək məyus halda İsfahana qayıtdı. O mərəkədə şamlı cavanlarının çoxu qətlə yetirildi. Təkəli əmirləri Cuhə Sultanın Şahqubad adlı böyük oğlunu atasının yerinə vəkil etdilər. [Amma] bütün şamlı, ustaclı, zülqədər və əfşar oymaqları inad və intiqam məqamına gəldilər, onunla düşmənçiliyə başladılar. İmamzadə Səhl Əli əleyhüssalamın məzarı yaxınlığında aralarında cəng vaqe oldu. Təkəli əmirləri, Cuhə Sultanın vəkilliyi vaxtında olduğu kimi, özlərinin müstəqil hökmranlıqlarını (istiqlal) istədikləri üçün bir yerə toplaşdılar və dövlətxanaya gəldilər ki, cənnətməkan şahı özləri ilə aparıb, düşmənlərin dəfi ilə məşğul olsunlar. Cahanı bəzəməyinin başlanğıc dövrünü keçirən cənnətməkan şah o tayfanın bəyənilməz hərəkətlərindən bərk bezdi və özbaşınalıq və xudpəsədnlik edən təkəlilərin dəf olunmaları xüsusunda fərman verdi, əzəmətli qorçilər də hümayun dövlətxanada onları oxa tutdular (tirbaran). [Vəziyyəti belə görən] təkəlilər Cəm məqamlı şahın narazılığından məyus olaraq fərar etdilər, bəxtlərinin dönüklüyündən onların dövləti üstünə məzəllət tozu qondu və əksəriyyəti qətlə yetirildi. Bu ibrətli hadisənin maddeyi-tarixi "afəte-təkəliyan" ("təkəlilərin bəlası") sözləri oldu.

O vaqiədən sonra həsrət onlara qalib gəldi və Bağdad yolunu üzə tutdular. Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlu Təkəli Qunduz Sultanı (Quduz Sultan olmalıdır - Ş.F.), Hüseyn Sultanı və daha bir neçə təkəli fitnəkarını qətlə yetirərək, başlarını aləmpənah dərgaha göndərdi. Bu vaqiədən sonra o həzrət (Şah

Təhmasib - Ş.F.) Hüseyn xan Şamlıya lütfkarlıq məktubu yollayaraq onu yanına çağırdı, qızılbaş tayfalarının uca əmirülüməralıq mənsəbini ona və Abdulla xan Ustaclıya verdi ki, onların hər ikisi həzrət Süleyman şanlı xaqanın bacısı oğlanları idilər.

[Beləliklə] oymaqların savaş və söz-sovları bitdi. İxlas ərbabları kamil mürşidin (Şah Təhmasibin - Ş.F.) mübarək razılığını öz mətləblərinə uyğunlaşdıraraq, ayaqlarını ədəb ətəyində gizlətdilər. O həzrət şəxsən səltənət və cahandarlıq işlərini yüksəltdi. Amma, ali mərtəbəyədək tərəqqi edən və o zaman Azərbaycan əmirülüməra sı olan Əllamə Təkəli (Həsən bəy Rumluda "Ölmə Təkəli" - Ş.F) Cuhə Sultanın əvəzinə vəkil və səltənətin ixtiyar sahibi (muxtarüs-səltənə) olmaq istədi, boş xəyala qapılaraq qoşunla birlikdə hümuyun orduya doğru yollandı.

Cənnətməkan şah Əllamənin fitnəkar istəyindən agah olaraq onun üstünə hücuma keçdi, o da o həzrətin qorxusundan işıq və külək sürətiylə Azərbaycana tərəf götürüldü, özünü Van qalasına çatdırdı, oraya sığındı. Vanda olduğu vaxt bu dövlətdən üz döndərərək Rum padşahı Sultan Süleymanın çağırışı ilə İstanbula rəvan oldu. O, orada Sultan Süleymanı fitnə-fəsada təhrik etdi və Rum padşahı Əcəm diyarına (burada: Azərbaycana - Ş.F) dörd dəfə qoşun çəkdi, saysız-hesabsız döyüşçülərlə gəldi və hər dəfə də qeyb qoşunlarından və Allahın iltifatından mədəd alan cənnətməkan şah onun fitnəsini dəf etdi. [Sultan Süleyman] birinci dəfə Əllamənin, ikinci dəfə Qazi xan Təkəlinun və Zülqədəroğlunun, üçüncü dəfə Əlqas Mirzənin yalan vədlərinin, dördüncü dəfə Ərzrum hakimi İsgəndərpaşanın təhrikləri, düşmənçilikləri, şeytanlıqları və fitnəkarlıqları ilə hücuma keçməli oldu. Bu hadisələr barədə həqiqətlər Xorasan hadisələrinin şərhindən sonra xülasə şəklində bəyan olunacaqdır.

dular. Bu xəbər Übeyd xana çatdıqda söhbət büsatı pozuldu və onlar elə çaş-baş oldular ki, Sevincək Məhəmməd Sultan çaya düşdü, Übeyd xan isə özünü bir yabıya çatdırıb əsgərləri ilə qaçdı.

Xülasə, Übeyd xan mühasirə əyyamının uzanmasından və döyüşdən, həmçinin qalanı tutmaq uğursuzluğundan məyus olaraq öz diyarına getdi.

ÜBEYD XANIN XORASANA İKİNCİ GƏLİŞİ

Doqquz yüz otuz birinci ilə (miladi 1525) müvafiq gələn ertəsi il Durmuş xan vəfat etdi, təkəlilər və ustaclılar arasındakı cəngdə isə müqəddəs Məşhədin hakimi Burun Sultan Təkəli qətlə yetirildi. Bu xəbərlər Məşhədə gəlib çatdıqda, Xorasana pərişanlıq yol tapdı. Artıq orada düşmənlərlə vuruşa biləcək bircə sərdar da qalmamışdı. Ali orduda isə dərgah əmirləri arasında savaş başlandı və qətllərlə nəticələndi. Bu xəbər Mavərənnəhrə çatdıqda, Xorasan mülkünün məftunu (şifte) olan Übeyd xan heç vəchlə oradan əlini üzmək istəmədi. Aşağıdakı beytlər onun mövzun təbinin nəticəsidir:

Beytlər

Yenə də can həvəse-mülke-Xorasanə düşüb,
Bədənimdə yox ikən can təzədən canə düşüb.
Dəmi-Ruhullah olubdur Xorasanın küləyi,
Küləyin meyli də sanki Poli-Malanə[118] düşüb.[119]

[Buna görə də o,] fürsəti qənimət bilərək yenidən vilayəti fəth etməkdən ötrü belinə himmət kəməri bağladı, doqquz yüz otuz ikinci ildə (miladi 1526) "Cəharcu" ("Dörd arx" - Ş.F.) keçidindən keçib Mərvə gəldi, oradansa özbək sultanları və bahadırları ilə birlikdə gəlib müqəddəs Məşhədə çatdı, həmin şərafətli şəhəri mühasirəyə aldı. [O zaman] Burun Sultanın ev əmlakı (xanəköç) şəhərdə qalmışdı. Qəribə işdir ki, qızılbaş qaziləri bir yerə toplaşmış, bir müddət oranı qorumaqla məşğul olmuş, mərdanəlik göstərmişdilər. [Amma] azuqə qıtlığından mühasirəyə alınan adamlar artıq cana doymuşdular. Vəziyyət pisləşmişdi və heç yandan imdad nəsimi əsmirdi. Übeyd xan o şəhəri alıb, özünün etibarlı bir adamını orada saxlayaraq, Astrabada rəvan oldu. Oraya çatdıqda Astrabad hakimi olan Zeynalxan Şamlı bir dəstə sınaqdan çıxmış və təcrübəli adamı qarovul (kəşfiyyatçı - Ş.F) kimi onun

[118] Pole-Malan Heratın böyük körpülərindən biridir - Ş.F.
[119] Beytlərin farscası:
Baz canəm həvəse-molke-Xorasan darəd,
Təne-bicanşodeye-mən həvəse-can darəd.
Ruhbəxşəst şemaləş ço dəme-Ruhullah
Məgər u niz həvaye-Pole-Malan darəd?

önünə yolladı. Qorçilər və onlardan zəif özbək qarovulları arasında bərk döyüş baş verdi. Qızılbaş döyüşçüləri müxalif dəstənin qələbəsini müşahidə edib fərara başladıdar, "dözülməz vəziyyətdən qaçmaq lazımdır"[120] [ifadəsinə uyğun olaraq] dörd fərsəng (24 km - Ş.F.) yolda cəng edə-edə geri qayıtdılar.

Zeynal xan və qazilər xanəköçlərini götürərək, Rey vilayətinə gəldilər, Übeyd xan [isə] Astrabadı oğlu Əbdüləziz xana verdi, özü Bəlxə tərəf getdi. Özbəklərin tüğyanı və onların Astrabad vilayətini istila etmələri xəbəri fələk ehtişamlı orduya yetişəndə Əxi Sultan Təkəli, Ağzıvar xanın atası Dəmri Sultan Şamlı və Şahəli Sultan Ustaclını bir dəstə qızılbaşla Zeynal xanın köməyinə yolladılar. Onlar Reydə birləşərək Astrabada üz tutdular. Qızılbaşlara müqavimət gücü olmyan Əbdüləziz xan Astrabaddan çıxdı və gedib atasına qoşuldu, əzəmətli əmirlərsə şəhərə daxil oldular. Qeyrət tüstüsü beyin qəsrini tərk edən [motəsaed] Übeyd xan Bostama tərəf qayıtdı. Əxi Sultan, Domri Sultan və Şahəli Sultan [isə] münqəlay dəstəsi kimi Astrabaddan çıxdılar, Bəstam çəmənində Übeyd xanın hücumuna düçar oldular. Qızılbaş döyüşçülərinin sayı üç min nəfər olmazdı, özbək ləşkərində isə iyirmi mindən çox əsgər vardı. O az dəstənin, ağır qoşunu olan özbək padşahı ilə döyüşməyi ağıl qanunundan kənar bir hərəkət idi, amma özbəklərin onları haxladıqlarına görə əmirlər hərbdən başqa çarə görməyərək, zərurət üzündən döyüş səfi bəzədilər, onların arasında bərk döyüş başlandı. Həqiqətən də, o gün qorxubilməz dilavərlər həmin qorxulu meydanda elə vuruşdular ki, zəmanənin heyrət barmağı təəccüb dişində qaldı. Elə indi də özbəklərlə olan Bəstam cəngi hamının dilindən düşə bilmir. Əxi Sultan özünü dəfələrlə Übeyd xan ordusunun qəlb hissəsinə vurdu, amma bu qəlbin darmadağın olmasına az qalmış qol hissə bahadırları yetişib vuruşmağa başladılar. Əxi Sultan təkəli mübarizlərinin əksəriyyəti ilə birlikdə atılan oxlara tuş gəlib yerə sərildi, qələbə Übeydin oldu. Dəmri Sultan ələ keçirilib öldürüldü.

Zeynal xan, bu xəbər çatan kimi şəhərdə qala bilməyərək Firuzkuha getdi. Übeyd xan isə Astrabadı özbəklərin məşhur əmirlərindən olan Turmuş xana verib Herata rəvan oldu, hər yanı özünün rəhmsiz adamlarıyla doldurdu və o ili Guryanda qışladı.

[120] İfadənin ərəbcəsi: "Nitaq-əl-fərar mimmə lə yutaqu"

Doqquz yüz otuz dördüncü ilə (miladi 1528) bərabər olan ertəsi ildəsə o, Herat qalasına hücuma keçdi.

Qardaşı Durmuş xanın vəfatından sonra Herat hakimi olan Hüseyn xan Şamlı qalanın təmirinə və bürc-barılarının möhkəmləndirmə işlərinə başlayıb, qaladarlıq silahları hazırladı, tərəflər arasında dəfələrlə mərdanə döyüşlər baş verdi və mühasirə yeddi ay çəkdi. [Nəticədə] qaladakı ehtiyat azuqə tamamilə tükəndi. Hüseyn xan şəhərin qalada olan bütün rəiyyətini oradan çıxardı, qazilər bir neçə gün onların azuqələri ilə dolandılar. Elə bu əsnada özbəklər arasında Zeynal xanın qətli xəbəri yayıldı. Xan Damğanda* Səbzvar** hakimi Çəgurkə (Çəyirtkə ? - Ş.F.) Sultanla birlikdə Turmuş bahadıra hücum edərək döyüşmüş və İlahinin əmriylə, məğub olmağa başlayan Turmuş [birdən-birə] qalib gəlmiş, Zeynal xan və Çəgurkə Sultan qətlə yetirilmişdilər. Bu hadisədən fərəhlənən Übeyd xan elə həmin gün özünün əmirülüməsası olan Yari bəy ibn Canvəfa Mirzənin təhrikiylə böyük hücuma başlayaraq, hər tərəfdən qalaya yürüşə keçdi. Şamlı qaziləri özbəklərin həmlələrini igidlik və mərdanəlik pəncələri ilə dəf edərək qala yaxınlığındakı çoxlu adamı ölüm torpağına yıxdılar. Yari bəyə bir güllə dəydi və məchul bir tüfəngçi onun başını kəsib, Hüseyn xanın yanına gətirdi. Yarinin öldürülməsindən olduqca kədərlənən Übeyd xan öz şadlığını qəm və ələmlə əvəz etdi. O, bunu da bildi ki, nə qədər çalışsa da Heratın fəthi müyəssər olmayacaqdır. Bu hadisələrin baş verdiyi vaxt ona ayəsi qələbə olan şah ordusunun Xorasana yürüşü, Turmuş bahadırın müzəffər qoşunun münqəlay hissəsi ilə döyüşü və Turmuşun öldürülməsi xəbəri də gəlib çatdı, bol ələm və sonsuz qəm ilə "Pole-Malan"dan keçərək Buxara yolunu önə tutdu ki, orada çingiziyyə xanlarından kömək xahiş etsin və təzədən Xorasan mülkünə vəlvələ salsın.

ÜBEYD XANIN ÖZBƏK XAQANLARI İLƏ XORASANA ÜÇÜNCÜ GƏLİŞİ, HUMAYUN ŞAH ORDUSUNUN YÜRÜŞÜ, ONUN CAM (VİLAYƏTİNİNI XOSROVSƏRD ADLIYERİNDƏKİ HƏRBİ VƏ CAH-CƏLALIVƏ KƏRAMƏTLİ HƏZRƏT ALLAH-TAALANIN İMDADI İLƏ HƏZRƏT ŞAHIN QƏLƏBƏSİNİN ZİKRİ

Qələm bülbül kimi eyləyib səda,
Yazmağa başladı bu dastanı da[121]

Cəm məqamlı cənnətməkan şah özünün əbədiyyət əsaslı səltənəti əyyamında bütün din və dövlət işlərini həzrət Allahın iradəsinə (məşiyyət) həvalə edib İlahi iltifatlara bel bağladı (vaseq). Buna görə də əta dərgahından onun bütün mətləb və məramı yerinə yetdi, döyüş meydanlarında düşmənlər üzərində zəfər çaldı. Onun əbədiyyətlə peyvənd olan hakimiyyəti vaxtı baş vermiş Cam cəngi aləmdə məşhurdur və bu vaxtadək bəni-adəmin dilindən düşmür. Belə ki, o həzrətin Übeyd xan və özbək xaqanları ilə etdiyi həmin döyüş onun hümayun cülusunun əvvəllərinə düşmüş və qələbə ilə nəticələnmişdi. Həmin əhvalatın bəyanı qısa şəkildə aşağıdakı kimidir:

Xorasan qasidləri ardı-ardınca səadət nişanlı dərgaha gələrək yalvarırdılar (esteğase) ki, o diyarda bəla tufanı tüğyan edir, həmin yerlərin əhalisi özbəklərin fitnə sellərinin burulğanına düşərək, iztirab dəryasına qərq olunmaqdadırlar. Buna görə də, Cəm qədirli həzrət şah əmirlər və dövlət başçıları ilə məsləhətləşdi, hamının fikri Xorasana yürüş və özbəkləri dəf etmək oldu.

Müzəffər döyüşçülər zəfər nişanlı orduda toplaşdılar və cahangirlik bayraqları Xorasan səmtinə hərəkətə başladı. Cuhə Sultan Vəkil, Əllamə Sultan Təkəli və Məhəmməd xan Zülqədəroğlu bir dəstə zəfərpənah qazilərlə qoşuna münqəlay olub, öncə getdilər, Zəmeş (?) bahadır isə Damğan qalasına sığındı. Əzəmətli əmirlər o qalanı əhatələdilər, çuvalları üst-üstə yığıb özbəkləri tüfəng atəşinə tutudular. Hər gün qaladan çıxan döyüş

[121] Beytin farscası:
Qələm çon əndəlibe-nəğmepərdaz
Çenin dəstansərayi mikonəd saz.

meydanının bahadırlar dəstəsi qazilərlə vuruşurdu. [Beləliklə] tərəflər arasında hərb atəşi bir neçə gün şölələndi, o vaxta qədər ki, məşhur bahadırların çoxu güllə yarasından və qantökən şəmşirlərdən həlak oldu. Mühasirədə qalanların işi çətinə düşdü, hümayun ordunun gəlib-yaxınlaşması isə özbəkləri çaş-baş etdi. Nicat yolu hər tərəfdən bağlanmışdı. [Buna görə də] onlar fərar yolu axtarmağa başladılar. Zəmeş bahadır bir neçə adamla bir gecə qaçış məqsədiylə bellərinə kəndir bağlayaraq qaladan endilər. Qazilər və qalanı güdənlər bundan xəbərdar olub, onların hamısını tutdular, elə həmin ləhzə qətlə yetirdilər. Ertəsi gün isə qala bir həmlədə fəth edildi və bütün özbəklər qazilərin şəmşirlərinə yem oldular. Aləm xosrovunun günəş parıltılı bayraqlarını [rayat] əllərində tutmuş bəhrlər yandıran, dəryalar coşduran ləşkərlər Kalpuş yoluyla müqəddəs Məşhədə çatdılar və onlar həzrət İmaməl-çinn və-l insi (İmam Rzanı - Ş.F.) ziyarət etdilər və Rza rövzəsi sultanının pak ruhundan kömək xahişində oldular, Herat darüssəltənəsinə getməkdən ötrü müzəffər bayraqları Cama tərəf dalğalandırdılar. Amma, yuxarıda yazıldığı kimi, Übeyd xan [artıq] Heratdan çıxaraq, Buxaraya gəlmişdi. O, Kucəm xandan və çingiznejad sultanlardan kömək xahiş edərək, Dəşti-Qıpçağadək yerləşən bütün Mavərənnəhr, Türküstan, Əxsi, Əndican, Otrar, Qılmaq, Kaşğər, Qırğız və Qazaq vilayətlərindən olduqca qalın bir ordu topladı, Kucəm xan, Yəraq xan, Fulad Sultan, Əbdüləziz Sultan, Əbdüllətif Sultan, Canıbəy Sultan, Gəldi Məhəmməd Sultan, Əbu Səid Sultan, Sevincək Məhəmməd Sultan, Kəskən Qara Sultan və sair özbək sərdarları və hər qəbilənin mötəbər əmirləri ilə birlikdə dalğalanan dərya kimi dəstələr təşkil edərək dəmir və poladdan bərk olan ürək möhkəmliyi ilə Xorasana yürüş etdi.

Beytlər

Onların hamısı yırtıcı qurd tək,
Ağılları isə tükdən də kövrək.
Hamı bədxasiyyət, bədrəftar idi,
Hirsli, qaradinməz adamlar idi.[122]

[122] Həme gorgzadane-dərzəndexuy
Səbokrəueşan comle əz bore-muy
Ze əture-işan betər xuye-şan

Xülasə, Çingiz xanın xürucunun əvvəlindən bu vaxta qədər Amu çayından belə çoxsaylı və izdihamlı ləşkər hələ keçməmişdi. Hümayun şah ordusu Camın Xosrovsərd adlı yerinə çatanda, özbək xanları da qarşı tərəfdən gələrək Zurabada çatdılar. Qızılbaş əskərlərinin qarovulları bir neçə özbəyi tutub gətirdilər.

Şah Təhmasibin özbək padşahı Übeyd xan ilə cənginin zikri:

Özbək sultanlarının sayı və saysız özbək ordusunun keyfiyyət və kəmiyyəti məlum oldu. Həmin ordunun sayı heç bir etibarlı kitabda az miqdar göstərilməmişdir. "Lübbət-təvarix" [əsərinin] müəllifi Mir Yəhya Seyfi onların yüz iyirmi min nəfər olduğunu yazmışdır. Amma əhali arasında danışılır ki, özbək əskərlərinin miqdarı, pornavol və əlmançilərdən* (?) başqa həştad min döyüşkən bahadırlardan ibarət olubdur, amma qızılbaş ordusundasa muzdlu (məvacibkar) süvarilərin sayı, xurcunlulardan* savayı iyirmi dörd min nəfər idi.

Xülasə, doqquz yüz otuz beşinci ilin məhərrəmül-həram ayının doqquzuna (miladi 1528, 23 sentyabr) düşən tasuva (tasua) günü özbək sultanları Camın Sarıqamış adlı yerində fələk ehtişamlı xosrovun (Şah Təhmasibin - Ş.F.) ordusunun yaxınlığına yetişdi. O gecə heç bir tərəf cəngə başlamadı, aşura günü sübh çağı isə tərəflərin döyüş səfləri bəzəndi.

Qızılbaş əmirlərinin başçısı Cuhə Sultan Təkəli Vəkil, Əllamə Sultan Təkəli, Hüseyn xan Şamlı, Şiraz hakimi Həmzə Sultan Xamuslu (Xunuslu olmalıdır - Ş.F) Zülqədər, Məhəmməd xan Zülqədəroğlu, Əhməd Sultan Ustaclı, Yaqub Sultan Qacar, o vaxtlarda sultan [titulu daşıyan] Məhəmməd xan Şərafəddinoğlu Təkəli, Həsən Sultan Rumlu, Əhməd Sultan Əfşar və həzrət cənnətməkan şahın başqa əzəmətli əmirləri və qorçiləri mükəmməl yaraqlanaraq, iti sürətli ağ-qara atlara (əbləq) suvar oldular, müzəffər qorçilərlə birlikdə ordunun qəlbində qərar tutdular. Xoşbəxt ordunun meymənə və meysərə (sağ və sol - Ş.F) hissələri məşhur və bacarıqlı əmirlərlə bəzəndi. Firəngi zərbzənlərlə (Avropadan gətirilmiş kiçik toplar - Ş.F.) dolu arabalar ustad Şeyxi bəy Topçubaşının başçılığıyla səfin önündə dayandı. Onlar uca

---

Por əz çin həme ruy-o əbruye-şan.

səslərlə qeybdən imdad diləyib, "Allaha təvəkkül" deyərək cəng meydanında o xunxar ləşkərin qarşısında qərar tutdular. Hər iki tərəfdən kəvrəkə, nəfir, kərrənay* sədaları göy qübbəsinədək ucaldı, bayraqlar açıldı, surənlər** çalındı. Döyüşqabağı hər iki tərəfin cavanları bir-birilərinin üstünə at sürdülər. Bu tərəfdən qızılbaş dilavərləri əjdahaya (səban) bənzər nizələri atlar üstündə əllərində tutub yaramaz (nabekar) özbəkləri həlak torpağına yuvarlatdılar. Qarşı tərəfdənsə, özbək bahadırları məğlubedilməz ordunu oxlara tutaraq qızılbaşların papaqlarını başlarına tikirdilər. Hər iki dəstənin mübarizləri mərdanəlik göstərirdilər. Öldürülən adamların çoxluğundan dağ və səhra (hamun) bərabər oldu.

Nəzm

Qızılbaş tərəfdə şir kimi əskər,
Qarşı tərəfdəsə kinli özbəklər.
Qızılbaş tərəfdə zirehli zirək,
Qarşı tərəfdəsə hiyləgər özbək.
Cəngavər igidlər toplaşıb həmən,
Üzbəüz durdular qorxu bilmədən.
Təpələr yaratdı ölən bədənlər
Hələ belə günü görməyib bəşər.
İgidlər qanından qızardı çəmən,
Fələk təngə gəldi belə döyüşdən.[123]

Xülasə, həmin cəngə susayan iki dəstə arasında elə bir hərb oldu ki, yeddinci fələyin sipəhsaları (sərkərdəsi - Ş.F.) qanlı qılıncını əlindən salaraq, öz heyrət barmağını rəhm dişi ilə dişlədi. Ruzigarın gözü hələ bu qızğınlıqda müharibə görməmişdi. Bu gen dünyada

[123] Nəzmin farscası:
Ze yek sıı hejəbrane-porxaşçuy,
Ze suye-degər uzbəke-kineçuy.
Ze yeksu delirane-ahənqəba,
Ze suye-degər uzbəkane-dəğa.
Delirane-cəngazma biş-o kəm
Nehadənd por xəşm-o kin ru behəm.
Ze bəs koşteha poşteha şod pədid,
Degər an çenan ruz giti nədid.
Zəmin şod ze xune-yəlan laləzar,
Fələk xast əz covreşan zinhar.

iranlıların və turanlıların* arasında hələ elə bir hadisə görünməmişdi. At yerişlərindən yerdə elə tozanaq oldu ki, aləmi işıqlandıran günəş hicab niqabına büründü. [Amma,] qızılbaş qoşununda zəiflik əlaməti yaranmağa başladı.

Qızılbaş ləşkərinin basılması və qoşunun meymənə və meysərəsinin məğlubiyyəti:

Bu əsnada özbək sultanları Cuhə Sultana, habelə [bütünl təkəli və şamlı əmirlərinə, həmçinin qızılbaşların meymənəsındəkı adlı-sanlı döyüşçülərə hücum edərək, onları məğlubiyyətə uğratdılar. Sol qolun əmirləri də həyəcana düşüb müxalif tərəfin ardıcıl həmlələrinə tab gətirməyərək əzildilər. Özbək qoşunu qızılbaş ləşkərinin məğlub olan əskərlərini təqib etməyə və o, səhrada ziyankar qarışqa və çəyirtkələr kimi qəlb tarlasına ziyan yetirməyə başladılar. Şairin dediyi kimi:

Beyt

Oxlar uçuşurdu çəyirtkələr tək,
Oxlar bəla idi insana gerçək[124]

Həzrət Cəm məqamlı cənnətməkan şah röya aləmində görmüşdü ki, məsum imam həzrətləri o həzrətə (Şah Təhmasibə - Ş.F) bu mərəkədən fəth və zəfərlə çıxacağı xüsusunda müjdə verdilər. Buna görə də, o həzrət inamının (vosuq), etiqadının, igidliyinin, sücaətinin və dilavərliyinin çoxluğundan heç öz durduğu yerdən tərpənmədi və onun hümayun sifəsətində çaşğınlıq əlaməti görünmədi. Müharibələr görmüş üç min mübariz döyüşçü ilə:

Nəzm

Köpək balığı tək adamı udan,
Fələk sütunu tək möhkəm dayanan[125]

[124] Beytin farscası:
Mələxhaye-peykan ze pərrəndegi
Həme afəte-məzrə'e zendegi
[125] Nəzmin farscası:
Həme çon nəhəngane-mərdomrobay

fələk qütbü kimi mərdanə dayanıb öz yerindən tərpənmədi, fələk qütbü kimi sakit dayandı. Həzrət Allah-təala öz əzəli inayəti ilə sanki o az miqdar olan qoşunu müxalif gözlərdən gizlətdi və onları qorudu. Tozanağın bir qədər yerə yatmasından sonra cənnətməkan şahın nəzəri qalın bir qoşunda dikələn ağ bir bayrağa sataşdı. O həzrət elə bildi ki, həmin qoşun xüsusi dəstə ilə qəlb hissədə dayanmış Übeyd xan və Kucəm xanın qoşunudur.

Qızılbaş qoşununun mərdanə həmləsi

Qızılbaşların təqibindən dəstə-dəstə geri qayıdan özbək bahadırları yuxarıda adları çəkilən xanlara gözaydınlığı verirdilər. Übeyd xan onlardan soruşdu: "Uzaqda görünən və uzun müddət öz yerindən hərəkət etməyən qoşun qızılbaş qoşununun qaraltısıdırmı?" O, bir neçə nəfər göndərib oradan bir xəbər gətirmələrini tapşırdı. Özbəklər ona dedilər: "Qızılbaş döyüşçüləri elə zəif məğlubiyyətə uğramayıblar ki, bu səhrada onlardan əsər-əlamət görünmüş olsun. Həmin qaraltı, qızılbaş ordu heyvanlarının qaraltısıdır". [Beləliklə,] onların bəsirət gözləri həmin qaraltını müşahidə etməkdən bağlandı. Elə bu vaxt cənnətməkan şah orada dayanmış iqbal mübarizlərinə əmr etdi ki, o qoşunun üzərinə qorxmazlıqla gedərək, özlərini dayanmadan həmin ağ bayrağa çatdırsınlar, iti qılınc və qantökən şəmşirdən başqa heç bir hərb alətinə əl vurmasınlar, yaralayacaqları hər özbəyi öldürməyib, başqasının yanına hücuma keçsinlər, çünki abır-həya ilə məğlub olmaq və mərdanəliklə öldürülmək ruzigarın başı uca edən işlərindəndir.

Beyt:

Ya, diz çökək murad ilə gərdun qabağında,
Ya, mərdlik ilə qəddimizi biz tutaq uca.[126]

Həme çon sotune-fələk pa becay.

[126] Beytin farscası:

Ya, ba morad bər səre-gərdun nəhim pay,
Ya, mərdvar bər səre-hemmət konim sər.

Qızılbaş qoşununun qələbəsi və özbəklərin məğlubiyyəti:

Həmin əqidə sahibləri olan və canlarından keçən döyüşçülərdən əvvəlcə şamlı və zülqədər qorçiləri kamil mürşidin (Şah Təhmasibin - Ş.F) fərmanını can-başla qəbul etdilər, öz misri qılınclarını sıyırıb və gen ətəkli qalxanlarını başlarına tutub düzgün əzmlə "Allaha təvəkkül" deyərək sağ qoldan atlarını irəli sürdülər.

Sol qolun dilavərləri də hərəkətə başladılar. Onların hamısı birlikdə fədakarlıqla və o qeyb qoşununun köməyi ilə həmin qəddar və xunxar özbəklərin üstünə at çapdılar. [Belə ki,] onların üç min şimşək parıltılı şəmşirləri birlikdə işləməyə başladı. Qızılbaşlar, kamil mürşidin buyurduğu kimi, yaraladıqları hər adamı qətlə yetirməyib, başqası ilə döyüşə başladılar. Çox miqdarlı özbək əskərlərinin əksəriyyəti qazilərin almas kimi parıldayan qılınclarının zərbələrindən yaralandı, yaxud öldürüldü, müdafiə olunmağa fürsət tapa bilmədi, qoşunlarının qəlb hissəsi parçalandı. Kucəm xan və Übeyd xan elə çaşdılar ki, fərar etməkdən başqa heç bir çarələri qalmadı, o saysız-hesabsız ləşkər canlarından keçən fədailərin bircə mərdanə həmləsi ilə məğlub edildi.

Bir-birilərindən ayrı düşən ulduzlar kimi (bənatən-nəş) qızılbaş döyüşçüləri isə keçirdikləri kədər və ümidsizlikdən sonra qələbəyə ümidvar olaraq Sürəyya ulduzları kimi* bir yerə toplaşdılar.

Elə fəthdən sonra belə məğlubiyyətə uğrayan özbək sultanları kama yetməyərək, qaçmağa başladılar. Əzəmətli qorçilərin biri Übeyd xana çatıb ona şəmşirlə arxadan bir zərbə vurdu və xan bayıldı. [Qorçi] nifrət etdiyindən hətta onun həqarətli bədənini götürüb-aparmaq belə istəmədi, ondan daha yaxşısını tapıb-öldürməyə üz tutdu. Bəzi adamların sözünə görə, qorçi [Übeyd xanın] başına elə toppuz zərbəsi vurdu ki, qulağı (samec) parçalandı. [Buna görə də] xalq arasında o "Kar Übeyd" kimi də adlanmışdı. Übeyd xan Mavərənnəhrin və Daşkəndin qırx nəfər əzəmətli adamını da özü ilə buraya gətirmişdi ki, onlar bayrağın yanında dayanıb, onun qələbə çalmasından ötrü dua etsinlər. Haqq onlarla olmadığından, duaları geri qayıtdı və hamısı bayrağın yanındaca öldürüldü.

Xülasə, Kucəm xan və Übeyd xan yüz təşvişlə həmin qan dənizindən canlarını qurlara bildilər. O azğınların təxminən iyirmi min nəfəri ildırım təsirli şəmşirlərin şöləsi ilə yandırıldı, o alçaqları

(xaksar) "onları tapdığınız yerdə tutun və öldürün" ifadəsinə uyğun olaraq öldürdülər[127]. Həzrət cənnətməkan şah haqqında belə danışılır: Həzrət şahla birlikdə özbək qoşununun qəlb hissəsinə hücuma keçən üç min nəfər döyüşçüdən başqa, habelə daha min yeddi yüz qorçi və əmirlər ləşkərinin yerdə qalanları (tətəmme) da vardı. Özbək sultanlarından Canıbəy Sultan öz təbəələri və özbək döyüşçüləri ilə birlikdə məğlub olan qızılbaşların təqibindən geri qayıdarkən, axşam vaxtı, qızılbaş ordusunun çıraqlarının Übeyd xan ordusunun çıraqları olduğunu zənn edib, hümayun ordunun arxa tərəfinə gəldi və orada dayandı.

Ertəsi gün, məhərrəmül-həram ayının on birində (24 sentyabr) onların qaraltıları gözə dəydi. Onların Özbəklər olduqları məlum olduqda hamı yəğma (qarət - Ş.F.) məqsədi ilə atlandı. Cənnətməkan şah da ata süvar oldu və onlar o bəxti dönmüşlərin üzərinə yollandılar. Cuhə Sultan onların getmələrinə mane olaraq deyirdi: "Qızılbaş ləşkəri dağıldığından getmək lazım deyil. Allah eləməsin, iş əngələ düşə bilər". O həzrət, igidlik və dilavərliyinin çoxluğundan bu ağıllı təklifə əhəmiyyət vermədi və o rəzillərin üzərinə hücum etdi, cəsur bir həmlə ilə onların işini bitirdi, [özbəklərin] əksəriyyəti qazı şəmşirləri üçün yem oldu. Canı bəy Sultan bir az müqavimət göstərdi və onun adamları mərdanəliklə döyüşdülər, amma nəticədə fərar yoluna düşdülər.

Beləliklə, bəxtləri uca olduğundan [qızılbaşlar] elə fəthə nail oldular ki, belə fəth qədim zamanlardan bəri olduqca az görünmüşdür. Bir nəfərə on nəfər düşdüyü halda özbəklər əzildilər və özlərinin idbar diyarlarına qayıtdılar. "Əgər aranızda iyirmi səbirli kişi olsa, iki yüz nəfərə qələbə çalarlar" ayəsi gerçəkləşmiş oldu.[128] Qızılbaşlar İlahiyə şükr edərək ətraf məmləkətlərə fəthnamələr* göndərdilər. Şah Xorasan işlərini tənzimləməyə başladı. Bu cəngdə Hüseyn xan Şamlıdan igidliklər zahir olduğu üçün Heratın və onun mülkiyyətinin idarə olunması fərmanla ona tapşırıldı. [Sonra] yürüş İraqi-Ərəb səmtinə oldu ki, bu səfərin şərhi [tərəfimizdən] yazılacaqdır.

[127] İfadənin ərəbcəsi: "... vəqtuluhum heysu vəcədtumuhum".
[128] İfadənin ərəbcəsi: "İnyəkun-minkum işrunə sabirinə yəğlibu-mi-ətəyni"

ÜBEYD XANIN XORASANA DÖRDÜNCÜ GƏLİŞİNİN ZİKRİ

Şahın müzəffər ordusunun qayıtması xəbərindən agah olan Übeyd xan yenə də elə həmin ildə - doqquz yüz otuz beşinci ildə (miladi 1528/29) Buxaranın ətraf yerlərindən döyüşkən ləşkər toplayaraq, Xorasana gəldi. Sevincək Məhəmməd Sultanı və Əbdüləziz Sultanın oğlunu özündən əvvəl müqəddəs Məşhəd səmtinə yolladı. Qızılbaş əmirlərindən, o vaxtlarda "sultan" olan, Ağzıvar xan Şamlı, [habelə] Əhməd Sultan Əfşar və Yaqub Sultan Qacar müqqədəs Məşhəddə idilər. Məşhəd barısının inşası hələ başa çatmadığı üçün onlar şəhərdə səngər (kuçebənd) quraraq, qorunmaqla (moharesət) məşğul olmağa başladılar. Onların aralarındakı hərb atəşi iki ayədək alovlandı. [Sonra] Übeyd xanın özü də Mavərənnəhrin Bəhram qəzəbli qoşunu ilə şəhər xaricinə gəlib yetişdi və hücuma keçdi. Səngərlərin ətrafında bərk döyüşlər başlandı. Bu hərbə davam gətirməyə bundan artıq taqətləri qalmayan qızılbaşlar döyüşməyi məsləhət görməyərək, bir gecə Məşhəddən çıxdılar. Əhməd Sultan Əfşar özünün ülkası olan Fəraha* getdi, Fərah qalasını möhkəmlədib orada qaldı, Ağzıvar xan və Yaqub Sultan isə Məzinana tərəf yollandılar.

Bir sübh zamanı, özbəklər qızılbaşların gedişlərindən xəbərdar olaraq, onların təqibinə doğru hərəkət etdilərsə də, gedib əmirlərə çata bilmədilər. Übeyd xan müqəddəs Məşhədi özünün bir etibarlı əmirinə tarşırıb Herata yollandı, şəhəri mühasirəyə aldı.

Hüseyn xan və şamlı qazilərinin müdafiə və qaladarlıqla məşğul olduqları və şəhərdə hərb alətlərinin şölələndiyi həmin il bütün yerlərdə taxıl yoxa çıxmışdı. [Buna görə də] Hüseyn xan və şamlı ağsaqqalları, ərzağın və qaladarlıq vəsaitinin olmadığından, şəhərdən çıxmağı məsləhət bilib [özbəklərlə] sülh danışıqlarına başladılar. Arada elçi gediş-gəlişi oldu və belə qərara gəldilər: Qoy Übeyd xan bir neçə mənzil geriyə çəkilsin ki, qızılbaşlar öz uşaqları, əhl-əyalları və əşyaları ilə şəhərdən çıxa bilsinlər, onları heç bir özbək sultanı təqib etməsin.

Übeyd xan sülhə rəğbətlənərək, bir neçə mənzil geriyə çəkildi. Əhd-peymandan sonra Hüseyn xan bütün qazilər və şiə məzhəbli əhali ilə sağ-salamat şəhərdən çıxıb, Sistana tərəf getdi. Sistan valisi Məlik Mahmud insanpərvərlik göstərdi. Hüseyn xan qızılbaşlara yağı olan Pəştzereh (?) quldurlarının üstünə gedərək

onların var-dövlətlərini qarət etdi, oradan Kəbç (?) və Mokrana (?) yollandı, xeyli qarətkarlığa başladı, sonra Şiraza gəldi. Onun bu işlərinin şərhi tezliklə [tərəfimizdən] yazılacaqdır.

Xülasə, Übeyd xan bütün Xorasan mülkünü istila edib, həmin məmləkətdə yenidən çövr və tüğyana başladı, özbək döyüşçüləri Xorasan əhlinə çox zülm etdi. Übeyd xan [hətta] mallarını əllərindən almaq tamahı ilə əsl sünnü camaatının çoxunun guya rəfz* olmaları və şiəlikləri bəhanəsi ilə qətlə yetirdi ki, zülmlə öldürülənlərin biri də şair Hilali idi, onu Heratın dörd yol hissəsində öldürdülər, çünki Übeyd xana demişdilər ki, cənab movlana xanı həcv edərək, bu rübaisini onun barəsində yazmışdır:

Qarətçilik etməkdə olan xansansa,
Taraçgəri-mülki-Xorasansansa,
Yığdın yetimin malını da sən, ey
Übeyd, Vallah ki, kafərəm müsəlmansansa.[129]

Yaxud, o, Übeyd xanın mədhində bir gözəl qəsidə də yazmışdı ki, bu iki beyt həmin qəsidədəndir:

Bilən varmı Xorasan torpağı canə haçan gəldi? –
Ona can gəldi ol dəm ki, Übeydullah xan gəldi.
Qızıl nallı səmənd at ki, xanındır, bənzəyir şəmsə,
Ki, məşriqdən gedih məğribə, döndü, nagəhan gəldi.[130]

Bu mədhin şair Hilaliyə heç bir faydası olmadı, məlum səbəbdən qətlə yetirildi.

---

[129] Rübainin farscası:
Ta çənd, Ubeyd, əz peye-talan başi?
Taracgəre-molke-Xorasan başi?
Qarət koni-yo male-yətiman bebəri,
Kafər başəm əgər [mən to] mosəlman başi*.
* Qeyd: Rübainini 4-cü misrası naqisdir. Mötərizəyə alınmış sözləri özüm artırdım - Ş.F.

[130] Beytlərin farscası:
Xorasan sineye-mye-zəmin əz bəhre-an aməd,
Ke can aməd dər-u, yəni Übeydullah xan aməd.
Səmənde-tondzərrin nə'le-u xorşid-ra manəd
Ke əz məşreq be məğreb rərf-o yek şəb dər miyan aməd.

Elə ki, özbəklərin Xorasanı istila etmələri xəbəri cənnətməkan şahın hümayun qulağına çatdı, o din və ədalət sahibi artıq Bağdad işlərini öz işlərinə uyğun həll etdiyindən doqquz yüz otuz altıncı ilin (miladi 1529) əvvəlində özbəklərin fitnəsini aradan qaldırmaqdan ötrü, qələbəsi əyan olan yürüş cilovunu Xorasana çevirdi, sürətlə hərəkət edən qorçiləri ölkəsinin bütün yerlərinə (qələmrov) göndərdi ki, döyüşçülər özlərini müzəffər orduya çatdırsınlar. Az günlər ərzində məğlubedilməz döyüşçü dəstələri hissə-hissə gəlib hümayun toplantı yerinə (məəskər) toplaşdılar. Tarixçi Həsən bəy belə yazmışdır: "O səfərdə müzəffər orduda yetmiş min əskər cəmləndi".

Şah Təhmasibin özbək padşahı Übeyd xanı cəzalandırmaqdan ötrü Xorasana gedişi:

Amma Übeyd xan fəxarətli Herat şəhərini artıq tutduğu üçün özünü Xorasan mülkünün maliki kimi görürdü. O Fərəh qalasının [da] fəthinə yollanaraq Əhməd Sultan Əfşarın üstünə qoşun çəkdi və qalanı mühasirəyə aldı. Oranı tutmaqdan ötrü çox cidd-cəhd edən Übeyd xan heç bir iş görə bilməyib, mühasirədən əl çəkdi və Herata qayıtdı. Elə ki, iqbal ordusu günəşinin görünmə xəbəri (yəni şah ordusunun Xorasana gəlməsi - Ş.F.) o vilayətə gəlib çatdı, Übeyd xanın səbat kökünə zəlzələ düşdü və o, Heratdan Mərvə tərəf getdi, dilləri yağlı elçilərini çingiziyyə xanlarının yanına yollayıb təcili olaraq onun köməyinə yetişmələrini xahiş etdi.

Xan elə oradan həzrət cənnətməkan şaha kobud (nahəmvar) məktublar yazıb göndərdi, Mərvdə əyləşib kömək gözləməyə başladı. Turan sultanları [tezliklə] Mərvdə toplaşaraq qızılbaş padşahı ilə yeni hərbə başlamaq barədə hər sülalənin aqilləri və atalıqları* ilə kənqaş** keçirdilər, amma onların əksəriyyətinin fikri cəng etməmək oldu. Sultanların ən yaşlısı və Səmərqənd hökmdarı olan Kucəm xan elə həmin il ölmüş, oğlu Əbu Səid xan onun qaimməqamı olmuşdu. O, Übeyd xana qəti etirazla dedi: "Biz bu müddət ərzində Xorasana [dəfələrlə] gəlib, qızılbaşlarla cəng etmişiksə də, xəsarətdən başqa heç bir fayda görməmişik. Yox, əgər sən onlara müqavimət göstərmək istəyirsənsə ixtiyar sahibisən, amma biz qızılbaşlarla cəngdə [daha] sənlə yoldaşlıq etmirik. Məsləhətdir ki, sən də öz məmləkətinlə kifayətlənib bu faydasız cəhddən əl çəkəsən".

Cuci [xan] pejadlı* sultanların çoxu onun sözünü dəstəkləyib köməyinə getmədilər. Übeyd xan sultanlar köməyindən məyus oldu. Onun göndərdiyi elçi isə şahın yanına yetişib, ləşkərin toplanması və kəmiyyəti barədə məlumat verdi, ondan şaha yazdıqları üslubda kobud tərzli cavab məktubu aldı. Həmin namədə bu beyt [də] yazılmışdı.

Beyt

Ey özil kar, bəxti kor insan, bəli,
Kar və korun güclü olarmı əli?[131]

Nəticədə [Übeyd xan] həsrətli könül və naləli xatir ilə Xorasanla əlaqəsini kəsərək, Buxaraya rəvan oldu. Cənnətməkan şah isə səadət və iqballa Xorasana gəldi və həmin vilayətin bütün yerlərinə sahibləndi. O, Herat darüssəltənəsində əyləşib, o diyarın ürəkləri şikəst və narahat adamlarının yaralarına rahətlik məlhəmi çəkdi, Xorasan hakimliyini öz əyan qardaşı Bəhram Mirzəyə inayət etdi, Qazi xan Təkəli mirzənin lələsi və Xorasanın əmirülümərası oldu. Şah o vilayətin hər yerinə əmirlər və hakimlər təyin edib, bütün təbəələrinin işlərini yenidən nizama saldı. Özbək qarətçi qoşunun gediş-gəlişindən Xorasana dəymiş dağıntını sahmana salmaq və zəfərli əsgərlərin maaş qıtlığını (zeyqi-məaş), həmçinin o diyar əhalisinin vəziyyətini nəzərə alaraq, İraqa qayıtmağı məsləhət bilən müzəffər dünya şəhriyarı atının cilovunu o səmtə yönəltdi.

ÜBEYD XANIN XORAŞANA BEŞİNCİ GƏLİŞİ VƏ FƏRAR ETMƏSİNİN ZİKRİ

Cənnətməkan şahın geri qayıtmaq xəbəri Buxarada Übeyd xana çatdı. O, doqquz yüz otuz yeddinci il (miladi 1530/31) olan ertəsi il Qamış Oğlanı bəzi özbək əmirləriylə bu xəbərin dəqiqləşdirilməsindən ötrü Xorasana göndərdi. Onlar Amu çayını keçib Sərəxs yoluyla müqəddəs Məşhədə gəldilər. Məşhəd hakimi Müntəşa (mətndə səhvən "Müsənna" yazılıb - Ş.F.) Sultan Ustaclı

[131] Beytin farscası:
To kəri-vo həst tora bəxte-kur,
Kur-o kəri-ra ce bovəd dəste-zur?

və Nişapur hakimi Ağzıvar xan Şamlı bir-birləriylə birləşib, Qamuş Oğlanın və özbəklərin üstünə yeridilər və aralarında kiçik bir cəng oldu, qazilər müxaliflərin bir neçə nəfərini öldürdülər. Özlərində müqavimət gücü görməyən özbəklər hərbdən əl çəkərək geriyə, əmirlərsə öz məkanlarına qayıtdılar.

Übeyd xanın Herat qalasını mühasirə etməsi:

Doqquz yüz otuz səkkizinci ildə (miladi 1531/32) Ubeyd xan yenidən saysız-hesabsız döyüşçü yığıb Xorasana üz tutdu. O, Herat şəhərinin xaricində dayanıb mühasirə işinə başladı, Xorasan vilayətinin hər yerinə öz əmirlərini göndərdi. Oğlu Əbdüləziz Sultanı müqəddəs Məşhədə, Qamış Oğlanı Astrabada, Xangəldi bahadırı Səbzvara və başqa bir dəstəni Bəstam vilayətinə yola saldı. Müntəşa Sultan, Ağzıvar xan və başqa Xorasan əmirləri öz yerlərində qalmağı məsləhət bilməyib, hakimlik yerlərini (hökümətgah) boş qoydular və kənara çəkildilər. Amma Damğan hakimi Zülqədər Sultan özbəklərin gəlişindən xəbərdar olaraq gəraylı tayfasının Miyanə adlı yerinə bir adam göndərdi, kömək xahiş etdi. Gəraylı hakimi Mirzə Əli xan Xəlifə çoxlu qoşunla gəlib ona birləşdi. Onlar Bəstamın kənarında özbəklərlə qarşılaşıb cəngə başladılar, qazilər qalib, özbəklərsə məğlub oldular, bir dəstə özbək öldürüldü, başqa dəstə isə əsir alındı. Amma, Astrabada göndərilən Qamış Oğlan özünün cəsarət və bahadırlıq addımını irəliyə atıb Savucbulağın Məhur adlı yerinədək çoxlu döyüşçü ilə yola düşdü, orada Məhəmməd xan Zülqədəroğlunun ordusu üzərinə tökülüşüb onun əgrəqini* qarət edərək geri qayıtdı. Übeyd xan isə Herat qalası ayağında dayanıb qalaalma vəsaitinin hazırlığına başladı.

Qazilər bacardıqları qədər özbəklərdən müdanə olunmağa başladılar. Azərbaycanda [qızılbaşlara] yağı olan Əllamə Təkəli Ruma gedərək orada, fitnəkarlıq etdi və həmin sərhəddə üsyan və qarışıqlıq odu şölələndi. Buna görə də cənnətməkan şah üçün böyük bir iş başlandı və onun Xorasan yasaqına başlamaq imkanı olmadı. Elə buna görə də Übeyd xan arxayınlıqla qala [ayağında] əyləşib, qaladakılara təzyiq etməyə başladı.

Mühasirə müddəti il yarım çəkdi. Mühasirədə qalanlar azuqə çatışmazlığından cana doydular, qazilərsə şəhər əhalisini şəhərdən eşiyə qovdular, onların olub-qalan azuqələrini əllərindən alıb bir qədər də dolandılar. O müddət ərzində təkəli tayfası rəiyyətə

olmazın zülm edərək, onların əlindəki pul və mallarını götürdülər, özlərini isə eşiyə qovdular, sonra gizlətdikləri şeylərin də axtarıb-tapılmasına başladılar. Təkəlilər [hətta] şəhərlilərin çölə qovulmalarından sonra onların ev və məskənlərini də dağıdıb, topladıqları xəzinələri də mənimsədilər.

Xülasə, ərzaq get-gedə tükəndi, qazilər it və pişik ətini yeməyə başladılar ki, bunlar da qurtardı.

Söyləyirlər ki, Qazi xanın iki mötəbər ağası bir itin üstündə dalaşmağa başladılar və isbat üçün Qazi xana üz tutdular. Onların hər biri deyirdi ki, it onun tərəfindən yaralanmışdır və onun əti ona düşür. Qazi xan nəhayət həmin itin leşini iki hissəyə bölərək, onların hərəsinə bir pay verdi.

Bəhram Mirzə və Qazi xan üçünsə hər gün bir boşqab düyü və [bir tikə] at əti ayrılır, bu xörəyin də yarısı məclisdə mötəbər ağalara qaşıq-qaşıq paylanırdı. Ağalar isə özlərinə çatan yeməyin yarısını xidmətçiləri arasında bölürdülər.

Azuqə azlığından elə zəiflədilər ki, adamlar əsa ilə gəzməyə başladılar. Übeyd xan [vəziyyəti bilərək] qalaya adam göndərdi, sülh barədə danışıq aparmağa başladı.

Şah Təhmasibin Xorasan səmtinə hücumu:

Qazi xan bu şərtlə razılaşdı ki, qoy Übeyd xan bir neçə köç geri çəkilsin və o, Bəhram Mirzə və qızılbaş döyüşçüləriylə birlikdə sağ-salamat çıxıb şəhəri [özbəklərə] təhvil versin. Übeyd xan isə razılaşmayıb deyirdi: "Qoy onlar gələrək, mənim xeyməmim kəndirinin (tənab) altından keçsinlər və sonra getsinlər". Bəhram Mirzə və Qazi xansa bu təkliflə razılaşmırdılar. Bir neçə gündən sonra Səmərqəndin padşahı olan Əbu Səidxan ibn Kucəm xanın atalığı sülhə razılıq almaqdan ötrü şəhərə gəldi, amma, sülh baş tutmadı. Qazi xan öz gücsüzlüyünə baxmayaraq, din və dövlət düşmənləri ilə vuruşub, qalanı qorumaqdaydı. Bu xəbərin dürüstlüyü və yaramaz (nabekar) özbəklərin hücum xəbəri Azərbaycanda cah-cəlal sahibinin (Şah Təhmasibin - Ş.F.) qulağına çatdıqda, artıq Əllamənin fitnəsi tamamilə yatırıldığından, cənnətməkan şah Xorasana tərəf getmək fikrinə düşdü və doqquz yüz otuz doqquzuncu ildə (miladi 1532/33) müzəffər ordu hərəkətə başladı. Şah bu xəbəri çatdırmaqdan ötrü dərhal bir qasidi Herata yolladı. Qasid Heratın ac-yalavac adamlarının ah-nalə alovunun

ruzigar xırmanını yandırdığı bir vaxtda şəhərə çatıb müzəffər ordunun yola düşmə müjdəsini çatdıraraq, onlara yemək, ürəklərə qüvvət verdi, şadmanlıq səsləri asimana ucaldı, şənlik nağaraları çalınmağa başladı. Übeyd xan şair təbiətli bir adamdı. O həmin bir neçə gün ərzində bu beytləri yazıb, Qazi xanın vəziri məşhur möhrdar Xacə Əmir bəyə göndərdi:

Beytlər

Getsən Xorasan səmtinə hərgah, ey nasim,
Çatsın Xorasan əhlinə bizdən salamımız.

Lütf eylə, bizim fikrimizi bildir onlara,
Bildir ki, sizə yoxdu bizim ehtiramımız.

Cahilsiniz deyə yazırıq biz bu sözləri,
İmza elədi naməyə izzətli namımız.

Ey Xacə, bu gündən belə sağ qalma dünyada,
Təsbit olunubdur deyə xanlıq məramımız.[132]

Xacə [Əmir bəy] söz deməyə qabil və zəmanənin istedadlı adamlarından idi. O, [xanın] cavabında bu beytləri yazıb göndərdi.

Beytlər

Ey iddialı adam, bilmədinmi sən

[132] Beytlərin farscası:
Ey bad, əgər bər əhle -Xorasan gozər koni,
Zinhar, ərze deh bərayeşan səlame-ma.

Vangəh ze ruye-lotf begu an goruh-ra
K-y dəste kinexahe-şoma xas-o ame-ma.

Kelke-qoruro-cəhle-şoma kərdeəst səbt
Dər roqeyi ke bude dər an roqe name-ma.

Key Xace, bəd əz in təməəz zendegi bebər
Z-an ru ke, gəşt sekkeye-xani bename-ma.

Şah gəlmədə artıq, çoxalır ehtişamımız.

Biz bəndəsiyik həzrəti-şahın ki, yazılmış,
Rəhmət varağında əbədiyyət davamımız.

"Xan" söyləmisən isminə, olsun cavab sənə,
Bunlar ki, yazıb, Hafizi-şirinkəlamımız:

"Dilbərlərin ədası, nazı öylə olmalı
Dəycək gözə ol sərvi- sənubərxüramımız". [133]

Bəlxdən Ülbeyd xanın köməyinə gələn Kəskən Qara Sultan və Canı bəy Sultan gizlicə olaraq qızılbaşlarla dostluq edərək, Bəhram Mirzə üçün bar biş körpə quzu və at yağı göndərdi. Kəskən Qara Sultanın adamları gecələr arıq yabıları pünhan şəkildə xandağın kənarına gətirib baha qiymətə satırdılar və həzrət ərzaq paylayıcısı [olan Allah] (qasimül-ərzaq) o yabıların əti ilə qaziləri bir neçə müddət dolandırdı.

Xülasə, həzrət cənnətməkan şah Xorasana yola düşdükdə Əlqas Mirzəni Bədr xan Ustaclı ilə Astrabada tərəf yolladı. Onlar Bəstama çatdıqda, Bədr xan yoldaşlarıyla canəqi edərək*, belə qərara gəldilər ki, Astrabada hücuma keçib qəfildən Qamış Oğlana hücum etsinlər. [Elə də oldu]. Cənab mirzənin (Əlqas Mirzənin - Ş.F.) qoşunundakı sayı min beş yüz nəfər olan döyüş meydanı mülazimləri ilə Bəstamdan hücuma keçdilər. Onlar sübh tezdən, özbəklərin əksəriyyəti hamamda olarkən, şəhərə girdilər, şadyanalıq nağaralarını çalmağa başladı. Hər hansı bir özbəyə çatan kimi onun bədənini baş yükündən yüngülləşdirirdilər. Hamamdan

[133] Beytlərin farscası:
Ey müddəi, məgər nəşenidi ke, mirəsəd
Şahe-setareheşməte-Cəmehtirame - ma?

Ma bəndegane-həzrəte-şahim-o əz əzəl
Səbt əst bər cərideye-rəhmət dəvame-ma.

Başəd cəvabe-dəviye-xani ke, kərdeyi
Beyti ze Hafeze şirinkəlame-ma:

"Çəndan bovəd kereşme vo naze-səhiqədan
K-ayəd be celve sərve-sənubərxorame-ma".

lüt-üryan çıxan hər adam özünü fəna bəhrində qərq olmuş görür, ədəm yoluna göndərilirdi. Bu hadisənin baş verməsindən çaşbaş olan Qamış Oğlan şəhərdə o yan-bu yana qaçırdı. [Nəhayət,] o, yüz təşvişlə yeddi-səkkiz adamıyla şəhərdən çıxıb Mərv səmtinə qaçdı, dörd qardaşı və beş yüz nəfərədək döyüşçüsü qətlə yetirildi, onların başlarını hümayun məiyyət qarşısına yolladılar. Sufyan Xəlifə Rumlu üç yüz rumlu qazisi və bir dəstə kubiklu (?) döyüşçüsüylə birlikdə Səbzvara göndərildi.

Übeyd xanın Heratdan fərar etməsi və mühasirədə qalanların rahatlanmaları:

O, Səbzvarda dörd min özbək əskəri ilə birlikdə olan Xangəldi bahadır üzərinə şəbxuna keçərək, onların mühasirədə qalanların hamısını qətlə yetirdi. Nişapura tərəf götürüldülər. O əsnada həzrət Cəm məqamlı şah özbəklərin çox olmasından xəbər tutub, Hüseyn xan Şamlını, Ağzıvar xan Şamlını və Əmmə (?) Sultan Rumlunu Sujyan Xəlifənin köməyinə göndərdi. Onlar Nişapur yaxınlığında birləşərək, elə oradaca özbəklərlə cəngə girdilər, qalib gəldilər və müqəddəs Məşhədə tərəf rəvan oldular. Yeddi min nəfərlə Məşhəddə olan Əbdüləziz xan hümayun ordunun gəlməsi xəbərini eşitdi. O, əmirlərin yaxınlaşmasını bilərək, orada dayana bilmədi, Herata tərəf qaçdı, atasına qoşuldu, dünya xosrovunun günəş kimi yandırıcı xüsusi qoşununun (rayat) gəlib-çatdığından xəbərdar olaraq, Herat yoluyla fərar etdi, Buxara yoluna üz tutdu, özbək sultanlarının da hər biri öz yerinə qayıtdılar [Beləliklə] şah çətirinin zərnigar günəşi Herat darüssəltənəsinin üfüqündə göründü. Doqquz yüz otuz doqquzuncu ilin cəmadüs-sani ayının iyirmi ikisində (miladi 1533, 19 yanvar) şah "Bağşəhr"də enib cahanbanlıq taxtına əyləşdi. O diyardan pərakəndə olmuş əyan-əşraf hümayun iqbalın kölgəsinə sığınaraq ülfət gördülər. Məzlumların mallarını əllərindən alan Qazi xan cəzalandırıldı, fəqir və zəif adamlara dövlət xəzinəsindən pul paylandı. Şah həmin ili Heratda qışladı və bir müddət sonra Mavərənnəhrə gedib, Übeyd xanın və özbəklərin cəzalandırılmasından ötrü şəhərdən çıxdı, Ələngneşin [şəhəri] ədalət və din xosrovunun ordugahına çevrildi.

Mavərənnəhrə yürüş xəbəri Xorasana yayıldı. Hüseyn xanı və Müntəşa Sultanı bəzi əmirlərlə Gorcestanı tutmağa göndərdilər və onlar həmin vilayəti alıb geriyə döndülər. Məşhur əmirlər

Mavərənnəhrə yürüş hazırlığını bitirməkdən ötrü topxana və yaraq-yasaq hazırlığına başladılar ki, orduya Azərbaycandan və İraqdan Rum ləşkərinin yürüşü və Sultan Süleymanın həmin yerlərə gəlişi barədə qorxulu xəbərlər yetişdi. [Buna görə də] Mavərənnəhr səfəri təxirə salındı və hümayun ordu İraqa tərəf döndü. Təkəlilərdə qüdrət və qaladarlıq qalmadığından, rəiyyət və aciz adamlar Qazi xanın və onun adamlarının kobud rəftarından şəkk və qorxuya düşmüşdülər.

Şah Herat darüssəltənəsinin hakimliyini kamlı şahzadə Sam Mirzəyə verdi, Ağzıvar xan Şamlını onun lələsi, atalığı və Xorasan əmirülüməmərası vəzifəsinə qoyub, yürüş cilovunu İraq istiqamətinə döndərdi və tez-tələsik yola rəvan oldu. Allahın izni ilə[134]!

XORASANIN VƏZİYYƏTİ, ÜBEYD XANIN ALTINCI DƏFƏ SƏADƏT NİŞANLI O DİYARA GƏLİŞİ, HÜMAYUN MƏİYYƏTİN ONUN ÜZƏRİNƏ YÜRÜŞÜ, ÜBEYD XAN ƏHVALATININ SONU VƏ RƏNGİNİ TEZ-TEZ DƏYİŞƏN (BUQƏLƏMUN) FƏLƏYİN İRADƏSİYLƏ BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏRİN ZİKRİ

Xəbərlər məclisinin (əncumən) söz söyləyənləri və müşahidəçi rəvayət danışanlar belə buyurdular: Cəm məqamlı cənnətməkan şahın geriyə qayıtmasından sonra Şam Mirzə və Ağzıvar xan bir neçə vaxt Heratda qaldılar və Xorasan mülkünün işlərinin tənzimlənməsi, habelə aciz və müti adamlar arasında düşmüş qarışıqlığın (extelal) aradan qaldırılması ilə məşğul oldular. Übeyd xan isə Buxarada ayağını şöhrətsizlik (xəmül) ətəyinə bürüyüb, Xorasandakı vəziyyəti öyrənməyə başladı. Hüseyn xanın öldürülməyi və şamlı tayfası arasındakı çaxnaşma xəbəri gəlib Herata çatdıqda [bu hadisələr] Şam Mirzəni və Ağzuvar xanı vahiməyə saldı. Onlar bir dəstə fitnəkar adamın təhrikinə baş qoşaraq, baş tutmaz müxalifət və itaətsizlik xəyalına düşüb əllərini varlı adamların varlarına uzatdılar, əzab vermək və işgəncə etməklə müsəlmanlardan xeyli pul yığdılar, Qəndəhan tutmaq istəyi ilə o istiqamətə doğru hərəkət etdilər. Fərahda Murad Sultan Əfşarı özlərinə birləşdirib, Qəndəharın kənarına gəlib-çatdılar, qalanı mühasirəyə aldılar. Hümayın padşahın* qardaşı Mirzə Kamran tərəfindən Qəndəhar hakimi olan Xacə Kəlan Cığatay

[134] İfadənin ərəbcəsi: "Bi iznillahi!"

özünümüdafiəyə və qaladarlığa başladı, onların arasında həngamə, döyüş, mərəkə, hərb və qətl bir neçə ay davam etdi, qala xaricində onların arzu əlləri içəridəkilərin məqsud ətəyinə çatmadı. Mirzə Kamran Lahurda iyirmi min nəfər döyüşçü toplayaraq Qəndəhara-mühasirədə olanların köməyinə gəldi. Sam Mirzə və Ağzıvar xan Mirzə Kamranın yaxınlaşdığını görüb, qala ayağından bir-iki mənzil geriyə çəkildilər. Mirzə Kamrana məlum oldu ki, ali nəsəbli şahzadə şahdan icazəsiz Qəndəhar qalasının fəthinə gəlmişdir. Buna gönə də, onlarla hərb etmək fikrinə düşərək, hərb meydanına yollandı. Sam Mirzə və Ağzıvar xan yanlarındakı iki-üç min adamla Mirzə Kamranın önündə döyüş səfi bəzədilər və onların arasında qızğın döyüş başlandı. Qızılbaşlar igidlik və mərdanəliklə cığatay qoşununun bərəngar və cəvangarını (şağ və sol qol) tarmar etdilər. Vuruş əsnasında Ağzıvar xanın atının ayağı bir çökəyə düşdü, atı kəlləsi üstə yıxıldı və Ağzıvar xan da yerə sərildi. Cığatay qoşunundan bir şəxs vaxtlı-vaxtında özünü ona yetirərək tutdu, onun Ağzıvar olduğunu bilən kimi dərhal qətlə yetirdilər. Cığatay ləşkəri ürəkləndi, qızılbaşlarsa əldən düşdülər. Buna görə də Sam Mirzə hərbdən çəkilib Gərmsirə tərəf gəldi, etdiyi əməldən peşman olub, orada onu Cəm məqamlı şaha qarşı müxalif olmağa təhrik etmiş bir neçə fitnəkar adamı qətl etdi, başlarını cahanpənah dərgaha yollayaraq, etdiyi günahın əfvini şahdan xahiş etdi.

Sam Mirzə qoşununun pozulması (extelal) və Ağzıvar xanın qətli Buxarada Übeyd xana çatan kimi, əvvəlcə, Seyyidəm Mirzəni bəzi özbək əmirləri və beş-altı min döyüşçü ilə Xorasana hücuma göndərdi. Seyyidəm Mirzə dörd-beş yüz döyüşçü ilə Cam, başqa döyüşçülərsə özbək sərdarları ilə Xaf istiqamətinə yollandılar. Müqəddəs Məşhədin hakimi Sufyan Xəlifə Rumlu ağır qoşunla Seyyidəm Mirzənin dəfinə getdi və Camda iki dəstə arasında güclü döyüş oldu. Özbəklər məğlub edildilər. Sufyan Xəlifə onların məğlubiyyəti və fərarından sonra Xafa gələn özbəklərin üzərinə hücuma keçdi, onları da məğlubiyyətə uğratdı.

[Beləliklə] çoxlu özbək qətlə yetirildi. Kəskən Qara Sultan ibn Canı bəy Sultan tərəfindən Gorcestanda hakim olan Bayram Oğlan yürüşlə Herata gəldi. Sam Mirzə və Ağzıvar xan tərəfindən Heratın müdafiəsi üçün şəhərdə saxlanılan həştad yaşlı Xəlifə Sultan Şamlı şəhər sakinlərini və ətrafa səpələnmiş döyüşçüləri başına yığaraq özbəklərin qarşısına cumdu.

Xəlifə Sultan Şamlınun öldürülməsi:

Onlar on fərsəxə qədər yol getdikdən sonra gəlib özbəklərə çatdılar və aralarında döyüş başlandı. Əksəriyyəti taciklərdən (tazik) və hərcayı adamlardan ibarət olan və sərdarla da bir o qədər də hesablaşmayan Herat ləşkəri heç bir iş edə bilməyib məğlub oldu. Təhlükəli vaxtda sağ-salamat aradan çıxmaq imkanı olmayan Xəlifə Sultanı qətlə yetirdilər. Qalan adamlarsa qaçmağı qənimət bilərək, şəhərə gəldilər. Bol qənimət ələ keçirən Bayram Oğlan oradan geri qayıtdı. Heratda qalan qızılbaşlar, şəhər sahibsiz qaldığı üçün, çöldəki adamların məsləhəti ilə özbəklərin qorxusundan müqəddəs Məşhədə adam göndərib, Sufyan Xəlifəni Herata çağırdılar. Xəlifə oğlunu müqəddəs Məşhəddə qoyaraq, özü Herata gəldi. Sufyan Xəlifə şücaətli, igid, mərdanə və bu müqəddəs sülalənin xalis sufisi idi. Amma təbiətində cünunluq vardı və onun xasiyyətində divanələrə xas bir çox xüsusiyyətlər görünürdü. Bəzi ağıllı adamlar onu əbləh kimi tanıyırdılar. O, Heratda bir dəstə şərəşur adamın sözləriylə əhalinin üzünə cövr və zülm qapılarını açdı, kömək (estesfa) və xahiş qapılarını isə bağladı. Azacıq varlı olan hər bir şəhərli, yaxud ətraf yerlərin təbəəsi onun müsadirə və cəzasına giriftar oldular. Cünunluğunun çoxluğundan hiyləgərcəsinə və əbləhliklə söyləyirdi: "Dünən on iki imam əleyhüssəlam həzrətləri mənə dedilər ki, filan şəxsdən bir məbləğ pul al, qazilərə ver və düşmənlərimizi dəf et. İmam hökmünə əməl etməkdən başqa çarə yoxdur". Onu şəhərə hakim vəzifəsinə gətirmiş dostlarına isə hökm edərək, məclisdə ağlaya-ağlaya belə söyləyirdi: "Hərçənd ki, həzrət imamlardan filan şəxsin mənim dostum olduğu üçün ondan pul alınmamasını xahiş etdim, razılaşmayıb dedilər ki, imamların sözləri birdir və dəyişilməzdir".

Übeyd xanın müqəddəs Məşhədi mühasirə etməsi:

Xülasə, o belə hiyləgərlik və cünunluqla xeyli qızıl (zər) yığdı. Camaat onun zülmündən cana doymuşdu. Bu əsnada Übeyd xan çoxlu döyüşçü ilə Amu çayından keçərək doqquz yüz qırx ikinci ildə (miladi 1535/36) müqəddəs Məşhədin yaxınlığına çatdı, o şərafətli şəhərin mühasirəsinə başladı. Sufyan Xəlifənin adamları Məşhəd əhalisi ilə şəhərin bürc və barılarını möhkəmlədib, mərdanəliklə qorunurdular. Özbəklərin qalanı tutmaqdan ötrü

etdikləri böyük səylərə baxmayaraq, bunun nəticəsi az oldu və onlar şəhərə girə bilmədilər. Məşhədin mühasirəsindən agah olan Sufyan Xəlifə öz adamlarına belə yazdı: "Mərd olun, tezliklə çataraq, Übeyd xanı tutacağam, onun dərisini soyub, içinə saman doldurараq, şaha göndərəcəyəm".

Xülasə, tamahkarlıqda (tamee) özündən üstün olan Xızır Çələbi adlı vəkilini Heratda qoyub, adamlarına bacardıqca çoxlu pul yığmaları əmrini verdi və üç min adamla divanəcəsinə (divanəvar) özbək padşahı ilə cəng etməkdən ötrü müqəddəs Məşhədə rəvan oldu. Yolda ikən onun gözünə bir saman topası dəydi. Elə özü oraya gedib, bir çuvalı samanla doldurdu, "Übeyd xanın dərisinə doldurmaq üçün lazımdır" deyib, özü ilə götürdü. Məşhəd yaxınlığında isə özbəklər tapdağından saman qalmamışdı. Xəlifənin gəlişindən agah olan Übeyd xan təfəkkür bəhrinə girdi, çünki ona ar gəlirdi ki, belə əzəmətli padşah ikən, o, şah əmirlərinin biri ilə qarşı-qarşıya dayanıb döyüşəcəkdir. Ona belə söylədilər: "Döyüş vaxtı xəlifəyə dəlilik üz verir və o, qarşısındakı ləşkərin çoxluğu barədə heç fikirləşmir də. Belə ki, o, özünü dəfələrlə az saylı qızılbaşlarla çoxlu özbək dəstəsinə çatdırmış, qalib gəlmiş, özbəklərlə cəng etməkdə igidlik göstərmişdir. Məbadə yenə belə olsun".

Özbək əmirlərinin heç biri xansız onunla döyüşə girmək istəmirdi. Übeyd xan zərurət üzündən hərbə hazırlaşıb bir dəstə adamı qarovul kimi irəli göndərdi, oğlu Əbdüləziz Sultanı, Xarəzm valisi Əli Sultanı, habelə Ulus Sultanı və Sevincək Məhəmməd Sultanı qoşuna münqəlay edib, özü də onların ardınca hərəkətə başladı.

Sufyan Xəlifənin öldürülməsi:

Sufyan Xəlifə özbəklərin ön dəstəsinin hücumuna düçar oldu və döyüşərək qələbə çaldı, özbək dəstəsinin sərdarı isə qazilər tərəfindən tutuldu. O, Sufyan Xəlifəyə dedi: "Sən hansı ağılla üç min nəfər ilə ən azı otuz min adamı olan özbək padşahının müqabilinə gedirsən. Yaxşısı budur: Sən indi geri qayıt və özünü Herat qalasına çatdır". Xəlifə qürurunun çoxluğundan, istəyinin böyüklüyündən və divanəliyi üzündən hərb etməyi məsləhət bildi, həmin gecə döyüşə hazırlaşdı. Sübh, özbəklərin münqəlayı göründükdə Sufyan Xəlifə də döyüş səfini bəzədi. Tərəflər əllərini cəng alətlərinə uzatdılar. Həqiqətən də qızılbaşlar özlərini o ləşkər

dəryasının içərisinə ataraq elə vuruşdular ki, fələkdən bu cəngə nəzər yetirənlər bu adamlara təəccüb və heyrət gözləri ilə baxırdılar. Übeyd qələbənin qızılbaş qoşunu tərəfindən ola biləcəyi qorxusundan özü ləşkərin qəlb hissəsi ilə hərəkətə başladı, ağır dəstəsi ilə özünü qızılbaş səfinə vurdu. Qazilər bacardıqları qədər və qüvvələri çatınca özbək bahadırların hücumlarını dəf edirdilər, nəhayət müqavimət göstərməkdən aciz qalaraq fərar yoluna düşdülər. Sufyan Xəlifə təzə bir divanəliyə başlayıb özünü yanındakı bir neçə nəfər qazi ilə döyüş meydanının yaxınlığında olan xaraba bir qalaya (hisar) saldı, silah-sürsatsız halda mühasirəyə düşdü. Übeyd xan isə gəlib qala ayağında dayandı.

Qazilər otuz beş gün at əti ilə birtəhər dolanaraq özbəklərə müqavimət göstərdilər. Özbəklər isə şeybələrini[135] qabağa çəkib, torpaq dolu çuvalları üst-üstə yığdılar və nəhayət o qalanı tutdular, Sufyan Xəlifəni tutub qətlə yetirdilər. "Əhsənüt-təvarix" müəllifi yazır: "Xorasanda hakimiyyətdə olduğu az vaxt müddətində Süfyan Xəlifə dörd min yeddi yüz nəfər özbəyi qətlə yetirmişdi".

Xülasə, bu xəbər Herata çatdıqda Xəlifənin vəkili Xızr Çələbi qızılbaşlarla birlikdə şəhərdəydilər. Onlar şəhərin və ətraf yerlərin adamlarını qaladarlıq silahları hazırlığına başlamağa çağırdılar. Bu tapşırıqla şəhər ətrafındakı yerlərin sakinləri razılaşmadılar. Onlar Xızr Çələbi və adamlarının zülmündən cana doyduqları üçün şəhərlilərlə ixtilafa başladılar, Übeyd xanı şəhərə dəvət etmək üçün məxfi surətdə (48) onun yanını adam yolladılar. Xan şəhər xaricinə çataraq, mühasirə işinə başladı. Qazilər və şəhər sakinləri olduqca nizam-intizamsız halda əlli günədək Übeyd xana müqavimət göstərib şəhəri qorudular. Axırda şəhər əyanlarından biri Übeyd xanın yalan vədlərinə inadıb, bir gecə özünün qoruduğu bürcdən üç yüz özbəyi yuxarı çəkdi və özbəklər şəhərə tökülüşdülər. Çoxlu döyüşdən və səylərdən sonra qazilər məğlub olaraq, İxtiyarəddin qalasına qaçdılar, özbəklərsə o fəxarətli şəhəri ələ keçirdilər. Əhali arasına bəla tufanı düşdü və özbəklər müsəlmanların mallarına əl uzadaraq, onların xəzinə və dəfinələrini işgəncə və zorla əllərindən aldılar. Übeyd xan qalaya adam göndərib

[135] Qeyd: Seybə - Döyüşçülərin mühasirəyə aldıqları qalanı tutmaqdan ötrü qala istiqamətinə qazdıqları dərin xandaq. Onlar xandaqdan çıxan torpağı, özlərinin qarşı tərəfdən atılan oxa, ya qülləyə tuş olmamalarından ötrü, çuvallara doldurur və xandaq qalaya çatanadək çuvalları irəli aprırdılar - Ş.F.

onlarla belə şərtləşdi: "Əgər Xızr Çələbi Sufyan Xəlifənin varlı və yoxsul adamlardan (xacəgan) yığdığı var-dövləti gətirib təhvil verərsə, o və yoldaşları qətl-qarətdən uzaq olacaqlar". Əhd-peymandan sonra qazilər qaladan çıxdılar. Özbəklərsə onları lüt-üryan edərək Buxaraya rəvan etdilər, amma elə yoldaca qətlə yetirdilər. Übeyd xan özbəklərə bundan sonra qətl və qarəti qadağan etdi və məmləkətdarlıq işlərinə başladı. O, on dörd ay Herat darüssəltənəsində hakimiyyət taxtında əyləşərək kam almaqdaydı, lakin hər gün bir neçə günahsız adamı rəfz və şiəlikdə ittiham edib iki nəfər cahil və nadan adamın şahidliyi ilə şəhərin dörd yol ayrıcında (çəharsovq) qətlə yetirirdi.

Şah Təhmasibin Übeyd xanı dəf etmək üçün Xorasana gəlişi:

O zalım adamm zülmü günbəgün artır, qəlbisınıq adamların ah-nalələri və haqsız öldürülənlərin varislərinin fəryadı göyə ucalırdı. Bu xəbərlər nəhayət Azərbaycanda Cəm məqamlı şaha gedib-çatdı və o, özbəklərin dəf edilməsi qərarına gəldi. Doqquz yüz qırx üçüncü ildə (miladi 1536) adlı-sanlı əmirlər və şüarları zəfər olan əskərlərlə yola düşdü, [qızılbaşlar] köç-köç rəvan oldular. Bu elə bir vaxt idi ki, Übeyd xan o vaxtadək qızılbaşların əlində olan müqəddəs Məşhədi almaqdan ötrü Heratdan çıxmış və məqsəd istiqamətinə yollanmışdı.

Übeyd xanın Heratdan fərar etməsi:

Şah ordusunun gəlişi xəbəri həmin diyarda eşidilməyə başlayanda, Übeyd xan Baxərzdə idi, eşitdi ki, həzrət şah artıq Nisa və Əbivərdə gəlib çatmış və tezliklə onun hümayun qəməri Herat darüssəltənəsinin üfüqündə parlayacaqdır.

Übeyd xan elə həmin gün Baxərzdən Herata qayıtdı, həmrahı olan böyüklü-kiçikli bütün çingiziyyə sultanlarını bir yerə topladı, kənqaş məclisi çağırdı, getmək ya qalmaq barədə onlarla məsləhətləşdi, belə dedi: "Qızılbaşlar bu qış fəslində səfər məşəqqətinə dözə-dözə uzaq yoldan gəlmişlər və bərk əziyyət çəkmişlər. Biz say etibarilə onlardan çox və üstünük. Əgər döyüşsək, etimal ki, bu dəfə onlara qalib gələ bilərik". Özbək sultanlarının və böyük adamlarının hamısı birlikdə dedilər ki, bizim həzrət şahla hərb etmək taqətimiz yoxdur. Bu haqda Übeyd xanın

çox danışmağına baxmayaraq irəli sürdüyü təklif keçmədi, zərurət üzündən qışın ortasında, günəşin dəlv bürcündə* olduğu vaxt giryan və nalan halda Pole-Malan ilə vidalaşdı, Bəlx yoluyla Buxaraya yollandı, dünya xosrovunun günəş şüalarının kölgəsi isə Herat sakinlərinin üzərinə düşdü. Şah gələrək, əzəmət və cah-cəlalla o irəm (cənnət - Ş.F.) timsallı şəhərdə dayandı. Ölkənin məlal və çarəsizliyə qərq olmuş biçarə adamları onun ədalət və cahanbanlıq kölgəsi altında aram oldular, özbək hücumuna dözməkdən qurtuldular.

Şah Təhmasibin Qəndəharı tutmaqdan ötrü yürüşə başlaması

Sam Mirzə Təbəsə gedərək orada qalaya sığındığı üsün, Şahqulu Xəlifə Möhrdar Zülqədər ədalətli şəhriyarın fərmanına əməl edərək, bəzi əmirlərlə oraya getdi və onu tutub aləmpənah dərgaha gətirdi. Sam Mirzə şahın yanında öz xəcalət başını aşağı dikib gözlərindən peşimanlıq yaşları yağdırmağa başladı. Həzrət Cəm məqamlı cənnətməkan şah onun taxsırlarını padşahanə əfv etdisə də, bəzi mülazimlər, fitnə küləyi və fəsad sahibi olduğu üçün, onu qətl etdilər, Xorasan hakimliyi cavanbəxt şahzadə Sultan Məhəmməd Mirzəyə verildi, Məhəmmədxan Şərəfəddinoğlu Təkəli onun lələsi və əmirül ümərası oldu.

Qış fəsli sona çatdığı üçün ürəkaçan bahar öz təravəti və yaşıllığı ilə cilvələndi. Şam Mirzənin, xilaf səhrasına düşərək, özbaşına Qəndəhara gedib bir iş görə bilmədiyinə baxmayaraq, qardaşına görə o həzrətin üzündə qeyrət (həmiyyət) təri görünməyə başladı. [Şah] qızılbaşlarla cəngdə qorxmazlıq nümayiş etdirmiş cığatay əskərlərinə qarşı intiqam məqamında dayandı, Qəndəhara və Zəmindəvarə yürüşə keçdi, Hirmənd* çayı kənarında Əmir Sultan Rumlunu çoxlu əskərlə irəli göndərdi. Qəndəhar hakimi Xacə Kəlan hümayun şəhriyarın hücumundan xəbərdar olduqda, onun səbat kökü əsməyə başladı, öz qohumlarından olan Gənci Xacə adlı bir adamı qalada saxladı və özü Sində tərəf getdi. Başı fələyə ucalan hümayun şah çətirinin günəşi Qəndəhar diyarının üfüqündə göründükdə, Gənci Xacə şahənşahın hücum qorxusundan (nəhib) itaət və tabeçilikdən başqa çarə tapmayıb, cahanpənah dərgaha gəldi və şəhərlə qalanın açarlarını şah sarayının xidmətçilərinə təhvil verdi. Həzrət şah o vilayətin idarə olunmasını Budaq xan Qaraca tapşıraraq, yürüş cilovunu zəfərlə Herat səmtinə döndərdi.

Özbək padşahı Übeyd xanın vəfatı:

O həzrətin Qəndəhar yürüşündən qayıtması xəbəri Buxaraya çatdıqda, Übeyd xan və özbək sultanları bərk qorxuya düşdülər, özlərinin dilli-dilavər elçilərini töhfə və hədiyyələrlə Bəlx, Səmərqənd və Buxaradan uca məkanlı xosrovun dərgahına yolladılar, ona Qəndəharın fəthi münasibətilə öz təbriklərini (təhniyət) göndərdilər.

O həzrət bir neçə gün ehtiyacı olan adamların mətləb və istəklərini həll etməklə məşğul oldu, o vilayətin zəruri işlərini məğlubedilməz dövlətin məsləhətinə uyğun tənzimlədi və doqquz yüz qırx dördüncü ildə (miladi 1537/38) "İlahini (malikül-mülk) hidayəti ilə" İraqa tərəf rəvan oldu. Məhəmməd xan Şərəfəddinoğlu [isə] məşhur şahzadənin (Məhəmməd Mirzənin - Ş.F.) xidmətində dururaraq, Xorasanın məhzun və qəlbisınıq adamlarının işləriylə tanış oldu, rəiyyətin vəziyyətinin yaxşılaşmasına çalışdı. Übeyd xan bu hadisədən sonra ayağını ədəb ətəyinə qoyub, bir daha faydasız yürüşlərə çıxmadı, ondan bir-iki il heç bir hərəkət görünmədi. Doqquz yüz qırx altıncı ildə (miladi 1539/40) məzlum və dərdli adamların etdikləri ahların təsirindən xəstəlik yatağına düşdü və ağır (səb) xəstəliyə düçar oldu, Herat arzusu və Pole-Malanın seyrinə getmək diləyi ilə can verib üqba aləminə yollandı, Xorasan əhalisi o imansız adamın cövr və tüğyanından xilas oldu. Bu səhifədə Xorasan hadisələrindən bir neçəsi yazıldığından, Xorasanda baş vermiş başqa əhvalatlardan danışılmadı. İndisə, Azərbaycan sərhədindəki qəribə hadisələrdən, Rum sultanının o yerlərə qoşun çəkməyindən yazmaqla Xorasan əhvalatlarının şərhini tamalayaq.

RUM XANDGARI SULTAN SÜLEYMANIN ƏCƏM DİYARINA LƏŞKƏR ÇƏKMƏYİ VƏ ONUN XOSROV VƏ CƏM TAXTINI BƏZƏYƏN [ŞAH İLƏ] HƏRBİNİN ZİKRİ

Yuxarıda deyildi ki, Cəm qədrli hümayun şah Sultan Süleyman padşah öz hakimiyyəti zamanı alçaq fitnə-fəsadlı adamların təhriki ilə dörd dəfə əcəm diyarına (Azərbaycana - Ş.F.) ləşkər çəkərək Cəm məqamlı cənnətməkan şahla döyüşə başladı. Birinci yürüş Əllamə Təkəlinin təhriki ilə baş verdi. Bu hadisənin icmalı belədir: Əllamə Təkəli Süleyman şanlı xaqanın dövründə yasovullar silkinə mənsub idi. Tədricən nökərlik (hərbi xidmət

nəzərdə tutulur - Ş.F.) mərtəbələrini keçdi və qoşunundakı yaxşı xidmətlərinə görə əmirlik (əmarət) rütbəsinə yüksəldi, Cuhə Sultanın iqtidarı dövründə Azərbaycanın əmirülmərası oldu. Cuhə Sultanın öldürülməsindən sonra təkəbbür (nəxvət) və qürur onun beynini dumanlandırdı və Cuhə Sultanının yerinə qüdrət sahibli vəkil və dövlət işlərinin nizamlayıcısı olmaq fikrinə düşdü. Məqsədi yerinə yetmədiyindən, yuxarıda yazıldığı kimi, bu xanədanın təlim-tərbiyəsini unudub bu əbədi dövlətdən üz döndərdi və Rum [ölkəsinə] getdi, orada fitnəkarlığa qurşanaraq xandgarı əcəm vilayətinə yürüş etməyə qızışdırdı. Xandgar məsələnin başlanğıcında Fil paşanı əlli min döyüşçü ilə bu diyara yolladı. Təblis hakimi (Bidlis olmalıdır) Şərəfxan Ruzəki Kürd bu səadətli dudmanın təbəələrindəndi. Fil paşa əvvəlcə onun üzərinə hücuma keçdi, onu həmin vilayətdən çıxardı və Van bölgəsinə ləşkər çəkmək istədi. Cənnətməkan şah bir neçə qəhrli qoşunla onun üstünə yürüdü. Fələk həşəmətli şəhriyarın qorxusundan Fil paşa müqavimət göstərə bilmədi, toplarını ataraq qaçdı. Onun fərar etməsindən sonra zəfər ayəli ordu Übeyd xan Özbəkin fitnəsini dəf etməkdən ötrü Xorasana tərəf hərəkət etdi, Herat darüssəltənəsindən Mavərənnəhrə yollandı. [O vaxtlarda] Əllamə xandgarın yanına ardıcıl olaraq elçilər yollayıb, ona belə ərz etdi: "Qızılbaşların padşahı Xorasandan Mavərənnəhrə ləşkər çəkmişdir, orada özbək döyüşçüləri ilə savaşmaqda, moğol və tatarlarla döyüşməkdədir. [Buna görə də,] Azərbaycan və İraq boşalmışdır". Sultan Süleyman onun sözlərinə əməl edərək, saysız-hesabsız ləşkərlərlə İstanbuldan Azərbaycana hücuma keçdi. Baş vəzir İbrahim paşanı həştad min döyüşçü ilə münqəlay edərək, özü onların arxasınca hərəkətə başladı. İbrahim paşa Əllaməyə qoşulub, onu Ərdəbilə, başqa paşaları isə Azərbaycanın başqa şəhərlərinə yolladı. Onlar əksər yerləri tutdular.

Bu xəbər Ələngneşində o Keyxosrov (əzəmətli) şəhriyara çatdıqda Mavərənnəhrə yürüşünü dayandırıb, Xorasandan İraqa yollandı, iyirmi bir köç məsafəni arxada qoyaraq, Reyin Kəbudgünbəd adlı yerinə gəlib çatdı. Hümayun şah ordusunun [Mavərənnəhr yürüşündən] geri qayıtması xəbəri İbrahim paşaya çatdıqda ləşkərin çoxluğuna və döyüşçülərin bolluğuna baxmayaraq, lərzəyə düşdü və Sultan Süleymana yazdı: "Qızılbaş padşahı Xorasandan iyirmi bir köç məsafəni qət edərək Reyə gəlmişdir, [hal-hazırda] mənim üzərimə hücum etməkdədir. Biz nökərlərin isə padşahlar əzəmətinə (şokuh) tab etmək gücümüz yoxdur".

Beyt

Özün gəlməlisən şəhriyar kimi,
Özün olmalısan onun qənimi.[136]

Sultan Süleyman sürətlə Təbrizə çataraq, İbrahim paşaya birləşdi.

Uzun yol keçdikləri üçün qazilərin atlarının əksəriyyəti işdən düşmüşdü. Xorasan yasaqından* [təzəcə] qayıtdıqlarından ləşkərdə nizam-intizamsızlıq vardı. Buna görə də qazilər Azərbaycan yasağını təşkil etmək və rumilərlə hərbə hazırlaşmaqdan ötrü öz yerlərinə qayıtmışdılar, belə ki, Qəzvində hümayun orduda yeddi min nəfərdən artıq əskər yox idi. Bəhram Mirzə və Əlqas Mirzəni Hüseyn Şamlı və bəzi əmirlərlə birilikdə münqəlay təyin etdilər və Təbriz tərəfə göndərdilər. Zəfər ayəli ordu isə onların ardınca gedərək Əbhərə çatdı. [Bu vaxt] xandgarın Təbrizdən İraqa yollanması xəbəri gəldi. Qızılüzən çayının bu tərəfində Bəhram Mirzə və qızılbaş əskəri ilə rum ləşkərinin münqəlayı olan İbrahim paşa arasında döyüş oldu. Bəhram Mirzə və əmirlər döyüşə-döyüşə özlərini dağa çatdırdılar, amma saysız-hesabsız rumlu ləşkəri hücumla dəstə-dəstə gəlməkdəydi. Bu xəbəri eşidən müzəffər əskərlərin canına bərk qorxu düşdü, [əlbəttə] sadiq adamlar öz iqballarının gücü ilə bu dövlətin zavalsız olduğuna inanırdılar, nifaq əhli isə artıq başqa cür düşünürdü.

Bu əsnada Kuh-Giluyə hakimi Əlvəndxan Əfşar döyüşkən qoşunla çataraq səf bəzədi və şahın yanına gəldi, hər tərəfdən də qoşun dəstələri gələrək hümayun orduya qoşuldu. Cənnətməkan şah Bəhram Mirzə və əmirlərin köməyinə getmək istəyirdi ki, Sultan Süleymanın saysız-hesabsız əskərlə Miyanədən keçərək, Sultaniyyəyə yetişməsi xəbəri gəlib çatdı. Bəhram Mirzə və əmirlər də geri qayıtdılar və hümayun orduya birləşdilər. Bu vaxt şahın yanında boya-başa çatmış və oğulluq mərtəbəsinə yüksəlmiş Əlaüddövlə Zülqədərin oğlu Kor Şahruxun oğlu Məhəmməd xan Zülqədər özünün batinindəki inadını zahirə çıxarıb, atasının

[136] Beytin farscası:
Məgər həm to ayi benavərde-u,
Bemeydan to başi həmavərde-u.

qızılbaşlarla olan əhvalatını xatırladı, Burun Sultan Təkəli və başqa adamlarla şahdan döndü, gedib müxaliflərə qoşuldu. Cənnətməkan şah elə onsuz da bir dəstə nifaq əhli olan Hüseyn xan Şamlı, Qazi xan Təkəli və Məlik bəy Cüveyni kimi bəd əməlli əmirlərin hərəkətlərini müşahidə etməkdə və onlara qarşı etimadsızlıq göstərməkdəydi. Buna görə də canlarından keçən mübarizələri toplamaqdan ötrü bir neçə gün döyüşü yubatmaq qərarına gəldi, "göylərin və yerin qoşunları Allahındır"[137] kimi kəramətli sirr zahir oldu və birdən-birə sanki qeybdən zahir olan döyüşçülər rum qoşununun dəfinə başladılar. Əqrəb bürcünün* on üçündə Sultaniyyəyə qalın qar yağdı. Elə qar ki, Kamal İsmayıl belə demişdi:

Beyt:

Pambıq içində gizli qalan pənbədanətək[138]
Qaldı qarın altında yenə dağ cismləri.[139]

Sultaniyyədə rumi ləşkərinin çadırları qar altında qaldı və rumi döyüşçülərdən çoxlu adam qarın içərisində görünməz oldu, şaxtadan dondular. Bir şair həmin hadisə haqqında belə demişdir:

Beytlər:

Sultaniyə səmtinə səfər eylərikən
Gördüm iki min cəsəd, nə gor var, nə kəfən.
Sordum ki, "Kim öldürüb bu osmanlıları?"
Dilləndi səhər yeli, cavab verdi ki, "Mən!"[140]

---

[137] İfadənin ərəbcəsi: "...və lillahi cünudu-s-səmavati və-l-ardi".
[138] Pənbədanə - pambıq toxumu, çəyirdəyi - Ş.F.
[139] Beytin farcası:
Manənde-ponbedane ke dər pənbe təbiyəst
Əcrame-kuhhast nehan dər miyane-bərf.
[140] Beytlərin farscası:
Rəftəm ço be Sultaniye-an torfe çəmən,
Didəm do hezar morde bi gur-o kəfən.
Goftəm "Ke bekoşt inhəme osmani-ra?
Bade-səhər əz miyane bərxast ke: "Mən!".

[Daha] İraqda qalmağa Sultan Süleymanın imkanı olmadı. Azuqə qıtlığından Azərbaycan yolu ilə geri qayıtmaq mümkün olmadığı üçün, abadan yer olan Şəhrizura getdi ki, bu qışı Mosul yaxınlığında qışlasın. O, Əllaməni Zülqədərlə Təbrizə yolladı, cənnətməkan şah da onlara hücum etdi. Qazi xan Təkəli duz-çörəyi unudub hümayun ordudan qaçdı, Təbrizə getdi, Əllaməni və onun yoldaşlarını şəhriyarın hücumundan xəbərdar etdi, [nəticədə] onlar Vana qaçdılar, həmin qalaya sığındılar.

Sam Mirzə ilə dost olduğu üçün cənnətməkan şahın Hüseyn xan Şamlıdan xoşu gəlmirdi. O bu arada fərar etdi və şah tərəfindən qətlə yetdi. Şah [sonra] Van qalasına hücuma keçdi və onları (Əllaməni və yoldaşlarını - Ş.F) qalada mühasirəyə aldı, həmin qışı qala ayağında dayandı.

Sultan Süleyman Mosula rəvan olan vaxt İbrahim paşa Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlunun və təkəli əmirlərinin yanına bir adam yolladı, onların xandgara tabe olmalarını və Bağdad qalasını təhvil vermələrini məsləhət gördü. Məhəmməd xan onun məsləhətinə əməl etmədi. Amma, böyüklər və ağsaqqallar Cuhə Sultanın qətli və təkəli əmirləri olan Əllamənin və Qazi xanın fərarı səbəbindən, həmçinin cənnətməkan şahdan qorxduqları üçün, xandgara itaət etməyi özlərinə məsləhət bildilər, qalanın açarını xandgara göndərib onu qalaya dəvət etdilər. Xandgar Mosul qışlağından qayıdıb Bağdada yollandı. Sufi və dövlətxah adam olan Məhəmməd xan Şərəfəddinoğlu şahın əmrinə əsasən şəhər və qaladan əl üzüb, çay üzərindəki körpünü (cəsr) kəsdi, "şahısevən" olan özünün təxminən üç yüz nəfər qohum-əqrabası ilə Bəsrə yoluyla Düzfula gəldi, oradan da Şiraza gəlib-yetişdilər. Başqa təkəlilər isə Sultan Süleymanı istiqbal edib Bağdada gətirdilər. Sultan həmin qışı Bağdadda qışladı.

SULTAN SÜLEYMANIN AZƏRBAYCANA İKİNCİ GƏLİŞİ

Doqquz yüz qırx birinci il (miladi 1535) olan sonrakı ildə Sultan Süleyman ikinci dəfə Bağdaddan əcəm diyarına ləşkər çəkdi, İraq mülkünə qədəm basdı, Dərcinədək gəlib çıxdı. Buna görə də, cənnətməkan şah Van qalası ayağından ayağını çəkib Təbrizə yollandı. Orada mötəbər əmirlər silkindən olan və sonralar nifaq əhlinə çevrilən Məlik bəy Cuveyni qətlə yetirildi. [Şah] orardan

çıxaraq qəzəbli ləşkərini rumlu əskərlərin meydanına tərəf hərəkətə gətirdi.

Müzəffər ləşkərin çərxçiləri Dərczində xandgar ordusunun münqəlayına çataraq döyüşdülər və qalib gəldilər. Qızılbaşların qələbəsi, rumilərin isə məğlubiyyətindən agah olan Sültan Süleyman öz əmirlərini həyəcana düşmələrinə (aşofte) görə danlayıb dedi: "Siz hərgah çorxçi döyüşçüləri və qarovul tərəfindən məğlub olmuşsunuzsa, bəs qızılbaş padşahı ilə necə döyüşəcəksiniz?". O, kədərləndi, qızılbaşlarla qarşılaşmaqdan daşındı, Dərczindən çıxıb, qayıdış, bəlkə də məğlubiyyət cilovunu Ruma tərəf yönəltdi.

Rum sultanının geri çəkilməsi:

Şahın zəfər ayəli ordusu isə onun ardınca hərəkətə başladı. Van qalasına çatdıqları vaxt Bəhram Mirzəm və bəzi əmirləri rumilərin təqibinə göndərdilər, hümayun qoşun isə Van çəmənliyində dayandı. Van qalasındakı rumilərsə şahın əzəməti (şokuh) və qüvvəsi (setvət) qarşısında tab edə bilməyərək, orada qalmadılar və fərar etdilər. Bu əhvalatdan əvvəl rum xandgarı Diyarbəkr əmirülümərası Məhəmməd paşanı Əllamə, bəzi rum əmir və paşaları, habelə iki min nəfər yeniçəri ilə Van qalası əhalisinin köməyinə yollamışdı. Vəstana çatdıqları vaxt onların gəlmə xəbəri cənnətməkan şaha çatdı və şah bir neçə cəngavərlə birlikdə onlara hücum etdi. Rum qoşununun qaraltısı gözə göründüyü zaman qızılbaş ləşkərinin əksəriyyəti gecə yuxuda idi. Hücumun şiddətli vaxtı qalibiyyətli məiyyətdə iki mindən çox adam qalmamışdı.

Əllamə şah bayraqları arasında (Şah Təhmasibin - Ş.F.) parıltılı (foruq) "bükürük" adı ilə məşhur olan xüsusi bayrağını gördükdə tanıdı və Məhəmməd paşaya dedi: "Həzrət şahdır ki, özü şəxsən buraya təşrif gətirməkdədir. Cəngə girməyimiz məsləhət deyildir, çünki biz onun əzəmət və qüdrətinə tab edə bilmərik". Məhəmməd paşa [isə] öz ləşkərinin böyüklüyünə və qızılbaşların azlığına qürurlanıb, qoşun səfini bəzədi. Amma, rumilər Şiraz zülqədərlərindən olan Qazi xanın və bir dəstə müzəffər qorçinin birgə həmləsi ilə məğlub olub, geri çəkildilər, göz müşahidəsinə görə onların əksəriyyəti qətl olundu, xandgarın bir neçə mötəbər adamı əsir alındı, yerdə qalanları isə Ərciş qalasına tərəf getdilər və adam yollayıb xandgardan kömək istədilər.

Rum ləşkərinin məğlubiyyəti və Sinan paşanın öldürülməsi:

Xandgar Sinan paşanı əmir, paşa və sancaqbaşılardan ibarət böyük bi qoşunla onların köməyinə yolladı. Qızılbaş ləşkəri dilavərlərindən Budaq xan Qacar döyüşkən ləşkərlə onlarla qarşılaşdı və böyük qələbə əldə etdi, Sinan paşa o mərəkədə öldürüldü, rumilərin böyük bir dəstəsi qətl edildi, əsir götürüldü.

Sinan paşanın öldürülmə xəbəri Sultan Süleymana çatanda İbrahim paşanı rum ləşkərinin qalan hissəsilə oraya yolladı, İbrahim paşa da Ərciş üzərinə gedən Bəhram Mirzə və onunla həmrah olan əmirlərin üstünə böyük bir qoşun göndərdi. Hər iki tərəfin qarovulları arasında cəng oldu, nəticədə rumilər məğlub edildilər, İbrahim paşa isə bir daha qızılbaşlarla hərbə yollanmadı. O, Ərciş qalasındakı bütün camaatı özüylə götürüb xandgarın ordusuna yollandı. [Beləliklə] bu zavalsız dövlətin gücü ilə Ərciş qalası da ələ keçdi, oranın kutvallığı Əhməd Sultan Sufioğluya verildi.

ƏLQAS MİRZƏNİN TƏHRİKİ İLƏ RUM XANDGARI SULTAN SÜLEYMANIN ÜÇÜNCÜ DƏFƏ BU DİYARA HÜCUMUNUN ZİKRİ

Söz qoşunu meydanının sərkərdələri (sipəhdaran) bu hücum tarixini belə tərzdə (nəmət) bəzəmişlər: Əllamə Təkəli əcəm məmləkətinin ən gözəli (şahed) olan [Azərbaycanı] rum sultanının nəzərində elə [gözəl] bəzəmişdi (tərifləmişdi - Ş.F.) ki, sultan bircə gün də olsun bu arzudan yayına bilmir, bircə gecə də olsun onu ağuşa almaq xəyalından yuxuya gedə bilmirdi. Bu arzu [sultanı] nadan və haqtanımaz Əlqas Mirzəni ağlının gödəkliyi və ondan da artıq nadan olan bir neçə nəfərin təhrikiylə hücuma keçməyə yönəltdi. Belə ki, Əlqas Mirzə onu böyüdən və cahanın ən adil (dadar) adamlarından olan belə mehriban qardaşın (Şah Təhmasibin - Ş.F.) xidmətindən yayınıb Rum [diyarına] getdi. Sultan Süleyman onun vücudunu əcəm mülkünü fəth etmək yolunda qənimət və sərmayə bilərək, elə boş xəyala və yalan sözlərə uydu və cahil adamlar qoşununun başında durub, bu tərəfə yürüşə yollandı. Məsələ belə baş vermişdir:

Həzrət cənnətməkan şah Əlqas Mirzəni başqa qardaşlarından daha çox istəyir, ona onlardan daha artıq mehribanlıq göstərirdi. Belə ki, Şirvan vilayətinin fəthindən sonra o, Əlqas

Mirzəni başqa qardaşlarından üstün tutaraq, ona şirvanşah olmaq imtiyazı verdi, həmin vilayət hakimliyini və oranın mülkiyyətini ona tapşırdı. Əlqas Mirzənin şahanə məhəbbətlərə (əvatef) yetişməsinə başqa qardaşları həsəd aparırdılar. O nadan mirzə bəzi fitnəkarların təhrikiylə o həzrətin onu böyütmə haqqını unutdu və üsyanla əvəz etdi. Əlqas Şirvanda çoxlu qoşun-ləşkər, həmçinin səltənət və padşahlıq əsasları (moveccəbat) gördüyündən, ayağını tabelik dairəsindən kənara çıxartdı, müxalifət qapılarını açaraq, o həzrətin razı olmadığı işlərlə məşğul olmağa başladı. [Buna görə də] şərafətli şahın mübarək xatiri ondan döndü, onun fitnəsini dəf etmək fikrinə düşdü. Əlqas o həzrətin yürüşünü bilib qəflət yuxusundan azacıq oyandı, öz yersiz hərəkətlərindən peşman oldu, oğlu Sultan Əhməd Mirzə ilə birlikdə anasını cənnətməkan şahın yanına göndərdi, söz verdi ki, [bundan sonra] bütün ömrü boyu ayağını [bir daha] itaət yolundan kənara çıxarmayacaqdır. Cənnətməkan şah onun üzrünü qəbul və təqsirlərini əfv etdi, dövlətin Seyid Məhəmməd Kəmunə, Sevindik bəy Qorçibaşı, Məsum bəy Səfəvi, Şahqulu bəy Xəlifə Möhrdar və Bədr xan Ustaclı kimi əzəmətli əmirləri və ağsaqqallarını, həmçinin anasını onun yanına, bundan sonra bir də xilaf çıxmayacağı barədə and içməkdən ötrü, göndərdi. Əmirlər göstərişə əməl edərək geri qayıtdılar. Qərara alındı ki, elə həmin qış hər tərəfdən kafirlər diyarına qoşun çəkib, qəzaya və cahada başlasınlar. Buna görə də cənnətməkan şah Gürcüstan qəzasına, Əlqas Mirzə isə Çərkəs qəzasına getdi, amma Əlqas, əmirlərin qayıdışından sonra sikkə və xütbəni öz adıyla bəzəyərək, əvvəlkindən daha artıq müxalifət və üsyan yoluna düşdü. Gürcüstan qəzasından geri dönən cənnətməkan şah o əhd-peymanı süst olan [Əlqasın] ədəbsizliyindən xəbər tutdu və onun cəzalandırılmasını vacib bildi. Əlqas hələ Çərkəs [diyarında] ikən şah İbrahim xan Zülqədəri, Göycə (Kukcə) Sultan Qaçarı, Şahverdi Şultan Ziyadoğlunu bir neçə müzəffər döyüşçü ilə hücumla Şirvana yolladı, ki, həmin vilayəti zəbt etsinlər. Gedənlər Gülüstan qalasını mühasirəyə aldılar. Bu xəbəri eşidən Əlqas Mirzə Çərkəs vilayətindən geri qayıdıb, Dərbəndə gəldi. Əlqasın ləşkərinə qarşı iki dəfə ləşkər göndərildi və hər dəfə əmirlər onun ləşkərinə qalib gəldilər, bu döyüşlər vaxtı bir dəstə fitnəkar və tərbiyəsiz (bədamuz) qızılbaş öldürüldü. Bu əhvalat şaha ərz olunduqda, o, əmirlərin bəzilərini köməyə göndərdi və əzəmətli əmirlər Əlqasa hücum eldilər.

Əlqas Mirzənin fərar etməsi və Rum sultamna birləşməsi:

Elə zəfər ayəli ordu da o istiqamətə hərəkətə başladı. Hümayun şah məiyyətinin yollanma və o məşhur əmirlərin gəlib çatma xəbərlərindən xəbərdar olan Əlqas Mirzə hədsiz qorxu və çaşqınlıqla Xınalıqa tərəf qaçdı, amma döyüşçüləri ondan dəstə-dəstə ayırıb müzəffər əskərlərlə birləşdilər. Əlqası təqib edən əmirlər Samur çayı kənarında ona çatdılar. Əlqas elə çaş-baş oldu ki, heç çəkmə geyməyə də macal tapa bilmədi, qırx-əlli nəfərlə Dağıstana-qohumu olan Şamxalın (yaxud şamxal tayfasının - Ş.F.) yanına gəldi, oradan da gəmiyə oturub Kəffəyə* yollandı, Kəffədən də çıxıb İstanbula rəvan oldu, çatıb Sultan Süleymana qoşuldu.

Dərbənd və Gülüstan qalaları bir müddət Əlqas Mirzə adamlarının əllərində qalmaqda idi. Qalibiyyətli əskərlər həmin qalaları mühasirəyə aldılar, nəhayət o yerlər bu qəhrli dövlət övliyalarının əlinə keçdi, Mehtər Dövlətyar və o dövlətsizlərin bəziləri cəzalandırıldılar. Cənnətməkan şah Şirvan vilayətini adlı-sanlı şahzadə İsmayıl Mirzəyə (gələcək padşah II İsmayıla - Ş.F.) inayət etdi, Göycə Sultanı şahzadənin yanında qoyaraq geri qayıtdı.

Bir neçə gün İstanbulda qalan Əlqas Mirzənin yalan və batil vədləri Sultan Süleymanın beynini dumanlandırdı, doqquz yüz əlli beşinci ildə (miladi 1548) o, Rum, Şam, Misir, Qaraman, Diyarbəkr və İraqi-Ərəbdən topladığı ağır ləşkərlər, bol top, araba və zərbzənlər, habelə saysız-hesabsız yeniçərilərlə İstanbuldan çıxdı, əcəm vilayətinə üz tutdu. Alicah şah da Qəzvin darüssəltənəsindən döyüş əzmi ilə yola düşərək, qoşun toplamaqdan ötrü bir ay Şənb-Qazanda dayandı. Orada İsmayıl Mirzə Şirvan qoşunu və ətraf yerlərin əmir və hakimləri ilə birlikdə gələrək, hümayun orduya birləşdi. Yüksək məqamlı şah tərcrübəli adamları yollayaraq, müxaliflərin gələcəkləri yolları Təbrizdən Rum sərhəddinədək yandırdı, ət və taxıldan əsər-əlamət qoymadı. Təbriz camaatı kəhrizləri elə bağlamışdı ki, içməli su və başqa ərzaq artıq tapılmırdı. Əzəmətli əmirlərdən Abdullaxan Ustaclını şah Bədr xan Ustaclı, Hüseyn xan Sultan Rumlu, Şahverdi Sultan Ziyadoğlu və başqa əmirlərlə birlikdə qoşunlara münqəlay təyin edib Mərəndə tərəf göndərdi. Müzəffər ordu isə Təngiz yaylağına getdi və dünya şəhriyarı o yaylağın otlaqlarında dayandı.

Elə ki, Rum sultanı gəlib yetişdi, Əllamə Təkəlini bir dəstə rumlu döyüşçüylə Van qalasının mühasirəsinə göndərdi. Xoydan isə

Əlqas Mirzəni bəzi paşa və sancaqbəyilər və təxminən qırx min nəfər əskərlə Mərəndə -münqəlay əmirlərinin üzərinə yolladı, özü isə yerdə qalan cəngavər döyüşçülərlə Təbrizə tərəf hərəkət etdi. Mərəndə getmiş əzəmətli əmirlər Ziyadoğlunu iqbal qoşununun bir dəstə mübariz əskəri ilə qarovulu [əməliyyatına] göndərmişdilər. O, rumilərin ön dəstəsinə çatmış və onların arasında qızğın döyüş olmuş, Ziyadoğlu həmin döyüşdə mərdanəlik göstərmişdi. Mərənd çəmənliyindəki əmirlər dəstə-dəstə gələn rumlu döyüşçülərin çoxluğunu görərək, ehtiyatkarlıq etmiş və dağa tərəf çəkilmiş, [amraa] bir dəstə döyüşçünü xəbər toplamaq (xəbərgiri) məqsədiylə Mərənddə saxlamışdılar.

Xəbər toplamaqdan ötrü Mərənddə qalmış qızılbaş dilavərləri şəhərə gəlib çatan Əlqas və rumilərə özlərini göstərdilər və onlarla cəngə başladılar. Onların pusquda çoxlu yardım döyüşçüsü olduğundan ehtiyatlanan rumilər bu döyüşə bir o qədər də cürət etmirdilər. Axırda aralarında güclü döyüş başlandı, qızılbaşlar cəng edə-edə çıxıb əmirlərə birləşdilər, amma rumilər həmin az miqdar qızılbaşın mərdanəliyindən fikir-xəyala düşdülər. Abdulla xan və qızılbaş əmirlərinin Mərənd çəmənliyindən getdiklərini görən rumilər də geri qayıtmağı məsələhət bildilər və qayıdaraq Təbrizin Çərəndab [adlı yerində] Sultan Süleymana birləşdilər. [Bu tərəfdən] Abdulla xan və əmirlər də Əşənkiz[141] yaylağında hümayun məiyyətə qoşuldular. Yeri cənnətlik olan əzəmətli həzrət şah iqbal qoşununun mübarizlərini rumilərin dörd tərəfinə göndərdi. Onlar döyüşkən müxalifiəri gecə-gündüz narahat edir, hər gün bir neçəsini ələ keçirib qətlə yetirirdilər.

Rumilər azuqədən ötrü ordularından kənara çıxa bilmədikləri üçün onların ordusunda azuqə və heyvan yemi (əliqəd-dəvab) yoxa çıxmış, hamısı çörək qıtlığından nigaranlığa düçar olmuşdu. Buna görə də şəhəri qarət etməyə girişdilər, amma heç nə əldə edə bilmədilər. Sultan Süleymanın Təbriz şəhərində olduğu dörd gün müddətində bir neçə min at və qatır qüvvədən düşüb ədəm otlağına yollandı.

[141] Əşkənbər olmalıdır - Ş.F.

Sultan Süleymanın Təbrizdən fərar etməsi:

Bu yürüşdən peşman olan Sultan Süleyman geri qayıtmaqdan başqa heç bir çarə görmədi. Hümayun ordunun Əşənkizdən (Əskənbərdən - Ş.F.) büsbütün çıxmasından sonra qızılbaş ləşkərinin [onlara] yaxınlaşma xəbəri rumiyyə ordusuna yayıldı. Sultan Süleyman qayıdış təbilini çalaraq, ağır-yüngül ləvazimatını irəliyə göndərdi, özü isə sübhədək at üstündən düşmədi, sübh açılarkən yola düşdü. Təbrizin quldurluq edən adamları rumilərin qətl və qarətinə başladılar və onların çox hissəsi bu quldurların iti xəncər yaraları ilə ədəm yoluna yollandı.

Qəribə əhvalatlardan biri də budur: Rumilərin Çərəndabda olduqları bir neçə gündə ildırımın (saeqe) güclü çaxması və küləyin bərk əsməsi nəticəsində göyə elə toz-torpaq qalxdı və hava elə qaraldı ki, ruzigarın uzaqları görən gözü aydın gündüzü qara gecədən ayıra bilmirdi. Rumilərin qayıdışından sonra [isə] zülmət və qaranlıq aradan çəkildi və hava dəyişdi, İran xosrovunun dərya kimi dalğalanan döyüşçüləri fərmana əməl edərək, rumiləri təqib etməyə başladılar. Onlar hər yerdə rumilərə əl uzatmaqla məşğul idilər. Sultan Süleyman Vana tərəf getdi və qala döyəcləyən top və badliclərlə qalagirliyə başladı, silah tədarükü gördü. Van qalasının kutvalı olan Şahəli Sultan Çəkəni rumilərin çoxluğu və hücumundan çaş-baş qalaraq qalanı onlara verib aradan çıxdı, xandgar Rüstəm pasanı Van qalasında saxladı.

Çuxur-Səd və Ərzrumun arasında yerləşən Qars qalasının bir tərəfi Gürcüstanın [Meşq adlı yerinə] birləşir. Bu qala əskərlərin gediş-gəlişi nəticəsində bərbad hala düşmüşdü. Rumilər Qars qalasını abadlaşdırıb Amasya, Ərzrum, Toqat, Sivas, Ağsəhr və müxtəlif yerlərdən dörd-beş min nəfər münasib adamı oraya yığmışdılar. Bu vaxt Sultan Süleyman Osman Çələbi adlı qullar ağasını dörd-beş min döyüşkən süvari ilə onların mühafizəsinə qoyub, özü Müşabada tərəf getdi. Həzrət cənnətməkan şah rumiləri təqib etməkdən əl çəkməyərək, İsmayıl Mirzəni Göycə Sultan Qaçarla birlikdə onların üstünə, Qarsa yolladı. Onlar işıq və külək sürətilə hücuma başlayıb, qala yaxınlığında yuxarıda adı çəkilən (məzkur) qullar ağasına və rumiyyə döyüşçülərinə gəlib çatdılar. Döyüş başlandı. Müzəffər əskərlər rumi döyüşçülərə qalib gəldilər. Üç-dörd min rumi və Qarşın abadlaşdırılmasından ötrü ətraf yerlərdən yığılmış dörd-beş min adam qazi qılınclarının yemi

oldular, yaş-quru, hər şey qəhr atəşi ilə yandırıldı, yerdə qalan adamlarsa canlarının qorxusundan özlərini qalaya atdılar, müzəffər döyüşçülər qalanı mühasirəyə aldılar. Üç gün ərzində mühasirədə qalanların işi (54) elə pisləşdi ki, onlar "əl-aman" deyərək fəryada başladılar. Qullar ağası Osman Çələbi və altı yüz nəfərədək mühasirədə qalan adamlar aman alıb eşiyə çıxdılar. Döyüş zamanı qullar ağası şəmşirini sıyırıb divanə kimi Toyğün (mətndə Təbgun - Ş.F.) bəy Qaçarın sinəsinə bir zərbə endirdi. Rumilər də hamısı birlikdə şəmşirlərə əl atıb, şahzadəyə və onunla birlikdə olanlara həmlə etdilər. Buna görə də onların qətliam olunmaları başlandı və bir nəfər də olsun rumi nicat tapa bilmədi. Kamkar xosrovun əmri ilə qazilər qalanı dağıdaraq, qayıdıb hümayun orduya birləşdilər.

O vaxt Bəhram Mirzə döyüşkən ləşkər və döyüş meydanının igid əskərləri ilə birlikdə öz ülkası olan Həmədandan gəlib onlara çatdı. Həzrət cənnətməkan şah onu Bayburda tərəf yollayaraq, İsmayıl Mirzəni də ona qoşdu, bir dəstə məğlubedilməz döyüşçünü Əxlata, başqa bir dəstəni Adilcəvaza (mətndə Adilcur - Ş.F.) göndərdi, özü isə qələbə və iqbal gücü ilə Həmiş (?) və Masis Ölkəsinə basqın etdikdən sonra Muşabad yilayətinə yollandı. Ali məqamlı cənnətməkan şahın və gün-gündən onun köməyinə gəlib çatan və təqibdən əl çəkməyən müzəffər qızılbaşların vəziyyətlərini müşahidə edən Sultan Süleyman Əlqas Mirzəni beş min nəfərlə Kərkuyə və Şəhrizur yoluyla İraqa tərəf, Əllaməni isə on iki min əskər və Ərzrum paşası ilə birlikdə adı çəkilən vilayətə göndərdi, çünki Əlqas Mirzə xandgara belə demişdi: "Qızılbaşların hamısı məni istəyirlər, Mən əgər əcəm vilayətinə qədəm bassam, onlar dəstə-dəstə gəlib mənim başıma toplanacaqlar". Elə buna görə də, rumilər belə qərara gəldilər: Əlqas Mirzə və Əllaməni, hər birini bir yana yollasınlar ki, qızılbaşlar qoy onların üzərinə hücuma keçsinlər və xandgarın ordusu aradan çıxa bilsin.

Xandgar öz ağrəqi ilə Bitlis (mətndə Tiblis -Ş.F.) yoluyla gedib özünü Diyarbəkrə çatdırdı.

Şah Təhmasib əmirlərinin hər birinin Sultan Süleyman əmirləri üzərində qələbələri:

Cənnətməkan şah isə Muşabad vilayətinədək gedib, o vilayəti qarət etdi, yandırdı və həmin diyarda abadlıqdan əsər-əlamət qoymadı. Əllamə Təkəlinin xandgar ordusundan ayrılması, bir dəstə

rumi əskərləri ilə Tərcanda olması və [hal-hazırda] Ərzruma yollanması xəbəri şaha gəlib-çatdıqda, o, bir dəstə yel sürətli döyüşçünü həmin səmtə göndərdi, qalibiyyətli əskərlər də dəstə-dəstə arxadan gəlib çatmaqdaydılar. Əllamə və yanındakı rumi əskərləri kamkar xosrovun hücumundan xəbərdar olduqda, onların qoşununa və sərdarlarına qorxu üz verdi, can qorxusundan silah belə işlətməyərək, Tərcandan çıxıb fərar yoluna düşdülər. Hümayun fallı ordu isə qələbə və iqbal ilə gələrək Tərcana çatdı. Rumilər fərar etdiklərindən qazilər bir neçə gün onların arxasınca gedərək axtərmə* gətirirdilər. Yürüş bayrağı Tərcandan Ərzincana tərəf qaldırıldı və az vaxtdan sonra həmin vilayət iqbal xeymələri ilə doldu. Hər yana göndərilən məşhur əmirlər, [həmçinin] Şahqulu Sultan Əfşar və yoldaşları Əxlatın ulus və mal-qaralarını (əhşam) tarac və qarət etdilər, təxminən beş min beş at, yüz min qoyun, əlli min inək ələ keçirərək, sağ-salamat geri qayıtdılar. Kuh-Giluyə hakimi Mahmudxan Əfşar, Keçəl Şahverdi Ustaclı və qarovuliyə gedən başqa əmirlər xandgarın bir dəstə qapıqulu və qarovulu ilə qarşılaşdılar və cəng eldilər. Rumilər məğlubiyyətə uğradılar. Adilcəvaza və oranın ətraf yerlərinə on min nəfər müzəffər əskərlə basqın edən Əli Sultan Tatioğlu Zülqədər Gözəl dərəsi adlı yerdə, xandgar ordusundan ayrılmış rumiyyə paşaları və əzəmətli adamlarla qarşılaşaraq, onların üzərində zəfər çaldılar. Döyüş meydanının bir dəstə dilavəriylə Bayburda tərəf gedən kamkar şahzadələr Bəhram Mirzə və İsmayıl Mirzə Məhəmməd Paşa Məkoğluya (?) çatıb hərbə başladılar və Bəhram intiqamlı döyüşçülər Bayburd torpağını rumi mübarizələrinin qanı ilə qızartdılar, çoxlu adam qətlə yetirdilər.

Xülasə, qızılbaş ləşkərinin sərdarlarının hamısı zəfərlə dünyanı tutan orduya qayıtdılar, çoxlu baş, axtərmə və döyüşlərdə ələ keçirdikləri başqa şeyləri Ərzincanda kamkar xosrovun nəzərinə yetirdilər, onların hər biri də göstərdikləri xidmət müqabilində şahanə nəvazişlərə yetirildi. [Beləliklə] Sultan Süleymanın əcəm diyarına gəlişi ilə üz vermiş xəsarətin əvəzi on dəfə artıq alınmış oldu. Bu yürüşdə iyirmi min nəfərədək rumiyyə döyüşçüsü qazilərin müzəffər intiqam qılıncı ilə ədəm yoluna göndərildi və şah Ərzincandan geri qayıdıb İrəvana gəldi, oradan da Qarabağa tərəf yollandı. O, oradan İsmayıl Mirzəni, Abdullah xan və Göycə Sultanı Şirvana göndərdi, Sevindik bəy Qorçibaşını isə əzəmətli qorçilərin dəstəsi ilə Şəki vilayətini çapıb-talamağa yolladı. Bu əsnada xəbər

gəldi ki, xandgarın İraqi-Ərəbə yolladığı Əlqas Mirzə Şəhrizur yoluyla gələrək, orada olan Bəhram Mirzə fərzəndlərini tutmuşdur və onun gəlişiylə İraq mülkündə fitnə atəşi baş qaldırmışdır. Buna görə də, İsmayıl Mirzə və qorçibaşı zəfər nişanlı orduya qayıtdı və zəfər ayəli ordu Əlqasın fitnəsini dəf etməkdən ötrü İraqa tərəf hərəkətə başladı.

ƏLQAS MİRZƏNİN RUM [ÖLKƏSİNİN] KÖMƏYİ İLƏ İRAQA GƏLİŞİ, QAYIDIŞI VƏ ONUN AQİBƏTİNİN ZİKRİ

Əlqas Mirzə əhvalatı belə olmuşdur: O Həmədana gəlib Bəhram Mirzənin xanəköçünü ələ keçirdi, oradan Quma rəvan olub, oranı da tutdu, Qumdan bir dəstə bəd mayalı kürdü Rey vilayətinin qarətinə yolladı, Kaşana gələrək, oraya da əl uzatdı, Kaşandan İsfahan arzusu ilə o cənnət nişanlı diyara rəvan oldu. [Amma] İsfahanın əhalisi və böyük adamları dostluq qapılarını onun üzərinə bağladılar, şəhərin bürc və barılarını möhkəmləndirdilər və cəng etməkdən ötrü irəli gəldilər. Həzrət cənnətməkan şah Xalxal və Tarom yolu ilə Qəzvinə təşrif gətirdi və oradan Bəhram Mirzəni və Şiraz hakimi İbrahim xan Zülqədəri Əlqasın üzərinə yolladı. O haqbilməz şahzadə müzəffər şah məiyyətinin gəlişi xəbərini eşidib və Bəhram Mirzə ilə İbrahim xanın artıq gəlib çatdığından agah olub pərişan oldu, isfahanlıların münasibətindən qəmginləşdi və Fars diyarına yollandı. Yolüstü İzədxast qalasına əl uzatdı, rəiyyətin qalanı onun üzünə bağlamasından ötrü qətliam törətdi, çoxlu aciz adamı və rəiyyəti intiqam qılıncından keçirdi.

Buna baxmayaraq Bəndi-Əmir darvazalarını Əlqasın üzünə qapadılar və onun Şiraza gəlməyinə yol vermədilər. Ərdəkanın Əli adlı kəndindən (?) keçərək, Qəleyi-Seyidin ayağına getdi. İbrahim xanım qardaşı Güneyd bəyin və zülqədərlərin xanəköçü həmin qalada idi. O qalanın fəthi imkansız olduğundan, orada da bir iş görə bilməyib, Şulestan və Bəhbəhan yoluyla Şüstərə tərəf getdi, oranın əhalisi və Mir Əbdülvəhhab Şüştəri şəhər və qala qapılarını onun üzünə qapayıb, döyüş qapılarını açdı. Əlqas onlardan da məyus olub Dizfula getdi, [amma] orada da uğura yetişmədi, hədsiz yas və ümidsizliklə Bağdada üz tutdu, bir neçə vaxt orada qaldı. Doqquz yüz əlli altıncı ildə (miladi 1549) onun gələn il qayıtması barədə Sultan Süleymandan hökm gəldi. Hər tərəfdən əli üzülən Əlqas onun ordusuna tərəf üz tutdu, amma xandgarla da hiyləgərlik və

şəbədəbazlıq oyunu oynayaraq, Ruma getməkdən imtina etdi, yanında saxladığı Bəhram Mirzə xanəköçünü geri qaytardı. Rum böyükləri başa düşdülər ki, onun əlindən heç nə gəlmir və onun Rum ölkəsində qalması üsyana, fitnə-fəsada, əmniyyətsizliyə, şəhərin narahatlığına və əhalinin narazılığına səbəb olacaqdır. [Buna görə də] ona qarşı çıxdılar və Sultan Süleymanı onu dəf etməyə təhrik etdilər. Əlqasın tutulmağından ötrü xandgar böyük bir ləşkər yolladı və rumilər qəfildən onun ordusu üzərinə tökülüşdülər.

Əlqas Mirzə halı pərişan vəziyyətdə özünü o vilayətdən kənara çıxarıb, az adamla Ərdəlan ülkasına gəldi. Bu işlər barədə xəbərlər cah və cəlal sahibinin (Şah Təhmasibin -Ş.F.) qulağına çatdıqda o, Bəhram Mirzəni, Şahqulu Xəlifə Möhrdarı və İbrahim xan Zülqədəri iyirmi min adamla onun üstünə yolladı. Onlar Mərivan qalası yaxınlığına çataraq, onun qoşununu əzdilər. Əlqas Mirzə avara, heyran və etdiklərindən peşiman halda Ərdəlan qalasına - Sürxab Ərdəlanın yanına gəldi. Əlqasın tutulub [qızılbaşlara] verilməsi barədə Sürxabın adına hümayun hökm göndərildiyi üçün, onun padşah hökmünə itaət etməkdən başqa çarəsi qalmadı. O xahiş etdi ki, qoy gəlib onu bacısının əri olan Şah Nemətullah Yəzdi aparsın. Cənab mortəzəvi (Şah Nemətullah Yəzdi - Ş.F.) kamyab xosrovun fərmanına əməl edib, Sürxabın yanına gəldi, [Əlqas] Mirzəni ondan götürdü, şahın yanına gətirdi.

Əlqas Mirzə hümayun hüzura gəldikdə həzrət cənnətməkan şah gövhərlər yağdıran dili ilə buyurdu: "Ey mənim namehriban qardaşım. Mən nə pislik etdim ki, sən öz ata evindən üz döndərdin və özünü izzət zirvəsindən dəhşət və məzəllətə atdın, düşmənlə birləşərək, bu qədər fitnə-fəsada və qan tökülməsinə bais oldun?". Əlqas Mirzə xəcalət üzündən cavab vermədi, peşimançılıq başını aşağı əyərək dimnədi. Cənnətməkan şahdan qardaşlıq təri axmağa başladı, ona rəhm etdi və qanından keçdi. Amma, [Əlqas Mirzə] qızılbaş tayfaları arasında fəsada səbəb olduğundan, onun heç bir etibarı qalmamışdı. Ali sufi ağsaqqalları da onun xilas edilməsi ilə razılaşmırdılar. [Buna görə də] cənnətməkan şah hamının razılığına əsasən onu yaşamaq üçün Qəhqəhə qalasına* göndərdi. Qərara alındı ki, Sultan Əhməd Mirzə də atası ilə birlikdə o qalada qalsın. Axırda Sam Mirzənin və oğlunun da yeri həmin qala oldu və hər dörd padşahzadənin örnrü Qəhqəhədə tamamlandı. Xülasə, o əqli dar və Haqq tanımaz adamın böyük fitnəsi iqbalın gücü və xoş fallı

bəxt ulduzunun köməyi ilə dəf olundu, onun üsyan və tüğyan şöləsi də İlahinin qüdrətiylə söndü. Həmd olsun Allaha!

SULTAN SÜLEYMANIN DÖRDÜNCÜ DƏFƏ AZƏRBAYCANA GƏLİŞİ, BAŞ VERƏN HADİSƏLƏR VƏ O ALIŞAN İKİ PADŞAH ARASINDA SÜLHÜN BAŞ TUTMASININ ZİKRİ

Əlqasın fitnəkarlığından beş illik bir müddətin keçdiyi doqquz yüz altmış birinci ildə (miladi 1554) artıq bütün narahatlıq (şureş və enqelab) aradan götürüldü. [Amraa] Ərzrum bəylərbəyi İsgəndər paşa fitnəkarlıq edib Sultan Süleymanı bir daha əcəm diyarına ləşkər çəkməyə təhrik etdi. Əhvalat belə olmuşdur: Rum xandgarı üçüncü dəfə, Əlqas Mirzənin xahişi ilə, yuxarıda yazıldığı kimi, gəlmiş və geri qayıtmışdı. Cənnətməkan şah da bəhr kimi qaynayan və dərya kimi dalğalanan qızılbaş ləşkəri ilə onu təqibə başlamış, Diyarbəkr və Ərzincana qədərki torpaqlar bu kinli qoşunun tapdağı altında qalmışdı. [Qızılbaşların başlarından] bir dəqiqə belə intiqam almaq fikri yox olmurdu. Sultan Süleyman buraya gəlişindən bir neçə dəfə vaz keçib geriyə çəkilmiş, firəng (Avropa - Ş.F.) qəzasına getmişdi. Cənnətməkan şah da islam ölkələrinə ləşkər çəkməkdən çəkinmiş və Gürcüstan qəzasına yollanmışdı. Əhali [buna görə də] dörd-beş il arxayınlıqla yaşamış, sərhədlərdə tam sakitlik yaranmışdı. Kürd inadkarlarının bir qədər ləyaqətsiz hərəkətlər etmələrinə baxmayaraq, onlar asanlıqla dəf olunmuş, fitnə-fəsad törənməmişdi. [Cənnətməkan şah] xandgara dostanə bir məktub yazaraq, əhalinin vəziyyətinin aramlığından ötrü sülh danışıqlarından bəhs etmiş, həmin məktubu "Şəmse-fələkdəvvar" ("Dünyanın başına dolanan günəş") ləqəbi ilə məşhur olan rum seyidlərindən Mir Şəms Vəlixani ilə göndərmişdi. Fəsadkar və fitnəkar adam olan İsgəndər paşa əvvəllər Van hakimi idi və etibarı çox deyildi. O, qəflətən Vandan Xoya gəlib, bu dudmanın adamlarından olan Hacı bəy Dünbülini bir dəstə Xoy rəiyyəti ilə birlikdə qətlə yetirdi. Buna görə də, paşa [xandgar tərəfindən] mükafatlandırıldı və Ərzrum bəylərbəyisi oldu. O, istədi ki, elə həmin il o sərhədlərdə cəngə başlasın va buna görə də İrəvana - Hüseynxan Sultan Rumlunun üzərinə yürüş etdi, bir neçə adam öldürüb geri döndü. Ondan baş verən bu iki yaramaz hərəkətdən başqa qeyri bir hərəkətin olmaması səbəbindən, bu tərəfdən heç kəs,

rəiyyətin rahatlığı naminə, onun tənbeh olunmasına və cəzalandırılmasına cəhd etmədi. [Buna görə də] o, ayağını ədəb dairəsindən kənara çıxarıb, qürurlanaraq sərhəd əmirlərinə ədəbsiz sözlər yazıb, həddindən artıq cəsarət göstərir və fitnəkarlıqla məşğul olurdu.

Məsələn, cənnətməkan şah bəzi qacar əmirlərini Gürcüstan qəzasına - Dadyana tərəf göndərəndə [İsgəndər paşa] ağır ləşkərlə hücuma keçdi, əmirlər basqın üçün yollanan vaxt, özü onların ordusu üzərinə basqın edərək, qacar qazilərinin əksəriyyətini qətlə yetirdi, onun özbaşınalığı və yekəxanalığı həddini aşdı. Elə bu əsnada Sultan Süleymandan şahın məktubuna cavab gəldi. İsgəndər paşanın təhriki ilə [şahı] hədələyən sultan əcəm diyarına yürüşə keçəcəyini bildirirdi. Buna görə də, şəhriyarın cahanı yandıran hirs atəşi alovlandı və o, qoşunların toplanışı haqda fərman verdi. Az vaxt ərzində çoxlu qızılbaş tayfası zəfər nişanlı ordunun toplantı yeri olan, Ağmisqal yaylağında cəmləndi. [Şahın] caham bəzəyən rəyi belə oldu ki, rum ləşkərlərinin hərəkətə başlamasından qabaq ləşkəri sərhədlərə aparıb, yerlərdə abadanlıqdan əsər-əlamət qoymasınlar, İsgəndər paşaya qulaqburması versinlər və onu qəflət yuxusundan bidar etsinlər. Qələbə nişanlı əskərləri dörd dəstəyə ayıraraq, hər dəstəyə məşhur əmirlərin birini sərkərdə təyin etdilər, onların hərəsini müəyyən yerlərə yolladılar. Qələbə ayəli ordu Əxlata getdi, Əxlat qalasını mühasirəyə aldı. Öz yerlərinə gedib çatan adlı-sanlı əmirlər Van, Bidlis, Masis və Adilcovazi (mətndə Adilcur - Ş.F.) Muş səhrasınadək yandırıb, qarətə yetirdilər. Qızılbaşların qarşısına çıxan hər bir rumi və kürd ilə güclü vuruşma baş verdi və cəng qələbə ilə nəticələndi. Rumi və kürd əmir və mötəbər adamlarının əksəriyyəti qətl olundu, əsir götürüldü, bol qənimətlərlə hümayun orduya qayıtdılar.

İsgəndər paşanın məğlubiyyəti:

Geriyə dönən əmirlər İsgəndər paşanın cəzalandırılmasına yollandılar. Adlı-sanlı əmirlərdən Bədr xan Ustaclı, Çuxur-Səd hakimi olmuş Şahqulu Sultan Ustaclı, Məhəmməd xan Mosullu Türkman, Qarabağ hakimi Şahverdi Sultan Ziyadoğlunu və başqa əmirləri, həmçinin bir dəstə əzəmətli qorçini kamkar şahzadə İsmayıl Mirzənin sərkərdəliyi ilə Ərzruma göndərdilər. Qızılbaş ləşkərinin gəlişindən agah olan İsgəndər paşa yanına yığışmış

Ərzincandan, Bayburddan, Kaxdan, Mərəşdən, Trabzondan, Gürcüstandan, Dadyandan və Kuryaldan olan rum əmirləri və sancaqbəyiləri ilə cəngə girmək, yaxud qaladarlıqla məşğul olmaq haqda məsləhətə başladı. Rum əmirləri cəng etməyi məsləhət bilməyərək dedilər: "Padşahzadə [İsmayıl Mirzə] çoxlu tayfa və ləşkərlə gəlmişdir və bizim onlarla müharibə etmək taqətimiz yoxdur". Xeyli kürd və rumi ləşkərindən ibarət ordusu olan İsgəndər paşanın şücaət və dilavərlik avazı həddini keçdiyi, qürur buxarınınsa beynini doldurduğu üçün o, ağıllı və tədbirli adamların sözlərinə qulaq asmadı və hərbə qərar verdi, bir dəstə təcrübəli adamı qoşuna münqəlay təyin edərək irəli yolladı, özü isə şəhərin yarım fərsəxliyində döyüş səfi bəzədi, səfin önünə tüfəngli beş yüz yeniçəri, iyirmi ədəd top arabası və firəng zərbzəni düzdü, döyüşə başladı. Bu tərəfdənsə, iqbal qoşunlarının çərxçiləri irəliyə çıxdılar. Düşmən qarovulları göründükdə igidlər o sıx dəstəyə doğru at sürdülər, onların işini lazım olduğu kimi bitirdilər. Rum ləşkərinin qalan hissəsi [isə] rumilərin qol ləşkərinə birləşdi. Qızılbaş döyüşçülərinin bu qələbəsindən rumilər qorxuya düşdülər. Müzəffər ordunun çərxçiləri rumilərin qol ləşkərinin üstünə tökülüşdülər. Onlar öndən, meymənə və meysərə sərdarlan isə sol və sağdan cəngə girdilər, hərb bazarı qızışdı. Qızılbaş dəstələrinin mübarizlərində qələbə və iqtidar əsər-əlamətləri zahir oldu və onlar müxaliflərin çoxunu ölüm torpağına yuvarlatdılar. Qızılbaş döyüşçülərinin igidlik və dilavərliyini müşahidə edən İsgəndər paşanın qəlbində qeyrət atəşi şölələndi və o, ağır qoşunla qoldan çıxıb, çərxçilərə hücum etdi, tərəflər arasında olduqca qızğın cəng başlandı. Döyüş əsnasında, kamkar şahzadənin ehtişam və əzəmətlə (fər) bəzənmiş qələbə şüarlı böyük qol hissəsi göründü. İsgəndər paşa həmin saysız-hesabsız ləşkəri və rum qoşunundakı acizlik əlamətlərini müşahidə etdikdə, əli işdən və döyüşdən soyudu, qaçmağı qənimət sayıb, hərbdən çəkildi, özünü çaşqınlıqla qalaya atdı. Qalibiyyətli ordu dilavərləri [isə] rum ləşkərini qala darvazasınadək təqib edərək, təxminən üç min rumini, kürdü və yeniçərini kəskin qılıncların yemi etdilər. İsgəndər paşanın qardaşı Ramazan bəy, xandgar qulamlarının qullar ağası olan Məhəmməd bəy və bir neçə rum əmiri, xüsusiylə Mərəş, Məlatiyyə, Masis hakimləri, sancaq əmirləri, həmçinin kürdlərin bir dəstəsi əsir alındı. Qalibiyyətli qızılbaş dəstələri o vilayətin bütün ətrafını qarət atəşləriylə yandırıb-yaxdılar, qalibiyyət və saysız-hesabsız

qənimətlərlə geri qayıtdılar, oradan çıxıb dünyanı tutan orduya tərəf üz tutdular, cənnətməkan şahın Əxlat qalasını tutması və Ərciş qalasını mühasirə etməsi zamanı gəlib orduya qoşuldular, şahla görüş səadəti ilə şərəfləndilər. Böyük mərdanəliklər göstərmiş bir dəstə adam, xüsusilə Ziyadoğlu nəvazişləndirildi, əsir tutulmuşları isə şahın nəzərinə çatdırdılar, onların çoxunu qətlə yetirdilər.

Əxlat qalasının fəth olunması belə baş vermişdir: Hümayun ordu qala ayağına gəlib çatdıqda oranı mühasirəyə aldı. Mühasirədə qalanlar isə müdafiyəyə və qaladarlığa başladılar, bir neçə gün bacardıqları qədər qalanı qorudular. Nəhayət şəhər və qalanı qorumaqda aciz qalaraq təhvil verdilər, qalanın dağıdılması barədə hökm verildi, o möhkəmlikdə hasar [qala - Ş.E] bir yürüşlə yerb yeksan olundu. Oradan yürüş cilovunu Ərcişə tərəf döndərdilər və qalanı mühasirəyə aldılar. Qalanın alınmazlığına və hasarın möhkəmliyinə güvənən qala hakimi qürurlandı və rumi topçular və tüfəngçilər hümayun əskərlər üzərinə güllə yağdırmağa başladılar. Mühasirədəkilər qaladarlıq işində mərdanə cəhdlər göstərməkdəydilər. Bu tərəfdənsə, igid qazilər öz mərdanə qədəmlərini irəli ataraq seybələri qala ayağına gətirib-çatdırdılar. Xasseye-şərifənin topçusu Dərviş bəy qala ayağına böyük topunu gətirdi və onun güllələlərini bürclərə və barılara istiqamətləndirdi, qala içərisində çaxnaşma yaratdı.

Xülasə, qala camaatı qaladarlıq qabiliyyətlərini üç ayadək davam etdirdi, amma dördüncü ay onlar artıq dözə bilmədilər. Qalada bir dəstə kürd vardı. Kürdlərin belə adətləri var ki, onlar müəyyən işlər görərkən hamı ilə məsləhətləşir, zəmanə ilə yar, ruzigarla sazgar (yəni yola gedən, razılaşan - Ş.E) olurlar. Kürdlər bir-birləriylə ittifaqa girərək, qala hakimini qətlə yetirib, qızılbaşları [divarlardan] yuxarı çəkdilər, qəhrli dövlətin gücü ilə Ərciş qalası ələ keçdi və ali əşrəfin (yəni şahın - Ş.E) əmri ilə dağıdıldı. Fəth ayəli ordu bayrağını oradan Nargiri qalasına tərəf dalğalandırdı, o möhkəm qalaya yürüşə keçdilər, cəng alət və vəsaitləri hazırlığına başladılar. Qalada mühasirəyə alınanlar da qala müdafiəsinə mərdliklə qalxdılar və bir neçə gün onların arasında cəng atəşi şölələndi. Nəhayət, mühasirədə qalanlar bərk qorxuya düşərək, əllərini aman ələyinə uzatdılar. Qalanın hakiminə aman verildi və [günahı] bağışlandı.

Nargiri qalasının fəthindən sonra İsmayıl Mirzəni Sevindik bəy Qorçibaşı ilə Kürdüstana bəzi əmirlərin qətli və mahmudi*

dikbaşlarının qarət olunmasından ötrü göndərdilər. Zəfər şüarlı əskərlər bədxasiyyətli kürdlərin qətl və qarət olunmaları əməliyyatını yerinə yetirərək, bol qənimətlərlə qayıdıb hümayun orduya qoşuldular. Azərbaycan yürüşünü qarşısına məqsəd qoymuş Sultan Süleyman Hələbə gəldi. O bu il azuqə qıtlığından bir daha [Azərbaycana] gələ bilməyərək, Hələbdə qışladı, gələn ilin yürüşü üçün silah və vəsait hazırlığı ilə məşğul oldu.

Qışlaq vaxtı yetişdiyindən zəfər ayəli ordu böyük əzəmət və cah-cəlal ilə həmin iqbal yürüşündən qayıdıb Naxçıvana gəldi, o il hümayun qışlaq orada oldu. Doqquz yüz altmış birinci il (miladi 1554) olan ertəsi ildə Sultan Süleyman qoşunla Hələb qışlağından hərəkətə başlayaraq, bu diyara üz tutdu. Cənnətməkan şah [isə] Naxçıvandan Bazarcahi (Bazarçay - Ş.E) yaylağına getdi, qalibiyyətli əskərlərin bir dəstəsini İsmayıl Mirzə, əmir-divan* Məsum bəy Səfəvi və Şahqulu Xəlifə Möhrdar Vana, Vəstana və bu şəhərlərin yaxınlığındakı yerlərə (və an hodud), başqa dəstəsini isə Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzə və Şahverdi Sultan Ziyadoğlunun köməyi (kardani) ilə başqa tərəfə göndərdilər ki, rum qoşununun gəldiyi yolları yandırsınlar və o yerlərdə abadlıqdan əsər-əlamət qoymasınlar. Müzəffər dəstələr əmrə əməl edərək, sağ-salamat qayıdıb gəldilər və Bazarcahi yaylağında hümayun orduya birləşdilər.

Sultan Süleyman yaylaq fəslini başa vuraraq, yağış qətrələri kimi çox olan ordu ilə sərhədə yaxınlaşdığı vaxt, cənnətməkan şah iqbal dəstələrinin bir neçə mübarizini təcrübəli və cənglər görmüş igidlərlə qarovuliyə yolladı ki, qoy gedib rumilərin dörd-bir tərəfindən xəbərdar olsunlar, fürsət ələ düşərsə, vuruşsunlar və üstünlüyü əldən verməsinlər. [Beləliklə,] qızılbaş dəstələrinin köhnə dilavərləri və haramzada (qollaş) döyüşçüləri [hətta] rumilərin mallarına da tamah dişi qıcıyaraq, yol boyu hücuma keçir, müxalifləri əsir götürürdülər. Elə bir gün olmurdu ki, onlar tərəfindən şahın nəzərinə silahlar, əxtərmələr və əsir tutulan rumilər gətirilməsin. [Belə ki,] sultan Naxçıvana çatana qədər rum dəstələrinin bir çoxu müzəffər qazilərin intiqam qılıncları ilə fəna yoluna göndərildilər.

Xandgar Naxçıvana gələn vaxt cənnətməkan şah zəfər nişanlı əskərlərin rəsmi keçidinə (san) başladı. Qırx min döyüşkən muzdlu (məvacibxar) süvari külək surətli tazı atların üstündə gəlib şahın qarşısından keçdi. Hümayun orduda olan başqa adamlar da

rəsmi-keçid qurtardıqdan sonra Bazarcahi yaylağından çıxaraq, müxaliflərlə döyüşməkdən ötrü tam dəbdəbə ilə hərəkətə gəldilər.

Sultan Süleyman azuqə qıtlığından Naxçıvanda qala bilməyərək şəhəri yandırdı, geriyə qayıdıb, təbilini döyərək Ərzruma tərəf qayıtdı. Hümayun şah ordusu da onun təqibinə başladı və beləliklə hər yerdə qızılbaş qarovullarının əllərinə keçən rumilər qətlə məruz qaldılar, yaxud əsir alındılar.

O bir neçə gün ərzində, Sultan Süleymana yaxın adam olan Sinan bəy qarovuli məqsədi ilə ordudan yola çıxdı və qızılbaş qarovulları ilə rastlaşdı, döyüşdü və əsir götürüldü. Sinan bəyin tutulmasından pərişan olan və faydasız bu yürüşlərdən bezən Sultan Süleymanı nəfsi tox və xeyirxah adam olan baş vəzir* Məhəmməd paşa daim sülhə rəğbətləndirir və sülh danışıqlarına başlamağı məsləhət görürdü.

Sultan Süleymanın Şah Təhmasiblə sülhünün bəyanı:

Məhəmməd paşa sərhəd əmirlərinə məktublar yazaraq, sülhü (mosalehe) izhar və şahdan Sinan bəyin azad olunmasını və geri qaytarılmasını, Sinan bəylə birlikdə bir adamını da sülh şərtlərinin hazırlanmasından ötrü (cəhəte-təmhide-əmre-mosalehe) göndərilməsini təvəqqe etmişdi. Cənnətməkan şah Məhəmməd paşanın bu xahişi və bu tərəfdən xeyirxah adamların arzusu ita Sinan bəyi azad etdi. Sultanların düşmənçilik və savaşları məmləkətlərin viranlığına, ədalətli hökmdarların müsalehəsi (sülh istəyi - Ş.F.) isə əskərlərin və rəiyyətin əmniyyətinə səbəb olduğundan, həmçinin hər iki tərəfin aciz adamları və rəiyyəti hadisələrin tapdağı, atların ayağı altında qaldığından, hamı müsalihəyə rəğbət göstərirdi. [Buna görə də] müzəffər qorçilər zümrəsindən və qaçar ağsaqqallarından olan Şahqulu bəy adlı bir şəxsi Sinan bəylə birlikdə [sultanın yanına] göndərdilər. Qarşı tərəfdən də Sultan Süleyman sülhə rəğbətənərək Şahqulu bəyi ənam və hədiyyələrlə geri qaytardı. Cənnətməkan şah buna görə də rumilərin təqib olunmalarından əl çəkdi, qələbə bayrağı altında toplaşan və döyüşə hazır olan qalibiyyətli əskərləri Gürcüstan qəzasına göndərdi ki, o həzrətin qəzavatı və Gürcüstanın fəthi haqqında tezliklə bu dəftərin ardında (zeyl) məlumat veriləcəkdir.

Xülasə, baş vəzir Məhəmməd paşanın məsləhətiylə Şahqulu bəyin geri qaytarılmasından sonra xandgara məhəbbət

məzmunlu və bəyənilən bir məktub yazıldı və onu Fərruxzad bəy Eşikağası Qəraroğluya (Qarabağlu ? - Ş.F) verib xandgara göndərdilər, sədaqət (mosadeqət) və dostluq təklif etdilər. Sultan Süleyman tərəfindən də etibarlı elçilər məhəbbətamiz namələrlə gəlib-yetişdilər, tərəflər arasındakı razılaşma, dostluq və əhd-peyman münasibətləri səmimiyyət nişanlı (movəddət) məktublar, töhfə və hədiyyələr göndərilməsi yoluyla həyata keçdi. Mübahisəli torpaqların bəzisi o tərəfə, bəzisi isə bu tərəfə verildi, sərhədlərə dair sənəd (dəstur) sərhədləri müəyyənləşdi, hər iki tərəf əskərlərinin gediş-gəlişlərindən əzab-əziyyətə düçar olmuş müsəlmanlar asudə nəfəs aldılar. Əcəm diyarının istedad sahibləri bu müsalihənin maddei-tarixini "əs-solh-xeyr"[142] sözləri ilə yazdılar və onu bəlağət ipinə belə düzdülər:

Beyt

Carçı mələk də hu qoca dunyada
Eylədi "əs-solh-xeyr"lə səda.[143]

Hər iki hökmdarın bu həyatda olduqları vaxt ərzində tərəflər arasında dostluq bərqərar oldu. Doqquz yüz yetmiş dördüncü ildə (miladi 1566) Sultan Süleyman bəqa aləminə köçdü, oğlu Sultan Səlim taxt-tac sahibi oldu, arada ata-oğul məhəbbəti yarandı, yazışmalar, mötəbər elçi gediş-gəlişləri, töhfə və hədiyyələr göndərilməsi həyata keçdi. Sultan Səlim səkkiz il hakimiyyətdə qaldı, doqquz yüz həştad ikinci ildə (miladi 1574) isə əbədi cahana tərəf üz tutdu. O da cənnətməkan şahın sağlığı və İsmayıl Mirzənin cülusu dövründə süni və dostluğun möhkəmlənməsinə sadiq qaldı. Amma, İsmayıl Mirzədən və İsgəndər şanlı nəvvab Sultan Məhəmməd paşanın cülusundan sonra ataların əhd-peymanları pozuldu, asudə həyat lərzəyə düşdü, rəiyyətin üzünə bəla qapıları açıldı ki, o hadisələrin şərhi yerli-yerində qələmimizlə bəyan olunacaqdır. İndi isə, müşk-ənbər qoxulu qələm kəhəri Gürcüstanın ayrı-ayrı məmləkət və şəhərlərinin fəthi və həmçinin azğın

[142] "Əs-solh-xeyr", yəni sülh-xeyir-bərəkət deməkdir.
[143] Beytin farscası:
Monhiye-eqbal dər in kohne deyr
Qolqole əndaxt ke "əs-solh-xeyr".

(zəlalətnişan) kafirlər üzərindəki qəza və cəhadın şərhindən ötrü cövlana gələcəkdir.

CAHAN ŞƏHRİYARININ İQBALI SAYƏSİNDƏ ŞİRVAN VİLAYƏTİNİN FƏTH OLUNMASI, O MƏNFƏƏTLİ VƏ GÖZƏL MƏMLƏKƏTİN ƏLƏ KEÇİRİLMƏSİNİN ŞƏRHİ

Cənnətməkan şahın fəth etdiyi məmləkətlərin birincisi bol mənfəətli (kəsirül-mənfəət) Şirvan məmləkətidir. O diyarın valiləri (vəllat) Ənuşirəvan Kəsranın (Xosrovun - Ş.F.) nəslindəndirlər və "şirvanşah" adı ilə məşhurdular. Ata-babadan o vilayətdə hökmran olanlar zümrəsindən biri Fərrux Yəsar ibn Fəraməz ibn Gəştasb ibn Fərruxzad ibn Əmir Xəlilullah ibn Sultan İbrahim, ibn Sultan Məhəmməd ibn Fərruxzad ibn "Xaqan" adı ilə məşhur olan Mənuçöhrdür* ki, Xaqani Mənuçöhrün məddahı (madeh) olmuş" elə buna görə də "Xaqani" təxəllüsünü özünə götürmüşdür. Fərrux Yəsar yüksək səfəviyyə sülaləsi ilə inad mövqeyində dayandı ki, bu haqda yerli-yerində danışılacaqdır. [Şirvanşahlar] Sultan Güneyd və Sultan Heydərlə cəng edib onları şəhadətə yetirdilər. Amma, Fərrux Yəsar nəhayət Süleyman şanlı xaqanın intiqam qılıncı ilə cəzalandırıldı və o sülaləyə lərzə düşdü. Sultan Xəlil ibn Şeyxşah ibn Fərrux Yəsar incəlikləri görən əqlinin gücü ilə Süleyman şanlı xaqanın dərgahına gələrək ona tabeliyini bildirdi, nəvazişə layiq görüldü, şahanə iltifat nəticəsində uca "şirvanşah" rütbə və mərtəbəsinə yetişməklə şərəfraz oldu. O həzrətin (Şah İsmayılın - Ş.F.) vəfatından sonra o, cənnətməkan şahın iltifat və şəfəqqəti altındaydı və bir neçə il şan-şöhrət və iqballa ömr sürdü. Ali hümayun cülusdan (Şah Təhmasibin cülusundan - Ş.F) on iki il keçdikdən sonra doqquz yüz qırx ikinci ildə (miladi 1535) Sultan Xəlil fani aləmə əlvida edərək, ölməz (cavidan) cahana yollandı, və [sonsuz olduğu üçün] ondan nəsil qalmadı. Şirvan əmirləri hələ kiçik olan onun qardaşı oğlu Şahrux ibn Sultan Fərrux ibn Şeyxşahı səltənət taxtına əyləşdirdilər. Şirvan əmirlərinin özbaşınalığı nəticəsində o sülalənin (şirvanşahların - Ş.F.) qayda-qanunu pozuldu, nizam-intizamdan əsər-əlamət qalmadı, diyarda hərc-mərclik başlandı. O əsnada qələndər bir oğlan iddia edərək dedi: "Mən Sultan Məhəmməd ibn Şeyxşaham". [Buna görə də,] onun başına çoxlu ləşkər yığıldı və o, Salyanı tutdu, oradan Şamaxıya gəldi. Şahruxun adamları (əshab) əmirlərin süstlükləri və ləşkərin

dağınıqlığı (biettefaqi) nəticəsində ona qarşı çıxa bilmədilər, Şamaxıdan fərar etdilər və Biqord (mətndə səhvən "Biford" yazılmışdır - Ş.F.) qalasına getdilər. [Nəticədə] şirvanşahların təxtgahı olan Şamaxı qələndər oğlanın əlinə keçdi. Qələndərin adamları da avara, veyil və hərcayı idilər və onların arasında ağıllı və bacarıqlı heç kəs yox idi. [Qələndər] cəhaləti və tədbirsizliyinə görə Şamaxını tərk edərək, Salyana tərəf qayıtdı. Biqord qalasındakı Şirvan böyükləri qələndərin Şamaxıdan getdiyini bilərək, Şahrux Mirzənin ordusu ilə onun təqibinə yollandılar, Salyan yaxınlığında döyüşə başladılar. Şahruxun adamları qalib, qələndər məğlub oldu, şirvanşahların əlinə keçdi, Şeyx Padar onu qətlə yetirdi. Amma, Şirvan əmirləri əvvəlkindən də çox sırtıqlıq (ziyadəruy) və tabesizliyə başladılar, müsəlmanların mal və namusuna əl uzatdılar. Şahrux isə azyaşlı olduğundan, onları bu işlərdən çəkindirə bilmədi. Əhali Şirvan zalımlarının (zoləma) zülmündən cana doyaraq zaman şirləri dərgahına (şirane-zəman)[144] yalvarışa (esteğase) başladı. Qorçibaşı Padar və bir dəstə döyüşçü də fəryada gəldilər:

Beyt

Əl əman, Yəcuc* zülmündən ey İsgəndər şanlı şah,
Ey Süleymanı bu dövrün, divlərin bax cövrünə![145]

Cənnətməkan şah həmin səliqə-səhmanlı (nozhət) vilayətin fəthini və oranın zalım, üsyankar adamlarının dəf olunmasını öz şahanə köməyi (zemmətе-hemmət) üçün lazım bilib doqquz yüz qırx beşinci ildə (miladi 1539) şahzadə Əlqası Müntəşa (mətndə Müsənna) Sultan və bir dəstə qacar, təvaleş və Qarabağ döyüşçüsü, həmçinin iyirmi min adam və qorçibaşı Padarla birlikdə həmin vilayətin fəthinə yollandı.

Şirvan qalaları fəthinin şərhi:

Qəhrli döyüşçülər gəmi ilə Kür çayını keçərək Şirvana gəldilər. Şirvan əhalisi onlarla xilaf və üsyan məqamında

[144] Səfəvi dərgahına - Ş.F.
[145] Beytin farscası:
Ey Sekəndərmənzelət əz zolme-Yəcuc ələman,
V-ey Soleymane-zəman, əz covre-divan zinhar!

dayandılar, vilayət qalalarını yararlı adamlarla möhkəmləndirdilər və cəngə başladılar. Qalalar tutan mübarizlər əvvəlcə Sürxab qalasını fəth etdilər, sonrasa Qəbələ qalasını ələ keçirdilər. Oradan çıxıb Şirvanın ən möhkəm qalası olan Gülüstan üzərinə fəth kəməndi atdılar. Mühasirədən ötrü bir dəstə qəhrli adam göndərildi. Şahrux Mirzə Biqord qalasında olduğundan qalibiyyətli əskərlər o tərəfə yollandılar. Şahrux Mirzənin vəkili Hüseyn bəy mərdanə ləşkərlə qızılbaş döyüşçülərinin qarşısına çıxdı və hər iki tərəf Biqord dərəsində qarşılaşdı, cəng başlandı. İqbal dəstələrinin mübarizələri göstərilən dərəni müxaliflərin qanı ilə doldurdular. Məğlub olan Hüseyn bəy qalaya qaçdı, orada bürc və barıların möhkəmləndirilməsi və qaladarlıq ləvazimatının tədarükünə başladı. Qızılbaş dəstələrinin dilavərləri onları mühasirəyə aldılar. Tərəflər arasında hər gün cəng məşəli şölələnməkdəydi. Şirvanlılar müxalifət və üsyanda israrlı idilər. Mühasirə müddəti dörd ay çəkdi. Şəki vilayətinin valisi Dərviş Məhəmməd xan şirvanlıların köməyinə gələrək, şəbxun məqsədiylə qızılbaş ordusunun kənarına gəlib-çatdı, nağara döydürdü, şeypur çaldırdı. Ad-san axtaran igidlər və cəngavər qorçilər o adamların dəfinə başlayaraq onları məğlub etdilər. Dərviş Məhəmməd xan, adamlarının əksəriyyətini ölümə verdi, heç bir iş görə bilməyib, geri qayıtdı. Şirvanlıların kömək yeri (etezad və estezhar) qalmadığı üçün onlar müqavimət göstərmək və qaladarlıq etməkdə aciz qaldılar, məktub yazıb dedilər: "Əgər alicah şahın özü səadət və iqballa buraya təşrif gətirsə, [qalanı] ona təslim edərik". Əmirlər məsələni [şaha] ərz etdilər. Cənnətməkan şah Mərənddən çıxıb Şirvana yola düşdü və o vilayətin hər tərəfi (sahət) padşahın dünyanı gəzən çətir günəşinin şüalarından işıqlandı. O, qala ayağına gəlib çatdığı günün ertəsi Hüseyn bəy Vəkil böyük adamlar və əyan-əşrafla qaladan çıxıb Şahrux Mirzəni gətirdi, qalanın və xəzinələrin kilidlərini başı göylərə ucalan dərgahın xadimlərinə (xoddam) təqdim etdi. Gülüstan qalasının kutvalı* da eşiyə çıxaraq, qalanı təhvil verdi. Hüseyn bəy Vəkil Şirvanın əksər günahkarları ilə birlikdə etdikləri müxalifətə, ədəbsizliyə və üsyana görə cəzalandırdılar, tezliklə Şahrux Mirzə də ədəm diyarına yollandı. [Şah] o diyar hakimliyini şahzadə Əlqas Mirzəyə verib, yürüş cilovunu Azərbaycana tərəf çevirdi. O dövrün şairləri Şirvanın fəthi barədə aydın ifadəli (gorra) qəsidələr və [maddeyi-] tarixlər nəzm etmişlər ki, o cümlədən iki beyt təqdim olunur:

Zühəl bürcünədək xəbər ucaldı,
"Fəthe-Şirvan " oldu o fəthin adı.
Olsa yüz il sonra belə bir zəfər,
"Fəthe-Şirvan " deyə yad edəcəklər.[146]

"Fəthe-Şirvan" ifadəsindən əgər yüz (səd) rəqəmi çıxılsa, qalıq bu fəthin tarixini göstərər.

Əlqas Mirzə Şirvanda doqquz il müstəqil hakim oldu. Silahının çoxluğu, şahanə ziynəllərinin bolluğu, məqamının böyüklüyü və qoşununun əzəmətinə görə yolunu azdı, öz vəli-nemətinə qarşı üsyan etdi. Yuxarıda yazıldığı kimi, [buna görə də] əbədi lənətə giriftar oldu. Cənnətməkan şah o vilayəti əziz oğlu İsmayıl Mirzəyə verdi və Göyçə Sultan Qacarı o şahzadənin xidmətinə təyin etdi. Şahzadə Şirvana yerləşdikdən sonra, Şirvan sultanları nəbirələrindən olan və qaytaq (mətndə səhvən "yacaq" yazılıb - Ş.F) camaatı içərisində yaşayan Mirzə Bürhan doqquz yüz əlli dördüncü ildə (miladi 1547/48) Şirvana gəlib Qəlhanda* dayandı. Bir neçə fitnəkar adam, eləcə də Şirvanın bəzi döyüşçüləri o zəlil (məxzul) adamın başına toplaşdılar. Onlar meşə və cəngəlliklərdə dəyənəklər düzəldib (cəpər boride) cəngə hazırlaşdılar. İsmayıl Mirzə və Göyçə Sultan ağır qoşunla o üsyankarların dəfinə yollandılar, qalibiyyətli qoşun çərxçiləri və o yaramaz (məqhur) dəstə arasında cəng oldu. Şahzadənin ali qoşunu döyüş meydanına gələn vaxt Şirvan döyüşçüləri müqavimət göstərə bilməyib məğlub oldular. Bürhan Mirzə yüz əzab-əziyyətlə özünü Dağıstana çatdırdı, adamlarının əksəriyyəti qətlə yetdilər.

Rum xandgarının qədirbilməz Əlqasla birlikdə gəlişi xəbəri aydınlaşanda, İsmayıl Mirzə və Göyçə Sultan talehin fərmanıyla səadət əsaslı orduya gəldi. Şirvan vilayətini boş görən Bürhan Mirzə Şamaxıya gələrək öz işğal əlini o mülkə uzatdı və bir neçə gün orada dövlət bayrağı qaldırdı, amma dövlətin üzü o tayfadan (şirvanlılardan - Ş.F) döndüyündən, onun ömür çırağı tezliklə söndü və Bürhan üqba aləminə cumdu. Sultan Süleymanın geriyə

[146] Beytlərin farscası:
Ze kuyəş bəşarət bər eyvane-Keyvan,
Dər oftad avazeye fəthe-Şirvan
Ço fəthi konəd bəd səd sale digər,
Nevisənd tarexe-an "Fəthe-Şirvan".

qayıdışından və Əlqas Mirzənin doqquz yüz əlli altıncı ildə (miladi 1549) həbsindən sonra o vilayət hakimliyi İsgəndər şanlı xaqanın bacısı oğlu və kürəkəni (damad), Məhəmməd xan nəsilli Qara xanın oğlu Abdulla xan Ustaclıya verildi. Şirvanlıların Bürhan Mirzəyə bir neçə günlük itaət və tabeliklərindən sonra [onların bəziləri] Abdulla xandan qorxdular və Xəzər dənizi adalarından birinə pənah aparıb oraya sığındılar. Xanın geriyə dönməsindən ötrü onlara istimalətnamələr* göndərilməyinə baxmayaraq, razılaşmadılar, üsyan və tüğyana başladılar və Abdulla xan önlara hücuma keçdi. Qızılbaş qaziləri suya (çaya - Ş.F) at sürüb o müxalif tayfanın üzərinə yürüşə başladılar və hərb atəşi alovlandı. Nəticədə, o inadkar dəstənin əksər adamları qəhr və cəza qılını ilə öldürüldü, qazilərin əlinə bol mal keçdi və onlar geri döndülər. Abdulla xan Şirvan hakimliyində müstəqilləşdi, ətraf yerlərdə məşhur oldu, bir neçə il kamranlıq və şadmanlıqla yaşadı. Sultan Süleymanın Azərbaycana dördüncü yürüşü olan doqquz yüz altmış birinci ildə (miladi 1554), Rum sultanının dərgahına pənah aparmış sabiq şirvanşahlar nəslindən Qasım adlı birisi döyüşkən qoşunla Kəffə yoluyla Şirvana göndərildi. Dərbəndi keçən Qasım qədəmini o vilayətə basdığı vaxt şirvanlılar yenidən fitnəkarlığa başlayaraq, Abdulla xandan üz döndərdilər, Qasımın başına toplaşdılar. Abdulla xan da müzəffər qızılbaş döyüşçüləriylə onun dəfinə yollandı. Möhkəm bir məkan olan Səkkə (?) adlı bir yerdə tərəflər üzbəüz oldular. Səkkə çətin alınası yer olduğundan Abdulla xan da orada bir iş görə bilməyib, Şamaxıya qayıtdı, Qasım isə Biqord qalasına girərək orada cəngə hazırlaşdı və on iki min nəfər rumi, şirvanlı (şirvani) və yeniçəridən ibarət adanıla Abdulla xana hücum etdi. Xanla birgə olan qızılbaş ağsaqqalları zəfər pənahlı qoşunlarının azlığı və azğın şirvanlıların çoxluğundan çəkinərək, hələlik döyüşə girmədilər. İlahinin imdadına və padşah iqbalının gücünə arxalanan xan [nəhayət] on iki min əskəriylə düşmənlə hərbə başladı və onlar qoşunla Gülüstan qalası yaxınlığında bir-birilərinə yaxınlaşdılar, aralarında cəng alovu şölələndi. İqbal qoşununun mübarizləri və bacarıqlı bahadırlar həmin zəlil qoşuna mərdanə həmlələrə başladılar, tərəflər axşamacan döyüşdülər. Şam vaxtı o bəxti dönmüşlərin bəxt ulduzu fəna və zavala uğradı və məğlubiyyət müxalif ləşkərin payına düşdü, qazilərin Yəmən qılıncı (tiğe - Yəmani) sıyrıldı və həmin gözlərini qan tutmuşların əksəriyyəti fəna bəhrinə qərq oldu, o başsızların başlarından minarələr ucaltdılar,

yerdə qalanları isə Təbəristana tərəf qaçdılar. Qasımın cəngdə öldürülməsi, yaxud idbarlıq və azğınlıq diyarına fərar etməsi haqqında məlumatımız yoxdur, amma Qazi Əhməd Qəjfari "Tarixi-cəhanara" kitabında yazmışdır ki, [Qasım] məğlubiyyətdən sonra cəng meydanından çıxdı və onun taleyi məlum olmadı, Abdulla xan isə o diyarda öz əzəmət və iqtidar bayrağını daha yüksəklərə qaldırdı, inadkar adamları iti qılıncla cəzalandırdı, rəiyyəti və tabeçiliyində olan başqa adamları öz ədalət və rifah himayədarlığı (kənəf) altında saxladı, məmləkətin halını yaxşılaşdırdı. Abdulla xanın qorxusu (məhabət), şirvanlıların, eləcə də Təbəristan və Dağıstan əhalisinin ürəyində elə yer tutmuşdu ki, ona qarşı çıxmaq heç bir böyük və kiçik adamın xəyalına belə gəlmirdi. Abdulla xan o vilayəti müstəqil şəkildə on altı ilə idarə etdikdən sonra, doqquz yüz yetmiş dördüncü (miladi 1567) ildə bəqa aləminə getdi və həmin vilayətin hakimliyi Araz xan (Ərəs xan) Rumluya verildi. O, cənnətməkan şahın sağlığı dövründə Şirvan vilayətinin hakimi o idi.

958-ci İLDƏ (MİLADİ 1551) ŞƏKİ VİLAYƏTİNİN FƏTHİ BARƏDƏ SÖHBƏT

Cənnətməkan şah tərəfindən fəth olunan məmləkətlərin biri də iki tərəfdən Şirvana, bir tərəfdən Gürcüstana, başqa tərəfdənsə Dağıstana və Əlbürz dağına bitişən Şəki vilayətidir. Dədə-babadan oranın hakimi olan Həsən bəy şirvanşahiyyə kökündəndir.

Şəki qalalarının olunmasının zikri:

Süleyman şanlı xaqanın (Şah İsmayılın - Ş.F.) hakimiyyəti zamanı Kaxet Gürcüstanının hakimi Ləvənd Gürcü, Şəkiyə qoşun çəkdi və onunla Şəki valisi arasında hərb vaqe oldu, Həsən bəy gürcülərlə döyüşdə şəhid oldu. Şəkinin əzəmət sahibləri onun oğlu Dərviş Məhəmməd xanı öz hakimləri etdilər. Amma, o, atasının əksinə olaraq bu qüvvətli dövlət övliyalarının əleyhinə çıxıb, düşmənçiliyə başladı, ondan dəfələrlə xilaf əməllər zahirə çıxdı. Cənnətməkan şahın Şirvanın fəthi üçün ləşkər göndərdiyi vaxt, yuxarıda yazıldığı kimi, [Dərviş Məhəmməd xan] qızılbaş ordusuna şəbxun etdi. Buna görə də doqquz yüz əlli səkkizinci ildə (miladi 1551) cah-cəlallı iqbal döyüşçülərinin qələbə ayəli ordusu bu vilayətin fəthindən ötrü o tərəfə hərəkətə gəldi. Hümayun şahın

yürüşü xəbəri ətraf yer hakimlərini [də] həyəcana gətirdi, Ləvənd xan Gürcü o həzrətə xidmətkarlıq kəmərini belinə bağlayıb, ümid üzünü aləmpənah dərgaha gətirdi, Ərəs (Ərəş olmalıdır – Ş.F.) şəhərində şahın dərgahına gələrək şahanə nəvazişlərlə sərəfraz oldu. Dərviş Məhəmməd xanın adına hümayun nəvaziş və iltifat məktubları yazılaraq, onu da öz eli ila birlikdə tabe olmağa dəvət etdilər. Əbədi səadətli bu dövlətdən öz bəxtinin dönüklüyünə görə üz çevirən xan, qalalarının möhkəmliyinə arxalanaraq, üzünə müxalifət qalxanı tutdu, bəzi Şəki sərbazları da Kiş qalasını möhkəmlədib oraya sığındılar. Dərviş Məhəmməd xanın özü isə olduqca uca və möhkəm olan Gələsən və Görəsən qalasına getdi. Hələ şövkət sahiblərinin heç biri o qalanı fəth edə bilməmişdi. Dərviş Məhəmməd xan orada qaladarlığa başladı. Onun bir dəstə adamı isə Əlbürz dağının ətəyindəki möhkəm bir yeri özlərinə sığnaq* edərək, cəngə amadə oldular. Zərrənin günəşlə müqayisəsi nisbətində olan o dəstənin müxalifəti və inadkarlığından ali mənsəbli şəhriyarın qiyamət gününü xatırladan qəzəbinin şöləsi zəbanə çəkdi, zəfər nişanlı ordu mübarizlərindən Sevindik bəy Qorçibaşını, Bədr xanı və Şahqulu Sultan Ustaclını bir dəstə müzəffər əskərlə Kiş qalasının fəthinə, Abdulla xan Ustaclını və Ləvənd xan Gürcünü Gələsən və Görəsən qalasına, möhrdar Şahqulu Sultan Ustaclını [isə] qüvvətli döyüşçülərdən ibarət bir dəstə ilə Sığnaqa yolladı. Adlı-sanlı əmirlər və qələbə şüarlı əsgərlər mühasirə və qalatutma işinə başladılar, top, zərbzən və badlic** zərbələri ilə qala divarlarını çatlatdılar, bürc və barılara sədəmə yetirdilər. Qalada mühasirəyə düşənlərin sifətlərində acizlik və ruh düşkünlüyü (enkesar) müşahidə olundu. Kiş qalasının kutvalı qılınc və kəfənlə şəhriyarın dərgahına gəlib, qala divarlarının açarlarını ona verdi, bəxşişlərlə mükafatlandırıldı. Şahın fərmanı ilə qala viran, bürc və barılarsa yerlə yeksan edildi. Bu qalanın fəthindən sonra dünya xosrovunun iqbal ordusu Sığnaqa tərəf hərəkətə gəldi. Kiş qalasının fəthindən və səadətli padşahın yürüşündən xəbərdar olan Sığnaq camaatı o həzrətin heybətindən təşvişə düşərək, xalqlara pənah verən dərgaha dəstə-dəstə gəldilər, öz acizlik və çarəsizlik sifətlərini ethiyac torpağına sürtdülər. Etdiyi əməldən peşiman olan Dərviş Məhəmməd xan bir gecə Gələsən və Görəsən qalasından çıxıb, bərk heyrət və sərgərdanlıqla rahat bir yer axtarırdı ki, özünü bu qanlı burulğandan (vərte) qurtara bilsin. O, bəxtinin qaralığından dörd yüz nəfər əzilmiş döyüşçüsü ilə Abdulla xan Gürcünün (?)

ordusunun yaxınlığından keçdi. Şüarları igidlik olan qazilər xanın fərar etməsindən xəbərdar olaraq, təqibinə başladılar, azacıq məsafə qət etdikdən sonra o dəstəyə çatdılar. Dərviş Məhəmməd xanın camaatı çarəsiz hərəkət (hərəkətül-məzbuhi) etdilər və onların əksəriyyəti qazilərin iti qılıncları və qanlar tökən xəncərləri ilə qətlə yetdi. Dərviş Məhəmməd xan Çərəndab Sultan Rumlunun Kosa Pirqulu adin mülazimi ilə vuruşdu və Kosa Pirqulu gözəl xistətli və tərifəlayiq xasiyyətli padşahın iqbal gücü sayəsində ona qalib gəldi, başını bədənindən ayırıb ali dərgaha gətirdi, onu o həzrətin səadətmənd səməndinin (atının) ayağı altına atdı və mükafatlanaraq sərəfraz oldu.

Beyt

Bir baş ki, etməyə şaha itaət,
Bədəndən ayrıla gərək nəhayət[147]

Şəki vilayəti tamamilə qüvvətli dövlət övliyaları tərəfindən zəbt olundu, oranın hər yeri düşmənlərdən təmizləndi və şərafətli şah torpaqlarına qatıldı.

HƏZRƏT CƏNNƏTMƏKAN ŞAHIN QƏZAVATININ ŞƏRHİ, İMANSIZ GÜRCÜ KAFİRLƏRİNİN MƏHV OLUNMALARI VƏ GÜRCÜSTANIN FƏTHİ HAQQINDA SÖHBƏT

Dindar [və] şəriətpərvər padşahın Həqqpərəst fikri daim cəhad işlərinə başlamaq olduğundan, anıma Şərq və Qərb ölkələrinin qüvvətli düşmənləri ilə əlaqədar məsələlərlə məşğul olduğu üçün, istəyi təxirə salınırdı. Amma, [o,] fürsət tapan kimi xristian (nəsari) Gürcüstanın qala və başqa yerlərinin qəzasına[148] yollanırdı. Hökmranlığının və cahanı bəzəməyinin səadətli günlərində həmin diyara dörd dəfə ləşkər çəkdi, bir neçə dəfə də ləşkərlər yolladı. Pak din mücahidlərinin (yəni qızılbaşlarının —

[147] Beytin farscası:
Səri k-u tovqe-fərmanəş nəxahəd
Əgər əz tən ceda oftad şayəd.
[148] Qəza - dini müharibə, müqəddəs yürüş - Ş.F.

Ş.F.) qılıncı ilə Gürcüstanın yeddi ölkəsi şahın hakimiyyəti atına keçdi və o yerlərin hakimləri o həzrətə tabe olan və həzrət tərəfindən təyin olunan adamlar oldular. Onlar cizyə* və xərac verməyə boyun olub xütbə və sikkələrini o həzrətin şöhrətli adı və yüksək (sami) ləqəbi ilə bəzədilər. Kaxet, Kartil (Kartli - Ş.F.) və Mesq (Mesxeti - Ş.F.) vilayətləri barədə yığcam şəkildə bunları demək olar:

Şirvan və Şəki vilayətləri Gürcüstan vilayətlərinə (Gürcüstanın) yaxın olduğundan, o yer hakimlərinin qüvvəti olmadığı üçün bəzi vaxtlarda gürcü kafərləri həmin mülklərin ətraf yerlərinə ləşkər çəkir, müsəlmanlara zərər yetirirdilər. [Buna görə də] həmin yerlərin sultanları özlərini müdafiə edir, arada düşmənçilik və dava-dalaş başlayırdı. Şahın zavala uğramayan iqlalının təntənəsi xəbəri o vilayətdə (Gürcüstanda - Ş.F) yayılan vaxt, yuxarıda yazıldığı kimi, Ləvənd xan Gürcü, padşahın iltifat kölgəsinə müraciət edərək, itaət və xərac ödəmək (xəracgozari) məsələlərinə başladı.

[Həmçinin] Gürcüstan valilərindən Qərqərənin (mətndə səhvən "Fərfərə" - Ş.F) oğlu Keyxosrov da bir qul kimi (bəndevar) özünü ali şah mülazimləri silkinə mənsub etdi. O, daim bu səltənətə xidmət etməklə o həzrətin (Şah Təhmasibin - Ş.F) köməyinə belə bağlayırdı. Amma, Kartil valisi Luvarsab, Başıaçıq valisi və Dadyan valisi dəfələrfə müxalifət edərək, lazımi qədər itaət göstərmir, ali hümayun şaha müti olan yuxarıda adı çəkilən Keyxovrovun ölkəsinə dəxalət edirdilər. Bir neçə dəfə onlara qarşı igid əsgərlər göndərilmiş, Başıaçıq və Dadayeli valiləri tənbeh olunmuş və başlarını öz ədəb ciblərinə qoymuşdular. Luvarsabdan da, bəzi vaxtlarda, yöndəmsiz hərəkətlər görünmüş və o, İslam diyarının kənar yerlərinə əl uzatmışdı. Buna görə də, gürcü azğınlarının şah tərəfindən cazalanmaları lazım bilinərək, qəzaya qərar verildi və qəzavat savabına yetmək arzusu bu istəyi həyata keçirdi.

ALLAHIN KÖMƏYİ İLƏ HÜMAYUN MƏİYYƏTİN BİRİNCİ DƏFƏ GÜRCÜSTANA YÜRÜŞÜNÜN ZİKRİ

Doqquz yüz qırx yeddinci ildə (miladi 1540) ədalətli şah tərəfindən qəza və cəhad niyyəti qərara alındı, o nişat, seyr və şikar məqsədilə Qarabağa tərəf yollandı, oradansa döyüşlər sınağından çıxmış bir dəstə igid döyüşçü ilə Gürcüstana hücuma keçdi. Qaranlıq ürəklərdən də qara olan bir gecə vaxtı onlar Tiflis şəhərinə

hücuma keçdilər və qaranlıq (zülmətabad) gecə vaxtı kafərlərə qarşı qarət və qətl alovu yandırıldı. Belə ki, onların kişiləri iti qılınca yem, qadın və qızları isə müzəffər qazilərə əsir oldular. Luvarsab tərəfindən Tiflis hakimi olan Kolbad Gürcü bir dəstə gürcü ilə qalaya sığınsa da, o, islam döyüşçülərinin qorxusundan aman istəyərək oradan çıxdı, müsəlman olmaq səadətinə yetişdi. Bəzi gürcü əmirləri isə qələbə nişanlı əskərlərin qorxusundan olduqca uca və möhkəm olan Berəbs (?)[149] qalasına pənah apardılar, amma həmin qala fələk məqamlı və dünya ehtişamlı padşahın fərmanı ilə islam qoşununun mübarizləri tərəfindən mühasirəyə alındı. Qaladakılara bərk qorxu üz verdiyindən onların qalanı təslim etməkdən başqa çarələri qalmadı, qalibiyyətli qazilər də o məkanda sakin olan kafirlərin (gebran) bütün yerlərini zəbt etdilər. Bəxtləri yar olan və kəlmeyi-şəhadətlərini deyən hər adam nicat tapdı, başqa kafərlərsə qətlə yetirildilər. Ləvarsab isə özünü başqa bir dəstə ilə o zəlalətli (zəllal) qaladan Bumədkur (?) adlanan bir dağa çatdırdı. Həmin dağ ucalıqda Əlborz dağı ilə bərabərlik iddiası edirdi. Dağın qülləsinə çıxmaqsa təsəvvürə belə gəlmirdi. Mücahid bir qazi olan padşah tam şövkət və sərəfrazlıqla öz himmət şahbazını o zülmkarların başçısına (Luvarsaba - Ş.F.) doğru havaya qaldırdı. İqbal əskərləri o dağa gedərək, Əlvənd dağına bənzər həmin qalanın qülləsinə çətinliklə qalxdılar və düşmənləri ələ keçirdilər. Alçaq kafərlərin çoxu həmin çətin keçilən (məzayeq) dağda qətlə yetirildi, qalan adamlarsa öz idbar diyarlarında sərgərdan oldular. Oradan qaçan Luvarsab özünü sərt dağlarla və ağaclarla örtülü meşələrə salmaqla döyüş meşəsi şirlərinin caynaqlarından qurtardı. Gürcülərin (64) hamısına qulaqburması (gusmalı) verildiyi üçün, müzəffər hümayun ordu Tiflisə tərəf hərəkətə gəldi, o yerlər üsyankar kafirlərin çirkin vücudlarından təmizləndi, qələbə cilovu geriyə tərəf istiqamətləndi.

HÜMAYUN CƏNNƏTMƏKAN ŞAHIN İKİNCİ DƏFƏ GÜRCÜSTANA YÜRÜŞÜNÜN ZİKRİ

Əlqas Mirzədən müxalif hərəkətlərin baş verdiyi doqquz yüz əlli üçüncü ildə (miladi 1547) baş vermiş dövr hadisələri barədə [yuxarıda] məlumat verildi. [Yazıldı ki,] onu cazalandırmaqdan ötrü

[149] Qalanın adı düzgün yazılmamışdır, oxuya bilmədim - Ş.F.

qoşun göndərildi və o, anasını aləmpənah dərgaha göndərərək, yalvarış məqamında oldu. Buna görə də, cənnətməkan şah Şirvan yürüşündən imtina edərək, başı asimanadək ucalan bayrağın kölgəsi altında yığışmış ağır bir ləşkəri qışın ortasında günəşin ceddi bürcündə* olduğu vaxt Gürcüstan qəzasına, imansız gürcülərin cəzalandırılması üçün Şurəgildən rəvan etdi. İqbal ordusu Bəhram qəzəbli döyüşçülərlə irəliləyib həmin şəhərdə dayandıqda, Kaxetin Zekəm və Kerəminin hakimi Ləvənd xan, həmçinin əhali arasında "Boqrat" kimi məşhur olan Məlik Boqrat Başıaçıq cahanpənah dərgaha gələrək, peşkəş və bac-xərac gətirirdilər.

Həmin iqbal yürüşündə o, bir qul kimi zəfər şüarlı məiyyətin mülazimi sifətində iştirak etdi. O vaxtlarda qışın sərtliyi və soyuğun şiddəti (sovrət) elə bir həddə gəlib çatmışdı ki. Kür çayının suyu donmuş və həmin donmuş su möhkəmlikdə sonqe-xara (qranit — Ş.F.) ilə bərabərlik iddiası etməkdəydi gecə-gündüz yağan qarın çoxluğundan Gürcüstanın dağ və düzənlikləri gözlərə eyni səviyyədə görünürdü.

Belə bir vəziyyətdə İslam döyüşçüləri küfr və zülm adamlarının üzərinə hücuma keçdilər. Onlar imansız gürcülərin yaşadıqları yerlərə çatdıqda, qazilərin Yəmən qılıncı parlamağa başladı və həmin ölkənin döyüş meydanlarını kafər və keşişlərin qanı ilə qızartdılar, o bədməzhəblərin evlərini qəhr atəşlərinə yaxdılar, kinli qoşunun əlinə bol qənimət keçdi, qalibiyyət və bol qənimətlərlə həmin iqbal yürüşündən qayıdaraq, Bondiyə (?) gəldilər. Yol əsnasında Məlik Başıaçıq izn alıb, qiymətli xələtlər və bol nəvazişlərlə öz ölkəsinə getdi. Amma, Ləvənd xan bir neçə gün kamyab şahın ordusunda mülazimətdə qaldı. Gəncə şəhərində onun sədaqəti və bəndəliyi (qolamı) yenidən şahın darülzərbində (pul kəsilən emalatxanasında — Ş.F.) sikkə hüququ qazandı və şah onu [da] qiymətli xələt, bol ənam, qızıl iplərlə toxunulmuş paltar (səyab), tazı at və daş-qaşla işlənmiş silahlarla sərəfraz edərək, öz vilayətinə göndərdi. Doğrusunu Allah bilir!

FƏLƏK QƏDİR-QİYMƏTLİ VƏ BAŞI GÖYLƏRƏ UCALAN ŞAHIN ÜÇÜNCÜ DƏFƏ GÜRCÜSTANA YÜRÜŞÜ

Şəki vilayətinin bu güclü dövlət övliyalarının əlinə keçdiyi doqquz yüz əlli səkkizinci ildə (miladi 1551), hələ fələk əzəmətli ordu o vilayətdə olarkən, Qərqərənin oğlu Keyxosrov aləmpənah

dərgaha belə bir məktub göndərdi: "Luvarsab, Valhuş və Şərmzan Gürcü onun diyarına öz əzab əllərini uzadaraq, bəzi ölkələrini əlindən almışlar. Oraya Rumdan gələn İsgəndər paşa da Ərdvanuh (?) qalasını fəth etmişdir". Keyxosrov o həzrətə tabe olan və xərac verən adamlardan olduğundan, şah öz zərrin iqballı [şahin] quşunu ona kömək etmək və cəhad mərasiminə başlamaqdan ötrü həmin səmtə pərvazlandırdı, Şəkidən hücuma keçdi, onlar eniş-yoxuşlu nahamvar yollardan keçərək, Gürcüstan vilayətinə daxil oldular. Zəlalət şüarlı kafirlər dağ kəmərbəndlərini və darısqal mağaraları özlərinə aramgah etdilər, onların bir dəstəsi keçilməz meşələrə pənah apardı, böyük adamlardan və aznaurlardan ibarət olan başqa dəstə isə qalalara sığındılar. İslam qoşununun mücahidləri öz igidlik və mərdanəlik qədəmlərini həmin müşriklərin* olduqları yerlərə çatdırdılar və bir neçə min günahkar (fəccar) adam qazilərin ox və qılınc zərbələri ilə gedər-gəlməz yola (bəsəl-məsir) yollandı, o vilayətin bir neçə qalası fəth olundu, çoxlu gürcü nejadlı hurilər və Yusif çöhrəli qılmanlar əsir götürüldü, müzəffər qoşunun əlinə bol qənimət keçdi. Gürcü böyükləri uca bir dağ ətəyindəki sal daşlar üzərində inşa olunmuş Dərnar (?) qalasına və oranın kilsəsinə sığındılar. Qalanın hündürlüyü Çərxi-Əxzərb** bərabər, möhkəmliyi isə qəleyi-Xeybər*** kimidir. Ali məqamlı, cənnətməkan həzrət şah Bədr xan Ustaclı və Şahverdi Sultan Ziyadoğlunu qüvvətli bir dəstə ilə həmin qalanın üstünə yolladı, onlar da gedib oranı mühasirəyə aldılar. Bekar qala bilməyən bahadırlar və ad-san axtaran mübarizlər bellərində qılınc, başlarında qalxan qalaya mərdanə bir hücum edərək, həzrət Pərvərdigarın köməyi ilə hasarın başına (65) çıxdılar. Bunu görən nəsarilər (xristianlar - Ş.F) çaşbaş qaldılar, aydın dinin (islamın) ecazı ilə onların gediş-gəliş yolları bağlandı, özlərində nə qaçış yolu, nə də döyüş qüdrəti tapa bildilər. Onların kişiləri qılınca yem, qadın və qızları isə əsir oldular. Həmin qaladakı kilsə Pərvərdigarın sənət əsərlərindəndir. Bəşər övladından kiminsə elə sənətkarlıq edə bilməsi əqlə sığmır. Xüsusilə, o qalanın ortasında bir dağın içərisi on gəz hündürlüyündə kəsilmişdir və orada böyük adamların yaşamaları üçün dörd ədəd geniş otaqdan (soffe)**** ibarət (bir kilsə) düzəldilmişdir. Çöl və daxili divarlar üzərində qızıl və mavi lacivərdlərlə bütlərin (əvsan və əsnam) şəkilləri həkk olunmuşdur. İkinci otağın ortasında bir taxt vardır və o taxt üzərində qırmızı qızıl və gözəl cavahirlərdən düzəldilən bir büt əyləşmişdir ki, həmin

cansız bütün gözlərində iki qiymətli və parlaq ləl vardır. Qiymətləri yaxşı bilən cəvahirşünaslar (cövhəryan) o ləllərin hər birinin qiymətini əlli tümən məbləğində qiymətləndirdilər. Kilsənin içərisində, kilsə evləri istiqamətinə, yüz əlli zər istiqamətinə yaxın olduqca darısqal və ensiz bir qranit (cənge-xara) yol gedir. Zaman hadisələri və dövran işlərinin dəyişməsi (enqelab) nəzərə alınaraq, burada gizlənməkdən ötrü, iki gizli yer (köşk) də hazırlanmışdır. Kilsənin çöldəki evlərində polad qapılar, daxildə isə bir qızıl qapı düzəldilmişdir.

Cənnətməkan şah bu kilsənin tamaşasından sonra, küfr ayinli həmin məbəddə dinsiz keşişlərin iyirmi nəfərini atəşyağdıran şəmşirlə qəbr evinə göndərdi. Yetmiş mən* ağırlığında olan və yeddi dəfə qaynadılmış misdən tökülən kilsə zəngini [qızılbaşlar] gürcülərin həyat şüşəsi kimi sındırdılar, qızıl qapılarını zəbt etdilər, o həyatı puç düşmənlərin xəzinələrindəki başqa şeyləri və ziynət - cəvahiratı xozaneye amereyə** apardılar, qalanı dağıdaraq, hasarını yerlə yeksan etdilər. Qala deşiklərinə soxulmuş və gizli yerlərdə (nehanxanə) gizlənən Ənan bəy, Ləvay, Şərmzan və başqa gürcü əmirləri dəfələrlə gələrək, şahın ayağı altındakı yeri öpmək səadətinə yetişdilər. Hümayun ordunun gəlişinə görə İsgəndər paşanın və Rum əsgərlərinin müdaxiləsindən rahət olmuş Qərqərənin oğlu Keyxosrov cahanpənah dərgaha gələrək, layiqli peşkəş gətirdi, şahanə şəfəqqətə və iltifata layiq görüldü. İki idbar müxalifətçi olan Valhuş və Şərmzan isə qətlə yetirildilər, onların Lumək (?) və Ağşəhr [adlı] ülkalan Keyxovrova verildi.

[Şah] oradan çıxaraq, zəfərlə Kartil ölkəsinə gəldi, müzəffər qoşun o vilayətin ətraf yerlərini tarac edərək Luvarsabın təbəələrindən olan və ələ keçən hər bir adamı cəhad qılıncına tapşırdı. Həmin vilayətdən çoxlu mal ələ keçdi, saysız-hesabsız əsir götürüldü, əzəmətli qazilərin əllərinə xeyli mal-qara və qənimət düşdü. [Sonra] yürüş cilovu Qarabağa istiqamətləndi və hümayun qışlaq orada oldu.

HƏZRƏT CƏNNƏTMƏKAN ŞAHIN DÖRDÜNCÜ DƏFƏ GÜRCÜSTANA LƏŞKƏR ÇƏKMƏYİ

Xeyirli bu yürüşün və dördüncü dəfə keçirilən bu gözəl səfərin şərhi belədir: Həzrət cənnətməkan şah və Rum, Misir və Şam məmləkətlərin hökmranı Sultan Süleyman arasında doqquz yüz

yetmiş birinci ildə (miladi 1554) sülh sazişi (mosalehe) bağlandıqda sərhədlər belə müəyyənləşdirildi: Hər iki tərəfdən qətl və qarətə məruz qalan Gürcüstan vilayətlərindən Mesq, Kartil və Kaxet bu tərəfə aid edildi, Başıaçıq, Dadyan və Kuryan Trabzon və Trablisə qədər Rum hökmranına verildi. Qızılbaş mübarizlərinin qılınclarının qorxusundan uca dağlara pənah aparan Kartil valisi Luvarsab əlinə fürsət düşdükcə ayağını ədəb dairəsindən kənara çıxarır, yaramaz hərəkətlər edir, Tiflis vilayətinə və qızılbaşların əllərinə keçmiş mahallara əl uzadırdı. O yerlərin əhalisi də məzhəb və millət baxımından bir olduqlarından onun tərəfinə keçirdi. [Buna görə də,] cahanı bəzəyən şah məsləhəti belə oldu ki, fəth ayəli bayraqlar o tərəfə dalğalansın, o bədməzhəb və alçaq fikirli adamları dəf edərək, Luvarsabın bütün məmləkətlərini İslam məmləkətləri sırasına daxil etsin. Qərara alındı ki, Yəcuc və Məcuc kimi imansız müşriklərdən olan hər kəs, "Yəcuc və Məcuc yer üzündə fəsad edir"[150] [ayəsində] deyildiyi kimi əgər cizyə verməzsə, "müşriklər [sizinlə müharibəyə gəldikləri kimi] siz də onlarla müharibəyə gedin"[151] [ayəsinə] uyğun olaraq, iti qılıncın hökmü ilə onun həyat kökü o vilayətdən təmizlənsin. Bu cür haqlı niyyətlə də fəth ayəli ordu o tərəfə doğru hərəkətə başladı. Tərablu (?) islam qoşununun dayanacaq yeri olanda o diyarın kafirləri zəfər nişanlı qazi qılınc və oxlarının qorxusundan, piyadaların və süvarilərin get-gəlləri olduqca çətin olan meşə və çəngəlliklərə səpələndilər, onların bir dəstəsi isə uca dağlara və möhkəm qalalara sığındılar. Cihad meydanının mübarizləri döşlərinə təvəkkül və mərdanəlik qalxanları tutaraq, meşə və çəngəlliklərə üz tutdular və onları dəstə-dəsğə ələ keçirərək, təəssüf bilməz qılınclardan keçirdilər. Onların qadın və övladlarını əsir götürüb, xeyli mal-qaraya və qənimətlə sahibləndilər. Luvarsab yüz hiyləgərliklə canını bu təhlükədən qurtarıb özünü qorxusuz bir yerə çatdıra bildi. Tərablu vilayəti o müşriklərin şəriklik vücudlarından pak olduqdan sonra iqbal ordusu Luvarsabın paytaxtı olan Qoriyə tərəf yönəldi. [Onlar] çətin və ağaclarla dolu yollardan keçdilər və o vilayət də həmin yaramaz kafirlərin tör-töküntülərindən təmizləndi. Gürcü aznaurlarının böyükləri bir neçə qala və hasarı möhkəmlədərək, o yerlərə döyüşkən dəstələr topladıqları üçün, ölkələr fəth edən bayraqlar qalalar səmtinə

[150] İfadənin ərəbcəsi: "İnnə Yəcucə və Məcucə mufsidunə fi-l-ardi".
[151] İfadənin ərəbcəsi: "Qatilu-l-müşrikinə kaffətən..."

dağlalandı. Əvvəlcə Mərdabut qalasını mühasirəyə aldılar. Bu qala mühafizəçiləri hasarın möhkəmliyinə arxayın, olub döyüşə iqdam etdilər. Şüarları qəhrəmanlıq olan qazilər hasarın hər tərəfindən cəngə başlayaraq, mühasirəyə düşənlərin vəziyyətlərini çətinləşdirdilər. Bədməzhəb gürcülər öz acizliklərini müşahidə edib, "əl-aman" deyərək fəryad etməyə başladılar. Qala kutvalı Parsədan bəy çölə çıxıb qalanı təslim etdi. O qalanın fəthindən sonra o yerin ən möhkəm qalalardan olan və Luvarsabın anasının yaşadığı Amdin qalası üzərinə yürüş etdilər. Amdin elə hündür qaladır ki, sanki onun memarı həmin qalanı göyün dairəvi səthində, hətta xəyal quşlarının belə onun hündürlüyünə uçub çata bilməyəcəyi bir yerdə bina etmişdir və əgər dövran hadisələrinin əli oraya uzansa belə heç onun toz-torpaqlı ətəyinə də çata bilməzdi. O möhkəm qalanın qoruyucuları qazilərin dəfinə yönəldilər və döyüş tonqalı alovlandı. [Amma,] iqbal qüvvəsi sayəsində həmin Xeybərə bənzər qala da kiçik bir səy ilə fəth olundu. Luvarsabın anası aznaurların əksəriyyəti kimi əsir alındı və o dinsizləri cahad qılıncı ilə cəhənnəmə göndərdilər. Bir neçə qala və hasar da Şahverdi Sultan Ziyadoğlunun səyi və mərdanəliyi ilə dövlət övliyalarının əlinə keçdi. Bu yürüş zamanı dərya kimi dalğalanan döyüşçülər tərəfindən otuz min nəfərdən çox əsir götürüldü, onların arasında əyanların və aznaurların qadınları, qızları və oğlanları da vardı ki, onları xüms* əvəzinə şahın sərkarına verdilər. Luvarsab bu dəfə özünü elə gizlətdi ki, onun olduğu yer barədə heç nə məlum olmadı. Buna görə də, gözəl xüsusiyyətlərə malik (səfvətneşan) dindar padşah yürüş cilovunu Gürcüstandan Qarabağa döndərdi, o hüdudda seyr və şikardan sonra paytaxtı [Təbriz] zavalsız dövlətin dayanacaq yeri oldu.

SƏBƏBLƏR SƏBƏBİNİN (ALLAHIN - Ş.F.) İRADƏSİ VƏ İSTƏYİ, HƏMÇİNİN KAMYAB ŞAHIN İQBAL GÜCÜ İLƏ LUVARSABIN ÖLDÜRÜLMƏSİNİN ZİKRİ

Gürcüstan valiləri zümrəsindən olan Luvarsab öz şücaət və dilavərliyi, habelə köməkçilərinin (əvan) və təcrübəli adamlarının çoxluğu ilə [başqalarından] üstün idi. Elə buna görə də, ondan daim əmrə tabe olmamaq və lovğalıq əlaməti zahir olmaqdaydı, itaətə gəlmir və xərac verməkdən boyun qaçırırdı. Həzrət cənnətməkan şah onun dəfi üçün səy göslərmiş, yuxarıda yazıldığı kimi, bir neçə

dəfə Gürcüstana yürüş etmişdi, amma, Luvarsabın həyat qədəhi (peymane) hələlik dolmadığından, o, ələ keçmirdi. Həzrət cənnətməkan şahın Gürcüstandan dördüncü qayıdışından sonra Luvarsab yenidən Qoriyə gəldi və müşriklərin qalıqları onun yanında toplaşdılar, bir-iki il ömür sürdülər. Luvarsabın ömrü başa çatdığından o, yenidən itaətsizliyə başladı, dinpənah şahla müxalifət məqamında israrlı oldu. Doqquz yüz altmış üçüncü ildə (miladi 1555) Qoridən çıxaraq, bu divanın əlində olan Luhəs (?) qalasına gəldi, üsyana və tüğyana başladı. O sərhədin mühafizəsi ilə məşğul olan Qarabağ bəylərbəyi Şahverdi Sultan Ziyadoğlu Qacar onun tüğyanından xəbər tutan kimi Qarabağ döyüşçülərini topladı və onun dəfinə yollandı. Yaşadığı qalaya yaxınlaşanda Luvarsab müqavimət gücünə malik olmadığı üçün hiyləgərliklə fərar etməyi qərara aldı. Qızılbaş döyüşçüləri gürcüləri təqibə yollanıb, həmin vilayətin hər tərəfinə səpələndilər, qarətlə məşğul olmağa başladılar. Bu əsnada Luvarsab məkr və hiyləgərlik pusqusundan (kəmin) çıxdı, bir dəstə aznaurla Şahverdi Sultan ləşkərinin mərkəzinə (qəlb) doğru hücuma keçdi. Qızılbaşların əksəriyyəti pərakəndə olduğundan, Şahverdi Sultanın yanındakı az miqdar döyüşçü, mərdanə döyüşmələrinə baxmayaraq, məğlub oldular. Döyüşçülük qayda-qanununa əməl edən Ziyadoğlu özünü meydandan sağ-salamat çıxardı, gürcülərsə qaziləri təqib etməyə başlayaraq, səkkiz yüzədək qızılbaşı şəhadət dərəcəsinə yetirdilər. Bir dəstə incil* oxuyan (incilxan) keşişlə birlikdə Luvarsab bir qayaya qalxaraq, orada dayanmışdı. Məhəmməd Sultan Mirçəni bir dəstə qazi ilə gedib onlarla rastlaşdı və zərurət üzündən döyüşə başladı. Luvarsab öz igidlik və mərdanəlik atını irəli sürərək, Məhəmməd Sultan Mirçəniyə həmlə etdi. İlahinin təqdiri ilə onun atı yıxıldı və Luvarsab atından ayrılmış oldu. Çəni qazilərindən olan Zakir adlı bir adam ona bir neçə ağır yara vurdu və kafərlər onun üzərinə hücum etdilər. Luvarsabın atını tutan Məhəmməd Sultan ona süvar olub aradan çıxdı, gürcülər adı çəkilən Zakiri bir neçə çəni qazisi ilə birlikdə qətlə yetirdilər. Luvarsalın da ömrü və dövləti devrildi, elə o ləhzə keçindi. Gürcülər Luvarsabın cəsədini götürüb onun mədfən yerinə arararaq dəfn etdilər, oğlu Səmayunu (Səmayun-Ş.F.) onun yerinə hakimliyə çıxartdılar və Qoridə yaşamağa başladılar.

LUVARSABIN ÖLDÜRÜLMƏSİNDƏN SONRA GÜRCÜLƏRİN VƏZİYYƏTLƏRİNİN QISA TƏSVİRİ VƏ ONUN OĞLU SƏMAYUN XANIN ƏBƏDİ DÖVLƏT ÖVLİYALARININ ƏLİNƏ DÜŞMƏSİ

Səmayun xan atasının yerinə Kartil xristianlarının hakimi olub, dörd-beş il Qoridə hakimiyyət sürdü, gürcü didərginləri (pərakəndegan) hər tərəfdən gəlib ona qoşuldular və onun ətrafına çoxlu əhali yığıldı. Səmayun da elə atası kimi xilaf və üsyan yolunu tutdu. Doqquz yüz altmış səkkizinci ildə (miladi 1560) boş xəyala düşərək, Tiflisin fəthindən ötrü özünün qaldığı yerdən hərəkətə başladı. Başqa xristian hakimlərindən də kömək istədiyindən, ətrafına çoxlu döyüşçü topladı. Ləvənd xanın oğlu Gorgin də atasının izni ilə Kaxetdən çıxdı, məzhəb təəssübü və xalqın tələbi ilə ona çox adam qoşuldu. Xülasə, gürcü əskərlərinin sayı olduqca çoxaldı. Bu xəbər Ziyadoğluya çatdıqda, o, Qarabığın əmirlərini və ora yaxın yerlərin döyüşçülərini toplayaraq, müşriklərin üzərinə yürüş etdi. Qazilər gürcülərin qazdıqları arxı torpaqla doldurub, oradan adladılar, müşriklərə çataraq, həmin zəlil adamların önündə döyüş səfi qurdular. İslam dəstələrinin çərxçiləri gürcülərin üstünə tökülüşdülər və cəng başlandı. Hər iki tərəfin igidləri dilavərlik edirdilər. Şüarları zəlalət olan kafərlər öz səbat ayaqlarını yerə dirəyərək, qazi həmlələrinin dəfinə başladılar. Kafərlərin hərbini və döyüş meydanında göstərdikləri səbrini müşahidə edən Şahverdi Sultan Ziyadoğlu birdən-birə mərkəz qoşunu ilə atını gürcü qoşununun səfinə sürdü. Meydanın tozu iti fırlanmaqda olan çərxi-fələyədək ucalırdı. Onun hücumuna tab gətirə bilməyən gürcülər qaçmağa başladılar. Ləvənd xanın oğlu Gorgin min nəfər zəlil kafərlə birlikdə qətlə yetirildi, qalan gürcülərsə pərakəndə oldular. Səmayun az miqdar adamla Qoriyə tərəf qaçdı, Ziyadoğlu isə zəfərlə Gəncəyə qayıtdı.

Mötəbər gürcü əmirlərindən olan Xəcnə (?) bəyi bir dəstə aznaurla əsir götürmüşdülər. Onları aləmpənah dərgaha göndərdilər. Ləvənd xan oğlunun təziyəsini saxlamaqdan ötrü çiyninə qara bir yun arxalıq (pəlas) saldığına görə aznaurlar və Kaxetin mötəbər şəxsləri [də] qaraya büründülər, matəmə qərq oldular. Baş verən hadisədən sonra Luvarsabın Davud adlı oğlu bir dəstə aznaurla atasına qarşı çıxaraq, əqlinin göstərişi və Allahın hidayəti ilə dünyaya pənah verən dərgaha üz tutdu, Qəzvin darüssəltənəsində

ədalət və din padşahının ayağı altdakı torpağı öpməklə səadətləndi, müsəlman olmaq şərəfinə yetişdi. Cənnətməkan şah Davudu nəvazişləndirib tərbiyə etməyə başladı, onu fərzəndlik mərtəbəsinə qaldırdı, ali divanın əlində olan Tiflis vilayətini və oranın ətraf təbəələrini ona bağışladı. [Beləliklə,] bir neçə müddət dərgah əmirlərinin biri Tiflis qalasının kutvalı kimi Davud xanın lələsi və işlərinin icraçısı (rateq və fateq) oldu. Anıma Səmayun xan və adamları da əvvəlki kimi müxalifətdə və inadkarlıqda qaldılar. Onlar Tiflis qalasını və onun ətraf yerlərini ələ keçirməkdən ötrü öz puç fikir və xəyallarından ayrıla bilmirdilər, elə buna görə də oraya iki-üç dəfə hərəkətə başladılar, amma heç bir iş görə bilməyərək geri qayıtdılar. Doqquz yüz yetmiş beşinci ildə (miladi 1567/68) Səmayun kafir döyüşçülərini toplayıb, çoxlu süvari və piyada əskərlə Tiflisə yollandı, Davud xan da özünün tabeliyindəki aznaurlar və müsəlman döyüşçüləri ilə birlikdə şəhərdən çıxaraq, qardaşı ilə hərbə yollandı. Tərəflər döyüşə başladılar. Qızılbaşlar və aznaurlar düşmənin çoxluğuna tab gətirə bilməyərək, vuruşmağı məsləhət bilmədilər, geri qayıtmaq və qalanı qorumaq fikrinə düşdülər. Qızılbaş dəstəsinin sərdarı İbrahim Xəlifə Qaramanlı öz cəhaləti və qürüru üzündən döyüşü davam etdirərək, meydanda şəhid oldu. Davudun adamları "[Ey David], bu gün bizim gücümüz Calut və onun ordusuna yetişməz"[152] deyərək fəryad etdilər, ondan dönüb, zərurət üzündən qaçış yoluna düşdülər, Tiflisə gəldilər. Səmayun xan qardaşına və onun adamlarına iki dəfə qalib gələrək, öz üsyan və tüğyanını artırdı. Elə güman edirdi ki, Tiflis əhalisi ona itaət edəcək və o, qalanı asanlıqla ələ keçirəcəkdir. [Buna görə də,] gürcü döyüşçülərini topladı, çoxlu adamla Tiflisə hücuma keçdi, qalanı mühasirəyə aldı. [Amma,] qızılbaşlar qalanın mühasirəsi və kutvallığına başladıqlarından, Səmayun xan özündə qüvvət görməyərək, qalanı fəth etmək niyyətindən daşındı. O, şəhər əhalisinin onu müdafiə edəcəklərinə də ümid bəsləməyib, qayıdış təbilini döydürərək Qoriyə getdi.

Səmayunun tüğyanı və onun İslam sərhədlərindəki böyük-kiçiyə əl uzatma xəbəri dərgaha çatdıqda belə bir fərman verildi: Şəki hakimi Şamxal Sıütan Çərkəs qacar və başqa tayfa əmirləriylə birlikdə Davud xana kömək məqsədiylə Gürcüstana gedərək, o yerləri Səmavunun şərindən təmizləsin. Əzəmətli əmirlər fərmana

[152] İfadənin ərəbcəsi: "La laqətə lən-əl-yovmə bi Calut və cünudihi".

əməl edib, doqquz yüz yetmiş altıncı ildə (miladi 1568) Gürcüstana ləşkər çəkdilər. Səmayun məsud döyüşçülərin gəlişindən agah oldu, özündə müqavimət gücü görmədiyindən, özünü o yerlərin uca dağlarına çatdırdı. Müzəffər qazilər də, Əlborz dağına bərabər olan və Qaf dağının qülləsi ilə yarışan o dağa tərəf hərəkətə keçdilər və onu hər tərəfdən mühasirəyə aldılar. Həmin möhkəm məkanı özlərinə pənah və kömək yeri seçən imansız kafərlər qazilərlə hərbə başladılar və cəng atəşi alovlandı. Səmayun bir neçə adamla cəhalət və qürura qapanıb qazilərə hücum edərək, onların bir-iki nəfərini şəhadət izzətinə yetirdi. Şamxal Sultanın qulamlarından Cəmşid adlı bir döyüşçü yaxınlaşıb, canüzən oxla Səmayunu zillət torpatına sərdi, qazilərin başqa birisi isə köməyə gələrək, onu əsir etdi. Öz sərdarlarını kəməndə giriftar görən gürcülər qaçışı qənimət bildilər və meydandan üz döndərdilər. Səmayunun ətrafındakı döyüşçülərin bəzisi öldürüldü, bəziləri isə əsir olundular. Əzəmətli əmirlərsə zəfərlə Gürcüstan qəzasından geri dönərək, Səmayunu başqa əsirlərlə birlikdə ali dərgaha yolladılar. Səmayun Qəzvin darüssəltənəsində müzəffər və kamkar xosrovun nəzərinə yetirildi. Onu bir neçə vaxt islama dönəcəyi niyyəti ilə hümayun sarayda (dövlələxane) saxladılar, amma o, öz xristian məzhəbindən (kişe-nəsara) dönmədi. Nəhayət, Səmayunu Ələmut qalasına saldılar. O, cənnətməkan şahın sağlığında həmin qalada qalmaqdaydı. İsmayıl Mirzənin hakimiyyəti vaxtı onu qaladan azad etdilər. Mərhum İsgəndər şanlı nəvvabın dövründəsə, o, səadətli islam məqamına (müsəlmanlığa - Ş.F.) gəldi və möminlərin qərarı və o həzrətin təsdiqiylə uca "qardaş" ("bəradər") ləqəbi ilə sərəfraz oldu, irsi mülkü ona qaytarıldı və bir müddət sonra Gürcüstana rəvan oldu. O, həqiqətən də İsgəndər şanlı nəvvabın haqqını unutmayaraq dövlətxahlıq etdi ki, bu haqda gələcəkdə bəyan olunacaqdır.

QƏNDƏHAR VİLAYƏTİ VƏ ZƏMİNDAVƏRİN, HİRMƏND [ÇAYI] KƏNARINDAKI GƏRMSİRATIN FƏTH OLUNMASI, HƏMÇİNİN O VİLAYƏTDƏ BAŞ VERƏN BƏZİ SABİQ HADİSƏLƏRİN ZİKRİ

Cənnətməkan şahın dövründə fəth olunan vilayətlərdən biri də Qəndəhar və onun ətraf yerləridir. Əhvalat belə olmuşdur: Adı çəkilən vilayət müzəffər xaqan Sultan Hüseyn Mirzə Bayqaranın hakimiyyəti zamanı onun və oğlu Sultan Bədiüzzamanın hökmüylə

Əmir Zəvalnun Ərğuna və onun oğlu Şüca bəyə verilmişdi. Mirzənin vəfatından və o sülalənin süqutundan sonra Xorasan məmləkəti Sahi bəy Sultan Özbəkin əlinə keçdi, onun xidmətinə gələn Şüca bəy nəvazişə layiq görüldü. Elə həmin il mərhum padşah Məhəmməd Babur Mirzə ibn Ömər Şeyx ibn Sultan Əbu Səid Mirzə ibn Sultan Məhəmməd ibn Mirzə Miranşah ibn əmirkəbir sahibqıran Əmir Teymur Gurəkan Kabuldan Qəndəhara ləşkər çəkdi, Şüca bəy və Əmir Zəvalnunun övladları ərğun tayfası ilə o həzrətlə hərb edərək məğlub oldular. Qələbə çalan Babur döyüşçüləri Qəndəhar vilayətini və Zəmindavəri Əmir Zəvalnunun xəzinə və dəfinələri ilə birlikdə ələ keçirib, o həzrətə verdilər. Babur o vilayət idarəçiliyini öz qimətli qardaşı Nasir Mirzəyə verərək, Kabula qayıtdı. Qəndəhar hadisəsindən xəbərdarı olan Şeybək xan Özbək saysız-hesabsız əskərlə o vilayətə doğru yürüşə yollandı. Əmir Zəvalnunun övladları onun qarşısına çıxdılar, özbək ləşkərinin çərxçisi kimi Qəndəhara hücum etdilər. Qala divarları arxasında qalan Nasir Mirzə nəhayət məmləkəti atıb, Kabula - qardaşının yanına getdi. Şeybək xan isə həmin vilayətin və onun mülkiyyətinin idarə olunmasını fərmanla ərğunlara verib geriyə qayıtdı. Süleyman şanlı həzrət xaqanın (Şah İsmayılın - Ş.F.) zühurundan və Şeybani xanın (Şeybək xanın -Ş.F.) o həzrətin cahanı fəth edən qılıncı ilə öldürülməsindən sonra Xorasan məmləkəti, yeri cənnətdə olan o padşahın əlinə keçdi. Ona sədaqət məktubu və peşkəş göndərən Şüca bəy bir müddət Qəndəhara sahiblik etdi. O, [hərdənbir] Heratda olan kamkar şahzadələrinə və qızılbaş bəylərbəyilərinə əl uzadırdı. Nəhayət, Zəhirəddin Məhəmməd Babur yenidən Kabuldan Qəndəhara ləşkər çəkdi və oranı mühasirəyə aldı. Şüca bəysə bir neçə vaxt qaladarlığa başladı və mühasirə müddətini uzatdı. Nəhayət, o, Herat bəylərbəyi Durmuş xan Şamlıdan kömək xahişi (esteğase) etdi. Durmuş xan da padşahdan belə bir iltimas elədi: "Şah dərgahına öz sədaqət və qulamlığını izhar edən Şüca bəyə qarşı bizim sədaqət və əlaqəmiz yol vermir ki, ona köməklik göstərməyək". [Buna görə də,] Babur padşah Durmuş xanın iltimasına görə Qəndəhar mühasirəsindən əl, çəkib Kabula qayıtdı. Şüca bəysə, özünün Molla Baqi adlı etibarlı bir adamını Qəndəharda qoydu və Xorasana getdi. Durmuş xanın orada olmadığı vaxt həmin dövlətxahlıq izhar edən Molla Baqi Qəndəhan baburilərə, həzrət Babur padşahsa o vilayəti oğlu Mirzə Kamrana verdi. Həmin tarixdən başlayaraq Qəndəhar Mirzə Kamranın adamlarının

əllərində qaldı. Hümayun cənnətməkan şahın cülusundan on bir il keçdikdən sonra, doqquz yüz qırx birinci ildə (miladi 1534/35) Sam Mirzə Qəndəharı fəth etmək həvəsinə düşüb oraya hücum etdi. Mirzə Kamrandan əvvəl hakim olan Xacə Kəlan qalanı, qoruyaraq səkkiz ay qaladarlıqla məşğul oldu. Mirzə Kamran Lahurda çoxlu döyüşçü toplayıb köməyə gəldi, aralarında bərk cəng başlandı. Sam Mirzə kamil mürşidin (Şah Təhmasibin - Ş.F.) razılığı olmadan bu işə başladığı üçün onun hərəkəti bəyənilmədi. Ağzıvar xan həmin mərəkədə qətlə yetdi, Sam Mirzə isə məqsədinə yetmədən geri qayıtdı. Fərmanla Xacə Kəlanı Qəndəharda qoyan Mirzə Kamran geri döndü.

Doqquz yüz qırx üçüncü ildə (miladi 1536) yeri cənnətlik olan hümayun şah altıncı dəfə Übeyd xanın fitnəsini dəf etməkdən ötrü Xorasana gəldi. O, Qəndəharı tutmaq və qızılbaşlarla hərbə başlamış cığataylardan intiqam almaq üçün yürüş cilovunu Herat darüssəltənəsindən Qəndəhara tərəf istiqamətləndirdi. Cah-cəlal ordusunun təntənəsi xəbəri o yerlərə yayıldıqda, hümayun fallı şah çətiri həmin diyara kölgə saldı. Yuxarıda yazıldığı kimi, Xacə Kolan orada qala bilməyərək, Sində* tərəf getdi. Onun Qəndəharda qoyduğu Gənci Xacə hümayun ordunun istiqbalına çıxaraq qala açarını təhvil verdi, adı çəkilən vilayət bu güclü dövlət övliyalarının əlinə keçdi, oranın idarəsi və mülkiyyəti Budaq xan Qacara verildi. Dünya xosrovunun İraqa tərəf qayıdışından sonra Mirzə Kamran yenidən ləşkər toplayaraq, Lahurdan çoxlu adamla Qəndəhara gəldi. Rum sultanının yürüşü və Əlqasın yağı olmasına görə həzrət cənnətməkan şahın İraq və Azərbaycanda işi çox olduğundan, artıq Xorasana yürüş etmək imkam müyəssər deyildi. Hərb qanun-qaydasına və zəmanəyə uyğun hərəkət edən Budaq xan Qacar özünü mühasirəyə məruz qoymayıb Qəndəhardan çıxdı, Mirzə Kamran geri qayıtdı.

Doqquz yüz əlli birinci ildə (miladi 1544) mərhum Məhəmməd Hümayun padşah ibn Babur padşah əfqan qoşununun hücumuna tab etməyərək Hind vilayətindən İrana gəldi. O, həzrət cənnətməkan şahin yanında Qəndəhar məsələsində Mirzə Kamranın kobudluğu barədə öz xəcalətini izhar edib dedi: "Əgər Qəndəhar fəth olunsa, onu şahın mülazimlərinə verəcəkdir". O həzrət etdiyi vədə vəfadar oldu, Qəndəharın müzəffər əsgərlər tərəfindən ələ keçirilməsinin ilk vaxtında Əskəri Mirzə həmin şəhəri o yürüş zamanı ləşkərin sərdarı və məşhur şahzadə Sultan Muradın lələsi

olan Budaq xan Qacara təhvil verdi. Elə o əsnada da şahzadə vəfat etdi. Hələ Hümayun padşahın işləri başa çatmamışdı ki, cığatay əhalisi tərəfindən o həzrət mülazimlərinin əmin-amanlığı üçün Qəndəharı yenidən Budaq xandan götürüb, Bayram xan Türkmana verdilər, düşündülər ki, o hər iki tərəfin dövlətxahıdır və həmin həzrətin işləri başa çatanadək Qəndəharı əldə saxlaya bilər. Hümayun padşahın Kabul və Bədəxşanda Mirzə Kamranla dava-dalaşda olduğu bir neçə ildə Qəndəhar Bayram xanın əlində qaldı. Həzrət şah, Hümayun padşahın ehtiramının saxlanılması və Bayram xanın xidmət və sədaqətinə hörmətə görə, Qəndəhar məsələsində etinasızlıq göstərdi, şəhəri ondan geri almadı. Bu o vaxtadək davam etdi ki, mərhum padşah öz kamına yetdi və Qəzneyni, Kabulu və Hindistanı tutdu, amma Qəndəharı hələ qızılbaşlara verməmişdi kı, padşahın qaçılmaz məsələsi ortaya çıxdı, aligövhər atasının yerinə möhtərəm oğlu Cəlaləddin Məhəmməd Əkbər* padşah oldu. [Amma,] o vaxt Şah Məhəmməd Qəllati Bayram xan tərəfindən Qəndəharda qalmışdı. Doqquz yüz altmış üçüncü ildə (miladi 1555/56) Zəmindavər hakimi Bahadır xan Özbək Qəndəhara ləşkər çəkərək, oranı Şah Məhəmməddən almaq istədi. O, şahın yanına bir adam göndərib dedi: "Qəndəhar o dərgahın mülazimlərinin olduğundan, bir qızılbaş ləşkəri göndərilsin ki, özbaşına tərzdə oranı işğal edən Bahadır xanın şəri aradan götürülsün, məmləkət qızılbaşların əllərində qalsın". Buna görə də, həzrət cənnətməkan şah Sultan Hüseyn Mirzə ibn Bəhram Mirzəni Əliyar Sultan Əfşar, Vəli Xəlifə Şamlı və bəzi əmirlərlə birlikdə Şah Məhəmməd Qəllatinin köməyinə yolladı. Vəli Xəlifənin oğlu Şahverdi Xəlifə bir dəstə şamlı döyüşçüsü ilə Bahadır xana hücuma keçərək qəfildən onun üstünə tökülüşdülər. Arada güclü döyüş oldu. Cəngdən sonra Bahadır xan Hindistana tərəf qaçdı, amma Şah Məhəmməd Qəllati məkr və hiylə ilə qalanı mirzənin və əmirlərin üzünə bağlayaraq, qaladarlıq etməyə başladı. Əzəmətli əmirlər Zəmindavər vilayətini tutdular və Qəndəhar işləri barədəki həqiqəti şaha ərz etdilər. Cənnətməkan şah doqquz yüz altmış beşinci ildə (miladi 1557/58) Əli Sultan Tatioğlu Zülqədəri döyüşkən bir ləşkərlə Qəndəharın fəthinə yollayıb, o vilayətin idarəçiliyini və mülkiyyətini Sultan Hüseyn Mirzəyə namizəd etdi. Dərya kimi dalğalanan döyüşçülər Qəndəhar qalasını mühasirəyə alıb qalatutma mərasiminin icrasına başladılar. Şah Məhəmməd Qəllati də vuruşa qalxdı, arada altı ay ox və güllə səfirlərinin gediş-gəlişləri oldu, müharibə atəşi şölələndi.

Məsələnin sonunda o, müqavimət göstərməkdə aciz qaldı, əlini aman ətəyinə atdı. Əhd-peymandan sonra qalanı təhvil verərək Hind diyarına rəvan oldu, Sultan Hüseyn Mirzə Qəndəhar əyalətində istiqlal tapdı. Təxminən iyirmi il o, qiymətli ömrünün kölgəsi altında həmin diyarda hakim oldu, izzətli və xoşbəxt həyat yaşadı, İsmayıl Mirzənin cülusu vaxtı təbii əcəllə öldü. Onun fərzəndləri haqqında, inşallah, bu aləmi bəzəyən kitabın ikinci səhifəsində, əlahəzrət zilləllah şahın möhtərəm əhvalının şərhi zamanı müşk yağdıran qələmlə məlumat veriləcəkdir. İndi isə, kəlamın söyqü, sözün zəbti və məqamın münasibliyini nəzərə alıb, Xorasanda baş verən hadisələrin ardı yazılacaq, o həzrətin [Şah Təhmasibin] səadət peyvəndli uca dövlətinin hakimiyyəti dövründəki hadisə və vaqiələrdən bəhs olunacaqdır.

ÜBEYD XANIN VƏFATINDAN SONRA BAŞ VERMİŞ XORASAN HADİSƏLƏRİNİN ARDI, HABELƏ CAHANI VƏ CAHANDA OLAN HƏR ŞEYİ YARADANIN TƏQDİRİ VƏ İRADƏSİ İLƏ HƏYATA KEÇƏN ƏHVALATLARIN ZİKRİ

Ənbər ətirli qələm bundan əvvəl yuxarıda belə yazmışdı: Übeyd xan ibn Mahmud Sultan ibn Əbülxeyr xan sağ olduğu müddət ərzində öz işğal əlini Xorasan mülkünə uzatmış, qaniçən özbəklərin yürüşləri nəticəsində həmin diyarda çoxlu yerlər dağıdılmışdı. Onun vəfatından sonra Xorasan bir neçə ilidi ki, əmin-amanlıqdaydı. Herat darüssəltənəsində Məhəmməd ibn Şərəfəddinoğlu Təkəli ədalət bayrağı ucaltmış və məşhur şahzadə Sultan Məhəmməd Mirzənin mülazimətində durub, mülk işləri ilə məşğul olmaqdaydı. O, Ğorcistana* ləşkər çəkərək özbəklərlə və oranın hakimi Sima Bayram Oğlanla böyük savaşlar etmiş və qələbə çalmışdı. [Buna görə də,] Özbəklərin illərlə Xorasana gəlmək cürəti olmamışdı. Doqquz yüz əlli yeddinci (miladi 1550/51) ildə, Übeyd xanın vəfatından on bir il sonra, atasının yerinə Buxarada padşah olmuş oğlu Əbülxeyr xan da üqba aləminə yollandı. Bəraq xan ibn Sevincək Sultan ibn Əbülxeyir xan, Əbdüllətif Sultan və Şah Məhəmməd Sultanla birlikdə Daşkənd, Səmərqənd və Hisare-Şadmandan Xorasana ləşkər çəkərək, çoxlu adamla Herat üzərinə gəldi. Məhəmməd xan Şərəfəddinoğlu qala və şəhərin möhkəmliyi ilə kifayətlənməyərək, şəhərin xaricində küçəbəndlər (səngərlər- Ş.F.) qurdu və oralara təcrübəli sərdarlar, topçular və

tüfəngçilər təhkim etdi. Özbəklərlə qızılbaşlar arasındakı cəng günlərlə uzandısa da, özbəklər bircə küçəbəndi də ola bilmədilər. Özbək sultanlarının ən şücaətli sultanı olan Şah Məhəmməd Sultan Sistanı və Fərahı qarətə yollandı. Oradan qayıdıb Herata gəldiyi vaxt Bəraq xana etirazla dedi: "Niyə indiyədək küçəbəndləri ələ keçirə bilməmisən?". İddia ilə əlavə etdi: "Sabah küçəbəndləri tutmayana qədər mən at üstündən yerə düşməyəcəyəm". Ertəsi gün çoxlu məşhur bahadırlardan ibarət döyüşçü ilə bu məqsədlə atlara süvar oldular və o, "Məzare-Şah Zeyd" ("Şah Zeydin məzarı" -Ş.F.) küçəsinə üz tutdu, igidliklə oranı qoruyanlara hücum etdi. Küçəbəndin qoruyucuları müqavimətə tab gətirməyərək, fərar edib küçəbəndin arxa tərəfinə keçdilər. Şah Məhəmməd Sultan və özbəklər atlarını küçəbəndin ağzına qədər (dəhənə) sürdülər. Elə bu əsnada təsadüfən canüzən bir daş atıldı və sultanın üzünə dəydi, o, qürur atından torpağa yıxıldı. Belə bir vəziyyətlə Məhəmməd xanın mülazimlərindən olan məchul bir adam vaxtında özünü ona yetirdi və onun bədənini baş yükündən yüngülləşdirdi. Bir neçə adlı-sanlı bahadır da əsir götürüldü. Şah Məhəmməd Sultanın başına gələn hadisənin xəbəri Bəraq xana çatdıqda qorxuya düşdü, qayıdış təbilini döyərək Mavərənnəhrə gəldi. Məhəmməd xan Şərəfəddinoğlu və oğlu Qazaqın həbsindən sonra aləm şahzadəsi Sultan Məhəmməd Mirzə ali orduya getdi, [amma] təzədən Xorasan mülkünə hakim təyin olundu və Şahqulu Sultan Yeqan Ustaclı onun lələsi oldu, ali şahzadənin ordusu ilə Xorasana yollandı. Abdullaxan ibn İsgəndər xan ibn Canı bəy Sultan və Xosrov Sultan yürüş əzmi ilə Amu çayından keçərək Xorasana — mirzənin və sultanın keçəcəyi yolun üçtünə çıxdılar. Mirzənin başına Xorasan ləşkəri hələ gəlib-yığışmadığı üçün, həmçinin o zaman mirzənin və sultanın hələ cəng istedadı olmadığından, onlar özlərini "Türbəte-Heydəriyyə" ("Heydəriyyə türbəti") qalasına saldılar. Özbək sultanları isə yetişərək, qalanı mühasirəyə aldılar. Düşmənlərin dəf olunmasından ötrü Xorasan əmirlərinin hər biri öz yerindən hərəkətə başladı. Hələ gəlib bir yerə toplaşmamışdılar ki, İraq ləşkərinin gəlib-yetişməsi xəbəri yetişdi. Özbək sultanları tab gətirə bilmədilər, əvvəlcə Xosrov Sultan ehtiyatı əldən verməyib getdi, ertəsi günsə Abdulla xan köç təbilini döyərək, Buxaraya qayıtdı. Onların gedişlərindən sonra bir daha Mavərənnəhr sultanlarından heç kim Xorasana gəlməyə cürət etmədi, fəqət birdən-birə Pir Məhəmməd xan ibn Canı bəy Sultan Bəlxdən çıxıb, müqəddəs şəhər (Məşhəd -

Ş.F.) yaxınlığına gəldi və yenidən geri qayıtdı, dayısı Tulək bahadırı töhfə və hədiyyələrlə üzrxahlıqdan ötrü xalqlara pənah olan dərgaha göndərdi, Tulək bahadırsa şahanə iltifatla sərəfraz olaraq geri qayıtdı. Başqa bir vaxt Özbək xan ibn Rüstəm Sultan ibn Cam bəy Sultan doqquz yüz altmış yeddinci ildə (miladi 1559/60) Əndxod və Şibirğandan* səkkiz min qaniçən və döyüşkən döyüşçü ilə çıxaraq Sərəxs, Zurabad və Cama gəldilər, bir neçə dəfə qarətkarlıq edib, öz diyarlarına döndülər. [O zaman] Cam hakimi Zeynal xan ibn İbrahim xan Zülqədər, Mir Hüseyn Sultan Firuzcəngi yanına çağırdı və özbəklərin dəf olunmaları xüsusunda onunla məsləhətləşdi. O və cığatay əmirlərindən olan məşhur Hacı Sultan Kutval qoşun bəzəyib Zeynal xana birləşdilər. O da onların köməyinə yetişərək, özbəkləri təqib etmək fikrini bildirdi, amma adları çəkilən əmirlər təqibi məsləhət bilmədilər. Bir dəstə döyüşçünü təqibə yollayıb, məğlubiyyətə uğrayan Zeynal xan, öz cəhalət və qürurunun çoxluğundan, iki min beş yüz nəfər qızılbaş və cığataylarla özbəklərin ardınca gedərək, Pole-Xatunda Özbək xana çatdı. Özbək xan iki-üç min döyüşçünü qızılbaşların qarşısında qoyub, özü isə yeddi min nəfərlə pusquda dayandı. İlk həmlədə özbəklər məğlub oldular. Zeynal xanın adamları qənimətlərdən ötrü təzəcə işə başlamışdılar ki, Özbək xan pusqudan çıxdı və atını əmirlərə tərəf sürdü, onları bir həmlə ilə məğlub etdi və qızılbaşlar dağılışdılar. Qızılbaşların tam qüvvətlə mərdanə döyüşmələrinə baxmayaraq, min nəfərədək qızılbaş və cığatay döyüşçüsü, habelə Zeynal xan və Mir Hüseyn Sultan öldürüldü, Hacı Sultan Kutval isə qoşunun qalıqlarıyla birlikdə yüz həyəcanla həmin qorxulu mərəkədən yaxa qurtara bildi. [Beləliklə,] Zeynal xanın tədbirsizliyi, cəhaləti və qüruru üzündən, qüvvətli qoşuna belə bir zərbə dəymiş oldu və Özbək xan öz diyarına döndü.

HÜMAYUN CƏNNƏTMƏKAN ŞAHIN BAĞDAD DARÜLXİLAFƏSİNƏ VƏ XUZİSTANA YÜRÜŞÜ VƏ CAHAN PƏRVƏRDİGARININ İLTİFATIİLƏ İNADKAR ADAMLARIN DƏF OLUNMALARININ ZİKRİ

Bu kitabın əvvəlində dünya şəhriyarının, yəni həzrət Cəm məqamlı cənnətməkan şahın dövründə baş vermiş hadisələrin şərhi vaxtı iki dilli qələm bəyan səhifəsində belə yazmışdır: Hümayun cülusun başlanğıcında, habelə hakimiyyəti və cahanı bəzəyən

şəhriyarın dövründə Süleyman məkanlı həzrət xaqanın (Şah İsmayılın - Ş.F.) qorxusundan özlərinin şöhrətsizlik (xəmul) zaviyələrində oturan ətraf yerlərin üsyankar adamları başlarını üsyan cibindən çıxardılar və onlardan müxalifət və tüğyan görünməyə başladı. O həzrət, yuxarıda yığcam məlumat verildiyi kimi, uzun müddət düşmənlərin dəf olunmaları, inadkarların cəzalandırılmaları, mülk və millət işlərinin icrası ilə məşğul olmasından başqa, səfərlərə çıxır, yasaq elan edir və onun zəruri yürüşlər üzündən rahətliyi olmurdu. Hümayun hücumla bağlı olan Bağdad darüssalamı hakimlərinin üsyan və tüğyan hadisəsi onlardan biridir. Noxud Sultanın oğlu Zülfüqar Kəlhər hakimi idi. Alın lövhəsinə müxalifət və inadkarlıq nəqşini cızaraq, Bağdadın hakimliyi və mülkiyyətini ələ keçirmək fikrinə düşdü. İbrahim Sultan hərçənd ki, Zülfüqarın belə mülayim olmayan bir tərzdə gəlişi barədə Sultan Qurinin* (mətndə səhvən "Sultan Qədri" yazılmışdır - Ş.F.) fikrini öyrənməyə çalışdı [və dedi ki,] onun belə sürətlə xəbərsiz gəlişi xeyir və səlamətlikdən xəbər vermir, sultan onun fikrini qəbul etmədi. O, bir neçə yaxın adamıyla öz divanxanasında rahat əyləşmişdi ki, Zülfüqar ordu kənarına çatıb, ona basqın etdi. Bu vəziyyəti müşahidə edən İbrahim xan çaşdı, adam toplamaq və müdafiə füpsəti əldə edə bilməyib, canının qorxusundan özünü hərəmxanaya atdı. Zülfüqar bir dəstə adamla atdan enib, hərəm xeyməsinin kəndirlərini qılıncla kəsdi və onlar İbrahim Sultanın üstünə tökülüşdülər, sultanı yanındakı bir neçə adamla iti qılınclarla parça-parça etdilər. Ərəb əmirlərindən olan Seyid Süleymanın oğlu Seyid bəy Kəmunə dörd yüz adamla gələrək, zərurət üzündən Zülfüqara birləşdi. Zülfüqar bu vaqiədən sonra çoxlu adamla darüssalama çatıb oranı tutdu. O, öz qohum-əqrəbalarından çoxlu adamı qəhr qılıncı ilə qətlə yetirdi və bütün İraqi-Ərəbi özünə götürüb, orada hökmranlıq bayrağını (əbme-təsəllət) dalğalandırdı. Bu məsəb ədalətli şəhriyara (Şah Təhmasibə - Ş.F.) ərz olunduqda, doqquz yüz otuz beşinci ildə (miladi 1529/30) onun cah-cəlal ordusu müzəffər əsgərlər və iqbal döyüşçüləri ilə birlikdə İraqi-Ərəbə doğru hərəkət etdi, az vaxtda darüs-salamın ərazisi fələk ehtişatlı xosrovun cah-cəlal çadırlarına məskən oldı. O zaman günəş Sərətan bürcündə* olduğundan hava olduqca isti idi.

Beyt

Elə istiydi hava, çaydakı xərçəng hətta,
İstilikdən başını salmış idi çayda quma[153]

Bədxislət Zülfüqar bir dəstə bazıpozuq kütlənin sözü ilə şəhər darvazalarını bağlayıb qaladarlıq işlərinə başladı, cəngə hazırlaşdı. İqbal ordusunun mübarizləri Bağdad hasarını əhatəyə alaraq, qaragün müxaliflərlə hər gün vuruşurdu və onların arasındakı cəng atəşi şölələnməkdəydi. Zülfüqarın qardaşları Əli bəy və Əhmədbəy o haramzadənin gördüyü işin aqibətini düşünüb, fürsət düşən kimi həmin talesizin üstünə tökülüşdülər, iti qılıncla başını bədənindən ayırıb, ali saraya gətirdilər. Bağdad qalası, beləliklə də, hümayun şah iqbalının gücü, bəlkə də məhz İlahinin təsdiqi ilə fəth olundu. Zülfüqarın fitnəkar mülazimləri şahanə qəzəbin qorxusundan özlərini Dəclə çayına atdılar ki, bəlkə nicat sahilinə üzüb çıxsınlar, amma onların əksəriyyətini fəna dalğası qərq etdi. O həzrət isə, böyük əzəmət və cah-cəlalla darülxilafəyə gəldi və onun ədalət nurları o vilayətin hər yerini işıqlandırdı. Hökm verildi ki, şəhərdə heç kimi Zülfüqarın dövründəki əməllərinə görə sorğu-suala çəkməsinlər, xalq buna görə də bu əbədi dövlətin davamı üçün dualar etməyə başladı. Ərəb qəbilə sərdarları şaha dilli-dilavər elçilər və layiqli peşkəşlər yollayıb Bağdadın fəthi münasibətilə onu təbrik edirdilər. Cənnətməkan şah hərarətin daha da şiddətlənməsi və öz hümayun zatına qızdırma xəstəliyi üz verdiyinə görə orada dayana bilmədi, darüssalamın idarə olunmasını və mülkiyyətini o vaxtadək "sultan" olan Məhəmməd xan Şərəfəddinoğluya verdi, İraqi-Ərəbdən İraqi-Əcəmə yönəldi və sağ-salamat səltənət paytaxtına yetişdi.

Onun Xuzistana və Ərəbistana yürüşünün səbəbi bu olmuşdur: Dizful valisi olan Əlaüddövlə Rənaşi (Rənaş o vilayətin kəndidir - Ş.F.) itaət və fərmandan boyun qaçırıb, xilaf mövqeyinə keçmişdi. Buna görə də, Xuzistan yürüşünə başlamaq vacib bilindi. Hümayun cülusdan on səkkiz il keçəndən sonra, doqquz yüz qırx səkkizinci ildə (miladi 1541/42) cahanı fəth edən bayraqlar o istiqamətə doğru hərəkətə gəldi. Qələbə nişanlı əsgərlər Luristanın

[153] Beytin farscası:
Bud z-angunə həva gərrn ke, dər abe-rəvan
Sine bər rig nehadi ze hərarət sərətan.

Xürrəmabadına gəldikdə, Əmir Cahangir Abbasi Lur Kuçek səltənət başçısının qəbuluna getmək səadətinə yetdi, iltifat və nəvazişə layiq görüldü. İqbal qoşununun gəliş xəbəri Dizful və ona yaxın yerlərdəki düşmənlərin səbrü qərarını əllərindən aldı. Adı çəkilən Əlaüddövlə qorxu və dəhşətdən öz məmləkətlərini ataraq işıq və külək sürəti ilə Bağdada tərəf qaçdı. Dizful vilayəti səadətli şah xeymələri ilə dolduqda Həvizə hakimi Seyid Şücaəddin Pədran Müsəşəi öz sədaqət üzünü şaha göstərərək, nəvaziş və lütfkarlıqla şərəfləndi, həmin vilayət fərmanla ona mərhəmət olundu. Şiraz hakimi İbrahim xan Zülqədəri bir dəstə əmir və əsgərlə Bayat qalasındakı düşmənlərin qarətinə göndərdilər, beləliklə də o tərəfin bütün işləri ürək istəyən kimi nizam-intizam tapdı və qələbə cilovu İraqa tərəf istiqamətləndi. Xülasə, o həzrət hümayun cülusundan otuz il keçənədək mülk işlərinin irəli getməsindən ötrü səadət və iqballa çalışdı. Bu tarixdən sonra Təbriz darüssəltənəsinə yaxın məsafədə olan Van bölgəsi rumiyyə qoşununun əlinə keçdiyindən, hümayun paytaxt və bu əbədi səltənətin taxtgahı kimi Qəzvin darüssəltənəsini münasib göründü. Şah orada dövlətxana və gözəl bir bağ salaraq iqamət etdi. İmarət işlərinin dörd-beş ilə tamamlanmasından iyirmi il keçən müddətə qədər şah Qəzvin darüssəltənəsindən heç yana getmədi, onun dövlət bayrağı gün-gündən ucaldı, dünya sultanları Keyvan bürcünədək ucalan dərgaha gəlməyə başladılar:

Şer

Yer şahlarına qiblə olubdur qapın, ey şah,
Sənsən fələyi fəth və dünyanı edən ram.[154]

[154] Beytin farscası:
Şaha, dəre-to qebleye-şahane-aləməst,
Gərdun tora mosəxxər-o giti mosəlləməst.

CAHAN SULTANLARININ, XÜSUSƏN MƏRHUM HƏZRƏT PADŞAH MƏHƏMMƏD HÜMAVUN GURƏKANIN İRANIN SƏADƏT NİŞANLI ŞƏHRİYARININ DƏRGAHINA GƏLİŞİNİN ZİKRİ

Zahiri və mənəvi baxımdan mükəmməl (came) bir səltənət yaradan müqəddəs səfəvilər vəlayət* və kəramətdə* günəş kimi zahir olmuşlar. Buna görə də, cahan sultanları və böyük hökmdarlar əllərini uzadıb (etesam) pak dilli bu xanədanın möhkəm ipindən (həblül-mətin) tutmuşlar. Hind və firəng ölkələrinə sədaqətlə məktublar, elçilər və hədiyyələr göndərməklə daim birlik qayda-qanunlarını təzələmişlər. Həyatın eniş-yoxuş mərhələlərini qət edən kəslər, hər hansı bir hadisə baş verərkən caf (sedq) niyyət və pak idrakla (xəfa) əgər bu kəramətli dudmana müraciət etmişlərsə, cahan hökmdarlarının (səfəvilərin - Ş.F.) zahiri diqqəti (təvəccöhat) və batini köməyi (moavinət) sayəsində həm maddi, həm də mənəvi surət və məna baxımdan uğurla murada çatmış, uca mərtəbələrə yetişmişlər. Amma, (səfəvilərə sığınan) hər kəs puç dünyəvi qərəzkarlığa uyubsa öz etiqadından bəhrələnməmiş, onun ümid ağacı (nəxl) istək səmərindən kənarda qalmış, kam ala bilməmişdir. Buna misal mərhum padşah Məhəmməd Hümayun ibn Babur padşah İbn Ömər Şeyx Mirzə ibn Sultan Əbu Səid Gurəkanın xeyir amallı (xeyrməal) əhvalatı və Rum məmləkətlərinin hökmdarları nəslindən olan bəd əqidəli şahzadə Sultan Bayazid ibn Sultan Süleyman ibn Sultan Səlimin hadisəsidir. Onların hər ikisi fələk hadisələrinin ucbatından cənnətməkan şahın sarayına (ələbə) pənah gətirmişlər. Düzgün əqidəsi və saf sədaqəti olan mərhum padşah onların məqsədlərindən hali oldu və öyrəndi ki, pak əqidəli insan olmayan Sultan Bayazid bu səadətli qapıdan kamyab olmamış və onun vəziyyəti çətinliyə (vəbal) giriftar olmuşdur. Hadisə belə baş verdi:

Gözəl Hindistan məmləkətləri, habelə Qəndəhardan, Kabuldan, Bədəxşandan tutmuş Bənqaləyə (Bənqal) qədərki ölkələr o mərhum padşahın (Məhəmməd Hümayunun - Ş.F.) əlində və fərmanı altında idi. Asimanın təqdiri və ruzigarın qərarı, həmçinin bir-birlərinə qarşı mehriban olmayan qardaşların [ona qarşı] birləşmələri üzündən [Hümayun padşah] ona baş əyməyən Şirxan Əfqan ilə Qanq çayının* kənarında döyüşüb böyük məğlubiyyətə uğradı. Onlar çaydan keçərkən, padşahın ali ordusunun mülazimi

olan Sultan Hüseyn Mirzə Bayqaranın nəticəsi Məhəmməd Zaman Mirzə bir dəstə cığatay əmir və əskərləriylə fəna dalğasında qorq oldu. O həzrətin özü çayda atından suya yıxılmışdı. Suçu (səqqa) bir adam canfəşanlıq göstərib özünü çaya atdı və o həzrəti sahilə çıxardı. Xülasə, padşah məğlub və pərişan vəziyyətdə o mərəkədən çıxıb Agrə" darülmülkünə gəldi, oradan çıxaraq Lahur*** yolunu üzə tutdu. O, müxalif məsləhətlərlə bağlı olaraq Lahurda da qala bilməyib, Sind vilayətinə gəldi. Saxta yolla o mülkün maliki olmuş Əmir Zəvalnun Ərqunun övladları razılıq qapılarını [onun üzünə] bağlayıb, müxalifət darvazalarını açdılar. Hümayun padşah zərurət üzündən Qəndəhara doğru yola düşdü. Saldəşk (?) vilayətinə yetişdikdə Qəndəhar hakimi olan kiçik (kehtər) qardaşı Əskəri Mirzə onun sərgərdanlığından xəbər tutaraq, öz böyük qardaşı və vəlineməti Hümayunla, həmçinin kiçik qardaşıyla (Əskəri Mirzə ilə - Ş.F.) nifaqda olan Mirzə Kamranla birlikdə xəyanət (keyd) məqamında durdu və istədi ki, o həzrəti tutub ixtiyarını əlindən alsın. O, bu günah istəklə və qalın qoşunla Qəndəhardan çıxıb, hümayun orduya tərəf getdi. Səadətli nəsildən olan sədaqətli bir adam o cahilin batil fikrini bilərək, özünü orduya çatdırdı və cənab padşahı o qəddarın xəyanətindən xəbərdar etdi. O həzrət ruzigarın gərdişindən təqdir karxanəsinin işinə heyran qalaraq, çarəni İrana getməkdə və vəlayət nişanlı bu xanədana (səfəvilərə - Ş.F.) birləşməkdə gördü, ali ordunu və var-yoxunu, həmçinin o vaxt Sind vilayətində doğulan cocuq kamkar və səadətpərvər şahzadə Cəlaləddin Məhəmməd Əkbəri Pərvərdigara tapşırdı, onun bütün xidmətçilərini orduda qoydu, çünki o səadət əhdli şahzadənin beşiyini (məhd) özü ilə aparmaq olduqca çətin idi. Amma, şahzadənin möhtərəm anası onu izzət həriminin (hərəmxanasının - Ş.F.) bir neçə xadiməsi ilə özüylə götürdü, təvəkkül biyabanına doğru qədəm atdı. O cənaba vəfadar və onunla səfər yoldaşı olmaqla müşərrəf olan əmirlərdən, cannisar mülazimlərdən və sədaqət şüarlı xidmətçilərdən altmış-yetmiş nəfər adam onunla birlikdəydi. Onların ən əzəmətlisi Əli Şükür bəy Türkmanın nəticəsi Bayram xan Bahadur idi. Türkman nəslindən olan atası və babası İran mülkündə yaşayan adamlardılar. Bayram xanın özü isə, Allahın təqdiri ilə Baburun ali ordusunun tərkibində Kabul tərəfə düşmüş və o, dudmana ləyaqətlə xidmət göstərdiyinə görə ali mərtəbələrə ucalmışdı. Bu hadisələr baş verən vaxt Bayram xan, Hümayunun hökümətində xidmət edirdi. Onlar sövq biyabanını keçərək Çul (?)

yoluyla Şirvan vilayətinə gəldilər. [Hümayun padşah] oradan müşk ətirli qələmi ilə bir məktub yazıb, onu ali şaha yolladı ki, surəti təqdim olunur.

CƏNNƏT DƏRGAHLI HƏZRƏT ŞAHA ALLAHIN KÖMƏYİ İLƏ HÜMAYUNUN YAZDIĞI SƏDAQƏT ÜSLÜBLÜ MƏKTUBUNUN SURƏTİ

"İxtisas sahiblərinin gözəl adətlərindən (şive) biri olan dua və sədaqət vəzifəsini təqdim etdikdən sonra [bildirirəm]. Bəndəliyimin azlığı, həyamın çoxluğundan mən özümü agahlaq kimi əqli xüsusiyyəti özündə ehtiva edən və həşəmət və cəlal günəşi olan həzrət zilləllah şahın müqabilində bir zərrə hesab edirəm və onun yanına gəlirəm. Bu vaxta qədər mən özümü açıq-aşkar surətdə o ehtişamlı həzrətin (Şah Təhmasibin-Ş.F.) xidmətçiləri (xoddam) sırasında bilməsəm də, indi sizə qarşı məhəbbət və sədaqət kəmərini məhəbbət qübbəsinə qurğuşun (sorb) kimi möhkəm birləşdirmişəm. Cürbəcür səadət və kəramət məskəni olan o həzrətin (Şah Təhmasibin - Ş.F.) həsrətini həmişə çəkirdim və hər ləhzə sizə doğru gəlməyə meyl edirdim. Amma, belə oldu ki, mən bu alçaq dünyanın və rəngini tez-tez dəyişən (buqələmun) fələyin gərdişi nəticəsində geniş Hind ölkəsindən çıxıb, darısqal Sinq torpağına gəldim. Mənim başıma istər dəryada, istər dağlıq yerlərdə (kuhsar), istərsə də səhrada çox işlər gəlmişdir. Hal-hazırda isə mən iqbal qanadının bir mücahidi kimi əzəmət və cah-cəlal nuru saçan (nəyyer) bir camalı müşahidə etməkdən ötrü uçuşdayam. Həzrət Allaha (rəhman) ümüdvaram ki, mənim bir çox istəklərimin (mozadat) həyata keçməsinə səbəb olacaq sizinlə görüşdən (molaqat) sonra [sizə] ərz etməyə qabil olan əhvalatım (məqalat və halat) ərz olunacaq və onları sizə deyəcəyəm, insallah".

Sözün qısası, elə ki, o həzrət (yəni Məhəmməd Hümayun - Ş.F.) Sistana yaxınlaşdı, o ölkənin hakimi Əhməd Sultan Şamlı öz qardaşını layiqli mallarla (barxanə) istiqbala göndərdi, özü də öz əşraf-əyanı ilə birlikdə qarşılamağa çıxdı və görüşdü. O, [Hümayunun] padşahlıq qədəmlərinin buraya atılması barədəki həqiqəti Xorasan əmirülümərası Məhəmməd xan Şərəfəddinoğluya bildirdi. Xan da külək kimi iti yerişli (səbokseyr) bir qasidi ali saraya göndərərək, ali padşahın məiyyət qədəmlərinin gəlişi haqda ərz etdi. Sonrasa o həzrətin (Hümayun padşahın - Ş.F) sədaqət ayinli

naməsi kimyaəsər nəzərə çatdırıldı. Alicənablıq (fotovvət) şivəsinin tərənnümçüsü və insanlıq sifətlərinin sahibi (məsdər) olan şah onun padşahlıq qədəmlərinin təşrif gətirməyindən hədsiz şad oldu, sevincinin (enbesat) və istəyinin (eşteyaq) çoxluğundan öz görüş xahişini öz xətti ilə yazdı ki, orada bu beyt də vardı:

Beyt

Qonacaqdır o səadət hüması damımıza,
Səndən ötsə, gələcəkdir bizim məqamımıza.[155]

Hindistan padşahı Məhəmməd şahın Qəzvinə varid olması:

O həzrətin (Şah Təhmasibin - Ş.F) həmin uca mənzilli padşaha göstərdiyi mehribanlıq haqqında (Şah Təhmasibin] Humayun padşaha və onun ali məiyyət mülazimlərinə göstəriləcək xidmətdən Məhəmməd xan Şərəfəddinoğluya yazılan fərmanda da cümlələr vardır. "Tarixe-Əkbəri" kitabının müəllifi Şeyx Əbülfəzl ibn Şeyx Mübarək [öz əsərində] Hümayunun hakimiyyət dövrünü əvvəldən axıradək təsvir etmişdir. Oradan məlum olur ki, o ali məqamlı padşah ətraf yerləri tələsmədən seyr edə-edə Sistandan çıxaraq, Herat darüssəltənəsinə gəlib çatdı. O, ruzigarın gedişindən məlala düşmüşdü və qəlbinə bir qədər şadlıq bəxş etməkdən ötrü bəzən şikar etməkdəydi. Yuxarıda adı çəkilən fərmanda işarə olunduğu kimi, Məhəmməd xan Şərəfəddinoğlu Pole-Malan körpüsünün başında bər-bəzəkli qoşunla, müxtəlif qiymətli peşkəşlərlə o cah-cəlal dairəsinin mərkəzini (Hümayun padşahı - Ş.F.) qarşıladı. Onlar Baqşəhrə (Bage-şəhr) təşrif gətirdikləri gün aləmlər şahzadəsi Sultan Məhəmməd Mirzə onu qəbul olunmuş qayda üzrə qarşıladı. Belə ki, o həzrət gəlib çatdıqda, atdan düşərək, onu salamladı (təhiyyət). O həzrət də atdan enib, şahzadəni öz mehribanlıq ağuşuna aldı. Şahzadə isə, [ali qonağı] piyada qarşılamaq və ata minməmək böyüklük təriqi və qaydası olduğundan, elə də hərəkət etdi, öz fərzəndlik münasibətini göstərib təvazökarlıq və insanpərvərliyini əldən vermədi.

[155] Beytin farscası:
Homaye-ovce soadət be dame-ma oftəd,
Əgər to-ra gozəri dər məqame-ma oftəd.

O həzrət bir neçə gün həmin ürəyə yatımlı yerdə, fərəhbəxş bağ və bostanlarda, xüsusən, "Bağe-Murad"da, "Bağe-Zağan"da və "Bağe-cəhanara" da eyş-işrətlə məşğul oldu, öz qüssəli xatirini şənləndirdi. Hümayun fərmanın məzmununu gündəlik dəstürləmələ çevirən Məhəmməd xan layiqli xidmət edib onun nurlu nəzərinə ləyaqətli peşkəşlər yetirdi. [Hümayun padşah] Heratda bir neçə gün qalıb, yol yorğunluğu və atda əyləşmək əziyyətindən uzaqlaşdıqdan sonra yürüş cilovunu İraqa və orada baş verəcək dünya xosrovu ilə görüşə doğru yönəltdi.

Onların çatdıqları hər bir şəhər və vilayətlərdə o yerlərin hakimləri və əyan-əşrafi pişvaz mərasimi təşkil edib, peşkəşlər verirdilər. Qəzvin darüssəltənətində o yerin kəlantəri olan Xacə Əbdülqəni Cəladətinin evində iqamət etdilər və bir neçə vaxt həmin mənzildə istirahətlə məşğul oldular. Orada Bayram xan şahın yanına adam yollayaraq görüş xahiş etdi. Cənnətməkan şah Bayram xan gəldikdən sonra "Buzlaq" yaylağında onunla görüşdü. Hümayun əzəmətli ordunun bir fərsəxliyinə çatdığı zaman məqamı uca olan həzrətin (yəni Şah Təhmasibin - Ş.F.) qiymətli qardaşları Bəhram Mirzə, Sam Mirzə, vəzir Qazi Cahan, qorçibaşı Sevindik bəy Əfşar, Bədr xan Ustaclı, Möhrdar Şahqulu Xəlifə Zülqədər və başqaları onu istiqbal etdilər. Onlardan sonra əzəmətli yüzbaşılar, igid qoriçilər, başqa həşəmqətli adamlar səliqə-səhmanla mərasim qaydalarını yerinə yetirdilər. Onlar saraya gəlib yetişdikləri vaxt atdan yerə endilər. Cənnətməkan şah öz xüsusi xərgahından çölə çıxaraq, ona tərəf irəliləyib, böyüklərə xas olan ayin və şahlara məxsus qayda ilə o alicah padşahla görüşdü və onlar bir-birlərini qucaqladılar (moaneqe). O vaxt sanki iki xoşbəxt ulduz (qranesədeyn) birlikdə idi, günəş və ay (nəyyereyn) qovuşmuşdu. [Şah] onun əlindən tutub xərgaha gətirdi. Onların arasında bir ürəkli iki dost kimi dostluq söhbəti başlandı. Hər ikisi bir-biri ilə iki bir ürəkli dost kimi dostuna söhbət edir, həqiqətlə bəzənmiş sözlər söyləyirdilər. O həzrətin gətirdiyi töhfələr içində bir neçə bədəxşi ləl və bir qiymətli almas da vardı. Həmin mərasimdə iştirak edən tarixçi Həsən bəy Rumlu və "Tarixi-cəhanara"nın müəllifi Qazi Əhməd həmin almasın vəzninin dörd misqal və dörd danğ olduğunu yazmışlar.

Xülasə, cənnətməkan şah həmin neçə gün ərzində hər gün xüsusi görüşlər təyin edib, məliklərə və şahlara layiq şahanə məclislər qururdu.O, həmin məclislərdə dəmadəm şəfqətli şözlərlə o

həzrətin qəmli xatirinə şadlıq bəxş edirdi Suvalıqda cərgə* ovu təşkil edib, bir neçə gün ov heyvanlarının keçib-getdikləri yolları bağladılar. Cərgə hazır olan kimi birlikdə cərgənin ortasına çıxdılar. Həzrət şahın təklifi ilə əvvəlcə Hümayun şah Bəhram Mirzə və Sam Mirzə ilə birlikdə ox atmağa başladı. Onların hər biri ovçuluqda və çeviklikdə məharətlərini nümayiş etdirdilər. Sonra həzrət cənnətməkan şah Bəhramlara məxsus kamanını əlinə alıb o alicah padşahın və [ox atmaqda] özlərindən başqa heç kimi pəsənd etməyən o həzrətə yaxın cığatay cavanlarının gözləri önündə itilikdə günəş şüasının onların tozlarına belə gəlib-çatmadığı çoxlu qaçağan ahu ovladı. Beləliklə, şah bir neçə dəfə ox atdı. Heyvanların nərəsi göyə yüksəlirdi. "Əhsən" və "afərin" sözlərindən fələyin oxu (mehvər - Ş.F.) və göyün qüvsü dilbir oldular. Ox atmaqdan yoruldular, bir çox ətli-canlı maral və başqa ov heyvanları ovlandı. Seyr, ov və qəbəqəndazi oyunlardan sonra müəyyən olunmuş bir gündə ali bir bayram və böyük bir toy* təşkil edildi. Məclisin sonunda o həzrətə töfhə və hədiyyəlir təqdim olundu: qızıl-gümüş, tac, qiymətli daşlarla bəzənmiş kəmər, zərli İraq, Rum, Avropa, Çin və Xətay qumaşı, silahlar, sıx halqalarla hazırlanmış Davidi zireh, cəvahirlə bəzədilmiş tüfənglər, tazı atlar, Bərdə qatırları, qatar-qatar dəvələr, çoxlu xeymə, hərəm və divanxana çadırları, atlas və məxmərdən tikilən sayəbanlar" sadə və naxışlı əşyalar, çadırlar və evlər, hər ləvazimatla təchiz olunmuş təbil, ələm, nağaraxana, alətləri. O, həzrətin əmir və yaxın adamlarına da nəfis xələtlər və bol ənamlar verildi. Bayram xana ələm və nağara təqdim edilərək, ona yüksək xane-xanan*** mənsəbi verildi. Şahzadələr içərisində Sultan Məhəmməd Mirzə və İsmayıl Mirzədən kiçik, başqalarından böyük olma, Sultan Murad Mirzəyə, qızılbaş tayfaları içərisində ən mötəbəri və mirzənin lələsi və atalığı olan Budaq xan Qacarın sərkərdəliyi altında, qızılbaş tayfalarından on iki min nəfər verildi, həmçinin Kirman hakimi Şahqulu Sultan Əfşara, Sistan hakimi Əhməd Sultan Şamlıya, onun qardaşı Hüseynqulu Sultana və başqa əmir və əsgərlərə, üç yüz xassə şah qorçiləri qoşuldu, Keçəl Şahvedi Ustaclının başçılığı ilə çoxlu saray mülazimləri o həzrətə kömək üçün təyin olundu. Qərara alındı ki, bu adamlar onun qulluğunda dayansınlar, hökm və fərmanını mürşid və vəlinemətdən (Şah Təhmasibdən - Ş.F) sonra ikinci hökm və fərman kimi qəbul etsinlər, humayun əmrindən kənara çıxmasınlar nə buyursa can-

başla əməl etsinlər, yanından uzaqlaşmasınlar, o həzrətdən izn almasalar geriyə qayıtmasınlar.

Məhəmməd şah Hindinin (Məhəmməd Hümayunun – Ş.F.) Təbriz və Ərdəbilə yollanması:

O həzrət Təbrizə getmək meylini və Təbriz şəhərinə rəğbətini, habelə övliyalar və alimlər sultanı (sultanül-övliya) olmuş Şeyx Səfinin qəbrini ziyarət etməyə meyl etdiyi üçün şahdan rüxsət alıb, Təbriz darüssəltənətinə təşrif apardı. Təbrizlilər cahan şahının fərmanına əsasın şəhərin küçələrini təmizləyib, qeysəriyyə və bazarları təzə gəlinlər kimi bəzədilər, o fələk ehtişamlı padşahı qarşılamaqdan ötrü istiqbala çıxdılar. Sahibabad meydanında o əsl-nəsəbli hökmdarın önündə, təbrizlilərin adəti üzrə, çovkan və başqa oyunlar nümayiş etdirərək, onun şənliyinin artmasına səbəb oldular. Onlar oradan çıxıb əzəmətli səfəvi şeyxlərinin məzarlarını ziyarət etmək məqsədi ilə Ərdəbil darülirşadına getdilər və belə böyük bir səadətə yetməklə ulu şeyxlərin müqəddəs ruhlarından kömək xahiş etdilər. O şərif yerdə yaşayan əzəmətli şeyxavənd* seyidləri səmimi-qəlb ilə xidmətlər göstərib onu bir neçə mərhələ yol boyu müşayət etdilər.

Məhəmməd şah Hindinin mərhum şah Təhmasiblə görüşdən geri qayıtması:

Oradan qayıdan [Hümayun şah] Miyanc çəmənliyində dayanan ali orduya yetişərək, orada vidalaşma mərasimini yerinə yetirdi, ürək qətiyyəti və aydın məqsədlə məqsədə doğru üz tutdu. Onu hümayun şahlığın sərhəddinə çatana qədər ordu müşayiət etdi. O həzrət ətrafı seyr edə-edə Xorasana çataraq kamkar şahzadə, əmirlər və yardımçı əsgərlərlə (əsakere-kumek) görüşdü. O bu xanədanın göstərdiyi hörmət və dostluğa, onu müşayiət edən döyüşçülərin yoldaşlığına qarşı öz təşəkkünü bildirdi. Hindistanın tuti bəyanlı və şirin dilli tarixçiləri həmin hadisələri böyük bəlağətlə şərh etmişlər. Az vaxt ərzində, [Hümayun padşah] ona qarşı qiyam qaldıran və nifaq əhli olan qardaşları üzərində yenidən hökmranlıq etdi, Kabul, Qəzneyn və Bədəxşan məmləkətlərinin ona tabe olmayan adamların itaətə gətirdi, ölkələr fəth edən bayrağını Hindistana tərəf dalğalandıraraq, surət və mənada kamyab oldu.

Beyt:

Hinddən gəldi Humayun uca şah dərgahına,
Xoş olan taleyə bax, hax o hümayun" bəxtə[156].

[Hümayun padşahla əlaqədar] İranda baş verən əhvalatlardan [yayınaraq], çox yazmaq münasib olmadığı üçun, qələmin dili o tərifəlayiq şəxslə əlaqədar halların cüziyyatından yazmağı dayandırdı.

SULTAN BAYAZİD İBN RUM HÖKMDARI SULTAN SÜLEYMANIN ZAMAN QƏHRƏMANI VƏ İRAN HÖKMDARININ DƏRGAHINA GƏLMƏSİNİN ŞƏRHİ.

Məsələ belə olmuşdur: Sultan Bayazid özünün şərafətli atasının fərmanına əsasən Kutahiyyə sancağında hökmranlıq edirdi. Sultan Süleyman doqquz yüz altmış altıncı ildə (miladi 1558/59) Bayazidin iqtidar əlini o vilayətdən uzaqlaşdırdı və Kutahiyyəni o zaman Konyada olan ondan böyük qardaşı Sultan Səlimə verdi, Səlimi öz vəliəhdi elan etdi. Buna görə də, səltənət arzusunda olan Sultan Bayaziddə paxıllıq və həsəd alovu şölələndi, onun qardaşlıq çeşməsi zir-zibillə doldu. Batil xəyala və mümkünsüz işləyə düşərək, çoxlu qızıl xərclədi, saysız-hesabsız ləşkər topladı, alişan atasının fərmanını üsyanla qarşıladı, böyük qoşunla Sultan Səlimi dəf etməyə yollandı. Sultan Səlim qardaşının üsyan xəbərini şərafətli atasına bildirdi. Sultan Bayazidin belə cəsarət və ədəbsizliyindən qəzəblənən Sultan Süleyman onun fitnəkar vücudunun məmləkətə və dövlət işlərinə qarışıqlıq saldığına görə cəzalandırılması üçün etibarlı paşaları yağış qətrələri qədər çox olan bir qoşunla onun üstünə yolladı. Sultan Səlim [də] atasının fərmanı ilə həmin ləşkərə birləşib, ağır qoşunla qardaşı ilə qarşılaşmağa tələsdi.

[156] Beytin farscası:
Amәd әz Hind Homayun be dәre-həzrәte-şah, Tale-ye-sәd bebin, bəxte-homayun bengər.

Rum xandgarı Sultan Süleymanın oğlanları Sultan Səlim və Sultan Bayazidin hərbi:

Tərəflər arasındakı şiddətli döyüş iki gün davam etdi. Birinci gün hər iki tərəfdən səkkiz min piyada və süvarini üyüdən müharibə dəyirmanı sübhdən şama qədər fırlandı. İkinci gün [isə] himmətsiz Bayazid canından keçmiş fədailəri ilə birlikdə o qoşunu məğlub etmək üçün döyüş meydanına qədəm basdı. O, Sultan Səlim qoşununun meymənə və meysərəsini məğlub edib elə dağıtdı ki, döyüşdən qaçanlar İstanbula qədər dayanmadılar.

Xülasə o gün Sultan Bayazid elə döyüş məharəti nümayiş etdirdi ki, bu gün o hadisədən əlli il keçməsinə baxmayaraq, Rumda həmin cəng və onun şücaət və igidliyi dillər əzbəridir. O əsnada Sultan Səlim qəlbdə onunla qalmış döyüşçülərlə özünü Sultan Bayazid qoşununa çatdırıb, bir həmlə ilə onu məğlub etdi. Batil iş gördüyü üçün Sultan Bayazidin mübarizəsinin təsiri olmadı, üsyanı məğlub edildi, özü isə qoşunu dağınıq halda Amasyaya qaçdı, orada özünün qəflət və qürurundan bir qədər özünə gəldi. Etdiyi əməldən peşman oldu, özünün tərbiyəsiz və bu fəsadın mayası olan üç-dörd mülazimini qətl etdi, onların başlarını İstanbula, alişan atasının yanına göndərdi.

Sultan Bayazidin məğlubiyyəti:

O, günahının bağışlanmasını xahiş etdi. Amma, talesiz oğlunun əməllərindən Sultan Süleymanın qəzəb atəşi elə alovlanmışdı ki, həmin iki-üç mülazimin öldürülməsi ilə kifayətlənmədi, şahzadənin üstünə İsgəndər paşanın başçılığı ilə yeni qoşun göndərdi. Sultan Bayazid bu dəfə özündə o ağır qoşunla döyüşmək qüdrəti görməyərək, var-yoxunu orada qoyub, dörd oğlu, on iki min paşası mülazimi və yeniçəriləri ilə birlikdə qaçdı. Xandgarın döyüşçüləri onu bir qədər təqib etsələr də, döyüş hər dəfə qaçışla nəticələnirdi. Quduz Fərhad, Axsaq Seyfəddin və Sultan Bayazidin başqa fədakar mülazimləri onu və oğlanlarını sağ-salamat döyüş yerindən çıxararaq qızılbaş məmləkətinə çatdırdılar.

Sultan Bayazidin Rum məmləkətindən
fərar edərək İrana gəlməyi:

O, elə ki, şahlığın humayun sərhədinə çatdı, əşrəfin (şah Təhmasibin - Ş.F.) yanına bir adam yollayıb öz halım ərz etdi. İzzət büsatının yaxın adamlarından və ali məclisin mötəbərlərindən olan Həsən bəy Yüzbaşı Ustaclı onun yanına şahanə yaraq və başqa döyüş silahları yolladı. Qərara alındı ki, sərhəd əmrləri və hər vilayətin əyan-əşrafı onun xidmətinə yetişsinlər, ona yer-yerdən layiqli təzimlər və ləyaqətli xidmətlər edilsin, şərəfinə ziyafətlər təşkil olunsun. Azərbaycan və Şirvanın vəziri olan Mirzə Ətaulla İsfahani divan sərkarının dini qayda-qanununun icrası üçün saraya gəlib çatan vaxta kimi onunla birgə idi. O, deyilən hər sözə əməl edirdi və şahzadəyə zəruri xidmət icra olunurdu. Təbriz darüssəltənəsinin böyük adamları və əyanları şəhərdə yır-yığış edib, qeysəriyyə və bazarları gəzərək onu elə qarşıladılar ki, belə bir istiqbal qədim vaxtlardan bu vaxta qədər az görünmüşdü. Şahzadə elə ki, Təbriz darülsəltənəndən çıxıb ali saraya yaxınlaşdı, şah rüknüssəltənə olan Məsum bəy Səfəvini yaraq və başqa şahanə nəfis şeylərə onun yanına yolladı. Həzrət cənnətməkan şah Təbriz darüssətənəsinin Səadətabad meydanında böyük bir ziyafət və şahanə bir büsat qurdu, [yollara] əlvan xalılar döşəndi, zərli xeymələr və bəzəkli sayəbanlar açıldı. Elə bir məclis quruldu ki, ruzigarın gözləri hələ belə bir məclis görməmiş, zəmanənin qulağı belə bir səs - səda eşitməmişdi. Onlar şəhərə daxil olan gün əzəmətli əmirlər, ləşkər hissələri, əsnaflar, küçə və meydan camaatı, şəhərdə və şəhərdən kənarda yaşayan əhali dəstə-dəstə istiqbala yollanıb, bütün səhranı, çölü və dağı bürüdülər. Sultan Bayazid təkəbbürlü və qaradinməz adam idi. Bir çoxları dedilər ki, belə müxtəlif sənət nümunələri, şənliklər, oyunlar, müxtəlif zər-ziba libaslı döyüşçülər və həddindən çox xidmətlər nümayiş etdirilən Təbriz istiqbalı zamanı şahzadə heç yana baxmır, gözünü atının iki qulağı arasından çəkmirdi.

Sultan Bayazidin Qəzvinə gəlməsi:

Xülasə, Sultan Bayazid başdan-ayağa rum silahları ilə yaraqlanmış on min piyada, yeniçəri və süvari ilə Qəzvinin

Səadətabad meydanına yetişdi. O, şahın dayandığı yüksək bargahının yanına çatan kimi atdan düşdü. Cənnətməkan şah bir neçə qədəm irəli gəlib ona əl verdi (mosafehe), istiqanlıq göstərdi, onunla mehribanlıqla görüşdü. O isə öz təkəbbürünü tərk etməyib qətiyyən danışmır, həmişə gərəkli olan həkimanə danışıqlara əhəmiyyət vermirdi. Nəhayət, rəsmi görüş ənənəsi bitdikdən sonra onu hər günlük ehtiyacı nəzərə alınmaqla gözəl bir mənzilə gətirdilər. Yorğunluğunu dəf edəndən bir neçə gün sonra, elə həmin Səadətabad meydanında [onun şərəfinə] ziyarət verildi, işrət büsatı başlandı. Meydanın yerini Süleyman sarayı kimi rəngarəng xahlarla bəzədilər. Elə gözəl bir qonaqlıq verildi ki, fələkdən (göydən - Ş.F.) baxanların gözləri min yerdən oraya dikilmişdi. [Şah Təhmasib] Sultan Bayazidi oğlanları, əmirləri, yaxın adamları və mülazimləri ilə birlikdə həmin cənnət misallı məclisə dəvət edərək, onun xatircəmliyi naminə cürbəcür əyləncələr təşkil etdi, saatbasaat onun ürəyini almaqdan ötrü canfəşanlıq göstərdi. Xansalarlar* belə bir məclisə uyğun olan içkiləri, mürəbbələri, meyvə və müxtəlif yeməkləri tez-tez təqdim edirdilər. Həmin məclisdə şahzadəyə on min tumane-şahiye-İraqi məbləğində nəğd qızıl, daş-qaşla bəzədilmiş silah, qumaş, parça, silah avadanlığı veridi. Onun mülazimlərini onların hər günlük ehtiyacları ödənilmək şərti ilə ayrı-ayrı əzəmətli əmir və hakimlərə tapşırdılar.

[Sultan Bayazid] şahın yanında olduğu vaxt ona verilən yerli (bumi) ülufədən başqa, qarşılanma zamanı pay göndərilən töhfələrdən və bu məclisdə təqdim olunan ənamlardan savayı on beş min tümən də pul, cəvahir, qiymətli daşlarla bəzədilmiş silah, qızıl və gümüş qab-qacaq, gözəl töhfə, nəfis kitab, zərli saplarla toxunulmuş kirmani və cuşmani xalıları, əlvan parçalar, xarici ölkə qumaşlarına layiq görüldü. Şah, ümumiyyətlə o sultanzadəni layiq olduğundan daha çox şahanə diqqət və qiymətli hədiyyələrə layiq bildi. Amma, [Sultan Bayazid] nifaq sahibi və dikbaş (sərkeş) adam olduğundan, onun həyatı ziyan və xəsarətlə başa çatdı. Çünki, o, uca məqamlı şaha təklif edirdi ki, [şah ləşkərinin] köməyi ilə Rum diyarına ləşkər çəksin, sakitləşmiş vəziyyəti [yenidən] qızışdırsın. Şahzadənin bu niyyəti bir neçə cəhətdən şahın təbinə müvafiq olmadı. Əvvəla, o həzrətlə xandgar arasında xeyli döyüş, qantökmələr və məmləkət dağıntılarından sonra arada sülh yaranmış, əhd-peymand bağlanmış, fitnə-fəsad sakitləşmiş, yaralar sağalmağa başlamış, dinclik yaranmışdı. "Onlar Allahın əhdinə vəfa

qılar, ilqarı pozmazlar"[157] [ayəsinə] uyğun olaraq, şah verdiyi vədə xilaf çıxmağı və əhd-peymanı pozmağı cayiz bilmirdi. O, həm də istəmirdi ki, müsəlmanların rahatlıq və dincliyinə bais olsun, "Əhd bağlayanda ona vəfa qılın və and içəndə andınızı pozmayın"[158] [ayəsinə] əsasən tənqid hədəfinə məruz qalsın. İkincisi, valideynə qarşı üsyan etmək nankorluqdur, dünyada və axirətdə qədirbilməz kimi qiymətləndirilir. Şahzadə isə onu yaradanın üzünə ağ [!] olmuş, üsyan etmişdi. Elə buna görə də, kəramət dudmanından çıxmış, irşad və kamalla bəzənmiş, ağıl və bilik bəzəyi ilə inkişaf etmiş o həzrət [Şah Təhmasib] özünə layiq bilmirdi ki, bu batil əmələ yardımçı olsun.

Şah Təhmasibin Sultan Bayazidin səhvinin əfv olunması üçün xandgardan xahişi:

[Sultan Bayazid] kəramət şöləsi olan, irşad və kamal, habelə əql və biliklə bəzənən bu dudmana pənah gətirdiyinə görə [Şah Təhmasib] belə qərara gəldi ki, ata-oğul arasında düşmənçilik və savaşı rəf etsin, sultanın qəzəb şöləsini dostanə danışıqlar zülah ilə söndürsün. Buna görə də, özünün bir etibarlı adamını xandgarın yanına göndərib, şahzadənin təqsirinin əfv edilməsini xahiş etdi. Sultan Süleyman oğlundan elə bərk incimişdi ki, onun sağ qalması ilə heç cür razılaşa bilmir, şahzadənin vücudunun Osman sülaləsi ("Ale-Osman") dövlətinin dağılacağına səbəb olacağını düşünürdü. O, sülh sazişinin onun vasitəçiliyi ilə imzalandığı öz etibarlı adamı olan Sinan bəyi əşrəfin [Şah Təhmasibin] yanına yolladı. [Sinan bəy] əhd-peyman şərtlərinin möhkəmlənməsindən söz açdı, Sultan Bayazidlə əlaqədar təkzibolunmaz dəlillərlə söhbət apardı. Sultan Süleyman öz əli ilə yazdığı məktubda şahdan şahzadənin, ya diri halda onu aparmağa gələnlərə verilməsini, ya da öldürülməsini təmənna etmişdi. Yazmışdı ki, əgər şah şahzadəni sağ halda vermək istəməzsə, qoy onun fitnə-fəsad çırağı olan gözlərini işıqdan salaraq kor etsin. Cənnətməkan həzrət şah bu işin mürüvvətdən uzaq bir əməl olduğunu düşünüb, Sinan bəyi mehribanlıqla yola saldı. O, yenidən oğlunun dilli-dilavər, sözlü-söhbətli elçilərini [sultanın hüzuruna] göndərərək, ondan xahiş etdi ki, şahzadəyə iqta* olaraq

[157] İfadənin ərəbcəsi: "Əl-ləzinə yufunə bi-əhdi-l-lahi və la yənqu-zunə-l-misaq"
[158] İfadənin ərəbcəsi: "və la tənquzu-1-imanə bədə təvkidiha"

bir yer verilsin ki, o gedib həmin yerdə ömrünü başa vursun. Əgər bundan sonra da ondan ədəbsiz bir hərəkət baş verərəsə, onu cəzalandırmaq çətin bir məsələ ola bilməz.

Bu əsnada Sultan Bayazid öz batinini aşkara çıxarıb, özünə yaxın adamları ilə belə qərara gəldi ki, onun onlara göstərdiyi dostluğa göz yumaraq həzrət şahı aradan götürsün, bu batil xəyalın baş tutacağı təqdirdə Qəzvində bir qalaya sığınaraq, xandgardan kömək istəsin və əcəm vilayətinin valisi olsun, ya əgər bu da ürək istəyi ilə baş tutmasa, Ağrıca yolu ilə sayinxani türkmanlarının yanına, oradan isə gəmi ilə Kəfəyə getsin. Ona məhrəm olan adamdarından Qara Uğurlu və Mahmud Çərkəs bu məsələni xəlvətcə şaha bildirdilər.

Cənnətməkan şah ürəyinin açıqlığından bu məsələnin yalan söz-söhbət olduğunu zənn edərək onlara inanmadı. Amma Sultan Bayazid onların həzrət şahla gizli görüşdüklərini bilib, hər ikisini həbs etdi. Cənnətməkan şah Sultan Bayazidin şəkk-şübhəsini rəf etmək məqsədi ilə bir gün Qəzvinin Səadətabad bağında onunla bir dost kimi söhbət etdi. Sultan Bayazidin yaxın adamlarından Ərəb Məhəmməd Trabzoni şaha yaxınlaşıb ona dedi: "İki kəlmə vacib sözüm vardır ki, onların sizə çatdırılması şahanə nemətimizi yediyim və xeyirxahlığınızı gördüyüm üçün olduqca vacibdir. Mən sözümü sizə gizli bir yerdə demək istərdim". Sultan Bayazid bu söhbətdən xəbər tutub, gecə onu və əvvəl adı çəkilən hər iki nəfəri qətl etdi. Ali məqamlı həzrət şah bu alçaq hərəkətdən xəbər tutub, bu işin səbəbini soruşdu və ondan şübhələndiyini bildirdi. Qəzvinin əhalisi bu məsələləri və şahın əhvalının pozulmasından xəbərdar olub, şahzadənin (qeysərzadə) yaşadığı evə hücum çəkdilər, onu məzəmmət etməyə başladılar. Bu əməl şahın ürəyincə deyildisə də, olub-keçənləri ölçüb-biçdi və qərara gəldi ki, daha onlara etibar etmək olmaz. Buna görə də, şahzadənin şərindən xilas olmaq fikrinə düşərək, onu istəyənlərlə məşvərət və məsləhətdən sonra Sultan Bayazidi həbs etməyi qərara aldı.

O, bir gün, həmişə olduğu kimi şahzadəni yanına dəvət etdi. Sultan Bayazid saraya gələn kimi həzrət şah məclisdən çıxıb, onun əzəmətli əmirlərini həbs etdi. Həmçinin onun Lələ paşa, Fərrux bəy, Əli bəy Çaşnigirbaşı, Sinan bəy Miraxur kimi fitnə-fəsad əhli olan mülazimlərini qətl edərək, şahzadənin oğlanlarının nəzarətini əmirlərə tapşırdılar, sarayda və başqa yerlərdə olan adamlarının əksəriyyəti saf niyyətli sufilərin qılınclarına yem oldu,

bir qismi isə xeyirxah adamlar tərəfindən xilas olaraq öz ölkələrinə getdi.

Sülhün ən mühüm şərtlərindən biri bu idi ki, əgər tərəflərin adamlarından biri qaçaraq qarşı tərəfə sığınarsa, onu himayə etməyərək geri qaytarsınlar. Doqquz yüz altmış doqquzuncu ildə (miladi 1561/62) Sultan Süleyman Mərəş hakimi Əli paşanı və öz çaşnigirbaşısı Həsən ağanı iki yüz etimadlı ağa və çavuşla birlikdə şahzadəni geri tələb etmək məqsədi ilə saraya yolladı. Cənnətməkan şah [Sultan Bayazidlə öz arasında] nifaq yaranmasına baxmayaraq, o mərhəmətsiz adamlara (yəni Əli paşaya və Həsən ağaya - Ş.F.) etibar etməyib, [şahzadəni aparmaq üçün] allah bəndəsi olan ixtiyar sahibi ağsaqqalların göndərilməsini xahiş etmişdi. İkinci dəfə isə əməlisaleh və osmanlı dudmanının çoxdankı xidmətçilərindən olan Xosrov paşa bir dəstə etimadlı ağsaqqalla birlikdə gəldi. Heç güman edilmirdi ki, onlar bu məmləkətdə şahzadəyə xəsarət yetirə bilərlər. Buna baxmayaraq, onlar xandgarın fərmanı ilə, təxirə salmadan onların beşini da qətl edib, cəsədlərini Ruma aparıdılar.

Misra

Beş nəfər az zümreyi-osmanlıdan.[159]

[Əbcəd hesabı ilə] "beş" qədəmi çıxılsa həmin tarix doqquz yüz altmış doqquzuncu (miladi 1561/62) ilə bərabərdir ki, həmin ibrətamiz hadisənin tarixidir. Bu hadisə söz ustadları tərəfindən belə tərənnüm olundu:

Beyt[lər]

Ey şah, o hansı kəsdir ki, təşəkkür etməsin sənə,
Çünki, əql və ədlinlə xəlqi asudə etmişsən.
Kin qılıncını çəkmədən məhv etdin din düşmənini,
Nə əlini, nə qılıncı qana aludə etmişsən.[160]

[159] Misranın farscası:
Pənc kəm əz zomreye-osmaniyan
[160] Beytin farscası:
Şaha, çe san ayəd kəci əz ohdeye-şokrət borun
Kə-z əql-o ədlət xəlq-ra z-insan bovəd asudegi.
Ədaye-din-ra sərbəsər bi tiğe-kin kərdi ze sər,

Xülasə, şahzadənin fitnəkar vücudunu bürümüş fitnə-fəsad yatdı. O fitnəkarlıq nəticəsində hər iki tərəfin əhalisi iztirab girdabına düşər, aradan çıxmış fitnə-fəsad yenidən hərəkətə gəlməyə başlayar, xalqlar əzaba düçar ola bilərdilər. Amma, [ürəklər] bu əhvalatdan təskinlik tapdı, aram olmuş qəlblər daha da aram oldu.

ÇİNGİZİYYƏ SULTANLARININ SƏADƏTLİ SARAYA CƏLMƏLƏRİNİN ZİKRİ

Ağıllıların dəlaləti və tale bəxtlərinin göstərişi ilə mərhum cənnətməkan şahın başı fələyə ucalan sarayına gələnlərin birincisi ali nəsilli çingizilərdən olan Şeyban ibn Cuci ibn Çingiz xanın övladından Dinməhəmməd xan ibn Ulus xan və onun qardaşı Əli Sultandır. Cənnətməkan şahın Übeyd xanın dəf olunmasından ötrü dördüncü dəfə Xorasana qoşun çəkdiyi doqquz yüz qırx üçüncü ildə (miladi 1536/37), onlar bellərinə xidmət kəməri bağlayıb, hümayun şahla görüş səadətinə yetişdilər, buna görə də Nisa və Əbivərd ülkaları və onlara tabe başqa yerlər Dinməhəmmədə verildi. Şahın iltifatı sayəsində onun qardaşı (Əli Sultan - Ş.F.) bu adı çəkilən vilayət hüdudunda hakimiyyət sürməyə başladı, qədir-qiyməti gün-gündən çoxaldı. Əli Sultan get-gedə bütün Ürgənc vilayətini ələ aldı. Vəziyyətin başlanğıcında o, müstəqim itaət yolunda durub yaxşı xidmət göstərməkdəydi. Übeyd xan doqquz yüz qırx beşinci ildə (miladi 1538/39) Xarəzm diyarını tutan zaman oranı Əbdüləziz Sultana və öz tayfasının başqa sultanlarına verdi. Übeyd xan hələ Vəzir şəhərindəydi ki Dinməhəmməd xan Ürgəncə tabe olan bir dəstə özbək və yəqə türkmanı ilə xanın əmir və sultanlarına hücuma keçdi, taraca əl atıb, özbəklərin başına tac qoydu, qızılbaşların ona köməyə yollanmaları barədə şayiə yaydı. Aralarında baş vermiş döyüşlərdən sonra Übeyd xanın əmirləri məğlubiyyətə uğradılar, onun bir neçə mötəbər adamı əsir alındı, böyük hissəsi isə öldürüldü. Übeyd xan bu məğlubiyyətdən elə çaş-baş oldu ki, dəvəyə minib Vəzir şəhərindən Buxaraya qaçdı, elə bu qəm-qüssə nəticəsində də elə həmin il axirət dünyasına qovuşdu, Əbdüləziz xan isə atasının yerinə Buxarada padşah oldu. Dinməhəmməd xan əsir tutulan

---

Nə dəste-to darəd xəbər, nə tiğe-to aludegi.

adamları, qətl olunanların başları ilə birlikdə, səadətli saraya yolladı. Bu hadisə cənnətməkan şahın şadlığına və arxayınlığına səbəb oldu. Dinməhəmməd xan üçün qiymətli xələt göndərərək, ona Xorasandan üç yüz tümən məbləğində pul ənam verdi. Hər iki qardaş bir neçə müddət şaha baş əyənlər silkində qaldılar. Onların elçiləri həmişə şahın xidmətinə gəlir və hədiyyələrə layiq görülürdülər.

XARƏZM VALİSİ YUNİS XAN VƏ ONUN QARDAŞI PƏHLƏVANQULU SULTANIN ZİKRİ

Dustxan onlarla [yəni Yunis xan və Pəhləvanqulu Sultanla] cəng edərək məmləkətlərini ələ keçirdikdə, Yunis xan öz qardaşı ilə birlikdə ali saraya (Səfəvi sarayına - Ş.F) üz tutdu, doqquz yüz altımış dördüncü ildə (miladi 1556/57) Qəzvin darüssəltənəsindəki səadətli saraya gələrək hümayun görüş şərəfi ilə şərəfləndi. "Amədəne-xarəzmiyye" ("xarəzmiyyənin gəlməsi") sözləri bu hadisənin [maddeye] tarixi oldu.

Amma, buna baxmayaraq Dinməhəmməd xan və Əli Sultan qardaşları [Şah Təhmasibin] şahanə iltifaq hüququna qarşı çıxaraq inadkar və böyük hakimiyyət istəyi üzündən fürsət düşdükcə Xorasan və Astrabad məmləkətləri üzərinə hücumlar edirdilər. Dinməhəmməd xan bir dəfə, doqquz yüz əllinci ildə (miladi 1544/45), Astrabad hakimi Sədrəddin xan Ustaclının üzərinə ləşkər çəkdi. Sədrəddin xan səhra cəngini məsləhət bilməyərək, şəhər və qalaya sığındı. Dinməhəmməd xan isə şəhər və qalanı mühasirəyə alıb geriyə döndü, müqəddəs Məşhəd yaxınlığınadək gedib qayıtdı və cahanpənah dərgaha elçilər yollayıb yalvarış məqamında durdu. Beləliklə, onun oğlu Əbülməhəmməd xan da atasının vəfatından sonra şahanə iltifata və nəvazişə layiq görüldü, atasına məxsus ülka və ələm ona verildi, buna baxmayaraq o da bir müddət sonra xilaf və üsyan yoluna düşdü. [Buna görə də] Məsum bəy Səfəvi və bəzi əmirlər Bəhram Mirzənin oğlu Sultan İbrahimlə birlikdə şahın əmriylə onu (Əbdülməhəmməd xanı - Ş.F.) cəzalandırmağa göndərildi. Xan Əbivərd qalasına sığındı, bir neçə vaxt mühasirədə qaldı. Nəhayət o, əlini şahın nəvaziş ətəyinə uzadıb and içdi ki, daha bundan sonra belə əmələ qurşanmayacaqdır. Adı çəkilən mirzə və əmirlər hökmə baş əyib geri qayıtdılar. Amma Dinməhəmməd xanin qardaşı Əli Sultan haqbilməz və bədxasiyyət adam olduğundan, çox çəkmədi ki, qürur və əqidə badəsindən sərməst oldu, tamahkarlığı

üzündən müxalifət və tüğyan yoluna düşərək, zülm əlini Xorasan məmləkətinə uzatdı. Bir neçə dəfə o dönük bəxtli siyahpaş (qara geyimli - Ş.F.) tayfasının köməyi və oxlu qəbilə düşmənləri ilə birlikdə Astrabada ləşkər çəkərək, həmin vilayətə qarışıqlıq saldı. Amma, kiçik bir şahanə diqqətin və iqbal qoşunun köməyi nəticəsində onun şəri dəf olundu, nəticədə, aşağıda yazılacağı kimi, kiçik bir xəsarətdən savayı, heç bir iş görə bilmədi.

İndi isə, yeri gəldiyinə görə, bir qədər də Astrabad hadisələri və o mülkdə baş verənlər barədə məlumat veriləcəkdir.

ASTRABAD HADİSƏLƏRİNİN ŞƏRHİ, MƏHƏMMƏD SALEH BETƏKÇİ HADİSƏSİNİN BƏYANI, XARƏZM ÖZBƏKLƏRİNİN KÖMƏYİ İLƏ ƏYA OXLUNUN[161] ÜSYANI

Astarabad darülmülkü keçmiş vaxtlarda Cürcan və Təbəzistan valilərinin əyləşdikləri yer idi. Oranın əhalisinin əksəriyyətinin əməlisaleh, mömin və pəhrizkar olmalarına baxmayaraq, vəsvəsədən, qəzəbkarlıqdan və üsyandan da yan deyildilər.

Eləcə Cürcanın meşə və dağlarının havası da insanda üsyankarlıq əhvalı yaradır. Onların bir dəstəsi özlərinə qarageyimlilər (siyahpuşan) adını qoymuşlar ki, onların tüğyan həvəsləri beyinlərini dumanlandırmış, əmin, amanlıqlarını (afiyət) məhdud etmişdir. O yerlərin "şuridəbəxt" adlanan bir dəstə adamı isə sayinxani qəbilələrinə məxsusdurlar ki, xalq arasında yəqə türkmanları adı ilə məşhurdurlar və Xarəzm sultanlarına tabedilər. Öz inadkarlıq və azğınlıqlarından özlərini Astrabadın geniş səhra və bol çöllərinə çatdırmış, Gürgan və Ətrək çayları arasında yaşayaraq məmləkətə ziyan yetirməkdə idilər. Buna görə də, həmin mülk bəladan xali, hakimləri isə cəngdən aralı deyildilər. Amma, Allah-təalaya həmd olsun ki, əlahəzrət zilləllah şahın hakimiyyəti zamanı qəhrin məşəli, zülmün zülməti və üsyanın tozu aradan götürüldü, hər iki dəstə düşmənləri başlarını sakitlik cibinə qoyaraq rahətlik tələbində oldular. Amma, cənnətməkan şah dövründə bir hadisə baş verdi: Cahanı fəth edən şah bayraqlarının dördüncü dəfə Xorasan yürüşündən İraqa tərəf hərəkət etdiyi doqquz yüz qırx dördüncü ildə (miladi 1537/38) Übeyd xan o vilayətdən kənarlaşdırıldı. Təbiətində

[161] "Əhsənül-təvarix" əsərində bu ad "Əba" kimi yazılmışdır.

cəhalət və üsyan havası olan, özbaşınalıq badəsindən beyni dumanlanan, özü də Xacə Müzəffər Betəkçinin qardaşı oğlu olan Məhəmməd Saleh bu əbədi əsaslı dövlətə tabe olmaqdan boyun qaçıraraq sərvərlik fikrinə düşdü, Astrabadın bir dəstə qarageyimlisini ətrafına topladı, dikbaşlıq etməyə (sərkeş) başladı. O, bəzi qəsəbələrə əl uzadıb Daşkənd və Fərqanə valisi Bəraq xanın bacısı oğlu Sultan Qazinin oğlu Ömər Qazi Sultanın yanına adamlar yollayaraq ondan kömək istədi.

Ömər Qazi Sultan o nadan cahilin sözünə uyub, cüzi qoşunla Astrabada tərəf hərəkət etdi. Məhəmməd Saleh də öz qarageyimliləri ilə birlikdə Cürcan meşəsindən çıxaraq ona birləşdi. O vaxt Astrabad hakimi olan Sədrəddin xan Ustaclı özbəklərin və qarageyimlilərin ittifaq etmələrindən xəbər tutsa da, özündə onlara qarşı çıxmaq imkanı görmədi, məharətlə aradan çıxdı, Astrabaddan Bəstama gəldi və məsələni ali saraya çatdırdı. Məhəmməd Saleh məmləkəti xali görüb özünü şəhərə atdı, özbəklərin köməyi ilə həmin vilayətdə hakimiyyət bayrağını göyə qaldırdı, Xarəzm valisinə və onun əhalisinə layiqli töhfə və hədiyyələr yolladı. Ömər Qazi Sultan o vilayətin idarəsini Məhəmməd Salehə tapşırıb Xarzmə qayıtdı. Onun qayıdışından sonra Məhəmməd Saleh qəflət və qürur badəsi ilə sərməst olaraq, əbləhcəsinə səltənət büsatı qurdu, sərvərlik və itaətsizlik fikrinə düşdü. Arama, o, vaxtını gecə-gündüz eyş-işrətlə keçirir, həftələrlə çal-çağır edir, yeyib-içir, ölkənin hər tərəfində baş qaldıran üsyan və məstlik havasını əllərində əbləhlik badəsi tutan dostları arasında bölüşdürürdü. O, hər vilayətə özünün gələcəyini fikirləşməyən mülazimlərini təyin edirdi. Onlar da ona ondan daha çox divanə tərzdə səcdə edir, dua rəsmini yerinə yetirirdilər. Belə deyirlər ki, günlərin bir günü məmləkət bölgüsü üstündə onunla mülazimləri arasında bərk dava-dalaş düşdü.

Xülasə, elə ki, bu hadisə müzəffər padşaha ərz olundu Əmir Sultan Rumlu, Şah Əli Sultan Ustaclı və Həsən Sultan Şamlını bəzi qüvvətli ləşkərlərlə Sədrəddin xanın köməyinə yolladı, amma, Sədrəddin xan əzəmətli əmirlərin gəlib ona çatmasından əvvəl Ömər Qazi Sultanın geri qayıtmasından, Məhəmməd Salehinsə qəflət və sərxoşluğundan xəbər tutub bir dəstə təcrübəli mübarizlərlə Bəstamdan hücuma keçərək Astrabada gəldi. Mübarək ramazan ayı idi. Məhəmməd Saleh öz tale yoldaşları ilə o müqəddəs günlərdə qürur badəsi içərək elə məst olmuşdu ki, ağlı başından çıxmış, məmləkət işlərindən xəbərsiz qalmışdı. Elə ki, qazilərin nağara və

şeypur sədaları onun və yoldaşlarının qulaqlarına gəlib çatdı, qızılbaş döyüşçülərinin artıq şəhərə gəldiklərini anladılar, qorxudan çaş-baş qalıb meşəyə tərəf qaçdılar. Sədrəddin xanın mülazimlərindən olan Şahverdi bəy adlı kəngərli [tayfasından olan] bir gənc onu tutub xanın yanına gətirdi və mükafatlandırıldı. Sədrəddin xan isə onu ali saraya yolladı. Məhəmməd Saleh Təbriz darüssəltənəsində şahın hümayun nəzərinə çatdırıldı. Fərmana görə onu bir küpün içərisinə qoyub Bəsriyyə minarəsinə apardılar və yerə tulladılar. İqtidarda olduğu dövr ərzində onun tərəfindən qəbahətli əməllər baş vermişdi və o, müsəlmanların namusuna toxunmuşdu. Buna baxmayaraq, o, səfehdən ali himmətlər də görünməkdəydi, səhvləri bağışlamağı bacarır, xanəndə, şair və nəzm yazanlara böyük nəvazişlər edirdi. [Şair] Heyrəti Astarbadi onun haqqında ilk beyti (mətlə) belə olan bir qəsidə yazmışdı:

"Göstərirsən cahanın eybini sən ayinə tək,
Bizə gizlin qalan hər şey sənə məlum gerçək". [162]

[Şair], bu qəsidəsini oxuya-oxuya aşağıdakı beytə gəlib çatdı:

"Ey ki, bəxt ölkəsinin şəmsi Məhəmməd
Saleh, Bəzəyibdir səni Allah ayaqdan başadək ". [163]

Padşahlıq papağını başına əyri qoyub əyləşən Məhəmməd Saleh şairə bu beytinə görə yeddi xalvar ipək bağışladı, amma bilmədi ki:

"Papağı əyri qoyub şax oturan hər kəsdən
Nə qoşun başçısı mümkün, nə də ki, sərdar olar". [164]

---

[162] Beytin farscası:
"Ey ke rayət becəhan ayineyi - eybnomast,
Həst rişe-to əyan ançe nehan dər dele-mast"
[163] Beytin farscası:
"Xosrove-keşvəre-eqbal Məhəmməd Saleh
An ke sər ta qədəm arasteye-lotfe-Xodast"
[164] Beytin farscası:
"Nə hər ke tərfe-koləh kəc nehad-o tond neşəst
Sepahdari-yo ayine-sərvəri danəd"

Astrabadda baş verən hadisələrdən biri də Əli Sultan Özbəkin oraya gəlişidir. O doqquz yüz əlli beşinci ildə (miladi 1548/49) birdən-birə Xarəzmin bəzi yerlərini istila etmişdi. Bəd fikirli özbəklərdən altı min nəfər döyüşçü Astrabada gəldi. Sədrəddin xandan sonra hakim olmuş Şah Əli Sultan Ustaclı onların qarşısına çıxdı, Astrabadın kənarında hər iki dəstə arasında bərk vuruşma oldu. Ustaclı qazilərinin mərdanəliyi sayəsində müzəffər dövlətin qüvvələri qalib gəldilər. Onlar Qabus günbəzinə qədər özbəkləri təqib edərək, əksəriyyətini qətlə yetirdilər, başlarını isə ali saraya göndərdilər.

Başqa bir hadisə isə belə olmuşdur: Şah Əli Sultan doqquz yüz əlli yeddinci ildə (miladi 1550/51) vəfat etmiş, Astrabad hakimliyi isə Keçəl Şahverdi Ustaclıya verilmişdi. Yəqə türkmanları ona qarşı çıxdılar. Səbəbi belədir: Keçəl Şahverdi hakimliyə başlayan vaxt yəqə türkmanları təbrik və mübarəkbadlıqdan ötrü onun yanına gələrək çoxlu peşkəş gətirdilər. Oxlu tayfasının başçısı Əya gözəl, ləyaqətli və yaraşıqlı rəna bir cavan oğlandı. Şahverdi Sultan yanına gəlmiş başçılardan yalnız ona yanında qalmaq təklifini etdi, eşqini bildirdi. Bu məsələ türkmanların arasında yayıldı. Əya bədnamlıq qorxusundan icazəsiz olaraq bir gecə ata süvar olub öz elinə döndü. Qisas almaqdan ötrü türkmanların darüğəsi və Şahverdi Sultanın qohumu olan Şatır bəyi qətlə yetirib sultana yağı oldu. Şahverdi Sultan onları cəzalandırmağa yollandı. O, oxlu tayfasına yaxınlaşıb əskərləri o tayfanın qarətinə göndərdi. Şahverdi Sultan öz mülazimlərindən bir neçə nəfərlə bir təpə üzərində dayanıb qarət əməliyyatına baxdığı vaxt, adı çəkilən Əya, türkmanlardan ibarət bir qoşunla qəfil bəla kimi gəlib sultana yetişdi və onu qətlə yetirdi. Sultanın öldürülməsindən agah olan ustaclılar qaçıb şəhərə getdilər. Damğan və Bəstam hakimi olan Əmir Qeyb Sultan Ustaclı bu xəbəri eşidərək Astrabada hücuma keçdi və oranı öz mühafizəsi altına aldı, məsələni saraya bildirdi. Əya Oxlunun üsyan və fitnəkarlığı şaha məlum olduqda doqquz yüz altımış ikinci ildə (miladi 1554/55) Kökçə Sultan Qaçan, Əli Sultan Tatıoğlu Zülqədəri, Çərəndab Sultan Şamlını və Mustafa Sultan Vərsağı o fitnəkarın fitnəsini dəf etməyə yolladı. Onlar gəlib çatdıqda, Əya onlara tab gətirə bilməyib Xarəzmə tərəf qaçdı, Əli Sultan Özbəkdən kömək istədi. Əli Sultan tamahkarlıq həvəsinə düşərək ağır qoşunla Cürcana yollandı. Əzəmətli əmirlərin ordusuna yaxınlaşanda

qızılbaş ləşkərinin keyfiyyət və kəmiyyətindən agah oldu. Gəlişindən peşiman olaraq əmirlərlə yaxınlıq yaratdı. Tərəflər arasında töhfə və hədiyyə alış-verişindən sonra belə qərara gəldilər ki, Əya bundan sonra qoy öz işləri ilə məşğul olsun, ayağını ədəb dairəsindən kənara çıxarmasın və əmirlərin də onunla işləri olmasın. [Əli Sultan] sülh peymanından sonra Xarəzmə qayıtdı. Həmin səfər vaxtı Kökcə Sultan vəfat etdi, başqa əmirlərsə hərə öz ülkalarına getdilər. Bu gediş-gəlişlər və düşmənçilikdə adı çıxan Əyanın beyninə təkəbbür və böyüklük həvəsi yol tapdı. Doqquz yüz altımış beşinci ildə (miladi 1557/58) İbrahim xan Zülqədər Astrabad hökümətinə təyin olunmuşdu. Əya bir dəstə türkman üsyankarını ətrafına yığaraq Astradbada yaxınlaşdı. İbrahim xanın onu dəf etməyə gücü olmadığından məsələni şaha bildirdi. [O vaxt] həzrət cənnətməkan şah Qəzvin darüssəltənəsində idi. O, İbrahim xana kömək etmək və Əyanın fitnəkar vücudunu həyat löhvəsindən silmək üçün Şahqulu Xəlifə Möhrdarın sərkərdəliyi ilə Bədr xan Ustaclı, Yadigar Məhəmməd Sultan Tərxan Türkman, Rüstəm xan Əfşar və başqa əmirləri təyin etdi. Əzəmətli əmirlər qoşun və ləşkər bəzəyərək ordularını nizama saldılar, Astrabada yetişib İbrahim xana birləşdilər, birlikdə Əyanın üzərinə yollandılar. Türkmanlar arasında çaxnaşma düşdü. Əya o ləşkər qabağında müqavimət göstərə bilməyərək, öz xanəköçünü (83) qoyub fərar etdi. Qazilər onun el və ulusunu qarət edərək, elə orada da dayandılar. Elə bu əsnada Əya bir dəstə türkmanla göründü və cəngə hazırlaşmağa başladı. İqbal döyüşçüləri də hərb səfini bəzəyib vuruşmağa başladılar. Hücumun şiddəti və havanın istiliyindən qazilərin atları əldən düşdülər və şahmat atları kimi cansız oldular. Hərb axşamadək davam etdi. Gecə özünün zülmət pərdəsini döyüş xəlvətgahının şahidləri üzünə çəkdiyi zaman hər iki tərəf vuruşmadan əl çəkərək istirahətə başladı. Ertəsi gün Əya oxlu tayfasından olan bir dəstə adamla döyüş meydanına gəldi. Hər iki tərəfin davamlı həmləsindən sonra Əya özünün zəyifliyini, qızılbaş qoşununun qüvvətliliyini müşahidə edib geri çəkildi və anladı ki, təkbaşına bir iş görə bilməyəcəkdir. Buna görə də Xarəzm yoluna şığıdı. Əzəmətli əmirlər onu təqib edə-edə Ətrək çayına qədər qovdular. Həmin biyabanın yandırıcı havasında ləşkərin sərdarı Şahqulu Xəlifə qılınca mübtəla olub keçindi, ləşkərin başqa əmir və əyanı Bədr xanın sərdarlığını qəbul edərək, hərə öz işinə başladı. Onlar hər yana qarətə gedib iki-bir, üç-bir, bir-birilərindən ayrılaraq, özlərini əldən

saldılar. Belə bir vəziyyətdə qarovullar xəbər gətirdilər ki, Əli Sultan Özbək yenidən [qızılbaşlara] qarşı çıxmış və döyüşkən ləşkəri ilə Əya Oxlunun köməyinə yollanmışdır. Bədr xan ləngimədən ata minərək özbək ləşkərinin qarşısına cumdu. Əli Sultan qızılbaş döyüşçülərinin igidliklərindən çəkinərək ehtiyatkarlıq etdi və ordusunun dövrəsini xəndəklə əhatələdi, xəndəyin xaric tərəfini isə qala kimi möhkəmlətdi. Qazilərsə bu tərəfdən xəndəyə yaxınlaşıb cəngə başladılar. Özbəklər qaziləri xəndək arxasından ox və tüfəng atəşinə tutdular. Hərb əsnasında Əya iki yüz nəfərlə ləşkərin arxa tərəfinə hücuma keçdi. Əmirlərin Bədr xana "müxaliflər məkr və hiylə qapılarını açmışlar, qoy bir dəstə adamı göndərək ki, ləşkərin arxasını Əyanın hiyləgərliyindən qorusun" dedilərsə də, o, bu fikri qəbul etmədi, müxalif tərəfin gücünü qiymətləndirmədən özbəklərlə cəngə başladı. Əya isə rikabdarların dayandıqları yerin arxasından gəlib qulluqçuları hədəfə tutdu. Türkmanların oxlarından bir-birinə dəyən qulluqçuların bəziləri xəndəyin kənarında, bəziləri isə xəndəkdən keçərək özbəklərlə əlbəyaxa oldular. Özbəklər də cürətlənib xeyli ox və güllə yağdırdılar və qızılbaş dəstəsini ürəktikən ox və can yandıran güllə ilə dağıtdılar. Əmirlər və qazilər döyüş qayda-qanunu əsasında irəli getməyib ehtiyatsızlıq etdiklərinə görə böyük məğlubiyyətə uğradılar, özlərini heç yerdən keçidi olmayan Gürgan çayına atdılar və onların əksəriyyəti fəna girdabında qərq oldu. Bu cəngdə min nəfərədək qızılbaş cavanı qətlə yetirildi, yaxud da əsir alındı. Əmirlərdən İbrahim xan və Rüstəm xan öldürüldü, Bədr xan, Yadigar Məhəmməd xan və başqaları ələ keçirildi, qalanları isə sağ-salamat Damğana gedib çatdılar.

Əya Oxlunun öldürülməsi:

Əli Sultan Özbək döyüş meydanından qayıtdı. Cilovdarların əllərindən çıxıb həmin səhrada otlayan qızıl-gümüş yəhərli atlar, çoxlu mal, ləvazimat və xeyli başqa qənimət müxaliflərin malı oldu. Elə ki, Əyaya qələbə üz verdi və iqtidar sahibi oldu, o, Xacə Müzəffər Betəkçinin oğlu Xacə Məhəmmədin qızına elçi göndərdi. Xacə Məhəmməd Əyadan qorxur və bu qohumluqdan çəkinirdi, amma istəmədən bununlu razılaşmalı oldu və Əya o ismət sahibi olan qızla evləndi. Betəkçiyyə sülaləsindən olan mülazimlər onun ətrafına toplanıb xidmət etməkdəydilər,

amma həmin övrət gecə-gündüz özünü onun çəngindən qurtarmaq barədə düşünürdü. Əya qadının ona qarşı olan münasibətini duydu və mülazimlərinə onu öldürmək əmrini verdi. Mülazimlərsə öz canlarının qorxusundan qadına dedilər ki, əgər bu gecə biz Əyanın özünü öldürməsək, sabah hamımız öldürüləcəyik. Xatun mülazimlərinə gecə yarısı bir neçə atı xeymənin qapısı ağzına gətirmələrini buyurub dedi ki, mən sizi bu gecə görüləsi işdən xəbərdar edəcəyəm. Mülazimlər əmrə əməl etdilər. Əya yuxuya, gözətçilərsə yağışdan qorunmaqdan ötrü nəmədlərini başlarına çəkərək röyaya daldıqları vaxt Möhübəli adlı bir şəxs cürət edib o şir ürəkli qadının işarəsi ilə xeyməyə girdi, bir şəmşir zərbəsi ilə Əyanın başını bədənindən ayırdı, banu isə işıq və külək sürəti ilə özünü Astrabada çatdırdı. Möhübəli o gicbaşın başını cahanpənah saraya gətirib Qəzvin darüssəltənəsində onu Firidun məqamlı, Cəmşid misallı şahın nəzərinə çatdırdı, öz hədiyyə və mükafatını aldı. Beləliklə də, Astrabadda o nacins adamın fitnə atəşi söndürüldü. Əli Sultan və tamahkar, zorsevər özbəklər əsir tutulmuş qızılbaşların buraxılmasından ötrü dillərinə tamahkarlıq sözü gətirdilər. Onların zər istəməklərindən agah olan cənnətməkan şah özbəklərə çoxlu zor göndərib əsirləri xilas etsə də, onların şahın gözündə hörmətləri qalmamışdı, buna görə də az vaxt içərisində onların hamısı ədəm diyarına göndərildi.

[Beyt]

Hakimiyyət zamanı ömür uzunu,
Kimi ki sevmədi öldürdü onu.[165]

Əli Sultan da elə o vaxtlarda - doqquz yüz yetmiş üçüncü ildə (miladi 1565/66) öz ömrü və dövləti ilə vidalaşıb üqba aləminə yollandı. Onun ölümündən sonra özbəklər ayaqlarını ədəb ətəyi altında gizlətdilər və cənnətməkan şahın sağlığı dövründə Astrabad vilayəti əmin-amanlıq içində oldu və bu haqda [bu kitabda] yazılması lazım olan heç bir məsələ qalmadı. Bütün Xarəzm vilayəti

[165] Beytin farscası:
Dər zəmane-dovlətəş əz saf-o dord,
Hər ke əz taqe-deləş oftad mord.

Hacəm xan ibn Əta Sultan adı ilə məşhur olan Hacı Məhəmməd xana verildi.

Bu xan öz elçilərini ali dərgaha göndərərək, sədaqətini izhar etdi və həmişə öz sözünün üstündə durdu. O, doqquz yüz səksən üçüncü ildə (miladi 1575/76) hələ həddi-buluğa çatmayan oğlu Məhəmmədqulu Sultanı aləmpənah dərgaha (Şah Təhmasibin yanına - Ş.F) göndərdi. Sultan Heydər Mirzədən başqa bütün şahzadələr fərmana əməl edib əmirlər və əyanlarla birlikdə Məhəmmədqulu Sultanı qarşılamağa gedərək, onu şəhərə gətirdilər. Bu özbək şahzadəsi, beləliklə, qızılbaşların arasında boya-başa çatdı. Hümayun şahın (Şah Abbasın -Ş.F.) cülusuna qədər ali sarayda yaşayan Məhəmmədqulu Sultan min birinci balıq ilində (miladi 1592/93) Bəstam çəmənliyində olarkən icazə almadan hümayun ordudan ayrılıb Xarəzm vilayətinə getdi. Hal-hazırda onun oğlu Uluğ Sultan ali dərgahda yaşamaqdadır.

Astrabad hadisələri barədə artıq oxuculara məlumat verildiyi üçün, indi cənnətməkan şahın mübarək Qəzvin dövlətxanasında yaşadığı vaxt baş verən hadisələr barədəki məlumatımız yazılacaqdır ki, o hadisələrin ən böyüyü Gilanatın fəth olunmasıdır.

GİLANATIN FƏTH OLUNMASI, BİYƏPİŞ VALİSİ XAN ƏHMƏDİN ÜSTÜNƏ QOŞUN GÖNDƏRİLMƏSİ VƏ O AQİBƏTSİZİN HƏBSİ HAQQINDA SÖHBƏT

Cənnətməkan şahın dövründə fəth olunan yerlərdən biri də Gilan vilayətidir. Biyəpiş ölkəsi Xan Əhməd ibn Sultan Həsən ibn Karkiya Sultan Məhəmməd ibn Nasir Kiya ibn Mir Seyid Məhəmməd ibn Mehdi Kiya ibn Rza Kiya ibn Seyid Əli Kiyanın, Biyəpəs [isə] Müzəffər Sultan ləqəbli Əmir Dibac ibn Əmirə Hüsaməddinin idi. Dibaclar özlərini İshaq peyğəmbərin — ona salam olsun - övladı sayır və buna görə də onların nəslinə "İshaqiyyə sultanları" deyilir. Suleyman şanlı xaqan (yəni I Şah İsmayıl - Ş.F.) qardaşı Sultan Əlinin başına gələn hadisədən sonra Gilana təşrif aparıb bir neçə il Lahicanda yaşadı. Karkiya Mirzə Əli-Xan Əhmədin əmisi idi və Seyid Haşımla Sultan Həsən onun qardaşları idilər və onların hamısı [Şah İsmayıla] yaxşı xidmət etmişdilər. Cənnətməkan şah onların keçmişdə göstərdikləri yaxşı xidmətlərinə və özünün o xanədana qarşı münasibətinə görə ona

[Xan Əhmədə - Ş.F.] ehtiramla yanaşırdı. Belə ki, doqquz yüz qırx üçüncü ildə (miladi 1536/37) atası Sultan Həsənin vəfatından sonra bir yaşlı körpə olan Sultan Əhməd öz atasının yerinə təyin edildi. [Şah Təhmasib] bir neçə nıüddət həmin sülalənin düşmənlərindən, əmirlərindən və Gilanın başqa iddiaçılarından ehtiyat edərək Gilan əmirlərindən biri və Sultan Həsənin vəziri olan Kiya Xur Kiya Taleqaninin xahişi ilə Bəhram Mirzəni Gilana yolladı ki, o, məmləkəti bir neçə vaxt hücumlardan qorusun. Bəhram Mirzə isə bir neçə imkanlı adamın sözlərinə əməl edib Kiya Xur Kiyanı həbs etdi. Buna görə də gilanlılar daha ona etibar etmədilər və o, Gilanı tərk etdi.

Xan Əhməd yaşının şüuru kəsən vaxtına yetişdikdən sonra cənnətməkan şah gün-gündən onun tərbiyəsi ilə məşğul olurdu. Onun evləndiyi Nini (Neynəy?) adlı qızdan bir oğlu oldu ki, cənnətməkan şah ona Sultan Həsən adı verdi, öz fərzəndi saydı və nəhayət onunla qohum oldu. O sülalə ilə qohumluğu olan Biyəpəs valisi Müzəffər Sultan üsyan edərək, Rum xandgarı Sultan Süleymanın əcəm diyarına birinci yürüşündə bu əbədi dövlətdən üz çevirdi, Təbrizin Ucan adlı yerinə qədər gedib sultanı qarşıladı, [bundan başqa] ona tabe olduğunu bildirdi. Sultan Süleymanın geri qayıtmasından sonra Müzəffər Sultan yenidən Gilana döndü. Mülazimi olan Əmirə Xatəm ona qarşı gələrək Rəştə getməyə qoymadı. Aralarında bərk döyüş baş verdi və Müzəffər Sultan məğlub oldu, Gilanda qala bilməyərək, gəmiyə minib dərya yolu ilə Şirvana getdi.

O vaxtlarda Sultan Xəlil şirvanşah idi. Elə həmin günlərdə də o vəfat etdi. Müzəffər Sultanı cahan şahının (Şah Təhmasibin - Ş.F.) mülazimləri həbs edərək Təbriz darüssəltənəsinə, şahın hüzuruna gətirdilər. Fərmana görə onu dəmir bir qəfəsə qoyub "Həsən padşah" məscidinin iki minarəsinin arasına bağlayaraq yandırdılar. Oğlu Sultan Mahmud xanın cənnətməkan şahın bacısı oğlu olmasına və atasının müxalifət və üsyanında iştirak etmədiyinə baxmayaraq o, öz irsi mülkündən məhrum edildi və ülkası Sultan Həsənə verildi Xan Əhməd şahanə nəvazişkarlıqla bütün Gilanatda hökm-forma vali oldu, dövlət bayrağı asimana yüksəldi. O, öz irsi torpaqlarında hökm sürən Kəskər hakimi Əmirə Sasanı və Kuhdəm hakimi Mirzə Kamranı o vilayətlərdən çıxarıb həmin yerləri öz əlinə keçirdi, beləliklə ata-babasının xəyalına belə gəlməyən bir dövlət ona qismət oldu. Lakin Xan Əhməd bəxtinin qaralığı, özünün

cahilliyi və xudpəsəndliyi üzündən şahın qədr-qiymətini bilmədi, ağlı dayaz, boşboğaz və aqibətlərini düşünməyən bir dəstə adamın təhriki ilə hümayun razılığın olmadığı işlərə qurşandı. Ali orduda sərgərdan yaşayan Əmirə Sasana rəhmi gələn cənnətməkan şah, Kəskər vilayətini yenidən ona verib, oraya yolladı. Xan Əhməddən əvvəl Kəskərin hakimi olmuş Səid adlı bir sipəhsalar onun işarəsi ilə Əmirə Sasana tabe olmadı, aralarında böyük döyüş baş verdi. Əmirənin bəxti gətirdi, ona qalib gəldi. Sapəhsalar bir çox adamı ilə birlikdə öldürüldü.

Xan Əhməd yayın isti vaxtında oğlu Sultan Həsənə qoşun verib onu Kəskərə - əmirənin üstinə yolladı. Havanın üfunəti nəticəsində Sultan Həsən həmin yürüş vaxtı öldü. Xan Əhməd bundan ruhdan düşməyərək, həmin diyarda öz istila bayrağını qaldırdı. Cənnətməkan şahın nəsihəti ilə ona bir neçə fərman yollanmasına və şahın onu düzgün yola çəkməsinə baxmayaraq bu tədbirlərin təsiri olmadı. Nəhayət cənnətməkan şah nənə tərəfdən özünə qohum olan Müzəfər Sultanın nəbirəsi Cəmşid xana səlahiyyət verərək, Biyəpəs ülkasını Xan Əhməddən aldı, ona verdi. [Şah] Məsum bəy [Səfəvinin] oğlu Sədrəddin xanı bir dəstə talış əmiri ilə Biyəpəsi alıb Cəmşid xana verməsi üçün göndərdi. Kiya Rüstəm, Xan Əhməd tərəfindən Rəştin hakimi idi. O, xanın əmri ilə qoşun toplayıb Sədrəddin xanla döyüşdü və həbs edildi. Xan Əhməd isə məcburiyyət üzündən əlini Biyəpəsdən üzdü. Buna baxmayaraq o, Biyəpəsin daxilində olan Kuçsifahan vilayətini hələ də öz hakimiyyəti altında saxlayırdı.

Cəmşid xan Gilana gedib öz irsi mülkünə sahibləndikdən sonra Kuçsifahana hücum etdi və aradan döyüş başlandı. Cənnətməkan həzrət şah ağsaqqal, xeyirxah və tədbirli adam olan Yolqulu bəy Zülqədəri Gilana yolladı və Xan Əhmədin əbədi səadətinin nişanəsi olan bir məktubu ona təqdim etdilər. Orada yazılmışdı ki, ondan zahirə çıxan bütün qəbih hərəkətlərə və həyasızlığa baxmayaraq, irsi mülkü olan Gilan Biyəpişini Xan Əhmədə verdik. [Amma o gərək] Cəmşid xanın bir oğluna aid olan Biyəpəs vilayətinin işlərinə qarışmasın, onlar bir-birləri ilə ata-oğul kimi dolansınlar. Xan Əhməd yaşadığı yerin möhkəmliyinə və meşənin sıxlığına arxalanaraq hərzə adamdarın sözlərinə, cahil və özbaşına kəslərin boşboğazlıqlarına, meşə çaqqallarına bənzər cahil və özbaşına adamların boş danışıqlarına qulaq asıb öz yolundan çıxdı. Şah Mənsur adlı bir əmirini qoşunla qəfildən özünün az adamı

ilə məsləhətə gəlmiş olan Yolqulu bəyin üstünə göndərdi və onu bir dəstə yaxın qaziləri ilə birlikdə öldürdülər. Bu qəbih əməldən şahın qəzəbi odlandı, Xan Əhmədin tənbeh olunmasını şahanə məqsəd və zərurət bildi. Doqquz yüz yetmiş beşinci ildə (miladi 1567/68) şah qəzəb və kinlə öz zəfər qoşununu Gilan yürüşünə göndərdi. O, bir tərəfdən şahzadə Sultan Mustafa Mirzəni, Əmir xan Türkmanı, Qoç Xəlifə Mördarı, Mirzənin lələsi Nəzər Sultan Ustaclını və başqa əmirlərini, o biri tərəfdən Kəskər hakimi İbrahim Sultan Ziyadoğlunu Mirzə Kamran Kuhdəmini, Cəmşid xanın vəkili olan Əhməd Sultan Biyəpəsini Xan Əhmədin ülkasını mühasirə edərək onu ələ keçimək üçün yolladı. Şah həmçinin rüknüssəltənə (səltənət dayağı - Ş.F.) Məsum bəy Səfəvini də qəhrli bir qoşunla həmin məqsədlə oraya göndərdi. O vaxtlarda Xan Əhməd Deyləman yaylağında idi. Əmir xan və Nəzər Sultan ona hücum etdilər. Xan Əhməd canının qorxusundan özünü Lahican şəhərinə çatdırdı, Ləştəneşa sipəhsaları Əmir Cahangiri on iki min piyada və süvari ilə zəfər şüar əsgərlərin üstünə döyüşə yolladı. Qoşun dar bir dərənin ortasında gilanlıların "bənəbər" dedikləri yolkəsmə (təxtəbənd) əməliyatı apardı, qoşunun arxasında çoxlu tüfəngçi və oxatanlardan ibarət döyüşçü hazır vəziyyətdə dayandı. Məsum bəy və alişan əmirlər oraya çatdıqları vaxt həmin alçaq adamlar dağılıb qaçdılar. Onların böyük bir hissəsi öldürüldü. Sədrəddin xan, Bayandur xan, Talış və Kəskər əmirləri oraya yetişərək, Əmir Bahadır və Gilan Kəskərindən gələnlərlə döyüşüb qələbə çaldılar. Əmir Bahadırı, bir neçə əmiri və qoşun başçısını (sipəhsalar) qətl etdilər. Xan Əhməd qəflət yuxusundan bir qədər ayılıb, özünə heç bir çarə tapa bilmədi. Sədri olan Mövlana Əbdülrəzzaqı bir neçə əyanla səadətli saraya yolladı, peşmançılıq izhar etdi. Qəzəb şöləsi hələ sönmədiyi üçün yalançı danışıqlar özünü doğrultmadı. Xan Əhməd özünü itirərək Lahicandan çıxıb, Əşkur istiqamətinə qaçdı. Gilan əmirləri həmin vilayətin ətrafına səpələnib meşələrdə çaqqallar kimi sərgərdan oldular. Alişan əmirlər Lahicana girib o məmləkəti ələ keçirdilər, rəiyyət tərəfindən yaxşı qarşılandılar. Xan Əhmədin Əşkura getməsi məlum olduqda, mübariz əskərlərin bir dəstəsi gəlib bədxah adamların ürəklərindən də dar olan Tənkabona yetişdilər. Əgər bu yoldan keçən süvari orada azacıq ləngiyərsə və onun nəzəri yoldan yayınaraq ətrafa baxarsa, həmin adam və onun atı, heç şübhəsiz ki, həmin yoldan yıxılıb həlak olacaqdır. İqbalın gücü ilə onlar həmin yolu asanlıqla keçib Tənkabona daxil oldular. Xan Əhmədin

bacısının damadı olan Məlik Üveys Rüstəmdarini elə oradaca ələ keçirdilər. Xan Əhməd qalın cəngəlli dağlarda üç-dörd ay sərgərdan oldu, qazilərin qorxusundan hər gələn gecə-gündüzünü narahatlıqla keçirdi. Elə ki, qış gəldi, şaxta hücuma başladı, havanın üstü gümüşləndi, yağan qarın çoxluğundan dağ və düzənin səthi bərabərləşdi, cənnətməkan şah Allahqulu Sultan Eycəkoğlu Ustaclını və Mirzə Əli Sultan Qacarı, bir dəstə əzəmətli qorçini və intiqama tələsən mübariz əsgərləri Əşkura göndərdi. Onlar həmin vilayətin meşələrində Xan Əhməd xanı axtarmağa başladılar və onun dayandığı yeri təyin etdilər. Hüsam bəy ibn Bəhram xan Qaramanlı qorçi və döyüşkən əsgərlərdən iyirmi nəfərlə sübh tezdən Xan Əhmədə hücum etdi. O, iztiraba düşərək heç bir yana addım ata bilmədi, gizlənməyə məcbur oldu. Qazilər axtarıb onu tapdılar, Allahqulu Sultanın yanına gətirdilər, o da onu Məsum bəy Səfəviyə təhvil verdi.

Xülasə, Məsum bəy adlı-sanlı əmirlər və şüarları zəfər olan qorçilərlə Xan Əhmədi öz köçü və adamları ilə birlikdə aləmə pənah verən saraya çatdırıb, Qəzvin darüssəltənəsində onu müzəffər şəhriyarın (Şah Təhmasibin - Ş.F.) yanına gətirdilər. Xəcalətlə etdiklərindən peşman olan xan yalvar-yaxara başladı. Şahanə insaf onun qanından və bütün üsyan və itaətsizliyinin üstündən keçdi, lakin onu mülk işlərindən uzaqlaşdırdı, amma rəhm edərək zillətə salmadı, Xan Əhmədi Qəhqəhə qalasının məhbusu etdi. Lahicanın idarəsi və bütün əmlakı Allahqulu Surtan Eycəkoğluya çatdı. Hüsam bəy Qaramanlı əmirlik rütbəsinə yüksəldi, Əşkur ona verildi. Oradakı hər bir yerə hakimlər təyin edildi, ədalət bərpa olundu, Gilan hakimlərinin törətdikləri bütün saysız-hesabsız qeyri-məşru (şəriətin yol vermədiyi - Ş.F.) işlərə ölkədə son qoyuldu. Rəiyyət və miskin adamlara hörmət edildi, o vilayətdə şahanə ədalət büsatı quruldu.

Xan Əhməd bir müddət Qəhqəhə qalasında qaldı. Ömrünü həmişə yaxşı keçirdiyindən qalanın vəziyyətinə dözməyərək bu rübaini yazıb orduya göndərdi:

Dövranın əlindən bu gün ağlar mənəm,
Tale mənə cövr eylədi, naçar mənəm.
Bir küzə təki əyildi qəddim qəmdən,

Bədbəxtliyə bax Qəhqəhədə zar mənəm"[166]

Ali ordunun zarafatcıl adamlarından biri ona cavab olaraq bu rübaini yazdı:

Olmuşmu görən heç belə ağlar səni,
Bədbəxtliyə bilmişəm səbəbkar səni.
Sən dərdə düşüb indifəğan eylərsən,
Qəh-qəhdir edən Qəhqəhədə zar səni.[167]

Cənnətməkan şah xanın halına acıyıb, onu Qəhqəhə qalasından çıxararaq, geniş sahəsi və yaxşı otaqları olan Şirazın Estəxr qalasına göndərdi ki, qoy bir neçə xidmətçisi ilə orada yaşasın. Xan Əhməd xan kimliyinə münasib yemək-içmək və geyim-keçimlə təmin edildi. O, həmin qalada bir neçə il yaşadı, vəzifəli adamların həmişə narahatlığına səbəb olan dünyəvi işlərdən uzaqlaşdı. Onun hər iki qalada keçirdiyi həbs müddəti on il çəkdi. İsgəndər şanlı nəvvab (Şah Məhəmməd Xudabəndə - Ş.F.) taxta hümayun cülusunun əvvəllərində özünün möhtərəm hərəmi olan Məhdülya ilə xanın qohumluğu və yaxınlığı səbəbindən onu qaladan azad etdi və Xan Əhməd yenidən özünün irsi mülkünə sahibləndi. Bu məsələnin təfsilatı öz vaxtında qələmə alınacaqdır.

Doqquz yüz altmış doqquzuncu ildə (miladi 1571/72) Gilanın bir dəstə döyüşçüsü özlərinin rahatlıqlarını pozaraq ölkədəki asayişi və dinc həyatı qarışdırdı. Onlar havanın isti keçməsinə görə Lahicandan çıxıb yaylağa gedən Allahqulu Sultana üsyan edərək, Xan Əhmədin əcdadı ilə qohumluğu olan Seyid Hüseyn adlı bir nəfəri özlərinə hakim seçdilər. Əmirə Dəmac adlı bir şəxsi sipəhsalar təyin edib, öz müxalifət və düşmənçilik səslərini

[166] Beytin farscası:
"Əz gərdeşe-çorx vajgun migeryəm,
Əz covre-zəmane bin ke çun migeryəm.
Ba qodde xəmide con sorahi, şəbo-ruz
Dər Qəhqəheəm və leyk xun migeryəm"
[167] Beytin farscası:
"An ruz ke karət həmegi Qəhqəhe bud,
Ba rəye-to rəye-səltənət səd məhe bud.
Emruz dər in Qəhqəhe ba gerye besaz,
K-an Qəhqəhe ra nətice in Qəhqəhe bud"

ucaltdılar, səfeh və fitnəkar adamlar hər yandan gələrək onların ətrafına toplaşdılar.

Onlar Lahicanda qalada olan sufilər üzərinə çoxlu adamla hücum edib, döyüşə başladılar. O qala möhkəm olmadığından içəri girib bütün sufiləri qətl etdilər, hətta onların arvad-uşaqlarını da intiqam qılıncından keçirtdilər. [Sonra] Allahqulu Sultanın oğlu Bəklaş bəyin üstünə tökküldülər. Əmirə Dəmac yüz cür təşvişlə aradan çıxa bildisə də, əksər adamlarına ölüm şərbəti içirdilər.

Əmirə Sasan bir dəstə igid döyüşçü ilə Kəskərdən çıxıb o yağıların üstünə hücuma keçdi və onlarla döyüşdü. Dəmacın döyüşçülərin sayı iyirmi min nəfərə yaxın oduğundan, o, bərk məğlub oldu, lakin böyük səy və əziyyətlə döyüş mərəkəsindən qurtuldu.

Bu xəbər elə ki şaha çatdı, ali dərgah ordusundan Qoç Xəlifə Möhrdarı və Əmir Qeyb bəy Ustaclını bir dəstə əmir və sərdarla onun dəfinə yollandı. Onlardan başqa üç yüz nəfər ustaclı və qəriblı qorçiləri də məqsədə doğru göndərildi.

Bir gün qorçilər arasında söhbət zamanı igidlik və şücaət barəsində danışıq oldu. Döyüşkən cavanlardan və cəng meydanının mübarizlərindən yüz otuz nəfəri əmirlərdən icazəsiz gedib o vilayətə çatdılar. Onlar Lahicanın bir mənzilliyində olan Kukə və Keymə yetişdikləri zaman əqli az, amma nadanlıqları çox olan giləklər qorçilərin gəlişindən agah oldular. Onların sayının az olması səbəbindən hamısının ələ keçirilməsinin mümkün ola biləcəyini, beləliklə də qızılbaşları qorxuya salaraq onların bir daha belə cürətə yol verməyəcəklərini düşünən giləklər həmin az saylı qoşuna tərəf hərəkət etdilər. Əzəmətli qorçilər "Allahın istəyi ilə çox vaxt az bir dəstə çox dəstəyə qələbə çalır"[168] qissəsinə (hədisinə - Ş.F.) inanıb, həmin düşmənlərə mərdanə həmlə etdilər. Gil (Gilan - Ş.F.) qoşunu bir-birinin ardınca dəstə-dəstə döyüş meydanına çıxdı. Döyüş atəşi şölələndi. Qorçilər gilanlıların çoxluğundan qətiyyən çəkinməyib, biri digərinin köməyinə arxalanaraq, tərifi indiyə qədər dillərdə dolanan döyüş məharəti göstərdilər, o qarabəxtlərin çoxunu həlak etdilər. O əsnada gilək qoşununun sipəhsaları və sərdarı olan Əmirə Dəmaca bir güllə dəydi və o, həyat atından düşüb ölüm torpağına yuvarlandı. Həmin talesizin öldürülməsi nəticəsində başqalarına

[168] İfadənin ərəbcəsi: "Kəm min-fi-ətin qəlilətin ğələbət fi-ətən kəsirətən bi izni-l-lahi"

qorxu üz verdi, vahiməyə düşüb məğlub oldular. Min nəfərdən çox gil[an] döyüşçüsü öldürüldü, qalanları isə pərakəndə olub, öz ölkələrinə üz tutdular. Bahadırların əlinə bol qənimət keçdi, onlar dilavərliklə Lahicana getdilər. İqbal qoşununa üz verən bu qəribə hadisədən sonra əzəmətli şah qorçilərinin igidləri barədə səs-soraq hər yana yayıldı.

Əzəmətli əmirlər [isə belə özbaşına hərəkətə yol verdiklərinə görə] ittiham edildilər. Allahqulu Sultan Gilan əyalətindən kənar olundu, o vilayətin var-yoxu cavan şahzadə İmamqulu Mirzənin lələsi Pirə Məhəmməd xan Ustaclıya verildi. O, şahzadənin məiyyətində həmin istiqamətə yollandı. Nə qədər ki, həzrət cənnətməkan şah sağ idi, onlar o vilayətdə yaşamaqdaydılar. Allahqulu Sultan öz qafilliyi və qüruru üzündən özünə yaxın adamların bir hissəsinin və oğlu Bəktaş bəyin öldürülməsi səbəbindən mürşide-kamilin (Şah Təhmasibin - Ş.F.) etibarını itirdi. Saf təbiətli sufilər onu dövlətxanaya buraxmadılar. O, öz evinə də getməyib sarayın sabiq işçisi kimi, üç ay qışın soyuğunda, qar və yağış altında, dövlətxanadan kənarda durub qüsur və günahının əfv olunması xüsusunda xahişlər etdi.

Mübarək ramazan ayı çatanda cənnətməkan həzrət şah seyid və üləmalarla təmasda olub, onun günahından keçdi, Allahqulu Sultana öz evinə qayıtmaq icazəsi verildi. Bayram günü o sufilik qayda-qanunu üzrə şahın səcdəsinə gəldi, amma şahın mübarək xatiri [yenə də] ondan incik idi və onun [hökmdarın yanında] hörməti (abru) qalmamışdı. O həzrətə üz verən qaçılmaz ölüm hadisəsindən sonra [Allahqulu Sultan] təkələlərən əli ilə öldürüldü.

O həzrətin dövründə məmləkətdə baş verən başqa hadisələri, itaətsiz əlvar, talış və rüstəmdar kürdlərinin cəzalandırılmasını, hər tərəfdə baş verən qarmaqarışıqlığın tədbirlə və [yaxud] qılınc gücünə dövlət tərəfindən yatırılmasım əgər qələmə alsaq, mətləb olduqca uzanar, çünki bizim məqsədimiz hümayun zilləllah şahın (Şah Abbasın - Ş.F) əbədi dövlətinin hakimiyyəti vaxtında baş vermiş əhvalatları yazmaq olduğundan, başqa hadisələrin incəliklərini öyrənməkdən ötrü Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" kitabına müraciət etmək lazımdır. İndi isə dünya padşahlarının elçilərinin səadətli saraya gəlmələri barədə bir neçə məlumat verilir.

ƏTRAF SULTAN ELÇİLƏRİNİN MƏLƏK TƏVAFLI SARAYA GƏLMƏRİ BARƏDƏ SÖHBƏT

Elə ki, yeri cənnət olan yüksək məqamlı həzrət şah zəruri ölkə işlərinin nizama düşməsindən xatircəm oldu, iyirmi il Qəzvin darüssəltənəsində iqamət edib, heç yana getmədi. Bütün iqamət müddətində ki, cahanbanlıq sarayı və Kəyanlara xas müzəffər xosrovluq taxtı (ovrəng) şahın vücudu ilə bəzənmişdi, onun dövlət bayrağı gün-gündən asimana ucalır və iqbal quşu daha yüksəklərə uçurdu. Məğrur padşahlar sultanlara pənah verən saraya öz dilli-dilavər elçilərini göndərərək, töhfə və hədiyyələr təqdim etməklə o həzrətlə özlərinin xarici əlaqələrini və mənəvi münasibətlərini möhkəmləndirirdilər. Dəfələrlə o həzrətin xidmətinə öz elçilərini yollayan cahan sultanlarından və fərman sahibi olan hökmranlardan birincisi zaman qeysərlərinin sərvəri və ale - Osmanlı padşahlarının ən əzəmətlisi olan Rum xandgarı Sultan Süleymandır. O iki iqbal sahibi olan şəxs arasında bir neçə il baş verən müharibələrdən sonra vəzire-əzəm (baş vermiş - Ş.F.) və osmanlı ailəsinin etibarlı adamlarından olan Məhəmmədpaşa sülh barədə qüdrətli dövlət adamlarına məktublar yazıb ali saraya elçi də yollamışdı. Bu tərəfdən də Mir Şəms Vəlixani elçi kimi getdikdə Sultan Süleyman ona demişdi ki, dünya sultanları həmişə bizim saraya töhfə və hədiyyə göndərmişlərsə də, Osmanlı dövləti tərəfindən indiyəcən heç bir sultana elçi və töhfə yollanmamışdır. Bu qayda Osmanlı qanunlarında yoxdur. Vəzirlərin [sizin saraya] elçi və məktub göndərmələrindən mənim xəbərim yoxdur.

Ona yaxın adamlardan olan Sinan bəy, yuxarıda yazıldığı kimi Qanlıçəmənidə tutulub azad edildi və arada sülh yarandı, Sultan Bayazidin [səfəvi sarayına] gəlməsi məsələsi baş verdi. Sultan Süleyman [onda] Sinan bəyi elçi kimi o həzrətin yanına göndərdi. Doqquz yüz altmış altıncı ildə (miladi 1558) o, Qəzvin darüssəltənəsində şahla görüş səadətinə nail oldu, məktublaşma, dostluq və məhəbbətdən danışdı. Cənnətməkan şah söhbət əsnasında söylədi: "Bir halda ki, hər hansı bir yerə elçi yollamaq Osmanlı qanununda yoxdur, belə olan halda bu necə olmuşdur ki, qanuna xilaf olaraq sənin kimi ləyaqətli bir şəxsi elçi sifətilə yola salmışlar". Sinan bəy olduqca məqbul və səmimanə cavab verib şaha ərz etdi ki, elçinin yad yerə göndərilməsi qanuna ziddir. Bir halda ki, aramızda yazışma və dostluq yaranmışdır, deməli ögeylik birliklə əvəz

olundu. Dostların bir-birilərinin yanına gediş-gəlişi, qayda-qanuna müxalif deyildir. Cənnətməkan şah ona əhsən deyərək belə bir beyti söylədi:

Başı gər elçinin səlamətdir
Bu onun əqlinə dəlalətdir.[169]

Səlim bəyin qayıtmasından sonra, Mərəş hakimi Əli paşa və xandgarın çaşnigirbaşısı* Həsən ağa üç yüz nəfərlə öz mülazimləri və xidmətçiləri ilə birlikdə yeddi yüz altmış adamla elçi sifətinə gəldi. Birinci gün Səadətabad bağında şahla görüşərək, xandgarın əvvəldən axıradək öz xətti ilə yazdığı dostluq məktubunu şaha təqdim etdi. Ertəsi gün mübarək dövlətxanada onunla [yenidən] görüşüb töhfə və hədiyyə kimi silah, xəncər kəməri, qılınc kəməri, Avropa (firəng) və başqa ölkələrin nəfis qumaş parçalarını mübarək dövlətxananın Çehelsütun qəsrində şahın müqəddəs nəzərinə yetirdilər. O həzrət də həmin elçilərin şəxsiyyətlərinə münasib olaraq onlara bol ənam və qiymətli xələtlər verərək yola saldı. Doqquz yüz altmış doqquzuncu ildə (miladi 1561) osmanlıların əzəmətli şəxslərindən və aləmin ağıllı tədbirli, ayıq-sayıq adamlarından biri olan Xosrov paşa, Sultan Bayazid əhvalatının təsvirində yazdığımız kimi, xandgarın qapıçıbaşısı Əli ağa ilə birlikdə gələrək, sədaqət üslublu, dostanə və təvazökarlıqla yazılmış məktub gətirdi. Onlardan sonra xandgarın mötəbər adamlarından olan İlyas bəy adlı bir elçi başı fələyə ucalan saraya gələrək Rumdan gətirdiyi qeysəri ənnəğanı əcəm şəhriyarı, Cəm və Xosrov mülkünün hökmranına çatdırdı. O hədiyyələr arasında qırx baş şahi və bədöv ərəb atı, bəzəkli qızıl yəhərlər, Rum qızılı sapları ilə tikilmiş çullar, əlli min şahiye-İraqi tüməni məbləğində olan beş yüz-min miqdarda əşrəfi və flori (əşrəfi pul - Ş.F.), qumaş parçalar və başqa misilsiz cins mallar vardı. Bütün bu hədiyyələri hörmətli şahzadələrə, saray əmirlərinə, qonşu məmləkətlərin hakimlərinə, qorçilərə, aralarında heç bir fərq qoyulmadan qızılbaş tayfalarının əyanlarına, [həmçinin] Bəlx hakimi Pir Məhəmməd xan, Buxara padşahı Abdulla xan, Səmərqənd valisi Əbu Sultan Səid xan,

[169] Beytin farscasıdır:
Gor ferestade əz xerəd zindəst,
An xerədməndiye- ferestəndəst.

Ürgənc xanları Əbülməhəmməd xan və Hacəm xan kimi əzəmətli özbək sultanlarına verdilər. Sultan Süleymanın vəfatından sonra oğlu qeysərlik mülkünün maliki və İsgəndərlik taxt-tacının sahibi oldu. Doqquz yüz yetmiş beşinci ildə (miladi 1567/68) Məhəmmədxan adlı bir elçi böyük şövkət və həşəmətlə Qəzvin darüssəltənəsinə gələrək, ata-oğul təvazökarlığı və dostanə məsləhətlərlə dolu ənbər ətirli bir məktub gətirdi. Həmin məktub ata-oğul münasibətlərinin möhkəmlənməsi və sülh qayda-qanunun bərqərar olması xüsusunda sözlərlə dolu idi.

Doqquz yüz yetmiş altıncı ildə (miladi 1568/69) vəkilüs-səltənə Məsum bəy Səfəvi həccə gedərkən yolda bütün yoldaşları və oğlu Xanmirzə ilə birlikdə öldürüldü və şəhadət dərəcəsinə yetişdi. Rumilər bu alçaq hərəkətin quldur çöl ərəbləri tərəfindən həyata keçirilmiş olduğunu söyləyirdilər. Sultan Səlim Əli ağa adlı mötəbər elçini bu hadisə münasibətilə üzrxahlıq etmək və başsağlığı vermək üçün şahın yanına göndərdi. O həzrət müsəlmanların rahatlığı və cahan insanlarının əmniyyəti naminə o üzrxahlığı qəbul etdi.

Doqquz yüz qırx səkkizinci ildə (miladi 1541/42), özbək nəslindən olan Çingizi padşahlarından o vaxtlar Bəlx hakimi olan "Xançöhrə" kimi tanınan Kəskən Qara Sultan və Buxara padşahı olmuş Übeyd xanın oğlu Əbdüləziz xan elçi kimi Xudayberdi bahadırı saraya yollayıb, sədaqətlərini bildirdilər və sabiq düşmənçiliyin aradan qaldırıldığını ərz etdilər. Xarəzm və Ürğənc sultanlarının elçiləri də tez-tez gəlib-gedərdilər.

Dekənin əzəmətli sultanları, xüsusilə Petən Əhmədabadının valisi Nizamşahın, Heydəri-Kərrar xanədanına (İmam Əli - Ş.F) məhəbbəti olan və özlərini pak imamların - onlara Allah-təlanın salamı olsun - şiələri sayan Gülkəndə və Heydərabad valisi Qütbşahın, Bicapur valisi Əli Adilşahın dilli-dilavər elçiləri dəfələrlə gəlib onların ölkələrində on iki imam xütbəsinin o həzrətin (Şah Təhmasibin - Ş.F) adına oxunduğunu bildirir, xüsusi xələtlər, o cümlədən qiymətli daş-qaşlarla bəzənmiş tac, qızıl yəhərli atlar, xəncər kəməri və başqa şeylərdən ibarət töhfə və hədiyyələr gətirirdilər.

Doqquz yüz yetmiş birinci ildə (miladi 1563/64) Bəkr və Sind valisi Sultan Mahmud xan xoş xəbərli Əbülməkarim adlı bir elçisini uca dərgaha göndərib şahla həməqidə və qədimdən bəri sadiq olduğunu bildirərək sabiq imtiyazlarını xatırlatdı, layiqli hədiyyələr yolladı.

Firəng ölkəsinin alışan sultanlarından Portuqaliya padşahı Don Senan doqquz yüz əlli səkkizinci ildə (miladi 1551/52) töhfə və hədiyyələrlə işbilən bir elçi göndərib öz səmimi sədaqətini bildirdi. Portuqallar yad dinə qulluq etmələrinə baxmayaraq o, (Portuqaliya padşahı - Ş.F.) şahın görüşdüyü başqa sultanlar arasında daha hörmətli idi. İkinci dəfə, doqquz yüz səksən ikinci ildə (miladi 1574/75) xidmətçilərindən başqa əlli nəfər mülazimi olan mötəbər bir elçi heyəti şaha sədaqət və etibarlarını daha da dərindən ərz etmək üçün səadətli dövlətə gəlib, cənab portuqal padşahı tərəfindən elə töhfələr gətirdilər ki, bəsirət gözlü adamların nəzərincə İslam diyarında onların tayi-bərabəri olduqca azdır. Amma həmin elçilər İslam dininə müxalif olan bəzi əməllərinə görə şahın iltifatından kənar oldular və o həzrət nə qədər ki, sağ idi, onların geri qayıtmalarına icazə verilmədi. Yeri cənnət olan İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşahın cülusu zamanı onlar mürəxxəs olub, öz diyarlarına qayıtdılar.

DÖVLƏTE-XAQANİ DÖVRÜNDƏ (ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ ZAMANI - Ş.F.) ASİMANIN ƏMRİ İLƏ BAŞ VERƏN NADİR VƏ QƏRİBƏ HADİSƏLƏR

Cənnətməkan şahın dövründə baş vermiş qəribə hadisələrdən Xorasanın Qayin adlı vilayətindəki böyük zəlzələlərdir ki, doqquz yüz əlli altıncı ildə (miladi 1549/50) o vilayətin beş kəndində baş verdi. Belə ki, üç min adam torpaq altında qalaraq yoxluq nihanxanasına getdilər (yəni məhv oldular - Ş.F). Həmin vilayətin qazisi Mövlana Baqi münəccim idi və həmin beş kəndin birində yaşayırdı. O, kəndin əhalisinə əvvəlcədən xəbər verib demişdi ki, fələyin vəziyyəti və ulduzların təsiri ilə bu gecə böyük bir zəlzələ olacaqdır, buna görə də ehtiyat naminə gərək çöldə dayanıb evlərdə qalmasınlar. Kəndin camatı ona qulaq asmadı, qazi isə öz adamları ilə evdən çıxıb gecə yarısına qədər səhrada qaldı. Soyuqa dözə bilməyib övladlarının sözünə qulaq asaraq kəndə qayıtdı və elə o saat zəlzələ baş verdi. Qazi özünün bütün övladları və adamları ilə torpaq altında qaldı, həlak oldu.

Nadir hadisələrdən biri də budur: Doqquz yüz səksəninci ildə (miladi 1572/73) asimanın şimal qütbündə bir atəş görünmüşdü. Həmin atəş yeddi ay görünməkdə davam etdi. Sonradan o, kül şəklinə çevrilib yerə töküldü. [Elə o il] Rumda bərk taun xəstəliyi

oldu və bunun səbəbinin həmin atəşin əlaməti olduğunu güman edirlər ki, bu hadisə müstəsna hal (bədi) deyildir. Çünki elə həmin ildə şimal qütbü altında yaşayan insanlarda güclü zəiflik (fetrət) göründü. Əskəri xan Tatar - Urus məmləkətini tutmaq fikrinə düşərək, oğlu Dövlət Gərayla birlikdə o diyara ləşkər çəkdi. Baleq xan adıyla məşhur olan urus padşahı Karol Vəmavıç (?) onun önünə çıxdı. Onların arasında hərb atəşi elə alovlandı ki, hər iki tərəfdən bir neçə min adamın şirin canını yandırdı və onların külü fəna yelinə verildi. Ruslar (rusyan) hücuma keçib tatar padşahzadəsi Dövlət Gərayı ələ keçirdilər. Əskəri xan isə bir iş görə bilməyərək, geri qayıtdı. Bu zəiflik və qan tökülməsi də şimal tərəfdə baş vermiş taunla əlaqədardır.

Başqa olduqca qəribə hadisə budur ki, Xorasanın Qayin vilayətində göydən buğda böyüklükdə danələr yağdı. Əhali yığıb onlardan çörək bişirirdi.

Şah Təhmasibin dövründə baş verən hadisələrdən biri də budur: Doqquz yüz altmış ikinci ildə (miladi 1554/55) bir dəstə başsız - ayaqsız və nəşəxor qələndər lotuluq işlədərək, Sultaniyyənin Səvərluq yaylağında cənnətməkan şahın yanına gəldilər və onlara xas olan libaslarla əqidəsizliklərini nümayiş etdirdilər, o həzrətə mehdəviyyətə" əsaslandıqlarını sübut etməyə çalışdılar. O həzrətin qəti dəlillərlə həmin fitnəkar əqidədən onları əl çəkməyə çalışmasına baxmayaraq, fikirlərindən dönməyib, əməllərində ifrat dərəcəyə vardılar. Axırda dindar və şəriətpərvər padşah o etiqadsız dəstəni cəzalandırmağa əl atdı. Fərraşlar onların hər birinin başını toxmaqla əzib, ədəm diyarına yolladılar. Bu hadisədən sonra başqaları bir daha baş qaldıraraq öz puç əqidələrini zahirə çıxarmırdılar. Beləliklə, qırx nəfərədək nəşəxor qələndər cəzalandırıldı.

Cənnətməkan şahın hakimiyyətinin sonunda baş verən başqa hadisələrdən biri də Təbriz darüssəltənəsinin başı pozuqlarının cəzalandırılmasıdır. Bu hadisənin şərhi belədir: Çuxursəd hakimi Şahqulu Sultanın oğlu Allahqulu bəy Ustaclı Təbrizin daruğəsi idi. Dərb məhəlləsinin avaraları onun mülazimini tutub, ona qarşı bərk hörmətsizliyə yol verilmişdilər. Daruğə o məhəllənin azğın adamlarından birini qətl etdi. Qohum-əqrabası isə daruğənin icazəsi olmadan onu cəzalandırıldığı yerdən götürüb, başqa azqınlarla birlikdə qəbul edilmiş qayda-qanun üzrə məzarıstanda dəfn etdilər. Daruğə bu məsələdən xəbərdar oldu, o azğınları tənbeh etmək məqsədi ilə onun cəsədini qəbirdən çıxarıb

ibrət darından asmaq istədi. Azğınlar mane olub, damğənin fikrinə qarşı çıxdılar. Daruğə isə öz fikrində israr etməkdə idi. Aralarında dava-dalaş başladı. Azğınların inadkarlığı həddini aşdi-Allahqulu bəy onların silahlarının qorxusundan özünü evino çatdırıb gizləndi. Onun mülazimlorindən və adamlarından bəzisi yaralandı, bir neçə nəfəri isə öldürüldü.

Bu qarmaqarışıqlıq və qovğada cəhl meyxanəsinin bədməstləri və cünunluq aşubxanəsinin (həyəcan evi - Ş.F.) davagəzən dəlilәri özbaşınalıq sevdasına düşərək tüğyana və fitnə-fəsada başladılar. Şəhər adamları arasında mövcud olan iki yerə parçalanma yenidən qızışdı, bir-birinin qanını tökməyə başladılar. Təbrizin qeysəriyyəsində və dörd bazarındakı anlaşma və müamilə aradan götürüldü. Ev və dükanların qapıları bağlandı, küçələrdən camaatın əl-ayağı kəsildi. Hörmətli adamlar, kədxudalar, kasıblar və dərvişlər əzab-əziyyətə düçar oldular, tüğyançıların ədalətsizliyindən cana doydular. O kütlə bir çox qəbahətli işlər gördü, məmləkət dağılmağa başladı.

Bu vəziyyət şaha məlum olduqda rəiyyətin qətl olunması və cəzalandırılmasının qarşısının alınmasından ötrü Baba Süleymanın ağıllı və işbilən oğlu Yusifbəy Çavuşlunu darüğə sifətilə göndərdi ki, tüğyançıları düz yola çəksin, fitnə atəşini barışıq suyu və tədbirlə söndürsün.

Yusif bəy o kütlə ilə görüşdü, düşmənləri ayırd edib, onları hər məhəllə kətxudalarının zaminliyinə verdi. And içdilər ki, bundan sonra fitnə-fəsadla məşğul olmayacaqlar. Şəhərdə bir-iki ay sakillik yaranmışdı ki, Pəhlivan Bari[170] adlı bir nəfər vəziyyəti yenidən pisləşdirdi, orada çaxnaşma saldı. O, Yusif bəyin iki mülazimini qətl etdi və tüğyançılar yenidən fitnə-fəsada başladılar. Yusif bəy bu qarışıqlığı salan adamların dörd yüz nəfərdən çox olmadığı barədə məlumat verərək bildirdi ki, əgər belə azğınların cəzalandırılması ləngisə, bu iş bütün ölkədə fitnə-fəsada səbəb ola bilər.

Buna görə də, Xəlifə Ənsarın oğlu Söhrab bəy Təbrizə hücum etmək və tüğyançıları cəzalandırmaq üçün göndərildi. Elə ki, şəhərə çoxlu döyüşçü daxil oldu, Yusif bəy də öz adamları ilə Söhrab bəyə qoşuldu, üsyançıları axtarmağa başladılar. Onlar vahiməyə düşüb gizləndilər. Zamin duran kədxudaları tutub, onlara tapşırılan adamları tələb etdilər. Kədxudalar zərurət üzündən o

[170] Pəhlivan Yari olmalıdır - Ş.F.

adamları ələ keçirib qətl etdilər. Onlardan qırx-əlli nəfərini ibrət dar ağacından asdılar. Həmin hadisə zamanı iki yüzdən çox adam öldürüldü və o tüğyan və fitnə-fəsad yatırıldı.

Başqa hadisələrdən biri də budur ki, doqquz yüz altmış beşinci ildə (miladi 1557/58) Qəzvinə böyük bir sel gəldi, iki minə qədər ev dağıldı, o yerin camaatına bərk ziyan dəydi.

Başqa bir hadisə [isə] doqquz yüz səksən birinci ildə (miladi 1573/74) baş verdi. Taun xəstəliyi səbəbindən Ərdəbil darülirşadında otuz min nəfərədək adam tələf oldu.

HƏZRƏT CƏNNƏTMƏKAN ŞAHIN VƏFATI VƏ ALLAH-TAALANIN İRADƏSİ VƏ TƏQDİRİ İLƏ O VAXTLARDA BAŞ VERƏN BÖYÜK HADİSƏLƏRİN ZİKRİ

Xəbərlərdən hali olanlara və sələflərin əsərlərini mütalifə edənlərə məlum olsun ki, yuxarıda cənnətməkan və Cəm rütbəli həzrətin (Şah Təhmasibin - Ş.F.) mübarək əhvalatı və onun səadətli dövründə baş verən hadisələr bədaye qələmlə [bizim tərəfimizdən] yazıldı. Amma, indi isə dili sınmış qələm həmin zaman yeganəsi olan şahın, özü də elə bir şahin ki, "[Qurani-Kərimin] hər şey məhv olandır, Onun zatından başqa"[171] kəramətli ayəsinə uyğun gələn və hər hansı qoca və cavan adam üçün qaçılmaz olan kədərli [ölüm] əhvalatının şərhində göy [rəngli] bir əskiyə bükülərək, mürəkkəbdən də qara olan qanlı göz yaşı ilə bəyan səhifəsini yazacaqdır. Əhvalatın bəyanı belədir: Allah-təalanın seçilmiş [bəndəsi] olan o həzrətin vəfatından iki il əvvəl onun şərif məcazına xəstəlik üz verdi. Xəstəliyin şiddətlənməyi iki ay çəkdi və bu müddətdə xəstəlik iki dəfə olduqca artdı, şahın öləcəyini güman etdilər. Amma, nəticə olaraq şah Allah şəfaxanasının təcili şəfası ilə sağaldı. Xəstəlik müddətində əzəmətli şahzadələr, əmirlər və dövlət başçıları iki dəstəyə bölündülər. Hər dəstə səltənət və şahlıq barədə müxtəlif xəyala düşdü. O həzrətin böyük fərzəndi olan İsgəndər şanlı nəvvab (yəni Məhəmməd Xudabəndə - Ş.F.) göz xəstəliyi səbəbindən neçə il idi ki, görməkdən məhrum olmuşdu və buna görə də inadkar qızılbaşlar onun vəliəhdliyini, məmləkəti əlinə almasını və inadkar qızılbaş tayfalarını bir yerə toplayacağını münasib bilmirdilər. Camaatın əksəriyyəti, sadə xalq adamları, döyüşçülər və rəiyyət

[171] Ayənin ərəbcəsi: "Kullu şəyin halikun illa vəchəhu".

alişan atasının fərmanı ilə Qəhqəhə qalasında dustaq olan İsmayıl Mirzənin hakimiyyətə gəlməsini istəyirdi. Lakin onlar bunu bilmirdilər ki, Xaliqin qüdrəti xalqın iradəsindən yüksəkdir:

[Misra]

Allahın sevdiyini xar edə bilməz heç kim![172]

Və onlar hələ bilmirdilər ki, lap elə bu yaxın vaxtlarda xilafət və padşahlıq o həzrətin (İsmayıl Mirzənin - Ş.F.) şahlığı və dudmanının davamı ilə başlayacaqdır. Xülasə, o zaman dövlətin əsas aparıcı qüvvələrindən olan ustaclı əmirləri və ali orduda onların əzəmətli başçıları Müntəşa Sultanın nəvəsi Murad xan Süfrəçi, Həsən bəyin oğlu Hüseyn bəy Yüzbaşı, ox və kaman qorçisi Piri bəy Qoçulu, Əmiraxurbaşı Məhəmməd bəy Əmiraxurbaşı və Allahqulu Sultan Eycəkoğlu İsmayıl Mirzədən qorxurdular. [Ustaclılar] İsmayıl Mirzədən sonra başqa şahzadələrdən böyük olan və ali sarayda atası tərəfindən seçilən Heydər Mirzə ilə ittifaqa girdilər. Vəkil atası Məsum bəyin əvəzinə Mirzənin lələsi olan Sədrəddin xan Səfəvi bütün şeyxavənd əyanları və mirzənin atasının qohumları olan gürcülərlə ittifaq etdi, bir-biriləri ilə əhd-peyman bağladılar. Ustaclılar arasında böyüyüb boya-başa çatan, lələsi ustaclılardan olan və qardaşları tərəfindən sevilən ali məqamlı şahzadə Sultan Mustafa Mirzə səmimi-qəlbdən Sultan Heydər Mirzənin padşahlığına razı olaraq buna çalışırdı.

Cənnətməkan şahın damadı, bu əbədi dövlət məliklərinin əvvəlincisi və Bəhram Mirzənin oğlu olan Sultan İbrahim Mirzə öz vəziyyətini nəzərə alaraq bu şahzadənin fikrinə tərəfdarlıq edirdi. Hüseynqulu Xüləfa Rumlu, Əmir Aslan Sultan Əfşar və Heydər Sultan Cabuq Türkman İsmayıl Mirzənin şahlığı uğrunda bir-biriləri ilə ittifaq ectdikləri üçün bütün əfşar, rumlu və türkman tayfaları bu işdə onlarla dilbir idilər.

Adlı-sanlı şahzadələrdən örpəkli Pərixan xanım ağıl və biliyinin çoxluğuna görə başqa möhtərəm xanımlardan üstün və atasının yanında hamıdan izzətli, hörmətli, əziz olan rəy və məşvərət

[172] Misranın farscası:
"Əziz kərdeyi Həq-ra kəsi nəsazəd xar"

sahibi idi və başqaları ona həsəd aparırdı. Səltənət və padşahlıq istəyən böyük oğul və vəliəohd nəvvab Sultan Heydər Mirzə anaların göz götürməzliyi və küdurətinə baxmayaraq şah olmaq istəyirdi, amma vəliəhd böyük oğlu olmalıydı.

[Belə deyən dəstələr də vardı:] "Cənnətməkan şahın ən böyük oğlu olan İsgəndər şanlı nəvvab Məhəmməd Mirzənin gözləri zəifdir. Ondan sonra o həzrətin əyan qardaşı olan İsmayıl Mirzə övladların ən böyüyüdür. Sufigərlikdə biz ondan başqasını tanımırıq." Onlar "şahsevən" adlandırılıb, Sultan Heydəri haramnəməklikdə ittiham edirdilər. Onlara "iki birli" ad qoydular, o təbəqə üzərinə tənə yağışı yağdırdılar. Bu səs-səda hər iki dəstə üzvləri arasında geniş yayıldı. Adlı-sanlı əmirlər, qızılbaş əyanları və saraydakı oymaq ağsaqqallarının hamısı birinci dəstənin tərəfini tuturdular. Yenidən hümayun dövlətxanada hər iki dəstə arasında qəzəbli sözlər deyilməyə başlandı. Xülasə, mahir həkimlərin müalicəsi qəzavü-qədərin rəyinə müvafiq çıxdı, cənnətməkan nəvvabın xəstəliyi sağalmağa başladı, səhhəti gündən-günə yaxşılaşdı. Pərixan xanım və qardaşlarının təhriki ilə anası bu işlər barədə şaha məlumat verib, Sultan Heydər Mirzəni öz yaradanına qarşı xain və qəddar adlandırdı, o həzrətin mübarək fikrini o şahzadədən uzaqdaşdırdı. [O qadın] İsmayıl Mirzənin sufi, səbatlı və dövlətxah olduğunu bildirdi. Onların, məhrəmanə söhbətləri hərəmxanənin pəncərəsindən kənara çıxdı. Qızılbaş əyanlarından söhbət yasovulu olan Kor Şahəli Rumlu pəncərədən yayılan bu söhbətləri bütün təfsilatı ilə xəbər verib, açıq-aşkar dedi: "Münasibdir ki, bundan sonra şahın bəndələri özlərinin şərafətli vücudlarını bu dəstələrin məkrindən qorusunlar".

Həmin şahzadə və onun tərəfdarları ali ordunun töhmətinə məruz qaldılar. Amma, cənnətməkan şah hər iki dəstənin fəsadlı qərəzkarlığını nurla qamaşdırdı və şahın alovlanmış ali fitrətinin məna ayinəsi o dəstələrin nəzərinə yetişdi. O adamlar uzaqgörən əqlin tələbinə uyğun olaraq bir daha bu əhvalat barədə danışmadılar. Şahın belə davranışı o adamları belə söhbətlərdən çəkindirdi. Amma, qaradağlı tayfasının ağsaqqalı Fərruxzad bəy Eşikağası və qaradağlı oymağına mənsub və Fərruxzad bəyin qohumu olan Qəhqəhə [qalasının] hakimi Xəlifə Ənsar Sultan Heydərin və tərəfdarlarının tərəfində idilər. Şahın birdən-birə xatirinə belə bir fikir gəldi ki, məbadə Sultan Heydər və tərəfdarları Xəlifə Ənqsarın vasitəsiylə İsmayıl Mirzəyə qarşı qərəzkarlıq edələr. [Buna görə də]

şah on iki nəfər əfşar qorçisini Qəhqəhə qalasına, şahzədəni qorumaq üçün göndərdi. Bu məsələ İsmayıl Mirzənin və tərədarlarının möhkəmlənməsinə səbəb oldu. Zal bəy Gürcü, şahın zövcələrindən olan onun bacısı və ali şahzadələrdən bir-iki nəfər də Sultan Heydərin tərəfdarlarındandı. O həmişə hamam başında cənnətməkan şaha xidmət etməkdə idi. Bir gün, o həzrətin hamama getməsi qərara alındıqda, İsmayıl Mirzənin tərəfdarları belə qərara gəldilər: "Bir halda ki, Zal bəy haramnəmək adamlardan biridir və biz dövlətxah sufilərin ona etimad etmələrinə və Zal bəyin şaha üz vermiş olan bu zəiflik müddətində ona xidmət göstərməsinə yol verməməliyik, çünki ondan arxayın deyilik."

Bütün gürcü, şeyxavənd və ustaclı tayfaları, həmçinin Sultan Heydərin tərəfdarlarının hamısı bu məsələ xüsusunda söz-söhbətə başladılar. Gürcülər deyirdilər ki, bizdən nə pis iş baş verib ki, bizi bizə tapşırılmış xidmətdən məhrum edirlər?

Xülasə, nəvvab həzrət cənnətməkan şahın hamama getdiyi gün Hüseynqulu Xəlifə Rumlu, Əmir Aslan Sultan və özlərini "şahsevən" adlandıran başqa adamlar sufilərdən, rumlu və başqa tayfalardan olan dörd-beş min adamla Zal bəyə mane olmaq üçün silahlanıb mübarək dövlətxananın qapısına gəldilər. Gürcülər, şeyxavənd, ustaclı və onların adamları da dörd-beş min nəfərlə bir yerə toplanıb Zal bəyi himayə etməyi qərara aldılar. Onlar da silahlanıb dövlətxana qapısına gəlmək istəyirdilər. Fitnə-fəsad qalxması və çoxlu qan tökülməsi ehtimalı vardı. Aralarında belə bir əhvalatın baş verdiyi həmin gecə bu sətirlərin müəllifi, Hüseyn bəy Yüzbaşının məclisinin yaxınlığında idi. O, bu məsələdən çox pərişan idi və istəmirdi ki, arada dava-dalaş olsun. Sübhə qədər belə fikir və xəyallarla bütün gecəni yatmadı. Sübh isə, böyük izdiham toplanmasına baxmayaraq, onların hamısı silahsız gəlmişdilər. Adlı-sanlı şahzadə Sultan Mustafanın lələsi Nəzər Sultan vəfat etmişdi və bu sətirlərin müəllifi, qərara görə, şahzadənin məiyyətində idi. O, adlı-sanlı şahzadə Sultan Mustafa Mirzənin əmrinə görə, ustaclıların və onun adamlarının arasında idi ki, onlar evin qapısına gəlib çatdılar. Eşikdə isə cahil və fasid adamlar çoxlu kinayəli sözlər danışırdılar. Onlar döyüşçülərə etina etməyib Çehelsütunun yaxınlığına gəldilər və İsmayıl Mirzə tərəfdarlarının ardınca çığırmağa başladılar. Hüseyn bəy Yüzbaşı Hüseynqulu Xüləfanı öz yanına çağırıb dedi: "Bu nə fitnə-fəsaddır ki, sən qızılbaşlar arasında yaratmaqdasan? Nə üçün bu camaatı yaraqlandırıb evin qapısına

gətirmisən? Allahın həmdi sayəsində (əlhəmdülillah) padşah, mürşid və millətimizin başı sağ-salamatdır. Bizim nə həddimiz vardır ki, biz özbaşına işlər edirik?".

Hüseyn bəy Yüzbaşı onu müfsid və fitnəkar adlandırıb, sədaqət və sufigəriliyə tərəf qədəm atdı. Hüseynqulu Xəlifə və adamları da hirsli və pis sözlər dilə gətirdilər. Amma nəvvab şahzadə Sultan Heydər Mirzənin orada olmasına görə İsmayıl Mirzənin adamları çox boşboğazlıq edə bilmədilər. Cənnətməkan nəvvab bu məsələdən xəbər tutan kimi belə söhbətlərə göz yummağı (eğmaz) məsləhət bildi və Zal bəyi yanına çağırdı, ona, əvvəlki kimi yenə də hamama gedib, öz işi işə məşğul olmasını tapşırdı. O adamlar danışmağa belə macal tapmayıb, bir qədər xəcalətli tərzdə dağılışdılar. Sultan Heydərin tərəfdarları sanki tazə həyat tapıb həsədli adamların töhmət və tənələrindən bir qədər azad oldular. Şahın səhhəti tam sağalandan sonra daha belə işlər baş vermədi, şah da belə işlərin nizamlanması ilə bir də məşğul olmadı. Amma o, bəzən ustaclılardan qüdrət sahibi olan hər hansı bir əmiri müəyyən xidmətlə ordudan uzaqlaşdırırdı: Muradxanı Kəcur qalasını fəth etmək üçün Rüstəmdara göndərdi, Piri bəy Qoçuluya [isə] Rey hökumətini verib o səmtə yolladı.

Bu il Rum padşahı Səlim xan vəfat etdiyindən onun oğlu Sultan Murad xan taxta cülus etdi. Cənnətməkan nəvvab Sultan Səlimdən ötrü təziyə vermək, Sultan Muradın culusunu isə təbrik etmək üçün ağıllı, fəhmli böyük əmirlərdən birini Ruma elçiliyə göndərməyi qərara aldı. Məsələnin başlanacağında bu xidmətə Hüseyn bəy Yüzbaşını namizəd etdilər, Sultan Heydərin adamları bunu eşidib götür-qoy etdilər və belə düşündülər: "Cənnətməkan nəvvabın onu göndərməkdən məqsədi şahzadənin yaxın adamları olan ustaclılar arasında təfriqə salmaqdır". [Buna görə də] onlar Hüseyn bəyi Ruma getməkdən əl çəkməyə vadar etdilər. O da həmin təklifdən yaymaraq ərz edib bildirdi ki, şahın mübarək səhhətinin sağalmasından ötrü nəzrim var idi və demişdim ki, səkkizinci imamın ziyarətinə yetmək üçün gərək müqəddəs Məşhədə gedim. Ömrə etibar olmadığı üçün, ümidvaram ki, mənim ziyarətə getməyimə icazə verilər. O, bu bəhanə ilə [Ruma] getməkdən boyun qaçırdı. Nəvvab şah onun üzrünü qəbul edib, mötəbər ustaclı əmirlərindən olan Çuxursəd hakimi Məhəmmədxan Toxmağı elçi kimi göndərdi. Hüseyn bəy də, onun sarayda olmayacağı vaxt gözləmədiyi bir hadisənin baş verəcəyindən şübhələndiyi üçün

Məşhədə getməkdən boyun qaçırdı. Cənnətməkan şah bunun üstünü örtüb bu barədə heç nə söyləmədi.

Hüseyn bəy belə məsləhətlərdə (məsir) düzgün mövqe tuturdu. Get-gedə onun izzət və etibarı artırdı. Sultan Mustafa Mirzənin lələsi Nəzər Sultan Ustaclı öldüyü üçün şahzadənin lələliyi və atalığı, ona verilən əyalət və ülkanın idarəsi ilə birlikdə, Hüseyn bəyə verildi. O da xoş bir saatda mirzəni evə gətirib şahanə bir bayram təşkil etdi, layiqli peşkəşlər təqdim etdi. Ali əmrə görə nəvvab şahzadəni yoluxmağa və Hüseyn bəyin lələliyini təbrik etməyə gələn adlı-sanlı şahzadələrin hamısına bir-bir ləyaqətli töhfələr təqdim olundu. Beləliklə, oymaqlar arasındakı fitnə və düşmənçilik atəşi söndü, ali dərgahda hər iki dəstə arasındakı danışıqlar yatdı. Daha iki il həzrət cənnətməkan şah dövlətə kamranlıq və iqbal ilə başçılıq etdi. Bu hadisələrin üstündən iki il keçəndən sonra, yəni doqquz yüz səksən dördüncü ildə (miladi 1576), siçan ilində, şahın mübarək surətinə yenə də bir qədər xəstəlik çökdü. Hamamda şahın bədəninin bəzi yerlərini nurə[173] ilə yandırıb-yaraladı. Yaraların ağrısı çoxaldı, qızdırmaya səbəb oldu. Təcrübəli təbiblər müalicəyə başladılar. Heç kimin bu xəstəliyin ölümə səbəb olacağına gümanı olmadığı halda, seşənbə gecəsi, səfərin on dördündə (miladi 1576, 13 may) şahın məzacı pisləşdi, ağrı əlamətləri zahir oldu, zəiflik üz verdi. Adlı-sanlı şahzadələr gecə yarısına qədər öz böyük atalarının yanında durdular, "Heç bir təşviş yerimiz yoxdur" deyərək hamını öz evlərinə göndərdilər. Orada ləngiyən Sultan Heydər Mirzədən başqa bütün şahzadələr dağılışdı. Onun ləngiməsinin səbəbləri barədə isə deyirlər: Səbəbin biri budur ki, həzrət cənnətməkan şahın özü oğlu Sultan Heydərə, istisna kimi, öz yanında qalmasını əmr etmişdi. Başqa bir rəvayət isə belədir ki, Sultan Heydərin anası şaha bir şey olacağı təqdirdə məbadə oğluna saraydan eşikdə bir xətər toxunmasın deyə, dövlətxananın isə əmniyyəti mövcud olduğu üçün oğluna belə demişdi: "Böyük atanın vəziyyəti ağırlaşmışdır. Çox ehtimal ki, o bu gecə həyatını əcələ tapşırsın. Sən ki, atanın canişinisən, şahlıq taxtını qoyub haraya gedirsən? [Buna görə də] münasibdir ki, dövlətxanada qalasan. Elə ki, həmin dəhşətli hadisə baş verdi, sən gərək başına şahlıq tacı qoyaraq, mübarək Çehelsütun sarayında

[173] Nurə - Hamamda tüklərin təmizlənməsindən ötrü istifadə olunan sabun. Nurə "vacibi" də adlanır (Bax: M.Moin. Göst. Lüğət, c.4, s.4847).

hümayun xalça üzərində əyləşib cülus edəsən. Xəzinələrin və qurxanələrin* açarları əldə olduğundan döyüşçülərin gözləri dünyəvi var-yoxa dikilmişdir. Xəzinə qapılarını açaraq, qoşunun yüz-başı, qorçi və əyanlarını öz qiymətli hədiyyələrinlə sevindirə bilərsən. Mübarək dövlətxanaya gələn yüksək şəxslər isə padşahlıq taxtında artıq cülusun baş verdiyini görərlər. Hal-hazırda əlləri məqsud ətəyindən uzaq olan İsmayıl Mirzənin tərəfdarlarının itaət əlləri məqsəd ətəyindən uzaq olduğu üçün onların itaət etməkdən başqa çarələri qalmaz. Gəlib səni paybus** etməyən hər kəsi öz layiqli cəzasına çatdırarsan".

Anasının fikri şahzədənin məzacına uyğun oldu, dayanıb gözlədi. Gecə yarısı şahın hümayun vücudunda vəfat əlaməti zahir oldu, [səfər] ayının on beşində sübh tezdən onun qələbələrlə dolu olan ruhu müqəddəs məkana tərəf pərvaz etdi. Bu böyük hadisənin baş verdiyi səfər ayının on beşi maddəyi-tarix kimi qeybdən gələn "Qəbri nurla dolsun!" ("Gureş por nur") ifadəsinə uyğundur.

Səltənət sarayının qadınları canı dağlayan bu müsibət üzündən səbr libaslarını cırıb ah-əfğan etməyə başladılar. Möhtərəm hərəmxana xadimələri əzəmətli şahənşahın matəmi günlərində əyinlərinə matəm libasları geyinərək zülmət gecə kimi qaraya qərq oldular. [Sanki] aləm dəyişmişdi. Əhali təşviş (qeleq) və iztirab girdabına (vərte) qərq olmuşdu. Ürəklər sınmış, xatirlər pərişan olmuşdu. Necə də sınmasınlar və pərişan olmasınlar? Artıq günəş özünün tutulma pərdəsi (pərdeyi-kosuf) arxasında gizlənmişdi. Əhali onun tərbiyə feyzi ilə kamyab, rahət və xoşbəxt (afiyət) idi. Ay öz işığını göstərməyib batdı (xosuf), çünki, o şahın işıqlı fikrindən cahanda asayiş və aramlıq işıqlanmaqdaydı. O dövran yeganəsinin vəsfi bəyana sığmayır. Kitabın başlanğıcında hərçənd yığcam halda (mücməl) bu haqda yazılmışdır, lakin elə indi də o müqəddəs şəxsin bəyənilən xüsusiyyətlərinin tərifi qaçılmazdır.

Xülasə, o həzrət hərçənd ki, müharibə etdiyi vaxtlarda mühüm səltənət və ölkə işlərindən uzaq olurdu, [amma] şərif vaxtını zəruri işlərin qayda-qanuna düşməsinə, ehtiyacı olanların mətləb və məqsədlərinin yerinə yetməsinə yönəldirdi. Yerlərdə şəriətə rəvac bəxş edir, üləmaya təzim edir, zöhd və təqva əhlinə ehtiram göstərir, məscid, mədrəsə və başqa xeyirxah yerlərə rəvac verir, məscidlərin təmirinə olduqca böyük diqqət yetirirdi. Yaxşı işə cəlb etmək və pis işdən çəkindirmək (əmre-mərnf və nəhye-münkər) kimi xislətlərə həmişə əməl etməklə nurlanırdı. Uşaqlıq dövründən və cavanlıq

vaxtından bəri nəfsani ləzzətlərdən əl çəkib, asimani uğurlara meyllənmişdi. Doqquz yüz otuz doqquzuncu ildə (miladi 1532/33), hümayun culusundan doqquz il sonra, iyirmi yaşında ikən səmimi-qəlb ilə bütün pis əməllərdən tövbə etdi, tövbəsini heç vaxt sındırmadı. Şərabxana, qumarxana və başqa beytüllütflərdən (əxlaqsızlıq evlərindən - Ş.F.) gələn gəliri qeydiyyat dəftərlərindən çıxardı. Get-gedə bütün əmirlər və qızılbaş tayfa əyanları o həzrət kimi tövbəyə rəğbət etdilər. Doqquz yüz altmış üçüncü ildə (miladi 1555/56) əzəmətli əmirlər və iqbal astanasının mülazimləri pis əməllərini yerə qoydular, bütün məmləkətlərin camaatına qeyri şəri işlər qadağan olundu. Qəribə haldır ki, "tövbət nəsuhən" ("pozulmaz əhd") bu işin maddeyi-tarixi olmuşdur:

[Maddeyi-] tarix

Din ölkəsinin şahı Təhmasib şahi-adil
Din ləşkərinə tövbə etdirdi pis xisləti.
O tövbənin tarixi "tövbət nəsuhən " oldu,
Allahın sirridir bu, əl çəkmə bundan qəti[174]

Ümumiyyətlə, o həzrətin humayun hakimiyyəti zamanı xalqlar təqvanı və pis əməllərdən çəkinməyi özlərinin şüarı etdilər, taat və ibadətlə məşğul oldular. Yaxşı işlərin qəbulu və pis əməllərin qadağan olunmasında elə çalışdılar ki, qissəxanlar (nağıl danışanlar - Ş.F.) və mərəkəgir (oyunbaz, dərviş - Ş.F.) adamların yüngül həzz doğuran çıxışları qadağan edildi. Sərkare-xasseye-şərifədə* saxlanılan beş yüz tümənlik saf tiryəki haram kimi axar suya tökdülər. Həzrət on dörd məsumun hər birinin mövludu münasibətiylə müəyyən məbləğdə nəzir müəyyənləşdirmişdi ki, o nəzir hər il mövludda şiəliyə tam sədaqətli olan əzəmətli seyidlər arasında bölünürdü. Əksər ölkələrdə və mötəbər şəhərlərdə sədəqə (təsəddoq) çörəyi müəyyən etmişdi ki, həmin çörəyi o yerlərin hər iki cinsdən olan kasıb adamlarına verirdilər. Şiə ölkələrində, xüsusilə müqəddəs Məşhəddə, Səbzvarda, Astrabadda, Qumda,

[174] Beytin farcası:
Soltane-keşvəre-din Təhmasb şahe-adel
Sovgənd dad-o tovbe xeyle-sepahe din-ra.
Tarixe-tovbe dadən şod "tovbət nəsuhən",
Serre-İlahist in monker məbaş in-ra.

Kaşanda, Yəzddə, Təbrizdə və Ərdəbildə şah qırx nəfər yetim oğlan və qıza libas verir, ehtiyaclarını təmin edirdi. Onlara şiəməzhəb müəllimlər, müəllimlər və əməlisaleh xidmətçilər vasitəsiylə tərbiyələndirir və həddi-büluğ yaşına çatanları biri-digəri ilə evləndirirdi. Ölkə rəiyyətinin və yollardan istifadə edənlərin verdikləri vergilərin ləğvində atılan ən düzgün yol "yollar vergisi" oldu. Təmğa vergisi**, deyilənə görə, qədim sultanların dövründə yayılaraq tacirlərdən və varlı adamlardan yığılırdı. Onun məbləği hər il min "şahiye-İraqi" tüməni miqdarında idi. Şah yuxuda həzrət sahibəzzamanı - ona Allahın salamı olsun -görmüş və ona təmğanın ləğvi xüsusunda tapşırıq verilmişdi. Doqquz yüz yetmiş ikinci ildə (miladi 1564) həmin vergi tacirlərə bağışlandı, təmğaçılar ölkədən kənar edildilər və bu vergidən əsər-əlamət qalmadı.

Beyt

Əsər qalmadı təmğadan təkcə dağdan savayı-
Təmğaçının ürəyində qalan dağdı həmin dağ.[175]

Şah məmləkətlərin əksəriyyətində, xüsusən şiə[lər] yaşayan yerlərdə "male-möhtərefe",*** "məvaşi"**** və "mərai"***** vergilərinin miqdarını azaltdı və bunlardan gələn gəliri ixrac dəftərindən çıxardı. Gözəl əməlləri sayəsində hakimiyyəti əlli dörd il çəkdi və bu vaxtı qələbə və iqballa keçirdi. İslamın hakimiyyəti müddətində əlavi Müstənsirbillahdan* başqa heç kim əlli dörd il səltənət sürməmişdir. [Şah Təhmasibin] humayun şahlığı dövründə döyüşçülər və rəiyyət asudə və rahat idilər. O dövlət idarəsinin (karxane) bütün işlərini nizama salmışdır ki, indiyə kimi bütün İranda onun qərarlarına əməl olunur. O, altmış dörd il bir ay və iyirmi beş gün ömür sürmüşdü. Süleyman şanlı xaqanın dövründə səkkiz il Xorasanda səltənət sürdü, əlli üç il, altı ay və iyirmi allı gün İran məmləkətinin başında durdu.

Bu qəmli hadisə baş verən gün seyidlər, üləmalar və əyanların əksəriyyəti bütün camaatla birgə öz həyatlarından narahat

[175] Beytin farscası:
Əsər nəmand ze təmğa beğeyr əz an dağı
Ke dər dəruneye-təmğaçi əz ğəme-təmğast.

və bu müsibətdən elə həsrətli və pərişan idilər ki, sanki dünyanın çarxı dönmüş, qiyamət gününün əlamətləri zahir olmuşdu. O həzrətin hakimiyyəti dövründə əcəm məmləkətində onun kimi şahlıq fitrəti olan başqa bir padşah olmamışdı. Dünya sultanlarının adlarını eşidənlər ona bənzər padşah görməmişdilər. Bu böyük hadisə bütün xalqlara olduqca ağır gəldi, hörmətli üləma və fəqihlər, xüsusilə Mir Seyid Həsən Müctəhid Cəbəlameli əmirlərin məsləhəti ilə mübarək dövlətxanaya gələrək, şahın pak bədənini şəriət üzrə qüsl etdi. Şahı hərəmxana bağçası və divanxana arasındakı Şirvani adlı bir yurdda əmanət təriqi ilə dəfn etdilər. Gələcəkdə barəsində yazacağımız İsmayıl Mirzənin hakimiyyəti vaxtı [onun cəsədini] müqəddəs Məşhədə apararaq behiştə bənzər "Rezəviyyə" rövzəsində dəfn etdilər. Ondan yadigar qalan abidələr: Tehranın divarı, müqəddəs Məşhədin divarı, həzrət imam-əl cinn və-l-ons [imam Rza] məscidinin mübarək günbəzinin qızıllanması, mübarək dövlətxana tikililərinin və Qəzvin darüssəltənəsinin günbəzinin qızıllanması, "Çahar bazar" və "Bağı-irəm"in çoxlu hamamlarının inşası, gözəllikdə cahanın şöhrəti və cənnət bağından nümunə olan "Səadətabad"ın işlərinin tamamlanması, Təbriz darüs-səltənəsindəki "Sahibabad" məscidi. Allah ona rəhmət eləsin! Ümidvarıq ki, öz etiqadının nəticəsi kimi pak əlhi-beyt həzrətlərinə qarşı etiqadının nəticəsi kimi [Şah Təhmasib] hesabat günündə (məşhər günü - Ş.F.) risalət və vəlayət xanədanının məsumları ilə birlikdə olacaq və o seçilmiş şəxslərlə bərabər Allahın dərgahında, cənnət bağlarında yaşayıb cilvələnəcəkdir.

İndi isə, bu tarixçi (vaqiənevis) gərək hadisələr və xəbərlərdən agah olmaq istəyənlər üçün o həzrətin adlı-sanlı övladı, Heydərnejadlı başqa şahzadələr, əzəmətli əmirlər, dövlət başçıları, şah vəfat edən zaman İran məmləkətləri ilə məşğul olan hər tayfa başçıları haqqında yazmalıdır ki, onların hər biri barədə aşağıda ayrı-ayrılıqda danışılacaqdır ki, oxucuların məlumatı olsun.

CƏNNƏTMƏKAN ŞAHIN ADLARI YÜKSƏK ŞAHZADƏLƏRİNİN, ÖVLADLARININ, ONDAN SONRAKIADLI-SANLI NƏSLİNİN (ƏQAB) VƏ ALİ RÜTBƏLİ QARDAŞI OĞLANLARININ ZİKRİ

O kamyab həzrət dünyadan köçərkən onun sağ olan möhtərəm səfəvinejad şahzadələri, doğma fərzəndləri, fərzəndlərinin

uşaqları və qardaşı oğlanlarının sayı otuz beş nəfər idi ki, aşağıda göstərəcəyimiz kimi, onların iyirmi üçü oğlan və on ikisi qız idi. O cümlədən, onun sağlığında ölüm libası geyərək əbədiyyat mənzilinə gedən və dünyanı tərk edən iyirmi iki doğma övladı, nəvələri haqqında bəhs açmağın heç bir faydası yoxdur. Şahın doğma (solbi) övladları doqquz nəfərdir:

Birinci [övladı] İsgəndərşan nəvvab Sultan Məhəmməddir. Hökmranlıq mərtəbəsinə yüksələn üç adlı-sanlı şahzadədən başqa qeyri şahzadələrin təvəllüd tarixləri bu müəllifə məlum olmadığı üçün o barədə sizə məlumat verə bilmədi, amma onların adları və başlarına gələn əhvalatlar [tərəfimizdən] qələmə alınacaqdır.

O həzrət (yəni Sultan Məhəmməd - Ş.F.) doqquz yüz otuz səkkizinci ildə (miladi 1531/32), yəni cənnətməkan şahın (Şah Təhmasibin - Ş.F.) hümayun cülusundan səkkiz il sonra böyük bayanduriyyə əmirlərindən olan Musa Sultan Mosullunun qızı Sultanımdan doğulmuşdur. "Fərzəndе - Şah Təhmasb əvvəl Məhəmməd aməd"[176] bu möhtərəm mövlüd gününün maddeyi-tarixidir ki, bu uca ad onun adı, "Xudabəndə" isə ləqəbidir. Atası vəfat edərkən onun qırx altı yaşı vardı. Doqquz yüz qırx üçüncü ildə (miladi 1536/37), o həzrətin altı yaşı olarkən Xorasan diyarının hakimliyinə layiq görüldü və Məhəmməd xan Şərəfəddinoğlu ona lələ və əmirülüməra təyin edildi. O həzrət [beləliklə] Herat darüssəltənəsində hökmranlıq taxtına əyləşdi. Məhəmməd xan həmin dövlət bağının olduqca gənc sahibi idi. O bir neçə il bu darüssəltənədə afiyət, kamranlıq, dövrün nəfsani fəzilət və kamal elmlərini öyrənməklə vaxt keçirdi. [Məhəmməd Xudabəndə] baş verməkdə olan bütün işlərdən xəbərdar və agah idi. Fəhmli, fərasətli və səxavətli idi. Qəlbigeniş adamdı. Onun gözündə dünyanın bütün nemətləri ilə yol torpağının fərqi yoxdu. Hərbənbir "Fəhmi" təxəllüsü ilə şe'r s.125 yazardı. Şivə və rəftanna görə zarafatcıl adam idi, həyatda dərd-qəmə çox az dalardı. Bir qədər vaxt ötdükdən sonra, cənnətməkan həzrət şah o xilafət, şəhriyarlıq və bəxtiyarlıq sədəfini saraya çağırdı, onun əyan qardaşı İsmayıl Mirzəni isə Herata göndərdi. Az sonra bu şahzadənin mülki işləri və başqa namülayim hərəkətləri şahın məzacına müvafiq olmadığı üçün onu

[176] Maddeyi-tarixin farscası:
Fərzəndi Təhmasibin əvvəl Məhəmməd oldu.

geri çağırıb Qəhqəhə qalasına yolladı. O yüksək vəzifəyə isə yenidən nəvvab şahzadə (yəni Məhəmməd Mirzə - Ş.F.) təyin edildi.

Barəsində yuxarıda məlumat verdiyimiz Məsum bəy Səfəvinin bir dəstə əmir və əsgərlə dəfninə yollandığı Qazaq Təkəlinin hadisəsindən sonra nəvvab şahzadə tapşırığa əsasən özünün əziz fərzəndi Sultan Hüseyn Mirzə ilə saraya gəldi, görüş bitdikdən sonra geri qayıtdı. Şahqulu Sultan Yegan Ustaclı [onun] lələsi və əmirülüməra oldu. O vaxtlarda Heratda o həzrətin gözləri zəifləməyə başladı. Müalicəni çox yubatdılar. Təcrübəli cərrahlar və göz həkimləri onu müalicə etmək istəyirdilərsə də, o həzrət bu işə çox az diqqət verdi. Get-gedə gözlərinin zəifliyi gücləndi, gözləri tamamilə işıqdan düşdü. Müxtəlif məsələlərə görə o həzrətlə lələsi Şahqulu Sultan arasında kin-küdurət başlandı. Onlar bir-birinin pis rəftarı barədə şikayətə başladılar. Cənnətməkan şah əziz oğlunun şərafətli xatirini çox istədiyindən onu Şiraz darülmülkünə yolladı. Şahzadənin qiymətli fərzəndlərindən olan Sultan Həsən Mirzəni orduya gətirdilər və səltənət və iqbal dudmanının göz nuru olan uca şahzadə əlahəzrət zilləllah şahı isə (Abbas Mirzəni - Ş.F.) öz möhtərəm atasının yerinə "Xorasanın padşahı" adlandırdılar. O həzrət (Məhəmməd Mirzə - Ş.F.) hümayun fərmanına görə, səltənət bağının həmin gənc ağacını (yəni Abbas Mirzəni - Ş.F.) Heratda qoyub, özü başqa kamkar fərzəndləri ilə birgə Şiraza yollandı və "Müzəffəri" darülmülkündə sərvərlik büsatına qədəm basdı (yəni hakimiyyətə başladı - Ş.F), Vəli Sultan Qalxançıoğlu Zülqədər onun lələsi və idari işlərinin icraçısı oldu. O həzrət bir neçə vaxt həmin fərəhbəxş yerdə yaşayaraq günlərini sakit tərzdə keçirməkdə idi. Yeri cənnətlik olan həzrət şahın vəfatı və İsmayıl Mirzənin səltənəti vaxtı onun şərafətli əhvalına nigarançılıq yol tapdı. [Tezliklə] elə bir hadisə - qəvavü-qədərin qərarı ilə İsmayıl Mirzənin hadisəsi (ölümü - Ş.F) baş verdi və o həzrət öz bəxtinin köməyi ilə yüksək hökmdarlıq mərtəbəsinə yüksəldi ki, bu haqda aşağıda məlumat veriləcəkdir.

O həzrətin (Məhəmməd Xudabəndə - Ş.F) birinci fərzəndi Gilanın mötəbər əmiri və Qazi Cahanın damadı Mir Əbdüləzim Seydi Hüseyninin qızından doğulan Sultan Həsən Mirzədir. Onun doğum tarixi nəzərimizə dəymədi, amma böyük babası vəfat edən vaxt on səkkiz yaşı vardı, buna görə də təxmin etmək olar ki, [Sultan Həsən Mirzə] doqquz yüz altmış altıncı ildə (miladi 1558/59) doğulmuşdur. Cənnətməkan şah o cavan və xoşbəxt şahzadəni ali

saraya gətirdi və o, bir neçə müddət şahın təlim-tərbiyəsi altında gün keçirdi, Mazandaran vilayətinin yarısı ona verildi. Yeri cənnət olan şahın vəfatı zamanı o, Mazandaranda idi. Fəhmli, fərasətli adam idi, təbi də vardı, bu rübai onun dilindən çıxmışdır:

Hüsnündə sənin ki, lalə baş qaldıracaq,
Eşqinlə şərabi-jalə bas qaldıracaq.
Hər kim ki, ələ piyalə alsa səndən,
Qəbrindən onun piyalə baş qaldıracaq.[177]

Əmisi İsmayıl Mirzənin səltənəti zamanı şəhid olmuşdur ki, bu barədə İsmayıl Mirzə hakimiyyəti zamanında baş verən hadisələrin şərhində məlumat veriləcəkdir.

İkinci fərzəndi qədr-qiymətli şahzadə Sultan Həmzə Mirzədir ki, Mazandaran valisi Mir Abdulla xanın müqəddəs qızı məhdülya Xeyrənnisa bəyimdən doğulmuşdur. Həmin vaxtlarda onun on yaşı vardı və öz alişan atası ilə Şiraz darül-mülkündə yaşayırdı. Nəvvab İsgəndərşanının (Məhəmməd Xudabəndənin - Ş.F) səltənəti vaxtı vəkalət vəzifəsində idi və vəliəhd rütbəsinə çatmışdı. Alişan atasının on ilə yaxın olan hakimiyyəti zamanı o, öz əziz atasının xidmətində duraraq dövlət işləri ilə məşğul olmaqda idi. Kəcrəftar fələyin əyri gedən işləri nəticəsində napak bir adamın dəllək oğlu tərəfindən öldürüldü ki, böyük atasının hakimiyyəti vaxtı baş verən hadisələrin şərhində bu barədə məlumat veriləcəkdir.

Üçüncüsü şah, aləm və aləm əhlinin şahzadəsi olan əlahəzrət Şah Abbas bahadur xandır ki, Məryəm şanlı nəvvab məhdülyadan (Xeyrənnisadan - Ş.F) doğulmuşdur. O səadət və iqbal gülşəninin pöhrəsi və Allahın seçilmiş adamı bəzilərinin doqquz yüz yetmiş səkkiz (miladi 1570/71), bəzilərinin isə doqquz yüz yetmiş doqquzuncu (miladi 1571/72) il kimi yazdıqları ilin mübarək ramazan ayının sonlarında düşənbə gecəsi, türklərin "yunt il" ("at ili" - Ş.F) adlandırdıqları ildə Herat darülsəltənəsində doğulmuşdur.

O doğulan vaxt sanki cah-cəlal üfüqündən aləmi işıqlandıran elə bir günəş parladı ki, zülmət dünyanı öz hümayun

[177] Rübainin farscası:
Ruyət ke ziyade lale miruyəd əz-u,
Əz tabe-şərab jale miruyəd əz-u,
Dəsti ke piyaleyi ze dəste-to gereft
Gər xak şəvəd piyale miruyəd əz-u.

çöhrəsi (tələt) ilə işıqlandırdı, iqbal başlanğıcından (mətlə) elə xoşbəxt bir ulduz doğuldu ki, insanlar üzərinə mehribanlıq (rəfət) və xeyrxahlıq (emtenan) işığı saldı.

Asiman carçıları (monhiyan) həmin xoşbəxt mövlud münasibətilə insanlarına əmin-amanlıq müjdəsi verdilər, qəza-qədər fərmanlarını yerə çatdıranlar isə toz-torpağlı (ğəbra) yer üzünün sakinlərinin üzünə şadimanlıq qapıları açdılar.

Beyt[lər]

O, kərəm bürcündən doğulduğu dəm,
Gəldi bir günəş ki, nurlandı aləm.
Allahın lütfüylə doğulan gündə,
Bir ulduz parladı şahlıq bürcündə.
Elə qərq etdi ki, nur hər yanı,
Onun parlaqlığı tutdu cahanı.[178]

O xoşbəxt doğuşun taleyi ilə insanların ümid tarlası - ulduzlar üzümü (xuşeyi-pərvin) barlı-baharlı oldu. Onun iqbal sahibi Ütarüd* səyyarəsidir ki, buna görə də insanların əməl səhifələri ədalət və ehsanın zərrin hərfləri ilə bəzədilib yazılmışdır. O həzrətlə bağlı nadir və qəribə hadisələrdən biri də budur: Təvəllüd vaxtından başlayaraq səltənət və hökmdarlıq taxtına yüksələn vaxta qədər tale o həzrətin vəziyyət və əhvalına münasib olmuşdur.

Birinci Şah Abbasın doğulmasının fərmanı:

İqbal və başıucalığın o göz bəbəyinə (Abbas Mirzəyə - Ş.F.) süd vermək (reza) və xidmət etməkdən ötrü gətirilən mamaça qadın o vaxtlarda dünyaya övlad gətirməmişdi və döşlərində süd yox idi. Buna baxmayaraq o döşünü o həzrətin mübarək ağzına

[178] Beytlərin farcası:
Ze borce-mokremət əz bəxte-firuz
Bəraməd aftabi-aləməfruz.
Foruğan gəşte əz lotfe-elahi
Homayun əxtəri əz borce-şahi.
K-əz ənvarəş zəmane rovşəni yaft,
Foruğəş bər cəbine-aləmi taft.

verdi. Süd əmmə vaxtı ilahinin fərmanı və bitib tükənməz kamil qüvvənin hikməti ilə o möhtərəm mamaçanın döşlərinə o qədər süd gəldi ki, kamkarlıq bəhrinin göhvəri olan həmin şahzadə süddən doyunca içdi. Nadir adətlərdən (hallardan – Ş. F.) biri olan bu qəribə iş baş verdikdən sonra həmin iffətli qadın o əziz körpəni onun süd qardaşı ilə birlikdə əmizdirməyə başladı. Bu hadisə qəribə hallardan biri olduğu üçün qələm bunun təsvirini yazası oldu.

Vaxtın qədrini bilən ağıllı adam bilir ki, dünyəvi və dini işlərdə neçə-neçə təəccüblü əməlləri olmuş yüksək (səfvət) nejadı içərisində Allahın qüdrəti məhz onun hümayun və müqəddəs zatına gözəl xüsusiyyətlər əmanət (vədiə) qoymuşdur. Onun əməlləri çiçəkləndi. Bütün məşhur şahzadələr zümrəsi içərisində o, xilafət və kamkarlıq dəryasının gövhəridir. Qiymətli atası və xoş əxlaqlı anası tərəfdən o, səltənət və xilafət bağının səmərəsi kimi yaranmışdır. Onun ata və ana babaları əxlaqlı və Allah adamları olduqlarına görə bu dərgahın seçilmişlərindən olmuşdular. O səfəvi nəslindən olan başqa şahzadə və hökmdarlardan da bu cəhəti ilə üstün olmuşdur. Həmin qiymətli səltənət və bəxtiyarlıq gövhərinin atası İsgəndər şanlı nəvvab Əbülqalib (qələbə atası, cəng atası - Ş.F.) Sultan Məhəmməd padşah, böyük atası isə (yəni babası - Ş.F.) Cəm məqamlı cənnətməkan şahdır ki, öz şan-şöhrətinin əzəməti, məkanının böyüklüyü, nəsəbinin aliliyinə görə cahan vəssafları (vəsf edənlər - Ş.F.) və bəlağət sahibləri tərəfindən təriflilərin ən təriflisi kimi qiymətləndirilmişdir. O Yaqubnişan xaqanın müqayisəsi yalnız övliyalar sultanı olan səfiəl-həqq və-l-həqiqət və-d-din (Şeyx Səfiəddin - Ş.F.) ilə oluna bilər, ali məqamı isə hesaba sığmazdır. O ilahi əsrarın arifi risalət və imamət dudmanında elə bir şəxsdir ki, onun barəsində bu şərafətli kitabın əvvəlində yazılmışdır.

[Şah Abbasın] anası isə əzəmətli qadınların ən əzəmətlisi və böyük banu (banuye-kobra) olan məhdülya Xeyrənnisa bəyim-səyadət və səltənətpənah Mazandaran valisi Mir Abdulla xanın möhtərəm qızıdır.

Şah Abbasın ana tərəfindən əsl-nəsəbinin bəyanı:

Mir Abdulla "Mir Bozorq" adı ilə Şah Abbasın məşhur olan mərhum Seyid Qəvaməddinin nəslindəndir. Belə ki, Mir Abdulla xan [şəcərə üzrə] ibn Sultan Mahmud xan ibn Mir Əbdülkərim ibn Seyid Məhəmməd ibn Seyid Mürtəza ibn Seyid Əli ibn Seyid

Kəmaləddin ibn Əmir Teymur Gürəkanın müasiri olan bir nəslə gedib çıxır. O, tarix kitablarında yazıldığı kimi Mahanə qalasında mühasirəyə düşdü və döyüşə başladı. O, cənab Mir Bozorqun, böyük oğludur və onun şərafətli nəsəbi Seyid Əli əl-Mərəşiyə çatır. Elə buna görə, də bu sülalə seyidlərini "Mərəşi seyidləri" adlandırırlar. "Tarixe-cəhanara"da yazılmışdır ki, o cənab, səcdə edənlərin imamı və ariflərin qibləsi (İmaməs-sacedin və qiblətün-arifin) həzrət imam Zeynalabdın əleyhüssəlamın - ona Allahın salam olsun - nəslindəndir. Xülasə, o mərhum cənab qədir-qiyməlli Hüseyni seyidlərindəndir. İmam Zeynalabdın maddi və mənəvi səltənət sahibi, ülvi məqamlara çatan bir şəxs kimi yer və göy sirlərini açmağı bacarmışdır. Cavanlığının ilk çağlarından ilahinin köməyi ilə iştah artıran şeylərdən (möştəhiyyat) nəfsini çəkmiş, qədəmini cahad (mocahede) və riyazət* vadisinə doğru yönəltmişdir. Ali məqam dərəcələrinə yüksəlişdən sonra Təbəristan məmləkətləri və onların təbəələri o rəbbani arifin vəlayətinə (idarəçiliyinə - Ş.F.) həvalə olundu. İmam Zeynalabdin təqdirə boyun əyib Mazandarana getdi və hamin diyarda qaldı. Onun oradakı xanəgahı o mülk əhalisinin ziyarət yeridir. Mazandaran vilayətinin valisi Çəlavilər sülaləsindən olan Əfrasiyab idi. İradət** əhlinin həmin həzrətin ardınca getməsindən və onun mürid və tərəfdarlarının çoxluğundan Əfrasiyabın o cənabla münasibətləri kəskinləşdi, onu dəf etmək qərarına gəldi, ətrafındakı rəzil dəstəsiylə birlikdə seyidin xanəgahına gəldi, şəriətə əsaslanan o cənab Əfrasiyabı şərən dəf etmək istədi, müdafiə olunmağa başladı. Allahın təqdiri ilə qəza oxundan çıxan bir ox Əfrasiyaba dəydi və onu qətlə yetirdi, o cənabsa qələbə çaldı, o mülkdə qılıncı ilə xüruc etdi, dünyəvi səltənəti mənəvi səltənətlə birləşdirdi. O gözəl sifətli həzrətin əhfalatının təfsilatı belədir. Bu haqda "Tarixe-Təbəristan" kitabının müəllifi Seyid Zəhirəddin*** yazmışdır və yığcam məlumat "Həbibüs-siyər"də də vardır. Onların yazdıqlarına inandığımız üçün biz bu haqda yazmadıq, həzrət zilləllah şahın şəadətli təvəllüdünü əks etdirməyə başladıq. Xülasə, səfvətli (ən yaxşı, ən yüksək - Ş.F.) və iffətli məhdülyanın ata-babaları nəsillikcə (pedər be pedər) Təbəristan diyarında vali və fərmanfərma olmuşlar. O ilahi nurunun səadətli vəladəti (doğuşu - Ş.F.) Herat darüssəltənəsində olduğundan (Şah Abbasın təvəllüdündən söhbət gedir - Ş.F.), onun hümayun alnında səltənət və kamkarlıq nurları zahir olmaqda, bəxtəvər çöhrəsində xilafət və cahanbanlıq şüaları

parlamaqdaydı. O zaman Herat darüssəltənəsində olan bilikli münəccimlər və fəzilətli ulduzşünaslar, xüsusən Mövlana Əbdülsəməd Herəvi o iqbal bürcünün tale zicindən öyrənib xəbər verdi ki, o həzrət tezliklə hökmranlıq rütbəsinə çatacaq, onun dövlət günəşi səadət üfüqünün dairəsində görünəcək, ədalət şüaları insanlara ziya bəxş edəcək, əhali onun mehribanlıq və minnətdarlıq kölgəsi altında asudə olacaqdır.

Birinci Şah Abbasın doğum tarixi:

Bəlağətli sairlər onun qiymətli mövlud tarixini Padşahe-həft eqlim (Yeddi ölkə padşahı) [maddeyi-] tarixində hesablamış və bu barədə bir nəzm yazmışlar:

[Maddeyi]-tarix

Padşahlıq bağının tazə gülü
Elə ki, oldu cahan içrə müqim,
İstədi yazə təvəllüd ilini
Fələyin hökmü ilə təbi-səlim
Nagəhan gəldi qeybdən bir səs
Və dedi: "Padşəhe-həft eqlim".[179]

O iqbal ulduzunun doğuşundan sonra o əziz gövhəri öz böyük atasının yanına gətirən atası ərz etdi: "Ona qiymətli ad qoymaq şəhriyarın rəyi ilə olmalıdır, siz işarə edin ki, [körpə] həmin adla adlansın". İsgəndər şanlı nəvvabın bir məktubu təsadüfən elə həmin gün gəlib həzrət cənnətməkan şahın xoşbəxt nəzərinə yetişdi. Həmin ləhzələrdə şahın ilham bəyanlı dilində asiman ilhamının bu sözləri təkrarlanırdı:

"Əbbas Əli oldu şire-qazi

[179] Maddeyi-tarixin farscası:
Novnehale-çəməne padşəhi
Ke begolzare-cəhan gəşt moqim,
Sale movlude-vey əz kelke-qəza
Çon rəqəm kərd həme təb-e səlim,
Nagəhan əz peye-tarixəş goft
Hatefi "Padşahe-həft eqlim".

Sərdəflərе-ləskərе Hicazi".[180]

Elə məktub çathaçatda ikən də [şah] müdam bu beyti təkrar etməkdəydi. [Ümumiyyətlə] ədəm yoxluğundan vücud meydanına qədəm basan hər şahzadə üçün dövlət xəzinəsindən (xəzineyi-amere) xalça (qaliçe) və beşik ləvazimatı (yəraqe-məhd) şəfqət olunurdu. Həzrət cənnətməkan şah o səltənət və şəhriyarlıq bağının sərvindən ötrü mübarək dövlətxananın "Çehel sotun" ("Qırx sütun") sarayında olan və öz altına saldığı mübarək xalçasını beşiklə birgə şahzadəyə göndərdi. Sanki o bəyənilmiş (həmide) xasiyyətli zat (Şah Təhmasib - Ş.F.) duymuşdu (mottəsel) ki, o əzəmət və böyüklük bürcünün dürrü tezliklə şahlıq taxtını bəzəyəcək və padşahlıq sarayının canişini olacaqdır. [Anladı ki,] bu şahzadənin dövlət günəşi cah-cəlal məşriqindən görünəcək, şahlıq məqamına vüsal işığı salacaq və gündən-günə güllənən bu dövlətin həmişəbahar gülşəninə tazəlik, paklıq və təravət bəxş edəcəkdir. [Bildi ki,] səltənət və kamkarlıq çəminə yol tapan fitnə-fəsad iti qılıncın zülalı ilə yenidən bahar əyyamının təravətinə bürünəcək, bədxah və bədkar adamlar dövlətin gücü, fikrin istiqaməti, qəlbin fərasəti (fətanət), əqlin qüvvəti və hüsni-təbdir yoluyla öz cəzalarına çatacaqdır. Xülasə, südəmər çağından (hine-reza) səltənət və hökmranlıq əyyamına qədər o həzrətin uca səltənət mərtəbəsinə və var-dövlətə yetişəcəyi haqda qeybdən çoxlu əlamətlər və işarətlər gəlməkdəydi. O cümlədən, həzrət cənnətməkan şah haqqında danışılan rəvayətçilərin dillərindən bir-iki qəribə hadisə söylənilməkdədir ki, onları düzgün sözlü rəvayətçilər (ravi) özləri eşitmişlər. Buna görə də, o həşəmət sahibinin (Şah Abbasın - Ş.F.) mənəvi dərəcələr məqamına yüksəlişi haqqında, sözün uzun çəkəcəyinin fərqinə varmadan, bu səhifədə yazılacaqdır. Onların biri budur: Dövlət və iqbal bağının o yeni doğulan nihalının təvəllüd xəbəri cah-cəlal sarayına çatmazdan qabaq həzrət cənnətməkan şah öz böyük atasının yanında olan o həzrətin (Şah Abbasın - Ş.F) böyük qardaşı Sultan Həsən Mirzəni yanına çağırıb dedi: "Bu gün Herat darüssəltənəsinə bir qasid gəlib xoş bir xəbər gətirəcəkdir. O xəbər mənim və sənin göz aydınlığımıza səbəb olacaqdır". Bu

[180] Farscası belədir:
"Əbbase-Əlist şire-qazi
Sərdəftəre-ləşkəre-Hecazi"

sözlərdən sonra qasid gəldi və yazıldığı kimi, o həzrətin təvəllüd müjdəsini gətirdi.

İkinci qəribə məlumat isə budur: Əzəmətli qorçilərin biri, o ali mənzilli şahzadənin səadətli təvəllüdündən bir neçə il sonra əmr alıb Herat darüssəltənəsinə getmişdi. Qorçi geri qayıdanda həzrət cənnətməkan şah o bəyənilən sifətli şahzadənin vəziyyəti və mənəvi xisləti barədə sual etdi. O şəxs ağlının azlığından və bilməməzliyindən o həzrət haqqında lazimi qədər düzgün məlumat verə bilmədi. Cəm məqamlı həzrət şah hiddətlə buyurdu: "O qiymətli gövhər haqqında sənin heç bir xəbərin yoxdur. [O şahzadə] bu dudmanın gözünün işığı və çıraq yandıranı olacaqdır". Şah yuxarıda yazılan:

"Əbbas Əli oldu şire-qazi
Sərdəftəre-ləşkəre Hicazi"

beytini həmin ləhzə öz mübarək dilinə gətirdi. Hər biri öz istedad və ləyaqətinə (şayəstegi) görə gözəl səltənətə layiq olan bu dudman şahzadələri arasında həmin uca mərtəbəyə ucalma şərafəti yalnız xilafət arxının kənarında bitən həmin sərv tərəfindən bu mərtəbənin yalnız onun qabiliyyət qamətinə uyğun gələcəyi ilə təsdiqləəndi və o əziz körpənin (movludun) ülvi, dünyəvi və mənəvi dərəcələri gözəlliklə cilvələndi. O gözəl amallı şahzadənin yüksəlişi (saderat) barədə hərçənd ki, dərindən düşünmək (xovz) və söz demək uzun çəkər, amma o həzrətin əhvalının əsas cəhətləri (məbadi) haqqında, o cümlədən Xorasan mülkündəki dəyişikliklərə bais olan o qiymətli gövhərin Herat darüssəltənəsində qalması barədə bu kitabda söz demək lazım bilindi. "Günəş kimi səmada parlayan"[181] elmli aqillərə və bilikli alimlərə məlumdur ki, əgər yüksək dayaqlı (əkran) divanın uca səltənət və kamkarlıq mənsəbi [ağıllı bir] dövlət sahibinin adına yazılarsa və məsələnin başlanğıcında (bedayət) müxtəlif çətinliklər (şədayed) ortaya çıxarsa elə bir vəziyyət dövlət sahibinin çətinliklərinin hər biri nəticəsində, dünyadakı zahirpərəstlərin nəzərincə, ruhani əlaqələrin qırılmasına səbəb olar. Amma, müqəddəs zatın (Allahın - Ş.F.) əzəli hikmət və ilahi himayətinin istəyinə görə cahanın o seçilmiş adamı (Abbas -Ş.F.) məkrli və zərərli (məzarr) hadisələrdən elə qorunur ki, bu dünyanın ağıl

[181] İfadənin ərəbcəsi: "Kə-ş-şəmsi-s-sarıqəti min-əs-səməi"

sahiblərinin heyrətinə səbəb olur, nəhayət məna aləminin uzaqgörən şəxslərinə elə bir gözəl hüsnlü surət dəyir ki, həmin surətdə olan bəyənilməz cəhətlər, (kərahiyyət), yaxud minlərlə elmi hikmət, mülki mənfəət (məsaleh) fəqət əzəli qüdrətin əli ilə əmanət (vədiət) verilmiş xüsusiyyətlərdir. Əziz dövlət sahibi əgər ilahi tərəfindən qorunarsa, dünya zərərindən və əqli dayaz adamların xəyanət (keyd) və qəddarlığından qorunmuş olar

Beyt

Gər bütün qılınclar birdən çəkilsə,
Bir damar da kəsməz Rəbb istəməzsə[182]

Bu sözlərin yazılmasından məqsəd şah və Cəm qədir-qiymətli şahzadə, habelə "bütün Allah bəndələri sahiblərinin lütfkarlığı"[183] ilə əlahəzrət zilləllah şahın barəsində söz deməkdir. Fəaliyyətlərinin başlanğıcında bir çox əzəmətli hökmdarlar dünya hadisələrinin çətinliyinə məruz qalmış, nəticədə iqbalm gücü və bəxt ulduzunun köməyi sayəsində sərvərlik meracına yüksəlmiş, "Biz bəni-Adəmlərə qarşı səxavətli oluruq"[184] deyiminə müvafiq olaraq onlar özlərinin uca mətbəbələrinə və böyük məqsədlərinə yetişmişlər. [Şah Abbasın] südəmər çağından və uşaqlığından başlayıb dövlət zirvəsinə merac edən vaxtınadək [Allah-təala] onu ruzigar hadisələrindən, düşmənlərin qəsdlərindən, yağıların xəyanətindən, haramnəmək adamların qəddarlığından qorumuş, heç şübhəsiz "biz səni xəlifə və ərzin [sahibi] etdik" ayəsinə uyğun[185] dünyada ona heç bir iqlidar sahibi olan fatehə (keşvərqoşa) müyəssər olmayan mülklər almaq və aləm məsələlərini nizamlamaq kimi vəzifələri qismət etmişdir ki, bu işlər haqqında bu dəftərin zeyl hissəsində yerli-yerində məlumat veriləcəkdir. Onların biri, uşaqlara qarşı olan haqsızlıq və övladın mehriban ata-anasından ayrılmasıdır. Həyatının başlanğıcında və südəmər vaxtında, hələ ömründən bir il

[182] Beytin farscası:
Əgər tiğe-aləm beconbəd ze cay
Nəborrəd rəgi ta nəxahəd Xoday
[183] İfadənin ərəbcəsi:
"Məzhər lütfi-l-lahi summiyə-ismi ammu həbii həzrət Rəbbi-l-ibad"
[184] İfadənin ərəbcəsi: "Və ləqəd kərəmnə bəni adəm"
[185] İfadənin ərəbcəsi: "innənə cəalnəkə xəlifətən və-l-ard"

altı ay keçməmişdi ki, o xoşbəxt amallı həzrət öz ata-anasından ayrı düşdü. Bu söhbətin (məqal) bəyanı (təbyin) və bu hadisənin surəti qısa şəkildə belədir: Herat darüssəltənəsində o həzrətin atası və Heratın valisi olan İsgəndər şanlı nəvvab Əbülqalib Sultan Məhəmməd Mirzə ilə lələsi Şahqulu Sultan Yeqan arasında fəsadkar adamların fəsadı ilə vəhşət yarandı və onlar bir-birilərinin rəftarından narazı oldular, ali saraya tez-tez şikayətlə dolu məktublar göndərdilər. Cəm məqamlı həzrət şah bundan sonra onların arasında sülh və barışıq olmayacağını görüb belə qərara gəldi ki, kamkar şahzadə Sultan Həmzə Mirzəni o vaxtlarda səkkiz yaşı olan əyan qardaşı ilə [gələcək] zilləllah şahla birlikdə atasının yerinə Herat darüssəltənəsinə vali vəzifəsinə qoysun, onun alişan atası isə müzəffər məmləkətlər hakimliyinə (hökumət) Şiraz darülmülkünə göndərilsin. Hökm elə beləcə də yerinə yetirildi. Nəvvab Sultan Məhəmməd Mirzə və onun möhtərəm hərəmi bu fərmanı alan kimi sevindilər və şadiman oldular, amma ata, sevimli fərzəndi Sultan Həmzə Mirzədən ayrıldığına görə çox qəmginləşdi. [Belə ki,] gözünün nuru olan o fərzənddən ayrılmaq ata-ana üçün çox çətin idi. Sultan Məhəmməd Mirzə yenidən məktub yollayıb xahiş etdi ki, o əziz fərzənd ata-anası ilə bərk ülfət və ünsiyyət bağladığına görə, əgər ayrı düşərsə, çətin ki, fəraqa tab gətirə bilsin. Elə olan halda Sultan Həmzə Mirzədə nəfsani meyil (əğraz) baş qaldılar və təhlükə yaranar. Heç anası da onsuz yaşaya bilməz. Amma, səltənətin gözünün işığı olan Abbas hələ südəmər olduğundan, dayəsindən başqa heç kəslə ülfət və ünsiyyət bağlamamışdır. Əgər şəhriyar əmr edərsə, onu Heratda saxlasın, Sultan Həmzə Mirzə isə ata-anası ilə birlikdə Şiraza getsin.

Həzrət cənnətməkan şalı nəvvab mirzənin istəyi ilə razılaşdı və bu təklifi qəbul etdi. İsgəndər şanlı nəvvab [gələcək] nəvvab ali şahı Heratda qoyaraq, başqa fərzəndləri ilə birlikdə Şiraza yollandı. Yuxarıda yazıldığı kimi, o iqbal gülşəninin fidanının qanuni sultanların taxtgahı olan Heratda qalması xəbəri eşidilən kimi adamlar bildilər ki, səltənət və kamkarlıq bostanının o nihalı iqbal bağında böyüyərək murad meyvəsini dərəcək və dövlətdə kamyab olacaqdır. Elə həzrət cənnətməkan şahın özü də cavan ikən (əhde-səbi) mərhum Süleyman şanlı xaqanın (Şah İsmayılın - Ş.F.) fərmanına əsasən Xorasan səltənətinə göndərilib o gözəl yerdə böyümüşdü və nəticədə qardaşlar arasında qələbə bəxtli İranın səltənət taxtı onun şərəfətli vücudu ilə bəzənmişdi. O həzrətin

məşhur övladlarından Xorasana hakim göndərilən hər biri nəhayətdə hökmdarlıq mərtəbəsinə qalxdı.

Xülasə, o iqbal sahibi iki yaşında ikən Xorasan məmləkətlərinin uca səltənət və hökmranı kimi öz alişan atasının və mərhum babasının canişini olmaq şərəfinə yetdi, fərmana müvafiq olaraq Şahqulu Sultan ona lələ təyin olundu və lələ qiymətli [gələcək] xosrovun beşiyini öz sədaqət ağuşuna alıb onu böyütməyə başladı. Baş verən hadisələri yazmaqda olan qələm iqbal asimanının bu nurlu şahzadəsinin həyatının başlanğıc illərini yazıb qurtardığı üçün öz iti seyrli qələminin cilovunu başqa şahzadələrlə bağlı hadisələri yazmağa yönəltdi.

İsgəndər şanlı nəvvabın dördüncü fərzəndi Əbu Talib Mirzədir ki, cənnətməkan şahın xəstələndiyi ildə o mirzə şanlı nəvvab məhdülyadan doğulmuşdur. Böyük babası vəfat edərkən iki yaşı vardı. O, valideynlərinin tərbiyəsi ilə böyümüşdür. Bu cildin sonunda yazılacağı kimi, rəhmətlik şahzadə Sultan Həmzə Mirzə öldürülən və it ilinə təsadüf edən doqquz yüz doxsan dördüncü ildə (miladi 1586/87) Əbu Talib Mirzə ali divana vəkil təyin edilir. Həmin vaxtlarda dövlət işlərində ixtiyar sahibi olan əmirlərin və dövlət başçılarının, xüsusilə Əliqulu xan Fəthoğlu Ustaclı və Vəli Xəlifə Şamlının oğlu İsmayılqulu xan Topçubaşının məsləhəti ilə o, vəliəhd təyin olundu. Doqquz yüz doxsan beşinci ildə (miladi 1587), donuz ilində, allahın kölgəsi olan əlahəzrət şah təntənə ilə İraqa gedəndə o, irsi səltənət taxtına əyləşdi. Əbu Talib Mirzə özünün kiçik qardaşı Təhmasib Mirzə ilə bir neçə vaxt qalada saxlanıldı. Doqquz yüz doxsan səkkizinci pələng ilində (miladi 1589/90), İsfahanın Təbərrük qalasında yaşadıqları vaxt bəzi əmir və əyanların səyi ilə onların hər ikisinin gözlərinə mil çəkildi.

[Məhəmməd Xudabəndənin] beşinci fərzəndi Təhmasib Mirzədir ki, cənnətməkan şahın vəfatından sonra Şiraz darülmülkündə məhdülyadan doğulmuşdur. Böyük babası dünyadan köçdüyü üçün onun yüksək adı ilə (esme-sami) adlandırıldı. O da, qardaşının əmri ilə valideynin lütf və ziyası sayəsində tərbiyələnib böyüdü. Doqquz yüz doxsan üçüncü (miladi 1585/86) xoruz ilində, barəsində gələcəkdə məlumat verəcəyimiz Əmir xan Türkmanın qətlinə görə, təkəli və türkman tayfaları mərhum şahzadə Sultan Həmzə Mirzə ilə münaqişəyə başladılar. Onu Təbrizdən oğurlayıb, İraqa qayıtdılar. Orada onun tərbiyəsi ilə məşğul oldular, həzrət Sultan Həmzə Mirzə ilə döyüşüb məğlubiyyətə uğradılar. Şahzadə

həbs olunaraq Ələmut qalasına salındı, sonra isə yuxarıda yazıldığı kimi, İsfahanın Təbərük qalasında öz qardaşı ilə birlikdə kor edildi.

İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşahın hörmətli fərzəndlərinin adları bəyan edildiyindən, indi həzrət cənnətməkan şahın adlı-sanlı və kamkar fərzəndləri haqqında məlumat veriləcəkdir.

O həzrətin (Şah Təhmasib - Ş.F.) ikinci fərzəndi İsmayıl Mirzədir ki, o da Musa Sultan Mosullunun qızı Sultanından doğulmuşdur. İsmayıl Mirzə nəvvab Sultan Məhəmməd Mirzənin doğma qardaşıdır. Adlı-sanlı atasının xidmətində böyümüş və daim şəfqətlə tərbiyə olunmaqda idi. Onun da, həyatında şahanə məhəbbət (atefət) nuru parlayırdı. Doqquz yüz altmış ikinci ildə (miladi 1554/55) onu islam məmləkətlərinin seçki adamı (mürtəza) Şah Hemətullah Yəzdi və həzrət cənnətməkan şahın qızı mərhumə Xanış bəyimdən doğulan qızı ilə evləndirdilər. Təbrizin ürəkaçan Şimalabad bağında elə böyük toy etdilər ki, o toy barədə qızılbaşlar arasında [indi də] söhbətlər getməkdədir. O həzrətin böyük atalıq şəfəqqəti sayəsində baş verən həmin şahanə toyda və o şadiman xosrovanə məclisdə çalıb-oynamağa başladılar. O səadətli yığıncağın iştirakçılarının hər biri hal və vaxtın tələbinə uyğun hədiyyələr verdi, sazçalan çalğıçılar və nəğməpərdaz müğənnilər həmin işrət məclisində toplanmış pulun çoxluğu sayəsində öz ehtiyaclarını rəf etdilər. Amma İsmayıl Mirzə bu ali mərtəbənin qədrini bilmədi və şahın şəfqətini qiymətləndirmədi, izzətli atasının xoşuna gəlmədiyi işlərə qurşandı. Həzrət şah o şahzadənin ali sarayda qalmasını məsləhət bilməyərək, doqquz yüz altmış üçüncü ildə (miladi 1555/56) nəvvab Sultan Məhəmməd Mirzəni Herat darülsəltənəsindən orduya çağırıb, İsmayıl Mirzəni Herata göndərdi. Əmrə müvafiq olaraq Əli Sultan Təkəli onu Herata çatdırdı və Sultan Məhəmməd Mirzəni şahın yanına gətirdi. Savucbulaq yaxınlığında Əli Sultan qəzəbə düçar oldu, qorçilər tərəfindən döyülüb öldürüldü. Bu işin səbəbi məlum olmadı. Ola bilsin ki, o, cənab İsmayıl Mirzəni [Herata] apararkən onların arasında bəzi əhd və şərt olmuşdur. Doğrusunu Allah bilir.[186] Mirzənin Xorasandakı davranış tərzi də, şahın xoşuna gəlmədi. Buna görə də, [İsmayıl Mirzənin] mülki və dövlət işləri ilə məşğul olmasından çox vaxt

[186] İfadənin ərəbcəsi: "Əl-ilmu ində-l-lahı"

keçməmişdi ki, o, həmin vilayətin hakimliyindən çıxarıldı. Hökmə görə Sevindik bəy Qorçibaşı Herata gedərək onu Təbəs və Yəzd yolu ilə geri gətirdi. Elə ki, Savəyə yetişdilər vəkilüs-səltənə olan Məsum bəy Səfəvi onu Savədən Qəhqəhə qalasına, Sultan Məhəmməd Mirzəni isə, yazıldığı kimi yenidən Herata apardı. İsmayıl Mirzə on doqquz il, altı ay, iyirmi bir gün həmin qalada yaşadı. Cənnətməkan şahın vəfatından və Sultan Heydər Mirzənin öldürülməsindən sonra uca hökmranlıq mərtəbəsinə yetişdi ki, bu barədə bu dəftərin "zeyl"ində məlumat veriləcəkdir.

Üçüncü fərzəndi Sultan Heydər Mirzədir ki, həzrət cənnətməkan şahın pak zövcələri silsiləsindən olan əyan gürcü qadınından doğulmuşdur. Onun təvəllüd tarixi dəqiq məlum deyildirsə də [bilirik ki,] həzrət cənnətməkan şah vəfat edərkən Sultan Heydər Mirzənin iyirmi iki yaşı vardı. Buna görə də, o, ola bilsin ki, doqquz yüz altmış ikinci ildə (miladi 1554/55) doğulmuşdur. [Heydər Mirzə] təvəllüdündən başlayaraq atasının vəfatınadək ali dərgahda yaşamış və böyük atasının tərbiyəsi və məhəbbəti altında ömür sürmüşdür. Onun atası[187] Sədrəddin xan mötəbər əmirlərdən idi və əmrə görə şahzadənin xidmətində durmuşdu. Həzrət şahın şahzadəyə böyük diqqəti vardı, şahzadə də atasının dediyi kimi hərəkət edirdi. [Şah] ömrünün sonlarında bəzi dövlət işlərinin icrası ilə [əvvəlki kimi] məşğul ola bilmədiyindən, adamlar [müəyyən işlərin icrası üçün] şahzadəyə müraciət edirdilər. Qardaşlarının hamısından hörmətli idi. Buna görə də, şahzadələr və qızılbaş tayfaları içərisində onun qədr-qiyməti gün-gündən çoxalırdı. O həzrətin zahiri əməlləri tam etibar qazandığı üçün o, cavanlıq qüruru və nəfsani təxəyyulata qapılıb [gələcəkdə] özünün vəliəhdlik və şahlıq etməsi qərarına gəlmişdi. Ordunun əksəriyyəti, xüsusi ilə şeyxabənd, ustaclı tayfaları, gürcülər və başqaları onun hakimiyyətə gəlməsini arzulayırdılar. Cənnətməkan şahın ölümündən bir-iki il əvvəl başlayan xəstəliyi dövründə o, hövsələsizlik edib, sufiliyə və sədaqətə zidd olan bəzi hərəkətlərə yol verdi. Yuxarıda, şahın xəstəliyi zamanı baş verən hadisələr barədəki məlumatda deyildiyi kimi, şahzadə bir qədər incik görünürdü. Amma, həzrət şah sağaldıqdan sonra elə bir hərəkət etmədi ki, böyük oğluna qarşı diqqətsizliyini nümayiş etdirə bilmiş

[187] "Atası" yox, "atalığı (lələsi)" olmalıdır - Ş.F.

olsun. Elə həmin şah lütfkarlığına nail olduğuna görə də, Heydər Mirzə səfər ayının on altısında, doqquz yüz həştad dördüncü ildə (miladi 1576), bu səhifənin zeylində yazıldığı kimi, atasının dəhşətli ölüm hadisəsindən bir gün sonra şəhid oldu. Onun səltənəti barədə alnında yazı olmadığından ömür kitabı bağlandı və belə bir hadisə baş verdi.

Heydər Mirzə olduqca əməlisaleh, pəhrizkar və rəhmli idi. Allah məxluqu ilə məhəbbət və mehribanlıqla davranırdı ədalətpərvər adam idi. Onun bir qızdan başqa övladı yox idi.

Şah Təhmasibin dördüncü fərzəndi Sultan Süleyman Mirzədir ki, o da pak zövcələrdən biri olan Şamxal Sultan Çərkəsin bacısından doğulmuşdur. Yeri behişt olan atasının vəfatı zamanı onun iyirmi bir yaşı vardı. Həzrət cənnətməkan şah onu hələ uşaqlıq zamanı müqəddəs Məşhədə göndərmişdi. Məşhəd hakimini o şahzadəyə lələ və müəllim də təyin etdilər ki, o, onun biliyinin artması ilə məşğul olsun. [Buna görə də, həmin müəllimə] imam (Rzanın) rövzəsində xadimbaşı* vəzifəsi verildi və o, uzun illər bu vəzifədə çalışdı. Şahvəli Sultan Tatioğlu Zülqədərin müqəddəs Məşhəd hakimliyindən çıxarıldığı doqquz yüz yetmiş səkkizinci ildə (miladi 1570/71) şahzadəni orduya çağırdılar. O, ali dərgaha gəlib öz böyük hörmət-izzətli atasının yanında yaşamağa başladı.

Cənnətməkan şahın vəfatından və məqsədi şahzadələri aradan götürmək olan İsmayıl Mirzənin hakimiyyətə gəlişindən sonra onu şahzadənin dayısı olan Şamxal Sultan Çərkəsə verdilər. O da İsmayıl Mirzənin yanında öz etibarını artırmaq naminə Sultan Süleyman Mirzəni aradan götürdü ki, bu barədə İsmayıl Mirzənin taxta cülusunun təsviri zamanı məlumat veriləcəkdir.

O Həzrətin beşinci fərzəndi anası gürcü və həzrət şahın kənizlərindən olan qadmdan doğulan Sultan Mustafa Mirzədir. Böyük atasının vəfatı zamanı onun iyirmi yaşı vardı. Cənab mirzənin lələliyi əzəmətli ustaclı əmirlərinə tapşırılmışdı ki, o ustaclılar arasında boya-başa çatdı. Çox qabiliyyətli, bacarıqlı və xoş sima adam idi. Gilanlıların bir neçə üsyanı zamanı Biyəpiş Gilanını almaq üçün onların üzərinə qoşun çəkiləndə cənab mirzə də o yürüşlərə yollanıb qələbə əldə etmişdi. Sultan Mustafa Mirzə əyalət hakimi kimi qoşuna da sahib idi. Mirzənin lələsi Nəzər Sultanın vəfatından sonra onun əvəzinə "əyalət rütbəsinə" yetən Hüseyn bəy Yüzbaşı lələ vəzifəsinə təyin edildi.

[Sultan Mustafa] bütün işlərdə Sultan Heydərlə müttəfiq idi. Cənnətməkan şahın vəfatından sonra ustaclı əmirləri Sultan Heydər Mirzəni şah etmək üçün ona birləşib dövlətxanaya hücum etdikləri vaxt cənab [Sultan Mustafa Mirzə] də onlarla birlikdə idi. Sultan Heydər Mirzənin öldürülməsindən sonra onun təbəələri arasında təfriqə düşdüyü zaman cənab mirzə Qəzvindən çıxaraq özünə mülazimlik edən bayat elinə doğru üz tutdu. Hacı Üveys Sultan Bayat onu tutub İsmayıl Mirzənin yanına gətirdi və mirzəni Pirə Məhəmməd xan Ustaclıya tapşırdılar. Ustaclı əmirləri özlərinin xilasını o şahzadənin edam olunmasında görüb, o cavan şahzadəni Pirə Məhəmməd xanın evində həlak etdilər ki, bu barədə İsmayıl Mirzənin padşahlığının təsviri zamanı danışılacaqdır.

O həzrətin altıncı fərzəndi [Şah Təhmasibin] bir cariyəsindən doğulan həzrət Sultan Mahmud Mirzədir. Böyük atasının şahlığının sonunda on səkkiz yaşı vardı. O, bir yol Gilan Biyəpişinə hakim təyin olunmuş və Lahicanda yaşamışdı. Gilanlıların düşmənçiliyi və fitnəsinə görə əmrə rəğmən oradan çıxdı, cənnətməkan şahın son dövrlərində Şirvan hakimliyinə təyin edildi. Üveys xan (?) onun lolosi və atalığı idi. Mirzə amma böyük atasının sağlığında sarayda qalıb Şirvana getmədi və rumlu tayfası arasında yaşamadı.[188] [Amma] Üveys xanın oğlanları onun xidmətində idilər. Onlar İsmayıl Mirzənin əmirləri olduqlarından cənab mirzə bu məsələdə onlarla əlbir idi. Aşağıda yazılacağı kimi, İsmayıl Mirzənin hakimiyyəti zamanı [Sultan Mahmud Mirzə] Məhəmməd Bağır Mirzə adlı kiçik bir oğlu ilə birlikdə öldürüldü.

O həzrətin yeddinci fərzəndi mötəbər gürcülərdən Zal bəy Gürcünün bacısından doğulan İmamqulu Mirzədir. O, böyük atasının vəfatı zamanı on dörd yaşında idi. Cənnətməkan həzrət şah onu Biyəpiş Gilanının darülmülkü olan Lahicana vali təyin etmişdi və mirzə orada yaşayırdı. Pirə Məhəmməd xan Ustaclı onun lələsi idi. İsmayıl Mirzənin taxta cülusu zamanı Pirə Məhəmməd Xan Gilandan çıxıb onun görüşünə gedəndə cənab mirzəni də özü ilə götürmüşdü. Mirzə Zəncanrudun Ələnge-Qarabağ adlı yerində qardaşının xidmətinə yetdi. Bir müddət zahirən [qardaşının] mərhəmət və məhəbbəti altında idi. Qəzvin darüssəltənəsində başqa qardaşları kimi ömrünə vida edib axirət dünyasına yollandı ki, bu haqda məlumat veriləcəkdir.

[188] Üveys xan rumlu tayfasından idi – Ş.F.

O həzrətin səkkizinci fərzəndi Sultan Mustafanın ana bir qardaşı olan Sultanəli Mirzədir. O vaxt[189] on dörd yaşı vardı. O, Gəncədə yaşayırdı və Qarabağ bəylərbəyi İbrahim Sultan Ziyadoğlu onun lələsi idi. İsmayıl Mirzənin [hakimiyyəti] zamanı Qacar ağaları əmrə riayət edib, [onu] orduya gətirdilər. Şahzadələrin öldürülməsindən sonra Qəzvinə gəlib bir müddət qardaşının yanında yaşadı. [Sonra] İsmayıl Mirzənin əmri ilə onun gözləri çıxarıldı. Sultanəli Mirzə bu səhifənin yazıldığı bu vaxtadək sağ-salamatdır və hal-hazırda Allahın kölgəsi olan həzrət şahın[190] lütf və məhəbbət nəzərləri altında hörmət-izzətlə asudə yaşamaqdadır.

Doqquzuncu fərzəndi Sultan Əhməd Mirzədir ki, həzrət şah onu "Sultan Əhməd Bağdadi" adlandırırdı. Onun anası cariyələrdən idi. O həzrətin vəfatı zamanı mirzənin on üç yaşı vardı. Əmir Aslan Sultan Ərəşli Əfşar mirzənin lələsi idi və bir müddət onu İsfahanda saxladı. Elə o vaxtlarda[191] o, əmrə görə orduya çağrıldı və öz adlı-sanlı atasının yanında hörmət-izzətlə yaşadı. Əfşar tayfası, xüsusilə ərəşli[lər] İsmayıl Mirzənin tərəfdarları silkinə mənsub olduqlarından Sultan Əhməd Mirzə də lələsi kimi onlara qoşulmuşdu. İsmayıl Mirzənin hakimiyyəti zamanı o da başqa şahzadələr kimi öldürüldü.

Birinci Şah Təhmasibin qız övladlarının zikri:

Həzrət cənnətməkan şahın hörmətli qızları səkkiz nəfərdir:

Birinci Gövhər Sultan bəyimdir ki, o, mərhum Bəhram Mirzənin oğlu Sultan İbrahim Mirzənin arvadı idi. Mirzənin öldürülməsindən sonra bir neçə gün ah-nalə və qəm-qüssə etdi, natəvanlıq yatağına düşdü, axırda axirət dünyasına yollandı. Bircə qızdan başqa övladı yox idi.

İkincisi Pərixan xanımdır ki, Bəhram Mirzənin oğlu Bədiüzzaman Mirzənin nişanlısı idi. Amma, o, hələ ərə getməmişdi və öz böyük atasının yanında çox böyük hörmət-izzətlə yaşayırdı. Camaat çətin məsələlərin həllində yanına gəlib onu öz dərdlərindən həll edirdi. Ağıl və biliyin çoxluğundan əlahəzrət şahın

[189] Şah Təhmasibin vəfatı vaxtı - Ş.F.
[190] Şah Abbasın - Ş.F.
[191] Şah Təhmasibin vəfatı vaxtına yaxın - Ş.F.

məsləhətçilərindən idi. Onun haqqında cənnətməkan şahın xəstəliyinin təsviri zamanı bir qədər danışıldı və bundan sonra da danışılacaqdır. Xülasə, Pərixan xanım cənnətməkan şahın vəfatından sonra İsmayıl Mirzənin hakimiyyətə gəlməsi üçün xeyli çalışsa da qədr-qiyməti bilinmədi. Onun vaqiəsindən sonra[192] Sultan Məhəmməd Mirzənin xidmətində arzu olunmaz bir şəxs oldu. [Tezliklə] aradan götürüldü və hadisənin şərhi bu kitabda öz vaxtında təfsilatla veriləcəkdir.

Üçüncüsü, Biyəpəs valisi Cəmşidxanın arvadı olan Xədicə Sultan bəyimdir. Cəmşid xanın əhvalatından sonra zilləllah şahın vaxtında mirmiran Yəzdinin oğlu Şah Nemətullaha ərə getdi və indiyə kimi sağdır. [Onun] Cəmşid xandan iki oğlu vardı ki, hər ikisi cavan öldü.

Dördüncüsü, Zeynəb bəyimdir ki, qorçiye-şəmşir Şahəli bəy Şamlı onun lələsi idi. Hurixan xanım (yəni Zeynəb bəyim - Ş.F.) Gürcüstanın əzəmətli qadınlardan idi. İsmayıl Mirzə onu Herat hakimliyinə yolladığı Durmuş xan Şamlının nəvəsi Əliquhı xana nişanlanmışdısa da, amma hələ ərə getməmişdi. Olduqca ağıllı və dünyadakı rəhmli adam[ların biri]dir. Əlahəzrət zilləllah şahın vaxtında ali hərəmxananın banusu idi və həzrətin yanında böyük hörməti vardı. Bu kitabın yazıldığı bu vaxta kimi ali hərəmxanada izzət və ehtiram sahibidir. O, xeyrat və xeyirçilik işlərini icra edir. Ümidvaram ki, öz təbii ömrünü salamatlıqla keçirəcək.

Beşinci məqamı yüksək olan ülyəcənab xanım [Şah Məhəmməd Xudabəndənin] doğma bacısı Məryəm Sultan bəyimdir. İsgəndər şanlı şah Sultan Məhəmmədin zamanında Biyəpiş Gilanının valisi Xan Əhməd Sultanla izdivac etdi. Xan Əhməd bu dövlətə xəyanət edəndən sonra, necə ki, aşağıda yazılacaqdır, Ruma getdi. Onun Xan Əhməddən olan şahzadə oğlu öz atasının yerinə [Gilana] getdi. O, əlahəzrət zilləllah şahın zamanında vəfat etdi. Qızı [isə] səltənətin ən hörmətli qadınlarındandır.

Altıncısı, Fatimə Sultan xanımdır ki, İsgəndər şanh nəvvabın zamanında Əmir xan Mosullu Türkmanla izdivac etdi, [lakin] az sonra onun evində öldü.

Yeddinci, Şəhrəbanu bəyimdir ki, İsgəndər şanlı nəvvabın zamanında, cənnətməkan şahın bacısı oğlu Şahəli Mirzə Ustaclının

[192] Yəni II Şah İsmayılın ölümündən sonra - Ş.F.

oğlu Salman xanla izdivac etdi. O da, az sonra onun evində öldü. [Şəhrəbanu bəyim] Cəmşid xanın arvadı olan Xədicə boyimlə doğma bacı idi və Dağıstan hakiminin qızından doğulmuşdu.

Səkkizinci, İmamqulu Mirzənin doğma bacısı Xanış bəyimdir ki, mirmiranın oğlu Şah Nemətullah Yəzdi ilə izdivac etmişdi. Onun evində də vəfat etdi. Xanış bəyimin Səncər Mirzə adlı bir oğlu vardır.

Cənnətməkan şahın doğma qardaşı Bəhram Mirzənin oğlanları, nəvələri və qızlarından on üç nəfər o həzrət (Şah Təhmasib - Ş.F.) vəfat edəndə sağ idi.

[Bəhrəm Mirzənin] doğma oğlanları üç nəfərdir:

Birincisi, Sultan Hüseyn Mirzədir ki, cənnətməkan şahın zamanında Qəndəhar və Zəmindavərin mirzəsi oldu. O, uzun illər o vilayətdə əmisinin fərmanı ilə müstəqil hakim olmuşdu. İsmayıl Mirzənin hakimiyyəti zamanı təbii ölümlə öldü. Beş oğlu vardı: Atasının vəfatı vaxtı on səkkiz yaşında olan Məhəmməd Hüseyn Mirzə. Atası onu Oğlanpaşa bəyim adlı bacısı ilə orduya göndərmişdi. O cənnətməkan şahın xidmətində duran hörmətli doğma şahzadələr silkindən idi. İsmayıl Mirzənin hakimiyyəti zamanı öldürüldü. Mizəffər Hüseyn Mirzənin on beş yaşı vardı. İsgəndər şanlı nəvvabın cülusu zamanı atasının əvəzinə Qəndəhar valisi oldu. Rüstəm Mirzənin on iki yaşı vardı. Göstərilən vaxtda Zəmindavar hökuməti ona verilmişdi. Səncər Mirzə və Əbu Səid Mirzə hər ikisi azyaşlı idi. Hər dörd qardaşın tərcümeyi-halı İsgəndər şanlı nəvvabın [və] əlahəzrət zilləllah şahın hakimiyyəti zamanındakı hadisələrin şərhində müfəssəl bəyan ediləcəkdir.

Onun yuxarıda adı çəkilən bacısı İsgəndər şanlı nəvvabın hakimiyyəti zamanı kamkar şahzadə Əbülqalib Sultan Həmzə Mirzə ilə izdivac etdi. Mirzənin vəfatından sonra əlahəzrət zilləllah şahın sarayındakı hörmətli xanımlar silkindən idi. Bir neçə il sonra o həzrətin əziz hərəmlərindən oldu.

Bəhram Mirzənin ikinci oğlu İbrahim Mirzədir ki, anası Şirvan vilayətinin əyanlarından idi və o, cənnətməkan şahın damadı idi. O həzrətin vəfatı zamanı İbrahim Mirzə ali sarayda əzəmətli və yüksək eşikağası vəzifəsində idi. Qabiliyyəti, istedadı, ağlı və idrakına görə alimiqdar əmisinin yanında izzətli, möhtərəm, əzəmətli, öz rəyi və məşvərəti olan bir adam idi. Aşağıda yazılacağı kimi, İsmayıl Mirzə zamanında şəhadət şərbəti içdi. Onun cənnətməkan şahın qızından olan bir qızı dini elmlərlə məşğul idi,

fəzilətli və dindar adamdı. O, əlahəzrət zilləllah şahın zamanında Şirazdan beytüllahül-həramın ziyafətinə getdi, Məkkeyi-müəzzəmədə əzəmətli Dəştəki seyidlərindən, adlı-sanlı fəzilət sahiblərindən və dövrün dindarlarından olan Əmir Nəsirəddin Hüseyn Şirazı ilə izdivac etdi və həmin əzəmətli şəhərdə qaldı.

Üçüncü oğlu Bədiüz-zaman Mirzədir ki, böyük əmisinin fərmanı ilə Sistanda Nimruz vilayətinin valisi idi. Onun lələsi və atalığı Teymur xan Ustaclı idi. Bəhram adlı azyaşlı bir oğlu vardı. İsmayıl Mirzənin hakimiyyəti vaxtı Teymur xan bu şahm fərmanı ilə onların hər ikisini aradan götürdü.

Bu tarix kitabının yazan şəxsin qələmi kamkar şahzadələrin sayı barədə imkan daxilində məlumat verdiyi üçün, indi də vaxtı çatmışdır ki, xoş sözlər yazan qələm yüksək qızılbaş tayfasının möhtərəm, əzəmətli əmirləri, xanları və başqaları haqqında ki, onlar məhrusə məmləkətlərində hakimlik və dövlət işləri ilə məşğul idilər, sözlər yazsın və bəyan səhifəmiz o adamların zikri ilə bəzənsin.

ALİMİQDAR XAN VƏ SULTANLARDAN OLAN, BƏZİLƏRİ ALİ SARAYDA VƏ BƏZİLƏRİ İSƏ AYRI-AYRI MƏMLƏKƏTLƏRDƏ YAŞAYAN ADLI-SANLI ƏMİRLƏRİN ZİKRİ

Həzrət şahın vəfatı zamanı əmirlik rütbəsi ilə şərəflənən və əksəriyyəti təbilə, bayrağa və qoşuna sahib olan əzəmətli əmirlər, uca məqamlı xanlar və böyük-kiçik sultanların sayı ali divanda səbt olunan məlumatlara əsasən yüz on dörd nəfər olmuşdur. Hər təbəqə və hər oymaqdan olan ən mötəbər və böyük əmirlərin bir neçə nəfərinin adları bu səhifədə dərc edilir. Hamısı barədə məlumat verməyin heç bir faydası yoxdur.

Şamlı tayfa əmirlərinin adlarının zikri:

[Bu tayfal qızılbaş tayfalarının əzəmətlisi kimi yerinə, xidmətinə, hüquq və igidliyinə görə başqa tayfaların hamısından öndə duranıdır və başqa oymaqların ən üstünüdür. Cahanı ələ keçirən xaqanın (yəni Şah İsmayılın - Ş.F.) hakimiyyəti zamanı və bu dövlət və xanədanın yaranması vaxtı, [həmçinin] həzrət cənnətməkan şahın taxta cülusunun əvvəllərində şamlı təbəqəsindən çıxan böyük əmirlər və alişan xanlar bunlardır: Süleyman şanlı

xaqan Şah İsmayıl bahadır xanın lələsi Hüseyn bəy, o həzrətə qohum olmaqla şərəflənən Əbdi bəy, onun oğlu Durmuş xan, onun qardaşı Hüseyn xan ki, həzrət cənnətməkan şahın (Şah Təhmasibin - Ş.F.) bacısı oğlu idi, başqa oymaq əmirlərindən yüksəkdə duran uca vəzifəli və çoxlu tiyulları olan Zeynal xan, Ağzıvar xan və başqaları. Amma onların arasında təbil və bayraq sahibi olanları beş nəfərdən çox deyildi ki, onların da on əzəmətlilərindən müqəddəs Məşhədin hakimi, başqa əmirlərdən daha çox qoşun sahibi, şamlı mirzəbrinin əksərinin onun qoşununda çalışdığı Vəli Xəlifə Ovçudur. Fulad Xəlifə isə Həmədan vilayətinin hakimi idi. Başqası ilə Astrabad hakimliyindən kənar edilən və sarayda yaşayan Süleyman Xəlifə idi.

Ustaclı tayfa əmirlərinin adlarının zikri:

[Bu tayfanın dal ölkələr alan Süleyman şanlı xaqanın və cənnətməkan şahın zamanında Diyarbəkr hakimi Xan Məhəmməd, onun qardaşı Qaraxan, Qılıncxan, Çayan və Köpək Sultan, Müntəşa Sultan, Sədrəddin xan, Faruq Sultan, Abdulla xan, Çuxursəd hakimi Şahqulu Sultan və sair kimi böyük əmirləri vardı. Onların hamısının məhrusə məmləkətlərində ülkaları olmuşdur. Həzrət cənnətməkan şahın taxta cülusunun əvvəllərində Div Sultan Təkəlinin valilik tələşı və inadına görə, həzrət şahın cülusunun təsviri zamanı yazıldığı kimi, qəzəblənən ustaclı əmirləri bir neçə müddət Gilanda yaşamışdılar, amma təkəlilərin hakimiyyətinin bitməsindən sonra ustaclılar təzədən tam etibar qazandılar. O həzrətin vəfatı zamanı, o tayfa üzvlərinin əksəriyyətinin əmirlik rütbələri vardı və onlar təbil, bayraq, qoşun və böyük tiyullara sahib idilər. Ali sarayda onların ən əzəmətlisi Həsən bəy Yüzbaşının oğlu Hüseyn bəy idi. O, əmisi Nəzər Sultanın yerinə əmir olmuşdu və adlı-sanlı şahzadə Sultan Mustafa Mirzənin lələsi idi. Şahın yanında onun böyük qədir-qiyməti vardı və məsləhət-məşvərətli bir şəxs kimi mülki işlərə qanşırdı. Yaxşı qoşunu olan Hüseyn bəy bu qüdrətli dövlət adamlarından idi. Başqa biri, Teymur xanın oğlu Muradxan Süfrəçidir ki, ali sarayın böyük əmirlərindən idi. O, cənnətməkan şahın vəfatı zamanı Kəcur qalasını tutmağa getdiyi üçün orduda deyildi. Başqası, Gilan əyalətlərindən kənar edilən və ali sarayın əmirlərindən olan Allahqulu Sultan Kərampa[193] idi.

[193] Mətndə səhvən "Kəracya" kimi getmişdir - Ş.F.

Başqası, saray əmirlərindən olan Piri bəy Qoçuludur. Həzrət şahın vəfatı zamanı özünün iqtası olan Vəraminə getmişdi. Məhrusə məmləkətlərinin əmirlərindən Pirə Məhəmməd xan Cavuşlu Biyəpişin əmirülüərası və İmamqulu Mirzənin lələsi idi. O, böyük əmirlərdən və qoşun sahibi idi. Başqası, Məhəmmədi xan Toxmaqdır ki, Çuxur-Səd əmirülümərası idi, mötəbər böyük əmirlər [zümrəsinə daxil] idi, qoşununun böyüklüyünə görə başqalarından irəli idi. Həzrət cənnətməkan şahın vəfatı zamanı elçi sifəti ilə Ruma getmişdi. O, İsmayıl Mirzə dövründə geri qayıtdı. Başqası, Herat darüssəltənəsinin hakimi və Xorasan əmirülümərası olan Şahqulu Sultan Yegandır. O, İran hakimliyinə çatan kamkar, alimiqdar şahzadə Abbas bahadur xanın lələsi idi. İzzətli və məşhur adam idi. O, böyük əmirlərdən və qoşun sahibi idi.

Başqası, Heratda yasaqçı (yasaqkeş) olan Nəzər Sultan Asayeşoğludur. Onun Lusuyə və Quryanda ülkası vardı. Başqası, Sərəxs hakimi Şahqulu Sultan Yeganın oğlu İbrahim Sultandır. Başqası, ustaclıların şərəfli oymağından olan Xorasan çərxçibaşısı Vəlixandır. O, Xəvafın və Baxərzin hakimi idi. Başqası, Xorasan əmirlərindən olan və o vaxtlarda Tərşiz hakimi vəzifəsində işləyən Mahmudxan Sufioğludur. Başqası, Murad xanın atası Teymur xandır ki, Sistan hakimi və Bədiüzzaman Mirzənin lələsi idi. Başqası, Şüştər və Dizful hakimi və mötəbər əmir olan Əlqovs Sultan Çavuşlu idi. Başqası, mahifəqiyyəli oymağından olan Şahqulu Sultan Qarınçaoğludur. O, Tiflisdə Davud xan Gürciyə kömək etmək və onun işlərini yoluna qoymağa məmur edilmişdi. Başqası, Xorasanda olan Keçəl Şahverdinin oğlu Mustafa Sultandır.

Bütün ustaclı əmirlərinin adlarını [bu səhifədə] zikr olunmasının elə bir faydası yoxdur, [buna görə də,] zikr olunan adlarla kifayətlənildi.

Türkman tayfa əmirlərinin adlarının zikri:

Onların ən əzəmətlisi Gülabi xanın nəvəsi Əmir xan Mosulludur ki, sabiqdə adı çəkilən Əmir xan onun ulu babasıdır. Həzrət Süleyman şanlı xaqanın zamanı o, qoşunla cahanpənah [şah]ın sarayına gəldi, Mərvdə baş vermiş Şahi bəy Özbəklə olan döyüşdə çoxlu igidlik göstərdi. Bir neçə dəfə Xorasan əmirülümərası və həzrət cənnətməkan şahın lələsi oldu. Əmir xan mötəbər və şanlı bir əmir idi. Həzrət cənnətməkan şahın öldüyü

əsnada Sistanda işdən çıxarıldı. Xorasan türbətində və ona tabe olan yerlərdə Əmir xanın ülkası vardı. İsgəndər şanlı nəvvabın taxta cülusu vaxtı o, yenilməz dövlət adamlarından idi. Başqası, türkman[lar]ın böyük əmirlərindən olan Şahqulu xan Pornakdır. O, İsfahanda idi. İsmayıl Mirzə zamanı Məşhəd hakimi və Xorasanın yarısının əmirülümərası oldu. Başqası, Qum hakimi Heydər Sultan Çabuq Tərxandır ki, sarayın böyük əmirlərindən idi. Başqası, sarayın böyük əmirlərindən olan Yadigar Məhəmməd Tərxanın oğlu Əbülməsum Sultandır.

Rumlu tayfası:

O vaxtlarda onların ən əzəmətlisi Şirvan əmirülümərası və mötəbər əmirlərdən olan Marus xan idi. Başqası, ali sarayda xəlifətül-xüləfa mənsəbi daşıyan Hüseynqulu Xüləfa idi. O, təbil və bayraq sahibi olan əmirdi, olduqca mötəbər, məsləhət sahibi olan adamdı. Diyarbəkrdən və Rumun hər bir tərəfindən ali saraya gəlməkdə olan sufi tayfası tamamilə ona tabe idi. Başqası, Xoy hakimliyindən gəlib ali sarayda olan Dəli Budaqdır. Başqası, ali sarayda olan Qurban Sultandır.

Zülqədər tayfası: Sarayda onların on əzəmətlisi Məhəmmədqulu Xəlifə Qoroğlu idi ki, yenilməz dövlət adamlarındandı və səliqə-sahmanlı qoşunu vardı. Başqası, Astrabad hakimi İbrahim xan Hacıların əmisi oğlu Məhəmməd Xəlifədir. Başqası, Şiraz darülmülkünün hakimi və nəvvab Sultan Məhəmməd Mirzənin lələsi Vəli Sultan Qılmançı-oğludur[194]. Başqası, Xorasan Camının hakimi Tebet ağadır. Başqası, böyük əmirlərdən olan Lar və Fars bəhrinin hakimi Şahqulu Xəlifədir. Başqası, İbrahim xanm oğlu Mənsur bəy Hacilər[195] Xoyda idi.

Əfşar tayfası: Sarayda onların ən əzəmətlisi böyük əmirlərindən olan Əmir Aslan Sultan Ərəşlidir. Onun böyük qoşunu vardı və o, Sultan Əhməd Mirzənin lələsi idi. Başqası, Xəlilxan idi ki, o da şanlı əmirlərdən olub, Kuhi-Giluyə hakimi idi. Onun ixtiyarında on min əfşar ailəsi vardır. Başqası, Savə hakimi olan böyük əmir Mahmud Sultan idi. Başqası, Yusifqulu Sultandır ki,

[194] "Qılmançıoğlu" yox, "Qalxançıoğlu" olmalıdır - Ş.F.
[195] Mətndə "Haci" sözü düşmüşdür — Ş.F.

qardaşı Yaqub Sultanın yerinə Kirman hakimi olmuşdu. Amma, hələ də ali sarayda idi və Kirmana getmədi. İsmayıl Mirzə zamanında qorçibaşı və dövlət adamlarından oldu. Başqası, Xəlil xanın qohumu İsgəndər xan idi. O, Hezarcəribdə yaşayırdı. İsgəndər şanlı nəvvabın zamanında Kuhi-Giluyə hakimi oldu. Başqaçı, Xorasanın Fərah və Esfezar [şəhərlərin] hakimi Yegan Sultan idi və mötəbər əmirdi. Başqası, Xorasanda olan Xosrov Sultan Koroglu idi. Başqası, başqa əfşar əmirləri idilər ki, onların bir neçə nəfərinin zikri ilə kifayətlənildi.

Qacar tayfa əmirlərinin adlarının zikri:

Şahverdi Sultan Ziyadoğlunun oğlu Yusif Xəlifə İbrahim Sultanın əvəzinə Qarabag bəylərbəyisi və Sultan Əli Mirzənin lələsi olmuşdu. O, amma hələ ali sarayda yaşayırdı. Başqası, Damğan və Bəstam hakimi Əli Xəlifə Ağçalı idi. Başqası, Yusif Xəlifənin qardaşı Süleyman bəy Ziyadoğlu idi. Süleyman Sultan Şikəmoğlu da əmirlik mərtəbəsinə yüksəldi. Başqası, böyük mir olan (mire-bozorg) Solaq Hüseyn idi ki, Gilanda ülkası vardı. Başqası, o təbəqənin böyük əmiri olan Ərdoğlu Xəlifə idi. Gilanda onun [da] ülkası vardı. Məhəmməd xan Təkəlinin qohumu Vəli Sultan Şərəfəddinoğlunun Xorasanda bir az ülkası vardı. O tayfa Əllamənin düşmən çıxmasına görə nəzərdən düşmüşdü. İsmayıl Mirzə təkəlilərin nüfuzunun artmasına çalışdı və onlar etibar qazandılar.

Talış tayfası: O təbəqənin böyük əmiri olan Bayandurxan Astrabadda idi. Başqası, Həmzə Sultan ali dərgahın mötəbər əmirlərindəndi. Başqası, Hacı Üveys Sultan mötəbər əmir idi. Başqası, Qaraxan – Şurəgil və Çuxur Səd Ələskerdinin[196] hakimi idi. Başqaları, Əlpavut və İbrahim Xəlifənin Çuxur Sədə ülkaları vardı.

Xunuslu tayfası: Hüseyn xan Sultan mötəbər əmir idi.

Kürd tayfalar: Şərəf xan Rudəki Bitlis[197] əmirzadələrindəndi. Həzrət cənnətməkan şahın yanında təlim-tərbiyə almışdı, mötəbər idi, Gilan Təngabonunun hakimi idi. Başqası, Xəlil Sultan Siyahmənsur - Nəhas və Səvərluq hakimi idi.

[196] Alaşkert - Ş.F.
[197] Mətndə səhvən Tiblis kimi getmişdir - Ş.F.

Başqası, Oğlan Budağı Çekəni Xorasanda Xəbuşanın hakimi idi, fars əmirlərindəndi. Başqası, Qılınc Xəlifə Baruki Çuxur Səd əmirlərindən idi. Başqası, Teymur xan Ərdəlan Həsənabad və Pələkan hakimi idi. Şah Rüstəm Abbasi və qardaşı Məhəmmədi - hər ikisi Lurkuçekin hakimi idilər. Cənnətməkan şah [bir] ülkanı qardaşlar arasında böldü, belə ki, Xavə və Eysər - Şah Rüstəmə, Xürrəmabad və başqa yerlər Məhəmmədiyə verildi. Məhəmmədi [şaha] xəyanət etdi, amma Şah Rüstəm öz bəndəlik yolundan sapmadı, sadiq adam idi.

Çekəni tayfası: Mahmud Xəlifə və Məhəmməd Sultan Cəlaloğlu hər ikisi Qarabağda Ziyadoğlunu qoruyurdu. Zunmər Sultan da Qarabağda idi.

Cığatay tayfası: Gəraylı əmiri Mirzə Əli Xəlifə Xorasanda idi. Mir Hüseyn Sultan Firuzcəngin oğlu İbn Hüseyn müqəddəs Məşhədin Bənadkanında yaşayırdı, sonralar Sərəxs hakimi oldu. Məşhur kutval Hacı Məhəmməd Sultan Xorasanda Savə və ona mənsub yerlərin hakimi idi və əzəmətli seyidlərdəndi.

Şeyxavənd tayfası: Məsum bəy Səfəvinin oğlu Sədrəddin ali dərgah əmirlərindən idi və adlı-sanlı şahzadə Sultan Hüseyn Mirzəyə xidmət edirdi. Qardaşı Seyid bəy əzəmətli əmirlər silkinə mənsub idi və Astrabadın hakimiydi. Cənnətməkan şahın vəfatı ərəfəsində ondan dönmüşdü. Seyid bəy Kəmunə kimi məşhur olan Seyid Süleyman Nəcəfi-Əşrəfin seyid və nəqiblərindən idi va Seyid Məhəmməd Kəmunə övladlarındandır [Seyid Məhəmməd Kəmunəo] Süleyman şanlı xaqının zamanında dövlətxahlıq edərək, əmirlər silkinə daxil oldu. O, Bağdad Hilləsinin hakimi idi. Çaldıran döyüşündə şəhid oldu. Seyid Süleyman cənnətməkan şahın etibarını qazanmışdı. Şah onu dərgahın mötəbər əmirləri [silkinə daxil etdi] və o, mübarək möhürün möhrdarı oldu.

Bunlardan başqa, ayrı-ayrı ölkələrdə hər tayfa və hər təbəqənin başqa əmir və hakimləri də olmuşdur ki, onların da təfsilatını verməyin faydası yoxdur.

ƏZƏMƏTLİ YÜZBAŞILAR, QİYMƏTLİ QORÇİLƏR, EŞİKAĞASILAR VƏ YASOVULLAR

Həzrət cənnətməkan şahın vəfatı ərəfəsində dərgahda olan əzəmətli yüzbaşılar, vəzifə sahibləri, qorçilər və başqa mülazimlər altı min nəfər idilər. O cümlədən min beş yüz qorçi min beş yüz

nəfər daş qorçiləri, yasovullar, bükavullar və başqalardan ibarət olan xidmətçilər. Bu yasovulların mötəbər qorçilərin, eşikağasıların, qur[198] və divan yasavul paşalarının, mirşikarların, topçubaşıların arasında hər təbəqə və hər tayfadan bir çox adam vardı ki, əmirlik dərəcəsinə yüksəldilər. Əmirlik rütbəsinə çata bilməyənlər vardısa da, amma onlar heç də əmirlərdən əksik deyildilər və hər birinin imkanına görə əlli nəfərdən beş nəfərədək işə yararlı nökərləri [də] vardı. Altı min nəfər də padşahın xüsusi mülazimi vardı. Onların mülazimi və nökərlərinin [sayı] ki, səhih hesablana bildi[199], təxminən iyirmi min nəfər, bəlkə də, daha çox idi. Onların igidliklərinə gəlincə, elə qorçilər vardı ki, əgər hansı bir döyüşdə yüz nəfər şah qorçisi vardısa, onlar min nəfərdən ibarət qoşuna bərabər döyüşürdülər.

ƏZƏMƏTLİ SEYİDLƏR, MÖHTƏRƏM ÜLƏMALAR, VƏZİRLƏR, QƏLƏM SAHİBLƏRİ VƏ BƏLAĞƏTLİ ŞAİRLƏRİN ZİKRİ

Bu [ağ] vərəqləri qaralayan naqis adamın (yəni müəllif İsgəndər bəy Münşinin - Ş.F.) yadına bu səhifəni həzrət cənnətməkan şahın zamanında ali sarayda və məmləkətlərdə olan qədirləri ali seyidlərlə, bərəkət mənbəyi olan sədrlərlə, qiymətli üləmalarla, imamlarla, vəzirlərlə, mustovfilərlə, istedad sahibləri ilə, bəlağətşüar şairlərlə bəzəmək düşdü. Buna görə də həmin, fəzilət və kamal sahiblərinin bir neçəsi barədə məlumat verilir.

Seyidlər və üləma şeyxlərin zikri: Münasib idi ki, bu ləyaqətli təbəqənin hörmət və ehtiramına görə onlar barədə alişan şahzadələrdən sonra danışılaydı, amma əksər hadisələrdə əmirlər və qəhrəmanlıq əhli barədə tez-tez söz açıldığından və onların vəziyyətləri tarixin yazılmasında zəruri olduğundan cəsarət qələmi [məhz] onlar barədə [əvvəlcə] məlumat verməli oldu.

[198] Silah anbarı, arsenal - Ş.F.
[199] "Hesablana bilmədi" olmalıdır – Ş.F.

QƏDİR-QİYMƏTİ, MƏQAMI VƏ ŞAN-ŞÖHRƏTİ UCA SEYİDLƏRİN ALLAHIN KÖMƏYİ İLƏ ZİKRİ

Əzəmətli seyidlərin hamısı gözəl və pak nəsildən olduqları üçün onlara hörmət olunur, onların ehtiramı üçün bərk ciddi cəhd edilirdi. Bu fikrin təsdiqi üçün Təbrizin Əskuyə seyidlərinə olunan həddindən çox təzim və ehtiramı misal çəkmək olar ki, onlar bir müddət cənnətməkan şahın hədsiz ehtiramına layiq olmuşdular. [Buna görə də] onları barədə indi məlumat vermək münasib göründü. O seyidlər dörd qardaş idilər: Mir Sədrəddin Məhəmməd, Əmir Nizaməddin Əhməd, Əmir Qəmərəddin və Əmir Əbülhamid. Onların babası Mir Əbülqasim alişan, zahiri və daxili gözəlliyə malik adam idi və onun sultanların yanında ehtiramı vardı. Amma, o, cənnətməkan şahın xidmətində elə yüksəldi ki, yaxınlıq, izzət və etibar mərtəbəsinə qalxdı. Elə bir mərtəbəyə ki, heç nə və heç kəs sultanların yanında belə məqam, izzət və etibar yaxınlığına nail olmamışdı. Onlar imkan daxilində olan (məqdur) və olmayan (qeyri-məqdur) hər hansı bir işin həllindən ötrü hələ heç ağızlarını açmadan istədikləri dərhal yerinə yetirilərdi. Dövlət işlərində müəyyən çətinlik (məhzurat) olmasına baxmayaraq, təxirə salınmadan onlara həftənin hən günü ənam və ehsan verilərdi. O dərəcə həyasızlaşmışdılar ki, sərkare-xassədə onların gözlərinə dəyən hər şey - libaslar, töhfə və hədiyyələr dərhal fərmanla onlara verilərdi. Tez-tez (əksər ovqat) öz xahişlərini [şaha] ərz edərdilər. O həzrət dəfələrlə Əskuyədə olan evinə getməkdən ötrü şəhərdən çıxdıqda həmin seyidlərə sevinc gətirən büsat məclisləri qururdu. O seyidlər [arama] bu mərtəbə və vəzifənin qədrini bilmədilər, öz hakimiyyətlərini hifz etməyi bacarmadılar, ağılsızlıqlarından öz ciddi işlərini dilə-dişə saldılar. Çünki onlar divan işlərini bacarmır, ali qayda-qanun barədə heç nə bilmir, mətləbdən uzaq işlər görürdülər. Get-gedə onların xilaf işləri şahın incikliyinə gətirib çıxardı. Çünki, onlar səltənət işlərində vəkillərin, vəzirlərin, sədrlərin və başqa vəzifə sahiblərinin işə təyin olunma və çıxarılmasında dəyişiklik etmək istəyirdilər. Hiyləgərlikdə onların mürəbbisi ola bilən vəzir Qazi Cahan onların yararsızlığını anlayıb inandırıcı dəlillər gətirərək [həmin seyidləri] yavaş-yavaş şahın etibar gözündən saldı. [Onlara] hökm edildi ki, bundan sonra öz evlərində qalıb çağırılmayanadək saraya gəlməsinlər. Onlara verilən soyurqallara toxunulmadı. Bu tarixçənin yazılmasından məqsəd o

həzrətin (Şah Təhmasibin - Ş.F.) seyidlərə etiqadındandır ki, bu təbəqəyə nə qədər yaxşılıq etmişdir. Bu vəlayətnişan dudmanda (yəni Səfəvilər dövlətində - Ş.F.) seyidlərin və var-dövlət sahiblərinin [şaha] təqdim olunması və onların işə götürülməsi, ovqafın* zəbti, dini işlərdon ötrü vəsait ayrılması sədarət vəzifəsinə aiddir. Bu vəzifəyə yüksək qədir-qiymətli, fazil, pəhrizkar seyidlərdən başqa qeyri kəs təyin edilə bilməzdi. Həzrət cənnətməkan şahın zamanında bu yüksək zümrədən iki nəfər ali sədarət vəzifəsinə layiq görüldü. Hümayun cülusun əvvəlləridə Əmir Qəvaməddin Həsən İsfahani və Mir Cəmallədin Astrabadi birlikdə sədr oldular. Mir Cəmaləddinin vəfatından sonra Hellənin fəzilət sahiblərindən olan Mir Neymətullah Helli Əmir Qəvaməddin Həsənlə birlikdə sədr təyin edildi. Əmir Qəvaməddin Hüseynin[200] vəfatından sonra üləmalar əllaməsi (əllamətül-üləmayi) Əmir Qiyasəddin Mənsur Şirazi Əmir Neymətullah Helli ilə birlikdə sədarətə şərik oldular. Mir Neymətullah xatəmül-müctəhedin Şeyx Əli Əbdüləla ilə düşmənçiliyinə və xatəmül-müctəhedinin düşməni olan şeyx İbrahim Qətifi ilə dostluğuna görə sədarət vəzifəsindən çıxarıldı və Helləyə getdi. Əllamətül-üləmayi bundan sonra sədrliyi tək idarə etməyə başladı. Amma onunla xatəmül-müctəhedin arası pozuldu. Mir onu dinsizlikdə, o isə mirzəni etinasızlıqda təqsirləndirdi. Bir gün şahın hüzurunda onlar arasında elmi bir mübahisə düşdü və savaşla nəticələndi. Həmin savaş [isə] get-gedə möhkəm söyüşə çevrildi. Həzrət şah xatəmül-müctəhidinin tərəfini tutdu və mirzə sədarətdən azad edildi. O, həmin bir neçə gündə icazə almadan Şiraza getdi. Sədarət mənsəbi isə müctəhedüz-zəmaninin istəyinə görə, elmi və əməli biliklər mücəssəməsi olan Mir Müizzəddin Məhəmməd İsfahaniyə verildi. O, bu vəzifəni səkkiz il müstəqil idarə etdi. [Amma] Həkim Kazeruninin məkri ilə vəzifədən çıxarıldı, Mir Əsədulla Mərəşi Şüştəri ali sədarət vəzifəsinə layiq görüldü və ölənədək bu vəzifədə qaldı. Onun vəfatından sonra Şah Təqiəddin Məhəmməd İsfahani bu vəzifəyə təyin edildi. Bəzi hərəkətlərinə görə şahın mübarək məzaçı ondan küsdü və o işdən çıxarıldı. Sədarət mənsəbi [ondan sonra] fəzilətli alim zümrəsindən olan Mir Məhəmməd Yusif Astrabadi və Mir Əsədullanın oğlu Mir Seyid Əliyə tapşırıldı.

[200] Hüseyn yox, Həsən olmalıdır - Ş.F.

Mirmiran kimi məşhur olan Mir Qiyasəddin Məhəmməd o vaxtlarda İsfahanın Həsəniyyə seyidlərinin böyüyü və nəqibül-nüqəba Təqiəddin Məhəmmədin qardaşı idi. Öz irsi mənsəbinə yetmək istədi və nəhayət ali sədarət rütbəsinə layiq görüldü. Cənnətməkan şahın vəfatı vaxtı o, sədarət xalçası üstündə oturmaqda idi. Olduqca tamahı az və pəhrizkar adam idi. İsfahan darüs-səltənəsində xeyli əmlakı və adamları olduğundan oradan gələn mənfəət hesabına dolanırdı. İki oğlu vardı: [Bir oğlu] dövrün fəzilətli alimlərindən olan Mirzə Məhəmməd Məxdum, ikincisi isə olduqca əməlisaleh, dindar və pəhpizkar Mirzə Məhəmməd Əmin idi.

Başqası, ölkə seyidləri təbəqəsindən olan Mirmiran Yəzdidir. O, bu dudmanla qohumluğu sayəsində sərəfraz olan Şah Neymətullahın oğludur. Şah Neymətullah Vəli kimi tanınan sabiq Şah Neymətullahın müridləri onunla müridanə hərəkət edir, firavan yaşayırdılar. O, şahanə lütfkarlığa nail olmuşdu və çoxlu soyurqalı vardı. Həmin sülalənin əmlakı və idarələrindən əldə olunan gəlir beş min tümənə yaxın olardı. O, şahənşahlıq iltifatı sayəsində Yəzd darülibadəsində əzəmət və iqbal taxtına söykənərək gününü işrət və kamranlıqla keçirirdi. Övladlarından Şah Neymətullah və Şah Xəlilullah - hər ikisi bu dudmanla qohum olduqlarına görə başıucalıq tapdılar. Cənab mir bu dudmanın qədrini bilmədiyindən və cahan nəvvabı -Sultan Həmzə Mirzənin zamanında, əlahəzrət şahın cülusunun əvvəllərində bəzi nalayiq əməllərinə, xüsusən üsyan və tüğyandan dəm vuran Bəktaş xan Əfşarı müdafiə etdiyinə, həmçinin sədaqətdən uzaq olan başqa əməllərinə görə bu əbədi dövlət tərəfindən cəzalandırıldı. Bizim sadiqliyimiz izin vermir ki, qələm cənab mirzənin (Mirmiran Yəzdinin - Ş.F.) vəziyyəti, ucalığı və böyüklüyünü olduğu kimi yazsın.

Şah Qasım Nurbəxş: O, Reyin Toroşt qəsəbəsində yaşayan qüdvətül-məsakin Seyid Məhəmməd Nurhəxşin əzız övladlarındandır. Onun nəcibliyi, böyüklüyü və şanının ucalığı xarici görünüşündən də hamıya görünür. O, ali dərgahda şahın lütf və məhəbbətini qazanmışdı və nurbəxşiyyə** sülalə müridlərinin müraciət etdikləri şəxs idi. Rey vilayətində, Şəhriyarda və bunlara yaxın olan yerlərdə yaxşı torpaq sahələri və tarlaları vardı. Ona əksər seyidlərin soyurqallarından istifadə etmək üçün şah tərəfindən imtiaz verilmişdi.

Mir Seyid Hüseyn əl-Hüseyniye-Cəbəlamil: O, xatəmül-müctəhcdin Şeyx Əli Əbdülalinin qız nəvəsidir. Həzrət cənnətməkan şah zamanında Cəbəlamildən gəlib, bir müddət Ərdəbil darülirşadında tədrislə, şeyxülislamlıqla və şəri işlərin həlli ilə məşğul oldu. Sonra ali dərgaha gələrək ictihad iddiasında (müctəhid olmaq - Ş.F) oldu və həzrət cənnətməkan şahın diqqətini özünə cəlb etdi. [Mir] nəfsinə nəzarət edən, ali fitrətli, kamil təbli və ali hafizəli şəxs idi. Hərdənbir ordunun [da] şəri məsələlərinin həlli ilə məşğul olduğundan hər gün onun yanına çoxlu adam gəlirdi. Katiblərin şəri sənədlərinin və məhkəmə işlərinin əmrə uyğun hazırlanmasında [bacarığına görə] onu "seyyidəl-mühəqqeqin" ("din alimlərinin seyidi"), "sənədül-müdəqqeqin" ("dini tədqiq edənlərin istinad etdikləri şəxs"), "varesi-ülumül ənbiya və-l mürsəlin" ("Peyğəmbərlərin və mürsəllərin (göndərilmişlərin) elmlərinin varisi"), "xatəmül-mücləhidin" ("müctəhidlərin sonuncusu"), adlandırırdılar. Hərçənd üləmalar onun ardınca bu xüsusiyyəti barədə tərifli sözlər danışır və ona tabe olurdular, amma onların heç biri bu sözləri əyani şəkildə ona bildirmirdi. Olduqca bəlağətli və şirindil idi. Dolaşıq hər hansı məsələ barədə həzrət cənnətməkan şahın hüzurunda heç bir dövlət işçisi, yaxud ali şahzadələr dillənə bilmədikləri halda [şah] mirin köməyinə bel bağlayırdı. Mirin xahişləri o həzrət tərəfindən qəbul edilirdi. Onun Allah bəndələrinə, xüsusən əlsiz-ayqsızlara çox köməyi dəyirdi. Mirin fiqh, isnaəşəri məhzəbinin həqiqəti və sonralar yaradılan (mobtədə) məzhəblər haqqında çoxlu əsəri var idi.

Mir Fəxrəddin Səmakı: Astrabad darülmöminə aid olan Səmakın böyük adamlarından, dövrün fəzilətli üləma və daneşməndlərindən və fəxrüssadat v-əl üləma olan (seyid və üləmaların iftixarı) Əmir Qiyasəddin Mənsur Şirazinin şagirdlərindəndir. Ali şah dərgahında yaşamış, həzrət cənnətməkan şahın diqqətinə və mərhəmələnə nail olmuşdu. Təlim almaqdan ötrü o cənabın yanına hər gün xeyli adam təşrif gətirir, onun bildiyindən faydalanır və ifadələrindən bəhrələnirdilər. "Haşiyə bər ilahiyyəte - təcrid" [əsərini] yazmışdır. Söylədikləri elmi cəhətdən əsaslandırılmışdır.

Mir Rəhmətullah Pişnamaz - Nəcəfi-əşrəf seyidlərindən və dövrün fəzilət sahiblərindən idi. Ali dərgahda pişnamaz vəzifəsində idi. Şahanə şəfqəti, xosrovanə izziti və ehtiramı vardı. Olduqca Allahpərəst və pəhrizkar adamdı. Ərəbcə çox yaxşı şer

deyirdi. Fiqh, təfsir və hədis elm[lər]ində hamıdan yüksəkdə dururdu. Mərhum müctəhid Şeyx Zeynalabdin əleyhür-rəhmənin - Allah rəhmət eləsin - şagirdi idi. Vaxtının çoxunu dərs deməklə və elmi mübahisələrlə keçirirdi (109) yüksək ifadə qabiliyyəti də vardı.

Mir Əlaün-Nəbi: Qəzvin darüssəltənəsinin Mərəş seyidlərindən [idi]. Ali dərgahda bəzi vaxtlarda müzəffər "qaziye-məəskər" ("əsgər qazisi") vəzifəsində işləmişdir. Gilanın fəthindən sonra bu vilayətin sədri kimi başqa sədrlərdən seçilirdi. Bütün dünyəvi, mənəvi məsələlərdə üsul* və rical** elmində hamıdan üstün idi. Hədisləri yaxşı bilirdi. Olduqca xoşsöhbət, zarafatcıl və təbii xüsusiyyətlərə malik adam idi. Ayini behişt olan şahın məclisində həmişə başqalarından çox müsahibə etmək şərəfinə malik idi. Olduqca təqvalı və pəhrizkardı. Zahiri görünüşcə də gözəl idi. Qərəzsiz söhbətləri, təbii danışığı ilə idrak əhlinin və həmsöhbətlərinin sevincinə səbəb olurdu.

Mir Məhəmməd Mömin Astrabadi: Astrabadın əzəmətli seyidlərindən idi. Mir Fəxrəddin Səmakın bacısı oğludur. Olduqca fəzilətli, dindar, xoşəxlaq və möhkəm adamdı. Hərdənbir şer yazırdı. Yaxşı qəsidələri, qəzəlləri və rübailəri vardı. Düzgünlükdə və təqvada ali dərəcəli şəxs idi.

O, həzrət xaqanın fərmanı ilə rəhmətlik şahzadənin təlimiylə məşğul olmağa başladı. İsmayıl Mirzənin istilası zamanı İranda qala bilməyərək Dekən vilayətinə getdi.

Qütbşahi sülabsində şiəlik (təşəyyö - Ş.F.) məzhəbinin yayılmağa başladığına görə Dekənin əzəmətli valilərindən Məhəmmədqulu Qütbşahın xidmətində çalışmağa başladı və bu sülalə üzvləri arasında olduqca mötəbər şəxsə çevrildi. Orada vəkalət və rəhbərliyə (pişvayi) nail oldu. Hal-hazırda, bu səhifənin yazıldığı zamanda, hicri tarixlə min iyirmi beşinci ildir (miladi 1516/17), o, sağ-salamatdır və hər bir diyarın nəyəsə ehtiyacı olan adamları öz xahişlərini cənab mirzənin vasitəsilə həmin ali sülaləyə çatdırılır.

Mir Məhəmməd Bağır Damad: Həzrət mir mərhum Seyid Məhəmməd Damad Astrabadinin doğma oğlu və məhrum müctəhid Şeyx Əli Əbdülalinin qız nəvəsidir. Bu [qohumluğa] görə də atası "Damad" adlandırılmışdı. Qüvvətli fəhmə və əla təbə malikdir. Uşaqlığı müqəddəs Məşhəddə keçmiş, müdərrislərin və fazil adamların yanında elm öyrənmiş, az bir vaxtda böyük bir inkişafa

nail olmuşdu. Nəvvab İsgəndərşanın zamanında ali orduya gəlib, ali dərgahın üləmaları və fəzilət sahibləri ilə həmsöhbət olmuş, bir müddət Əmir Fəxrəddin Səmak Astrabadi və başqa alimlərlə mübahisələr etmiş, əqli və ənənəvi elmlər sahəsində öz dövrünün ən məşhur adamlarından olmuşdur. Elə bu günün özündə də öz fəzilət və kamalının nuru ilə elm mərtəbəsində parlamaqda, günəş kimi qızğın təbi ilə ətrafa nur saçmaqdadır. Həzrət cənnətməkan şahın vəfatından bu günədək ki, hicri tarixilə min iyirmi beşinci ildir, onun bir anı belə mütaliəsiz və [elmi] mübahisələrsiz ötmür. O, şərafətli vaxtının bir ləhzəsini belə boş keçirmir və hal-hazırda dünyəvi və mənəvi kamal mücəssəməsidir. Yer və göy kəşflərinin kaşefidir. Hikmət elmlərinin əksəriyyətini və çətin fənləri-riyaziyyatı, fiqhi, təfsiri və hədisi çox gözəl bilir, ali rütbəsi vardır, dini-hüquqi biliklərin ən yüksək pilləsinə qalxmışdır.

Dövrün fəqihləri o cənabın yazdığı şəri fitvaları mötəbər sayırlar. Əksər elmlər sahəsində əsərləri vardır. Mənə məlum əsərlərindən hikmət inciləri və kəlam [elminin] dəqiq fikirlər məcmusu olan "Siratül-müstəqim və əfuqül-mübin", imamiyyə hədislərinin şərhinə yazdığı "Rəvaşehe-səmaviyyə", "Kitabi-kafi və Şərhe-Koleyni", "Sədrətül-müntəha" adlı Quran təfsiri, "Təazüat" adlanan "Xülqi-əmal" risaləsi, "Xolseye-məlәkutiyyə", "Əyunəl-məsail", "İmazat", "Zəvabitür-rəz'a", "Səbe-Şəddad", üsul və qiyasatın müxtəsər şərhini verən "Həqqül-yəqin fi hüdusül-aləm", ibn Kəmunənin şübhəsinin rəf edilməsi üçün yazdığı "Kitabi-təqdisat" kitablarıdır. Cənab mirin bir neçə risaləsi və başqa kitabları da zühur köynəyi geymişdir (yəni qələmə alınmışdır – Ş.F.). Ümid edirik ki, o, hələ bitirə bilmədiyi əsərlərininin bitməsinə müfəvvəq olacaq, şərafətli bilgisinin gizli və hələ açılmayan kitabları işıq üzü görəcəkdir. Cənab mirin hafizəsi elə güclüdür ki, o, təbiətin xəzinəsindən, onun hafizəsinə verilən əyarlı nəğdin (pulun) hamısını hifz etmiş, əmanət kimi saxlamışdır. Təbiət xəzinəsindən onda olan bircə fuls pul da dövranın fəlsəfə səbasında yanmamışdır. Taət, təqva və ibadətdə ali dərəcəsi və yüksək rütbəsi vardır. Xülasə, onun vaxtı mütaliə, mübahisə və ilahi ibadətə sərf olunmuş və olunmaqdadır. Arabir şer yazmaqla da məşğul olur. Təvazökarlığın ali mərtəbəsinə yüksəlməsinə baxmayaraq, ariflərin ən böyüyü adlı-sanlı söz ustadı Şeyx Nizami əleyhürrəhmənin məşhur beytindəki bu buyruğa əməl edərək,

Nəzm

Yaradan elə səf düzəltdi, həmən,
Şairlər sonradır peyğəmbərlərdən[201].

sədaqətli dili ilə şerlər deyir və onları "Əşraq" təxəllüsü ilə imzalayır. Qəzəl, qəsidə və Şeyx Nizamininin mənalar bəhrindən bəhs edən "Məxzənül-əsrar" məsnəvisi kimi məsnəvi də yazmışdır. Cənab mirin şerlərinə misal olaraq, həzrət xatəmül-ənbiya səlləllahi əleyli və alihin - ona və nəslinə Allahın salamı olsun - (Məhəmməd Peyğəmbər -Ş.F.) nətində[202] dediyi rübaidir ki, onu bəlağət ipinə düzmüşdür və həmin rübai bu səhifədə səbt olunur.

Rübai

Ey son Nəbi, əflak sənin bəndəndir,
Dünya ilə üqbayə bəzək səndəndir.
Vardırmı təəccüb yeri kölgən yoxsa?
Nursan elə ki, günəş sənin kölgəndir.[203]

[Mir] indi İsfahan darülsəltənəsində yaşayır. Ümid edirik ki, onun şərafətli vücudu ruzigar gülşənini hələ uzun illər bəzəyəcəkdir, elm öyrənən adamlar (tələbə) onun günəş kimi parlaq işığından feyzyab olacaqlar.

Mir Mahmud İsfahani: "Xəlifə Sultan" adı ilə məşhur olan mərhum Mir Seyid Əlinin oğludur. İsfahanın böyük seyidlərindəndir ki, orada "Sadat Xəlifə" kimi məşhurdur. Ata-babaları Mazandaran vilayətindəndir. Onun nəslindən olan o diyarın valisi Mire-Bozorg ruzigar hadisələrinin gedişi ilə əlaqədar İsfahana gəlmiş və orada qalmalı olmuşdur.

---

[201] Beytin farscası:
"Piş-o pəsi bəst səfe-kebriya,
Pəs şoəra aməd-o piş ənbiya.
[202] Nət - Peyğəmbərin tərifini əks etdirən şer - Ş.F.
[203] Rübainin farscası:
Ey xətme-rosəl do kovn pirayeye-tost,
Əflak yeki mənbəre-noh payeye-tost.
Gər şəxs to-ra saye nəoftəd çe əcəb,
To nuri-yo aftab xod sayeye-tost.

Xəlifə Sultanın yaxşı təbi, zarafatcıllığı cənnətməkan şahın xoşuna gəlmişdi. Cənab Mir Şücaəddin Mahmud da fəzilətli və alim seyid idi, ali fitrəti vardı. Məlum olan elmləri, xüsusilə məqulatı* və hekəmiyyatı* çox yaxşı bilirdi. Onun təşkil etdiyi şərafətli məclislərdə elmlər öyrənilir, mübahisələr aparılırdı. Fəqir adamlar, dərvişlər elm öyrənmək istəyənlər öyrənmək üçün həmişə ona müraciət edirlər.

Şah Təqiəddin Məhəmməd: Şiraz darülmülkününün nəsabə seyidlərindəndir. Olduqca fəzilətli və bilikli [Şah Təqiəddin] Əllami Şah Fəthullah Şirazinin şagirdlərindən idi. O, əllamətül-üləma Mövlana Mirzəcan Şirazi ilə mübahisələrə girişmiş, məqulat və hekəmiyyatda bacarıqla tərəqqiyə nail olmuş, Şirazın darül-fəzlində ifadə və tədris mərtəbəsinə ucala bilmişdir. Fazil adamların və elm öyrənmək istəyənlərin bir çoxu onun dərslərinə gəlir, ondan elm öyrənirdilər. O, öz dövrünün alimlər zümrəsindəndir.

Mir Mahmud Şulestani: Şulestanın böyük seyidlərindəndir. Fəzilətli, dindar, xoşəxlaq adamdır və Şeyx Zeynəddin əleyhür-rəhmənin şagidlərindən idi. Sultanül-üləma Əmir Qiyasəddin Mənsur Dəştəki Şirazinin yanında məqulat elmlərini öyrənmişdi.

Əmir Əbülvəli və Mir Əbülməhəmməd: Mir Şah Mahmud Əncəvi Şirazinin övladlarındandırlar. Mir Əbülvəli fazil seyid və təşəyyödə mütəssib fəqih idi. Fəzilət və kamalda qardaşından irəli, fiqh məsələlərində başqa fəqihlərdən artıqdı. Bu astanaye-mütəbərrikənin (yəni səfəvi xanədarının - Ş.F.) yarandığı ilk vaxtlarda rezəviyyə* mərtəbəsinə təyin edilmiş, bir müddət rövzeyi-mütəbərrikədə işləmişdir. Müqəddəs Məşhədin hakimi Şahvəli Sultan Zülqədərlə onun arasında yaranan düşmənçiliyə görə bu xeyirli sərkarlıq vəzifəsindən çıxarılıb, ali orduya gəldi və qardaşı ilə birlikdə Qazan ovqafının mütəvvəlisi** oldu. Cənnətməkan şahın ömrünün sonlarında müqəddəs səfəviyyə astanasının sərkarlığı Mir Əbülvəliyə tapşırıldı, qardaşı isə sərbəst şəkildə Qazan [xan] ovqafının mütəvəllisi vəzifəsində qaldı. İsgəndər şanlı nəvvabın vaxtında "qəzaye məskəre-zəfərəsəz" ("müzəffər əskər qazisi") vəzifəsi ona verildi. Əlahəzrət zilləllah şahın hümayun cülusu zamanı ali sədr vəzifəsinədək yüksəlib, bu hörmətli işdə çalışdı. Onun gələcək həyatı barədə sonra danışılacaqdır.

Əmir Əbilvəlinin başqa qardaşı Şah Müzəffərəddin Əlidir. O, Şiraz darülmülkünün fazil adamlarından idi, orada şeyxülislamlıq

vəzifəsində işlədi, xasseyi-şərifə sərkarının hələliyyət işləri üzrə vəkili ("vəkalətə-hələliyyəte-sərkare-) oldu. İsgəndər şanlı nəvvabın hakimiyyəti zamanı o həzrətin yanında Şirazdan əbədi səltənət paytaxtına[204] gəldi, zəfərli əskər qazisi vəzifəsinə layiq görüldü. Mirə İsgəndər şanlı nəvvabın xüsusi diqqət və məhəbbəti var idi.

Mirzə Məxdum Şərifi: O, Qazi Cahan Şirazinin qız nəvəsi Mir Şərif Şirazinin oğlu idi. Ali dərgahda yaşayırdı. Fəzilət və kamal sahibi idi. Ali fəhmi və fitrəti (təbiəti, xasiyyəti - Ş.F.) vardı. Yaxşı təfsirçi və hədis bilən adamdı. Olduqca söhbətcil idi. Gözəl vəz edirdi. Müqəddəs vaxtının əksər hissəsi Qəzvin Heydəriyyə məscidinin ona xas olan cəvarxanasında mövizə etməklə keçirdi. Onun vəzini dinləməkdən ötrü minbərinin ətrafına çoxlu adam toplaşırdı. Təsənnündə (sünnilikdə) şübhələnildiyindən cənnətməkan həzrət şahın diqqət və iltifatını çox görə bilmirdi. Amma bəzən yaxınlıq etdiyinə görə aləmdəkilərin şahzadəsi olan Pərixan xanımın diqqət və lütfünə yetişirdi. İsmayıl Mirzənin zamanında tam etibara malik oldu, sədarətin yarısı ona verildi. Amma təsənnün məzhəbinə rəğbəti olduğundan və rəğbət davam etdiyindən, habelə düşüncəsizlikdən onun işlərinin üstü açıldı, vəzifədən çıxarıldı. Bu barədə yeri gələndə yazılacaqdır.

Şah İnayətullah İsfahani: İsfahan darüssəltənəsinin nəqiblər (nüqəba) seyidlərindəndir. Ali dərgahda zəfərli əsgər qazisi vəzifəsində işləyirdi və bu vəzifəni ləyaqətlə (kəmayənbəği) icra edirdi. Olduqca dindar və pəhrizkar adam idi. İsmayıl Mirzə zamanında əzəmətli sədarət vəzifəsinin yarısı onun oldu. İsgəndər şanlı nəvvabın vaxtında vəzifədən çıxarıldı, öz vətəninə qayıtdı.

Mir Seyid Əli Şüştəri: O, Mir Əsədulla Sədrin böyük oğludur. [Mir Əsədulla Sədr] bir neçə il cənnətməkan şahın xidmətində ali sədarət vəzifəsini müstəqil idarə etmişdir. Həyatının son vaxtlarında, yaşının çoxluğundan bu vəzifədən əl çəkərək, yerini özünün sədaqətli oğluna, yuxarıda adı çəkilən Mir Seyid Əliyə verdi. O, bəzi vaxtlarda ali qiymətli atasının köməyi, bəzən isə Mir Məhəmməd Yusif Astrabadinin şərikliyi ilə həmin vəzifəni aparırdı. Bəzən nurlu (feyzəsər) Rəzəviyyə rövzəsisinin sərkarının mütəvəllisi oldu və müqəddəs Məşhəddə yaşadı. O böyük seyid, ruzigarın pakizə şəxsiyyəti, dərin fəzilətli və bəyənilən davranışlı

[204] Qəzvinə - Ş.F.

adam kimi məşhur idi. Vəzifədə olduğu zaman öz himmət və pəhrizkarlıq ətəyini tamah çirkabına bulaşdırmadı. Onun əcdadı Şüştəp vilayətinin olduqca böyük mötərəm və məşhur adamları idilər. Qardaşı Mir Əhdülvahab böyük dövlətxahlığı və xidmətinə görə Dizful əmirliyinə qədər yüksəldi, o mülkün şəriyyat və ürfiyyat işləri ona tapşırıldı.

Mir Kəmaləddin Məhəmməd Astrabadi və Mir Əbülqasim İsfahani: İşıqlı Rəzəviyyə rəziyyəsinin bacarıqlı mütəvəlliləri olublar ki, cənnətməkan şahın dövründə onların hər ikisi həmin məscidin mühüm vacibi və sünnəti tövliyyət işləri ilə məşğul olmuşlar. Mir Kəmaləddin Astrabadın, Mir Əbülqasim isə İsfahanın "xəlifə" seyidlərindən idi. Onlar "Mazandaran seyidləri" adı ilə [də] məşhur idilər. [Mir Kəmaləddin] Cəm məqamlı şahin (Şah Təhmasibin - Ş.F.) hakimiyyətinin sonlarında "sərkare-feyzasar" ("feyzli sərkar") vəzifəsinə təyin olundu. Mir Kəmaləddin "sünnəti" mütəvəlliliyini, Mir Əbülqasim isə "vacibi" mütəvəlliliyini icra edirdi.

"Sünnəti" ibarəsindən məqsəd budur: Soyurqalların [verilməsi] və sərkare-xasseyi-şərifədən sərkarın məsrəfləri (məsarefül-sərkar) üçün, [həmçinin] xərclənmə hüququ sırf cənnətməkan xaqanın ixtiyarında olan xidmətçilərə* (xoddam), dərs oxuyanlara (modərres), vəzifə sahiblərinə, idarə [işlərinin] işçilərinə, seyidlərə, ixtisassız fəhlələrə (oməla), fazil (fozəla) və ləyaqətli adamiara (ərbabe-estehqaq) ehtiyaclarının ödənilməsindən ötrü verilən pullara "sünnəti" deyilir. Müəyyən məsrəfləri olan ovqat[205] (?) və nəzirlərdən (nəzrovat) əldə olunan pulların xərclənməsi isə vəqf sahiblərinin şərtlərinə görə xərclənməlidir ki, bu da "vacibi" adlanır.

Mirzə İbrahim Həmədani: Təbatəbaül-hüseyni seyidlərindəndir. Atası Həmədanda qazilik və şəri işlərin icrası ilə məşğul olurdu. O, bir müddət Mirzə Məxdum İsfahaninin yanında şagird oldu. Qəzvin darüs səltənəsində əllamətül üləma Mir Fəxrəddin Səmakinin yanında işlədi, əqli elmləri öyrəndi, hekəmiyyatda (fəlsəfi, zehni elmlər - Ş.F.) böyük inkişafa nail oldu. Cənnətməkan şahın vəfatından sonra Həmədanda irsi qazilik vəzifəsinə təyin edildi, amma özü qazilik mürafiə (məhkəmə işlərinin həlli - Ş.F) işləri ilə az məşğul olurdu, onun əvəzində isə

[205] Ovqaf olmaldır, yəni "vəqf"in cəmi - Ş.F.

naibləri işlərini həll edirdilər. Cənab mirzə öz şərafətli vaxtının çoxunu sırf mütaliə və bəhslərlə keçirirdi və onun dərs hövzəsində xeyli tələbə elm öyrənirdi. Onun "Risaleye-esbate-vacebe qədim və cədid", "Şərhe-şəfaye-Şeyx Əbu Əli", "Haşiyeye-şərhe-eşarat" və s. kimi məntiqə əsaslanan fikirləri və hikmət kitabları vardır. Əlahəzrət zilləllah şahın hakimiyəti vaxtı o, yenidən ali orduya gələrək, şahanə inayətlərə, layiqli soyurqal və mükafatlara, yaxşı və bol ənamlara layiq görüldü. Belə ki, bir dəfə onun yeddi yüz tüməni-İraqi məbləğində olan borcu xəzaneye-amirədən verirdi və həmin məbləğ "müsəlmanların borcu" maddəsindən ödənildi. Onun sözlərini dövrün üləma, füzəla və alimləri tez-tez işlədirdilər. İlan ili olan min iyirmi altıncı ildə (miladi 1617/18) Gürcüstan səfərindən qayıdıb Həmədana gedərkən yolda onun ömür yolu başa çatdı.

Mir Cəfər Möhtəsibür-məmalik: O, təbatəbaül-hüseyni seyidlərindən Mir Rastinin oğludur. Əzəmətli əbdülvahabiyyə seyidlərinə qəribə bir yaxınlığı vardı. Cənnətməkan şahın xidmətində [olduğu zaman] ölkələr möhtəsibi (ehtesabi-məmalik) vəzifəsinə yüksəldi və nə qədər ki, sağ idi bu vəzifədə işlədi. Hümayun zilləllah şahın cülusunun əvvəllərində o, fani həyatı tərk etdi. Olduqca xoşəxlaq, dərviştəbiət, rəvan təbli, xoşxasiyyətli seyid idi.

Mirzə Əbdülhüseyn: Mir Fəsihin oğludur. O da hüseyni seyidlərindən olub, Əmirə Cəfərlə əmioğlanları idilər. Onun anası "Cahanşahi" sülaləsinə xas qadınlardan olduğundan ona Mirzə Əbülhüseyn Cahanşahi deyirdilər. O, Təbriz darüssəltənəsində cahanşahiyyə büqəsinin yaxınlığında yaşayırdı, Müzəffəriyyə kimi məşhur olan və anasından ona qalan həmin büqənin mütəvəllisi idi. İsgəndər şanlı nəvvabın zamanı və Əmir xan Türkmanın hakimliyi vaxtında Təbriz darüssəltənəsi kəlantəri* o idi. Olduqca şanlı və mötəbər adamdı. Rumiyyə istilası zamanı İraqa gəldi, Mir Cəfərin vəfatından sonra möhtəsibül-məmalik oldu və elə həmin günlərdə də axirət evinə getmək üçün əyninə əməl paltarı geyindi (yəni axirətə köçdü - Ş.F).

Şah Əbdüləli Yəzdi: Qədir-qiyməti yüksək, şan-şöhrətli Yəzd darül-ibadəsi seyidlərindən idi. Onun ata-babaları Bəme-Kirman vilayətindən idilər və Yəzd darülibadəsinə köçmüşdülər. O, elə orada da şəri yüksəklik əldə etdi. Olduqca pəhrizkar və tamahsız adamdı. Yüksək nurbəxşiyyə sülaləsi ilə qohumluğu vardı. Onun möhürü və sicili olan sənədlər əhali arasında etibarlı idi.

Mir Kəlan Astrabadi: Astrabad darülmöminin əzəmətli seyidlərindən və əllamətül-üləma Mir Fəxrəddin Səmakinin qohumlarından idi. Fiqh elmində böyük məharəti vardı. Olduqca zarafatcıl, xoştəb, dindar və pəhrizkar adam idi. Cənnətməkan şahın vəfatına yaxın o həzrətin əyan bacısı mərhum şahzadə Sultanım həzrətləri on dörd məsum şərəfinə çoxlu vəqf bağışladı, tovliyyət hüququnu şahin müqəddəs zatına və ondan sonra şahlıq taxtına cülus edəcək hər bir adlı-sanlı övladına verdi, [Mir Kəlan Astrabadi] isə bu işin icrası ilə məşğul oldu. Diyanətdə (dindarlıq) və düzgünlükdə təriflərə layiq adam idi.

Mir Seyid Əli Xətib: O da Astrabad seyidlərindən idi və ali dərgahda xitabəf vəzifəsində işləyirdi. Bəzi vaxtlarda möhtəsibülməmalik də olmuşdu. Əmre-məruf və nəhye monkər*** işlərində etdiyi mübaliğə ifrat sərhəddinə çatırdı, çünki dünyəvi riya və qərəzkarlığa şübhə ilə yanaşırdı (müştəbeh). Məzacı tünd olması və şəri işlərə insanı vadar edən nəfs (nəfse-əmmarə) xüsusda alim və fazil şəxslər onunla həyati söhbətlər edirdilərlərsə də, ona qalib gələ bilmirdilər.

Mir Tahir Kaşi: Kaşan seyidlərindəndir. Ali dərgahda xətibliyə qədər yüksəlmişdi.

Mir Zeynalabdin: O da Kaşan seyidlərindəndir, "Mirə Kəllə" adı ilə məşhur idi. Mir Yəhya Ələvi Qəzvininin damadı idi. O, dini işlərin icrasında Mir Seyid Əli və Mir Tahirin yolu ilə gedirdi. İsmayıl Mirzənin vaxtında onlar şahın qəzəbinə düçar oldular, Mir Zeynalabdin möhtəsib vəzifəsinə təyin edildi.

Mir Əbu Taleb: İsfahan seyidlərindəndir. İsfahandakı imaməl-sacedin və qiblətül-arifin olan (səcdə edənlərin imamı və ariflərin qibləsi) Zeynalabdin əleyhüssallama mənsub şərafətli büqənin mütəvəllisi idi. Məqulat və hekəmiyyatda özünü əqidə cəhətincə başqadarından üstün sayırdı.

Mir Məhəmməd Əşrəf: Astrabadın derazgeysu seyidlərindəndir. Öz diyanəti, məsləhətçilliyi və pəhrizkarlığına görə şahın etimadına nail olmuş, həmişə cənnətməkan şahın şəri nümayəndəsi sifətilə həzrət imamın astanəsinin ziyarətinə və təvafına* gedir və ziyarətini yerinə yetirirdi. Ehtirama layiq adam idi. O həzrətin [şahlığı] zamanı məhrusə məmləkətlərində başqa qədir-qiymətli seyidlər də vardı ki, onların əksəriyyəti əyinlərinə şahdan əvvəl ölüm libası geyinmişdilər və o həzrət ölərkən sağ deyildilər: Onlardan zəmanənin üllamətül-üləması və şah məclisinin

üzvləri zümrəsindən olan Dəstqeyb Şirazini, özünü Mir Şərif Əllameyi-Cürcaninin nəbirələrindən sayan Mir Seyid Şərif Şərifi Şirazini, Fars şeyxülislamının hələliyyat işləri üzrə vəkili Şah Əbu Türab Əncunu, Xorasan seyidlərindən Mirzə Əbu Taleb Rezəvini və onun oğlu Mirzə Əbulqasimi, [həmçinin] Mir Əbdülkərim Xadimi, Mir Şəmsəddin Əli Sultan ibn Muxtar Səbzvarini, habelə Nişapur, Bəme-Kirman seyidlərini, Həsən padşah Türkmanın oğlu Yusif Mirzənin qız nəvələrindən olan, Təbrizin Əbdülvahabiyyə seyidlərini, gülüstanə və məmuriyyə seyidlərini, İsfahan məmurəsinin seyidlərini və şahın sağlığında sağ olan onlar kimi bir çox təbəqədən olan seyidləri misal göstərmək olar ki, aşağıda onlardan danışılır:

Müqəddəs Məşhəd seyidləri: Əzəmətli Rezəvi və Musəvi seyidlərindəndirlər. Onlar müqəddəs Məşhəddə müqəddəs rövzənin yüksək xidmətçilərindən olub, izzət və etibara malik idilər. Amma, o ali qədirli təbəqə seyidlərindən Mirzə Əbülqasimin oğlu Mirzə Əbu Talib Rezəvi Xorasan, xüsusilə müqəddəs Məşhəd seyidləri içərisində olduqca böyük, şöhrətli, varlı və bədiyyatda tayı-bərabəri olmayan şəxs idi. O, cənab Mir Şəmsəddin Əli Sultan ilə qohum olmağı vəsiyyət etmişdi və onun möhtərəm qızı, Mirzə Əbülqasimin arvadı idi. Bu qohumluq ruzigarın tələbi və hər iki tərəfin düşmənçiliyi nəticəsində əziyyət və sədəmədən başqa heç nə vermədi. Ata və oğlunun vəfatından sonra Mirzə Əbülqasimdən Mirzə Əbu Talib və Mirzə İbrahim adlı oğlanları qaldı. Onların hər ikisi uşaqlıq yaşlarından əlahəzrət zilləllah şahın zamanında boya-başa çatmışlar. İndi ki, hicri tarixlə min iyirmi beşinci ildir (miladi 1616/17), onlar şahanə mərhəmət kölgəsi altında izzət və hörmətlə əmr edirlər və onlardan qalan irsi soyurqalların və başqa mülklərin və məhsulların hesabına yaxşı yaşayırlar.

Mir Müseyib Nəqib, Mir Məhəmməd Cəfər ibn Mir Məhəmməd Səid və Mirzə Uluğ da Rezəviyyə seyidlərindəndir. Nəqib* mənsəbində olan Mir Müseyib başqalarından daha hörmətli və izzətli idi. Mir Məhəmməd Cəfər fəzl və kamal kəsb etməklə məşğul idi. Son vaxtlarda fəqihlik və elm öyrənməkdə bərk tərəqqi edib, ictihad mərtəbəsinə çatdı. Amma, ehtiyatının çoxluğu və etiqadının sədaqəti üzündən müctəhid olmaq iddiasına düşmədi. Olduqca dindar və pəhrizkar, şübhəli yemək-içməkdən yayınan adam idi. O, Mirzə Uluğ və adı çəkilən Mirzə Əbu Taleb ilə əmioğludur. Olduqca dərvişxislət, həlim və gözü tox idi. Zilləlləh

həzrət şahın zamanında yüksəldi və şahanə hörmətlərə layiq görüldü. Bütün Məşhəd seyidləri və onların musəviyyə təbəqələri barədə danışmaq sözümüzü uzadacağı üçün bu kiçik qeydlərlə kifayətləndik.

Əzəmətli Səbzvar seyidləri: Mir Şəmsəddin Əli Sultanın oğlu Mirzə Mahmud qədir-qiymətli Bəni-Muxtar seyidlərindəndir.

Mir Şəmsəddin Əliye-Mazi və Əli Həddad əzəmətli cığatay-gürganiyyə[206] sultanlarının [hakimiyyəti] zamanında öz qoşun və xidmətçiləri ilə birlikdə Ərəb diyarından Xorasana gələrək Səbzvarda yaşamağa başladılar. Onlar çoxlu var-dövlət yığıb, öz vəkillərini və [Başqa] adamlarını əkinçiliyə və inşaata rəğbətləndirdilər. Bu işdən çoxlu pul əldə etdilər. "Həbibüs-siyər"də yazılmışdır ki, Hicazdan və Ərəb İraqından hələ Mir Şəmsəddin Əli qədər məşhur, ilhamlı, çoxlu mülazimləri və sərvəti olan başqa bir seyid əcəm [diyarına] gəlməmişdir. O, dövr sultanlarının diqqət və iltifatına nail olmuş, xeyli ehtirama layiq görülmüş, bütövlükdə İran məmləkətlərinin, xüsusi olaraq isə Xorasan vilayətinin nəqiblər-nəqibi (nəqibül-nüqəba) vəzifəsi ona layiq görülmüşdü. Qədir-qiymətli səfəviyyə padşahlarının hakimiyyəti və qızılbaş dövlətinin zühuru zamanı onun övladları get-gedə şahanə təzimatla şərəflənmişlər. Mirzə Məhəmmədin oğlu Mir Şəmsəddin özbəklərin hakimiyyəti və Übeyd xan Özbəyin Xorasana yürüşü zamanı öz dövlətxahlıq borcunu yerinə yetirmiş və buna görə də cənnətməkan həzrət şah tərəfindən yüksək əmirlik rütbəsinə və xan ləqəbinə layiq görülmüşdü. Onun sabiq vəzifəsinə hümayun şahın nəyabəti (köməkçisi, naibi - Ş.F.), yəni seyidlərə, kəlantərələrə, böyük ərbablara və bütün Xorasan əhalisinə sərvərlik etmək də əlavə olundu.

O alicah seyid barəsində deyilmiş bu beyt məşhurdur. Belə ki, şair demişdir:

---

[206] Qeyd: Cığatay - gürganiyyə sultanları adı altında əsasən Əmir Teymur Gürganın (Gurəkan - Ş.F.) vəfatından sonra (1405) hakimiyyətdə olan özbək hökmdarları nəzərdə tutulur. Çingiz xanın oğullarından 1242-ci ildə ölən Cığatayın adı onun vəfatından bir neçə əsr sonra da bu sülalənin qurduğu dövlətə ad olaraq davam etmişdir. Hətta Mavərənnəhr bölgəsinin türk və ya türkləşmiş əhalisi də XV-XVl əsrlərdə, orada Cığatay soyundan heç bir hökmdarın qalmadığı vaxtda belə, cığatay adı ilə adlanmaqdaydı. Qeyd olunmalıdır ki, bu sülalə ilə heç bir əlaqəsi olmadığı bir halda Şərqi Türk ədəbi dilinə "cığatay dili deyilmişdir. (Bax: Prof. Dr. İsmail Aka. Timur ve dövleti, Ankara, 1991, seh. 23.)

Beyt

Mir Şəmsəddin Əli çıxmış Xorasandan elə
"Sanki, doğmuş gün Xorasandan " deyir əhli-İraq.[207]

O uca sülalənin əlli tümənə-şahiye-İraqi məbləğində bütün sərkarlıq vergiləri (motəvəccehat) kimi cənab mir və onun əzəmətli övladı üçün qəti (məsəlləmi) olaraq soyurqal təyin olundu. İndi Mirzə Mahmudə sülalə arasında əla münasibət vardır. [Mir Şəmsəddin Əlinin] vəfatına yaxın vaxtlarda o həmin yerin izzət, etibar, öncüllük və kəlantərlik taxtında əyləşdi.

Mir Məhəmməd Kəskən Səbzvarlıdır. O, həmin vilayətdə əmlakı, çoxlu torpağı olmaqla başqalarından seçilirdi. Güclü fəhm və fitrətə malik idi. Şairlər, nədimlər və fəhmli adamlarla yaxşı davranırdı. Şer yazmaqda bacarığı və yüksək yeri vardı. Bəzən öz şer dilini açırdı.

Onun bu beyti məşhurdur:

Beyt

Güllər gecə açmaqda hərəmxanə hağında,
Gülrüxlər edirlər belə təlim, həyadan.[208]

Astrabad darülmömininin seyidləri: Astrabadın ali dərgahda olan izzətə malik ali dərəcəli seyidlərinin bir hissəsinin şərif adları yuxarıda çəkildi. Onlardan başqa Mir Həbibullah Bərməki, Mir Qiyasəddin Şemşəki və "Padşah" kimi məşhur olan Mir Hüseyn də vardır. Mir Hüseyn şahın mülazimi idi, qorçilər və mülazimlər silkinə daxildi. Onların bəziləri müqəddəs Rezəviyyə rövzəsində də çalışırdılar. Həmin seyidlərin bəziləri isə öz vətənlərində yaşayırdılar. O cümlədən Mir Təqiəddin Məhəmməd ibn Əminəddin Hüseyn rəhmətlik sədr Mir Cəlaləddinin oğlu [da] Astrabad darülmömininində yaşayır və orada bir ağsaqqal kimi

[207] Beytin farscası:
Əz Xorasan Mir Şəmsəddin Əli aməd berun,
Rast miguyəd İraqi "k-əz Xorasan aftab".
[208] Beytin farscası:
Göl nimeşəb şekofte şəvəd dər hərime-bağ,
Təlime-golroxan behəya in qədr bəsəst.

həyat tərzi keçirirdi. Mir Cəmaləddinin xidmətlərinə maaş cənnətməkan şah tərəfindən təyin edilmiş, sülalənin qırx tümən məbləğində mal, torpaq sahəsi və əmlakı, onları soyurqal sifətilə müəyyən olunmuşdu. Cənnətməkan şahın vəfatından sonra o vilayətdə bir müddət müstəqil hakim olmadığından, orada o cənab seyid hamıdan çox etibarlı və iqtidarlı oldu. Amma onun övladları siyahpuşların dövründə qızılbaşların vəziyyətlərinin qarmaqarışıq olduğu vaxtlarda bu sülalənin onlara verdiyi maaş, edilən hörmət və xeyirxahlığı (ectenaat) müqabilində lazımi səviyyədə sədaqət və dövlətxahlıq göstərmədilər.

Mir Zəyaəddin Fendereski: O da Astrabadın yüksək dərəcəli seyidlərindən idi. Fenderesk əhalisinin qiymətli nümayəndəsi olan [Mir Ziyaəddin] böyük və mötəbər seyid idi. Çoxlu mənfəətli əmlakı və torpaq sahələri vardı. Üsyan və inqilab günlərində ayağını ədəb ətəyində saxlayaraq üsyankar sərdarlara qoşulmadı. O, Fenderskdə qalaraq, qarışıqlıq və üsyan məkanı olan Astrabada çox az gedirdi. Həzrət zilləllah şahın hakimiyyəti zamanı Xorasana yürüş vaxtı Bəstamda ehtişamı göyə ucalan orduya gəldi, şahm xidmətinə girməklə şərəfləndi. Onun vəfatından sonra oğlu Mirzə bəydən də dövlətxahlıq hərəkətləri görsəndi. O, şahın mülazimi kimi vaxtının çoxunu şaha xidmətdə keçirir, behişt ayinli məclislərdə həmişə iştirak edərdi. Mirzə bəy ona verilən soyurğal və ənamların çoxluğuna görə özü ilə həmyaşar (oqran) olan yoldaşlarından üstün idi. Əlahəzrətin o seyidə xüsusi şəfəqqəti vardı.

Təbrizin Əbdülvahabiyyə seyidləri: Əbdülvahabiyyənin ən əzəmətli seyidlərinin əksəriyyəti Təbriz darüssəltənəsində yaşayırdı. Hazırda, onların bəziləri Yəzddə, Kaşanda və İsfahanda ömür sürürlər. Bu seyidlərin ulu babası Mir Əbdülvahab böyük və alişan seyid idi, dövr sultanlarının diqqətinə yetmişdi. O Yusif Mirzə ihn Həsən padşahın yanında da ehtiramlı idi. Onun övladından olan Seyid Həsən bəy Yusif Mirzənin qızının nəslindən olduğu üçün həzrət cənnətməkan şahın zamanında Təbrizin Sahibabadında yerləşən və "Nəsriyyə" kimi məşhur olan "Həsən padşah" büqəsinin tovliyyəti övladının çox hissəsi o sülaləyə aid idi və bu gün də onun övladının əlindədir.

Həmin seyidlərin başqa biri Mir Nemətullahdır. O qədir-qiymətli və pəhrizkar adam idi. Cahanşahiyyə sülaləsi[209] ilə

[209] Cahanşah Qaraqoyunlunun nəslindən olanlar - Ş.F.

qohumluğu vardı. Rumiyyənin hücumu zamanı İraqa gəldi, bir müddət Kaşanda səri işlər üzrə mütəsəddi* oldu, axır vaxtlarda İsfahan qazisi vəzifəsində də işlədi. Vəzifədə olduğu vaxt tamahkarlıqdan uzaq oldu. Yaşı doxsanı ötmüşdü. Qardaşı Mir Əbülqasim Təbriz darüssəltənəsinin qazisi idi. Ali dərəcəli seyidlər və bərəkət mənbəyi olan nəqiblərin bəziləri haqqında imkan daxilində yazıldı. İndi isə bu məqsəd səhifəsi həzrət cənnətməkan şahın vəfatı zamanı sağ olan bəzi böyük şeyxlər, alimlər (üləma) və fəzilətli (fazel) şəxslər haqqında bədaye sözlü qələmin köməyi ilə yazılmağa başlayacaqdır. Sözü uzaltdığımıza (ətnab) görə bu pərişan kəlmələri mütaliə edənlərdən tüzrxahlıq edirik.

QİYMƏTLİ ŞEYXLƏRİN, MƏŞHUR ÜLƏMALARIN İZZƏTLİ VƏ EHTİRAMLI FƏZİLƏT SAHİBLƏRİNİN ZİKRİ

O ali təbəqənin fəzl və bilik cəridəsinin başlanğıcı müctəhidüs-sani, əsrinin və zəmanənin yeganəsi olan Şeyx Əbdülaldır. O, mərhəmətpənah [olan] və müctəhidüz-zəmani [adlanan] Şeyx Əbdülalinin sədaqətli oğludur. Məqul və mənqul elmlər sahəsində* zəmanənin ömçülü, olduqca söhbətcil, gözəl görünüşlü, əxlaqlı adam idi. Özünün müstəqil (fikri) istedadına görə ali ictihad (müctəhidlik - Ş.F.) taxtına əyləşmişdi. Əsrin üləmalarının əksəriyyəti ictihadı o cənabdan öyrənirdilər. O, vaxtının çoxunu gözəl Kaşan məkanında keçirirdi, dərs verməklə və ifadə elmi ilə (söz və onun mənaları haqqında elm)[210] məşğul olurdu. Hamını hadisələri düzgün həll etməyə və öz aralarında əmin-amanlıq yaratmağa dəvət edirdi. Özü şəxsən ayrı-ayrı yerlərdə aydın (ğorra) şəriət ehkamlarının icra olunması üçün səfərlər edir, çətin məsələləri öz yoluna qoyurdu. Ali dərgaha təşrif gətirdiyi zaman cənnətməkan şah o cənaba böyük təzim və ehtiramla yanaşırdı. İstər ali orduda, istərsə də Kaşanda əsrin üləma və alimlərinin müraciət etdiyi adamlardan idi. Üləmanın əksəriyyəti üsul və firuda** onun dediklərinə əməl edirdi. O cənabın ictihadları əksər üləmalar tərəfindən təsdiqlənirdi. O həqiqətən də öz mələk sifətli zatına və müsbət xüsusiyyətlərinə görə o vaxtlarda İranın və cahan adamlarının bəzəyi idi.

[210] Bax: D-r M.Moin. Göst. lüğət, c.I. səh. 310.

Şeyx Əli Mənşar: O, fəzilətli ərəb, fəqih və mərhum müctəhid Şeyx Əli Əbdülalinin rəşadətli şagidlərindəndi. Şəri məsələlərdə dedikləri mötəbər və əsaslı idi. Şəri və ürfi işlərin nizamlanmasında düzgün rəyə gəlir və başqalarından seçilirdi. Həzrət cənnətməkan şahın diqqət işığı onun üzərinə düşmüş, başqa məmləkətlərdən ən əzəmətlisi və məşhuru olan İsfahan darüs səltənəsinin şeyxülislamı və həlaliyyət vəkili olmuşdu. O, bu işlərdə tam müstəqil idi, o diyarın dini və dünyəvi məsələlərinin tənzimlənməsində və zülmkarlığın qarşısının alınmasında zəhməti böyükdü.

Mövlana Abdullah Şüştəri: Şüştər darülmülkündə doğulmuşdur. Uşaqlıq vaxtı bir müddət fəzlpərvər suyu və havası olan Şirazda dövrün məqul elmlərini öyrənməklə keçirmişdi. Məqsədi məqul elmləri [mükəmməl] bilmək olduğu üçün Ərəbistana səfərə yollamış, o diyarın bir çox fəzilət sahibləri və alimləri, xüsusən Cəbəlamil fəqihləri ilə söhbətlər etmiş, şəriət və irşad üsullarını öyrənməklə ali dərəcə almışdı. Oradan ali orduya gələrək, cənnətməkan şahla görüşdən sonra müqəddəs Məşhəddə yaşamış, həzrət imaməl-çinn-və-n-nasın (imam Rzanın - Ş.F.) rövzəsində mücavir olmuşdur. Bir müddət o şərafətli məkanda elmlərin ifadəsi, əhalinin hidayəti və irşadı, xəlqüllah məzhəbinin rəvaçı ilə məşğul olmuş və agahlıq yoluna çıxmışdı. Xülasə, onun bütün hərəkətləri böyük-kiçik tərəfindən bəyənilirdi. Həzrət zülləllah şahın səadətli cülusu vaxtı müqəddəs Məşhəddə o həzrətin əziz nasehi (nəsihətçisi – Ş.F.) olmuş, həmişə şahanə mərhəmətə yetişmişdi. Bu iqbal kitabının ikinci səhifəsində yazılacağı kimi, hicri tarixlə doqquz yüz doxsan yeddinci ildə[211] (miladi 1588/89) - həmin müqəddəs büqənin özbəklərin əlinə düşdüyü ildə, özbəklər cənab mövlananı tutub Mavərənnəhrə apardılar. Orada onunla o vilayətin üləmaları arasında mübahisələr və görüşlər başlandı. Əhli-beytin tərəfdarı oduğunu gizlədib (təqiyye), özünü şofei* kimi göstərsə də, Mavərənnəhrin böyükləri və həzrət hənəfi** (məzhəbinin) fəəssübkeş adamları onun qətlinə iqlam etdilər, o səadət arzulayan və xeyirxah adamı uca şəhadət dərəcəsinə çatdırdılar. Bununla kifayətlənməyən özbəklər onun şərafətli cəsədinə Buxara meydanında ədalətsizlik odu vurdular. Ona rəhmət olsun!

[211] Mətndə səhvən 897-ci il yazılmışdır - Ş.F.

Mövlana Mirzəcan Şirazi: Alim fazil üləmalardan bilikli, biliklilərdən isə fəzilətli [adam idi]. Şiraz darülmülkündə tam imtiyaz sahibi idi. Elmləri şəxsən ülləmatül-üləmayi olan Mövlana Cəlaləddin Dəvvaninin şagirdi olmuş Xacə Kəmaləddin Mahmud Şirazidən öyrənərək böyük irəliləyişə nail oldu. Məqul elmləri bilirdi. Həzrət cənnətməkan şahın zamanında şərafətli Şirazda tədris taxtında əyləşmişdi. Həmin gözəl məkana elm öyrənmək məqsədilə təşrif gətirən tələbələrin əksəriyyəti onun dərs dediyi hövzəyə gələrək əqli (əqilə) elmləri öyrənirdi. Onun əksər şagirdi elmi bilik mərtəbəsinə yüksələrək dərs demək qabiliyyətinə malik oldu. Hekəmiyyat sahəsində ali kitabları vardı və özündən əvvəlki müəlliflərin əsərlərinə dəqiq şəhrlər yazmışdır. İsmayıl Mirzənin zamanında ali orduya gəldi. Ali dərgah üləmaları onun sünni olduğunu güman etmişdilər. O, İsmayıl Mirzənin ona şəfqəti olduğu üçün bu gümana məhəl qoymadı. İsmayıl Mirzənin vəfatından sonra elə bu səbəbdən də İranda qala bilməyib, Mavərənnəhrə və Hindistana getdi. O, elə həmin vilayətdə də (Hindistanda - Ş.F.) vəfat etdi, abad əbəm dünyasında özünə yer tutdu.

Xacə Əfzələddin Türkə: Adı Məhəmməddir. İsfahan darüssəltənəsinin türkə qaziləri nəslindən idi. Cavanlığında əqliyyə və nəqliyyə elmlərini öyrənməyə başlayaraq böyük tərəqqiyə nail oldu və İsfanadan səadət nişanlı orduya getdi. [Orada] cənnətməkan şahın şəfqətini qazandı. O, bəzən Mir Əlaülmülk Mərəşlə birlikdə "qaziye-əsgəre-zəfərəsər" vəzifəsini icra etdi. [Həmçinin] ali orduda tədrislə də məşğul oldu. Şagirdləri [Xacə Əfzələddin Türkənin] məclisində onun mübahisə və bəyanlarından feyz alırdılar. İsmayıl Mirzənin zamanında başqa üləmalardan fərqli olaraq izzətə və ehtirama layiq görülmüşdü, vaxtının çoxunu şahın məclisində keçirirdi. İsmayıl Mirzənin vəfatından sonra İsfahana gedərək, həmişə türkə sülaləsinə mənsub olan qazilik işinə başladı. Hakimlərin və türklərin (ətrak) onunla yola getməməsi səbəbindən bu peşədən əl çəkib dərs demək və müqəddəs Rezəviyyə rövzəsində işləməklə məşğul olaraq müqəddəs Məşhəddə bu gözəl vəzifəsini yerinə yetirdi. Doqquz yüz doxsan birinci ilə müvafiq olan qoyun ilində (miladi 1583/84) İsgəndər şanlı nəvvab və aləm şahzadəsi Sultan Həmzə Mirzə Xorasan yürüşündən qayıtdıqda o, müqəddəs Məşhəddən İraqa gəlib, Rey vilayətində öz həyat səhifəsini mütaliə etməkdən qaldı və axirət dünyasına köçdü.

Əsrin yeganəsi və dünyanın vahid alimi olan Şeyx Bəhaəddin Məhəmməd*. Mərhum Əddülsəmədin sadiq övladıdır. O, (Əbdülsəməd - Ş.F.) Cəbəlamilin əzəmətli şeyxlərindən idi və bütün elmlərdə, xüsusilə fiqh, təfsir, hadisə və ərəbiyyətdə fazil və elmli adamdı. Gəncliyi şəhide-sani (ikinci şəhid) və diri adamların ən məşhuru (zobde) olan mərhum Şeyx Zeynəddinlə - Allah rəhmət eləsin - söhbətdə, hədis və rical [elminin] təshih olunmasında, ictihad müqəddimatını öyrənməkdə və biri digərindən kamal kəsb etməkdə keçdi. Cənab şeyx şiə olması səbəbindən rumilər tərəfindən şəhadətə yetdikdən sonra, Bəhaddin vətənindən [çıxıb] əcəm [diyari] tərəfə gəldi, behiştayin şahın təmtəraqlı məclislərində iştirak etmək izzətinə yetişdi və cürbəcür inayətlərə çatdı. Fəqahət və ictihadı biməklə dövrünün üləmalarından üstün oldu. O üləmalar arasında ixtilafa səbəb olan və uzun müddət icra olunmayan cümə namazının yenidən icra olunmasının şərtləri üçün böyük səy etdi, mömünlərin böyük bir hissəsi ilə bu işin yerinə yetirilməsinə başladı. Uzun müddət Xorasan naibliyində şeyxülislam, şəriyyat və dövlət təsəddisi vəzifələrində, ümumiyyətlə isə darüssəltnədə xidmətini yerinə yetirir, həmin ürəkaçan məkanda aydın, ifadəli (ğorra) şəriətin rəvaçı və xeyriyyə binalarının qaydaya salınması (tənsiq) üçün çalışırdı. O, dini elmlərin ifadəsi, yəqiniyyə maarifinin genişlənməsi, risalə və kitab yazmaqla məşğul olur, [bir sıra] çətinliklərin həllinə çalışırdı. Həcc beytüllahül -həramına getdikdən və insanların ən xeyirlisinin (Məhəmməd peyğəmbərin - Ş.F.), həmçinin yüksək məqamlı imanıların - onlara Allahın salamı olsun - müqəddəs məzarlarının ziyarətindən sonra orada iqamət etdi. O, vaxtını həmin yerin üləmaları ilə keçirirdi və elə orada dahəyat kitabxanəsinin büsat vərəqlərini örtüb, bəqa aləmi kitabının mütaliəsinə başladı. Cahanı öz şərafətli vücudu ilə bəzəyən onun sadiq xələfi kiçik yaşlarında öz anası ilə birlikdə əcəm vilayətinə gəlib, ciddi-cəhd ilə atasının irsinin toplanması, elm və bilik öyrənməklə məşğul oldu. O, atasının təfsir, hədis, ərəbiyyət, fiqh və bunlar kimi başqa əsərlərinin mütaliəsi və ona irsən keçmiş qabiliyyət sayəsində kamal mərtəbəsinə yüksəldi, Mövlana Abdulla Müdərris Yəzdi ilə olan söhbətlərindən hikmət və başqa məqul elmləri öyrəndi. Riyaziyyatı Molla Əli Müzəhhibdən və feyzli sərkar Mövlana Əfzəl Qayini Müdərrisdən və başqa riyaziyyatçılardan mənimsədi. Tibb və hüquqşünaslıq elmlərini isə o, zəmanəsinin Boqratı adlanan Həkim İmadəddin Mahmud

vasitəsilə ki, bu barədə "Ətobba" ("Təbiblər") bəhsində yazılacaqdır, öyrənmiş və [buna görə də] ondan tam bəhrələnə bilmişdi. Az zaman içində o cənab məqul və mənqul elmlərdə bərk tərəqqi etdi və hər fənn üzrə əsrin fəzilət sahiblərindən üstün oldu, yazdığı əsərlər etibarlı (zi etibar) üləmaların diqqətini cəlb etdi. Onun Qurani-məcidin təfsirinə həsr etdiyi "Ürvətül-vəsəqa", [həmçinin] səhiyyə, hüsn, müvəssəq (?) və hər bir hədisin şərhinə aid "Həblül-mətin", [həmçinin] "Məşriqüş-şəmseyn", ehkam ayələrinin və səhiyyənin təfsiri, "Haşiyeye-təfsire-Qazi", "Haşiyeyi-qəvaede-şəhidi", "Kitabe-hədayeqül-salehin", "Dər şərhe-səhifeye-kamele", "Ketabe-eynül-həyat fi təfsirül-ayat", "Ketabe-çehel hədis", "Şərhüş-şərhe Çəhmini dər heyət", "Haşiyeye-şərhe-moxtəsəre-osul və haşiyeye motul", "Risaleye-təsrihül-oflak dər hey'ət", "Risaleye-xülasətül-hesab", "Risaleye-səhife dər üstürlab və əsnaəşəriyyat", "Ərbəeye - təharət və sovm-o səlavat və Həcc", "Ketabe zübdətül-üsul" və "Miftahül-fəllah dər təvafuqe-mərayez və sonən" və bu səhifənin təhrir olunduğu hicri tarixlə min iyirmi beşinci (miladi 1616/17) ilə bərabər olan tarixə qədər bitirdiyi, bir neçə başqa risalə və kitabı vardır. Onun ali əmrlə yazmağa başladığı amma hələlik tamamlanmamış "Cameyi-Abbasi" kitabı əsasən dini elmlər barəsindədir ki, əcəm xalqı ondan bəhrələnəcəkdir. Xülasə, o cənab Şeyx Əli Mənşarın vəfatından sonra şeyxülislamlıq mənsəbinin sahibi, hələliyyət vəkaləti, İsfahan darüssəltənəsinin şəriyyat təsəddisi kimi işlərdə çalışıb bir neçə müddət fəaliyyət göstərdi. Nəhayət, Həcc beytüllahi-həramına ziyarət etmək həvəsinə düşərək, çalışdığı vəzifələrdən ayrılıb həmin xeyirli səfərə yollandı. O, bu səadətə nail olduqdan sonra fəqirlik və dərvişliklə həyat keçirməyə başladı, dərviş libası geyib səfərə çıxdı. Uzun müddət İraq-Ərəbdə, Şamda, Misirdə, Hicazda və Beytül-müqəddəsdə yaşadı. Səyahət etdiyi vaxtlarda bir çox sufi üləmaları və rəhbərlərinin, əhlüllah silkinə mənsub adamların həmçinin guşənişinlərin fikirlərini öyrənib, onların feyzbəxş söhbətlərindən bəhrəmənd oldu. Onların maddi və mənəvi bütün kamilliklərinə (camce-kəmalat) yiyələnə bildi. O, hal-hazırda zahiri və batini elmlərdə dövrünün ən bilikli alimi kimi, üləma və fazil adamlar arasında ali rütbəyə malikdir. Əlahəzrət şah da o səadət nişanlı vaxtdan etibarən dövranın yeganəsi olan o şəxsə (Şeyx Bəhaəddin Məhəmmədin oğluna - Ş.F.) ehtiram edir və o, həmişə şahın məiyyətindədir. Səfərlərin əksəriyyətinə şah onu özü ilə aparır, onun

feyzbəxş söhbətlərindən sevinir. Baxmayaraq ki, şer və şairlik o cənabın ali mərtəbələrindən aşağıda durur, amma böyük söz demək zövqünə malik adamdır. O cənabın ərəb və fars dillərində gözəl şerləri, rəngin mənalı sözləri, şirin kəlamları dillər əzbəridir. Xüsusilə Rum mollası (Mövlana Cəlaləddin Rumi - Ş.F.) üslubunda "Ğorər və dorər" adlı məsnəvilər nəzmə çəkmişdir ki, bu beyt o cümlədəndir:

Beyt

Din yolunda can əgər lərzan olur,
Ol zaman fəqrü fəna asan olur.
Dərd asandır mətləb-olsa gər uca,
Köç tozu-qurdun gözündə tutuya.[212]

Onun rəngarəng kəlam, bəlağətli ibarə, məlahətli şerlər, hər fənn üzrə bəhslər, hər cür lətif hekayətlərindən ibarət "kəşkül" adlı yeddi cilddən ibarət məcmuə tərtib olunmuşdur. Xülasə, o elə dalğalı bəhrdir ki, mənfəəti hər yana çatır. Hal-hazırda əsrin yeganəsi olan o şəxsin şərafətli vücudu cahanın cənnət bağlarının bəzəyi və İran mülkünün təravətidir. Dövrün bir çox elm və fəzl öyrənməyə cəhd edən şəxsləri onun yanına gedib ondan məna öyrənirlər. Ümid edirəm ki, o təbii bir ömür yaşayacaqdır, adamlar onun fəzilət və sözlərindən bəhrələnməkdə olacaqlar.

Şeyx Lütfüllah Teysi: Müqəddəs bir mahaldandır. Şeyx İbrahim Teysinin nəticəsidir. O, əsrin mötəbər fazillərindən və fəqihlərindən olmuşdur, Cəbəlamilin şərafətli Teys [adlı] yerində doğulmuşdur. Gəncliyinin əvvəllərində səkkizinci imamın - ona salam və səna (dua) olsun – ziyarətinə getmiş, uzun müddət həmin mələklər yuvasında dövr elmlərini öyrənmişdir. Fiqh elmi* xüsusunda Mövlana Abdullah Şüştəri və müqəddəs Məşhədin başqa üləmalarından mükəmməl bəhrələnmiş və "feyzli sərkar müdərrisləri" zümrəsinə daxil olmuşdur. Əlahəzrət zilləllah şahın vaxtında tədrisdən əlavə ona uca xadimlik** mənsəbi də verildi və

[212] Beytin farscası:
"Səhl başəd dər rəhe-fəqr-o fəna
Gər rəsəd tən-ra təəb, can ra əna.
Dərd rahat dan ço şod mətləb bozorg,
Gərde-gəlle tutiyaye çeşme-gorg.

Şeyx Lütfulla mübarək rövzənin sərkan oldu. Özbəklərin yürüşü (fetrət) vaxtı o tayfanın bəlasından qurtulub ali dərgaha gəlidi və bir müddət Qəzvində dərs deməklə məşğul oldu, sonra ali əmrə əməl edib İsfahan darüssəltənəsinə gəldi, oradakı mübarək Nəqşi-cahan dövlətxanası qarşısında inşa olunmuş məsciddə yaşadı. O, hazırda əhaliyə imamət*** etməklə yanaşı, fiqh, hədis, taət və ibadətdən dərs deməkdədir və indi, sərkare xasseye-sərifənin vəqflərinə baxır. Namaz iqaməsi zamanı*** xeyli adam ona fərizə***** etməyi özlərinə vacib bilməkdədir.

Şeyx Həsən Davud Xadim Astrabadi: - Müqəddəs və münəvvər [Məşhəd] rövzəsinin uca məqamlı xadimlər (xoddam) silkinə daxildir. Onun məşhur (maced) atası cənnətməkan şah dövründə hörmət-izzətli bir şəxs sayılır, behişt ayinli məclisdə həqiqət deyən (sedq bonyan) dili ilə başqa adamlardan daha çox həqiqətə söykənən moizələr edirdi, [amma] ifrat sərhədinədək mübaliğəyə varırdı. Dünyəvi meyillərdən (eğrar) uzaq olduğu üçün Cəm məqamlı həzrət cənnətməkan şah onun nəsihətlərini qəbul edir və razılaşardı. Məşhur atası olduqca ibadətkar (mottəqi) və pəhrizkar idi. Özbək yürüşü zamanı sağ-salamat İraqa gələrək bir neçə il ali hümayun şahın itltifat kölgəsi altında gün keçirdi, əksər səfərlərdə müqəddəs məiyyətin mülazimi oldu. Özbəklərin dəfi və Xorasanın fəthi vaxtı şahanə diqqətlərə yetişib ərş məqamlı müqəddəs rövzənin başqa xadimləri üzərində sərkeşik* oldu. Hümayun şahın naibi (niyabət) kimi xadimbaşılıq (xadimbaşigəri) mənsəbinə layiq görüldü, mübarək zərihin** kilidi də ona verildi. O, gecə-gündüz başqa şahneyibi sifətilə keşikbaşıların keşiyini çəkirdi. Bu lətif səhifənin yazıldığı dövrdə o, müqəddəs astanada rahətliklə ömr sürməkdəydi.

Şeyx Fəzlullah Ərəb – Müqəddəs Məşhədin xeyirxah (soləha) və ibadətkar (etteqa) fəqihlərindən idi, feyzli sərkarın yanında işləyirdi. İbadətkar və pəhrizkarlıqda özünü hamıdan üstün sayırdı. Müqəddəs Məşhədin came məscidində imamət və pişnamazlıq etdiyi üçün çoxlu adam onun etdiyi hərəkətləri təqlid edirdi (eqteda). O, həqiqətən də buna layiq idi. Özbəklərin yürüşü zamanı başqa xeyirxah və ibadətkar adamlarla birlikdə şəhadət dərəcəsinə yetişdi. [Şeyx Fəzrullah Ərəb] cənnət bargahlı şahın vəfatı vaxtı pişnamaz idi.

Əgər, hadisələri yazmaqda olan qələm o təbəqədən olan məşhur adamların [hamısının] adlarını yazmağa başlarsa, sözün

uzanmasına səbəb olar, buna görə də bu bir neçə əziz adamın zikri ilə kifayətləndik.

Mövlana Məhəmməd Əli Təbrizi - Mövlana İnayətullahın oğludur. Nəfsitox, fəzilətli, pəhrizkar, olduqca xoşrəftar (xəliq) və pakizə adamdı. Həzrət cənnətməkan şahın dövründə atası Molla İnayət uzun müddət Təbriz darülsəltənəsinin şeyxülislamı və sərkare-xasseye-şərifənin həlaliyyat vəkili idi. Məşhur atasının vəfatından sonra, bir çox dərəcələrə yetişdi. Təbrizə yürüş zamanı İraqa gedib Rey vilayətində qaldı, elə o diyarda da axirət səfərinə yollandı, üqba aləminə getdi. Allah rəhmət eləsin!

XALQ ARASINDA TACİKİYYƏ KİMİ MƏŞHUR OLAN VƏZİRLƏR, MUSTOVFİLƏR, QƏLƏM ƏHLİ VƏ BAŞQA ŞÖHRƏT SAHİBLƏRİNİN ZİKRİ

Cənnətməkan həzrət şahın vəfatı zamanı qələm əhlindən bircə nəfər də ali divan vəzarətinə mənsub deyildi. Bizə məlum olan sabiq əzəmətli vəzirlər cənnətməkan şah dövründə on iki nəfər olmuşlar. Cülus zamanı (I Şah İsmayılın taxta əyləşdiyi 1501-ci il nəzərdə tutulur - Ş.F.) ali divan vəzarətində Xacə Cəlaləddin Məhəmməd Keçəçi oturmuşdu ki, o, Mirzə Şah Hüseynin qətlindən sonra - Süleyman şanlı xaqan əbülbəqa Şah İsmayılın - Allah onun qəbrini nurla doldursun - hakimiyyətinin əvvəlində vəzir oldu. O, vəzarəti Mirzə Şah Hüseynlə birgə idarə edirdi. Deyilənə görə bir gün Cəlaləddin Məhəmməd Keçəçi cənab mirzə [Şah Hüseynin] həyatdan köçdüyü, [özününsə şəriksiz vəzir olduğu vaxt] bu rübaini demişdir:

Rübai

Ey ki, gözümə ziya olan bir əyyam,
Getdin və günüm qaraldı, oldu axşam.
Sanki ikimiz iki şam idik birgə,
Söndürdü dövr səni, mən isə yanıram[213]

[213] Rübainin farscası:
"Ey nuri do dideye-cəhanəfruzəm,
Rəfti to-vo çon şəbe-siyəh şod ruzəm.
Guya mən-o to do şəm budim bahəm,
K-əyyam to ra bekoşt-o, mən misuzəm".

Bu beytin məzmunu o xacənin vəziyyətini təsdiq edir:

Fərd

Bəs qədər qiylü qal ondan göründü,
Ulduzu sönən tək qalı da söndü.[214]

Süleyman şanlı xaqanın vəfatı və hümayun cənnətməkan şahın cülusundan sonra Xacə Cəlaləddin Məhəmməd Keçəçi o həzrətin (Şah Təhmasibin - Ş.F.) əmriylə vəzarət rütbəsi ilə şərəfləndi. Vəzirlik dövründən heç bircə il keçməmişdi ki, iqtidar sahibli vəkil Div Sultan Rumlu onunla yola getmədi, aralarında dava-dalaş tozu yüksəldi, onun tutulub yandırılması haqda fərman verildi. Xacəni kətana (buriya) büküb yandırdıqları vaxt öz halına münasib bu beyti dedi:

Bəla küncündə əyləşdim və əndamım alovlandı,
Kim əyləşsə bəla küncündə əyləşsin gərək böylə[215]

Qazi Cahan Seyfi - Mirzə Şah Hüseynin vəziri idi, ali şah divanının vəziri oldu. Təkəli və ustaclı savaşında fitnədən uzaqlaşmaq niyyəti ilə Gilana getdi. Onun Gilana gəlişindən sonra Cuhə Sultanın[216] vəziri olan Mir Cəfər Saveci Cuhə Sultanın iqtidarda olmasına görə divan vəziri oldu, amma vəzirlik dövrü çox çəkmədi. O da, əmirlər arasındakı düşmənçiliyin qurbanı olub qətlə yetirildi.

Əhməd bəy Nurkəmal - İsfahanın "Nurkəmaliyyə" böyüklərindəndi. Ali divan vəziri olmaq ucalığına yetişdi və altı il müstəqil vəzir oldu. Ondan sonra yenə də bu vəzifə Qazi Cahana verildi, çünki Qazi Cahan bu dövlət yolunda Biyəpəs [hakimi] Müzəffər Sultandan ayrılıb yenidən şahın yanına gəlmiş, qabiliyyət

[214] Fərdin farscası:
Bəsa qali ke əz baziçe bərxast,
Ço əxtər migozəşt an qal şod rast.
[215] Beytin farscası:
Gereftəm xane dər kuye-bəla dər mən gereft aləş,
Kəsi k-y xane dər kuye-bəla girəd çenin girəd.
[216] "Əhsənüt-təvarix"də bu ad "Çuhə Sultan" kimi yazılmışdır - Ş.F.

və istedadının çoxluğundan, həmçinin o həzrətin (Şah Təhmasibin - Ş.F) xüsusi şəfəqqətindən Mir İnayətullah ilə şərikli vəzir olmuşdu. Mir İnayətullahın bəzi nalayiq əməlləri, xüsusən onun ali məclisin "pişxidmətçilər* zümzəsi"ndən və şahın himayəsi altında olan Baslıq bəyin oğlu ilə eşqbazlığı şahın xoşuna gəlmədiyi üçün ittihamlandırıldı və qəzəbə düçar oldu. Buna görə də, onu və barəsində "Gilan hadisələri" bölməsində yazdığımız dövlətə müxalif Müzəffər Sultanı dəmir bir qəfəsə qoyaraq, Təbrizin Sahibabadındakı "Həsən padşah məscidi"nin iki minarəsindən asıb yandırdılar. Zarafatcıl adamların biri bu hadisənin [maddeyi-]tarixi barədə belə yazmışdır:

Xacə İnayət ki, edib lovğalıq
Söylər idi aqil adamdır dəqiq,
Etdi pis iş, oldu işindən kənar,
Söylədim: — Ey qüssəyə munis rəfiq,
Sən kimin eşqiylə yanırsan belə?
Söylədi: — "Z-eşqe —pesəre-Basliq ".[217]

Əhməd bəy Nurkəmalın vaqiəsindən sonra Qazi Cahan təkcə özü müstəqil vəzir oldu və on beş il əzəmət və iqtidarla vəzarət işlərini apardı. Vəzifəsinin son illərində həmişə yerinə yetirdiyi və şaha ərz etdiyi divan işlərində etinasızlıq edirdi, həzrət şah isə hər işin vaxtlı-vaxtında yerinə yetirilməsini özü yoxlayırdı. [Buna baxmayaraq] Qazi Cahan son illərdə vaxtını boş keçirir, onun işlərində ləngimələr baş verir, cənab qazinin əməl və hərəkətlərində meylsizlik halı müşahidə olunurdu. O, yaşının çoxluğunu və qocalığını (şeyxuxiyyət) bəhanə gətirib vəzifəsindən istefa etdi. Həzrət şah da razılaşıb, onu vəzarətdən kənarlaşdırdı. Qazi Cahan doqquz yüz altmışıncı ildə (miladi 1553/54) Allahın rəhmətinə yollandı.

[217] Qitənin farscası:
Xacə İnayət ke, həmizəd modam
Lafi-xerədməndi-yo fekre-dəqiq,
Bədəməli kərd ze mənsəb fotad,
Goftəməş ey ba ğəm-o möhnət rəfiq,
Əz ğəme-eşqe-ke-vo tarix çist?
Goft: "Ze-eşqe-pesəre-Basliq".

Fərd

Əgər "ahad"ı[218] çıxsan "Qazi Cahan" adından,
Vəfatı tarixini tapa bilərsən o an.

O cənabın ləyaqətli (həmide) vəsfi dillər əzbəri idi. Həqiqətən bu əzəmətli dövlətdə əyninə onun kimi qabiliyyət, istedad, fəzilət və kəmalət libası geyən başqa vəzir görünməyib. Qazi Cahanın şöhrət və böyüklüyunü sözlə ifadə etmək mümkün deyildi. Şanının, əzəmətinin və cah-cəlalının yüksəlişinə (etela) baxmayaraq, əhali ilə təvazökar davranır, (heç vaxt) gözəl davranış və sadəliyini tərk etməzdi. Müxtəlif elmlər üzrə mütəxəssis olan üləmalar arasındakı mübahisələrə qoşular və onlar onun fikrini mötəbər bilərdilər. İnşada və səlis danışıqda qüsuru yoxdu, yazdıqları siyaq və hesabı bilənlər tərəfindən bəyənilərdi. Hüsnxətdə kamal dərəcəsinə çatmışdı. Ondan sonra vəzarət vəzifəsi dörd nəfər qələm sahibinə çatdı.

Xacə Qiyasəddin Əli - O, "Qiyasgövhər" və "Məmduhi-Şərif Təbrizi" kimi də məşhur idi. Yaxşı mühasibdi, bəzi vaxtlarda müstovfil-məmalik də oldu.

Ağa Məhəmməd Fərahani - Fərahan vilayətinin əyanlarındandır.

Xacə Əmir bəy - "Əmir bəy Möhrdar" kimi məşhur idi. Mir Zəkəriyya Keçəçinin qohumlarındandı. Qabiliyyətli və fəzilətli adamdı. Yüksəlişinin başlanğıcında Qazi xan Təkəli Möhrdarın vəziri idi, bəzi vaxtlarda Xorasan vəziri də olmuşdu. Cefr[219] (?), ədad[220] (ədədlər-yəqin ki, riyaziyyat elmidir (Ş.F.) və neyrəncat[221] elmlərində çox mahir idi. Günəşin qarşısının tutulmasını bacaracağı əməli ilə taxsırlandırılaraq, qəzəbə gəlib bir müddət Ələmut qalasında məhbus oldu. İsmayıl Mirzənin hakimiyyəti zamanın

[218] Qeyd: Ahad - əhəd (bir) sözünün cəmidir. Bu maddeyi-tarixdə deyilir ki, sən əgər "Qazi Cəhan" sözündən iki ədəd 1 rəqəmini çıxsan (yəni 11 rəqəmini - Ş.F.) Qazi Cahanın maddeyi-tarixini alarsan.

[219] Cefr - qədim adamların elmidir. Cefr elmi əsasında gələcəkdə baş verəcək hadisələrdən xəbər verirdilər (Bax: Həsən Ənvəri. Fərhənge-bozorge-soxən, c. 5, s. 2153).

[220] Ədad - lüğətlərdə müstəqim mənasını tapa bilmədim. Güman ki ədadlar (bəlkə də riyaziyyat) elmidir - Ş.F.

[221] Neyrəncat - sehr elmi (Bax. M.Moin. Göst. Lüğət c.IV, səh-4881).

həbsdən nicat tapıb öz həyat xəzinəsini ruhlar qəbzini yazana (qabez) tapşırdı.

Mirzə bəy Əbhəri - Əbhərin qədim adamlar silsiləsindən idi. Yüksəlişinin əvvəlində Sevindik bəy Qorçibaşinin vəziriydi, sonra bir müddət divan vəziri (vəzirdivan) oldu. Bir neçə vaxt isə vəzarət vəzifəsini bu əziz adam icra etdi.

Məsum bəy Səfəvi - Yuxarıda danışanların dövlət büsatı başı çatdıqda, əmirdivan olan Məsum bəy Səfəvi yüksək vəzarət vəzifəsi ilə şərəfləndi, əyalət və qoşun sahibi oldu. O, bir neçə il dövlət işlərinə qurşanıb şahın inayət nəzərinə yetişdi. Həzrət cənnətməkan şah o cənaba "əmioğlu", yəni əmizadə deyə xitab edirdi. Cəm məqamlı həzrət şah ilə rum məmləkətlərinin hökmdarı Sultan Səlim ibn Sultan Murad arasında sülh sazişi qüvvəyə minən vaxt hacıların əcəm diyarından beytullaha gediş-gəlişləri çoxaldı. Məsum bəy Səfəvi də bu ali mətləbinə çatmaq niyyəti ilə hər iki padşahdan izn alaraq, əsrin fəzilətli adamları zümrəsindən olan oğlu Xanmirzə ilə yola düşdü, amma rumilər ona zülm etdilər. Məsum bəyi tanıyan rumilər bir gecə çöl ərəbi libası geyinib, onu, oğlunu və yoldaşlarından bir neçəsini Həcc karvanında şəhadət dərəcəsinə çatdırdılar və bu alçaq əməlin [guya] ərəb quldurları tərəfindən edildiyini bildirdilər. Məsum bəy beytullaha yollandığı vaxt onun vəziri Əmir Siracəddin Əli Qumi vəzarət vəzifəsini icra edirdi, amma Məsum bəyin başına gələn qəziyyədən sonra vəzarət kürsüsü müstəqil vəzirsiz qaldı. Ömürlərinin sonunda Mir Seyid Hüseyn Fərahani və Xacə Cəmaləddin Əli bu ali vəzifəni tutmaqla sərəfraz oldular və bir il işlədilər. Amma, onların işləri şahın xoşuna gəlmədiyindən o, hər ikisini həmin ali mənsəbdən çıxardı və həmin vəzifə bir daha heç kəsə verilmədi.

ƏZƏMƏTLİ MÜSTOVFİLƏR VƏ DƏFTƏRXANA İŞÇİLƏRİ

Cənnətməkan şahın dövründə məlum və məşhur olan ali divanın əzəmətli müstovfiləri on nəfər, həmçinin yeddi nəfər müstovfiülməmalik və iki nəfər bəqaya[222] müstovfisi olmuşlar.

Birinci - Mir Məsud Cərbadqani, başqaları isə Xacə Hüseyn Saruni, Qiyas Kəhreyi-Şirazi kimi məşhur olan Xacə Qiyasəddin Əli, Xacə Qasım Nətənzi və Xacə Məlik İsfahani, Mir Qiyasəddin Mahmud Şəhristani İsfahani və İsfahani kimi məşhur olan Mirzə Şükrullahdır. Bu yeddi nəfər müstovfiül-məmalik olmuşlar. Onların hamısı şan-şöhrətli, böyük, iqtidarlı olub uzun müddət işlədiklərindən xalq arasında nəfslərinin toxluğu, düzgünlükləri, xeyrxahlıqlan və doğruluqlarına görə məşhurdurlar. Nətənz vilayətinin əyanlarından olan Xacə Qasım Nətənzi hesabdanlıq qanunları və siyaq elmində mahir olmasına görə başqalarından seçilirdi və şahanə qayğı və şəfqətə layiq görülmüşdü. Behişt ayinli məclisdə həmişə əhalinin ehtiyaclarının təmininə, müsəlmanların maddi vəziyyətlərinin yaxşılaşdırılmasına (tərfiyeyi-hal), vəlinemətdən ötrü dualar söylənilməsinə çalışır, heç kəsdən çəkinmədən dilinə xeyirxah kəlmələr gətirirdi. Dünyəvi qərəzkarlıqdan uzaq adam olduğuna və xeyirxahlığına görə dedikləri qəbul olunur, söylədikləri [şahın] mübarək xatirinə xoş gəlirdi. Həqiqətən də səadətmənd [şəxs idi], xeyirxahdı, xeyrat büqələrinin banisi idi. [Xacə Qasıma] diqqətin çoxluğu səbəbindən, onun övladları da atalarının vəfatından sonra şah tərbiyətinə və şəfəqqətinə layiq görülərək yüksək vəzifələrə yetişməklə sərəfraz oldular. Ondan sonra yuxarıda adı çəkilən Mir Qiyasəddin Mahmud müstovfiül-məmalik oldu, amma az vaxt içərisində vəzifəsindən çıxarıldı. Bəzi vaxtlarda mustovfi vəzifəsi hümayun dəftərxananın əvaricə yazanları (əvazecenevis)* arasında bölündü. O, dərvişlikdən, nəfs toxluğundan və pəhrizkarlıqdan xali adam deyildi. Bu dəfə üç il həmin vəzifədə işlədi. Cənnətməkan şahın vəfatından əvvəl işdən kənarlaşdırıldı və onun yerinə Mirzə Şükrullah təyin olundu. O, Xacə Həbibullah İsfahaninin oğludur. Nəfsi tox, təmkinli, vüqarlı, xoşxətt və xoşxasiyyət bir adamdır. Neçə ildən bir ali divanın başqa işlərində də çalışırdı. Bir neçə il isə, ali divanda vəzifə tutmadığına

[222] Bəqaya - qalıq, vergi, ödənilməyən maliyyal mənalarını özündə ehtiva edir (Bax. M.Moin. Göst. c.I, səh. 555).

baxmayaraq şahın məclislərində yenə də iştirak edirdi və "məclis üzvləri" (məclisiyan) zümrəsinə və divannevislər (divan katibləri - Ş.F.) dəstəsinə mənsub idi. Mir Qiyasəddin Mahmud Şəhristanı, yuxarıda yazıldığı kimi, işdən çıxarılarkən onu Mirzə Şükrüllah əvəz etdi. O cənnətməkan şahın vəfatınadək həmin vəzifəni müstəqil apardı. İsgəndər şanlı nəvvabın (Şah Məhəmməd Xudəbəndinin - Ş.F) zamanında Xorasanın vəziri, müfəttişi və sərkarın mütəvəllisi (tovliyyət) vəzifələrinə təyin olunub həmin vilayətə getdi. Amma get-gedə onda təkəbbürlük və özündən razılıq müşahidə olunmağa başladı, onunla Xorasan bəylərbəyləri arasında münasibət pisləşdi. Orada işi keçmədi və Damğana getdi, oradan da baqi cahanın fəna evinə yollandı.

Bəqaya müstovfillərinin birincisi Mir Hidayətullah Məmuri İsfahanın "məmuri seyidləri" nəslindəndir, bəğaya müstovfisi oldu, azacıq sonra öldü, yerinə qardaşı Mir Məhəmməd Məmuri keçdi. Mühasibatı, siyaq elmini yaxşı bilirdi və on ilədək vəzifəsində çalışdı. Amma onun xidməti şahın xoşuna gəlmədi və vəzifədən çıxarıldı.

Mirşah Qazi İsfahani: İsfahan seyidlərindəndi. Onun nəsli "əlaqəbənd seyidləri"** kimi məşhurdur. Bəqaya mustovfisi oldu. Mühasib və işbilən bir yazıçı (nevisənde) idi. Cənnətməkan şah zamanı mühasib və başqa divan işlərində çalışdı. İşinin öhdəsindən gələ bildi və həzrət şahın vəfatınadək həmin vəzifədə qaldı. Mirzə Şükrullahın vəzir və etimadüddövlə olduğu İsmayıl Mirzə dövründə onu müstovfiül məmalik etdilər. İsgəndər şanlı nəvvabın zamanında da həmin vəzifədə qalmaqdaydı. Mirzə Salman vəzir olan vaxt ona qarşı münasibəti yaxşı olmadı və vəzirin təhriki ilə vəzifəsindən çıxarıldı və onun yerinə Heratda İsgəndər şanlı nəvvaba etdiyi köhnə xidməti müqabilində Xacə Məhəmməd Bağır Herəvi keçdi. Mirşah Qazi özünün əsl vətəninə getmək fikrində oldu, oradan da Beytüllahül-hərama, Həcc ziyarətinə getdi, amma, həmin xeyirli səfərdə fani cahanı tərk edərək bəqa aləminə yollandı.

Əmlak nazirləri* (nazirati-biyutat) - Bu haqda bu həqir müəllifdə belə məlumat vardır: Qazi İmad müstəqil nazir idi. Onunla Mehtər Camal İsfahani arasında münaqişə yarandı, divan malı xüsusunda yeyinti aşkar oldu. Buna görə də vəzifəsindən çıxarıldı və külli miqdarda pulu müsadirə olundu. Amma Mehtər Camalın özü, onun işdən çıxarılmasından sonra müsadirəyə zamin oldu və Qazi İmadı izzət və ehtiramla İsfahana yolladı. Xeyirxah adam idi. Ondan

sonra atası Xorasanın müstəqil vəziri Ağa Kəmaləddin Zeynəlibad Kirmani olan Ağa Cəmaləddin nazir mənsəbinə təyin edildi. Bir müddət sonra o da bəzi savabsız işlərdə təqsirləndirilib qəzəbə gəldi. O, cənnətməkan şahın vəfatınadək Ələmut qalasında məhbus idi. İsmayıl Mirzənin hakimiyyəti vaxtı zindandan çıxdı və İsgəndər şanlı nəvvabın zamanında onun etibarı xeyli yüksəldi. Yaşının çoxluğu, qocalığı, həbsdəki qəm-qüssəsi ona qələbə çaldı və ömür müddəti azaldı. Cənnətməkan şahın vəfatı vaxtı üç nazir vardı.

Mirzə Salman - Ağa Camalın işdən çıxarılması və həbsindən sonra əksər əmlakın naziri oldu. O, Ağa Mirzə Əli Cahiri İsfahaninin oğludur. Atası bir neçə il Fars hakimi İbrahim xan Zülqədərin vəziri olmuşdu. Mirzə Salman Şiraz şəhərində fəzilət və kamala yiyələnmiş, qabiliyyətinin çoxluğu və bacarığı sayəsində irəli çəkilmiş, ali orduya gəlmiş, Azərbaycanın vəziri Mirzə Ətaüllanın köməyi ilə bir neçə il o vilayətin işini aparmışdır. Elə onun sayəsində orduya gəlmiş, onda qabiliyyət və bacarıq göründüyü üçün, şahanə diqqətə layiq görülmüş, barəsində yuxarıda yazılan Ağa Camal Kirmanininin işdən çıxarılması və həbsindən sonra əksər əmlakın naziri olmuş, hümayun məclisə yaxın adamlar silkinə qəbul olunmuşdu. O həzrətin (Şah Təhmasibin - Ş.F.) vəfatınadək öz işində qalmaqdaydı.

İsmayıl Mirzənin hakimiyyəti vaxtı da ona çox böyük ehtiram olunmuş və buyurulmuşdu ki, vəzarətdəki əzəmətli əmirlərin heç birinə tabe olmasın. İsmayıl Mirzənin vəfatından və İsgəndər şanlı nəvvabın cülusundan sonra fərmanla vəzir və etimadüddövlə təyin olunub, əvvəlkilərdən daha artıq bu vəzifəni müstəqil idarə etdi. Mirzə Salman o ali mənsəbdə kamal dərəcəsinə çatdı. Onun sonrakı vəziyyəti haqda İsgəndər şanlı nəvvabın dövründəki hadisələrin şərhində danışılacaqdır.

Xacə Əbülqasim - Fərahan vilayəti əyanından olub, ali divan möhrdarının vəziri idi. Düzgün yazan, sözünə sadiq, düzdanışan, xoşxasiyyət və kəndçi təbiətli bir adamdı. Şahın onun davranışından xoşu gəldiyindən, möhür vəzirliyindən sərkari-xasseyi-şərifənin bəzi əmlakının naziri vəzifəsinə yüksəltdi. Həzrət cənnətməkan şahın vəfatı vaxtı həmin vəzifədə çalışırdı. İsmayıl Mirzə dövründə də bir neçə müddət vəzifəsini icra etdi. Tam etibara malik adamdı. Nəhayət vəzifəsindən əl çəkib öz vətəninə qayıtdı.

Mir Əbülfətuh - Sərkari-xasseyi-şərifənin imarətlər naziri olan Mir Fəzlullah Şəhristani İsfahaninin qardaşıdır. Onlar

Süleyman şanlı xaqanın dövründə müstovfil-məmalik olan Mir Seyid Şərif Şəhristaninin övladlarıdırlar və bu silsilə bu dövlətdə həmişə ali mənsəblərdə başıucalıqla işləmişdir. Adı çəkilən Mir Fəzlullah uzun illər İsfahan vəziri və oranın divan işlərinin bilicisi (rafeq və fateq) olmuşdur. Fəaliyyəti dövründə əmlak sahibinə çevrilmiş, vəqf mülkləri (rəqəbat)[223] artmışdı. Xülasə, adı çəkilən Mir Əbülfətuh isə bir müddət imarətlər naziri kimi düzgün çalışdı. Onun Mirzə Məhəmməd adlı bir oğlu vardı. Fazil, fəqih və fitva sahibi olan bir şəxs idi. Dünya vəzifələrinə göz dikmədi. Onun fitvaları dövr fəqihləri arasında olduqca mötəbər idi.

Əhmədi bəy ləşkərnevis - Sabiq ləşkərnevis olan Məhəmmədi bəyin qardaşıdır. Cənnətməkan şahın hakimiyyətinin ilk illərində Xaca bəy Şirazi əmirlər və əskərlər arasında olduqca izzətli, mötəbər, etibarlı və iqtidarlı bir adam idi. Belə ki, hamı onun gələcəkdə vəzir olacağını güman edirdi. Onun vəfatından sonra Azərbaycan əvaricənevist* olan Əhmədi bəyin qardaşı Məhəmmədi bəy aqil, öz rəyi və bacarığı olan bir adam kimi bu uca mənsəbdə ucaldı. O da izzətli, mötəbər, tapşırılan işləri yerinə yetirən və şahanə şəfəqqətə yetən bir şəxs idi. Belə ki, həzrət şah ona "Kəshuk (?) vəzir"[224] deyə xitab edirdi. Onun ölmündən sonra qardaşı Əhmədi bəy ləşkəmevis oldu, cənnətməkan şahın vəfatı və İsgəndər şanlı nəvvabın cülusu dövründə öz vəzifəsində qaldı. Onların nəsli əsl şirazlıdırlar (şiraziül-əsl), orada "xakiyyə" təbəqəsinə mənsub adamlar kimi tanınırlar. Amma bir müddət olar ki, Şirazdan xaric olmuşlar. Xakiyyə silsiləsindən bir neçəsi İraq, Azərbaycan və ali orduda yüksək vəzifələrdə və divan xidmətlərində çalışmışlar. Məhəmmədi bəy mahir xoşxətt, fəzilət sahibi, kamallı, istedadlı, qələm əhli idi. Əlahəzrət zilləllah şahın cülusunun əvvəllərində vəfat etdi.

Əliqulu bəy - Ərəbgirli oymağının əzəmətli qorçilər zümrəsinin vəziridir. Atası Hüseynəli bəy ağıllı adam və yaxşı xəttat idi. Xoşnevislikdə sərkarın münşisi Mövlana Bəhaəddin Hüseyni keçmişdi. Bu əbədi dövlətin zühurundan başlayaraq əzəmətli qorçilər vəzarəti nəsilbənəsil onlara məxsus olmuşdur. Nə qədər ki, sağ idi, bu rütbəsində izzət sahibiydi. Hümayun ziliəllah şahın cülusunun əvvəllərində vəfat etdi.

---

[223] Rəqəbat - "vəqf mülkü" deməkdir. (Bax: M.Moin. c. II. səh. 1666).
[224] Yəqin ki, "kiçik vəzir" yazılmalıdır - Ş.F.

Mirzə Fəthullah - əzəmətli qorçilər müstovfisinin adıdır. O da İsfahanlıdır və Xacə Malikin qohumlarındandır. Əvvəlcə qorçi müstövfisi, sonrasa müstovfiye-məmalik oldu. Mirzə Fəthullah hələ cavankən bu vəzifə ilə şərəfraz olmuş, nəvazişlə şərəflənmişdi. Ali məclis üzvləri ilə oturub-dururdu. O, qorçi vəzirinindən daha çox qorçilərin işlərinə dəxalət edirdi.

Ali dəftərxana üzvləri: Hal-hazırda zabitənevis* və mofridenevis** adlanan Mir Əbu Turab Nətənzi əmlak müstovfisdir (müstovfiyi-mal). O, Nətənzin Oluşiyə seyidlərindəndir. Xacə Qasım Müstovfinin damadı olmuşdur və hümayun dəftərxananın qələm sahibləri onu siyaq elmində "mühasiblər ustadı" kimi tanıyırdılar.

Hidayət bəy Şirazi - ali divanın vergi (tovcih) sahibi idi. O, sadiq tovcih sahibi Xacə Həbibullahın qohumlarındandır. Onların nəslindən bir çox adam bu xanədana müxtəlif xidmətlər etmiş, şahanə etimada layiq görülmüşdülər. Hidayət bəy yüksək düşüncəli, məlumatlı, nəfsitox və pəhrizkar adamdı.

Əvaricenevislərdən siyaq elmində və hesabdanlıq qanun-qaydalarında məşhur adam olan və "Xan" kimi məşhur olan Xacə Məhəmməd Əmin ibn Qasım Müstovfi Azərbaycan və Şirvanın əvariccnevisi idi.

Xacə Rəşid bəy əsl şirazlıdır və Hidayət bəyin qohumlarındandır. İraqın əvaricenevisi olmaqla şərəflənmişdi, sufi təbiətli, dərviş xislətli, pak etiqadlı, Allahtanıyan bir adamdı.

Ağa Əsəd Nətənzi - Xorasan və Kirman əvaricenevisi idi. "Şirazi" kimi məşhur olan Əsəd Suxtənin oğlu Mir Nemətullah atasının əvəzinə fars vilayətinin əvaricenevisi oldu.

Ağa Seyfülmüluk Tehrani – Təhvirdarlar ərbabının müstövfisi idi. Böyük istedadı olmasa da, amma maraqlı, xoşsöhbət, şirin danışan bir adamdı. Elə buna görə də şah məclisinə yol tapmış, "məclis adamları" zümrəsinə daxil olmuş, şahanə inayətə layiq görülmüşdü.

Məhrusə məmləkətlərinin əzəmətli vəzirləri: Onların arasında olduqca böyük, alişan və iqtidar sahibi olan iki nəfərdir. İşə başladığı vaxt möhür vəziri vəzire-möhr olan Mirzə Ətaüllah İsfahani bütün Azərbaycan və Şirvanın vəziri və müməyyizi*** olmaqla şərəfləndi.

İkinci vəzir isə ***Ağa Kəmaləddin Zeynəlibad Kirmanidir.*** Yuxarıda yazıldığı kimi o, bütün Xorasan vəziri və müməyyizi idi.

Amma cənnətməkan şah vəfat edərkən Ağa Kamal da artıq ölmüş, yaşının çoxluğu və qocalığı səbəbindən Mirzə Ətaullah də o mənsəbdən çıxarılmışdı. Hər iki vəzir ağıllı, nəfsitox, rəiyyətpərvər adamlar olmuşlar. Xorasan və Azərbaycanda onların adları indiyədək ehtiramla çəkilməkdədir. Onların insanpərvərlikləri və əməlləri hər iki vilayətdə daim yad olunur.

Cənnətməkan şahın vəfatı zamanı məmləkət vəziri olan adamlar sırasında sabiqdə tərxan vəziri (vəziri-tərxan) olmuş, sonradan Biyəpiş Gilanının vəziri vəzifəsinə təyin olunmuş Mirzə Hidayətullah ibn Xacəşah Hüseyn Sərunidir. Amma o Gilana getmədi, ali dərgahda qaldı. İsgəndər şanlı nəvvabın dövründə müstovfil-məmalik oldu. Mirzə Salmanın Heratda baş verən qətlindən sonra ki, bu haqda məlumat veriləcəkdir, ali divan vəziri və etimağüddövlə oldu, amma o, bu işə və vəzarətin ali işlərinə çox da dəxalət etmirdi. Sabiqdə Həsən həy Yüzbaşı Ustaclının vəziri olan Xacə Qasım Əli Azərbaycan vəziri olub bu vəzifədə bir neçə il işlədi. Amma o da cənnətməkan şahın vəfatına qədər ali dərgahda qalaraq, Azərbaycana getmədi. Xeyirxah, nəfsitox adamdı. Əslən təbrizli idisə də, İsfahanla da qohumluq əlaqəsi vardı.

Qardaşının yerinə Həsən bəy ibn Hüseyn bəyin vəziri olmuş Xacə İnayət Türkə o dövrün mötəbər vəzirlərindəndir. Rəiyyət adamıydı, xoş davranışı vardı.

Yəzd darülibadəsindən çıxarılıb İsfahan darülssəltənəsinin vəzirliyinə təyin olunan Xacə Məhəmməd Şərif Tehraninin Ağatlay (?) Dəvatdar Qəzvini ilə qohumluğu vardı. O da xoşxasiyyət və nəfsitox adamdı. Adını çəkdiyimiz Ağatlayın oğlu Mirzə Bədiüzzaman Kaşan darülmömininin vəziri idi. O və qardaşı nəfslərinin toxluğu və rəiyyətlə yaxşı davranışlarına görə şahanə şəfəqqətə yetişmişdilər. Onrarın başqa bir qardaşı Ağa Məhəmməd Zəman Təbriz darülsəltənəsinin bəzi işlərini aparırdı, başqa qardaşı Əhməd bəy isə Xorasanın bəzi mahallarının vəziriydi. Mir Fəzlullah Şəhristanının oğlu və "Zadeyi-Məxdum" kimi məşhur olan Mirzə Əbdülbaqi Qəzvin darüssəltənəsinin vəziri Mir Seyid Əli Rezəvi Quminin vəfatından sonra həmin mülkün vəziri təyin edilməklə şərəfraz oldu və işinə başladı. Yuxarıda yazılmışdı ki, Fəzlullah əmlak və vəqf mülkləri sahibi idi və özünün bütün əmlakını vəqf etmiş, vəqfə nəzarəti (tovliyyət) böyük oğluna vəsiyyət etmişdi, lakin adı çəkilən Mir Əbdülbaqi ağılsızlığı və bədxərcliyi üzündən o əmlakın hamısını yox etdi, özü də cənnətməkan şahın vəfatından

sonra nəticəsiz işləri, yersiz hərəkətləri, alçaq alış-verişi üzündən çox bəlalar çəkdi, pərişan oldu, təşviş içində yaşadı.

Mirzə Əhməd - O, Mirzə Nurullah Küfrani İsfahaninin oğludur və Fars əyaləti sərkari-xasseyi-şərifə vəziriydi. Həzrət cənnətməkan şahın Nurullaha və atasına xüsusi şəfəqqəti vardı. İsgəndər şanlı nəvvabın zamanında, vaxtı ilə Şirazda o həzrətə etdiyi yüksək xidmətlərə görə, baş nazir (nəzarəte koll) vəzifəsi ilə şərəfraz oldu. O, tam müstəqil nazir idi.

Herat darüssəltənəsinin bəzi xasseyi-şərifə mahallarının vəziri olan Mir Seyid Hüseyn Xətib Qayini həmin mülkdə olduqca etibarlı adamdı. Əhməd bəy Əfşar Qorçibaşının vəziri Mirzə Məhəmməd Kirmani Ərdəbil darülirşadının vəziri vəzifəsində işləyirdi.

Biz məşhur böyük vəzirlərin bir neçəsi barədə məlumat verdiyimiz üçün başqa xırda vəzirlər barədə danışmamaqla kifayətləndik, çünki qələmin dili onlar barədə susmağı üstün tutdu.

Taciklərdən olan, əmirlərə təyin edilən və çıxarılan başqa vəzirlər də şaha xidmətlərində şərafətli və izzətli adamlar olmuşlar. Əmir Qeyb Sultanın vəziri Xacə Hidayətullah tacikiyyə arasında hörmət və ehtiramla yaşamaqdaydı. Abdullah xan Ustaclının vəziri Xacə Ziyaəddin Səlmani İsfahani onun vəfatından sonra ali orduya gələrək "məclis əhli" zümrəsinə daxil oldu. Başqa biri "Axsaq Müşrif [ləqəbi] ilə məşhurlaşan Xacə Həsən Naxçıvanidir. onun heç bir mənsəbi olmamasına baxmayaraq "məclis üzvləri" zümrəsindən idi. Heydər Sultan Tərxan Türkmanın vəziri Xacə Şahmənsur Fərahaninin hümayun məclisə getmək icazəsi vardı. Masum bəyin vəziri Mir Siracəddin Əli Qumi, onun yuxarıda yazılan şəhadət vaqiəsindən sonra divanın müxtəlif vazifələrində işləyirdisə də, amma, əvvəlki qayda ilə şaha mülazimlik də edirdi.

Əmlak müşrifləri:* Onların bir neçəsi izzət və etibar sahibi idilər.

Mirzə Babayi Şirazi - əmirlər xəzinəsinin müşrifi olmuşdu və şahın xidmətində izzətli, mötəbər və şahanə etimad qazanmış adamdı.

Mirzə Qasım Şirazi – Tövlə müşrifi idi. Çox vaxt tövlə və at meydanında olmaqla şərəfraz olmuşdu. Mirzə Məhəmməd Pişkeş Mirzə Babayi Pişkeşin qohumuydu, izzətli və mötəbər peşkəşnevis** idi. Sabiqdə xəzinə müşrifi olan Mir Şahmirin qardaşı Mir Seyid Seyfi şotorxan (dəvəyə baxan) vəzifəsində

çalışırdı. Onlardan başqa da bir neçə nəfər müşrif vardı ki, biz bu bir neçə nəfər haqda məlumatla kifayətləndik.

Ali dərgahda tacikiyyədən daha bir neçə əyan və böyük adam olmuşdur. Onların bəzisi şaha xidmət yoluna düşdüsə də, elə də mühüm işlərə sahib olmadılar, lakin behişt ayinli məclisdə (behiştayin - Ş.F.) iştirak edə bilirdilər. Xüsusən Qum darülmömininin musəvi seyidlərindən olan Mir Haşim Qumi ki, şirin sözlü və zarafatcıl adamdı. Əmlak və sərvət sahibi olmuşdu. O, şahın qulluğunda qeyrilərindən çox danışır, mətləb və ehtiyacı olanların sözlərini şaha çatdırır, hərdənbir də ali divan vəzarətinə baş çəkirdi. Amma, bu rütbədə çərəfraz ola bilmədi. Cənnətməkan şah həmişə onunla zarafatlaşırdı. Mir Haşim Qumi çox vaxt şah tərəfindən cəzalandırılırdı. Cənnətməkan şahın vəfatınadək izzətli və hörmətli oldu, xahişlərində həddi aşmırdı. Tacikiyyə təbəqəsinin başqa rəiyyət və oyanından biri də Xacə Əbdülrəşidin oğlu Xacə Əbdidqadir Kirmani idi. Məmləkətlərin böyükləri və əyanlarından əmlakının çoxluğuna görə üstün idi. O, Kirman darülamanından ali saraya gəlmiş və behiştayin şahın məclis adamlarından olmuşdu. Hərdənbir də ali divan vəzarətinə gedib-gəlirdi. Amma, o da Mir Haşim kimi izzət və etibarına baxmayaraq, ona müraciət edən adamların əlindən rahat gün keçirə bilmirdi. Özünə on iki min tümən peşkəşlə kifayətlənmişdi ki, Kirmana gedib o vilayətdə əkinçilik və məskən salmaqla gün keçirə bilsin. Amma onun bu işi qəbul olunmadı. Cənnətməkan şahın vəfatına qədər ali orduda qaldı. İsgəndər şanlı nəvvabın hakimiyyəti vaxtı rüxsət alıb öz vətəninə getdi. Amma, orada özbaşınalıq bayrağını göyə qaldıran Bəktaş xan Əfşarın xoşagəlməz rəftarına görə qala bilməyib ətəbati-aliyyata [İmamların məzarlarının ziyarətinə] getdi, uzun illər Bağdad darüssalamında və o ətraflarda yaşadı, etibarsızlıq qorxusundan vətəninə qayıtmağı arzulamadı və ömrü o vilayətdə başa çatdı.

Ali dərgahda və behiştnişan məclisdə aparılan söhbətlərdə iştirak etmək səlahiyyətinə malik bir çox kələntər, ərbab və başqa adamlar da işləyirdibr ki, onların təfsilatını vermək çox vaxt alar. Münşilərdən Məhəmmədi bəy Təbrizi Kecəci Münsi əl-məmalik qədimdən bəri xidmətləri olan Mir Zəkəriyyanın qohumlarından idi, vəfat etdi. Ondan sonrasa məmləkətlər münşisi vəzifəsi kimsəyə verilmədi. Xacə Əli bəy Sorx Kirmaninin oğlu Mirzə Məhəmməd yuxarıda adı çəkilən Məhəmmədi bəylə qohumdu. Qazi Abdullah Cüveyni və Xacə Əlaəddin Mənsur Kərəhrudi — bunların hər ikisi

məmləkətlər münşisi kimi "məclis əhli" zümrəsindəndir. Mirzə Məhəmməd İsmayıl Mirzənin hakimiyyəti zamanı münşi əl-məmalik olub, izzət və hörmət qazandı. O, İsgəndər şanlı nəvvabın vaxtında, Mirzə Salmanın qətlindən sonra müstovfil-məmalik, Əbu Taleb Mirzə zamanındasa vəzarət vəzifəsinədək ucaldı. Onun vəziyyəti barədə əlahəzrət zilləllah şahın hakimiyyətinin təsviri zamanı məlumat veriləcəkdir. Onların hər üçü qabiliyyət, istedad əhli idilər və "xoşnevislər" zümrəsinə mənsubdular. Amma Qazi Abdullah inşa fənnində başqalarından üstün idi. İsa nəfəsli (məsihiyyətül-ənfas) həkimlərin zikri - Bu fəzilətli təbəqə üzvləri İran məmləkətlərində çoxsaylı idilər ki, onların şahın mülazimətində çalışan bəziləri haqqında məlumat veririk:

Həkim Qiyasəddin Əli Kaşi - Sözünə sadiq, düz danışan, sadəlövh adamdı. Müalicə elmlərini öyrənməyə cəhd etdi və tibb elmində kamal mərtəbəsinə yetişdi. Onun vəfatından sonra qardaşı Həkim Nurəddin şahın xidmətində oldu və həkimlər silkinə daxil edildi. Xəstəliklərin müalicəsində əli yüngüldü. Onun dediyi söz həkimlər arasında qanun idi. Cənnətməkan şahın xidmətində sədaqətinə və doğruluğuna görə ən etibarlı həkimdi.

Həkim Kəmaləddin Hüseyn Şirazi - Fəzilətli, bilikli və xoşəxlaq həkim idi. İş fəaliyyətinin başlanğıcında Şah Nemətullah Yəzdinin həkimiydi və onun xidmətində durmuşdu. Onun vəfatından sonra "ali dərgah həkimləri" silkinə daxil oldu. Bacarığının çoxluğundan, əsasən, əlindən xəta çıxmazdı. Müxtəlif xəstəliklərə düçar olan adamlar onun müalicəsi sayəsində sağalırdılar. İçki hazırlamaqda və yaymaqda məşhur idi, riyakar adamlar kimi boş sözlərlə xəstə sağaltmağa girişmirdi. Müalicədə məsləhət bilinən və təbiblərin razılıq verdikləri məstedici içkilərdən istifadə etdiyinə görə cənnətməkan şahdan özünə qarşı diqqət görmürdü. İsgəndər şanlı nəvvabın zamanında Xan Əhməd Gilaninin xidmətinə Gilana getdi və uzun müddət onun yanında izzət və hörmət sahibi oldu. Adı çəkilən vali onunla tibb sahəsində mübahisələr edirdi. Ömrü elə orada da bitdi.

Həkim Əbu Nəsr Gilani - Xoşsöhbət və xoşsima adamdı, ali orduda əksər xəstəliklərin müalicəsinin öhdəsindən bacarıqla gəlirdi. Tibb fənnində məşhurlaşmışdı. Cənnətməkan şahın xəstəliyi vaxtı gecə-gündüz onun yanındaydı. O, şahın ona olan böyük diqqət və iltifatına görə başqa həkimlərin cahilanə həsədkarlığına məruz qalmışdı. Buna görə də həmin münasibətin qurbanı oldu və həzrət

cənnətməkan şahın vəfatı zamanı onu müalicədə xəyanətdə ittiham etdilər və o, hümayun dövlətxanada qorçilərin əliylə qətlə yetirildi.

Mirzə Məhəmməd Şirazi - Həkim Kəmaləddin Hüseynin qohumudur. Fazil həkim və xoşəxlaq alimdi. Müalicədə əli yüngüldü. Əsrin əksər həkimləri onun sözünü etibarlı sayır, müalicə etmək bacarığını qəbul edirdilər. Təbiblərin hamısı onun şagirdləri olmaqla iftixar edirdilər. Həqiqətən də dövrün Boqratı* və dövranın Əflatunu** idi. Əslində, o da həkim Kəmaləddin Hüseyn kimi içki ilə müalicədə məşhurlaşmışdı və buna görə də şah diqqətindən uzaqda dururdu. Bəzən ali orduda, bəzən də Yəzd darülibadəsində vaxt keçirirdi.

Həkim İmadəddin Mahmud - Bu iki bilikli həkimlə onun qohumluğu vardı. Elm və hikmətdə hamının arasında vahid, bilik və təcrübədəsə dünyada məşhurdu. Tibb elmi sahəsində onun tərəfindən yazılan [məşhur] nüsxələr xroniki xəstələrin müalicəsi üçün, xüsusən əhali arasında qoturluq (atəşək) kimi tanınan kiçik və böyük cərəb (qotur) xəstəliyinin qarşısının alınmasından ötrü həkimlərin istifadə etdikləri nüsxələrdir. İş fəaliyyətinin əvvəllərində Şirvan hakimi Abdullah xan Ustaclının yanında işləyirdi. Amma, Abdullah xanın nə səbəbdənsə onunla arası dəydi, qəzəb atəşi alovlandı və onu qarda dondurmaqla cəzalandırdı. Həkim az qala dəli olacaqdı, çünki bütün gecə sübhədək qarın içərisində qalmışdı. Cənab həkimsə çoxlu tiryək qəbul edərək özünə əlac etdi. Baxmayaraq ki, həmin bəladan qurtuldu, amma ömrü boyu əsmə-titrəmə xəstəliyinə düçar oldu. Özü tiryəki olduğundan tiryəkin müsbət təsirinə etiqadı vardı. Həzrət cənnətməkan şahın həzrət İmam Rzanın (imaməl-cinn və-l-ons) müqəddəs rövzəsinin rəvacına böyük diqqəti olduğundan, oranın sərkarının yanına ən üstün adamları yollayırdı. Həkim İmaməddin Mahmud da sərkarın təbabətini icra etmək üçün göndərildi və müqəddəs Məşhəddə illərlə müalicə ilə məşğul oldu. Həqiqətən də həkimlik keyfiyyəti və kamalının üstünlüyündə hamıdan fərqlənən fazil insanlardan biri idi.

Həkim Əbülfəth Təbrizi - Təbriz şəhərinin təbiblərindəndir. Boyu qısa olduğundan əhali arasında "Kiçik həkim" ("Həkime-kuçek") ləqəbi ilə tanınırdı. O, Təbrizdəki başqa həkimlərin hamısından üstün idi. Xəstəliyin müəyyən olunmasının yeganə bilicisiydi. Əgər hansı bir xəstəyə diaqnoz qoyuluşu çətinlik törədirdisə, Həkim Əbülfəth sual-cavaba ehtiyac görməyərək onun nəbzinə əl vurmaqla xəstəliyin səbəbini yemək-içməkdən olub-

olmadığını müəyyənləşdirirdi. Onun təşxisləri əksər vaxt düzgün olurdu və bacarığı möcüzə həddini keçmişdi. Cənab Həkim Əbülfəth Təbrizi İsmayıl Mirzənin hakimiyyəti zamanı onun xidmətində möhtərəm idi, şaha bütün yaxınlarından yaxın adam olmuşdu. İsgəndər şanlı nəvvabın zamanında Təbriz hakimi və Azərbaycanın əmirülüməraşı olan Əmir xan Mosullunun mülazimlərindən olmaqla onun xidmətinə getdi.

Əmir xanın vaqiəsindən sonra Həkim Əbülfəth Təbrizi ona tərəfdar olduğundan şahın nəzərindən düşdü. Amma əlahəzrət zilləllah şahın hakimiyyəti zamanı onun ən məhrəm adamlarından biri oldu. Nəhayət cəzaya giriftar olub, həyat badəsi acı ölüm şərbəti ilə dolu olduğundan həmin badəni başına çəkərək fəna yatağına baş qoydu.

Həkim Yarəli Tehrani - "Həkim Xeyri" ləqəbi ilə məşhurdur. Fazil, hal əhli, fəzilət və kamal sahibi, olduqca xoşsöhbət, ilhamlı və dostcanlı adamdı. Cənnətməkan şahın ona böyük diqqəti vardı. Kasıbların müalicəsi ilə də məşğul olurdu. "Şərbətxənaye-xeyri" o cənaba məxsusdu və elə buna görə də "Həkim-Xeyri" kimi tanınırdı. İki qabiliyyətli oğlu vardı. Həkim Nurəddin Əli və Həkim Şərəf. Hər ikisini atası yetişdirmişdi və ona kömək edirdilər. Təbi mövzun və qonaqcıl bir adamdı. Ömrünün axırında o və oğlanları özlərinin halal yetişdirdikləri əkinçilik məhsulları və evləri sayəsində yol üstündə dərviş süfrəsi açaraq oradan keçib-gedənlərə xidmət göstərirdilər.

Mir Ruhulla Qazi Cahani - Qəzvinin yüksək qədir-qiymətli seyfi-hüseyni seyidlərindəndir. Ata-babasının tərifə layiq süfrələri olduqca məşhurdur. Alicənablıq və böyüklük əsəri əhvalından zahir idi. Böyük adamlar və əyanlar arasında müsbət cəhətləri haqda söhbətlər gedirdi. Fəzilət və biliyi həddindən çox, qabiliyyət və istedadı şəkk-şübhəsiz idi. Dövrün elmlərini oxuduqdan sonra zövqü tibb elminə yönəldi və bu fəndə tam mahir oldu. Xəstəliklərin müalicəsi ilə az məşğul olmasına baxmayaraq, bu sahədə hər nə edirdisə başqa təbiblər tərəfindən bəyənilirdi. Əksər təbib və təbibzadələr onun yanına gələrək tibb elmi ətrafında mübahisələr aparır və onun şagirdi olmaları ilə fəxr edirdilər. Nəstəliq xəttini çox yaxşı yazırdı. İsgəndər şanlı nəvvabın hakimiyyət dövründə Qəzvində xəstələndi, qəzavü-qədər təbibinin əli onun bədən müalicəsinə yetişmədi, cavanlıq aləmindən cavidanlıq aləminə getdi.

Məmləkətlərdə başqa bacarıqlı təbiblər də vardı: Məsələn Həkim Nurəddin Əli Yəzdi, Mir Əbülqasim Şirazi, Həkim Əlayi-Təbrizi və İsfahan təbibləri. Amma, bizim məqsədimiz cənnətməkan şahın uca ordusunun hörmətli mülarimlərindən yazmaq olduğundan, qələmin dili onların hamısı haqqında yazmaqdan uzaqlaşır və başqa istedad sahiblərindən yazmağa başlayır.

O DÖVRDƏ ZAMANIN YEGANƏLƏRİ OLAN XOŞNEVİSLƏRİN (XƏTTATLARIN - Ş.F.) ZİKRİ

O dövrün başqa ustadlarının xətləri üzərindən ləğv qələmi çəkən bir çox nəstəliq yazan xoşnevislər zümrəsi vardı ki, onlar şahın cahanı tərk etdiyi vaxt özləri də bu fani dünyadan köçmüşdülər. O cümlədən Mövlana Əbdi Nişaburi, Mövlana Şahməhəmməd Zərrinqələm, Mövlana Dust Herati, Ustad Behzadın bacısı oğlu Mövlana Rüstəməli, Mənsur Hafiz Babaxan Türbəti və Mövlana Malik Deyləmi Qəzvini dövranın məşhur şəxsləri və əsrin xoşnevisləri idilər. Elə buna görə də biz sağ olanlardan bəhs etməklə kifayətlənəcəyik.

Xoşnevislərin sağ qalanları aşağıdakılardır: Birinci, Herat, Xorasan və İraq əhalisinin fikrincə Mövlana Mahmud İshaq Siyavuşanidir.

İkinci xoşnevis isə birinci ilə birgə Mövlana Mirəlinin şagirdi olmuş Mir Seyid Əhməd Məşhədidir. O dövrdə heç kim nəstəliqi yuxarıda adı çəkilən Mövlana Mahmud kimi incə yazmağı bacarmırdı, amma Herat əhli onun xəttinin Mir Seyid Əhmədin xəttindən üstün olduğu fikrindədir. Məqsədləri Mövlana Mir Əlini özlərinin bu fikrinə şahid etmək olmuşdur.

Şer

Xacə Mahmud gərçi bir müddət
Bu fəqirin olubdu şagirdi.
"Təqsiri yox, dedilər, birzərrə",
Gərçi yoxdu onun də təqsiri.
Yaxşı-pis hər nə yazsa da, amma
Sahibi zənn eləyir mənfəqiri.[225]

[225] Şerin farscası:

Deyirlər ki, Xacə Mahmud bu qitəni eşidib dedi: "Mövlana yaxşı-pisi (nik-o bəd) dedikdə səhv işlədib. Mən bütün yazdıqlarımı ona aid edirəm. Doğrudur onun yazdıqlarında gözəllik və zəriflik var, amma yazdıqları olduqca biədəb tərzdədir". Məşhəd əhli isə Mir Seyid Əhmədi ondan üstün tutur. Doğurdan da, cənab mirzə tayı-bərabəri olmayan xoşnevis və misilsiz bir qitənevisdir. Onun söhbəti Xorasanda, İraqda və hər yerdə yayılmışdı. Xəttatların hamısı üstünlüyü onun xəttinə verirlər. Həqiqətən də, o, bu peşədə yeganədir və öz həməsrlərindən üstündür. Xətti ən gözəl xətt kimi qəbul olunurdu. Onun yazdığı qitələri isə dünyanın hər yerinə, xüsusilə Hindistana və Mavərənnəhrə aparırdılar. Onun çox şagirdi olubdur və ondan çox şey öyrəniblər. Amma son vaxtlarda zəiflədi və elə yazmağa başladı ki, sənət əhli tərəfindən bəyənilmədi.

Başqa nəstəliqnevislərdən biri də Mövlana Məhəmmədhüseyn Təbrizidir. O, Mövlana İnayətullahın oğludur. Yuxarıda "alimlər zümrəsi" hissəsində haqqında danışdığımız Mövlana Məhəmmədəli İraq və Azərbaycan xoşnevislərinin yazdıqları, lakin Xorasan xoşnevisləri tərəfindən bəyənilməyən nəstəliq xətti sahəsində yaxşı inkişaf etmişdi və bişmiş qələmə sahib olan bir şəxs idi. Onun qələmindən çıxan yazılar qüsursuzdu, səhv və düzəlişlərdən xali idi. Elə inkişafdaydı ki, əgər əcəli aman versəydi, bizim ustadların yazılarının üstündən cızıq çəkərdi. Cavan vaxtında onun həyat qələmi ömür səhifəsini qaraladı. Hal-hazırda onun yazılarından hansı birisə kiminsə əlində görünürsə, əl-əl gəzməkdədir və xətt həvəskarları onun xəttiylə yazılmış vərəqləri bir-birinin əllərindən qapırlar.

Mir Müəzzi Kaşi - O vaxtlarda xoşnevislik iddiasında idi və yaxşı xətti vardı. Kitab yazmazdı, amma qitənevislik edərdi. Amma Kaşan və İraq camaatının ona göstərdikləri böyük etiqad gerçək deyildi. Yuxarıda adları çəkilən Xorasan xoşnevisləri ondan üstün idilər.

"Xacə Mahmud gərce yek çəndi
Bud şagerde-in fəqire-həqir,
Dər həqe-u nərəft təqsiri,
Gərçe u həm nəmikonəd təqsir.
Hərçe xod minevisəd əz bəd-o nik,
Mikonəd comle-ra bename-fəqir".
Qeyd: İskəndər bəy Münşi "bu fəqir, mən fəqir" dedikdə özünü nəzərdə tutur - Ş.F.

Mövlana Babaşah İsfahani - İraq nəstəliqnevislərindəndi. Məktub yazmaqda (kitabət) bütün cahanda məşhurdu. Həqiqətən də onun kimi yaxşı katib (kitab üzü köçürən - Ş.F.) İraqda yoxdu. O zaman elə mahir adam heç Xorasanda da yoxdu. Vaxtını kitabətə həsr edir, dolanışığını yazı yazmaqla təmin edirdi. Böyüklər və əyanlar onun xəttinə maraq göstərir və ona etiramlar edirdilər. Onun kitabəti İraq camaatında çox olsa da, hal-hazırda az tapılır, çünki əksəriyyətini müxtəlif yerlərə aparıb baha qiymətə satmışlar.

Mir Sədrəddin Məhəmməd - Dövrün xoşnevislərindən olan nəstəliqyazan Mirzə Əsrəfin oğludur. Qəzvinin seyfi-hüseyni seyidlərindəndir. O və qardaşı Mir Ruhullah hər ikisi böyük seyid və ruzigarın istedad sahiblərindəndirlər. Ata-babalarının isə şöhrət, qabiliyyət, istedad, fəzilət və mənəvi kamillik cəhətdən təriflərə heç bir ehtiyacları yoxdur. Mirzə Əşrəfin xüsusi tərzdə və məlahətlə yazdığı müxtəlif aşiqanə qəzəllər dövr söz ustadları (soxənvər) arasında elə şur və şövq yaratmışdır ki, ədalət naminə həqiqətən də misilsizdir. Onun adları çəkilən comərd oğulları dövr elmlərini mənimsəməkdə başqa həmkarlarından seçilirdilər, belə ki, onların hər ikisi gözəl əxlaqlı, fəzilətli və bilikli idilər. Olduqca münasib olardı ki, mirin və qardaşının şərif adları əzəmətli seyidlər və möhtərəm böyüklər zümrəsinə yazılaraq, onlar təbiblər silkinə (ətobba) daxil ediləydilər.

Xülasə, mir yaxşı nəstəliqnevis idi. İraq xoşnevisləri arasında qeyd-şərtsiz yaxşı şagirdi olan və xətt təlimini mirdən mənimsəyən Mövlema Malik Deyləmi Qəzvini isə cavanlıq dövründə olduqca səliqə-sahmanlı yazı yazırdı, amma qocalıqda gözünün zəifləməsi cəhətindən yazı məşqini tərk etdi, özünün ilk yazılan ilə kifayətləndi.

Nəstəliqdə o, Mövlana Sultanəlinin yolunu davam etdirmişdi, başqalarından tam seçilirdi və üstün idi, Mövlana Sultanəlinin xəttinə Mövlana Mirəlidən artıq etiqad vardı ki, yalnız bir-iki nadir xoşnevis haqda belə söyləyirlər. Bu fənndə Mövlana Mirəli çox inkişaf etmiş və məşhurlaşmışdı, amma qələm sahibləri Mövlana Sultanəliyə üstünlük verirdilər. Günlərin bir günü cənab mir mövlananın yanına gəlməzdən əvvəl onun üç gözəl xətli qitəsini özü ilə götürdü, hər üçünün üzünü köçürdü və mövlanaya göstərdi. Mövlana Sultanəli həmin xətlərə baxıb onların hansının kimə məxsus olduğunu təyin edə bilmədi. Bir qədər sonra mövlana mirin xəttini bəyəndi. Xülasə, cənab mirin (Sədrəddinin - Ş.F.) qabiliyyət

və istedadı yüksək idi. O, illərlə qədimə adamların tarix kitablarını və şerlərini oxumuş və elə bir təzkirə qələm almışdı ki, keçmişlərdə ona bərabər əsər yazan olmamışdı. Dünyanın harasında olur-olsun, əgər hansı kəs (şair - Ş.F.) mövzun bir misra yazmışdırsa cənab mir onu taparaq öz təzkirəsində əks etdirmişdi. Cənab mirin həyatı, beləliklə, bu işə sərf oldu, amma onu öz istədiyi kimi tamamlaya bilmədi. Musiqi və ədvar elmi aləmində də çox səy etdi və ruzigarın məşhur musiqiçilərindən oldu. Bəstəkarlıqda (qovl və əməl) nadir fikir və əməl sahibi idi, gözəl (bədi) musiqisi ilham sahibləri olan adamların məclislərinin bəzəyi olmaqla, nəğmələri dövr xanəndələrin dillərinin əzbəridir. İsgəndər şanlı nəvvabın hakimiyyəti vaxtı xoşbəxt şahzadə Həmzə Mirzənin "məclis əhli və yaxın adamları" ("məclisiyan və moqərrəvan") zümrəsinə daxil edilmişdi. Əlahəzrət zilləllah şahın xoşbəxt əyyamı zamanı isə olduqca böyük iltifata yetişmişdi və həmişə şahın yanında olardı. Xorasan səfərlərinin birində axirət səfəri mahnısını yazaraq bəqa aləminə yollandı.

Mirzə İbrahim İsfahani - O da qabil, bacarıqlı, xoşnevis bir vəzirzadə idi. Bu mirzə də mir kimi yaxşı yazan idi, lakin ona çatmazdı. Mövzun təbli, cidd-cəhdli, qələndər rəftarlı, dərvişanə adamdı. Əlinə düşən pulu sədaqət süfrəsi üstünə qoyurdu, ev-eşiyi həmişə savadlı şəxslər, şairlər və bu kimi adamlarla dolu olardı. Gah böyük adamlara xas olan tərzdə ömür-gününü naz-nemət içində, gah da həftələrlə arpa çörəyi yeməklə keçirirdi. Təvəkkül qapısı önündə oturub vəzifəli şəxslərdən və əyanlardan xeyli xətir-hörmət görürdü. Amma, olduqca şux təbli və söhbətcildi. Şerdə fəhmli, izahlı lüğət (loğate-fors) tərtib etməkdə özünün vahid olduğunu iddia edirdi. Cənab mirzənin yanında həm aşağı, həm də yüksək şəxslər barəsində söhbətlər olunar, onların xasiyyətləri haqqında zarafat olunar, onların xəbislikləri kobudluqları (bədguyi), alçaqlığı (vəzi) və şərafəti hallandırılardı. Onun izahlı lüğət sahəsində yazdığı risalə hazırda İraqda yayılmışdır.

Hər təbəqədən çıxan başqa nəstəliq yazanlar da vardı. Məsələn, tayı-bərabəri olmayan əzikenevislərdən (?) Şatir Məhəmmədin oğlu, Şatir Əlinin isə nəvəsi olan İsa bəy, türklər arasında sayılıb seçilən və nəstəliq xəttində çox inkişaf edən Pirbudaq bəy Filanoğlu Şamlı. Biklu (Bəyli - Ş.F.) Vəli Ərəbgirlinin oğlanları da nəstəliqnevis idilər. Əgər bizim ənbər ətirli qələmimiz onların hər biri haqqında yazarsa çox uzun çəkər. Amma o dövrün

təliqnevislərindən* ən xoşnevisi hümayun məclis münşilərindən olan Xacə Əlaəddin Mənsur Münşidir. Onun adı "münşilər zümrəsi" siyahısındadır. Xosnevislərdən olduğu üçün onun haqqında təkrar yazmaqdan çəkinməyib, barəsində yenidən yazdıq. O, Kərəhrud ülkasının kəlantərzadələrindəndir. Mövlana Dərvişin xəttini olduqca gözəlləşdirdi və özünü təsdiq etdi ki, ki, buna heç bir şəkk-şübhə yoxdur. Amma, özlərinin yaxşı yazanlar olduqlarını iddia edən şəxslərin özləri də onun xəttinin kamal mərtəbəsinə çatdığını bildirirlər, lakin o, hərfləri çox böyük yazır və dairələri çox iri çəkir. Bu yazı üslubu əslində də kitablar, məktublar və nişanlar (əmr və fərmanlar - Ş.F.) üçün xoş görünüşlüdür. O şikəstə nəstəliq xəttində də çox mahir olmuşdu.

Mirzə Əhməd Mirzə Ətaulla oğlu - O da təliq xəttinin xoşnevislərindəndir. Öyrənməyə başlayan vaxltarda Xacə Əlaəddin Mənsurun şagirdlərindən olmasına baxmayaraq, son illərdə olduqca inkişaf etdi. Mövlana Dərvişin küt qələmlə yazdığı şikəstə xəttini çox gözəlləşdirdi. Onun yazdığı xətt dairələri Xacə Əlaəddin Mənsur və başqa xəttatların dairələrinə nisbətən daha əyri (şikəste) idi, lakin o qədər də qabarıq deyildi. O, cənnətməkan şah dövrünün möhtəbər vəzirzadələrindəndi. Atası Azərbaycan və Şirvanın vəziri olan vaxt cənnətməkan şahın diqqətini özünə cəlb etmiş və ondan xeyli inayətlər görmüşdüsə də, amma taciklərin həsədinə səbəb olmuşdu. Ali orduda onun məclisləri keçirilirdi və o, oranın "xidmət əhli" silkinə mənsub olmuşdu. Cənnətməkan şah üçün mürəkkəb, qələm hazırlamaq, qələm yonmaq işi ona tapşırılmışdı. Son vaxtlarda iftiraçı adamlar onu şahın işıqlı nəzərindən saldılar. Bir neçə müddət pərişanlıq keçirdi, amma Ruma məktublar yazılarkən onu da çağırırdılar. Məktub inşasını yaxşı bacarırdı. Cənnətməkan şahın xəstələnməsindən sonra Şüştər və Xuzistanın vəziri oldu. İsgəndər şanlı nəvvabın dövründəsə Mürşidqulu xanın vəzarəti tərkibində Xorasana getdi. Adı çox hallandığı və çox yuxarı uçduğundan, Xorasan hadisələrində təqsirləndirildi və Türbət qalasında qardaşı oğlu tərəfindən qətl olundu.

Mirzə Məhəmməd Hüseyn Mirzə Şükrullah oğlu - Atası cənnətməkan şahın müstovfil-məmaliki idi və onun adı vəzirlər silkində yazılmışdı. Bənzərsiz təliqnevis və tayı-bərabəri olmayan xoşnevis idi. Mirzə Əhməddən sonra bərk inkişaf etdi, təliq xəttini kamal sərhoddinə çatdırdı. O da Mövlana Dərvişin yolu ilə getdisə də, yazdıqlarından görünür ki, onların hər ikisinin Mövlana Dərviş

üslubunda yazmalarına baxmayaraq öz yazı üslubları olmuşdur və onların heç biri Mövlana Dərvişdən aşağı səviyyədə deyildir. Amma, Mirzə Məhəmməd Hüseyn Şirazinin xəttindəki qabarıqlıq Mirzə Əhməd xəttindən daha çoxdur. O, əlahəzrətin hakimiyyəti vaxtı Hindistana gedib onların hökmdarının mülazim və münşiləri silkinə daxil oldu və mahir xətti ilə öz ömür səhifəsində ölüm yazısı yazdı.

Mirzə Hüseyn Münşi - Yaxşı təliqnevis idi və Xacə Əlaəddin Mənsurun şagirdlərindəndi, hümayun darül-inşa mühərrirləri (mirzə, katib - Ş.F.) zümrəsinə daxil olmuşdu. Ustadı kimi o da dairəvi hərflərlə (kavaknevis) küt qələmlə yazırdı. Sürətlə yazırdı və nəstəliq xəttini yaxşı mənimsəmişdi.

Başqa xoşnevislərdən Mövlana Məhəmməd Əmin Münşi Qəzvini və başqalarını da göstərmək olar. Amma, bizim sınıq qələmimiz xoşnevislərin hamısı haqqında yazası olsa, məsələ çox uzanar. Buna görə də, biz padşahın xidmətində olan bəzi məşhur xəttatlar barədə yazmaqla ki fayətləndik və qələmimizin bəyan dili başqa qələm sahibləri haqqında məlumat vermədi.

DÖVRÜN MAHİR ADAMLARI OLAN SƏNƏTKAR NƏQQAŞLARIN ZİKRİ

O vaxt (Şah Təhmasibin vəfatı vaxtı - Ş.F.) zəmanə varaqları onların varlıqları ilə bəzənmişdi.

Şer

Behzada* bənzəyən nəqqaş, əliylə,
Sözün sarayını bəzədi belə.[226]

Yeri cənnət olan, Cəm məqamlı həzrət şahın [özü] nadir əsərləri olan nəqqaş və sehrkar qələmli rəssam idi. O həzrətin şərif isminin dövrün hünərvər [rəssamları] ilə birgə çəkilməsinin qeyri-münasib olmasına baxmayaraq, onun amalı, xeyirli olan həyatı bu bədii sənətlə bəzəndiyindən, bu barədə yazmağa cürət etdik. O

[226] Şerin farscası:
Negarende nəqqaşe-Behzaddəst,
Sərire-soxən-ra çenin nəqs bəst.

həzrət məşhur rəssam Sultan Məhəmmədin* şagirdi idi və öz qələm məharətini kamal mərtəbəsinə qaldırmışdı. Cavanlığının əvvəllərində bu işə olduqca böyük həvəsi vardı. Bu fənnin bənzərsiz olan və qələm işlətməkdə dünya şöhrəti tapan ustadlarından Behzad və Sultan Məhəmməmməd kitabxanada işləyirdilər. Oranın böyük seyidlərindən olan Ağa Mirək Nəqqaş İsfahani bu fəndə xüsusi istedada malik idi. O həzrətin bu təbəqədən olan adamlarla ülfəti vardı. Cahandarlıq (ölkələr tutmaq - Ş.F.) və məmləkət işlərindən vaxt tapan kimi nəqqaşlıq məşqi ilə məşğul olurdu. Ömrünün sonunda işinin çoxluğundan bu işə fürsət tapa bilmədi. Həmin ustadların da varlıq surətləri həyatın rəngkarlığından silinib getdi (yəni, vəfat etdilər - Ş.F.). Buna görə də [Şah Təhmasib nəqqaşlıqla] çox az məşğul olmağa başladı. Bəzi sağ qalan kitabxana işçilərini işdən azad etmişdi və onlar özləri üçün işləyirdilər. Ömrünün sonunda, gözəl süls xəttinə malik və o həzrətin yetişdirməsi olan xassə qulamı Mövlana Yusifi kitabdar vəzifəsinə keçirərək xasseyi-şərifə kitablarını ona təhvil vermişdi. Cənnətməkan şahın vəfatından sonra zaman səhifəsinin ziynətləndirməkdə olan bu fənn ustadlarından biri dövranın nadir rəssamı Mövlana Müzəffər Əlidir ki, tükdən incə qələmi ilə gözəl çöhrələr yaradırdı. Onun ustad Behzad ilə qohumluğu vardır və onun yanında bu peşəyə yiyələnib kamal mərtəbəsinə çatdı. Nadir ustadların hamısı onu bu fənndə tayı-bərabəri olmayan bir adam kimi tanıyırdılar. Yaxşı rəssam, nəzirsiz nəqqaş idi. Hümayun dövlətxana şəkilləri və "Çehelsütun" qəsrinin (eyvan) məclis otağı onun tərəfindən hazırlanmışdır, oranın şəkillərinin əksər hissəsi onun zərrin qələminin məhsuludur. Cənnətməkan şahın dəhşətli vəfatından sonra o, öz varlıq səhifəsini ölüm nəqşəsi ilə əvəz etdi.

Mir Zeynalabdin: Cənnətməkan şahın ustadı idi. Olduqca nəfsitox və xoşəxlaq adamdı. Dövran adamlarının saflıqlarını, səbrini, rəftar gözəlliyini özünə şüar etmişdi. İstər aşağı (vəzi), istərsə də şərəfətli (şərif) təbəqədən olan adamların yanında izzətli idi. Yaxşı nəqqaş, məclis adamı və bənzərsiz rəssam, təmiz iş görən sənətkar idi. Onun şagirdləri nəqqaşlıq karxanası təşkil edib fəaliyyət göstərirdilər. Amma onun özü həmişə şahzadələr, əmirlər və əyanlar üçün işləyir, ehtiram görürdü. Böyük adamların cürbəcür diqqət və mərhəmətinə layiq olmuşdu. İsmayıl Mirzənin hakimiyyəti dövründə kitabxana yenidən təşkil olunduğu vaxt Mir Zeynalabdin də həmin kitabxana işçilərindən biri oldu.

Sadiqi bəy Əfşar[227] - hərtəfəfli inkişafa malik, sözü bütöv adam idi. Təxəllüsü Sadiqi* idi. Hələ gənc ikən nəqqaşlığa meyl etmiş, gecə-gündüz əsrin nadir şəxsiyyəti olan Ustad Müzəffər Əlinin xidmətində olmuşdur. Ustad onun qabiliyyət və bacarığını müşahidə edib təlim-tərbiyəsi ilə məşğul olmuşdu. Sadiqi bəy şagirdlikdə kamal mərtəbəsinə yetişdi. Lakin, təbiətin qürur və inadı üzündən, habelə nəqqaşlığın bir müddət rəvacda olmaması səbəbindən, həmçinin zəmanənin onun arzularına uyğun dövran etməməsinə görə həmin peşəni tərk etdi, zahirpərəstlik libasını əynindən çıxartdı "qələndərlər zümrəsi" tərkibində səyahətə çıxdı. O vaxtlarda Həmədan hakimi olan Əmir xan Mosullu Sadiqinin vəziyyətindən xəbər tutub, onu qələndərlik libasından çıxarıb, özünə mülazim etdi. O, onunla yaxşı rəftar edirdi. Türkçülüyünün (tərkiyyət) və qızılbaşlığının (qızılbaşi) təbiətinə uyğun olaraq [özü] şücaət iddiasına düşdü və dövrünün şücaətli adamlarına saymazyana yanaşdı. İskəndər şanlı nəvvabın dövründə Bədr xan və İsgəndər xan Əfşarın mülazimi oldu. Astrabad türkmanlarının mərəkəsi vaxtı o ağılsızmaz igidliklər etdisə də, amma heç vaxt nəqqaşlığından əl çəkmədi. Nəhayət, çox böyük inkişafa nail oldu, bənzərsiz qələmi olan rəssam, tayı-bərabəri olmayan nəqqaş və əvəzsiz layihəçi [tərrah] oldu. Sadiqi bəy, özünün iti qələmi ilə minlərlə sənət əsəri yaratdı, qabiliyyət qabiliyyət və istedad zirvəri ilə bəzəndi, şairliyə və söz demək məharətinə yiyələndi. Onun yaxşı qəsidə, qəzəl və məsnəviləri mövcuddur. Öz "Cəngnamə"sində olduqca yaxşı məsnəvi beytləri vardır:

Şer

Peykanlı[228] çəyirtgə elə uçdu ki,
Doluşdu həyatın bəlası təki.
Təbərzin[229] daima parçalayırdı,
Tiyəsi çox başı candan ayırdı.[230]

---

[227] Əksər müəlliflər onun adını "Sadiq" bəy yazmışlar - Ş.F.
[228] Peykan - ox ucu.
[229] Təbərzin – balta.
[230] Beytlərin farscası:
Mələxhaye-peykan ze-pərrəndegi
Şode məzrəe - afəte - zendegi.
Təbəzrin həmikoşt əz ruzpoşt

O, bu fənnin (nəqqaşlığın - Ş.F.) zümrəsinə daxil olduğundan, onun adı şairlər silkinə yazılmadı. İsmayıl Mirzənin zamanında kitabxana işçilərindən idi, amma cənnətməkan şahm dövründə[231] hörmətli kitabdarlıq vəzifəsinə yetişdi, şəfqətə layiq görüldü. Amma olduqca bədməzac, özündən razı və tənghövsələ adamdı. Xasiyyətinin yaxşı, ya pis olmasından asılı olmayaraq o, həmişə nəfsani qərəzkarlıq (əğraze-nəfsani) edir, öz dostları və həmkarları ilə keyfinin necəliyinə görə, həddindən artıq pis davranışa yol verirdi. Onlarsa onun bu xasiyyətinə dözürdülər. Ayağını insaf dairəsindən kənara qoyaraq hər kəslə pis davranmağını ifrat həddə çatdırdı. Buna görə də, büsatdan uzaqlaşdı, ehtiramını itirdi, xidmətdən kənar oldu. Amma, ömrünün sonuna qədər mənsəbi əlindən alınmadı. Sadiqi bəy Əfşar öz kitabdarlıq məvacibini ali divandan alırdı.

Mövlana Əbdülcabbar Astrabadi - Təliqnevisdir. İlk vaxtlar nəqqaşlıq sənəti ilə dolanırdı. Bu sənətdə dərəcəsi alidir. Xətt məşqi ilə də məşğul olmuşdur. Əla məktubyazan idi. Olduqca yeknəsəqlikdən uzaq, xoşsöhbət, zarafatcıl, şirindil bir kişiydi. Böyüklər və əyanların onun söhbətlərini dinləməyə meyilləri vardı və ona söhbətdən ayrılıb işləmək fürsəti vermirdilər. Bir müddət Gilana gedib oranın valisi Xan Əhməd xanın mülazim və nədimləri silkinə daxil oldu. O, diyardakı qarmaqarışıqlıqdan və Xan Əhməd xanın həbsindən sonra Qəzvin darüssəltənəsinə gələrək orada qaldı. Baxmayaraq ki, onun orada nəqqaşlıq karxanası vardı, vaxtının əksəriyyətini əmir və əyanların məclislərində keçirir, nəqqaşlıqla az məşğul olurdu. Oğlu Xacə Nəsir atası kimi, bəlkə də ondan da artıq istedad sahibi idi və şagirdləri vardı. O (Mövlana Əbdülcabbar – Ş.F.), Sultan Heydərçilərin başçısı Həsən bəy Yüzbaşının yanında başqalarından çox olardı. Buna görə də İsmayıl Mirzənin dövründə kitabxana xidmətindən aralandı, onun əvəzinəsə oğlu kitabxana işçiləri silkinə daxil oldu. İsgəndər şanlı nəvvabın hakimiyyəti vaxtı Xan Əhməd xan yenidən Gilana hakim təyin olunanda Mövlana Əbdülcabbar yenidən onun mülazimi kimi Gilana getdi və elə orada da axirət aləminə yollandı.

Yeki-ra betiğ-o yeki-ra bemoşt.

[231] Səhvdir! "Zilləllah şahın (Şah Abbasın - Ş.F.) dövründə" yazılmalıdır!

Səyavuş bəy - O həzrət (Şah Təhmasib - Ş.F) Səyavuş bəydə qabiliyyət nişanələri görərək, onun nəqqaş olmasına imkan yaratdı. Ustad Əli Müsəvvərin şagirdi idi. Sənətində mahir olduqda, qələminin gözəlliyi (nəzakət) şah tərəfindən bəyənildi və şaxsən özü onu təlimatlandırmağa başladı. Əşyaların təsvirini çəkməkdə çox inkişaf etdi. Olduqca zərif nəqşlər edərdi. Bənzərsiz rəssamdı. Qoşun və dağ şəkillərini heç bir ustad onun kimi çəkə bilmirdi. Məclislər təşkil etməkdə qüsursuzdu. İsmayıl Mirzə dövründə kitabxana işçilərindən oldu. İsgəndər şanlı nəvvabın dövründə o və qardaşı Fərrux bəy cavanbəxt şahzadə Sultan Həmzə Mirzənin etibarlı adamları silkində idilər. Əlahəzrət şah zamanı isə uzun müddət onun mülazimliyində olmuşdu. Ömrü də elə o həzrətin müqəddəs qoşununda olduğu vaxt bitdi.

Mövlana Şeyx Məhəmməd Səbzvari - Zarafatcıl, şirin-söz, [yaxşı] görünüşlü və xoş ixtilat bir adamdı. Boyarkarlıq (rəngamizi) sənətində tayı-bərabəri yoxdu. Həqiqətən də bu işdə bənzərsizdi, Sadiq [bəy Əfşar] və bütün nəqqaş ustadlar bunu etiraf edirdilər. Nəstəliqi çox yaxşı yazırdı. Ustadların qitələrini elə görünürdü ki, xəttatlar həmin işlərin əsl, yaxud köçürmə olub-olmamasını ayırmaqda çətinlik çəkirdilər. Səbzvarda Sultan İbrahim Mirzənin mülazimi idi və bu şahzadənin yanında İraqa getdi. İsmayıl Mirzə zamanında kitabxana işçilərindən oldu. Sonra Xorasana getdi, əlahəzrət zilləllah şahın uğurlu dövranının gəlib-çatacağını bilərək o həzrətin yanına gəldi, onun mülazimi kimi yeni dövlətxana binasının tikilməsində əmək sərf etdi, həmin astanada da canı çıxdı.

Mövlana Əli Əsğər Kaşi - Misilsiz ustad və gözəl rəssam idi. Rəngli boya ilə işləməkdə bənzərsizdi, dağ təsvirlərində və ağac çəkməkdə bütün nəqqaşlardan irəlidəydi. O da Sultan İbrahim Mirzənin xidmətində idi. İsmayıl Mirzə zamanı kitabxana işçilərindən oldu. Oğlu Ağa Rza təsviri rəssamlıqda, surət və çöhrə çəkməkdə çox inkişaf etmişdi və zəmanənin möcüzü oldu ki, dövrümüzdə buna şəkk-şübhə yoxdur. Qələm işlətməkdə məharətinə baxmayaraq, həmişə gücünü sınayır, pəhləvanlıq (koştigiri) edir və bundan həzz alırdı. İstedad adamları ilə söhbətə meyil etmir, pəhləvanlarla yaxınlıq edirdi. Son vaxtlarda həmin işdən əl çəkmişdisə də, az şəkil çəkirdi. O da Sadiqi bəy kimi bədxasiyyət, səbirsiz, qaradinməz adamdır. Təbiətində alicənablıq (esteğnayi) vardır. Həzrət əlahəzrət zillallah şahın xidmətində iltifatlara yetişdi, çoxlu hörmət gördüsə də, yersiz (nahəncar) hərəkətlərinə görə etibar

sahibi olmadı. Həmişə müflis və pərişan haldır. Bu beyt onun halına münasibdir:

Beyt

Cahanın şahları hərçənd məni çox istərlər,
İsfahan içrə kasıblıqdan acam mən amma.[232]

Mövlana Həsən Bağdadi - Təzhib (qızıl işləmə sənəti - Ş.F) sənətində əsrin yeganəsi və dünyanın vahid adamı idi. Həqiqətən də, təzhib sənətini ecaz sərhəddinədək gətirib çıxarmışdı. Bütün ustadlar onun bu sənətdə üstünlüyünü təsdiq etmişlər. Bü sənəti uca zirvəyə qaldırmış müzəhhib (qızılla işləyən sənətkar - Ş.F.) Mövlana Yarinin işləri onun incə və dəqiq işləmələri qarşısında aşağı səviyyəlidir. Ömrünün sonlarında cənnətməkan şah onu ələ keçirib əlini kəsməklə təhdid edirdi. Amma, o, mübarək həzrət Əbu Abdullah əl-Hüseyn günbəzindəki işinə və həmin müqəddəs rövzəyə bəzək verdiyinə görə onun cəzasından sərf-nəzər etdi və ona tövbə etdirdi ki, bir daha belə bir iş görməsin. İsmayıl Mirzənin hökmranlığı vaxtı kilabxana işçiləri sırasına daxil edildi. Oğlu da atasının bacarığından bəhrələndi, təsviri və təzhibi biri-birinə birləşdirdi.

Mövlana Abdullah Şirazi - O da yaxşı müzəhhib idi, amma Mövlana Həsənin məharəti onda yoxdu. Xoşsöhbət, zarafatcıl, şirindil bir adam idi. Sultan İbrahim Mirzənin xidmətindəydi. Başqalarının yanında yeri və məqamı ucaydı. İbrahim Mirzənin başına gələn hadisədən sonra bütün kitabxana işçiləri İsmayıl Mirzənin xidmətinə keçirildi.

O dövrdə başqa nəqqaşlar və rəssamlar da olmuşdur. Məsələn, Məhəmməd Herəvi, Qəsri bəy Kusə (Kosa - Ş.F.) və başqaları. Amma, biz yığcam şəkildə bu zümrədən olan bir neçə məşhur və yaraqıcı (bəhrəmənd) sənətkar barədə yazmaqla kifayətləndik.

[232] Beytin farscası belədir:
Talebe-mən həme şahane-cəhanənd-o məra
Dər Sefahan cegər əz bəhre-məişət xun şod.

CƏNNƏTMƏKAN ŞAHIN VƏFATI ƏRƏFƏSİNDƏ SÖZ YAZMAQLA (SOXƏNPƏRDAZİ) MƏŞĞUL OLAN ŞAİRLƏR VƏ NƏZM SAHİBLƏRİNİN ZİKRİ

Yaradan elə səfdüzəltdi, həmən
Şairlər sonradır peyğəmbərlərdən.[233]

Söz bəzəyən ali dərəcəli nazimlər və məna silsiləsinin bəzəkləri olan ali şairlər [haqda sözə başlayırıq]. O vaxtlarda ali ordu və məhrusə məmləkətlərdə söz sahibi olan şairlər və bəlağətli sözlülər olduqca çox idi. Həzrət cənnətməkan xaqan öz hakimiyyətinin əvvəllərində bu təbəqədən olan adamların hamısına böyük diqqət yetirirdi. Mirzə Şərəf Cahan və Mövlana Heyrəti bir neçə müddət şahın və müqəddəs məclis üzvlərinin həmsöhbətləri idilər. Ömrünün sonunda isə [şah] əmre-məruf və nəhye-münkərə bərk meyl etdiyi üçün və bu təbəqədən olan adamları şərab əhli sanıb, onları dindarlar zümrəsindən hesab etmədiyindən onlara bir o qədər də hörmət etmir, qitə və qəsidə yazmalarına yol vermirdi. Mövlana Möhtəşəm Kaşi" o həzrətin mədhində güclü bir qəsidə, şahzadə Pərixan xanımının vəsfində başqa bir qəsidə nəzm edərək onları Kaşandan göndərmişdi. Həmin qəsidələr şahzadə [Pərixan xanım] vasitəsiylə şaha ərz edildi. Cənnətməkan şah buyurdu: "Mən razı deyiləm ki, şairlər məni məhd etsinlər. Onlar qoy öz qəsidələrini şahi-vilayətipənah[234] və məsum imamlar barəsində - onlara salam olsun - yazsınlar. Onlar qoy öz mükafatlarını əvvəlcə o həzrətlərin müqəddəs ruhlarından alsınlar, sonra məndən. Çünki onlar dəqiq fikirlər, yüksək mənalar və həqiqətdən uzaq istiarələri bəlağət ipinə düzməklə bunları şahlara (moluk) aid edirlər ki, onların əksər hissəsi "Onun gözəlliyi yalanındadır" misrasında olduğu kimi yerli-yerində işlədilmir. Əgər şairlər öz şerlərini müqəddəs həzrətlərə ithaf etsələr, onların şənləri yüksək olar".

Xülasə, mövlana o şərafətli şahdan mükafat ala bilmədi. Bu xəbər mövlanaya yetişdikdə, o, həzrət şahi-vilayətin və hidayət taxtının sultanının mədhində mərhum Mövlana Həsən Kaşinin nəzm

233 Beytin farscası:
Piş-o pəsi bəst səfe-kebriya,
Pəs şoəra aməd-o piş ənbiya.
234 İmam Əli (ə).

ipinə düzdüyü həftbənd* şerini ilahi ilhamla deyərək şaha göndərdi, layiqli mükafat aldı. Hümayun paytaxt şairləri də yeddi bənd şer yazmağa başladılar, tezliklə əlli-altmış belə şer şaha təqdim edildi və onların hamısı mükafatlandırıldı. Xülasə, bəziləri ali orduda, bəziləri isə məmləkətlərdə başqalarından üstün olan şairlərdən birincisi Mövlana Zəmiri İsfahanidir**. Zaman süxənvərlərinin qaymağı və dövranın yeganəsi idi. Rəml elmini yaxşı bilirdi, elə buna görə özünə "Zəmiri" təxəllüsünü götürmüşdü. Onun zəmiri (daxili aləmi - Ş.F.) məna mənbəi, fikrinin bəzəyi ilahi (sübhani) fəsahət idi. Ona yaxın-uzaq adamlar onu süxənvərlərin rəhbəri sayırdılar. Çoxlu şerləri vardır. Fikri olduqca iti idi. İlhamının başlandığı vaxtdan bəri hər gün azı ən qəzəl yazırdı.

Keçmiş şairlərin əksəriyyətinə cavab şerləri yazmışdır. Onun yazdığı məşhur (yekə) beytlər ilhamın dalğalanan bəhrindən [çıxaraq] zühuz sahillərinə gəlib çatmışdır, o cümlədən [şair] Samirinin sehri ilə bir divana bərabər olan bu beyti Baba Fəğani*** "Divan"ının birinci qəzəlinə cavabdır:

Beyt:

Etdiyi vədi Allahın yalan deyil cəza günü,
Demişdi ki, gedən canı qaytaracaqdır bədənə.[235]

Bu beyti də ali məddahlıq kimi söylənmişdir:

Beyt:

O gün ki, qalxacaq göyə imarəti, deyərlər ki,
Torpaq olub bir dəstə gül düşmüş əlindən bənnanın.[236]

Onun aşiqanə beytlərinin bir neçə misrasını verməklə kifayətləndik:

---

235 Beytin farscası:
Gər nə fəribe-vədeye-ruze-cəza bovəd ze to
Suye-bədən ke avərəd cane-gorizpay-ra.
236 Beytin farscası:
Ruzi ke şod əfraxte eyvane-qəsre-rəfətəş
Bude zəmin moşt goli k-əz dəste-bənna rixte.

Beyt:

Sən ki, sordun ləbimi, öylə özümdən getdim,
Bilmədim təsirini etdi nə cür badə sənə.[237]

Mövlananın bu beyti də çox məşhurdur və olduqca ali yazılmışdır. Bəzi adamların sözünə görə həmin beyt onun oğlu Mövlana Dainindir:

Beyt

Hüsnünü nəqqaş çəkəndə öylə işlətmiş qələm,
Bundan artıq yerləşə bilməz hüsn boşqabına.[238]

Uca məkanlı Kərbəlaya gedərkən o cənabın ayağını don (sərma) vurmuşdu. Bu münasibətlə bir qitə yazdı ki, bu beyt[lər] ondandır:

Beyt[lər]

Ayaq ilə deyil başla rəvan ol Kərbəla səmtə,
Taparsan ol zaman izzət təvafın dini dünyanın.

Ayaq ilə gedib etdim qələt, dondum ayağımdan,
Hava heç vaxt günah etməz, günahı var bu insanın.

Təmənnayə yetişməkçün fərəhdən öylə məst oldum,
Ayaq ilə başın fərqi nədirsə bilmədim anın.[239]

---

[237] Beytin farscası:
Ləb məkidi-yo mən əz zovq fetadəm bixod,
Ba to keyfiyyəte-an bade nədanəm ke çe kərd.
[238] Beytin farscası:
Həqşbənde-surətət z-an san ke bayest afərid,
Biş əz in xubi bezərfe-hosn gonçayeş nədaşt.
[239] Beytlərin farscası:
Besər bayest rəftən dər təriqe-Kərbəla, ey del,
Ke, ta yabi təvafe-padşahe-din-o donya-ra
Ğələt kərdəm bepa rəftəm, əz an sərma robud əz mən
Gonah əz canebe-mən bud, cormi nist sərma-ra
Vəli məzur midarəm ke-dər rahe-təmənnayət

Onun yüksək deyilmiş beytləri və ürəkaçan mənalı kəlamları çoxdur ki, nazimlər arasında məşhurdur və bir neçəsi Mir Təqi Kaşinin "Təzkirə"sində verilmişdir.

Mövlana Möhtəşəm: Kaşandandır. Şairlikdə olduqca məşhur idi. Şerləri təmtəraqlıdır. Bu mövlananın şerlərində olan sənaye və bədayeni* deməyə başqa nəzm sahiblərinin qüdrəti çatmaz.

Misal olaraq, o, İsmayıl Mirzənin mədhində bir qəsidə yazmışdır ki, oradakı bir misrada İsmayıl Mirzənin taxta cülus tarixi verilmişdir. Onun xeyli qəsidəsi, qəzəli, tərkib və tərciləri** vardır. Amma, onun beşinci imam (xamesi-ali-əba) olan seyyidüş şühəda (şəhidlər seyidi) barəsində yazdığı mərsiyədə olduqca gözəl beytlər və dəqiq ifadələr vardır ki, onlar dövrün söz qulağının sırğasıdırlar və bu günədək ondan yadigar qalmaqdadır. Onun Şeyx Azəri əleyhirrəhməyə həsr etdiyi mərsiyəsinə bənzər şeri indiyədək heç bir şair yaza bilməmişdir ki, bu iki beyt ondandır:

Beyt[lər]

Keçdi başı o gün ki, o zatın o nizəyə,
Gün həm baş üstə gəldi səmadən enib yerə.

Qorxum bu: Ola öylə hökm qatil haqdə
Rəhmət sözü deyilməyə bir də dodaqdə.[240]

Yuxarıda işarə olunduğu kimi, cənab Mövlana Möhtəşəm iffətli şahzadə Pərixan xanımın mədhində də bir qəsidə demişdir ki, bu iki-üç beyt həmin qəsidədəndir:

Beyt[lər]

Röyadə də gələrsə əgər mərhəm olmayan,

Çenan budəm ke əz məsti ze-sər nəşnaxtəm pa-ra.

[240] Beytlərin farcası:
Ruzi ke şod benize səre-an bozorgvar,
Xorşid sər borəhne bər aməd ze-kuhsar.
Tərsəm cəzaye-qatele-y çon rəqəm zənənd,
Yekbare bər cərideye-rəhmət qələm zənənd.

Ay çöhrənə, xurşid üzünə eyləməz nəzər.

Hiss memarı çünki bunu gördükdə, həmin dəm
Röyanı gözündən onun, əlbət kənar edər.

Baxsa özü-öz surətinə gərçi güzgüdə
Qorxum bu ki, ismət də bunun əksinə gedər.

Əksi görünməsin deyə yan eylə əksini
Həm güzgüdən, həmi də sudan, ey qəza-qədər.[241]

Mövləvinin dilindən xüsusi şəkildə çıxan rəngin aşiqanə qəzəlləri də çoxdur və [bir] qəzəlinin mətləsi (birinci beyti -Ş.F.) olduqca gözəldir:

Beyt

Hər sərvqədi tutmağa Tanrı kəmənd verib,
Əlbət, gözəlliyi sənə qəddi-büləndverib.[242]

Bu müxtəsər yazının həcmi imkan vermir ki, bəlağətli şairlərin şerləri haqqında çox danışaq. Buna görə də müxtəsər söz dedik.

Əmləhüş-şüəra (şairlərin ən duzlusu - Ş.F.)

Mövlana Vəli: Cənab Mövləvi Xorasanın Qayin vilayətinin Dəşti-Bəyaz əyanlarındandır. Şirindil, xoş söhbət, natiq adam idi. Onun qəzəllərinin hər beyti təmizlikdə, ifadəli və aydın (ğorra) qəsidələri isə böyük fəsahət və bəlağətdə bir dürdanədir.

---

[241] Beytlərin farcası:
Dər xab niz na nətəvanənd nəzər fekənd
Naməhrəmi bər an məh-o xorşid ehtecab.
Nəbud əcəb əgər konəd əz dideye-zokur
Memare-karxaneye-ehsas məne-xab.
Xod həm be əkse-surəte-xod gər nəzər konəd,
Tərsəm ke, esmətəş konəd eraz əz etab.
Fərman dəhəd ki, əkspəziri bu əhde-u
Birun bərəd qəza həm əz ayinə, həm ze ab.

[242] Beytin farcası:
Ey gərdəne-boləndqədan dər kəmənde-to,
Rənayi afərideye-qədde-bolənde-to

Cənnətməkan şahın zamanında, həmin vilayətin izzətli seyidlərdən Xocazadənin yoldaşlığı və öz istəyinə görə ali orduya gəlib bir neçə müddət Qəzvin darussəltənəsində yaşamışdır. O, Mövlana Zəmiri və humayun paytaxtın şairləri ilə dostluq edir və onlarla həmsöhbət idi. İsgəndər şanlı nəvvabın dövründə Xorasana getdi. Xorasanda Yetim Sultan Özbəkin durğun hakimiyyəti zamanı muğam ifaçılığı üstündə onun töhmətinə gəlir, nəticədə qətl edilir. Yetim Sultan Özbək bu hərəkətini təmizə çıxartmaq məqsədi ilə deyirdi ki, şairlərin dilləri acıdır, mövlana məndən incidiyi üçün düşündüm ki, Allah eləməmiş, o, birdən məni həcv edər və həmin həcv həyatın səhifəsində qalıb gələcək nəsillərə çatar. Xorasan əhli olan bir şəxs ona cavab verib dedi: "Hansı həcv bundan daha pis ola bilər? Axı, cənab sultan zəmanənin yeganəsi olan belə bir şəxsi öldürüb, belə pis əməl həyata keçirmiş və öz həyat səhifəsində bədnamlıq yazısı yazmışdır". Yetim Sultan onun, bu sözləri ilə razılaşmışdı. Amma, nəticədə həmin sözlərin müəllifi belə bu sözlərin cəzasına yetişib qətl edildi. Elə bu məqamda, onun həzrət İmam Əli ibn Əbitaleb əleyhüssəlamın - salam olsun ona – mədhi xüsusunda nəzm etdiyi qəsidəsindən bir neçə beyt gətirmək lazım gəldi.[243]

Mövlananın növbənöv qəzəlləri və aşiqanə tərzdə yazılmış beytləri vardır. Amma bu səhifədə onun bir neçə beytini verməklə kifayətləndik:

Beyt[lər]

Məni sanki o görmür, amma var öylə baxış məndə,
Bəla vermiş kəsi addım izindən də görən şəxsəm.[244]

* * *

Səndən ötrü ürək eşqində yanan olsun qoy,
Şövqümün gözləri daim nigəran olsun qoy...[245]

---

[243] Misraların vəzni ənənəvi əruzun müəyyən bəhrindən xaric olduğundan tərəfimizdən tərcümə olunmadı. - Ş.F.

[244] Beytlərin farcası:
Mə-ra nadide əngarəd, əmma bineşi darəd
Ke nəqşe-paye-möhnətdide əz asude beşnasəd.

[245] Del be rahe-tələbət gərm ənan mibayest,
Dideye-şovqəm əz in beh negəran mibayest.

Mövlana Vəhşi Yəzdi: O, ustad şairlərdən və fəzilətli ustadlardan idi və həmişə Yəzd darülibadında yaşayırdı. Qəzəl və məsnəvi yazmaqda dünyanın yeganəsidir. Təbinin nəticəsi kimi nəzm etdiyi "Fərhad və Şirin" kitabı xalq arasında məşhurdur və orada yüksək keyfiyyətli, şirin, mənaca rəngin və bəhağətli beytlər vardır. Həmin kitabın şairanə tərzdə yazılmış beytləri olduqca çoxdur...

O [kitabdan] bu qitəni verməklə kifayətləndik:

Qitə

Casuslar güdərdi elə Pərvizi,[246]
Bilsinlər haraya gedir Şəbdizi.[247]
Dəysəydi atının nalı bir daşa,
Qığılcım qopsaydı ondan birbaşa,
Hələ o qığılcım sönməzdən əvvəl
Şirinin məclisi tutardı xəbər[248]

Onun qəzəllər divanında da aşinanın və biganənin dilindən aşiqanə beytlər deyilmişdir.

Xacə Hüseyn Sənayi Xorasani: Müqəddəs Məşəhəddəndir. O, vaxtı ilə Sultan İbrahim Mirzənin xidmətində işləyirdi və o cənabdan çoxlu hörmət görürdü. Qəsidə yazan şairdir şerlərinin yüksək mənaları vardır. Amma bəzi qəsidələrində elə mənalı fikirlər mövcuddur ki, dövrün əksər səxənvərləri onların mənasını dərk etməkdə acizdirlər...

Mir Heydər: Hüseyni Təbatəbai seyidlərindəndir və oranın soyurqal sahiblərindəndir. O, müəmma* yazmaqda misilsiz və tarixguyidə** (maddeyi-tarix - Ş.F) tayı-bərabəri olmayan adam idi. Yaşı doxsanı keçmişdi, amma, aşiqlikdən əl çəkmirdi. Cənnətməkan

---

[246] Sasani hökmdarı Xosrov Pərviz.
[247] Pərvizin atının adı.
[248] Qitənin farcası
Be casusan seporde rahe-Pərviz
Xəbərdar əz şomare-game-Şəbdiz
Əgər bər səng xordi nəle-şəbrəng
Və-z an xordən şərari cəsti əz səng.
Hənuz asare-gərmi ba şərər bud
Ke-z an dər məclese - Şirin xəbər bud.

şahın zamanında Kaşanda, oranın vəziri, mənəvi əxlaq və zahiri camal sahibi Mirzə Cəfərin - Mirzə Bədiüz - Zamanın oğlunun yanında yaşayır və onunla həmsöhbət olurdu. Mirzə Cəfər Hindistana gedərək, yüksək Asəf (vəzir - Ş.F.) rütbəsinə yetişdi. Cənab mirzə də (yəni Mir Heydər - Ş.F.) əlahəzrət züləllah şahın hümayun cülusu zamanı Mirzə Cəfərlə görüş şövqünə düşərək Hindistana getdi, onun vasitəsiylə Cəlaləddin Məhəmməd Əkbər padşahın xidmətinə girib, onun məclis üzvlərindən biri oldu. Asəf xanın (yəni Mirzə Cəfərin - Ş.F) təbiətində xəsislik olmasına baxmayaraq minlərlə tümənə-şahiye-İraqi məbləğində olan otuz min rupiyeyi-Əkbəri pulunu o cənaba (Mir Heydərə - Ş.F) verdi. O, padşah tərəfindən də böyük hörmətlərə layiq görüldü. Həmin Ölkədə yaşadıqdan bir qədər sonra həccə getmək fikrinə düşərək, bu səadətlə şərəfləndi, iki il Məkkeyi-müəzzimədə qaldı. "Hübbül-vətoni min əl-imani" kəlamına[249] uyğun olaraq qayıdış əli onun yaxasından tutdu, Kaşanına gətirdi.

Burada da o, hümayun əlahəzrətin ənamları və soyurqalları ilə bəhrələndi. Mirzənin şerləri qitə, qəsidə, qəzəl və saysız-hesabsız [maddeyi] - tarixdən ibarətdir. Bu səhifədə onun minacat (Allahın tərifi - Ş.F) kimi yazdığı bir rübai-sini verməklə kifayətləndik.

"Vətən məhəbbəti imandandır" (ərəbcə)

Rübai

Zahid günah etmir ki, Özün qəhharsan[250],
Batdıq günaha bizlər isə - ğəffarsan[251].
"Qəhhar" dedi zahid Sənə, bizlər isə "ğəffar",
Yarəb, de özün, hansını sən xoşlarsan?[252]

Mövlana Məlik Teyfur Əncidani və onun qardaşı Mövlana Dai: Hər iki qardaş hal əhli, fəzilət və kamal

[249] "Vətən məhəbbəti imandandır" (ərəbcə).
[250] Qəhhar - "cəza verən" - Ş.F.
[251] Ğaffar - "bağışlayan" - Ş.F.
[252] Rübainin farscası:
Zahed nəkonəd gonəh ke qəhhariye-yo,
Ma ğərqe-gonahim ke ğəffariye-to.
U qəhharət guyəd-o ma ğəffarət
Yarəb, be kodam nam xoş dari to

sahiblәridirlәr. Cәnnәtmәkan şahın vaxtında Mәlik Teyfur Qәzvininin mәdrәsә vә minbәrlәrindә işlәyirdi. Avara-avara veyillәnәn, bir yerdә dayanmayan (sәyyar) vә peşәsi aşiqlik olan adam idi. Olduqca mömin olmasına baxmayaraq xoş üzlü vә gözәl simalı cavanları bәrk xoşlardı. Vasvasılıq onun tәbiәtindә üstünlük tәşkil edirdi. Hümayun әlahәzrәtin hakimiyyәtini zamanı Qәzvindәn Kaşana getdi. Tәbiәtinә xas olan gözütoxluğa görә, kasıblıq vә arpa çörәyi yemәklә kifayәtlәnәrәk özünü tamahkar adamlardan uzaqlaşdırdı. Onun şerlәri içәrisindә olan bu bir beyt bir divana bәrabәrdir:

Ey Mәlik, qantökәn olmuş deyә zülmün bıcağı, Qorxuram sövq edәcәkdir mәni qatil evinә.[253]

Bu beyt dә onundur:

Hoqqayә bax ki, saqi mey tökdü eyni qabdan-
Xәlqin qәdәhinә mey, mәnim qәdәhimә qan.[254]

Onun qardaşı Mövlana Dai o vaxtlarda hәrdәnbir Kaşana gәlib, oranın şairlәri vә әhalisi ilә söhbәt edirdi. O da, nәfsitox vә dәrvişxillәt adamdır. Çoxlu gözәl şerlәri, xoşagәlәn qәsidә vә qәzәlli vardır. Onun bir rübaisini verməklə kifayәtlәndik

Rübai

Zülfü qara bir siyahkar vurdu mәni,
Mәndәn nә qalar kimsәyә?
Mar vurdu mәni Biçarә qalan bu aşiqi incitmә,
Vurma onu sәn dә, ruzigar vurdu mәni.[255]

[253] Beytin farscası:
Xunçekanәst, Mәlik, tiğe-setәm, mitәrsәm
Ke pey axәr bedәre-xaneye-qatel berәvәd.
[254] Beytin farscası:
Neyrәng bin ke saqi әz yek qәrabe rizad
Xun dәr piyaleye-ma, mey dәr әyağe-mәrdom
[255] Beytlәrin farscası:
Ta an zolfe-siyahkarәş zәdeәst,
Manәd be kәsi deläm ke maräş zәdeәst.
Azare-dele-aşeqe-biçare çera?
An-ra çe zәni ke ruzigarәş zәdeәst.

Mir Valehi Qumi: Mömünlər şəhəri olan Qum seyidlərindəndir. Şirinkəlam, xoşsöhbət, bamәzə və duzlu sözləri olan şairdir. Musiqi elmində mahirdir. Verdiyi vədə və etdiyi əmələ sadiqdir. Əsərləri gözəl nəğmələr və böyük mənalı aşiqanə şerlərdir. Bu məşhur beytlərini verməklə kifayətləndik:

Beyt

Külək ayaqladı bülbül quran yuvanı, dedi:
Gərək əsir olanın xanəsi viran olsun...[256]

Mövlana Məlik Qumi: Xoş şerləri olan şairdir. Lap şairliyinin başlanğıcında da onun şerlərindəki şirinlik başqalarının şerlərində yox idi. Cavanlığının əvvəlində püxtələşmişdi və dediyi sözlər bamәzə və yetkin idi. O, İrandan Hindistanın Dekən [şəhər]inə gedib, Adilşahın xidmətində ömr sürdü. Mövlana Zühuri ilə birlikdə doqquz min beytdən ibarət onu "Kitabe-novrəs" ("Təzə kitab" adlı bir əsər yazaraq) Adilşaha ithaf etdilər ki, hər birisi dörd min beş yüz beyt yazmışdı. Həmin doqquz min məbləğində olan pulu yarı böldülər.

Bu bir neçə beyt şer onundur:

Beytlər

...Səni aşiqlərinin ehtiyacı nazlı etmişdir!
Vəfalı bir nigar idin, səni mən bivəfa etdim...[257]
...Yanıma gəlmək idi istəyi yarın, amma
Qəmzəsi keçdi ona dərs, peşiman etdi...[258]

Mövlana Fəhmi: Köhnə soxənvər şairdir. Kaşanda Mövlana Möhtəşəmdən sonra özünün yeganə şair olduğundan dəm

[256] Beytlərin farscası:
Bər aşiyaneye-bolbol nəsim pa zəd-o goft
Ke xanemane-əsiran xərab mibayəd.
[257] Beytlərin farscası:
Niyaze-aşiqanətra tora bər naz midarəd,
To sər ta pa vəfa budi, tora mən bivəfa kərdəm.
[258] Dər deləş, bud ke, yek çənd bər ayəd ba ma,
Qəmze təlime-soxən kərd-o peşimanəş kərd.

vururdu. Başqa əmirlərdən hörmətli və üstün idi. Hamı üçün onun sözləri qanun idi. İsfahan vəzirinin tərifində dediyi qəsidə olduqca gözəldir. Aşiqanə qəzəllərindən bu beytlər məşhurdur.

Beyt

...Göstərmə mənə cilvələrin, çünki heyfdir.
Qoy ki, mən ölüm təkcə təmənnan ilə, ey şux.[259]

Mövlana Hatəm Kaşi: Şirinsöz şair idi. Mövlana olduqca qara rəngli adamdı. Kaşanın zarafatcıl şəxsləri onu "Hindu" adlandırır, yanında olduqları vaxt Hindistandan danışırdılar. Bu zarafatlardan, onun qanı qaralırdı. Bir gün qara şalvar (çaqşur) geyinmişdi. Xoştəb adamlardan biri [onun üzünə baxıb] soruşdu: "Molla, bəyəm sən şalvarının balağını yuxan çəkmisən?" Cənab mövləvi həmişə belə zarafatların hədəfi olurdu. Qəzəl deməkdə bənzərsizdi. Bu bir neçə beyt onundur:

Beytlər:

...Həşrdə sorsalar "Öldürmüsən sən Hatəmi neyçün? "
Dilin qoy hər nə istərsə desin, mən eyləyim təsdiq.[260]

Qıllam namaz, amma ürək eylər bütə səcdə,
Bəs, harda bürəhmən ki, gülə öylə nəmazə?[261]

Mir Hüzuri Qumi: Dövrün əməllisaleh, ruzigarın pakizə seyidi idi. İllərini ali məzargahlarda taət və ibadətlə keçirmişdi. Cənnətməkan şahın vəfatı və Qəzvin darüssəltənəsində İsmayıl Mirzənin cülusu zamanı o da ali sarayda idi. Mirzə artıq yaşlaşmışdı və yuxarı təbəqə yaşının çoxluğuna, seyidliyinə və şeyxliyinə görə

[259] Bər həmço məni celvegərihaye-to heyfəst,
Bogzar məra ta betəmənnaye-to mirəm.
[260] Beytlərin farscası:
Beməhşər gər beporsəndət ke, Hatəmra çera koşti?
Sərət gərdəm, çe xahi goft la mən həm həman guyəm.
[261] Beytlərin farscası:
Mən dər nəmaz-o səcdeye-bot mikonəd deləm,
Ku berhəmən ke xənde konəd bər nəmaze-mən.

onunla izzət və ehtiramla davranırdı. Şeri az yazmağına baxmayaraq, qəzəldə şirin söz sahibi olan şairdir. Bu beyti yaxşı deyib:

Beyt

İntizar zövqü bəsim, və dini mən gözləyirəm
Ki, sənin həsrətinə eyş ilə işrət çatmaz...[262]

Mir Səbri Ruzbehan İsfahani: İsfahanda yaşayırdı. Atası Ərdəstan seyidlərindəndir Qəzəl şairidir və bu beytlər onundur:

Beyt[lər]

Kimdir o, həya örtüyünü başına atdı,
Gördükdə ədəbsizliyimi qüssəyə batdı.

Mən böylə rəhmsiz kəsi Haqdan diləyirdim,
Çatdırdı cəzaya məni, məqsudinə çatdı.[263]

Mirzə Hesabi Nətənzi: Nətənz əhlidir və Məhəmməd Qasım Müstovfinin* qohumudur. Qabiliyyətli cavan idi. Yaxşı şer deyirdi. Musiqi elmində mahirdi. Onun baməzə təsnifləri və bədii nəqşləri İraqda dillər əzbəridir. O, vaxtını Qəzvində, Güllər xanın eyş-işrət məclislərində keçirir, günlərini gözəl adamların söhbətlərindən nəyi isə əxz etməyə sərf edirdi. Bu kitab yazılan vaxt onun şerlərindən yadımda qalan bu iki beyt məşhurdu:

Beyt

...Həkim qeyri-həqiqi nöqtədən məclisdə söz açdı,
Hamı əndişəyə, mənsə dəhanın fikrinə düşdum.[264]

---

[262] Ze vədehaye-toəm, zovqe-entezar bəsəst
Ke hiç eyş bərabər be entezare-to nist.
[263] An kist ke, əz şərm-o həya pərdeneşinəst
V-əz didəne-qostax-e mənəş çinbecəbinəst.
Birəhme-çeninra ze Xoda mitələbidəm
An kos ke səraye-dele-mən midəhəd inəst.
[264] Beytin farscası:

Hesabi, yar ilən söhbət gərəkdir ki, qəşəng olsun.
Çatıbdır xoş görüş vaxtı, özümdən getmisəm mənsə.[265]

Buna görə də onun şerlərinin hamısı gözəgəlimlidir. Onun qəsidə[266] və qəzəllərindən bu bir neçə beyt şer bu səhifədə səbt olundu:

Onda ki, şux nəzərin xaneyi-kəmanə dəyir,
Atılan oxlara bax ki, neçə min canə dəyir.

Sən bu halsiz ürəyə qəsd eləyib atsan da,
Necə yersizsə də ox, amma ki, nişanə dəyir.[267]

Qazi Nur İsfahani: O, İsfahanın Əndəlan adlı yerindəndir. Elm öyrənənlər zümrəsinə daxil idi. Qəzvində Xacə Əfzəl Türkə ilə əlaqəsi vardı və fəziləti ondan əxz etmişdi. Bəzən Mir Fəxrəddin Səmakinin məclislərində şagirdlik edirdi. O zamanlarda [hələ] şer və şairlikdə məşhur olmamışdı. Şerləri olduqca azdır, amma xoştəbiətli, şirin danışıqlı bir şəxsdir. Parlaq təbinin dənizindən zühur sahilinə çıxan nümunələrinin tayı-bənzəri yoxdur. Deyilənə görə, Şeyx Feyzi Hindi bu beytini onun şəninə söyləmişdir.

Beyt

Dürd* yoxsa sözüm içrə təəccüblü nə var ki?
Saf eyləmişəm badəni qəlb pərdəsi ilə.[268]

Həkim əz noqteye-movhum hərfi qoft dər məcles,
Be fekri rəft hər kəs, mən be fekre-an dəhan rəftəm.

[265] Beytin farscası:
Hesabi, yar mibayəd be ayini ke midani
Tora didar ərzani ke mən əz xiştən rəftəm.

[266] Qeyd: Əslində aşağıda Qazi Nur İsfahanın qəsidəsindən yox, bir qəzəlindən misal gətirilmişdir.

[267] Beytlərin farscası:
Gəhi ke, çeşme-to dər xaneye-kəman ayəd,
Şekəst bər səfe-çəndin hezar can ayəd.
To çon beqəsde-dele-xəste navək əndazi,
Əgərçe tire-to bicast bər neşan ayəd.

[268] Beytin farscası:

Mövlana Hüzni: Elm öyrənən, fazil, şux təbli adamdı, çox yaxşı şer yazırdı və şeri yaxşı da başa düşürdü. Beytlərin mənasını anlamaqda qarşıya çıxan hər çətinliyi, həmçinin şairlərin dolaşıq fikirləri mübahisəyə səbəb olduqda onları yaxşı izah edirdi. Təbi olduqca çiçəklənmişdi. Üləma və fuzəla zümrəsindən olmaq istəyirdi. Şeri başa düşməkdə, şairlərə xas boşboğazlıq (hərzegərdi) etməkdə və zarafatcıllıqda başqalarından üstün olduğu üçün şair kimi məşhur oldu. Onun bu beyti dillər əzbəridir:

Beyt

Çəməni gəzdi Züleyxa və dedi həsrətlə:
Edirəm zindanı yad, orda [o Yusif] vardı.[269]

Bu beytlər də onundur:

İstisindən ciyərin nəmli gözüm yandı dünən,
Çırağı gözlərimin sübhəcən odlandı dünən...[270]

Mövlananın bu məqtəi (son beyt - Ş.F.) də məşhurdur və həqiqətən də aşiqanədir:

Hələ eşq tazə başlanmaqdadu; Hüzni, gəl az ağla
Ki, ağlarkən edir pərvaz ürək qəm-qüssəsi candan[271]

Mövlana Həlaki Həmədanı: Dərvişxislət adam idi. Savadı yoxdu. Əsla dərs oxumamışdı və bazarda gördüyü hər kəsdən

---

Gər dord nist dər soxəne-mən, əcəb mədar,
K-in badera be pərdeye-del saf kərdeəm.

[269] Beytin farscası:
Dər çəmən bud Zoleyxa və behəsrət migoft:
Yad zendan ke, dər-u əncomənarayi bud.
[270] Beytin farscası:
Ze gərmiye-cegərəm duş çeşme-tər misuxt,
Çerağe-dide be rahe-to ta səhər misuxt.
[271] Beytin farscası:
Hənuz in əvvəli-eşqəst, Hozni, gerye kəmtər kon
Ke vəqte-geryeheye-dərde-del pərvaz miayəd.

iltimas edərdi ki, onun dediyi şerləri onun üçün kağıza yazsınlar. Xalqa uzun müddət onun bu cəhəti məlum olmadı. Qəzəl və qəsidələri var. Onun bu beyti olduqca məşhurdur:

Mənim tək çoxbilənsən sən, fəqət bilməzlik eylərsən,
Həlak olsun sənin tək qoy Həlakiye-Həmədani[272]

İsmayıl Mirzənin təbrikinə bir qəsidə demişdi və həmən bir neçə gündə saraya gəlib onu təqdim etdi, on iki min tümən mükafat aldı. Bundan həvəslənən başqa şairlər də [İsmayıl Mirzənin] şəninə qəsidələr yazdılar, amma onlara mükafat verilmədi.

Məzhəri Kəşmiri: Xoş simalı, yaraşıqlı (vəcih) və məlahətli hüsnü olan bir cavan idi. Hüsnünün cizgiləri gözəllərin çöhrə vərəqəsinin üstündən xətt çəkmişdi. Şirin sözləri dünya süxənvərləri arasında şur və vəlvələ yaratmışdı. Gəncliyinin başlanğıcında ürəkaçan Kəşmir vilayətindən şairlərlə tanış olmaq və onlardan öyrənmək məqsədi ilə İrana gəldi. Bir neçə vaxt bu diyarda dolandı və yenidən səfərə əzm edib öz ölkəsinə qayıtdı. Bu beytlər onun şerlərindən [seçilib] səbt olunur:

...Qəlbimi etdi gəlib qayğılı, çox əyləşdi
Və pərişan ürəyə verdi təsəlli o pəri.

Məcnunun gözləri görmür daha biganə kəsi,
Dedi o: "Var idi Leyladə yaxın dost nəzəri. "[273]

Qəzvin darüssəltənəsinin şairləri: Bir neçə nəfər təb sahibi olmuşdur ki, o vaxtlarda qızğın şairliklə məşğul idilər. Onların bəziləri məşhur oldu. O, mülkün əhalisi kasıblıqla güzaran keçirir. Şair və nədimlərin arasında da tamahkar adamlar olduğuna baxmayaraq, Qəzvin şairlərindən tamah naminə qitə və qəsidə yazanlar az olmuşdur. Xülasə, kasıbçılıqla dolanan və adlarını

[272] Beytin farscası:
To tovre-mən həme dani-yo bogzəri betəğafol
Həlake-tovre to gərdəd Həlakiye-Həmədani.
[273] Beytlərin farscası:
Rəsid moztərebəm kərd-o anqədr beneşəst
Ke aşenaye-dele-xod konəm təsəllira.
Bebəst dideye-Məcnun ze xiş bigane
Çe aşena negəhi bud çeşme-Leylara.

yazacağımız bir neçə əziz [qəzvinli şair] bu peşədən özlərinə dolanacaq pulu qazanırdılar. O cümlədən:

Mövlana Füruği Əttar: Söz qədrini bilən və hal sahibi olan bir adamdı, əttarlıqla məşğul olurdu. Dükanının qabagı nəzm sahiblərinin yığıncaq yeri idi. Alver zamanı şairlərlə şer barədə söhbətləşirdi. Onun qəzəllərinin bu iki-üç beyti əttarların dibçəyi kimi müşk ətri saçır və dövran süxənvərlərinin burnuna dolurdu.

Səndən ayrı, ondan ötrü ölmürəm rahətcə mən
Qalmayıbdır öylə zalimlik ki, etdin sən mənə.

...Sən kimi namehribanə kim ki, vermişdir könül,
Öylə covr etdin ki, sən indi o bədbəxt can verir.[274]

Mövlana Təbxi Qəzvini: Boyu balaca, dərvişxislət, xoş görünüşlü bir adam idi. Qəmkədərdən çox danışardı. Kasıb, nakam və ehtiyaclı binəva [şairlər] səhər-axşam onun təbbaxlıq [aşxana] dükanında vaxt keçirirdilər. Onun bu iki-üç beyti məşhurdur:

Beyt

Ol gün ki, dişlədi ayağımdan onun iti,
Gəlməkdə sümükdən hələ də nalə səsləri.[275]

Mövlana Təbxi Mir Hümayunun divanma cavab da yazırdı. Mirin divanındakı qəzəllərdən bu beyt yaddaşdadır:

Qətlgahdan başıma qəm samanı yağmaqda,
Orda bir arpaya dəyməz fələyin xırmanı.[276]

---

[274] Beytlərin farscası:
Dər farağat z-an nəmimirəm ke, nayəd bəs delet
K-an setəmnadide ruzi çənd ba hecrəm nəsaxt.
Şadəm ke, hər ne del be to namehriban dəhəd,
Çəndan bexak-o xiş təpani ke, can dəhəd.

[275] Beytlərin farscası:
Ruzi ke beşkənəd səge-u ostxane-mən,
Ayəd sədaye-naleəm əz ostxan hənuz.

[276] Kahe-qəm bər sərəm əz koştgəhi mibarəd
Ke be yek çov nəbovəd xərməne-əflak anca.

Sultane-füqəra: Cavanlığında sərraflıq və dərzilik edirdi, kasıbdı, dərviş libası geyinirdi. Şerdə Xacə Hafiz Şirazinin işlətdiyi bədi üsulunu yamsılayırdı. Xacənin "Divan"ına cavab yazır, ona bərabər olduğunu iddia edirdi. Bir müddət Hind vilayətində yaşadı. Yenidən İrana qayıdıb, günlərin bir günü əlahəzrət şahın (Şah Abbasın - Ş.F.) yanına yol tapdı və ondan lütf və ehtiram gördü. Müqəddəs Məşhədi özünə vətən etmək fikrinə düşdü, oranın sərkarının yanında işlədi. Əcəl isə onun ömür vəzifəsini imzaladığından o, öz məqsədinə çata bilmədi. Onun Hafiz qəzəllərinə cavab olaraq yazdığı bu beyt xatirimdədir:

...Qapısı bağlı deyil heç kəsə meyxanəmizin,
Necə mümkündü deyim mən ki, "mələklər döydü".[277]

Kakaye-Qəzvini: Xurmayı çöhrəli, xoş görkəmli bir adamdır. Meyvə satmaq və baqqallıq etməklə məşğul olub, bu peşələrin sayəsində güzəran edirdi. Burada yazılan bu iki-üç beyt onun məşhur qəzəllərindəndir:

Beyt[lər]

Qətlimi sabbahə saxlar ol pəripeykər yenə,
Qorxuram sübh eyləyər bir və deyi-digər yenə.[278]

Qorxuram ki, hövsələm gər kəm olarsa, kəc baxar,
Sərxoşa, əlbəttə, meysaqi verər kəmtər yenə...[279]

Mövlana Şərmi: Xəyyatlıq edən bir oğlan idi və bazarda kasıbkarlıq işləyirdi. Olduqca utancaq və sevməli adamdı. Elə utancaq olduğundan da şairlərlə az görüşürdü. Şairlərdə az-az görünən utancaqlıqdan və öz həyasının çoxluğundan özünə "Şərmi"

[277] Dəre-in xane ke, bər ruye kəsi bəste nəşod,
Çe təvan goft məlayek dəre-meyxane zədənd.
[278] Beytlərin farscası:
Vədeye-qətləm befərda an pəripeykər dəhəd,
Leyk mitərsəm ke, fərda vədeye-digər dəhəd.
[279] Çon konəm bitaqəti suyəm kəm əndazod nəzər,
Hər ke bədməsti konəd saqi meyəş kəmtər dəhəd.

təxəllüsünü götürmüşdü.[280] Ramәndi (?) dilində və Hafiz Sabuni tərzində duzlu şerlər yazırdı. Axır vaxtlarda qəzəldə çox inkişaf etdi. Onun bu beyti olduqca ali və təravətlidir.

Beyt

Tazə etdim dırnağımla sinəmin mən dağını,
Güllәriylə eşqimin pakizə etdim bağını.[281]

ÇALĞIÇI MÜTRİB VƏ NƏĞMƏ OXUYANLARIN (ƏHLİ-NƏCME) ADLARI

Cənnətməkan şah qadağan olunmuş işlərdən çəkindiyi üçün tərəb sahiblərinin[282] onun şəri nəzərində mövqeyi və etibarı qalmamışdı. Ustad Hüseyn Şüştəri Bəlyam və hümayun nağaraxananın zurnaçısı olan Ustad Əsəddən başqa əyan-əşrafın xidmətində olan bütün tərəb sahibləri işdən kənar edilmişdilər, bu təbəqədən heç kəsşahin mülazimi deyildi.

[Şah] həyatının sonunda, şahzadələrin onlara rəğbət etməmələrindon ötrü, qadağan olunmuş işlərə rəğbətləri olan bəzi lələ və dədəni, o cümlədən orduda şöhrət qazanmış tərəb əhlindən sərrast nitqli və dadlı-duzlu avazı ilə dünya şöhrəti qazanmış Hafiz Əhməd Qəznəvini, Hafiz Lələ Təbrizini və hələ də orduda qalan başqalarının günah işlədəcəklərini ehtimal edib ordudan xaric etdi. Məclislərə gedən Ustad Hüseyn Zurnaçını (Surnayini) tutub bir neçə gün həbs etdilər. Nəhayət ona and içdirdilər ki, humayun nağaraxanadan başqa [bir də] heç yerdə zurna çalmayacaqdır. Amma, şahın vəfatı vaxtı bütün tərəb sahibləri İsmayıl Mirzənin dövründə [yenidən] orduda cəmləşdilər.

Natiqlərdən Əhməd nitqdə olduqca mahir, avazda başqalarından üstün idi.

---

[280] "Şərmi" elə "utancaq" deməkdir - Ş.F.
[281] Tazə misazəm benaxon baz dage-xişra,
Ab-o rəngi midəhəm golhaye-bage-xişra.
[282] Ərbabe-lərəb - çal-çağır sahibləri, yəni musiqiçi və xanəndələr – Ş.F.

Hafiz Cəlacel[283]***:*** Xanəndəliyi və nitqi özündə cəmləşdirmiş və hər iki sənətdə kamal mərtəbəsinə çatmışdı və bu qismdən olanlardan üstün idi. İsmayıl Mirzənin dövründə "Çalçıbaşı"[284] oldu. Bu beyt onun vəziyyətinə münasibdir:

Şer

Necə xoşdur ki, əgər olsa da səhra içrə
Qulağa qoy dəyə hər ləhzə Cəlaceldən səs.[285]

Əlahəzrətin (Şah Abbasın - Ş.F.) xoşbəxt hökmranlığı vaxtı onunla tam yaxınlığı (qorbe-mənzelət) vardı. O, Qəzvin darüssəltənəsində özünün axirət ahəngini çaldı.

Hafiz Müzəffər Qumi: Xatirələrdə qalıbdır ki, xanəndəlik Xorasan əhalisinə, natiqlik isə İraq əhlinə xasdır. Baxmayaraq ki, Hafiz Müzəffər İraqlı idi, amma Xorasan üsulu ilə xanəndəlik edirdi. Bu şivə hal-hazırda da İraqda dəbdədir.

Hafiz Haşim: O vaxtlarda başqa tərəb əhli ilə birgə olmamasına və şöhrətinin azlığına baxmayaraq, son vaxtlarda bərk inkişaf etdi. Onun səsinin şöləsi fələyə yüksəlirdi. Mərhum şahzadə Sultan Həmzə Mirzəyə yaxın adam idi. Həmyaşları və özü qəbilindən olanlar arasında hamıdan irəli idi.

Mirzə Məhəmməd Kamançeyi: Tayıbərabəri olmayan sazəndə idi. İsmayıl Mirzənin hakimiyyəti vaxtı mülazim olmuşdur. Başqalarından baş idi.

Məhəmməd Mömin: Bənzərsiz ud çalan və misilsiz sazəndə idi. Mizrabın itiliyi və əlinin bərəkəti onun çalğısına elə siyarət etmişdi ki, başqa bir əl onunla rəqabətə girə bilməzdi. Öz peşəsində vahid və hamıdan fərqlənən sazəndə idi. Xan Əhməd Gilanın[286] mülazimətinə girib Gilana getdi və cavanlığının əvvəlini orada keçirdi.

---

[283] Cəlacel - zınqrov deməkdir ki, atın sinəsinə bağlayırlar (Bax: D-r M.Moin. Göst. lüğət, c. I, s.1235).
[284] Güman ki, "çalğıçıbaşı" mənasındadır - Ş.F.
[285] Şerin farscası:
Ey xoş an dayereye-daməne səhra ke dər u
Hər zaman həmço Cəlacel befəğan ayəd cel
[286] Məşhur Gilan hökmdarı Xan Əhməd Gilani.

Şahsuvar: Dörd simli tənbur (tənbure-çəhartar) çalırdı. Ustadlıqda vahid olduğunu deyərdi, amma çalğısının bir o qədər də məzəsi və yapışıqlığı yox idi.

Şəmsi Şotorğuhi: Misilsiz ustad idi, yüksək mükafat almışdı. Məzəli təsnifləri vardı. Mərhum şahzadə Sultan Həmzə Mirzənin zamanında mülazim oldu. O, həmin həzrət şahzadənin yanında möhtərəm, şəfqətə layiq görülən çalğıçı idi. Əlahəzrət şahın vaxtında da saraya çox yaxın adamlardandı.

Ustad Məsum Kamançа: Onun tayı-bərabəri yoxdu. Vəramində bir çox qardaşlarının feyzi ilə sazəndəlik mərtəbəsinə yetişdi və nəğmə oxumaqda bütün qardaşlarından uca oldu.

Ustad Sultan Mahmud Tənbureyi: Bu peşədə misilsiz və bənzərsiz idi. O, Məşhəddə Sultan İbrahim Mirzənin xidmətində idi və oradan heç yana getmədi.

Mirzə Hüseyn Tənbureyi: O, bu peşədə bərk inkişaf etdi. İraqda ən yaxşı tənburnəvaz idi, amma cavan yaşında bəqa aləminə yollandı.

Ustad Sultan Məhəmməd Çəngi: Çəng çalmaqda ustad idi. Bu sənəti kamal mərtəbəsinə çatdırmışdı.

Ətraf yerlərdə başqa sazəndələr də çoxdu, lakin biz bu bir neçə nəfərin adını çəkməklə kifayətləndik.

Qissəxan[287], şahnamaxanlar[288] və bu qisimdən olan başqa sənətkarlar çoxdur, amma bu iki üç nəfər barədə danışmaqla kifayətlənirik:

Mövlana Heydər Qissəxan: Tayı-bərabəri yoxdu və o vaxtlarda bənzərsiz bir [qissəxan] idi.

Mövlana Məhəmməd Xurşid İsfahani: O, da qissəxan idi. Yaxşı gənc idi. Amma, bu peşədən başı çıxan adamlar Mövlana Heydərə üstünlük verirdilər.

Mövlana Fəthi: Qardaşı misilsiz şahnaməxan idi. Avazının şöləsi asanlıqla bir fərsəx məsafədən eşidilirdi. Zənguləsi olduqca ürəyəyatandı. Xülasə, şahnaməxanlıq şivəsini kamal sərhəddinə çatdırmışdı.

[287] Dastan danışan - Ş.F.
[288] Firdovsinin "Şahnamə" əsərini məclislərdə qiraət edənlər - Ş.F.

MƏRHUM ŞAHZADƏ SULTAN HEYDƏRMİRZƏNİN ŞƏHİD OLMASININ ZİKRİ, İSMAYIL MİRZƏNİN ŞAHLIĞI VƏ ONUN BAŞINA GƏLƏN ƏHVALATLARIN ZİKRİ

Əvvəlki səhifələrdə yazdığımız kimi, cənnətməkan şaha üz verən müsibət gecəsi (yəni şah Təhmasibin vəfatı gecəsi - Ş.F.) səltənətə müddəi (iddiaçı - Ş.F.) və vəliəhd olan Sultan Heydər Mirzə ya çox möhtərəm atasının işarəsi, ya da anasının məsləhəti ilə dövlətxana qapısının yanında dayanmışdı və oranı öz məqsədinə yetmək üçün ən yaxın məsafə güman edirdi. Amma o, iqbalının olmaması və bəxtinin qaralığından öz istəyindən uzaq və həyat nemətindən məhrum oldu. Əqli naqis və qısa qadınların məsləhətinə əməl edən şahzadə öz yaxın adamlarını eşikdə saxlayaraq, özü dövlətxananın (sarayın - Ş.F.) içərisində gözləməyə başladı. Başqa tərəfdən də, təsadüfdən humayun dövlətxananın keşiyini [o gecə] İsmayıl Mirzəyə yaxın adamlar çəkirdilər və şahzadənin bundan xəbəri yox idi. Məlumdur ki, onlar dövlətxana qapılarını qapayaraq, onun tərəfdarlarından bir nəfəri belə daxilə buraxmadılar. [Sultan Heydər Mirzə isə] yaxınları olmadan orada gözləyib özünü o adamların məhbusuna çevirdi.

Başqa yandan da ruzigarın ağıllı qadınlardan olan Pərixan xanım ona zidd və İsmayıl Mirzəyə yaxın adam idi. Lakin, o, həmin gecə özünün Sultan Heydər Mirzə tərəfindən məhbus vəziyyətdə olduğunu gördü və şahzadə onun mütiliyinə və yağlı dilinə aldandı. Məsələ belədir ki, həmin hadisə [Şah Təhmasibin vəfatı - Ş.F] baş verən gecə [Pərixan xanım] özünün bəxt hərəmsarayında şahzadənin əlində əsir olduğunu bilərək, mülayimlik və tabe olmaqdan başqa bir çarə tapmadı, acizanə surətdə ərz etdi: "Qadınların əqli dayazdır. Əgər əqlimin nöqsanı və düşüncəsizliyim üzündən bir qüsurum olubsa, ümidvaram ki, təqsirimi əfv edəsən və məni bağışlayasan. Bundan sonra tabe olaraq sənə xidmət edəcəyəm və bu biçarə [bacın] tərəfindən sənin fikrinə qarşı bir tük ucu boyda da ixtilaf görməyəcəksən".

O, dərhal qardaşının ayağını öpərək Mirzənin anasına belə dedi: "Sən özün şahid ol: Şahlıq ayaqöpdüsündə və şahzadənin cülusunda heç kəsin məndən üstünlüyü olmayacaqdır".

Şahzadə bərk sadəlövh olduğundan bu yaltaqlığa inanıb, bacısına lütfkarlıq etdi və mehribanlıq göstərdi. Ona dedi ki, əgər sən mənimlə məhəbbət məqamındasansa, qardaşın Sullan Süleymanı

və dayın Şamxal Sultanı mənimlə yaxın etsən, xatirin mənim yanımda atamın vaxtı olduğundan daha da əziz olacıqdır.

Ülyahəzrət xanım bu sözü eşidib, sözlərinin təsdiqi kimi, şahzadəyə and içməyi təklif etdi, o, da boynundan asdığı Quranı (moshəf) əlinə (guya ki, Qurandır - Ş.F) götürüb, and içdi. Xanım rüsxət aldı və mənzilinə gedərək, qardaşını və dayısını onun yanına gətirdi. Şahzadə onun sözünə inanıb getməsinə izn verdi. O da hərəmxananın bağçasından At meydanına gedən yolu açaraq dövlətxanadan çıxdı və sarayın açarını dayısı Şamxal Sultana verdi. Şamxal Sultan şahzadənin düşmənlərindən olan üç yüz nəfər çərkəslə hərəmxananı ələ keçirdi və nəticədə, həmin müxaliflər hərəmxana bağçasına daxil olaraq, aşağıda yazacağımız kimi, şahzadəni şəhid etdilər. Ülyacənab xanımın sadəlövh qardaşına elə xəyanət etməsinə baxmayaraq, nəhayət nəticə etibarilə öz xəbisliyinin giriftarı oldu və ömürlə dövlətdən heç nə təmənna edə bilmədi ki, bunun şərhi öz vaxtında veriləcəkdir.

Xülasə, nəvvab mirzə (şahzadə Sultan Heydər - Ş.F) o günün ertəsi başına şahlıq tacı qoyaraq, cənnətməkan şahın xüsusi şəmşirini belinə bağladı, o həzrətin mübarək vəsiyyətnaməsini göstərib iddia etdi ki, həmin vəsiyyətnamə başdan-ayağa qədər o həzrətin əli ilə yazılmışdır və şah onu (Heydər Mirzəni - Ş.F) özünün vəliəhdi və qayimməqamı etmiş, bütün şahzadə, əmir, sufi və bu xanəndanın havadarlarına (tərəfdarlarına - Ş.F.) ona itaət etmələri barədə fərman vermişdir. Şahzadə həmin vəsiyyətnaməni çalmasının bir küncünə qoyub Cehelsütun sarayına qalxdı. Onun əleyhdarları deyirdilər ki, həmin vəsiyyətnamə padşahın mübarək xətti ilə yazılmamışdır, əksinə şahın xəttinə oxşar xətti olan bir hərəmxana xanımı tərəfindən o həzrətin ölümündən sonra yazılmış və şahın barmağından çıxarılmış üzüklə möhürlənmişdi. Düzünü Allah bilir. Xülasə, nəvvab şahzadə yüzbaşılara, qorçilərə, eşikağasılara və bütün dövlətxana qapısını qoruyan keşikçi və xidmətçilərə xeyli ənam və bol vədlər verdi. O, bir neçə dəfə əmr etdi ki, dövlətxana qapısını açıb, özünün eşikdə toplanmış mülazimlərini içəri gətirsinlər. Dövlətxanada olanlar isə onunla səhərdən axşama qədər ədəblə davranıb dövlətxana qapısının açılması barədə münasib üzrxahlıq edərək, baş vermiş bədbəxtlik (Şah Təhmasibin vəfatı - Ş.F.) münasibətilə ona təsəlli verirdilər. Kirman hakimi Qulu bəy Əfşarın öz qohumu olan, hərəmxana yüzbaşısı Vəli bəydən eşitdiyi bir hadisədə bildirilmişdir: Nəvvab

mirzə (şahzadə Heydər Mirzə - Ş.F.) məni (Vəli bəyi - Ş.F) yanına çağıraraq, Kirman hakimliyini və qorçibaşılıq mənsəbini vəd etdi, sarayı mühafizə edən qorçilərin yanına göndərdi ki, qapını açıb, onun mülazimlərini içəri gətirim. Mən bir qədər gedib geri qayıtdım və açıq-aydın ona dedim ki, qorçilər həyasızlıq edirlər və deyirlər ki, padşah ölmüş, qızılbaş tayfaları iki dəstəyə ayrılmış, o, dəstələrin isə hərəsi bir yerdə toplanmışlar. Biz isə, hər iki dəstəni tərk edərək, mübarək dövlətxananı, hərəmxananı və padşahın namusunu qoruyuruq ki, hər iki dəstənin əmirləri və dövlət başçıları sazişə gəlib bir iş törətməsinlər, əyan və ağsaqqalların məsləhəti ilə tərəflər vəziyyəti dəyişməsinlər. Vəlinemətin hüququnun qorunmasından başqa bir vəzifəmiz olmayan biz dövlətxah adamlar fitnə-fəsadın və əliuzunluğun önünu almaqla dövlətxanaya bir nəfərin belə gəlməsinə imkan verməyəcəyik.

Şahzadə onların onunla məkr və hiyləgərliklə danışdıqlarını anladı, qılınca ol ataraq dedi: "Mən artıq özümün qətl olunacağıma inandım."

Pərdə arxasından bu vəziyyəti müşahidə edən anası fəryad qoparıb, onun bu hərəkətinə mane oldu. Şahzadə pərt halda hərəmxanaya getdi. O, günün sonunadək əhvalı pərişan vəziyyətdə gah biruna (hərəmxananın çölü - Ş.F.) gəlir, gah da əndəruna (hərəmxananın daxili - Ş.F.) qayıdırdı. Ona məlum oldu ki, o, həmin adamların məhbusudur və öz yaxınlarının buraya gəlmək imkanı yoxdur.

Amma əmirlər və dövlət başçıları sübhə yaxın həmin məşum hadisədən xəbərdar oldular. Əmiraslan xan Əfşar [dərhal] Sultan Əhməd Mirzə ilə Hüseynqulu Xüləfanın mənzilinə getdi. Ərəs xan Rumlunun övladlarının mənzilində olan Sultan Məhəmməd Mirzə də oraya gəldi. İsmayıl Mirzənin tərəfdarları toplaşdılar. Şeyxavənd, ustaclı, gürcü camaatı, həmçinin başçıları Məsum xan Səfəvi, Həmzə Sultan Talış, Seyid bəy Kəmunə, Əlixan bəy Gürcü və Allahqulu xan Eycəkoğlu olan Sultan Heydər Mirzənin tərəfdarları isə Hüseyn bəy Yüzbaşının mənzilində cəm olub, o vaxt onun evində olan Sultan Mustafa Mirzəylə birləşdilər. Bəhram Mirzənin oğlu Sultan İbrahim Mirzə də oraya gəldi və həmin yerdə böyük bir dəstə toplaşdı. Heydər Sultan Çabuq Türkman, hakim Qulu bəy Əfşar, Məhəmmədqulu Zülqədər Möhrdar, Mirzə Əli Sultan Qacar və başqalarından ibarət olan əyan və əmirlər günün sonuna qədər öz mənzillərində dayanıb heç bir

dəstəyə qoşulmadılar. Xülasə, hər iki dəstə qapı önündə yığışıb, öz mətləblərinin hasilə yetişəcəyi saatı gözləyirdi. Sultan Heydərin tərəfdarları elə az və zəif idilər ki, həmin o dəstələrdən buraya nə üçün yığışdıqlarını soruşa bilmirdilər. Onlar nəhayət istədilər ki, birlikdə dövlətxana qapısından içəri girsinlər, mirzəni tapıb, onu taxta əyləşdirsinlər, əgər bu işə maneçilik edən olsa, onu dəf etsinlər.

Onlar Qəhqəhə qalasında məhbus olan İsmayıl Mirzəni qoruyan Xəlifə Ənsar Qaradağlı tərəfdən xatircəm idilər və bilirdilər ki, Sultan Heydər Mirzənin cülusundan sonra İsmayıl Mirzənin qətli xüsusunda çıxarılacaq hər hansı bir hökmü yerinə yetirəcəkdir. Amma, onların bəzi ağıllı adamları deyirdilər ki, keşikçi qorçilər dövlətxana qapılarını bağladıqlarından ola bilər ki, şahzadəyə qəsd etsinlər. Buna görə də, orada cəng baş verməməsindən ötrü gərək dövlətxananın qapısına tərəf getməyək, yoxsa onlar zərurət üzündən şahzadəni qətl edə bilərlər.

Hər saatda bir fikrə düşüb tez-tez öz rəylərini dəyişirdilər. Nəhayət, qərara aldılar: Keşik çəkmə vaxtı olan qürub düşənədək gözləyib, səbir etsinlər, "qayda üzrə bu gecə ustaclı tayfasının keşikçəkmə növbəsidir və biz də xidmətimizi icra etməyə gedirik" deyib dövlətxanaya getsinlər.

Onların arasından Allahqulu Sultan Eycəkoğlu dedi: "Yaraqlanıb padşah dövlətxanası üstünə getmək sufigərilik və sədaqətdən uzaq bir işdir, həm də bu işin xeyri yoxdur. Buna görə də, indi bizim məqsədimiz belə olmalıdır ki, Xüləfanın evinə onun adamları toplaşmazdan əvvəl gedərək, işini bitirək, həmin camaatı dağıdaq. Əgər onların darmadağın edilməsi xəbəri yayılarsa, dövlətxana əhli heç bir manea görmədən qapını açıb xidmətkarlıq məqamında dayanarlar". Hamının fikri belə oldu. Həyatlarının sonu yaxınlaşdığından, onlar bilik və müşahidənin üzünə qürur və qəflət pərdəsi çəkib öz aləmlərinə qapılmışdılar. Ağıllı, təcrübəli, ehtiyatlı adam olan Hüseynqulu Xüləfa, Sultan Heydər tərəfdarlarının onun üzərinə hücum edəcəkləri barədə düşünüb vaxtı udmaq barədə nəsə bir tədbir düşünürdü. Əvvəlcə Budaq Rumlunu və ağsaqqal, bacarıqlı adam olan Şahqulu Sultan Beytoğlu Zülqədəri Sultan Mahmud Mirzə və Sultan Mustafa Mirzənin və tərəfdarlarının yanına yolladılar ki, sülh meydanına ayaq basıb, şərin və fitnə-fəsadın ucu olunmasına çalışsınlar. Ona dedilər: "Xülasə, elə etməliyik ki, ikitirəlikdən əl çəkib bir-birimizlə ittifaqa girək. Gərək

hər şeydən əvvəl, matəm libası geyinərək cənnətməkan şahın təziyəsinə başlayaraq, onun mübarək cəsədini kəfənləyək. Bundan sonra ağsaqqallar bir yerə toplaşsınlar, hər iki dəstə ilə din və dövlət işləri barədə danışmağa başlasınlar. Din və dövlət işlərini daha yaxşı aparmağa qadir olan bu iki şahzadədən hansı padşahlığa layiq olarsa onu da padşah edərik".

Bu tədbirin faydasız olacağını bilmələrinə baxmayaraq, bir qədər vaxtı yubatmaq niyyəti ilə onları göndərdilər. Onlar gələrək niyyətlərini ərz etdilər və bu tərəfin ağır cavablarını eşitdilər.

Vaxt bir müddət belə qiylü qal ilə keçdi. Bu tədbirdən sonra Hüsenqulu Xüləfa yeni bir fikrə də qapılıb, Qəzvinin bir fərsəxliyinə bir adam da göndərdi, ona dedi ki, yürüşlə şəhərə geri qayıdıb yalandan İsmayıl Mirzənin buraya gəlməsi müjdəsini çatdırsın. O adam da, günortaya yaxın özünün qan-tərə batmış atını şəhərə çatdıraraq xəbər verdi ki, budur İsmayıl Mirzə artıq gəlib çatmışdır. Bu xəbər də yayıldı ki, cənnətməkan şah on iki gün bundan əvvəl gizlincə bir nəfəri şahzadənin yanına yollayıb onu təcili olaraq [Qəzvinə] gətirməyi tapşırıbmış, elə buna görə də İsmayıl Mirzə tələsik halda belə sürətlə şəhərə gəlmişdir. Onun tərəfdarı olan əhali və sadə camaat həyəcana gələrək Xüləfanın evinə doğru üz tutdular. Oraya çoxlu adam toplaşdı. Sultan Heydərin tərəfdarları bu xəbəri eşidib olduqca pərişan oldular. Beləliklə, məsələ günün axırına qədər uzadıldı.

Bu zaman həmin xəbərin yalan olduğu, onun Xüləfa tərəfindən uydurulduğu və böyük təsirə malik olduğu məlum oldu. Günün sonunda Sultan Heydərin tərəfdarları onun dövlət qura biləcəyinə ümidlərini itirib, bərk məyus oldular. Öz evlərində oturub gözləyən Məhəmmədqulu Xəlifə Möhrdar, Heydər Sultan Çabuq Türkman və başqa əmirlər Xüləfanın evinə gəldilər. Hüseyn bəy və onun adamları günün sonunda dövlətxanaya gedərək keşik çəkməyi qərara aldılar və Sultan Mustafa Mirzənin qoşunu (rikab) ilə atlara süvar olub dövlətxanaya üz tutdular. Onlar atlanarkən izdihamın çoxluğundan qorxuya düşən Sultan İbrahim Mirzə onlara əks çıxıb özünü yaxında olan evinə çatdırdı. Həmçinin Allahqulu Sultan Eycəkoğlu öz evinə qayıdaraq onlara qoşulmadı. Hüseyn bəy əvvəlcə, getməyi qərara aldığı xiyaban yoluna rəvan olub [Məhəmmədqulu] Xəlifə Möhrdarın və Qulu bəy Əfşarın evlərinə çatanda onların camaatı artıq səngər qurmuşdular Damlardan xeyli ox və tüfəng atəşləri yağdırıb onlara yol vermədilər. Hüseyn bəy

vuruşa girməyi məsləhət bilməyib o yoldan geri qayıdaraq "xəzaneyi-amerə" evlərinin arxasındakı başqa yola çıxdı. Xəzinə əzəbləri (qoruyucuları - Ş.F.) xəzinəyə hücum edə biləcəkləri qorxusundan onların qarşısına çıxdılar. Məsələnin başlanğıcında çoxlu ox-tüfəng atdılar. Hüseyn bəy qışqırdı: "Biz heç kimlə döyüşmək istəmirik, keşik çəkməyə gedirik, bunun sizə nə dəxli var?"

Əzəblər atışmadan əl çəkdilər. Hüseyn bəy və yoldaşları dövlətxanaya çatarkən qapını bağlı gördülər, nə qədər döydülərsə də, açılmadı. Onlara xəbər çatdı ki, Xüləfa və onun adamları xiyaban yolu ilə gələrək, artıq hərəmxananın bağçasına birləşən "At meydan"ına daxil olmuşlar. Sultan Heydərin tərəfdarları onların o yoldan hərəmxana bağçasına gecə biləcəklərindən və şahzadəyə qəsd edəcəklərindən qorxuya düşdülər.

[Buna görə də,] dövlətxananın qapısını sındırıb içəri tökülüşdülər. Hərəmxanada olan və qapıları bağlayan mirzəni tutmaq üçün nə qədər çalışdılarsa da onun olduğu yerə yol tapa bilmədilər. [Sonra] Süfrəxana yolu ilə daxil olub, qarşılarına çıxan hər qapını sındıraraq "Şah Heydər" deyə-deyə içəri doluşdular.

O biri yandan da, "At meydanına gələn Xüləfa və adamları, o cümlədən Şamxal Sultan hərəmxana bağçasının qapısını açıb, əksəri süvari olan adamlarla oraya girdilər və şahzadəni axtarmağa başladılar. Sultan Heydər Mirzə müxaliflərin hücum etdiklərini bilib hərəmxanadan çölə çıxdı, qapıları bağlı və qapıda dayananları özünə müxalif gördü. Biruna çıxmaq üçün yol tapa bilməyib təzədən əndəruna qayıtdı və anasının yanında oturdu. Ümid etdi kı, qızılbaşlar hərəmlərə hörmət edib əndəruna girməzlər və gərək, adamları ona köməyə gəlib çatanadək hərəmxanada gözləsin. Amma bilmədi ki, bir dəstə süvari sadiq adamlardan ötrü olduqca müqbil (xoşbəxt, əldəyməz - Ş.F.) yer olan hərəmxana bağçasına girərək ədab-ərkanı gözləməyəcəklər. Həmin adamlar ayaqlarını ədəb dairəsindən kənara çıxarıb hərəmxanaya, övrətlərin arasına girdilər və onu tələb etdilər. Şahzadənin başqa əlacı qalmamışdı. Anası, kənizləri və qadınlarla birlikdə qadın paltarına bürünərək evdən çıxdı və başqa evə doğru üz tutdu. Belə deyirlər ki, hərəm eşikağasılarından Əli bəy Şamlı onu tanıyıb "Sizin axtardığınız adam budur" deyərək işarə etdi. Sultan Süleyman Mirzənin qulamı Cəmşid bəy Çərkəs və Vəlixan bəy Yüzbaşı Rumlu onun üstünə atılıb eşiyə gətirdilər. Xüləfa və Şamxal Sultan dərhal onun qətlini

məsləhət bilib, hər ikisi Allahdan bixəbər halda, balta, qılınc və xəncərlə onun üstünə düşərək, səltənət bağının iqbal gülşənində böyüyüb boya-başa yetişən, səba küləyinin belə yanından keçməsinə macalı olmayan o sərvi öldürdülər, fələyin çənbərinə belə əyilməyən o fərxəndəə başı bədəndən ayırdılar. Şahzadənin dayısı Əlixan bəy Gürcü, Zal bəy Gürcü və şahzadənin fədailərindən olan böyük bir dəstə "Şah Heydər" deyə-deyə və nərə çəkə-çəkə hərəmxananın qapısına yaxınlaşan vaxt qəsrin damından onların üstünə tökülüşüb fəryad edərək dedilər: "Budur sizin padşahınızın başı!" Vəziyyəti belə görən o adamların hücum atəşi yas suyu ilə söndürüldü, əlləri işdən, işləri əldən çıxdı. Dövlətin üzü artıq o dönmüşlərin üzündən dönmüşdü.

O tayfadan (Sultan Heydərçilərdən - Ş.F.) dövlət [məqamı] üz döndərdiyi üçün, onların əlində kamkar və cavanbəxt şahzadə Sultan Mustafa Mirzə kimi hakimiyyət başına gəlmək şərəfinə layiq olan iyirmi yaşlı bir cavanın olmasına baxmayraq, onu Sultan Heydərçilərin əvəzinə padşah etmək imkanı olmadı.

Vəziyyəti belə gördükdə, onların bəsirət gözü qaraldı, şəhərdə qalıb, özlərinə başqa yol tapmaq qüdrətləri olmadı. Camaatın himayəsi ilə dövlətxana qapısından çıxıb çölə üz tutdular ki, tələm-tələsik atüstü toplaşıb niyyətlərinə əməl etsinlər.

Fələk bu kamyab şahzadənin (Sultan Mustafanın - Ş.F.) səltənət və padşahlığına müvafiq olmadığından onun tərəfdarlarının istədikləri iş heç bir nəticə vermədi, istəkləri baş tutmadı. Dövlətxanadan çıxıb, ordunun dörddə bir hissəsi (çəhar dang) və sair adı-sanı bəlli olmayan adamlarla öz evlərinə qayıtdılar. Sultan Mustafanın və Hüseyn bəyin yanında elə bir adam qalmadı və onlar əlacsız qalıb fərara üz tutdular.

Sübh açıldıqda, onların yanında qalanların da hər biri xaincəsinə qorxuya düşdülər, ustaclı tayfasından olanlar Vəraminə-Sultan Heydər Mirzənin tərəfdarları olan Piri bəy Qoçlunun yanına, on min evdən ibarət olan bayat tayfası isə Kəzaz və Kərəhruda, habelə Sultan Mustafa Mirzənin mülazimliyində olduqları başqa ətraf yerlərə getdilər.

Sultan Mustafa Mirzə onların yanına getməyə cəhd etdisə də, həmin adamların arasına təfriqə və dağınıqlıq düşdü. İki-üç mənzil şahzadə qoşununda gedən Hüseyn bəy bayat tayfasından qorxub, Luristanın yarısının hakimi və onunla dostluğu olan Məhəmmədi Türkənin yanına getmək istədi. Qardaşlarını

şahzadənin yanında qoyub, özü libasını dəyişərək aradan çıxdı, paltarlarını bir çobana verərək, özü çoban paltarında pay-piyada özünü Luristana çatdırmaq üçün yol getməyə başladı. Varlı, pakizəxislət və qürurlu adam olduğundan piyada yol getməyin və aclığın cəfasına dözməyib abad bir yerə meyl etdi. Səhranişin adamlar onun hərəkətlərindən və məğrur görünüşündən şübhələnib başa düşdülər ki, o, həmin mərəkədən qaçanlardandır. Hacı Veys bəy Bayatın adamlarından Xacə Fərrux adlı bir şəxs onu tanıyıb tutdu və öz nəzarəti altında saxladı. [Sonradan] İsmayıl Mirzə Qəzvinə daxil olan gün onu da Qəzvinə gətirdilər.

Sultan Mustafa Mirzənin əhvalatı isə belə oldu. Şahzadə bayat tayfası içərisinə gəldiyi vaxt, Hacı Veys Sultan Bayat onun gəlişindən xəbər tutdu və dərhal həbs etdi, ona bir o qədər də ehtiram göstərmədi. Zahiri əlamət kimi ədəb əməl etdisə də, əslində bir dəstə adamı onun üstündə gözətçi qoydu. O, dərhal Qəzvinə bir nəfər yollayaraq Xüləfaya və İsmayıl Mirzə tərəfdarlarına şahzadənin tutulub saxlanma xəbərini çatdıraraq bildirdi ki, humayun padşahlıq qoşunu Qəhqəhə qalasından hərəkət edərək səltənət paytaxtına gəlib çatan vaxta kimi, şahzadəni ali saraya gətirəcəyəm. İsmayıl Mirzənin şahlığı vaxtı onun, Hüseyn bəyin və Sultan Heydər tərəfdarlarının tarixçələri barədə bəyan qələmi ilə gələcəkdə məlumat veriləcəkdir.

Xülasə, Xüləfa və İsmayıl Mirzənin tərəfdarları Sultan Heydər Mirzənin qətlindən və onunla əlbir olanların dağılmasından sonra, o gecə dövlətxanada bir dəstə adamı keşikdə qoyub evlərinə qayıtdılar.

Həmin gecə hər bir tayfadan ibarət olan çoxlu adam atlanıb Qəhqəhə qalasına tərəf yollandı. O mərəkədən sağ-salamat çıxan ustaclı tayfasının da bəzi üzvləri İsmayıl Mirzənin yanına getdilər.

O günün ertəsi bütün əmir və şahzadələr hümayun dövlətxanaya yığışdılar. Sultan İbrahim Mirzə onların yığışdıqları vaxt dövlətxanaya gəlmədiyinə baxmayaraq [sonradan] özünü İsmayıl Mirzə tərəfdarı adlandırıb dövlətxanaya daxil oldu. Omirlər qəbul olunmuş qayda üzrə ona təzim etdilər. Yığışdıqları vaxt onlara xilaf olub evinə gedən Allahqulu Sultan Eycəkoğlu da İsmayıl Mirzənin tərəfdarı sifətiylə Pir Məhəmməd xanın oğlu Əlixan bəy və bir neçə ustaclı əmirzadələri ilə birlikdə dövlətxanaya gələrək, əmirlər cərgəsində əyləşdi, lakin pərt idi. Sultan Heydər tərəfdarlarından Zal bəy Gürcü, Həmzə Sultan Talış və başqaları,

bəziləri yaralı, bəziləri isə Hüseyn bəyə xilaf olduqlarından oraya gəlməmişdilər. Adam yollayıb, onları evlərindən götürüb dövlətxanaya gətirdilər və intiqam qılıncı ilə o biri dünyaya rəvan etdilər. Şahın yaxınlarından və Sultan Heydər tərəfdarlarından olan sədrüş-şəriyye (şəri sədr - Ş.F.) Gilaninin oğlu Həkim Əbu Nəsr xasseyi-şərəfə həkimləri silkinə və sultan Heydərçilər zümrəsinə daxil idi. Cənnətməkan şahın vəfatından sonra mirzənin yaxın adamı kimi dövlətxanada qalmışdı. Yuxarıda zikr edilən hadisələr baş verdiyi vaxt o, bir yol tapıb çıxa bilməmiş və dövlətxanada otaqların birindəki sobanın içində gizlənmişdi Bəzi inad əhlinin təhriki ilə hovzxanə (hamam-Ş.F) qorçiləri onu şaha xəyanətdə və şahın istifadə etdiyi nurəyə mirzənin əmri ilə zəhər qatmaqda və beləliklə şahı öldürməkdə ittiham edib eşiyə çıxardılar və tikə-tikə doğradılar. Mirzənin ləbsi Sədrəddin xan Şeyxavəndi də tutub həbs etdilər ki, barəsində padşahın nə hökmü olarsa onu icra etsinlər. Əsas hökm və fərmanlar isə nəvvab Pərixan xanımın idi. Əmirlərin içində belə böyük bir işi başlayan Hüseynqulu Xüləfanın isə qüruru yerə-göyə sığışmırdı. Heç bir əmir və şahzadə onun fərmanından kənara çıxmırdı.

Nəvvab xanımın (Pərixanım - Ş.F.) fərmanı ilə əmirlər zümrəsindən olan Heydər Sultan Çabuq Türkmanın əmirlərini İsmayıl Mirzəni gətirmək üçün Qəhqəhə qalasına göndərdilər. Üləma və şeyxlər yığışıb cənnətməkan şah və Sultan Heydər Mirzənin nəşlərini qüsl etdirdilər, cənnətməkan şahın cəsədini bir tabuta qoyub, Allah rəhmətinə (Heyyi-layəmut) tapşırdılar, dövlətxanadakı Şirvani evinə gətirdilər, Sultan Heydər Mirzənin cəsədini isə İmamzadə Hüseyn - ona və pak əcdadlarına salam olsun - astanəsinə aparıb dəfn etdilər.

Ümumiyyətlə, bu qəziyyənin baş verdiyi ayın on beşi çeşənbə günündən başlayıb sonrakı cümə gününə qədər keçən on gün ərzində Qəzvin darüssəltənəsində fitnə və bəla atəşi elə alovlanmaqda idi ki, həm aşinanı, həm də biganəni yandırırdı. Əhali arasında "Ruze-əkbər" - böyük günün yetişdiyi xəbəri yayıldığından, qara kütlə və başqa başıpozuq adamlar ayrı-ayrı məhəllələrdə üsyan və fitnə-fəsad törədirdilər. Hər kimin kimlə ədavəti vardısa onunla öz haqq-hesabını çəkir, öldürürdü. Heç kimin qüdrəti yox idi ki, azğın qızılbaşların və başıpozuq adamların qorxusundan evdən başını çöb çıxara bilsin. Hər kəs bacardığı qədər ətrafına yaraqlı adam yığıb özünü qoruyurdu. Səfər ayının iyirmi dördü (23 may)

olan cümə günü carçılar car çəkib əhaliyə bildirdilər ki, Sultan Əli Mirzə Qacarın başçılığı ilə bütün küçəbəndlər (səngərlər - Ş.F) aradan götürülməli və bundan sonra kiməsə qəsd edən adamlar cəzalandırılmalıdır. Qoy dükanlarını açıb alış-verişlə məşğul olsunlar. Xalqı, bütün şahzadə və əmirlən came məscidinə dəvət etdilər və orada şahlıq xütbəsini İsmayıl Mirzənin adına oxudular.

Xətib əvvəlcə cənnətməkan şahın təziyəsi barədə mərsiyə oxudu. O, "Qəm-qüssəlidir şəhr bu gün, şəhriyar ham?" ("Şəhrist por ze möhnət-o qəm, şəhriyar ku?") misrasını dedikdə fəryad və fəğan göyə ucaldı. İsmayıl Mirzə gəlib-çatana qədər bütün əmirlər hər gün Hüseynqulu Xüləfanın evinin qapısı önündə toplanıb ona mülazimlik edir, onunla birlikdə nəvvab Pərixan xanımın evinə gəlib, idarəçilikdə zəruri olan işləri ərz edirdilər. Heç kimin cürəti yox idi ki, xanımın fərmanından kənara çıxa bilsin. O vaxtlarda Gilanın Səmam, Əşkur və Simgərində olan Solağ Hüseyn və Ərdoğdu Xəlifə Qəzvin darülsəltənəsinə gəldilər. Təkəli tayfasının fəsad əhli olan adamları təkəli və ustaclı tayfaları arasında keçmiş vaxtlardan bəri [mövcud] olan ədavəti təzələməyə cəhd etdilər. Çünki, ustaclılar cənnətməkan şahın hakimiyyəti zamanı təkəllirə qarşı çıxıb Herat hakimi Məhəmməd xan Şərəfəddinoğlunun oğlu Qara xanı orada xidmət etmək səadətindən məhrum etdiklərinə görə, fürsəti qənimət bilib onlardan intiqam almaq fikrinə düşdülər. O vaxt ustaclılardan Allahqulu Sultan Eycəkoğlu və çoxlu əmirzadə Qəzvində olduqları üçün onları öldürmək istədilər və bu barədə Hüsenyqulu Xüləfa ilə məsləhətləşdilər.

Hüsenyqulu Xüləfa eşitmişdi ki, ustaclılar dövlətxana üzərinə gedərkən Allahqulu Sultan belə demişdi: "Məsləhətdir ki, əvvəlcə Hüseynqulu Xüləfanın üstünə gedək". O, bir söhbət zamanı [Hüseynqulu Xüləfaya] eşitdirmişdi ki, əgər Sultan Heydərçilər sənin rəyinə əməl etsəydilər istəkləri baş tutardı. Buna görə də, o, həmin adamlara maneəçilik etmədi. Təkəlilər [buna görə də] atlandılar və Allahqulu Sultanın evinə tərəf üz tutdular. O, isə bundan xəbərdar olub, qapılarını bağlayaraq müdafiə ilə məşğul oldu. Onun mülazimlərinin çoxu köməkdən əl çəkib öz haylarına qaldılar. Yalnız ona sadiq olan qırx nəfər adam səbat ilə döyüşə girdi. Sayı min beş yüz nəfərə yaxın olan təkəli tayfası qapı-bacadan tökülüşüb ustaclılara qılınc çalmağa başladı. Allahqulu Sultanı bir neçə oğlu və qohumuyla, Pirə Məhəmməd xanın oğlu Əlixan bəyi bir neçə çavuşlu qəbiləsinin üzvü və qohumlarıyla, həmçinin iyirmi

dörd nəfər sair ustaclını qətl, evlərini qarət etdilər Hətta qadın və uşaqlarını belə lüt-üryan etdilər. Həmçinin başıpozuqlar və əhalinin aşağı təbəqəsindən olanlar təkəli adı altında Sultan Heydər tərəfdarlarının ev-eşiklərini qarət və tarac etməyə başladılar. Heç kim də onların bu hərəkətlərinə mane ola bilmədi. Hüseyn bəyin, Sədrəddin xanın, Həmzə Sultanın və sair Sultan Heydər tərəfdarlarının evlərindən o qədər pul, mal və əşya ələ keçirdilər ki, onların məbləği hətta xəyal xəzinəsinə belə sığmayır. Beləliklə, ustaclıların qadın oğul-uşaqlarının çoxu qətl və xar oldular. Reydə olan Əmir xan Mosullu Türkman Hüseynqulu xan Xəbuşlu ilə birlikdə Piri bəy Qoçlunu və onunla birgə Vəramində olan ustaclıları qırmaq üçün ona (Piri bəy Qoçluya - Ş.F.) hücum etdi, evini mühasirəyə aldı. Qoşununun əksər hissəsi dağılmışdı, yalnız adlı-sanlı adamları qalıb, ox-yaya əl atdılar, ox qabında ox qalana qədər döyüşdülər. On min nəfərə yaxın olan türkman və xobuşlu tayfası gərgin döyüşərək Piri bəyi bütün adamları ilə qətl etdilər, var-dövlətlərini ələ keçirdilər. Bütün bu üsyan və qovğalara səbəb o idi ki on-on beş gün Qəhqəhə qalasından bir xəbər eşidilmirdi və buna görə də əmirlər və əhali belə gümana düşmüşdülər ki, məbadə Sultan Heydər tərəfdarları Xəlifə Ənsar Qaradağlının köməyi ilə İsmayıl Mirzəyə bir xəsarət yetirmiş olalar. Buna görə də onlar aləmi sahibsiz təsəvvür edib, qarışıqlıq salmağa başladılar. Belə vəziyyət İsmayıl Mirzə və onun qaladan çıxması xəbəri eşidilənə qədər davam etdi. Nəvvab xanım hökm etdi ki, təkəli əmirləri padşahın istiqbalına yollanıb şəhərdən çıxsınlar.

Təkəlilər yola düşdülər. Üsyan və qovğa dərhal yatdı. Onlar gedəndən sonra eşikağası mənsəbində olan nəvvab Sultan İbrahim Mirzə səltənət və şahlıq əmlakına baxan (nazire-əsbab) Mirzə Süleymanla birlikdə padşahlıq çətirini, nağara və ev-eşik vəsaitini götürüb onu qarşılamağa getdi. Onlar Zəncan çəmənliyində İsmayıl Mirzənin mülazimi olmaq şərəfinə çatdılar.

İSMAYIL MİRZƏNİN İRAN SƏLTƏNƏTİNDƏ TAXTACÜLUS ETMƏYİ VƏ ONÜN ŞAHLIĞI ZAMANI BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Yuxarıda yazılmışdı ki, İsmayıl Mirzə cənnətməkan şahın böyük oğlu və İsgəndər şanlı nəvvabın [Məhəmməd Xodabəndənin - Ş.F.] doğma qardaşı idi.

Cənnətməkan şahın xoşuna gəlməyən cəhd oğlundakı divanəxislət qızılbaşlarla (divanəxər) həmsöhbət (müsahib) olması idi və cavanlığın əlaməti olan bəzi pis hərəkətlərə görə [əlahəzrət] onun daha humayun orduda saxlanmasını məsləhət bilmədi, İsgəndər şanlı nəvvabı Herat darülssəltənəsindən geri çağırıb İsmayıl Mirzəni onun əvəzinə Xorasana hakim təyin etdi. Fərman ilə Məhəmməd xan Şərəfədinoğlu Təkəli mirzəyə lələ oldu. Onun (Məhəmməd Xodabəndənin - Ş.F.) Xorasandakı rəftarı da şahın xoşuna gəlmədi və o, təkəli tayfasına qarşı etimadını bir qədər azaltdı. [Yeni] əmr ilə İsgəndər şanlı nəvvabı [yenə] Herata göndərib, İsmayıl Mirzəni geri çağırdı. Ona şah ilə görüş şərəfi də verilmədi, ali əmrə müvafiq olaraq Sevindik bəy Qorçibaşı onu Qəzvinin yaxınlığından keçirib Qəhqəhə qalasına apardı və bir neçə ildən bir dəyişilən qala hakimləri şahzadənin təhlükəsizliyini qorumaqla məşğul oldular. İsmayıl Mirzə bu minvalla qalada on doqquz il, altı ay, iyirmi bir gün qaldı. Bu hadisələr baş verən vaxtlarda qalanın hakimi Xəlifə Ənsar Qaradağlı idi. Onun yanındakı qorçilərin sayı da o zaman səkkiz nəfərdən çox deyildi. Onlar cənnətməkan şahın əmri ilə şahzadəni qorumaqla məşğul idilər ki, atasının vəfatı və Sultan Heydər Mirzənin qətli xəbəri gəlib ona çatdı. Təsadüfən Xəlifə Ənsar qaladan çıxıb ova getmişdi. İsmayıl Mirzənin Xəlifə Ənsara etimadı olmadığından və onu Sultan Heydər tərəfdarı güman etdiyindən, Sultan Heydərin qətlinin doğru olub-olmadığını bilmir, xəbərin yalan olduğunu ehtimal edirdi. O, qorçilərlə birləşib Xəlifənin qalada olan iyirmi nəfərədək mülaziminin hər birini bir bəhanə ilə çağırıb həbs etdi. Qalanın bütün giriş-çıxış qapılarını bağladı və o əsnada baş verən hadisələr barədə düzgün məlumat [nəhayət] gəlib çatdı. Ona yaxın adamlar bir yerə toplandı. Ovda bu xəbəri eşidən Xəlifə Ənsar Sultan Heydər qəziyyəsinin artıq həyata keçdiyini bilib qalaya gəldi, qapını bağlı gördü. Nə qədər ağlayıb-sızladısa da, öz mütiliyini izhar etdisə də bunun bir faydası olmadı və üç gün qalaya kimsənin gəlməyinə izn verilmədi. Nəhayət, ordu əhlindən və Azərbaycan əhalisindən ibarət çoxlu adam qala ayağına yetişdikdə və Sultan Heydərin qətl hadisəsi məlum olan kimi qapı açıldı və əhali ona səcdə etməklə şərəfləndilər. Ustaclı tayfasından da bir dəstə adam gəlmişdi. Sultan Heydər Mirzənin müsahiblərindən olan bir kişini və İsmayıl Mirzənin qiyabi tanıdığı bir neçə nəfəri qalada qətl etdilər. Bunu görən ustaclı

tayfasının digər nümayəndələri təşvişə düşərək özlərini Ərdəbil darülirşadına atdılar və sultanül-övliya məqbərəsində gizləndilər.

Xülasə, Qəzvindən onu aparmaq üçün gələn Heydər Sultan Çabuqun qalaya çatmasından və orada çoxlu əsgər toplanmasından sonra İsmayıl Mirzə özünün təyin etdiyi vaxtda qaladan çıxıb Heydər Sultanın xeyməsinə gəldi. Hər gün onun yanına adamlar gəlib səcdə etmək və onun ayağını öpməklə müşərrəf olurdular. Qaradağlılar Xəlifə Ənsarı öldürmək istədikdə o, özünü İsmayıl Mirzəyə çatdırıb ərz etdi: "Mən təmamilə təqsirkaram və cəzalanmağa layiqəm. Əgər o, mənim qətlimi istəyirsə qoy əmr etsin və onun mülazimləri bu işi yerinə yetirsinlər. Yox, əgər mənim qüsurumun üzərindən əfv qələmi çəkmək istəsə, mənə elə diqqət və iltifat göstərsinlər ki, xəcalətdən çıxa bilim".

İsmayıl Mirzə əmr etdi: "Mən əhd etmişəm ki, əgər düşmənlərin əsarətindən xilas ola bilərsəm və rüzigar mənim kamıma münasib olarsa, heç kəslə intiqam məqamında olmayım. Sən xidmətkarlıq və nökərlik şərtinə və vəlinemətin mənim həbsim barədə əmrinə əməl etdiyin üçün mənim dediklərimə əməl etmirdin. Yaxşı nökər elə belə də olmalıdır və ona tapşırılan xidməti yerinə yetirərkən heç kimə, hətta mənim kimi bir fərzəndə hörmət etməməlidir". O, Xəlifə Ənsarın əmirlər silkinə daxil edilməsi barədə hökm verdi və xəlifə bu məsələdən sağ-salamat yaxa qurtardı, qaradağlıların onu qətl etmək qərarı yerinə yetmədi.

Xülasə, nəvvab İsmayıl Mirzə üç gündən sonra qaladan çıxdı, yavaş-yavaş yol qət edərək Ərdəbil darülirşadına çatdı, müqəddəs məqbərəni ziyarət etmək şərəfinə yetişli. Oradan da mənzil-mənzil yol keçərək Zəncan çəmənliyinə gəldi. Burada Sultan İbrahim Mirzə, Mirzə Süleyman Nazir və cənnətməkan şahın əksər xidmətçiləri hərəm, divanxana və şahlıq avadanlığından ibarət olan xeymə qurub, onun başı üzərində zərnigar şahlıq çətiri tutdular. O, tam əzəmət və şövkətlə orduya gəlib dövlətxanada nüzül etdi. Sultan İbrahim Mirzə mülazimət şərəfinə yetib, taxta səcdə və "mübarək olsun" sözlərini təqdim etdi. İsmayıl Mirzə onu qucaqladı, mehriban sözlər dedi, "qardaş" ("bəradər") adlandırıb öz məclisinin dostu və daimi müsahibi etdi.

Adı çəkilən məkanda Pirə Məhəmməd xan Ustaclı da Gilandan gəlib, İmamqulu Mirzəni gətirdi ki, bundan əvvəl bu barədə məlumat vermişdik. Murad xan Ustaclı Sultan Heydərin qatı tərəfdarlarından idi. Cənnətməkan şah xəstəlikdən sağalandan sonra

onu Kəcur qalasını tutmağa göndərmişdi. O, hələ qalanın ətəyində idi ki, cənnətməkan şahın qəziyyəsi və Sultan Heydər Mirzənin şəhid olması [xəbəri] eşidildi. Murad xan Kəcurdan Lahicana gedib Pirə Məhəmməd xan Ustaclıya birləşdi. Pirə Məhəmməd xan ustacı əmirləri arasında İsmayıl Mirzənin dostu kimi tanınırdı. Çünki cənnətməkan şahın onu bəzi əmirlərlə xəzinələri gətirmək və İsmayıl Mirzənin xəzinə pulunu necə xərcləməsini araşdırmaq üçün qalaya göndərdiyi il bütün əmirlər şahzadəyə cənnətməkan şahın xoş sözlərini çatdırmaq əvəzinə onunla pis rəftar etmişdilər, amma Pirə Məhəmməd xan ədəblə danışmışdı. Buna görə də xalq arasında belə xəbər yayılmışdı ki, onunla şahzadə arasında əhd-peyman yaranmış və o, öz qızını ona vermişdi. Cənnətməkan şaha sədaqətli olan adamlar və sufilər İsmayıl Mirzə ilə dostluq etməsinə görə ona tənə edirdilər.

Onların Lahicanda bir-birilə birləşmələri xəbəri şahzadənin qulağına çatanda, baxmayaraq ki, o Pirə Məhəmməd xanı öz xeyirxahı kimi tanıyırdı, ondan soyudu və narahat oldu. Düşündü ki, məbadə Murad xan onu sədaqət yolundan çıxarıb, İmamqulu Mirzəni də özü ilə götürərək, möhkəm bir yer olan Gilana gedər və orada qalar, beləliklə də ustaclı tayfası oranı tutub üsyan bayrağı qaldırar. O, dəftərxana daruğəsi olan Əlixan bəy Türkmanı Pirə Məhəmməd xan Ustaclının yanına göndərib, bildirdi ki, bizim aramızda qalada etdiyimiz əhd-peyman qalmaqda davam edir, buna görə də ustaclı tayfası xüsusunda nə kimi təvəqqe etmiş olarsa yerinə yetiriləcəkdir. Amma, Murad xan fitnə-fəsada bais olmuş və qızılbaşlar arasında iki tirəlik salmışdır, buna görə də onun gözlərini çıxarıb qardaşım İmamqulu Mirzəni də götürsün və mənim hümayun hüzuruma gəlsin.

Əlixan bəy Gilana çatan kimi Pirə Məhəmməd xan dərhal ali əmrə əməl edib, "Baş üstə, göz üstə"[289] dedi. Əlixan bəy ona verilmiş əmri yerinə yetirib geri qayıtdı. Pirə Məhəmməd xan da şahzadənin hüzuruna doğru yollanıb Zəncan çəmənliyində onun mülazimliyinə yetmək səadətinə çatdı, cürbəcür şahanə hədiyyələrə layiq görüldü.

İsmayıl Mirzə İmamqulu Mirzəni "fərzənd" adlandırıb qucaqladı və oradan çıxaraq ucalıq, əzəmət və kamranlıqla mənzil-

[289] İfadənin ərəbcəsi: "Bi-r-rəs və-l-eyn"

mənzil məsafə keçdi və rəbiül-əvvəl ayının on altısında (13 iyun) pəncəşənbə günü Qəzvin yaxınlığına gəlib çatdı.

Şəhərdə olan şahzadələr, Hüseynqulu Xüləfa və əzəmətli əmirlər onun xidmətinə yetmək səadətinə yetişdilər. İsmayıl Mirzə saatın müvafiq və xoş olub-olmadığının öyrənilməsi üçün şəhərə girməyib onun şimal səmtində dayandı. Orada heç kim tərəfindən tanınmamasından ötrü çobanlar kimi əyninə kətan paltar, başına kətan papaq qoymuş Hüseyn bəyi [hüzura] gətirdilər. Hamı hər tərəfdən onu lənətləyir, ona bıçaq, qılınc və xəncər uzadırdı, lakin mühafizlər bu işə mane olurdular. O, İsmayıl Mirzənin ali nəzərinə yetişərkən təzim etdi, üzünü vaxtın tələbi ilə bütün məclis əhlinə tutub dedi: "Sübhanallah! Bu qədər adamın içərisində günahkar təkcə biz imişik!"

İsmayıl Mirzə buyurdu: "Sultan Heydər xüsusunda başqa adamlar səndən çox canfəşanlıq etmişlər, [amma] hamının kasası sənin başında sındı".

Hüseyn bəy dedi: "Ey padşah! Bütün aləm Sultan Heydərçi idi, amma sənin iqbalın daha yüksək oldu, Allah-təalanın məsləhəti belə imiş. Son əgər intiqam almaq meylinə düşsən, gərək bütün aləmi qətl edəsən".

İsmayıl Mirzə əvvəlcə onun fikrini təsdiq etdi və bununla da onun qətli bir qədər təxirə salındı. Hüseyn bəyi məclisə aparıb ali divanın qorçilərinə tapşırdılar. Onun cəzalandırılmasını istəyən məclis əhli, xüsusilə Xüləfa şahzadənin bu sözlərini eşidib susdular.

Ertəsi gün cənnətməkan şahın saldığı İrəm bağına bənzər Səadətabad bağına gələn şahzadə oranı seyr etdi. Özünün məsləhət bildiyi saatda da heç mübarək dövlətxanaya girmədi, bir neçə gün Hüseynqulu Xüləfanın evində qalmağı qərara alıb, bağdan onun mənzilinə getdi. Orada Sultan Mustafa Mirzə və Hacı Veys Sultan Bayat gəlib onun ayağını öpməklə şərəfləndilər. İsmayıl Mirzə şahzadənin üzündən öpərək, ona qardaşları arasında əyləşməsi əmrini verdi, şahzadə də əyləşdi. Qardaşlardan heç biri ona [Sultan Mustafaya] təzim etmədi və o özü gəlib yaşca ondan böyük olan Sultan Süleyman Mirzədən aşağıda əyləşdi. İsmayıl Mirzə qardaşlarına nəsihət verməyə başlayaraq, onlara dil mehribanlığı göstərib dedi:

- Əgər siz mənimlə məhəbbət və düzgünlük məqamında olsanız, mən, inşaallah sizinlə elə rəftar edərəm ki, indiyidək heç bir padşah qardaşları ilə elə rəftar etməmişdir.

Amma, ürəyinin onun dilindən xəbəri yox idi, fikrində icə onların edam olunmasından başqa heç nə tutmamışdı. Nəticə etibarı ilə fikrində tutduğu niyytinə əməl etdi ki, bu haqda vaxtı çatanda yazılacaqdır.

Hüseyn bəyin Fətulla bəy, Şahqulu bəy, Nədrəli bəy və Şahverdi bəy adlı qardaşlarını gətirib, onları ustaclı əmirləri silkinə mənsub olan Murad xan Kəngərliyə tapşırdılar. O, özünün etibarını qaldırmaq üçün onların dördünü də Xüləfanin evində qətl etdi. Belə qərara alınmışdı ki, hər gün bir [günahkar] şəxsi onun mənsub olmadığı tayfaya tapşırıb saxlasınlar, amma öz tayfasına tapşırılan hər kəsi dərhal qətl etsinlər.

On dörd gün Xüləfanin evində qaldı. Əmirlərin əksəriyyəti, isə razılığa əsasən, nəvvab Pərixan xanımın evində mülazim oldular. Onlar bunu padşahın onlara etibarının artması kimi qəbul edirdilər. Xanımım vəkilləri onun yanında cənnətməkan şahın vaxtında olduğundan da çox təmtəraq görür, keşikçilər və mülazimlər sultanlar kimi sarayın nizam-intizamına göz yetirirdilər.

Nəvvab xanımın fikri belə idi: Bir halda ki, İsmayıl Mirzənin padşahlığı onun səyi ilə həyata keçmişdir və o cənnətməkan şahın sağlığında da bu şahzadənin tərəfdarı olmuşdur, gərək dövlət işlərinə cənnətməkan şahın bacısı şahzadə Sultanımdan daha çox müdaxilə etsin. Amma onun bu fikri əks nəticə verdi. O, (Sultanım - Ş.F.) xanımın evində mülazimlik etmələrinə görə əmirlərə kinayəli sözlər deyirdi. Bir gün belə söylədi: " Məgər dostlar başa düşmürlür ki, məmləkət işlərinə övrətlərin qarışması ölkə və şahlıq namusuna layiq hərəkət deyil? Məgər onlar bilmirlər ki, kişilərin bu xanədan qadınları ilə aşinalığı qəbih bir haldır?" Əmirlər bu sözlərin düzgünlüyünü başa düşüb tərəddüd etməkdən qurtardılar.

Bu əsnada şahzadənin üzü Xüləfadan döndü, onun şöhrətini azaltmaq qərarına gəldi. Ağıl və düşüncəyə görə bu hərəkətin zahiri səbəbi Xüləfanın varlıq qabının qəflət və qürur badəsi ilə həddindən artıq dolmasında, həddini çox aşmasında, özünü padşah kimi aparmasında və [hakimiyyətə gəldiyi üçün] İsmayıl Mirzəyə böyük minnət qoymasında idi. Belə minnətsə padşahlara çox ağır gələn yükdür, onlar elə adamı əfv etmirlər.

Bunun başqa səbəbi isə bunda idi: Sultan Heydər Mirzənin qətlindən bir neçə gün keçməsinə baxmayaraq, hələ də qala tərəfdən (Qəhqəhə qalası - Ş.F.) heç bir xəbər-ətər eşidilmirdi.

Əhali müztərib olmuşdu. (O vaxt) Xüləfa demişdi ki, xalqın iztirabına nə hacət vardır? Sultan Mahmud Mirzə də cənnətməkan şahın oğludur, qabiliyyətli gəncdir və padşah olmağa layiqdir.

Pərixan xanım da belə ərz etmişdi: "Deyilənə görə cənnətməkan şahın vəfatı xəbəri qalaya çatan elə ilk gecə Sultan Heydərçilər onu (İsmayıl Mirzəni - Ş.F.) öldürmüşlər. Əgər bu xəbər doğru çıxarsa gəlin Sultan Mahmud Mirzəni padşah edək". Elə o əsnada da qaladan şahzadənin sağ-salamat olması xəbəri gəldi. İsmayıl Mirzənin Xüləfanın evində yaşadığı o bir neçə gün ərzində Xüləfanin əleyhdarları bu məsələni gizlincə şahzadəyə çatdırmış və onun şahlıq məzacını ondan döndərmişlər.

Yox, yox mən səhv etdim! Bunların heç biri düz deyil! Həqiqi cəza verən varlıq Allah sübhanə və təalanın özüdür. "Kim ki, zülmkardır, ona Allah zülm edəcəkdir!"[290] ayəsinə uyğun olaraq İsmayıl Mirzənin məzacı ondan döndü, zəmanə məzlum şahzadə Sultan Heydər Mirzənin nahaq tökülən qanını yerdə qoymadı və həmin mərhum şahzadənin qatillərinin hər biri müxtəlif bəlalara giriftar oldu.

Xülasə, İsmayıl Mirzə Xüləfaya qarşı etimadsız oldu, xəlifətül-xüləfalıq vəzifəsinin başqasına verilməsi şərti ilə ona ali divanın ali vəkalət mənsəbini və hümayın şahın naibliyini (nəyabət) verdi. Belə hərəkət etməklə İsmayıl Mirzənin məqsədi bu idi: Sufilər Xüləfanı mürşidi-kamilin[291] xəlifəsi və naibi kimi tanıyır və onun hökmünü mürşidin hökmündən sonra ikinci yerdə duran hökm kimi qəbul edirdilər. O zaman isə Qəzvində Xüləfanın hökmünə sidq ürəkdən tabe olan on min nəfərə yaxın adamı vardı və Xüləfa məhz onların himayəsi nəticəsində bu qədər böyük iqtidara sahib olmuşdu İsmayıl Mirzə onu sınamaq istəyib dedi:

- Sənin mərtəbən daha xüləfalıq mərtəbəsindən ötüb keçdi və gərək ali divanın vəkalət vəzifəsini yerinə yetirəsən.

Xüləfa onun cavabında dedi:

- Mən xilafət mənsəbini əldən verməyəcəyəm. Əgər vəkalət vəzifəsi də [indiki] mənsəbimin üstünə əlavə bu vəzifə əlimdən çıxırsa, mən vəkaləti qəbul etməyə razı deyiləm.

[290] İfadənin ərəbcəsi: "Mən əanə zalemən fəqəd səll-əl-lahu-l-lahu aleyhi"
[291] Səfəvi hökmdarları "kamil müpşid" adlanırdılar - Ş.F.

Xüləfa özünün xüləfalıq mərtəbəsini vəkalətdən üstün bilirdi. Onun bu danışığına qarşı öz narazılığını bildirən İsmayıl Mirzə dilinə şikayətli sözlər gətirərək rumlu əmirlərinə üz tutub dedi:

- Əgər sufilər və taliblər mürşidi-kamilin sözündən və istəyindən çıxsalar, bu əməlin sufigəri təriqəti və səfəvi şeyxliyi qayda-qanuna görə cəzası nədir?

Onlar dedilər:

- Hər kim mürşidi-kamilin məsləhətinə əks çıxaraq öz həddini aşarsa, o şəxs xəta etmiş olar və rədd edilməlidir.

Dedi:

- [Belə olan halda] bəs Xüləfa nə üçün mənim sözümlə razılaşmamışdır?

Bu məsələ Xüləfaya çatdırıldı. O, ertəsi gün bəzi məsələləri ərz etmək üçün İsmayıl Mirzənin xidmətinə gəldikdə evin qapısına yaxınlaşan vaxt eşikağasılar və haciblər (keşikçilər - Ş.F.) şahzadənin işarəsi ilə ona mane olub dedilər:

- Bu evin sənindir olmasına baxmayaraq, padşah bu evdə iqamət etmişdir. Padşahın olduğu yer qızılbaş[ların] dövlətxanasıdır. Sən isə, bizim mürşidimiz olan padşahın hüzurunda təqsirkar və xətakarsan. Əgər padşah sənin xətanı (burada "günahını" - Ş.F.) əfv etməzsə, qayda-qanuna və sungəriliyə əsasən sən dövlətxanaya daxil ola bilməzsən. Mürşidi-kamil öz razılığını verənədək dərgahın qabağında əyləş.

Ağlının kəsmədiyi və təsəvvür belə etmədiyi bir işin baş verdiyini müşahidə edən Xüləfanın başını heyrət tüstüsü bürüdü və günortaya qədər evinin qapısı ağzında günahkarcasına oturdu. Rumlu camaatının və başqalarının böyük hissəsi günün birinci yarısında onunla həmfikir idilər. İsmayıl Mirzə bir nəfəri çölə çıxarıb, Xüləfaya öz mənzilinə getməsi əmrini verib bu sözlərini çatdırdı:

- Bizim ona olan sözümüz onunla danışığımız zamanı deyiləcəkdir.

Bunu eşidən Xüləfanın ürəyi təskinlik tapdı. Hamı belə fikirləşdi ki, padşah onun mənzilinə gedərək onu arxayınlaşdıracaqdır.

Xüləfa iki gün xanənişin oldu. Vaxt ötdü, amma görüş baş tutmadı. Rumlu əmirləri isə əvvəlki kimi onunla rəfaqətdə idilər.

Üçüncü gün rumlu əmirlərindən türk, nümunəvi və düzgün etiqadlı olan Dəli Budağı yanına çağıran İsmayıl Mirzə ondan soruşdu:

- Xüləfa nə deyir? O, cavab verdi:

- Padşah hökmünün əksinə çıxdığı üçün peşimandır və lap bu astananın itəbaxanlıq işini də ona versəniz, can-başla həmin işin icrasına başlayacaqdır.

İsmayıl Mirzə dedi:

- Əgər sözü düz, özü isə bizim əmrimizə mütidirsə, biz yenidən onu xidmətləri müqabilində işlə təmin edib onun dünya və axirət dərəcələrinin rəf olunmasına çalışacayıq. Onu yüksək Məşhəd qorçilərinin qorçibaşısı təyin edirik ki, həzrət cin və üns imamının (imam Rza əleyhüssalamın - Ş.F.) müqəddəs məscidində xidmət edib Xorasanda həm dünyanın etibarını, həm də axirətin savabını qazansın. Gərək elə bu saat onu ata mindirib yola salasan.

Dəli Budaq, rumlu əmirləri və Xüləfanın başqa tərəfdarları başa düşdülər ki, İsmayıl Mirzə ona qarşı bietimad olmuşdur və daha Xüləfanın orduda xidmət etməsi mümkün deyildir, qürur və xudpəsəndlik üzündən ali divanın vəkili vəzifəsini istəməyən bir şəxsə Məşhəd qorçibaşılığının verilməsi qəzəb və iltifatsızlıq əlamətidir.

Bütün rumlu tayfası, hətta onun mülazimləri də ondan kənarlaşdılar, [daha] qapısına yaxm belə getmədilər və o, öz əməlinə heyran qaldı. Bu əsnada Dəli Budaq gələrək şahın əmrini verdi. Onu söz deməyə qoymayıb, dərhal ata mindirdi, şəhərdən bir fərsəx kənara aparıb, özü geri qayıtdı.

Xüləfa yar-yarağını götürüb yola düşdü. Elə ki, Damğana çatdı, oranın hakimi olan Əli Xəlifə Ağcəqoyunlu, bundan sonra olunacaq əmrə əməl etməkdən ötrü Xüləfanın Damğanda dayanması barədə hökm etdi. Bir neçə gündən sonra Kor Şahəli Rumlu ali əmrə əsasən Damğana gəlib, onun ibrətinin gözünü dünyanın cürbəcür surətlərinin müşahidəsindən məhrum etdi və o kor oldu.

Xülasə, İsmayıl Mirzə Xüləfanı şəhərdən çıxaran kimi onun evini tərk edib "At meydanı və nəvvab Pərixan xanımın evləri arasında yerləşən Şahqulu Sultan Yegan Ustaclının evinə gəldi. Orada nəvvab Pərixan xanım və səltənət başçıları onunla görüşmək şərəfinə nail oldular, [amma] xanıma qardaşından gözlədiyi böyük mehribanlıq göstərilmədi.

İsmayıl Mirzə oradan çıxıb özünün təyin etdiyi saatda mübarək dövlətxanaya gəldi. Oranın imarətlərində xeyli dəyişiliklər

etdi, yeni mənzillər tikdirməyə başladı. O, hər gün inşaat yerinə gəldiyi üçün gah Yegan Şahqulunun, gah nəvvab Pərixan xanımın evlərində, gah da Səadətabad bağında qalırdı. Məmləkətlərin hər yerindən bütün qızılbaş tayfaları ali dərgaha üz tutdular. Qəzvin darüssəltənəsində o qədər adam toplaşdı ki, küçələrdə gediş-gəliş xeyli çətinləşdi. Sultanlardan gələn töhfə və hədiyyələrin çoxluğundan, ətraf yerlərin əmir və məliklərinin, həmçinin əhalisinin gətirdikləri peşkəşlərin çoxluğundan Qəzvin darüssəltənəsində o qədər var-dövlət toplaşdı ki, onların hesablanması çətinləşdi.

Cülus vaxtını özü təyin etdiyindən [hələlik] bütün səltənət və padşahlıq işlərinin icrasını saxlamışdı və əhali həmin günü səbirsizliklə gözləyirdi. Qızılbaş tayfaları onun əmrinə və göstərişilərinə tamamilə tabe olmuşdular. Onun tərəfəndən hər kimə etibarsızlıq elan edilirdisə, həmin şəxsin qohum-əqrabaları onun Sultan Heydərçi olması bəhanəsi ilə onu qətl edirdilər. Beləliklə, ustaclı tayfasından çox adam öldürüldü. Hətta hər vaxt sarayda xidmətdə olan Sarı Laçın və Ruma gedən Məhəmmədi xan Toxmağın qardaşı Allahqulu bəy dövlətxanadan çıxıb öz evlərinə gedərkən onların əmilərinin oğlu olan Əbu Türab bəy ibn Ayğut Mirzə darısqal bir küçədə qılıncını çəkərək, qəddarlıq pusqusunda dayanıb onları gözləyən adamlarla birlikdə həmin iki mirzadəni tikə-tikə doğradılar.

Orduda baş verən belə əməllərdən ötrü sorğu-sual olunmurdu. [Buna görə də] camaat ürəklənmişdi. Belə yaramaz hərəkətlər başqa ölkələrə də yayıldı. Ustaclı əyanlarını harada görürdülərsə elə oradaca öldürürdülər. O cümlədən, Herat darüssəltənəsində olan Fərah hakimi Hüseyn Sultan Əfşar və o sərhədin başqa əmirləri birləşib, nəvvab zilləllah şahın [I Şah Abbasın - Ş.F.] lələsi və Heratın bəylərbəyisi olan Şahqulu Sultan Yeganı qətl etmək üçün razılığa gəldilər, onun mülkünün qapısı yanında toplandılar. Onların bu niyyəti ustaclı əyanlarına məlum olduqda, onlar da sultanın qapısı önünə gəlib, cəngə başladılar. Əmirlər ustaclı tayfasının şahın qəzəbinə giriftar olması və etibarsızlıqları barədə ona xəbər göndərdilər. [Dedilər ki,] biz Herat şəhərini və qalasını sənin əlində qoymayacaq, ustaclıları uzaqlaşdırıb, qala və məmləkəti (Heratı - Ş.F.) özümüz qoruyacaq, bu yerlər padşah tərəfindən kimə verilərsə, ona da tapşıracağıq.

Əgər sultan ali dərgaha getmək istəyirsə gərək şəhərdən çıxsın, əgər çıxmırsa, bir küncdə əyləşib şahın əmr və fərmanına müntəzir olsun.

Ustaclı camaatı bununla razılaşmayıb belə söylədilər:

- Biz şahın əmri ilə bu məmləkətin hakimi və müdafiəçisi olmuşuq. İşdən azad olunmağımız barədə padşalı tərəfindən hökm gəlməyənədək əlimizi məmləkət və hökumət işindən çəkməyəcəyik.

Hər verəcəyini gözləməkdə idi. [Amma] o tayfa (əfşarlar – Ş.F.) bununla kifayətlənməyərək, qəfildən onun evinə hücuma keçdi. Evdə olanların hamısı müdafiə olunmaq istəklərinin əksinə olaraq heç nə edə bilmədilər. Evə soxulan əfşar tayfası Şahqulu Sultanın silahsız halda öz adamlarını döyüşməkdən çəkindirməyə cəhd etməsinə baxmayaraq qılınclarını çəkib onu qətl etdilər, evi də tarac edildi. Vəziyyətin belə cərəyan etməsilə əlaqədar ustaclı camaatı Heratdan dağılışdı, ətrafı qarət edə-edə, pərişanlıqla, bəziləri Sərəxs hakimi olan Şahqulu Sultanın oğlu İbrahim Sultanın yanına, bəziləri isə orduya rəvan oldular. O zaman altı yaşında olan kamyab nəvvab əlahəzrət zilləllah şah isə Heratda lələsiz və mühafizəsiz qaldı.

Heratda olan əfşar və başqa tayfalar İsmayıl Mirzənin ona (Abbas Mirzəyə - Ş.F.) qarşı diqqətsizliyinə görə şaha bir elə də lütfkarlıq göstərmirdilər. Şahqulu Sultanın qətli xəbəri orduya çatdıqda, İsmayıl Mirzə Durmuş xanın nəvəsi Sultan Hüseyn bəy Şamlının oğlu Mirzə Əli bəyə xanlıq rütbəsi verib, onu bu xanədanla qohum olmaqla şərəfləndirdi, Herat darüssəltənəsinin hakimi və Xorasan əmirülüməərası etdi, Şahqulu Sultanın qəziyyəsini qulaqardına vurdu, məsələni ayırd etmədi. Orduda olan ustaclı əyanları əvvəlkindən daha artıq pərişan oldular və öz əməllərinə heyran qaldılar. Onların heç biri gecə öz yatağında rahat yata bilmirdi, hər ləhzə ölüm gözləyirdi. O əsnada elçi sifətilə Ruma gedən ustaclıların mötəbər əmirlərindən Çuxur-Səd bəylərbəyisi Məhəmmədı xan Toxmaq geri qayıdıb Qəzvin darüssəltənəsinə gəldi. O, İsmayıl Mirzənin ayağını öpmək şərəfinə yetişdisə də, ondan gözlədiyi diqqət və iltifatı görə bilmədi. İsmayıl Mirzə hətta Çuxur-Səd ülkasını ondan alıb əmisi oğlu Əbu Turab Sultana vermək istədi. Tiflisdə olan Şahqulu Sultan Qarıncaoğlu Ustaclı da gəlib ondan heç bir iltifat görmədi. Ustaclu tayfası qızılbaşlar arasında xəcalətli və pərişan halda gün keçirirdi. Onlar nəhayət bir-birləri ilə birləşib sufigərilik yoluna düşdülər və [belə] dedilər: "Biz mürşidi-kamilin xidmətkarlığında təqsirkar olduğumuzdan nə qədər

ki, o bizim qüsurumuz üzərindən əfv qələmi çəkməmişdir, ev-eşiyimiz, arvad-uşağımız bizə haramdır". Bu tayfanın bütün əmir və yüzbaşıları mübarək dövlətxanaya gəlib dərgahın önündə əyləşərək, gecə-gündüz orada qaldılar. Pirə Məhəmməd xan və Məhəmməd xan Toxmaq özlərini günahkar ustaclılardan hesab edib, o tayfanın üzvləri arasında əyləşdilər. Bu hərəkət İsmayıl Mirzənin xoşuna gəlmədi, dedi ki, həmin camaatla heç vaxt əlaqəsi olmayan Pirə Məhəmməd nə üçün indi onlarla birlikdədir və o günahkarları müdafiə edir?

Amma o cənab bu sözlərdən sonra da öz yoldaşlarından ayrılmadı. Onlar on gecə-gündüz dövlətxana qapısında əyləşib aman müjdəsi gözləməkdə idilər. Çadır qurub və çadırları şahanə ev əşyaları və bəzək-düzəklərlə bəzəyərək hər gün ziyafət təşkil edir, həsədkar adamların gözləri önündə gümüş qab-qacaq və padşahlara layiq yaraq-yasaq nümayiş etdirirdilər. On gündən sonra İsmayıl Mirzə Sultan Heydər Mirzənin qətli gecəsi ustaclı camaatı tərəfindən [kamandan] atılıb Çehelsütun qəsrinin çinar ağaclarının birində indi də qalmaqda olan oxu çıxararaq onu yaxın adamlarından birinə verdi və ustaclılara göndərib dedi: "Siz bir halda ki, sədaqət və sufigərlik iddiasındasınız, bəs bu nə oxdur? Bu oxu mürşidi-kamilin dövlətxanasına və cənnətməkan şahın meyitinə tərəf kim atmışdır?"

Cavabında dedilər: "Bu xanədan dövlətinin yaranmasından bu günə qədər ona ciddi şəkildə xidmət etmişik, bu dərgahdan başqa pənahımız və ümidgahımız yoxdur. Bizim bəzi adamlarımız başqa kəslərin təhriki ilə düzgün yolu tərk etmiş, günah işlər görmüşlər. Bu əmələ qurşananların hər birisi öz cəzalarına yetişmişlər və yetişməkdədirlər. [Belə olan halda] başqalarının nə günahı vardır? Buna baxmayaraq bizim hamımız günahkarıq və cəzaya layiq adamlarıq Sədaqət aləmində şahdan bizə nə gələrsə, lütf və məhəbbətlə ona təşəkkür edəcəyik.

Şer

Qılınc da yağsa, baş verərik biz,
Sənin yolunda hökmüylə Rəbbin.[292]

[292] Beytin farscası:
Gər tiğ barəd dər kuye-an mah,

Bu əsnada [İsmayıl Mirzə] bir dəstə adamı ustacluların çadırlarını onların öz başlarına uçurmaq və yoxsullar tərəfindən onların var-dövlətlərini taraca etmək üçün yolladı. Əhali hücum edib qarətə başladı. Ustaclular, Allah göstərməsin, bu rüsvayçılıqdan qaçıb özlərini yaşadıqları yerlərə atdılar.

Pirə Məhəmməd xan bir neçə gün qəzəbli gəzdi. Bir neçə vaxtdan sonra [İsmayıl Mirzə] onu yanına çağırıb belə izhar etdi: "Sultan Mustafanın Sultan Heydərlə dostluğunu, Sultan Süleymanın isə öz bacısı Pərixan xanımın zahiri etibarını qazanmalarına baxmayaraq, istəkləri yerinə yetmədi. Onların mənimlə ədavətləri olduğu üçün mən onlardan arxayın deyiləm".

Pirə Məhəmməd xan ona cavab verdi: "Əgər padşahın mübarək xatiri onlardan şübhəlidirsə, qoy onları qalalardan birinə göndərsin ki, ömürləri orada keçsin".

İsmayıl Mirzə iztehza ilə dedi: "Sultan Mistafa ustaclı tayfasının tərbiyəsi ilə böyümüşdür ki, onu sənə, Süleymanı isə dayısı Şamxal Çərkəsə tarşırıram. Onları qalada tərbiyələndirib, sonra əgər istəsəniz padşah edin".

Ertəsi gün hökm verildi ki, Sultan Mustafa Mirzəni qoy Hacı Veys Sultan Pirə Məhəmməd xanın evinə aparıb ona tapşırsın və bu barədə qəbz alsın. Həmçinin Sultan Süleyman Mirzənin də dayısı evinə göndərdi.

Bu barədəki söhbətlər bir neçə gün ustaclılar arasında davam etdi, onlar hərçənd ki, cənnətməkan şahın övladının qanına bulaşmaq istəmədiklərinə baxmayaraq, bu tayfanın ağıllı adamları İsmayıl Mirzənin şahzadələri edam etməkdən başqa heç nə ilə razılaşmayacağmı başa düşdülər. Başqa çarələri qalmamışdı. Nəhayət, onların hamısı şahzadəni (Sultan Mustafa Mirzəni - Ş.F.) aradan götürmək qərarına gəldilər.

Sultan Mustafa Mirzə və Sultan Süleyman Mirzənin öldürülmələri:

Şahzadə [Sultan Mustafa Mirzə] ağıllı və fərasətli olduğundan bu fikri anladı. O, Pirə Məhəmməd xanın evində yaşadığı bu bir neçə gün ərzində hər gecə öz qətlini gözləyir, taət

---

Gərdən nehadim əl-hökmi-Allah.

və ibadətlə məşğul olurdu. Gecə o tayfanın bir neçə nəfər rəzil üzvü şahzadənin yataq otağına girib onu boğdular.

Şamxal da Sultan Süleymanla elə rəftar etdi və onların hər ikisi bir gecədə şəhadət şərbəti içdilər, onların cəsədlərini İmamzadə Hüseyn müqəddəs zövzəsinə (astanə) aparıb dəfn etdilər.

Bu qəziyyələrdən sonra Pirə Məhəmməd xan şəfəqqətə nail oldu. [Belə ki,] İsmayıl Mirzə nişanlısı olduğu onun qızı ilə evləndi, şahanə bir toy məclisi qurdu, zifafa girdi. O, Şamxal Sultan Çərkəsin və Hüseynxan Sultan Xəbuşlunun qızlarını da istədi və qızların hər ikisini bir gecədə hərəmxanaya gətirdilər.

Bu qohumluqdan (damadı) sonra İsmayıl Mirzə ustaclılarla mehribanlaşaraq Yegan Şahqulunun oğlanları İbrahim Sultanı və Mürşüdqulu Sultanı öz tərbiyəsi altına aldı. İbrahim Sultanı - Qəzvinə, Mürşüdqulu Sultanı isə Sistana hakim təyin etdi. Beləliklə, bütün ustaclu tayfasının abır-həyası yerinə qayıtdı və bundan sonra heç kimin onlara əliuzunluq etməsinə yol verilmədi.

Adlı-sanlı şahzadələrdən Sultan İbrahim Mirzə onun müsahibi və xüsusi məclisinin yaxın adamı idi.

İsmayıl Mirzə ona dedi:

- Sən cənnətməkan şahın fərzəndi idin və ona can-başla xidmət edirdin. İndi isə mənim qardaşımsan, eşikağasıbaşı vəzifəsi sənə layiq deyil.

Vəzifəsini dəyişərək, onu möhrdar* etdi ki, qoy həmişə öz gözü önündə əyləşib, onunla həmsöhbət və yekdil olsun. O eşikağası mənsəbini Hüseynqulu Sultan Şamluya verib cənnətməkan şahın mustovfiül-məmaliki olan Mirzə Şükrullah İsfahanini ali divanın vəziri təyin etdi, mustovfiül-bəqaya olan Mir Şah Qaziyə mustovfiül-məmalik vəzifəsini verdi.

İsmayıl Mirzənin özünə təyin etdiyi cülus gününə hələ çox qaldığından, hələlik ölkənin mühüm vəzifələrində çoxlu dəyişiklik etmədi, amma ali saraya gəlməkdə olan türkə, tacikə, əskərə və rəiyyətə culus gününün tezliklə olacağını bildirdi. Dövlətxanada ali imarətlər tikdirildi. [Tikinti işlərində] hər gün mahir ustadlar işləyir, onların hər birinə bir mötəbər qızılbaş başçılıq edirdi. Xülasə, [İsmayıl Mirzə] səltənətin əsasını və padşahlıq təmtərağını elə mərtəbəyə qaldırmışdı ki, qeysərləri və xaqanları özünün ən aşağı rütbəli mülazimi hesab edirdi. Onun cidd-cəhdinin, cahanbanlığının vüsəti, [həmçinin] səltənət və kamranlıq əzəməti hər yerə yayıldığına görə, heç bir şərəfli padşahın xəyal aynasında onunla

müxalifət etmək nəqşi görünmürdü. Bütün sərhədlər əmirlərdən, gözətçilərdən aə döyüşçülərdən xali olmuşdu. Heç bir düşməninsə qüdrəti deyildi ki, ona tabe olmaqdan əl çəkib hücum etmək fikrinə düşsün, yaxud qızılbaş dövlətinin sərhədlərindən bir keçi belə aparıla bilsin. O, həqiqətən də böyük təmtəraqa və sərtliyə (səlabət) malikdi.

Vəd etdiyi cülus günü yaxınlaşdığından, əvvəlcə nəvvab cənnətməkanın ruhunu xatırlamaqdan ötrü ehsan verdi, onun hələ də dövlətxanada qalan pak nəşini müqəddəs Hüseyn imamzadəsinə aparıb orada saxlamaq və payızda müqəddəs Məşhəddə dəfn etmək istədi. Şahın yaraq və başqa şeylərini həmin imamzadə məzarına aparıb, orada çoxlu çadır qurdurdu, böyük yas mərasimi keçirdi. Bu münasibətlə on iki min qab növbənöv yemək və halva (həlavə) hazırlanmasına sərəncam verdi, hər min qaba sərkarlıq olunmasını böyük əmirlərin birinə tapşırdı. Sonra [Şah Təhmasibin] pak cəsədi dövlətxanadan çıxarıldı. Günahları bağışlanılmış o cənazəni İsmayıl Mirzənin özü çiyninə aldı və başqa şahzadələr də kömək etdilər. Dövlətxanadan eşikdə o, ata süvar oldu, amma digər şahzadələr cənazəni müqəddəs Hüseyn imamzadəsinədək öz çiyinlərində aparıb məzara çatdırdılar. Onlara bəzi əmirlər də kömək edirdi. Nəşi məscidin içində imamzadənin qəbrinin yanında bir sandığa qoyub yavaş-yavaş məzara endirdilər. Hafizlər Quran təlavətini xitama yetirdikdən sonra, İsmayıl Mirzə ehsan məclisinə getdi. Orada on iki min ədəd qaba xörək və halva çəkildi, füqəra, miskinlər, mömünlər, döyüşçülər və rəiyyət ehsan yeməyə başladılar.

Bu işi yerinə yetirib rahat olandan sonra cəmadül-əvvəl ayının iyirmi yeddisinə, (22 avqust) çərşənbə gününə təyin etdiyi hümayun cülus həyata keçdi və "Çehelsütun" qəsrində padşahanə bir ziyafət və şahanə bir məclis quruldu. Əmirlər, şahzadələr və dövlət başçıları toplaşdılar. İsmayıl Mirzə böyük təntənə və əzəmətlə qəsrə gəlib şahlıq taxtında cülus etdi və cənnətməkan şahın məkanında əyləşdi. Qəddar və [qərarında] möhkəm olmayan zəmanənin vəziyyəti bu şerdə olan kimiydi:

Şer

Saqinin zülfünü oxşar o həriflər hələlik,
Versə imkan fələk qoy belə olsun həmişə.[293]

[293] Beytin farscası:

Bir sözlə, əvvəlcə şahzadələr, sonra seyidlər, üləmalar, müctəhidlər, onlardan sonra Qəhəqəhə qalasından çıxarıb gətirdikləri Ləvənd xanın oğlu İsa xan və Luvarsab Gürcünün oğlu Səmayun, həmçinin Şah Rüstəm Lur, onlardan sonra alişan əmirlər, qızılbaş əyanları, vəzirlər, qələm əhli, hörmətli şəxslər, ayrı-ayrı məmləkətlərin əhalisi, Nizamşahın (Moğol hökmdarı - Ş.F.) elçiləri, İbrahim xan, Mazandaran valisi Mirzə xan, Ərəbistan valisi Seyid Səhhar və firəng elçiləri ayaq öpmək şərəfinə layiq oldular. Qaladan çıxmasından bu cülus gününə qədər sarayda toplaşan ətraf məliklərin yolladıqları töhfə və hədiyyələri şahın ali nəzərinə yetirdilər. Cülusdan sonra ölkənin ali vəzifələrinə təyinatlar yubadıldı. Heç bir vəzifəyə adam təyin olunmurdu. Xalqın intizarı öz həddini keçdi. Camaatın söz-sovunun qarşısını almaqdan ötrü şah nəvvab Sultan İbrahim Mirzəyə tarşırdı ki Məhəmmədi xan Toxmaq, Mirzə Əli Qacar və Mirzə Şükrullah Vəzirlə birlikdə ədalət qəsrində əyləşib xalqın maliyyə ölkələrin xeyriyyə işlərini yoluna qoysunlar, ali divandan sadir olan hökm və məktubları məhz bu işlərdən ötrü hazırlanmış mübarək divan möhürü ilə möhürləsinlər.

[Şah] şer yazırdı və təxəllüsü "Adili" idi. Öz hökm və məktublarına da "Hüvəl-adü"[294] sözləri yazılırdı.

O, ölkənin yarısının sədarət mənsəbini seyid olan Mirzə Məxdum Şərifiyə, başqa yarısını isə cənnətməkan şahın zamanında qaziye-əskər olmuş Şah İnayətulla Nəqib İsfahaniyə verdi, əhaliyə şəri hökm və göstərişlərlə rəhbərlik etməyi onlara tapşırdı. Bir-iki ay hər diyar əhalisinin şəri və mali işlərinin bəziləri ədalət divanında həll edildi, hökmlər və məktublar ali divanın möhürü ilə möhürləndi. Amma ölkənin böyük dövlət işləri, əmirlərin təyinatı və buna bənzər başqa işlər yenə də yubadılmaqda idi. Şah əksər vaxtlarda Mirzə Şükrullah Vəzirin bacarıqsızlığından şikayətlənir, ona haqsız yerə etiraz edirdi. Heç kim bu vəziyyətə fikir vermir, etinasızlıq edirdi.

Belə bir vəziyyətdə, cənnətməkan şahın hökmü ilə Qəndəhar vilayətində hakim və hökmran olan Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzənin vəfatı xəbəri gəldi. O, təbii əcəllə

Xoş gereftənd hərifan sore-zolfe-saqi,
Gər fələkşan begozarəd ke qərari girənd.

[294] "Hüvəl-l-adil" - o, adildir (Allaha ünvanlanan ifadədir – Ş.F.)

müvəqqəti olan dövlətə və ömrə vida etmiş, bəqa aləminə yollanmışdı. Qardaşının vəfatı xəbərini eşidən İbrahim Mirzə yas paltarı geyinib, onun təziyəsi ilə bağlı işlərin icrasına başladı. İsmayıl Mirzə təskinlik verməkdən ötrü onun evinə gedib, başsağlığı mərasimini yerinə yetirdi, nəvvab mirzəyə, onun hərəminə müqəddəs qızı ilə birlikdə, həmçinin ali sarayda olan Sultan Hüseyn Mirzənin oğlu Məhəmməd Hüseyn Mirzəyə qiymətli xələtlər verib, onları yas libasından çıxardı. Amma, bu hadisədən çox keçmədən İsmayıl Mirzənin onunla rəftarı dəyişildi, İbrahim Mirzənin burnuna bir daha şahın şəfəqqət və iltifat qoxusu dəymədi. Şahin ona yersiz etirazları başlandı, get-gedə İbrahim Mirzəyə və başqa şahzadələrə yönələn davranışı elə bir mərhələyə gəlib çatdı ki, belə vəziyyət onların hamısının həmin bir neçə gün ərzində edam edilməsinə gətirib çıxartdı.

SƏBATSIZ VƏ QƏDDAR ZƏMANƏNİN QƏHRİ ÜZÜNDƏN ADLI-SANLI ŞAHZADƏLƏRİN ŞƏHADƏTƏ YETİRİLMƏLƏRİ, SOYUQ KÜLƏYİN (SƏRSƏR) ƏSMƏYİ NƏTİCƏSİNDƏ ONLARIN ÖMÜR AĞACLARININ QIRILMALARININ ZİKRİ

Bütün məxluqatı yaradan qadir Allah qohumluq tellərinin qırılmasını (seleye-rəhm) mənfur rəzillik, həmin tellərin qalmasını isə bəyənilmiş əməl (mohəssənat) bilmişdir. İsmayıl Mirzənin amansızlığı məşhur idi və o, belə əməldən heç vaxt heç bir xeyir görməmişdi. Qardaşlarına, əmisi oğlanlarına və qardaşı uşaqlarına qarşı məhəbbəti və mehribanlığı olmamasına və onların vücudlarını öz dövlət gülzarının tikanları hesab etməsinə baxmayaraq, o, hərdənbir nəvvab Sultan İbrahim Mirzəyə ehtiram göstərirdi. Nəticədə məlum oldu ki, bu ehtiramın səbəbi Qəndəharda olan onun qardaşı Sultan Hüseyn Mirzə ilə əlaqədardır, çünki İsmayıl Mirzə onun Xorasanda ona qarşı fitnə-fəsad yaratmasından ehtiyat edirdi. Sultan Hüseyn Mirzənin vəfatından çox keçməmiş İsmayıl Mirzənin Sultan İbrahim Mirzəyə münasibəti dəyişdi və öz etiraz dilini açdı. Öz istedadı sayəsində Əflatun biliyinə malik olan nəvvab mirzə (İbrahim Mirzə - Ş.F.) [özünə qarşı] iltifatsızlıq qoxusunu hiss etdi, [şahın] onun həyat rişəsini qırmaqdan başqa təsəlli tapmayacağını bilərək, mülaziəti və xidməti tərk edərək, inzivaya (guşənişinliyə - Ş.F.) çəkilməyi qərara aldı ki, belə etməklə, ola bilsin ki, öz qəmgin

həyatının davamına iki-üç gün təsəlli vermək imkanına ümidvar olsun. O, ağa və mülazimlərinə də evlərində oturub, işi tərk etmələrini əmr etdi. Amma, hər ləhzə öz qətlini gözləyirdi.

[İsmayıl Mirzə] on-on beş nəfər göygöz (əzrəq) və nifrətəlayiq (kerye) çərkəsi Mirzənin evinin keşiyini çəkməkdən ötrü yolladı. Çərkəslər onun evinə yetişdikləri vaxt mirzə öz hərəm otağında idi. Çərkəslər giriş və çıxış qapılarını bağlayaraq, keşik çəkirdilər. Beləliklə, dörd-beş gün keçdi. Günlərin bir günü "Səadət meydanında camaat ilə Qəzvinin darüğəsi[295] Əbdülqəni bəy Ustaclının tabeliyindəki mülazimlər arasında bir qoyunun alqı-satqısı üstündə dava-dalaş başladı.

Qəzvin darüğəsinin sufilərlə döyüşü və sufilərin qətli:

Sufilər hücum edib darüğənin bazar darüğəsini və başqa mülazimlərini döyməyə başladılar. Bu xəbər darüğəyə çatanda bir dəstə döyüşçünü onları həbs etmək üçün göndərdi. Sufilər onun əmrinə baş əyməyərək ifrat şəkildə tabesizik göstərdilər. Darüğənin özü bütün adamları ilə atlanıb meydana gəldi. Sufilər darüğəni daşa basaraq get-gedə bıçaq-xəncərə əl atdılar, hücumla darüğəni məğlub etdilər. Bu xəbər İsmayıl Mirzəyə çatdı. Xüləfa ilə ittifaqa gəldiklərinə görə onun sufilərlə rəftarı pişləşmişdi. Bütün əmirlərə yaraqlanıb, "Şah atı meydanına" gəlmələri əmrini verdi. Əmirlər yaraqlarına sarılaraq dəstə-dəstə gəlir və [şah] onları sufiləri cəzalandırmaq üçün yollayırdı. İşin sonunda, sufilərin qətliam edilmələri əmrini verdi. Museyib xan Təkəli və Murtəzaqulu xan Pornak başda olmaqla bir dəstə qoşun Xüləfanın evinə yaxın olan sufi mənzillərinə hücuma keçdilər. Sufilər vəziyyəti belə görüb silahları ataraq qaçır, qızılbaş qaziləri isə onlara çatıb qətl edir, əsir götürürdülər. Bir göz qırpımında (türfətül-eyn) sufilərin beş yüz nəfərə yaxını öldürürdü.

Döyüşçüləri sufilərin üzərinə göndərib, onları qırmaqla məşğul olan İsmayıl Mirzə şahzadələrin qətlinə hökm etdi.

[295] Darüğə istilahı və vəzifəsi haqqında geniş məlumat üçün baxın: Doktor Şahin Fazil. "Təhəvvole-məfahime-estelahe-darüğə (məqalə), "Xorasan" jurnalı, 1360, № 5, Kabul, səh. 154-167.

II Şah İsmayıl olan İsmayıl Mirzənin əmri ilə altı şahzadənin qətli:

Tapşırığa əməl olunması üçün hər bir keşikçinin yanına adam yolladı. Çərkəslər əvvəlcə nəvvab Sultan İbrahım Mirzənin hərəmxanasına hücum edib, onu cənnətməkan şahın pak qızı olan arvadının yanından çıxararaq iplə boğdular. Elə o andaca [İbrahim] Mirzənin evindən fəryad və fəğan səsləri eşidilməyə başladı və onun artıq qətl edilməsi bəlli oldu. Belə əməli həmçinin hər bir şahzadə ilə də etdilər. Şahzadələrin qətl edilmələri xəbəri [Şah İsmayıla] çatandan sonra arxayınlaşdı, sufilərin cəzasından keçdi, onların sağ qalanları nicat tapdı. Məlum oldu ki, [İsmayıl Mirzə] bu mərəkəni şahzadələrin qətlindən ötrü qaldırıbmış. O, qorxurdu ki, məbadə qızılbaşlar onun əmrindən baş qaçırar və nəsə bir fitnə törədərlər. O, beləliklə onları bu işlə məşğul edib, özünü arxayınlaşdırdı. Həmin gün Qəzvində şahzadələrin altısı şəhadət şərbəti içdi. Dövrün savadlı adamlarından bir çox fəzilət və kamal öyrənən, sənət fənlərini mənimsəyən, olduqca gözəl nəstəliq xətti yazan, incə qələmli rəssam olan, musiqi və dövrün elmləri sahəsində məşhurlaşan Sultan İbrahim Mirzə də öldürülən şahzadələrin biri idi. O, təsnif sahəsində Mövlana Qasım Qanuninin şagirdi idi, yaxşı saz çalırdı, dülgərlik (dorudgəri), saztəraşlıq (saztəraşi) və mozaika-inkrustasiya, (xatembəndi) sənətlərində çox mahir idi. Xorasanda vaxtının çox hissəsini şairlərlərlə, nəzm və bəlağət sahibləri ilə söhbətdə keçirirdi. Özünün təxəllüsü "Cahi" idi. Ondan aşiqanə qəzəllər qalmışdır. O cümlədən, bu iki məqtə (qəzəlin son beyti - Ş.F.) onun əhvalını yazarkən yadımıza düşdü:

Qitə

Gəldi yarın yola düşmək zamanı, ey Cahi,
Taqətin varsa əgər baxmağa, göz aç bax ona.[296]

Qitə

[296] Qitənin farscası:
Yar aməd besərət dər dəme-rəftən, Cahi,
Dide bogşay əgər taqete-didən dari.

Min gün ötmüş və onun məclisinə gəlmişsən,
Cahiya, çəkmə göz ondan, bu qənimətdi sənə.[297]

O, ali bir kitabxana yaratmışdı ki, orada sabiq ustadların və mahir xəttatların, tayı-bərabəri olmayan qızıl qələmli (zərrinqələm) rəssamların və sairənin əsərləri və başqa töhfələr də çox idi. Onun çinixanası Çin və Xəta* rəssamlıq sərgilərinin (negarxane) həsədinə səbəb olurdu. Onun xanımı Mirzənin başına gələn hadisədən sonra həmin əsərləri, İsmayıl Mirzənin əlinə keçməməsindən ötrü, suya tökdü, çiniləri sındırdı, yerdə qalanları odladı. O, mirzənin matəmini saxlayaraq həddindən çox kədərləndi, yataqa düşdü, elə həmin ay fani dünyanı tərk etdi, bəqa aləminə getdi.

Qardaşı oğlu Məhəmməd Hüseyn Mirzə on yeddi yaşlı qabiliyyətli cavan bir oğlan idi. Əvvəlcə onun gözlərinə mil çəkdilər. O, ağrının şiddətindən bərk fəryad edir, sakitləşmək bilmirdi. Bu xəbər İsmayıl Mirzəyə çatan kimi o, onun çəkdiyi işgəncədən azad olması üçün [qətlinə] fərman verdi. Fərmanı alan adamlar dərhal buna əməl etdilər.

Sultan Mahmud Mirzənin bir yaşlı oğlu Məhəmməd Bağır Mirzə ilə birlikdə qətl olunması:

Rumlu camaatının arasında yaşayan Sultan Mahmud Mirzə olduqca nəfsitox və sağlam bir cavan idi. Onun xəyal aynasında ucalmaq və Mirzə ilə birlikdə qətl yüksək vəzifə tutmaq fikri heç zaman olmamışdısa da, oz namehriban qardaşının əmri ilə başqa qardaşları kimi əmrə tabe oldu. Amma güsl və təkfin vaxtı tərpənib gözlərini açdı ki, bu hadisə İsmayıl Mirzənin nəzərindən yayınmadı. Məlum oldu ki, boğdurulması zamanı ip onun boyun damarının birini tutmamışdır. Bundan agah olan və bəsirət gözü belə qəbahətli və alçaq əməllərdən tutulmuş İsmayıl Mirzə, onun işinin bitirilməsi üçün əmr etdi və mirzəni bir yaşlı oğlu Məhəmməd Bağır Mirzə ilə başqa şahzadələr kimi qətl etdilər.

[297] Qitənin farscası:
Bəd əz hezar şəb ke be bəzməş rəsideyi,
Cahi, qənimətəst, əz u bər mədar çeşm.

İmamqulu Mirzənin qətli:

İmamqulu Mirzəni və Sultan Əhməd Mirzəni birlikdə dövlətxanaya gətirib "At meydanı"nın yaxınlığında saxlayırdılar. Elə orada da onlara ölüm şərbəti içirdirdilər. [İsmayıl Mirzə] həmçinin Sistana adam yollayıb, Bəhram Mirzənin oğlu Bədiüzzaman Mirzəni Bəhram adlı azyaşlı oğlu ilə birlikdə qətl etdirdi. Sonra Gəncədə olan Sultan Əli Mirzədən ötrü adam göndərdi. Bir neçə gün keçəndən sonra Qacar camaatı Mirzəni gətirdi. İsmayıl Mirzə ona rəhm edib öldürmədi, amma gözlərinə mil çəkdirib, onu dünya nurundan məhrum etdi.

Onun doğma qardaşı İsgəndər şanlı nəvvabın isə [gələcək Şah Məhəmməd Xudabəndə - Ş.F.] gözləri zəif görürdü. İsmayıl Mirzə onun adlı-sanlı övladını məhv etmək fikrinə gəldi, amma Bilqeys məkanlı cənnətməkan ülyacənab anası Sultanımın oğluna və nəvələrinə olan böyük məhəbbətindən çəkinirdisə də, gecələr onların da işlərini bitirmək fikrinə dalmaqda idi. Nəticədə, onlara qarşı ürəyindəki xəbis niyyətini büruzə verib, öz məqsədini onlara qarşı da həyata keçirdi, əvvəlcə, İsgəndər şanlı nəvvabın Tehranda olan böyük oğlu Sultan Həsən Mirzəni qətl etdirdi.

Həmin yaxşı xasiyyət və rəftarlı şahzadənin şərhi-halı belə olmuşdur: Cənnətməkan nəvvab (Şah Təhmasib - Ş.F.) onu [Sultan Həsən Mirzəni - Ş.F.] Herat darüssəltənəsindən geri çağırıb, sarayda öz yanında saxlamışdı. O, bir neçə il alimiqdar atasının (Sultan Məhəmmədin - Ş.F.) yanında yaşayıb, kamal mərtəbəsinə yüksəldikdən sonra, Mazandaran valisi Sultan Murad xanın vəfatı ilə əlaqədar [şah] həmin vilayətin yarısını ona, başqa yarısını isə Sultan Murad xanın oğlu Mirzə xana verdi və Mazandaran divlərindən (böyüklərindən - Ş.F.) olan və öz əqli və bacarığı ilə başqalarından başda dayanan Mirək Divi onun vəkili təyin etdi.

Nəvvab Mirzə xan şahanə inayətlə mükafatlandırılıb izzət və etibarla Mazandarana getdi, həmin əyalətin taxtına və o vilayətin yarısının var-yoxuna yiyələndi. Mirək Div isə onun vəkili və işlərinin tənzimçisi vəzifəsini yerinə yetirməyə başladı. Amma, onun işi nəvvab mirzənin xoşuna gəlmədi, çünki o, işləri yalnız öz bildiyi kimi idarə edir, şahzadənin çoxdan bəri yanında olan mülazimlərinin işlərə qarışmasına razılıq vermirdi. Bu əməl şahzadənin xoşuna gəlmədi, onun iqtidar və sərbəstliyinə dözmədi, bir dəstə mülaziminin təhriki ilə amma bu barədə cənnətməkan

şahın əmri və işarəsi olmadan, onu qətl edərək Mazandaran divlərinin əlini o mülkün işlərindən uzaqlaşdırdı. Bu hadisə o tayfanın (mazandaranlıların - Ş.F.) etirazına səbəb oldu. Məsələ şaha çatdıqda şahzadənin cəsarət və özbaşınalığından narazı qaldı, ondan incidi. Şaha xəbər verdilər ki, şahzadə bu işi bir müddət orduda onunla dostluq edən ögey dayısı Mir Abdulla xanın oğlu Mir Əziz xanın təhriki ilə həyata keçirmişdir. Adam yolladı və qəfildən mirzənin bütün kağızlarını və əşyalarını ona gətirdilər, Kağızların arasında mirzəni bu işə təhrik edən Mir Əziz xanın məktubunu tapdılar. Buna görə də onu həbs edib Estəxr qalasına saldılar. Mazandaran divlərinə təsəlli vermək və onların ürəklərini ələ almaqdan ötrü mirzənin köhnə mülazimlərinin Mazandarandan çıxarılmasına hökm etdi, şahzadənin yanında yalnız bir neçə xidmətçi qaldı.

[Beləliklə], cənab mirzənin etibarı Mazandaranda bir qədər zəiflədi. Şahzadə [Şah Təhmazibə] belə ərz etdi: "Mirək Div ayağını itaət dairəsindən çıxarmış, üsyan və tüğyan məqamına gəlmişdi. Biz əgər onun şərinin dəf olunmasını şaha ərz və işarə edə bilsəydik, tezliklə müxtəlif fitnə-fəsad zahir olacaqdı. Buna görə də özbaşına olaraq belə bir ədəbsizliyə yol verdik." Şahzadənin üzürxahlığı qəbul olundu və vəziyyəti yüngülləşdi, amma [şah] bu məsələnin üstündə çox da dayanmadı. Mirzə çox naqis tərzdə hakimlik edirdi. O, nəhayət bir neçə Mazandaran əhlini mülayim və iltifat tərzi ilə özünə ram edərək, düşdüyü vəziyyəti islafi etməkdə ikən cənnətməkan şahın vaqiəsi baş verdi yə İran padşahlığı [Sultan Həsən Mirzənin] doğma əmisi İsmayıl Mirzənin əlində qərar tutdu.

Baş verən əhvalatdan Sultan Həsən Mirzə xəbər tutduqda İsmayıl Mirzənin ali anası, özününsə nənəsi olan Sultanının bu əziz nəvəsinə ifrat məhəbbət bəslədiyini düşünüb, möhtərəm əmisinin şahlığı dövründə özünün ixtiyar və iqtidar sahibi olacağım təsəvvür edirdi, çünki hal-hazırda bu əmisinin oğlu yox idi. Buna görə də, o, Mazandaran vilayəti kimi [bir yerdə] çox kiçik (mohəqqər) hakim olması ilə razılaşmayaraq, düşündü ki, möhtərəm əmisinin və nənəsi [Sultanımın] yanında xidmət etməklə bütün İran işlərinin ixtiyar sahibi, lap elə bəlkə də [əmisinin] vəliəhdi və qayimməqamı olacaqdır. [Buna görə də,] İsmayıl Mirzənin əmri və razılığı olmadan Mazandarandan çıxdı. Amma, əsla düşünmürdü ki, namehriban əmisi onun barəsində də qəddar bir əməl düşünmüşdür.

Tehrana gəlib çatdıqda İsmayıl Mirzə onun gəlişindən xəbər rutdu. Öz fikir və ehtiyatkarlığına rəğmən onun gəlişindən razı qalmadı, amma zahirən hələ onun dəfi xüsusunda heç bir tədbir görə bilmədi. Onun bir qardaşı Şirazda zülqədər tayfası arasında, başqa qardaşı isə Heratda ustaclı tayfası içində yaşayırdı. Həmçinin, əhalinin yanında ana ehtiramına riayət etmək lazım idi. Onun yanına bir adam yollayıb bildirdi. "Sənin nənən olan mənim möhtərəm anam Qumdadır. İstəyirik ki, onu tam izzət, ehtiram və şahanə təmtəraq ilə buraya gətirək. Eşitmişəm ki, şahzadənin də işləri yararsız (bisaman) vəziyyətdədir. Hal-hazırda mən anamdan ötrü yaraq hazırlanması ilə məşğulam, buna görə də qoy o fərzənd hələ Tehranda qalsın ki, mən anaraın yarağı tədarük olunduqdan sonra onun da çağırılmasından ötrü adam yollayacağam. [Əlbəttə] o fərzənddən ötrü də yaraq hazırlamaqdayam, tezliklə əzəmətli əmirlərin birini onun ardınca göndərəcəyəm ki, anası ilə onun görüşü birdəfəlik baş tutsun". Buna görə də nəvvab mirzə əmrə baş əyərək Tehranda qaldı.

Amma, İsmayıl Mirzə onun və anasının gətirilməsini hələ ləngidirdi. O, gah imarət tikilişinin tamamlanmasını, gah da onlara mənzil ayrılmasını və sair məsələləri bəhanə gətirib vaxtı uzadırdı. Orduda məzhəb ixtilafı başlayan vaxta qədər mirzə Tehranda qaldı. "Xoş gəldin"ə gələn bəzi adamlar İsmayıl Mirzəyə dedilər ki, qızılbaşların əksəriyyəti ali nəvvabın təsənnünə (sünniliyə - Ş.F.) meyil etdiyini güman edib, o cənabdan dönmüşlər və istəyirlər ki, Sultan Həsən Mirzəni gətirib özlərinə padşah etsinlər.

Əmisi İkinci Şah İsmayılın əmrindən
Sultan Həsən Mirzənin xəbər tutması:

[İsmayıl Mirzə] bu sözləri əlində əsas tutub, həmin günahsız şahzadənin həyat ipinin qırılması xüsusunda fərman verdi. Əvvəlcə, nəvvab Sultanımın bacısı oğlu və nəvvab İsgəndər şanlı İsmayıl Mirzənin dayısı oğlu olan Müseyib xan Şərəfəddinoğlu Təkəlini bu işin icraçısı təyin etdi.

Müseyib xan ikrah hissi ilə yola düşdü. Dörd-beş gündən sonra xəbər çatdı ki, o, yavaş-yavaş hərəkət edir və hələ [indiyədək] Kərəcdən keçib Savucbulağa çatmamışdır.

İsmayıl Mirzə onun ləngimə və səhlənkarlığından inciyərək türkman əmrlərindən olan Kosa Əliqulunu hər oymaqdan iki nəfər

olmaqla qırx-əlli nəfər qorçi ilə birlikdə göndərdi ki, iyirmi iki nəfərin hər biri əllərinə ip götürərək şahzadəni boğsunlar. Bu vəziyyəti eşidən Müseyib xan sevindi və geri qayıtdı. Göndərilənlər [isə] qəfil bəla kimi Tehrana çatdılar. Şahzadə Tehranda çox ləngidiyindən iltifatsızlıq rayihəsini ciyərlərinə çəkib, namehriban əmisinə qarşı qəlbində olan şəfqətini tamamilə itirdi, vəziyyətdən çıxış yolunu qapalı gördü. Qorçilər gələn zaman o, giriş qapısını bağlayıb öz ox qabını kamanla birgə dama apardı, qüvvəsi qalıncayadək onlarla atışmağı və kişi kimi ölməyi qərara aldı.

Qorçilər vəziyyəti belə gördükdə Kosa Əliqulu dedi: "Biz əmrə görə şahzadəni aparmaq üçün gəlmişik".

Onlar Quranı ələ götürüb sözlərinin düzgünlüyünə yalandan and içdilər. Şahzadə gələnlərin andlarına inanıb onlarla görüşdü. Qorçilər Allahdan bixəbər halda birdən-birə onun üstünə atılaraq, aldıqları tapşırığa əsasən şahzadənin nazənin boğazını iplə tarıma çəkdilər, izzət çəmənində böyüyüb boya-başa çatan və səltənət arxı kənarında bitən həmin sərv ağacını həlak etdilər. Elə həmin gün İsmayıl Mirzə Qazı bəy adlı zülqədər qorçisini İsgəndər şanlı nəvvabı və onun fərzəndlərini həbs etməyə, onların yanına heç kəsi buraxmamaq, zülqədər və başqa tayfalardan bir nəfərə də onunla görüş icazəsi verməmək və gələcək əmri gözləməkdən ötrü Şiraza yollamışdı. Söyləyirlər ki, İsmayıl Mirzə nəhayət Heratda olan İsgəndər şanlı nəvvabın və fərzəndlərinin dəf olunması və onların qətli xüsusunda hökm vermişdir. Amma, o buna nail ola bilmədi. Bu alçaq işin yerinə yetirilməsindən əvvəl elə özü əcəlin qaçılmaz hadisəsinə giriftar oldu, həyatına əlvida etdi. Bu əhvalatın təfsilatı öz məqamında yazılacaqdır. Allah-taala əlahəzrət zilləllah şahın müqəddəs zatında bir neçə təəccüblü işin baş verəcəyini müəyyənləşdirdiyindən, [həmçinin] səltənət və padşahlığı xüsusunda onun alın lövhəsində (lovhe-məhfuz) "[Ey Allah] mülk sahibi sənsən, istədiyin kimsəyə mülk verirsən..."[298] yazısı artıq yazılmışdı. Elə buna görə də [İsmayıl Mirzənin] çıxardığı hökmə [Allah tərəfindən] imza atılmadı, hökm yerinə yetirilməzdən əvvəl qəddar zəmanə onun dövlət tuğrasını* xətm qələmi ilə yazdı və [İsmayıl Mirzə] ömür və dövlətdən həzz ala bilmədi.

[298] İfadənin ərəbcəsi: "... tu-ti-l-mulkə mən-təşa-u..."

İSMAYIL MİRZƏNİN ŞAHLIĞI DÖVRÜNDƏN VƏFATINA QƏDƏR BAŞ VERƏN BƏZİ ƏHVALATLARIN ZİKRİ

Qardaşları və əmioğlularından İsmayıl Mirzə xətircəm olandan sonra ölkə işlərinin icrasına başladı. Vəzir Mirzə Şükürullahın hərəkətləri İsmayıl Mirzənin təbinə müvafiq olmadığı üçün o, həmişə bu vəzirdən şikayətlənirdi. [Buna görə də] onu ali divan vəzirliyindən kənar edib, həmin ali mənsəbi nazir Mirzə Salmana verərək, onun qədr-qiymətini fələyə qədər qaldırdı. Mirzə Salmana tapşırdı ki, alişan əmirlərin heç biri önündə əyilməsin. [Yeni vəzir] müstəqil surətdə bu vəzifənin icrasına başladı. İsmayıl Mirzənin özü isə dövlət məsələləri ilə az məşğul olurdu. O ölkədaxili işlərdən və sərhəd məsələlərindən təmamilə bixəbər olmaqla işlərin həllini hər neçə gündən bir müxtəlif şəxslərə tapşırırdı. Amma, bəzi əmirləri öz yerlərinə hakim təyin etdi ki onların bir neçəsi öz ülkalarına yollandılar. Əmirlərin hamısı ali orduda olan vaxt isə İsmayıl Mirzənin vəfatı hadisəsi baş verdi. İsmayıl Mirzənin təkəli tayfasından yaxın qohumu olan xanzadə Müseyib xan Şərəfəddinoğlu əyalət və xanlıq mərtəbəsinə (hakimliyə - Ş.F.) qaldırıldı və Rey ülkası ona inayət edildi. Solağ Hüseyn Təkəlini Kürdüstan səmtinə yollayaraq Əli Şükür uluslarını və bəzi başqa yerləri ona verdi. Əliqulu xan Şamlını və onun atası Sultan Hüseyn xanı əmirlik rütbəsinə qaldırıb, Herat hakimliyinə Əliqulu xanı təyin etdi. Cənnətməkan şahın qızı Zeynəb bəyimin kəbinini onunla kəsdirdi və qərara alındı ki, bəyimi gələn il Herata [ərinin yanına] yollasınlar. [İsmayıl Mirzə] Murtəzaqulu xan Pornakı müqəddəs Məşhədə hakim yollamaqla onu şərəfləndirdi. Cənnətməkan şahın Yusif Xəlifə Ziyadoğluya vermiş olduğu Gəncə əyalətini və Qarabağ əmirülüməralığını onun əmisi oğlu Peykər Sultana tapşırdı. Peykər Sultan isə Yusif Xəlifə Zİyadoğlunu Sultan Heydər tərəfdarı olduğuna görə töhmətləndirib, onun qətlinin öz şövkət və etimadının artacağına səbəb olacağını düşünürdü. [Belə ki,] Yusif Xəlifə sübh vaxtı hamamdan çıxıb paltarlarını geyindiyi zaman bir neçə mülazim qılınclarını sıyıraraq hamama girdilər və onu qətl etdilər. O bununla kifayətlənməyərək, Yusif Xəlifənin anasını və qardaşını da öldürdü. Bu iş İsmayıl Mirzənin xoşuna gəlmədiyindən Peykər Sultanı vəzifəsindən kənar edib Gəncə əyalətini İmamqulu xan Qacara verdi. O, Kirman hakimi Allahqulu

bəy Əfşara qorçibaşı vəzifəsi verib, Kirman hakimliyini Mahmud Sultan Əfşara tapşırdı. Şiraz əyaləti Vəlixan Qalxançıoğluya verildi.

İsmayıl Mirzənin oğlu Şah Şücanın təvəllüdü:

O vaxtlarda İsmayıl Mirzənin hamilə olan cariyələrindən biri doğuşdan azad olub dünyaya bir oğlan gətirdi. İsmayıl Mirzə bu münasibətilə olduqca sevindi. Təvəllüd müjdəsindən ötrü hər əmirin yanına adam göndərildi, hər kəs öz imkanına rəğmən müjdə pulu (mojdegani) verdi. Bir neçə gündən sonra adını Şah Şücaəddin Məhəmməd qoydu və onun lələliyini müzəffərilər sultanlarının məkanı olan Şirazda hakim olan Vəli Sultan Zülqədərə tapşırdı ki, həmin vilayətdə "Şah Şücaye-Müzəffəri" ayinini (qayda-qanununu - Ş.F.) yenidən bərpa etsin. Vəli Sultan [bu münasibətlə] öz evində şahanə bir ziyafət verib, şahzadənin beşiyini mübarək dövlətxanadan çıxardı, ata süvar olub yola düşdü. Əmrə müvafiq olaraq bütün əmirlər və dövlət adamları piyada halda beşiyin ardınca hərəkət edib, onu Vəli Sultanın evinə gətirdilər. [Beləliklə] İsmayıl Mirzə Vəli Sultanın qədr-qiymətini və məqamını olduqca ucaltdı. Şirazda isə onunla İsgəndər şanlı nəvvab arasında soyuqluq yarandı. Vəli Sultanın belə yüksəlişinin səbəbi bu idi ki, Şirzada onunla İskəndər şanlı nəvvab arasında narazılıq (ğobar) baş vermiş, zülqədər tayfası sufilik adətinə əməl edərək İskəndər şanlı nəvvab ilə xoş, Vəli Sultanla kobud davranmağa başlamışdılar. Buna görə də o, [Vəli Sultan - Ş.F.] etibarını itirib Şirazdan çıxdı və saraya gəldi. Öz böyük qardaşına qarşı bərk inadı olan İsmayıl Mirzə nəvvab şahzadə ilə qaba davranmış zülqədər ağalarını, xüsusilə Əli bəyi və qardaşlarını, həmçinin sabiq Şiraz hakimi Məhəmməd xan ağa Şadibəylinin övladını etibardan saldı, onları məzəmətləndirdi.

Bu arada xalq arasında məzhəb əxlaqı barədə danışıq başlandı. İsmayıl Mirzənin hərəkətlərinə və şiə məfkurəsi barədə gizli və üstüörtülü söhbətlərinə görə camaat onu şiəlikdə süst etiqadlı şəxs kimi tanıdı, onun sünni olduğunu güman etdi.

İsmayıl Mirzənin şiə məzhəbinə qarşı əqidə zəifliyi və onun sünni məzhəbi əhlinə qarşı meylinin bəyanı:

Bu gümanın birinci səbobi o idi ki, o, Ayişəni** lənətləyənlərə qarşı çıxdı, özünün xidmətində olan islam

üləmalarına, xüsusilə Xacə Əfzəl Türkəyə şiə tayfasının hansı dəlillə Allahın Peyğəmbərinin möhtərəm hərəmini lənətləmələrinin cayiz olması xüsusunda sual verib dedi. Halbuki onun isməti və təmizliyi barədə ayələr vardır. O, Peyğəmbər (s) xidmətində durmuş, o sərvərə mərhəm və məhbubə olmuşdur. [Belə olan halda] Peyğəmbərə xidmət edən və onun məhbubəsi olan ismətli bir qadın necə ola bilər ki, axirətdə yanmağa məruz qalsın? Bəsrədə Təlhə və Zübeyrin yalan sözləri (əğva) və təhriki ilə həzrət əmirəl-möminin Əli ibn Əbu Talıb və Aişə arasında narazılıq yarananda həzrət əmirəl-möminin, qadınların fikri zəifliyi və əqli nöqsanları olduğuna görə onu əfv etdi. Onun əfvinə səbəb budur ki, həzrət Əli Aişəni izzət və ehtiramla Mədinəyə göndərdi, Allahın elçisinə hörmət əlaməti kimi onu, [hətta] həzrətlər Həsəneynlə (Həsən və Hüseynlə - Ş.F.) bir neçə mənzil məsafədə gedərək yola saldı. Buna görə də, Ayişənin tənbeh edilməsi o sərvərin (peyğəmbərin - Ş.F.) də lənətlənməsi deməkdir. Belə olan halda bəs şiə üləmasının fikri necədir?"

Bu məsələni o, bir neçə məclisdə bəzən kinayə ilə, bəzənsə müstəqim şəkildə açıq-aydın izhar etdi. Üləmanın bu sual-cavaba müəyyən izahı olmadı və onlar hər dəfə tutduqları məqama görə bu barədə öz aralarında gizlicə danışırdılar. Cənnətməkan şahın zamanında təsənnünə rəğbətinə görə töhmətləndirilən Mirzə Məxdum Şərifi İsmayıl Mirzənin fikrini təsdiq edən dəlillər gətirdiyi üçün gündən-günə şah tərəfindən ucaldılırdı. O, pərdə ardından çıxaraq sünnət əhlinin məzhəbinin güclənməsi və ilk üç xəlifənin lənətlənməsinin aradan götürülməsi xüsusunda üləmalarla mübahisələr edirdi. Üləmalar isə əksər vaxtlarda onun dediklərini qəbul etmir, onu az müdafiə edirdilər.

Günlərin bir günü, İsmayıl Mirzə uca xüləfa mənsəbinə yetməklə başınca olmuş Bolqar Xəlifəyə dedi: "Xəlifə, əgər bir adam camaatın arasında sənin arvadının adını çəkib onu söysə acığına gələr, ya yox?"

Xəlifə bu sualın cavabında "bəli" söylədi. İsmayıl Mirzə ondan soruşdu: "Bəs adamlar nəyə görə Allahın rəsulunun möhtərəm hərəmini lənətləyir?"

Bolqar Xəlifə cavabında dedi: "Söyüş söymək haramdır, lənət - Allah rəhmətindən uzaqlaşanlara aiddir. Qoy pis əməl hər kəsin cəzası Xudaya həvvalə olunsun. Bunun heç bir qüsuru yoxdur."

İsmayıl Mirzə soruşdu: "Sən sadolövh bir türk kişisisən. Bu məsələdə səni kim təlimləndirmişdir?"

Dedi: "Cənnətməkan şahın zamanında üləmadan eşitmişdim".

İsmayıl Mirzənin təbrikinə gələnlər şaha ərz etdilər: "Xəlifə düz danışmır, bir neçə gün bundan əvvəl, şah sarayında Sultan İbrahim Mirzənin yanında üləma arasında bu məsələ müzakirə olunurdu. Bu sözləri ona Mir Seyid Hüseyn Müctəhid və Xacə Əfzəl demişlər".

Bundan qəzəblənən İsmayıl Mirzə qorçilərə işarə edib buyurdu ki, mürşidi-kamilə[299] yalan deyən xəlifə cəzaya layiqdir. Sufilər hücum edib ona bir neçə təpik vurdular və o, həyatdan öz ümidini kəsdi. Hamə onun öldüyünü güman etdi. Onun əndamını bir kətana büküb, dəfn etmək üçün evinə apardılar. Təsadüfən bir neçə ləhzədən sonra huşu özünə qayıtdı, iki-üç aydan sonra özündə hərəkət etmə gücünü hiss etdi. İsmayıl Mirzə, onun mənsəbini Dədə Xüləfa Ustaclıya verdi və üləmaya etirazla dedi:

"Həzərat hər gün məclis qurub, belə alçaq sözlərlə qızılbaşların əqidəsini mənə qarşı çevirirlər. Onlar yalançılıq və ikiüzlülüklə atamı aldatmışdılar, [amma] mən onlara aldanmayacağam".

İsmayıl Mirzənin müxaliflərin təbərra rəsmini lənətləmələrini şiələrə qadağan etməsi:

O üləmalara, xüsusən Mir Seyid İsmayıl Mirzənin Hüseynə və qatı şiə olan astrabadlılara qarşı sözlərini dedi və onların rəyi əleyhinə belə hökm verdi:Təbərra rəsmi küçə və məhəllələrdə qadağan olsun və bundan sonra təbərraçılar bu əməllərini tərk etsinlər!

O, deyirdi:

"Lənəti özlərinin sərmayəsinə çevirən təbərraçilarla mənim yaxşı münasibətim yoxdur".

[299] Mürşidi-kamil - Şah İsmayıldan başlayaraq bütün Səfəvi şahları özlərinə mürşidi-kamil (kamil mürşid) deyirdilər - Ş.F.

Mirzə Məxdum Şərifi, əlləmatül-üləma Mövlana Mirzəcan Şirazi və Mir Məxdum Lalə kimi sünnilikdə töhmətləndirilən bir dəstə üləma onun hörmət və nəvazişinə layiq görüldülər.

Bəzən vəz oxuyan Mir Məxdum Şərifi İsmayıl Mirzəyə ərz etdi ki, təbərraçılar məclisdə təbərra vəzi edib mənə kinayəli sözlər deyirlər. İsmayıl Mirzə vəz məclisina on iki qorçi göndərdi ki, təbərra dilini açan hər nəfəri cəzalandırsınlar. Bir cümə axşamı vəz məclisi quruldu Məclisin sonunda Dərvis Qənbər Təbərrayi bu beyti oxudu:

Beyt

Əli və ale-Əliyə salavat hey göndər,
Əli düşmənlərinə daim ola lənətlər![300]

Mirzə Məxdum bu kinayəyə dözdü, amma çox keçmədi ki, qorçilər Dərviş Qənbəri elə kötəklədilər ki, başı bir neçə yerdən yarıldı. Bu məsələni bildikləri zaman şiələrin gözlərindən həsrət yaşları axmağa başladı. Bu hadisədən sonra İsmayıl Mirzə[nin sünniliyi] barədə camaatın gümanı daha da çoxaldı, araya gizli danışıq düşdü, bu məsələdən qızılbaş əqidəsi zərərə düçar oldu, amma heç kimdə bu barədə danışmaq curəti yox idi.

Bütün üləmalardan bədgüman olan İsmayıl Mirzə Mir Seyid Hüseyn Müctəhidə, Mir Seyid Əli Xətibə və təşəyyö (şiəlik - Ş.F.) və təbərrada üstün olan bütün astrabadlılara başqalarından daha çox iltifatsızlıq göstərdi və onların bəzisini ordudan çıxardı. O Mir Seyid Hüseynin bütün elmi kitablarının bir evə toplanıb möhürlənməsi əmrini verdi. Onu yaşadığı mənzildən çıxarıb, evini müsadirə etdilər. İsmayıl Mirzə [həmçinin] buyurdu ki, ömürləri boyu "əşəreyi-mübəşşirəni" ("yaxşı xəbər verən onluq") lənətləməyən islam əhlinə müəyyən məbləğ pul nəzir olsun. Mirzə Məxdum Şərifi o adamları müəyyən etməyə başladı. Tamahkar adamların çoxu özlərinin sünni olduqlarını bildirdisə də, qəbul edilmədi. Bütün ömürləri boyu əshabələrə qarşı özlərinın lənət

[300] Beytin farcası:
Əli-vo ale-Əlira ze can-o del sələval
Ke doşmənane-Əlira modam lənət bad!

ağızlarını açmayan bir dəslə Qəzvin camaatı adlarını yazdırdı. Qədim zamanlardan bəri şafei məzhəbindən olan bir dəstə qəzvinlini Mirzə Məxdum təsdiq etdi və onlara iki yüz tümənə qədər pul verdi. Amma, həmin məbləğ pul İsgəndər şanlı nəvvabın hakimiyyəti vaxtı onlardan geri alındı və onların etibar kisələrində təsənnün bədnamlığından başqa heç nə qalmadı.

Xülasə, İsmayıl Mirzənin sünnilərə rəğbəti barədə türk və tacik camaatı arasında fikir yarandı, amma onun qorxusundan heç kəs bu haqda bir söz deməyə cürət etmədi. Cənnətməkan şahın hakimiyyəti vaxtı təbərra xüsusunda söz danışan və indi də öz sözlərindən dönməyən bəzi üləmalar sakitcə dayandılar, etibardan düşdülər, onların xidmətləri qadağan edildi və çağırış olmadan saraya gəlmək hüququndan məhrum oldular. Bəzi əqidə sahibləri isə Xacə Əfzəl Türkənin məclisinə gedərək gizli söhbətlər edirdilər.

Amma, bir gün isnaəşəri imamlarının - onlara salam olsun - həqiqiliyi və sünnilərin əqidələrinin puçluğu barədə ona (İsmayıl Mirzəyə - Ş.F.) bəzi xoşagələn sözlər dedilər. O, söhbət edənlərin lənətləmələrini və müxalif fikirləri sakit halda dinləyir və bu barədə heç nə demirdi. Bəziləri isə bu söhbətə təəccüb (estebad) etdikləri halda dinmir, padşahın məsləhətlərinə və öz qəlblərinin sözlərinə qulaq asırdılar. Amma, qızılbaş əmir və əyanları söhbətin belə aparılması ilə qətiyyən razılaşmırdılar. Bir gün isə onun məclisində dedilər ki, məscidlərdə şer demək və divarlara şer yazmaq haramdır, Qəzvin məscidinin divarlarısa camaatın yazdığı şerlərlə doludur. İsmayıl Mirzə həmişə təşəyyö tərəfdarı olan Mir Zeynalabdin Möhtəsib Kaşiyə məscidlərə gedib, divarlardan şerləri pozmaq əmrini verdi. O da, gedərək, İsmayıl Mirzəyə xoş gəlsin deyə, əmirəl-möminin adını (Həzrət Əlinin - Ş.F.) və məsum imamlar barədə yazılmış mədhiyyələri də pozdurdu. Bu iş bəzi adamların xoşuna gəlmədi, türklər arasında söz-sov yarandı. Bəzi əmirlər və əyanlar "Bağı-Səadətabad" sarayında yığışıb belə dedilər: "Camaat cənnətməkan şahın doğma oğlu və Şeyx Səfi və Əli ibn əbu-Talib əleyhüssəlavatın fərzəndi olan mürşidimizin və vəlinemətimizin məzhəbi barədə qəribə söhbətlər danışır və onu şahın düşmənləri ilə dostluqda günahlandırırlar. [Amma] bu çətin ki, belə olsun. Bilmirəm ki, belə söz-söhbətə səbəb nədir? Camaatın belə danışığına səbəb nə olmuşdur? Bizim sədaqətimiz və sufigərliyimiz müşkülata düçar olmuşdur. Bn müşkülatın həll olunması üçün mürşidin (İsmayıl Mirzənin - Ş.F.) yanına getməyə cürətimiz

yoxdur. Bəzi ağsaqqallar və ağıllı adamlar deyirlər ki, belə söhbətlər qızılbaş etiqadı ilə düzgün gəlmir və bu ailəyə qarşı küfrdür. Niyə biz bu xüsusda olan ehtimallara inanaq? Yox, əgər əşrəf (İsmayıl Mirzə -Ş.F.) tərəfindən bəzi məsələlər ortaya çıxmış və boşboğaz adamların tənəsinə səbəb olmuşsa, bunun özü də əsassız deyildir. Bu xüsusda heç danışmamaq məsləhətdir, çünki padşahın hüzurunda bu haqda söhbət etmək biz bəndələr tərəfindən ədəbsizlikdir. [Bundan başqa] kimin həddi vardır ki, bu barədə ondan bir söz soruşa bilsin?".

İsmayıl Mirzənin sufilərindən və etibarlı adamlarından olan və onun tərbiyət və nəvazişinə layiq görülən Ərdoğdu Xəlifə Təkəli iradəli adam olduğu üçün dedi:

"Mən inanmıram (haşa) ki, bu məsələdə düzgünlük vardır. Yox, əgər arxayın olmaq istəyirsinizsə, böyük əmirlər zümrəsindən olan Əmir xan öz qazi və sufilərinin bir dəstəsi ilə başçı kimi ilə hümayunun (şahın - Ş.F.) yanına gəlsin ki, mən o həzrətlə danışıb sizin müşkülünüzü həll edə bilim".

Həmin məclisdə olan və şaha yaltaqlanmaq istəyən bəzi izzəttələb adamlar tez-tələsik özlərini İsmayıl Mirzəyə çatdırıb ona xəlvətcə dedilər:

"Başçıları Əmir xan və Ərdoğdu Xəlifə olan bir dəstə türkman və təkəli əmirləri bir-biriləri ilə ittifaqa girərək deyirlər ki, bizim padşahımız Haqqın məzhəbini tərk etmişdir. Onlar birləşib həzrət şahı aradan götürmək və Tehranda olan İsgəndər şanlı nəvvabın oğlu Sultan Həsən Mirzəni padşah etmək istəyirlər. Ərdoğdu Xəlifə qızılbaşların arasında belə demişdir ki, qoy Əmir xan gəlib mənə kömək etsin və mən irəli düşüb padşahla danışım".

Bir dəstə adam da məsələdə adı çəkilən şəxsin İsmayıl Mirzəyə yaxın olan Xəlifə Ənsar olduğunu güman etdilər, onun sabiq işlərin unudulması naminə İsmayıl Mirzəyə belə demiş olduğunu bildirdilər. Düzünü Allah bilir.

İsmayıl Mirzə bu söhbəti eşidib pərişan oldu, o camaata qarşı onun qəzəb şöləsi şiddətləndi. Əmir xanı yanına çağırıb ona acıqla dedi:

"Siz məni qızılbaşların içində bədnam edib demisiniz ki, mən güya təsənnün məzhəbini qəbul etmişəm. Siz belə deməklə əhalinin mənə olan əqidəsini dəyişirsiniz".

Əmir xan ona mərdanə cavab verib dedi: "Bizim heç vaxt belə niyyətimiz olmamışdır və mümkün deyil ki, biz həzrət şah

barədə səhv fikrə düşə bilək. Biz deyirik ki, əgər hərdənbir şah məzhəb barədə bəzi söhbətlər edirsə, bütün bunların hamısı bu mülkün işlərindən və müxaliflərin ürəklərini düz yola çəkməkdən ötrü edilir. Amma, Mirzə Məxdum Şərifi işin üstündən pərdəni götürüb nəvvab şahı bədnam etmişdir. O açıq-aşkar camaata deyir ki, həzrət şahın təsənnünə meyli vardır və onunla şiə üləmaları arasında o məzhəb barədə münaqişə düşmüşdür. Əgər həzrət şah bu məsələdən şübhələnirsə qoy onu cəzalandırsın, daha bizim nə günahımız var?".

İsmayıl Mirzə Ərdoğdu Xəlifəyə xitab edib dedi:

"Bax ki, Əmir xan sənin arxanda dayanıbdır və səni himayə edir. Bu barədə nə bilirsənsə de".

O inkar etdi. Əmir xan şaha ərz etdi:

"Həzrət şah nə üçün qərəzkarların biz dövlətxah adamlara qarşı olan sözlərinə qulaq asır? Niyə bu məsələnin yalan-doğruluğunu bilmədən biz sadiqləri nifaq əhli güman edir?"

İsmayıl Mirzə dedi:

"Görünür ki, mənim qızılbaşlara padşahlıq etmək ləyaqətim yoxdur, əgər belə olmasaydı, siz öz aranızda Sultan Həsən Mirzəni Tehrandan gətirib padşah etmək istəməzdiniz".

Əmir xan qorxu-hürküsüz ərz etdi:

"Biz iyirmi ildir ki, nəvvab əşrəfin tərəfdarı və dostu kimi hərəkət etmişik. Mətləbimizə yetişdiyimiz bir vaxtda biz nəyin xatirinə xəyalımıza belə gəlməyən Sultan Həsənin padşahlığı barədə düşünə bilərik?"

Xülasə, söhbət uzun çəkdi. Ərdoğdu Xəlifəni tutub sandığa saldılar (yəni həbs etdilər - Ş.E). Dəftərxana daruğəsi olan Əlixan bəyi öz qardaşı olan və onunla ədavət saxlayan Babur bəyin təhriki ilə güya Ərdoğdu Xəlifə ilə əlbir olması bəhanəsi ilə həbs etdilər. Özünün tərbiyəsi altında böyüyən Əmir xana və Müseyib xan Təkəliyə isə dedi:

"Əgər doğruçu adamlarsınızsa məni Sultan Həsən tərəfdən xatircəm edin".

Onlar istər-istəməz bu işə razılıq verdilər. Əmirlərdən olan Kosa Əliqulu Türkman qırx dörd nəfər qorçi ilə belə alçaq əməlin icrası üçün təyin edildi.

Yuxarıda məlumat verildiyi kimi, onlar Tehrana gedib bu dövlətin izzət bulağının suyu ilə göyə ucalan həmin dövlət çəməninin xoşbəxt nihalını qətl etdilər.

İsmayıl Mirzə bu hadisədən sonra türkman və təkəli əmirlərinə qarşı bir qədər etimadsız oldu, ustaclı tayfasını nəvazişləndirdi, Yegan Şahqulunun övladlarına vəzifə verdi. Belə ki, o, Mürşidqulu Sultanı Sistana hakim göndərdi. Mürşidqulunun qardaşı İbrahim Sultan isə öz əmisi övladlarına xidmət etməklə öz ehtiramını qoruyub saxladı. Məhəmmədi xan Toxmağa Çuxur-Səd əyalətini verdi. Məhəmmədi xanın əvəzinə Çuxur-Səd hakimi olmaq istəyən Əbu Turab Sultana isə Şirvan əyalətini müəyyənləşdirdi.

Beləliklə, ustaclı tayfası arxayınlaşdı, qorxu və təşvişdən qurtuldu.

İkinci İsmayılın hakimiyyəti dövründə dirhəm və dinar sikkələrinin zərb olunması:

İsmayıl Mirzə elə o vaxtlarda əhalinin özü haqqında olan etiqadını etibara çevirməkdən ötrü Mirzə Məxdum Şərifini sorğu-suala tutub həbs etdi. Bu vəziyyəti müşahidə edən avam adamlar onun ardınca söyüş və səfehlik dilini açaraq ətrafda rüsvaylıq yaratdılar.

Bu iş əhali tərəfindən bəyənildi, lakin xalqın bu qiyamı rəf edildi və bir daha onun məzhəbi barədə məclislərdə danışılmadı.

İsmayıl Mirzə bu vaxta qədər öz adına qızıl sikkə kəsdirmədiyi üçün ticarətdə köhnə qızıl sikkələrdən istifadə olunurdu.

Zərrablar[301] qızıl pulların təzələnməsi və zərrabxananın mənafeyinin çoxalmasını arzu edirdilər. Mirzə pulun bir üzündə yazılan "La ilahə illəllah və Məhəmmədən rəsulillah və Əliyyən vəliyullah" ifadəsi ilə razılaşa bilmirdi. O, deyirdi ki, ticarət və müamilə əməliyyatları zamanı dirhəm və dinar yəhudi, erməni, hindli və başqa kafirlərin əllərinə keçir və avam adamlar "paklardan başqa kimsə ona əl vurmaz"[302] müqəddəs kəlamının ziddinə gedib, natəmizlər kimi Allah adına əl vururlar. O fikirləşirdi ki, həmin sözlərin əvəzinə hansı söz yazılsın ki, xalqın gözündə pis səslənməsin. Bir gün o əhali arasında belə dedi:

"Dostlarım məni bədnam etdikləri üçün, bu məsələ ortaya çıxanda da deyəcəklər ki, şahın məqsədi bu ibarələri pullardan

[301] Sikkə zərb edən ustalar.
[302] Kəlamın ərəbcəsi: "La yəməssuhu illəl-mutəhhərun".

götürməkdə, "Əliyyən vəliyullah" ifadəsini pozmaqdır". Bir qədər fikirləşdikdən sonra sikkənin bir üzünə bu beytin yazılması:

Bürüyərsə imamlar bu cahanı,
Bizə bəsdir Əli və xanədanı.[303]

və başqa üzünün bir tərəfində isə öz adının nəqş olunması və sikkənin zərb edildiyi yerin göstərilməsi barədə qərar çıxardı. Onun tərəfindən müəyyən edilən xoş bir saatda sikkə zərb olundu, dirhəm və dinar həmin sikkə ilə bəzəndi.

[İsmayıl Mirzə] bu məsələlərdən sonra Məşhədə hakim təyin etdiyi Mürtəzaqulu xan Pornakı şahm mübarək nəşini götürüb yola düşməsindən ötrü tutduğu vəzifədən mürəxxəs etdi.

Günahları Allah tərəfindən bağışlanmış o cənazəni qorumaq və növbə ilə mənzil-mənzil çiyinlərində aparmaları üçün üç yüz qorçi təyin olundu. O, [həmçinin] Heratın hakimi və bəylərbəyisi olan Əliqulu xan Şamlını da cənazəni müqəddəs Məşhədədək müşayiət etməyi və sonra Herata qayıtması üçün işdən mürəxxəs etdi.

Camaat belə danışır ki, İsmayıl Mirzə onunla qərarlaşmışdı ki, Əliqulu xan Herata çatan kimi o zaman yeddi yaşı olan əlahəzrət zilləllah şahın şərafətli vücudunu (gələcək Şah Abbasın - Ş.F.) həyat lövhəsindən silib, özünün xatirindəki narahatlığı o iqbal bürcünün dürründən, varlığından özündən kənar etsin.

O, İsgəndər şanlı nəvvab Sultan Məhəmməd Mirzəni və onun qardaşını həbs edib nəzarətdə saxlaması üçün Qazi bəy Zülqədərin yanına Şiraza adam yolladı və ona tapşırdı ki, Şiraz hakimi Vəli Sultan Qalxançıoğlu gəlib çatan kimi onu da həlak etsin.

İsmayıl Mirzə belə qərara almışdı ki, padşahlıq xanədanında ondan və oğlu Şah Şücadan başqa heç kim sağ qalmasın. Amma bilmədi ki, "Qul idarə edir, Allah isə bir xalq kimi [bunu] qiymətləndirir"[304]. Xaliqin istəyi xəlayiqin istəyinin əksidir:

---

[303] Beytin farscası:
Ze məşriq ta bemağrib gər imaməst,
Əli və ale-u mara tamaməst.

[304] İfadənin ərəbcəsi: "əl-abdu yudirru va-l-lahu yuqaddiru təqdirə Xaliqin".

Tutmayacaq baş ürəyindən keçən
Baş tutacaq bil ki, Xuda istəyən.[305]

Züzbabə ulduzunun görünməsi:

Bu əhvalatlar baş verən vaxtlarda asimanda Qövs bürcündə Zuzbabə ulduzu göründü. Onun quyruğu səmanın ortasından qərb (məğrib) səmtinə doğru uzanırdı. Nücum elminə bələd olan İsmayıl Mirzə bu vəziyyəti müşahidə edərək bərk həyəcanlandı. O bütün gün münnəcimləri toplayıb onlardan Zuzbabə və onun təsiri barədə sorğu-sual edirdi. Münnəcimlər vaxta münasib sözlər deyirdilər və İsmayıl Mirzə nücum elminin dəlilləri əsasında onlara xatırlatdı ki, Zuzbabə ulduzunun peyda olması padşahların birinin zavala uğraması deməkdir. Münnəcimlərsə deyirdilər ki, həmin ulduzun quyruğu qərbə uzandığı üçün onun təsiri Rum vilayətinə və qərb ölkələrinə olacaqdır.

Münəccimlərin sözlərindən bir qədər təsəlli tapmasına baxmayaraq İsmayıl Mirzə yenə də narahat idi. Əslində onun narahatlığı üçün əsas vardı, çünki nücüm elmi qanunlarının dəlalətinə görə əgər Zuzbabə ulduzu onun tale vətədində görünərsə şəksiz-şübhəsiz onu yox edəcəkdir. İsmayıl Mirzə cövzada (Ekizlər bürcü - Ş.F.) doğulmuşdu və onun tale ulduzu Ütarid (Günəşə ən yaxın olan Merkuri planeti - Ş.F.) idi. Peyda olmuş Zuzbabə isə onun tale ulduzunun vətənində görünmüşdü. Münnəcimlər bunun səhv olduğunu söyləyib, onu şübhədən qurtarmağa çalışırdılar. Nəhayət Zuzbabənin görünüşü öz səmərini verdi və az vaxtdan sonra İsmayıl Mirzə öz varlıq paltarını yoxluq yolçusuna geyindirərək axirət səfərinə yollandı.

İkinci Şah İsmayılın vəfatı:

Bu məsələnin bəyanı və şərhi belədir: İsmayıl Mirzə mübarək ramazan ayının on üçündə (24 noyabr) yekşənbə günü onunla eşqbazlıq edən (təəşoq), əlaqədə olan (təəlloq) və gecə-gündüz dostluq edən Həsən bəy Halvaçıoğlu və dövlətxana

[305] Beytin farscası:
Hər çe delət xast nə an mişəvəd,
An çe xoda xast çenan mişəvəd.

işçilərinin bir neçəsi ilə seyr məqsədi ilə kənara çıxmışdı. Onlar gecənin çox hissəsini (4 dang) küçə və məhəllələrdə keçirdilər. Sonra şah dövlətxanaya qayıdıb, adı çəkilən Həsən bəyin bir qapısı dövlətxanaya bitişik, o biri qapısı isə "Meydane-əsbe-şahi"yə açılan evində yatdı. İsmayıl Mirzə qəddar dünyanın səbatsız arzularını müşahidə edən gözlərini qapayıb yoxluq yuxusuna getmiş, Həsən bəy isə qapıları içəridən bağlayıb onun yanında yatmışdı.

Günortaya qədər qapı bağlı qaldı. Yaxın adamlar və xidmətçilər orada toplaşıb qapının açılmasını gözləyirdilər. Heç kimdə onun yataq otağına yaxınlaşa bilmək cürəti yox idi. Yuxu və istirahət müddəti həddini aşandan sonra vəzir Mirzə Salman və qorçibaşı günortaya qədər gözlədilər.

Yuxu vaxtının uzanmasından narahat olub həkimlər zümrəsindən "Kiçik Həkim" ("Həkime-Kuçek") adı ilə məşhur olan həkim Əbülfət Təbrizini [İsmayıl Mirzə ilə] yaxın olduğu üçün nə baş verdiyini öyrənmək üçün yataq otağına göndərdilər. Kiçik Həkim cürət edərək onun yataq mənzili olan evə getdi və heç bir səs-səmir eşitmədiyindən səsini çıxarmağa cürət etmədən geri qayıtdı. Onu [şahlal danışmaq üçün təzədən göndərdilər. O, yataq otağının arxasında dayınıb dua etməyə başladı. Həsən bəy Halvaçıoğlu fəryadla dedi: "Ey həkim, qapını açmaqdan ötrü qüvvətim yoxdur. Qapını hansı yolla olursa olsun açıb içəri girin və nə baş verdiyini görün".

Kiçik Həkim vahiməyə düşüb geri qayıtdı və hamını vəziyyətdən xəbərdar etdi. Mirzə Salman [şaha] yaxın olan bir dəstə adamla gedib qapını açdı və onlar əndəruna daxil oldular. Gördülər ki, İsmayıl Mirzə hərəkətsiz olsa da hələ keçinməyibdir. Həsən bəyin isə bədəni taqətdən düşdüyü üçün hərəkət edə bilmirdi, dili də pəltəkləyirdi (lənnət). Hamı heyran və şaşqın vəziyyətdə idi. Onlar qorçibaşını əndəruna çağırmaq üçün Əmir xan, Pir Məhəmməd xan və əmirlərin yanına adam göndərdilər. İsmayıl Mirzə elə o vaxt həyata vida etdi, canını əcələ tapşırdı. Həsən bəy [isə] dili tutula-tutula min bir təşvişlə dedi:

"[İsmayıl Mirzə] axşam iftar vaxtı xalis tiryək (əfyune-xales) qəbul etdi, mənə də ondan verdi. O, yeməkdən sonra [adətən] küçələri seyr edərdi. Onun mənə də verdiyi tiryəki mən qəbul etmədim. Seyr vaxtı bir hamama çatdıq. Onun qapısı ağzındabir halvasatan əyləşmişdi. [İsmayıl Mirzə] onun halvasından və külçəsindən çox yedi. Mənzilə gəlib çatdıqda dedi: "Sübh açılmaq

üzrədir, bir az da nəşə (flunya) çəkib yataq". Ağzını həmişə mənim möhürlədiyim nəşə qabını gətirdilər. Möhür yox idi. Dedim: "Bu qabın ağzı açıqdır və mənim möhrüm orada yoxdur". Mənim sözlərimə məhəl qoymadı, adətindən çox nəşə çəkdi, zorla mənə də çəkdirdı. Mən amma az çəkdim və hər ikimiz yatdıq. Günorta yuxudan ayılıb özümü indicə gördüyünüz vəziyyətdə gördüm. Həzrət şah danışa bilmirdisə də əl-ayaq atırdı. Bir az sonra hərəkətdən qaldı, nəfəsi kəsildi və elə bu vaxt Kiçik Həkimin səsi eşidildi. Həqiqət budur, yerdə qalanını siz bilərsiniz".

Gələrək bu vəziyyəti müşahidə edən Əmir xan və Pirə Məhəmməd xan olduqca təccübləndilər. Əmir xan Həsən bəy Halvaçını ölümlə hədələyib dedi: "Doğru danış, bizim padşahımızı zəhərləyən adam bu işi sənin köməyin olmadan görə bilməzdi".

İsmayıl Mirzənin vəfatı səbəbi haqqında müxtəlif fikirləri:

O, cavabında dedi: "Mən padşahın sayəsində bütün qızılbaşların sevimlisi idim. Ondan sonra mənim sağ qalmağıma gümanım yoxdur. Mənə məlum olanları isə sizə dedim".

Əmir xan bu işin təhqiq olunmasında çox təkid etməkdə idi. Mirzə Salman və əmirlər bu işə mane olub dedilər:

"Bu işə həddən ziyada baş qoşmağın nə xeyri var? Bir halda ki, bu hadisə baş vermişdir, gərək əvvəlcə din və dövlət barəsində fikirləşək".

Həkimlər onun bədənində [hələ də] süst hərəkət hiss edirdilər. Camaat belə danışırdı ki, [şah] nəvvab Pərixan xanımı etibardan saldığına görə, o, hərəmxananın kənizləri ilə dilbir olub, onun nəşəsinə zəhər qatmışdır. Bəziləri isə deyirdilər ki, şahın qulunc[306] xəstəliyi vardı ki, arabir onu tuturdu. Bu xəstəlik bir dəfə elə bərk tutmuşdu ki, az qala onu öldürəcəkdi. Amma həkimlərin səyi ilə [o zaman] sağaldı. Bu dəfə isə quluncun şiddətlənməsi və müalicənin edilməməsi üzündən onun həyatı ölüm sərhədinə çatmış oldu.

Bəzi adamlar isə deyirlər ki, o, xüsusi hazırlanmış tiryəkdən çox istifadə etdiyindən bu ona artıqlıq etmiş, mədəsini dolduraraq nəfəs yolunu bağlamışdır. Xülasə hadisənin əsl səbəbi məlum olmadı. Bu qəribə əhvalat üz verəndən sonra əhali və avam

[306] Çox güman ki, ürək xəstəliyidir (infarkt) – Ş.F.

adamlar (əvamunnas) heyrət dənizində çaş-baş qaldılar, amma ağıllı adamlar və elm sahibləri belə deyirdilər:

Beyt[lər]

Yaranışdan bəri cahanda heç kəs
Fələyin sabahkı işini bilməz.
Bilməz ki, o mavi, gözəl səmadan
Ona yetişəcək xeyir, ya ziyan.
Fələyin doludur sirrlə gərdişi,
Ağıl dərk eləməz bu mübhəm işi.[307]

Xülasə, bu iş baş verəndən sonra, ölüm xəbərinin sürətlə yayılmamasından ötrü əmirlər qapıçılara "At meydanı"nın qapılarını bağlamaq əmrini verdilər. Çünki oymaqlar arasında yaxın günlərdə inad qapıları açılmış, təkəli və türkmanlardan şamlı və ustaclılara çoxlu sədəmə dəymiş, qanlar tökülmüş və onlar inadkarlara məğlub olmuşdular. Bu qəziyyədən sonra kin qılıncının intiqam qınından çıxmamasından və tərəflər arasında fitnə və dava-dalaş atəşinin qalxmamasından ötrü ağsaqqal, dövlətxah və xeyirxah adamlar olan Mirzə Salman və Xəlil xan Əfşar məsləhət gördülər ki, alışan əmirlər bu əbədi dövlətin möhkəmlənməsi naminə müxalifətin aradan qaldırılması üçün and içsinlər, sabiqdə olan savaşlar və oymaqların təəssübkeşliyi aradan çıxsın, bir-biriləri ilə dost olsunlar.

Türkman tayfasının böyüyü və ağsaqqalı olan Əmir xan irəli gəlib Pirə Məhəmməd Ustaclı ilə ata-oğul olacaqları barədə and içdi, eləcə də bütün əmirlər bir-biriləri ilə dostluq andı içdilər. Sonra isə səltənət və padşahlıq barədə söhbət başlandı. Şiraz hakimi Vəli Sultan Qalxançıoğlu Zülqədər dedi:

" - Atanın mirası oğula çatar. Şah Şücanı padşah edin".

Əmirlər ona etiraz edərək dedilər:

[307] Beytlərin farscası:
Nədanəd kəsi ta səmak-o səmək
Ke fərda çe bazi nəmayəd fələk.
Əz in nilgun hoqqeye-zərnegar
Çe mohre berun avərəd ruzgar.
Ze əsrare-gərdun kəs agah nist,
Xerədra bər in caygəh rah nist.

"- Sən vəkilüssəltənə və qızılbaşların böyüyü olmaq istəyirsən. Səkkiz aylıq uşaq necə İran padşahı ola bilər?"

Bütün əmirlər və dövlət başçıları nəvvab Pərixan xanımın hökmünə tabe olduqlarından, Vəli Sultan nəvvab xanımın xoşuna gəlməkdən ötrü dedi: "Səltənət işlərinin icrası Pərixan xanım tərəfindən həyata keçirilsin. Amma, qızların sultanlıq (səltənət) rütbələri olmadığından, sikkə qoy Şah Şücanın adına zərb edilsin".

Onun bu sözünə heç kəs etina etmədi. Əmir xan, Pirə Məhəmməd xan, Xəlil xan və bütün əmirlər dedilər ki, İsgəndər şanlı Sultan Məhəmməd cənnətməkan şahın böyük oğludur və bir neçə şahzadənin atasıdır. Elə o saat uca mərtəbəli divan "[Ey Allah,] mülk sahibi sənsən, istədiyin kimsəyə mülk verərsən..."[308] [deyərək] onun səltənət və padşahlığı barədə qərar çıxardı. [Amma] bəsirət gözləri əzəli təqdiri müşahidə edə bilməyən bir dəstə dayaz düşüncəli adam izhar edib dedi ki, onun gözləri zəifdir, belə olan halda, Sultan Məhəmməd, ləşkər və məmləkəti görə bilmədən nə təhər belə hörmətli səltənət işinin öhdəsindən gələ bilər? Gərək padşahlığa adlı-sanlı bir oğlu təyin edilsin. "Bizim padşahımız Sultan Məhəmməd padşahdır, onun övladları isə hələ kiçik olmalarına baxmayaraq, inşaallah, böyük atalarının dövlət kölgəsi altında böyüyüb boya-başa çatarlar və onların hansısa vəliəhd ola bilərsə, o həzrətin izi ilə vəliəhd ola bilər" Qızılbaş əyanlarının sözləri müqabilində heç kimin söz demək imkanı olmadı.

Vəli Sultan Şirazda nəvvab Sultan Məhəmməd Mirzə ilə çox hörmətsiz davranmışdı və bu təkliflə razılaşmadı, lakin heç kim onun sözünə qulaq asmadı, o da heç nə sübut eləyə bilmədi.

Həmin yığıncaq iştirakçıları bir səslə dedilər ki, "dövlət Sultan Məhəmməd padşahın dövlətidir!". Onlar qərara aldıqları hər hansı bir işin uğurla nəticələnməsi üçün qızılbaş tayfasının mübarək adəti üzrə "Allah-Allah" deməyə başladılar. Əmirlər oradan çıxıb nəvvab xanımın hərəmsarayına yollandılar, ondan bu işə savablı rəy verməsini xahiş etdilər, ona gerçək vəziyyəti bildirdilər. Nəvvab xanım [isə] özünü padşah təsəvvür edərək belə qərara aldı: Sultan Məhəmməd Mirzə gələnə kimi şahlıq onun adı ilə bəzənəcək və nəvvab xanım onun dövlət işlərinə başçılıq edəcəkdir.

[308] İfadənin ərəbcəsi: "...tu-til-mulkə mən-təşa-u".

Sultan Hüseyn xan Şamlı o saat ordu işlərinə başçılıq etmək üçün qalan Əliqulu xanın vəkili Sultan Mahmud adlı oğlunu Herata yolladı ki, İsmayıl Mirzənin vəfatı xəbərini çatdırsın və əgər hələ adlı-sanlı kamkar şahzadə, yəni əlahəzrət zəlləllah şahın dəf olunması xüsusunda pis bir qəziyyə baş verməyibsə, onun nicat xəbərini gətirsin.

Əmirlər Sultan Məhəmmədin padşahlığı xüsusunda bir sənəd yazıb onu möhürlədikdən sonra o həzrətin dayısı oğlu olan Əlixan bəy Mosullunu Şiraza göndərdilər. Ondan sonra İsgəndər şanlı nəvvabın tərəfdarlarından olan Məhəmmədcan ağanın oğlu Əli bəy Zülqədəri də İsmayıl Mirzənin vəfatını və şahın (Məhəmməd Mirzənin - Ş.F.) hakimiyyətə gəlməsini [Şiraza] çatdırsın.

Günün axırında "At meydanı"nın qapıları açıldı. Carçılar atlandılar. Tftar vaxtı əhaliyə məlum oldu ki, İsmayıl Mirzə vəfat etmişdir.

Ertəsi gün nəvvab xanım, istər Sultan Heydər tərəfdarı kimi, istərsə də başqa səbəbdən həbsdə olan əmir və əyanların azad edilmələri barədə hökm verdi. Məsum bəy Kəmunənin oğlu Sədrəddin xan və başqa-başqa təbəqələrdən çox adam məhbus idi. Bir neçə gün bundan əvvəl ishal xəstəliyindən ölən Hüseyn bəy Yüzbaşıdan başqa, təbii ki, hamını azad etdilər. Nəvvab xanım tərəfindən anasına ehtiram olunan Mirzə Məxdum Şərifi də azad olundu, amma İranda qalmağın çətin olacağını bildiyindən, imamların məzarının ziyarəti məqsədi ilə Bağdada getdi. O, orada Rum padşahı tərəfindən iltifata layiq görülüb bir neçə il Məkkənin qaziül-qüzzatı* oldu. O, bir sıra gizli (xəfi) məzhəbə uyğun hökmlər verirdi. Nəhayət, qaçılmaz əcələ giriftar oldu, Məkkədə həyata vida etdi. Amma çoxları deyirlər ki, o, imamiyyə məzhəbi qaydasınca dəfn olunmasını vəsiyyət etmişdi. O demişdi ki, "mən isnaəşəriçiyəm, amma bu müddətdə dünya işlərinə və vəzifəpərəstliyə uyub bəzi savabı olmayan işlərə qurşandım".

Xalqın çoxu İsmayıl Mirzənin bəd əməllərindən incik olduğu üçün o qədər də pərişan olmadılar və onun ölümü ilə elə bir hadisə baş vermədi. Xidmətçilər, saray ağaları və yaxın adamların hər biri Şiraza gedib, padşahın xidmətində durmağı arzu edir, əmirlərin yanına gəlib icazə istəyirdilər. Əmirlər onların xahişlərini xanıma (Pərixana - Ş.F.) ərz edir, icazə verilənlər Şiraza gedirdilər. Nəvvab xanımın və əmirlərin icazəsi olmadan heç kimin getmək ixtiyarı yox idi.

SULTAN MƏHƏMMƏD PADŞAH XUDABƏNDƏNİN CÜLUSU, İRANIN SƏLTƏNƏTTAXTINAƏYLƏŞMƏSİ VƏ ONUN HÖKMRANLIĞI DÖVRÜNDƏ HƏR İL BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Yuxarıda bəyan qələm ilə yazılmışdı ki, İsmayıl Mirzə İsgəndər şanlı nəvvabın və onun övladlarının həbsdə saxlanmasının və heç kimin onlarla görüşə bilməməsindən ötrü Qazi bəy adlı zülqədər qorçisini Şiraza göndərmişdi. Həmin qorçi nəvvab mirzə ilə çox pis rəftar etmişdi. İsmayıl Mirzənin vəfatı xəbəri bilindikdə əzəmətli əmirlər Əlixan bəy Mosullu Türkmanı və Əli bəy Zülqədəri Şiraza rəvan etdilər. Şamlı təbəqəsinin əmirzadələrindən olan İsgəndər bəy Şamlı icazəsiz olaraq Əli bəy və Əmirxan bəydən əvvəl Şiraza yollanıb, gecə-gündüz məsafə qət edərək, fələklər fələyi kimi bir ləhzə də dayanmadan Əli bəydən iki gün əvvəl Şiraza çatdı. O özünü qan-tər içində İsgəndər şanlı nəvvabın sarayına çatdırıb müjdə verdi ki, İsmayıl Mirzə dünyadan köçmüş və haqq öz yerini tapmışdır. O vaxt Qazi bəy orada yox idi. İsgəndər şanlı nəvvabın xidmətçiləri çaşqınlıqla hərəmxanaya cumub dedilər ki, bir qorçi gələrək belə bir müjdə gətirmişdir. Nəvvab mirzə, ya himmətinin böyüklüyündən və dünyaya bağlılığının olmamasından, ya da ehtiyatlı olduğundan o xəbərə heç bir əhəmiyyət vermədi. O, fikirləşdi ki, məbadə İsmayıl Mirzə onu sınamaqdan ötrü Şiraza adam göndərmiş ola. Bəlkə də o, qardaşının padşahlıq xəyalı olub-olmamasını öyrənmək istəyir.

Xülasə, Qazi bəy Zülqədər dərhal saraya gəlib İsgəndər bəylə danışmağa başladı və onu ölümlə hədələdi.

İsgəndər bəy dedi: "Burada təəccüblü nə var ki? Dünya heç Məhəmməd Rəsulillaha qalmadı, İsmayıl Mirzəyə də qalmaya bilər. Sözün yalanı-doğrusu üç günə bilinər. Əgər yalan demişəmsə, üç gündən sonra mənə istədiyin cəzanı verə bilərsən".

Sözün qısası, bu xəbərdən şəhərə böyük həyəcan və qarışıqlıq düşdü. Əhali saraya hücum çəkdi. İsgəndər şanlı nəvvab Qazi bəyə dedi: "Sən belə xəbər yay ki, guya bu adam ağıldan çıxmışdır və nə danışdığını anlamır. Onu həbs et. Əgər bu xəbər doğru çıxsa, ilahi hökmə əməl edərik, əgər doğru çıxmasa, onu şiddətli şəkildə cəzalandırarsan".

Qazi bəy buna cürət etmədisə də, o, Şiraz əhalisindən bəzilərini və bu xəbərə inanan zülqədərləri təhdid etməyə başladı. Hər saat İsgəndər bəy öz dediyini təsdiq edirdi. Həmin gün başqa bir xəbər eşidilmədi. Qazi bəy bu xəbərə tamamilə inandı. İki gündən sonra, axşamüstü Əli bəy gəlib düzgün xəbər gətirdi və nəvvabın ayağını öpməklə şərəfləndi. Əli bəylə müttəfiq, Vəli Sultanla isə ədavətdə olan zülqədərlərin böyük bir dəstəsi elə o dəm gələrək nəvvabı cülus münasibətilə təbrik etdilər. İsgəndər bəy əmirlik rütbəsinə layiq görülüb "Xoşxəbərxan " ləqəbi ilə şərəfləndi. Zülqədərlər dərhal Qazi bəy əleyhinə sufiyanə dillə töhmətə başladılar. İsgəndər şanlı nəvvab buyurdu ki, onun məni xeyli incitməsinə baxmayaraq, mənə olunan bu ilahi inayət müqabilində onu əfv edirəm, çünki o işə yararlı adamdır və öz padşahının əmr və işarəsinə görə bizimlə elə rəftar etmişdir. O islafı oluna bilər.

Beləliklə eşikağasılıq* (eşikağasıgəri) mənsəbi ona verildi, bir neçə gün xidmətini yerinə yetirdi. Lakin, sonradan Qazi bəyin kobud rəftarı və ədəbsiz sözlərindən olduqca incik olan Məhdülya (Şah Məhəmməd Xudabəndənin arvadı - Ş.F.) dözmədi və onu həbs etdilər, Estəxr qalasına yolladılar. Elə həmin qalada da həyat yüksəkliyindən ölüm çökəkliyinə yuvarlandı, torpağın məhbusu oldu.

Ertəsi gün Şirazın bütün seyidləri, böyük rütbəli şəxsləri, əyanları, həmçinin zülqədər ağsaqqalları saraya yığışıb nəvvabın ayağını öpməklə şərəfləndilər. Əli bəyə Şiraz əyaləti və xan ləqəbi verildi. Mirzənin tərəfdarı və əzəmətli seyidlərdən olan Şah Müzəffərəddin Əncu isə qaziye-əsgər mənsəbi ilə şərəfləndirildi. Son neçə ildə, xüsusilə İsmayıl Mirzənin hakimiyyəti zamanı Şirazda ləyaqətlə vəzir və mütəssəddi vəzifələrində olmuş Mirzə Əhməd Kufraniyə şərafətli sərkarlıq ali mənsəbi verildi. Nəvvabın ali sərkarlıq* vəzifəsi bisaman olduğundan adı çəkilən Əlixan və cənab Mirzə Əhməd Küfrani şah sərkarının zəruri xərclərini özlərinin, zülqədər tayfasının və ölkənin divan vergiləri hesabına müəyyənləşdirdilər.

Yüzbaşılar**, eşikağasılar, xidmətçilər, türk və taciklər hər gün Qəzvin darüssəltənəsindən dəstə-dəstə adam gəlir və şah tərəfindən nəvazişə layiq görülürdülər. Vəli Sultan və zülqədər ağalarının çəkişməsi zamanı zülqədərlərlə müttəfiq olan Şiraz müstovfisi Mir Qəvaməddin Hüseyn vaxtı ilə Vəli Sultanın Qəzvində İsmayıl Mirzəyə ondan şikayətlənməsinə görə həbs

edilmişdi və indi həbsdən xilas olub, Şiraza gəldi, İsgəndər şanlı nəvvabın möhtərəm hərəmi Məhdülya Fəxrənnisa bəyimin vəziri oldu. Beləliklə, Məhdülya dövlət işlərinin nizamlanmasına başladı. Onun əmri və işarəsi olmadan heç bir işə əncam olunmurdu. İsgəndər şanlı nəvvab ona çox ehtiram edirdi.

Nəvvab Məhdülya Estəxr qalasında məhbus olan və özünə yaxın qohumluğu çatan Gilan valisi Xan Əhməd xanın azadlığa buraxılmasını ondan xahiş etdi, İsgəndər şanlı nəvvab Məhdülyanın sözünü yerə salmayıb Xan Əhməd xanı qaladan çıxararaq çox hörmət etdi, Gilanı yenidən ona verəcəyini vəd etdi.

Həmçinin cənnətməkan şah [vaxtı ilə] Şahrux bəy Tatıoğlu Zülqədəri İsmayıl Mirzənin övliyası (burada "yaxın adam"ı - Ş.F.) olduğu səbəbindən həbs edib qalaya salmışdı. İsmayıl Mirzə isə öz hakimiyyəti zamanı onu özünün və ali divanın vəkilliyinə namizəd etmiş və hər gün onu qaladan buraxdıracağını vəd edirdisə də buna əməl etmirdi. İsgəndər şanlı nəvvab isə Şahrux bəyi həbsdən azad edərək ona əyalət və xan rütbəsi verdi, dövlətin möhrdarı vəzifəsini ona tapşırdı. Elə o əsnada da vəzir Mirzə Salman gəldi. O, əvvəlcə Əliqulu xanın yanına getdi, onun vasitəsi ilə dost olduğu nazir cənab Mirzə Əhmədin köməyi ilə nəvvabın və Məhdülyanın yanında oldu. Görüş zamanı o Qəzvin hadisələri, nəvvab Pərixan xanımın davranışı, əmirlərin itaəti barədə dövlətxah sözlər ərz etdi, qiymətləndirildi və elə həmin məclisdə şahın hökmü ilə divan vəzarətində vəzir və etimadüddövlə oldu.

Qəzvində baş verən hadisələr barədə: Nəvvab Pərixan xanım cah-calalla kamiranlıq taxtına sahib olaraq bütün işləri öz əlinə aldığı zaman alişan əmirlər onun fərmanına boyun əyib, hər gün onun görüşünə gəlirdilər. Onlar qərara aldılar ki, Pərixan xanımın tərəfdarı kimi hər oymaqdan bir nəfər ağsaqqal və etimadlı şəxs seçilsin ki, tayfa üzvləri onların sözündən çıxmasınlar. Türkman tayfasından Əmir xan, ustaclulardan Pirə Məhəmməd xan, şamlılardan Durmuş xanın nəvəsi Sultanhüseyn xan, təkəlilərdən Müseyib xan Şərəfəddinoğlu, əfşarlardan qorçibaşı Qulu bəy, zülqədərlərdən ali divanın və ali qəsrin möhrdarı [başda] olmaqla bütün oymaqların ağsaqqalları müəyyən edildi.

Bütün zəruri işləri nəvvab xanımın dayısı Şamxal Sultan Çərkəs ərz edirdi və o, nə əmr etsəydi yerinə yetirirdilər. Belə qərara alındı ki, ali əmrə görə Şiraza rəvan olan adamlardan başqa daha heç kim icazəsiz yola düşməsin.

Şahın zəfərli dəstəsi Qəzvinə çatanda bütün əzəmətli əmirlər xanımın tapşırığı ilə onu qarşılayıb, ayağı altındakı toıpağı öpmək səadətinə yetişdilər.

Bir neçə gündən sonra, xanıma və Şamxala çox da etimad bəsləməyən Mirzə Salman öz işini belə qurmağı qərara aldı: O, Qəzvindən çıxaraq özünü padşahın müqəddəs qoşununa çatdırdı. Şirin dili ilə Əmir xanı razı salıb, hərəmxana pəncərəsinin arxasında dayandı, məhrəm adamların vasitəsilə ülyahəzrətə çatdırdılar ki, Mirzə Salmanın təcili Şiraza getməsi məsləhətdir ki, məiyyət arasında olsun, əks halda biganə adamlar şahın fikrini başqa səmtə çevirərlər, alişan qardaş və mehriban bacı arasında fitnə-fəsad salarlar.

Özünün razılığı olmadan şah ilə ordu arasında başqa bir iqdamın ola biləcəyini ehtimal etməyən nəvvab xanım özlüyündə onun sözlərinin həqiqət olduğunu götür-qoy edib Mirzə Salmanın yola düşməsinə icazə verdi. O, elə həmin ləhzə hərəmxanadan çıxaraq Şiraz yoluna düşdü, gizli yolla rəvan oldu. Ertəsi gün, əmirlər özlərinin istəmədikləri üçün Mirzə Salmanın Şiraza getdiyindən xəbərdar oldular. Şamxal Sultan adam yollayaraq onu geri qaytarmaq istədi. Amma Əmir xan buna mane oldu.

Mirzə Salman isə gecə-gündüz hərəkət edib, hümayn şah məiyyəti Şirazı tərk etməzdən əvvəl oraya çatdı, yuxarıda yazıldığı kimi, görüş şərəfi ilə müşərrəf oldu. O, bilirdi ki, İsgəndər şanlı nəvvabın xanımı olan Məryəm şanlı Məhdülya mütləq ixtiyar sahibidir, dövlət adamları və mənsəbpərəstlər ondan asılıdırlar. Buna görə də, onun rəğbətini qazanmaqdan ötrü Qəzvində baş verən hadisələr, nəvvab xanımın (Pərixanın - Ş.F.) əzəmət və qüdrəti, həmçinin qızılbaş əyanlarının ona bağlılığı barədə Məhdülyaya öz bildiklərini ərz etdi. Beləliklə, o, İsgəndər şanlı nəvvabı və Məhdülyanı inandırdı ki, nəvvab [Pərixan] xanım bütün dövlət işlərini öz əlində cəmləndirdiyi bir halda nəvvab əşrəfin (Məhəmməd Xüdabəndənin - Ş.F.) özü yox, yalnız adı padşah olacaqdır və Məhdülya da başqa hərəmlər kimi hərəmxanada yaşayacaqdır.

Belə qərara aldılar ki, nəvvab xanımın qüdrətini əlindən alsınlar və onu ixtiyarsız etsinlər. Bu qərar hamının xoşuna gəldi, nəvvab xanımı aradan götürmək barədə fikirləşməyə başladılar. Qəzvindən gələn hər kəsdən onun barədə sorğu-sual edir, məlumat yığırdılar. Nəhayət nəvvab xanımın dəf olunması fikri İskəndər şanlı

nəvvab və Məhdülya tərəfindən qətiləşdi, yoxsa o da İsmayıl Mirzə kimi hərəkət edə bilərdi. Onlar həm də Pərixan xanımın İsmayıl Mirzəyə qarşı məkr işlətməsindən şübhələnirdilər və bu şübhədə əsas vardı.

Mirzə Salman səltənət işlərinin məsuliyyətini öz üzərinə götürdü, hörməti gün-gündən artdı.

Bir sözlə, Şirazda bir aya qədər qaldıqdan sonra İsfahan darüssəltənəsinə tərəf yollandılar.

Onlar həmin cənnətməkan yerə çatdıqları zaman isfahanlılar qonaqları hədiyyələrlə qarşıladılar, ehtiramla xidmətlərində durdular. Həmin darüssəltənə nəvvab Həmzə Mirzəyə verildi və İsfahanın daruğəliyi nəvvab şahzadə tərəfindən Məhdülyanın qardaşı oğlu Əmir Hüseyn xan Mazandaraniyə tapşırddı. Oradan çıxıb, üç gün Kaşanda dayandılar, Kaşandan isə möminlər şəhəri Quma gəldilər və orada İsgəndər şanlı nəvvabın anası Sultanım ilə görüşdülər. Sultanım igid və adlı-sanlı oğlu İsmayıl Mirzənin vəfatından və Sultan-hüseyn Mirzənin başına gələn hadisəyə görə təziyə saxlayırdı, kədər içərisindəydi, amma ən böyük oğlu olan qiymətli İsgəndər şanlı nəvvab ilə uzun vaxt uzağda yaşadığı və əziz nəvələrini görə bilmədiyi üçün indiki görüşdən sevindi və onun qəm-kədəri şadlıqla əvəz olundu.

Hüseynqulu Sultan Eşikağasıbaşı onların görüşünə gəldi, qədəm basdıqları torpağı öpmək səadəti ilə şərəfləndi.

Qəzvin darüssəltənəsində əzəmətli əmirlərə belə xəbər çatdırdılar ki, nəvvab xanımın iqtidarı və onun əmrlərlə ittifaqa girməsindən [Şah Məhəmməd Xudabəndənin] və Məhdülyanın xoşu gəlməmişdir. Əmir xan, Pirə Məhəmməd xan, Xəlil xan, qorçibaşı və başqa alişan əmirlər və xanların hər biri öz oğlanları, qohumları və oymaqlarındakı adlı-sanlı adamlarını onların qarşısına yolladılar. İş o yerə çatdı ki, əmirlər və əyanlar nəvvab xanımın icazəsi olmadan ayrı-ayrılıqda istiqbala getdilər. Qumda dayandıqları bir neçə gün ərzində əmir və əyanların əksəriyyəti görüşə gəldi. Nəvvab Pərixan xanımın vəkilləri də özlərinə qarşı iltifatsızlıq qoxusu hiss etdilər. Şamxal Sultan və adamları bir az pərişanlandılar. Xülasə, şahlığın zəfərli bayrağı möminlər diyarı Qumdan ölkə paytaxtına tərəf hərəkət etdi. Savədən keçib Xoşkruda çatdıqda, Qəzvində qalıb nəvvab xanımı istiqbal etmək əmri alan Əmir xan, Pirə Məhəmməd xan, Xəlil xan, qorçibaşı, Məhəmmədi xan Toxmaq və başqaları öz qərarlarının əksinə gedəcək bu qərara gəldilər ki, onların hər biri öz

adamları ilə birlikdə nəvvab xanımın müşayiətində getməyib, hərəsi öz adamları ələ birlikdə [şahı] qarşılamağa getsinlər. Onların bəzisi icazə alaraq, bəzisi isə icazəsiz yola düşüb Xoşkrud yaxınlığında şahın xidmətinə yetmək səadətinə yetişdilər.

O vaxt Şamxal Sultanının, çərkəslərin və xanımın adamlarının yaraqlanıb xanımın evində toplaşmaları və başlarında üsyan və fitnə-fəsad sədası olması barədə xəbər eşidildi. İsmayıl Mirzənin yaxınlarından biri olan Əmiraslan xan Ərəşli Şamlıya Qəzvin darüssəltənəsi yaxınlığında durub Şamxal Sultam dəf etmək tapşırılmış və o bu işi görməyə boyun olmuşdu.

Şah tərəfindən Şamxal Sultana onun ləqəbləri (əlqab) göstərilməklə bu məzmunda bir məktub yazıldı: "Hələ cənnətməkan şahın vaxtında bir neçə il onun ülkası olan Şəki əyaləti və oranın bütün var-yoxu Şamxala Sultana verilmiş və o həmişə oranın arzusunda olmuşdur. Buna görə də biz [Şəkini] ona veririk. Münasib bir vaxt olduğuna görə öz adamları ilə şəhərdən çıxsın, ordusunu şəhərin xaricində qoysun, mən dövlətxanaya gəldiyim zaman o, mənim xidmətimə gəlmək, ayağımı öpməklə (paybus) şərəflənsin, sonra [Şəkiyə] rəvan olsun". Şamxal Sultanla dost və əlbir olan Əmiraslan xan şəhərə gəlib şahın məktubunu ona verdi və ona atlanmasını təklif etdi.

Şamxal Sultan bu təklifin şəfqət üzündən edilmədiyini bilsə də, başqa bir qərara gələ bilməyərək, Şəkiyə getmək və özünü bir küncə verib şadyanalıq etmək niyyəti ilə istər-istəməz Əmiraslan xanla birlikdə ata suvar olub, şəhərdən bir fərsəx aralıda olan Şəntənə çatdı. Zilhiccə ayı[309] başlayan ertəsi gün şahlığın hümayun ordusu Qəzvinin bir fərsəxliyində olan Birə Sufiyan adlı yerdə dayandı. Nəvvab Pərixan xanım zər-ziba ilə işlənmiş kəcavənin üstündə əyləşmişdi. Xanımın dörd-beş yüz nəfərədək olan hərəmxana qorçiləri və xüsusi mülazimləri kəcavəni çiyinlərinə götürüb ali orduya gətirdilər. Elə ki, hərəmxanaya çatdılar, saray xacələri xidmət mərasiminə başladılar. Hərəmxanada əziz qardaşı və adlı-sanlı şahzadələrlə görüşdü. Cənnətməkan şahın və qardaşlarının təziyə mərasimindən sonra İsmayıl Mirzə və onun bəyənilməz hərəkətləri, amansızlıqları barədə söhbət başlandı. Bəzi saray xacələri deyirlər ki, nəvvab Məhdülya ədəb üzündən nəvvab

[309] Zilhiccə ayı - hicri qəməri ilin on ikinci ayı (Bax: N.Səqəfi. Göst. lüğət, c. I, səh. 796).

[Pərixan] xanımın əlini öpdü, amma nəvvab xanım özünün qəribəliyi və qüruru üzündən nəvvab Məhdülyaya lazimi diqqət yetirmədi. Xülasə, ud (öküz) ilindən on bir ay keçən zilhiccə ayının üçündə seşənbə günü (12 fevral) Qəzvin münəccimi Mövlana Əfzəl xan xoş bir saat müəyyən etdi, İsgəndər şanlı nəvvab və aliməkan şahzadə birlikdə atlanıb, həmin yerdən mübarək dövlətxanaya tərəf yola düşdülər. Bütün əhali dəstələnib, qoşun-qoşun onları qarşılamağa çıxdı. Birə Sufiyandan hümayun dövlətxananın qapısınadək adamlar səf-səf dayanıb dua oxumağa başladılar. İsgəndər şanlı nəvvab şadyanalıqla hümayun dövlətxanaya daxil oldu, günəş kimi izzət və iqbal taxtına əyləşdi. Cənnətməkan şahın pak qızları və zövcələri, habelə hərəmxananın başqa xidmətçiləri ona təzim etmək şərəfinə nail oldular.

Nəvvab xanımın əhvalı barədə: İsgəndər şanlı nəvvab mübarək dövlətxanaya tərəf yola düşərkən hökm etmişdi ki, cənnətməkan şahın dövründə bir neçə vaxt cənab xanımın lələsi olmuş Xəlil xan Əfşar gərək xanımı aparıb öz evində saxlasın.

İsgəndər şanlı şah və dövləti idarə edən nəvvab[310] [Pərixan xanım] ata süvar olduqdan sonra əzəmətli qorçilər əmrə müvafiq olaraq nəvvab xanımın kəcavəsini çiyinlərinə götürdülər. Nəvvab Məhdülya və səltənətin başqa zadəgan xanımları da atlanıb kəcavənin dalınca hərəkət etdilər. Mübarək dövlətxananın qapısına çatdıqda, şəhərdən istiqbala gələn izdihamın çoxluğundan giriş qapısının yolunun bağlı olduğunu gördülər. Nəvvab xanımın qorçi və mülazimləri xanımın işarəsi ilə kəcavəni onun evinə tərəf aparmağı başladılar və evin içindən keçirib hərəmxana bağçasına çatdırdılar. Çatdıqları zaman Xəlil xanın mülazimləri ona hücum edib, kəcavəni xanın evinə apardılar.

[310] Qeyd: İsgəndər Münşi Şah Məhəmməd Xodabəndənin arvadı Xeyrənnisa bəyimi (Məhdülya) bəzən dövləti idarə edən nəvvab (nəvvabe-cəhanbani) adlandırır ki, bu da əsassız deyil. Oxucular elə mətnin özündən gördülər ki, Məhdülya olduqca qüvvətli və zabitəli bir qadın olmuşdur. O, dövlət işlərini zəif təbiətli ərinin iştirakına imkan vermədən özü idarə edir, dövlət vəzifələrində özü məsləhət bildiyi dəyişiklikləri edirdi (Bax: O.Əfəndiyev. Göst. əsəri, səh. 144-145).

Şamxal Sultanın Nəvvab Pərixan xanımın və Şah Şücanın öldürülməsi:

Nəvvab xanımın mülazimləri bu işlərin başlanğıcında oraya getmək istəməyərək, məsələni başa düşə bilmirdilər. O zaman Xəlil xanın adamları belə bir hökmün padşahın rəyi ilə yerinə yetirildiyini bildirdilər. Nəvvab xanını kəcavənin içində əyləşib kəcavəni aparanların məqsədlərini başa düşdü, Allahın məsləhətinin yerinə yetirilməsinə razılıq verdi, [qorxulu] bir hadisənin baş verəcəyinə hələ də inana bilməyən nəvvab xanımı Xəlil xanın evinə apardılar.

Elə həmin gün Aslana[311] hökm olundu ki, Şəntənə gedib Şamxal Sultanı qətl etsin. O, xeyli adamla onu təbrik etmək bəhanəsi ilə Şəntənə getdi, görüş zamanı əfşar tayfasından olan bir neçə adam onu qılınclayıb öldürdü.

Çərkəslərin isə əl-qol atmaq imkanı olmadı. Əmiraslan xan onun başını uca dərgaha gətirib xanlıq rütbəsinə[312] və nəvazişə layiq görüldü.

Elə həmin gecə Xəlil xanın bir neçə mülazimi əmrə görə nəvvab xanımı boğub öldürdü.

Camaatın fikrincə, xanıma mənsub olan bütün şeylərin qiyməti təxminən on min tümən olardı. Bu xidmətin müqabilində həmin şeylər Xəlil xana verildi.

İsmayıl Mirzənin hələ bir yaşı tamam olmayan oğlu Şah Şüca da ədəm yoluna göndərildi. Vəli Sultan Qalxançıoğlunu da tutub, onun əleyhdarları olan Şiraz zülqədərlərinə verdilər və o da öz cəzasına çatdı.

Bu hadisələr baş verib qurtardıqdan sonra Məryəm şanlı Məhdülya tam əzəmət və istiqlal ilə səltənət və şahlıq işlərini idarə etməyə başladı. Ona ərz olunmadan və icazəsi olmadan heç bir iş həyata kcçirilmirdi. Beləliklə, "nowabi-cahanbani" (Sultan Həmzə Mirzə - Ş.F.) ali divanın vəkili vəzifəsinə təyin edildi. Qərara alındı ki, şahın höknı və fərmanlarında onun möhürü vəzirin möhüründən yuxarıda vurulsun.

---

[311] Əmiraslan xan Ərəşli Şamlı -Ş.F.

[312] İsgəndər bəy Münşi Əmiraslana hələ "xan" titulu verilməzdən əvvəl onu xan adlandırırdı ki, bıı ola bilsin ki, onun Əmiraslana şəxsi ehtiramı ilə əlaqədar idi - Ş.F.

Özü Əliqulu xan Şamlının dayısı, bacısı Xanican xanım isə nəvvab Məhdülyanın yanında etibara malik olan Xacə Şücaəddin Şirazinin oğlu Hüseyn bəy [Sultan Həmzə Mirzənin] vəziri məqamına yüksəldi və vəkillik möhürünü ona verdilər. Nəvvab Məhdülyanın ailəvi yaxını olan Molla Əfzəl Münəccim Qəzvini etibar və iqtidar səviyyəsinə çatdı, Qəzvinin kəlantəri oldu və o şəhərin divan işləri ona tapşırıldı. Mirzə Salman tam müstəqil şəkildə rüknüs-səltənə və etimadüd-dövlə vəzifəsini əlinə aldı və ölkənin işlərini idarə etməyə başladı. Fəzilətli seyid, xoşəxlaq, yetkin və dərviş xislətli adam olan Mir Şəmsəddin Məhəmməd Xəbisi Kirmani ali sədr mənsəbinə layiq görüldü. Onun sədr olmasının səbəbi belədir: İsgəndər şanlı nəvvab Heratdan Şiraza yollandığı zaman Xəbis qəsəbəsində həzrət mir onun yanına gəlib ləyaqətli xidmət göstərmişdi. Onun fəziləti, kamalı və söhbəti İsgəndər şanlı nəvvabın xoşuna gəlmiş və mirə demişdi ki, onun kimliyi və istedadı barədə cənnətməkan şaha məlumat verəcək və şahdan xahiş edəcəkdir ki, ali sədarət mənsəbini ona versin. Amma bu fikir həyata keçmədi. Səltənət və hakimiyyət ona çatdıqda isə sözünə vəfa edib, şahanə lütfkarlıqla həmin seyidi bu böyük vəzifəyə təyin etdi, hümayun hökmlə onu Şiraz darülmülkündən öz yanına çağırdı. Həzrət mir də böyük izzət və etibarla sayaya gəldi və tam müstəqil olaraq sədarət işinə başladı. İsgəndər şanlı nəvvab ölkənin məmləkətlərini əzəmətli qızılbaş əmirləri arasında böldü. Təbriz darüssəltənəsinə Əmir xan Mosullu təyin edildi və onun məsləhəti ilə qardaşları İsmayıl Sultan və Şahqulu Sultan, oğlu Sultan Murad xan və türkman piyadası İbrahim Sultan əmirlik rütbəsi ilə sərəfraz oldular və onlara Azərbaycanda ülkalar verildi. Çuxur-Sədin əmirülüməralığı cənnətməkan şahın fərmanı ilə Məhəmmədi xan Toxmaq Ustaclının əlində idi, lakin İsmayıl Mirzənin əmri ilə İmamqulu xan Qacara verilən Qarabağ əmirülüməralığı Məhəmmədi xan Toxmağa tapşırıldı. Şirvan əmirülüməralığı və Şirvanın bütün mülkiyyəti Ərəs xan Rumluya şamil edildi. Ərdoğdu Xəlifə Təkəliyə, rumlu və başqa tayfalardan olan əmirlərə də Şirvanda ülka verdilər. Vəlixan Təkəliyə Bəndan əyaləti verildi və o, ora göndərildi.

Ustaclı əmirlərindən Mürşüdqulu xan Yegana Dürtacir və Xorasanın bəzi yerləri, onun qardaşı İbrahim xana isə Əsfərayində ülka verildi. Tərşizi Mahmud xan Sufioğluya, Xafı isə Vəlixan Çərxçibaşıya inayət etdilər. Xəbuşanı və Xorasanın bəzi yerlərini

Budaq xan Çekəniyə tapşırdılar, Ağzıvar xan Şamlının oğlu Əbülfəth xana - Xoşxəbər xana Kusuyə və Guryanda ülka verdilər. Qorçibaşılardan olan Vəlixan Əfşara Kirman darüləmanı çatdı, Kuh-Guluyə isə Xəlil xan Əfşara verildi. İraq mahalı əksərən ali dərgahın əmirləri arasında bölüşdürüldü. Məğlubedilməz əmirlərdən olan Əmir xanın qohumu Məhəmməd xan Mosulluya Kaşan, Sultanhüseyn Şamlıya isə Qəzvin darüssəltənəsi verildi. Qum ülkası keçmişdə olduğu kimi Heydər Sultan Çabuq Türkmana, Savə isə Əbülməsum Sultan Tərxan Türkmana mərhəmət olundu. Rey ülkası Müseyib xan Təkəliyə, Xar və Semnan - Şahqulu Sultan Beytoğlu Zülqədərə, Savə, Çeblağ, Cuşqan və ərəblərin yaşadıqları bəzi yerlər Şahrux xan Möhdara, Tarom, Xəlxal və oraların bəzi yerləri Pir Məhəmməd xan üçün müəyyən edildi. Fars məmləkəti Zülqədər əmirləri arasında bölüşdürüldü. Astrabad İbrahim xanın əmisi oğlu Məhəmməd xan Hacılar Zülqədərə verildi, həmçinin hər tayfanın hər bir əmirinə münasib ülkalar çatdı. Vəd olunduğu kimi Gilanın Biyəpişi[313] və bütün mülkiyyəti uca "Üxüvvət" ləqəbi ilə Xan Əhməd xan Gikmiyə verildi və o həmin xanədanı tutmağa yollandı. Cənnətməkan şahın hörmətli qızlarından Məryəm Sultan bəyim ona ərə verildi, Qəzvin darüssəltənəsində layiqli bir toy edildi, adı çəkilən Xan Əhməd xan da şadman halda Gilana rəvan oldu. Hər ikisi Ələmut qalasında məhbus olan və İsmayıl Mirzə tərəfindən azad edilən Ləvənd xanın oğlu İsa xan Gürcü və Luvarsabın oğlu Hümayun xana mərhəmət olundu, cənnətməkan şahın qardaşı Sam Mirzənin qızını İsa xana verdilər və onu Şəki əyalətinə göndərdilər. Hümayun xan İslamı qəbul edərək "Sultan Mahmud" xan adlandırıldı və o da "Üxüvvət" ("Qardaş") ləqəbinə layiq görüldü, izzət və ehtiramla Gürcüstana rəvan oldu, öz irsi ülkasını ələ aldı.

Məmləkətlərin əzəmətli seyidləri və əyan-əşrafi, istər bəziləri cənnətməkan şahın dövründə orduda, istərsə də İsmayıl Mirzənin zamanında ali sarayda idilər, öz istədikləri münasib vəzifələrə təyin edildilər, şahdan gözəl xələtlər alıb öz işlərinə yollandılar. O cümlədən islam məmləkətləri mürtəzası olan ("mürtəzaye-məmaleke-eslam") Mirmiran Yəzdi[314] yeni soyurqallara sahibləndi. Mirmiranın bacısı ilə nikahdan doğulmuş

[313] Məlum olduğu kimi, Gilan o zaman iki hissədən ibarət idi. Biyəpəs və Biyəpiş - Ş.F.
[314] Yəqin ki, Mürtəza Mirmiran Yəzdi oxunmalıdır - Ş.F.

İsmayıl Mirzənin qızı Sultan bəyimi onun kiçik oğlu Şah Xəlilullaha, cənnətməkan şahın qızı Xanış xanımı onun böyük oğlu Şah Nemətullaha verildi və mirmiram izzət və ehtiramla Yəzd darülibadəsinə yolladılar. O da yüksək "Qardaş" ləqəbinə layiq görüldü.

Xülasə, İsgəndər şanlı nəvvab dərya böyüklüyündə olan əlini böyük inayət və ehsanla açıb xəzinə qapılarını qapamadı və xeyli pul məsrəf etdi. Dövlət adamları və vəzir Mirzə Salman adamların qəlbini cəzb etmək və onları tamahlandırmaq məqsədilə məmləkətlərə göndərilən bütün əzəmətli əmirlərə şah xəzinəsindən xərclik və onların gözləmədikləri bir illik və iki illik maaşlarını verdilər. Belə ki, Əmir xana və adamlarına yeddi min tümən pul verildi. Başqa əmirlərə, dövlət işçilərinə, kəlantərlərə və əyanlara da cənnətməkan şahın dövründə xüsusi xələtlərlə dolub sanki bəhrə və mədənə çevrilmiş xasseye - sərifə qiçaçixanasından* (dərzixana - Ş.F.) xələtlər verildi. Elə bir gün olmurdu ki, İsgəndər şanlı nəvvab tanımadığı adamlara belə on-iyirmi xələt verməsin. Əksəriyyəti on il, bəlkə də daha çox müddətdə məvacib almayan əzəmətli qorçilərə illik maaşlarının verilməsi əmr olundu. Cənnətməkan şahın borclarını ödəmək üçün hökm edildi və şah xəzinəsindən sandıq-sandıq nəğd qızıl gətirib qorçilərə ətək-ətək verməyə başladılar.

Münasib adamlarının üzünə [o zaman] divanın mənfəət qapıları açıldı və rüşvət rəvac tapdı. Qızılbaş tayfaları oymaq ağsaqqallarının himayəsi ilə müxalif əməllərə əl atıb vəzirləri və dövlət başçılarını rüşvət almağa şirnikləndirir, istədiklərini edirdilər. Yenidən hər oymağa əmirlər təyin olunurdu. Ülkalar və məmləkət bölüşdürüldüyündən maaşlar şah xəzinəsindən paylanırdı. Hər oymağın təəssübkeş adamları qiyam və fitnə-fəsada başlayıb hətta istiqlal bayrağı qaldırmaq qərarına gəldilər.

Xülasə, qızılbaş tayfalarının hər birisi fəqət öz mətləblərini həyata keçirməklə məşğul olduqlarından din və dövlət işlərinə az diqqət yetirirdilər. Nəticədə, az vaxt içində şah xəzinələri pul və maldan xali oldu. Əlli il ərzində mədənlərdən yığılmış firuzə torpağı əllərin küləyi ilə torpaqla bərabər oldu. Həmin tayfaların özbaşnalıqları və təkəbbürləri ucbatından ara qarışdı, orduda iki tirəlik yarandı. İxtilafın yaranması və qızılbaşların dövlət işlərində zəiflik göstərmələri barədə söz-söhbət yarandı. Buna görə də dövlətdə nöqsanlar görünməyə başladı. Belə günün gəlişini çoxdan gözləyən dövrün başqa padşahları və müxalif adamları fiirsəti

qənimət bilib, açıq-aşkar əcəm məmləkətlərinə göz dikdilər. Sultan Murad Azərbaycan və Şirvan məmləkətlərinə tamah saldı. Ətraf yerlərin illərlə itaətdən boyun qaçıran adamları istiqlal və istibdaddan söhbət açıb öz zülm əllərini açdılar. Bu deyilənlərin hər biri haqqında, inşaallah, vaxtlı-vaxtında danışılacaqdır.

CƏLAL XAN ÖZBƏYİN XORASANA GƏLİŞİ VƏ ONUN MÜRTƏZAQULU XAN TÜRKMAN TƏRƏFİNDƏN QƏTLİNİN ZİKRİ

İsmayıl Mirzənin hakimiyyəti vaxtı şahzadələrin öldürülmələri və səltənət köklərinin qırılması xəbəri hər yana yayıldığından belə qənaət hasil olmuşdu ki, Şah İsmayıl bahadur xanın övladlarından hal-hazırda İsmayıl Mirzədən və onun bir yaşlı oğlundan başqa kimsə sağ qalmamışdır. İsmayıl Mirzə vaqiəsindən sonra isə, ətraf yerlərin müxalifətdə olan adamları artıq bu sülalə əsaslarının tamamilə zəiflədiyini və qızılbaşların hərc-mərcliyini görərək, ayaqlarını itaət dairəsindən kənara çıxarıb, əl-qol atmağa başladılar. O cümlədən, Ürgənc sultanlarından, Əbülməhəmməd xanın vəfatından sonra başqa sultanlardan özünün şücaəti ilə fərqlənən Dinməhəmməd xanın oğlu Cəlal xan, sayı təxminən altı-yeddi min nəfərdən çox olan imansız özbək dəstəsi ilə Nisa və Əbivərddən çıxıb Xorasanı qarət etmək və viran qoymaq məqsədi ilə müqəddəs Məşhəd yaxınlığına gəldi. Əzəmətli əmirlərdən heç kəsin ona müqavimət göstərmək qüdrəti olmadığından, hər biri öz qalasına qonub gözləyirdilər ki, mütəsəddi bəylərbəyilərindən kim isə onunla döyüşə başlasın və onlar ona qoşularaq müdafiə olunmağa başlasınlar. Cəlal xan o ətrafda çoxlu soyğunçuluq və qarətkarlıq etdikdən sonra Cam vilayətinə getdi, oradan da qənimət əldə edib Sərəxs yolu ilə geri qayıtmaq və Xorasandan topladığı qənimətləri öz vilayətinə çatdırmaq istədi. Müqəddəs Məşhəd bəylərbəyisi Mürtəzəqulu xan Pornak ətraf yerlərə adam yollayıb, vəzifələri ona kömək etmək olan əmirlərdən ləşkər tələb etdi. Eşitdikdə ki, Cəlal xan vilayəti fəth etmədən qarətlə kifayətlənmiş və geri qayıtmaq fikrindədir, kömək və əsgəri qüvvə gəlməsini gözləmədən özünün az miqdar mülazimi və Məşhəddə olan qorçi əmirləri ilə şəhərdən çıxaraq, onun ardınca Cam vilayətinə gəldi. O yerlərin bir dəstə əmir və camaatı da ona qoşulduqdan sonra az-çox üç min nəfər adam toplandı. Cəlal xan Camın Eşqabadında

Mürtəzaqulu xanın və qızılbaş ləşkərinin gəlişindən xəbər tutub getməkdən əl çəkdi. Təcrübəli özbək atalıq[315] və ağsaqqallarından bəziləri ona belə məsləhət görmüşdü: "Biz buraya qarət məqsədi ilə gəldiyimizdən gərək müharibəyə baş qoşmayaq, qarət etdiyimiz malları sağ-salamat öz yerinə çatdıraq".

Cəlal xan təkəbbürünün çoxluğundan qızılbaş ləşkərini saya almayıb dayandı və döyüşə hazırlaşdı. Qoşunlar hər iki tərəfdən döyüşə hazır vəziyyətdə düzüldülər. Kərənayın fəryadı fələyin qulağını doldurdu, hər iki tərəfin igidləri döyüşə başladılar. Gün doğandan gün batanadək vuruşub bir-birinə öz igidliklərini göstərdilər. Qızılbaş qazilərinin döyüş məharətini və onların meydandakı əzm və səbatını təsəvvür belə etməyən Cəlal xan bunu öz gözləri ilə gördü. Onun qarşısına çıxan bu az miqdar qoşunun cürət və igidliyini görüb təəccüb etdi, müharibəyə başladığına peşiman oldu. Cahanı işıqlandıran və torpağın hər yerinə yayılan günəş şüaları gizləndikdən sonra hər yan abbasilərin qara libasları ilə bəzəndi. Hər iki dəstə döyüşdən əl çəkib hərə öz yerinə çəkildi və sabaha qədər hərbə fasilə verildi. Qızılbaş qaziləri özbək ləşkərinin cəsarətli hücumlarından elə təşvişə düşmüşdülər ki, daha onlara tab edə bibcəklərini öz qüvvələrindən xaric sanırdılar. Mürtəzaqulu xan böyük mərdanəliklə özbək qoşununu məğlub etmək səyində oldu. Ertəsi gün bütün sabit və səyyar [ulduzların] sultanı olan günəş fırlanmaqda olan fələyin mavi asimanında göründükdə və öz atəş yağdıran qılınc şüaları ilə ulduzlar (kəvakib) qoşununu məğlub etdikdə Mürtəzaqulu xan qızılbaş qazilərini müharibəyə şirnikləndirdi, döyüşə başladı. Cəlal xan da o biri tərəfdən qoşunlarını səf-səf düzdü. Ardıcıl həmlələrdən sonra igidliklə özü hərbə başladı, atını döyüş meydanına sürdü. Döyüşün şiddətli vaxtında, Allahın təqdiri ilə Ümmət bəy Ustaclı Cəlal xana çatıb, tanımadan onu nizə ilə yerə sərdi. Atdan düşüb başım bədənindən ayırmaq istədikdə Cəlal xanla birlikdə olan özbəklərin biri fəryad çəkib dedi ki, öldürməyin, o Cəlal xandır. "Cəlal xan'" adını eşidən türkman və çekəni qızılbaşlarından bir neçə nəfər adam hücum edərək onu Ümmət bəyin və ustaclıların əlindən alıb çəkə-çəkə Mürtəzaqulu xanın yanına gətirdi.

Həmin döyüşdə iştirak edənlər [mənə] söylədilər ki, Cəlal xanla baş verən müharibədə ustaclılar igidlik göstərmiş və ustaclı,

[315] Atalıq - atabəy və lələ mənasındadır.

türkman və çekəni tayfaları arasında Cəlal xanın əsir düşməsi xüsusunda münaqişə düşmüşdü. Onların hər bin onun tutulmasını öz işi kimi qələmə verirdi. Mürtəzaqulu xan onun qətlini məsləhət gördü, xanın qürur və təbəkkürlə dolu olan başını bədənindən ayırdılar. Cəlal xanın ələ keçirildiyini eşidən özbəklər qaçmağa başladılar, onların bir hissəsi yarımcan halda aradan çıxa bildi. Şüarı zəfər olan ləşkərin əlinə xeyli qənimət keçdi. Cəlal xanın başını çoxlu yaraq və sursatla ali saraya yolladılar və mükafata layiq görüldülər. Mürtəzaqulu xan bu məşhur qələbədən sonra Xorasanda öz istiqlal bayrağını qaldırdı. Amma, belə mühüm bir fəthin Herat bəylərbəyi olan Əliqulu xan Şamlının köməyi olmadan həyata keçirdiyi üçün o, tez-tez qürurlanaraq Heratın bəylərbəyi və kama yetən şahzadənin, yəni əlahəzrət zilləllah şahın lələsi olan Əliqulu xanla hesablaşmamağa başladı. Mürtəzaqulu xan Əliqulu xanın mətləbinin ziddinə hərəkət edərək, özünü ondan üstün sayırdı. Beləliklə, onların arasında fitnəkar adamların təsiri ilə günü-gündən düşmənçilik tozu ucalmağa başladı ki, bu da döyüşlə nəticələndi. Bu haqda aşağıda danışılacaqdır, inşallah.

AZƏRBAYCAN VƏ ŞİRVAN HADİSƏLƏRİ, RUM SULTANININ ORAYA LƏŞKƏR GÖNDƏRMƏSİ VƏ BU HADİSƏLƏR ZAMANI BAŞ VERƏN ƏHVALATLARIN ZİKRİ

Söz meydanının qoşun bəzəyənləri (sepəhara) qələmin müşk yayan ucu ilə hadisə təsvirlərinə başlayaraq sözlərini belə cilvələndirdilər: Allahın iradəsi (məşiyyət) ilə Azərbaycan və Şirvan diyarı sakinlərinin arasına qarışıqlıq düşdüyündən, İsmayıl Mirzənin başına gələn hadisədən sonra onların gün-güzəranı əziyyət və bəla ilə keçirdi və əmin-amanlıq o diyardan kənar olmuş, orada yaşayan əhalinin üzünə möhnət və bəla qapıları açılmış, o diyardan əmin-amanlıq yox olmuş, fitnəkarlıq alovu göyə qalxıb hərbiçilərin və rəiyyətin ömür və mal xırmanını yandırmış, gözəl vilayətin pak yerləri [baş verən] hadisələrin təpiyi altında qalmış (ləgədkub), pərişanlıq küçəsinin (kuy) avaralarında (averagan) dinclik və pənah qalmamış, behişt kimi gözəl olan bostanları bəla tikanlığı (xarestan) bürümüşdü. Xülasə, iki ilə yaxın müddət ərzində biganə əsgərlər oraya hücum edib, qətl və qarətə qurşandılar. O vaxtadək heç vaxt baş verməmiş bir məsələ - İslam əhalisinin əsir götürülməsi hadisəsi

(şive) baş verdi, o vilayətin seyidlərinin (sadat) və əyan-əşrafının qadın və qızlarının çoxu zorla köləliyə (rəqiyyət) düçar oldular. O vəziyyətin təfsilatı bəxt və taleyin izni ilə bu dəftərin zeylində qələmə alınacaqdır. İran mülkünün iqtisadiyyatı və iranlılarının vəziyyətinin yaxşılaşması cahanı bəzəyən zilləllah adil sultanın divanından[316], yəni kamyab nəvvab [Şah Abbasdan] asılı edildiyindən, qalibiyyət bəxtli, hökmranlıq taxtı o həzrətin vücudu ilə hələ bəzənmədiyi (arayeş) üçün qarışıqlıq azalmadı. Allaha şükür ki, o həzrətin uzaqgörən əqlinin düzgün istiqaməti, həmçinin məşəl kimi atəş saçan qılıncının şüası sayəsində idbar zülmətini iqbal sübhü əvəz etdi, qarabəxt müxaliflər öz əməllərinin cəzasına mübtəla oldular və əldən çıxan məmləkətlər [yenidən] ələ gəldi. Onun ədalət günəşi rəiyyətin əmin-amanlığı üzərinə işıq saçdı, əhalinin məişəti onun dövlət baharı kimi İrəm gülzarının təravətinə malik oldu, ziddiyyətli (əzdad) dörd sütun onun ədalət memarının yardımı ilə möhkəmləndirildi, biri digəri ilə xilaf və nifaqda olan tayfalar razılıq (vəfaq) və ittifaq yoluna düşdülər. Bu gün İran məmləkətləri cahan şahənşahının ədaləti sayəsində cənnət gülzarının qibtəsinə səbəb olur. Ümidvarıq ki, onun hakimiyyət müddəti əmr sahibinin zühuruna qədər uzansın, aləmdəkilər onun zavalsız iqbalının sayəsində şəfqət (rafət) və inam (emtenan) kölgəsi altında asudə olsunlar, onun cahan sakinlərinin asayişinə səbəb olan mübarək zatı dövranın məkr və müsibətlərindən qurtulub, Allahın amanında olsun. Sübhənallah! Gör ki, iqbal rəhbəri (qayed) müşk ətirli qələmi tutub haradan-hara apardı. Xülasə, bəzi fitnəkar kürdlər, xüsusilə Van və Azərbaycan arasında yaşayan Qazi bəy, Şahqulu Bülbülanın və Qaziqıranın başqa övladları vaxt və zamanın tələbi ilə şahlardan birinin itaətinə gəlib özünü onun bir mülazimi edərdi, [bəzən də] fəsad yaradıb öz işləri məşğul olardı. Onlar İsmayıl Mirzənin hakimiyyəti vaxtı onun xidmətinə üz tutub ondan nəvaziş gördülər, İsmayıl Mirzənin vəfatından sonra dövlətin nizamsızlığını və ləşkərin intizamsızlığını müşahidə edərək Vana qayıtdılar, fitnəkarlığa başladılar, Van hakimi Xosrov paşanı da şirnikləndirib fəsadlı işlər törətdilər.

Xosrov paşa ya özbaşına, ya da Rum padşahının əmri ilə, cənnətməkan şah və Sultan Süleyman - Allah onların hər ikisinə rəhmət etsin - arasında bağlanmış və təsdiqlənmiş sülh əhd-

[316] İfadənin ərəbcəsi: "əs-sultanu-l-adelu zill-u-l-lahi"

peymanını pozaraq, Sültan Süleymanın öz xətti ilə yazılan və nəsil-nəsil arada mövcud olan əhdnaməni unutqanlıq (nesyan) tağı üstünə qoyaraq, o hüduddakı əskərləri kürd əmirləri ilə birlikdə Xoya, Səlmasa və o hüdudun başqa yerlərinə göndərdi, illərlə yuxya getmiş fitnəni oyatdı, özünü bu kəlamda dediyi kimi "Allah-təalanın oyatmadığı kəslər həmişə yatar"[317] deyiminə giriftar etdi.

Xülasə baş verən birinci hadisə belədir: Azərbaycan bəylərbəyi Əmir xan və onunla həmkar olan başqa əmirlər Təbriz darüssəltənəsinə çatmazdan əvvəl Yaraqqalada, Urmiyədə, Səlmasda və Xoyda olan Hüseynxan Sultan Xəbutlu[318] və Mahmud Sultan Rumlunun üzərinə hücum etdilər. Neçə müddətdən bəri hər iki tərəf arasında sülh və dostluğu görən qızılbaş qaziləri Rum sultanının əhd-peymanı pozacağını güman etmirdilər. Buna görə də onlar ehtiyatı əldən verərək, sakitcə öz yerlərində əyləşmişdilər. Kürdlərin üsyan və tüğyan yolunu tutduqlarından və rum əsgərləri ilə hücuma keçdiklərindən xəbər tutan qızılbaş döyüşçüləri canlarından əl çəkib müdafiəyə başladılar. Müxalif tərəfin döyüşçüləri qızılbaşlardan zəif olduqları üçün onların bu əməlindən bir nəticə hasil olmadı. Amma kürdlər hiylə işlədərək onları məğlub etdilər. Qızılbaşların çoxunun arvad-uşaqları yanlarında olduğundan mərdanə döyüşüb şəhid oldular, arvadları və qızları kürdlər tərəfindən əsir, malları tarac, rəiyyətlərinin var-yoxu qarət edildi. Bu hadisədən sonra Göyərçinlik qalası və Urumi qalasının yaraq-sursatı kürdlər tərəfindən zəbt olundu.

Bundan sonra Əmir xan Təbrizə çatıb bu vəziyyəti düzəltmək üçün öz əmir yoldaşları və Azərbaycan ləşkəri ilə, təxminən on-on beş nəfər adamla döyüşə yollandı. Kürd əmirləri müqavimət göstərə bilmədilər, onların bəzisi qalada gizləndi, bəzisi isə öz yerlərinə qayıtdı. Ülka qarətə getdiyindən, rəiyyət dağıldığından və var-yoxdan çıxdıqlarından qızılbaş əmirlərindən bir nəfər belə həmin diyarda qala bilmədi. Əmir xan da oranın qalalarını və bütövlükdə məmləkəti oldə saxlaya bilmədiyi üçün geri qayıdıb Təbrizə çatdı. Bu get-gəl o mülkün dağılmasına səbəb oldu. Xoyun, Səlmasın və Urmiyanın əksər rəiyyəti qaçıb getdi. Yavaş-yavaş dönərək o yerlərdə yenidən yaşayanlar isə çarəsiz qalıb müxaliflərə itaət etdilər və həmin məmləkət onların əlinə keçdi. Sərhəddə çaxnaşma,

[317] Kəlamın ərəbcəsi: "əl-fiətu nəimətu-l-lahi mən əyqazahə".
[318] Xunuslu olmalıdır.

rumilərin müxalifəti, kürdlərin üsyanı eşidiləndə öz boyunlarını ədəb ciblərinə yığmış tayfaların bəzi adamları biədəblik ayaqlarını açaraq fitnə-fasada əl uzatdılar. İllərlə bu yerlərin nemətini yeyib boya-başa çatan, Sulduzda və Marağanın Miyanduabında yaşayan başqa tayfa üzvləri də öz duzlarına haram qatdılar. Onların sərdarı Əmirə bəy özünü "Əmirə xan" adlandırıb Marağaya yaxınlaşmışdı. Cənnətməkan şahın xüsusi atlarından ibarət on min baş bədəvi, tazi, ayqır və madyan atı olan Qaraçubuq ilxısını öz yerindən çıxarıb apardı. Bu xəbər Əmir xana çatdıqda onların ardınca düşdüsə də tozlarına belə çata bilmədi. O, yollarda qalan və ləşkərin gələcəyi qorxusundan aparıla bilməyən bir neçə baş atı geri qaytarıb onları Təbrizə gətirdi. Şirvan vilayətlərinin[319] əhalisi də düşmənçilik fikrinə düşmüşdü. Şirvanın sabiq sultanlarının nəslindən olan Bürhanın oğlu Əbubəkr Mirzə qızılbaşların qorxusundan Dağıstan və Çərkəs hüdudlarında avaralanırdı. Əhali onu da şirnikləndirdi. Şirvan hərbçiləri qalıqları nəslindən (nejad) olan ləzgi və qarabörk tayfasının iki-üç min adamı onun başına toplaşıb vilayətə xəsarət yetirdi. Əbubəkr Mirzə Rum xandgarının yanına adam yollayıb, rumilərin köməyi ilə Şirvan məmləkətini alaraq, özünü xondgarın mülazimi etmək barədə ondan kömək istədi. Şirvan əhalisindən bir dəstə adam da İstanbula gedərək məzhəblərinin bir olduğunu izhar etdi, qızılbaşların zülmündən şikayətləndi. Bu işlərin baş verməsindən istifadə edən Rum valisi Sultan Murad atalarının sülh sazişini pozdu. O, bu beytdə deyildiyi kimi:

Beyt

Bir mülkü alarsa, əgər padişah,
Başqa mülklərə də salacaq tamah.[320]

Azərbaycan vilayətini və Şirvanı fəth etməyi öz məqsədinə müvafiq bilərək Lələ paşa adı ilə məşhur olan lələsi Mustafa paşanı sayı yüz min nəfərdən çox olan ağır bir ordu ilə həmin vilayət üzərinə yolladı. Sultan həmçinin Cucixan ibn Çingiz xan nəslindən

[319] Qeyd: Yəqin ki, Şirvana daxil olan şəhərlər nəzərdə tutulur - Ş.F.
[320] Beytin farsəası:
Molke-eqlimi begirəd padşah
Həmçenan dər bənde-eqlime-degər.

olan və Bağçasaraydakı yüz minə yaxın cuci tatarlarına başçılıq edən və Rum sultanı ilə dostluqdan dəm vuran Dövlət Gərayın oğlu Məhəmməd Gəray xan Tatara təklif etdi ki, ağır tatar ləşkərini götürüb Dəşti-Xəzər yolu ilə Şirvana gəlsin. Qarətgər tatar ləşkəri dünyada məşhur olan o diyarın mallarını qarət həvəsi ilə həmin təklifi qəbul etdi. Elə ki, bu xəbər Qəzvin darüssəltənəsində eşidildi, bu barədə İsgəndər şanlı nəvvaba xəbər verdilər. Əmirlər və dövlət başçıları bu münaqişənin rəfi üçün əvvəlcə xandgara məhəbbət üslublu bir məktub göndərilməsini təklif edərək, əhd-peymanın nə üçün pozulmasını, sərhəd hakimlərinin bu əmələ niyə cürət etmələrini aydınlaşdırmağı məsləhət gördülər. Məsləhətə uyğun olaraq, əmirlər bu tərəfdən [qızılbaşlar tərəfindən - Ş.F.] sülhün pozulmadığı və sülh rişəsinin möhkəmləndirilməsi xüsusunda həzrət xandgara məktub yazdılar və onu Məhəmmədi xan Toxmağın mülazimi Vəli bəy Ustaclı ilə göndərdilər. Amma sərhəd hakimləri və paşaları onu sərhəddə saxlayıb İstanbula getməyə qoymadılar.

Lələ paşa Ərzrumdan keçib, Çuxur-Səd vilayəti və Ərzrum arasında yerləşən Qars vilayətinə gəldi. Cənnətməkan şahla Sultan Süleyman arasında bağlanan sülh şərtlərindən biri viran edilmiş Qarsın tərəflərin heç biri vasitəsilə abad hala salınmayacağı haqqında razılaşma olduğundan, həmin yer bu vaxtadək viran halda qalmışdı. Lələ paşa əvvəlcə həmin ülkanı abadlaşdırıb oranın qalasını təmir etdi və qalaya kutval[321] və gözətçilər qoydu. O, sonra Səmayun xanın damadı gürcü Mənuçöhr xanın əlində olan və Gürcüstana mənsub Axısqa vilayətinə gəldi. Mənuçöhr xan rumilərə itaətdən baş qaçırıb onunla razılaşmadı, qalasını bağlayıb Səmayun xanın yanına getdi. Lələ paşa onun qalasını mühasirəyə alaraq, top atəşləri ilə özünə təslim etdi, orada gözətçilər və yeniçərilərdən ibarət dəstə qoyub Səmayun xanın ülkasına tərəf rəvan oldu. Çuxur-Səd bəylərbəyi Məhəmməd xan Ustaclı Lələ paşanın hücumu barədəki məlumatı ali saraya ərz etdi. Səltənət başçısı tərəfindən Əmir xanın, Məhəmmədi xan Toxmağın və Qarabağ bəylərbəyi İmamqulu xanın adına hökmlər göndərildi və buyuruldu ki, Azərbaycan ləşkərlərini bir yerə toplayaraq, birləşsinlər, özlərinin məsləhətlərinə uyğun şəkildə müxalif orduya qarşı qiyama başlasınlar.

[321] Qalabəyi, yaxud komendant - Ş.F.

Bu haqda müzakirə üçün dəfələrlə məclislər çağırıldı və belə qərara gəlindi ki, Rum padşahının özü şəxsən hücuma gəlmədiyi üçün "qızılbaş padşahının sərdar qarşısına çıxması sultanlıq rütbəsinə yaraşan iş deyildir. Buna görə də gərək Sultan Həmzə Mirzə İraq, Fars və Kirman ləşkərləri ilə Azərbaycan tərəfə yürüş etsin, Azərbaycan ləşkərinə birləşib oranın qorunması tədbirlərini saraya ərz etsin." Qərar qəbul olundu və adlı-sanlı şahzadənin və şüarı zəfər olan əsgərlərin yürüşü barədə Azərbaycan əmirlərinə xəbər verildi.

Lələ paşa hələ Qars qalasının təmiri ilə məşğul olduğu vaxt Məhəmməd xan bir adamını Əmir xanın və İmamqulu xanın yanına göndərib belə ərz etmişdi: "Müxalif tərəf qoşunlarının yolu Çuxur-Səddən keçdiyi üçün, gərək onlar mənim yanıma gəlsinlər ki, birləşərək və məsləhətə uyğun hərəkət edərək əlbir qərar qəbul edək". Türkman və ustaclı tayfaları arasında düşmənçilik olduğundan və Əmir xan o təbəqədən (ustaclılardan - Ş.F.) heç kimin sağ qalmasını istəmədiyindən öz səfərini ləngitdi və beləliklə məsləhətləşmə işini olduqca yubatdı. İmamqulu xan isə Qarabağ ləşkəri ilə Çuxur Səd vilayətinə gələrək Məhəmməd xana birləşdi. Onlar Çıldır adlı yerin yaxınlığında dayanıb, Əmir xanın gəlişini gözləyirdilər, amma ondan heç bir əsər-ətər görünmədi.

Lələ paşa isə Qars qalasının təmirini tamamlayaraq, artıq, Axısqa qalasını almaq barədə düşünürdü və qızılbaşlara məlum oldu ki, o Gürcüstana yollanmaqdadır. Onun yolunu kəsməyi və döyüşməyi qərara aldılar, qürura qapılıb rumilərlə döyüşü asan güman etdilər. Döyüşə amadə olan on beş min nəfərlik Çuxur-Səd və Qarabağ ləşkəri atlandı.

Qızılbaş ləşkərinin yaxınlaşmasından xəbərdar olan Lələ paşa hər gün özünün mötəbər paşa və bəylərbəyilərindən bir nəfərini və sancaq bəylərbəyinin və sərhəd ləşkərinin on min döyüşçüsünü qaravuliyə[322] göndərirdi. O, yanına çağırdığı saysız-hesabsız qoşunun qızılbaş ləşkərindən çox olduğunu güman etmirdi. Qızılbaşlara düşmən çıxan kürd əmirləri və başqaları qızılbaşlar arasındakı nifaq, inadkarlıq və onların əlbirliyinin olmamasından Lələ paşanı halı etmişdilər.

Elə ki, qızılbaşların çərxçiləri rumilərin çərxçi və qaravullarına yetişdilər, dərhal hücumla elə ilk həmlədə onları aradan götürdülər,

[322] Kəşfiyyata - Ş.F.

müxalif qaravul dəstələrinə çatdılar. Qaravullar döyüşdən əl çəkərək qaçmağa başladılar.

Müxalif tərəfin məğlubiyyət xəbəri əzəmətli əmirlərə çatanda ləşkər mərdanəlik həvəsi ilə döyüş meydanına əzm etdi. Qızılbaşlar əksəriyyəti sərhəd kürdlərindən ibarət olan iki-üç min adamı nizə ilə yerə sərdilər, bəzilərinin başını bədəndən ayırdılar, bəzilərinin isə əl və boyunlarını at quyruqlarına bağladılar. Döyüşə girən qızılbaş qazilərinin hər biri öz ad-sanlarını daha da şöhrətləndirmək həvəsi ilə müxaliflərin arxada olduqlarını düşünmədən vuruşurdular. Əzəmətli əmirlər qızılbaş ləşkərinin çox uzaqlaşdığını görüb, özlərinə bir sədəmə dəyməməsindən ötrü ləşkərin arxasınca hərəkət etdilər.

Qızılbaş dəstələrinin şücaəti və rum əsgərlərinin məğlubiyyəti xəbəri padşahın lələsinə çatdıqda təəccübünün çoxluğundan qorxu-hürkü bilmədən bir neçə mötəbər paşa və bəylərbəyinin sərdarlığı ilə otuz-qırx min döyüşçünü qızılbaşların ardınca yolladı. Rumilər qoşun-qoşun, sancaq-sancaq və dəstə-dəstə öz ordusundan ayrılaraq döyüşə üz tutdular. Elə ki, onların gözü qızılbaş qoşununa sataşdı, dərhal on min döyüşçünü irəli verdilər. Əmirlərdən iki-üç fərsəx aralıda olan və pərakəndə vəziyyətdə yol gedən qızılbaşlar müxalif qoşunun hücumunu seyr edib, müqavimət göstərməyə tab etməyərək geri qaçmağa başladılar. Qızılbaşların atları çox yol getdikləri üçün yolda qalır, tutduqları əsirləri aparan döyüşçülər isə onları yolda atıb qaçırdılar. Xülasə qızılbaş qoşununa böyük məğlubiyyət üz verdi. Rumilər isə dincəlmiş atları ilə hücuma keçirdilər. Qızılbaş döyüşçülərinin çoxusu o mərəkədə öldürüldü. Çoxusu Məhəmməd xanın və Çuxur-Səd ləşkərinin döyüşçüləri olan adamlardan min nəfərə qədəri qətl edildi, fərar edən nökərlər isə qayıdıb əmirlərə çata bildilər.

Əmirlər dəstəsi bir-birindən ayrılmış, qoşun parçalanmışdı. Onlar birləşmək imkanı tapmayaraq döyüşdən qaçdılar və pərişanlıqla gedib öz ordularına çata bildilər. Məhəmməd xanın ordusundakı müsibətə düçar olanların nalə və fəryad səsləri göyə ucaldı. Qızılbaş əmirlərinin Rum ləşkəri ilə döyüşündə birinci səhv bunda idi: bir-birləri ilə inadkarlıq mövqelərində durmaları və birinin digərinə itaət etməməsi. Onlar birləşə bilməyərək on-on beş min döyüşçü ilə yüz min rumiyə qarşı döyüşə çıxmış və Lələ paşanın üstünlüyünə səbəb olmuşdular. [Qızılbaşların] qanı axıdılıb zayil oldu, onların birliklərinin olmaması və sui-tədbirsiz olmaları

aydınlaşdı. Əgər qızılbaş əmirlərinin ittifaqı olsaydı və onlar bir-birilərinə itaət etsəydilər, bütün Azərbaycan və Şirvan döyüşçülərinin sayı əlli mindən çox olardı. Onlar əgər bir yerə toplaşsaydılar və Gürcüstan sultanları da onlara qoşulsaydı, Lələ paşanın o vilayətə gəlişi olduqca çətinləşərdi. Əmirlərin birləşməmələri, oymaqların inadkarlıqları və sui-tədbir görülmədiyindən məmləkət əldən getdi. Bununla da, həm mötəbər qızılbaş sərdarları tədricən qətl edildi, Azərbaycan ləşkəri məhv oldu, həm də onların neçə illər ərzində topladıqları var-dövlət tarac oldu.

Xülasə, Çıldır məğlubiyyətindən sonra Lələ paşa Axısqa qalasını iki-üç gündə fəth etdi, orada azuqə və ləşkər qoyub Səmayun xanın ülkasına yollandı. Məhəmmədi xan öz ülkasında qaldı, İmamqulu xan və Qarabağ qoşunu isə ayrılıb yerlərinə qayıtdılar.

Lələ paşa bir adam göndərib Gürcüstan sultanları Səmayun xanı və Aleksandr xanı Rum xandgarına itaətə dəvət etdi. Elə onların arasında da bir-birilərinə qarşı nifaq olduğu üçün ittifaqları yox idi. Səmayun xan bu iki xanədan arasında sülh yaratmağa cəhd edib rumilərə qarşı müxalifətdə durdu. O, keçilməz meşələrdə rumilərin yollarını kəsərək, onlara hücumlar edirdi. Amma hiyləgər və aqibətini fikirləşən adam olan Aleksandr xan öz vəziyyətini fikirləşib rumilərlə barışığa gəldi, Lələ paşanın ordusuna azuqə yollayaraq ona tabe olduğunu bildirdi. Bu məsələ Lələ paşanın arxayınlığına səbəb oldu, Gürcüstanın keçilməz yerlərini asanlıqla keçdi.

Möhkəmlik baxımından fələkli bərabərlik iddiasında olan Tiflis qalası cənnətməkan şahın zamanında Səmayun xanın qardaşı Davud xanın əlində idi. Rum ləşkəri qalaya yaxınlaşdıqda aralarındakı inadı bilən Davud xan qardaşının köməyindən naümid oldu, qalanın mühafizəsi ilə məşğul olmayaraq qaçdı və həmin qala asanlıqla rumilər tərəfindən zəbt edildi. Onlar Gürcüstan hakimlərinin paytaxtı olan Qoridə də bir qala inşa edib Şirvana rəvan oldular.

Şəkidə olan gürcü Aleksandrın qardaşı Əli xan da özündə müqavimət qüdrəti görməyib bir kənara çəkildi.

Lələ paşa asudəliklə Şirvana çatdı. Dağıstan əhalisi və ləzgi camaatı ümumilikdə tabe oldular. Rəiyyət də qızılbaşlara qarşı üsyan və tüğyana qalxdı. Ağıllı və tədbirli adam olan Şirvan bəylərbəyi Araz (Ərəs xan) xan özündə rumi qoşununa, rəiyyətin

üsyanına və qalanı mühafizə etməyə qüdrət görməyərək, öz köçü[323] və adamları ilə Şirvandan çıxıb Kür çayının kənarında dayandı, Şirvan məmləkəti də rumilərin əlinə keçdi. Lələ paşa Osman paşanı Şirvan bəylərbəyi etdi Qeytas paşanı Ərəsdə[324] saxladı və Şirvanın hər vilayətinə hakimlər təyin edərək Şamaxı qalasını, Ərəs və Badkubəni möhkəmlədib geri qayıtdı.

Şirvan hakimi olmaq və [əvəzində] xandgara bac-xərac vermək istəyən Bürhanın oğlu Əbubəkr Mirzəni bütün Şirvan ərazisini tutmaq işində rumilərə köməklik göstərməkdən ötrü Şirvanda saxladı və ona təsəlli verib dedi ki, gedib xandgarın yanına çatan kimi ondan Əbubəkr Mirzə üçün Şirvan hakimliyi barədə sənəd alacaqdır.

Rumilər qayıtdıqda, Qarabağ bəylərbəyi İmamqulu xan Səmayun xanla birləşib rursət ələ düşdükcə Gürcüstanın meşə və çəmənliklərində rumilərlə dəfələrlə döyüşdülər və çoxlu qənimət əldə etdilər.

Bu yürüş zamanı rumilərdən iyirmi minədək adam ilirilməsinə baxmayaraq, saysız-hesabsız döyüşçüsü olan Lələ paşa bunun fərqinə varmadan qələbə ilə geri qayıtdı.

Təbriz bəyləri Əmir xan Məhəmmədi xan Toxmağa kömək məqsədilə on min nəfərlə Təbrizdən çıxmışdı. O, Məhəmmədi xan Toxmağın məğlubiyyətini, Lələ paşanın Gürcüstana və Şirvana olan yürüşünü eşidib Çuxur-Sədə getməkdən vaz keçərək Qarabağa tərəf yola düşdü.

İmamqulu xan Qarabağ ləşkəri ilə ona birləşdi və onlar birlikdə Kür çayını keçərək, Gürcüstanın Qabırrı çayının kənarında rumilərə çatdılar. Fürsət əldə edib, azuqə üçün ordudan ayrılan dörd-beş min rumi döyüşçüsü ilə qarşılaşıb döyüşə başladılar. Həmin döyüşdə rumilərin iki minədək döyüşçüsü qətlə yetirildi. Çoxlu mal və döyüş ləvazimatı ələ keçirdilər, bir dəstə rum əmirini əsir aldılar.

Əmir xan bu uğurdan sevinib geri qayıtmaq və Qarabağda qışlayaraq bu tərəfə gəlməkdə olan adlı-sanlı şahzadə, əmir və əsgərləri gözləmək qərarına gəlmişdi, lakin Əmir xanın oğlu Sultan Murad xan olan bir dəstə qızılbaş döyüşçüsü ikinci dəfə hücuma keçmək fikrinə düşərək, Qabırrı çayını keçdilər və döyüşə

[323] Xanəköç olmalıdır- Ş.F.
[324] Ərəş olmalıdır - Ş.F.

başladılar. Qızılbaşlarla cəngdə cəsurlaşan rumilər heç nəyi fikirləşmədən çayın bu biri sahilinə keçib, qızılbaşlara arxadan hücum etdilər, iki-üç min döyüşçünü araya aldılar. Rumilərin zəfər çaldıqları bu döyüşdə Əmir xanın və başqa əmirlərin iki-üç min əsgəri qətlə düçar oldu, əsir götürüldü.

Bu məğlubiyyətdən sonra Əmir xan döyüşü davam etdirməkdən bir fayda olmayacağını görüb, geri qayıtmağın daha faydalı olacağını başa düşdü və Təbrizə qayıtdı. Lələ paşa isə o səfərdə məqsədinə çatıb geri döndü, Ərzruma gəlib, orada qışladı.

ZƏFƏR BAYRAQLI ŞAHZADƏ SULTAN HƏMZƏ MİRZƏNİN ƏMİRLƏRLƏ QARABAĞ VƏ ŞİRVANA YÜRÜŞÜ, ONLARIN ALLAHIN KÖMƏYİ İLƏ GERİYƏ QALİBİYYƏTLİ DÖNÜŞÜNÜN ZİKRİ

Rumilərlə bağlanmış sülh sazişinin pozulması, Rum xandgarı Sultan Muradın Azərbaycana və Şirvana qoşun çəkməsi xəbəri Qəzvin darülsəltənəsində eşidildikdə və Sultan Həmzə Mirzənin Azərbaycana gedəcəyi məlum olduqda əmirlər və dövlət başçıları kama yetmiş şahzadənin müqəddəs xidmətində, xoş bir saatda səltənət paytaxtından hərəkət edib Azərbaycana yollandılar. Məryəm şan-şöhrətli Məhdülya əziz oğlunun ayrılığına dözməyərək özü də səfərə yollanmağı qərara aldı, qoşun yığılması çağırışı barədə məmləkətin hər tərəfinə qiymətli hökm göndərdi.

Şahzadənin ali dəstəsi Gərmrudun Miyancına qədər yol qət edib ləşkərin bir yerə toplanması məqsədilə bir neçə gün çəmənzarda gözlədi. Elə orada da əvvəllər zikr olunan Gürcüstan və Şirvan hadisələri baş verdi. Məğlubedilməz dövlətin tərəfdarları məşvərət etdikdən sonra Qarabağ tərəfə hücum etməyi məsləhət bildilər və ali dəstə o tərəfə yollandı. Onlar qələbə ilə Ərdəbil darülirşadına çataraq, övliyarlar sultanının mələk asiyanlı məzarını ziyarət etdikdən sonra Şirvana tərəf hücum etməyi və o vilayəti müxaliflərdən təmizləməyi qərara aldılar. Mərhum səfəvi şeyxlərinin müqəddəs ruhlarından kömək diləyib, Qarabağa yollandılar və həmin vilayət onların gəlişi ilə şərəfləndi. Qərara alındı ki, müzəffər şahzadənin ordusu və nəvvab Məhdülya Qızılağacda dayanıb gözləsinlər, əmirlər və əsgərlər vəzir Mirzə Salmanla Kür çayını keçib Şirvana getsinlər.

Elə ki, kamkar şahzadə və müzəffər əsgərlərin yaxınlaşma xəbəri Araz xana və Şirvan əsgərlərinə yetişdi, rumilərlə döyüşmədikləri üçün və Şirvanı tərk etmələrinə görə divan adamlarının acıqlanacaqlarını və qızılbaş tayfalarının töhmətinə gələcəklərini bilib, şahzadənin ali dəstəsinin hələ gəlmədiyini görərək Şamaxı üzərinə getməyi, qalanı mühasirə etməyi, əgər oranı ala bilərlərsə bağışlanacaqlarını güman eldilər. Bu niyyətlə Kür çayından keçirdikləri ordunu çayın bu tərəfində qoyub, ləşkərlə Şamaxıya tərəf rəvan oldular. [Araz xanın mənsub olduğu] rumlu tayfası bir neçə il Şirvanda asudəlik və bolluq içində yaşadıqları, çoxlu adam (tərəfdar - Ş.F.) və var-dövlət yığdıqları üçün taleyin bəd gözü dəydi, rumlu böyüklərinin əksəriyyəti öldürüldü, topladıqları sərvət baş verən hadisələrin taracına getdi.

Bizim əvvəllər nəql etdiyimizə görə, Rum padşahı Sultan Murad xan tatar ulusunun padşahı Dövlət Gəray xanın oğlu Məhəmməd Gəray xana Dərbənd yolu ilə hərəkət edərək qızılbaşlara hücuma keçməyi təklif etmişdi.

O, qardaşı Adil Gərayı qaranlıq gecədə qarışqanı gözündən vuran iyirmi minlik tatar qoşunu ilə rumilərə imdad niyyəti ilə adı çəkilən vilayətə göndərdi. Adil Gəray xan Şirvana çatdı. Araz xan və Şirvan omirləri də müharibəyə hazırlaşdıqları vaxt tatar ləşkəri göründü və dağı, çölü öz əsgərləri ilə doldurdu. Qızılbaş qaziləri vəziyyəti belə görüb iztirab bəhrinə qərq oldular. Əmirlərin bəzisi döyüşə-döyüşə aradan çıxmağı təklif etdi. Araz xan fərar etməyi özünə sığışdırmadı və əslində buna fürsət də olmadı. Ölümü gözləri önünə gətirib döyüş dəryasında əl-qol atmağa başladılar. Bir yandan rum ləşkəri, digər yandan tatar qoşunu, üçüncü tərəfdənsə ləzgi, qarabörk və Şirvan dağlıları qızılbaşları mühasirəyə aldılar. Araz xan və ordunun əksər əmir-əyanı səbat qədəmlərini irəli ataraq bu dövlətin yolunda mərdriklə can verdilər. Araz xan və bir dəstə qızılbaş ələ keçirilib qətl edildi, başqa bir dəstə döyüşçü döyüşdə ölüm şərbətini nuş etdi. Yerdə qalanlar isə yüz fəlakətə düçar olub, Araz xanın ordugahına çatanadək dayanmadılar.

Bu hadisədən sonra Osman paşa Şamaxı qalasına, Adil Gəray xan və Bürhanın oğlu Əbubəkr Mirzə Kür çayı kənarına gəldilər, Araz xanın ordusunu qarət etməyə başladılar. Mərəkədən qaçıb öz ordularına qayıdan Ərdoğdu Xəlifə Təkəli bəzi əmirlər və Araz xanın övladları baş verən hadisəni Qarabağa gəlib çatan nəvvab [Həmzə mirzəyə], Mirzə Salmana və əmirlərə ərz etdilər. Səltənət

qoruyucuları belə hökm etdilər ki, gərək talış əmirləri və başqaları Kür kənarındakı Araz xan ordugahına getsinlər, çünki bu əsnada müzəffər əsgərlər düşmənləri dəf etmək üçün Şirvana gəlməkdədirlər. Buna görə də, onlar əmrə əməl edərək bir neçə gün orada qorxu altında qaldılar, yaralı qızılbaşları çaydan keçirməkdən ötrü cəsr* hazırladılar. Elə o əsnada tatar və ləzgi ləşkərinin gəlməsi xəbəri eşidildi. Əmirlər bir yerə yığışıb müdafiə məqsədi ilə Kürün kənarına gələrək cəsri kəsdilər, yağılar çaya çatıb, cəsrin kəsildiyini gördülər. Onların bir neçəsi özlərini suya atıb çayı keçdilər və qızılbaşlarla döyüşə başladılar. Qazilər də müdafiə ilə məşğul oldular. Cəng əsnasında müxalif tərəfdən bir dəstə adamın Şirvan dağlılarının köməyi ilə çayı keçdikləri və ləşkərin arxa tərəfinə hücuma başladıqları məlum oldu. Beləliklə qızılbaş döyüşçüləri əzildilər, hərə öz başını xilas etməyin qayğısına qaldı. Döyüşdən qaçanların bəziləri özlərini Aras xanın ordugahına və əmirlərə çatdırıb vəziyyət barədə məlumat verdilər. Ordu və əmirlər bərk həyacan keçirdilər, pərişan halda və çaşqın bir vəziyyətdə özlərini rahat bir yerə çatdırmaq üçün yola düşdülər. Amma, onların bəziləri yüklərini yığıb qaçmağa macal tapa bilmədilər və o anda ləzgi və tatar ləşgəri göründü. Ordu camaatı dağılışdı. Qız və qadınlar çoxlu mal və əsir tatarların əlinə keçdi. Bir neçə il ərzində toplanan çoxlu var-dövlət müxaliflərə qismət oldu. Xülasə Adil Gəray xan və tatar-ləzgi döyüşçüləri ağlagəlməz qənimət yığaraq elə həmin gün Şirvana tərəf getdilər. Anıma Mirzə Salman və Qarabağın əzəmətli Qarakutəl[325] (?) əmirləri hücumla Kür çayının Qovmin ulumi[326] adlı yerindən keçib Şamaxıya çatdılar və qalanı mühasirə etdilər. Onlar tatar ləşkərinin hücumu və Araz xan ordusunun qarət olunmasından xəbər tutub, o dəstəni dəf etmək niyyətinə düşdülər. Döyüşçülərin bir dəstəsini qala ətrafında qoyan Mirzə Salman qorçibaşı, Şahrux xan Möhrdar, Məhəmməd xan Türkman, Pirə Məhəmməd xan Ustaclı, Durmuş xan Şamlının nəvəsi Sultan Hüseyn xan, Vəli Xəlifə Şamlı, Müseyib xan Şərafəddinoğlu Təkəli, İmamqulu xan Qacar, Abdulla xan Ustaclının oğlu Əmir Həmzə xan və başqa məşhur əmirlər tatar ləşkəri ilə döyüşə yollandılar. Adil Gəray xan və qardaşları qızılbaşların onlara qarşı yola düşmələri, Şamaxının mühasirəsi və ordunun vəziyyətindən xəbərdar oldular. Onlar

[325] "Qarabörk" olmalıdır- Ş.F.
[326] "Qoyun ölümü" olmalıdır - Ş.F.

qızılbaşlarla döyüşdə ürəkləndikləri üçün onlardan qorxmayaraq, Osman padşaha[327] kömək məqsədi ilə Şamaxıya yollandılar.

Tatarların məğlubiyyəti və Adil Gəray xanın tutulması:

Molla Həsən adlı bir yerdə onlar bir biriləri ilə qarşılaşdılar. On iki min tatar, dörd-beş min ləzgi, qarabökr və şirvanlılarla birgə Adil Gəray xan mərdliklə müzəffər qoşunun önünə çıxdı. Bu tərəfdən qoşunun cərxçisi olan Əmir Həmzə xan bəzi ustaclı və başqa əmirlərlə qarşıya gəldi, döyüş başlandı. Tatar ləşkəri ilə döyüşlərdə mərdlik göstərmiş olan və Şamaxıda qalan bəzi əmirlər öz namuslarını və ad-sanlarını qorumaqdan ötrü döyüşə-döyüşə gəlib orduya birləşdilər, döyüşə hazırlaşdılar. Ardıcıl qızılbaş hücumlarına tab gətirməyən tatar döyüşçüləri sübhün açılışından günəşin qürubuna qədər igidliklə döyüşdülərsə də, məcbur olub döyüşdən əl çəkdilər. Adil Gəray xan tatar qoşununda zəiflik müşahidə edərək öz döyüşçülərini döyüşə şirnikləndirib özü də meydana girdi. Döyüş vaxtı pənahı zəfər olan qoşunun (qızılbaşıların - Ş.F.) döyüşçülərindən olan Baba Xəlifə Danqaralı özünü Adil Gəray xana çatdırıb onu canalan nizəsi ilə atından yerə saldı. Xan, özünün kimliyini bildirdi. Onu əsir götürdülər. Tatar qoşunu əzilərək qaçış vadisinə tərəf üz tutdu. Əzəmətli qazilər onların əksəriyyətinin ömür xırmanlarını qılınc və nizələrindən qopan atəşlə yandırdılar. Döyüş yerinə bələd olan əksər ləzgi və şirvanlı döyüşçülər isə dağa, meşəyə dağılışdı. Zəfər küləyi qələbə bayrağını dalğalandırdı. Döyüşçülərin gözləri tatarların qarət etdikləri mallara dəyəndə qaçanları təqib etməkdən əl çəkib həmin mallara tərəf üz tutdular. Tatarların əlinə düşən Araz xan ordusu əsirlərinin var-dövləti və tatarların özlərinin dəvələrlə daşıdıqları malların çox hissəsi qazilərin əlinə keçdi. Həmin var-dövlət sahibsiz qaldığından onların hamısını özlərinə götürdülər.

Bu böyük qələbədən sonra Mirzə Salman və əzəmətli əmirlər Şamaxıya üz tutdular. Osman paşa tatarların məğlubiyyəti və Adil Gərayın əsir düşməsindən xəbər tutdu, lakin onlara kömək edə bilmədi, Şamaxıda qala bilməyib, qaçmağa məcbur olaraq Dərbəndə tərəf yola düşdü. Əzəmətli əmirlər onun ardınca bir dəstə adam

[327] "Osman paşaya" olmalıdır - Ş.F.

yolladılar və onlar Şabrana qədər getdilər, oranın bir hissə topxana və silahını ələ keçirib geri qayıtdılar.

Osman paşa özünü Dərbənd qalasına çatdırıb, Dağıstan camaatı və ləzgilərin köməyi ilə orada sakin oldu.

Əmirlər qələbə və Adil Gərayın əsir düşməsi barədə nəvvab [şahzadəyə] və Məhdülyaya xəbər göndərdilər. Orduda şadlıq nağaraları döyülməyə başladı. Adil Gəray xanın orduya gətirilməsi üçün bir neçə nəfər əzəmətli qorçi yola salındı, əmirlərin isə Dərbənd qalasının fəthinə göndərilmələri qərara alındı. Amma Mirzə Salman və əmirlər Məhdülyanın məsləhətinə əməl etməyib, Şirvanda bir dəstə adam saxlayaraq Adil Gərayı özləri ilə götürüb Qarabağa gəldilər, nəvvabla görüş şərəfinə nail oldular. Ağıllı və tədbirli adamlar belə məsləhət gördülər ki, tatarlarla dostluq yaradıb, onları rum qoşununa kömək etməkdən çəkindirsinlər və Şirvan vilayətini onların təhlükəsindən xilas etsinlər. Bu təklif nəvvabın xoşuna gəldi və Adil Gəray xan ehtirama layiq görüldü. Əsir tutulmuş tatarlardan bir neçə nəfərini azad edib ona mülazim təyin etdilər, bir neçə qorçiyə də onun xidmətində durmağı tapşırdılar. Əmirlər Şirvan əyalətinin Həmzə xana verilməsini məsləhət gördüklərindən və nəvvab Məhdülya, onun məsləhətinə əməl etməyib qalaya girməyən əmirlərdən incidiyi üçün onların məsləhətini qəbul etmədi. Məğrur və ədəbsiz əmirlərlə Məhdülya arasında bir neçə məsələdə mübahisələr baş verdiyi üçün etiraz səsləri ucaldı. Belə gərəksiz qilü-qal Məhdülyanın Azərbaycanda qalmayaraq geri qayıtmasına səbəb oldu. Bu yersiz hərəkətə mane olmağa heç kimdə cürət görünmədi. Qışın əvvəl çağı soyuğun şiddətli dövrü idi. Deyin (dekabr-yanvar) şaxtasının qorxusundan dağ və göl sincab (qaqom) kürkü kimi olan qar örtüyünə bürünmüş, sincab dərisindən tikilmiş papağa bənzər buludu başlarına qoymuşdular. Ordibeheşt (İran hicri-şəmsi ilinin ikinci ayı - Ş.F.) gülzarının arzusundan buluddan (səhab) gecə-gündüz civə [rənginə bənzər] göz yaşları damcılayırdı. Çətinliklə keçilən həmin uzaq məsafəni bir ay əvəzinə on dörd gündə qət etdilər və on beşinci gün Qəzvin darüssəltənəsinə daxil oldular. Əzəmətli əmirlər də Məhdülya və müzəffər şahzadə ilə etdikləri həmin ədəbsiz danışıq və mühabisələrdən geri çəkilməyərək Qəzvinə çatdılar, İsgəndər şanlı nəvvabla görüş şərəfinə nail oldular. Nəvvab [Həmzə Mirzə] Adil Gəray xanı mübarək dövlətxanada, divanxanaya yaxın evlərin birində yerləşdirib, onun keşiyini çəkməyi bir neçə qorçiyə həvalə

etdi, onların (tatarların - Ş.F.) geyim-keçiminə və yemək-içməyinə olduqca ləyaqətlə yanaşdı. Belə qərara alındı ki, o, gərək bir neçə adamını qardaşı Məhəmməd Gəray xan və anasının yanına göndərib özünün sağ-salamat olması və ehtirama layiq görülməsi barədə onlara məlumat çatdırılsın. Adil Gəray xanın etibarlı ən mülazimi şahın dostluq məktubu da götürüb bir şah qorçisi ilə yola çıxdılar.

İsgəndər şanlı nəvvab Şirvan əyalətini cənnətməkan şahın son günlərində Astrabad hakimi olan, lakin qara geyimli adamların (siyahpusan) və Yəqə türkmanlarının qiyamına davam gətirməyib Qəzvinə gələn Məhəmməd Xəlifə Hacılar Zülqədərə verdi. O, həmçinin Şirvanın ayrı-ayrı mahallarını əmirlər arasında bölüb onları öz yerlərinə yolladı. Məhəmməd Xəlifə və əmirlər Şirvana gedərək, hərə öz ülkasında yerləşdi.

Qalmağa qoysa fələk qoy orada qalsınlar[328]

Amma bir neçə vaxt dövlətxanada yaşayan Adil Gəray xanın hərəkətləri əmirlərin və dövlət başçılarının xoşlarına gəlmədiyindən, belə qərara alındı ki, onu dövlətxanadan çıxarıb, ya başqa yerdə yerləşdirsinlər, ya da qarşıda Azərbaycan yasağı durduğu üçün və tatar şahzadəsinin oraya aparılması münasib olmadığından, ona yaxşı mənzili olan qalalardan birində yer versinlər. Çünki, qarşıda Azərbaycan yasağı (əskər toplanışı - Ş.F.) durur və xanı həmişə yanımızda saxlamaq münasib deyil. Qoy gedəcəyi yerdə rahat yaşasın.

Tatar Adil xanın öldürülməsi və bu hadisənin ixtiyarsız baş verməsi:

İsgəndər şanlı nəvvab isə belə buyurdu: Cənnətməkan şah başqa dindən olan Gürcü gürcülərin qəlblərini ələ almaq üçün bir müddət dövlətxanada yerləşdirmişdi. İlk gündən biz tatar şahzadəsinə izzət və ehtiramla yanaşdığımız üçün, yaxşı yer olsa belə, onu qalaya salmaq bədnamlıq ola bilər. O, qoy yasaq zamanı dövlətxanada qalsın, sonra isə məsləhət nə olsa, elə də edərik. Elə

[328] Misranın farscası:
Gər fələkşan begozarəd ke qərari girənd.

əslində də onun dövlətxana daxilində qalib yaşaması həbsdə olması deməkdir. O, mülki geyimdədir və başqa yerə gedə büməz. Bir dəstə qorçi də gecə-gündüz onu qorumaqla məşğuldur".

Əzmətli əmirlər onun məsləhətinə əməl etməyərək, Adil Gəray xanı dövlətxanadan çıxarmaqdan ötrü bir dəstə adam yolladılar. Tatar xanı isə qızılbaşların davranışlarına bələd olduğu üçün, başqa bir xəyala düşdü. Onunla birlikdə olan bir neçə tatarla cəhalətli bir əmələ əl atmağı məsləhət görüb, əllərində tutduqları ox-yay ilə iki-üç nəfəri yaraladı. Tatarlar danışığa başlanılmasına imkan verməyib döyüşdən əl çəkmədilər. Qarşı tərəfin döyüşçüləri də hücuma keçib onun şər hərəkətini dəf etməyə girişdilər. Tatarların cəhaləti həddini aşdı və bir neçə nəfəri də öldürdülər. Eşikdən də onlara ox və güllə yağdırıldı. Bu arada tatar xanı yaralanıb öldürüldü. O qətl edildikdən sonra, ölüm növbəsi başqalarına da çatdı. Bu hadisə təsadüf üzündən baş verdi. Əhvalatın əmirlərin Mazandarandan qayıdışından sonra baş verməsinə baxmayaraq, Şirvan səfəri hadisələri ilə bağlı olduğu üçün, Adil Gəray xanın qətli barədə burada yazmağı münasib bildik.

DÖVRAN MƏLƏKƏSİNİN (ŞAH MƏHƏMMƏD XUDABƏNDƏNİN ARVADI MƏHDÜLYANIN - Ş.F.) İRADƏ VƏ RAZILIĞI İLƏ MAZANDARANA TƏRƏF LƏŞKƏR GÖNDƏRİLMƏSİ VƏ O BEHİŞTƏ BƏNZƏR DİYARIN VALİSİ MİRZƏ XANIN T UTULMASININ ZİKRİ

Cənnətməkan şahın dövründə Mazandaranın hakimliyi irsən və icazə təriqiylə nəvvab Məhdülyanın atası MirAbdullah xana mənsub idi. Onun əmioğullarından Mir Sultan Murad onunla düşmənçiliyə və hərbə başlayaraq istiqlal savaşına qalxdı. Mir Abdullahdan narazı olan bir dəstə mazandaranlı Mir Sultan Muradın başına yığışdı. O, cahanpənah şah dərgahına gələrək öz sədaqət və bəndəliyini izhar etdi. Mir Abdullah xan bəzən sərkeşlik edib vergi və xəracı ləngitdiyi üçün cənnətməkan şah Sultan Murad xanın tərəfini tutdu. Mir Abdullah xan etdiyi hərəkətdən peşiman olub şaha öz tabeçiliyini izhar edən vaxta qədər Sultan Muradın vəziyyəti gün-gündən yaxşılaşmaqdaydı. Cənnətməkan şah [buna görə də] Mazandaran ülkasını onların arasında böldü və xanların hər ikisi onunla razılaşdı. Belə qərara gəldilər ki, bir-biriləri ilə qardaş kimi davranaraq biri digərinin məmləkətinə dəxalət etməsinlər. Amma, Mir Abdullah xan Əmir Sultan Murad xanın etibar və iqtidarına tab

edə bilməyib şahın razılığına xilaf olaraq onu etibardan salmağa cəhd etməkdəydi, imkan vermirdi ki, ona verilən vilayətdə müstəqil hakimiyyət sürsün. Bu hadisə barədə ali saraya dəfələrlə məlumat verilməsinə baxmayaraq hökmlər hər ikisinin adına yazılırdı. Məsələ Mir Abdullah xanın əvvəlcə verilən hökmü pozmasına səbəb oldu. Mir Sultan Murad ona hücum edərək tutdu, bütün Mazandaran əhalisini özünə birləşməsini təklif etdi. Mir Abdullahı kamanın ipi ilə boğub aradan götürdü, bütün Mazandaran hakimliyi Mir Sultan Murad xanın oldu. Amma, qədim adətlərə görə dünya qəddardır və buna görə də onun iqtidar və kamranlığına imkan vermədi, zamanənin pis gözü ona dəydi, ömürdən və dövlətdən ləzzət ala bilmədi, bir neçə gündə mülk və mala əlvida deyib həyatını qolu zorlu fələyə tapşırdı.

Xülasə, Mir Abdullah xanın qəziyyəsindən sonra cənnətməkan şah ona xas olan mərhəmət üzündən mərhum xanın sağ qalan üzvlərinə qayğı göstərərək xanın müqəddəs qızı nəvvab Məhdülyanı aləmlər şahzadəsinə, yəni İsgəndər şanlı nəvvab Sultan Məhəmməd Mirzəyə aldı və bu izdivacdan qədir-qiymətli fərzəndlər doğuldu. Xanın oğlu Mir Əzizxanı şaha yaxın adamlar silkinə daxil etdi və o ali sarayda əziz və möhtərəm adamlardan oldu. Yuxarıda yazıldığı kimi, onlara aid olan Mazandaran vilayətinin yarısını şahzadə Sultan Həsən Mirzəyə, o biri yarısını isə "Mirzə xan" ləqəbi ilə məşhur olan Sultan Mahmud Mir Sultan Murad oğluna verdi. Amma cənnətməkan şahın başına gələn ölüm hadisəsindən və Sultan Həsən Mirzənin aradan götürülməsindən sonra Şəmsəddin Divin səyi ilə bütün Mazandaran məmləkəti Mirzə xana verildi. Yer və səma Xaliqinin istəyi ilə ülyahəzrət Məhdülya İranın mələkəsi olduqda, o bu məsələni münasib bildi: Həmin vilayət Məhdülyanın irsi mülkü olduğu üçün belə qərara alındı ki, Mirzə xan ali saraya gələrək atasının əhvalatına görə üzr istəsin, göstərişlərə əməl etsin, Məhdülyanın özü izn alaraq Mazandarana getsin, əgər onun hakimliyi mələkənin istəyinə müvafiq olmasa, ağlının göstərişi ilə zəmanə qanununa saz olsun, ona tapşırılmayan işlərə dəxalət etməsin:

Hər yerə kəhəri çapmaq nə demək?
Yer yer sahibinə verilsin gərək.[329]

[329] Beytin farcası:

Amma, əgər Mirzə xan hərgah özündən razılıq hissinə qapılıb cəng məqamına gələrsə, qeyrət və təəssüb mədəni olan mələkə onu cəzalandıracaqdır. Mirzə xan sadəlövhlüyündən, fitnə-fəsad əhlinin fəsadından, xüsusən mələkə nəslindən olan şəxslərə qarşı yaramaz hərəkətlər etmiş Şəmsəddin Divin sözünə qulaq asıb səvab yoldan dönərək, mələkənin xidmətinə getmədi, hətta sərkeşlik etdi. Bu iş mələkəyə ağır gəldi və o intiqam almaq məqamında qərar tutdu, atasının qanını almaq istədi. O, Mazandaran əyalətini atasının qohumlarından olan Mir Əlixana verib, öz nəslinə yaxınlığı ilə şərəflənən Vəlican xan Türkmanı ona yardımçı təyin etdi. Mirzə xan dərvişxislət bir cavandı. Cahanpənah dərgaha getməyə cürət etməyib qorxusundan və canını qorumaq məqsədindən Mazandaranın möhkəm qalalarından olan Firuzcaha sığındı, Mir Sultan Murad xanın bir dəstə mülazimi də ona qoşuldu. Baxmayaraq ki, Mirzə xan məmləkətdən əlini üzmüşdü və Mazandarandaydı, həmin qalanı olə keçirmək təsəvvürə belə sığmırdı, amma nəvvab Məhdülya Sultan Murad xan nəslinin yox edilməsi qərarına gəlmişdi və onun bu hissi günü-gündən artırdı. O, bir gün dövlət adamlarından biri olan Pirə Məhəmmədi Qorxmaz xan Şamlı və bəzi əmirlərlə Firuzcah qalasına yolladı. Bir neçə müddət keçməsinə baxmayaraq qalanın fəthi xəbəri gəlmədi. Nəvvab Məhdülyanın səbri tükəndi, göndərdiyi ləşkərlə kifayətlənməyib Şahrux xan Möhrdarı Mazandarana göndərdi. Şahrux xan dövlətin möhkəm sütunlarından idi. O, özünün tutduğu məqamı belə səfərlərə çıxmaqdan üstün tutduğu üçün ona tapşırılan səfərdən imtina etdi, ərz edib dedi ki, bu səfərə göndərilən Pirə Məhəmməd xanın getməyi kifayətdir, yox əgər, nəvvab Mohdülya bu işi görməyə başqa adam yollayarsa, bu mənim işdən soyumağıma səbəb ola bilər, əgər köməyə ehtiyac olarsa, kimi istərsə, onu da göndərərik. Nəvvab Məhdülya bu sözlərdən inciyərək İsgəndər şanlı nəvvaba Şahrux xanın cəzalandırılmasının və məcburən qalaya göndərilməsinin zəruri olduğunu bildirdi. Şahrux xanın bu məsələdən yaxa qurtarma cəhdinə baxmayaraq, bunun heç bir faydası olmadı. Mirzə Salman qorçibaşı və əmirlər ürəkaçan nəsihətlər yolu ilə onu qalaya getməyə razı saldılar. Şahrux xan

---

"Nə hər cay mərkəb təvan taxtən,
Ke ca casepor bayəd əndaxtən".

məcbur olub istər-istəməz Mazandarana rəvan oldu. O, Firuzcah qalasının yanında Pirə Məhəmməd və Qorxmaz xanla görüşüb, qalanın möhkəmliyi və Mirzə xanın qaladarlıq səriştəsi haqda məlumat əldə etdi. Onlar bu qalanın belə tezliklə fəth olunmayacağını və qızılbaş ləşkərinə xəsarət dəyəcəyini başa düşdülər. Buna görə də Şahrux xan Mirzə xanla dostluq münasibəti yaratmağa çalışdı və arada yazışma və elçi get-gəli başlandı. Mirzə xana təsəlli verib dedi: "Əgər İran padşahı Mazandaran hakimliyini dəyişmək istəsə, onunla döyüşməyiniz sizin nəslinizin qırılmasına və böyük fəsada səbəb ola bilər. Yox, əgər qalanın mühasirəsi bir-iki il davam edərsə, sizə heç bir yandan kömək gəlib çata bilməz və nəticədə qala fəth oluna bilər. Əgər siz müxalifətdə və qaladarlıqda belə davam etsəniz, qala alındıqdan sonra vəziyyətiniz bədbəxtliklə nəticələnə bilər. İndi məsləhət budur ki, müxalifəti tərk edərək dərgahın mötəbər qulamları və dövlətin sütunları olan bizlərlə birgə yola düşəsiniz və nəvvab Məhdülya sizin bu hərəkətiniz müqabilində ola bilsin ki, sizi əfv etsin. Əgər belə olmasa, siz haranı istəsəniz oranı özünüzə vətən edib, həyatınızı arxayınlıqla davam etdirə bilərsiniz".

Mirzə xan düşünüb bu təkliflə razılaşmadı, dedi: "Mazandaranlılar heç bir lətəfata yol vermədən kiçik bir cəza almaqla bu işdən yaxa qurtara bilməzlər, Məhdülya atamın atasının qanlısı olduğunu bilir. O, şəksiz-şübhəsiz atasının qanını almaqdan ötrü məni qətlə yetirəcək. Mələkənin bu işi təkcə mal və mülkdən ötrü deyil, mənim ömrümü fəqət bir neçə gün uzatmaq üçündür".

Şahrux xan və əmirlər onun iddialarına zamin durub Allah-təalaya and içərək dedilər: "Onu öldürməyəcək və gözlərini çıxarmayacaqlar. Biz İsgəndər şanlı nəvvabdan və nəvvab Məhdülyadan onun qanının bağışlanmasını xahiş edəcəyik və ona sədəmə yetirilməsinə razı olmayacayıq".

Adı çəkilən adamların dövlət adamları olduqlarını və heç bir böyük və ya kiçik işlərin onların razılığı olmadan həyata keçirilmədiyini bilən Mirzə xan onların andlarına inanıb qalanı təslim edərək çölə çıxdı.

Mazandaran hakimi Mirzə xanın
Məhdülyanın əmri ilə öldürülməsi:

Əmirlər onun xatircəmliyi üçün mal-dövlətinə əl uzatmadan qalanı nəvvab Məhdülyanın adamlarına verdilər, onu isə özləri ilə götürüb ali saraya rəvan oldular. Həqiqətən də onlar güman etmirdilər ki, nəvvab Məhdülya onların xahişi ilə razılaşmayacaqdır. Amma elə ki, qalanın fəthi və Mirzə xanın ələ keçirilməsi xəbəri nəvvab Məhdülyaya ərz olundu, əmirlərin Mirzə xanla etdikləri əhd-peymandan incidi. Mələkə istəyirdi ki, qala hücumla alınsın və Mirzə xan döyüş zamanı ələ keçirilsin. Belə olası təqdirdə, bəlkə onun qətlindən əl çəkər və Mirzə xan buna görə ondan məmnun qala bilərdi.

Amma, mələkə əmirlərin xahişlərinin əksinə gedib Mirzə xanın qətlini qərara aldı. Xülasə, Şahrux xan və əmirlər Qəzvinin bir fərsəxliyinə çatıb atdan düşdülər ki, ertəsi gün Qəzvinə daxil olsunlar. Nəvvab Məhdülya əmirlərin ordusuna gedərək Mirzə xanı onlardan almaq üçün əzəmətli qorçilərdən otuz nəfərini orduya göndərdi. O, qorçilərlə belə qərara gəlmişdi ki, Mirzə xan onlara verilən kimi elə həmin gecə əmirlərin xəbərləri olmadan onu həlak etsinlər.

Elə ki, qorçilər əmirlərin ordusuna gedib çatdılar, Mirzə xanı tələb etdilər. Əmirlər bu tələbdən şübhələndilər onu təhvil verməkdən boyun qaçırdılar və dedilər: "Biz öz işimizi görmüşük və sabah onu qızılbaşların əhatəsində ali dərgaha gətirib padşahın nəzərinə yetirərik". Qorçilər aldıqları fərmana əməl edib onların dediyini qəbul etmədilər, padşah hökmünün icrasında israrlı oldular. Əmirlər xanın qətl olunacağını bilmədikdən padşah hökmünün əleyhinə getmədilər və xanı qorçilərə verdilər ki, gecəni orduda qalıb sübh onlarla birlikdə şəhərə gəlsinlər. Qorçilər isə hökmə əməl edib elə həmin gecə xanı həlak etdilər. Şahrux xan, Pirə Məhəmməd xan, Qorxmaz xan və əzəmətli əmirlər bu hadisənin baş verməsindən bərk incidilər və onların nəvvab Məhdülyaya ürəklərində bəslədikləri kinləri daha da artdı. Amma, əlacları olmadığından bir daha bu haqda danışmayıb şəhərə gəldilər, şahla görüş şərəfinə yetişdilər. Onlar nəvvab mələkənin səcdəsinə gedərək ona dua etdikləri üçün, gözlədikləri xanın əfvi məsələsi həyata keçə bilmədi və bu məsələ onların nəvvab Məhdülyaya olan qəzəbini daha da artırmış oldu. İş gətirib buna çıxardı ki, onlar Kaşan

hakimliyindən çıxarılan Məhəmməd xan Türkmanın müdafiəsinə qalxdılar və öz fikirlərini aşkar şəkildə zahirə çıxardılar. Saleh bir günahsız adam və seyidzadə olan Mirzə xanın qətl hadisəsi çərxi-fələyin məsləhəti və əmirlərin pis münasibəti, qadınların cəhalət və qüruru, həmçinin şeytanın yoldan çıxarmasıyla ağızlarda hallanmağa başladı. Bu isə nəvvab Məhdülyanın xoşuna gəlmədi ki, bunun şərhi Xorasan hadisələrinin şərhindən sonra təfsilatla veriləcəkdir.

Mir Əlixan da Mazandaran hakimliyindən xeyir görməyib, elə o günlərdə öz ömür aləminə vida etdi, Mazandaranda hərc-mərclik yarandı, hər bir tayfa məlikinin başında bir sevda baş qaldırdı. Nəticədə övlad qalasını və Mazandaranın yarısını Ağa Əlvənd Div, digər yarısını isə Mazandaran əmirlərindən olan Seyid Müzəffər Mürtəzayi zəbt etdilər. O mülkün əyanları da iki tərəfə ayrılaraq bir tərəf Əlvənd Div, o biri tərəfsə Seyid Müzəffərə itaət etdi. Qızılbaşların arasında baş verməkdə olan hadisələrin çoxluğu üzündən əzəmətli əmirlər və dövlət başçılarının heç biri Mazandaranda baş verənlərə baş qoşmadı.

XORASAN MÜLKÜNDƏ BAŞ VERƏN ÜRƏKAÇAN BİR HEKAYƏT BARƏDƏ SÖHBƏT

Baş verən hadisələri bədii tərzdə yazan qələmlə bundan əvvəl xəbər vermişdik ki, İsmayıl Mirzə dövlət və iqbal sütunlarını (payə), qardaşlarını və imam övladlarını qırmaqla kifayətlənməyərək, özünün rəhm şilləsini birdəfəlik olaraq böyük və adlı-sanlı qardaşı, bir anadan doğulduqları İsgəndər şanlı nəvvabın sifətinə vurmaq istəyirdi, amma bu zaman ilahi qeyrət hərəkətə gəldi və bu cəza baş tutmadı. Xülasə, özünün Herata hakim və əmirül-üməra vəzifəsinə təyin etdiyi Əliqulu xan Şamlıya - Durmuş xanın nəvəsinə tapşırmışdı ki, nəvvab Herata gəlib çatan kimi dövlət və iqbal çəmənini bəzəyən o səadətli nihalı (ağac, qələm - Ş.F.) yəni əlahəzrət zilləllah şahı aradan götürsün və beləliklə onlardan asudə olsun. İsgandər şanlı nəvvabın nökərzadəsi və o həzrətin illərlə çörək verib boya-başa çatdırdığı adam olan Əliqulu xan axı belə bir işə - öz vəlinemətzadəsinə qarşı, Allah eləməsin, necə əl qaldıra bilərdi? Əliqulu xan və o sülalənin yaxınlarından olan xanın hörmətli anası əlahəzrətin (Abbas Mirzənin - Ş.F.) və başqa şahzadələrin süd anası (madəre-rezai) idi. Onlar elə bir hökmdən

kədərləndilər. Amma, İsgəndər Mirzə tərəfindən vəzifəyə təyin olunan və yüksək xan ləqəbinə və mərtəbəsinə layiq görülən o şərafətli əmirül-üməranın padşahın əmrini yerinə yetirməkdən başqa heç bir çarəsi yox idi. Onun və şanlı ağalarının fikirləri onlara tapşırılan əmrə görə beləydi ki, onların gəlib şəhərə daxil olduqları vaxt tapşırığa əməl etsinlər, hətta bircə gün belə onların yaşamalarına imkan verilməsin. O vaxt Heratda olan etibarlı adamların sözlərinə görə bunlar məlum olur: Ali mənsəbə çatan və yüksək xan ləqəbinə layiq görülən Əliqulu xan Şamlı bu dəhşətli işdən boyun qaçırdı və qəmgin halda yol gəlib mübarək Ramazan ayının iyirmi altısında (7 dekabr) cəhar şənbə günü gözəl Herata çatdı. Amma, ramazanın iyirmi yeddisi (8 dekabr) İslam əhlinini etiqadına görə, qədir gecəsi olduğundan həmin sülalə qadınları bu mübarək gecədə o bigünahların - o seyidzadələrin qətlinə mane oldular və bu işin yerinə yetirilməsini bir gündən sonraya saxladılar. O günün özü də cümə gününə təsadüf etdiyindən həmin işə iqdam olunmadı. Sonrasa bayram günləri başlandı ki, belə günlər də şadyanalıq günləridir [Xan] eys və şadlıq (sorur) günlərində bayram günlərinə zəhər qatıb adamlara damcı-damcı zəhər (təcərro) içirilməsini istəmədi, bayramın bitməsini gözlədi.

"Görək nə doğacaq hamilə gecə"[330]

Sanki, asimani bir ilham onların yaddaş güzgüsünə zühur işığı saldı və bildirdi ki, yaxın vaxtlarda qeyb pərdəsi arxasından qəribə və təəccüblü (əcib) bir vəziyyət görünəcəkdir. Övliyalar şahı, pak adamların (ətqiya) sərvəri, bağlı xəzinələrin (künuz) açarı, "Mən elmin səhəriyəm, Əli isə onun qapısıdır"[331] deyən o həzrətin (Məhəmməd peyğəmbərin - Ş.F.) söylədiyi bu fikir qeyb mələklərinin gətirdikləri xəbərə (soruş) və həqiqəti əks etdirən aşağıdakı beytlərə uyğun gəlir:

Allahın nə gizlin səxavəti var
Ki, qahil insana fəqət həxş olar.

[330] Misranın farscası:
"Bebin ta çe zayəd, şəb abestənəst".
[331] Cümlənin ərəbcəsi:
"Ənə mədinətu-l-elmi və Əliyyun bəbuhə".

Kədərdən sonrakı fərəh nə gözəl!
Kədərin hitməsi seyincə təməl

Gün var ki, sübhünü qəmə döndərir,
Elə gün də var ki, sənə həzz verir.[332]

Xülasə, bayramdan sonra şəvval ayının ikisində (13 dekabr) padşahın qəzəb ümmanının dalğalarını təlatümə gətirən o qətl hadisəsinin bu gecə həyata keçiriləcəyi haqda xəbər rəiyyət və döyüşçülər arasında yayıldı. Günün axırında bəzi işlərin icrası üçün Qəzvində qalan Əliqulu xanın vəkili Sultan Mahmud bəy Beyxərli, İsmayıl Mirzənin vəfatından sonra bu xəbəri yaymaqdan ötrü Herat darüssəltənəsinə rəvan oldu, gəlib oraya çatdı. Elə ki, İraq dərvazəsindən keçib şəhərə daxil oldu, dərvazəbanlardan* (qapıçılardan - Ş.F.) şahzadənin mübarək vücudunun sağ-salamat olub-olmamasını soruşdu. Qapıçılar hümayun zatın salamatlıq müjdəsini bildirdilər. Sonra o, Əliqulu xanın yanına gələrək baş vermiş hadisəni bəyan etdi. Ötən neçə gün ərzində Herata gələn və hələ hakimlik və qaladarlıqla məşğul ola bilməyən cənab xan və şamlı ağaları İsmayıl Mirzənin başına gəlmiş ölüm hadisəsindən hali olaraq, ətraf məliklərin və özbəklərin üsyana qalxacaqlarından qorxdular, amma şahzadənin və əlahəzrət zilləllah şahın sağ-salamat qalmalarından şad oldular, İlahiyə şükr və dua (səcdə) eldilər, xilafət və şadimanlıq dəryasının yenicə böyüməyə başlayan cavan ağacının (burada: şahzadəsinin - Ş.F.) əziz vücudunun məmləkətin əmniyyəti və inkişafı üçün sərmayə olduğunu düşünərək, səmimi-qəlbdən ona mülazim və qulam olmağı özlərinə borc bildilər, o həzrətin dövlət və iqbalına ümid etdilər. O diyarın əhalisi baş verənləri vəziyyətin dili ilə belə tərənnüm etməkdəkdir:

[332] Şerin ərəbcəsi:
Va kəm li-l-lahi min lutfin xəfa,
Yəduqqu xəfahu an fəhmi-z-zəka.
Va kəm yəsurru əta min bəda usrin,
Va fərəcun kərbətu-l-qəlbi-ş-şəca.
Va kəm əmrin təsau bihi səbahan
Va tətikə-l-məsərrə tu bi-l-aşa

Rübai

Ey şahı-cəhan, kim sənə bədxah oldu.
Dövran elə hökm etdi həyatı soldu.
Çatdırdı fələk kama şühud ərbabını[333]
Qeybdən yetişən sirri-əcib[334] oldu bu[335]

Əliqulu xan ali bir məclis quraraq xilafət və cahandarlıq mücrüsünün vahid dürrü olan şahzadəni özünün sədaqət çiyninə qaldırdı, lələ və xidmətkarlıq işlərinə başladı. Döyüşçü, rəiyyət, oymaq əmirləri, bəluc və qıpcaq başçıları və başqaları - bütün xalq kütlələri dəstə-dəstə gələrək mülazimət və təbrik şərəfinə çatdılar, şahzadə tərəfindən qiymətli xələtlərlə mükafatlandırıldılar, baş verən matəm və şahzadənin salamət qalması münasibətilə Allaha şükür etdilər. Amma, Şahqulu Yeganın qatili olub, onun var-dövlətini zəbt etmiş əfşar əmirləri şəhərin kənarındakı Məlik darvazasında dayanmışdılar və onlarla [Əliqulu] xanın vəkilləri arasında həmin var-dövlətin təftiş olunması xüsusunda danışıq aparılırdı. Onlar bu vaxt rüxsət alaraq özlərinin tiyul yerləri olan Fərah və Esfezara tərəf getdilər və Əliqulu xan müqəddəs zatın (şahzadə Abbas Mirzənin - Ş.F.) sağ-salamat olması barədə Qəzvin darüssəltənətinə müjdə göndərdi.

Məhdülyanın öz qulamı Ağa Nəzəri şahı Qəzvinə gətirmək üçün Herata yollanması:

İsgəndər şanlı nəvvab Məhdülya və ad-sanlı şahzadələr o yaxşı xəbərdən şadlığa qərq oldular, o həzrət ilə qarşıdakı isti görüş şövqünün (eşteyaq) alovu onun valideyinlərinin nurlu qəlblərini [daha da] işıqlandırdı Onlar istədilər ki, əziz (delbənd) fərzəndi

[333] İrfani istilahdır, burada "hər hansı bir işin şahidi olan adamlar deməkdir.
[334] Təəccüblü sirr.
[335] Rübainin farscası:
Ey şahe-cəhan, hər an ke bədxahe-to bud
Pərdaxt zəmane omrəş əz molke-vocud.
Gərdid fələk be kame-ərbabe-şohud,
Serri-əcəbi ze ğeyb surət benəmud.

Heratdan ali taxt ayağına gətirib, gözlərini onun qiymətli görüşü ilə nurlandırsınlar, cahil qızılbaşlar və fitnə-fəsadlı adlamların qorxusundan adlı-sanlı şahzadələrdən heç kimi məmləkətlərdə saxlamayaraq onları ali taxt yanında, valideyinlərin xidmətində saxlasınlar, qoy bir-birləri ilə bir yerdə qalsınlar. Bundan ötrü, xüsusi etimad sahibi (mötəmedül-xəvas)* olan və Mir Abdulla xandan sabiq qulam kimi nəvvab Mədülyaya varis qalmış, həmçinin İskəndər şanlı nəvvabın yanında etibara layiq görülmüş mötəbər Ağa Nəzəri Xorasana göndərdilər. Hökm olundu ki, Əliqulu xan əlahəzrəti yaraqla təmin etsin, onu gəlməyə hazırlasın ki, tezliklə dövlət başçılarından və etibarlı ağsaqqallardan bir nəfər bu işin icrasını yerinə yetirmək üçün namizəd təyin olunsun. Elə ki, bu xəbər Xorasana yayıldı, o vilayətin əzəmətli əmirləri sevimli şahzadənin uzaq yoldan aparılmasından nigaran oldular və Əliqulu xana dedilər: "Bu hökmün qəbulundan və icra olunmasından sərf-nəzər etmək lazımdır. Xorasan məmləkəti Mavərənnəhrin yanındadır və çox vaxt hadisələrin taptağı altında qalmışdır. Xorasan özbəklərin qarətindən əldən düşmüşdür. Xorasanın bu xilafət dudmanının əlinə keçməsindən bu vaxtadək Herat darülmülkü dövr sultanlarının və fərman sahiblərinin taxtgahı olaraq qalmış, bu mülk həmişə alişan şahzadələrin biri tərəfindən idarə olunmuşdur. İndi də əgər ali rütbəli şahzadələrdən biri bu mülkün mühafizə və qorunması ilə məşğul olmasa, bu iş biz bəndələr tərəfindən qoruna bilməz". Xülasə, Xorasan əmirlərindən on çox Mürşüdqulu xan bu məsələdə israrlı oldu. O, Əliqulu xanla sözü bir yerə qoydular. Ağa Nəzərin qədəmi Xorasan vilayətinə dəyən vaxtdan başlayaraq əmirlər elə bu barədə danışırdılar. Məşhəd hakimi Mürtəzaqulu xan məsələnin əvvəlində Əliqulu xanı heç bir vechlə şahzadəni şəhərdən kənara çıxarmasına zahirən razı olmamağa təhrik etsə də, amma batində nifaq yaradaraq Əliqulu xanın əzəmət və iqtidarını azaltmaqdan ötrü bu işdən boyun da qaçırmırdı, hətta bunu istəyirdi də. Başqa əmirlər də şahzadənin yola düşməsinin əleyhinə idilər. Ağa Nəzər onların hər biri ilə söhbət etdi. Əmirlərin ona çox təzim etmələrinə baxmayaraq, bu ancaq zahiri bir rəsmi təvazökarlıqdan başqa, bir şey deyildi. Onlar bu işə dövlətxahlıq libası geydirib, ona xatırladırdılar və xahiş edirdilər ki, gedib nəvvab Məhdülyaya belə desin: "O, qoy bu istəyindən əl çəkib, Xorasanı o həzrətin qiymətli vücudundan xali etməsin, çünki belə bir əməl qüvvətli dövlətə layiq olmaz".

Ağa Nəzərin məqsədə çatmadan Xorasandan qayıtması:

Onlar Ağa Nəzərə birbaşa dedilər ki, əgər Məryəm şanlı nəvvab Məhdülya bu məsələdə israr edər və şahzadəni aparmağa adam göndərərsə, biz bəndələrin o hökmə qarşı çıxmaqdan başqa əlacı qalmayacaqdır. Ağa Nəzər Xorasanın vəziyyətini yuxarıda yazıldığı kimi görüb, o vilayətdən çıxdı, ali saraya gələrək vəziyyəti ərz etdi. Məhdülya şövq və arzusunun çoxluğu səbəbindən əmirlərin və Ağa Nəzərin söz-söhbətlərinə qulaq asmayıb, mötəbər əmirzadələrdən və qızılbaş əyanlarından Heydər Sultan Çabuk Tərxan Türkmanın oğlu İbrahim bəyi Xorasana rəvan etdi. İbrahim bəy əlli nəfər türkman ağası ilə Xorasana istiqamət götürdü. Onun gəlmə xəbəri Xorasanda yayılanda Əliqulu xan və Mürşüdqulu xan bir-biriləri ilə görüşərək belə qərara gəldilər ki, İbrahim bəyi məqsədinə çatmadan geri qaytarsınlar. Buna görə də Xorasanın bütün əmirlərinin yanına öz etibarlı bir adamını yollayıb onlardan kömək xahişini etdilər, əhd-peyman arzuladılar. Böyüklük xislətinə sadiq olan müqəddəs Məşhədin hakimi Mürtəzaqulu xan Pornak qibtə və qürur hissinə qapılmışdı və Əliqulu xanın daha böyük şöhrətə və iqtidara çatmasını istəmirdi. Amma, Əliqulu xanın adlı-sanlı şahzadə əlahəzrət zilləllah şahın lələsi olması onun hörmətinin böyüklüyü və şan-şöhrətinin artmasına və Xorasan əmirlərinin hamısından üstünlüyünə səbəb olmuşdu. Məsələ yuxarıda deyilən vəziyyətə çatdıqda Mürtəzaqulu xan ondan dönərək təşkil etmək istədiyi ittifaqa qoşulmadı, əmirlərlə əlbirlikdən sərf-nəzər etdi, özünün tabeliyindəki əmirlərə də Əliqulu xanın məsləhətinə qulaq asmağı qadağan etdi. Bu hərəkət Əliqulu xanın hörmətini sarsıtdı və get-gedə onların arasındakı ülfət və birlik vəhşət və biganəliyə çevrildi. İbrahim bəy müqəddəs Məşhədə çatdıqda Heratda olan Əliqulu xan, Mürşüdqulu xan və başqa əmirlər onun gəlişindən xəbər tutaraq, ona dostluq məktubları yazdılar, ehtiram göstərdilər. Amma, onların hamısı birlikdə ona bildirdilər ki, əgər həmin məqsədlə Herata gələrsə, qoy gəlsin, lakin bilsin ki, onun istədiyi iş baş tuta bilməyəcək, onun gəlişinin faydası olmayacaqdır.

İbrahim bəyin də məqsədə çatmadan geri qayıtması:

Onlar bu barədə ali saraya da bir məktub yazaraq bildirdilər: "Şahzadənin İraqa aparılması özbək müxaliflərinin cürətlərinin artmasına səbəb ola bilər və belə hərəkət bu əzəmətli dövlətə məsləhət görülmür. Buna görə də biz dövlətxahlar cəsarət edib o işə razı olmadıq".

İbrahim bəy Qəzvin darüssəltənətinə gedən məktubdan cavab gələnədək Məşhəddə qalmaq istəyirdi. Amma Mürtəzaqulu xan padşah hökmünün icrasında və İbrahim bəyə kömək edilməsində israrlı oldu. Ağıllı, nəfsitox, məsləhət eşidən adam olan İbrahim xan Əliqulu xana qarşı Mürtəzaqulu xanın hərəkətlərində nifaq rayihəsinin olduğunu hiss edir və bilirdi ki, bu məsələdə xanın israr etməsi nəhayət böyük fitnə-fəsadın baş verməsinə səbəb olacaqdır. Buna görə də o, Guryana gəlib orada bir neçə gün gözlədi, sonrasa Əliqulu xanın və mirlərin məsləhətinə əməl edib cahanpənah dərgaha yollandı, məsələni padşaha və Məhdülyaya çatdırdı. Nəvvab Məhdülya hirslənib təvaçibaşı, mötəbər əmir və əzəmətli dövlətin sütunlarından biri olan Hüseyn xanı - Əliqulu xanın atasını ali dərgaha çağırdı, bol nəsihətlər verdi, təhdidlər etdi. O, öz oğlu adından üzürxahlıq edib dedi: "Əgər bütün Xorasan əmirləri birləşib o işi etmək istəyirlərsə, mənim oğlum nə edə bilər?"

Xülasə, Məryəm şanlı nəvvab Məhdülya Əliqulu xanı öz nəzərindən saldı. Belə qərara gəldilər ki, onu və mənsub olduğu adamları etibar nəzərindən düşürsünlər, Mürtəzaqulu xanı onun əvəzinə yuxarı çəksinlər. Sultan Hüseyn xanın isə dövlətin bu kimi məsələlərini qaydaya salmaq fikirlərinə qulaq asılmadı. Nəhayət qərara alındı ki, qoy onun özü Xorasana gedib bu məsələni həll etsin. Ona Xorasana gedərək oğlunu o cəsarət və özbaşınalığından uzaqlaşdırmağı, xilafətin qünətüleynini (gözünün nurunu - Ş.F.) yəni əlahəzrət zilləllah şahı özüylə götürüb İraqa gətirməsini tapşırdılar. Yox, əgər bu dəfə də Əliqulu xan və onunla müttəfiq olan Xorasan əmirləri üsyan edərək şah fərmanından boyun qaçırarlarsa, qoy Sultan Hüseyn xan da Xorasanda qalsın, bir daha ali saraya qayıtmasın, çünki, onlar artıq bu dövlətin düşmənləri sayılacaqlar. Sultan Hüseyn xan bu məsələdə padşahın və nəvvab Məhdülyanın cidd-cəhdinin qəti olduğunu başa düşdü, naəlac üz tutub Xorasana rəvan oldu. Onun gəlmə xəbəri Xorasanda eşidildikdə Əliqulu xanla

ittifaqda olan Xorasan əmirləri yenidən qilü-qal edərək əlahəzrətin Xorasandan aparılmasına heç vəchlə razı olmadılar.

Sultan Hüseyn xan Herat darüssəltənəsinə gəlib çatdıqda ata-oğul görüşdü, amma atasının gözlədiyi oğlunda görünmədiyi üçün əmirlər yenidən qətiyyətlə bir yerə yığışdılar. Heratdakı şamlı tayfasının ağıllı və ağsaqqal adamlarının əksəriyyəti padşahın əmrinə itaət etməyi, Sultan Hüseyn xanı məqsədinə çatdırıb geri yollamağı, şamlı tayfasını müxalifət və üsyan damğası ilə müttəhim etməyi məsləhət bildilər. Amma türk və taciklərin bir dəstəsi isə bu fikrə qarşı çıxaraq belə deyirdilər: "Əgər bu əzəmətli dövlətin dövlətxah adamları etdikləri işi dövlətin xeyrinə edirlərsə, bu niyə üsyan kimi anlaşılmalıdır? Əksinə belə hərəkət dövlətxahlıq və duz-çörəyə ehtiram əlaməti kimi başa düşülməlidir".

Xülasə, belə söz-söhbət çox davam etdi. Get-gedə ata-oğul arasında pis münasibət çoxalırdı. Hüseyn xan deyirdi: "Əgər mən məqsədə yetmədən geri qayıtsam, dərgahın qapıları üzümə bağlanacaqdır. Elə halda qayıtmamağını məsləhətdir".

Amma, Mürşüdqulu xan və onunla sözü bir olan əmirlər Əliqulu xanın atasının təkidi və şamlı ağsaqqallarının məsləhəti ilə savab yoldan dönəcəyindən qorxdular. Onlar Səbzvar darülmöminə - əmirlərlə sözü bir olan oranın hakimi Qubad xan Qacarın yanında toplaşdılar, cənnətməkan şahın zamanında Azərbaycan və Şirvanın mötəbər vəziri Mirzə Ətaullahın oğlu, indi isə Mürşüdqulu xanın vəziri, mütləq ixtiyar sahibi və bu hadisələrin iştirakçısı olan Mirzə Əhmədi Herat darüssəltənəsinə yolladılar, əzəmətli xanlara və mötəbər şamlılara bir daha tapşırdılar: "Başqa fikri başınızdan silib atın, faydasız yerə səy etməyin. Əgər bütün şamlı tayfası xoşbəxt şahzadənin Qəzvinə göndərilməsinə razı olsa belə, biz canımız və bütün var-dövlətimizlə qoymarıq ki, bu iddia baş tutmasın. Biz İraq yolunun ortasında olan Səbzvarda qətiyyətlə dayanıb müntəzir olaraq ki, əgər şamlı tayfası səltənət mücrüsünün o qiymətli gövhərini əldən vermiş olsa, biz himmətin və iqlalın qüvvəsi ilə onu əlimizə alaq, Xorasanda iftixar bayrağı qaldıraq".

Əliqulu xan bu sözlərdən narahat olub, atasını məqsədinə yetmədən geri qaytarmağa çalışdı. Oğlunun və Xorasan əmir və döyüşçülərinin bu məsələdə israrlı olduqlarını görən Sultan Hüseyn xan məcbur olub geriyə dönmə yüyənini ələ alaraq istər-istəməz yola üz tutdu. O, Səbzvarda əzəmətli əmirlərlə görüşüb xeyli söhbətləşdi, bu məsələnin xeyir və zərəri barədə danışıqlar apardı,

ali dərgaha çatandan sonra məsələni narazılıq olmadan necə ərz edəcəyi xüsusda düşüncələrə daldı ki, özünün və oğlunun etibarı aradan getməsin. Əmirlərlə onun arasında davam edən bu söhbətlər hələ bitməmişdi ki, Məryəm şanlı Məhdülyanın zəif əhd və sınıq peymanlı əmirlər tərəfindən qətlə yetirilməsi xəbərini çatdırdılar. Baş verən bu hadisədən sonra dövlət başçıları məsləhət gördülər ki, əlahəzrət şahzadənin gətirilməsi dayandırılsın və o, qoy hələlik Herat darüssəltənəsində qalsın. Sultan Hüseyn xana məktub yazaraq onu baş verən məsələdən agah etdilər və geri qayıtması haqda sərəncam göndərildi. Səbzvarda məktubu alan Hüseyn xan İraqa yollandı, əmirlərinsə hər biri çıxıb öz yerinə getdi. Amma, Əliqulu xan və Mürşüdqulu xan bu vaqiəni eşitdikdən sonra əksəriyyəti şamlı və ustaclı tayfasından olan bütün Xorasan əmirləriylə məclis (kənqaş) qurub yeni əhd-peyman bağladılar, əlahəzrəti Xorasanda özləri üçün sərmayə kimi hifz etdilər, çünki o vaxt əksəriyyəti təkəli və türkman tayfasından olan dövlət adamlarının şamlılar və ustaclılarla ədavətləri olduğundan şahzadəni onlara etibar etmək olmazdı. Qoy Əliqulu xanın söz və məsləhətindən kənara çıxmasınlar, onu xanlar xanı, özlərinin böyüyü və ağsaqqalı bilsinlər.

Mürtəzaqulu xan və adamlarından başqa Xorasan əmirlərinin əksəriyyəti öz itaət qədəmlərini irəli ataraq iki dəstəyə bölünüb, Heratda və müqəddəs Məşhəddə iki alişan xanın ətrafına toplaşdılar, onların arasındakı vəhşət və düşmənçilik gün-gündən çoxaldı. Nəticədə, aşağıda yazılacağı kimi, onların arasında dava-dalaş başladı. Bu haqda, yeri çatanda məlumat veriləcəkdir.

ALÇAQ BİR HADİSƏNİN BAŞ VERMƏSİ - MƏRYƏM ŞAN-ŞÖVKƏTLİ MƏHDÜLYANIN FİTNƏ-FƏSAD NƏTİCƏSİNDƏ ÖLDÜRÜLMƏSİNİN ZİKRİ

Qəzanın məsləhəti, asimanın təqdiri və ruzigarın təcrübəsindən məlum olur ki, hər kamalın öz zavalı və hər nişatın öz məlalı vardır.

Cənnətməkan şahın hakimiyyəti zamanı qoşunun və rəiyyətin rahatlıq və rifahının təmin olunduğu ölkənin abadanlığı, şəhərlərin sakitliyi, qulamların asayişinin olduqca yüksəldiyi bir vaxtda dövlət hadisələrinin nəhsliyi və əhalinin qudurğanlığı üzündən bu vəziyyət zavala uğradı. Qızılbaş tayfası müqəddəs

səfəvi xanədanı üzvləri ilə mürid və pis münasibətlərdə olub sədaqət yolunun yolçuları kimi hərəkət etsələr də, şeytani fitnəkarlığa uyaraq, öz nəfsani istəkləri və üstün olmaları kimi arzuları səbəbindən birlik və ittifaq yolundan kənara çıxdılar, get-gedə həmin vəfalı insanlara və saf əqidəli sufilərə sədaqətsizlik meyli sirayət etdi. Onlar ədəbə və sədaqətə zidd olan işlərə cəsarət edib, cahilliyə, fitnə-fəsada və xətakarlığa başladılar, nəticədə özləri də müxtəlif bəlalara məruz qaldılar. Onların pis xasiyyətli cahil və fitnəkarlarından əqidə və sədaqətə zidd olan işlər göründü, nəticədə isə elə bu səbəbdən də öz əməllərinin cəzasına giriftar oldular, müxtəlif bəlalar gördülər. onların nemətə ağ olmaları (kofrannemət) bu şerdə deyildiyi kimi:

Nəsildə ağılsızlıq etsə kimsə,
Şərəf qalmaz böyükdə və kiçikdə[336]

sələflərdən xələflərə keçərək bütün oymaqlara yayıldı. Elə buna görə də o tayfaya böyük qarışıqlıq düşdü.

Hal-hazırda, hicri tarixlə min iyirmi beşinci ildir (miladi 1616) və həmin hadisələrin üstündən qırx beş il keçmişdir, lakin (miladi 1616) o adamların ədəbsiz hərəkətlərindən onların sağ qalan adamları hal-hazırda da danışırlar və bu adamlar öz atalarının günahkar əməllərindən əzab-əziyyət içindədirlər. Həmin fitnə-fəsad əhli olan kinli adamların ən qəbahətli əməli zamanın mələkəsi dövranın iffətlisi, Zəhranın Zöhrəsi, seyyidə qadınların gözəl törəməsi (zürriyyə) Məryəm şanlı Məhdülya Xeyrənnisa bəyimin qətlidir.

Kamyab nəvvabın (Məhəmməd Xodabəndənin - Ş.F.) möhtərəm hərəmi və ali nəsilli şahzadələrin məşhur (macedə) anası olmasını nəzərə almayan [canilər] əql və salamatlığın (afiyət) düzgün yolundan çıxdılar, öz vəziyyətlərin düzəlməsi və müvəqqəti rütbələrinin qorunmasından ötrü etdikləri əməlin alçaqlığını görmədilər, dünya və axirətdən mədəd (xezlan) aramadan və etdikləri ədəbsizliyin nəticəsindən qorxmadan elə bir qəbih əmələ

[336] Beytin farscası:
Ço əz qovmi yeki bidaneşi kərd,
Nə keh-ra mənzelət manəd, nə meh-ra.

cəsarət etdilər. Hadisənin təfsilatı belədir: Nəvvab Məhdülya öz adlı-sanlı ərinin gözlərinin zəifliyi və şahzadələrin yaşlarının az olması səbəbindən səltənət və şahlıq namusunun işini özünün qeyrət işi bilərək, dövlət işlərinin aparılmasında, mülk və millət qayda-qanununun nizamlanmasında iştirak edir, mülk və millət məsələlərinin nizama düşməsi üçün çalışır, iqtidarlı sultanların qanun-qayda və ədab-ərkanına uyğun cah-cəlal sahibi (şah - Ş.F.) tərəfindən sadir olan hər əmr və fərmanın vaxtında yubadılmadan icra olunmasını istəyirdi. Bu işin, özləri haqqında yüksək fikirdə olan əmirlərin məzaclarına uyğun olmaması, həmçinin Şahrux xanın, Pirə Məhəmməd xanın və Qorxmaz xanın Mazandaranda baş verən hadisələrdən narazılıqları, onların məsləhəti olmadan Mirzə xanın öldürülməsi sabiq narazılıqları daha da artırdı. Əmirlər öz izzət və etibarlarını çoxaltmaq, azalmaqda olan qüdrət və iqtidarlarını isə artırmaq fikrində idilər. Bu vaxt Kasan əhalisi divana gələrək, orada hakim olan və tamahkarlığı həddən aşan Məhəmməd xan Türkmanın kobud (nahəmvar) rəfdarından şikayətləndilər. Səltənət idarəsindən onun müamilə məsələlərinin araşdırılması xüsusunda hökm verildi. Divan işçiləri araşdıraraq xanın zülmkarlıq və yekəxanalığını ifşa etdilər. Danlağa məruz qalan xanın ülkasının dəyişdirilməsi haqqında ali hökm sadir oldu. Məhəmməd xan böyük əmirlərdən və dövlətin sütunlarından biri idi. Bu məsələnin baş verməsi onun etibarının aradan getməsi deməkdi. Xan bitab olub bu hadisədən qurtulmağa xeyli çalışsa da, nəvvab Məhdülya da dövlət və səltənət namusu naminə onun bağışlanılmasının dövlətin naqisliyi və padşahın iqtidarının karsızlığı əlaməti hesab etdi, xanın xahişi nəzərə alınmadı. Bu hadisədən əzilən Məhəmməd xan başqa fitnəkar əmirlərlə əlbir oldu. Onlar hiyləgərlik və nifaq qapılan açdılar. Dövlətin dayaqlar dayağı (rokne-rəkin) olan və əhali arasında nəfsinin sağlamlığı, məsləhətinin faydalılığı, əql və bacarığının [çoxluğu] ilə şöhrət (eştehar) tapan Qulu bəy Əfşar Qorçibaşını da düzgün yoldan azdırıb bu məsələ xüsusunda tədbir fikirləşməyə başladılar. Onlar bilirdilər ki, nə qədər ki, nəvvab Məhdülya sağdır, onu öz ad-sanlı fərzəndlərindən və ərindən uzaqlaşdırmaq mümkün olmayacaq. O, nə öz hərəkətindən (tövr), nə də öz iqtidarından əl çəkməyəcəkdir. Buna görə də, onlar Məhdülyanı aradan götürmək məqsədi ilə gizlicə ayrı-ayrı oymaqların qürurlu əmirlərini gözəl-gözəl vədlərlə aldadıb özlərinə əlbir etdilər.

Xülasə, xudpəsənd və sadəlövh qızılbaş tayfa əmirləri yersiz bəhanələrlə, o cümlədən mazandaranlıların tərbiyət olunmaları, vilayət hakimlərinin dəyişilməsini (təvfiz), onlara vəzifə və ənamlar verilməsini, hərəmxana xəzinələrinin Mazandarana aparılması kimi töhmət və iftiralarla dolu və həqiqətdən uzaq olan yalanları əsas tutaraq bir-biriləri ilə birləşdilər, Məhdülyanı yox etmək fikrinə düşdülər.

Bu qəsdi həyata keçirilməkdən ötrü hər tayfanın əyan əmirləri və böyük adamları mübarək dövlətxanın Çehelsütun sarayında toplaşıb şahın hüzurunda ərz etdilər: "Məryəm şanlı Məhdülyanın əmirlər və dövlət başçıları ilə kobud davranışı, mazandaranlıları himayə etməsi, dövlət işlərinə müdaxiləsi sədaqətli tayfa ağsaqqalları tərəfindən bəyənilmir. Hər tayfadan olan cahil və fitnəkar adamlar daim ona qarşı çıxır, tədbir edirlər. Qoy kamyab nəvvab bu haqda savablı fikir sahibi olsun, əks halda tezliklə böyük fəsad yarana bilər." Bu xəbər hərəmxanaya məhrəm adamlar vasitəsilə Məhdülyaya çatdıqda o da qeyrətinin və od-alovunun çoxluğundan əmirlərə sərt cavablar verdi. Əzəmətli əmirlər bu söhbətdən pərişan olub qəzəblə dövlətxanadan çıxdılar və fitnəkar bir tədbir görməyə başladılar. Xainlərdən biri elə həmin gün nəvvabın vəziri Əmir Qəvaməddin Şiraziyə yaxın adam olan Mirşah Qazi Müstovfini məvacib almaq bəhanəsi ilə yaraladı. Ertəsi gün təkəbbürlü və fitnəkar əmirlər Qəzvinin Səadətabad bağında yığışıb Məhdülyanı aradan götürmək barədə əlbir oldular. Əmirlərdən İsgəndər şanlı nəvvabın xalası oğlu (xalezade) və şahın etimadlı adamı, həmçinin təkəli oymağının ağsaqqalı, dövlət başçılarından biri olan Müseyib xan Şərəfəddinoğlu Təkəlini də bu işdə özlərinə müttəfiq etdilər. Bu ittifaq barədə xəbər yayıldıqda İsgəndər şanlı nəvvab və Məryəmməkan Məhdülya onu hümayun dövlətxanaya çağırıb dedilər: "Əgər əmirlər hücum edərlərsə, o, şah dövlətxanasındakı sadiq adamları öz ətrafına toplayıb, onlara qarşı qoy tədbir görsün". Müseyib xan həlim xasiyyətli və gözütox adam olduğundan bu işin qarşısını ala bilmədi, gedib öz evində sakit gün keçirməyi qərara aldı. Sədaqətsiz əmirlər Çələbi bəy Mehmandar Təkəlini onun ardınca yolladılarsa da, o, əvvəlcə bir neçə üzürxahlıq edib onların yanına getməkdən imtina etdi. Əmirbr israr etdikləri və yanına çoxlu adam göndərdiklərinə görə Müseyib xan onlarla razılaşdı, bağa gedib, onlara qoşuldu. Bütün müttəfiqlər bir nəfəri hümayun dövlətxanaya göndərib şaha belə ərz etdilər: "Şaha

məlumdur ki, qadınlar öz ağıllarının azlığı, rəylərinin zəifliyi və inadkarlıqları ilə məşhurdurlar. Nəvvab Məhdülya da həmişə biz dövlətxah adamların əleyhinə gedərək, dövlət işlərinin nizamlanması xüsusundakı məsləhətlərimizə razılıqla yanaşmamış, əzamətli dövlət ağsaqqalarının göstərişlərinə əməl etməmiş və bizi təhqir etmişdir. Bizdən indiyə kimi bir ədəbsizlik və qorxaqlıq baş verməmişdir və bundan sonra da biz qorxmaz olacağıq. İndı tərəflər arasında inadkarlıq yaranmış, aradan pərdə götürülmüşdür və Məhdülya tayfa ağsaqqalarını məzəmmət etmişdir. O, bizi nifaq əhli sayıb, müxtəlif təhdidlərə əl atır. Belə olan halda biz necə arxayın ola bilərik? Biz istəmirik ki, "səltənətdə olan qızılbaş xanları arasında bir adam yoxdur ki, övrətlərin dövlət işlərinə dəxalət etməsinin qarşısını ala bilsin" xəbəri başqa padşahlar arasında yayılsın. Sözün qısası budur ki, Məhdülyanın dövlət və şahlıq işlərinə dəxaləti və idarəçiliyi bütün qızılbaş tayfalarının əleyhinə yönəlmişdir və biz heç bir vəchlə buna razı ola bilmərik".

İsgəndər şanlı nəvvab öz alicənab əcdadından ona yadigar qalan mülayim təbiət, dərvişanə xislət, nəfs toxluğu və məsləhətə qulaq asmaq xasiyyətinə malik olduğundan, övliya və Allah əhlinə xas mülayimliklə əmirlərə dedi: "Əgər siz onun dövlət işlərinə dəxalət etməsini istəmirsinizsə, belə razılaşaq ki, o, bundan sonra qoy mülki işlərə qarışmasın. Əgər, Məhdülya bununla razılaşmazsa, mənim şah atamın anamı Quma yollayıb uzun vaxt orada saxladığı kimi hərəkət edərik və onu Quma yollayarıq ki, gedib orada bir müddət öz oğlunun yanında yaşasın. Əgər onun Qumda qalması da mümkün olmazsa, onu öz mülkü və atasının evi olan Mazandarana yollayarıq. Əgər bu da olmasa, mən öz xoşumla səltənəti tərk edib öz azyaşlı övladlarımla Şiraza gedərəm və siz kimi istəsəniz özünüzə şah təyin edərsiniz. Mən o günahsız seyid qadının edamına razı ola bilmərəm".

Həmin insafsız fitnəkarlar zülm qapılarını açıb, həddən artıq yaramaz sözlər dedilər. Amma nəvvab Məhdülya qeyrət və tündməcazlığının çoxluğundan İsgəndər şanlı nəvvabın bu mülayim hərəkəli ilə razılaşmadı. O, əmirlərin qarşısından geri çəkilmədi və dedi:

"Nə qədər ki, sağam öz xasiyyətimi dəyişməyəcəm və tutduğum yoldan geri çəkilməyəcəm. Əgər qızılbaşlar padşahın dedikləri ilə razılaşmayıb, onun möhtərəm hərəmini zülmlə qətl

etməyə iqdam edərlərsə, hökm böyük Allahındır,[337] mən dörd şahzadə anası öz qanımın sizdən alınmasını Allah-təalanın izni ilə övladlarıma tapşıraram".

Düzgün danışan adamlardan eşitmişəm ki, o vaxt Məhdülyanın vəziri Qəvaməddin Hüseyn Şirazi gəlib ona ərz etdi:

"Gərək Məhdülya əmr etsin ki, xəzinələrdən Çehelsütun sarayına qızıl kisələri gətirilsin və qorçilərə qızıl paylanacağı halda xəbər verilsin. Qorçilər qızıl almaqdan ötrü dövlətxanaya gəldikləri zaman əmirlərin arasına təfriqə daşı düşəcək" (yəni onlar bir-birilərindən ayrılacaqlar - Ş.F.).

O şir ürəkli qadın qeyrətlə cavab verdi: "Ey gözəl tədbirli Asəf! Sizin ki, saraydan xaricdə baş verən məsələdən xəbəriniz vardır. Gərək elə tədbirə əmirlərin [bizim əleyhimizə] birləşməsindən əvvəl əl atılaydı. İndi ki, iş belə vəziyyətə gəlib çatıb, bu mümkün olan tədbir deyildir. Qızıl gücünə şahlıq iqtidarını ələ almaq alçaqlıqdır. Mən buna razı deyiləm. Hər şeyi Allahın qəza-qədəri həll edir".

Məhdülyanın, anasının və bir dəstə Mazandaran əhlinin qətli:

Xülasə, əmirlər hər oymaqdan bir neçə nəfər ayırıb öz dəhşətli qərarını yerinə yetirmək üçün saraya yolladılar. Sədrəddin xan Səfəvi, Hüseynəli bəy Əlkəsənoğlu Zülqədər, İmamqulu Mirzə Mosullu, İsgəndər şanlı nəvvabın anası Sultanımın bir adamı da onların arasında idi. Onlar hümayun dövlətxanaya gəlib, qorxu-hürküsüz hərəmxanaya daxil oldular, həmin əməllisaleh seyid qadını tutub boğdular. Bununla kifayətlənməyib, onlar nəvvab Məhdülyanın qoca, abid anasının mənzilinə soxulub onu və Mazandarandan gəlib saraya yaxın yerdə yaşayan bir neçə qohumunu, həmçinin bir neçə Mazandaran əyanını da qətl etdilər. Onlar nəvvab Məhdülyanın xəzinədən öz anası və qohumlarına çoxlu pul və mal vermiş olduğu gümanı ilə onun sandıqlarını çölə çıxarıb, içindəki bütün şeyləri tarac etdilər. Başqa camaat da küçə və məhəllələrdə yaşayan bütün mazandaranlılarla elə rəftar etdilər ki, onları lüt-üryan qoydular. Hər dəqiqə qəbahət və həyasızlıq artmaqda idi.

[337] İfadənin ərəbcəsi: "əl-hökmu-l-lahi-l-ali-l-kəbiri"

Bu hadisələr baş verərkən vəzir Mirzə Salman əmirlərin arasında yox idi. O, Xəlil xan Əfşarın evində olduğundan özünə bəraət qazana bildi.

Xülasə, bəziləri sadəlövh, xeyrxah və saf etiqad sahibləri olan həmin ağılsız və nadan əmirlər bir necə etibar etdiklə adama inandıqlarından o amansız əmələ əl atmış oldular. Günün axırında İsgəndər şanlı nəvvab üləmaları çağırıb onlara öldürdürülənlərin dəfninə başlamalarını tapşırdı. Üləmalar o gecə bu işə başlayıb, onları İmamzadə Hüseynin - ona və əcdadına salam olsun - müqəddəs astanəsində dəfn etdilər.

Bu hadisədən sonra əmirlər Xorasana Sultan Hüseyn xan və Əliqulu xanın yanına adam yollayıb onları baş verən hadisədən xəbərdar etdilər. Belə qərara gəldilər ki, kamlı şahzadə heç yana çıxmasın və Heratda oturub gözləsin, amma Sultan Hüseyn xan geri qayıtsın.

Amma, cahan nəvvabı (nəvvabe-cahanbani) Sultan Həmzə Mirzə bu üsyan və qovğa zamanı yaşının az olması səbəbindən dərk edə bilmədi ki, onu məşhur atasının vəliəhdi bilən qızılbaş əmirləri vəlinemət sülaləyə qarşı belə hörmətsizliyi rəva bilərlər. [Həmzə Mirzə] öz halının qeydinə qaldı, inandığı bir neçə fədakar mülazimi ilə hərəmxananın damına qalxdı, özünə ehtiyaca görə azuqə topladı, damın yolunu torpaqla bağladı, oranı qalaya çevirdi, bir neçə gün qorunmaq və qaladarlıq etməkdən ötrü tüfəng və başqa silahlarla yaraqlandı. O, əmirlər sarıdan tam arxayın olmayınca damdan yerə enməmək qərarına gəlmişdi. [Düşündü ki,] əgər əmirlər ona qarşı çıxsalar, öz gizli niyyətinə dərhal (filfovr) yetə bilməsinlər. Belə qərara gəldi ki, onlardan arxayınlaşmayınca yerə enməsin. Yoldaşlarından olan Vəli Xəlifənin oğlu İsmayılqulu bəy Şamlı ona tam sədaqətlə xidmət etdiyi üçün "Yoldaşbaşı" ləqəbini aldı.

Xülasə, nəvvab Məhdülyanın - daha ona "nəvvabe-mərhum" deyiləcəkdir - qətlindən sonra əmirlər hümayun dövlətxanaya toplaşdılar. İsgəndər şanlı nəvvabın hərəmxanasına bir adam yollayıb ona belə ərz etdilər:

Misra

Dosta əvvəldə olan mehrü vəfa qalmaqda![338]

[338] Misranın farscası:

"Bizim şahla bağladığımız əhd-peyman qırılmamış və sədəməyə məruz qalmamışdır. Təmənna edirik ki, şərafətli nəvvab (yəni şah Məhəmməd Xudabəndə - Ş.F.) qəzavü-qədər nəticəsində baş vermiş bu qarşısıalınmaz hadisəyə görə bizi cəzalandırmasın".

Onlar belə üzrxahlıq etməklə özlərinə haqq qazandırmağa çalışdılar, üzrxahlıq məqamına gəldilər, şahın mülazimi kimi saxlanmalarını xahiş etdilər. Şərafətli nəvvab uzaqgörənliyindən onları məzəmmətə başlamadı, amma əmirlər iki-üç gün mülazim kimi tanınmadılar. Onlar bu müddətdən sonra [yenidən] dövlətxanaya toplaşıb, üləma və müctəhidləri də dəvət etdilər, üləmalar qarşısında onların hər biri nə qədər ki, İsgəndər şanlı nəvvab sağdır, heç kimi özlərinə padşah etməyəcəyik" deyib əlli bir dəfə and içdilər.

Sonra əmirlər Sultan Həmzə Mirzəni valiəhd kimi qəbul etdilər, bu gündən sonra şahın mübarək sözlərindən çıxmayacaqları barədə söz verdilər, üləma və müctəhidlərin iştirakı ilə "qəsəmnamə"[339] hazırlayıb və onu onların möhrü ilə möhürləyib şaha yolladılar. İsgəndər şanlı nəvvab əmirlərə qarşı ikrah [hissi ilə] saraya (Çehelsütün sarayına - Ş.F.) gəlib, ayaqlarının öpülməsinə razılıq verdi. Əmirlər şaha öz batini əqidə və sungəriliklərini dəfələrlə izhar etdilər. İsgəndər şanlı nəvvab da baş verən bu qəziyyənin qəza-qədər nəticəsində olduğunu dilinə gətirdi. Əmirlər məsləhətamiz sözlər ilə şaha bir qədər təsəlli verdilər. Amma özünün bir neçə fədakar (fədəvi) adamı ilə orada olan cahan nəvvabı (Sultan Həmzə Mirzə - Ş.F.) əmirlərə etimad göstərmədi. Əmirlər bir daha əhd-peyman etdilər və İsgəndər şanlı nəvvabdan xahiş etdilər ki, cahanbani nəvvabı onların saf əqidələrindən arxayın etsin.

Kamyab nəvvab əmirlərin iltimasını şərafətli oğluna çatdırdı, xoş sözlərlə onu arxayın etdi və əmirlər gəlib onun ayağını öpməklə şərəfləndilər. Əmirlərin məsləhəti ilə Mirzə Salmanı Xəlil xanın evindən çıxarıb gətirdilər və o, heç bir mübahisə olmadan vəzarət və sahibdivan vəzifəsinə təyin edildi, etibarlı və istiqlalı əvvəlkindən üstün oldu.

Əmirlər o neçə gün ərzində ləyaqət və cidd-cəhdlə ali rütbəli şaha və uca məqamlı şahzadəyə gözəl xidmət göstərdilər,

---

Be həman mehr-o vəfayim ke, bəstim be dust.

[339] And sənədi – Ş.F.

lakin o qəddarlardan həqiqi qisasçı olan Allah tədricən elə qisas aldı ki,

Misra

Bəsirət sahibinin gözləri mat oldu buna[340]

tədriclə intiqam alındı və onlara üz verən bəlalar barədə inşallah bu [kitabın] zeylində o [əmirlərin] hərəsi haqqında, yeri düşdükcə, məlumat veriləcək, xüsusilə ədalət şüarlı, kamkar, ölkələr alan əlahəzrət zilləllah şah (Şah Abbas Beyt - Ş.F.):

Beyt

Bu cahan şaddır - ədaləti var,
Hamı asudədir ki, dövləti var[341]

haqqında yazılacaqdır.

HÜMAYUN [ŞAHIN] (ŞAH MƏHƏMMƏD XUDABƏNDƏNİN - Ş.F.) AZƏRBAYCANA YÜRÜŞÜNÜN VƏ O SƏFƏR ZAMANI ALLAHIN TƏQDİRİ İLƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Xoy, Səlmas, Urmi, Uşni ülkaları və Marağanın bəzi yerləri müxalif kürdlərin əlinə keçdiyindən onlar rumiyyə [qoşununun] himayəsi ilə məmləkətin ətraf yerinə basqınlar edirdilər. Gürcüstan hakimlərinin paytaxtı olan Tiflis və Qori qalaları rumiyyənin əlinə keçmiş, Osman paşa Dərbəndqalasında yerləşmişdi. Şəki və Şabran ləzgiləri Bürhanın[342] oğlunun başına yığışıb Osman paşanın və Dağıstan hakimlərinin köməyi ilə Şirvan məmləkətinə basqınlar edir və qızılbaş əmirlərinin həmin ölkədə rahat yaşamalarına imkan vermirdilər. Rumilər o diyarı ələ

[340] Misranın farscası:
Ke xire mand dər u dideye-ulul-əbsar.
[341] Beytin farscası:
Cəhane-xorrəm əz ədalәte-ust,
Həme asudegi ze dövlәte-ust.
[342] Şirvan hakimi Bürhanəddin - Ş.F.

keçirməyi qərara almışdılar və Ərzrumda əyləşən Rum ləşkərinin sərdarı Bəhram paşanı otuz min əsgər, ərzaq və yaraqla Şirvan qalalarını tutmağa yollamışdı və özü də gələcək səfərə hazırlaşırdı. Dövlət başçıları belə məsləhət gördülər ki, zəfərli ordu Azərbaycana tərəf hərəkət edib bir müddət əbədi dövlətin Təbriz darüssəltənətində dayansın və irsi məmləkətləri müxaliflərin hücumlarından qorusun, baş verə biləcək hadisələrin önü tədbirlə, qol qüvvəsi və cəbr qılıncı ilə alınsın. Əmir Həmzə xan Ustaclı, Vəli Xəlifə Şamlı, Şahqulu Sultan Qarınca Ustaclı və başqa ölkə əmirləri ali sarayda idilər. [Şah] Xorasan əmirləri arasında bir neçə dəyişiklik edib, həmin əmirlərə orada ülkalar verərək öz yerlərinə yolladı.

Şahın məiyyəti isə xoşbəxt bir saatda Qəzvin darülsəltənəsindən hərəkət edib, mənzil-mənzil tələsmədən yol qət edərək, gəlib Təbriz darüssəltənəsinə yetişdilər. Əmir xan və onun tabeliyindəki əmirlər onları ehtiramla qarşıladılar. Təbrizin sahibləri, əyanlan, böyük-kiçiyi, qocalı-cavanı şah qoşununun qarşısına çıxdılar və şah şahzadə ilə Təbrizin qədim dövlətxanasında, dövlətin paytaxtında, öz əcdadlarının səadətli məskənində iqamət etdi. Əmir xana müxtəlif inayətlər olundu və o, bu dudmanın (xanədanın - Ş.F.) imtiyazlı adamlarından birinə çevrildi. Cənnətməkan şahın pak qızı Fatimə Sultarı bəyim ona ərə verildi və kəbinləri kəsildi. Bu arada tatar Məhəmməd Gəray xarını gəlməsi barədə Şirvan tərəfdən xəbər çatdı. Hadisə belə olmuşdur: Əhali arasında deyildiyinə görə, Məhəmməd Gəray xana belə xəbər çatmışdı ki, Adil Gəray xana qızılbaş padşahı izzət və ehtiram göstərərək, onu öz ölkəsinə yola salmağı qərara almışdır və Adil Gəray hal-hazırda şahanə dövlətxanədə yaşamaqdadır. Buna görə də, [Məhəmməd Gəray xan] Adil Gəray xanın anasını şahanə töhfə və hədiyyələr və bir dəstə etibarlı adamla, şəhriyarn iltifatı sayəsində Dərbənd-Şabran yolu ilə əziz oğlunu öz vilayətinə gətirmək üçün yola salmışdı ki, bu gündən başlayaraq arada məhəbbət və dostluq münasibəti qorunub saxlanılsın. Lakin, bunun ardınca Adil Gərəyin öldürülmə xəbəri yetişdi və eşidildi ki, tatar padşahının, yaxud da Rum xandgarının hökmü, ya da işarəsi ilə Adil Gəray xanın intiqamını almaq və qənimət əldə etmək üçün Cuci nəslindən olan tatar sultanları və Adil Gərayın qardaşları Qazi Gəray, Səfi Gəray, Səadət Gəray və ağır qoşunla Şirvana gəlməkdədir. Onlar Dərbəndə, Osman paşanın yanına çatanda Məhəmməd Xəlifə bu barədə padşaha ərz etdi. Yığışıb belə qərara gəldilər ki, nəvvab şah və

şahzadə həmin darüssəltənədə qışlasınlar, Mirzə Salman isə əmirlər və qoşun başçıları ilə Şirvana gedib oranı tatar ləşkərinin hücumlarından müdafiə etsin. Əmirlər Mirzə Salmanla birlikdə elə də etdilər. Xəlil xan Əfşarı, bəzi ağsaqqalları və münasib adamları şah və şahzadənin xidmətində saxlayıb, Məhəmməd Xəlifəni zəfərli ordunun gəlişindən xəbərdar etdilər.

Məhəmməd Xəlifənin Şirvan cəngində öldürülməsi:

Amma əmirlər hələ gedib Qarabağa çatmamışdılar kı, tatar sultanları böyük qoşunla Şirvana gəldilər. Şücaətli və igid adam olan Məhəmməd Xəlifə Zülqədər qaçmağı özünə layiq bilməyərək, igid ləşkəri ilə müxaliflərin qarşısına çıxdı. Tərəflər arasında böyük cəng oldu. Qızılbaş qoşunu müxalif qoşundan zəif olduğundan məğlubiyyətə uğradı və Məhəmməd Xəlifə qoşunun bir çox dilavərləri ilə birlikdə öldürüldü, sağ qalanlar isə Şirvandan çıxdılar. Tatarlar Şirvan və Qarahağda çox dağıntı törətdilər, müsəlmanların çoxlu qadın və qızını əsir apardılar, xeyli basqınlar edib qarətə başladılar. Bu hadisədən sonra Məhəmməd Gəray çoxlu qənimət ələ keçirən tatarların bir dəstəsi ilə, qızılbaş qoşununa kömək gəldiyini eşidib, öz vilayətlərinə döndülər. Qazi Gəray isə özünün iki-üç qardaşı və döyüşçüləri ilə Osman paşaya kömək üçün Dağıstan və Dəbənddə qaldılar. Paymal olan Şirvan əhalisinin bir hissəsi Osman paşanın yanına getdi, Şirvan dağlılarının digər hissəsi isə Xaxmirdə Bürhanın oğlunun ətrafına toplandı. Mirzə və əmirlər Şirvana gələrək baş verən vaqiəni eşitdilər. Əmir xan Türkman Xaxmirdə toplaşan Şirvan və Dağıstan müxaliflərini dəf etməkdən ötrü hücuma keçdisə də, bir uğur əldə etmədən geri qayıtdı. Şamlı və ustaclı qızılbaş əmirlərinin bir neçəsi Şahrux xanla birlikdə əmir xana qarşı çıxdılar. Şahrux xan özü sərkərdə olmaq və döyüşə yollanmaq istədisə də bu hərəkət Əmir xana toxundu, onların arasında dava-dalaş düşdü. Əmir xan bu işin ləşkərin sərkərdəsi Mirzə Salmanın təhriki ilə olduğunu düşünüb onunla kobud danışdı. qızılbaş əmirləri iki dəstəyə ayrıldı, hər dəstə yaraqlanıb, bir-birilə döyüşə hazırlaşdı. Xeyirxah adam olan qorçibaşı araya girdi və onlar arasında barışıq oldu və Şahrux xan Xaxmirə getməkdən imtina etdi. Buna baxmayaraq, zahirən aralarında dava-dalaş başlanmamışdısa da daxilən ürəklərində bir-birlərinə qarşı nifaq atəşi alovlanmaqda idi.

Xülasə, əzəmətli əmirlər müxtəlif səbəblər üzündən, xüsusilə ölkənin viran edilməsi, azuqə çatışmazlığı, nifaqın meydana çıxması və ittifaqın olmaması səbəbindən Dərbənd qalasına hücum edib Osman paşanı dəf edərək Şirvanı yenidən geri qaytarmağı bacarmadılar. Şirvanı hər hansı bir əmirə təklif edirdilərsə də, heç kim onu qəbul etmirdi. Nəticədə, Təbrizə geri qayıdıb şah və şahzadənin xidmətinə gəldilər.

Bu il əksər yerlərdə qəhətlik baş verdi. Təbrizdə zəif və kasıb adamların çoxu acından öldü. Azərbaycanın, Qarabağın, İraqın və Gilanın çox yerində aclıq yarandı. Əhali çox əzab-əziyyətə düçar oldu.

SULTAN HÜSEYN XAN ŞAMLININ GETMƏSİNDƏN SONRA XORASANDABAŞ VERMİŞ HADİSƏLƏRİN ZİKRİ

Sabiqdə, gözəl xətli qələm yazmışdı ki, Sultan Hüseyn xan Durmuş xan Şamlının nəvəsidir. O, öz əsilzadəliyinə və əhaliyə etdiyi sadiq xidmətlərinə görə ali dərgahda məşhur şamlı tayfasının ağsaqqalı olmuşdu və onun razılıq və məsləhəti olmadan o tayfanın heç bir işi həll edilə bilməzdi. Amma onun oğlu Əliqulu xanın üsyan xəbəri mələkəyə çatdı, Məryəm şanlı nəvvab Məhdülya Hüseyn xanı məzəmmət etməyə başladı, onu Xorasana getməyə və padşah nişanlı əziz oğlunu Qəzvinə gətirməyə məcbur etdi. Mələkə [o üsyan hadisəsindən sonra] Hüseyn xan nəslinə iltifatsızlıq göstərərək, onun razılığı olmadan Xoşxəbər xan Şamlıya Fuşənc və Guryan hakimliyini verib, onu o səmtə rəvan etdi. Xan Guryanda Məryəm şanlı nəvvaba güvənib kobud hərəkətlərə başladı, get-gedə elə hərəkətlərini daha da dərinləşdirdi. Cənnətməkan şah zamanında hətta əzəmətli xanlar və bəylərbəyinin də elə hərəkət etməyə qüdrətləri çatmazdı. Amma, Xoşxəbər xan Əliqulu xanın ona nəsə bir zərər yetirəcəyini ehtimal etmirdi. Əliqulu xan da onun kobud hərəkətlərini hələlik qulaq ardına vururdu. Sultan Hüseyn xanın [Qəzvinə] getməsindən sonra Xorasan əmirlərinin əksəriyyətinin aləm şahzadəsinə tabe olmaları və onların Əliqulu xanla razılaşmalarından sonra Xoşxəbər xan öz təkəbbür və zülm bayrağını yuxarı qaldırdı. O, bütün Xorasanın işlərini özünün ixtiyar pəncəsinə keçirmək fikrinə düşmüşdü. Əliqulu xan xanın belə sərbəstliyinə dözməyərək, onu cəzalandarmaqdan ötrü Heratdan Guryana getdi və xan müqavimət edə bilməyib Guryandan Esfezara

qaçdı, Əliqulu xan isə bir dəstə döyüşçünü onun arxasınca yolladı. Yegan Sultan tərəfindən Esfezar hakimi olan Murad bəy Əfşar Xoşxəbər xanı himayə etdi və tərəflər arasında savaş oldu. Bir neçə nəfər öldürüldü və şamlılar geri qayıtdılar. Yegan Sultan isə Xoşxəbər xana izzət və ehtiram göstərib, onu İraqa rəvan etdi. Bundan qəzəblənən əmirülüməraya o hələ Guryanda olarkən mələkənin başına gəlmiş qəziyyə xəbəri yetişdi. Xan oradan Herat darüssəltənəsinə qayıdıb qışı orada keçirdi və doqquz yüz səksən səkkizinci (miladi 1580/81) balıq ilində Yegan Sultanı və yoldaşlarını cəzalandırmaq məqsədilə Herat darüssəltənəsindən çıxaraq Esfezara yollandı. Adı çəkilən Murad bəy onun hücum xəbərini eşidib fərar etdi və Fəraha getdi. Əliqulu xan isə Esfezarı şamlı tayfasına verib geri döndü.

Mürşüdqulu xanın Məşhəd hakimi Mürtəzaqulu xana məktubu:

Amma, müqəddəs Məşhədin hakimi və Xorasanın yarısının bəylərbəyisi olan Mürtəzaqulu xan Əliqulu xandan da çox əzəmət və iqtidar dükanını bəzəyib, onu saya almırdı, buna görə də onların arasında savaş hazırlığı görülməkdəydi. Sultan Hüseyn xanın getməsindən və Səbzvarda toplaşan əzəmətli əmirlərin dağılışmasından sonra Mürtəzaqulu xan öz adamlarından olan Səbzvar hakimi Qubadxan Qaçar üzərinə hücum və onun tənbeh olunması əzmi ilə bu ilin əvvəlində müqəddəs Məşhəddən çoxlu ləşkərlə yola düşdü, Səbzvar darülmömininə çatdı, çünki ittifaq xüsusunda Əliqulu xanla razılaşmaş Qubad xan Qaçar öz xanına iltifatsızlıq etmişdi. Qubad xan ona müqavimət göstərə bilməyərək, silahlı döyüşçülərin hərəkətə gəldiklərini gördükdən sonra peşiman oldu, üzə çıxdı. Mürtəzaqulu xan onu danlayıb özünün etibar bəzəyindən xaric etdi, özü ilə müqəddəs Məşhədə aparıb Səbzvar tabeliyindəki adamlardan birinə verdi.

Esfezardan qayıtdıqdan sonra bu xəbəri eşidən Əliqulu xanın qeyrət tonqalı şölələndi və o, gənc hümayun şahzadənin, yəni əlahəzrət zilləllah şahın ordusu ilə Mürtəzaqulu xanı cəzalandırmaq üçün, Herat darüssəltənəsindən çıxaraq, adamlarının tərəfdarı olan əmirləri toplamağa göndərdi. Əliqulu xanla razılığa gəlmiş olan Mürşüdqulu xan, Mahmud xan Sufioğlu, Vəlixan Çərxçi və başqa əmirlər gəlib ali orduya birləşdilər. Ali divanda Xorasanın bəzi əmirlərinin tiyullarında dəyişiklik edildiyindən Vəli Xəlifə Ovçu

Şamlını, Abdullah xan Ustaclının oğlu Əmir Həmzə xanı, Şahqulu Sultan Qarıncam və başqalarını Xorasana göndərmişdilər. Bu xəbər Əliqulu xanın ordusunda yayıldıqda ülkaları dəyişilən əmirlərinin hər biri Əliqulu, xanın ətəyindən yapışaraq əvvəlkindən daha artıq ona mütəi oldular. Buna görə də Abbas Mirzənin ordusunda böyük izdiham yarandı, Mürşüdqulu və başqa əmirlər Mürtəzaqulu xanı öz ittifaqlarından agah və xəbərdar etmək məqsədilə ona belə məzmunda bir məktub göndərdilər: "Bizlər və sizlər hamımız bu dərgahın dövlətxahlarıyıq, İsgəndər şanlı nəvvabı özümüzün mürşidi və vəlineməti bilirik, bu dərgaha qarşı müxalifətdə olmaq qətiyyən bizim xəyal səhifəmizdə yazılmamışdır. Bir halda ki, adlı-sanlı şahzadənin və ali nəsilli xanın razılığı ilə belimizə xidmət kəməri bağlamışıq, iki məsələnin baş verməsinin şahidi olmuşuq: Birincisi budur ki, Rum padşahı əvvəlki əhd-peyman sazişini pozaraq Azərbaycan və Şirvan məmləkətlərini fəth etməyə gəldiyindən, o sərhəddə fitnə və qarışıqlıq başlamış, bizim padşahımız isə İraq və Azərbaycan ləşkərləriylə onların fitnəkarlığını dəf etməyə məcbur olmuşdur. Özbək sultanları da fürsəti qənimət bilərək Xorasan məmləkətinə hücuma keçə biliblər. Herat darüssəltənəsi Xorasanın paytaxtı, aləm şahzadəsi isə bizlərin və sizlərin vəlineməti olduğundan o, bu torpaqda yerləşmişdir. Məqsədimizin mahiyyəti budur ki, əzəmətli əmirlər arasında razılıq və birlik olsun, küdurət və nifaq aradan çıxsın. Əgər, Allah göstərməsin, bir hadisə baş verərsə, padşah tərəfindən heç bir kömək gəlməyəcəkdir. Gərək hamımız bir-birimizlə yekdil olaq, vəlinemətimizin başına yığılaq, onun müqəddəs ordusu tərkibində düşmənlərini aradan qaldırmağa qalxaq. O həzrətin ləlləsi Əliqulu xanı da qüvvətli dövlətimizin məsləhətiylə ağsaqqalımız və xanlar xanı bilək, onun tapşırıq və məsləhətindən kənara çıxmayaq. Əgər bizim aramızdakı nifaq və ayrılıq özbək müxaliflərinin qulaqlarına çatarsa, hərəkətində cürətlənib müxtəlif fitnə-fəsada səbəb ola bilərlər və bu mülkdə qarışıqlıq olar:

Dövlət gücü ittifaq iləndir,
Gücsüzlük isə nifaq iləndir.[343]

[343] Beytin farscası:
"Dövlət həme z-ettefaq xizəd,
Bidövləti əz nefaq xizəd".

İkinci məsələ isə budur: Məlumdur ki, ali dərgahda səltənət işlərinin ipi və dövlət məsələlərinin qaydaya salınması vəzir Mirzə Salmanın və bir neçə əmirin əlindədir. Onlar bizim tiyullarımızda daim dəyişiklik edir, etibarımızı azaltmağa çalışırlar. Bizlər və sizlər xidmətdə bəlkə də ata-babalarımızdan, əsil-nəsildəsə onlardan əskik deyil, hətta ola bilsin ki, xidmət və sədaqətdə hamımız onlardan irəli, saydasa onlardan çoxuq. Əgər İraq, Azərbaycan sərhədləri, Fars və Kirmanın işləri onların qüdrəti altında qalarsa, ola bilər ki, Xorasanın bütün işləri bizim ixtiyarımızda qalar və biz də dövlət və dinin məsləhət gördüyü hər işi həyata keçirərik. Bu məsələ Xorasanın əzəmətli əmirləri tərəfindən bəyənilmişdir və onlar adı çəkilən xanlar xanı ilə əhd və peyman bağlamışlar. İndi bu dövlətə layiqdir ki, o cənab da (Mürtəzaqulu xan - Ş.F.) başqa əmirlərlə razılığa gələrək, şahzadənin mülazimi olmaq və xanlar xanı ilə görüşmək izzətinə yetişsin, küdurət və nifaq qapılarını bağlasın, etibardan saldığı Qubad xandan üzr istəyərək onu Səbzvara göndərsin".

Amma, təkəbbürlü, özündən razı adam olan Mürtəzaqulu xanın bu sözlərdən xoşu gəlmədi. O, türkmanların pornak oymağındandı və təkəlilərlə pornakların şamlılar və ustaclılarla qədim ədavətləri vardı, onlara heç bir etimad etmirdilər. O, cavab məktubunda kobud ifadələr və çirkin sözlər yazıb gördərdi, mülayimlik və dostluq qapılarını təmamilə bağladı, baş verənləri İsgəndər şanlı nəvvaba qarşı üsyan və tüğyan adlandırıb özünü şahsevən, qarşı tərəfisə düşmən adlandırdı, hadisələr barədə alçaq sözlər yazıb ali saraya ərz etdi, bir-birinin ardınca Azərbaycana adamlar yolladı. Xülasə bu iki dəstə arasında inadkarlıq möhkəmləndi.

Məşhəd hakimi Mürtəzaqulu xanın Herat hakimi Əliqulu xanla cəngi:

Əliqulu xan və yoldaşları Mürtəzaqulu xanı dəf, Müqəddəs Məşhədi isə fəth etməyi qərara alıb, nizamlı ləşkərlə o tərəfə hücuma keçdilər. Xorasana gəlməkdə olan İraq əmirlərindən Vəli Xəlifə Şamlı hamıdan tez yetişib artıq Məşhədə yaxınlaşmışdı ki, onun yolu üstünə bir adam yollayaraq dayandırdılar. Cəng başlandı. Vəli Xəlifə məğlub olub, Mahmud xan Sufioğlunun mülazimlərinin

əliylə qətlə yetirildi. Onun öldürülməsindən sonra Əliqulu xan və yoldaşları müqəddəs Məşhədə çatdılar. Mürtəzaqulu xan Xəbuşan hakimi Budaq xan Qacar Çekəni, Nişahur hakimi Dərviş Məhəmməd xan Rumlu, Tun (?) hakimi Süleyman Xəlifə Türkman, Cam hakimi Şahqulu Sultan Əfşar və sair kimi özünün tabeliyindəki əmirləri toplayaraq cəngə hazırlaşdı. Şəhərdən kənarda o iki ağır qoşun bir-birilərinin qarşısında səf bəzədilər, tərəffərin igidləri döyüş meydanına qədəm basdılar. Çoxlu döyüşdən sonra şamlı və ustaclı tayfaları öz vuruş addımlarını irəli ataraq türkman ləşkərinin səfinə şığıdılar və qələbə çaldılar. O igidlərin ardıcıl həmlələrindən türkman tayfasının əhvalı pozuldu, Mürtəzaqulu xanın səbat və qərar ayağının möhkəmliyinə və onları cəngə təhrik etməsinə baxmayaraq, bunun faydası olmadı, məcbur olub döyüşdən əl çəkərək məğlubiyyət vadisinə yollandılar, dağınıq halda şəhərə qayıtdılar, bürc və barıları, habelə darvazaları möhkəmləndirməyə başladılar, qalanı mühafizədən ötrü qala silahları tədarük etdilər. Şamlılar və ustaclılar atlarını darvazayadək qovub onların bir çox döyüşçüsünü öldürdülər və yaraladılar. Bu mərəkədə bayrağın yanında dayanmış müqəddəs Məşhəd məscidinin mütəvvəllisi Mir Əbdülkərim onu tanımayan döyüşçülər tərəfindən öldürüldü. Türkmanlarla birlikdə olan Qubad xan Qacar özünü şamlıların arasına atdı. Cam hakimi Şahəli[344] Sultan Əfşar əsir alındı.

Vəli Xəlifənin öldürülməsi və Xorasandakı çaxnaşma xəbəri xəlifənin ardınca gəlməkdə olan Əmir Həmzə xana və Şahqulu Sultan Qarınca Ustaclıya çatdıqda onlar qayıdış təbilini döyüb İraqa qayıtdılar.

Xülasə, Əliqulu xan və Mürşüdqulu xan müqəddəs Məşhəd şəhərini mühasirəyə aldılar. Mühasirə dörd ay davam etsə də, fəlh və zəfər Öz üzünü onlara göstərmədi. Dərviş Məhəmməd xan müqəddəs Məşhəd hakiminin yanında olub Nişabur qalasını mühafizəsiz qoyduğu üçün Əliqulu xan və yoldaşları Nişabura getməyi və o vilayəti tutmağı, Mürtəzaqulu xanın ətrafındakı yerləri boşaltmağı və sonra onun dəfinə yollanmağı məsləhət bildilər. Bu məqsədlə də müqəddəs Məşhədin mühasirəsindən əl çəkərək Nişabura rəvan oldular. Bundan agah olan Dərviş Məhəmməd xan Mürtəzaqulu xandan izn alaraq Nişabura yollandı, həmin dəstədən

[344] Qeyd: Yuxarıda bu ad "Şahqulu" kimi yazılmışdı - Ş.F.

əvvəl özünü şəhərə çatdırdı, qaladarlıq fikrinə düşdü. Amma, Əliqulu xan və yoldaşları Nişapura çatdıqları vaxt Dərviş Məhəmməd xan qala hazırlığına hələ layiqincə hazırlaşa bilməmişdi. O, özünün çıxış yolunu itaət etməkdə gördü, əhd-peyman niyyəti ilə çölə çıxdı, şahzadə ilə görüş şərəfinə çatdı, ali nəsilli xanla görüşdən feyziyab oldu. Onlar Dərvişin Nişapurda qalmağını məsləhət bilməyib, həmin vilayəti Mürşüdqulu xana verdilər, xan isə öz etibarlı adamlarını qalada saxlayıb, Dərviş Məhəmməd xanla birlikdə Mürtəzaqulu xanın qardaşı Fərrux xanın əlində olan "Heydəriyyə türbəsi"nə yollandılar. Fərrux xan da Dərviş Məhəmməd xan kimi əhd-peymanla qalanı onlara verib müqəddəs Məşhədə getdi. Əliqulu xan həmin vilayəti Nişabura əvəz olaraq Dərviş Məhəmməd xana verdi, qərara alındı ki, Dərviş adamlar yollayıb əhalini oraya köçürsün.

Bu hadisələrin baş verməsindən sonra Əliqulu xan şahzadənin ordusunun tərkibində Herat darülsəltənəsinə tərəf yollandı, başqa əzəmətli əmirlər də, izin alaraq, hərə öz vilayətinə qayıtdı.

Əliqulu xanın qayıdışından sonra Dərviş Məhəmməd xan onlarla əhd-peyman etdiyindən peşiman oldu, çünki gözü Nişapur ülkasındı qalmışdı. Yanındakı rumlu tayfası ilə "Heydəriyyə türbə"sindən keçib, özünü hücumla Nişapura çatdırdı, gümansız halda şəhərə daxil oldu. Amma, gəlişindən xəbər tutan adamların əksəriyyəti onun ətrafında toplaşdı və onlar Mürşüdqulu xanın adamlarını şəhərdən qovdular, hökumət işinə başladılar. Qayıdış əsnasında bu xəbəri eşidən Əliqulu xan qoşunun dağınıqlığı və yolun uzaqlığı səbəbindən Məhəmməd xanın bu yersiz hərəkətini qulaq ardına vurdu, onunla haqq-hesablaşmağı gələn ilə saxladı, Herat darülsəltənəsinə çatıb eyş-işrətlə məşğul oldu.

Mürtəzaqulu xan və müqəddəs Məşhədin sakinləri isə, mühasirə darısqallığından xilas olduqları üçün, ləşkərlərin gəliş-gedişləri zamanı baş verən şəhər dağıntılarını bərpa etməklə məşğul oldular və Mürtəzaqulu xan olub-keçən hadisələri ali saraya ərz etdi. Onun göndərdiyi xəbər Mirzə Salmanın və əmirlərin Şirvandan Təbrizə gəldikləri vaxt gəlib çatdı, onların pərişanlıqlarına səbəb oldu.

Xorasandan qayıdıb Qəzvin darülsəltənəsinə çatan Sultan Hüseyn xan ona layiq olmayan bəzi əməllər etdi. Belə ki, onun divan vəkilləri onu varlıların mallarını mənimsəməyə sövq etdilər,

xanın alver bazarı rəvac tapdı. O mülkün əhalisi və diyarın tacir və varlı adamları cana doydular. Xan isə cahil və nəfskar şəxslərin təhriki ilə o məmləkətdən xeyli pul və mal kənara aparıldı, hədər məsrəflər xərcləndi, xanın etibar kisəsində bədnamlıq və söyüşdən başqa heç nə qalmadı. O, ali dərgaha gəlməkdən də çəkinib, olduqca yubandı. Ali ordunun fəsədkar və bəhanə axtaran adamları onun bu yaramaz işlərini görüb, qarşı çıxmaq və onu cəzalandırmaq fikrinə düşdülər. Nəhayət onların istədikləri vaxt gəlib çatdı və bu dəftərin zeylində yazılacağı kimi, xana olan-oldu ki, bu haqda məlumat veriləcəkdir.

NƏHƏNG (LUY) İLİ OLAN DOQQUZ YÜZ HƏŞTAD SƏKKİZİNCİ İLİN (1580/81) ƏVVOLLƏRİNDƏ ALLAH-TƏALANIN TƏQDİRİ İLƏ TƏBRİZ DARÜSSƏLTƏNƏTİNDƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Qələm sabiqdə bəyan etdi ki, Şirvanda Əmir xan Türkman və Şahrux xan arasında Xaxmirə getmək üstündə mübahisə başlamış, başçıları Məhəmməd xan Ustaclu və Hüseynqulu Sultan Eşikağasıbaşı Şamlı olan şanlı və ustaclı tayfaları da türkmanlarla vuruşmağa başlamışdılar. Nəticədə, qorçibaşının səyi ilə sülh yaranmışdı. Elə o vaxtlar da Xorasanda baş verən hadisələr - Əliqulu xanla Mürşüdqulu xanın gedərək müqəddəs Məşhədi mühasirə etmələri xəbəri Təbrizə yetişdi. Əmir xan və türkman əmirləri [öz aralarında] danışmağa başladılar və onlar şamlı və ustaclı tayfalarını qiyamda töhmətləndirib, təqsirləndirməyə başladılar. Sultan Hüseyn-xanın qeyri-məqbul bir hərəkəti də onların vəziyyətini ağırlaşdıran dəlil oldu. Əliqulu xanın anası olan Sultan Hüseyn xanın arvadı cahan nəvvabı Sultan Həmzə Mirzənin dayəsi (qabele) idi və əri Sultan Hüseyn xanla birlikdə Heratdan İraqa gəlmişdi. O, ali hərəmxanada yaşayır və nəvvab mirzəyə analıq edirdi. Onun qardaşı Hüseyn bəy isə nəvvab mirzənin vəziri idi. Şamlı tayfasının əyanlarının çox hissəsi mirzənin xidmətində idi.

Məsələn, "Yoldaş" ləqəbli İsmayılqulu bəy[345] Vəli Xəlifə oğlu, mötəbər eşikağasıbaşı Mehdiqulu bəy Hüseynqulu Sultan oğlu, əmiraxurbaşı Əbülfəth bəy Fulad bəy oğlu, Təhmasibqulu bəy

[345] Yuxarıda: Yoldaşbaşı - Ş.F.

Qorxmaz xan oğlu şahzədəyə yaxın adamlar silkindən idilər. Türkmanlar şamlılara həsəd aparır, həmişə onların etibarının azalmasına çalışırdılar. Vəzir Mirzə Salman da bu mənsəb sahiblərinin bir-biri ilə olan münasibətlərini izləyir, cahan nəvvabının vəziri Hüseyn bəyin əleyhinə gedərək, Əmir xan və Türkman tayfasının tərəfini tuturdu.

Xülasə, Əmir xan, Məhəmməd xan Türkman, Müseyib xan Təkəli və onların adamları fürsət tapıb [şaha] ərz etdilər ki, Əliqulu xan və Mürşüdqulu xandan üsyan zahirdir və onlar İsgəndər şanlı nəvvab və aləm şahzadəsi[346] ilə müxalifət mövqeyində dayanmışlar və Əliqulu xanın anasının hərəmxanada qalmasına bizim etibarımız yoxdur. Əgər məğlubedilməz dövlətin sütunlarından olan şamlı və ustaclı tayfaları bu bədnamlıqdan uzaqlaşmasalar, qızılbaşlar arasında saldıqları bu ikitirəliyi rəf etməsələr, şah və şahzadə ilə yekdil olmasalar, onların izzət və etibarları dövlətin məqsədinə müvafiq olmayacaqdır.

Onların aradan götürülməsinin əksinə olan Pirə Məhəmməd xan Ustaclı və Hüseynqulu Sultan Şamlı Xorasanda baş verən hadisələri oymaqlar arasında nifaq və inada çevirib [Əmir xanın] niyyətinin əleyhinə idilər. Onlar deyirdilər: "Allah eləməmiş, birdən bu iş şah və şahzadənin əleyhinə yönələ bilər. Bəlkə də Xorasan əmirlərinin məqsədi belədir: Mürtəzaqulu xan Türkman Məşhəddə istiqlal cəhdində olub Əliqulu xanın etibarını çoxaltmağa çalışır. Qızılbaşların vəziyyətinin pisləşirdiyi və rumiyyənin Azərbaycan və Şirvanı ələ keçirdikləri belə bir vaxtda, Allah eləməsin ki, özbəklər də bizə qarşı hərəkətə başlasınlar, əgər belə olarsa Xorasan əmirlərinin aralarındakı nifaq və inad məmləkətin əldən getməsinə səbəb olar. Gərək Xorasanın bütün əmirləri adlı-sanlı şahzadə və əlahəzrət zilləllah şah ilə müttəfiq olsunlar və hər hansı bir hadisə baş versə onların başına yığışıb nifaqı yerə qoysunlar. Onların bundan başqa bir niyyəti yoxdur. Yayılan sözlər isə Mürtəza qulu xanın yalan və iftiralarıdır."

Hüseynqulu Sultanın qətli:

Belə vəziyyət bir neçə gün davam etdi. Tərəflər silahlanıb savaşmaq niyyətində idilər. Xeyirxah adamların məsləhəti ilə hələlik

[346] Yəni, Sultan Həmzə Mirzə - Ş.F.

qan tökülməsinin qarşısı alınırdı. Birdən-birə Vəli Xəlifə Şamlının öldürülməsi xəbəri eşidildi. Onun oğlu İsmayılqulu bəy qiyama qalxıb atasının qanını tələb etdi. Ustaclı və şamlılar arasında həmişə razılıq və dostluq olduğundan Əmir xan, təkəli və türkman tayfaları onların arasına nifaq və fitnə-fəsad salmaq istədilər. Onlar fürsət tapıb İsmayılqulu bəyə dedilər ki, Vəli Xüləfanın başına gələn hadisə Sultan Hüseyn xan və onun oğlu Əliqulu xanın əmri ilə həyata keçirilmişdir. Onlar şamlı və ustaclılar arasına nifaq toxumu səpərək, şaha və adlı-sanlı şahzadəyə inandırıcı sözlər dedilər, onların hər ikisini bu tayfalardan bədgüman etdilər, Hüseyn bəyin arvadını hərəmxanadan çıxarıb boğdular, bu işin arxasını fikirləşmədilər. Sultanhüseyn xanın əvəzinə İsmayılqulu xanı Qəzvinə təyin edib, onu xanlıq tituluna və təvaçibaşılıq vəzifəsinə layiq gördülər və atası Vəli Xəlifənin qanını Sultan Hüseyn xanı öldürməklə almasını tapşırdılar. İllərlə Vəli Xəlifənin xidmətində olan və əmirlik dərəcəsinə qədər yüksələn Qorxmaz xan Şamlıya eşikağası olan Əliqulu xanın tərəfdarı Hüseynqulu Sultanın vəzifəsini verdilər. Beləliklə, onlar gah Vəli Xəlifənin qanının alınması, gah da hakimlik və böyüklük təmənnaları barədə sözlər danışıb öz əleyhdarlarının yağlı sözlərinə aldandılar, külüngü öz ayaqlarına vurdular. İsmayılqulu xanın qardaşları əvvəlcə Sürxab dağının ətəyindəki qəbirsanlıqda Mahmud xan Sürfoğlu Ustaclının qardaşını öldürdülər və beləliklə həmişə bir-biri ilə müttəfiq olan şamlı və ustaclılar arasında dava-dalaş qapıları açıldı. Gecə yarısı Xəlifə Ənsar Qaradağlı bir dəstə şamlı ilə Hüseynqulu Sultanın evinə gedib onu qətl etdi, vəziri Hüseyn bəy fərar etdisə də, iki-üç gündən sonra Mir Məqtulbənb təkyagahında ələ keçirilib öldürüldü. Şamlı tayfası bu əməlləri türkmanlıların təhrikləri ilə etdiklərindən, zahirən belə görünürdü ki, guya bu işlərin baş verməsində türkmanların əlləri yoxdur. Buna görə də, Pirə Məhəmməd xan intiqam məqamına gəlmədi, ali divanın vəzirliyindən əlavə şahzadənin divan vəziri vəzifəsi də Mirzə Salmana verildi. Qəzvin əyaləti hakimliyi İsmayılqulu xan Yoldaşın adına yazıldı və əmr olundu ki, Qəzvindəki Sultanhüseyn xanın mülazimləri indi İsmayılqulu xana xidmət etsinlər. Sultanhüseyn xanı isə tutub saraya gətirdilər. [Şahın] eşikağasıbaşı vəzifəsi Qorxmaz xana, şahzadənin eşikağasıbaşı vəzifəsi isə Piri həy Eynallı Şamlıya verildi. Şah Qazi Mustovfini Mirzə Salmana əks və ona xilaf olanlarla müttəfiq olduğu üçün həbs etdirdi, mustovfiül-

məmalik mənsəbi İsgəndər şanlı nəvvaba sabiqdə xidmət göstərən Xacə Məhəmmədbağır Herəviyə verdi.

İsmayılqulu xanın hakimliyi barədə hökm Qəzvinə gəlib çatdıqda Sultan Hüseyn xan şəhərdən çıxıb, Çəkiçəki şəhərinə gəldi. Onun mülazimlərinin bir hissəsi onunla idi, başqa hissəsi isə hələ Qəzvində qalmışdı. Onlar Sultan Hüseyn xandan gördükləri hörməti unudub ondan döndülər, ordusundakılar dağıldılar, ən mötəbər adamları isə İsmayılqulu xanın xidmətinə girdilər.

Sultan Hüseyn xan öz vəziyyətini müşahidə edib həbs olunma qorxusundan bir-iki nəfərlə Ərdəbil darülirşadına qaçdı, oraya sığındı. Bu müddətdən sonra şeyxavənd tayfası, xüsusən Şeyxşah bəyin qardaşı Vastar bəy hiylə ilə onu oradan çıxarıb düşmənlərinə verdi və o, qətl olundu.

Təbrizdə baş verən bu hadisədən sonra vəzir Mirzə Salman və qorçibaşı, habelə Şahrux xan Möhrdar ilə Əmir xan və Pirə Məhəmməd xan arasında yenidən dostluq yarandı, aralarında görüş və gediş-gəliş qapıları açıldı.

Əmir xanın toyu oldu. Təbriz darüssəltənətində üç gün eyş-işrət baş verdi və iffət zirvəsinin Müştərisi və səltənətin pərdəneşini (səradeq) olan və keçən il Əmir xanla kəbini oxunan cənnətməkan şahın qızı Fatimə Sultan xanım Əmir xanın evinə aparıldı və Əmir xan tərəfindən şaha və adlı-sanlı şahzadəyə layiqli töhfələr verildi. Onun özünə də qiymətli xələtlər-bahalı daşlarla bəzənmiş tac, xəncər kəməri, şəmsirbənd, daş-qaşlı qəbzə və qın (ğelaf), daş-qaşla bəzənmiş yəhəri və yüyəni olan at, qızılla tikilmiş çəharğəb (?), qəba, çaharzəri (?) və başqa geyimlər verildi. O da İskəndər şanlı nəvvabın və aləmlər şahzadəsinin, xidmətçilərinə, nədimlərinə və çalğı ərbablarına qiymətli xələtlər verdi. Əmir xan Pirə Məhəmməd xanın və ustaclı tayfasının ürəyini ələ almaq məqsədi və aralarında olan qohumluq münasibətinə görə - Pirə Məhəmməd xanın qızı Əmir xanın oğlu Sultan Murad xanın evində idi - onu sağdış (tuye-saqduşi), Müseyib xan Təkəlini isə solduş (tuye-soldişi) etdi. Onlar da hər biri öz evlərində şahanə toy etdilər. İsgəndər şanlı nəvvabla aralarında olan qohumluğa görə Müseyib xan özünü Əmir xandan yüksək tuturdu. Səltənət dənizinin həmin pakizə gövhərində (yəni Fatimə Sultan xanımda - Ş.F.) onun da gözü var idi, lakin bəzi məsləhətlərə görə bu iş baş tutmadı və o böyük töfhə Əmir xana nəsib oldu. Müseyib xan razılıq barmağını gözünün üstünə qoyub,

şahın əmri ilə solduşluğu qəbul etdi, türkcə bu rübaini yazıb İsgəndər şanlı nəvvaba (şaha - Ş.F) göndərdi:

Rübai

Ey şahe-cəhən, biəsər oldi deməgim,
Tutdi qəm-əli, ələm tikani-ətəgim.
Yüzyildi kixidmətimlə dərgahində!
Solduş əməginə döndi axir əməgim.

Bu hadisələrdən sonra əmirlər və tayfalar arasındakı savaş qapıları təmamilə bağlandı. Həmçinin Şahəli Mirzənin oğlu Salman xan da [şah] ilə qohumluq şərəfinə yetməklə şərəfləndi, cənnətməkan şahın qızı Şəhrbanu xanımın kəbinini onunla kəsdirdi. Pirə Məhəmməd xan oymaqlar təəssübündən və Abgulla xanın sabiq xidmətlərinə görə bu toyun xərcini öz öhdəsinə götürdü, nikah mərasimi onun evində yüksək səviyyədə keçirildi. Əmir xan bu zaman rəsmi təvazökarlıqlar göstərdi Şirvan məmləkətini Salman xana və ustaclı əmirlərinə verərək onları yola saldılar. Onlan Ərəsbar yolu ilə gedib Kür cayının kənarında hava bərk isti olduğundan "Həmətərə" adlı məşhur yaylaqda dayandılar və havaların dəyişəyəcəyini gözləyərək ləşkər və yaraq toplamaqla məşğul oldular. O əmrlərin ən əzəmətlisi Şirvan və Şamaxı hakimi Salman xan idi. Ondan başqa, "lələ" kimi məşhur olan Nəzər Sultanın oğlu Hüseynqulu Sultana, Eşşək (?) Əvəz Çavuşlunun oğlu Əliqulu Sultana, Mustafa Sultan Şərəfliyə, Ənut (?) bəyin oğlu Mehdiqulu Sultan Çavuşluya, həmçinin cagirli, qaramanlı və başqa tayfalardan olan iki-üç əmirə Şirvan ölkəsində tiyullar verib rəvan etmişdilər. Bu il, ülkasını dörd il bundan əvvəl tərk edən Kuh-Giluyə hakimi Xəlil xan Əfşar bir qələndərin qiyamı (xüruc) və oradakı üsyan üzündən Kuh-Giliyəyə getməyə rüsxət aldı. Bu məsələnin şərhi və Xəlil xan və övladlarının aqibətləri aşağıda veriləcəkdir. Qərara alındı ki, Fars [vilayəti] bəylərbəyisi Xəlil xan Zülqədər tabeliyindəki əmirlərlə, həmçinin Kurman hakimi Vəlixan Əfşar Azərbaycan yasaqına getsinlər.

HÜMAYUN ŞAH MƏİYYƏTİNİN ƏŞKƏNBƏR VƏ KƏLƏNBƏR YAYLAĞINAGETMƏSİ VƏ ONUN QARABAĞDA QIŞLAMASI, BAŞ VƏZİR SİNAN PAŞANIN MƏKTUBLARI VƏ O VAXTLARDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Bahar fəsli bitdiyindən Təbriz havası istiləşməyə başladı. Qəhətlik və məhsul [azlığının] təsirindən şəhərdə vəba xəstəliyi yarandı. Hümayun şah məiyyəti yaylağa tərəf yola düşüb Əşkənbər və Kələnbərdə dayandı. Bu il Rum xandgarı Sinan paşanı [qoşuna] sərdar təyin edib, Şirvan məmləkətinin sair yerlərini ələ keçirmək üçün Osman paşanın köməyinə yolladı. Sinan paşa saysız-hesabsız döyüşçü ilə Ərzruma gələrək, ilk növbədə şah sarayına elçi göndərdi. O, Mirzə Salmana məktubunda belə lüzumsuz sözlər yazmışdı: "Osmanlı əsgərlərinin daxil olduqları hər bir vilayətdə gərək şahın (sultanın - Ş.F.) adına xütbə oxunsun, yox, əgər oxunmasa bu əməl osmanlı qayda-qanununa zidd bir əməl sayılacaqdır. Şirvan, Şəki, Azərbaycanın bəzi yerləri və Gürcüstan ale - Osman tərəfindən fəth olunduğu üçün, bundan sonra o yerlərə qızılbaşlar tərəfindən hücum baş verməsin. Adı çəkilən vilayətlər islama pənah verənlərə (yəni osmanlılara) mənsub olduğundan [qızılbaşlar] münaqişədən əl çəksinlər. Sabiqdə etdikləri əməldən əl çəkib, şah xandgara dostanə bir məktub yazsın, mötəbər və mahir bir elçi yollasın. Bu xeyirxah isə (yəni Sinan paşa - Ş.F.) arada vasitəçilik edib, həzrət xandgarı sülh bağlamağa rəğbətləndirəcəkdir. Əgər belə etməsəniz, bütün İran məmləkətləri [bizim tərəfimizdən] fəth olunacaqdır".

Xüdpəsənd qızılbaş əmirləri, xüsusilə Şahrux Möhrdar, saysız-hesabsız Rum qoşunu ilə döyüşməyi özünün imkanı xaricində bilməyinə baxmayaraq, bu təkliflə razılaşmadı və belə bir cavab məktubu yazdı: "Əgər sülh cənnətməkan şahın zamanında olduğu şəkildə bağlansa biz onu qəbul edərik, yoxsa yarım zər" torpağı da öz xoşumuzla əldən verən deyilik. Əgər yüz min qızılbaşdan cəmi bircəsi də sağ qalarsa, torpaq uğrunda döyüşəcəyik. Sənin və sənə bərabər on nəfərin də hücumundan qorxumuz yoxdu. Qoy o, (yəni Sinan paşa -Ş.F.) özünü Lələ paşa[347] ilə müqaisə etməsin. [Lələ paşa] bizə hücum edən vaxt bizim

[347] Osmanlı sərkərdəsi Lələ Mustafa paşa - Ş.F.

padşahımız İraqda idi və Azərbaycan əmirləri arasında heç bir ittifaq yox idi. İndi isə bütün qızılbaş ləşkəri Azərbaycanda şahın ixtiyarında hazır vəziyyətdə dayanıb döyüş gözləyirlər. Sizin yazdığınız "Şirvan ölkəsi ale - Osmanın əlinə keçmişdir" fikri qələtdir. Dörd divardan başqa heç nəyi olmayan Dərbənd qalasından başqa Şirvan qızılbaş əmirlərinin zəbtindədir. Əgər o vaxtlarda (yəni osmanlıların hücumu zamanı - Ş.F.) qızılbaşlar arasında birlik olsaydı, düşmənlər bizim məhrusə (qorunan - Ş.E) məmləkətlərimizə əl uzada bilməzdilər".

Sinan paşa bu məktubdan ehtiyatlanıb, hücum barədə bir daha söz yazmayaraq, yenidən sülh məsələsindən söhbət açdı. O, bu dəfə yumşaq tərzdə bir məktub yazıb bildirdi "Osman paşa həzrət xandgara yazıb ki, mən Şirvan məmləkətini fəth etmişəm. Əgər bu doğrudan da belədirsə, gərək qızılbaşlar bir daha Şirvana hücum etməyələr. Siz əgər mənim bu fikrimlə razılaşsanız, mən sülhə boyun oluram".

Bu biri tərəfdən də (yəni qızılbaşlardan - Ş.F.) həmin məktublara cavablar yazıldı və vaxtın tələbinə görə [paşaya] rəğbətli sözlər ünvanlandı. Sinan paşa belə qərara gəldi ki, bu ili hər iki ləşkər qoy öz olduqları yerlərdə qışlasınlar. Qoy rumilər tərəfdən bir, qızılbaşlardan da bir adam Şirvana gedib, oranın kimin əlində - rumilərin, yoxsa qızılbaşların əlində olmasını müəyyənləşdirsinlər.

Bu tapşırığı yerinə yetirməkdən ötrü [Sinan paşa] Ömər ağa adlı bir şəxsə tapşırıq verdi və özü gedib Ərzrumda qışladı.

Hümayun şah məiyyəti Naxçıvan yaylağından yola düşüb Qarabağa yollandı. Xorasandan xoşagəlməz xəbərlər gəlir, Mürtəzaqulu xan dalbadal məktub yazaraq Əliqulu xan Şamlı, Mürşüdqulu xan Ustaclı və onların tabeliyində olan adamların üsyan etdiklərini bildirirdi. İşbilən adam olan Məhəmməd xan Türkmanı Əliqulu xana qarşı çıxan əmirlərdən İsmayılqulu xan Şamlu və Qorxmaz xan Şamlunu Xorasan əmirləri ilə danışmaqdan, onlarla Mürtəzaqulu xan arasında yaranmış fitnə-fəsad alovunu söndürməkdən və onu üsyandan çəkindirməkdən ötrü Xorasana yolladılar. Bu hadisələr zamanı Adil Gəray xan Tatar və Səfi Gəray xan ağır qoşunla hücum edib Şirvana gəldilər. Qızılbaş bəylərbəyi Salman xan və əmirlər hələ öz yerlərində qalıb Şirvana yollanmamışdılar. Onlar (rumilər - Ş.F.). Şirvanda qızılbaşlardan əsər-əlamət görməyib etimadsız şirvanlılara bildirdilər ki, qızılbaş bəylərbəyisi və Şirvana təyin olunan əmirlər filan yerdə

dayanmışlar. Tatar ləşkəri təxirə salmadan Şirvan dağlılarının bələdçiliyi ilə çayı keçib, əmirlərin ordusu üzərinə tökülüşdülər. Ordu döyüşçülərinin silah gətirmək və bir yerə toplaşmaq imkanı olmadığından qızılbaş ləşkəri arasına dağınıqlıq düşdü. Onlar var-dövlət və yaraq-yasaqdan əl çəkib həyəcanla bəzisi piyada, bəzisi isə ata süvar olub fərar etdilər. Döyüşə girişən bir neçə adam isə mərdliklə şəhadət şərbəti içdi. Qızılbaşların bütün var-yoxları tarac olundu. Ustaclı əmirlərindən Eşşək Əvəzin oğlu Əliqulu Sultan Çavuşlu qətl edildi, qalanları isə canlarını qurtarıb pərişan və nizamsız halda Qızılağac yaxınlığında dayandılar. Tatarlar isə o gün hədsiz-hesabsız qənimətlə geri döndülər.

Tatarların sözlərinə görə Osman paşa bir dəstə rumini Badkubə qalasına yolladı və rumilər həmin möhkəm qalanı daha da möhkəmlədib oraya çoxlu silah yığdılar.

[Şahın məiyyəti] Qarabağa qayıtdığı zaman bu xəbər ali orduya yetişdi, şahın və döyüşçülərin acığına səbəb oldu. Onlar qışlaq yeri olan Qızılağacın Sultanbud adlı yerində dayandılar. Vəzir Mirzə Salman, Əmir xan, qorçibaşı, Şahrux xan, Pirə Məhəmməd xan Ustaclı və başqa əmir, qorçi və müzəffər əsgərlər Şirvanı tatar xanlarından müdafiə etmək üçün oraya yollandılar.

Rumilərin və tatarların qızılbaşlarla hərbi:

Rumiyyə və tatar qoşunu qızılbaş ləşkərinin gəldiyini eşidib. Müharibəyə can atdı. Molla Həsən adlı bir yerdə onlarla müzəffər qorçilər arasında hərb başlandı Əsgərlərə fasiləsiz olaraq kömək gəldiyindən müxaliflər onlarla bacarmayıb döyüşdən əl çəkdilər: Rumiyyə Dərbənd qalasına, tatarlar isə öz diyarlarına getmək üçün Dağıstana yollandılar. Bəylərbəyi Salman xan və onun əmir yoldaşları müzəffər şah məiyyətinin gəlişi və əmirlərin Şirvana getmələrini eşidib pərişan və dağınıq halda Kür çayını keçərək Şirvana yollandılar. Tatarlar tərəfindən məğlub edilmələrinin əvəzini çıxmaq üçün Badkubə qalasını almaq məqsədilə gedib oranı mühasirə etdilər. Əmir xan və əmirlər də Şabrandan qayıdıb Salman xana imdad üçün Badkubə qalasına yanaşaraq on səkkiz gün qala ətəyində oturdularsa da, qalanı ələ keçirmək onlara nəsib olmadı. Ölkənin viranəliyi və rəiyyətin əhvalının pərişanlığından ləşkər aclıq çəkməyə başladı. Bir gündə cəmisi altı misqal gümüş sikkələrə bərabər altı yüz dinarlıq arpa unu alınıb-satılırdı, son günlərdə o da

yoxa çıxdı. Ləşkər zərurət üzündən mühasirəni tərk edib Qaraağaca gəldi. Həmin qış Şirvanda qızılbaş əmirlərindən heç kim qalmadı. Buna görə də, rumilər Şirvanın bəzi mahallarına yollandılar. Dərbənddə əyləşən Osman paşa əlini uzatdığı hər Şirvan vilayətindən (yəni ki, şəhərindən - Ş.F.) mal toplayırdı. Şirvan əhalisi məcburiyyət üzündən ona itaət edirdi. Pirə Məhəmməd xan bu səfər zamanı xəstələnib öz varlıq libasını yoxluq qamətinə geyindi və axirətə yollandı. Onun vəfatından sonra ustaclıların əhvalları tamamilə pisləşdi. Baxmayaraq ki, Pirə Məhəmməd xanın yerinə onun oğlu əmir və xanlıq [tituluna] layiq görüldü, lakin onun bir o qədər də etibarı yox idi. [Amma] Xorasanda olan Mürşüdqulu xan Yegan Ustaclı ali sarayda olan o tayfanın halının daha da pisləşməsinə səbəb olmaqda idi. Əmir xan, türkman və təkəli əmirləri o tayfaya qarşı etiraz və məzəmmət dillərini açaraq, onları "araqarışdıran" ("mofətten və fitnəəngiz") adlandırır, izzət və etibarlarının azalmasına çalışır, bəlkə də onları məhv etməyə çalışırdılar. Məsələn, Xorasandan qayıdan Şahqulu Sultan Qarınca oğlu Ustaclı ali orduya gələrkən, Rcy şəhərinin Vəramin adlı yerində Müseyib xan Şərəfəddinoğlunun mülazimləri olan təkəlilər Qaraca Sultanın nəvəsi Məhəmməd bəy Nəqarinin sərkərdəliyi ilə onun qətlinə və ustaclıların mallarının qarət olunmasına girişdi. Belə ki, üç yüz nəfər yaraqlanıb onun üstünə getdi. Şahqulu Sultan onların hücumundan xəbərdar oldu, lakin onun nicat yolu sanki bağlanmışdı. Müdafiəyə başlayaraq mərdliklə döyüşdü, az döyüşçüsü ilə Məhəmməd bəy Nedaqini məğlub etdi, təkəlilərdən çoxlu adam öldürdü. Şahqulu Sultan öz ağlı və tədbiri ilə təkəlularla dohı olan Rey vilayətindən çıxa bildi, Qarabağ qışlağında ali orduya çatdı. Təkəlilərdən zahir olan bu uğursuz hərəkət bəyənilmədi. Bəzi fəsad əhli Müseyib xanı Şahqulu Sultandan intiqam almağa vadar etdisə də, Müseyib xan əməlisaleh adam olduğundan bu işə razılıq vermədi. Ustaclı ağsaqqalları İsgəndər şanlı nəvvabdan kömək alıb, şahın əmri ilə Şahqulu Sultanı Müseyib xanın evinə apardılar. Həmin mərəkədə öz qohumlarını itirən təkəlilərin onu təhdid etmələrinə baxmayaraq, təkəlilərin ona hücum etmələri və ustaclıların müdafiəyə məcbur olmaları nəzərə alındı və haqq Şahqulu Sultan tərəfində oldu. Müseyib xan buna görə də cahilliyə yol vermədi, iki yüz nəfər təkəlinin qanından keçdi, ona heç bir sədəmə vurmadı. Biri-digəri ilə müttəfiq olan türkman və təkəli tayfaları ali dərgahda olduqca etibarlı, şan-şöhrətli və iqtidarlı idilər,

amma, yuxarıda yazılan əməllərinə görə, artıq ustaclı tayfasının ehtiramı qalmamışdı. Buna görə də, Şahqulu Sultan Qarıncaya və onun övlad və qohumlarına qarşı Müseyib xanın etdikləri yoxlanılıb araşdırılmadı və həqiqətən də, onun haqqı o zamankı vəziyyətinə görə, bəyənilməkdəydi.

BU İLİN SONUNDA QARABAĞIN SULTANBUD ADLI YERİNDƏ BAŞ VERƏN BƏZİ HADİSƏLƏR VƏ İBRAHİM XAN TÜRKMANIN RUM PADŞAHINA ELÇİ GÖNDƏRİLMƏSİNİN BƏYANI

Ustaclıların bütün işlərinə başçılıq edən Pirə Məhəmməd xan vəfat etdikdən sonra onun yoldaşları Salman xan və başqa əmirlərin Şirvanı müdafiə etmə vəziyyəti pisləşmiş və onlar Şirvandan çıxmışdılar. Sinan paşa tərəfindən Şirvanın vəziyyətini öyrənmək və Şirvan vilayətlərinin kimin əlində olmasını müəyyənləşdirmək üçün təyin edilən Ömər ağa gəlib ali orduya çatdı. Əmirlər və dövlət başçıları belə məsləhət gördülər ki, Şirvanı qorumağı Qarabağda yaşayan və sayca çox olan qacar, otuziki və başqa tayfaların öhdəsinə qoysunlar və bu işin yaxşı-pis cəhətlərini İmamqulu xana həvalə etsinlər. Onlar İsgəndər şanlı xaqan və nəvvab şahzadə ilə məsləhətləşib İmamqulu xanı, könülsüz də olsa, bu işə məcbur etdilər. Onun məsləhəti ilə Peykər bəy Ziyadoğlu Qacara əyalət və xanlıq rütbəsi verərək onu Şirvana bəylərbəyi təyin etdilər. Həmçinin bir neçə qacar əmirinə Şirvanda ülka verib onunla birlikdə Şamaxıya göndərdilər. Onlar getdikdən sonra Ömər ağaya da bir nəfər qoşaraq Şirvana yolladılar. Həmçinin bir dəstə döyüşçünü Tiflis qalasını tutmaq və oranın valisi Səmayun xana kömək etmək üçün rəvan etdilər. Habelə Mürşüd bəy Topçubaşını topxana ustaları və toptökmə məmulatı ilə qalanın alınmasını başa çatdırmaq üçün o tərəfə göndərdilər ki, Ömər ağa geri qayıdarkən həmin qüvətli qalanın qızılbaşlann əlində olduğunu görsün. Amma onlar buna (Tiflis qalasını tutmağa - Ş.F.) nail olmadılar və bu işdən heç nə çıxmadı.

Xülasə, Peykər xan və Şirvan əmirlərinin hər biri namizəd olduqları vilayətlərinə çatıb dayandılar. Ömər ağa onları orada görüb anladı ki, Dərbənd və Badkubə qalalarının dörd divarından başqa heç bir [Şirvan] torpağı Osman paşanın əlində deyildir. İsgəndər şanlı nəvvab həqiqəti Sinan paşaya ərz edib sülhə

gəlməkdən ötrü Ömər ağaya Şahqulu Sultan Tebetoğlu Zülqədəri də qoşaraq elçi sifətilə yola saldı. Şirvan əhalisi tərəfindən [aşağıdan məzmunda] bir sənəd (məhzər) hazırlanmışdı: "Şirvan vilayətindəki bəzi yerlər şərif Kəbəyə məxsus (hərəmeyni-şərəfeyn) vəqflərdir. Həzrət xandgar Kəbəyə xas həmin yerlərin "xadimul-hərəmeyn"i, yəni hərəmeynin xadimi (başçısı - Ş.F.) olduğundan Şirvan əhalisi qəbul edir ki, "hərəmeyni-şərifə" məsrəflərinə sərf edilməkdən ötrü bir neçə xərvar həcmində olan ipəyi o vilayətə göndərsin, belə bir şərt ilə ki, indiyədək rumilərin zəbtində olan yerlərə hücum etməsinlər və onları qızılbaşların ixtiyarına verilsinlər." Tebetoğlu layiqli töhfə və hədiyyələrlə Ərzruma rəvan oldu. Amma, Sinan paşa və Osman paşa arasında nifaq olduğundan Sinan paşa [qızılbaşlarla] sülh yaratmaqdan ötrü Tebetoğlunu sülhamiz məzmunlu məktubla geri göndərdi. Qərara gəldi ki, yüksək rütbəli qızılbaş əmirlərindən biri məhəbbətli bir məktubla xandgarın yanına gedib sülh qayda-qanunu barədə söhbətlər aparsın. Tebetoğlunun gcri dönməsindən sonra Qum hakimi Heydər Sultan Çapuq Tərxan Türkmanın oğlu ağıllı və işbilən İbrahim xanı Rum elçiliyinə təyin edib, layiqli töhfə və hədiyyələrlə rəvan etdilər.

Amma elə ki, o elçi İstanbula, Rum xandgarı Sultan Muradın yanına çatdı, qərəzkar adamlar, xüsusilə Şirvan Dərbəndində olan Osman paşa Sinan paşanı təqsirləndirib sülhün qəbul olunmaması üçün [xandgara] bəzi sözlər çatdırdı. Buna görə də İbrahim xanın İstanbul elçiliyi uğurla nəticələnmədi.

Ertəsi il [xandgar] Fərhad paşanı sərdar təyin edərək [yola saldı] və Çuxur-Səd, Qarabağ və Azərbaycan mahallarının əksəriyyəti onun səyi ilə qızılbaşların əllərindən çıxdı. İbrahim xan yeddi ilə qədər İstanbulda qaldıqdan sonra əlahəzrət zilləllah şahın hakimiyyəti zamanı rüxsət alıb geri qayıtdı ki, baş verən əhvalatların heç birinin şərhi yerli-yerində veriləcəkdir.

ALLAHIN İRADƏSİ İLƏ BU İL BAŞ VERMİŞ MÜXTƏLİK ƏHVALATLAR VƏ TALE HADİSƏLƏRİNİN BƏYANI

Bu il baş vermiş ibrətamiz hadisələrdən biri Biyəpəs Gilanının valisi Müzəffər Sultanın nəvəsi və cənnətməkan şahın damadı (kürəkəni - Ş.F.) olan Cəmşid xanın bəzi haramnəmək mülazimlərin təhriki və Mirzə Kamran Kuhdəminin əh ilə öldürülməsidir.

O qəribə hadisənin xülasəsi belədir: Cəmşid xan və Biyəpiş Gilanının valisi Xan Əhməd arasında, həmin iki sülalənin köhnə ədavətinə görə, fitnə-fəsad tozu artmaqdaydı. Onlar daim bir-birilərinin məmləkətlərinə ləşkər çəkməklə dövlətin əsasını zəiflətməyə çalışırdılar. Hər iki ölkə arasında yerləşən Kühdəmin valisi Mirzə Kamran, vaxtın məsləhəti ilə, həsəb-nəsəb baxımından daha məşhur olan Xan Əhmədin xatirini incitməməyə və onunla daha artıq dostluq etməyə çalışırdı. Amma, hər iki vali Cəmşid xanla anlaşma və dostluq məqamında idi. Cəmşid xan bu il mülayimlik və insansevərlik qapılarını açıb, düşmənçilik və ya dostluq etmək xüsusunda Mirzə Kamrana öz sözlərini izhar etdi, onu yanma çağırdı, dostanə münasibət yaratdı, həmişə tövhə və hədiyyələr yollamaqla məhəbbət qayda-qanununu möhkəmlətdi. Hər iki tərəfin etibarlı adamlarının gediş-gəlişi başlandı və onlar arada olan kin-kidurət sarıdan xatircam oldular, Cəmşid xan və Mirzə Kamran müəyyən bir yerdə görüşdülər. Xan onu özü ilə Rəştə apardı, şahanə etiram göstərdi. Amma onun əsl məqsədi Kuhdəm və Biyəpəs ləşkərini bir-birilərindən ayırmaqla Xan Əhmədin istilasından yaxa qurtarmaq idi. Aralarında belə məhəbbət təriqi yarandığı üçün Cəmşid xanda işğalçılıq və iqtidar nişanələn görünməyə başladı, aradakı vuruşun (mabehən-neza) səbəbi olan Kuçsefahanı ələ keçirdi.

Xan Əhməd onların qorxusundan Lahicanda sakit yaşaya bilmirdi. Mirzə Kamranın Biyəpəs camaatı ilə sülh etməsindən sonra Cəmşid xandan narazı olan bir dəstə adam onu Biyəpəs ülkasını tutmağa tərğib etdi. Xan Əhməd [beləliklə] Cəmşid xanla hiylə və kin məqamında dayandı. Bu əsnada Cəmşid xan öz ləşkərinin sipəhsaları və baş verən fitnəkarlığın mayası olan Qara Bahaduru Mirzə Kamrana qoşub Xan Əhmədin üzərinə yolladı. O vaxtlarda sipəhsalarlıq iddiasında olan əmirlərindən Çıraq Sultan adlı birisinin xanla kin-küdurəti başlandı. Mirzə Kamranla bağlanan əhd-peyman məsələsini Cəmşid xan ona bildirdi, Çıraq Sultan isə ürəyə yatan sözlərlə Cəmşid xanı özündən arxayın etdi.

Amma, elə o özü də qorxub vahiməyə düşdü və ona qarşı çıxmaq fikrinə düşdü. Mirzə Kamran Biyəpəs ləşkəri ilə Kuçsefahanda olan vaxt onun dostları olan Qara Bahadur və böyük adamların çoxu canlarının qorxusundan Mirzə Kamranla ittifaqa girərək, Cəmşid xanı dəf etmək qərarına gəldilər. Onlar fürsət tapıb Çıraq Sultanı Kuçsefahanda qətlə yetirib, qayıtdılar və Rəştə

gəldilər. Dincəlməyi (fəraqət) və sağ-salamat (afiyət) qalmaq istəyən döyüşçülər sevinərək bu məsələni böyük bir bəladan qurtuluş kimi qiymətləndirib onların qayıdış səbəbini heç soruşmadan rəvan oldular.

Cəmşid xanın qətli:

Xülasə, Mirzə Kamran, Qara Bahadur və həmkarları əvvəl etdikləri əhd-peymana qarşı çıxaraq qoxmadan Cəmşid xana qarşı ittifaqa girdilər. Xan isə sadəlövhlüyündən və etimadı üzündən bu şəxslərin nifaqlarından qafil olub, onların geriyə qayıdışlarını zəruri bir işi yerinə yetirmək istəkləri kimi qəbul etdi. Mirzə Kamran isə dərhal xanın tək qaldığı otağa girib onu tutdu, kənar bir yerdə saxlamağdan ötrü, etibarlı adamlarla Kuhdəmə göndərdi. Cəmşid xan nə qədər çalışdısa onun sülaləsinin nəməkharam mülazimlərindən heç biri onu xilas etmək fikrində olmadı. İstər-istəməz o qəribə hadisəyə qurşanan Mirzə Kamran cənnətməkan şahın qızınm az yaşlı oğlanları Məhəmməd İbrahim Mirzə və Məhəmməd Əmin Mirzəni öz yanında saxladı və Qara Bahadurun səyi ilə bütün Biyəpəs əhalisi Mirzə Kamranın hakimliyinə razı oldu, o vilayətin sipəhsalarları və başqa adamları onunla əhd-peyman bağladılar. O isə belə bir razılıqdan xatircəm olaraq, iki aydan sonra onların öz sözlərindən sərf nəzər edə biləcəkləri qorxusundan Cəmşid xanın qətlinə fərman verdi və onu Kuhdəmdə qətlə yetirdilər.

Amma, onların axırları da öz istədikləri kimi ola bilmədi az bir vaxt içərisində o günahsız padşahın qatilləri öz əməllərinin cəzasına çatdılar, ömür və dövlətdən fayda görmədilər. Belə ki, Mirzə Kamran Cəmşid xandan xatircam olan kimi Biyəpəs vilayətində hökümət və istiqlal bayrağı qaldıraraq Xan Əhmədlə də savaş məqamına gəlib özünün işğalçılıq meylini zahirə çıxarmaqda idi. O, öz etibarlı adamlarını padşah sarayına göndərib belə ərz etdi: "Cəmşid xan üsyan və tüğyan edib, dövlət hökmünün ziddinə çıxaraq başqalarının məmləkətlərinə də dəxalət etməkdə, padşah əmrlərinə əməl etməməkdə idi. Mən dövlətxah adamsa onu tutub şərrini dəf etdim. Əgər şahın şəfəqqəti mən dövlətxahın halına tərəf yönəlsə və Biyəpəs məmləkətini mənə versə, peşkəş olaraq ali saraya çoxlu pul göndərərəm, hər il bac və xərac ödəməyə zəmanət verərəm".

O, Cəmşid xanın pulundan böyük məbləğdə pul da yolladı. Mirzə Salman, əmirlər və dövlət başçıları onun dediklərini qəbul edib şahdan təvəqqe etdilər ki, cənnətməkan şahın Cəmşid xanın arvadı olan bacısını və Biyəpəsi Mirzə Kamrana versin.

Amma, Xan Əhməd qoçaq, ağıllı, öz sözü olan və tədbirli Mirzə kamrandan Cəmşid xana nisbətən daha çox çəkinir onun qaba davranışından şəklənirdi. O tez-tez ali dərgaha məktublar göndərib Mirzə Kamranın xahişinin rədd edilməsini ərz etdi, dedi: "Biyəpəs məmləkəti yeddi-səkkiz ali qədirli qızılbaşa məxsusdur və oranın qətiyyən Mirzə Kamrana aidiyyətı yoxdur. Əgər qızılbaş əmirləri buraya gələrsə, mən boyun oluram ki, o vilayəti onun işğal əlindən xilas edib qızılbaşların ixtiyarına verim".

Beləliklə, Mirzə Kamranın iqtidarda olması heç vechlə Xan Əhmədin məzacına müvafiq deyildi.

İsgəndər şanlı nəvvabın Xan Əhmədə böyük şəfəqqəti olduğundan onu narazı salan heç bir işə razılıq vermirdi. Cəmşid xanı öldürən Mirzə Kamranın cürət və cəsarətinə göz yummaq isə onun səltənət rütbəsinə uyğun iş deyildi, elə buna görə də Mirzə Kamranın xahişləri şah tərəfindən qəbul olunmadı. Salman xan və ustaclı əmirləri də orduda ülkasız qalmışdılar. Qüdrətli dövlət başçılarının məsləhətinə görə şah Cəmşid xanın həm də damadı olan Salman xanı Rəşt hakimi təyin edib, Biyəpəsi ustaclı əmirləri və başqa əmirlər arasında böldü, Şahqulu Sultan Qarınca Ustaclını Salman xana lələ və ağsaqqal təyin edərək, Biyəpəs və Biyəpiş hakimlərinin savaş mayası olan Kuçsefahanı ona verdi. Ülkaya layiq görülən ustaclı əmirləri isə bunlardı: Nəzər Sultan Lələnin oğlu Hüseynqulu Sultan, Mustafa Şərəfli, Eyğus[348] bəyin oğlu Mehdi Sultan Çavuşlu, Əhməd Sultan Asayeş oğlu, Cəfər Sultan Rumlunun oğlu, Peykərli Berdi Xəlifə və Şahverdi Sultan Cəlaloğlu Çekəni. Mirzə Kamran Cəmşid xanın sərvətindən saraya göndərdiyi qızılı isə əmirlərin xərclərinə kömək kimi verib, onları Gilana rəvan etdi. Bayandur xan Talışın, onun oğlu Əmir Həmzənin və Kəskər hakimi Əmir Səyavuşun adlarına ehkami-motaələr (itaət hökmləri - Ş.F.) yazılaraq, həmin əmirlərə imdad və köməklik göstərmələri üçün hökm olundu. Süleyman xan və yoldaşları Gilana yaxınlaşdılar və Şahqulu Sultan Qarınca Biyəpəs xüsusunda Xan Əhmədlə məsləhətləşməkdən və qərara gəlməkdən ötrü Lahicana - Xan

[348] Ayğut olmalıdır - Ş.F.

Əhmədin yanına getdi. Amma, qızılbaş ləşkərinin yürüş xəbəri Gilana çaldıqda, Fumən vilayəti əyanlarından olan Şirzad adlı bir şəxs bir qələndər oğlunu Cəmşid xanın oğlu kimi qələmə verib, onu Cəmşid xanın atasının adı ilə "Mahmud xan" adlandırdı. Mirzə Kamrana qarşı çıxaraq bir dəstə Fumən süvarisini özünə müttəfiq edib qəfildən onun üzərinə - Rəştə hücuma keçdi. Mirzə Kamran bu qəziyyəni bilərək Rəşt əhalisi ilə vuruşun üz verməməsindən ötrü özünü müdafiə etmək istəmədi və buna heç imkanı olmadı da. O, Cəmşid xanın oğlanlarını özü ilə götürüb çaşqınlıqla var-dövlətini ataraq, tanınmaz bir yolla Kuhdəmə gəldi. Onunla əlbir olan Qara Bahadur və adamları da Mirzə Kamrana qoşulub Kuhdəmə çatdılar. Şirzad isə "Sultan Mahmud xan"ı Cəmşid xanın ülyacənab hərəmi olan [dul] şahzadə qadınla görüşdürməkdən ötrü Rəştə gəlib çatdı. Cəmşid xanın fəqət iki oğuldan qeyri digər uşağı olmadığını bilməsinə baxmayaraq şahzadə xanım zəmanəyə uyğun hərəkət edib, Şirzadın məsləhətinə əməl edib onun Biyəpəs Gilanının zəbt etməsini rəğbətlə qarşıladı. Şirzad bir adamını Xan Əhmədin yanına göndərib Gilan hakimlərinini sabiq hökmünün əksinə getdi, itaətdən dəm vurdu və onunla birləşdi, çünki, Xan Əhməd Mirzə Kamranın vəziyyətinin pisləşdiyini bildiyindən bu məsələni özü üçün münasib sandı, qızılbaş ləşkərini buraya çağırdığından peşiman oldu, [Mirzə Kamran ilə] intiqam və qarşılaşma məqamına gəldi, onun üstünə qoşun yolladı. [Beləliklə,] Biyəpiş ləşkəri Mirzə Kamranın məskəni olan Kuhdəm qəsəbəsinə çataraq oranı viran etdi, onun ardınca Rüstəmabad və Taroma qədər getdi. Amma, bu əsnada Salman xan artıq Məncilə gəlib çatmışdı. Bunu bilən Mirzə Kamran Xan Əhmədin döyüşçülərindən, lakin özünün yaxını olan bir nəfəri qızılbaşların yanına yolladı. Hüseynqulu Sultanın vəkili Məhəmmədi bəy Sarı Solaq iki-üç yüz qızılbaşla Kuhdəmə gedərək onu Qara Bahadur və yoldaşları ilə birlikdə Məncilə gətirdi. O isə Xan Əhməd ləşkərinin elə həmin gecə hücum edəcəyi qorxusundan Salman xana qoşularaq, xanı oradan çıxanb Kuhdəmə apardı. Xan Əhmədsə Salman xanın gəlişindən və Mirzə Kamranın xana qoşulmasından xəbər tutaraq öz adamlarına geri dönmə əmrini verdi.

Amma, Salman xana dedi: "Mirzə Kamran hiyləgər, fitnəkar və qəddar adamdır, onun sözlərinə aldanmayın. Yaxşısı budur ki, ondan Cəmşid xanın qan əvəzini alıb, özünü həbs, ülkasını isə zəbt edəsiniz. Orada yaşayıb, ağacların yarpaqlardan və

meyvələrdən üryan olduğu və Biyəpəsin rəzil adamlarının müdafiyə və cəngə macalları olmadığı payrz fəslində mənimlə birlikdə həmin ülkaya gedərək oranı öz əlimizə keçirək".

Mirzə Kamran ağıllı, sözlü-söhbətli, yağlı dilli və zarafatcıl bir adamdı. Amma Salman xanın yağlı sözlərinə inanıb ona bunu xatırlatdı: "Xan Əhməd mənim iqtidarım və istiqlalımın qorxusundan qızılbaş qoşununu buraya çağırdı. O hal-hazırda məni gücsüz hesab edib sizin buraya gəlməyinizi istəmir. İndi Şirzad və Cəmşid xanın oğlu kimi adı hallanan və Biyəpəs Gilanına sahiblənən Sultan Mahmud onun mülazimi olmaq kimi alçaq bir hökm altındadır. Əgər belə davam edərsə hər iki Gilan onun olacaqdır. Onun köməyinə sizin qətiyyən ehtiyacınız yoxdur. Sizə isə heç bir minnət qoymadan mən özüm onun Biyəpəs ülkasını sizin üçün ala bilərəm".

Salman xan Cəmşid xanın oğullarını onun əlindən alıb Qərvinə göndərdi, Şahqulu Sultanın Xan Əhmədin yanına getməsinə görə, onun tabeliyindəki əmirlərin gəlib bir yerə toplanmasını gözlədi. Bir neçə gün sonra Şahqulu Sultan gəlib dedi: "Xan Əhməd deyir ki, meşələrin yamyaşıl, hər ağacın isə bir qala timsalı keçilməz olduğu hazırkı vaxtda, hələ Gilana getmək vaxtı gəlib çatmamışdır. Gərək qışın gəlməyini gözləyək".

Bu sözlər Mirzə Kamranın fikrinin qüvvətlənməsinə səbəb oldu. Oraya toplaşan əzəmətli əmirlər də getməyi məsləhət görüb Rəhmətabaddan çıxdılar, Mehdiqulu Sultan Çavuşlunu çərxçi təyin edərək Peykərli Berdi Xəlifə Kəngərlini birinci dəstəyə (cənd) başçı qoydular və irəliyə getdilər. Şirzad və Sultan Mahmud xan Əli bəylə və cənnətməkan şahın dövründə Cəmşid xanın vəkili olmuş Karkiya Əhməd Fumənինin oğlu Mahmud bəylə birlikdə qızılbaş ləşkərini müdafiə etmək məqsədilə Rəşt şəhərinə tabe olan Bicarpəstdən çıxdılar.

Şirzadın həbsi:

Mirzə Kamran isə qeyri-ənənəvi yolu ilə hərəkət edərək, bir dəstə qızılbaş ləşkəriylə Rəştə rəvan oldu. Qızılbaşların başqa bir yolla Rəştə yollanmalarından xəbər tutan Şirzad döyüşçüləri ehtiyatkarlıq üzündən xanlığa qaldırdığı oğlunun ixtiyarına buraxıb, özü şəhərdən xəbər tutmaq üçün bir neçə nəfərlə Rəştə gəldi. O Cəmşid xanın evinin yanındakı Siyahqurab meydanına çatarkən

qızılbaş ləşkərinin bir neçə çərxçisi də gəlib Rəştə çatdı. Şirzad həmin meydanda bir neçə qızılbaşı görüb onlara hücum etdi və çərxçi qaziləri ilə döyüş başlandı. Şirzadı tanımayan qazilərin biri nizə ilə onu atdan yerə saldı, ardı-ardınca gələn qızılbaşlar isə tutdular və, özünün kimliyini bildirən Şirzad ələ keçdi, on-on beş nəfər yoldaşının bəzisi yaralandı və bəziləri öldürüldü. Şirzadın ələ keçirilməsindən agah olan Salman xan və qızılbaş əmirləri zəfərlə Rəştə gələrək Siyahqurab meydanında özlərinə iqamət xeymələri qurdular.

Amma, qızılbaşların Biçarpəs yoluyla gələcəyini gözləməkdə olan Gilan ləşkəri günün axırında onların şəhərə daxil olmaları və Şirzadın ələ keçməsindən xəbərdar oldular, cəng əzmi ilə oradan şəhərə gəldilər. Onların səsləri qazilərə çatdıqda Salman xan və əmirləri orada bir dəstə əskəri onların qarşısına yolladılar, aralarında cəng başlandı. Gilanlılar bir qədər döyüşdükdən sonra üzlərini fərar vadisinə tərəf tutdular. Axşam düşdüyünə və sıx meşədə olmalarına görə qızılbaş süvariləri onları təqib edəbilmədilər. Kuhdəm piyadaları isə təqibə keçərək çoxlu adam ələ keçirdilər. Onlar Mirzə Kamranın əmriylə nəfəslərini belə dərmirdilər. Xülasə, tutulan adamların çoxunu qətlə yetirdilər. Gilanlılar dağılışmağa başladılar, Məhəmməd bəy və Əli bəy Fumənə getdilər.

Salman xan və əmirlərin vəziyyəti ali dərgaha ərz etmələrindən sonra, şahın əmriylə, Cəmşid xan hərəmxanasının şahzadə xanımı orduya göndərildi. Salman xan Cəmşid xanın evində, əmirlər isə münasib mənzillərində yerləşdilər. Qara Bahaduru Salman xanın vəkili kimi rəiyyəti nəvazişləndirməyə rəvan etdilər.

Şirzadın qətli:

Amma, Gilan rəiyyəti heç veçhlə qızılbaşlara ram olmur, meşə və cəngəlliklərə üz tutub müxaliflərə qoşulurdular. Əmirlərsə, hər gecə biri başqa olmaqla bir dəstə Kuhdəm adamıyla qarovuli sifətiylə yola düşür, ehtiyat tədbirləri görürdülər. Nəhayət Məhəmməd bəy və Əli bəy çoxlu nərdivan hazırlatdırıb, Cəmşid xanın mənzillərinə daxil olmaqdan və Salman xanı qətlə yetirməkdən ötrü bir gecə şəhərə üz tutdular. Keşik çəkən Qara Bahadur və Salman xanın mülazimləri onlarla döyüşərək, bir neçə

Gilan qazisini ələ keçirdilər. Onlar qarovul ləşkərinin bu hücumundan xəbər tutub nərdivanlar aşağı endilər. Ertəsi gün isə əmirlər Şirzadın sağ qalmasını məsləhət bilməyərək onu qətlə yetirdilər. Bundan şad olan Bayandur xan Talış, Əmir Siyavuş və Əmir Həmzə xan Kəskər və Tavalişdən Rəştə gəlib Salman xanla görüşdülər. Onlar zahirdə öz şadlıqlarını gözlətmirdilərsə də, batində qızılbaş əmirlərinin Gilana dəxalət etmələrinə razı deyildilər və buna görə də maneçilik göstərirdilər. Meşə və cəngəlliklərə səpələnmiş rəiyyət geri qayıtmır, əmirlərin mənafeləri üçün cəhd etmirdilər. Qarət həvəsiylə gəlmiş mülazimlər dağılışmağa başladılar. Elə dövlət başçıları tərəfindən də heç bir kömək gəlmədi. Əmirlər qarovuliyə getmək və keşik çəkməkdən təngə gələrək Gilan işlərini ürəkləri istədiyi kimi görmədiklərindən, oranın hakimliyindən əl çəkib uzaqlaşmaq qərarına gəldilər. Salman xan bununla razılaşmır, heç bir vəchlə onların Gilanı tərk etmələrinə razılıq vermirdi. Ağıllı, təcrübəli adam olan Şahqulu Qarınca bu məsələni müşahidə edərək Gilandan çıxıb-çıxmamağı ustaclı tayfasının ixtiyarına verdi, bu barədə Mirzə Kamran, Bayandur xan və Əmir Həmzə ilə məsləhətləşdi, onlar da bu fikri bəyəndilər. Məsələ əmirlər tərəfindən də bəyənildi. Sübh açıldıqda Kəskər və Kuhdəm piyadalarını hər tərəfdən gətirdilər ki, meşə və cəngəllikbrdə gilanlılar tərəfindən qızılbaş süvarilərinə nəsə bir xətər toxunmasın. Beləliklə, Rəştdən çıxmalı oldular və Gilan camaatı bu məsələdən elə həmin gecə xəbər tutdu. Sübh çağı bir tərəfdən qızılbaşlar atlara süvar olub şəhərdən çıxır, o biri tərəfdənsə gilanlılar şəhərə daxil olurdular. Onlar qızılbaşları təqib edərək, onlara əl uzatmağa da başladılar. Əzəmətli əmirlər döyüşə-döyüşə iki-üç fərsəx yol gedib günün axırında Kuhdəmə çatdılar. Elə həmin gün Mirzə Kamran, Bayandur xan, Əmirə Səyavuş və Qara Bahadur əmirlərdən ayrıldılar, günün sonunda qorxularından bir-birləriylə vidalaşmadan belə, münasib yollarla öz yerlərinə çıxıb getdilər, qızılbaş əmirləri isə pərişan və nizamsız bir halda Qəzvin darülsəltənəsinə qayıtdılar. Bu sətirlərin müəllifi həmin səfərdə Salman xanla yol yoldaşı olduğundan, baş verənləri öz gözüylə gördüyü üçün uzunçuluqdan çəkinməyib onlan təfsilatla qələmə aldı.

AZƏRBAYCANDA VƏ ŞİRVANDA BAŞ VERƏN HADİSƏLƏR VƏ TATAR QAZİ GƏRAY XANIN ALLAHIN TƏQDİRİ İLƏ MÜZƏFFƏR QAZİLƏR TƏRƏFİNDƏN ƏSİR ALINMASINA DAİR SÖHBƏT

Bu balıq ilinin qışı qışlaq yerində başa çatdı və türkicə ilan ilinin aləmi işıqlandıran novruzu yaxşılıqla cilvələndi, baharın ənbər qoxulu nəsimi rüzgar gülşəninə təravət gətirdi, soyuğun qarət ləşkəri isə bahar əsgərlərinin gözəl qədəmləri müqabilində məğlub olaraq geri çəkildi. Yuxarıda yazıldığı kimi, İbrahim xan Tükman sülhü təzələmək üçün İstanbula göndərildi. Həmişə bu xanədana tabe olan Gürcüstanın Kaxet vilayətinin valisi Aleksandr xan rumilərlə əlaqə yaradıb onlarla bağlı olduğunu bildirdi, özünü bu dövlətin həvaxahlarından sayan Gürcüstanın Kartil[349] valisi Səmayun xan ilə Aleksandr xan arasında ziddiyyət və inadkarlıq yaranmışdı və Səmayun xan onu rumilərlə dostluq və xoş münasibətlərdə ittiham edirdi. Belə töhmətlərdən hərçənd uzaq olan Səmayun xan Lələ paşa Şirvana hücum edəndə rumilərə qarşı çıxdı, onunla [osmanlı döyüşçüləri] arasında dəfələrlə böyük hərblər baş verdi.

Bu il [də] rumilər Tiflis, Qori və başqa qalalara ehtiyat tədarük və silah yolladıqları vaxt Qarabağ bəylərbəyi İmamqulu xan tərəfindən onların yolu kəsildi, hərblər vaqe oldu, göndərdikləri hər şey qızılbaşların əlinə keçdi.

Amma, könül rahətliyindən ötrü İsgəndər şanlı nəvvab və əbədi dövlətin sütunları (başçıları - Ş.F.) Səmayun xanın qızını nəvvab şahzadə [Həmzə Mirzə] üçün almaq onun sadiq qalacağından tamamilə arxayınlaşmaq və Aleksandr xan məsələsini onun rəyi və məsləhəti ilə etmək fikrinə düşdülər və bundan ötrü Müseyib xan Şərəfəddinoğlu Təkəlini Gürcüstana, Səmayun xanın yanına yolladılar. Xan zahirən bu qohumluqdan iftixar duyduğunu və şadlandığını bildirirdisə də, batinən din fərqinə və başqa xüsusiyyətləri nəzərə alan gürcülər bu qohumluğa razı deyildilər. Onlar zəruri yaraq tədarükü hazırlamaq bəhanəsi ilə vaxtı uzadırdılar. Elə o vaxtlarda tatar Qazi Gəray xan və Səfi Gəray xanın Şirvana gəlmə xəbəri eşidildi. İmamqulu xan tatar ləşkəri gəlib çatmazdan əvvəl Şirvana - Peykər xana çoxlu kömək

[349] Kartli - Ş.F.

göndərmişdi. Osman paşa da Dərbəndin Qarabağından bir dəstə rum döyüşçüsünü Dəlduvançı (?) Rumi ilə birlikdə tatarlara qoşub qızılbaşlar üzərinə yola salmışdı. Onlar Şamaxıya yaxınlaşdıqları vaxt, bu tərəfdən Şirvanda olan Peykər xan, qacar, cagirli və qaramanlı əmirləri tatar və rumiyyə ləşkərindən müdafiə olunmaq üçün irəli çıxdılar. Şamaxı və Şabran arasında onların arasında döyüş başlandı. Qızılbaşlarla müharibədə cəsurlaşan və onlardan qorxmayan Qazi Gəray xan öz igidlik kəhərini şücaət meydanında cövlana gətirib qəhrəmanlıqla vuruşurdu. Döyüş əsnasında o, qacar qaziləri tərəfindən hücuma məruz qaldı, onun xilas və nicat qapısı bağlandı, Allahın təqdiri ilə qəza pəncəsinin əsiri oldu. Onun ələ keçməsi nəticəsində Peykər xanın qızılbaş əmirlərinin bayrağını fəth və zəfər küləyi dalğalandırdı, qızılbaşlar qalib, müxaliflər isə məğlub oldular. Səfi Gəray xan yüz həyəcanla o döyüşdən canını xilas edə bildi, vətəninə çatanadək əlini atının cilovundan çəkmədi.

Bu xidmətinə görə Peykər xan öz tay-tuşları arasında başıuca oldu və şah tərəfindən nəvaziş və lütfkarlıqla qarşılandı. Amma, ona taleyin gözü dəydi və elə həmin il taqətsizlik yatağına uzandı, təbii əcəllə vəfat etdi. Azacıq sonra isə Xəlifə Ənsar Qaradağlı [onun əvəzinə] Şirvana vali təyin edildi.

Qazi Gəray xan Tatarın qacar qaziləri tərəfindən tutulması:

Amma, göylərin iradəsi ilə gərək Şirvan vilayəti [yenə rumilərin əlinə keçəydi və osmanlılar] bir müddət orada hakimiyyət büsatı quraydılar. [Buna görə də] qızılbaşların cidd-cəhdləri nəticəsiz qaldı, Xəlifə Ənsar Şirvanda bir iş görə bilməyib tezliklə vəfat etdi, bəqa aləminə yollandı.

[Misra]

Getdi ki,başqa cahan mülkünü işğal eləsin[350]

Xəlifə Ənsarın vəfatına, hümayun şah məiyyətinin İraqa qayıtmasına və gələcək il baş verən Xorasan səfərinə görə daha qızılbaşlardan kimsə Şirvanda qalmadı. Osman paşa [isə]

[350] Misranın farscası:
Rəft ta molke-an cəhan girəd.

Dərbənddən Şamaxıya gələrək qalanı möhkəmləndirdi, həmin vilayətdə yerləşdi ki, bu hadisələrin hər birinin təfsilatı gələcəkdə yazılacaqdır.

Xülasə, elə ki, Qazi Gərayı orduya gətirdilər, onu etibarlı gözətçilərin müşayiəti ilə Qəzvin və Gilanın arasında yerləşən - dövranın məşhur qalalarından və İsmailiyyə* məliklərinin iqamətgahı olan – Ələmut qalasına göndərib, qala hakiminə tapşırdılar.

Qızının gəlin göndərilmə vaxtının yubadılması səbəbindən Mirzə Salman sayı iyirmi min nəfəri ötən döyüşçüləri və əzəmətli əmirləri ilə birlikdə Aleksandr xan və Səmayun xanın arasındakı məsələləri dövlətin xeyrinə müvafiq həll etmək üçün Gürcüstana yollandı. Gürcüstan hakimləri qızılbaş ləşkərinin gəlişindən həyəcanlanıb üzrxahlıq etdilər. Aleksandr xan rumilərə "itaət cəriməsi": ("tərcumane-etaət") ödəsə də, qızılbaşlara xərac ödəməyi qəbul etdi, Mirzə Salman və əmirlərlə görüşdü. Onlar məsləhət gördülər ki, onun da qızını adlı-sanlı şahzadəyə alsınlar, onu rumilərə müxalif etmək məqsədilə bu sülalə ilə qohum, rumilərəsə müxalif etsinlər. And içirildi, arada gediş-gəliş başlandı. Aleksandr xan Mirzə Salmandan və qızılbaş əmirlərindən xatircəm olduqdan sonra onların yanına gəldi, görüşdü. Səmayun xan da Müseyib xanla birlikdə oraya təşrif gətirdi və bağlanan əhd-peymandan sonra əzəmətli əmirlərlə onların arasında sülh yarandı. Onlar məsihi millətinin təbirincə xaça (xac) - gürcülərin istilahınca səlibə - və incilə and içib bundan sonra bu sülalə ilə dost olacaqlarına, birlikdə rumiyyə ləşkərini dəf edəcəklərinə, qızılbaşlarla yoldaş olacaqlarına and içdilər. Mirzə Salman və əmirlər təkcə onların qızlarının deyil, hər birinin oğlanlarından birini də şahzadənin mülazimi sifətilə ali orduya gətirilməsini əmr etdilər. Gürcü xanlarının itaətdən başqa çarələri qalmadı. Aleksandr xan o zaman on iki yaşı olan oğlu Kostandil[351] Mirzəni, Səmayun xan isə elə o yaşda olan Luvarsab Mirzəni ali xidmətə göndərdilər. Mirzə Salman və əmirlər İsgəndər şanlı nəvvabın və cahan nəvvabı adından onlara şahanə xələtlər verdilər. Aleksandr xan isə bir neçə il ödəmədiyi borc və xəracı verdi. Belə ki, üç min tümən İraq şahisini[352] sərkare-xasseye-şərifəyə, min tümən pulu şahzadəyə, min tümən isə Mirzə Salman,

[351] Konstantin - Ş.F.
[352] Pul vahidi – Ş.F.

əmirlər və dövlət başçıları üçün müəyyən edib, həmin məbləği varlı, ağıllı və etibarlı vəziri cuhud Yaqubla göndərdi və Gəncədə pulları təhvil verdilər. Aleksandr xan xahiş etdi ki, qardaşı İsa xanın Gürcüstanda qalmasına icazə versin. Həmçinin Səmayun xan da Aleksandr xanın yanında olan qardaşı Davud xanı geri çağırdı və hər ikisi boyun oldular ki, bundan sonra qardaşları ilə yaxşı rəftar edəcəklər. Səmayun xan və Aleksandr xan da qardaşlarının hər biri üçün dolanacaq xərci kimi öz ölkələrində mahal müəyyən etdilər ki, məişət xərcləri ödənsin və əziyyət çəkməsinlər. Amma onların hər ikisi qardaşları xüsusunda verdikləri sözdən qaçıb az bir vaxt içində onları aradan götürməyə çalışdılar və öldüklərini bildirdilər. Zamanın tələbi (vəqte-moqtəza) olmadığına görə onlar bu hərəkətlərinə görə cəzalandırılmadılar.

Xülasə, Mirzə Salman və əzəmətli əmirlər Gürcüstanla bağlı işləri, yuxarıda yazdığımız kimi, yoluna qoyub, Gürcü hakimlərindən xatircəm oldular və geri qayıtdılar. Onlar yuxarıda barələrində söhbət gedən oğlanlar və qızlarla ali orduya çatıb, baş verənlər barədə İsgəndər şanlı nəvvaba və aləmdəkilər şahzadəsinə məlumat verdilər və onların qəlbi rahat oldu. Oradan Meydancuq yaylağına gedib bir müddət istirahət etdilər. Sənan paşanın İstambula qayıtması xəbəri eşidildi. Həmin il rumilər tərəfindən heç bir narahatlıq olmadı. İbrahim xan sülh məsələsi ilə bağlı [İstanbula] getmişdi. Gürcüstan işləri isə, yuxarıda yazıldığı kimi, həll olunmuşdu. Həmin il qızılbaş ləşkəri Şirvanda qaldı. Xorasandan şamlı və ustaclı əmrlərinin üsyanı haqqında xəbərlər gəlirdi. Narahat (dəğdəğe) idilər ki, məbadə Gilandan çıxmış ustaclı əmirləri Xorasana gedib orada fitnəkarlıq edərlər. [Buna görə də,] hümayun məiyyətin dövlət paytaxtına (məqəre-səltənət) qayıtması vəziyyətə münasib bilindi, yaylaq havasının soyumağa başladığı payız [fəslində] qalibiyyətli qoşunlar İraqa qayıdaraq, sağ-salamat dövlət paytaxtına yetişdilər. O qışın qışlağı Qəzvin darüssəltənətində oldu.

KUH-GİLUYƏDƏ BİR QƏLƏNDƏRİN QİYAM (XORUC) QALDIRMASI VƏ O BƏD TALELİ ADAMIN ALLAHIN TƏQDİRİ İLƏ CƏZALANDIRILMASININ ZİKRİ

Bu ilin hadisələrindən biri də Kuh-Giluyədə bir qələndərin xüruc etməsidir. Bu qəribə hadisənin qısa təsviri belədir: İlin başlanğıcında olduqca İsmayıl Mirzəyə oxşayan və onun kimi cəmi

iki dişi olan bir qələndər, bəlkə də adamları özünə inandırmaqdan ötrü dişlərini özü çəkmişdir, Kuh-Giluyə əlvarının (lurlarının – Ş.F.)* yanına gedib hiylə və yalan qapılarını açdı, hamıya belə dedi: "Mən İsmayıl Mirzəyəm. Bir dəstə haramnəmək adam birləşib məni öldürmək istədilər. Məsləhətə qulaq asıb qaçmaq və qeybə çəkilməkdən başqa çarə görmədim. Ramazan ayı gecələrinin birində mən Halvaçıoğlu ilə dostcasına yatmışdım, gördüm ki, mənə qarşı ürəklərində ədavətləri olan bir dəstə adam mənim yataq otağımı dövrəyə alıb içəri soxulmaq istəyirlər. Mən otağın pəncərəsini sındırıb özümü çölə atdım və səllənət və şahlıq libasından üryan olub dərviş və qələndər geyimində bir guşədə gizləndim. O adamlar mənə oxşayan bir adamı öldürüb qışqırdılar ki, "Şah İsmayıl vəfat etmişdir" Mən İrandan çıxaraq iki il qələndər libasında dünyanın müxtəlif yerlərində xüsusilə, Rum vilayətində yaşadım, həmin vilayətin yaxşılıq və pisliklərini öz gözümlə seyr etdim. Amma öz sirrimi gözlədib heç kimə bildirmədim, çünki düşmənlərimin əksəriyyətinin bir-bir aradan çıxmalarını və əməllərinin cəzasına çatmalarını gözləyirdim. Elə ki vaxt yetişdi və düşmənlərimin məkrindən xatircəm oldum, özümün kim olduğumu elan etdim. İnşallah, sağ qalan düşmənlərimdən də intiqam alıb Rum ölkəsinin hər tərəfində yaşayan özümə sadiq və müfaviq adamlarla Rum mülkünü fəth edəcəyəm və filan-filan işlər görəcəyəm".

Qələndər tiryəkin (bəng) təsiri vaxtı lotuluq edir, beyninə çirkin xəyallar doldurub boş-boş danışır, adamlara gözəl vədlər edir, onların hər birinə İran, Turan və Rum ölkələrində vəzifələr boyun olurdu. Həmin səhra nadanları da ağlı başından çıxmış əbləh qələndərin sözlərinə inandılar, düz yoldan çıxıb aldandılar. Elə ki, İsmayıl Mirzənin ölüm xəbərinin yalan olduğu hər yana yayıldı, işin düzgünlüyündən xəbərdar olmayanlar o yalanları həqiqət kimi qəbul etdilər. Bu xəbər get-gedə bütün lur (mətndə əlvar - Ş.F.) tayfaları arasında yayıldı, "İsmayıl Mirzə" üzə çıxdı və o yerlərin adamları gəlib nəzir və peşkəş gətirdilər. Qələndər öz işinin o ağılsız adamlar arasında keçdiyini görüb şahanə büsatlar qurdu. Onun xidmətinə çox adamlar gəlir, səcdə edir, ayağını öpürdülər. Hər tayfanın ən gözəl qızlarını nəzir kimi ona gətirib, onları fərraşlıq şərəfinə nail edirdilər.

Xülasə, o ağıllı görünən divanə adam əbləhliyi üzündən öz səltənət və şahlıq dükanını bəzəyərək, müxtəlif təbəqələrdən olan şəxsləri ali vəzifələrə namizəd etdi və qoşun yığılması üçün fərman

verdi. Caki, cəvanki, bəndani və başqa lur tayfalarından yığılan döyüşçülərin sayı iyirmi min nəfərə çatdı. Qələndər bu ordu ilə Kuh-Giluyənin paytaxtı Dehtəştə gəldi.

Əfşar tayfası qələndərin xürucu barədə həqiqəti o zaman ali orduda olan Kuh-Giluyə vilayətinin hakimi Xəlil xana bildirdi və qələndəri dəf etmək məqsədilə əfşarlar, sərkərdəsi Rüstəm bəy olan Xəlil xanın övladlarının ətrafına yığıldılar. Tərəflər arasında bir neçə hərb oldu. Qələndərin adamları gah qələbə çalır, gah da məğlub olurdular. Əfşar və əlvarlardan çox adam bu döyüşlərdə öldürüldü. Allahdan gələn qəza nəticəsində Xəlil xanın oğlu Rüstəm bəy də öldürüldü və onun ölümü qələndərin qalib gəlməsinə səbəb oldu. Əfşar tayfası müqavimət edə bilmədi, əksəriyyəti öldürüldü. Qələndərin adamları əfşarların çoxlu qız və qadınlarını əsir götürdülər və Fars Xuzistanının hər tərəfinə hökm və məktublar yollayıb, tərəfdarlarını öz yanlarına çağırdılar. Şahın hümayun məiyyəti və özü uzaq Azərbaycan sərhədində böyük tədbirlərlə məşğul olduqlarından, qələndərin hökmü hər yana göndərildi, əksər yerlərin əhalisi itaətdən başqa çarə görməyib ona peşkəşlər yolladılar. Amma, qələndər ağılsız və əbləh adam olduğundan

Misra

Yalan çırağının işığı olmaz[353]

misrasında deyildiyi kimi onun yalan sözləri gündən-günə bütün Əlvar tayfası arasında şübhəyə səbəb oldu, onların ağıllı adamları onun barəsində tərəddüdə düşdülər.

Xəlil xanın qələndər qoşunu ilə cəngi ilə öldürülməsi:

Bu arada Xəlil xanın gəlişi xəbəri də ətrafa yayıldı. Qələndər luların bəzi adamlarından biguman və etimadsız olaraq hərbdən əl çəkib yardım almaq məqsədilə o vaxtlarda müşəşə ata-babaları Həvizə və ətrafının valiləri olmuş ərəb Seyid Şücaəddinin yanına - Həvizə və Dizfula getdi, əlvar əhalisinə isə onun əmrini gözləyərək öz evlərində qalmaq icazəsi verdi. Amma ali sarayda

[353] Misranın farscası:
Çerağe kəzb-ra nəbovəd foruği.

olan Kuhgiluyə hakimi Xəlil xan qələndərin peyda olmasını eşidib onun üstünə yollandı. Əlvarın səmayəndani camaatı qələndərin ətrayına yığışıb Xəlil xanın önünə çıxdılar və cəngə başladılar. Onlar təkcə bir yolu olan dağın dərəsində pusqu qurub, Xəlil xan göründükdə dağdan onun qoşununun üstünə daş yuvarlatmağa və ox-tüfəng atmağa başladılar. Qəza nəticəsində Xəlil xana bir ox dəydi və o, öldü. Onun ölümündən əfşar döyüşçüləri çox pərişan oldular və əlvar camaatı qətlə və qarətə başladı. Xəlil xanın qətli xəbəri qələndərə çatdıqda təzədən Dizfuldan Kuh-Giluyəyə getdi, yenidən onun başına çoxlu adam toplaşdı, Dehdəştə gəldilər. Qələndər orada bir neçə müddət də qalıb işinin üstünün açılacağı günədək bir neçə gün də nəfsani ləzzətlə ömür sürmək istədi. Amma Xəlil xanın qətli və şücaətli əfşar xanədanına qarşı qırğın törədilməsi xəbəri hər tərəfə yayıldı və xəbər şaha da yetişdi. O Xəlil xanın qardaşı İsgəndər xanı Kuh-Giluyəyə hakim təyin edib, oraya yolladı. O həmçinin Fars bəylərbəyi Ümmət xanı və Fars hakimləri olan zülqədər əmirlərini də qələndərin fitnəsini aradan qaldırmaqdan ötrü İsgəndər xanın köməyinə rəvan etdi.

Kuh-Giluyə hakimi İsgəndər xanın qətli:

Ertəsi il padşah Xorasana yollananda Ümmət xan bir dəstə Fars döyüşçüsünü Duraq Xəlifənin sərkərdəliyi ilə Kuh-Giluyəyə yolladı. İsgəndər xan və əfşarlar onunla birləşib Dehdəştə üz tutdular. Əvvəllər qələndərin ətrafına toplaşanlar arasında indi ixtilaf və dağınıqlıq düşmüşdü. Fars ləşkəri gəlib çatdığı zaman qələndərin fitnəsinin üstü artıq açılmışdı və onun barəsində əlvar camaatının rəyi dəyişilmişdi. Daha qələndərin köməyinə ətrafdan heç kəs gəlmirdi. Naəlac qalıb qalaya girərək qapıları bağladı. Onunla olan bir neçə adam bir neçə gün əhəmiyətsiz cəhdlər etdilər, zülqədər qazilərinin hücumu nəticəsində qala içindəkilərin hamısı qətlə yetirildi. Qələndəri isə tutub çəkə-çəkə çölə çıxardılar. Zülqədərlər qələndəri diri halda saraya aparmaq istəyirdilər, amma əfşar qaziləri hücum edib, zülqədərlərin razılığı olmadan onu qətl etdilər, başını kəsib ali dərgaha yolladılar. Hümayun şah və məiyyəti Xorasanın "Heydəriyyə türbəsi"nə gəlib çatdıqda, oranın mühasirəsinə başladılar. Orada şaha dedilər ki, Kuh-Giluyədə o tiryəkinin [qələndərin] fitnə atəşi söndürülmüş və İsgəndər xan Kuh-Giluyənin müstəqil hakimi olmuşdur.

Amma, az vaxtdan sonra əfşarlar bir dəstə fitnəkar adamı Xəlil xanın oğlu Şahqulu bəyin ətrafına toplanaraq Kuh-Giluyəni ələ keçirmək üçün İsgəndər xana qəfil hücum etdilər. Şahqulu bəy özünü "Şahqulu xan" adlandırıb, hakimlik bayrağını yuxarı qaldırdı. Amma Xəlil xanla qohum və əfşar əmirzadələrindən olan Əbdüllətif bəy Əfşarın oğlu Həsən bəy, Şahqulu xanın hakimliyinə razı olmayıb, onunla düşmənçiliyə başladı. O özünü "Həsən xan" adlandıraraq bir dəstə əfşarla Kuh-Giluyəyə gəldi. Arada inad yarandı, hər ikisi göstərilən vilayətdə biri-digərinə tabe olmayaraq hakimlik etməyə başladılar. Amma, padşah Şirazda olan vaxt onların hər ikisi onun xidmətinə gəldilər və Şahqulu, Həsən xan tərəfindən öldürüldü, Kuh-Giluyə hakimliyi ona verildi.

Xülasə, yuxarıda adı çəkilən qələndərin başına gələn hadisədən sonra başqa tiryəki qələndərlər də İsmayıl Mirzə olmaq həvəsinə düşdülər və bir neçə yerdə vaxtaşırı yeni İsmayıl Mirzələr peyda olmağa başladı. Camaat da onların ətrafına yığılır və yenidən dağılışırdılar. Onların biri Luristan və Çəmçalda ortaya çıxdı və Əlişəkərin tabeliyindəki kürdlər və lurlar (əlvarlar) onun yanına yığıldılar. [Yeni qələndərin] döyüşçülərinin sayı on minə çatdı. O da əmirləri və başqa adamları müxtəlif vəzifələrə təyin edərək, o yerlərdə fitnə qaldırdı. Qələndər Solaq Hüseyn Təkəlinin yanına bir adam yollayıb onu tabe olmağa dəvət etdi. Ona hətta vəkalət hökmünü də yolladı və onu Çuhə Sultan Təkəlinin yerinə vəkil və rüknüssəltənə təyin etdi. Solaq Hüseyn əqlinin çoxluğundan, guya onun dəf olunmasını deyil, ona itaət etməyi və vəzifə almağı üstün sayıb razılaşdı, sanki qələndərin İsmayıl Mirzəliyini qəbul etdi. O, ardı-ardınca qələndərə barxanələr[354] göndərib onun təşrif gətirməsini xahiş etdi, xeymə, yaraq və başqa şahanə mallar yolladı. Biçarə qələndər də ona inanıb tam şan-şöhrət ilə Çəmçala yollandı. Solaq Hüseyn və təkəli əyanları onun xidmətinə gəlib səcdəyə və ayaq öpməyə başladılar. Ağıl və biliyinə arxalanaraq Solaq Hüseyn qələndərin adamlarını tezliklə dağıtdı. Belə ki, fürsət tapıb onu həbs etdi. Müzəffər şah ordusu Xorasan səfərindən qayıdıb Qəzvin darüssəltənəsinə gəldikdə Solaq Hüseyn qələndəri ali dərgaha yolladı. Şahzadə (Həmzə Mirzə) "Meydane-əsb" xiyabanında ona barıt doldurulmuş libas geydirdi və partlatdı.

[354] Müxtəlif mallar - Ş.F.

Buna baxmayaraq, yenə də avara qələndərlərə ibrət dərsi olmadı. Talışda başqa bir qələndər da həmin arzuda oldu və onun ətrafında bir dəstə nadan adam toplaşdı. Həmin qələndəri də tutub Ərdəbil darülərşadına gətirdilər və cəzalandırdılar. Başqa bir qələndərsə Gurda və Xorasanın Fərah adlı yerində zühur etdi. Onun dövrəsinə fitnəkar bır çox adam yığıldı, fitnə-fəsad başlandı.

Xorasanın Fərah adlı yerində Hüseyn Sultan və qardaşı Əlixan Sultanın qələndərlərlə cəng zamanı öldürülmələri:

Fərah hakimi Hüseyn Sultan Əfşar onun fitnəsinə dəf etməkdən ötrü hücuma keçdi, arada hərb başlandı. Ğurlular qalib gəldilər. Allahın qəzavü-qədəri nəticəsində Hüseyn Sultan döyüş zamanı öldürüldü, əfşar tayfası əzilib Fəraha qayıtdı. Məsələ ali saraya ərz olundu. Hüseyn Sultanın qardaşı və əfşar qorçilərinin yüzbaşısı olan Əlixan Sultan qardaşının yerinə təyin edildi, Fəraha gəldi, qardaşının qanını almaq üçün qələndərə hücum etdi. Qələndərin adamları hərbə başladılar. Tərəflərin uzun sürən döyüşündən sonra Əlixan Sultan da öldürüldü və əfşar tayfası bu döyüşdə də qələbə qazanmadı. [Sonra] Yegan Sultan, onların qohumu, Fəraha hakim təyin edildi. O, Ğura çatanda qələndərin yalançılığı öz adamlarına bəlli oldu və onu öldürdülər.

Xülasə, İsgəndər şanlı nəvvabın hakimiyyətindən dörd-beş il keçən müddətdə [yalançı] İsmayıl Mirzə əhvalatları camaatın dilində dolaşmaqda idi.

DOQQUZ VÜZ SƏKSƏN DOQQUZUNCU (1581/82) İLAN İLİNDƏ BAŞ VERMİŞ XORASAN HADİSƏLƏRİ VƏ ALLAHIN TƏQDİRİ İLƏ ƏLAHƏZRƏTİN (ŞAH ABBASIN - Ş.F.) O VİLAYƏT TAXTINA CÜLUSUNUN ZİKRİ

Keçən ilin hadisələri haqqında qələm bunları yazmışdır: Müqəddəs Məşhədin hakimi Mürtəzaqulu xan Pornakın Herat bəylərbəyi Əliqulu xan Şamlıya, [həmçinin] Mürşüdqulu xan Yegan Ustaclı və yoldaşlarına qarşı üsyan və tüğyanı baş vermiş, onlar müqəddəs Məşhədə və Nişabura hücuma keçmiş və bu hadisələr barədə ali dərgaha ardıcıl olaraq ərz olunmuşdu. Əmir xan və türkman omirləri oymaqların təəssübünü çəkərək bu haqda danışıqlar aparmış, Mürtəzaqulu xana imdad və kömək göstərilməsi

təklifini irəli sürmüşdü. Müzəffər dövlətin başçıları də Xorasan işlərinin nizamlanmasını Məhəmməd xan Türkmanın öhdəsinə qoymuş və onu atasının qanını almağı tələb edən İsmayılqulu xan Şamlı, Qorxmaz xan və bəzi əmir və döyüşçülərlə birlikdə həmin fitnə atəşini əql və tədbirlə söndürməkdən, Xorasan əmirlərini İsgəndər şanlı nəvvab və aləm şahzadəsi Sultan Həmzə Mirzə ilə müxalifətdən çəkindirməkdən, Əliqulu xan və Mürtəzaqulu xan arasındakı anlaşılmazlığı ya islah etməkdən, ya da zamanın və dövlətin məsləhətiylə aradan qaldırmaqdan, qızılbaşlar arasında başlayan iki tərəfliyi qadağan etməkdən və hamının başı bir yaxa altından çıxarmasından ötrü yollamışdılar. Onlar fərmana əməl edərək yola düşmüş, bir neçə gün İraqda qoşun və ləşkər tərtibi ilə məşğul olmuş, yürüş cilovunu Xorasan tərəfə döndərmişdilər. Onların gəlmə xəbəri Xorasanda yayılan vaxt Əliqulu xan və Mürşüdqulu xan da müqəddəs Məşhədə yürüş məqsədilə öz yoldaşlarına xəbər yollamış və adlı-sanlı əlahəzrət zilləllah şahzadənin ordusunun tərkibində Herat darüssəltənəsindən yola çıxmışdılar. Onlarla əhd-peymanda olan əmirlərin hamısı da öz ləşkərlərini bəzəyərək ali orduya gəlmiş, əzəmət və təmtəraqla müqəddəs Məşhədin sərhədinə çatmışdılar. Mürtəzaqulu xanın məqsədi böyük bir qoşun hazırlayıb üstünə gələn ağır qoşuna qarşı çıxmaq olduğundan o, müqəddəs Məşhədin bütün mədaxilini və malikanə ixracatını özünə götürdü, adamlara saysız-hesabsız ənamlar payladı, oymaq tayfalarına və döyüşçülərə qızıl verdi, uzun müddət ərzində müqəddəs Məşhəddə yaşayan varlı adamlardan və tacirlərdən kobud tələblər etdi. Onun müsadirə edib özünə götürdüyü şeylər həddini aşdı və xan ətraf yerlərdəki hər şeyi öz əlinə topladı. Hətta öz cəsarət əlini müqəddəs astananın xəzinəsinə də uzadaraq, həmin rövzənin (İmam Rza məscidinin - Ş.F.) zər-zivərini də özünə götürüb, oranın bütün qızıl-gümüş qəndil və şamdanlarını da zəbt etdi və toplanmaş vəsaiti döyüşçülərin ülufə və mərsumatına xərclədi. Elə buna görə də onun istəyi yerinə yetmir, düşündüyü əks nəticə verir və bəyənilmirdi. Xülasə, Məhəmməd xan və İsmayılqulu xan onlara göndərilən döyüşçülərlə birlikdə müqəddəs Məşhədə çatdılar və orada Məhəmməd xanla Əliqulu xan arasında nəsihətamiz yazışma baş verdi.

Amma Məhəmməd xan türkman oymaqlarının bir təəssübkeşi kimi, İsmayılqulu xan isə Vəli Xəlifənin qan qisasını almaqdan ötrü gəldiklərindən onlarla Mürtəzaqulu xan arasında iş

məsləhətdən keçmişdi. Buna görə də məktubların heç bir təsiri olmadı. Əliqulu xanın iddiası beləydi: "Bizimlə Mürtəzaqulu xan arasındakı fitnə və savaş atəşi elə alovlanmışdır ki, o, mövizə və nəsihət suyu ilə sönməz və bizim aramızda heç bir vəchlə razılaşma mümkün olmaz. Əgər onun yerini dəyişib Müqəddəs Məşhəd hakimliyini başqa əzəmətli əmirlərdən birinə versələr və öz alimiqdar atasının hökmü ilə bu sərhədə gələn şahzadə bununla razılaşsa, Mürtəzaqulu xan məsələni belə görüb tapşırıqdan və lələ-bəylərbəyinin məsləhətindən çıxmaz. Biz isə elə həmişəki kimi dövlətxah bəndəyik".

Qürur badəsindən məst olan Məhəmməd xan və Mürtəzaqulu xan türkman tayfasının çoxluğundan və ali dərgahda sahib olduqları ali mərtəbəyə güvəndiklərindən məsələnin bu cür həllinə yol vermədilər, məktublaşma və elçi gediş-gəlişini dayandıraraq, ətraf yerlərdən öz təbəələrini toplamağa başladılar. Müqəddəs Məşhəddə də çoxlu adam yığıldı.

Amma, Əliqulu xan və Mürşüdqulu xan müqəddəs Məşhədə getməyin onlara fayda verməyəcəyini başa düşdülər, çünki onlar keçən il Dərviş Məhəmməd xanın davranışından narazı qalmışdılar. Zəmanəyə görə, belə məsləhət gördülər ki, əvvəlcə Dərviş Məhəmməd xanı cəzalandırmağa yollansınlar. Dedilər ki, əgər Məşhəd əmirləri ona kömək məqsədilə şəhərdən çıxsalar, hər iki tərəf qarşılaşar və pərdə aradan qalxar, Nişaburdan xətircəm olduqdan sonra müqəddəs Məşhədə hücuma keçərik.

Əliqulu xanın Nişabur qalasını tutmaq əzmi ilə gəlişi:

Beləliklə, Məşhəddən cilovu döndərərək Nişabura yollandılar, şəhər ətrafına çatdılar. Dərviş Məhəmməd xan isə qaladarlıq silahları toplamağa və qalanı möhkəmləndirməyə başladı, şəhər qapıları bağlandı, xan üzünə maneçilik qalxanı tutdu. Qarşı tərəf isə qalanı araya alaraq, qala tutmaq tədbirləri ilə məşğul olmağa başladılar. Onların Nişabura getmələrindən xəbər tutan Məhəhmməd xan və Mürtəzaqulu xan müqəddəs Məşhədi boş qoymağın səhv fikir və günahkar tədbir olduğunu düşünüb, bu hadisəni dəf etməyin asan olacağını sandılar, özləri şəhərdə qalıb, İsmayılqulu xan Çekəninin sərkərdəliyi altında bir dəstə döyüşçünü Dərviş Məhəmməd xana kömək üçün Nişabura tərəf rəvan etdilər. Nişabur yaxınlığında tərəflər arasında cəng başlandı. Amnıa, iqbal

nəsimi Abbas dövləti əmirlərinin bayrağı üstündə əsdi və əlahəzrətin adamları qələbə çaldılar. İsmayıl xan, Budaq xan və yoldaşları isə məğlubiyyət yoluna düşərək məğlub və bədhal tərzdə gəlib müqəddəs Məşhədə çatdılar. Bu hadisə Abbas əmirlərinin şövkət və qüdrətlərinin artmasına Məhəmməd xan, Mürtəzaqulu xan və Məşhəd əmirlərininsə pərişanlığına səbəb oldu və Məşhəd ləşkəri bu vaqiədən sonra özündə onlarla döyüş qüdrəti görməyib, şəhərdən kənara çıxmadı, onların sayca çox olmaları azalmağa başladı. Məşhəd ləşkərinin məğlubiyyətindən sonra Abbasın əmirləri, xüsusən ustaclı tayfası belə bir fikrə düşdülər: "Qəzavü-qədərin hökmü ilə bizə bu qələbə qismət oldu. Bir halda ki, müzəffəər İsgəndər şanlı nəvvab dövlətinin başçıları bizim tayfanın alnı üstünə müxalifət və üsyan qələmi çəkmişdir, biz hamılıqla öz vasitəçilik əlimizi əlahəzrət zilləllah şahın iqbal ətəyinə uzatmalı və o həzrəti "padşah" adlandırıb Xorasan taxtına əyləşdirməliyik. Qoy hamıya məlum olsun ki, bizim etdiyimiz səy və xidmətimiz fəqət o həzrətin yolundadır. Qoy dost və düşmənin kimliyi məlum olsun".

Onlar bu haqda Əliqulu xan Lələ ilə də söhbət etdilər. O həzrətin xilafət və padşahlığı artıq qəzavü-qədərin təqdir qələmi ilə yazıldığından bütün xoşxah adamlar bu fikri münasib bilib, belə bir ali mətləbin baş tutmasına çalışdılar.

ƏLAHƏZRƏT ZİLLƏLLAH ŞAHIN XORASAN TAXTINA CÜLUSUNUN ZİKRİ

Doqquz yüz həştad doqquzuncu (miladi 1581/82) ilə bərabər olan türkicə ilan ilində - ayın (qəmər) məsud şərəf məqamında (beytüş-sərəf) olduğu və nəhs (mənhusə) ulduzların çətinliyin (vəbal) ən aşağı nöqtəsində (həziz) düzüldiyi bir gündə şahanə məclis qurub, sultanlıq və padşahlıq taxtımnı bəzədilər və o iqbal ölkəsinin şahənşahı başqa sultanların qanun-qaydası üzrə cülus etdi, bu vaxtadək gözəl adı xalq arasında "Abbas Mirzə" kimi məşhur olan şahzadəni "Şah Abbas" adlandırdılar. O həzrət hərçənd ki, yaşının azlığına görə bu işə qarışmır və məşhur atasının və böyük qardaşının razılığı olmadan buna razılıq vermirdi, amma qəza və qədər işbilənlərinin köməyi ilə bu böyük iş ixtiyarsız olaraq baş verdi, şahlıq tuğrasına hökmlər yazıldı və Xorasanda sikkə və xütba onun hümayun adı ilə bəzəndi. Dillər mübarəkbadlıq üçün açıldı, Xorasanın əksər əyan-əfşarı, ərbabı və əhalisi ali dərgaha üz tutub

itaət və tabeçilik göstərdilər. O vilayətin böyük adamlarından və ali orduda münşiül-məmalik olan Mir Şahhüseynin oğlu Mir Məhəmməd Yusif Nişaburi başqalarından daha çox canfəşanlıq etdiyindən, əmarət rütbəsinə çatdı və "Mir Məhəmməd Yusifxan" adı ilə ləqəbləndi. O həzrətin maddeyi-tarixi "in sale-fərxəndefal"[355] oldu. Elə ki, bu xəbər müqəddəs Məşhədə yetişdi, Məhəmməd xanın və Məşhəd ləşkərinin pərişanlığına səbəb oldu. Xan bu məsələni ali dərgaha yazaraq məktubunu yel kimi surətlə gedən qasidlərlə Azərbaycana göndərdi. Allah-təala o həzrətin vücud cövhərini əzəldən parlaq və bəxt ulduzunu xürrəm və işıqlı yaratdığı üçün o, hələ cocuqluq vaxtından hamının ürəyində yer tutmuşdu və əhali onun hakimiyyətini arzulayırdı. Cülus xəbəri hər tərəfə yayılaraq şadyanalığa səbəb olur, qeybdən müşahidə olunan əlamətlər hamıya onun cülusu nıünasibətilə müjdə verirdi.

Xülasə, bu xoş səmərəli xəbər orduda yayıldıqda hamının təəccübünə səbəb oldu, çünki belə bir əhvalat Səfəvi xanədanı üzvləri arasında hələ görünməmişdi. Bu sətirlərin müəllifi əzəmətli sədr Qazi xan əl-Hüseynidən bu sözləri eşitdi: İsgəndər şanlı nəvvabın Qarabağda qışladığı ildə Aleksandr xanın müşrifi Xacə Ziyaəddin Kaşi orduya gələrək məndən soruşdu: "Bu xoşbəxt şahzadənin Xorasanda padşah olmasından xəbərin varmı?". Mən onun cavabında dedim: "Bəli, bu görünür ki, belədir, amma, hələ yəqinlik hasil deyildir". Kamal İsmayılın divanını açan Xacə şahzadənin vəziyyəti barədə o kitabdan fal açdı. Elə ilk səhifənin sağında (yəmin), bu qitə göründü.

Qitə

O cahan şahı öylə Xosrovdur
Ki, qılıncıyla dövrdür bərhəzər.
Bu fələk töhfə kimi verdi ona
Müjdeye-fəth, dövləte-digər.
Əqli müdrik, özü izə gəncdir,
Əli dəryadı, xəncəri gövhər.
Asiman böylə dünən ərz etdi:
"Bizə olduqca yaxındır bu xəbər.
Günəşin gəzdiyi hər bir tərəfi

[355] "Bu xoşbəxt fallı il" - Ş.F.

Al günəş tək tutacaqdır ol ər. "
Əql də təsdiq eylədi bu işi:
"Tutduğu mülk olacaqdır o qədər?
Tutduğu mülk ilə müqayisədə
Yeddi gərdun özü də az görünər.
Sübh olarkən olacaq sərvəti çox,
Zəfəri bəlli olar xəlqə səhər. "[356]

Əliqulu xanın məqsədə yetmədən Nişaburdan qayıtması:

Xülasə, bu hadisənin baş verməsindən sonra əmirləri (yəni Abbasın tərəfdarları - Ş.F.) tam cidd-cəhdlə qala tutmağa çoxlu səylər etdilər, amma ağıllı, mərdanə və tədbirli adam olan Dərviş Məhəmməd xan qalanın mühafizəsi üçün bərk çalışdı. Qala xaricində olanlar nə qədər çalışdılarsa da, oranı tutmağa müvəffəq olmadılar. Mühasirə müddətinin uzanması və qışlaq vaxtının yaxınlaşmasına görə, həmçinin İraq ləşkərinin gəlmə xəbəri yetişdiyindən, onlar məcburiyyət üzündən Nişabur qalasından uzaqlaşmağı məsləhət bilib, məqsədə yetişmədən Herat darüssəltənəsinə üz tutdular. Əzəmətli əmirlərin hər biri izn alaraq öz iqtasına getdi.

Xorasanda baş verən hadisələrin xəbəri Qarabağın Meydancuq adlı yerində İsgəndər şanlı nəvvabın ordusuna gəlib çatdıqda o, sərdar Sənan paşa ilə sülh danışıqlarına başladı.

[356] Qitənin farscası
Xosrove-tacbəxş-o şahe-cəhan
Ke ze tiğəş zəmane bər həzərəst,
Tohfeye-çərx suye-u hər dəm
Mojdeye-fəth-o dovlətе-degərəst.
Rəye-u pir-o dovlətеş bornast,
Dəste-u bəhr-o xəncərəş govhər.
Aseman duş ba xerəd migöfl
Ke, benezdike-ma çenin xəbərəst
Ke, begirəd be tiğ çon xorşud
Hər çe xorşid-ra bər an gözərəst.
Xerədəş goft: "To çe pendari?
Ərseye-molke-u həmin qədərəst?
Nə ke, dər conbe-padşahiye-u
Həft gərdun hənuz moxtəsərəst.
Baş ta sobh dovlətəş bedəməd
K-in hənuz əz nəticeye-səhərəst."

Yuxarıda barəsində yazılan və elçi kimi İstanbula göndərilən İbrahim xan Türkman İraqa qayıtmaq qərarına gəldi. Onlar köç-köç səltənət paytaxtına yollandılar. Qış fəslini Qəzvin darüssəltənəsində keçirib, at ilinin əvvəlində Xorasan fitnəsini yatırmaqdan ötrü yaraq hazırlığı görmək məqsədilə qorçiləri əmir və əsgər çağırısı üçün ətraf yerlərə yolladılar. Belə ki, bu varaqlardan sonra o ilin hadisələri şirin söhbətli qələmimizlə yazılmağa başlayacaqdır.

XORASANLILARIN FİTNƏ-FƏSAD MƏŞƏLİNİ SÖNDÜRMƏK MƏQSƏDİLƏ İSGƏNDƏR ŞANLI NƏVVABIN ZƏFƏRNİŞAN MƏİYYƏTİNİN XORASANA YOLLANMASININ ZİKRİ

Türki ilan ilinin qış fəsli mübarəkbadlıq və qələbə ilə cilvələndiyindən bahar (rəbi) və fərvərdin aylarının məşşatəsi özünün pərdəli (ehtecab) niqabını təzə reyhan gəlinlərinin rüxsarından götürdü. Ürək açan bahar isə eyş-işrət dövlətini hamıya göndərib zəmanə səhnəsindən paklıq və xürrəmlik bayrağını ucaltdı. Şah və adlı-sanlı şahzadə səltənət paytaxtında olub eyş və müxtalif dəvətlərlə məşğul idilər. Nəvvab isə işrət və kamranlıqla Mirzə Salmanın qızına elçi göndərib öz meyli və istəyi ilə onunla nikah kəsdirdi. Mirzə Salman şahanə bir toy qurdu və rəsmi evlənmə mərasimi ləyaqətlə icra olundu. Bu işlə əlaqədar bütün məsələlər tərəflər arasında yerinə yetirildi və qərara alındı ki, bu il o izzətli gəlinin yaraq-yasağı və zəruri zinət əşyaları hazırlansın, Allah-təalanın izni ilə toy və zifaf şənliyi isə gələn ilə qalsın. Bu məsələdən Mirzə Salmanın iftixar başı ərşədək ucaldı, hər şeydən üstünü bu oldu ki, o, müstəqil şəkildə vəzarət vəzifəsinin icrasına başladı. Baxmayaraq ki, əmirlər və dövlət başçıları bu işlərdən narazı idilər, amma şahzadənin xatirinə razılıq verdilər, özlərini gözdən salmadılar. Xorasan hadisələri, yuxarıda bəhs olunduğu kimi, bəlli olunduqda Xorasan əmirlərinin üzündən pərdə açıldı və əlahəzrət zilləllah şahın padşah olunması xəbəri Xorasandan gedib İraqa çatdı, məsələnin doğruluğu dəqiqləşdi. Məhəmməd xan, İsmayılqulu xan və Xorasana gəlmiş əmirlər müqəddəs Məşhəddən qayıdaraq, onun görüşünə yetmək şərəfinə çatdılar, Xorasan əhvalatını olduğu kimi ona ərz etdilər. Mirzə Salman və İsgəndər şanlı nəvvabın başqa dövlətxah və yaxın adamları, habelə aləm şahzadəsinin yaxınları çaxnaşmaya düşüb, xorasanlıların fitnə-fəsad

məşəlini söndürməkdən ötrü Xorasan yasaqına başladılar. Bu məsəb qorçibaşı, Şahrux xan və əmirlərin məcazlarına uyğun olmadı. Onlar [canqi, canəqi] məclislərində deyirdilər: "Rumilərin sözlərinə inanmaq olmaz. Xorasana hümayun yürüşün başlanması xəbəri rumilərə çatan kimi Sinan paşa fürsəti qənimət bilib, biz olmayan vaxt Azərbaycana tərəf hərəkət edər, həmin diyarda fitnə və qarışıqlıq yaranar. İndi hümayun yürüşün Azərbaycana yönəlməsi və düşmən şərinin dəf olunması dana məsləhətdir və dövlətin xeyrinədir. Hal-hazırda isə o adlı-sanlı şahzadənin Xorasanda etibar və iqtidarının yüksəlməsindən, əlbəttə, özbəkiyyə düşmənləri öz hesablarını alarlarsa, Xorasan əmirləri də ona tabe olarlarsa, və Xorasan əmirləri ona tabe olacaqlar ki, bu vəziyyətin əbədi dövlətimizə heç bir ziyanı olmayacaqdır".

Mirzə Salman və özlərini nəvvabın tərəfdarı kimi göstərən bir dəstə adam isə həmin əmirləri nifaq əhli sayıb;

İkilik ayini — həvəs və nifaq!
Qibleyi-eşq bircədir ancaq![357]

beytinin məzmununa uyğun olaraq, Xorasana getmək meylinə düşənləri suçlayırdılar. Onlar yeri gəldikcə İsgəndər şanlı nəvvaba və aləm şahzadəsinə xəlvəti və aşikar halda bu sözləri çatdırırdılar: "Xorasan səfərini pozmaq istəyən əmirlər arasında ikilik ayini (qarşıdurma - Ş.F.) qızışmaqdadır. Onlar çalışırlar ki, Xorasanda qurduqları dövlətin əsası möhkəmlənsin və beləliklə də ali dərgahda etibara nail olsunlar".

Belə söhbətlərin nəticəsində əmirlər yürüşü dayandırmaq məsələsindən daha söz açmadılar, Xorasana səfər məsələsində bir-birləri ilə müttəfiq oldular. Təbriz darüssəltənəsində olan Əmir xan Mosullu da nəvvabın xatirinə, yaxud Mürtəzaqulu xana kömək etmək məqsədilə yürüş barədəki həmin razılıq sənədinə imza atdı.

Xülasə, Xorasana yürüş etmək məsələsi xüsusunda bütün qızılbaş əyanları razılığa gəldilər. Ustaclı tayfasını arxayın etməkdən ötrü Salman xan Abdulla xan Ustaclının nəvəsi olan Şahəli Mirzənin oğluna divanbaşı vəzifəsini verdi və ona tapşırdı ki, öz mərhum

[357] Beytin farscası:
Həst ayine-dobini ze həvəs,
Qebleye-eşq yeki basəd-o bəs!

babasının yolu ilə gedərək ona əta olunan məktublara öz möhürünü vursun. Cənnətməkan şahın onunla nişanlanmış qızlarından biri olan Şəhrəbanu bəyimə layiqli toy edib onun evinə yolladılar. Şahqulu Sultan Qarınca, Əhməd Sultan Asayişoğlu və ali ordudakı başqa ülkasız ustaclu əmirlərinə şahanə şəfəqqət göstərildi, yasaq xərci verildi və Xorasan səfərinə qoşulmaları haqda əmr olundu. Tapşırıldı ki, əgər Xorasanda olan Mürşüdqulu xan və başqa üstaclı əmirləri düzgün yoldan çıxsalar, onların dəf olunmalarından sonra adları çəkilən əmirləri onlara əvəz təyin etsinlər. Salman xan, əmirlər və ustaclı ağsaqqalları boyun oldular ki, etibarlı adamları Xorasana yollayıb başqa ustaclı el və tayfalarına nəsihət etsinlər, məsləklərinə xilaf çıxmasınlar, üsyana yol verməsinlər. İxtiyar püşkü ustaclı tayfasının böyüklərindən və cənnətməkan şahın hakimiyyəti vaxtı onun məsləhətçisi (müşir) və hazırda Mürşüdqulu xanın əmisi olan Şahverdi bəy Yeganın adına düşdü. Buna görə də, hamıdan əvvəl yürüşə onu yolladılar və Xorasana göndərdilər.

Fars bəylərbəyi Əli xan Zülqədər yasaqa əməl etməməkdə taxsırlandığından və həmçinin bu iki-üç ildəki Azərbaycan səfərində Kuh-Giluyədə qələndərin qiyamı bəhanəsilə fars ləşkərinin yasaqdan qalmalarına görə Əli xan Zülqədər, həmçinin fars zülqədər əmirlərinin bir neçəsi vəzifəsindən götürüldü. Amma, zülqədər tayfasının böyüklərindən və ağsaqqallarından olan Ümmət bəy Yüzbaşıya xanlıq rütbəsi və Süleymanın taxtgahı, kəyanilərin darülmülkü sayılan o vilayətin əmirülüməraşı mənsəbi verildi. Əmirlər yenidən öz vəzifələrinə təyin olundular, Ümmət xana Fars ləşkərinin bir dəstə əsgərinin qələndərin dəfi, həmçinin İsgəndər xan Əfşarın imdadı üçün Kuh-Giluyəyə göndərilməsi xüsusda hökm verildi, ona tapşırıldı ki, özü ləşkərin qalan hissəsiylə birgə Xorasana yollanıb müzəffər orduya birləşsin. Habelə belə bir fərman da verildi ki, Həmədan hakimi Vəlixan Təkəli, Əlişəkər hüdudunun bəylərbəyi və o sərhədin əmirləri, Kirman darülamanının hakimi Vəlixan Əfşar o vilayətin döyüşçüləri ilə birlikdə Xorasan yasaqına getsinlər, bu səfərdə hümayun orduda olsunlar.

Xülasə, baharın üç ayını Qəzvin darüssəltənəsində işrət və kamranlıqla keçirdilər, əbədi dövlətin başçıları Xorasan yasaqına aid məsələlərlə məşğul oldular, məhsullar yetişmə vaxtında o istiqamətə doğru yollandılar. Qorçilər vasitəsiylə Xorasan əmirlərinə istimalətinamələr göndərildi və onlarda belə yazıldı: "Sədaqət və

şahsevənlik üzündən Mürtəzaqulu xan Pornakın ətrafında bir yerə toplaşsınlar və onunla birlikdə gələrək ali orduya birləşsinlər".

Beləliklə, zəfərəsər əsgərlər dəstə-dəstə hər tərəfdən ayəsi qələbə olan bayrağın kölgəsi altında toplaşırdılar. Az vaxt ərzində o qədər adam yığıldı ki, qızılbaş ləşkərini heç zaman belə böyüklükdə görməmişdilər. Yol əsnasında Şahverdi bəy Yegan Xorasandan qayıdaraq Mürşüdqulu xanın bəzi üzrlərini ərz etdi, amma danışıq vaxtı yekə-yekə danışdığı üçün töhmətə məruz qalıb vəzifəsindən kənar edildi. Ox-kaman qorçisi və ustaclı tayfa böyük və mötəbərlərindən olan Həsən bəy Çavuşluoğlu Mehdiqulu bəy də əmirlərin məclisində oymaqların təəssübü, habelə el və qəbilələrin himayəsi xüsusunda xoşagəlməz sözlər danışdığından etibarını itirdi və cəzalandırıldı. Salman xan və ustaclı ağsaqqalları onların hər ikisini qətl etdilər.

Amma, Əliqulu xan və Mürşüdqulu xan İraq ləşkərinin gəlib-çatma xəbərini eşidərək şahzadənin, yəni həzrət zilləllah şahın müqəddəs məiyyətində Herat darüssəltənəsindən çıxdılar. Əlahəzrət şahzadə ilə müvafiqət, amma İsgəndər şanlı nəvvabla müxalifətdə olmaq xüsusda bir-birləriylə əhd-peyman bağlayan əzəmətli əmirlərin hamısı onların başında cəm oldular, bir neçə mənzil qət edib, möminlər məkanı olan Səbzvaradək gəldilər. Hümayun şah ordusu Damğana çatan vaxt onlar artıq Səbzvarda idilər. İraq ləşkərinin qüvvət və şövkətinin şah ordusundan zəif olmasına baxmayaraq, xorasanlıların qorxmazlığı və onların Səbzvara qədər gəlib-çıxmalarından xatirləri kədərli və pərişan oldular. Adamlar güman edirdilər ki, o iki dəstə arasında elə bu neçə gündə böyük savaş vaqe olacaqdır. Böyüklərin və ağsaqqalların əksəriyyəti bu savaşı arzuolunmaz hesab edirdi, çünki qızılbaş tayfalarının qohum-əqrabaları bir-birləri ilə qaynayıb-qarışdıqlarından onların bir dəstəsi bu tərəfdə, digər dəstəsi isə o biri tərəfdə qarşı-qarşıya durmuşdular. Məsləhətçi əmirlərdən xüsusilə Qulu bəy Qorçibaşı və Şahrux xan müxalifətin tərk olunması barədə fikir söyləyirdilər.

Qazi Gəray xan Tatarın qacar qaziləri tərəfindən tutulması:[358]

Amma Mirzə Salman bu əmirlərin nəvvabla nifaqda olduqlarını düşünərək, onlarla birmənalı davranmırdı. Onlar da zamana uyğun hərəkət edərək daha artıq bir söz demədilər.

Hümayun ordu Məzinanda dayanan vaxt xorasanlıların geri qayıtmaları xəbəri orduya yayıldı. Məsələ belə olmuşdur: Əliqulu xan və Abbası əmirləri Səbzvara çatıb padşah qoşununun gəlişindən və İraq ləşkərinin çoxluğundan agah oldular, başa düşdülər ki, onlarla döyüşmək onların qüvvə və qüdrətlərindən uzaq bir işdir. Məsləhəti müharibə cilovunu geri çevirməkdə və öz ülkalarına gedərək qalaları möhkəmləndirməkdə gördülər. Həqiqətən də, o vaxt bundan yaxşı fikir və düzgün tədbir yox idi. Mürşüdqulu xan qalaya sığınmağı bəyənib, o tərəfə yollandı. Əliqulu xan və o hüdudun Herat və Ğuryan əmirləri cahanistan şahzadəsinin səadətli məiyyəti ilə Herat darüssəltənəsinə getdi, zəfər ayəli qoşun da onların ardınca hərəkətə gəldi. Mürtəzaqulu xan və Xorasan əmirlərinin əksəriyyəti gəlib müzəffər məiyyətə birləşdilər. Elə ki, Mürşüdqulu xanın Türbət qalasına sığınması xəbəri hümayun qulağa çatdı, qəhredici dövlətin başçıları bunu məsləhət gördülər: Əvvəla, onun işinin bitməsindən arxayın olsunlar və saniyfən o, nə qədər ki, həmin qaladadır başqa bir işlə məşğul olmasınlar.

Buna görədə Türbətə tərəf hərəkət edib, elə ki, qala ayağına çatdılar, qalanın hər tərəfini halqaya alıb əmirlər və oymaq əskərləri arasında seybə çəkilişi işlərini bölüşdürməyə başladılar. Onlar qalatutma alətləri hazırlığına girişdilər. Bir neçə gün ərzində böyük toplar gətirib hündür istehkamlar qurdular. Mirzə Salman, təkəli və türkman əmirləri başqalarından daha çox səy edirdilər. Mürşüdqulu xan qala əhli qala mühafizəsinə hazırlaşaraq müdafiəyə cəhd etməkdəydilər. Onlar şeybə hazırlığına başlayıb özlərindən sücaət əsəri göstərməyə başladılar. Birdən-birə bir şeybənin üstünə tökülüşüb təkəli tayfasının mötəbər əmirlərindən olan Ərdoğru Xəlifə Təkəlini qətlə yetirdilər. Həmçinin Qorxmaz xan Şamlının oğlu və nəvvabın eşikağasıbaşısı olan Təhmasibqulu bəy də həmin seybədə qətl olundu.

[358] Bu yarımbaşlığın adı kitabda səhv yazılmışdır, çünki Qazı Gəray xan Tatarın bu bəhsdəki məsələlərə qəliyyət dəxli yoxdur – Ş.F.

Xülasə, tərəflər arsında müharibə və sədəmə bazarı altı ay davam etdi. Qaladakıların bəzilərinin ümid hissi ilə qala xaricindəkilərlə mərdanə vuruşmalarına baxmayaraq heç bir təsiri olmadı. Dövlət tərəfdarlarından bəziləri, xüsusən Qulu bəy Qorçibaşı və Şahrux xan qan axıdılması qorxusundan qalanın zorla alınmasına razı deyildilər. Onlar söhbət arası oymaq ağaları və ağsaqqallarına gizlicə dedilər: "Ümidvarıq ki, qızılbaş qılıncı qızılbaşları qırmayacaq, işlər sülhlə nəticələnəcək və fitnə-fəsad sülhə səy edənlərin səyləri sayəsində müsbət həll olunacaqdır".

Amma, onlar bəzi düşmənlərinin və həsədkarların qorxusundan əmirlərin məclisində susur və bu barədə danışmırdılar. Beləliklə, qış fəslini qala ayağında başa vurdular. Türkicə qoyun ilinin (qüy yil) aləmi işıqlandıran xoş fallı novruzu gəlib çatdı. Mühasirənin uzanmasından hər iki tərəf bezmişdi. Qüvvətli dövlətin hər oymağının, xüsusən şamlı və ustaclı oymaqlarının ağsaqqalları bu məsələ barədə Mirzə Salman və dövlət əyanlarının hüzurunda söhbət açırdılar. Amma, az miqdar adam sülhə rəğbətli idi. Belə söhbətlərin başlandığı ilk vaxtlarda qüdrətli dövlətin əmirlər zümrəsindən Seyid bəy Kəmunə və Mir Əbülməalinin seyidləri və üləmaları əsgər qazisini bir neçə ağsaqqalla birlikdə qalaya yolladılar ki, Mürşüdqulu xana nəsihət verib onu İsgəndər şanlı nəvvab və nəvvab şahzadə ilə müxalifətdən çəkinsinlər.

Mürşüdqulu xan isə göndərilən elçiləri qalada saxlayaraq əmisi Şahverdi bəy Yeganın qətlindən incidiyindən şikayətləndi və bu dövlət adamlarının sözlərinə etimad etmədi. İş o yerə çatdı ki, Şahrux xan Möhrdar Zülqədər və Fars hakimi Ümmət xan bütün zülqədər tayfası ilə birlikdə şahdan və nəvvab şahzadədən Mürşüdqulu xanın təqsirinin əfvini xahiş etdilər. İcazədən sonra Şahrux xan qalaya gedib Mürşüdqulu xanla görüşdü.

Qaladakılar qalada qalmaqdan təngə gəldikləri üçün dövrün məsləhətinə uyğun olaraq barışıq və sülh qapılarını açıb cəng və savaş qapılarını bağladılar. Mirzə Salman və əzəmətli əmirlərin onunla qala yaxınlığında təkrar görüşündən sonra Mürşüdqulu xan İsgəndər şanlı nəvvab və nəvvab şahzadə ilə sədaqətli xidmət və qulamlıq barədə yeni əhd-peyman bağladı, onları buna (iman) inandırdı. Qərara alındı ki, ali ordu qala ayağından əl götürsün və ona bir neçə gün vaxt versinlər ki, hədiyyə hazırlayıb ali dərgaha getsin. Özünün əqrəba və ağsaqqallarından bir neçə nəfərini isə

Mirzə Salman və əmirlərlə birlikdə Mürşüdqulu xanın ərvi üçün ali saraya yolladılar.

O şəxslər əmirlərin və sülh tələbində olanların müşayiəti ilə nəvvab şahın və şahzadənin səcdlərinə yetməklə şərəfləndilər və işlərini yerinə yetirib geri qayıtdılar. Bu tərəfdən Mürşüdqulu xanın adına dostluq məktubları yazıldı, onun etdiklərinin əfvi və İsgəndər şanlı nəvvabın və səadətli fərzəndlərinin lələsi olmuş atası Şahqulu Sultan Yeganın bir neçə illik xidmət maaşının ödənilməsi xüsusunda əmr sadir oldu, xana faxir xələtlər göndərildi.

Onlar qala ayağından çıxaraq Herat darüssəltənəsi və müqəddəs Məşhəd yolu arasındakı münasib bir yerdə dayanıb Mürşüdqulu xanın gəlişini gözləyirdilər, amma ixtiyarsız olaraq Herata yürüş yenidən başlandı.

HÜMAYUN ORDUNUN HERAT DARÜSSƏLTƏNƏSİNƏ YÜRÜŞÜNÜN ZİKRİ, İRAQ LƏŞKƏRİNİN XORASAN VƏ ĞURYAN QOŞUNLARI İLƏ HƏRBİNİN BƏYANI VƏ XORASAN LƏŞKƏRİNİN ALLAH-TƏALANIN TƏQDİRİ İLƏ MƏĞLUB OLMASININ ZİKRİ

Ali ordu qaladan köçüb Herat və Məşhəd arasında dayanan vaxt Xacə İxtiyar Münşinin qohumlarından olan Xaca Əhdülmömin Herəvi Herat darüssəltənəsindən onların yanına gəldi. O, belə bir xəbər gətirdi: Fəxarətli Herat şəhərində Əliqulu xan, əmirlər və onların adamları nəvvab şahzadənin, yəni əlahəzrət zilləllah şahın müqəddəs qoşununun tərkibində şəhərdən çıxıb Guryanda dayandıqları vaxt ləşkərin keyfiyyət və kəmiyyəti haqda məlumat istədikdə sayı yeddi-səkkiz min nəfərdən artıq olmadı. Bu Mirzə Salman və əmirlərin təəccübünə səbəb oldu: Belə az ləşkər necə ola bilər ki, ondan on dəfə çox olan qalibiyyətli əskərlərin müqabilinə gələrək Mürşüdqulu xana kömək edə bilsin? Xacə Əbdülmömin bildirdi ki, qaladakıların məqsədi belədir: Elə ki, hümayun ordu onlarla döyüşməkdən ötrü Türbət qalasından çıxacaq, o zaman Mürşüdqulu xan mühasirə halqasından xilas olacaqdır. Padşahın iqbal qoşunu Guryana yaxınlaşan vaxt qoy onlar oradan keçib Herat qalasına gəlsinlər. Məlumdur ki, Türbət qalası altı ay müddətində fəth olunmadığı halda, dünyanın məşhur qalalarından biri olan Herat qalası heç bir ilə də alına bilməyəcəkdir. İraq ləşkərinin isə, rumiyyənin istilası və Azərbaycan sərhədinin böyük məsələləri ilə

əlaqələr Xorasanda qalmaq imkanı yoxdur və zərrurət üzündən arzu olunan məqsəd həyata keçiriləcəkdir. Xacənin bu tədbiri ağıl sahiblərinin xoşuna gəldi.

Amma, Allahın istəyi bu fikirin əksinə oldu və başqa bir vəziyyət alındı. Məsələnin təfsilatı belədir: Mirzə Salman və nəvvab şahın tərəfdarları, xüsusən atası Vəli Xəlifənin qətlinə görə Əliqulu xanla düşmənçilik edən İsmayılqulu xan, həmçinin Vəli xan Təkəli, şamlılar və ustaclılarla qədimdən ədavət edən təkəli əyanları bir-birilərinə xoş sözlər dedikdən sonra Abbasi əmirlərinin vəziyyətini belə düşündülər: Bir halda ki, müzəffər ordunun Türbət qalasından çıxmasından hələ Əliqulu xanın xəbəri yoxdur, gərək Guryana tərəf gedib özlərini onlara çatdırsınlar və o müqəddəs zatı (şahzadə Abbas Mirzənin - Ş.F.) və Əliqulu xanı ələ keçirsinlər. Əgər Türbət qalasından getmək xəbəri Əliqulu xana çatarsa, ehtimal ki, o Herata yetişməkdən ötrü Guryanda qalmayacaq, özünü Herat şəhərinə çatdıracaq, qala ləvazimatının hazırlığı ilə məşğul olacaqdır.

Dərhal bu məsələni nəvvab şahzadə ilə müzakirə etdilər və qərara alındı ki, elə həmin gün o öz məşhur atası ilə birlikdə hücuma başlasınlar, çünki bir ləhzə də yubanmaq olmazdı.

Ğuryanda İraq və Xorasan ləşkərlərinin savaşı və xorasanlıların məğlubiyyəti:

Nəvvab şahzadə əmirlərlə birlikdə bu məsələni İsgəndər şanlı nəvvaba bildirdi və onlar yürüşə yollandılar. Əmirlər və dövlət başçıları qorxudan öz narazılıqlarını bildirməyib bu təkliflə razılaşdılar. Elə o məclisdə Vəlixan Təkəli bir dəstə türkman əmirləri ilə çərxçi təyin olundular. Bu xəbər orduya yayıldı. Əskərlər at və başqa zəruri ləvazimat hazırlığına başladılar. Ləşkər dəryası Əxzər kimi dalğalandı. Əzəmətli əmirlər istər-istəməz İsgəndər şanlı nəvvabın və aləmlər şahzadəsinin məiyyətində yola düşüb, Tirpol kənarınadək bütün gecəni yol getdilər və o uzaq yolu üç gecə-gündüzə keçdilər. Dördüncü günü sübh çağı, o vaxt ki, hava hələ Abbasilərin libası rəngindəydi, müzəffər ləşkərin qarovulları Tirpol körpüsü kənarına yetişdilər. Əliqulu xan ordusunun qarovulları bundan agah olub ordunun gəlib çatma xəbərini ona bildirdilər. Əliqulu xan o vaxt bu xəbərin yalan olduğunu güman etdi, çünki İraq ləşkərinin hələ Türbat qalası ayağında olduğunu

düşündü və ehtimal etdi ki, qaladan körpüyədək böyük bir məsafə vardır.

Amma elə ki, sübhi-kazib (yəni yalançı sübh, alatoran sübh - Ş.F.) sübhi-sadiqə (əsl sübhə - Ş.F.) çevrildi, Tirpolun kənarında ləşkərin çayı keçmə səsləri eşidildi. Əliqulu xan və onunla yoldaş olan əmirlər atlara süvar olub qoşuna çərxçi təyin etdilər, sağ vo sol qolları bəzədilər və döyüşə hazır oldular. Bu tərəfdən də müzəffər ləşkərin bəzi döyüşçüləri körpüdən, bəziləri isə su keçidindən suyu (çayı - Ş.F.) keçdilər, hər iki tərəfin mübarizləri bir-birlərinin üstünə tökülüşdülər. Cəng mərəkəsi qızışdı. Şamlı tayfası və onun təbəələri bir az müdafiə ilə məşğul olub igidlik göstərdilər, amma İraq ləşkəri xorasanlılardan on dəfə çox olduğundan, az bir vax içərisində özlərinin səbat ayaqlarını möhkəmlədib mərdanəliklə vuruşdular.

Amma, İsgəndər şanlı nəvvabın iqbal ulduzu və cahan şahzadəsinin hümayun fallı çətiri nizamla gələn qoşunlarla göründükdə Əliqulu xanın və onun döyüşçülərinin gözləri həmin saysız-hesabsız ləşkərə sataşdı. Əlləri işdən, işləri əldən soyudu. Nəticədə onlar mübariz döyüşçülərin hücumu ilə darmadağın olaraq məğlubiyyətə uğradılar, qaçış vadisinə üz tutdular. Ard-ardınca gələn qızılbaşlar isə qızılbaşiyyə təəssübkeşliyi və qohumluqları üzündən onları öldürməyə və tutmağa çox da cəhd etmirdilər.

Amma, başqa oymaqların əksinə olaraq təkəli tayfası qılınclarını şamlı və ustaclı tayfalarının üzərinə çəkərək, onların çox adamını intiqam qılıncından keçirdilər, qarət və taraca yollandılar. Türkmanların və təkəlilərin əlləri elə ki, qarət etdikləri mal və əşyalara dəydi, onları taqib etməkdən vaz keçib öz işləri ilə məşğul oldular. İsgəndər şanlı nəvvab və cahan şahzadəsi döyüş yerinə çataraq orada dayandılar. Havanın hərarəti və hücum məşəqqətindən piyadaların və süvarilərin taqətləri kəsilmiş, heyvanlar hərəkətdan qalmışdılar. Mürtəzaqulu xan və bir dəstə əmiri elə həmin gecə Herat darüssəltənəsinə yolladılar ki, Özlərini şəhərə çatdırıb oranı zəbt edərək cah-calal qoşununun gəlişini gözləsinlər. Amma Əliqulu xan öz məğlubiyyətindan sonra fələk ehtişamlı şahzadədən, yəni əlahəzrətdən ayrılıb, başqa bir yolla aradan çıxdı. Əlahəzrət isə Herata ondan əvvəl digər yolla getdi. O həzrətin maiyyətindəki əzəmətli əmirlərin əksəriyyəti ölüm şərbətini dadıb bu qanlı burulğandan çıxa bilmədi. Hamin cəngdə qətlə yetən mötəbərlər bunlardır: Ağzıvar xanın oğlu Əbülfəth xan Şamlı, Qubad xan Qacar, "Kutval" təxəllüsü ilə məşhur olan Hacı Sultan Cığatay,

həmçinin qələm əhlindən o vaxtlarda əlahəzrətin vəziri olan Sultan Hüseynxanın vəziri Mirzə Məhəmməd Kirmani, əsir götürülənlər: Mürşüdqulu xanın qardaşı İhrahim xan, Xoşxəbər xan, Xacə Əli xan Kələntər və başqaları. Əsir tutulan mirzadələrin çoxunu Mirzə Salman əmirlərin razılığı olmadan qətl etdirdi, nəfəslərini çəkməyə belə qoymadı. Ləşkərə qoşulan qohumlarının əfv olunmaları xüsusunda əmirlərin xahişlərinə məhəl qoymayan Mirzə Salman onları da qətlə yetirdi ki, buna görə də onunla əmirlər arasında ədavət tozu göyə ucaldı.

Xülasə, adlı-sanlı şahzadə və fələk iqtidarlı sahibqıran, yəni əlahazrət və bir neçə öz canlarını fəda etməyə hazır olan fədai Herat yolunu önə tutdular. Azyaşlı olmasına baxmayaraq, Allahın ona verdiyi ağıl hesabına özünə sadiq olmayan bir dəstə adamdan ayrılaraq, yola düşdü və nifaq əhlini geridə qoydu. O həzrətin dövlət və iqbal sənədi Yaradanın özü tərəfindən imzalandığı üçün onlar gecə yarısı sağ-salamat Herata daxil oldular. Şəhərdə qalaraq qalanın kutvallığı ilə məşğul olan bir dəstə şamlı fədaisi hümayun şahzadəni görüb hədsiz şadiman oldular, o şərafətli zatın səlamət gəlib çatmasına görə şükürlər etdilər. Amma, o həzrətin şərif xatiri Əliqulu xanın ayrılığından rahat olmurdu. Onun başına nə gəldiyini bilmir və narahat halda öz intizar gözünü yola dikmişdi. Elə həmin gecə qala qapısı gözətçiləri cənab xanın gəlib çatma müjdəsini gətirib əlahəzrətin şadlığına və xoşhallığına səbəb oldular. Cənab xan isə şadyanalıqla şəhərə gəlib şahzadənin xidmətinə yetişməklə şərəfləndi, o şərafətli zatın salamat olmasına görə İlahiyə şükür etdi, fərəhləndi. Əliqulu xanın vəziri Xacə Əfzəl və mərəkədən qaçan adamların bir dəstəsi də gələrək Herata yığıldı, bürc və barıların möhkəmlənməsi ilə məşğul oldu. Onlar qaladarlığa başlayıb qala ləvazimatının hazırlığına başladılar.

Əlahəzrətin və cənab xanın həmin gecə Herata gəlmələrindən sonra Mürtəzaqulu xan Pornak və İsmayılqulu xan Şamlı Herat darüssəltənətinə rəvan olan bəzi əmir və əskərlərlə yola düşüb axşamüstü Herata gəlib çatdılar, mərhum Sultan Hüseyn Mirzə mədrəsəsində dayandılar. Uzun yol getməkdən və yürüşdən atlar yorulub hərəkətdən qalmışdı. Gələnlər sabah qalaya daxil olmaqdan ötrü Mirzənin mədrəsəsində istirahət etdilər. Onlar sübh çağı Herata daxil olmaq istəyəndə qapıları bağlı, bürc və barıları möhkəm gördülər. Məsələ İsgəndər şanlı nəvvaba və əmirlərə ərz olunduqda onların etiraz dilləri Mürtəzaqulu xana və yoldaşlarına

açıldı: "Siz niyə həmin gecə nəvvab şahzadə oraya çatmazdan əvvəl yuxunu özünüzə haram edib qalaya girmədiniz?" Həqiqətdə isə bu iş onların imkanları xaricində idi. Çünki atların əksəriyyəti bir neçə günlük yürüşə, cəngə qatılma, istiliyin şiddəti və havanın hərarəti nəticəsində yorulub yeriyə bilmirdi. Belə olan halda, bir gecədə Guryandan çıxıb Herata çatmaq məgər mümkün olası iş idimi?

Xülasə, ali ordu onların ardınca hərəkətə başlayıb Herat darüssəltənəsinə çatdılar. [Sultan Hüseyn] Mirzənin mədrəsəsi şahın və nəvvab şahzadənin dövlətxanası kimi hazırlandı. Mirzə Salman bu dövlətxananın yanında dayandı, hər tayfanın əzəmətli əmirləri isə öz təbəələri ilə birlikdə darvazalara tərəf gedib atlardan yerə endilər. Herat şəhəri əhatəyə alındı. Herat qalasını tutmağa çox cəhd edən Mirzə Salman əmirlərə öz söyüş və danlaq dilini açıb onları nəvvab şahzadəyə qarşı nifaq etməkdə ittiham etdi. İş o yerə çatdı ki, əmirlər onun əli və dilindən cana doyub onu qətl etmək üçün bir-biriləri ilə müttəfiq oldular. Mirzə Salman nəticədə bir neçə günlük dövlət başçılığı və böyüklükdən başını kənara çəkib əmirlərin əli ilə qətlə yetdi.

MİRZƏ SALMANIN ÖLDÜRÜLMƏSİ, ƏLİQULU XANLA SÜLH, ZƏFƏR NİŞANLI ORDUNUN ƏBƏDİ SƏLTƏNƏT PAYTAXTINA QAYITMASININ ZİKRİ

Mirzə Salman qızının nəvvab şahzadə ilə nigahından sonra bir qədər təşviş hissi keçirirdi. O, Təbriz hadisələrinin, vəzir Hüseyn bəyin və bacısının qətlə yetirilmələrinin, həmçinin aləm şahzadəsinin xoşuna gəlməyən bir sıra başqa işlərin baş verməsində [kürəkəninin] ondan şübhələnəcəyini güman edirdi. Amma böyük oğlu Mirzə Abdullah şahzadənin vəziri, kiçik oğlu Mirzə Nizam isə şahzadənin yaxın dostu olduğuna görə özünü nəvvabın fədailərindən sanır, ona başqalarından daha cox yaxınlıq və tərəfkeşlik izhar edirdi. O, həmişə əzəmətli əmirlərdən və bu güclü dövlətin başçılarını, xüsusiylə Qulu bəy Qorçibaşını, Şahrux xan Möhrdarı və Məhəmməd xan Türkmanı bir sıra qüsur və nifaqda ittiham edirdi. Mirzə Salman nəvvab şahzadəyə deyirdi: "Nə qədər ki, bu üç idbar adam sağdır, nəvvab şahzadə gülşəninin təravəti, suyu və rəngi olmayacaqdır". Mirzə Salman hərdənbir məclislərdə onların barələrində xoşa gəlməz əhvalatlar danışır və özünü tərifləyirdi.

Ordudakı fitnə-fəsadlı adamlar, xüsusən iddialı taciklər əmirlərlə gizlicə görüşür, onun sözlərini onlara çatdırırdılar.

Mirzə Salman Guryanın fəthindən sonra öz ağıl ipini əlindən buraxıb əmirlərə hökmlər edir və onları aşkar şəkildə nifaq törətməkdə günahlandırırdı. Əmilər də nəvvab şahzadənin onlarla davranışını seyr edərək, Mirzə Salmanın dediyi sözlərin yaxın vaxtlarda ona təsir edəcəyini anlayıb baş vəzirin bütün bunların səbəbkarı olduğu bilir və fürsət gözləyirdilər. Elə bu vaxtlarda Mirzə Salman gazərgahı[359] seyr etmək fikrinə düşüb oraya çoxlu yaraq-yasaq və ali bayram ləvazimatı göndərdi. O, bir dəstə nədimi, mütribi (çalğıçı - Ş.F.), müsahibi (həmsöhbəti - Ş.F.) və ali ordunun təb əhlini (yəqin ki, şairlər nəzərdə tutulur - Ş.F.) dəvət edib, təyin etdiyi gün şahanə bir bayram quraraq onlarla görüşəcəyini bildirdi. Əzəmətli əmirlər ordunun cahil və divanə xislətli üzvləri olan öz oğlanlarını, qardaşlarını, qardaşı övladlarını bir yerə yığıb qərara gəldilər ki, Mirzə Salman gazərgahda olanda onlar da oraya gedib onun işini bitirsinlər. Təyin olunan gün Mirzə Salman öz ləşkəri ilə atlara süvar olub gazərgaha* yollandı. Dəvət olunan məşhur əmirlərdən qorçibaşının oğlu Yusif xan, Məhəmməd xanın oğlu Vəlican xan, Şahrux xanın qardaşı oğlu Xəlil Sultan və onlara tay başqa adamlar onu qətl etmək üçün ağır qoşunla başqa yolla öz məqsədlərinə doğru yönəldilər.

O adamlardan biri gazərgahın yaxınlığına gələrək Mirzə Salmanı məsələdən agah etdi, o da dərhal geri qayıtmaq qərarına gəlib iztirabla şəhərə üz tutdu. Onunla birgə olan mülazimlərinin çoxu yolda dağılışdı. Əzəmətli əmirzadələrsə gazərgaha çataraq, Mirzə Salmanın geri qayıtmasından agah oldular və bir dəstə adam göndərdilər ki, onu əgər yolda haqlasalar, öldürsünlər, yox əgər görə bilməsələr bu işin icrasını başqa vaxta saxlasınlar.

Onlar ona çatmadılar. Mirzə Salman yoldan dövlətxanaya çatıb İsgəndər şanlı nəvvabın və nəvvab şahzadənin yanına gələrək, əmirlərin niyyətindən onları agah etdi. Nəvvab şah əmirlərin yanına gəlmələri xüsusunda əmr etdi. Bütün əmirlər və dövlət başçıları gəlib yığışdıqdan sonra onlardan soruşdu: "Bizim vəzirimiz və

[359] Herat şəhərindəki fəxri qəbiristanlıq. Böyük alim və şairlərin - Xacə Abdullah Ənsarinin", Əbdürrəhman Caminin"", Abdulla Hatifinin"" və başqalarının qəbirləri oradadır ki, bu sətirlərin müəllifi XX əsrin son onilliklərində Əfqanıstanda işlərkən dəfələrlə həmin gazərgahı ziyarət etmişdir - Ş.F.

yüksək etimadlı adamımız olan Mirzə Salmana qarşı belə hərəkətinizin səbəbi nədir?" Əmirlər əvvəlcə bunu inkar edərək dedilər: "Bizim ondan heç bir şikayətimiz yoxdur. Əgər qızılbaş cahillərindən kimlərsə onunla ədəbsiz rəftar etsələr, biz onları tutub fəsada nail olanların cəzalarını verərik".

Mirzə Salmana qarşı olan adamlar bu əsnada Sultan Hüseyn Mirzə mədrəsəsinə yığışıb böyük qiyam qaldırdılar, saraya adam göndərib bildirdilər: "Mirzə Salman dövlətin viranlığını istəyir və qızılbaşların düşmənidir. Qızılbaşların müxalif olmaları və Xorasan əmirlərinin üsyan və tüğyanlarının səbəbi də onun pis rəftarından başqa bir şey deyildir. Əgər o aradan götürülməsə, qızılbaşlar arasında ikitirəlik kənar olmayacaqdır".

İş bu yerə çatdıqda əzəmətli əmirlər də bu barədə danışıb şaha belə ərz etdilər: "Mirzə Salman tacikdir və hesab işləri və divan müamilələrindən başqa işlər ona aid deyil və ondan heç nə də təvəqqə olunmur. Nə gərəkdir ki, o ləşkər və qoşun sahibi olub səltənət işlərinə dəxalətdə bulunsun, fitnə-fəsada səbəb olsun? Bir halda ki, indi qızılbaşlar məsələnin üstündən pərdəni götürüb onunla belə bir pis məqamdadırlar, yaxşısı budur ki, o vəzarət mənsəbindən və başqa işlərindən uzaqlaşdırılsın".

Mirzə Salman ağıllı adam idi və bilirdi ki, bu işlər əmirlər tərəfindən qurulmuşdur və onlar onun qətlindən başqa heç nə ilə razılaşmayacaqlar. Belə düşündü: "Bu məsələ madam ki, şahın və şahzadənin hüzurunda qaldırıldı, həyatda olan adam həyatdan getmək istəməz." Buna görə də razılaşdı ki, heç olmasa onu həbs etsinlər və [müəyyən] bir yerdə saxlasınlar.

Bu əsnada əzəmətli əmirlər padşaha dualar edib dağılışdılar. Əmirlərin birini bir dəstə adamla bu gecə Mirzə Salmanın keşiyində qoydular ki, sabah nəvvab şahdan nə əmr və işarə olarsa, elə də hərəkət etsinlər. Mirzə Salman nəvvab şahzadənin iqtidarının artmasına çalışdığından, zahirdə özünü onun fədailərindən sayır və istəmirdi ki, o həzrətin bu məmləkətdə şəriki olsun.

Bu məsələdən sonra şahın şərafətli xatirinə təşviş düşdü. Etibarlı bir adamını böyük əmirlərin birinin yanına yollayıb onun fikrini soruşdu. O, Allah-təalaya and içib bildirdi ki, bizim tərəfimizdən heç vaxt sədaqətsizlik və bəndəliyə zidd əməl görünməmişdir, nəvvab şah və şahzadə ilə etdiyimiz əhd-peyman möhkəmdir. Amma, Mirzə Salman həmişə bizi fitnə-fəsada təhrik

edərək, sizin mübarək xatirinizi biz tərəfdarlarınızdan yayındırır. Qızılbaş ağsaqqalları onun vəzirliyi və iqtidarı ilə razılaşa bilmirlər. Onun barəsində hər əmr və işarə etsəniz bizlər əməl edəcəyik.

Vəzir Mirzə Salmanın Heratda qətli:

Elə ki, İsgəndər şanlı nəvvab və aləm şahzadəsi əmirlərin xəyanət və nifaqlarının baş verməyəcəyindən xatircəm oldular, Mirzə Salmandan narazı olduqları üçün razılaşdılar ki, əmirlərin onun barəsində gəldikləri fikirlə razılaşsınlar. Ertəsi gün bir dəstə əmir Qulu bəy Qorçibaşının evinə yığılıb, şahın yanına bir adam göndərdilər, Mirzə Salmanı aparıb qorçibaşının evində məhbus etdilər, var-dövləti zəbt olundu. Oğlanları Mirzə Abdullah və Mirzə Nizamı da həbs edib nəzarətdə saxladılar. Bir neçə gün də Mirzə Salmanın varının axtarışına həsr olundu, xatircəmlik yarandıqdan sonra, Salman xanın sağ saxlanmasının özləri üçün təhlükəli ola biləcəyini başa düşərək onu qorçilərə verdilər. Türkman yüzbaşısı Təhmasibqulu bəy Mosullu onu yaraladı, başqaları isə işini bitirdilər.

Əcəb soyuqlatdı bu qəsr səni,
İsindin, dedilər: Tərk et məskəni![360]

Sübhanallah! Adəm övladının xeyir güman etdiyi bir iş şərlə nəticələnir və o öz səyi ilə özünü əməl bostanına yetirməyə çalışırsa, bəla tikanlığına (xarestan) düçar olur, xəta və zillət gülü dərir. Mirzə Salman özünün dövlət bünövrəsini güclü təsəvvür edərək, nəvvab şahzadəni özünə damad seçdi və bu qohumluq üzündən dövlət gəlininə (ərus) üç dəfə tələq deyərək həyat ipinin qırılmasına səbəb oldu. Cəsədi iyrənc halda yoxluq torpağına atılıb-qalmışdı. Nəhayət, sədr və üləmaların təsiri ilə onun nəşini müqəddəs Məşhədə aparıb müqəddəs rövzədə dəfn etdilər.

Mirzə Salman İsfahan oyanlarının cabiriyyə təbəqəsindəndir və öz şəcərəsini Cabir ibn Abdullah Ənsariyə* çatdırırdı. Onun həyatının bir dövrü cənnətməkan şahın

[360] Beytin farscası belədir:
Əcəb sərd aməd in qəsre-delaviz
Ke, ta ca gərm kərdi guyədət: Xiz!

hakimiyyətdə olduğu illərə təsadüf edir. O, həqiqətən də qabiliyətinin, fəzilətinin və kamalının çoxluğuna görə başqalarından üstün idi. İsgəndər şanlı nəvvabın vaxtında bəxt ulduzunun köməyi ilə dövlət və iqbal meracına qədəm basdı, vəzirlər arasında iqtidarı və istiqlalı artdı. Elə düşünürdü ki, illər ötdükcə, qulam, xidmətçi və qoşununun çoxluğu sayəsində qəza qılıncını və qədər qalxanını dəf edə biləcəkdir. Elə bu əbəs xəyalla da ayağını qələm əhlinə xas ədəb dairəsindən kənara çıxarıb dünya nəfsinə tabe oldu, qoşun, ləşkər, təbil və bayraqla şərəfləndirildi. O, şan-şöhrətli əmirlərlə qalib bir şəxs kimi davranır, onlardan üstün olduğunu nümayiş etdirirdi. Savabdan uzaq əməllərinin nəticəsində onda özündən razılıq yarandı. Şairlik və söz demək məharətini kamal dərəcəsinə qaldırmışdı, yüksək fəhmə, sağlam təbə, müstəqim zövqə malik idi, bədahətən duzlu şerlər deyərdi. Çox vaxt vəzarət işləri ilə məşğul olduğu əsnalarda ehtiyacı olanların ərizələrinə şerlə cavab yazar, bədahətən, yüksək bəlağət və gözəlliyə malik qitələr, qəsidələr qələmə alardı. Qətl olunmazdan bir neçə gün əvvəl bir qəzəl yazdı ki, məqtə (başlanğıc) beyti belədir:

Beyt

"Ey gözəllər, dediniz qətl eləyək Salmanı
Yaxşıdır ki, bu isi ləngimədən tezcə edin".[361]

Bu bir neçə beyt şeri də, Türbət [qalasının] mühasirəsi zamanı demişdi:

Beyt[lər]

"Yardan yenə də vədeyi-didar gəlib-çatır,
Öylə döyünür qəlb, məgər yar gəlib-çatır?

Salman əgər gələrsə bəla, nalə eyləmə,
Əlbət, bəla sən aşiqə besyar gəlib-çatır".[362]

[361] Beytin farscası:
Xubruyan ço sərə-koştəne-Səlman darənd
Behtər anəst ke, əndişeye-u zud konid.
[362] Beytin farscası:
Bazəm ze yar vədeye-didar mirəsəd?

Mirzə Salman bu qəzəli[ni] Mövlana Möhtəşəm Kaşinin qəzəlinə cavab olaraq olduqca yaxşı deyibdir. O qəzəlin mətlə (başlanğıc) və son beyti (hosne-mətlə) belədir:

Qəzəl

Sən gözəllik cilovun, baxsa fitnəkar, vermə,
Fitnəli kəslərə heç vədə ixtiyar vermə,
Laləgun surətinə pərdə salan zülfündən,
Səadət xəznəsini istəsə də mar, vermə.[363]

Əliqulu xanın əmirlərlə sülhə gəlməsi:

Xülasə, bu hadisənin baş verməsindən sonra əzəmətli əmirlər öz gələcəklərini (aqibət - Ş.F.) fikirləşib nəvvab şahzadədən xahiş etdilər ki, onların xatircəmliyindən ötrü Mirzə Salmanın qızını boşasın. Nəvvab şahzadə əmirlərin iltimasını qəbul edib talaqa razı oldu. Mal və mülkünün bir hissəsi ali divana mənsub edildi, bir hissəsi isə əzəmətli qorçilərə verildi. Bir-iki ay mühasirə məsələsinin həll olunmasında hamı tərəddüd edirdi. Elə bu əsnada Azərbaycandan vəhşətli xəbərlər gəlib çatdı. Rum sultanı tərəfindən Fərhad paşa adlı bir şəxs o ölkənin sərdarı təyin edilmiş, hal-hazırda Azərbaycana ləşkər çəkərək sərhəddə qətl atəşini yandırmaqdadır. Güclü dövlətin başçıları bu xəbərdən narahat olaraq belə məsləhət gördülər ki, Əliqulu xanla sülh bağlayıb yürüş cilovunu İraq və Azərbaycana tərəf yönəltsinlər. Şahrux xan Möhrdar tələşın (ğayele), kobudluğun (koloft) və dava-dalaşın bitməsi naminə elə özü birbaşa qala ayağına getdi, Əliqulu xanla görüşdü, sülh məsələsini ortaya gətirdi. Xanın özü də elə bu işi gözləyirdi. Bir qədər mübahisədən sonra tərəflər arasında sülh aşağıdakı şərtlərlə

Del dər təpidənəst məgər yar mirəsəd?
Səlman, əgər rəsid bəlayi, əz an mənal,
Gər aşeqi, bəla be to besyar mirəsəd.

[363] Beytin farscası:
Ənane-hosn be çeşmane-fetne bar mədeh,
Be dəste-mərdome-porfetne exteyar mədeh.
Ze zolf pərde be roxsare-laləğun mətkən,
Kelide-gənce-səadət be dəste-mar mədeh.

imzalandı: Əliqulu xan o vaxt on iki yaşındakı böyük oğlu Vəlixan Mirzəni bir yalvarış məktubu (zəriətnamə) ərizəsi ilə şahın yanına göndərsin; ərizədə ərz olunsun ki, bütün bu fitnə-fəsadın mayası (xəmirmayə) Mirzə Salman olmuşdur, indi ki, o, aradan götürülüb bizlər yenə də əvvəlki kimi bu dərgahın qulamları və qulamzadələriyik; [Əliqulu xan] sabiq taxsırlarının [əfvi üçün] üzr istəsin; ədəbə riayət edilsin, səfəvi [xanədanının] sufiyəsindən olduğunu sübut etmək yolu (təriq) ilə [Abbas Mirzənin] məşhur atasının və böyük (bozorqvar) qardaşı [Həmzə Mirzənin] hörmətini hifz etməkdən ötrü Xorasanda əvvəllər olduğu kimi səltənət və padşahlıq xütbəsi İskəndər şanlı nəvvabın adına oxunsun və onun böyük oğlu nəvvabi-cahanbanini şahlığın vəliəhdi bilsinlər; Xorasan məmləkəti yenə əvvəlki kimi ölkələr tutan (gitisetan) şahzadəyə, yəni əlahəzrət şaha verilsin və o, layiqli peşkərlər göndərib, hər nə xahişləri (moltəməsat) olarsa ərz etsin ki, onlar xeyirxah adamlar vasitəsilə o izzət sahibin (be ezze-əncahe-əqtəran) [padşaha] çatdırılsın.

Təkəli əmirlərinin, xüsusilə Vəlixanın narazılığına baxmayaraq bu sülh sənədində bir çox məsləhətli (sələhəndişi) məqamlar olduğundan, təkəli tayfasının ağsaqqalı və böyüyü, nəfsitox və sülhpərvər nümayəndəsi Müseyib xan Şərəfəddinoğlu Təkəlini həmin sülhə rəğbətləndirdilər, o da öz növbəsində Vəlixanı inadından çəkindirdi.

Atası Vəli Xəlifənin qətli xüsusunda İsmayılqulu xanla Əliqulu xan arsında düşmənçilik olduğu üçün Əliqulu xanın atası Sultan Hüseyn xan da ona əvəz olaraq qətlə yetirilmiş, Guryan cəngində çoxlu adam öldürülmüşdü. Bir-biriləri ilə qohum-əqrəba olan şamlıların ovçu, qəbiləsinin bir çox üzvü həmin öldürülmüşlər zümrəsinə daxil idilər və onların inadkarlıqları fitnə-fəsaddan başqa heç bir nəticə vermirdi. Buna görə də İsmayılqulu xan və Əliqulu xan da bu sülhü faydalı bilib onun şərtlərini qəbul etdilər. Amma, Əliqulu xan xahiş etdi ki, onlarla Mürtəzaqulu xan arasında inadkarlıq öz həddini aşdığı üçün vəziyyətin düzəlməsi mümkün deyildir. Qoy onu İraqa aparıb, müqəddəs Məşhəd hökumətini dövlətin xeyirxah əmirlərindən birinə versinlər.

Xülasə, Şahrux xan sülh meydanına qədəm atdı. Əvvəlcə əmirlərin vasitəçiliyi ilə ağılabatan dəlillər söyləyib, nəvvab İsgəndər şanlı xaqanın və nəvvab şahzadənin sülhə qaytarmalarını və Azərbaycan işlərinin dövlətin məsləhəti ilə qaydaya salınmasını

faydalı əməl saydılar. Sonra Şahrux xan icazə alaraq İsmayılqulu xanı qalaya apardı və onları Əliqulu xanla sülhə gətirdi. Ertəsi gün Əliqulu xan şahzadəyə özünün sadiqliyi, həmçinin keçmiş xidmətləri və hüququ barədə bir məktub göndərib, öz yazısında baş vermiş hadisələr xüsusunda ondan üzr istədi, bu güclü dövlətin başçıları tərəfindən ona şəfəqqətin olmamasından gileyləndi, Mirzə Salmanın müdaxiləsindən, Mürtəzaqulu xanın bəd rəftarından cümlələr yazdı, sülh şərtlərinin zəruriliyini təsdiqlədi. Amma, əlahəzrət zilləllah şahın xilafət və hökmranlığı hələ divanda padşah tərəfindən qəbul edilmədiyi üçün sülhün şərtləri yerinə yetirilmədi, quru söz və səsdən başqa bir şey olmadı.

Şah Sultan Məhəmmədin Heratdan qayıtması:

Sözün qısası, əmirlərin və dövlət başçılarının xahişləri ilə Əliqulu xanın mətləb və iltimasları onun istəyinə uyğun şəkildə qəbul olunma şərtinə yetişdi, ona fəxarətli ziyafətlər verildi. İsgəndər şanlı nəvvab tərəfindən şahzadə "fərzənd" (burada "vəliəhd" - Ş.F.) kimi uca ləqəbə layiq görüldü və əlahəzrət üçün öz qiymətli atasından yaxşı hədiyyələr və sovqatlar göndərildi. Əliqulu xanın oğlu Vəlixan Mirzə nəvvab şahzadənin ali sarayının mülazimləri silkinə daxil olundu. Həmin novruzdan dörd aya yaxın bir vaxt keçmişdi ki, onlar köç təbilini çalıb Herat darüssəltənəsindən çıxdılar. Elə ki, müqəddəs Məşhədə gəlib çatdılar, gedib mələklər yuvasının astanası olan rövzənin sultanı İmam Rza əleyhüssalamın - ona və əcdadlarına salam olsun – məzarını ziyarət etməklə şərəfləndilər. Əliqulu xanın razılığından, Mürşüdqulu xanın və ustaclı tayfasının qəlbini ələ almaqdan ötrü Mürtəzaqulu xanı Məşhəd hakimliyindən çıxarıb, bu vəzifəni o tayfanın böyüklərindən Abdulla xanın nəvəsi Salman xana verdilər, Astrabad əyalətinin idarəsi isə Mürtəzaqulu xana tapşırıldı, Damğan vilayəti, Bostam, Biyaremənd Ərəbamiri və Hezarcərib də Astrabad əyalətləri də Astrabadə əlavə olundu. Ustaclı tayfasının böyüklərindən olan ağıllı və işbilən Şahqulu Sultan Qarıncaya Salman xanın lələliyi və atalığı vəzifəsi tapşırıldı və Cam vilayəii ona verildi.

Xülasə, güclü dövlətin başçıları Xorasanı və xorasanlıların işlərini zəmanəyə uyğun tərzdə həll edirək İraqa yola düşdülər. Uzaqgörən və agah adamlar şahın geri qayıtmasından belə nəticə

çıxardılar ki, Xorasan mülkünün sultanlığı yenidən cahanıstan şahzadəsinə, yəni əlahəzrətə aid olacaq, onun dövlət bayrağı yaxın vaxtda ucalacaq, iqbal günəşi bütün məmləkətlər üzərində parlayacaqdır. İsgəndər şanlı nəvvabın cəlal qoşununun yürüşü zamanı şaha meyllənmiş Xorasan əmirləri və əhalisi onun imdadından məyus olaraq, öz işlərinin aqibətini fikirləşib hazırlıq işləri görməyə başladılar. Şaha itaət və bağlılıq qapılarını bağlayan və müxalifət edən ilk şəxs Səbzvar darülmöminin hakimi Sevindik bəy Qorçibaşının oğlu Hüseyn bəy Əfşar oldu. O, hümayun ordu Səbzvara yaxınlaşan vaxt şahsevənlik izhar edib pişvaza çıxmış, İsgəndər şanlı nəvvabın və aləm şahzadəsinin diqqətini cəlb etmiş, Qulu bəy Qorçibaşının səyi ilə Səbzvar əyaləti əvvəl olduğu kimi ona verildi. Lakin, elə həmin vaxtda da o, üsyan edib şəhər və qala qapılarını möhkəmləndirdi, tüfəng ələ götürüb qaladarlıq etməyə başladı. Nəvvab şahzadə əzəmətli əmirlərə xitabən hökm etdi ki, Xorasan işləri barışıqla həll olunmalıdır, gəlin sülh yolunu tutaq. Bir halda ki, Hüseyn bəy kimi bir kişi padşaha ağ olub qalanı bağlayaraq cəsarət və ədəbsizlik əlini uzada və hümayun orduya top-tüfəng atmağa başlaya,biz ona diqqət yetirməliyik. Yox, əgər ona göz yumsaq, bu hərəkət dövlətə layiq səltənət namusuna münasib məsələ olmaz. Əfşar tayfasının ağsaqqalı, əzəmətli dövlət başçılarından biri və həmin bəxti dönük, səadətsiz adamın (Hüseyn bəyin - Ş.F.) vəzifə sahibi olnıası öhdəçiliyini öz üzərinə götürmüş Qulu bəy Qorçibaşı öz xəcalət başını aşağı əyib, o həzrətin ürək sözlərini dinlədi, həmin ağılsız adamın cəzalanmasına razılığını verdi. Nəvvab şahzadə məşhur əmirləri və bütün müzəffər əsgərləri, xüsusiylə Vəli xanı və təkəli əmirlərini o şəhərin və qalanın fəthinə yolladı. Onlar fərmana əməl edib elə həmin gün şəhərə və qalaya yürüşə başlayaraq hər tərəfdən hücuma keçdilər. Qala camaatı gün qürub edən vaxta qədər müdafiə ilə məşğul oldu. O bəxtiqaraların və qaragünlərin şam yeməyinin vaxtı yetişəndə onlar döyüşdən yoruldular. Ali ordunun bahadırları isə qala ayağına yanaşıb bürclərə və barılara dırmaşdılar, gecə qaranlığında sel kimi şəhərə doldular, qalanı da tutdular. O tayfaya idbarlıq üz verdiyi üçün onların çoxu fəna qılıncına tuş oldu.

Səbzvar hakimi Hüseyn bəyin qətli:

Hüseyn bəy qala qapısında yaxalandı. Ali qoşunun mülazimlərindən olan səbzvarlı bir beldar (bel ilə işləyən şəxs - Ş.F.) ona belin arxası ilə elə bir zərbə endirdi ki, hərəkət qüvvəsi qalmadı, öz xəcalət başını bir bel zərbəsi ilə aşağı əydi. Onun cəzalanmasına hökm olundu və baxanlara ibrət olunsun deyə[364] Hüseyn bəyi şəhər darvazasından asdılar. Amma, nə deyim ki, o ağılsız adamın küfrü və sui-tədbirinə görə, həmin hövlnak gecə, ordunun müxtəlif siniflərdən olan üzvləri tərəfindən Səbzvarın şiə əhali və əyanlarının başına nələr gətirilmədi?!.

Xülasə, qarət və tarac, həmçinin başqa əməllərdən, bircə dəqiqə də əl çəkilmədi. Nəvvab şahzadənin qəzəb məşəlinin alovlanmasının sönməsinə baxmayaraq, o, əmr etdi ki, heç kim Səbzvar rəiyyət və əhalisinə sədəmə yetirməsin. Amma, artıq gecə düşdüyündən döyüşçülər rəiyyət evlərinə soxulur, aciz və biçarə adamlar çoxlu əzab-əziyyətə düçar olurdular. Şahzadə ertəsi gün rəiyyətin vəziyyətini öyrənməyə yollandı, onların mətləb və şikayətlərini dinlədi. O vilayətin idarəsi Əhməd Sultan Təkəliyə tapşırıldı. Köç-köç oradan çıxıb İraqa yollandı. Astrabad işlərini yoluna qoymaqdan və sonra onlara gəlib çatmaqdan ötrü Mürtəzaqulu xanı Damğanda qoydular. Hümayun məiyyət qələbə və iqballa Qəzvin darüssəltənəsinə çatıb əbədi səltənətin paytaxtında dayandı. Şiraz hakimi Ümmət xan, həmçinin Kirman hakimi Vəlixan, Həmədan hakimi Vəlixan, habelə Xorasan səfərinə yığışmış başqa əmir və hakimlər izn alıb hər biri öz ülkasına yollandı.

İSGƏNDƏR ŞANLI NƏVVABIN HÜMAYUN MƏİYYƏTİNİN OLMADIĞI MÜDDƏTDƏ AZƏRBAYCANDA BAŞ VERƏN HADİSƏLƏR VƏ İRƏYANIN RUMİLƏR TƏRƏFİNDƏN FƏTH OLUNMASI BARƏDƏ SÖHBƏT

Huşyarlıq məclisinin bəzəyənlərdən gizli qalmasın ki, əvvəlki səhifələrdə yazılmışdı: Sərdar Sənan paşa, yuxarıda deyildiyi kimi, sülh yaratmağa cəhd etmiş, İbrahim xan Təkəli bu

[364] "İbrətu-n-nazirin" (ərəbcə).

tərəfdən elçi sifətilə Rum məmləkətlərinin hökmdarı Sultan Murad xanın yanına İstanbula yollanmışdı. Osman paşa [isə] Dərbənddən sultana ərz etmişdi: "Sinan paşanın qorxaqlıq üzündən Azərbaycana gəlmək cürəti yox idi, mən isə bütün Şirvanı ələ keçirmişəm və [bu ölkə] hal-hazırda osmanlı əsgərlərinin əlindədir. Sinan paşanın dediyi "Dərbənd qalasından başqa, rumilərin əlində heç bir yer yoxdur" sözləri həqiqətə uyğun deyildir. Əgər qızılbaşlar şahının Xorasanda olduğu bu il ərzində siz bu tərəfə başqa sərdar yollasanız, əlinizə həm yeni məmləkət keçər, həm də Şirvan vilayəti qızılbaş hücumundan qurtular".

Rum sultanı Sinan paşanı məzəmmət edib, ikinci vəzir olan Fərhad paşanı sərdar təyin edərək, ağır qoşunla bu tərəfə yolladı. O, İbrahim xanı [isə] İstanbulda saxladı. Sultan sülh bağlanmasını bu şərtlərlə məqbul saydı: Osmanlı əsgərlərinin daxil olduqları və Rum padşahı adına xütbə oxunan hər yer ale-Osman adamlarının yeri sayılır və [qızılbaşlar] həmin yerlərdə münaqişəyə yol verməsinlər. Əgər qızılbaşların padşahı bu şərtlə razılaşmazsa, biz [başqal məmləkətləri də almaqdan əl çəkməyəcəyik.

Xorasana, şah sarayına İbrahim xanın bir adamı gəlib elçinin yuxarıdakı məzmunlu məktubunu şaha təqdim etdi. İbrahim xan bu dövləti istəyən bir şəxs kimi aydın şəkildə yazmışdı: "Bu işdə inadkarlıq etmək əql müftisinin mühakiməsinə görə dövlətin nöqsanına və nəticədə müxtəlif peşmançılığa səbəb olacaq, ilbəil məmləkətlər əldən gedəcəkdir. Sülh şərtləri dəyişilməz qalır. Nə qədər ki, vilayətlərin əksəriyyəti əlimizdədir, ale-Osman əsgərləri tərəfindən zəbt edilən Şirvan məmləkətindən əl çəkib sülh bağlamaq bizim dövlətimiz üçün sərfəli və məsləhətli olar". Xudpəsənd qızılbaş əmirləri tayfalar arasında çəkişmələr, nifaq və ittifaqsızlıq, özlərində isə birlik olmamasına baxmayaraq sui-tədbirləri üzündən həmin şərtə razı olmadılar və İbrahim xana belə cavab yazdılar: "Əgər sülh bundan əvvəlki şərtlərimiz nəzərə alınmaqla bağlanarsa, biz razıyıq, yox əgər elə olmazsa, onda qismətimizə əzəli yazılan yazı necədirsə elə də olacaqdır".

Xülasə, Fərhad paşa çoxlu qoşunla Ərzuruma gəldi, sərhəd ləşkərini və kürd tayfa əmirlərini [öz ətrafına] toplayıb, Qars yolu ilə Çuxur-Sədə yollandı. Çuxur-Səd bəylərbəyi olan Məhəmməd xan Toxmaq hücumu dəf etməkdən ötrü Əmir xanı və İmamqulu xanı bu vəziyyətdən xəbərdar etdi, əmirlər öz tabeliklərində olanları və sərhəddə yaşayan adamları topladılar. Azərbaycanda və

Qarabağdakı əzəmətli xanlar və qızılbaş bəylərbəyiləri üçün osmanlıların saysız-hesabsız döyüşçüləri ilə döyüşmək qüvvət və qüdrət imkanından xaric olduğundan, habelə İraqdan qüvvə gələcəyinə ümı etmədiklərindən, heç bir vəchlə baş verəcək o hadisəni də edə bilmədilər, onların heç bir tədbiri uğurla nəticələnmədi. Məhəmmədi xan İrəvandan çıxıb öz adamları ilə rumi qoşununun həndəvərində bir sıra igidlik göstərir, onlara tez-tez faydasız hücumlar edirdisə də bunun təsiri olmadı.

Fərhad paşa İrəvana çataraq, orada bir neçə gün qaldı, qalanı olduqca möhkəmləndirdi, ehtiyaca uyğun miqdarda gözətçi və yeniçəri qoydu, bir illik azuqə, yaraq yığdı, topxana düzəltdi və geri qayıtdı. Məhəmmədi xan istər-itəməz həmin məmləkətlərdən əl çəkərək Naxçıvana gəldi, qazilərin əhl-əyalını Ələnciq qalasına köçürdü. O zaman Əmir xandan və türkman əmirlərindən ona heç bir köməklik göstərilmədi. Onlar Təbriz darüssəltənəsinin mühafizəsini hər şeydən mühüm bilib, kürdələrin yaxınlaşdığını görərək Təbrizdən kənara addım atmadılar.

Kiçik Ermənivyənin* böyük və abadan vilayəti olan Çuxur-Səd müxaliflərin əlinə keçdi. Şirvan vilayətində də qızılbaş əmirlərindən heç kim qalmadı və o vilayət tamamilə rumiyyənin əlində qaldı.

Bu ilin hadisələrindən biri də budur: Əmir xan Türkmanın arvadı cənnətməkan şahın qızı Fatimə Sultan həyim bu il xəstələnib vəfat ctdi, onun nəşini Ərdəbil darülirşadına aparıb öz ata-babalarının pak rövzəsində dəfn etdilər. Bu hadisə Əmir xanın pərişanlığına səbəb oldu.

İSGƏNDƏR ŞANLI NƏVVABIN HÜMAYUN MƏİYYƏTİNİN QAYIDIŞINDAN SONRA XORASANDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Hadisələrdən bəhs edən qələm bu kitabın yuxarıdakı səhifələrində yazdı ki, Əliqulu xanın iltimasına əsasən və Mürşüdqulu xan ilə Xorasan əmirlərinin könlünün alınması naminə Mürtəzaqulu xanı müqəddəs Məşhəd hakimliyindən kənar edilmiş, həmin vilayətin idarə olunmasını cənnətməkan şahın bacısı oğlu və ustaclı tayfasının məşhur böyüklərindən olan və bu dudmana xidmət etməklə şərəflənən Abdulla xanın nəvəsi Salman xan ibn Şahəli Mirzəyə verilmişdi, həmin tayfa böyüklərindən Şahqulu Sultan

Qarıncanı isə onun lələsi və atalığı təyin edib Cam vilayətinin hakimi elan etmişdilər ki, o, müqəddəs Məşhəddə həmişə Salman xanl birlikdə olsun ki, hər nə baş verərsə, Şahqulu Qultan onları xanın adından həyata keçirsin.

İsgəndər şanlı nəvvabın hümayun ordusunun Xorasandan İraq yürüşünə yollanmasından sonra, Mürşüdqulu xan Mürtəzaqulu xanın getməyindən və Salman xanın [onun yerində] qalmağından şad oldu, heç bir qorxu bilmədən müqəddəs Məşhədə gedərək, cinlərin və insanların imamı olan (imaməl cenn və-l-ons) İmam Rzanın behiştə bənzər rövzəsini ziyarət etməklə şərəflənmək istədi. O, sədaqət diliylə Salman xana belə yazdı: "Bu müddət ərzində o, Mürtəzaqulu xan və tayfasının uğursuzluğu (şəamət) və inadı üzündən himmətli imamın mələklər yuvası olan rövzəsinin ziyarəti şərəfindən məhrum olmuşdur. Hazırda isə, Allahın həmdi ilə, Xorasan işləri dostların ürəkləri istəyincə öz yoluna düşmüşdür. Buna görə də bu xeyirxah bəndəniz İsmayıl Mirzənin hakimiyyəti dövründə baş verən hadisələrin güdazına gedən və məğlub olan ustaclı el və əşirətinin izzət və etibarının qorunmasından ötrü şamlı el və əşirətindən olan Əliqulu xana xidmət edirdim. O cənab isə (Salman xan - Ş.F.) qədim vaxtdan bəri bütün ustaclıların rəhbər oğludur (məxdumizadə). Mən ona xidmət etməyimi özümün iftixar və etibar sərmayəm hesab edib, nökərlik və xidmətçilik yoluna düşmüşəm, o cənabın razılığı, el və oymağın asudəliyi naminə sizin məsləhət bildiyiniz hər istəyinizi yerinə yetirməyə hazıram".

Mürşüdqulu xanın Məşhəd hakimi Salman xandan üzrxahlıq etməyi:

Hələ Xorasan mülkündəki işlərə bələd olmayan və qoşun-ləşkər hazırlamayan Salman xanın yanında pərakəndə və istedadsız az miqdar, adam vardı. Hələ o, Mürşüdqulu xana etibar etmir, onun yalan sözlərinə inanmır və buna görə də onunla görüşə razı olmurdu. Salman xan onun barəsində fikrə dalıb, hələ nə onunla düşmənçilik etmək istəyir, nə də özündə onun gəlişinə mane olmaq qüdrəti görürdü. Ağıllı insan və köhnə hərbçi olan Şahqulu Sultan Qarınca isə Cama tərəf yollandığından, hələ Məşhəddə deyildi ki, Salman xan onunla bu barədə məsləhətləşə bilsin.

Xülasə, Mürşüdqulu xan razılıq və icazə almadan bir neçə nəfər adamı ilə məqsədinə doğru yola düşdü. Məşhədə yaxınlaşanda,

Məşhədin əzəmətli seyidləri və əyanları qaladarlıq edə bilməmək qorxusundan cənab Salman xanı onunla ülfətə və birliyə rəğbətləndirdilər, Mürşidqulu xanı qarşılamağa hazırlaşdılar. Xanın az miqdar adamla gəldiyini eşidən Salman xan zərurət üzündən dostluq (vedad) izhar etdi, mehmanı gözləməyə başladı. Xanın gəlişi günü müqəddəs astananın seyidləri, xidmətçiləri, həmçinin müqəddəs Məşhədin əyanları ilə pişvaza çıxıb xanı şəhərə gətirdilər. Mürşüdqulu xan onunla ədəb-ərkanla rəftar edib bir nökər kimi söhbətə başladı. [Sonra] Mürşüdqulu xan müqəddəs astanaya gedərək, ziyarət şərtlərini yerinə yetirdi, sərkare-feyzasarın mehmanı oldu. Ehtiyatkarlıq edib bir neçə gün də astanada ləngidi və oradan heç yana çıxmadı. Hər gün müqəddəs astanada onunla görüşən Salman xan mizbanlıq mərasiminə qurşandı, rəsmi ziyafətlər verdi. Onun tərəddüdlü olduğunu başa düşən Mürşüdqulu xan məkr və hiylə qapılarını açdı, şirin dili və yaltaq davranışı ilə xanın tərəddüdünün rəf olunmasına çalışdı. Get-gedə şəhərdə Mürşüdqulu xanın adamlarının sayı çoxaldı. Hətta hələ Salman xanın yanına gələ bilməyən bölgə adamları da, o neçə gün ərzində şəhərə gələrək xanla görüşdülər.

Xanın qəlbində həmişə yer tutan müqəddəs Məşhədin hakimi olmaq həvəsi üzə çıxdı. O, zahirdə Salman xanla görüş, batindəsə Məşhədi tutmaq istəyi ilə hakimlərin iqamət yeri olan və Salman xanın da orada qaldığı Çaharbağa gəldi, orada dayandı. Salman xan ziyafət və mehmandarlığa başladı, müxtəlif söhbətlər etdi. O, özünün İsgəndər şanlı nəvvabın və şahzadə Sultan Həmzə Mirzənin dövlətxahı olduğunu ona bildirdi.

Mürşüdqulu xan məsələnin başlanğıcında öz itaətkarlığını izhar etsə də, nəhayət qəlbindəki sirlərini Salman xana bidirdi və dedi: "Xorasan əhalisinin rəiyyət və əskərləri əlahəzrətə itaət etməyə ürək bağlamışlar. Onlar o həzrətin lələsi və Xorasanın bəylərbəyisi olan Əliqulu xan Şamlı ilə də əhd-peyman etmişlər. İsgəndər şanlı nəvvab da Xorasan məmləkətini təzədən Xorasanda olan bu əziz və səadətli oğluna vermişdir. Əgər cənab xanın Xorasanda qalmaq meyli vardırsa, onun əlahəzrət şahın itaətindən və Əliqulu xanla razılaşmasından başqa heç bir çarəsi yoxdur. Belə olan bir halda, cənab xanın hakimi kimi bu vilayəti qorumaq, bölgə sərkeşlərini və Məşhəd hüdudlarındakı düşmənləri cəzalandırmaqdan ötrü güclü qoşunu yoxdur. Dövlətin məsləhəti belədir ki, bu vilayət mənim

ixtiyarıma verilsin, cənab xan isə mənim olan Xaf və Baxərzə gedib o vilayətdə rahatlıqla yaşasın".

İtaətdən başqa çarəsi olmayan Salman xan buna razı olub o vilayətə getmək təklifini qəbul etdi və Mürşüdqulu xan onu Xaf və Baxərzə çatdırmaqdan ötrü etimadlı adamlarına göstəriş verdi.

Məşhəd hakimi kimi Salman xanın başına toplaşmış adamların əksəriyyəti ondan ayrılıb şəhərdə qaldı, o isə bir neçə nəfər adamla yola düşdü. Xorasandakı vəziyyət və Mürşüdqulu xanın hərəkəti onun ürəyindən olmadı, İsgəndər şanlı nəvvab və şahzadə Sultan Həmzə Mirzənin ona etdikləri haqlı ehtiram (həqqyozarı) səbəbindən heç Xorasanda qalmaq istəmədi də. Buna görə də, o, yolda ov bəhanəsi ilə özünün yüngül-ağır əşyalarını atıb fərar etdi və İraqa yollandı.

Onun gedişindən agah olan Mürşüdqulu xan bu hərəkətin öz istəyinə uyğun baş verdiyini düşünüb, şövkət və iqtidarla müqəddəs Məşhəd hakimliyinə başladı, Herata tərəf xəbərçilər (möbəşşeran) göndərdi, baş vermiş əhvalatın məhz əlahəzrətin iqbalından yarandığı barədə Əliqulu xana məlumat verdi. O, çoxlu adamı olan Budaq xan Çekəni və onun övladı, Baba İlyasın övladı, bayat təbəqəsi, müqəddəs Məşhəd hüdudundakı cığatay oymaqlarının başqa əmir və qoşun başçıları ilə birləşdi və Budaq xanın qızına elçi göndərdi, həmin diyarın bütün əhalisinin könlünü aldı, hökmü həmin vilayətdə həyata keçmiş oldu.

Əmirlərin əksəriyyəti ona itaət etdi. Mürşüdqulu xan bu hadisələrin baş verdiyi günlərdə ona kömək etmiş ustaclı və başqa tayfalara, həmçinin yenidən onun əlinə keçən vilayətlərin camaatına, zəmanəyə uyğun olaraq vilayətlər payladı, onun şövkət və iqtidarı gün-gündən artdı, nəticədə bunlar şamlı tayfasının həsədinə səbəb oldu. Amma, o cənab Əliqulu xanla da ülfət, dostluq, sədaqət yoluyla gedirdi. Həmin qışı asudəliklə müqəddəs Məşhəddə keçirən Mürşüdqulu xan o vilayət işlərinin nizamlanması ilə məşğul oldu, Salman xan isə yanındakı mülazimləriylə birlikdə Tun və Təbəs yolunu keçib İraqa gəldi, Qəzvin darüssəltənəsində İsgəndər şanlı nəvvab və nəvvab cahanbaninin xidmətinə yetişməklə şərəfləndi, baş verənləri yuxarıda bəyan olunduğu kimi onlara ərz etdi.

Şah Təhmasibin qızı Şəhrəbanu bəyimin vəfatı:

Onun gəlişindən bir neçə gün əvvəl onun möhtərəm rövcəsi (həlileye-cəhle), cənnətməkan şahın qızı ülyacənab Şəhrəbamı bəyim xəstələndi. [Təbiblərin] müalicələrinin nəticəsi olmadı və o, Haqqın dəvətini qəbul edib bəqa evinə yollandı. Qəzvin yaxınlığında bu möhnətli xəbəri eşidən Salman xan ondan ötrü çox məlala batdı. İsgəndər şanlı xaqan ona şahanə şəfqətlər və xosrovanə mehribanlıqlar göstərib təsəlli verdi, rüzgarın gərdişindən Salman xanın qəlbinə dolmuş kədərin rəf olunmasından ötrü ona ürək-dirək (təfəqqoq və delcuyi) verdi.

HÜMAYUN MƏİYYƏTİNİN İKİNCİ DƏFƏ AZƏRBAYCANA YÜRÜŞÜ, ƏMİR XAN TÜRKMANIN ƏSİR ALINMASI, ƏLİQULU XAN FƏTHOĞLU USTACLININ VƏZİFƏDƏ YÜKSƏLDİLMƏSİ (TƏRBİYƏT YAFTƏN), TƏKƏLİ VƏ TÜRKMAN [TAYFALARININJ ÜSYAN VƏ TÜĞYANLARININ BAŞLANMASININ ZİKRİ

Müzəffər şah məiyyəti Qəzvin darüssəltənəsinə çatdıqda qış da sona çatdı, türki meymun (pici) ilinə bərabər olan doqquz yüz doxsan ikinci ilin (miladi 1584/85) dünyanı işıqlandıran novruzu gəlib yetişdi, cahanın işrətabad yerləri bahar (rəbi) mövsümünün qədəmlərindən tazə təravət tapdı. Nəvvab cahanbaninin cavanlığının başlanğıcı, nəfsani ləzzətlərin onun tərəfindən dərk edilməsi və kama yetişmək dövrü idi. O, öz şərafətli vaxtını, seyr və söhbətə sərf edir dostları və həmsöhbətləri ilə birlikdə işrət məclislərinin xəlvət yerlərində şadyanalıq edir, reyhani şərab qədəhlərini (eqdahe-rahe-reyhani) və sevinc artıran badələri nuş edir vüsal gülzarının lalə yanaqlı, ay üzlü gözəllərindən şadlıq gülləri dərirdi.

Azərbaycan bəylərbəyi Əmir xan öz vəziri Qasım bəyi Təbrizdən ali saraya göndərib Azərbaycanın həqiqi vəziyyətini, rumilərin hücumunu və onların İrəvanı tutmalarını şaha ərz etdi. Şah, nəsibi qələbə olan qoşunla İrəvan qalasına hücum etməyi qərara aldı. Əzəmətli əmirlər və dövlət başçıları bir yerə yığışıb Azərbaycana tərəf getməyə razılaşdılar. Onlar yay fəslinin əvvəllərində Qəzvin darüssəltənəsindən hərəkət edib Azərbaycana yollandılar. Məhəmməd xan Türkmana öz ləşkərini hazırlamaq və müzəffər şah dəstəsinə gəlib qoşulmaq üçün Kaşana getmək izni

verildi. Müseyib xan Təkəli də qardaşı oğlu Muxtar Sultanla birlikdə öz ülkaları olan Reyə yollandılar. Miyanc çəmənliyində onların iqbal çadırları qurulan vaxt Həmzə Mirzə qiymətli Səfəvi şeyxlərinin - Allah onların ruhlarını müqəddəs saxlasın - məqbərəsini ziyarət etmək məqsədilə hümayun ordudan və məşhur atasından ayrılıb Ərdəbil darülirşadına yollandı.

Şahzadə hələ geri qayıtmamışdı ki, Əmir xan əksəriyyət qardaşları, övladları, qohumları və öz tayfasının adamlarından ibarət təxminən on iki min nəfərlik ordu ilə ali şah heyətini qarşılamaq üçün Təbriz darüssəltənəsinidən çıxıb hümayun ordunun yaxınlığında dayandı. Şahzadə orduda olmadığından, Əmir xan bir qədər [onun gəlişini] gözlədi, onun gəlişindən sonra birlikdə getdilər və xan İsgəndər şanlı nəvvabın ayağını öpmək şərəfinə nail oldu. Şahzadə Təbrizə getmək meylinə düşdü, Miyanc çəmənindən keçib bir neçə yer qət edərək xoşbəxt bir saatda Təbriz darülsəltənəsinə daxil oldu.

Təbrizin əhalisi və sahibləri (əshab), ümumiyyətlə bütün böyük və kiçik təbrizlilər gələnləri qarşılamaq üçün [evlərdən] çölə çıxıb şadyanalıq etdilər. İsgəndər şanlı nəvvab və aləm şahzadəsi həşəmət və xoş təəssüratla Təbriz dövlətxanasına gəldilər, öz ata-babalarının dövlət və səltənət paytaxtında əyləşdilər. Cənab xan (yəni Əmir xan - Ş.F.) qonaqlara qonaqpərvərliyə (mizbani) başlayaraq, olduqca yüksək xidmət edirdi. Onun alnında həmişə diqqət və iltifat nurları parlamaqdaydı. Buna görə də gün-gündən inkişaf və tərəqqidə oldu. Amma, fələyin məsləhəti ilə birdən-birə onun dövlət büsatı dağıldı, xəyalına belə gəlməyən bir vəziyyəti ibrət görən gözü ilə müşahidə etdi və nəticədə ona olan oldu. Məsələ belə baş vermişdir: Hümayun şah qoşunu birinci dəfə Təbrizə gələn il hümayun qışlaq orada olmuşdu və nəvvab şahzadənin yaşı az idi. Əmir xandan və əmirlərdən üz verən bəzi bəyənilməz hərəkətlər adamların gözündən yayınırdı. Amma, bu dəfəki gəlişdə onun şərafətli ömrü on səkkiz yaşına girmiş, şahzadə özünün inkişaf sərhədinə gəlib çatmışdı. Gənclik qüruru səltənət və hökmdarlıq badəsini doldurmuş, qıpqırmızı şərabın nuş edilməsi isə yuxarıda göstərilən hər iki ilahi keyfiyyətin üstünə əlavə olunmuşdu. Hər hansı mülayim olmayan hərəkət onun mübarək hafizə aynasının üstünü tərlədirdi.

Təbrizə gəlişinin ilk vaxtlarında ayaqlarını ədəb dairəsindən kənara qoyan və tərslik edən və onun şərafətli xatirini

incidən bəzi fitnəkar qızılbaşlar öz yollarını azmışdılar. Şahzadə onları aradan götürmək qərarına gəldi. Bu hadisələrin baş verməsi zamanı (güman ki, anası Məhdülya ilə bağlı hadisələr - Ş.F.) Əmir xan ali orduda olduğundan belə görünürdü ki, onun sədaqət ətəyi həmişə ədəbsizliyə bulanmamışdır. Şahzadə onu bütün işlərdə özünə müttəfiq etmək və bütün gizli işlərini onun vasitəsilə həyata keçirmək istəyirdi. Buna görə də ona və onun adamlarına əvvəlkindən daha çox ifrat diqqət və nəvazişkarlıq (təzimat və təkrimat) göstərirdi.

Amma, Əmir xan həqiqətən də xeyirxah və məsləhətləşməyə layiq bir adam olduğundan və Rum sultanının həmin mülkü ələ keçirmək arzusuna düşdüyündən bu [bəylərbəyi] hər biri böyük oymaqlara (tayfalara - Ş.F.) mənsub olan ağsaqqal adamları cəzalandırılmalarını, vaxta münasib olaraq münasib bilmədi, [şahzadə ilə] razılaşmadı. O, bu vaxtadək şərab içilməsinin qadağan edilməsinə səy etməkdəydi. Əmir xan, işrət günlərinin və cavanlığın təsirindən şahzadənin şərab içməyini bəyənilməz (məkruh) sayır, hərdənbir ona dövlətxahlıq baxımından bir atalıq kimi (ətaliqanə) nəsihət edir, bu əməldə şahzadəni müdafiə edən əmirləri və dövlət adamlarını (ərkan) töhmətləndirirdi (sərzəneş). Bu vaxt, hamısı cəhalət və qürur badəsindən məst olan [Əmir xanın] qardaşlarından, övladlarından və qohum-əqrabalarından ibarət [bir dəstə adam] ədəbsizliyə başladılar. O həzrət [Həmzə Mirzə] hövsələsinin genişliyi, dövlətin qorunması (pase-dovlət) və [Əmir xanın] məqam və mərtəbəsinin hifz edilməsindən ötrü onların hərəkətləri üzərinə hicab pərdəsi çəkirdi.

Amma Əmir xanın kobud hərəkətləri şahzadənin nurlu xatirini dumana bürüyürdü. Hamısı cahil cavanlar olan və dövlət işlərindən xəbərləri olmayan ali məclis iştirakçılarından Əliqulu bəy Fəthoğlu və ustaclı oymağından olan onun qohumu Məhəmmədi bəy Sarı Solaq şahzadəyə yaxın idilər və türkman tayfasına qədimdən bəri ədavət bəsləyirdilər. Onlar, şərab nuş edilməsi və qəlyan çəkilməsi vaxtı, fitnə-fəsad yaratmaq fikrinə düşüb şahzadəyə onun ürəyinə yatan bəzi sözlər ərz edir, o həzrətin şərafətli xatirini pərişan hala salırdılar. Şahzadənin qəzəbinə səbəb olan bəyənilməz hərəkətlərdən biri bu idi: [Əmir xan] şahın icazəsi olmadan öz məsləhəti ilə evinin qapısı önündə bir qala bina etmiş, ətrafında bürclər yüksəltmiş, evini xeyli möhkəmlətmişdi. Onun bu hərəkətini üsyan və tüğyan əlaməti kimi düşünüb şahzadəyə qorxulu sözlər ərz

etdilər, fitnə yaratmağa başladılar. Get-gedə səyçilərin (saiyan) səyi ilə arada küdurət yaranmağa başladı. Əmir xan şahzadənin özünə münasibətinin dəyişdiyini duydu, vüqar ayaqlarını ətəyinə çəkib şahın mülazimi olmaqdan kənarlaşmaq qərarına gəldi, arada olan gediş-gəlişi kəsdi.

Birdən-birə işin üstündən pərdəni açmaq istəməyən şahzadə qaranlıq məsələnin aydınlaşması üçün Əmir xanın hərəmxanası və qalası olan Sahibabad meydanında çovkanbazi və qəbəqəndazi [oyunları] keçirmək üçün işrət məclisi qurdu. Bütün qızılbaş əmir, əyan və əmirzadələri gələrək şadyanalığa başladılar. Evinin yaxınlığına baxmayaraq Əmir xan həmin məclisə gəlmədi və bu hal vəhşətə səbəb oldu. Elə o günlərdə Məhərrəm ayı və aşura günləri yetişdi. Vəlayətnisan bu xanədanın belə bir qaydası var ki, aşura günü padşah, bütün əmirlər və qoşun başçıları seyyidəş-şühədanın[365] Kərbəla mərəkəsində qətl olunanların təziyəsini keçirir, əza tuturlar. [Əzadarlar] hökmdarın yanında əza həndaməsi qurur, göz yaşları tökürlər. Bu aşura günü təziyə məclisi Sahibabad meydanının yanındakı mərhum Həsən padşahın məscidində tərtib olundu. Bütün əmirlər gəldilərsə də, Əmir xan qəflətə qapılıb gəlmədi. Əzəmətli əmirlər bu qəfləti qəbahət bilib onun ardınca adam yolladılar. O, öz evində təziyə məclisi qurmuş və türkman tayfa üzvlərindən böyük bir yığıncaq təşkil etmişdi. Bu məsələ şahzadəyə ərz olundu və onun mübarək xatirindəki pərişanlığın artmasına səbəb oldu.

Qulu bəy Qorçibaşı batində Əmir xanla müttəfiq idi və əmirlərin əksəriyyəti biri-birilərinə kömək edirdilər. Qorçibaşı şahzadə ilə Əmir xan arasındakı vəziyyəti yoluna qoymaq istədi. O, Əmir xanın adından sədaqət izhar edərək, şahzadədən xahiş etdi ki, Əmir xanın evinə öz səadət qədəmlərini ataraq oranı öz gəlişi ilə nurlandırsın. Şahzadə qorçibaşı və əmirlərin xahişlərini nəzərə alaraq onun evinə təşrif apardı. Əmir xan ali bir məclis düzəldib şahanə qonaqlıq verdi, şahzadənin yaxınlarına, xüsusən Əliqulu xan Fəthoğluya insanlıq və ata- oğulluq ehtiramı göstərdi.

Amma əksəriyyəti əzəmətli əmirlər silkinə mənsub və qoşuna malik olan Əmir xanın qardaşları, oğlanları və qohumları (əqvam) cahillik və qürur badəsindən sərxoş olub kobud hərəkətlər etdilər, o həzrətin yaxınlarına, xüsusilə ustaclı və şamlı əyanlarına

[365] İmam Hüseyn – Ş. F.

kinayəli, yaxud aşkar şəkildə təhdidedici sözlər dilə gətirdilər, elə onlar da pərdəaltı tərzdə danışıb bunlara qarşı ehtiramsızlıq göstərdilər. Bu gediş-gəlişin heç bir faydası olmadı, əksinə vəhşətin yaranması üçün səbəblər ortaya çıxdı.

Badə məclisi davam etdiyindən, həmin ali məclisin masabəyi (hərife-bəzme-piyale) olan Şahrux xan şahzadənin ona göstərdiyi iltifatın təsiri ilə sərxoş olmuşdu. Şahzadənin şərafətli xatirinin Əmir xan və onun sülaləsinə qarşı kin ilə (neqar) dolub kamal nöqtəsinə yetişdiyini və təbiət camının Əmir xana münasibətdə qəhr baxışı ilə dolduğunu görən Şahrux xan bu işə (Əmir xanın cəzalandırılmasına - Ş.F.) razı oldu, bu məsələdə başqa adamlarla birləşdi və şahzadənin etdiyi niyyətin icrası məsələni qorçibaşı ilə məsləhətləşdi. [Qorçibaşı] şahzadəni bu fikrindən kənar etməyə və Əmir xanın cəzalandırılmasının başqa bir vaxta keçirilməsinə cəhd etdisə də, bunun heç bir faydası olmadı. Əmir xan, həmçinin qürur və təkəbbür şərabı ilə məst olan başqa türkmanlar hələlik gizli saxlanılan bu məsələdən xəbər tutub, mənasız hərəkətlər etmək qərarına gəldilər və Əmir xanın evində toplaşdılar. Öz oymaqlarının təəssübünü çəkmək bəhanəsilə onların sırasına hətta qorçilər, yüzbaşılar və ordu mülazimləri də daxil oldular. On min nəfərlik adam silahlanıb üsyan və fəsad qapılarını açdılar.

Əmir xan Türkmanın Azərbaycan əmirül-üməralığı vəzifəsindən kənar olunması:

Türkmanların irəli sürdükləri iddialar bunlar idi: Şahzadənin xidmətində olan bəzi cahillər onun qılığına girmiş və o həzrətin mübarək xatirini bu dövlətxah adamlardan döndərmişlər, xüsusilə Əliqulu xan Fəthoğlu, Məhəmmədi Sarı Solaq, İsmayılqulu xan Şamlı və onlara bənzəyən başqa əmirlər o həzrətə xidmət etməyə layiq deyillər, gərək [şahzadə] arxayınlıq naminə onları özündən kənarlaşdırsın.

Belə cəsarətli əməl sədaqət və bəsirət sahiblərin nəzərincə ədəbsizlik olduğundan, türkmanların bu kəbid əməli şahzadənin kinini daha da artırdı. Qəlbində alovlanan qəzəb atəşi daha da çoxaldı. Artıq işin üstündən pərdə götürülmüşdü. Şahzadə ürəyindəki gizli niyyətini zahirə çıxarıb onların cəzalandırılmasını qəti qərara aldı.

İlk tədbir kimi Əmir xanın şan-şöhrətinin azalması üçün onu vəzifəsindən kənar edib, Təbriz ülkasının əlindən alındığını Təbriz əhlisinə bəyan etdi. Türkmanların istilasından və Əmir xanın istəklərindən cana doymuş təbrizlilər də razılaşdılar və onun vücudunun yox edilməsinə tərəfdar olduqlarını bildirdilər.

Əmir xanın evinə gediş-gəliş kəsildiyindən, o, xəyalında belə təsəvvür etmədiyi vəziyyəti görüb qəflət yuxusundan ayıldı, bürclərə və barılara sığınıb özünü müdafiə etmək qərarına gəldi, bürclərə və barılara top-tüfəng yığıb, Sahibabad meydanı səmtindəki bürcdən hümayun dövlətxanaya tərəf bir neçə top atəşi açdı. Bu minvalla bu top-tüfəng atəşləri üç gün davam etdi.

Şahzadənin üzündə bu cəsarətdən məsuliyyət təri görünürdü, "şahsevənlik" elan etdi. Hökm olundu ki, türkmanlardan bu sülalənin və xanədanın qulamı olan hər kəs qoy dövlətxanaya gəlsin, əksinə, kim ki, Əmir xanla dostdur və onun istəyi ilə hərəkət edir, bu dövlətdən əlini üzüb Əmir xanın ətəyindən yapışsın.

Şahsevənlik çağırışını eşidən türkman tayfası arasına çaxnaşma düşdü, onlar bu hökmə qarşı çıxa bilməyərək, dəstə-dəstə hümayun dövlətxana qapısına gəlir və şahsevənlər silkinə daxil olurdular. Axırda Əmir xan da öz oğul və qardaşlarını göndərdi ki, onlar da şahsevənlər zümrəsindən xaric olmasınlar. Amma onun özü gəlməkdən imtina etdi. Buna görə də türkmanlar arasına təfriqə və dağınıqlıq düşdü. Əmir xanın özü də öz işinə heyrətdə qalmışdı. Onun yaxın adamları və nədimləri cürətə gəlib dedilər: "Bir halda ki, şahsevənlərin dövlətxaya getmələrinə hökm olunmuşdur, gərək o (Əmir xan - Ş.F.) heç kimin vasitəçiliyi olmadan xidmətə gedib özünü bu yolla hicab pərdəsi arxasından üzə çıxarsın".

Əmir xan onun yaxşılığını istəyən bu şəxslərin təklifini rədd etdi və onun [dövlətxanaya] getməyə cürəti olmadı. Hümayun dövlətxanaya toplaşan əzəmətli əmirlər onun yanına adam yollayıb qalaya sığınmağı və top-tüfəng atmağı ona qadağan etdilər və dedilər: "Əgər Əmir xan öz fikrində israr edərsə,

[Misra]

"Bizlər hamımız zərrələrik şahın önündə"

deyərək, onun qalasını tutmağa səy etməyimiz lazım gələcək. Qalanın fəthindən sonrasa bunun nəticəsinin necə olacağını özün göz qabağına gətir".

Əmir xan əvvəlcə onlara kobud sözlər yolladı. Bütün qızılbaşlılara və təbrizlilərə yaraqlanıb və yürüş ləvazimatını hazırlayıb gecə qalaya hücuma keçməyi əmr edən şahzadənin sözlərini qəbul edən camaat hümayun dövlətxanaya gəldi. Şahzadə yürüşə hazır idi ki, İsgəndər şanlı nəvvabın mərhəmətinə ümid edən əmirlər Əmir xanın kobud hərəkətləri barədə padşahın yanına bir adam yollayıb bu cümə gecəsi çoxlu qan töküləcəyini və böyük fitnə yaranacağını nəzərə alaraq şahzadəni bu əməldən çəkindirməyi xahiş etdilər və bildirdilər ki, əgər sabah Əmir xan şahın xidmətinə gəlməzsə, qoy onda ona nə edirlər etsinlər.

İsgəndər şanlı nəvvab öz böyük övladını (Həmzə Mirzəni - Ş.F.) yanına çağırıb onu törədəcəyi hərəkətlərdən çəkindirirdi. Ertəsi gün həmin adamlar hümayun dövlətxanaya toplaşdılar, əmirlər və Əmir xan arasında yenidən gediş-gəliş başlandı. Əmir xan itaətdən başqa çarə görməyərək qaladan çıxmağı qərara aldı. Onun adamlarından olan və "Kiçik həkim" adlanan həkim Əbülfət Təbrizi gəlib xanın qaladan çıxması xəbərini gətirdi. Qorçibaşı, Şahrux xan və əmirlər qalanın yaxınlığına getdilər. Əmir xanla onların arasında Sahibabad [meydanına] yaxın yerdə yerləşən şah məscidinin qapısı ağzında görüş baş tutdu, əmirlər onu hümayun dövlətxanaya gətirdilər.

Elə ki, dövlətxanaya daxil oldular, Əmir xan qılıncını belindən açıb boynundan asdı. Bir yanından qorçibaşı, o, biri yanından isə Şahrux xan onu araya alıb günahkar kimi ali nəvvabın yanına gətirdilər. Xan onun ayağını öpməklə şərəfləndi. Ali nəvvab ona ali əcdadından yadigar qalan ədalətli xislətlə dərhal qılıncı onun boynundan götürdü. Əmir xan isə bu vaxt riqqətə gəlib ağladı. Padşah onu bağışladığını bildirib dedi ki, etdiyin bütün kobud hərəkətlər müqabilində sənə qarşı [bizim tərəfimizdən] mərhəmət və iltifatdan başqa heç bir hərəkət baş verməyəcəkdir. Hökm olundu ki, gecə şahzadənin divanxanasında qurulacaq məclisdə Şahrux xan Əmir xanın şərəfinə qonaqlıq versin. Türkman əmirlərindən olan Ədhəm xanı Əmir xanın evini, namusunu və adamlarını mühafizə etməkdən ötrü qalaya göndərdilər.

Əmir xan gecəni divanxanada keçirdi. Ertəsi gün "Həştbehişt" imarətinin yuxarı evində onun üçün yer təyin olundu,

bütün var-dövləti isə tarac edildi. Bu neçə gün ötdü və Əmir xan Qəhqəhə qalasına göndərildi.

Əmir xanın Binəzir adlı çox sevdiyi bir məhbubəsi var idi. Xan onun da qalaya gətirilməsini, ondan ayrı salınmamasını xahiş etdi. Şahzadə onun xahişini qəbul etdi və Binəziri ona təhvil verdilər.

Bütün bu hadisələrin Əliqulu bəy Fəthoğlunun səyi ilə baş verdiyini nəzərə alan şahzadə bəyi nəvazişləndirdi, ona xan rütbəsi verib, Təbriz darüssəltənəsinin hakimi təyin etdi və Əliqulu bəy beləliklə bütün əmir və dövlət başçılarının həsədinə səbəb oldu. Onun belə yüksəlməsi əzəmətli əmirlərin xoşuna gəlməsə də, buna etiraz etməyə cürətləri olmadı. Hamı onun yanına gedib öz dostluğunu ərz etməkdə idi.

İsmayılqulu xanın ləqəbi "Yoldaş" olduğundan, şahzadə Əliqulu xanı yüksək "Qardaş" ləqəbi ilə şərəfləndirdi. Bu işlərin əsas aparıcısı və məxfi əməllərin icraçısı olan Məhəmmədi Sarı Solaq isə "Sirdaş" adlandırddı. Unudulma bucağına düşən ustaclı tayfa üzvləri isə başlarını öz vücud ciblərindən çıxardılar və inayət və iltifata layiq görüldülər. Bu tayfanın böyük bir hissəsi Təbriz darüssəltənəsinə gəlib Əliqulu xana mülazim olmağı öz izzət və etibarları üçün sərmayə bilərək, mötəbər ustaclı əmirzadələri onun bəndəsi (qulu - Ş.F) olmağı öz üzərlərinə götürdülər. Əmir xanın oğlanları, qardaşları və təbəələri şahzadənin onlara diqqətsizliyindən məyus olurdular, çünki onlara müxalif olan ustaclı tayfasının etibarının yüksəlməsini görüb, daha özlərinə qarşı məzəmmət və bədnamçılıqdan başqa heç nə gözləmirdilər. [Buna görə də] onların hər biri öz künclərindən çıxıb İraqa üz tutdu.

Bu xəbərlər Kaşanda Məhəmməd xan Türkmana çatdıqda heyrət dənizinə qərq olub öz hayına qaldı. Əmir xanın qızı Vəli xan Təkəli ilə nikahda idi. Əmir xanın qardaşları, övladı və qohumları tədricən Həmədana gedərək, onun (Vəli xan Təkəlinin - Ş.F.) ətrafında toplandılar. Məhəmməd xan fitnəkarlığa əl ataraq Kaşandan Həmədana getdi, Vəli xanla görüşdü və onu aldadıcı sözlərlə sədaqət yolundan döndərdi. Onun istəyi belə idi ki, bütün türkman və təkəli tayfalarını bir yerə yığsınlar, Təbriz üzərinə hücuma keçsinlər, Əmir xanın düşmənlərindən intiqam alsınlar, Əliqulu xan Fəthoğlunu və Məhəmmədi Sarı Solaqı şahzadənin yanından uzaqlaşdırsınlar, ustaclı tayfasını qəzəbə düçar etsinlər.

Belə xəbərlərin Təbrizə çatması, Əmir xanın öldürülməsinə səbəb oldu. Qəhqəhə qalasına bir adam göndərib onu qətlə yetirdilər. Əmir xanın qətli xəbəri İraqda eşidiləndə Vəli xan, Məhəmməd xanı şirnikləndilib Əmir xanın qanını tələb etməyə başladı və onlar Müseyib xanı da bu məsələdə özlərinə müttəfiq etdilər, dava-dalaş qapılarını açdılar. Bu hadisələrin gedişində, inkişaf edib dövlət və padşahlıq işlərinin icrasına başlayan şahzadə, yuxarıdakı məsələnin özünə doğru yönəldiyini başa düşdü. [Buna görə də o,] onların bu kobud hərəkətlərinə dözmədi, Əliqulu xanla və onun məiyyətindəki dövlətxah şəxslərlə özünün iqtidar əlamətlərini zahirə çıxardı.

Məhəmməd xan fitnəkarlığa başlayıb Həmədana gedərək, təkəli tayfası ilə yeni əhd-peyman bağlayıb boş-boş xəyallara düşdüyündən, şamlı və ustaclı əmirləri belə məsləhət gördülər ki, onun halını pərişan etməkdən ötrü Kaşan vilayətini onun əlindən alsınlar.

Belə qərara alındı ki, [o zaman] məşhur əmirlərdən biri olan Şahverdi Xəlifə Şamlı Kaşana gedib oranı öz əlinə alsın. Ali divanın dəvatdarı* və Kaşanda atasının canişini olan Yusif bəy Məhəmməd xan oğlu qalaya sığındı, aralarında hər gün döyüş baş verdi. Nəticədə Yusif boəy öldürüldü.

Bu xəbərdən narahat olan Məhəmməd xan işin üzərindən pərdəni birdəfəlik götürmək məqsədi ilə oğlu Vəlican xanı həmin hadisəni dəf etmək üçün Kaşana göndərdi. Şahverdi Xəlifə qalanı ala bilmədi, axırda qayıdıb Nətənzə getdi. Məhəmməd xan [isə] yaralanmış şikar kimi əsmə-titrəməyə düşdü, fitnə-fəsad qapısını açdı. Təkəli və türkman fitnəkarlığı bir müddət davam etdi və onlar şahzadə ilə müxalifcəsinə davrandılar. Nəticədə iş hərb ilə nəticələndi, həmin tayfalar özlərinin günahkar əməllərinin cəzasını aldılar. Onların vəziyyətləri haqqında bir azdan Xorasan və Azərbaycanda baş verən hadisələrin zikrindən sonra məlumat veriləcəkdir.

XORASANIN ƏHVALI, MƏRHƏMƏTLİ ALLAH-TƏALANIN TƏQDİRİ İLƏ BAŞ VERƏN DÖVRAN HADİSƏLƏRİ VƏ O DİYARIN ALIŞAN ƏMİRLƏRİ ARASINDAKI HADİSƏLƏRİN ZİKRİ

Yuxarıda bəyan qələmiylə qeyd olunduğu kimi, Mürşüdqulu xan müqəddəs Məşhədi tutub, Xorasan mahalının üsyankar adamlarının əksəriyyətini öz gələcəyini fikirləşən əqli ilə yumşaqcasına sakitləşdirdi, özünə tabe və müti elədi. Onun yanına yığışmış qızılbaş tayfalarından əmirlər təyin edib, həmin vilayəti öz hakimləri arasında bölüşdürdü və həmin il bu işlərin tənzimlənməsi ilə məşğul oldu. O, cari ildə baş verən işlərdən Əliqulu xana məlumat verərək, əlahəzrətin yolunda həyata keçirdiyi məsələlər barədə ona hesabat keçdi.

Meymun ilinin əvvəlində (miladi 1584) ilk növbədə əvvəllər İsfərayın hakimi olmuş və Guryan cəngində tutulub İraqa aparılmış, oradan da fərar edərək sərhəd yoluyla Xorasana getmiş qardaşı İbrahim xanı Herat darüssəltənəsinə yolladı ki, əlahəzrətin yanında olsun, Əliqulu xanı əlahəzrətin cahanı tutan ləşkərini Heratdan çıxarıb müqəddəs Məşhədə və ətraf yerlərə hücumuna sövq etsin, Damğan, Bəstam və Astrabad darülmöminə qədər gedib İraq sərhədinədək bütün Xorasan mahallarını əlinə keçirsinlər.

İbrahim xan əlahəzrətin mülazimi olmaq səadətinə çatıb, cənab Əliqulu xanla görüşdü, məqsəd və mətləbini onlara ərz etdi. Mürşüdqulu xandan incik olan şamlı tayfasının bəzi ağsaqqaları əks mövqedə (təqəyyoz) dayanıb onunla danışığa bağladılar. Müzşüdqulu xanın sözü beləydi: "Hələlik səltənət qəsrinin qayda-qanunu möhkəmlənmədiyi üçün dövrün məsləhət və dövlətxahlığına uyğun olaraq hamının fikrini birliyə yönəltmək yolundadır. O, (yəni Mürşüdqulu xan - Ş.F.) cənab Əliqulu xan təmsilçisi kimi (nəyabət) belə cəsarət edibdir, öz səyi ilə fəth olunan bəzi məmləkət məsələlərini öz rəyi ilə də həll edəcəkdir."

Məmləkətlər baradə xatircəm olduqdan sonra ondan (Mürşüdqulu xandan - Ş.F.) itayət və tabelikdən başqa müxalif bir əməl görünmürdü. Amma, şamlı və ustaclı əmirləri arasında bu məsələ xüsusunda danışıqlar uzanır və fitnə-fəsad sahibləri arada fəsad törədirdilər.

Bu işləri eşidən Mürşüdqulu xan Əliqulu xanı və şamlı tayfasını özünə tərəf yönəltməkdən ötrü Herata getmək fikrinə gəlib

heç nə düşünmədən və qorxu bilmədən şəhərə çatdı, şahzadənin ayağını öpmək şərəfi ilə müşərrəf oldu. Cənab xan da onun gəlişini alqışladı, dostluq nümayiş etdirdi. Şamlı tayfasının onun öldürülməsi xüsusunda cidd-cəhdlə Əliqulu xanı təhrik etməsinə baxmayaraq cənab xan bununla razılaşmadı, onun Heratda cəzalandırılmasını qonaqpərvərlikdən uzaq bir əməl sandı, gələcəyi düşünüb əlini o bədnam hərəkətə bulaşdırmadı. Amma, Mürşüdqulu xan hər bir tayfa arasında mövcud olan sözgəzdirənlərin sözlərinə inanıb şamlı əyanlarından şübhələndi. Bir gün o hamama getmişdi. Əlində sıyrılmış qılıncı olan bir adam hamama daxil olub Mürşüdqulu xana oxşayan bir dəlləyi (dəllak) qətlə yetirərək aradan çıxdı. Mürşüdqulu xanın adamları belə düşündülər ki, o adam xanı öldürmək üçün hamama gəlibmiş, həmin dəllək də səhvən öldürülmüşdür. Bu adamlar dözməyib hamama girdilər və xanı bu məsələdən şübhələndirdilər. Xanın canındakı qorxu hissi daha da çoxaldı. Qeyri-ixtiyari hamamdan çıxaraq mənzilinə getdi. Bu xəbəri eşidən Əliqulu xan Mürşüdqulu xanı inandırmaqdan ötrü onun evinə yollandı, zəmanənin məsləhətinə uyğun gələn tərzdə dostluqdan danışdı. Hər iki xan dəlləyin öldürülməsi xüsusunda belə zənn edirdi ki, o adam dəlləyin düşməni olmuş və fürsət taparaq onu qətlə yetirmişdir.

Amma, buna baxmayaraq şamlı tayfasının xisləti artıq Mürşüdqulu xan üçün açıqlanmış və xanın onlara olan etibarı yox olmuşdu. O, daha Heratda qalmağı məsləhət bilməyib müqəddəs Məşhəd yolunu önə tutdu. Xan hadisələr burulğanına düşərək özlərini nicat sahilinə çatdırmaq istəyən dəryada boğulan adamlar kimi gedişini şiddətləndirdi, özünü müqəddəs Məşhədə çatdırdı. Xanın qardaşı İbrahim xan isə Heratda qalmışdı. Mürşüdqulu xanın səbəbsiz yerə çıxıb getməsindən inciyən Əliqulu xan öz incikliyini bildirib, İbrahim xana iltifatsızlıq nümayiş etdirməyə başladı. Araqarışdıran adamlar bundan istifadə edib fitnə-fəsad qapılarını açdılar, Mürşüdqulu xan və Əliqulu xan arasında qorxu-hürkü başlandı, tərəflər biri digərinə qarşı etimadsız oldular. Şamlıların qəsdindən vahiməyə düşən İbrahim xan da Heratdan qaçıb müqəddəs Məşhədə getdi. Xanlar arasında yazışma və elçi gediş-gəlişinin davam etməsinə baxmayaraq bu hadisə vəhşətin artmasına səbəb oldu.

Tərəflər arasındakı kin-küdurət günbəgün artırdı. Nəhayət şamlı ağsaqqalları Əliqulu xanı onun cəzalandırmasına vadar etdilər.

Buna görə də o, bir dəstə fitnə-fəsad əhlinin təhriki ilə Xorasan işlərini yoluna qoymaqdan ötrü əlahəzrətin ordusu ilə Herat darüssəltənəsindən çıxmağı qərara aldı. Xanın fikri beləydi: Xorasan işlərini yoluna qoyaraq, Mürşüdqulu xanın adamlarından, əgər hər hansının vəzifədə qalmasını məsləhət bilməzsə, onun yerinə öz adamlarını vəzifədar etsin.

Mürşüdqulu xanın fikrincə bu fitnənin hazırlanmasının səbəbkarı Əliqulu xanın vəziri Xacə Əfzəl idi. O, Əliqulu xana xatırlatmışdı ki, Qayin hakimi Fulad Xəlifənin qardaşı oğlu Sultanəli Xəlifə batində Mürşüdqulu xanla müvafiqdir və ittifaqdadır. Buna görə də Əliqulu xan Qayinə hücuma keçib onu həbs etdi, var-dövlətini öz əlinə keçirdi. Tərşiz vilayətinə yollandı, qorçilərlə oradan bütün Xorasan əmirlərinə, istər Mürşüdqulu xanın əmirləri olsun, istərsə də qeyri xanın, tabeiyyət hökmləri yollayıb hamını əlahəzrət qarşı əlbir, həmçinin onun lələ və bəylərbəyinə tabe olmağa səslədi, müzəffər əskərlərə şah bayrağının kölgəsi altında hazır vəziyyətdə dayanmağı buyurdu.

Mürşüdqulu xan bu vəziyyətdən xəbər tutaraq elə özü də öz təbəələrinin yanına adam yollayıb müqəddəs Məşhəddən çıxdı. Etimadları ona olan etibarlı adamlara məlum oldu ki, Mürşüdqulu xanın heç bir vəchlə cəng və dava-dalaş etmək fikri yoxdur və istəyir ki, dövlət adamlarının səyləri ilə bütün məsələlər islah olunsun, bu xüsusda tərəflərin arasında görüşlər keçirilsin, hümayun şah ordusunun tərkibində haraya məsləhətsə oraya da getsinlər. Amma, torəflərin ağsaqqallarının heç biri belə danışıq vadisinə tərəf qədəm almadı. Baxmayaraq ki, Mürşüdqulu xan adam göndərib Xacə Əfzəli və bir neçə şamlı ağsaqqalını zəruri danışığa dəvət etdi, amma buna əməl etmədilər. Çünki, Xacə Əfzəl onun yanına getməyə cürət etməyib, bu fəsadın islahına baş qoşmadı, bəlkə də Mürşüdqulu xanın və onun etimad bəslədiyi tərəfdarlarının cəzalandırmalarının tərəfdarı oldu. İlk ləşkər bir-birinə yaxınlaşdı, Tərşizin Susfəd (?) adlı kəndində (qorye) üzbəüz dayandılar, orada xeymə və çadırlar qurub, biri-birlərinə elçi və məktublar yollamağa başladılar. Günlərin bir günü Mürşüdqulu xanın qohumlarından olan və onun yanına gəlməsi barədə hökm alan İbrahim Sultan Şərəfli gəlib orduya çatdı. Mürşüdqulu xanın və ustaclı əmirlərinin ordusunun əlahiddə bir yerdə dayandığını görüb, onunla olan oymaq təəssübkeşliyi səbəbindən təbil, bayraq və qoşunla xanın ordusuna tərəf getdi. Mürşüdqulu xan onun qarşılanmasından ötrü bir dəstə

adam da göndərmişdi. Silahlı süvariləri görən və təbil səslərini eşidən şamlı ordusu seyr etdi ki, Mürşüdqulu xan nizamlanmış qoşunla silahlanıb döyüşə hazırlaşmış və artıq cəng təbilini döyməkdə və asimanın təqdiri və qəza məclisinin pərdə açarlarının səyləri ilə gizli çadırdan (cəlbab) çıxaraq zühur cilvəgahına tərəf gəlməkdədir. Əliqulu xan da ehtiyat tədbiri görərək qarşı tərəfdə ata süvar olub ordusunun qol, sağ tərəf və sol tərəfini tənzimlədi və döyüşə hazır vəziyyətdə dayandı.

Əliqulu xan və Mürşüdqulu xan qarşıdurması:

Bu xəbər Mürşüdqulu xana gəlib çatdı. O da, zərurət üzündən qoşunu düzüb cəng hazırlığı ilə məşğul oldu. Bu vaxt bir neçə gün bundan əvvəl Əliqulu xan tərəfindən həbs olunan, sonra isə günahı bağışlanan və yenidən orduya qoşulan Sultanəli Xəlifə, Əliqulu xandan incidiyinə görə, hərbin başlanğıcında qoşunun səfini pozaraq öz adamlarıyla birlikdə Mürşüdqulu xana birləşdi.

Bu məsələ şamlı qoşununun həyəcanına səbəb oldu və ustaclı tayfası ürəkləndi. Xülasə, hər iki tərəf qılınc və oxlara əl atdı, tozun çoxluğundan göyün üzü qaraldı. Əliqulu xanın gözü, içərisində Mürşüdqulu xanın da olmasını güman etdiyi bir dəstəyə sataşdıqda, ehtiyatını unudub, özü şəxsən hərbə başladı. Mərəkədə onunla birlikdə vuruşan şamlı şücaətliləri o dəstənin üstünə at çəkərək onları dağıtdılar və məğlub etdilər. Əliqulu xanın həmin dəstənin təqibi ilə məşğul olduğu vaxt başqa tərəfdə dayanan Mürşüdqulu xan və onun bir dəstə adamı hücuma keçdi və xanın gözü padşahlıq bayrağına sataşdı, istədi ki, az miqdar adamla qoşunun qəlb hissəsində dayanan xilafət və şəhriyarlığın o dürdanəsini [366] (dorre-yekta) özünə tərəf gətirsin. [Buna görə də] bir dəstə adanımı onun üstünə yolladı. Onlar bu hümayun qoşunun şamlı döyüşçülərinin arasında olduğunu görüb, fürsəti qənimət bildilər, şahzadənin zəfər bayrağı kölgəsindəki həmin az miqdar döyüşçüyə həmlə etdilər. Onlar bu həmləyə tab etməyərək pərakəndə oldular. Mötəbər əmirlərdən və Mürşüdqulu xanın yoldaşlarından olan Əbu Müslüm xan Çavuşlu olahəzrətə çataraq, həmin dövlət və iqbal taxtının fələk (gərdun) kimi sakit dayanmayan

[366] Şahzadə Abbası – Ş. F.

bozumtul at üstündə əyləşmiş şahzadəni özündə sonsuz hikmət cəmləşdirən təqdir valisinin (yəni Allahın - Ş. F.) fərmanı ilə ələ keçirdi.

Əliqulu xanın məğlubiyyəti:

Qəzavü-qədərin xəbər gətirənləri bu səadətli müjdə xəbərini o tayfaya çatdırdılar, şahzadənin ləyaqətli zatını Allah-təalanın zəmanəti ilə Mürşüdqulu xanın ordusuna gətirdilər.

Əliqulu xan isə həmin dəstənin təqibinə yollanarkən nə qol döyüşçülərindən, nə də əlahəzrətin fələyə ucalan çətirindən nişan gördü. Vəziyyətdən xəbərdar olub heyrət barmağını təəccüb dişi ilə dişlədi, etdiyi qəflətdən peşman olub gözlərindən peşmançılıq yaşları axıtmağı başladı, təəssüf və nakamlığının çoxluğundan hərbdən əl çəkdi, ah-naləyə qərq oldu, xəcalət çəkə-çəkə öz səadət sərmayəsini əlindən verdi və Herat yoluna üz tutdu.

Mürşüdqulu xan isə əbədi bir səadətə yetişərək, Allah dərgahının ona bəxş etdiyi bu böyük sovqatdan olduqca şadlandı, onun şadimanlıq papağı fələyin başınadək ucaldı. Əlahəzrətə özünün can sədəfində qiymətli bir dürr kimi yer verdi, əvvəldən qərara aldığı kimi müqəddəs Məşhədə qayıtdı. Uşaqlıq vaxtından şamlı tayfası arasında pəzvəriş tapan və Əliqulu xan və onun adamları ilə ünsiyyət və ülfət şəraitində yaşayan əlahəzrət baş verən bu vəziyyətdən incimiş oldu. Amma, iqbalının ilhamlanmasından vəcdə gələn şahzadənin hümayun çöhrəsində məlaldan əsər-əlamət qalmadı. O, vəlayət və imamət taxt-tacının sultanı olan cinlərin və insanların imamı Əbülhəsən Əli ibn Musa-əl Rza salavatullahın – ona Allahın salamı olsun - ziyarəti şərəfinə yetişdi, həmin müqəddəs rövzədə gecə-gündüz xidmət səadətinə çatdı, baş vermiş hadisədən şad oldu. Mürşüdqulu xan da, haqqına qalsa, şamlı tayfası ilə insani rəftar etdi, günahları üzərindən əfv qələmi çəkdi, onların hamısına izzət və ehtiram göstərdi. O, hökm etdi ki, orduda öz malını, dəvəsini və yaraq-əsbabını tanıyan hər birkəs onlara yenidən sahiblənsin, Herata getmək istəyən qoy getsin, ali hümayun qoşunla qalmaq arzusunda olanlar isə qalsınlar. İndiyə kimi Əliqulu xanın vəziri olan Xacə Əfzəl artıq əlahəzrətin vəzarətinə keçirilməklə şərəfləndi. Şamlı camaatından burada qalan hər bir kəs əlahəzrətin mülazimi adlandırılaraq qorçilər, yüzbaşılar və şahzadə məiyyətinin mülazimləri silkinə daxil edildilər. Mürşüdqulu xan Əliqulu xana

məhəbbətli bir məktub yazaraq dostcasına gileylərini bildirdi, baş verən hadisəni qəzavü-qədərə və asiman qüvvəsinə həvalə etdi.

Amma, vəzir Xacə Əfzəl və şamlı ağsaqqalarının fikirləri Herata getmək olduğundan, ustaclı tayfası içərisində aram ola bilmirdilər, buna görə də bir neçə gün ərzində dəstə-dəstə Herata getdilər. Şamlı tayfasında xasseyi-şərifənin cilovdan olan və cəng baş verən gün şahzadənin ali müəyyətini tərk etməyən Hüseyn bəy Əbdüllüdən və məğlubiyyət zamanı Əliqulu xandan ayrı düşən və şahzadənin mülazimi olmaq məqsədilə müqəddəs Məşhədə qayıdan Şahəli bəy Kəramətlinin oğlu Əli bəydən başqa, müqəddəs Məşhəddə və ali məiyyətdə bir adam da qalmadı. Mürşüdqulu xan əlahəzrət üçün səltənət və padşahlıq əlaməti olan əşyaların hazırlanması əmrini verərək, şahzadənin xidmətinə münasib adamlar təyin etdi, özü isə müstəqil şəkildə vəkalət və lələlək taxtına əyləşdi. Bütün Xorasan əhalisi onun yanına gəlib təbrik və mübarəkbadlıq mərasimini yerinə yetirdi, Xorasanda [şahzadənini] iqtidar və istiqlalı əvvəlkidən artıq oldu.

AZƏRBAYCAN HADİSƏLƏRİNİN ZİKRİ, RUM SƏRDARI OSMAN PAŞANIN TƏBRİZƏ HÜCUMU, HƏMİN CƏNNƏTNİŞAN YERİN ALINMASI, DÖVRANIN TƏLƏBİ VƏ ALƏMLƏR PƏRVƏRDİGARININ TƏQDİRİ İLƏ TƏBRİZİN VİRAN EDİLMƏSİNİN ZİKRİ

Bundan əvvəl Azərbaycan hadisələrinin [şərhində] ənbər ətirli qələm bəyan səhifəsində belə yazdı: Şirvan Dərbəndində olan Osman paşa xandgara ərz etmişdi ki, bütün Şirvan və Gürcüstanı ələ keçirmişəm və Sinan paşanın yazdığı guya "Dərbənd qalasından başqa heç bir yer [osmanlılar tərəfindən] fəth olunmamışdır" sözləri yalandır. Bu məlumatlar Fərhad paşanın sərdar təyin edilib Azərbaycana gəlməsinə səbəb oldu.

Cəlal bayraqları [qızılbaş ordusu - Ş.F.) Xorasanda olan vaxt, yuxarıda yazıldığı kimi [osmanlılar] İrəvanı zəbt etmiş, qala qurmuş, Osman paşa bütün Şirvan vilayətini və Şəkini ələ keçirmiş, o yerləri öz adamlarına vermiş, özü isə İstanbula rəvan olmuşdu. O, (Fərhad paşa - Ş.F.) xandgara bütün Azərbaycanı, hətta İraqı da almağa söz verdi, vəzarət rütbəsi aldı, sərdarlığa yetdi.

Fərhad paşa Azərbaycanı fəth etmək üçün saysız-hesabsız qoşunla Ərzruma yollandı. Meymun (piçi) ilinin qışı sona yetdiyi,

türkicə xoruz (təxaquy) ilinə bərabər olan doqquz yüz doxsan üçüncü (miladi 1585/86) ilin novruzu gəldiyi üçün, novruz məclisinin şahidləri Xəta türkləri kimi vəfa ərəblarının ürəklərini ələ almaqdan ötrü bəzənib-düzənməyə, yeniyetmə cavanlar isə bahar məclisini qurmağa başladılar. Nəvvabe-cəhanbani bahar əyyamının gəlişinə və özünün cavanlığına görə laləüzlü gülruxlardan kam almaqda idi. O, baharın fərəhli günlərini Təbriz işrətabadında şadyanaqlıqla keçirib, Əliqulu xan Fəthoğlunun İsfahandan gətirdiyi üzü gözəlikdən dəmirçi kürəsi kimiyanan Şeytan adlı bir dəmirçi oğlu ilə eşqə qurşanmış və vüsal bağından arzu gülləri dərməkdə idi. Onun [Şeytanın] barəsində Şahqulu bəy Ərbaoğlu (?) Rumlu türkcə bu beytləri gözəl demişdir:

Könlüm quşun ol nərgize-fəttan apara,
Kimdir ki, onun qəmzəsidən can apara?
Şeytan, şeytan dedikləri gər bu isə
Mən razıyam imanımı şeytan apara.[367]

Zarafatcıl şairlərin başqa biri [isə] demişdir.

Rübai

Aşıq gözü dəycək sənə, ey şux pesər,
Kiprik oxuna tuş oluban can verər.

Şeytanla adaş xəlq edib Allah səni,
Şəkk yox ki, o, şeytan günahın əfv eləyər[368]

Xülasə, bahar əyyamı və gül-çiçək mövsümü başa çatdı, hava istiləşməyə, hər tərəf yaşıllaşmağa başladı. Hümayun ordu Əşkənbər və Gülənbər yaylağına yollandı, oradan [isə] Bazarcahiyə təşrif gətirdilər. Yayın üç ayını yaylaqlarda keçirdilər. İşrət və şadlıq

[367] Bu şerin ikinci və üçüncü misralarında onun vəzninə uyğun kiçik düzəliş etməli olduq - Ş.F.
[368] Rübainin farscası:
Aşeq ço roxe-to binəd əz can gözərəd,
Tire-mojeət ze sine pərran gözərəd.
Əz dövlətə-həmnamiyət ey sone-Xoday,
Şəkk nist ke Həqq ze-corme-şeytan qozərəd.

qapıları şahın və ordunun üzünə açılmışdı. Çuxur-Səd vilayəti ilə heç bir əlaqəsi qalmayan və oraya yaxın yerlərdə sərgərdan olan Məhəmmədxan Toxmaq fələk əzəmətli orduya qoşuldu.

Bu əsnada Osman paşanın gəlmə xəbəri eşidildi, araya çaxnaşma düşdü. Əmirlərin və əsgərlərin çağırılmaları xüsusunda məhrusə məmləkətlərə itaət hökmləri göndərildi. Bəhram təbiətli qorçilər müəyyənləşdirdilər ki, İraq, Fars və Kirmandan qələbə əsər-əlamətli qızılbaş əsgərləri qeyrət və mərdliklə ali saraya yollanıb fələk şövkətli orduya birləşmişlər. Şahzadənin şərafətli fikri belə idi ki, təkmilləşmə (nəşv-o noma) dövrü dövlət və hökmranlığın başlanğıc dövrüdür. Sədaqətli tayfalar və müzəffər qızılbaş əsgərləri din təəssübü və məzhəb qeyrətinə qapılaraq qoy əvvəlki illərdəki kimi, o həzrətin qoşununda sıralanıb müxalif qoşunla mərdanəliklə döyüşsünlər. [Buna görə də] Məhəmməd xan, Vəli xan, Müseyib xan və bütün təkəli və türkman tayfa əmirlərinə bu məzmunda məktub və istimalətnamələr göndərildi: "Qızılbaş tayfaları bu vəlayətnişan xanədanın sufiləri və yekdil adamlarıdırlar. Vəlinemət [şah] uğrunda candan keçməyi özlərinə sədaqət mərtəblərinin aşağı pilləsi sanırlar. Əmir xan sədaqət yolundan sapdığı üçün ondan bir neçə kobud iş baş verdi ki, bunlar da onun (şahzadənin - Ş.F) şərafətli xatirini qəzəbləndirdi və o öz cəzasına çatdı. Daha başqa heç bir əmir və türkman qazilərindən [bizim] narazılığımız yoxdur. O tayfa böyüklərindən Ədhəm xan Türkman o hərzrətə xidmət edən izzətli (moəzzez) və möhtərəm bir şəxs kimi şəfəqqət nəzərləri altındadır. Qoy onlar (təkəli və türkman tayfa əmirləri - Ş.F.) puç xəyalları beyinlərindən çıxarsınlar, özlərini iztiraba (dəğdəğe) salmasınlar. Elə davranış tərzi ilə irsi istək və sədaqət iddiası arasında ziddiyyət vardır. Buna görə də, müxaliflər İran mülkünü tutmağa və qızılbaş tayfalarını yox etməyə (estisal) meyillənmişlər. Hazırda qızılbaşların yüz illik gurxanəsi nə İran sultanlarının təxtgahı olan məşhur Təhriz şəhəri üzərinə hücuma keçmək istəyirlər. Uzaqgörən əqlin tələbinə (eqteza) əməl edərək öz vəziyyətinizə nəzər salın, istək, sədaqət, dövlətxahlıq və əlbirliklə bir yerə yığılıb səltənət taxtına tərəf yola düşün. Özünüzün yüz illik istək və sədaqət ətəyini üsyan çirkabına (lovs) bulamayın. Fələk əzəmətli qoşunlarınızla döyüş meydanına atılıb, müxaliflərin [tamamilə] dəf olunmalarına səy edin. Biganə düşmənin məğlubiyyətindən sonra mətləblərinizin icrasından (əncah) ötrü hər nə xahişiniz olarsa, həll etməyə çalışaraq. Məlumdur ki, əgər Təbriz

şəhəri və vilayəti qızılbaşların əlindən çıxarsa, həmçinin İran məmləkətinin əsas ləşgər yığımının mərkəzi olan Azərbaycan məmləkəti müxaliflər tərəfindən alınarsa, o zaman bu dövlətə böyük ziyan dəyəcək, elə fitnəkarlıq başqa məmləkətlərə də sirayət edəcək. [Əgər] elə olarsa qızılbaşların halının necə ola biləcəyi məlumdur". Qorçilərin və məktubların göndərilməsindən sonra Osman paşanın Qarabağa hücumu ehtimalının qarşısını almaq məqsədilə o yerlərdə üç ay gözlədilər. Bir aydan sonra onun (Osman paşanın - Ş.F.) Təbrizə hücum xəbəri məlum oldu. Əzəmətli əmirlər behişt ayinli şahın məclisində cəmlənib Təbrizin mühafizəsi və müxaliflərin dəf olunması barədə məsləhətləşməyə başladılar.

Tədbirli və ağıllı adamların bir dəstəsi belə məsləhət gördülər ki, cənnətməkan şahın zamanındakı kimi Təbriz şəhərinin və müxalif qoşunun keçəcəyi istiqaməti boşaldıb rəiyyəti və şəhər əhalisini təhlükəsiz Qaracadağa köçürsünlər, şəhərdə azuqə saxlamasınlar, türkman və təkəli ləşkərinin gəlişinə qədər döyüşü təxirə salsınlar, müxaliflərin ordusuna azuqə daxil olmamasından ötrü yolları bağlasınlar, ləşkər gəlib çıxandan sonra döyüşsünlər. Qürur badəsindən məst olan bəzi adamlar və cahillər bu düzgün rəyi qüsurlu sanıb belə məsləhət gördülər: "Təbriz şəhərində səkkiz min [döyüşçü] vardır ki, onların ən azı yarısı hazırlıqlı və çevik gənclərdir. Onlar çalışacaqlar ki, öz əhli-əyalını qorumaqdan ötrü şəhərdə səngər qurub döyüşsünlər, təbrizlilər hər küçə başında müdafiə olunsunlar, müxaliflərin şəhərə giriş yollarını bağlasınlar, şəhərin daxilində Təbriz əhli, xaricində isə qızılbaş [döyüşçüləri] onları dəf etsinlər.

Bu rəyi adamların əksəriyyəti bəyəndi. Şahzadənin xidmətində hörmətləri olan bəzi divanə təbiətli şəxslər Təbriz şəhərini boşaltmağa qoymadılar. Hamılıqla bu səhv fikri düzgün sandıqları üçün Təbriz əhlinin [şəhərdə] qalmalarına razılıq verdilər. Təbrizin əyan və şərəfli adamlarına şərafətli hökm verildi ki, düşmənlərin dəfində mərdanə olsunlar, öz övladlarını, adamlarını, can və mallarını onların şərindən qorusunlar. Ev ləvazimatı və ailənin şəhərdən çıxarılması şəhərdə [həmişə] çaxnaşmaya səbəb olduğundan, heç kim öz ailəsini kənara çıxarmadı və [düşündülər ki,] biz də daxildən ləşkər düzəldib, onlarla döyüşə hazırıq və qoymarıq ki, müxaliflərin sizə zərəri dəysin.

Əzəmətli əmirlərdən bir-iki nəfəri, xüsusən Pir Qeyb xan Ustaclını öz qoşunuyla şəhərə göndərdilər ki, Əliqulu xanın qardaşı

olan və qardaşı tərəfindən şəhərin hakimi və məmələkətin qoruyucusu təyin edilən Hüsenqulu Sultanla birgə küçə yollarını kəssin, şəhəri möhkəmlətsin, əhalini küçəbəndlərin müdafiəsinə tərğib etsin, heç kimin öz ailəsini kənara aparmasına icazə verməsin. Əgər belə vəziyyət aşkar olarsa ev sahibi cəzalandırılsın və onun var-yoxu qarət edilsin. Yuxarıdakı məzmunda ali hökm Təbrizə çatdıqda həmin böyük osmanlı ordusunun hücumla gəlişindən yaranan çaxnaşma və narahatlıq bir qədər sakitləşdi və təbrizlilər öz əqidə və sədaqətlərinə görə o böyük işə girişdilər, küçəbəndlər qurmağa, məhəlləleri bölməyə girişdilər. Hər bir yolu məhəllə pəhləvanlarına tapşırdılar, hər küçəbəndə nəzarəti mötəbər qızılbaşların birinə və çevik adamlara həvalə etdilər.

Amma bəla selinin və inad atəşinin qarşısının alınmasını asan sandılar, əzəli qüdrətin (Allahın - Ş.F.) rəyi o şərif şəhərin dağıdılması, məkanın və Təbriz əhalisinin çaşqınlığını, pərişanlığını və pərakəndəliyini artıq müəyyənləşdirdiyindən onların bu səylərinin heç bir təsiri olmadı.

Beyt[lər]

Fələyin qələmi yazıbsa əgər,
Onun yazdığım kim poza bilər?
Rəbb verdiyi üçün təqdirə qərar,
İtirdi ağlını aqil adamlar.
Onların səyləri xeyirsiz oldu,
Surət aynasında əks pozuldu.[369]

Bu yerdə münasib olardı ki, Təbriz və təbrizlilərin düşdükləri vəziyyətlərin bəzilərini zirək (nokfepərdaz) qələmlə yazaraq mətləbə başlayaq.

[369] Beytlərin farscası:
An ke kelke-qəza qədəm sazəd,
Kəs be təğyire-an nəpərdazəd.
Çon ze təqdire-kerdgare cəhan,
Şod təbəhkar an nekuxeradan,
Səy-o tədbireşan mofid nəbud,
Əndər ayine surəti nənəmud.

Aləmin vəziyyətindən xəbərdar (mostəxbər) olanlardan gizli deyildir ki, fəxarətli Təbriz şəhəri uzun müddət İranın paytaxtı və fərman verən padşahların səltənət mərkəzi olmuşdur. Orada ali imarətlər, məscidlər, mədrəsələr, dövran sultanları, vəzirlər və hakimlərin inşa etdikləri binalar, kəndlər, tarla və tərpənməz əmlak vəqf olunan xeyriyyə müəssisələri, ürəkaçan bağlar və bostanlar o qədərdir ki, dili sınıq qələm onların bir neçəsini belə yaza bilməz. Təbriz camaatı ev və mənzillərinin inşasına, bəzək-düzəyinə, avadanlıqla təchiz olunmasına və yaraşıqlı görünməsinə o qədər səy edir ki, ən kasıb bir bazar adamının evi aliqədr bir əmirin orada qalmasına layiqdir. Cənnətməkan şahın zamanında Rum padşahı Sultan Süleyman bir-iki dəfə bu mülkü tutmaq üçün gələndə şiəliyə (təşəyyö - Ş.F.) və müqəddəs səfəviyyə xanədanına ürəkdən bağlanan Təbriz əhalisi bu dövlətin yolunda çox xidmətlər göstərdikləri üçün şəhərin bütün xalqı cənnətməkan şahın diqqət və iltifatına layiq görülmüşdü. Bu fəxarətli şəhər əhalisinin əksəriyyəti tacir, peşəkar və sənətkar olduğundan [Şah Təhmasib] onların üzərinə qoyulan male-möhtərifəni* onlara bağışlamış, şəhəri təkalife-divanidən" azad etmişdir. O, təbrizlilərə o dərəcədə ehtiram bəsləyirdi ki, onlara "qaziye-ehdas " təyin etmiş və qərar çıxarmışdı ki, daruğələr hadisələri "qaziye-ehdasın"[370] iştirakı ilə şəri sorğu-sual yoluyla həll etsinlər, günahkarlara etdikləri günah müqabilində şəri cəza versinlər və onların heç birindən cərimə almasınlar.

O şəhərin adamları bir neçə il əmin-amanlıq içində yaşamış, imarətlərin, ev ləvazimatları və bəzək əşyalarının, qadın zər-zivərlərinin gözəl olması üçün lazım olduğu qədər çalışmışdılar. Şəhərin abadlığı və əhalisinin çoxluğu elə bir həddə gəlib çatmışdı ki, bütün İslam şəhərləri arasında o əzəmət, cəmiyyət və abadlıqda yer yox idi. Amma fələyin yaralı gözü onlara [da] nəzər saldı, o abad şəhər viranəyə döndü, əhalisi qətl və qarətə giriftar oldu, sağ qalanları isə yüz həsrətlə vətəndən aralı düşdü. Təbrizin əyan-əşrafi və əhalisi möcüzbəyan [Quranda] bəyan olunan "Məliklər bir şəhərə və sairəyə (iləx) girdikdə oranı viran edər, əhalinin əzizlərini zəlil edərlər"[371] ayəsinə uyğun şəkildə izzət zirvəsindən məzəllət nöqtəsinə yuvarlandılar.

---

[370] Qaziye-ehdas - mübahisəli işlər qazisi - Ş.F.

[371] İfadənin ərəbcəsi: "İnn-əl-mülukə iza dəxəlu qəryətən və iləx..." Qeyd: Qurani-Kərimin əksər nüsxələrində bu ayənin son sözü "iləx" kimi yox "əfşədənə" şəklində

Xülasə, Fərhad paşanın Təbrizə gəlişi xəbəri dəqiqləşəndə də şahm və adlı-sanlı şahzadənin qızılbaşlara, xüsusilə təkəli və türkman tayfalarına bu yürüşün dəf edilməsi xüsusunda məsləhətamiz hökmlər göndərmələrinə baxmayaraq heç bir faydası olmadı. Təkəli və türkman tayfaları inadkarlıq etdilər və həmin tayfalar və Fars, Kirman və İraq ləşkərlərindən heç biri gəlib hümayun əsgərlərə qoşulmadı.

İsgəndər şanlı nəvvab ordu ləvazimatı ilə (əğrəq) Urumdula və Zemara getdi, şahzadə isə ixtiyarında olan az miqdarda əmirlər, dövlət başçıları, qorçilər və xasseye-şərifə* mülazimləri ilə birlikdə rum ləşkəri ilə hərb etmək üçün hümayun ordudan və adlı-sanlı atasından ayrıldı, [arama] qorçibaşı bir dəstə qorçi ilə İsgəndər şanlı nəvvabın xidmətində qaldı. Şahzadə sayı on-on iki minədək olan iqbal əmirləri ilə Təbrizin dağətəyi şəhəri olan Mərənddə dayanıb, Təsuc yolu ilə gəlib-gedən saysız-hesabsız rum ləşkərini müşahidə edərək fürsət intizarında idi. Rum ləşkəri həddən ziyadə çox olduğundan, ali orduda olan belə az döyüşçü ilə onların qarşısına çıxıb döyüşmək mümkün deyildi. Osman paşa [isə] köç-köç gələrək Təbrizin Şurab adlı yerində dayandı.

Təbriz əhalisinin gözü o böyük qoşuna sataşdıqda, onların canına bərk qorxu düşdü. Osmanlılar iki-üç dəfə hücumla şəhərin küçəbəndinə, dövlətxana yaxınlığına gəlib çatdılarsa da qarşı tərəfdən müdafiəyə başladılar. Arada kiçik savaş oldu. Rumiyyə [qoşunu] qələbə çalıb top və zərbzənlə[372] küçəbəndləri dağıdaraq Sahibabad meydanına gəldilər. [Qızılbaş] döyüşçülərinə və əhaliyə məlum oldu ki, rumilərin hücumunu dəf etmək onların gücündən yuxarı bir məsələdir. Buna görə də tələşa düşdülər və bir yerə toplaşıb müdafiə oluna bilmədilər. Hüseynqulu Sultan, Pir Qeyb xan və şəhərdə olan hər qızılbaş kənara çıxıb ali orduya birləşdilər.

Qızılbaşların köməyindən məhrum olan təbrizlilər iztiraba düşərək, özlərinin və əhli-əyallarının mühafizəsi üçün qazi Kamran bəy Əvhədini və müfti və şeyxüislam olan Mövlana Məhəmmədəli Mövlana İnayətoğlunu xahişlə Osman paşanın yanına yolladılar, itaət və tabeliklərini bildirdilər. Osman paşanın onlara əvvəlcə bir neçə məsləhət verməsinə baxmayaraq o, sonradan, Təbriz əhalisinin

---

yazılmışdır: Bax. Qurani-Kərim. Bakı, Şərq-Qərb mətbəəsi, 1996, s. 379; həmçinin Qurani-Kərim. Tehran, hicri 1376, s. 379 - Ş.F.

[372] Qaladağıdan silah - Ş.F.

igidliyini çox görmüş olduğundan ehtiyatlandı, onda ağıl və mülk ələ keçirtmək fikri üstünlük təşkil etdi, [elçilərə] bildirdi ki, qoy təbrizlilər çox da çaxnaşmaya düşməsinlər, öz qeydlərinə qalsınlar onlar bundan sonra xondgarın rəiyyətləridirlər.

Elçilər şəhərə qayıdıb bütün görüb-eşitdiklərini Təbriz əhalisinə danışdılar.

Amma, ağıllı və dərrakəli adamlar bilirdilər ki, rumiyyənin ürəyində Təbriz əhalisinə qarşı kin vardır və məzhəb ayrı-seçkiliyinə görə onlar bunlarla barışa bilməzlər. [Buna görə də] onlar öz haylarına qalıb var-dövlətlərini zirzəmilərdə, evlərdə və quyularda gizlətdilər, bir-bir, iki-iki öz əhli-əyallarının əllərindən tutaraq gecə vaxtı piyada-atlı fərar vadisinə tərəf üz tutdular. Belə bir günün gəlişini gözləyən alçaq adamlar onların yanlarındakı pulları yollarda əllərindən alır və onları lüt-üryan qoyurdular.

Osman paşa [isə] asudəliklə şəhərə daxil olub, Təbriz dövlətxanasını qala üçün münasib bildi, Şurabdan keçib, Təbrizin ön tərəfində yerləşən Cərəndaba gəldi, qala inşa etməyi qərara aldı. O, [görüləsi işləri] əsgərlərin arasında böldü və iş başlandı. Rumilərin qala tikməklə məşğul olduqları qırx gün müddətində qızılbaş qaziləri, Surxab dağını özlərinə dayanacaq yeri seçmələrinə baxmayaraq, gecələrin və gündüzlərin əksər vaxtında rumiyyə ordusunun yaxınlığına gəlib, onlara əl uzadırdılarsa (dəstbordi) da, belə hücumlar rum leşkərinin çoxluğundan nəticəsiz qalırdı. Rumilər [isə] qalanın inşasını başa çatdırdılar. Onlar şəhərdə əllərinə keçirtdikləri bol azuqəni, topu, zərbzəni və başqa yaraq-yasağı qalanın içinə yığdılar və Axta Cəfər paşanı qala mühafizəsinə təhkim və Təbrizə hakim etdilər.

Qala inşası vaxtı Osman paşa Təbrizdə əhalini qətliam etdi. Bunun zahiri səbəbi Təbriz əhalisinin rumilərlə yola getməməsində idi. Gecələr Təbriz yolkəsənləri rumilərin xeymələrinə basqınlar edir, onların mallarını əllərindən alır, özlərini isə fürsət düşdükcə öldürürdülər. Qalaya da hücumlar edib, rumilərin gündüz tikdiklərini gecə uçurdurdular. [Beləliklə] Osman paşaya təbrizlilərin belə əməlləri haqda məlumatlar verildi. Günlərin bir günü Pəskuçək hamamında çimənlər bir rumini qətl edib hamamın quyusuna atmışdılar. Bu xəbəri eşidən Osman paşanın qəzəb atəşi şöblənmiş və o, türkcə belə demişdi: "Təbriz xalqı əcəb fərəsətli (?) tayfadırlar", yəni "Təbriz əhli fitnəkar tayfadır və bütünlüklə qırılmalıdır, çünki üsyan və tüğyan əlamətləri onların üz-

gözlərindən (bəşəre) görünür". Bu hökm qəzanın hökmü ilə imzalandı və Osman paşa tərəfindən sadir oldu. Həmin sözləri eşidən rumilər qılınclarını çəkərək şəhərə tökülüşüb qırğına başladılar. Təbrizlilər gizli yerlərdə gizlənməkdən və gecələr öz başlarına nə isə bir əlac etməkdən başqa bir çarə tapa bilmədilər. Rumilər isə, çöldə kimi görürdülərsə qətl edirdilər. Rumilər sonra evlərə hücum edib kişiləri bəla qılıncına yem edir, var-dövlətlərini talayır, qadın və qızları əsir gölürürdülər. Uşaq və övrətlərin fəryadları fələyədək ucaldı. Rumi əhalisindən bir dəstə xeyirxah və Allahdan agah olan adam Osman paşanın yanına gedərək onunla danışıq apardılar və paşanı bu qəbahətli əməldən çəkindirdilər.

Osman paşa günün axırında əsgərlərə qətl və qarəti qadağan etdi. Amma, sağ qalan [təbrizlilər] canlarının qorxusundan mallarını şəhərdə qoyub, öz əhli-əyallarının əlindən tutaraq gecə şəhərdən çıxdılar, bələd olmadıqları çöllərə, biyabanlara səpələndilər. O gözəlikdə memarlığı və avadanlığı olan [Təbriz] şəhəri isə müxaliflərin əllərinə keçdi və rumilər evlərdə və gizli yerlərdə (nihanxanə) qalan saysız-hesabsız var-dövlətə və dəfinəyə sahib oldular.

Çoxlu var-dövlət axtarıb-tapmaq naminə bəs qədər təhqiq və təftiş etdilər. Belə ki, əhalinin ev əşyalarının (əsasəlbeyt) gizlədildiyi və dərinliyi iyirmi zər olan quyuların üstünü örtüb üstündə ev tikmələrinə baxmayaraq, rumilər həmin yerlərə də yol tapır və quyu dibindəki şeyləri ələ keçirirdilər. Amma bu əməllər Osman paşa üçün yaxşılıqla nəticələnmədi və o, məzlumların və əhli-beyt şiələrinin[373] ah-nalələrindən Allahın qəzəbinə gəldi, heç bir xəstəliyi olmadığı halda xonaq[374] xəstəliyinə giriftar olaraq, öz varlıq libasını fəna küləyinə verdi. Rumilərin Təbriz şəhərində qaldıqları qırx-əlli gün ərzində künc-bucaqda baş verən kiçik döyüşlərdən başqa qızılbaşlar və rumiyyə arasında daha üç böyük hərb oldu və hər üç hərbdə qalibiyyət müzəffər ləşkərə (qızılbaşlara - Ş.F.) qismət oldu.

[373] Qeyd: Məhəmməd peyğəmbərə, onun qızı Fatiməyə və 12 imama beyət edən şiə əhalisi. Onlara "Peyğəmbər ümməti" də deyirlər – Ş.F.
[374] Qeyd: Boğaz xəstəliyi, difterit - Ş.F.

QIZILBAŞ VƏ RUMİ LƏŞKƏRLƏRİ ARASINDAKI HƏRBLƏRİN ZİKRİ. QULU BƏY QORÇİBAŞININ SƏRDARLIĞI İLƏ BAŞ VERƏN BİRİNCİ DÖYÜŞ

Məsələnin bəyanı belədir: Rumi döyüşçüləri Təbrizi ələ keçirdikdən, qızılbaşlar şəhərdən çıxıb şahzadənin ali ordusuna birləşdikdən sonra onların qüvvələri məlum oldu. Müəyyənləşdi ki, rumilərin güclü olmaları bilindikdən sora bu qədər az adamla o hədsiz-hesabsız ləşkərlə cəng etmək [qızılbaşların] işi deyildir. Şahzadə geri qayıdıb Urumdulda hümayun orduya birləşdi. O, orduda qalan ağıllı və tədbirli Qulu bəy Qorçibaşı Əfşarla məsləhətləşdi. Başa düşdülər ki, elə məsələnin başlanğıcında şəhərin əhalidən boşaldılmaması səhv hərəkət olmuşdur. Belə qərara gəldilər: "Şəhər rumilərin əlində olduğundan təbrizlilər dağılışmışlar. Belə bir vəziyyətdə ləşkərin və köməyin azlığından və müxaliflərin çoxluğundan cəngə girişmək sərfəli deyildir. Gözləyək ki, onlar qalanın inşasını bitirib getsinlər və gediş vaxtı gizlincə onların arxalarından hücuma keçib, bacardığımız əməliyyatı həyata keçirək. Onlar çıxıb öz ölkələrinə getdikdən sonra isə biz geri qayıdıb qalaya hücum edərik, Azərbaycanın rəiyyət və qoşunlarını toplayıb Allah-təalanın köməyi ilə qalanı ələ keçirərik. Belə bir vaxtda bundan qeyri bir tədbir düşünmək münasib deyil".

Şahzadə ona xas olan qeyrət və namus hissinin çoxluğundan özlərinin vaxtı qəflətdə, rumilərinsə istirahət və qala tikmək ilə keçirmələrinə imkan verilməsinə heç vəchlə razı ola bilmirdi. Qərara gəldilər ki, onun özü şəxsən müharibəyə yollansın, "Allahın istəyi ilə çox zaman olar ki, az dəstə çox dəstəyə qələbə çalsın"[375] ayəsinə uyğun olaraq Allahın inayətinə arxalanıb, mümkün qədər səy göstərsin.

Qorçibaşı və ağsaqqallar o həzrətin hərbə getməsinə razı olmurdular. Qorçibaşı xahiş etdi ki, əvvəlcə onun özü (qorçibaşının - Ş.F.) bir dəfə cəngə gedib ləşkəri çınaqdan keçirsin. Əgər bu cəngdən sərfəli bir əməl baş verərsə, ikinci dəfə qoy şahzadə döyüşə getsin və bir qədər döyüşdükdən sonra qayıdıb özünü saray əsgərlərinə çatdırsın. Ağıl sahibləri bu fikri bəyəndilər. Hümayun ordu hərəkət edib şəhərdən dörd fərsəx aralıda yerləşən

[375] Ayənin ərəbcəsi: "Kəm-min-fiətin qəlilətin ğələbət fi-ətən kəsirətən bi-izn-il-lahi".

Dərənəhəngə gəlib orada dayandı. Şahzadə qorçibaşını ləşkərə sərdar təyin edib irəli yolladı, Məhəmmədi xan Toxmaq [isə] ali məiyyətlə qaldı.

Qorçibaşı bəzi əmir və işə yararlı adamları çərxçi sifətilə irəliyə göndərdi. Onlar yolun şərq tərəfindən Fəhusfənc çayından keçərək, İraq yolu ilə yuxarı çıxıb özlərinin göstərdilər. Rumiyyə qızılbaş ləşkərinin gəlişindən xəbərdar oldu. Osman paşa o vaxtlarda rumilərin on şücaətli döyüşçüsü olan Cığaloğlunu sərdar təyin edib bir dəstə paşa və sərhəd əmiri ilə onların qarşısına yolladı. Rumilərin qızılbaş ləşkəri barədə az məlumatları olduğundan, Cığaloğlu qızılbaş ləşkərinin qolunun çayın ortasında olduğunu bilmədi, yalnız çərxçilərin qolunu gördü. O, topxana və ərradədən* ayrılıb cəsarətlə irəli cumdu və döyüşə başladı. Bu tərəfdən də çaydan keçib yuxarı tərəfə gələn qızılbaş igidləri rumilərin qolunu görüb atlarının yüyənlərini onlara sarı döndərdilər. Rumilərdən bir həmlədə on min nəfərədək əsgər qətl edildi. Qızılbaş ləşkərinin mərdanə sədəmələrindən lərzəyə düşən Cığaloğlunun əsgərləri məğlubiyyətə uğradılar, qızılbaş qazilərinə isə fəth və zəfər müyəssər oldu. Rumilərin mötəbər adamlarından bir neçəsi əsir götürüldü. Cığaloğlu isə, məğlubiyyət vaxtı özünü belə vəziyyətin ola biləcəyi təqdirdə, amadə olan bir itiqaçan madyana minib aradan çıxdı.

Kor Seydi Xəbuşlu iddia edirdi ki, mən Cığaloğlunu nizə ilə yaralamışam, amma onun sözü sübut olunmadı.

Osman paşa cəng barədə hər saat məlumat almaqda idi. Xəbər aparanlar ona bildirirdilər ki, qızılbaşlar şücaət göstərirlər. [Buna görə də] Osman paşa qoşun-qoşun kömək yollayırdı.

Qorçibaşı müxaliflərin məğlubiyyətindən və onların sərdarı Cığaloğlunun fərarından sonra rumilərdən kömək gələcəyindən çəkinərək, qızılbaşların geri qayıtmalarına əmr etdi. Gün sona yetdiyindən geri dönərək elə həmin çay kənarında dayandılar. Onlar ertəsi gün orduya çatıb, kəsilən başları, ələ keçirilən şeyləri və əsir tutulan adamları aləm şahzadəsinin nəzərinə yetirdilər və şahanə mükafatlara layiq görüldülər. Osmanlı ordusunun etdiyi qətliamdan sonra qaçıb [hümayun] orduya gəlmiş təbrizlilərdən belə sözlər eşidildi: Bu cəngdə rumilər qızılbaşlardan gördüklərini gördülər. Osman paşa Cığaloğlunu danlayaraq onu qorxaqlıq (cəbən), ürəksizlik (bəddeli) və sui-tədbirsizlikdə ittiham etdi.

ALƏM ŞAHZADƏSİ SULTAN HƏMZƏ MİRZƏNİN SƏRDARLIĞI ALTINDA BAŞ VERƏN İKİNCİ VƏ ÜÇÜNCÜ DÖYÜŞLƏR

Dörd-beş gündən sonra, ləşkər bir qədər dincəldikdə, nəvvab şahzadənin özü ali ordudan on-on iki min döyüşçüsü ilə birgə rumilərlə hərbə yollandı. Rumilər elə ki, qızılbaş ləşkərini gördülər, Osman paşa bu dəfə Qaraman bəylərbəyi Murad paşanı və Diyarbəkr bəylərbəyi Məhəmməd paşanı sərdar təyin edib, Anadolu ləşkəri ilə qızılbaşlarla döyüşə yolladı. Hər iki tərəfin çərxçiləri Fəhusfənc çayı kənarında biri-birlərinə yetişdilər, hərb mərəkəsi qızışdı, qarşılıqlı və ardı-arası kəsilməz həmlələr baş verdi. Rumiyyə üstünlük əldə etməkdə idi. Şahzadə onların qələbəsinə dözə bilməyib öz igidlik atını mübarizə meydanına sürdü. Qorçibaşı və dövlətxah ağsaqqallar ehtiyat üzündən şahzadənin irəli getməsinə mane olmaq istədilərsə də, bunun faydası olmadı. Şahzadə hümayun qolu irəli apardı, ali məiyyətin (yekə!) cavanları o dövlət və iqbal taxtının bəzəyi olan şahzadənin mübarək nəzəri altında canlar üzən ox və nizələrlə bir çox rumi döyüşçünü yəhər üstündən həlak torpağına atdılar. Döyüş gün batanədək davam etdi. Aləm şahzadəsi rumi səfini (tip) dağıtmağa və qırıb-çatmağa bel bağladı (himmət) Havanın abbasi köynəklərinin rəngi kimi qaralmasına baxmayaraq qızılbaş ləşkəri hərbdən əl çəkmirdi. Paşalar da öz səbat və qərar ayaqlarını yerə dirəyib məşəl yandırdılar.

Qızılbaşların rumiyyə ilə ikinci cəngi və müxaliflərin yeni məğlubiyyəti:

Bu əsnada nəvvab şahzadə Şahrux xanı sol cinahdakı qoldan ayırdı və müxalifərin sağ qoluna həmlə etməsini əmr etdi. O, əmirlər, zülqədər, Qaracadağ, şeyxavənd camaatı və sol qoldakı döyüşçülərlə ali ordudan ayrıldı. Çayın ortasına çatdıqları vaxt artıq onlar rumi qoşununun qəlb hissəsinin arxasına gəlib yetişmişdilər. Elə ki, arxadan rumilərin qulaqlarına qızılbaş qoşununun şeypur (nəfir) səsləri çatdı, ali ordu mülazimləri və şahzadə də atlarını irəli qovdular. Qızılbaş döyüşçülərinin azlığına və döyüşkən qazilərin çatışmazlığına baxmayaraq, rumilər hələ nəfir səslənməzdən və igidlər döyüşmək üçün irəli şığımazdan əvvəl qorxuya düşdülər və onların qoşun qolları pozuldu. Qolda olan paşalar bir qədər davam

gətirib, nə qədər vuruşdularsa da, faydası olmadı, mərəkə meydanına arxa çevirib fərar etdilər. Amma, onların keçəcəyi yolun üstündə qızılbaş ləşkəri çox olduğundan fərar vaxtı özlərini onlara çatdırdılar. Diyarbəkr bəylərbəyisi Məhəmməd paşa və Qaraman bəylərbəyi Murad paşa əsir götürüldülər. Bərk yaralı olduğundan və yaşamaq ehtimalı qalmadığından Məhəmməd paşanın başını kəsdilər, Əlixan bəy Şəmsəddinlinin əsir tutduğu Murad paşanı isə diri halda başqa əsirlərlə birlikdə şahzadənin yanına gətirdilər. Bu döyüşdə bir çox rumi ölüm şərbəti içdi. Qızılbaş qaziləri rumiyyə ordusunun olduğu Cərəndaba qədər onları təqib etdilər, bir neçə rumini isə yaşadıqları xeymənin içindən çıxarıb gətirdilər.

Elə ki, rumilər, qazilər və döyüşdən qaçanlar arasına qaranlıq gecə düşdü, əzəmətli əmirlər və intiqama həris əsgərlər fələk ehtişamlı şahzadənin ali ordusunda döyüşdən kənara çəkildilər, sabahkı gün üçün [kəsilən] başlar, talan olunan mallar və hər bir kəsdən zahir olunacaq şücaəti görmək barədə düşündülər. [Məlәlik] hifz olunmaları zəruri olan Murad paşanı və bir neçə başqa əsiri orduya göndərdilər, oradansa Qəhqəhə qalasına apardılar. Atların bir qədər dincəlmələri və döyüşçülərin yenidən döyüşə hazırlaşmaları üçün iki-üç gün Fəhusfənc çayında gözlədilər. Rumilər tərəfdən də, Osman paşa öz ordusunun önündə keşik çəkmək və irəli getməmək əmri ilə qırx-əlli min döyüşçü saxladı. Rumilər nəvvab şahzadənin az adamla onlarla igidlik və mərdanəliklə döyüşməsinə təəccüblənmişdilər.

Rumilər bir yandan hərb və qətl-qarətlə məşğul olur, başqa yandan qala tikirdilər. Döyüşçülərin və minik heyvanlarının üç-dörd günlük dincliyindən sonra yenidən cəng hazırlığına başladılar. Belə qərara gəldilər: "Osman paşanın özü hərbə getmədiyindən, sultanlıq cəngi[376] baş tutmayacaqdır, əgər Allahın yardımı ilə bu dəfə də müxaliflərə qalib gəlsək, düz rumiyyə ordusunun içinədək atımızın cilovunu geriyə döndərməyəcəyik, orduya şəbxun edəcəyik. Əgər müxaliflər qələbə əldə edərlərsə, döyüşə-döyüşə özümüzü bir kənara çıxarıb, hər gün döyüş atəşini alovlandırarıq və düşmənlərə dinclik verməyik."

Bahadırlar bu məqsədlə "Əliyullaha təvəkkür deyərək döyüşə yollandılar, fələk kimi hərəkətsiz qalmayan atlarına (səmənd) süvar oldular, zəfər bayraqlarını yuxarı qaldırdılar.

[376] Qeyd: Cənge-soltani - Ölkə başçılarının şəxsən üzbəüz döyüşü – Ş.F.

Aləmlər şahzadəsinin başı üstündə hümayun fallı çətir qaldırıldı, müzəffər məiyyət bahadırları igidlik və atqovma meydanının (mezmar) süvarisi olan şahzadənin üzərində əjdaha əndamlı (əjdəhapeykər) [rəsm olan] ələminin kölgəsi altında yığışaraq, ləyaqətli tərzdə qətl meydanına (mərəkeye-qetal) şığıdılar. Zəfərli ləşkərin çərxçiləri rumiyyə ordusuna yaxınlaşdılar, amma ordunun mühafizəsi üçün ayrılmış rumi döyüşçülərinə hücum etməyə cürət etmədilər, bu tərəfdən də rumilər ehtiyatkarlıq edib işin önünü və gcrisini fikirləşdilər ki, məbadə qızılbaşlar tərəfdən yeni qələbə əldə olunsun. Beləliklə, gündüzü axşam etdilər və tərəflər arasında vuruşma olmadı. Günün sonunda qızılbaşlar həmin yerdən ətrafa qarovullar yollayıb hökm etdilər ki, bu gecə döyüşçülər qoy istirahət etsinlər, sübhə yaxın isə rumilərin üzərinə fədailər kimi tökülüşüb, rumiyyə ləşkərinin bir yerə toplaşmasınadək qətldən bir dəqiqə də əl çəkməsinlər.

Gecədən bir az keçmişdi ki, qarovuliyə gedən qazilər igidliklə müxalif orduya çataraq, özlərini rumiyyənin xeymələrinə vurdular, bir neçə nəfəri tutub qayıtdılar və onları şahzadənin yanına gətirdilər.

Şahzadə onlardan soruşdu: "Dünən niyə rumiyyə [döyüşçüləri] döyüş üçün irəli çıxmadılar?"

Onlar cahil adamlar olduqlarından vəziyyətin dərinliyindən xəbərləri yox idi. Şahzadə belə qərara gəldi: "Ola bilsin ki, bir neçə məşvərət məclisi keçirən baş sərdar (Osman paşa - Ş.F.) sakitcə köçməyə hazırlaşır və [buna görə də] paşalar və döyüşçülər ordunu qorumaqdan başqa heç bir işə baş qoşmurlar.

Elə bu əsnada rumiyyə ordusundan bərk ataş səsləri eşidildi. Sanki xırmanlara od vurmuşdular. Təcrübəli adamlar dedilər ki, bu köç əlamətidir və [rumi əsgərləri] öz xeymələrinə odun yığaraq onları yandırmışlar. Vəziyyətin belə olduğunu əsir tutulmuş həmin adamlar da təsdiq etdilər.

Osman paşanın xonaq (difterit) xəstəliyindən ölməsi:

Gecə yarısı rumiyyə ordusundakı tanışının himayəsi altında olan və həmin tanışı tərəfindən rumi sədəməsindən qorunan bir təbrizli şəxs gələrək dedi: "Osman paşa iki gün idi ki, boğaz tutmasından evdən eşiyə çıxa bilmirdi. Keçən gecə əcəli gəldi və onu apardı. Bu məsələni bir gün xalqdan gizli saxladılar. Cığaloğlu

sərdarlığa boyun oldu və günün sonunda paşaları və ağsaqqaları yığıb baş verən qəziyyəni onlara danışdı. Hamının rəyi belə oldu ki, gərək köç etsinlər və sabah köçüb gedəcəklər".

Amma [Osman paşa] Cəfər paşanı bir neçə gün əvvəl qalaya göndərmiş, ona illik ərzaq tədarükünün miqdarını müəyyənləşdirməyi tapşırmışdı. Bir dəstə paşa dedi: "Hələ qalanın təchizatı başa çatdırılmayıb. Biz [buradan] gedəndən sonra qızılbaşlar qalanı asanlıqla alacaqlar. Nə üçün iki-üç min adamımızı ölümə verək?".

Cığaloğlu, Cəfər paşanı qalada qalmağa ixtiyar sahibi etmişdi. Cəfər paşa isə ona belə dedi: "Əgər mən qalaya daxil olmasaydım, yəqin ki, oraya bundan sonra getməzdim. İndi ki, daxil olmuşam, oradan çıxmaq Osman paşanın vəfatından sonra dövlətin və padşahımızın ziyanına yönələ bilər. Mən Allahın təqdiri ilə razılaşıb qalada qalıram, siz isə köç edin".

O şəxs (təbrizlinin rumi dostu - Ş.F.) bunları eşitdikdən sonra öz evinə gəlib, məsələni təbrizliyə danışdı və dedi ki, biz sabah köçüb gedirik, çünki qızılbaş ləşkəri yaxınlıqdadır və ehtimal ki, sabah böyük bir cəng baş verəcəkdir. Sən isə orada öldürüb bilərsən. Əgər imkan edə bilsən, bu gecə vaxtı özünü qızılbaş ordusuna çatdır.

[Təbrizli deyir ki] o, bir neçə başqa adamı da mənə qoşmuşdu. Elə ki, qızılbaş qarovullarının qaraltısı göründü, onlar geri qayıtdılar.

Təbrizli [əlavə edib] dedi: "Rumilər Osman paşanın vəfatından, şahzadənin cəsarətindən və qızılbaşların məharətindən qorxuya düşmüşlər. Yeniçərilərin və qala müdafiəçilərinin qalada qala biləcəkləri çətin məsələdir. Əgər onlar qaladan çıxsalar, Cəfər paşa da məcbur olub qalanı tərk edəcəkdir".

Bu xəbər həqiqətdən uzaq olmadığından, bəyənildi, ləşkər arasında şadyanalıq başlandı. Sübh cəng hazırlığı göründü. Humayun qol (yəni şahzadənin olduğu qol - Ş.F) az miqdar qazilərlə hərəkət edib çox miqdar müxalif döyüşçüləri ilə döyüşə yollandı.

Sərdarlıq etməyə vəzifədar edilən Cığaloğlu ölkəsinə qayıdış əzmi ilə köçməyə hazırlaşdı, önə çoxlu, arxaya isə az sayda əsgər düzüb, tam ehtiyatla qayıdış yoluna düşdü.

Rumilərin dayanacaq yerləri olan Çərəndabdan keçən müzəffər ləşkərin çərxçiləri Şənbqazan yaxınlığında rumilərə çatıb

silaha əl atdılar. Qarşı tərəf də dəstə-dəstə irəli çıxdı və döyüşə-döyüşə irəliləməyə başladı.

Şahzadə hümayun qolu Çərəndabdan keçirib qaziləri hərbə rəğbətləndirdi və iqbal ordusunun bahadırları müxaliflərin ardına düşərək mərdanəlik göstərdilər, onları arabalara və dəvələrə tərəf qovdular.

Doğrudan da, Osman paşanın vəfat etdiyi və rum ləşkərinin sərdarsız qaldığı bu gün, əgər qızılbaş qoşununun sayı bir qədər çox olsaydı, cəngi tamamilə başa çatdıra bilər, müxalifləri böyük məğlubiyyətə uğradar, birdəfəlik qələbə əldə edərdilər. Məsələnin belə şəkil ala bilməməsinə üç şərt mane oldu: Birinci, qızılbaş ləşkərinin sayı çox az idi və qarşı ləşkərin keyfiyyət və kəmiyyəti barədə rumilərin məlumatları var idi. Onlar bilirdilər ki, nəvvab aləm şahzadəsinin on-on iki mindən çox döyüşçüsü yoxdur. Bundan əlavə, əzəmətli əmirlər arasında nifaq bazarı rövnəqlənmişdi. Əmirlərin əksəriyyəti şahzadənin iltifatına layiq görülən Əliqulu xan Fəthoğlunu sevmirdi və [əsla] istəmirdilər ki, qızılbaşların arasında onun adamlarının nüfuzu çoxalsın, onlar qələbə əldə etsinlər. İkincisi, qızılbaşlar qorxusuz-hürküsüz özlərini müxaliflərin dəvələri və malları içərisinə vurub onlardan xeyli qənimət ələ keçirdikdən sonra, həmin ləşkərin (qızılbaş ləşkərinin - Ş.F.) təbiətinə xas olan tamahkarlıq çoxaldı, var-dövlət, dəvə və yaraq-yasaq əldə etmək üçün hücumlar başlandı və onlar əllərini döyüşdən çəkdilər. Beləliklə, get-gedə ləşkərin sayı və uğurları azaldı. Üçüncüsü, yarım fərsəx yol qət edən Cığaloğlu Çərəndabdan Şənbqazana gəldikdə, qızılbaşların rumiyyə qoşunu üzərində tezliklə qələbə əldə edəcəyini görüb, özünün kamil əqlinə və tədbirinə rəğmən dərhal həmin yerdə dayandı, ordusunun ətrafına xeymə və arabalardan səf çəkdi, arabaların önünə yeniçəriləri düzərək müdafiə işləri görməyə başladı. [Amma] qızılbaşlar heç bır hərəkət etmədilər, araba cənginə (cənge-ərrabə) yollanmadılar və əzilməkdə olan rumilər cürətə gəlib qorxu-təlaş içindən çıxdılar. Nəvvab şahzadə vəziyyəti belə görərək, qızılbaş ləşkərinin dağılmasından agah oldu. Buna baxmayaraq, o, ordunun qəlbindəki ləşkərlə qəfildən irəli cumub döyüşə başlamaq fikrinə düşdü. Əzəmətli əmirlər və dövlətxahlar araba döyüşünü məsləhət görməyib şahzadəni bu hərəkətdən çəkindirdilər. Şahzadə dövlətxah adamların onun qorunmasına yönəlmiş bu məsləhətinə əməl edib, cəngdən əl çəkdi, gəlib Çərəndab yaxınlığında dayandı. Bu cəng zamanı kəsilən

başlar az oldusa da, bol qənimət ələ keçdi. Rumiyyə Şənbqazandan köçdükdən sonra nəvvab şahzadə ali ordunun mülazimləri ilə dayandığı yerdən atlanıb heç bir yerdə rumilərə asudəlik verməmək niyyəti ilə rum ləşkərinin qəlb hissəsinə hücum və onları Təsuc qəsəbəsinədək təqib etdi. Qazilər fürsətdən istifadə edərək özlərini rumiyyə döyüşçülərinə çatdırıb döyüşür, çoxlu adam həlak edir, kəsilən başları şahzadənin xoşbəxt nəzərinə yetirirdilər. Mayan adlı bir yerdə böyük cəng baş verdi. İsmayılqulu xan və şamlı tayfası özlərinin igidlik atlarını irəli sürüb cəngə girişdilərsə də, rumilər üstün gəldilər, onları geri döndərdilər. İlahidən gələn bəla kimi həmin səhrada sulu bir yer vardı. Şamlı tayfasının yolu həmin su içərisindən keçdi və atlar döşlərinədək palçığa batdılar. Rumilər hücuma keçdilər. Əgər qızılbaşlara bir ləhzə belə gec kömək gəlsəydi, şamlıların ən bacarıqlı cavanları palçıq içində qətl olunacaqdılar. Ali ordunun mülazimlərindən Zeynal bəy Şərbətdaroğlunun oğlu Şahhüseyn bəy və saraya yaxın adamlardan olan Div Sultan Zülqədərin oğlu Qorxmaz xan Cəbadar[377] qətlə yetirildilər. Xülasə, [qızılbaşlar] həmin gün elə bir iş edə bilmədilər. Əliqulu xan Fəthoğlu vəzifəli ərbabların və dövlət adamlarının bir-birinə qarşı bəslədikləri paxıllıq və həsəd ucbatından İsmayılqulu xana kin bəsləyirdi. O, Pir Qeyb xana küdurətlə dedi: "Sən niyə şamlı[lara] imdad edib qoymadın ki, [İsmayılqulu xan] öz adamları qabağında xəcalətlə məğlubiyyətə uğrasın? Əgər ləşkər başçıları arasında belə nifaq və ittifaqsızlığın mövcud olması belə davam edərsə, vəziyyətin nə ilə nəticələnəcəyi məlumdur".

Nəvvab şahzadə isə Təsuca qədər rumiləri təqib etməkdən dayanmadı. Həqiqətən də bu savaşlarda onun heç bir taxsırı yox idi. Şahzadə cəngə yollandığı on dörd gün müddətində libasını soyunmayıb hər gün sübhdən axşamadək vaxtını insan ovuna sərf edərək o tayfanı (rumiləri - Ş.F.) ədəmə yollayırdı.

Amma, müxaliflərin sayı hədsiz-hesabsız olduğu üçün həmin müqayisəolunmaz ləşkərlə qarşı-qarşıya gəlmək ali ordu mülazimlərinin imkan xaricində idi. Qızılbaşlara xas olan nifaq barədə isə deyə bilərəm ki, onların bəsirət gözü belə halın malı ilə qapanmışdı. Onlarda şeytanı ürəklərindən qovub-çıxarmaq və

[377] Div Sultanın bu oğlunun adına əlavə kimi yazılan "Cəbadar" ifadəsinin mənası bizə məlum olmadı - Ş.F.

sədaqət yoluna qədəm basmaq əlaməti yox idi. Məhz inadkarlıqlarına görə də onlar bu hadisələr zamanı biri-birləri ilə yoldaşlıq etmədilər, biri-digərinə həmrah olmadılar.

Xülasə, rumilər öz ölkələrinə yaxınlaşmaqda idilər ki, onlarda [qızılbaşlarda] geri qayıtmaq, qala almaq həvəsi yarandı və geri qayıtdılar, Təbriz yaxınlığındakı Şənbqazın yaxınlığına gəlib şəhərin xaricində dayandılar.

Şahzadə adlı-sanlı atasının yanına bir adam yollayıb vəziyyəti ona ərz etdi. İsgəndər şanlı nəvvab əğrəq ordusu ilə şəhərə çatıb Mir Əsədulla Şüştəri Sədrin evində yerləşdi. Hümayun dövlətxana orada qərar tutdu. Əmirlərin və dövlət başçılarının hər biri də şəhərin xarababad (uçuq-sökük - Ş.F.) mənzillərində yerləşdilər. Bu sətirlərin müəllifi (İsgəndər bəy Münşi Türkman - Ş.F.) [də] ali orduda idi. Mən şəhərə gələndə şəhərin acınacaqlı vəziyyəti nəzərimi cəlb etdi. Qızıl və lacivərdlə örtülü olan bütün evlər dağıdılmış, naxışlı qapı-pəncərələr çıxarılıb odun əvəzinə yandırılmışdı. Ağaclar kəsilmiş, bağlar, bağçalar viran edilmiş, qalaya bir illik odun yığılmışdı. Bir neçə min yaraşıqlı evdən yaşamağa yararlı olan bircəsi də salamat qalmamışdı. Bütün dükanlar, ikimərtəbəli kaşı evlər, hamamlar dağıdılmış, öldürülən təbrizlilərin cəsədləri küçələrdə, evlərdə və bazarlarda tökülüb qalmışdı. Xülasə, fərəhnak Təbriz şəhəri tamamilə viran olmuşdu ki, belə mənzərəni müşahidə edərkən adamın halı pərişan olurdu. Mövlana Foruği Təbrizi bu beyti o vəziyyətə münasib demişdir:

Beyt:

Mənim dərdimə təskinlik edir bəxş Kərbəla dərdi,
Ürək Təbriz üçün viran olub Təbrizdən artıq.[378]

İsgəndər şanlı nəvvab və aləm şahzadəsi tərəfindən möhtəsəbül-məmalik olan Mir Cəfər Mir Rasti oğluna bir neçə gün ərzində vaxtını qətl olunanların kəfənlənmələrinə və dəfnlərinin təşkilinə sərf edilməsi tapşırıldı. Küçə və məhəlləri yem

[378] Beytin farscası:
Voque-Kərbəla təskine-dərdəm midəhəd v-əz ne,
Deləm dər həsrəte-Təbriz virantər ze Təbrizəst.

yoxluğundan ölmüş və bir-birinin üstünə qalaqlanmış heyvanların leşlərindən təmizlədilər.

Kənd və çöllərə dağılışan Təbriz əhalisi tədriclə şəhərə qayıdıb, öz evlərini viran və talan edilmiş gördülər. Hərəsi bir evdə yerləşən əmirlər, dövlət başçıları və başqa şəxslərin hər birisi evlərin təmirinə girişib onları yaşamaq üçün yararlı hala gətirdilər və beləliklə Təbriz şəhəri ordu üzvlərinin və əhalinin səyi ilə başdan-başa təmir olundu. Həmin qış hümayun qışlaq o cənnətəbənzər yerdə oldu.

TƏBRİZ QALASINDA SAVAŞ VƏ BU İLİN SONUNADƏK QALA ƏTRAFINDA VƏ ONUN MÜHASİRƏSİ ZAMANI ALLAHIN TƏQDİRİ İLƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Allah-təalanın əzəli iradəsi buna yönəlmişdi ki, Təbrizin fərəhlər yağdıran torpağı gərək rumilərin işğalına keçsin, o gözəl şəhərdə çoxlu dağıntılar (xərabi) baş versin, bir neçə il orada əmin-amanlıqla vaxt keçirib qürur və təkəbbür badəsindən məst olmuş əhali vətəndən ayrılıb müxtəlif möhnətlərə düşsünlər, elə bərbad şəraitin (extelal) necə olacağını o zaman bilməyən adamların başına gələnlər başqalarına ibrət dərsi olsun. Bu gün İranın qələbə bəxtli taxtının işıqlı vücudu ilə asimana qədər ucalan və iki cahanlıq ziynəti olan həzrət zilləllah şahın hakimiyyəti və cahangirliyi nəticəsində, o qarmaqarışıqlıq aradan götürülmüş, hadisələr çör-çöpünün axını ilə öz paklıq və yaşıllığını itirən həmin ürəkaçan məkan, o hökmdarın iqbalı sayəsində yenidən canlanmış, yenidən bu zavalsız dövlətin əlinə keçmiş, fitnəkarlıq zülmətabadı [o padşahın] atəşlər yağdıran qılıncının şöləsi ilə [təzədən] işıqlanmış, əmin-amanlıq aləmi daha da aydınlaşmışdır. Baxmayaraq ki, o zaman fəlakətlərin dəfi xüsusunda çox cəhd edilmişdi, amma nəticəsi az olmuşdu. Nəhayət ki, pərdə ilə örtülmüş bəzi işlər üzə çıxdı ki, layiq işlərə maneçilik (ayeq) yaratmış oldu.

Xülasə, hümayun ordu Təbrizə yetişəndə əzəmətli əmirlər qalanın dörd tərəfini ehtiyat üzündən yoxladılar, bir neçə yerə sebə çəkilişi müəyyənləşdirdilər. Qalanın Sahibabad meydanı və Həsən padşah məscidi istiqamətində olan şərq hissəsinin seybəsi cahan nəvvabının, o həzrət mülazimlərinin, Əliqulu xan Fəthoğlunun, keşikçilərin və Təbriz camaatının öhdəsinə qoyuldu. Qalanın

Səhharan məhəlləsinə və Təcunə kəndinə baxan ön hissəsində qorçibaşının, qorçilərin və bəzi əmirlərin seybələri müəyyənləşdirildi. Şahrux xan, zülqədər tayfası, Məhəmməd xan Toxmaq, İmamqulu xan Qacarın adamları və Qarabağ camaatı da bir seybəni öhdəyə götürdülər.

Amma, əsgərlərin azlığı üzündən qalanın qərb və şimal hissələri boş qaldı və mühasirə baş tutmadı. Hərdənbir türkman, təkəli və fars zülqədər qoşunlarının gəlmələri barədə səslər eşidilirdi. Belə qərara alındı ki, əgər gəlib çatarlarsa, onları qalanın boş qalan səmtlərinə də seybələr çəkilsin. Azərbaycan torpaqlarından [çoxlu] əli bel və külünglü adam yığışdı. Top hazırlığına başladılar və Murad bəy Topçubaşı toptökmə işinə girişdi. Topun hazırlanması bitənədək qərara alındı ki, Həsən padşah mədrəsəsindən qalanın ortasına qədər dəmir biləkli nəqbəçilər[379] lağım atmağa başlasınlar və lağım qalanın ortasına çatdırılsın.

Amma, həmin mühasirə vaxtı bütün qoşunun vahiməyə düşməsinə və bədbinliyinə səbəb olan qəribə hadisələr baş verirdi. Şahı və döyüşçüləri qəmləndirən, qızılbaşları sarsıdan və mühasirədə qalanları cürətləndirən məsələlərdən biri dövlətin adlı-sanlı adamlarından və zülqədər tayfasının böyüklərindən olan Şahrux xan Möhrdarın [rumilər ərəfindən] ələ keçməsi oldu ki, bu ibrətamiz hadisə Allahın təqdiri ilə baş verdi. Bu ibrətli hadisə belə olmuşdur:

Şahrux xanın rumiyyə tərəfindən əsir alınması:

Şahrux xan şücaətli, igid və mərd bir adam idi. Onun qeyrətinə toxunurdu ki, qızılbaşların yüz ildən bəri evi olan Təbriz şəhərinin mərkəzində, eyni zamanda bütün əzəmətli dövlət başçılarının bir yerə toplaşdıqları bir zamanda axta və səfeh bir adam olan Cəfər paşa kimi bir şəxs padşah sarayında və "Həşt heheşt" imarətində oturub, Rum xandgarının adına xütbə oxutdurur.

Buna görə də o, oranı ələ keçirtmək fikrinə düşərək, hər gün deyirdi ki, bu qalanı fəth etməsək, qoy yuxumuz, həyatımız və asayişimiz bizə haram olsun. O, çılğınlığının çoxluğundan ehtiyatsızlıq edərək, elə ilk həftə seybəni mərtəbə-mərtəbə irəli aparıb qala divarlarına yaxın bir yerə çatdırdı. Nəvvab şahzadə bu

[379] Nəqbçilər, yaxud nəqbəçilər - lağımatanlar - Ş.F.

cəsarət, mərdanəlik və səbirsizliyi bəyənmədi, iki dəfə adam göndərib bu işi ona qadağan etdi, seybəni asta-asta aparıb, irəlilədikcə öz arxasını tüfəngçilərlə möhkəmlədərək arxayınlıqla getməsini məsləhət gördü. O, xana adam yollayıb cahanı bəzəyən şahzadənin bu təklifini məqbul sandığını bildirdi, amma dedi ki, bir halda ki, qalaya gəlib çatmışıq, geri qayıtmağı özümə yaraşdırmıram. Bu iki-üç gündə

Beyt

Ya bas əyəcəyik çərxin hökmünə,
Ya da düşəcəkdir düsmən pis günə.[380]

Şahrux xanın əsir düşəcəyi qəza lövhəsində yazıldığı üçün, o, orada qalmaqda israr elədi. Nəvvab şahzadə ertəsi gün onu nəsihətlə oradan geri qaytarmaqdan ötrü eşikağasıbaşı Piri bəy Şamlını göndərdi. O, Şahruxun yanına gəlib onunla söhbət etməkdə idi, lakin əksər döyüşçülərin və gecə keşikçilərinin dağılışdıqları və gündüz keşikçilərinin hələ gəlmədikləri bir vaxtda rumilər qəfildən qaladan çıxıb o seybənin üstünə hücum etdilər. Bir dəstə yeniçəri gediş-gəliş yeri olan küçənin ağzını tutub, tüfəngdən atəş açaraq buraya gələsi kömək yolunu bağladı, başqa dəstə isə o evi əhatəyə aldı. Qapı-pəncərələrdən çoxlu atəş açıldı, nəhayət evə daxil oldular.

Şahrux xan və mötəbər igid əmirlərdən sayılan "Zəhrmar" ləqəbli oğlu Əbülqasım Sultan, həmçinin eşikağasıbaşı Piri bəy və orada olan başqa bir neçə nəfər mərdanə döyüşdülərsə də, Şahrux xan yaralanıb əsir düşdü, qalanları isə şəhadət şərbəti içdilər. Rumilər onun Şahrux xan olduğunu bildikdə, dərhal geri qayıdıb qalaya apardılar. Rumilərin hücumu və Şahrux xanın seybəsinin cəngi xəbəri şəhərdə yayılan vaxt qızılbaşlar hər tərəfdən hücuma keçdilər. Onlar gəlib çatanadək rumilər qayıdıb Şahruxu qalaya çatdırmışdılar. Buna görə də qaladan sevinc səsləri ucaldı, çöldəkilərin isə məlalı çoxaldı. Mühasirəçilər ürəkləndilər, qızılbaşlar pərişan oldular. Nəvvab şahzadə isə bu məsələdən özünü sındırmayıb dedi: "Kim ki, inadkarlıq edib vəlinemətin sözünü

[380] Beytin farscası:
Ya bər morad bər səre-gərdun nəhim pay,
Ya mərdvar bər səre-hemmət konim sər.

eşitməzsə, bu inadkarlığın nəticəsi peşimançılıqdan başqa bir şey olmayacaqdır". Amma, Şahrux xan din və dövlət yolunda vuruşduğundan onun yerdə qalan adamlarına ehtiram göstərdi: "Möhrdarlıq vəhifəsini onun oğlu Əsilməs xana[381] inayət etdi. Həmçinin Əbülqasım Sultanın vəzifəsi onun oğlu Təhmasibqulu Sultana verildi. Gözəl bir oğlan olan Rzaqulu bəy Piri bəy oğlu atasının yerinə eşikağasıbaşı oldu. Əmrə görə zülqədər tayfası elə həmin seybədə qaldı, lakin onlar keşik çəkməkdən və seybəni mühafizə etmək işlərindən başqa heç bir işə baş qoşmamalı idilər.

İcrasına izn verilməyən məsələlərdən biri də bu idi ki, on beş mən[382] ağırlığında daş atan və cənnətməkan şahın qalalarının birindəki topxanasında olan "Kəlləguş " adlı məşhur topu qala ayağına gətirib ön tərəfdəki bürclərin birində yerləşdirərək ondan atəş açırdılar. Nəticədə bürcün yarısı o topun gülləsinin lərzəsindən uçulmuşdu. Rumilər günorta çağı seybəyə hücuma keçib, adamları tüfəng zərbələri ilə pərakəndə saldılar, topun halqalarına kəndir salıb, qarşı tərəfdən kömək gələnədək topu divarın ayağına tərəf çəkdilər və dartıb qalaya apardılar.

Baş verən başqa hadisələrin biri də bu idi ki, toptökmə alətlərinin hazırlanmasından iki ay keçəndən sonra qızılbaş əyanları yığışıb əmr gözləyirdilər. Qış soyuğunun şiddəti və günəşin çıxmamasına görə topun qəlibi hələ yaxşı qurumadığı vaxt kürəyə tökülən misi qəlibə axıtdılar, məhlul qaynadı və qəlibdən çıxıb havaya sıçradı, ətrafa dağıldı. Nəticədə müqəddəs zati-alinin gözü yaralandı və beləliklə misdən fəqət zərər gəldi və Allah-təala bu dəfə onu qorudu. Amma, ona yaxın adamlardan bir neçəsi misdən qopan qəlpələrdən bərk sədəmə gördülər. Beləliklə, top tökülməsini iki ay gözlədikdən sonra bu iş baş tutmadı. Bu hadisədən sonra saraya yaxın adamlardan Heydər bəy Ənisin oğlu Bərxurdar bəy Topçubaşı toptökmə işinə təyin olundu. O, qırxəlli gün ərzində bu iş üçün lazımi ləvazimat hazırladı. Münəccimlərin müəyyən etdikləri xoş bir saatda ali məclis yığıldı. İyirmi beş mən daş (mərmi) atmaq imkanına malik yeni tökülmüş böyük bir topu nəvvab şahzadənin

[381] Qeyd: Ehtimal ki, "Əzilməz xan" olmalıdır - Ş.F.
[382] Mən: Batman (3 kq-dan 12 kq-a qədər ağırlıq ölçüsü - Ş F.)

seybəsinə aparıb yerləşdirdilər və topçular öz işləri ilə məşğul olmağa başladılar.

Lağım atmaq işi də irəliləyirdi. Həmin işdən agah və hali olan adamlar belə təklif etdilər ki, artıq qalayadək lağım atılmışdır. Şahzadə, gecə, işə yararlı adamlardan üç yüz nəfərini seçdi və divarı yarıb qalaya daxil olmaqdan ötrü onları irəli yolladı.

Kərəney çalındı. Elə ki, səs ətrafa yayıldı, seybələrin hər yönündən yürüş başlandı. Qalanın ələ keirilməsi bu zaman qəzavü-qədərin qələmi ilə hələ yazılmadığından və bu məsələnini icrası kamyab hümayun zilləllah şahın hökmdarlığı və cahanı bəzəməsi vaxtına qədər təxirə salınmalı olduğundan o zaman böyük hadisələr və qalanın alınmasının yubadımasına səbəb olan işlər baş verirdi. Xülasə, elə ki, lağım atan əsgərlər lağım dəliyini açdılar, gördülər ki, onların təxmini hesabları düzgün çıxmamışdır. Şirhacını[383] hazırlayıb qalaya çatdırmaqdan ötrü hələ bir neçə gün də işləmək lazımdır. Əmr alaraq lağımın başını müəyyən vaxtadək bağladılar. Elə o vaxt dövlət böyüklərindən biri olan Qulu bəy Qorçibaşı Əfşarın və onun qardaşı oğlu Cabbarqulu bəyin - nəvvab şahzadənin qorçibaşısının - qalaya getmələri, qalanın fəth olunma işini ləngitdi.

Qorçibaşının fərar etməsi və rumilərin qalasına getməsi:

Bu məsələnini yığcam bəyanı belədir: Qulu bəy Qorçibaşı Məhəmməd xanla və başqa əmirlərlə bütün işlərdə müttəfiq idi. Nəvvab şahzadənin əzəmətli anası Məhdülyanın qətli, Mirzə Salmanın öldürülməsi və ali nəvvabın xatirində ikrah hissi ilə qalan başqa əməllər onların istəyi və məsləhəti əsasında gerçəkləşmişdi. Nəvvab şahzadə həmişə macal tapan kimi onlardan intiqam almaq barədə düşünürdü. Rumiyyənin hücumu bu işin yubanmasına səbəb oldu. Agah və bacarıqlı bir adam olan qorçibaşı məsələni başa düşdüyündən həmişə həyəcan, qorxu və təşviş içindəydi. Çünki nəvvab şahzadə də ona pis münasibət göstərməkdəydi.

Fitnəkarlıq niyyətiylə Məhəmməd xan ilə Vəli xanın Əmir xanın qanını almaqdan ötrü ittifaqa girib ali orduya qayıtmaları vaxtı onlar Təbrizə yaxınlaşmaqda ikən artıq hər ikisinin üsyankarlıq əlamətləri zahirə çıxmaqdaydı. Şahzadə xalırladı ki, qorçibaşı dövlət adamlarının ən ümdə adamı olduğu halda batində türkman və təkəli

[383] Şirhacı - "böyük top" mənasını verən istilahdır - Ş.F.

fitnəkarları ilə müttəfiqdir, buna görə də yaxın vaxtlarda ondan ehtimal ki, nəsə bir fitnə-fəsad baş verəcəkdir. Əmir xanının qanının baiskarları olan Əliqulu xan Fəthoğlu və Məhəmməd Sarı Solaq fəsad məhlulunu qarışdırıb nəvvab şahzadəyə xatırlatdılar ki, onların gəlib-çatmalarından əvvəl gərək yubanmadan qorçibaşı dəf olunsun, çünki o adamlar bir-biriləri ilə görüşüb öz istəklərini həyata keçirə bilərlər. Şahzadə bu təklifi bəyəndi. O dəstənin gəlmə sədası eşidiləndə qaladan aşağı düşərək, onların dəf olunmasına başladılar. Elə həmin günlərdə şahzadə üç yüz ərəşli tayfa üzvləri ilə ali dərgaha gələn Əmiraslan xan Ərəşli Əfşarın oğlu Təhməsibqulu Sultanın namizədliyini qorçibaşı vəzifəsinə məsləhət bildi. O, həmin vəzifəni qəbul etdi. Xain qorçibaşı isə türkman və təkəlilərin gəlmələri xəbəri yayılan o günlərdə xeyli təşviş hissi keçirməkdəydi. Seybədən ayrılıb evinə gəldi, xəstələndiyini bəhanə gətirib bir neçə gün evdən çıxmadı və o adamların gəlişini gözlədi. Təhmasibqulu Sultan qorçibaşı vəzifəsinə təyin olunan gün qorçibaşının (Qulu bəyin - Ş.F.) qardaşı oğlu Cabbarqulu bəy ali şahzadənin yanında behiştayin məclisdə idi. Bu xəbəri eşidib dərhal evə qayıtdı və [əmisini] məsələdən xəbərdar etdi.

Onlar o zaman rumilərin qalasına qaçmaqdan başqa heç bir çarə tapa bilmədilər və hər ikisi, Təhmasibqulu Sultanın qoşunla onların qapısına yaxınlaşdığı vaxt, bağça yolu ilə özlərini eşiyə atdılar, seybələrinə gedən yolla qalaya üz tutdular. Qala ayağına yetişdikləri vaxt taclarını başlarından götürüb xəndəyə atdılar.

Qalanın yuxarısından bunu seyr edən rumilər qapını açıb onları qalaya gətirdilər. Onlar bu əhvalatı qızılbaş tayfası üçün əskiklik, özləri üçünsə xoş tale kimi qiymətləndirdilər, öz sevinc sədalarını Keyvan eyvanınadək çatdırdılar. Elə həmin gün Cabbarqulu bəy lağımatanların yanına gedərək, rumiyyəni qızılbaşların [qalaya doğru] lağım atmalarından agah etdi, şirhacının olduğu yerin yarısınadək gəlib çatan lağımı rumilərə göstərdikdə onlar tüfəng atəşləri ilə lağımı oradakı adamlardan təmizlədilər, həmin yolla gedib "Həsən padşah mədrəsəsinə çatdılar. Seybədə bərk saxnaşma yarandı. Bu xəbər nəvvab şahzadəyə və Əliqulu xana çatdıqda hər tərəfdən hücuma keçdilər və aralarında şiddətli döyüş başlandı. Hər iki tərəfdən bir neçə adam öldürüldü. Rumilər lağımda toplaşıb oradan tüfəng ata-ata seybə əhlini xəsarətə uğradırdılar. Qızılbaşlar çarəsiz qalıb lağımı bir neçə yerdən deşdilər, açılan yerlərə saman töküb yandırdılar, sonra lağımın içini su ilə

doldurdular. Beləliklə, yol bağlandı, nəticədə isə iki-üç aylıq zəhmətlə açılan lağım faydasız oldu.

Türkman və təkəli tayfaları gəlib yaxınlaşdıqda günbəgün onların fitnə-fəsad etmə xəbərləri artdı. Şahzadə qala içindən əl çəkib onları dəf etmək fikrinə düşdü. Bir dəstə təbrizliyə və Azərbaycan camaatına tapşırdılar ki, seybədə olsunlar və rumiyyə qaçmasın deyə, qala qapılarını mühafizə etsinlər, beləliklə, nəvvab şahzadə və başqa əmirlər onları dəf etməyə girişdilər.

Mir Şəmsəddin Məhəmməd Sədr Xəbisinin vəfatı:

Bu ilin hadisələrindən başqa biri də sədr Mir Şəmsəddin Məhəmməd Xəbisi Kirmanının vəfatıdır ki, Təbriz qalasının mühasirəsi əsnasında surül-ğəniyye[384] xəstəliyindən keçindi. O, böyük, alişan, xoşəxlaq, qabiliyyətli, istedadlı seyid kimi tanınırdı. Riyaziyyat, heyəf, rəml**, nücum və təbiət elmlərini bilirdi. Olduqca xoşsöhbət adamdı. Yaxşı şer yazırdı. Təxəllüsü Fəhmi idi. O, sədarət mizinə əyləşəndə İsgəndər şanlı nəvvab onun ehtiramını tutmaqda çox təfərrüata vardı, bütün şəri işləri onun rəyinə tapşırdı. O da öz səxavət (bəzl) və ehsan əlini açdı, məmləkətlərin vəqf vergilərindən və cənnətməkan şahın nəzirlərindən yığılan yüz min tümən məbləğində olan qızılı, gümüşü, habelə firuzə mədənlərinin xümsünü və amirə xəzinəsindəki başqa qiymətli şeyləri iki-üç il ərzində seyidlərə, üləmalara, səlahiyyətli şəxslərə (soləha), fəqirlərə, elm öyrənənlərə və həmin zümrədən olan ehtiyaclı adamlara verdi, onların məşhur şəxslərinə hədsiz hörmətlər etdi, onun köməyi ilə xeyli adam şahın ehsanından bəhrələndi.

Mir Şəmsəddin Xobeysinin rəngarəng şerləri vardır.

Bu kitabda onun qəzəl və rübailərindən bir neçə beyt səbt olundu:

Qəzəl

Şərabe-eşqi kim içsə, onun keyfiyyəti vardır,
Şərabda Fərhadın halı və Xosrov haləti vardır.

[384] Bu xəstəliyin adını müəyyən edə bilmədik - Ş.F.

Başında badə bardağı gedir meyxanəyə Fəhmi, Başı mehrabinə enmir onun, xoş himməti vardır.[385]

Rübai

Eşq meykədəsi içrə şərab başqa cürə,
Sevda kitabında ehtisab[386] başqa cürə.
Məstanələrin Ruze-hesabdan qorxmur,
Məhşər günü onlara hesab başqa cürə.[387]

Rübai

Yüz huridən üstündü o tərsa balası,
Atəşlənib hüsnündən o mə bədyanası.
Atəşkədəsində var odunçu – rizvan!
Verməzmi behiştdən ona Tuba ağacı.[388]

Mir Şəmsəddin Xəbisi həyatdan köçdüyü vaxt bu rübaini demişdi:

Rübai

Fani bu cahan deyildir əsla yerimiz,
Yatmaq dilərik qəbirdə süst, taqətsiz.

---

[385] Qəzəlin farscası:
Şərabe-eşq dər hər məşrəbe-keyyfiyyəti darəd,
Ze Şirin Kuhkən hali, ze Xosrov haləti darəd.
Səbuye-bade dər sər mirəvəd Fəhmi be meyxane,
Be mehrabəş nəyayəd sər foru xoş hemməti darəd.
[386] Ehtesab - hesablama əməliyyatı - Ş.F.
[387] Rübainin farscası:
Dər meykədeye-eşq şərabe-degərəst,
Dər şəre - məhəbbət ehtesabe-degərəst.
Məstane-to fareğənd əz ruze-hesab,
Z-in tayefe dər həşr hesabe-degərəst.
[388] Rübainin farscası:
Tərsabəçeist atəşəfruze-keneşt,
K-atəş zəde dər xənnəne-səd hur sereşt.
Çon himekeşan bəraye-atəşkədeəş
Rezvan həme şaxe-Tuba* arəd ze beheşt.
* Qeyd: Şaxe-Tuba - Behiştdəki məşhur ağac - Ş.F.

Orda edərik gileyfələk cövründən,
Dilsiz dilimizlə söylərik çox söz biz.[389]

TƏKƏLİ VƏ TÜRKMAN TAYFALARININ TƏBRİZƏ GƏLMƏLƏRİ, O FİTNƏKARLARIN GERİ QAYITMALARI VƏ O ZAMAN BAŞ VERƏN BAŞQA HADİSƏLƏRİN ZİKRİ

Yuxarıda sınıqdilli qələm öz bəyan səhifəsində yazmışdı ki, Məhəmməd xan Türkmanın oğlu Əmir xan bu məsələlərdən, Əliqulu xan Fəthoğlunun tərəqqi və inkişafından, şamlı və ustaclı tayfalarının etibarının yüksəlişi və iqtidarda olmasından fikir-xəyala dalmışdı. O, Kaşandan Həmədana getdi. Əmir xanın qardaşları və övladları da orada toplaşdılar. Vəli xan Təkəlini müttəfiq edib onu fitnəkarlığa yönəltdilər, o iki tayfanı etibardan salmağa başladılar. Rum qoşununun hücumu və fəxarətli Təbriz şəhərinin onlar tərəfindən tutulmasına baxmayaraq, səltənət tərəfindən onların hüzura gəlmələri barədə hökmlərin getməsinə məhəl qoyulmadı. Onların (Əmir xanın və Vəli xan Təkəlinin - Ş.F.) hərəkətləri barədə belə xəbər yayıldı: Türkman və təkəli əmirləri və əyanları bir-biriləri ilə əhd-peyman bağlayıb belə qərara gəliblər ki, birlikdə ali orduya gedib nəvvab şahzadəni öz fikirlərinə tabe etməyə çalışsınlar, Əliqulu xan Fəthoğlunu, Məhəmmədi Sarı Solağı və Əmir xanın başqa müddəilərini (saiyan) qisas alınmasından ötrü onun övladlarına versinlər, şamlı və ustaclı tayfalarını etibardan salsınlar, saray xidmətində bu iki oymaqdan heç bir kəsi şahzadənin yanında xidmət etməyə qoymasınlar və dövlət işləri fəqət onların (türkman və təkəlilərin - Ş.F.) rəyi və razılığı ilə həyata keçirilsin.

Belə batil xəyallar və bihudə razılıqla onlar bir-birilərindən ayrılıb qoşun toplamaq və təyin olunan yerdə cəmləşmək niyyəti ilə hər biri öz ülka və iqtalarına qayıtdılar ki, qoşunlarını və ləşkərlərini hazırlasınlar, müəyyən vaxtda bir yerə yığışsınlar.

O tayfanın mötəbər əmirlərindən və Əlişəkər sərhəddində ülka sahibi olan Solaq Hüseyn Təkəli bununla razılaşmadı. O, Vəli xana türkmanların fitnəsinə uyub fəsada yol verməyi qəti qadağan

[389] Rübainin farscası:
Xahim əz in cəhane-fani rəftən,
Dər zire-ləhəd benatəvani xoftən.
Dər guşe-zəmin ze bivafaiye-fələk
Hərfi be zəbane-bizəbani göftən.

etdi, onu sədaqət ipini əldən verməməyə çağırdı. Dedi ki, Bağdad sərhədini qorumağa yollandığından, əgər şahın hökmü sadir olmasa və onu geri çağırmasalar, Məhəmməd xanın sözünə uyub öz yerini tərk etməsin. Padşahların əsgərlərin işlərinə qarışmalarına ixtiyarları çatır. Belə olan halda, sədaqətdən uzaq bir əməl ola bilər ki, padşah və padşahzadəyə etiraz dilini açıb Əmir xanın qətli barədə onlara nəsə bir söz deyək.

Vəli xan bundan vahiməyə düşdü, başqa təkəlilərin arasının onunla vurulacağını və onların onunla inadkarlıq məqamında duracaqlarını düşündü. Araya qarışıqlıq düşdü. Nəhayət Vəli xan təkəli tayfasının əksəriyyətini özünə müttəfiq edib Məhəmmədi xanla birgə [Solaq Hüseynin] üstünə yollandı.

Arada cəng baş verdi. Solaq Hüseynin adamları süst toplanıb özlərinin müdafiəsi ilə ciddi məşğul olmadılar. Döyüş əsnasında Solaq Hüseyn bərk yaralandı, müdafiə oluna bilmədi, əsir düşdü. Vəli xan onu tutub, Təbrizə hücum zamanı aradan götürdü.

Xülasə, Osman paşanın geri dönməsi, Təbrizdə qala inşa etməsi və cah-calallı ordunun qala ayağına yığışıb onu mühasirə etməsi xəbəri İraqa çatanda, türkman və təkəli əmirləri zahirən öz itaət paltarını geyib, batindəsə öz mətləblərini həyata keçirtmək diləyib, Təbrizə tərəf hərəkət etdilor. Məhomməd xan Kaşan, Qum və Savədən olan türkman tayfaları ilə, Müseyib xan Şərəfəddinoğlu Təkəli Tehrandan, onun qardaşı oğlu Muxtar Sultan Vəramindən, Vəli xan Təkəli və oğlu Əli Sultan Pakmal, həmçinin Əmir xanın qardaşları, övladları və yaxınları Həmədandan gəlib bir yerə toplaşdılar. Onlar İraqın hər tərəfinə adam yollayıb oralarda yaşayan türkman və təkəli tayfa üzvlərinin hər birini öz yanlarına çağırdılar. Ordularına çox adam yığıldı. Fars əmirülümərası Ümməl xan Zülqədər Xorasan yasağından qayıdıb Azərbaycan yasağına yollanmaqdan ötrü öz ülkalarına gedən özünə tabe əmirlər ilə birlikdə İraqa çatdı. Məhəmməd xan onunla görüşüb zülqədər tayfası ilə dostluq qapılarını açdı, həmkarlıq təklif etdi. Ümmət xan baş vermiş fitnə-fəsadı onun köməyi ilə aradan qaldırmaq, şahzadənin diqqətini özünə cəlb etmək üçün onun yoldaşlıq təklifini qəbul etdi və onlar birləşdilər yoldaşlıq etməyə başladılar. Amma, Məhəmməd xan və yoldaşları get-gedə Ümmət xanın adamlarını hiyləgərliklə və öz xeyirlərindən ötrü özlərinə müttəfiq etdilər.

Ağıllı, bacarıqlı və tədbirli adam olan Ümmət xan sanki əfsunlanıb öz savab yolundan azdı, xəta yoluna düşdü, onlara yoldaş

oldu. Bu xəbər Təbriz darüssəltənəsinə yetişdikdə, baxmayaraq ki, onların ittifaqının fitnə-fəsada dəlalət edəcəyi məlum idi, nəvvab şahzadə onları yoxlamaq və bir-birləri ilə razılıq və narazılığını müəyyən etmək üçün yanlarına bir adam yolladı və arada yazışma başladı. O, əvvəlcə İsgəndər şanlı nəvvab tərəfindən bir şəxsi yolladı, belə bir istimalətnamə göndərdi: Onlar bu uca xanədanın dövlətxah bəndələridirlər, bir neçə il xidmətdə olmuşlar, Osman paşa və rum ləşkəri bura gələndə və bu xanədanın qədim paytaxtı olan Təbrizi tutmaq istəyəndə dərhal bu xəbərdən rahatsız olub, hələ onlara hümayun hökm göndərilməzdən əvvəl sədaqət üzündən, bir-biriləri ilə birləşməyi gözləmədən, onların hər biri sürətlə səltənət və iqbal taxtgahına tərəf getmiş və öz fədakarlıqlarını zahirə çıxarmışlar. Dövlət düşmənlərinin şəri dəf olunandan sonra əgər istəsələr öz fikirlərini açıq bildirsinlər və öz mətləblərinə yetişsinlər. İndi ki, onlar hümayun orduya tərəf gedirlər, saylarının çox olduğu eşidilməkdədir. Bu hərəkətdən fitnəkarlıq və nifaq görünür. Əgər hal-hazırda onlar sədaqət və məhəbbətdə sabitqədəmlik və bizə itaət yolundadırlarsa, məsləhət belədir ki, şübhənin qaldırılmasından ötrü qoy bir-birləri ilə birləşməyərək, hər birisi öz qoşun ləşkəri ilə əlahiddə halda ali saraya xidmətə üz tutsunlar və yanımıza gəlməklə şərəflənsinlər. Elə ki, gəlib yetişdilər, hər biri desin ki, bizə qarşı iltifat və şəfqətdən başqa qeyri bir iş görməyəcəklər.

Müseyib xan Şərəfəddinoğlu Təkəliyə belə [məzmunlu] bir məktub yolladılar: Onun hümayun nəvvab ilə yaxınlığın vardır. Əgər türkman əmirləri Əmir xanın qətlində mənim əziz fərzəndimdən şübhələnirlərsə, onun bu işə heç bir dəxaləti yoxdur. Varisliyə sədaqət (exlase-movrusi) və padşahlıq səxavəti (estena) tələb edir ki, onlar özlərini o tayfaya birləşdirməsinlər və böyük sürətlə saraya gəlsinlər.

Adları çəkilən əmirlər də ali dərgaha məktub yolladılar, qulamlıq və fədailik izhar etdikdən sonra belə ərz etdilər: "Şaha məlumdur ki, təkəli, türkman, şamlı və ustaclı oymaqları arasında hələ sabiq zamanlardan inadkarlıq olmuşdur. Xorasanda nəvvabi-cahanbaninin hakimiyyətə gətirilməsi üstündə o iki tayfanın çoxu türkman və təkəlilərin əlləriylə qətlə yetirilmişdir. Bir halda ki, onlar ali xidmət tərəfindən tərbiyə olunmuş və şəfqətə layiq görülmüşlər, amma nəvvabi-cahanbanini biz dövlətxah adamlara qarşı şübhəyə salmışlar. Elə Əmir xanın başına gələnlər də onların fitnə-fəsadının nəticəsidir, yoxsa ondan elə bir əməl görünməmişdi ki, qətlə

gətiriləydi. Bizim xahişimiz budur ki, qoy o tayfalar nəvvabi-cahanbaninin nəzərindən düşsünlər və qədir-qiymətləri olmasın. Bizim bir yerə toplaşmağımız isə bizim ziddimizə olanlardan qorxumuz üzündəndir." Müseyib xan da onların vəziyyətinə uyğun sözlər söylədi.

Elə ki, əmirlərin məktubu gəlib-çatdı, bu İsgəndər şanlı nəvvabı və aləm şahzadəsini qayğılandırdı. Onlar yenidən əmirlərə belə itaət məktubu yazdılar: "Bütün sadiq qızılbaş tayfalarının hamısı bu dövlətə xidmət etməlidirlər. Sədaqətli adamları padşah ehsanının nemətlərindən (məvayed) məhrum etmək müruvvət ayininə əks (xelal) olan bir məsələdir. Əgər şamlı və ustaclı tayfalarının bir hissəsi zəmanəyə baxıb üsyana qalxırlarsa və Xorasanda fitnəkarlıq törədirlərsə, onların başqa hissəsi isə İraq və Azərbaycanda itaətkar (ğaşiyə) və mütidirlər, onlar, xüsusən ustaclı tayfasının böyüklərindən Məhəmməd xan Toxmaq və şamlı mötəbərlərindən Vəli Xəlifənin övladları bizə xidmət göstərməkdədirlər. Buna görə də, o camaat [Quranda deyildiyi kimi] "Kimsə başqasının günah yükünü öz çiynində daşımaz"[390] ifadəsinə uyğun cəzaya məruz qalmayacaq. [Tərəfimizdən] tərbiyət olunan Əliqulu xan Fəthoğlu hümayun cülusun əvvəlindən möhtərəm fərzəndin (nəvvab şahzadənin - Ş.F.) ali ordusunun mülazimi olmuş, [yaxşı] xidmətlər göstərmiş və sədaqətə xilaf olan heç bir iş ondan görünməmişdir. Əgər o, bizim məhəbbətimizlə (atefət) tərbiyətlənibsə, onun nə qüsuru vardır? Onun tərbiyətləndirilməsi neçin başqa tayfaya qarşı iltifatsızlıq kimi anlaşılmalıdır. Əmir xanla əlaqədar məsələ isə məhz ondan incik olan nəvvab şahzadənin istəyi ilə baş vermişdir. [Belə olan halda,] sizin bu xüsusda söz deməyiniz əqidəyə və sədaqətə zidd bir hərəkətdir. Təbriz şəhərinin əldən çıxdığı belə vaxtda gərək fitnə-fəsad yaranmasın, gərək hamı birləşib oranın qalası üzərinə yollansın, yoxsa, bu məsələyə qarşı olan mübahisələrə və fitnəkarlığa bizim səyimizlə son qoyulacaqdır. Siz nə üçün bizə qarşı etdiyiniz işlərin aqibətini düşünmürsünüz?".

Adları çəkilən əmirlər bu dəfə də birlikdə cavab yazıb bildirdilər: "Biz yenə də öz iradə və sadiqliyimizdə varıq. Amma, biz düşmənlərin zərər və şərinin dəf olunması naminə birləşmişik. Ali saraya gəlsək, ali padşahın və nəvvab şahzadənin razılığı və düşmənin nakamlığı naminə hərəkət edəcəyik". Onların

[390] Ayənin ərəbcəsi: "La təzruvu uzrətən vazrən uxra".

məktublarından və o adamların əməllərindən hamıya nifaq qoxusu gəldiyindən, nəvvab şahzadə tərəfindən Fars əmirülümərası Ümmət xana və onunla həmkar olmuş zülqədər tayfasına hüsn-rəğbət və iltifatla dolu inayət hökmü göndərildi: "Onu biz yetişdirmişik, Şiraz əyalətini, həmçinin Fars məmləkətinin mirülüməramlığını ona lütf etmişik. Zülqədər tayfası da həmişə vəlayət nişanlı bu xanədanın sufisi və tərəfdarı olmuşdur. Onlar heç vaxt təkəli və türkman tayfaları ilə ülfət, onların əleyhinə gedənlərlə nifrət mövqeyində olmayıblar. Əgər onlar (təkəlilər və türkmanlar - Ş.F) bir yerə cəm olmaq və birləşmək qərarındadırlarsa və birlikdə buraya gələrlərsə zülqədər tayfasının bu məsələyə nə dəxaləti? Bəs siz onlarla yaxınlıq (morafeqət) edirsiniz? Əgər baş verən fitnə-fəsadın aradan qaldırılması və bu məsələnin həll olunması üçün məsləhətə və ağsaqqaların köməyinə lüzum varsa, ali dərgahda oymaq ağsaqqalları və xeyirxah insanlar az deyillər. Qoy onlar (əmirlər - Ş.F.) cahanpənah dərgaha gələrək, oymaq ağsaqqaları ilə görüşsünlər və bu güclü dövlətin məsləhətiylə işləri yoluna qoysunlar. Belə etmək daha düzgün olar! Əgər Ümmət xan və Fars zülqədərləri tayfası da sədaqət yolundan üz döndərib onların fitnə-fəsadlarına şərik olsalar, belə bir halda tezliklə öz nəməkharam olmalarının cəzasını çəkəcəklər".

Bu hökm nəvvab şahzadənin "Kor Həbib " adı ilə məşhur olan söhbət yasovulu Həbib bəy Zülqədər vasitəsiylə göndərildi. Həbib bəy əmirlərin ordusuna çatdıqda Ümmət xan fərmanın məzmunundan xəbərdar oldu, Məhəmməd xanla etdiyi əhd-peymana sadiq qalıb onun və yoldaşlarının məsləhətinə əməl eldi, şah əmrinə boyun əymədi. Məhəmməd xan və onunla yoldaş olan əmirlər bununla kifayətlənməyərək, Ümmət xanın özləri ilə səmimiyyətinə əmin olmaqdan ötrü ona belə təklif etdilər ki, Həbib bəyi qətl etsin. Amma bəzi, gələcəyi fikirləşən zülqədərlilər Ümmət xanın bu işi etməsinə razı deyildilərsə də, Məhəmməd xan öz sözündə israr etdi. Ümmət xan məcbur olub Sultaniyyə çəmənində o bigünahın qətlinə iqdam etdi, sonra çıxıb köç-köç Təbrizə yollandılar.

Həbib bəyin qətli xəbəri calal sahibinə (Həmzə Mirzəyə - Ş.F.) çatdıqda və əmirlər şəhərə yaxınlaşdıqda, nəvvab şahzadə ata-babası qədimdən bəri bu dövlətin xidmətində durmuş Fəthi bəy Pərvanəçioğlunun övladı və həmin nəslin böyük adamlarından olan dəftərxana darüğəsi Əlixan bəy Türkmanı elçi sifətiylə Məhəmməd xanın yanına yollayıb ərz etdi ki, onu nəsihətlə yola gətirsin və

desin: Sədaqət yolunun yolçusu olun! Nəvvab şahzadənin razılığı ilə hərəkət edin! Əmir xanın qətli barədə heç nə danışmayın! Bu məsələ ilə əlaqədar Əliqulu xan Fəthoğlu və Məhəmməd bəy Sarı Solaqla da inad və ziddiyyət izhar etməyin! Təbriz qalasının ələ keçməsindən sonra Əmir xanın qohumları (bazmandegan) barədə nə istəsəniz, o da olacaqdır".

Əlixan bəy əmirlərin ordusuna çatdı və onlar şəhərə yaxın bir yerdə dayandılar. Türkman mötəbərlərindən olan, nəvvab şahzadənin yanında hörmət-izzətli bir şəxs sayılan və Əliqulu xan ilə də ülfət edən Heydər Sultan Cabuq oğlu Ədhəmxan Türkman ali məclisdə həmişə türkmanların yersiz hərəkətlərindən xəcalət çəkirdi. Nəvvab şahzadə onu xəcalət və başıaşağılıqdan xilas etmək məqsədi ilə o camaatın yanına yolladı ki, nəsihət yolu ilə onların fəsadlarını rəf etsin. [Dedi ki,] əgər nəsihət onlara təsir edərsə qoy geri qayıtsın, əgər təsir etməzsə öz oymağında qalsın. Belə olan halda əgər əmirlər öz inadkarlıqlarından əl çəkməsələr, onu da Əlixan bəy və başqaları kimi öz yanlarında saxlayacaqlar.

Ədhəm xan Türkman bu təklifə əməl edib məqsədə doğru rəvan oldu və o da dostlarının getdikləri yolla getdi. Onun sözlərinin əmirlərə təsiri olmadı. Məhəmməd xan onun gəlişini qənimət sayıb öz yanında saxladı. Təbrizin dörd fərsəxliyinədək Səidabada çatdıqları vaxt artıq onların üsyan xəbəri aşkar oldu. Orduda olan təkəli və türkmanların hər biri təşvişə düşüb qaçdılar və onlara birləşdilər. O tayfa əmirzadələrindən olan Keçal Mustafa Əfşar ki, Cabbarqulu bəyin qalaya fərarından sonra, yuxarıda yazıldığı kimi, onun yerinə nəvvab şahzadənin qorçibaşısı olmuşdu, səbəbsiz yerə qaçıb üsyankar əmirlərə qoşuldu. Həmin neçə gün ərzində nəvvab şahzadədən narazı olan hər kəs gecələr bir-bir, iki bir fərar edib həmin üsyankarlara birləşdilər və düşmənçilik əhvali-ruhiyyəsi get-gedə qüvvətləndi.

Nəvvab şahzadə onlardan hər hansı bir qəfil əməlin baş verməsindən ehtiyat edərək, əksər vaxtını Əliqulu xanın məskəni və rumilərin qalasının yanında və nəvvab şahzadənin seybəsi tərəfində olan Əmirxan qalasında keçirirdi. O, İsgəndər şanlı nəvvaba da qalaya gəlməsini təklif etdi. O həzrət, şahzadələr və hərəmxana əhli bütünlüklə Əmirxan qalasına köçdülər, hümayun dövlətxana orada yerləşdi. Əliqulu xan da xidmət etmək və keşik çəkmək niyyəti ilə orada mizbanlıq və xidmətkarlıq işlərinə başlandı. Bütün əzəmətli əmirlərə, qiymətli qorçilərə və xassə mülazimlərə əmr edildi ki,

daim hümayun dövlətxananın keşiyini çəksinlər. Başqa bir dəstəni də, İraq yolu ilə gəlib-gedənlərin yeri olan xiyaban başına göndərdilər ki, qarovullar vasitəsiylə əmirlərin hərəkətlərindən agah olsunlar.

Səidabaddan çıxıb şəhərin iki fərsəxliyindəki Fəsuhfənc adlı yerə çatdıqları vaxt əmirlərin bir neçə döyüşçüsü yaraqlanıb qarovul kimi irəli çıxdılar və müşahidə etdilər ki, qarşı tərəf də döyüş və ehtiyat tədbirləri görməkdədir. Ertəsi gün nəvvab şahzadənin yanına bir adam yollayıb öz əvvəlki tələblərini ərz etdilər. Onların iddiaları belə idi: "Ustaclı tayfası heç bir cinayəti olmadan Əmir xanı qətl etmişdir və biz Əliqulu xan Fəthoğlunu onun qanlısı hesab edirik. Qoy nəvvab şahzadə qanlı sayılan adamları həbs edib, qisas alınmasından ötrü onları Əmir xanın övladlarına versin, əks təqdirdə daha bizim elə tab-taqətimiz yoxdur ki, ali xidmətdə olan ustaclıların hörmət və etibarlarını müşahidə edək".

Nəvvab şahzadə də onlara öz əvvəlki cavabını verdi. Get-gəl təkrarlandı, məlum oldu ki, o dəstənin adamları öz tələblərinin icrasını görməyənəcən itaətə gəlməyəcəklər, hətta ola bilsin ki, gəlmək məqsədi ilə şəhərə girib öz istəklərini həyata keçirmək iddiasında olacaqlar. Onların tələbələrinin yerinə yetirilməsi şahlıq qeyrətindən və ağıl mizanından uzaq olduğu üçün nəvvab şahzadə barışıq yolunun vaxtın tələbinə müvafiq olduğunu düşünüb danışıqlar vasitəsiylə öz mübarək dilinə nəsihətamiz sözlər gətirdi.

O dəstə gündüzü Fəsuhfəncdə keçirərək yola düşdüklərinin üçüncü günü hamılıqla atlanıb, əvvəlcə çərxçiləri irəli göndərdilər, döyüşmək üçün silahlanıb xiyabanın başınadək gəldilər. Onların belə halda atlara süvar olub gəlmələri xəbəri şəhərə çatan vaxt aydınlaşdı ki, mövüzə etmək və nəsihət verməkdən heç nə çıxmayacaqdır və onların fitnə atəşlərini və ədəbsizliklərini qılınc və ox yağışından başqa, heç nə ilə söndürmək mümkün olmayacaqdır. Səltənət namusu belə tələb edir ki, bu tərəfdən də iqbal əsgərləri irəli çıxıb o dəstəni cəzalandırsınlar. Əzəmətli əmirlərin bir dəstəsini, xüsusilə ustaclı əmirlərini və Əliqulu xanın dostlarını onların qarşısına yolladılar. Əmirlər tərəfindən zəfərşüar əsgərlərə qələbə çalınmasından ehtiyatlanıb ali qoşun da onların ardınca hərəkət etdi. İsgəndər şanlı nəvvaba da atlanmaq təklif olundu. Öz böyük atasının hümayun qoşununda qələbə və calal bayraqları qaldırıldı və həmin rəzillərin qarşısına cumdular. Əmirlər dəstəsinin ədəbsizliyi və

təəccübü həddən çox artdığından, şahanə qəzəb atəşi qüvvətlənməkdə idi. Səltənət əmirlərinin, dövlət adamlarının və ağsaqqalların heç birinin qüdrəti çatmadı ki, nəvvab şahzadə atlanan vaxt həmin yürüşün qarşısının alınması barədə bir söz desinlər. Qələbə ayəli qoşun xiyabanın başına çatanda qaravul olan ustaclı süvarilərinin biri hərb ahəngini qızışdırdı və irəli şığıdılar.

Qarşı tərəfdən də cəhalət və qürur badəsindən məst olan o bədməstlər igidlik göstərib qorxmazlıq atını irəli sürdülər. Əllər açılıb, iki-üç nəfər yaralanandan sonra Qarabağ bəylərbəyi İmamqulu xan Qacar, Məhəmmədi xan Toxmaq, Seyid bəy Kəmunə və Şahqulu Xüləfa Rumlu Əliqulu xanla birlikdə adlı-sanlı şahzadənin müqəddəs qoşununun başında atlardan düşüb, öz istək və sədaqət izhar edən başlarını mütilik torpağına sürtdülər, kama yetən şahzadənin səbarəftar atının yüyənini özlərinin dövlətxahlıq əllərinə alıb ərz etdilər: "Alimiqdar padşahların öz üsyankar qullarının qarşısına çıxmaları dövlətə layiq iş deyildir, bundan başqa, gün də başa yetmişdir. Əgər ali qoşun bir qədər də hərəkət edib irəliləsə, çətin ki, bu qaranlıq gecədə çox qan tökülsün. O dəstənin də məqsədi budur ki, onları cəzalandırmaqdan ötrü hümayun şahın özü döyüşə çıxsın. Amma, biz dövlətxah adamların xahişi budur ki, qoy bu gün geri dönsünlər və üsyan əhlinin cəzalandırılması üçün bir-iki gün səbir etsinlər. Belə olan halda ola bilsin ki, onlar biz dövlətxahlar vasitəsiylə özlərinin səbir və təkəbbür atlarından düşüb təslim olalar. Yox, əgər bu dəfə də biz bəndələrin məsləhətindən çıxsalar, onda ali qoşunun mülazimlərinin hücumuna heç bir ehtiyac yoxdur, onları biz qulamlar öz səyimiz ilə məğlub edəcəyik". Nəvvab şahzahdə dövlətxah adamların məsləhətinə əməl etdi və qarovulların yanına adam yollayıb hücumu təxirə saldı. O, əmirlərin xahişini adlı-sanlı atasına ərz etdikdən sonra şəhərə qayıtdı.

Ertəsi gün təkəli və türkman əmirləri adam yollayıb xahiş etdilər ki, onlarla bəzi məsələlər xüsusunda danışıq aparmaq üçün iki-üç etibarlı ağsaqqal göndərsinlər. Nəvvab şahzadə kimsəni yollamaq istəmədi, çünki onlarla bir daha danışıq aparmağı səltənət və şahlıq rütbəsinə layiq və münasib görmədi. İsgəndər şanlı nəvvab isə onlarla danışmağı məsləhət bilib, o zaman zəfərli əsgərlərin qazisi olan seyid Mir Əbülvəli Əncu Sədri xeyirxah əmirlərdən Seyid bəy Kəmunə və Şahqulu Xüləfa Rumlu ilə birlikdə onların yanına yolladı.

Amma, onların da Ədhəm xan və başqaları kimi orada saxlanmamasından ötrü qərara alındı ki, bu tərəfdən onlar xiyabanın başında qarovullardan bir azacıq aralanıb irəli getsinlər, qarşı tərəfdən isə Məhəmməd xan və əmirlər öz döyüşçülərindən ayrılıb irəli gəlsinlər, nə söhbətləri varsa, eləcə at üstündə həll edib geriyə dönsünlər. Bu qərara əməl olundu.

O camaalın sözünün qısası bu oldu ki, nəvvab şahzadə nə üçün Xorasanda fitnəkarlıq edən və etməkdə davam eləyən iki fitnə-fəsad əhli olan adamdan ötrü qızılbaşların təkəli, türkman və zülqədər kimi üç mötəbər oymağını özündən narazı salmış, rumilər Təbrizdə qala tikəndə o soyuq havada oraya yasaq üçün yollanmış on min nəfəri pərən-pərən salmışdır?

O həzrət vaxta münasib olaraq təskinedici cavablar verdi. Çox qiylü qaldan sonra razılaşdılar ki, bundan sonra Əmir xanın qətli xüsusunda heç bir söhbət və danışıq olmasın.

Amma, həmin fəsad xəmirinin mayası Əliqulu xan və Məhəmmədi Sarı Solaq olduqlarından, bu tərəfin əmirləri öz arzularını belə bildirdilər: "Əgər səltənət və iqtidar işlərinin intizamı naminə o iki nəfərin etibar dərəcələrini aşağı salmasalar da, onları heç olmasa türkman tayfasının və Əmir xan övladlarının ürək təskinliyindən ötrü hümayun ölkə vilayətlərindən birinə göndərsinlər ki, ali dərgahda qala bilməsinlər. Bir müddət keçəndən və qəlbimiz onlardan arxayın olandan sonra xatircəmlik yarandıqda, onları cahanı bəzəyən padşahın rəyinə müvafiq olaraq dərgaha çağırmaq olar".

Sülh danışıqları aparan adamlar yenidən geri qayıdıb bu təklifi ərz etdilər. Bu fikir və əndişə ilə iki-üç gün də keçdi. Amma, qəzavü-qədər pərdəsinin arxasında bəzi işlər gizləndiyindən və qəzanın yəqinliyi və taleyin gərdişindən çarə olmadığından, həmin danışıqların heç bir təsiri olmadı, ağıllı və xeyirxah adamların səyləri faydasız qaldı.

Elə ki, Əliqulu xan və Məhəmmədi barəsində nəvvab şahzadənin qərarı aşkar oldu, yuxarıda adları çəkilən əmirlər ali məclisdə ali sözlər ərz etdilər. Şəhriyara şükr etdikdən və iltifat göstərdikdən sonra belə dedilər: "Biz qulamların razılığı mübarək şah fikrinin razılığı deməkdir. Biz dövlətin zərərinə yönələn heç bir işlə razılaşa bilmərik. On min nəfər adamın iki nəfərlə bərabərləşdirilməsini indiki vaxta və bu dövlətə münasib görmərik.

Biz dövlətin və ali şahın fikrinə müvafiq olan heç bir işdən müzayiqə edə bilmərik və ona dərhal əməl edərik.

Misra

Sən hər nə buyursan hiz ürəkdən ona sadiq.[391]

Nəvvab şahzadə buyurdu: "Bizim bu məsələ xüsusundakı bütün təkidimiz şirin xatirinizə yönəlməyibdir, biz bunu öz xatirimizə edərik, çünki sizi biz tərbiyələndirib, şəfqətlərə nail etmişik. Düşmənlər də bu barədə başqa söz deyə bilməzlər. Bu bizə qarşı olan bir ədəbsizlik (sui-ədəb) və səltənət iqtidarının yoxluğu deməkdir. Buna görə də, sözümün üstündə durub, ali xatirin razılığı əleyhinə olan heç bir işə razılıq verməyəcəyəm. Tezliklə hakimlər hakimi olan Allahın köməyi ilə bizimlə o ədəbsiz haramnəməklər xüsusunda hökm veriləcəkdir. Siz öz qeydinizə qalın".

Ertəsi gün ali bargahda heyrətamiz bir hadisə baş verdi. Qızılbaş fitnəkarlarından olan və həmişə fitnə-fəsad törədən Hüseyn Əli bəy Əlkəsənoğlu Zülqədərin qardaşı oğlu İsmayılqulu özü kimi bir neçə fitnəkarla, o cümlədən Şahsuvar bəy Qapıçıbaşının qardaşı Təhmasibqulu bəy Qapıçı Əfsar, Xəlifə Qacar, keşik çəkən bəzi əzəmətli qorçilər və başqaları əyinlərini dövlətxahlıq libasları ilə bəzəyib yaltaqlıqla danışıq aparmağa gəldilər.

Xülasə, onlar dedilər: "Padşah dərgahında ən ümdə mülazimlər əzəmətli qorçilərdirlər və onlar dövlətin hər işinə qarışa bilirlər və başqalarının onlara tabe olmaqdan özgə əlacları yoxdur. İndi bizim önümüzə bir çətinlik çıxmışdır. Heç bilmirik ki, niyə Əliqulu xan Fəthoğlu və Məhəmmədi Sarı Solağı incitməməkdən ötrü qızılbaş tayfaları iki dəstəyə ayrılmışlar və döyüş baş verməkdədir. Nə üçün bütünlüklə yığışıb gələn təkəli, türkman və zülqədər əmirləri xidmətə yetişib rumilərin qalasını tutmaqdan və sizin köməkçiləriniz olmaqdan ötrü bir yol tapa bilmirlər?"

Qızılbaş sufilərindən "pirə" və "xəlifə" adlanan bəzi ağılsız və sadəlövh adamlar bu söhbəti "sufigərilik" və "sədaqət" adlandıraraq, onları alqışladılar, sözü bir yerə qoyub bu qərara gəldilər ki, nəvvab şahzadənin yanına gedib onun müridləri kimi öz

[391] Misranın farscası:
Ma del nehadeim be hər çiz rəye-tost.

çətinliklərini ərz və bu işin həllini xahiş etsinlər. Qorçilərin cahil və müxalif olan bəzi nümayəndələri isə belə fikrə düşdülər ki, əgər kamkar şahzadədən bir razılıq olmasa, hamılıqla Əliqulu xan və Məhəmmədinin üstünə gedib onları və bu işə maneçilik edənlərin hamısını qətl etsinlər. Onlar bu fəsadlı xəyal ilə qışqırıq salıb dedilər ki, kim şahı sevən və bu dövlətin xeyrxahıdırsa qoy bizə qoşulsun. Böyük bir dəstə hücuma keçdi. Xalq arasına "şahısevənlik səsdası" düşdü və o adamların böyükləri nəvvab şahzadənin sarayına doğru yollandılar.

Cahil və şər adamlar sözün işə keçməsindən ötrü əvvəlcə, Əliqulu xanın rikabxanə (qoşunların qaldığı yer - Ş.F.) və biyutatına (evlərinə - Ş.F.) hücuma keçib, onun sərkarının çoxlu silah-sursatını qarət etdilər. Onların öldürülmə xəbəri şəhərə yayıldı. Həmin yerlərdə olan Əliqulu xan, Məhəmmədi və ustaclı əyanlarının mülazimlərinin əksəriyyətinə məxsus evlər tarac olundu. Bu müjdə təkəli və türkman əmirlərinə çatdıqda, xeyli sevindilər.

Xülasə, şahısevənlərin üsyan və qovğasından ali məclis adamlarının əhvalı dəyişdi. Onlar pəncərə önündə yığışdılar. Üsyançıların mötəbər adamları öz iddialarını ərz etməyə başladılar, amma üstüörtülü danışıb, kimsənin adını çəkməyə cürət etmədilər. Nəvvab şahzadə söhbətin başlanğıcında barışıq diləyi ilə ərz etdi ki, bizim və sizin padşah və mürşidimiz İsgəndər şanlı nəvvabdır ki, özü də buradadır. Siz onun yanına gedib iddianızı ərz edin. Mən isə padşahın və mürşidin qayimməqamı və vəliəhdi kimi sizə bildirirəm ki, bizim əsas mətləbimiz dövlətxahlıqdan başqa bir şey deyildir.

Nəvvab şahzadə İsmayılqulu xan Şamlıya əmr etdi ki, onların yanına gedib danışıq aparsın və əsas məqsədlərini öyrənsin.

İsmayılqulu xan elə həmin pəncərə arxasından onlarla danışığa girib təskinedici tərzlə dedi: "Allahın köməyi ilə dövlətin istəyini həyata keçirib, imkan verməyəcəyik ki, qızılbaş əsgərləri arasında fitnəkarlıq və döyüş başlasın. Elə nəvvab şahzadə də razı deyil ki, bir dərgahın mülazimləri olan o iki dəstə arasında fitnə-fəsad baş qaldırsın. İmkanımız qalana qədər düşmənçilik əhvali-ruhiyyəsinin dəf edilməsinə çalışacağıq".

O ipəyatmaz adamlar səslərini daha da ucaltdılar. Nəvvab şahzadə bir daha onların mətləbini öyrənməyə cəhd edib onların kim ilə işləri olduğunu soruşdu. Əliqulu xan söhbətə başlayıb ərz etdi ki, onlar üstüörtülü danışırlarsa da işləri mənlədir. Məqsədləri mənim və Məhəmmədinin arasına düşmənçilik salmaqdır ki, üsyankar

əmirlər özlərində təsəlli hasil edib qorxusuz-hürküsüz xidmətə başlasınlar. Biz dəfələrlə ərz etmişik ki, həyatımızı şahzadənin mübarək xatirinə görə istəyirik, sözümüz də elə şahzadənin sözüdür. Nəvvab şahzadə buyurdu ki, belə olan halda onların işi sizinlə yox, mənimlədir, çünki Əmir xanın qətli mənim fərmanımla olmuş və sizin hərəkətinizə bais mən olmuşam.

İsmayılqulu xan onları barışıqla xatircəm edib geri qaytarmağa çox cəhd etsə də, buna nail ola bilmədi və həyasızlıq daha da çoxaldı. Qalalardan çıxıb uca səslə Əliqulu xan və Məhəmmədiyə xitabən qışqırıq saldılar ki, nə üçün iki fitnəkar adamın xətrinə görə əbədi dövlət qəsrinin təməli laxlasın?

Onlar İsmayılqulu xanı təhqirə keçib dedilər: "Öldürülməli fitnəkarların biri elə son özünsən və əvvəlcə səni qətl etmək lazımdır".

O dəstənin həyasızlığı və qiyamının belə həddə çatdığını görən nəvvab şahzadə əzəmətli anasının qətlində səyi olan Hüseynəli Əlkəsəndən tamamilə üz döndərdi, onların ədəbsizliklərindən onun qəzəb atəşi zəbanə çəkdi, həmin fitnəkarların cəzalanmaları üçün eşiyə çıxdı, əlini qılınca atıb o dəstənin arasına gəldi. Əvvəlcə gözlərini qan tutan Hüseynəli irəli çıxdı və şahzadə bir Heydəri[392] zərbəsi ilə onun işini bitirdi. Bu qətldən sonra Təhmasibqulu bəy Qapıcı və mat-məəttəl qalan hər bir kəs həmin şərbətdən içdi. Yerdə qalanlar peşiman olub pərtlik zaviyəsinə qaçdılar.

Bu hadisədən sonra, şahzadə Əliqulu xanı yenidən şahlıq nəvazişi ilə sərfəraz etdi. Nəvvab şahzadə rikabxanədə tac və dostarı (çalması) taraca gedən Əliqulu xana öz qızıl tikməli tacını, zərli çalmasını və ciqqəsini inayət etdi. Hökm olundu ki, bütün ustaclı əmirləri və əyanı Əliqulu xanla birlikdə atlanıb şəhərin bütün məhəllələrinin yan-yörəsini düz xiyabanın başınadək seyr etsinlər. Əliqulu xan şadyanalıqla hovaxah adamların bir dəstəsini də götürüb şəhriyar lütfkarlığından vəcdə gəldi, bir qədər seyrdən sonra geri qayıtdı. Ertəsi gecə çox əcayib bir hadisə və olduqca qəribə bir qəziyyə baş verdi ki, onun şərhi qısaca olaraq belədir:

Məhəmməd xan öz niyyətinin baş tutmadığını görərək, adlı-sanlı şahzadələrdən birini hiylə yolu ilə ələ keçirib İraq səmtinə qayıtmaq, orada səltənət havası ilə nəvvab şahzadəyə qarşı

[392] Qeyd: "Heydər" - Əli-əleyhüssəlamın kiinyələrindən (adlarından) biridir - Ş.F.

müxalifət bayrağı qaldırmaq qərarına gəldi. Öz adlı-sanlı anası və böyük qardaşının yanında Əmir xan qalasında yaşayan Əbu Talib Mirzə və Təhmasib Mirzə gündüzlər mülazimlik edir, axşamlar isə öz lələ və dədələri ilə birlikdə İsgəndər şanlı nəvvabın xəlvətxanasına yaxın otaqlarda dincəlirdilər. Baxmayaraq ki, Əbu Talib Mirzənin lələ və dədəsi təkəli tayfasından idi, lakin mirzənin lələsi Xəlil bəy Təkəli İraqda qalmışdı və hadisələr zamanı o camaatın (əmirlərin - Ş.F.) arasındaydı.

Üsyankar əmirlərin şahzadə Təhmasib Mirzəni oğurlamaları:

Amma cənab mirzə ağıl və düşüncə sahibi olduğundan, onu aldatmaq çətin məsələ idi. Təhmasib Mirzənin lələsi Keyxosrov bəy Gürcü sadəlövh və kütbeyin, mirzə isə azyaşlı olduğundan, bir-iki türkman qorçisi ələ alındı, onlara dedilər ki, hümayun dövlətxanadan Keyxosrovu çağırıb ona əyalət, yüksək mənsəb və bol ənam vəd etsinlər, fürsət olan kimi bir gecə qoy mirzəni də özü ilə götürüb əmirlərin yanına aparsın.

Həmin qorçilər mübarək dövlətxanada o əbləh və talesiz adamı əfsunlu dillə yoldan çıxarıb, razılaşdırılan bir gecədə şahzadənin yataq otağına yaxın qala bürclərinin birinin yanına iki baş at çəkdilər. Keyxosrov isə o vaxtlarda on yaşı olan mirzəni uşaq təbiətinə xas olan yuxu məstliyi zamanı, yaxud oyaq vaxtı, yataq otağından cəfa bürcünə qaldırdı, sonrasa çuval və kəndir vasitəsilə yerə endirib, özü də aşağı düşdü. Onlar belə işi görməklə izzət və dövlət zirvəsindən zillət quyusuna yuvarlandılar və qorçilərlə birlikdə həmin atlara minib mirzəni qucağa oturtdular və nabələd yolla təkəli və türkman əmirlərinin yanına apardılar.

Bəzi adamların fikrincə Məhəmməd xan bu hadisədən xəbərsizdi və bu iş qorçilərin düzüb-qurduqları bir əməliyyat idi. Amma heç ağıla sığışmır ki, əgər bu əmirlərin tədbiri olmasaydı, belə böyük bir hadisə baş verə biləydi. Ola bilsin ki, müxalif və inadkar olmaları üzündən onlar bu işi düşünmüş və elə bir düşüncə ilə gecələrini gündüzlərə qatmışlar.

Məhəmməd xan elə o gecə özünə yoldaş olan əmirləri məsələdən xəbərdar etdi və onlar bu işi öz dövlətlərinin uğuru və bəxtlərinin təsdiqi sandılar. Şahzadənin qədəmini alqışlayıb, şadyanalıq etdilər. Onunla (şahzadə Təhmasiblə - Ş.F.) eyni adda olan cənnətməkan şahın da on bir yaşında səltənət və şahlıq

rütbəsinə çatmış olduğunu xatırlayıb, onu taxta çıxarmaq qərarına gəldilər. Onlar bu məsələdən qafil oldular ki, cənnətməkan şah yeri cənnət olan Süleyman şanlı xaqanın (Şah İsmayılın - Ş.F.) böyük oğlu idi, öz atasının vəfatından sonra irsi səltənət taxtına çıxmışdı. Bu şahzadəninsə adlı-sanlı atası sağdır, dövlət və şahlıq taxtında əyləşmişdir. Vəliəhdlik rütbələri olan ondan böyük qardaşları da sağ-salamatdırlar. Belə olan halda elə bir iddia nə təhər həyata keçə bilər, əql mürşidi və zəka piri (yəni Şah Məhəmməd Xudabəndə - Ş.F.) nə yolla və hansı qayda-qanunla bu işə razılıq verə bilər?

Xülasə, elə ki, şahzadə onların yanına gətirildi, ləngimədən köç təbili çalındı, İraqa tərəf üz tutdular. Sübh açılanda İsgəndər şanlı nəvvab, aləm şahzadəsi və səadətli saray əhli hadisədən xəbər tutdular, əhvalları kədərli və pərişan oldu. Bəzi dayaz düşüncəli adamlar elə təsəvvür etdilər ki, bu iş İsgəndər şanlı nəvvabın rəyi və məsləhəti ilə həyata keçmişdir. Ustaclı və şamlı əmirləri bu batil təsəvvürü təsdiqlədilər və bununla da nəvvab şahzadəni öz böyük atasına qarşı bədgüman etdilər.

Bunun səbəbi aşağıdakı kimi idi: İsgəndər şanlı nəvvabın əzəmətli anası türkman tayfasının hörmətli qızlarından olduğundan, onun çoxlu qohum-əqrəbası həmin tayfa içərisində yaşayırdı, onların İsgəndər şanlı nəvvabla qohumluqları vardı və şah həmişə onlara diqqət yetirir, lütfkarlıq edirdi. Müseyib xan Təkəli o həzrətin xalası oğlu, atası Məhəmməd xan Şərəfəddinoğlu isə Heratda şahın (Məhəmməd Xudabəndənin - Ş.F.) hələ mirzə olduğu illərdə onun lələsi idi. Buna görə də, o həzrət həmin tayfa içərisində boya-başa çatmışdı. Harada Məhəmməd xan Təkəlinin adı çəkilirdisə İsgəndər şanlı nəvvab ondan razılıq edirdi, amma bunun əksinə olaraq şahın Məhəmməd xan Təkəlidən sonra lələsi olmuş Şahəli Sultan Ustaclıdan xoşu gəlmirdi. Buna görə də o, təkəli tayfasını özünə yaxın tayfa hesab edirdi. O iki tayfadan belə pis işlərin baş verdiyi vaxtda İsgəndər şanlı nəvvab yuxarıda söylənilən qohumluq əlaqələri üzündən və həmçinin mötəbər qızılbaş oymağının o iki dəstəsinin ondan narazı qalmalarını istəmədiyindən, ara-sıra tərəfkeşlik havası duyulan sülhamiz sözlər dilə gətirirdi. Bu bir-iki il ərzində dəlğunlaşıb kamal yaşına yetişən nəvvab şahzadə də dövlət və cahandarlıq işlərinə başlayıb bütün işləri öz rəyinə müvafiq olaraq, yəni cavanlıqdan irəli gələn tərzdə və hətta öz böyük atasının razılığı olmadan həyata keçirirdi. Hamı elə təsəvvür edirdi ki, İsgəndər şanlı nəvvab bu cəhətdən öz əziz fərzəndlərindən incikdir.

Amma həqiqət belədir: Baş verən bu hadisələr zamanı İsgəndər şanlı nəvvabın nəvvab şahzadəyə məhəbbəti o qədər çoxalmışdı ki, o, heç bir böyük işin həllində öz razılıq ifadə edən fikrini bildirmir və elə özü də öz parlaq düşüncəsini bütün dövlət işlərinə yönəldirdi. Belə olan halda, yəni bütün ata-oğul münasibəti, vəliəhdlik rütbəsinin verilməsi və əziz fərzəndindən bu qədər razılıq etməsi onların arasında nifaq olduğuna şübhə yaratmaya bilmir.

Bu hadisələrin cərəyan etdiyi vaxt müddətində nəvvab şahzadə və əzəmətli əmirlər baş verənlərin fikir və əndişəsinə dalaraq, böyük fəsadlar törədən o adamların fitnə-fellərinin qarşısının alınması və Təbriz qalasının geri qaytarılmasını ən mühüm və başlıca məsələ hesab etdilər. Buna görə də, o həzrətin məqsədyönlü fikri belə oldu ki, ləngimədən o aqibətsiz adamların üzərinə hücuma keçsin və onlar hələ öz məqsədlərinə yetişməmiş şərlərini dəf etsin. Belə halda, öz böyük atasının xidmətində dayanıb şüarı zəfər olan bütün ordunu onların ardınca yollamaq zəruri idi, çünki o dəstənin yolunu elə yolda ikən kəsmək lazımdı. Onların əlaqəsini Təbriz məmləkətindən, bəlkə də bütün Azərbaycandan kəsmək gərəkdi, çünki calal bayraqları İraqa tərəf qaldırılan təqdirdə, Azərbaycan əmirlərindən bir nəfər də o diyarda qala bilməyəcəkdi. Yox, əgər ordunun bir hissəsini əmirlərlə birlikdə qala mühasirəsində saxlayıb özü o dəstənin ardınca yollansaydı, o adamları cəzalandırmaqdan ötrü hümayun ordudakı əsgəri qüvvə kifayət etməzdi.

Zərurət üzündən savablı rəy belə oldu ki, əziz qardaşı Əbu Talib Mirzəni öz adlı-sanlı atasının xidmətində Təbrizdə saxlayıb, Məhəmmədi xan Toxmağı, Qarabağ bəylərbəyisi İmamqulu xam və başqa Azərbaycan əmirlərini də bütün əzəmətli qorçilərlə birgə qalanın mühasirəsi üçün onların yanında qoysunlar, şahzadənin özü isə öz xüsusi mülazimləri, Əliqulu xan və İraqda ülkaları olan əmirlərlə birlikdə Ərdəbil və Xalxal yolu ilə hücuma keçib İraq düzəngahına getsin, oradakı tərəfdarlarını toplayıb üsyançıların fitnəsini dəf etsin. Şahzadə həmin məqsədlə İsgəndər şanlı nəvvabın icazəsindən sonra elə o gün İsmayılqulu xan Şamlını alitəbar şahzadə İsmayıl Mirzənin lələsi təyin etdikdən sonra onu Qəzvinə gedən üsyançıları qabaqlamaq məqsədilə Tarom və Xalxal yolu ilə irəli göndərdi ki, onlardan daha tez özünü Qəzvinə çatdırsın. Əksər qızılbaş tayfa ailələri o şəhərdə yaşadıqlarından, qızılbaşlar tez-tez onları yoluxmaqdan ötrü ora üz tuturdular. Buna görə də qərara

alındı ki, İsmayılqulu xan hamını öz başına toplayıb məhəllələrdə səngər qazsın, ali ordunun gəlişinədək şəhəri və mübarək dövlətxananı qorusun. Belə bir ehtimal da var idi ki, əgər İsmayılqulu xanın gəlişi xəbəri Qəzvində üsyançılara çalarsa, onlar İraqa getməkdən vaz keçər və əmirlərin hər biri öz ülkalarına üz tuta bilərlər.

İsmayılqulu xan ali işarədən sonra elə o günün axırında şamlı tayfası ilə yola düşdü, amma şahzadəni (İsmayıl Mirzəni - Ş.F.) özü ilə aparmadı. Beləliklə ali məiyyət "Allaha təvəkkül" deyərək onun ardınca hərəkət etdi.

ALƏM ŞAHZADƏSİNİN (HƏMZƏ MİRZƏNİN - Ş.F.) ÜSYANÇILARIN FİTNƏSİNİ YATIRMAQ ÜÇÜN İRAQ SƏMTİNƏ GETMƏSİNİN, HƏMİN QƏDDAR (ŞƏQAVƏTNİŞAN) ADAMLARLA HƏRBİNİN VƏ ALLAHIN İNAYƏT KÖMƏYİ İLƏ QƏLƏBƏ ÇALMASININ ZİKRİ

İraq səmtinə hücuma keçilməsi və o nifaq əhlinin cəzalandırılması qərara alındıqdan sonra nəvvab şahzadə Məhəmmədi xan Toxmağı Təbriz hakimliyinə təyin edib, Qarabağ bəylərbəyisi İmamqulu xan və başqa Azərbaycan əmirlərini qalanın mühasirəsinə yolladı. O, qorçiləri və dərgah mülazimlərininin bir dəstəsini İsgəndər şanlı nəvvabın və dövlətxananın keşiyini çəkmək üçün təyin edib, Əbu Talib Mirzəni böyük atasının yanında saxladı. Bu səfər, qalanın alınmasını təxirə saldığından, təbrizlilərin bərk narahatlıqları başlandı. Nəvvab şahzadə ürəkaçan vədlərlə onlara ürək-dirək verib söylədi ki, Allahın köməyi ilə üç aydan sonra üsyançıların işini bitirib Təbrizə qayıdacaqdır.

O, qadir Allah dərgahına təvəkkül edib öz xüsusi mülazimləri və sayı üç mindən çox olan əmir və qorçilərlə birlikdə niyyətə doğru üz tutdu. Yeddi mənzil yol gedib Ərdəbil darülirşadına gəldi, həzrət övliya sultanının, əzəmətli şeyxlərin və ali məqam əcdadının qəbirlərini ziyarət etməklə şərəfləndi. İl başa çatdıqdan və doqquz yüz doxsan beşinci (miladi 1585) hicri ilinə bərabər olan it ilinin novruzu yaxınlaşdığından, bir həftə o şərafətli yerdə gözləyib, novruz günlərini işrət və şadlıqla keçirdi. İlahi dərgahı bəndə dualarının müstəcəb yeri olan həmin müqəddəs astanada üsyan və tüğyan edənlərin cəzalandırılmasını niyyət

(məsələt) etdi, ilin başlanğıcında o müqəddəs adamların ruhlarından kömək istədi. Xalxal yolu ilə İraqa yollandı. Ali, əsgərlər olduqca az, üsyançılar isə sox olduqlarından, sürətlə getmək, vaxtın və dövlətin məsləhətinə görə münasib bilinmədi və dövlətxahlarını və şücaət sahiblərini toplamaq məqsədi ilə qorçiləri irəli yollayıb özü isə yavaş-yavaş irəliləməyə başladı.

Amma, onlarla yoldaşlıq etmək arzusunda olan az adam tapıldı. Sayca çox olan şeyxavənd camaatı da bu xidmətə gəlməkdən boyun qasırdı, hətta onların cahil adamları ayaqlarını ədəb dairəsindən kənara çıxarıb, arxadan gələn bir çox saraya xas (xassə) tövlə atlarına tamah salaraq onları oğurladılar. Tarom ülkasına çatdıqda əsgər toplamaqdan ötrü bir neçə gün gözlədilər. Orada Tarom hakimi Pir Qeyb xan Ustaclını körpü başının mühafizəsindən ötrü təyin etdi. Qızılüzən çayı suyunun aşıb-daşmasına görə ali ordu xidmətinə az dehqan gəlirdi. Azuqə də azlıq etdiyindən, əsgərlər bir neçə gün qıtlıqdan əziyyət çəkdilər. Buna görə də, nəvvab şahzadə ali sərkarın bütün qızıl və gümüş silah alətlərini sındırıb qızılbaş qaziləri arasında payladı.

O əsnada Təhmasib Mirzənin və əmirlərin Qəzvinə çatmaları, İsmayılqulu xanın Rudbara yürüşü və məğlub olub Deyləmana fərarı xəbəri şahzadəyə gəlib çatdı. Məsələ belə olmuşdu: Elə ki, İsmayılqulu xan, öhdəsinə görürdüyü kimi, Tarom və Xalxal yolu ilə gedib Qəzvin darüssəltənəsinə çatdı, döyüşçülərdən və şəhər əhalisindən ibarət adamları bir yerə toplayıb məhəllələrdə küçəbənd düzəltdi, hər küçəbəndə işə yararlı qızılbaşlardan, şəhərdəki tüfəngçi və kamandarlardan ibarət adamlar müəyyənləşdirdi. Elə ki, Təhmasib Mirzə ilə təkəli və türkman əmirləri Əbhərə yaxınlaşdılar, eşitdilər ki, İsmayılqulu xan artıq Qəzvinə daxil olmuşdur və müdafiəyə hazırlaşmaqdadır. Üsyançılar dəftərxana daruğəsi Əlixan Sultan Türkmanı elçi sifətilə şəhərə yollayıb İsmayılqulu xana təslim olmaq təklifi etdilər və dedilər: "Allaha həmd olsun ki, bizim şah və mürşidimiz İsgəndər şanlı nəvvabdır və dövlət və səltənətə o başçılıq edir. Bizim o dərgaha dövlətxahlıq etməkdən və sədaqət göstərməkdən başqa yadımıza heç nə gəlməz. O əziz adamı da (İsmayılqulu xanı - Ş.F.) sərvətli, xeyirxah, düzgün düşüncəli şəxs kimi tanıyırıq. Ondan (İsmayılqulu xandan - Ş.F.) xahişimiz bu idi ki, bizim aramızda baş verən məsələni Təbriz yaxınlığında gərək elə həll edəydi ki, nəvvab şahzadə bizim təvəqqe sinəmizə əl vurmayaydı. Həmin həzrətdən

məyus olub o dərgaha yol tapa bilmədiyimizə görə çarəsiz qaldıq və zərurət üzündən geri qayıtdıq. İndi də o əzizdən (İsmayılqulu xandan - Ş.F.) xahiş edirik ki, aramızda barışıq büsatını razılıq qapılarının işığı ilə elə açsın ki, bir-birimizi dostcasına qarşılayaq, əgər din, dövlət və o əzizin hər cürə məsləhəti olmuş olarsa, həyata keçirək. Məqsədimiz vəfa və ittifaqdan başqa heç nə deyil və onun məsləhətinə əməl edəcəyik".

Adı çəkilən elçi öz işini bitirdikdə əmirlər onu yola saldılar, dayanmadan onun ardınca at sürüb şəhərin bir fərsəxliyində dayandılar.

O dəstənin əməl və fellərinin dedikləri sözlərin əksi olduğunu görən İsmayılqulu xan daha onlara etimad etmədi amma özündə o camaata müqavimət göstərmək gücünü də görmədi. Onlar Əlixan Sultanı yenidən göndərib sülhpərvər və dostanə sözlər danışdılar. Amma, həmin gecə İsmayılqulu xan öz fərzəndləri, əhli-əyalı və şamlı tayfasının qüdrətli adamlarını Rudbar meşəsinə gətirib yaxşı bir yerdə iqamət etdi. Qəzvin mütəssədisi* Mir Cəfər Qəzvini və Qəzvinli pəhləvanların başçısı Pəhlivan Sultan Mahmud nəvvab şahzadənin dövlətxahlığı və İsmayılqulu xanın razılığı ilə ona qoşulub getdilər.

Türkman və təkəli camaatı isə maneçilik görmədən və dava-dalaşsız Qəzvin darüssəltənəsinə daxil olub hümayun dövlətxananı Təhmasib Mirzənin iqamət yeri etdilər. Əmirlərinsə hər biri layiqli evlərdə yerləşdilər, xoş bir saat seçib Təhmasib Mirzəni hakimlik məqamında əyləşdirdilər və onu atasının vəliəhdi adlandırdılar. Fərraşxanada, padşaha xas yaraq-yasaq ambarlarında, nəvvab şahzadənin şəhərdə və dövlətxanasında qalan hər şeyi tarac etdilər. Onlar həmçinin nəvvab şahzadənin mülazimətindəki əmirlərin, vəzirlərin və əyanların bütün əşyalarını tapıb zəbt etdilər.

Cənnətməkan şahın vəziri olmuş Qazi Cahanın qız nəvəsi Şah Təqiəddin Məhəmməd Sədr İsfahaninin oğlu Şah Qəvaməddin Hüseyn elə o vaxtda nəvvab şahzadə ilə görüş üçün İsfahandan ali orduya gəldikdən sonra Qəzvinə çatdı. Ona dərhal təzim və ehtiram edib Təhmasib Mirzəyə vəzir təyin etdilər, "etimadüddövlə" ləqəbi verdilər. Cənnətməkan şahın müstovfisi Mirzə Şükrüllahın oğlu Mirzə Məhəmməd Hüseyni müstovfi etdilər və başqa adamlara da müxtəlif vəzifələr verdilər. Amma vəkalət mənsəbi üstündə türkmanlar və təkəlilər arasında dava-dalaş oldu. Nəhayət

Məhəmməd xan lələ olduqdan sonra vəkalət vəzifəsinə Müseyib xan Şərafəddinoğlu Təkəli keçdi.

Amma mütləq ixtiyar sahibi Məhəmməd xan idi. İsfahan darülsəltənəsinə, İraqın hər tərəfinə və başqa yerlərə adam yollayıb şahzadə Təhmasib Mirzənin cülus etməsi xəbərini çatdırdılar.

Beyt:

Saqinin zülfünə əl çəkdi həriflər yaxşı,
Onları qoysa bu halətdə fələk, yaxşı olar.[393]

Amma verilən hökmlərdə İsgəndər şanlı nəvvabın tərəfini tutub, nəvvab şahzadənin qərarı ilə, onun möhrünü məktubların yuxarısına deyil, aşağısına vururdular.

Elə ki, nəvvab şahzadə qoşununun Taroma çatması və ləşkərin azlığına görə orada dayanması xəbəri üsyançı əmirlərə çatdı, əvvəlcə Rudbara, İsmayılqulu xanı dəf etməyə yollandılar və Vəli xan Təkəlinin sərdarlığı ilə bütün təkəli, türkman və başqa əmirlər onun üstünə getdilər. İsmayılqulu xan yalnız bircə yolu olan həmin yerdə dayanıb gözlədi. Hərçənd ki, o yolun üstündə onun tüfəngçiləri və kamandarları vardı, amma Vəli xan Rudbar əhalisindən o yerləri yaxşı tanıyan adamlar tapıb, başqa bir yolla döyüşçülərini qəflətən onun üstünə tökdü. Önünü və sonunu müxalif ləşkərin əhatə etdiyini görən İsmayılqulu xan çaşbaş qaldı. Amma Mövlana Nemət Rudbarinin oğlanları dövlətxahlıq edib dedilər ki, əgər var-yoxlarını burada qoysalar onu meşənin içərisi ilə müxaliflərin kcçə bilməyəcəyi yerlərdən keçirə bilərlər. İsmayılqulu xan əlacsızlıqdan bütün var-yoxunu və şamlıların xanəköçünü orada qoyub, az miqdar adamla Deyləmana gəldi. Şamlı qazilərinin əksəriyyəti də atlardan yerə düşərək, öz döyüş libaslarını soyundular, özlərini meşəyə çatdırdılar, yüz cür təşviş hissi keçirə-keçirə sağ-salamat Deyləmana yetişdilər.

Gilan valisi Xan Əhməd bu məsələdən xəbərdar olub gələnlərə yemək-içmək və paltar göndərdi və onları bir neçə gün

[393] Beytin farscası:
Xoş gereftənd hərifan səre-zolfe-saqi,
Gər fələkşan begozarəd ke qərari girənd.

saxladı. Şamlıların bütün var-yoxu isə təkəlilərin əllərinə keçdi, onların bəzisi həlak oldu, bəzilərini isə tutub şəhərə gətirdilər.

Amma, Məhəmməd xan heç kimi şamlıların xanəköçünə toxunmağa qoymadı. Vəli xan qayıtdıqdan sonra istədi ki, Qəzvin ətrafdakı qızılbaşları, Qəzvinə gəlib onlara itaət etmədiklərinə görə cəzalandırsın. Elə [həmin] məqsədlə də qoşun yolladı. Bu səhv hərəkəti özünün başqa hərəkətləri kimi düzgün sayan əmir bir dəstə döyüşçünü əfşarların ovsalı və ömərli eli (tayfası - Ş.F.) üzərinə yolladı, onları qarət və tarac etdilər. Bu əmələ görə başqa el və oymaqlar ondan incidilər. Vəli xan istədi ki, bayat tayfası üzərinə də hücuma keçsin, amma bu vaxt nəvvab şahzadənin Qızılüzəndən keçib Mahan çəmənliyinə gəlməsi xəbəri onlara çatdı. İkinci qarətə fürsət tapa bilməyib döyüş əzmi ilə şəhərdən çıxdılar.

Amma nəvvab şahzadə Rudbar hadisəsini eşitdikdən sonra adam yollayaraq, İsmayılqulu xanı Deyləmandan çağırdı və tapşırdı ki, o, Paradbaba Mənsuriyolu ilə Taroma gəlib, ali qoşuna birləşsin və belə də oldu. Nəvvab şahzadə İsmayılqulu xana, onun qardaşlarına və başqa şamlı ağalarına ali sərkar (sərkare-ali) tərəfindən xeymə, ev avadanlığı və ehtiyac duyulan başqa şeylər verdi. Hesablandıqdan sonra atları olmayan şamlı qazilərini atları çox olan süvarilərdən götürülən heyvanlarla təmin etdilər, onlara yaraq da verildi, Əliqulu xan Fəthoğlu və başqa əmirlər də onlara öz kömək əllərini uzatdılar.

Xülasə, onun gəlişindən sonra ali məiyyət çayı keçib Mahan çəmənində dayandı. Xalxal və Taromdan gələn ustaclı tayfaları oraya toplaşdı və Sultaniyyə çəmənliyinə gəldilər. Məhəmməd Hüseyn Sultan ilə Rey və Rudbardan gələn Eylur camaatı həmin yerdə qoşun bəzəyib ali orduya qoşuldu. Türkman və təkəlilərin qarətkarlıq xəbəri başqa el və oymaqlara gəlib çatdığından, hamı qorxuya düşüb öz elləri və uluslarıyla birlikdə Sultaniyyə çəmənliyinə gələrək ali orduya birləşdi. Nəvvab şahzadənin qorçisi olan Dövlətyar Siyahmənsur zəfərli qoşun əmiri vəzifəsinə layiq görüldü. Onu ləşkər toplamağa göndərdilər. Sultaniyyəyə çatıb özü ilə bir dəstə siyahmənsur kürdlərini götürüb qayıtdı. Onlar heyvandarlıqla məşğul olduqlarından yaraqlı olanları az idi, buna baxmayaraq ləşkərin sayını artırırdılar. Sultaniyyədə şahzadənin ordusunda bu minvalla yeddi min döyüşkən süvari toplandı ki, onların beş min nəfəri işə [döyüşə] yararlı adamlardı. Amma, sayları on min nəfəri keçən yaraq-yasaqlı, döyüşkən və

yaxşı atları olan türkmanlar, təkəlilər və onlara qoşulanlar Təhmasib Mirzənin xidmətində durub Bamləvar (?) çəmənliyinə çatdılar. Xülasə, onların gəlişi xəbəri ali şahzadəyə yetişəndə tərəflər bir-birinə yaxınlaşdılar. Nəvvab şahzadə Sultaniyyədən çıxıb Sayınqalanın Dufərsəxi adlı yerində dayandı. Elə həmin gün qarovullar üsyançıların gəlmə xəbərini ona çatdırdılar. Nəvvab şahzadə Pirqeyb xan Ustaclını ləşkərə çərxçi təyin edib, ona sayı iki min nəfərə çatan döyüşə yararlı ustaclı və başqa əsgərləri təhkim etdi. Sayı iki min nəfər olan döyüşçünü Əsilməs xan Möhrdar, Əli Sultan Tatioğlu və zülqədər möhrdan Şahqulu Xəlifə ilə birlikdə Əliqulu xana verdi və onları çərxçi qoşununun sol cinahında yerləşdirdi. İsmayılqulu xan, Qorxmaz xan, Şahverdi Xəlifə Eynallı sayı min iki yüz nəfər olan şamlı qoşunu ilə sağ cinahda durdular. Nəvvab şahzadənin və onun xüsusi mülazimlərinin zəfərpeykər hilalı (mahçe) qəlb səmti üfuqündə (ofoqe-qəlb) göründü. Şahqulu Sultan Xüləfa, Seyid bəy Kəmunə və Dövlətyar xan Siyahmənsur nəvvab şahzadənin yanında, mərkəzdə döyüşə hazır vəziyyətdə dayandılar. Yaxşı atları olmayan heyvandar camaatın əksəriyyəti ləşkərin sayının çox görünməsi məqsədi ilə qəlbdə yerləşdirildi. Elə ki, hümayun şahzadənin qolundakı döyüşçülərin sayı iki-üç min nəfərə çatdı, o, döyüş tərtibatına gözəl tərzdə rövnəq verib, ordudan ayrılaraq, bir fərsəx yol getdi ki, axşam düşənə kimi atlanıb üsyançıların hücumunu gözləsin. Axşam vaxtı üsyançılar ordusunun gəlib Miyankuh çayına çatmaları xəbəri eşidildi. Buna görə də döyüş ertəsi günə saxlanıldı. Qeyb aləmindən mələk (sürüş) qulağa belə bir nida çatdırırdı:

Beyt[lər]

Düşmənlər verdilər belə bir qərar:
Döyüşə qoy sabah rəvan olsunlar,
Hücum eləsinlər kin meydanına,
Mərhəmət olmasın düşmən canına.[394]

[394] Beytlərin farscası:
Çenin yaft dər qəlbe-dəşmən qərar:
Ke, cuyənd fərda rəhe-karzar.
Be meydane-kin torktazi konənd,
Bekuye-səre-xiş bazi konənd.

Nəvvab şahzadə bu xəbərin səhihliyini öyrənib, onların hiyləgərliklə şəbixun etmələrinin qarşısını almaq məqsədi ilə iki-üç min adamı səhrada qoyaraq, özü orduya qayıtdı. O gecə o da, bütün fədakarlar kimi oyaq qaldı, dəfələrlə dua etdi: "Xudaya, o donmuş ürəkləri yumşalt, bu fitnəni xeyirlə aradan qaldır". "Rövzətüs-səfa" kitabını açıb sabahkı gün özləri və üsyankarların vəziyyətləri barədə, nəvvab şahzadənin əmrinə görə fal açdılar. Kitabın təsadüfən Sultan Əbu Səidin* Ulcaytu xana** qarşı üsyan etməsi, onların döyüşü və Sultan Əbu Səid xanın zəfəri yazılan hissəsi açıldı. Nəvvab şahzadə səcdəyə gəlib nəzir-niyaz etdi ki, əgər üsyançılar üzərində qələbə çalsalar, qayda-qanunun əksinə olaraq fəthdən sonra bir nəfəri belə qətl etməsinlər, tutulan əsirlərin günahlarını bağışlasınlar, öz əcdadları kimi hərəkət edib əfv və mürüvvət yolunu tutsunlar.

Nəvvab şahzadənin yağı olmuş əmirlərlə hərbi:

Xülasə, sübhi-sadiqin[395] açılmasından bir qədər əvvəl nəvvab şahzadə özünün möhtərəm bibisi və ali dövlətxana banusu olan Bilqeys məkanlı Zeynəb bəyim ilə, habelə başqa hərəmlər və fərzəndlərlə vidalaşıb Ağacan bəy Əfşara hərəm qorçiləri ilə birlikdə ali dövlətxananı qorumağı tapşırdı, ilahi iltifat dəqiqələrində düşmənlərlə qarşılaşmağa üz tutdu. Keçən gün etdiyi kimi sağ qolun, sol qolun və mərkəzin çərxçi və döyüşçülərinin hər birini öz yerində yerləşdirdi. Günortaya yaxın üsyançıların ləşkəri göründü, hava tozanaqdan qap-qara qaraldı.

Beyt

Hava təpiklərdən elə qaraldı,
Gün səkkiz pay oldu, yer isə altı.[396]

Qoşunlar dağ arxasından çıxandan sonra yüksək bir yerdə, sanki iyirmi min nəfərlik böyük bir qaraltı göründü. İqbal ordusunun

[395] Qeyd: Sübhi-sadiq və sübhi-kazib sübhün açılmasının iki mərhələləridir. Sübhi-kazib (aldadıcı sübh) alatoranlığa işarədir – Ş. F.
[396] Beytlərin farscası:
Ze gərde-səvaran dər an pəhn dəşt,
Zəmin şeş şod-o asiman gəşt həşt.

mülazimləri onların döyüşçülər olduğu təsəvvür edib bir qədər narahat oldular, ürəklərinə bərk qorxu düşdü. Elə ki, həmin qaraltı dağın yamacından düşüb irəli gəldi, güman etdilər ki, bu qaraltı onların ordusunda olan yüklənmiş dəvələrin qaraltısıdır. Ürəklər bir qədər arxayınlaşdı. Həqiqətən də, əgər o gün cəngi təxirə salıb orada dayanmasaydılar, düşmənlərin çoxluğu qorxusundan aləm şahzadəsinin ali ordusunun mülazimlərinin canı lərzəyə düşərdi. Bu sətirlərin müəllifi deyir ki, o zaman ömrünün[397] həyat mərhələlərindən iyirmi altısı ötmüşdü və o, nəvvab şahzadənin qələm ərbabı silkindən olub divana mənsub şəxslərdən biri idi. İyirmi altı yaşlı adamlara xas olan nəfs cəhaləti və dərrakəsizlik (gusalegi) üzündən əyninə zireh geyinib, silaha sarılıb, sivri nizə tutub, igidlik ərbabı zümrəsinə daxil olub, nəvvab şahzadənin müqəddəs xidmətindən ayrılmayıb fəthə qədər onunla birlikdə oldu, hadisələri öz gözləri ilə gördü, gördüyü kimi də yazdı.

Xülasə, üsyançılar irəli gəldikdə aydın oldu ki, onlar iki qola ayrılmışlar.

Qolun birində Müseyib xan, Vəli xan və çərxçisi Əli Sultan Pakmal olan təkəli ləşkəri, ikincisində isə çərxçisi Əmir xanın oğlu Gülaba xan olan Məhəmməd xan, Ümmət xan Zülqədər, Ədhəm xan, Əmir xanın qardaşı İsmayıl xan, Sultan Mosum xan Tərxan və başqa türkmanlar, habelə Əmir xanm qardaşı Şahqulu Sultan və Şahqulu Sultan Piyada Türkman dayandılar. Şahzadə Təhmasib Mirzənin başı üstündə qızıl çətir tutub onu türkman qoşununun mərkəzində yerləşdirmişdilər. Tərəflərin qarşılaşması başlandıqda hər iki qoşunun çərxçiləri döyüş alətlərinə əl atdılar. Şamlıların müqabilində olan təkəli ləşkəri və ustaclıların qarşısındakı türkman camaatı bir-birinə qarışdı, tozanaq qalxdı. Hər iki tərəfin cavanları igidlik göstərirdilər. Döyüşün başlanğıcında iqbal əsgərlərinin şamlı tayfası təkəli çərxçilərinə qalib gəldilər. Əli Sultan Pakmal qətlə yetirildi və İsmayıl xanın vəziri Həmzə bəy nəvvab şahzadənin yanına gəlib Əli Sultanın öldürülməsi xəbərini çatdırdı. Həmçinin ustaclı tayfası da türkman çərxçilərinə qalib gəldi. Özünü adlı-sanlı döyüşçü sayan Əliqulu xan Fəthoğlu cəhaləti üzündən öz qolunda dayanmayıb hərbə atılaraq çərxçilərin arasında döyüşürdü. Türkman çərxçiləri ustaclı qoşunu tərəfindən əziləndə Əmir xanın qardaşı Şahqulu Sultan qətlə yetdi. Onun başını öz nağaraxanası və

[397] Yəni, İsgəndər Münşinin öz ömrünün - Ş.F.

yaraqıyla birlikdə gətirdilər. Qarşı tərəfdəki təkəli qolundan saysız-hesabsız əsgər irəli şığıyıb özlərini ildırım kimi şamlı tayfasına vuraraq onları "Bənatün-nəş" ulduzları kimi pərakəndə etdi. Qəzvinin daruğəsi olan Şahkərəm bəy Lənkər bir neçə yararlı cavanla qətl olundu, vəzir Həmzə bəy tutuldu. Həmçinin türkman qoşunundan Əmir xanın bütün qardaşları və dəstləri, Şahqulu Sultan Piyadə və başqaları qəzəbli ləşkərlə Əliqulu xanı aradan götürmək və Əmir xanın intiqamını almaq üçün dayandıqları qoldan çıxdılar.

Türkman qoşununun həmləsi nəticəsində ustaclı ləşkərinin məğlubiyyəti:

Onlar Pir Qeyb xanın ustaclı çərxçilərini şücaətli bir həmlədə dağıdıb özlərini Əliqulu xanın qoluna çatdırdılar. Əliqulu xan o vaxt öz qolunda olmadığından, qoldakılar bir-birinə dəyib xanı axtarmağa başladılar. Türkman qoşunu onlara döyüşmək macalı verməyib, bütün ustaclıları və Əliqulu xanın adamlarını bir-birindən ayırdılar, onun və ustaclı əmirlərinin ələm və nağaralarını götürüb apardılar. Əliqulu xan çox döyüşdükdən sonra dörd-beş nəfərlə birgə özünü dağın ətəyinə çəkdi. Onların və şamlıların məğlubiyyəti xəbəri nəvvab şahzadəyə çatdıqda hümayun qolun sol cinahında olan və Əliqulu xana kömək eləyən zülqədər tayfasının möhrdarı Əsilməs xan və zülqədər əmirlərinin bir neçəsi döyüşə şığıdılarsa da bir iş edə bilmədilər. Əliqulu Sultan Tatioğlu Zülqədər qətl olundu və onun bütün adamları türkman qoşununun həmləsindən əzildi. Hümayun qoldakı əsgərlər də daha orada qala bilməyib qaçdılar.

Belə vəziyyətdə ali şahzadənin məzacı pisləşdi, hümayun qoldakılar da biri-birinə dəydilər. Müxalif tərəfdən külək əsdiyindən göyə toz qalxmaqda idi. Nəvvab şahzadənin çətiri də tozla örtüldüyündən hücumdakı üsyançı dəstə onu görmədi. Müxalif ləşkər qolu keçərək, mərkəzə yönəlmədən geri döndü. Nəvvab şahzadə ləşkərin dağınıqlığına və yanında az adamın qaldığına baxmayaraq əzmlə mərəkəyə girmişdi. O, müqəddəs xidmətdə olmasından ötrü Əliqulu xanı gətirmək üçün Mirzə Hidayət Nəcmesaniye-İsfahanini göndərdi. Mirzə geri qayıdıb Əliqulu xanın dili ilə dedi: "Nəvvab şahzadənin xidmətinə qayıtmağa üzüm yoxdur. Daha iş-işdən keçmişdir. Düşmən öz kamına yetdikdən sonra zillətdə alçaqcasına yaşamaqda da məna görmürəm. Hərb dünyasına baş

vurub fəna suyunda batmaq üçün mərəkədə dayanmışam". Nəvvab şahzadə onu bir daha Əliqulu Sultan Zülqədər Qoroğlu ilə Əliqulu xanın yanına yolladı, öz etirazını bildirdi: "Sən düşünürsənmi ki, mən mərəkədən üz çevirib iki günlük saxta bir həyatı özümə qənimət bilim və fərar edim?

Misra

Necə də səhv təsəvvür və xəyal namümkün[398]

Gəl ki, bizim başımıza gələn sənin də başına gəlsin". Onlar çox söhbətdən sonra Əliqulu xanı gətirdilər. Bu əsnada müxaliflərin qolu irəliləməyə başladı. Təhmasib Mirzənin əyləşdiyi yerdən gələn türkman qolunun sürətlə gəldiyinə baxmayaraq, Əli Pakmalın qətlindən sinələri dağlı olan Vəli xan və təkəli ləşkəri onlara üstünlük qazandı. Vəli xanın önündə rüfəng atmaqda olan dörd-beş yüz tüfəngçi hümayun qola doğru yüyürdü. Məğlubiyyətə uğramış şamlı ləşkəri onların arxa tərəfində qaldı. Üç-dörd yüz əsgərdən ibarət qoşunu olan Məhəmməd xan və Ədhəm xan Türkman geridə qalan şamlılardan xoşagəlməz bir hərəkət baş verə biləcəyindən ehtiyatlanaraq təkəli ləşkərinə kömək etməyə tələsdilər. Əliqulu xan və Əliqulu Sultan Zülqədər ali orduya gəlib çatdıqları vaxt artıq təkəli ləşkəri elə irəli gəlmişdi ki, tüfəngçilərin güllələri iqbal qoşunu mülazimlərinə gəlib çatırdı. O, mərəkədə nəvvab şahzadə sərkarının xəzinədarının qulamı olan Şahqulu bəy ayağından yaralandı. Nəvvab şahzadə öz hümayun çətirini, bu hərbdən sonra "Fərrux Yekətaz" adı ilə məşhur olan xasseyi-şərifə qulamı Fərrux bəyə verdi, ona çətiri öz başı üstündə saxlamağı buyurub, ali məiyyətdən aralanmamağı əmr etdi.

Amma qolda olan ləşkər bir-birinə dəydi, çünki təkəli qoşununun hücumundan və tüfəng atəşlərindən sağ qalan az idi ki, onların əksəriyyəti də müxaliflərin hücumundan qorxuya düşüb, fərar etməyə başladı. İlahinin himayəsinə ümid edən nəvvab şahzadə, güllə ona dəyməsin deyə, hümayun çiynindəki günəş misallı qalxanını öz mübarək əli ilə tutub gah önündə, gah da arxasında saxlayırdı. Ali məiyyətdəki mülazimlər də döyüşə-döyüşə

[398] Misranın farscası:
Zəhi təsəvvəri-balel, zəhi xəyale-məhal!

hərəkətləri fərarı andıran tərz ilə bir neçə qədəm geri çəkildilər. Artıq hamı məğlub olacaqlarını yəqinləşdirmişdi. Buna görə də qələbə ümidi yoxa çıxdı. Döyüş meydanı atılan güllələr nəticəsində mübarizlərdən xali oldu. Nəvvab şahzadədən təxminən bir fərsəx aralı olan yol boyunca məğlubiyyətə düçar olmuş iqbal əsgərləri həmin səhrada pərakəndə olub səpələnməkdəydi. Amma ali məiyyətin belə iztirablı bir vaxtında Əlixan bəy Carçıbaşı Rumlu tez-tələsik atdan endi, nəvvab şahzadənin mindiyi atın yüyənindən tutub dedi: "Cəng həmişə eyni minvalla davam etmir. Mərd kişilər və döyüş dilavərləri bəzən qələbə çalırlar, bəzən də məğlub olurlar. Əgər bu döyüşdə işdi-şayəd qəzavü-qədər nəticəsində biz zəfər çala bilməsək və iş yaxşılığa doğru getməsə, gecə düşənədək on fərsəx yol getmək olar. Biz bəndələrin işi çətin deyil. Nəvvab şahzadə isə tezliklə sağ-salamat Azərbaycana öz alişan atasının yanına çatar, oranın dövlətxah adamlarını toplayır, yenidən mülk tutma bayrağını yuxarı qaldırar".

Nəvvab şahzadə ona etiraz edib hirslə dedi: "Belə fərar yolu ilə yaşamaqdan nə çıxar? Bütün aləm deyəcək ki, filan kəs öz kiçik qardaşı tərəfindən məğlub edildi. Mən bu döyüşdə şəhadət şərbəti içməyə razı olaram, amma belə əskiklik yükünü çəkə bilmərəm". O, belə deyib atının yüyənini carçının əlindən çəkdi, nizəsini öz mübarək əlinə götürdü və ilhamlı bir dillə buyurdu: "Şəhid olmaq istəyən hər kəs mənə yoldaşdır, kim ki, canını qorumaq istəyir, qoy Allah ona yar olsun". Belə deyib, məhmizləyərək atını cövlana gətirdi, özünü köpək balığı kimi döyüş atəşi dəryasına atdı və ona doğru bir göz qırpımında "Allahın mərhəmətindən ümidinizi kəsməyin"[399] [ayəsinə] uyğun zəfər küləyi əsdi. Allahın inayəti ilə baş verən maraqlı hadisələrdən biri də budur ki, Vəli xan və təkəli ləşkəri aləm şahzadəsinin qoluna hücum edəndə, məğlub olub dağıdılan İsmayılqulu xanın və şamlı tayfasının qoşunu müxalif ləşkərin arxa tərfində qalmışdı. Onlar bu vəziyyəti seyr edib birləşdilər və müxaliflərin arxa tərəfinə həmlə etdilər. Pərakəndə vəziyyətdə olan şamlı ləşkərinin cəndavəlu[400] Ədhəm xan Türkman onlara müqavimət edə bilməyib məğlub oldu, şamlı tayfası isə bu qələbədən sonra özünü təkəli ləşkərinə çatdırdı. Elə ki, onların gözləri önündə nəvvab şahzadənin özü şəxsən

[399] İfadənin ərəbcəsi: "La təyəsu min ruhi-l-lahi".
[400] Qeyd: Bu istilahın mənası bizə məlum olmadı - Ş.F.

hücuma keçdi, bu sətirlərin müəllifi ali mülazimətdə idi və nəvvab şahzadənin yanında, onun müşahidəsinə görə, təxminən əlli nəfər süvari vardı.

Amma yaxşı müşahidə etdiyimdən, mən bütün məğlub olanların necə qeybdən gələn bir ilhamla döyüşə cumduqlarını görürdüm. Təkəli ləşkərinin tüfəngçiləri tüfəng atan əsnada İlahinin məsləhəti ilə məğlub olunanların içərisindən bir güllə açılıb Vəli xana dəydi. Solaq Hüseynin Bayram xan adlı bir oğlu bundan xəbərdar olub irəli cumdu. Elə ki, gözü hümayun nəvvaba sataşdı, atdan düşdü. Nəvvab şahzadə onun gəlişini zəfərin başlanğıcı bilib, ona dayanmaq imkanı vermədi və səvar olması əmrini verdi, həmçinin at çapıb özünü təkəli döyüşçülərinin mərkəzi hissəsinə çatdırdı. Düşməni məğlubiyyətə uğratdıqdan sonra beyin sarayını qürur buxarı dolduran təkəli ləşkəri tam qalibiyyətlə gəlməkdə idi və güman etmirdi ki, kimsə onların önünə çıxa bilər. Elə ki, zirzibil dəryasının bu köpək balıqları özlərini fəna bəhrində qərq olan və başçılarını isə yaralanan gördülər, bir-birlərindən aralandılar, böyük məğlubiyyətə uğrayıb fərar vadisinə üz tutdular. Ustaclı qorçisi Ümmət bəy Qarxəs Vəli xana bir nizə vurub onu atından yerə saldı, tüfəng yarasından taqətsiz vəziyyətdə olan Vəli xanın başını bədənindən ayırdı. O vəziyyəti müşahidə edən Məhəmməd xan və türkman tayfası hamılıqla bu tərəfə cumdular. Qoşunlar bir-birinə elə yaxınlaşmışdılar ki, meydanın darlığından nizə atmaq imkanı qalmamışdı. Üzbəüz vuruş başlandı. Sayca çox olan döyüşçülərin arasına düşən iqbal əsgərlərinin üzərinə ox yağdırıldı.

Nəvvab şahzadənin qalibiyyəti, türkman və təkəli qoşunlarının məğlubiyyəti:

Allahın izzətinə and olsun ki, bu qalibiyyəti, türkman sətirlərin müəllifi o vaxtadək hələ qorxuya düşməmişdi. Amma vəziyyəi belə görüb bərk vahimələndi, çünki az adam çox adamın arasında qalmışdı. Nəvvab şahzadə və müqəddəs məiyyətin mülazimləri yarım ləhzədən də az bir vaxtda irəli şığıdılar. Ali ləşkərdə olanlar bərk heyrətdə idilər ki, elə bu zaman Tanrı onların indadına çatdı. Allahın köməyi ilə o igidlik meydanının şahsüvarı igidcəsinə həmlə edib atının cilovunu türkman qoluna dəğru yönəltdi, özünü onların mərkəzinə (qəlb) çatdırdı. Oxatanların

bəziləri bir-iki ox atdılar, qalanları isə ox atmağa macal tapmayaraq, kamanlarım yerə tullayıb (dağılışdılar və) fərar etdilər.

Beyt[lər]

Elə yürüdülər süvarilər ki,
Silahlar töküldü əyinlərdəki.
İgidlər cumdular vadiyə sarı.
Qaldırdı torpaqdan qanad-oxları.
Qoşuna rəhbərlik edən şəxslər.
İzzət məqamından yerə düşdülər.[401]

Ali qoşunun mülazimləri, həmçinin ustaclı camaatının, türkman təbəqəsinin və şamlı tayfasının əksər döyüşçüləri təkəli qoşununu təqib etməyə başladılar. Məhəmməd xan Təhmasib Mirzənin çətirinin yanında dayanmışdı. Söhbət yasovulu Ruhullah Zülqədər onu atdan yerə saldı. Əliqulu Sultan Zülqədər Məhəmməd xanın üstünə şığıyıb onu tutdu, tacını, xəncər kəmərini və başqa silahlarını Ruhullah bəy, xəncər kəmərini və başqa yaraqlarını isə Əliqulu Sultan götürdü. Atından yıxılan Təhmasib Mirzəni Mehdiqulu Sultan Talış tutub saxladı. Ustaclı və şamlı tayfa döyüşçüləri isə müxalifləri qılınclayıb, çatdıqları hər kəsi qətl edirdilər.

Qələbə və zəfər nəsimi elə əsdi ki, "Allah yardımından başqa heç bir yardım yoxdur"[402] - ifadəsinə uyğun oldu və həmin qələbə Allah-taalanın məhəbbəti sayəsində nəvvab şahzadənin fələyə ucalan bayrağını dalğalandırdı, o, etdiyi əhdə sadiq qalıb öz şahanə mürüvvətini göstərdi. Ali əmr alan carçılar car çəkdilər ki, bundan belə qoy heç kimi qətl etməsinlər, əsirləri isə diri halda şahzadənin şərafətli nəzərinə yetirib, məğlubiyyətə düçar olanlar

[401] Beytlərin farscası:
Səvaran ze hər su gorizan şodənd,
Səlah əz təne-xiş rizan şodənd.
To guyi dər an vadiye-səhmnak
Ze tire-yəlan pər bəravərd xak.
Bozorgane - ləşkər, sərane-sepah
Bexari fətadənd əz ezz-o cah.
[402] İfadənin ərəbcəsi:
"Və min ən-nəsri ilə mən ində-l-lahi".

təqib olunmasınlar. Basılan türkmanların bir dəstəsi dağa tərəf cumub aradan çıxdı. Ədhəm xan Quma, Sultan Məsum xan Savəyə qaçdı, Ümmət xan Zülqədər isə Şiraza getmək niyyəti ilə bir neçə nəfərlə Yəzdə qədər gedə bildisə də, orada əfşarların əli ilə qətlə yetirildi. Əmir xanın qardaşı İsmayıl Sultan, oğlanları Sultan Murad xan və Gülabı xan, habelə qohumu Şahbudaq Sultan Rum tərəfə getdilər. Sultan Murad xan və Şahbudaq Sultan yoldan qayıtdılar, İsmayıl Sultanla Gülabi xan isə çıxıb getdilər. İsmayıl Sultan sonradan əlahəzrət zilləllah şahın xoşbəxt hökmranlığı zamanı Rumdan geri qayıdıb qızılbaşların yanına gəldi, Gülabi xan isə Əmir xanın damadı Şərəfxan Kürdün yanına - Bitlisə getdi ki, onların hər biri haqqında əlahəzrətin uğurlu hakimiyyətinin şərhi zamanı məlumat veriləcəkdir.

Təkəli tayfası Əbhər səhrasına dağıldı. Əbu Talib Mirzənin lələsi Xəlil bəy və təkəlilərin əksər arif adamları öldürüldülər, ləşkərlərinin sağ qalan döyüşçüləri Həmədana üz tutdular, onların böyük bir hissəsi isə Bağdada getdi. Müseyib xan Şərəfəddinoğlunu İsmayılqulu xanın qardaşı Mürşüdqulu bəy tutub gətirdi. Məğlub olanların çoxusunu o yerlərin rəiyyəti elə atsız və paltarsız qoydu ki, qoy heç kim onların günündə olmasın. Onlar sağ qalmağı qənimət bilib, üryan-üryan nicat yolu ilə getməyə başladılar. Türkman və təkəlilərin dağ peykərli dəvələrin üstünə yüklənmiş və döyüş yerinin yarım fərsəxliyində saxlanılmış bütün malları və yaraqları qazilər tərəfindən tarac edildi. Vəzir və etimadüddövlə olmuş Şah Qəvaməddin Hüseyn İsfahani döyüşdə öldürüldü, amma onun qatili məlum olmadı. Məhəmməd xanı hər tərəfdən araya alıb lənətləməyə başladılar. Yüz nəfərədək adam qılınclarını çəkərək, onu qətl etmək üçün hazır dayanmışdı. Nəvvab şahzadə vaxtında yetişib həmin adamları ondan uzaqlaşdırdı, ona əfv nəzəri saldı və etibarlı adamlara tapşırdı ki, aparıb orduya çatdırsınlar.

Xülasə, qələbədən sonra nəvvab şahzadə özünün xəzinə müşrifi olan Xacə Ağaşah Əbhərini qələbə muştuluğu (moştoloqe-fəth) almaq üçün orduya - Bilqeys* məkanlı ali möhtərəm bibisinin və başqa səltənət xanımlarının yanına yolladı. O, elə bir vaxt orduya gəlib fəth və zəfər xəbərini gətirdi ki, şahzadənin bibisi və başqa qadınlar əvvəllər gəlib-çatan dəhşətli xəbərlərdən oldunca pərişan idilər. Ali orduda şadmanlıq nağaraları çalındı. Novvab şahzadə Allahın lütfünə şükr edib, şövkət və şan-şöhrətlə ali orduya gəldi. Asiman-dan və yerdən bu fəthi münasibətilə "Mübarək olsun"

səsləri gəlir, yer kürəsinin sakinlərinin qulaqlarına və fələklərdə yaşayanlara "Əhsən" və "Afərin" sədaları gedib yetişirdi. Bu böyük qələbənin əldə olunmasında nəvvab şahzadəyə Allahın lütf və inayətindən savayı, heç bir əmirin və müzəffər əsgərin köməyi dəyməmişdi.

Elə ki, ali dövlətxanaya gəlib çatdılar, nəvvab şahzadə hərəmxanaya təşrif apardı. Müqəddəs dudmanın xanımları o müqəddəs zatın sağ-salamat və qələbə ilə dönüşünü şükrlə qarşıladılar, şad və xoşhal oldular. İki gecə və gündüz yatmadıqları üçün bir qədər istirahət etdilər. Günün sonunda eyş-işrət məclisi qurub, görənlərə ibrət dərsi verməkdən ötrü müxaliflərin başlarını sarayın önündə yerə düzdülər.

Həmin gecə söhbət yasovulu Şahverdi bəy Bayburdlunu, bu zəfər xəbərini Təbrizə - İsgəndər şanlı nəvvaba aparmaq üçün yola saldılar. Ertəsi gün də böyük bir məclis qurdular. Nəvvab şahzadə qiymətli daş-qaşlarla örtülmüş taxtda əyləşdi, əmirlər və alişan xanlar, xüsusilə Əliqulu xan, İsmayılqulu xan, Pir Qeyb xan və Əsilməs xan onun sağ-solunda qərar tutdular. Müzəffər dilavərlər və qalib həvaxarlar başları, tacları və əsirləri bir-bir ona göstərdilə r.

Şahzadə əvvəlcə günahsız tifil olan qardaşı Təhmasib Mirzəni öz mehribanlıq ağuşuna aldı, ona öz yanında yer verdi. Sonra ali əmrə görə bağlı əlləri açılan Məhəmməd xan və Müseyib xana oturmaq üçün məclisdə yer verdilər və şahzadə onları əfv etdi. Amma günahkar olan bəzi adamlar mallarının müsadirə olunub götürülməsindən ötrü, mühəssillərə* tapşırıldı, amma bəziləri azad buraxılaraq intiqama məruz qalmadılar. Məhəmməd xanı Əliqulu xana, Müseyib xanı isə İsmayılqulu xana tapşırdılar ki, onları mehman kimi izzət və ehtiramla saxlasınlar. Onlar xəcalət dənizinə qərq olub, etdiklərindən peşiman halda alişan əmirlərin evlərində yaşamağa başladılar. Əliqulu xan Məhəmməd xanla ata-oğul kimi davranırdı. Şamlı oymağından olduğu üçün müxalif ləşkərdə olan Bilməz bəy Asanoğlu Eynallı və nəvvab şahzadənin qorçibaşılığını tərk etmiş Keçəl Mustafa Əfşar cəzalandırıldılar. Onlara inək yağı çəkdilər və neçə gün yağ içində qaldılar, amma ölüm sərhədinə yaxınlaşdıqda Bilməz bəy – İsmayılqulu xan Şamlının şəfaəti və Keçəl Mustafa - Əliqulu xanın xahişi ilə ölümdən xilas oldular.

Bütün kama yetən sultanların fəthlərinə bərabər olan bu məşhur fəthdən sonra nəvvab şahzadə dövlətin paytaxtına doğru yola düşdü və xoşbəxt bir saatda hümayun dövlətxana aləm

şahzadəsinin qədəmlərindən cənnət bağına döndü. Həmin döyüşdə igidlik göstərən və vəfadar olan adamlara bol nəvazişlər olundu, onlar çoxlu ənamlarla mükafatlandırıldılar.

Bir neçə gündən sonra Ədhəm xan Qumdan, Sultan Məsum xan isə Savədən paytaxta gəlib, boyunlarına qılınc qoyaraq, günahkarlar kimi nurlu nəzər önündə dayandılar.

Həmişə Ədhəm xana xüsusi şəfqətlə baxdığından şah (şahzadə?) arabir deyirdi ki, Ədhəm xan o üsyankarlara ikrah hissi ilə qoşulubdur. Buna görə də, onun keçmişdəki sədaqətini və layiqli xidmətini nəzərə aldılar və onu əfv edərək bu beytin məzmununa əməl etdilər.

Beyt

Dəstlarından niyə oldun məhrum?
Niyə düşmənlərə meyl eylərsən?[403]

Amma, hələ bu hadisələr baş verməzdən əvvəl yasaqdan yayınan, qəbahətli işlər görən və Savənin rəiyyəti, aciz adamları və əlinin altındakılarla pis davranan Sultan Məsum xan cəzalandırıldı, onun bütün var-dövləti və mülkləri divana verildi. İraqın ən yaxşı yerlərindən olan Rey ülkası Təbriz əvəzinə Əliqulu xana, Həmədan ülkası Pir Qeyb xan Ustaclıya verildi.

Beyt

Baş şəhərdir və səxavətli şəhər Reydir, Rey,
Bütün aləmdə Reyin bənzəri yoxdur şəksiz.[404]

Başqa ustaclı əmirlərindən Əliqulu xanın qardaşı Hüseynqulu Sultan, Cəfər Sultanın oğlu Allahqulu Sultan Kəngərli, Əhməd Sultan Asayişoğlu, Ənut (Ayqut) Sultanın oğlu Mehdiqulu Sultan Çavuşlu və başqalarına ülka və yaxşı vilayətlər inayət olundu. "Yoldaş" adlanan və ali təvaçibaşı mənsəbində olan

[403] Beytlərin farscası:
Dustan-ra koca koni məhrum?
To ke ba dəşmənan nəzər dari.
[404] Beytlərin farscası:
Mədəne-mərdəmi-yo kane-səxa, şahe-belad
Rey bovəd, Rey ke ço Rey dər həme aləm nəbovəd

İsmayılqulu xana isə, qərara görə divan sənədlərinin və hökmlərin üstündə möhür vurmaq vəzifəsi (möhrdar - Ş.F.) verildi. Onun qardaşı Mürşüdqulu Sultana Fərahan ülkası mərhəmət olundu. Möminlər şəhəri Qum isə Şahqulu Xəlifə Möhrdarın nəvəsi Əliqulu Sultan Quroğluya çatdı. Sabiqdəki kimi Fars əmirülüməralığı Əlixan Şadi Təkəlı Zülqədərə şəfqət olundu. Qərara alındı ki, əzəmətli əmirlər tezliklə ləşkər bəzəyib müzəffər orduya birləşsinlər. Təhmasib Mirzəni bir neçə müddət qalmaqdan ötrü kütvalı Əliqli xanın qohumlarından olan və qicli (?) tayfası tərəfindən qorunan Ələmut qalasına yolladılar.

İt ilinin novruzundan iki-üç ay keçmişdi və Rum ləşkərinin hərəkətə başlamasından isə daha bir iki ay keçirdi ki, nəvvab şahzadə müdam Təbriz qalası barədə fikirləşirdi və narahat idi. O, məmləkətlərdən gələcək ləşkərlərin toplanmasını gözləmədən atının yüyənini Təbriz darüssəltənəsinə doğru çevirdi.

NƏVVAB ŞAHZADƏNİN TƏBRİZ TƏRƏFƏ YÜRÜŞÜ, RUM LƏŞKƏRİNİN GƏLİŞİ, CALAL ORDUSUNUN QARABAĞA GEDİŞİ, ORADAN İRAQA QAYIDIŞI VƏ BAŞ VERƏN BƏZİ HADİSƏLƏRİN ŞƏRHİNİN ZİKRİ

Nəvvab şahzadə iki aya qədər Qəzvin darüssəltənəsində zəruri işləri nizama salmaq və müzəffər ləşkərin vəziyyətini yaxşılaşdırmaqdan ötrü qaldıqdan sonra Təbrizə təşrif buyurdu. O ali himmətli şəxsin bütün fikri-zikri oraya Rum ləşkəri gəlməzdən əvvəl Təbriz qalasını tutmaq və oranı yerlə-yeksan etməyə yönəlmişdi. Bu arada qızılbaş tayfaları gərək öz qeyrət və birliklərini üzə çıxarıb din və dövlət düşmənlərinin dəfini öz qayələri edə biləydilər, bir-biriləri ilə mütəffiq olub bellərinə himmət kəməri bağlayaraq o güclü düşməni əzəydilər. Belə bir niyyətlə ləşkərin şahzadənin istəyincə bir yerə toplanmasından ötrü onlar bir neçə gün Sultaniyyə çəmənliyində gözlədilər. Amma, hələlik qızılbaşların bəxt ulduzu parlamadığmdan, iqbal səadəti onlardan kənar idi. Mirzənin arzuladığı ləşkər yığılması mümkün olmadı, çünki şahzadə ilə yaxşı münasibətələri olan türkman və təkəli tayfaları üzvlərinin bir hissəsi ya öldürüldülmüş, ya da əsir düşmüş, başqaları isə şahzadənin mürüvvət və əfvinə baxmayaraq, dağışılıb ətraf yerlərə səpələnmişdilər.

İsfahan, Yəzd, Əbrkuh, Kirman, Kuh-Giluyə və o ətraflardakı əfşar əmirləri və tayfası Qulu bəy Qorçibaşının xəyanəti və qalaya fərarından sonra qorxuya düşmüşdülər. Onların bəziləri ayaqlarını rahatlıq və əmin - amanlıq ətəyinə yığmışdı və başqalarının da gəlişi gözlənilirdi. Amma vaxtın darlığı dayanıb onlan gözləməyə imkan vermirdi. Buna görə də şahzadə onların qayıdışını və ləşkərə birləşmələrini gözləmədən, ali orduda toplanan on min nəfərlə Sultaniyyə çəmənindən çıxıb köç-köç Təbriz darüssəltənəsi yaxınlığına çatdı, xoşbəxt bir saatda sağ-salamat həmin cənnətməkən yerə yetişdi.

İsgəndər şanlı nəvvab öz səadət nişanlı fərzəndini istiqbal etmək ücün şəhərdən çıxıb bir fərsəx yol gəldi. Əvvəlcə qiymətli şahzadə Əbu Talib Mirzə irəli çıxdı, atından düşdü, öz böyük qardaşı ilə görüşmək səadətinə çatdı. Elə ki, nəvvab şahzadənin gözü İsgəndər şanlı padşahın hümayun çətirinə düşdü, ədəblə atdan yerə düşərək alimiqdar atasının əl-ayağını öpdü. Şahzadə hümayun məiyyətlə birgə şəhəra gəlib Pirə Məhəmməd xan Çavuşlunun mənzilinə düşdü. İsgəndər şanlı nəvvab isə ertəsi gün həmin şərafətli evə təşrif gətirdi, oğluna mehribanlıq göstərdi. Nəvvab şahzadə şahanə bir məclis qurdu, layiqli tərzdə payəndazlar, müxtəlif yeməklər, növbənöv içkilərdən ibarət ziyafət və mehmannəvvazlıq ləvazimatlarını gətirdib "Bəndə və ona məxsus hər şey onun mövlasından ötrüdür"[405] misalına uyğun olaraq atasına qiymətli hədiyyələr təqdim etdi. Amma o həzrət özünün iltifat alicənablığına (hemməte-eltefat) görə hədiyyələrə diqqət yetirmədi, öz səadətli fərzəndi inciməsin deyə çox az hədiyyə ilə kifayətlənib, yerdə qalanını isə ali sərkara verilməsini buyurdu.

Bayram, şadyanalıq, eyş-işrət bitdikdən sonra qalanı tutmağa yollandılar. Həsən padşah türbətinin yanına böyük bir top gətirdilər və topçular top atmağa başladılar.

Qızılbaş qoşunun rumilərin qalasına yürüşü və məqsədə yetə bilməmələri:

Sahibabad səmtindən hücuma keçib, gecə-gündüz qalanı tutmaqdan ötrü çoxlu səylər etdilər. Amma, uruşu və məqsədə rum

[405] İfadənin ərəbcəsi:
"Əl-abd və mə fi yədihi kənə mavləhu".

ləşkərinin sərdarı olan Fərhad paşaya aləm şahzadəsinin təkəli və türkman tayaları üzərində qələbəsi, onun Azərbaycana qayıdışı və Təbriz qalasını ələ keçirmək naminə səyi xəbəri gəlib çatan kimi, o qalanın tutulacağından narahat oldu, Cəfər paşaya kömək və imdad göstərməsindən ötrü sürətlə tez-tələsik Təbrizə doğru üz tutdu. Müzəffər ləşkər qalanı tutmaq üçün əlləşən zaman rum ləşkərinin hərəkətə başlayıb Təbrizə yaxınlaşma xəbəri gəlib çatdı. Qalibiyyət əsgərləri fikir və təlaşa düşdülər. Qalaya yürüşün ləşkərin boş yerə vaxt itirməsinə səbəb olacağını bildiklərindən, bunu məsləhət bilmədilər, çünki yürüş ləvazimatı hələ hazır deyildi. Amma, rəy və tədbir sahibləri vaxtın darlığından yürüşə keçməyə razılıq verdilər. Belə qərara alındı ki, qalaya hər tərəfdən ümumi bir hücum həyata keçirilsin. Əgər [belə olan halda] fəth və zəfərin çöhrəsi murad güzgüsündə görünərsə, ağıllı adamlar və döyüş meydanının igidləri [sonradan] onları heç cür günahlandıra bilməzdilər. Hamının razılaşmadığı bu xam istəklə, istər-istəməz, ertəsi gün sübh tezdən nəvvab şahzadə şərafətli Həsən padşah məscidinə təşrif gətirdi, döyüşçülərin, razılaşdıqları kimi yürüşə başlamaları əmrini verdi. Şüarları sədaqət olan igidlər özlərinin həyat nəqdini qurbanlıq sikkəxanasına gətirərək əllərinə, igidlik nərdivanlarını isə çiyinlərinə götürdülər və hər tərəfdən qalaya üz tutdular.

Amma rumilər əvvəlki günlərdən başlayaraq daha çox ehtiyatkar olmağı nəzərdə tutaraq qala yolunu bir ləhzə də olsun nəzarətsiz qoymurdular. Onlar bürc və barılar üstünə çıxaraq müdafiə olunmağa və döyüşməyə hazır idilər.

Hər tərəfdən tüfəng güllələri yağmağa başladı. Tüfənglərdən çıxan tüstü havanı qap-qara qaraltdı. İgidlərin bu nərələrindən səsləri fələklər qalasınadək gedib çatırdı Ölənlərin və daş, nizə ilə yaralananların çoxluğundan xəndəklər büsbütün dolmuşdu. Qaniçən Bəhram heyrətlə o meydanın bütün döyüşçülərinə baxırdı. Güllə dəyməyən bir dəstə şücaətli əsgər qala ayağına nərdivanlar gətirərək onlan dikəldib divara qalxmağa başladılar. Onlar qala qoruyucularının silahlı müqaviməti ilə rastlaşıb nərdivanın başından xəndəyə dığırlanırdılar. Xülasə müzəffər əsgərlərin coxusu bu yürüşdə aciz qalıb yoxluq (ədəm) yoluna düşdələr və yürüşdən heç nə əldə olunmadı.

Qüvvətli dövlətin övliyaları küskün və pərişan oldular, Təbriz əhalisi iztiraba düşdü. Cinlərin və insanların xaliqi bu göylərə baş vuran qalanın alınmasını xoşbəxt, səadətli və zəfərli əlahəzrət

şəhriyarın (Şah Abbas - Ş.F.) hakimiyyət vaxtına saxladığından, aləm şahzadəsinin və zəfər nişanlı qazilərin heç bir səyi baş tutmadı.

Xülasə, qalanın fəth oluna bilməməsinə görə ləşkərə böyük dərd və ümidsizlik üz verdi. Rum qoşununun şəhərə girməsinə az məsafə qalmışdı. Buna görə də ali əmr olundu ki, şəhərin əhalisi çıxarılıb Qəzvin darüssəltənəsinə aparılsın, ali ordunun əmir və əyanları isə dəvələr və ulaqlarla onlara köməklik etsinlər. Əmrə tabe olan sahibkar və əyanlardan ibarət bir dəstə adam (ərbabe-yəqin) fərmana əməl edib Qəzvinə rəvan oldular, çox miqdar ortabab adam isə şəhər və mahallara elə səpələndilər və şəhər elə boşaldı ki, "evdən başqa diyar yoxdur"[406] deyimi həmin cənnət misal yerin halına münasib oldu, bir gecə-gündüz müddətində həmin cənnətməkan şəhər boşaldı.

Təbrizlilər şəhərdən çıxdıqdan sonra cah-calal ordusu da Urumdul və Zəmmar tərəfə yollandı ki, rum ləşkərinin kəmiyyəti və keyfiyyəti barədə məlumat alandan sonra vaxta münasib və dövlətin istəyinə müfaviq olaraq onlarla hərb etmək üçün geri qayıtsınlar.

Ertəsi gün Fərhad paşa şəhər ətrafına çatıb Çərəndabda yerləşdi, özü ilə gətirdiyi illik azuqəni və silahı qalaya yığdı. Qalaya edilən hücumlardan təngə gələn bir dəstə əsgəri yeniləri ilə əvəz etdi. Qalanı lazımi hər şeylə təmin edərək, ləngimədən geriyə qayıtdı. O, Təbrizdə olduğu bir neçə gün ərzində ali orduya elçi göndərib Əliqulu xana və qızılbaş əmirlərinə sülh barədə məktub çatdırmışdı.

Sülh barədə Fərhad paşanın Əliqulu xana naməsi:

Məzmunu belədir: "O gündən ki, fəsad əhli olan müfsid adamların hərəkətləri nəticəsində padşahlar arasında çaxnaşma (şureş) başlandı, bir neçə min adam həlak olmuşdur. Bizim tərəfimizdən sülh məsələsi ortaya gətiriləndə. Xatırlatmışıq ki, Osmanlı padşahlarının qanununa əsasən ale - osmanın əlinə keçən hər bir yer onun olmalıdır və həmin yerlərdən əl çəkmək bu sülalənin qanunu deyildir, siz isə çalışın ki, yerləriniz əlinizdən çıxmasın. Amma, inadkar qızılbaşlar bununla razılaşmırdılarsa da, hər il bir vilayəti əldən verirdilər və nəhayət onlar İran padşahlarının paytaxtı olan Təbriz şəhərini əldən çıxardılar. Əgər inadkarlıq həmin

[406] İfadənin ərəbcəsi: "Leysə fi-d-dari qeyruhu diyarun".

qaydada davam edərsə, gələn il Ərdəbil və İraqı itirəcəksiniz. Sizlər o xanədanın (səfəvilərin - Ş.F.) yetirdiyi adamlar olduğunuzdan, bizim xeyirxah nəsihətimizi qəbul edib, sülhə razı olun və adlı-sanlı şahzadəni də sülhə rəğbətləndirin. Ona bildirin ki, qızılbaş tayfaları arasında birliyin olmaması və onların vəziyyətinin pisləşməsi rum əhlinə məlum olmuşdur. Buna görə, belə güman edirik ki, İran mülkünü almaq bizə asan bir işdir. O böyük xanədanın rəhbərlik etdiyi dövlətin ağıllı işi bu ola bilər ki, inadkarlıqdan əl çəkib, həzrət xandgar ilə dostluq sazişi bağlasınlar. Onlar gərək nə yolla olursa-olsun özlərindən dəstluq əlaməti zahirə çıxarsınlar ki, bu tərəfin xeyirli düşüncəsi olan adamları da dotluğa razı olsunlar. Biz gərək Allah qullarının və əhalinin asayişi naminə xeyirxahlıq nümayiş etdirib sülh müamiləsini qüvvətləndirək ki, bundan sonra dava-dalaş və inadkarlıq tərk olunsun".

Fərhad paşanın naməsi çatdıqda qürurlu və cahil olan bəzi əmirlər dedilər: "Belə söhbətdən Fərhad paşanın mətləbi budur ki, əgər rum ləşkəri geri qayıtsa, qızılbaşlar Təbriz qalasına hücum etməsinlər və qala bu tədbirin sayəsində onların əllərində qalsın. İndi biz gərək fürsəti əldən verməyək və onlar geri qayıdanda qala ayağına gedib, onu ələ keçirməyə cəhd edək. [Təbriz] qalasının fəthindən sonra, rumilərin qalalarda daldalandıqları qış fəslində onların vilayətlərinə hücuma keçib, o diyara qətl-qarət atəşi vuraq".

Qızılbaş tayfaları arasında razılaşmanın və biri-birinə ehtiramın olmamasından incik qalan nəvvab şahzadə məsələyə tədbir və səbir gözü ilə baxıb dedi: "O zamandan bəri ki, rumilər üzümüzə dava-dalaş qapılarını açmış və bizim hər il bir məmləkətimiz əldən getmişdir, qızılbaş tayfaları bir-birilə nifaqda olmuşlar. Onlar rumilərin fəth etdikləri bircə yeri belə geri qaytara bilməmişlər. Əgər bu minval ilə bir-iki il də keçsə, bu dövlətdə tam zəiflik (fotur) olacaqdır" O, gələcəyi nəzərə alıb inadkarlığa yol verməyərək əmirlərin məsləhətinin əksinə getdi. Elçilərlə dəstcasına danışdı, cavab məktubu yazdı, sülh sazişinə razı oldu, amma belə şərt qoydu: "Təbriz vilayəti qızılbaşların qədim gurxanəsi (gor evi - Ş.F.) olduğundan, rumilərin o şəhərdən ötrü gücləri çatınca vuruşacaqlarına baxmayaraq, biz də bacardığımız qədər çalışacağıq ki, onlar oradan əl çəksinlər".

Fərhad paşa yenidən adam yollayıb izhar etdi: "Qoy kamkar şahzadələrdən birini dostluğumuzun möhkəmləndirilməsi naminə xandgarın hüzuruna göndərsinlər ki, o, padşahın başqa

fərzəndləri silkinə qatılsın. Əgər belə olarsa mümkündür ki, Təbriz vilayətini həmin şahzadəyə verələr, yox əgər belə olmazsa, sizin təklifiniz qəbul olunmayacaq".

Bu məsələ ağla sığdığı üçün nəvvab şahzadə bir şahzadənin gönlərilməsinə razılıq verdi, Əliqulu xan Fəthoğlu da bu xüsusdan onunla həmfikir oldu. Qərara aldılar ki, nəvvab şahzadənin lələsi Fəthoğlu olan on kiçik oğlunu - sultan Heydər Mirzəni xandgarın yanına yollasmlar. Baxmayaraq ki, bu qərar şahın və ordunun istəyinə müfaviq deyildi, amma o vaxtlarda şiələrin vəziyyətlərinin mühafizəsi və pərişanlığı son həddə çatan başqa rəiyyətin asayişi naminə buna razılıq verildi.

Elçi qayıtdıqda, Fərhad paşa onlan öyrəndi ki, nəvvab şahzadə qızılbaşların əks rəylərinə baxmayaraq, xondgarla dostluq və birlik məqamına gəlib çatmışdır. O həzrətin hərəkətini bəyənib belə dedi: "Kaş ki, Təbriz fəth olunmazdan əvvəl bu məqama gələydilər".

Fərhad paşa işin belə gedişini özünə iftixar sərmayəsi zənn edib düşünürdü ki, məhz onun vasitəsilə müqəddəs Səfəvi xanədanının bir şahzadəsi rum padşahının xidmətində qalaraq ale-Osman şahlarının ucalığını və əzmini daha da artıracaqdır. O, bu məsələdə israr edib mötəbər rum ağalarından olan Vəli ağa Çaşnigirbaşını alimiqdar şahzadənin gətirilməsi və sülh bağlanmasından ötrü nəvvab şahzadənin xidmətinə yolladı.

Vəli ağa Gəncə şəhərində ali saraya gəlib elçi olduğunu bəyan etdi. Onu Əliqulu xanın evində yerləşdirərək izzət və ehtiram göstərdilər. Fərhad paşa Ərzruma qayıdıb orada qışladı. O, elçinin geri qayıdışını və şahzadənin gəlişini gözləyirdi. Fərhad paşa dəfələrlə məktub yazıb belə göstəriş verdi: "Gələn il rum ləşkərinin yürüşü başlamazdan əvvəl elə olmalıdır ki, elçi dostluq naməsi, töfhə və hədiyyələrlə birgə adlı-sanlı şahzadəni də özü ilə gətirsin ki, biz ali padşahın dərgahına gedərək sülh danışıqlarını qüvvətləndirək və çalışaq ki, həzrət xandgar Təbriz vilayətini təhvil versin".

Nəvvab şahzadə, yuxarıda qeyd olunduğu kimi, faydalı sülh işinə meyilli olduğundan belə qərara gəldi ki, İraqa gedib orada şahzadənin yar-yarağının və əşyalarının tədarükünü görsün və onu sədaqət izhar edən namə ilə məqsədə doğru rəvan etsin.

O, özünün ali sərkarına tapşırılan və cahanın pak, İranınsa məşhur şəhərlərindən olan İsfahanı görməyə çox meyil edirdi. Buna

görə də oraya yollanmaq istədi. İstədi ki, o ürəkaçan yerdə bir neçə gün eyş-işrətə qurşanıb özünü həyat qayğılarından azad etsin. İstədi ki, əfşar və zülqədar tayfalarının iqtidarı altında olan Fars, Kirman, Yəzd və ətraf yerlərin işlərini nizama salsın, çünki həmin yerlərdə hər cür pozğun (moxtəll) əməllər baş verir, həmin mahalların özlərindən razı hakimləri öz başlarını özbaşınalıq və üsyan yaxasından yuxarı qaldırmışlar.

O, İmamqulu xanı gözəl xələtlərlə nəvazişləndirib Qarabağın bütün işlərinin icrasını onun öhdəsinə qoydu. Azərbaycanla bağlı başqa məsələlərin icrası isə faydalı sülh sazişlərinin imzanlanmasına qədər saxlanıldı ki, sonradan din və dövlətin razılığı ilə həyata keçirilsin. Beləliklə, o, Gəncə şəhərindən çıxaraq Əbu Şəhmə adlı bir yerdə dayandı. Həmin əsnada isə, şəbədbaz fələyin kələyi sahəsində o kamkar şahzadə şəhid edildi.

İDBAR ADAMLARIN SƏRKƏRDƏSİ OLAN DƏLLƏK XUDAVERDİNİN SATQINLIQ ÜLGÜCÜ İLƏ, HABELƏ ULDUZLARIN VƏ FƏLƏKLƏRİN TƏSİRİ SAYƏSİNDƏ DÖVLƏT VƏ KAMRANLIQ ÇƏMƏNİNİN TƏZƏ - TƏR NİHALI OLAN NƏVVAB ŞAHZADƏNİN ŞƏHADƏTİNİN ZİKRİ

Cəfakar asimanın (sepehr) adəti və kəcrəftar fələyin hökmü həmişə belə olub və bclə olmaqda da davam edir: İzzət çayından [su içib] göyə ucalan hər bir murad ağacı arzu meyvəsi ilə barlanan vaxt, tezliklə dövran hadisələrinin bidad küləyindən [sərsər] solur; Dövlət gəlini ilə həmağuşluq edən hər şövkətli adam aqibətdə dünya hadisələrinin uğursuz gedişi nəticəsində əvvəlcə dövlət əlininə öz nəvaziş əlini (dəste etenaq) uzadıb onunla qucaqlaşır, sonra isə ruzigar hadisələrinin məkri üzündən [gəlinə] üç dəfə tələq deyərək ondan ayrılır və əbədi ehtiyaca (herman) giriftar olur.

Bu məqalə Gəncə yaxınlığında qəzanın buyruğu ilə nəvvab şahzadənin faciəli şəhadəti barəsindədir. Həmin ibratamiz və qəribə hadisə belə olmuşdur: Cahanbani şahzadə İraqa getməyi qərara aldığından Gəncədən köçmək təbilini çalaraq, Bərəncərd çeşməsində dayandı. Doqquz yüz doxsan dördüncü it ili sənəsində, zilhiccətül - həram ayının iyirmi ikisində, (miladi 1586, 4 dekabr) gecə vaxtı cahanbani şahzadə Əliqulu xanın mənzilinə təşrif apardı. Onlar gecə yarısınadək qırmızı şərab (şərabe-ərğvani) içməklə işrət və söhbət

məclisi qurdular. Şahzadə gecənin yarısında onun evindən məst halda çıxdı, xidmətində duran bir neçə nəfər mülazimləri və qulamları ilə birlikdə ali dövlətxanaya təşrif apardı.

Şahzadə hərəmxanaya getmək istəyirdi, amma o səltənət və kamranlıq bağının sərvinin şəhid olacağı, qəza lövhəsində qədər qələmi ilə yazıldığıqdan, hadisənin əli o həzrətin yaxasından tutmuşdu. Buna görə də hadisənin axırı onu xüsusi ov quşlarının (cəvareh) bağlandığı quşxana olan alaçığa (aləçuq) çəkib apardı. Silahını belinə bağlamışdı. O, orada yorğan-döşək istəyib istirahət yatağında yuxuya getdi.

Napak bir dəllək olan Xudaverdi bic (məchulәl-ab) və yetim bir oğlan idi, Qəzvin darüssəltəsində dəlləklik edirdi. O hələ uşaq ikən adlı-sanlı şahzadənin xidmətinə gəlmişdi. Onlar biri-digərinə oğlanlar kimi ülfət bağladıqları üçün dəlləyin xidməti şahın diqqətini cəlb etmişdi. Xudaverdi şahzadənin hüzurunda böyümüş və ona tam məhrəm adam olmuşdu. Ona ali şəfqət olunduğundan məqamı mötəbər və ali idi. Dövlətləndiyindən, xatiri əmirlərin və dövlət başçılarının yanında böyük idi. Amma daxilində xəbislik və pis niyyət olduğundan elə qəbahətli bir əməl etdi ki, səltənət bağında bəxtinin səmərəsi nəticəsində ucalmaqda olan kamranlıq çəməninin o təzə nihalını öldürdü. Adlı-sanlı şahzadə alaçığa girib, böyrünü istirahət yatağına uzadan vaxt dəllək Xudaverdi çölə çıxıb, həmişə keşikdə dayanan ali mülazimlərə dedi ki, ali nəvvab bir nəfərlə (şahed) tənha qalmaq istəyir, amma sizdən utanır. Dəllək beləliklə onları həmin yerdən uzaqlaşdırdı. Keşikçilər bu sözdən şübhələnmədikləri üçün onun sözlərinə qulaq asıb oradan aralandılar. O çirkin və nəməkharam dəllək isə, şahzadənin yatdığı otağı keşikçilərdən xali görüb, o şahlıq bağçasının sərv ağacının belindən xəncərini açdı, sərxoşluq yuxusuna gedən şahzadənin qarnına və böyrünə bir neçə zərbə vurdu onun işini bitirdiyindən xatircəm oldu və oradan çıxdı.

Xidmətçilərdən öz vəzifəsinə görə şahzadənin xidmətinə gələn Fəttah adlı bir oğlan alaçığa daxil olub gördü ki nəvvab şahzadə qan dəryasında çabalayaraq öz dərdli sinəsindən soyuq nəfəs çıxarmaqdadır. Tez çölə çıxıb fəryad etdi. Keşikdə dayanan qulam və mülazimlər məsələdən xəbər tutdularsa da, onların heç birinin alaçığa girməyə cürəti olmadı. Zeynal bəy Şərbətdar alaçığa daxil olaraq gördü ki, kamranlıq bağının həmin sərvi ruzigar hadisələrinin küləyi nəticəsində məhv olmuşdur. Cərrah və

həkimləri çağırdılarsa da, müalicənin ona xeyri olmadığından az bir ləhzə içində şahzadənin şərafətli ruhunun quşu övci-əlaya pərvaz etdi. O ali yerdə olanlar bu mənanı belə ifadə edirdilər:

Beyt:

Sənin, əlbəttə, yerin ərşdədir, eyb olsun
Sənə ki, torpağın üstdə keçirirsən ömrü.[407]

O zamanlar dövlətin sütunlarında olan Əliqulu xana və İsmayılqulu xana adam yollayıb onları vəziyyətdən xəbərdar etdilər. Sübh tezdən oradan köç edəcəkləri qərara alınmış olduğundan, döyüşçülərin əksəri məsələdən hali olmadığı üçün çıxıb getdilər, amma bu xəbər tezliklə yayıldı. İsgəndər şanlı nəvvab və səltənət qadınları fəryad və fəğan etməyə başladılar. Cavan və qocanın nalə və qışqırıq səsləri göyə ucaldı. Əzəmətli əmirlər Əliqulu xanın evinə toplaşıb belə qərara gəldilər ki, İsgəndər şanlı nəvvabın sarayına yollansınlar, şahzadənin təziyəsini başa çatdırsınlar. Şahzadəni aparmaqdan ötrü Ədhəm xan Türkmana tapşırıq verildi. Ədhəm xan mirzənin xas qulamları ilə birlikdə qanlı paltarlı o həzrəti kocavəyə qoydu. Kəcavəni əllərində tutan qorçilər sinələrini açıb kökslərini cıran iki-üç min adamla birlikdə növhə deyə-deyə orduya gəlib çatdılar. Əzəmətli əmirlər onları qarşıladılar. Onların gözləri təzə-tər dövlət və iqbal çəməninin məhv olmuş nihalına sataşanda, öz taclarını və baş örtüklərini çıxarıb yerə çırpdılar, fəryadlarını asimana ucaltdılar.

Xülasə, əkbər gününün[408] ah-naləsi bütün xalqlar arasında ərşə çıxdı, göydəkilər yerdəkilərin dərdinə şərik olub saç yolmağa başladılar. Onun cəsədi hərəmxanaya bitişik olan xeyməyə aparıldıqda İsgəndər şanlı nəvvab Yəqub[409] kimi ağlaya-ağlaya həmin hüznlər evinə (beytüləhzan) daxil oldu. İzzət həromxanasının - (sərapərdə) matomo qərq olan xanımları dırnaqları ilə sifətlərini cırıb, öz zəif əlləri ilə saç-larını yola-yola nəşin üstünə toplaşdılar, növhə deməyə, ağlamağa və iztirab hissi keçirməyo (biqərari)

[407] Beytin farscası:
Ərşəst nəşiməne-to, şənnət bada
K-ayi və moqime xotteye-xak şəvi.
[408] Qeyd: Burada məhşər günü nəzərdə tutulur - Ş.F.
[409] Yusif peyğəmbərin atası Yəqub nəzərdə tutulur - Ş.F.

başladılar. Sonra şahzadəni məğsələ[3] apardılar, sədrlər və üləmalar şəriət qayda-qanunu üzrə qüsldən sonra onu kəfənlədilər. Bir dəstə adama tapşırıq verildi ki, nəşi Ərdəbil darülirşadına aparıb müqəddəs rövzədə, əzəmətli əcdadının yanıda dəfn etsinlər. Qəribə hadisələrdəndir ki, gecə yarısı o məzlum şahzadənin qanı çirkin Xudaverdinin yaxasından çəkə-çəkə nəşin üstünə gətirdi.

Bu hadisənin şərhi qısa şəkildə belədir: Belə vəziyyət baş verəndən sonra şahzadənin qədrini bilməyən o nacins haramzadə öz evinə gedib, təxminən əlli-altmış tümən dəyəridə olan bir kisə əşrəfi qızılını guya "nəvvab mirzə şadlıq məclisi üçün istiyir" bəhanəsilə götürüb, İsmayılqulu xana bütün əzəmətli əmirlərdən daha yaxın olduğundan, piyada və tənha halda onun evinə getdi. İsmayılqulu xan bir dəstə öz həmsöhbəti ilə söhbət etməkdəykən dəllək Xudaverdi pərişan halda məclisə daxil oldu. Onlar rəsmi əhvalpərsanlıqdan sonra onun belə vaxtsız-vədəsiz gəlişinin səbəbini xəbər aldıqda söylədi ki, böyük bir günah etmişəm və mən tərəfdən böyük bir xəta baş vermişdir. İndi mənə nə məsləhət edirsiniz?

Bu yaramaz (şəni) əməlin və əcaib qəziyyənin təhqiqindən sonra [Xudaverdi İsmayılqulu xandan] kömək istədi. Mən o nacovanmərdə (qorxağa - Ş.F.) nə deyim ki, o, elə o vaxt icazə almadan [Xudaverdinin] qanını axıtmadı, aləmin torpağını (külünü!) öz başına tökmədi?

Xudaverdi o qəribə hekayəti izhar edəndən sonra onu atası Piri bəy Eynallıdan sonra nəvvab şahzadənin eşikağasıbaşısı olan Rzaqulu bəyə tapşırdılar ki, onu qoruyub mənzilə çatdırsın. Rzaqulu bəy onu bir sandığa qoyub o sandığı paltar sandıqları arasına yüklədi və mənzilə gətirdi. Məsləhətinə müfaviq olaraq İsmayılqulu xan dəlləyin gecə gizlicə meşəyə aparılıb qətl olunmasını öz iki mülaziminə tapşırdı.

Mülazimlər əmrə tabe olub onu meşəyə apardılar, bir-iki zərbə ilə yaraladılar. Dəlləyin yanındakı qızılların bir hissəsinə yiyələnmək istəyi onlara onun işini bitirmək imkanı vermədi və o özünü qamışlıqdakı suyun içinə atdı. Aldığı yaralar təsadüfən öldürücü olmadığından ona clo bir təsir etməmişdi. Mülazimlor çıxıb getdikdən sonra dəllək qamışlıqdan çıxdı, soyuğun bərk təsirindən özünü taqətsiz halda uzaqdan gördüyü atəşin yanına çatdırdı. Həmin atəş də təsadüfən şahzadənin xeyməsində yanmaqda olan məşəl idi. Şahzadənin nəşinin başı üzərində dayanan mülazimlər məşəlin işığında onu görüb tanıdılar, tutdular.

Xudaverdinin nəzəri mərhum şahzadənin nəşinə dəyəndə gözlərindən peşmanlıq yaşları axmağa başladı. Ondan soruşdular: "Sən şahzadə ilə çox yaxın bir adam idin, nə üçün bu işi etdin?" Cavab verdi ki, bəzi adamlar məni öyrədib bol vədlər verdilər, ona qarşı qaldırdılar, amma vədə xilaf çıxdılar, mən də öz ağılsızlığımdan aldanıb bu əməli etdim.

Amma hansı adamların onu öyrətdiklərini demədi. Sübh tezdən dəlləyin tutulması xəbəri İsgəndər şanlı nəvvaba çatdı. Əvvəlcə onu əmirlərin məclisinə gətirdilər, sorğu-suala tutdular. Əmirlərin əmrinə görə hərzə-hərzə danışmamasından və sədaqətli, xeyirxah adamlara iftira atmamasından ötrü onun dilinə çuvalduz soxdular. İsgəndər şanlı nəvvab demişdi ki, mən onu öz əllərimlə öldürəcəyəm. Onu o şərafətli adamın yanına gətirdilər, amma dəlləkdə danışıq qüdrəti və nitq qüvvəti qalmamışdı. İsgəndər şanlı nəvvab xəncərlə onun qarnına bir neçə zərbə vurdu. Sonra onun napak cəsədini ordubazara aparıb yandırdılar və külünü fəna küləyinə verdilər. Sübhanallah! İnsan övladı necə də şeytan hiyləsinə uyub öz əql yolundan kənara çıxır, öz savabsız işləri ilə özünü dünya və axirətin köməyindən məhrum edir. Təfəkkür dünyasının səyyahları gecələr belə fikirlər dənizinə baş vurub bu iyrənc əməlin səbəbi barədə düşünürdülərsə də, onların fikir gəmiləri məqsəd sahilinə yetişmirdi. Tədbir aləminin uzaqgörən adamları özlərinin xəyal peyklərini hər tərəfə qovdularsa da, bu əməlin məğzindən heç bir məlumat əldə etmədilər. Xülasə bütün iddiaların çöhrəsi xəyal pərdəsindən görünə bilmədi. Hər saat heyrət artmaqda idi, amma ürəklərə şəfa verə biləcək səbəb zahir olmadı. Bu barədə düşüncə əhli tərəfindən ixtilaflı fikirlər söylənilmişdir, lakin həmin fikirlərə öz münasibətini bildirmək bu əsəri yazan üçün (vaqiənevis) zəruri iş olduğuna görə hadisə barədə fikir söyləməyə çalışacaqdır. İzzət büsatına çatmış bəzi adamların sözündən belə məlum oldu ki, dəlləkXudaverdinin sahibcamal bir gözəl oğlan olan Rzaqulu Eynallı ilə bərk eşqbazlıq peşəsi vardı və o hərdən - bir ali məclisdəki zarafatlı söhbətlər zamanı öz sözlərini deməyə cürət edir, nəvvab şahzadə də öz ilhamının çiçəklənən vaxtlarında dəlləyin iztirabına səbəb olan öz açıq-saçıq sözlərini məclis əhlinə söyləyirdi. Nəvvab şahzadənin də onunla xəlvətdə qalması barədə deyilən sözləri eşidən Xudaverdi həmişə deyirdi ki, səndən intiqam alacağam. Mirzə də bu sözlərin zarafatla deyildiyini güman edirdi.

Nəhayət eşq və məhəbbət qeyrəti onun canına doldu və [Xudaverdi] belə bir böyük hadisənin baş verməsinə cəsarət etdi.

Bəziləri isə deyirdilər ki, nəvvab şahzadənin Əliqulu xana olan açıq-aşkar şəfqəti sayəsində onu böyük xanlar xanı vəzifəsinə layiq görməsi İsmayılqulu xanın paxıllığına və həsədinə səbəb olmuşdu, buna görə də o, Əliqulu xanı məyus etmək üçün o cavan şahzadənin qətlini təşkil edərək dəllək Xudaverdini bu işə təhrik elədi. Bunun sübutu kimi dəlləyin törətdiyi hadisədən sonra İsmayılqulu xanın evinə getməsini və xanın onu gizlətdiyini misal gətirdilər. Başqa adamlar isə belə güman edirdilər: Nəvvab şahzadənin Mürtəzaqulu xanın Damğandan orduya gətirilməsi barədə ona məktub yollaması gecə-gündüz mirzə ilə müsahib olan Əliqulu xanın İsmayılqulu xanın və Məhəmmədi Sarısolağın belə güman etmələrinə səbəb oldu ki, məbada mirzənin onlara iltifatsızlığı baş versin və onları özündən uzaqlaşdırsın, elə buna görə də onu qabaqladılar. Bir-biriləri ilə qərara gəldilər və Xudaverdiyə bu hadisəni törətməyi tapşırdılar. Onlar belə düşünürdülər ki, həmin hadisədən sonra bir-biriləri arasındakı ziddiyyət və ayrılıq aradan çıxacaq, birləşərək bir daha düşmənçilik etməyəcəklər.

İsmayılqulu xan Əliqulu xanın vəkil olması ilə razılaşıb onunla dost olduğu üçün belə böyük bir vaqiə asanlıqla həyata keçirildi. Onlar Xudaverdini danışmağa qoymadılar, çünki azyaşlı uşaq olan Əbu Talib Mirzəni o həzrətin yerinə qoyub səltənəti öz əllərinə keçirmək istəyirdilər. Bu sətirlərin müəllifi nəvvab şahzadənin vəziri Mirzə Lütfullah Şirazidən eşitdi ki, nəvvab nıirzə xanlara lütfkarlıq göstərmir, onlardan şübhələnirdi. O, Gəncədən çıxmaqda olduğumuz iki günün birində məni hamama çağırıb dedi: "Birmirəm o iki cavanmərd adamın[410] yanında nə günahım var ki, mənim qanıma susamışlar. Onlar şərab məclisində mənim üstümə qışqırırlar, yəni məni qətl etmək qəsdindədirlər".

O vaxtlarda Xudaverdi şahzadənin başını qırxırdı və bü söhbəti eşidirdi. Ola bilsin ki, o özünün cəhalət və nadanlığı üzündən qətli qərarlaşdırmış, onlar həmin məqsədlə Xudaverdini aldatmışlar, o, aqibətsiz nadan da əql məsləkindən uzaqlaşıb əmirlərin təlimi ilə bu işə əməl etmişdir. Ağıla sığmır ki, o həzrətin himayəsi ilə tərbiyələnən o iki əmir mülazimət və nökərlik

[410] İsmayılqulu xan və Əliqulu xan nəzərdə tutulur - Ş.F.

mərtəbəsindən uca əyalət və xanlıq mərtəbəsinə yetişib dövlətin xas sütunlarından olduqları halda, o həzrətin zəhmətini qanmayalar və aləmin sərmayəsi olan elə bir qiymətli gövhəri havayı yerə əldən verələr. Görəsən onlar niyə belə haramzadalıqdan çəkinməmiş, əql mürşidi və düşüncə pirindən icazə almamış, özlərini dünyada və axirətdə bədnam etmiş, elə qəbahətli bir əmələ bais olmuşlar?

Hamı bu barədə düşündüyündən bu sətirlərin müəllifi uzaq-yaxın adamlardan eşitdiyini qələmə aldı. Nəticədə isə həmin əmirlər bu vaqiədən sonra bir il də yaşamadılar. Həqiqi qisasçı olan Allah-təala əlahəzrət zilləllah şaha kömək etdi ki, tezliklə müqəddəs Məşhəddən qayıtdıqları vaxt o, həmin idbar adamların cəzalarını versin. Bu barədə öz məqamında məlumat veriləcəkdir.

SƏADƏTLİ ƏBU TALİB MİRZƏNİN VƏLİƏHD TƏYİN OLUNMASI, ƏRZ VƏ SƏMA XALİQİNİN QƏZAVÜ QƏDƏRİ NƏTİCƏSİNDƏ ONUN ƏHVALININ POZULMASI

Günahları bağışlanmış mərhum şahzadənin başına gələn o böyük hadisədən sonra İsgəndər şanlı nəvvab əzəmətli əmirləri toplayıb öz ürəkaçan və dürlər saçan nəsihətləri ilə onları nəsihətləndirdi, oymaqlar arasında düşmənçilik və nifaqın dəf olunması, onların bir-biriləri ilə razılığa gəlmələri və birləşmələri, xüsusilə şamlı-ustaclı və türkman-təkəli tayfaları arasındakı inadkarlığın aradan qaldırılması üçün xeyli söhbətlər apardı. O istəyirdi ki, özü şəxsən səltənət və dövlət işlərini yoluna qoysun. Həmin vaxtlarda elan edilməsi münasib olmayan bəzi daxili düşüncə və mülahizələrinə görə İsgəndər şanlı nəvvab özünün heç bir fərzəndini və adlı-sanlı şahzadələri ali divanın başçısı və vəliəhd təyin etmək istəmirdi, rəhmətlik nəvvabdan sonra böyük övladı olan əlahəzrət zilləllah isə o zaman Xorasanda yaşayırdı.

O həzrətin xidmətində dayanan Mürşidqulu xan və Xorasan əmirlərinin isə İraq əmirləri ilə ixtilafları mövcud idi. Əbutalib Mirzə və Təhmasib Mirzə azyaşlı olduqlarından, o vaxtlarda böyük qədir-qiymətli vəliəhd rütbəsinə hələ layiq deyildilər. Həm də ki, türkman və təkəlilər tərəfindən tərbiyət olunan Təhmasib Mirzə o əsnada Ələmut qalasında ustaclı tayfasının həbsində idi. Arama, [Allah-təalahın] əzəli iradəsi və əbədi təqdiri ilə yaxın vaxtlarda Xorasan üfüqündə tülu edəsi dövlət və cahangirlik günəşi əlahəzrət zilləllah şaha doğru yönəldiyindən, tezliklə İran mülkünün ərazisi

onun ədalət nuru ilə işıqlanacaq, iranlıların arasındakı qarmaqarışıqlıq və onların tabeliyindəki adamların vəziyyətlərinin yaxşılaşdırılması mülkü bəzəyən o həzrətin rəy və tədbiri ilə həll olunacaqdır.

Buna görə də, zəmanə qeyb aləmindəki işgörmələrin yardımı ilə [Abbasın gələcək müqəddaratı] üçün şərait yaratmaqdaydı.

[Misra]

Fikri-vaiz başqa cürdür eşqi-aşiq haşqa cür.[411]

Amma dövr aqillərinin istəkləri onların mətləblərinə əks nəticə verməkdəydi. Xülasə, dövlətin ixtiyar sahibli şəxsləri olan saray əmirləri İsgəndər şanlı nəvvabın rəyinə müxalif çıxıb bir-biriləri ilə belə məsləhətləşdilər ki, anasının yanında tərbiyə almaqda olan Əbutalib Mirzəni rəhmətlik nəvvabın əvəzinə vəliəhd etsinlər, səltənət və hökmranlıq işlərinin ipini özlərinin ixtiyar və iqtidar əllərinə alsınlar. Amma, yuxarıda zikr olunduğu kimi, İsgəndər şanlı nəvvab həmin məsələnin rəsmiləşməsini istəmir, onun təxirə salınmasını məsləhət görürdü. O, ilham bəyanlı dili ilə deyirdi ki, özünün şəhid fərzəndinin - həmsöhbət olduğu cahil qızılbaşların əli ilə başına gələn hadisədən sonra heç bir başqa fərzəndinin özbaşına hərəkəti ilə razılaşmayacaq və qızılbaşların şahzadələrin yanına azad gəliş-gediş qapılarını bağlayacaqdır. Saray əmirləri bir-biri ilə danışıb, o vaxtlarda müstovfiül-məmalik olan Mirzə Məhəmmədi özlərinə nümayəndə seçərək padşaha belə ərz etdilər: "Ali padşahın əmri ilə səltənət və padşahlıq işlərini bir neçə il icra edən nəvvab şahzadənin iqtidar və etibarı bütün ətrafa yayıldığından, onun başına gələn o mədlıuş hadisənin xəbəri artıq hər yana gedib çatmışdı. Əgər indi kamkar şahzadələrdən birinin cülus etmə xəbəri tezliklə sərhədlərə gedib çatmazsa, hər yerdə tam qarmaqarışıqlıq başlayacaqdır ki, bu da dinə və dövlətə nöqsan dəyməklə nəticələnəcəkdir. Məğlubedilməz dövlətin məsləhəti belədir ki, səltənətə və şahlığa ləyaqəti olan şahzadələrin birinin təcili olaraq vəliəhdlik rütbəsi ilə şərəfləndirsinlər. Üstəlik də onun

[411] Misranın farscası:
Fekre-vaez digər-o sevdaye-aşeq digərəst.

ixtiyar və iqtidar dərəcəsini rəhmətlik şahzadəyə nisbətən daha da artırılsınlar ki, onun cülusu xəbəri tez bir vaxtda sərhədlərə gedib çatsın. Böyük fərzənd olan ali qədirli, fələk iqtidarlı şahzadə, yəni həzrət zilləllah şah isə Xorasandadır. Buna görə də əmirlər o həzrət mülkünü "Xorasan sultanı" adlandırmışlar və onun məiyyətində dayanıb həmin məmləkəti qorumaqdadırlar. Amma, Əbu Talib Mirzə isə padşahın məiyyətindədir və onu bu adlı-sanlı rütbə ilə müşərrəf edin".

Mirzə Məhəmməd hiyləgər bir lətafətlə sözlərinin başlanğıcını ağlabatan dəlillər ziynəti ilə bəzəyib, həqiqətən də İsgəndər şanlı nəvvaba təsir etdi. İsgəndər şanlı nəvvab bütün əmirlərin və əyanların bu mətləbin tərəfdarı olduqlarını görüb öz razılıq başını ikrah hissi ilə tərpətdi. Dövlət işlərinin nizama düşməsində həmin əmirlərin birinci səhvi bu idi ki, onlar qətiyyən bu işin aqibətini fikirləşmədilər. Onların bəsirət gözləri əlahəzrət zilləllah şahın dövlət və kamranlıq nurunu müşahidə etməkdən məhrum idi. Onlar görə bilmirdilər ki, Xorasanın şərqindən doğub bütün İraq və Azərbaycan ərazilərini işığa qərq edərsə, qızılbaş tayfalarınınsa əlindən itaətdən başqa heç nə gəlməyəcəkdir. Onlar belə düşünürdülər ki, Xorasan əmirləri, xüsusilə də həmin vilayətdə mütləq hakim (hakim il-əl-etlaq) müqəddəs Məşhəddəsə əlahəzrətin lələsi və rüknussəltənəsi olan Mürşüdqulu xan özünün Xorasandakı ixtiyar və iqtidarını əldən verib İraqa gəlməyəcək, əlahəzrət şahzadəni özünə sərmayə edərək Xorasan səltənətinin gəlinini onun gözləri önündə cilvələndirəcək, onu Xorasandan digər dövlətlər üzərinə yürüş etməyə qoymayacaqdır. Lakin onlar anlamadılar ki, [Abbas Mirzənin] aləmi işıqlandıran hümayun şüaları önündə başqa adamın nursuz çırağı xilafət və cahandarlıq üzərinə necə işıq sala bilər? [Onlar görə bilmirdilər ki,] zülməti əridən günəş nurları müqabilində bir işıldaquş (kerme-şəbtab) nə təhər işıldayıb nur sala bilər? [Onlar bilmirdilər ki,] günəşdən daha parlaq (əzhər min əş-şəms) olan o [şahzadənin] humayun məiyyətinin günəş misallı ayparası, yəni ən yüksəklikdə belə ov ovlamağı özünə aşağı bilən büləndpərvaz bir şahin quşu (şahbaz) axı alacəhrə (səvə) şikarına necə tamah sala bilər?

Beyt:

Kiçik çayda üzər kiçik balıqlar,

Nəhəng balığının[412] öz ümmanı var.[413]

Xülasə, öz rəylərinə qapılan əmirlər İsgəndər şanlı nəvvabdan icazə aldıqdan sonra bu işi tez-tələsik həyata keçirmək istəyib, şahın və ordunun rəhmətlik [İmanı Hüseynə] yas tutduqları aşura günlərində xoş bir saat seçərək, şahzadəni Tərtər yurdunda öz adlı-sanlı atasının yanına apardılar. [Şah da] indiyə kimi öz başına qoyduğu tacını öz mübarək əlinə götürüb şahzadənin başına qoydu, onun belinə qılınc kəməri bağladı, əyninə qiymətli libaslar geydirdi, onu vəliəhdlik rütbəsi ilə şərəfləndirdi. Qərara alındı ki, rəhmətlik şahzadənin mülazimləri və ali divanın mənsub sahibləri elə əvvəlki qaydada mirzənin xidmətində dayansınlar. Beləliklə, rəhmətliyin var-dövləti, əşyaları və evlərinin sərkarı da elə nəvvab mirzənin sərkarı olaraq qaldı. O vaxt ali sarayda olan bütün əmirlər, böyük adamlar və qızılbaş əyanları gələrək bu xanədanın qanun-qaydası üzrə mirzənin ayağını öpüb, onu təbrik etdilər. Ətrafa hakimlər göndərildi, əhaliyə şahzadənin cülusu barədə xəbər verildi.

İmamqulu xan və Qarabağ əmirləri o mənzildə şahdan icazə alıb, öz iqtalarına qayıtdılar, şah da köçərək Ərdəbil darülirşadına yollandı.

Mirzə Məhəmməd əmirlərin rəyini həyata keçirdiyi üçün Əliqulu xan və əmirlər bu qərara gəldilər ki, onu ali divana vəzir təyin etsinlər və divanın bütün işlərinin cilovunu onun ixtiyarına versinlər. O da boyun oldu ki, səltənət işlərinin rəvacı üçün çalışacaq, divanın hörmətini artıracaq, dövlət məsələlərinin yerinə yetirilməsinin zamini olacaqdır. Beləliklə, o, belə uca bir mərtəbəyə yüksəldi, divan əməliyyatlarının müstəqil icraçısı (mütəsəddi) oldu və etimadüddövlə adlandı. Adı çəkilən əmirlər haqq yoldan azıb öz nəfslərinə uyğun hərəkət etdiklərindən yersiz məsələlərə yol verdilər, baş vermiş vəziyyəti özlərinin maraqlarına uyğun yönəltdilər, öz işlərini din və dövlət mənafeyindən üstün tutdular, qəzavü-qədər işgörənlərinin (karpərdazane-qəza-və qədər) təhriki ilə öz idbar əməllərini yerinə yetirdilər, öz dövlətlərinin dağılması üçün çalışdılar, onların atdıqları murad zərləri (kəbəteyne-morad)

[412] Balina – Ş.F.
[413] Beytin farscası:
Ze abe-xord mahiye-xord xizəd,
Nəhəng an beh ke ba dərya setizəd.

müxalifət səmtinə düşdü və zamanə onlara etdiyini etdi. Tezliklə haqq yerini tutdu və buna görə də öz əməllərinin cəzasına çatdılar ki, gələcəkdə bu haqda yazılacaqdır.

Xülasə, hümayun ordu mənzillər qət edib Ərdəbil darülirşadına çatdı və şəhid şahzadənin cəsədini öz əziz ata-babalarının qəbirləri yanında dəfn etdilər, o qiymətli dürrü torpaq xəzinədarlarına, onun müqəddəs ruhunu isə fələklər aləmində əyləşənlərə tapşırdılar.

İsgəndər şanlı nəvvab əziz fərzəndinin ruhu naminə həzrət övliyalar sultanının məscidində dualar oxutdu, fəqir-füqəraya yeməklər payladı, ehtiyacı olanlara sədəqə (təsəddüq) verdi. Sonra oradan çıxıb Tarom və Xalxal yolu ilə Qəzvin darüssəltənəsinə gəldi. Həmin qışda hümayun qışlaq bu əbədi səltənətin paytaxtında başa yetdi.

GÜNAHLARI BAĞIŞLANMIŞ MƏRHUM ŞAHZADƏNİN DƏHŞƏTLİ VAQİƏSİNDƏN BAŞLAYARAQ ƏLAHƏZRƏTİN DÖVLƏT VƏ KAMRANLIQ GÜNƏŞİNİN DOĞMASINA VƏ XORASAN ÜFÜQLƏRİNDƏN TÜLU ETMƏSİNƏ QƏDƏR BAŞ VERƏN İRAQ, AZƏRBAYCAN VƏ KİRMAN VAQİƏLƏRİNİN ZİKRİ

Yuxarıda yazıldı ki, türkman və təkəli tayfalarının məğlubiyyətindən sonra cəng meydanından sağ-salamat çıxan türkman əyanlarının əksəriyyəti Damğana gedib Mürtəzaqulu xan Pornakın ətrafına toplaşdı. Nəvvab şahzadə onların ürəklərini ələ almaqdan ötrü Mürtəzaqulu xana əmirlərdən xəbərsiz məktub yazıb onu saraya çağırmış, ona şahanə vədlər vermişdi. O da şadyanalıqla İraqa üz tutmuş, Reyə çatarkən rəhmətlik şahzadənin canyandıran və kədərli vaqiəsini, habelə Əbu Talib Mirzənin yüksəlişini, Əliqulu xanın və İsmayılqulu xanın ixtiyar və iqtidara çatmaları xəbərini eşitmişdi. Buna görə də saraya getməyə cürət etmədi, türkman elinə xəsarət toxunacağı barədə düşünüb, əksəriyyəti Qum və Savədə yaşayan türkmanların həmin yerlərdən köçürülməsi üçün Reydən Quma və Savəyə gəldi, onlardan ələ keçən hər kəsi zorla, yaxud öz xoşuna köçürüb Damğana getdi.

Qumda və Savədə olduğu bir neçə gün ərzində o vilayətlərin əhalisi Mürtəzaqulu xanın düşmənçiliyə və tüğyana başladığını güman edib, türkman tayfasının dəf olunmasından ötrü

ona yemək (nəzl) və hədiyyələr göndərdi. Özü və atası bir neçə il Kaşan hakimi olmuş Vəlican ibn Məhəmmədxan Türkman həmişə Mürtəzaqulu xanı əhalisinin əksəriyyəti ayrı-ayrı yerlərdən gəlmiş tacirlər və varlılar olan Kaşan camaatından çoxlu peşkəş istəməyə təhrik edirdi. Vəlican xanın özü bu işin icrasına başlayaraq, Mürtəzaqulu xan hələ gəlməmişdən, Kaşan əhalisindən peşkəş yığmağa başlamış və elə məsələnin başlanğıcından narazılıqla qarşılanmış dava-dalaş baş vermişdi.

Amma əhali öz mal və canlarının qorxusundan [Kaşanın] daruğəsi olan Behzad bəy Qulamın və Mirzə Keçəçi Vəzirin köməyi ilə Vəlican xanla mülayim rəftara başladı. Onlar Mürtəzaqulu xanm [vura biləcəyi] zərərin dəf olunmasından ötrü Vəlican xana birləşib, onun şəhərə gəlişini xahiş etdilər, o da Mürtəzaqulu xandan izin almadan Kaşana yollanıb özünü şəhərə çatdırdı. Onunla çox da sorğu-sual etməyən daruğə və vəzir onun şəhərə gəlişinə manc olmadılar və Vəlican xan daruğənin evində mehman oldu. Kaşanın hələ Məhəmməd xan və oğlanlarının dövründən bu şəhərdə qalmış köhnə türkmanlarının bir dəstəsi daruğənin xidmətinə gəlib bir yerə toplaşdılar. Şəhərdən xaricdə olanlardan da bu iki gündə adamlar gəldilər. O, öz gücünün daruğə və vəzirdən çox olduğunu görüb şəhəri onlardan almağı düşündü. Bir dəstə əmələ və fəhlə ona qarşı çıxsalar da, o, onları tutub həbs, mallarını isə zəbt etdi. Kaşan əhalisi istər-istəməz ona tabe olub layiqli peşkəşlər verdilər. Məsələnin başlanğıcında o, şəhər əhalisiylə yaxşı rəftar etməkdəydi, amma qüvvətləndikdən sonra xasiyyəti dəyişildi.

Xülasə, Mürtəzaqulu xan Vəlican xanla yoldaşdıqdan əl üzdü, özünün bir dəstə yoldaşı ilə Damğana yollandı.

Oradan bir neçə mötəbər türkman adamını müqəddəs Məşhədə - əlahəzrətin (Abbas Mirzənin - Ş.F.) yanına göndərdi, Mürşidqulu xana ərz etdi: "Rəhmətlik şahzadə (Həmzə Mirzə - Ş.F.) sağ olan vaxt o, İsgəndər şanlı nəvvabın böyük fərzəndi olduğundan vəliəhdlik rütbəsinə çatmışdı. Bız də sufilik yolumuzdan, istək və sədaqət üslubumuzdan dönməyib, o həzrətə müttəfiq, ali mülazimlərə isə müxalif idik. Amma indi ki, o həzrətin başına belə bir hadisə gəlmişdir, əlahəzrəti vəliəhd və məşhur atanın qayim-məqamı bilirik. Əgər onun müzəffər ordusu İraqa gedərsə, türkman tayfasından hədsiz sədaqət və bəndəlik görəcəkdir".

Onun (Mürtəzaqulu xanın - Ş.F.) getməyindən sonra, Vəlican xan Kaşan hakimliyində müstəqil oldu, oranın varlı

adamlarından çoxu var-dövlət yığdı. Get-getə türkman tayfalarından xeyli adam onun yanına gəldi, buna görə də, onun beyninə qürur buxarı doldu, qüvvətlənərək həmin mülkdə artıq müstəqil hökmran olduğunu güman etdi.

Ali saraya özünün itaətini, hüsni-xidmətini və Kaşanı Mürtəzaqulu xandan aldığını əks etdirən bir məktub yolladı. İstəyirdi ki, əmirlər və dövlət ərkam Kaşan mülkünü ondan müzayiqə etməyəcək, onun adına o vilayətin idarəsi haqqında hökm sadir olacaqdır. Güclü dövlətin ərkanı isə onun bu özbaşınalığını bəyənməyib, qüruru üzündən etdiyi xahişi alçaq bir hərəkət bildi və ali divan tərəfindən Kaşanın idarəsi Əliqulu xanın adına yazıldı. Ali divanın bu işindən məyus olan Vəlican xan Xorasana bir adam yollayıb özünü Abbasın tərəfdarı kimi təqdim etdi və Əbu Talıb Mirzənin itaətindən çıxdığını bildirdi, Kaşandakı əmir və dövlət ərkanının bütün gərək-yaraqlarını (gərək-yorağan) əllərindən alıb barxanələrini zəbt etdi ki, onun gələcək vəziyyəti bu dəftərin zeylində yazılacaqdır.

Amma əfşar əmirlərinin əhvalatı belə olmuşdur: Atası Qulu bəy Qorçibaşının fərarından sonra Əbrkuhdan Yəzdə gələn Yusif xan oranın darugəsi Məhəmməd Xəlifə Əfşarla birlikdə Yəzdi işğal etdi, padşah əmirlərinin mallarına əl uzatdı. Amma, təkəli türkmanlarının qələbəsindən sonra nəvvab şahzadənin (Sultan Həmzə Mirzənin - Ş.F.), əmri və mirmiranın məsləhəti ilə tutularaq həbs edildi. [O zaman] Kirman hakimi Vəlixanoğlu Bəktaş xanla birlikdə Azərbaycan yasağı məqsədiylə Kirman darülamanından Yəzd darülibadəsinə gəlmişdi. Adı çəkilən Bəktaşın başında özünü böyük tutma (rəşd) və tüğyan havası olduğundan, özünə "xan" adı qoyaraq, Yəzddə batil istəklərə və boş xəyallara qapıldı, başını üsyan və ədəbsizlik cibindən çıxardı və Yusif xanı həbsdən xilas etdi, əvəzindəsə ali divan tərəfindən təyin olunmuş darugəni və gərək-yaraq[414] [məmurunu] həbsə saldı, müxalifət şüarı söylədi. Elə o əyyamla da cənab nəvvabın dəhşətli (hayele) hadisəsi xəbəri gəlib onlara yetişdi. Vəli xan geri qayıdaraq Kirmana getdi, Bəktaş xan isə mirmiranla qohum olduqlarına görə ona əl uzadıb, əvvəlkindən də çox müstəqillikdən dəm vurdu, adı çəkilən vilayətə işğal əlini uzatdı, özünü o vilayətin qanuni hakimi güman etdi. Yusif xan isə onun köməyi və tapşırığı ilə Əbrkuha gedərək orada hakimlik

[414] Mətndə "gər kiraq" yazılmışdır. Mənasını lüğətlərdə tapa bilmədim - Ş.F.

bayrağı qaldırdı. Belə əməlləri etdikdən sonra Bəktaş xan əmirlərdən və dövlət ərkanından qorxdu (xayef gəşt), mirmiranın köməyi ilə Xorasanın əlahəzrət zilləllah şahın və Mürşidqulu xanın yanına adam göndərdi və itaət izhar etdi, özünü abbasilər zümrəsindən saydı. İsfahan hüdudunda yaşayan ərəşli və əfşar əmirləri də Bəktaş xanla ittifaq edərək Əbu Talıb Mirzəçilərə qarşı xilaf məqamına gəldilər. Kuh-Giluyə əfşarları da bir neçə dəstəyə bölündülər və hər dəstəyə bir əmir rəhbərlik etdi. Hakimləri Əlixan Sadi Təkəli olan Fars zülqədərləri hələ mərhum şahzadə sağ ikən öz hakimi ilə döyüşməyə başladılar. O camaatın arasında ağayane-motəbərrekə* də vardı. Onlar Əli xanın hakimliyindən usanıb ona layiqli itaət etmirdilər. [Beləliklə,] aralarında küdurət və savaş (neza) başlandı. Mərhum şahzadəyə xidmət etmək və öz işlərini möhkəmlətmək, zülqədər tayfası fitnəkarlarını cəzalandırmaq məqsədiylə Şirazdan çıxan Əli xan Qəzvin darüssəltənəsinə yetişdiyi vaxt mərhum şahzadənin dəhşətli əhvalatını eşitdi və [hadisələrin ardını] gözləməyə başladı. Padşahın hümayun ordusu Qəzvinə gəlib çatarkən İsgəndər şanlı nəvvabın və Əbu Talıb Mirzənin yanına getməklə şərəfləndi. Əmirlər və dövlət ərkanı onu ürəkaçan vədlərlə sevindirdilər və Şiraz darülmülkünün idarə olunması yenidən ona verildi. [Bu münasibətlə] zülqədər ağalarına vəd və hədə-qorxu (vəid) hökmü göndərildi, düşmənləri cəza (siyasət) və padşahanə qəzəblə qorxutdular, Əli xana isə gözəl xələtlər verərək Fars [vilayətinə] rəvan etdilər. Onun gəlmə xəbəri Farsa çatdıqda, zülqədər ağaları ali divanın vəziri olmaq arzusunda olan Mirzə Abdulla ibn Mirzə Salman Cabirinin fitnəsi ilə Fars əmirlərini özlərinə müttəfiq etdilər və onlar Əli xana qarşı müxalifətə qərar verdilər. Mirzə Abdulla öz istəyinin yerinə yetməsindən ötrü gecəni-gündüzə qatır, bu fikrindən bir ləhzə belə ayrılmırdı. [Zülqədər ağaları] Mehdiqulu bəy Savi Təkəlini özlərinə hakim və xan seçib Əli xanın Şirazdakı bütün yaraq-yasaqını onun ixtiyarına verdilər. Onlar birlikdə əhd-peyman edərək Əli xana müxalif, Mehdiqulu xana isə müvafiq oldular. Bu xəbəri yolda eşidən Əli xan özünə müvafiq olan iki-üç yüz nəfər mülazimlə qorxu-hürkü bilmədən uzun yol keçib, mərdliklə Fars vilayətinə qədəm basdı, öz gəlişi haqda onlara xəbər göndərdi: O ümidvar idi ki, onların arasında pərakəndəlik başlanacaq və onlar dəstə-dəstə gələrək ona birləşəcəklər. [Əli xan] güman etmirdi ki, zülqədər tayfası padşahın hökmünə qarşı çıxa bilərlər. O, Şirazın on iki

fərsəxliyində olan Mayinə çatdısa dı, Şiraz hərbiçi və rəiyyətindən heç kim onu qarşılamağa gəlmədi və onların Mehdiqulu xanla birliyi və özü ilə müxalifəti açıq-aşkar bilindi. Ona elə qorxu və dəhşət üz verdi ki, nə getməyə cürəti, nə də qayıtmağa üzü qaldı.

Amma Əli xanın Mayinə gəlmə xəbəri Mehdiqulu xana və zülqədər ağalarına yetişdikdə, onlar aralarındakı əhd-peymanı təzələyib Əli xanı dəf etmək əzmi ilə böyük izdihamla şəhərdən çıxdılar. Əli xanın başqa əlacı olmadığından, naçar qalaraq səbat və qərar ayağını yerə möhkəm dirədi, yanındakı az miqdar adamla hərbə qərar verdi. Tərəflər bir-birlərinə yaxınlaşdıqda Əli xanın adamlardan çox olan şirazlıları onun üstünə at sürüb adamlarını pərakəndə etdilər. Əli xan məğlub edildi. Əsgərlərin çoxu bir-biri ilə qohum və həm tayfa olduqlarından qətl az oldu.

Amma onun ordusunun mal və silahı qarətə getdi. Əli xanı həbs edərək, şəhərə gətirdilər və Şiraz meydanında böyük həqarətlə qətlə yetirdilər. İllərlə Əli xan sülaləsinin duz-çörəyini yeyən adamlar, xüsusilə onun qohumu olan, həmişə onun tərəfindən xətir-hörmət görən və fərzəndlik rütbəsinə çatan Mehdiqulu xan ona və dudmanına qarşı qəbahətli bir əməl həyata keçirdi. Həqiqətən də bu, qohum tərəfindən edilən bəyənilməz bir iş idi. Elə buna görə də, etdikləri işin mükafatını qəddar zəmanədən intiqam cəbri ilə aldılar ki, bu haqda ikinci dəftərdə və öz məqamında yazılacaqdır.

Elə ki, Şiraz camaatı belə bir hərəkətə cürət etdilər, onlar padşah dövlətindən və Əbu Talıb Mirzə tərəfdarlarından qorxuya düşüb, Xorasana - əlahəzrət zilləllah şahın və Mürşidqulu xanın yanına adam yollayıb, özlərinin abbasilər silkindən olduqlarını bildirdilər və saraydan ali divana vəzarət mənsəbinin Mirzə Abdulla ibn Mirzə Salman, Şiraz əyalətinisə Mehdiqulu xana verilməsi barədə fərman gəldi.

Amma onlar İsgəndər şanlı nəvvabı düşünüb Fars vilayətində xütbə və sikkəni dəyişmədilər, hər iki tərəf ilə münasibət saxladılar. İsfahan darüssəltənəsində isə bunlar baş verdi: Bir neçə il mərhum şahzadə tərəfindən o mülkün hakimi və ixtiyar sahibi olan, Nəqşi-cahan yaxınlığında möhkəm bir qala inşa edib, oraya qaladarlıq silahları və ehtiyaca görə azuqə yığan Fərhad ağa Qulam baş qaldırdı. Mərhum şahzadəyə üz verən dəhşətli hadisədən sonra Əliqulu xan Fəthoğlu mütləq vəkil, Mirzə Məhəmməd isə padşahın vəziri oldu. Əliqulu xanın İsfahanın daruğəsi olduğu il onunla Fərhad ağa arasında vəhşət və savaş yarandı. Fərhad ağa onun

vəkillərinə işlərə çox da dəxalət etmək imkanı vermədiyi üçün onun tərəfindən etibara layiq görülmədi. O, elə Mirzə Məhəmməd tərəfindən də özünə qarşı ehtiram görmədi. [Buna görə də,] ərəşli tayfasının hücumunu dəf etməkdən ötrü qalanın möhkəmləndirilməsinin və öz vəziyyətinin yaxşılaşmasının qayğısına qaldı, istəmədi ki, dövlət ərkanının və Əbu Talıb Mirzənin əmrlərinə tabe olsun. Azərbaycanda da nəvvab Mirzənin qəziyyəsindən sonra hər başa bir özbaşınalıq sevdası düşdü, padşah fərmanları yerinə yetirilmədi, hər adam istədiyi vilayəti ələ keçirib, biri-digərinə itaət etmədi. Təbriz qalasında olan Cəfər paşa fürsəti qənimət bilib, həmin mülkün hər tərəfini işğal etdi və Azərbaycanın əksər mahalları qızılbaşların əlindən çıxdı.

Xülasə, Azərbaycan, İraq, Fars, Kirman, Kuh-Giluyə və Xuzistan əhalisinin işləri nizamdan düşdü, qoşunların istila etdiyi yerlərin rəiyyəti olduqca pis vəziyyətə qaldı. Əsgərlər çobansız sürü kimi dağılışmağa başladılar. Hamı qeyb aləmindən kömək intizarında idi. Belə bir halda İlahinin inayət nəsimi əsməyə başladı. O ilin sonlarında əlahəzrət zilləlah şahın cahangirlik ordusunun təntənəsi İraq məmləkətlərində səslənməyə başladı, İran mülkünün sakinləri üzərinə mərhəmət (atefət) kölgəsi düşdü və nizamsızlıq azalmağa başladı. Şahın zavalsız iqlalının köməyi ilə hadisələrin təsirindən öz paklıq və səliqə-sahmanını itirən İran mülkünün hər tərəfi az vaxtda təravətləndi və İrəm gülzarına döndü.

İSGƏNDƏR ŞANLI NƏVVABIN ƏMİRLƏRİNİN, DÖVLƏT ƏRKANININ VƏ ƏBUTALİB MİRZƏ TƏRƏFDARININ VƏZİYYƏTLƏRİNİN ZİKRİ

Əbutalib Mirzənin və onun dövlət başçılarının vəziyyəti belə idi: Onlar Qəzvin darüssəltənəsinə gəlib orada iqamət etdikləri ilk vaxtdan başlayaraq qürur badəsindən elə məst olmuşdular ki, heç kimi saya salmır və belə bir ehtimalı heç güman da etmirdilər ki, onlara qarşı çıxmaq kiminsə xəyal səhifəsinə yazıla bilər. Düşünmürdülər ki, öz adamları ilə Mürşidqulu xan İraqa gəlməyə cürət edə və özü ilə şərafətli nəvvabı (Abbas Mirzəni - Ş.F.) da gətirə bilər. Qış bitirdi və doqquz yüz doxsan beşinci (miladi 1587) donuz ilinin novruzu gəlib çatdığından təbiətin burnuna bahar bağının gül-çiçək ətri dolmaqdaydı. Hər gün Kaşan, İsfahan, Yəzd, Şiraz və Kirmandan, yuxarıda yazıldığı kimi, vəhşətli xəbərlər

gəlməkdə idi. Onlar qəflət yuxusundan bir qədər ayıldılar, öz hallarının yaxşılaşması və hər diyar vəziyyətinin yoluna düşməsinin qeydinə qalmağa başladılar. Amma, onların hökmranlığı artıq keçdiyindən və əlahəzrət zilləllah şahın hökmranlıq və kamranlıq tədarükü görüldüyündən artıq arzu nərd-taxtasının üstünə düşən tale zərləri istədikləri kimi düşmürdü.

Sabiqdə Fərhad ağanm vəziri, sonralarsa Qəzvin işlərinin mütəsəddisi olmuş Mir Cəfər Qəzvinini Fərhad ağanı gətirməkdən ötrü İsfahana göndərdilər və onun adına əfv olunma hökmü sadir oldu. Qulu bəy Qorçibaşı və əfşar camaatı ilə möhkəm əlaqəsi olan Pirqulu bəy ibn Şahqulu Səqqam* Yəzd darülibadəsinə - Bəktaş xanın yanına yolladılar ki, onu xilaf vadisindən döndərib Əbu Talib Mirzəyə itaət etməyə çağırsınlar. Hümayun ordu isə Xərəqan yaylağına gedərək orada bir neçə müddət qaldı. Adı çəkilən Mir Cəfər gəlib özü ilə Fərhad ağanı [da] gətirdi və o, şah və şahzadədən ötrü bir az peşkəş təqdim etdi, amma, Əliqulu xana, İsmayılqulu xana və Mirzə Məhəmməd Vəzirə töhfə və ərməğan kimi bol pul (noqud) verdi, yenidən İsfahan hakimliyinə getməkdən ötrü tələsik izn aldı. Lakin hər gün və hər yandan əmirlər və dövlətin sütunlarının (ərkan) istəyinə (təb) uyğun gəlməyən dəhşətli xəbərlər gəlməkdəydi və Fərhad ağa bütün işləri Mirzə Məhəmməd Vəzirin rəyi və tədbiri ilə yerinə yetirirdi. Zəmanə artıq dəyişildiyindən, səltənət və padşahlıq işlərinin icrası, həmçinin xilafət və şahənşahlıq məsələlərinin nizamlanması kamyab nəvvab zilləllah şahın zəmanətinə (kəfil) keçmişdi, amma o, dövlət işlərinin tənzimlənməsi, habelə mülk və millət qanun-qaydalarının möhkəmlənməsi haqda nə qədər düşünürdüsə də, onun düşündüyünün əksi baş verirdi. Bu əsnada şamlı və ustaclı [tayfaları] arasında küdurət tozu bir qədər artdı, amma Məhəmmədi bəy Sarı Solağın səyi ilə [tez də] yatdı. Məhz həmin pis münasibətə görə də mərhum nəvvab şahzadə Həmədan vilayətini Pir Qeyb xan Ustaclıya vermişdi. O vaxt İsmayılqulu xan Şamlı o vilayətin idarəçiliyini öz böyük qardaşı Şahverdi Xəlifəyə verməyə cəhd etdi. Onun məsləhətindən çıxa bilməyən Əliqulu xan da Pir Qeyb xanın tərəfində durmurdu. Nəhayət o, buna razı oldu və Həmədan əyaləti Şahverdi Xəlifənin adına yazıldı, o, həmin tərəfə yollandı. Bu məsələdən Pir Qeyb xan incidi. O, zahirdə ona itayət edirdisə də, amma məmləkətin alış-veriş işlərindən əlini çəkmirdi, hakimlərin əyləşdiyi binada oturub oradan çıxmırdı.

Şahverdi Xəlifə varlı, kədxuda* rəftarlı, xoşxasiyyət adamdı. Amma, onun qohumu və mülazimi olan şamlı [tayfasının] cahil adamları bir-birləriylə danışığa girib [Pir Qeyb xanı] zorla Həmədandan çıxarmaq istədilər. Qürurlu xasiyyəti olan Pir Qeyb xanın qüvvəsi və qüdrəti o vaxt Şahverdi xandan çox idi. Buna görə də o, onların [Həmədanda] bərqərar olmalarına tab gətirmədi, incik olduğu üçün onlara tabe olmadı, iş dava-dalaşla nəticələndi. Üstünlük (ziyadət) ustaclıların tərəfinə keçdi, Şahverdi Xəlifənin ehtiramı ləkələndi (hətk). Bu xəbər orduya çatdıqda İsmayılqulu xan şamlı tayfası ilə təcili atlanıb Həmədana getmək və Pir Qeyb xanı cəzalandırmaq istədi, amma Əliqulu xan İsmayılqulu xanı incitməmək və şamlı-ustaclı tayfasının qarşısını almaq üçün xoşluqla onu bu işdən çəkindirdi, söz verdi ki, özü gedib Şahqulu Xəlifəni Həmədan hakimi edəcək, Pir Qeyb xanı tutub ona təhvil verəcəkdir. İsmayılqulu xan onun xahişini qəbul etdi və hücum niyyətindən vaz keçdi, Əliqulu xan isə bir dəstə əmirlə Həmədana tərəf yollandı. Amma, hələ onun şəhərə daxil olmasından əvvəl, hər iki tərəfin sülh tərəfdarları (moslehan) və xeyirxah adamları araya düşmüş, barışıq (aşti) yaranmış, Pir Qeyb xan o vilayət hakimliyini tərk etmişdi. O, yolda İsmayılqulu xana çataraq onunla birlikdə orduya gəldi. Onunla arası olmayan və ondan çəkinən Əliqulu xan Xərrəqan yaxınlığında bir neçə ustaclı cavanı və qədim mülazimləri ilə öz var-yoxlarını ataraq, ordudan fərar etdi və Xorasana yollandı. Bir neçə gün yol getdikdən sonra müqəddəs Məşhəddə əlahəzrət zilləllah şahın görüşü ilə şərəfləndi və Mürşidqulu xanla söhbət etmək izzətinə yetdi. Əliqulu xan onu İraqa getməyə meyilləndirdi və İraqdakı hökümət nizamsızlığını və vəziyyətin pisliyini olduğu kimi ona danışdı. Hümayun ordu Xərrəqan yaylağında olan əyyamda, əlahəzrət zilləllah şah və Mürşidqulu xan tərəfindən Aşur ağa adlı bir şəxs İraqa gəldi və onlara məktub gətirdi.

Hadisə yığcam olaraq belə baş vermişdir: Mərhum nəvvabın başına gələn müdhiş hadisənin xəbəri müqəddəs Məşhədə çatan vaxt İraqın, Farsın və Kirmanın hər tərəfindən [Məşhəldə] sədaqət ayinli ərizələr gəlməyə başladı. Ağıllı və işbilən adam olan Mürşidqulu xan istədi ki, eldə, dövlət adamlarında, orduda və İraq əmirlərində baş verən həqiqi münasibətləri olduğu kimi öyrənməkdən ötrü fərasətli bir şəxsi İsgəndər şanlı nəvvabın yanına göndərsin və o, geri qayıdanda dövlətin məsləhəti nədirsə ona da əməl etsin. Adı çəkilən Aşur ağa həmin tapşırıqla göndərildi və

əlahəzrətdən adlı-sanlı atasına böyük qardaşının başına gəlmiş müdhiş hadisə barədə bir məktub gətirdi. Habelə Aşur ağa ilə Mürşidqulu xandan da [şaha] sədaqətli bir ərizə, dövlət başçılarına isə nəsihətlərlə dolu bir məktub yetişdi.

Məzmunu belə idi: Bir neçə ildir ki, fələyin muradı və fəsad əhlinin fitnəkarlığı ilə İraq və Xorasanın əzəmətli əmirləri arasında vəhşətli hadisələr baş vermiş, cürbəcür müxalifət vaqe olmuşdur ki, bunlardan böyük fəlakətlər törənmişdir. Qızılbaşlar arasında ittifaqın olmaması və əmirlərlə tayfa ağsaqqallarının nifaqı nəticəsində müxtəlif tayfalar məmləkətlərə öz tarac əllərini uzatmış və səltənətdə tam qarma-qarışıqlıq yaranmışdır. Rəhmətlik şahzadənin başına dəhşətli hadisə gəlmişdirsə də, hal-hazırda əlahəzrət şahzadə (yəni Abbas Mirzə - Ş.F.) müqəddəs Məşhəddədir və İsgəndər şanlı nəvvabın böyük oğludur. O, artıq özünün inkişaf mərtəbəsinə çatmışdır və ondan cahangirlik əsəri görünməkdədir. Həzrət dövlət başçılarından təvəqqemiz budur ki, bu gündən sonra müxalifət büsatını dağıdaq ki, hamımızın boynu bir köynəyin yaxasından boylansın. Biz gərək bir-birimizlə ittifaqa girib səltənət və şahlıq işlərində, düşmənlərin dəf olunmasında və məmləkət işlərinin nizam - intizamında dövlətin və bir-birimizin rəyi və məsləhəti ilə hərəkət edək, qızılbaşlar arasındakı iki tiraliyi aradan qaldıraq".

Aşur ağa Qəzvinə gəlib çatanda hümayun paytaxtın qorunmasından ötrü şəhərdə qalmış Qorxmaz xan Şamlı onu saxlayıb sorğu-sual etdi. İcazə aldıqdan sonra orduya gəldi, həzrət xanlar məktubun məzmunundan xəbərdar oldular, amma onların bəsirət gözləri düzgün yolu görə bilmədi. Onların əlahəzrətin vəkili və mütləq sahibixtiyarı olan Mürşidqulu xana etimadları yox idi. Əliqulu xan Fəthoğlunun isə ali divanda qüdrəti və yeri fələyədək yüksəlmişdi və o, səltənətin və şahlığın bütün işlərini öz əlinə almışdı. Elə buna görə də Əliqulu xan özünü padşah səviyyəsində görürdü, heç kimi nəzərə almırdı. Yaxşı bilirdi ki, onun Mürşidqulu xanla bir yerdə olmağı mümkün məsələ deyil. Buna görə də, [Əliqulu xan] öz vəziyyətini düşünüb onun sözlərini hiyləgərliklə dinlədi, o məsələnin müsbət həllini inkar etdi, cavabında isə belə yazdı: "İsgəndər şanlı nəvvab öz əziz oğlu Sultan Həmzə Mirzəni özünün vəliəhdi və qayimməqamı etmişdi. O, türkman və təkəlilər arasında baş verən hərbə yollanarkən belə vəsiyyət etmişdi ki, əgər onun başına həmin səfərdə bir hadisə gələrsə, qoy əmin canişini Əbu

Talib Mirzə olsun. Bir halda ki, qızılbaş tayfaları Sultan Həmzə Mirzənin qərarını bilirlər, buna görə də onlar adlı-sanlı şahzadə Əbu Talib Mirzənin xibmətində qalıb, qeyri bir əmrə razı olmazlar." Onlar İraq və Xorasan əmirləri arasında fitnə-fəsada səbəb olmuş Mürşidqulu xanı töhmətləndirib, bürün əmirlər və oymaq ağsaqqalları tərəfindən bu xüsusda məktub yazdılar, hər təbəqədən olan əmirlər və ağsaqqallar da məktuba öz möhürlərini vuraraq Aşur ağanı etimadsızlıqla yola saldılar. Amma Əliqulu xan, İsmayılqulu xan, Məhəmmədi San Solaq və vəzir Mirzə Məhəmməddən başqa qeyri əmirlər bundan razı deyildilər və [məktuba] öz möhürlərini basmışdılar. Hətta onların bir hissəsi Mürşidqulu xanın məktubuna görə öz fikirlərini şifahi bildirmişdilər.

Aşur ağa getdikdən sonra onların rəyi belə oldu ki, Kaşana gedib, oranı Vəlican xanın əlindən alsınlar, İsfahana üz tutub, Fars, Kirman və o ətrafda olan yerlərin işlərini bitirərək, onlara müqavimət göstərənləri cəzalandırsınlar, hər vilayətdə öz etibarlı adamlarını iş başına qoysunlar.

Əliqulu Sultan Zülqədər Qum hakimini, Mürşidqulu Sultan Şamlı isə İsmayıl xanın qardaşını onlardan tez Vəlican xanın üzərinə - Kaşana göndərdilər. Fərhad ağanın çoxlu pulu olduğunu güman edən və orduda olan bəzi İsfahan əhalisi ondan şikayətlənib var-yoxunun müsadirə olunmasını tələb etdilər. Boyun oldular ki, Fərhad ağanın özünün və adamlarının mal və mülklərindən ələ keçən hər şeyi təhvil verəcəklər. Onlar Xərrəqan yaylağındaca Fərhad ağanı tutub, var-dövlətini zəbt etdilər. Mirzə Əhməd Kofrani vəzirin naziri və İsfahanın müamilə sahibi oldu. Mirzə Hidayət Nəcme-Sani isə oradakı müamilələrin (moamelat) naziri oldu. Fərhad ağanın mallarının zəbti üçün zabitlər* təyin etdilər, Fərhad ağanın əlli-altmış təbəə, əmələ və fəhləsindən müəyyən məbləğ pul yığmaqdan öyrü güclü mühəssillər göndərdilər. İsfahanın darügəliyi Seyid həy Kəmunəyə verildi və o, İsfahana rəvan oldu. Hümayun ordu isə çıxıb iyirmi gün ərzində Kaşana çatdı.

Vəlican xan onlardan narazı olduğu üçün şəhər qapılarını qapadı və qaladarlıq yarağının qalaya yığılması barədə sərəncam verdi. O, tacirlərin və başqa varlıların mallarına əl uzadaraq mülazimlərə bol ənamlar verdi. Get-gedə iş o yerə çatdı ki, "Vəlican xan" bəndələrinin və yanındakı adamların tələbi ilə[415] başqalarının

[415] Ərəbcə: "Bi muqtəda-l-abdi və mə fi yədihi".

malını öz malı hesab etdi və zorla onlardan aldı. Şəhər xaricindəkilər (biruniyan) şəhəri mühasirəyə alaraq seybələr hazırladılar, qalanı tutmağa səy etdilər. Onlar seybələri xandaqlara gətirdikləri vaxt İsfahandan vəhşətli xəbərlər gəlib yetişdi. Sözün qısası, İsfahan qalasında olan Fərhad ağa və mülazimlər, həmçinin onların sərkərdəsi və Fərhad ağanın qohumu olan Xosrov bəy adlı qulam onun həbsini eşidərək şəhər qapılarını bağlamış, qaladarlıq etməyə girişmişdi. Mal toplayan zabit və təhsildarların sözlərinə etina etməyən Xosrov bəy "üsyan" kəlməsini elan etdi. Seyid bəy Kəmunə, vəzir və müqta* sahibi olan Mirzə Əhməd Kofranı o mülkün nəqibləri olan yüksək dərəcəli Hüseyni seyidlərinin əhali arasında "Hüseyniyyə" adlanan, indiyədək isfahanlıların həmin seyidlərə təzim əlaməti kimi, pənah yeri kimi (bost) tanınan məkana gətirərək onları bəstə" əyləşdirdilər, ətraf yerlərdən tüfəngçi və kamandarlar gətirib, şəhərin və Hüseyniyyənin mühafizəsi ilə məşğul oldular.

Əksəriyyəti əlsiz-ayaqsız qulamlardan ibarət olan qala əhli tərəfindən əliuzunluq edildi və buna görə də şəhər əhalisinin əhvalı pisləşdi, o fəxarətli şəhərin əmniyyəti yoxlaşdı. Asi qulamlar günü-gündən öz üsyan və tüğyanlarını daha çox qabardırdılar. Nəhayət, onlar fürsət əldə edərək qəflətən Hüseyniyyə üzərinə hücum etdilər, divarları bir neçə yerdən yarıb içəriyə daxil oldular və onların mal və əşyalarını tarac etdilər. Hər biri İslam məmləkətlərinin mürtəzaları*** olan Seyid bəy Kəmunəni və Mirzə Məhəmməd Əmini tutub Fərhad ağaya çatdırmaq üçün qalaya apardılar. Mirzə Əhməd Vəzir isə bir dəstə adamla fərar edərək özünü Kaşana çatdırdı, vəziyyəti orada ərz etdi. Dövlət ərkanı başçıları (həzərat) Allahqulu Sultan Kəngərlini bir dəstə əmirlə İsfahan şəhərinin müdafiəsinə yolladılar. Onlar oraya qədəm basdıqları vaxt qızılbaşlarla düşmən (yağı) olmuş ərəşli əmirləri onların gəlişini eşidərək, İsfahanın Murçəxurt adlı adlı yerində onların üstünə tökülüşdülər, türk və tacik əyanlarından Allahqulu Sultanı, Mirzə Hidayət Nəcme-sanini və daha bir neçə şəxsi tutub özləri ilə apardılar. Dövlət ərkanı bu hadisələrin baş verməsinə görə Kaşanda narahat olaraq və Kaşan qalasının fəthinə daha artıq səy göstərməyə başladılar.

Onlar İsfahana getməyə tələsdikləri üçün, əməlli-başlı yürüş ləvazimatı toplamadan yola düşdülər. Gecə yarısınadək hər iki tərəf arasında cəng başlandı. Yararlı cavanların bir hissəsi tələf oldu

və onlar heç nəyə müvəffəq olmadılar. Bu yürüşdən sonra İsmayılqulu xan belə məsləhət gördü: İsfahanla bağlı məsələlərin həlli zəruri olduğu üçün gərək Vəlican xanla sülh edib, onun cəzalandırılmasını başqa bir vaxta saxlasınlar və İsfahana hücuma keçsinlər. İsmayılqulu xanın özü danışığa gəldi və bir adamını qalaya göndərib Vəlican xanın yaxşı-pis işlərinə göz yumacağını vəd etdi. Mühasirənin uzanmasından təngə gəlmiş Vəlican xan bu təklifi qənimət bilərək, İsmayılqulu xana birləşdi və özünün gələcək işlərini onun mərhəmətinə tapşırdı, bir neçə adamını azacıq peşkəşlə göndərib üzrxahlıq etdi. Göndərilənlər İsmayılqulu xan vasitəsiylə Əliqulu xanla görüşdülər, İsgəndər şanlı nəvvabın və Əbu Talıb Mirzənin ayaqlarını öpmək şərəfinə yetişdilər, biədəblərin hərəkətlərinə görə üzr istədilər. Dedilər ki, qoy ona (Vəlican xan - Ş.F.) bir-iki ay möhlət verilsin ki, Kaşandan öz yaraq-yasağını götürsün və ali divanın ona verəcəyi hər hansı bir ölkəyə getsin. Çoxlu danışıqdan sonra qərara alındı ki, ordu hərəkətə başlayan kimi o, darvazaları açsın, üç yüz nəfər şamlı, bayat və başqa tayfa nümayəndələrinin Kaşanda qalmalarına imkan yaratsın ki, onlar Vəlican xanın çıxıb getməyindən sonra şəhəri qorusunlar. Hər iki tərəf bununla razılaşdı. Ordu çıxıb İsfahana rəvan oldu. Mirzə Ərəb Münəccim Herəvinin təyin etdiyi saatda şəhərə daxil oldular və hümayun dövlətxana hüseyniyyədə yerləşdi.

Əliqulu xan gəlib dövlətxana yaxınlığında dayandı, İsmayılqulu xan Kəlbar məhəlləsinə getdi. Əmirlərin və dövlət ərkanının hər biri münasib mənzillərdə yerləşdilər. Qulamlar [isə yenə] müxalifət və qaladarlıqda israrlı oldular. Bu tərəf töptökmə və qalatutma alətləri hazırlamağa başladı. Bir neçə gün sonra Əliqulu xan belə məsləhət gördü: Fərhad ağa və qala qulamlarıyla mülayim davranılsın ki, bəlkə hiyləgərliklə qalanı onlardan almaq mümkün oldu. O, Fərhad ağanı öz evinə gətirib onun boynundakı zəncirini açdı, onunla mehman kimi hərəkət etdi, onu xoş vədlərlə inamlandırdı, işlərini nizamlayacağını əhd etdi. Fərhad ağa qalaya Xosrov bəyin yanına adam göndərib, bir-iki nəfər etibarlı adamlarını yanına çağırdı, onlara tabeçilik, itaət və qalanı təslim etmələrini buyurdu. Məsələnin başlanğıcında Xosrov bəy və qulamlar etimad etmədilər və Fərhad ağa ilə qaba davrandılar. Amma, get-gedə sülhə rəğbətləndilər, xeyli qiylüqaldan sonra qətl və cəza almayacaqlarından xatircəm olan Xosrov bəy eşiyə çıxdı, Əliqulu

xan və əmirlərlə görüşdü, qala qapılarını açdı və kiçik bir mülayim hərəkət və hüsni-tədbir nəticəsində qala asanlıqla ələ keçdi.

Qala işinin bitməsindən sonra Mehdiqulu xan və Şiraz zülqədərləri tərəfindən ağsaqqallar gəlib məktub və peşkəş gətirdilər. Onlar Əli xanın qətli xüsusunda öz üzrxahlıqlarını bildirdilər və xahiş etdilər ki, belə güclü dövlətin ərkanı bu işlər zamanı baş vermiş əməlləri onlara güzəştə gedərək Mehdiqulu xanı Şiraz vilayətinə təyin edərsə, onlar da itaət çulunu (ğaşiye) öz çiyinlərinə salacaqlar, sufigərilikdə və sədaqətdə saf olan zülqədər tayfası İsgəndər şanlı nəvvabı müdafiə edəcək və ali divana çoxlu tərcüman vergisi göndərəcəklər. O zaman, həqiqətən də, əql tələb edirdi ki, onların xahişləri yerinə yetirilmiş olsun. Məlum idi ki, bu danışıq və güzəştlərdən sonra onlara bol fayda yetişəcəkdir. Mirzə Məhəmməd Vəzir belə alçalmağı qəbul etmədi və Şiraz əyalətini orduya gələn Darabcərd hakimi Şahqulu Xəlifə Zülqədərə, onun ülkasını isə Əli xanın oğlu Təhmasibqulu Sultana verdi. Baxmayaraq ki, onların Fars əyalətinə getmələri müyəssər olmadı, amma bu iş Mehdiqulu xanın və zülqədərlərin müxalifətdə israrlı olmalarına və abbasçılıq şüarı ilə çıxış etmələrinə səbəb oldu. Dövlət ərkanına və Əbu Talib Mirzəyə xilaf olan və onların tapşırıqlarına əməl etməyən başqa adamlar da o təbəqəyə meyillərini tamamiylə kəsdilər, onlardan bütünlükdə aralandılar. Bu hadisələr baş verən vaxt Əliqulu xanla İsmayılqulu xanın arasında inciklik (neqar) düşdü və bir neçə gün küdurət və cəng baş verdi. Buna səbəb budur: Cənnətməkan şahın möhrdarı Şahqulu Xəlifənin nəvəsi Əliqulu xan Zülqədər Əliqulu xanla həmsöhbət (mosaheb) və onun yetirməsi idi. Cənnətməkan şah dövründə Qum ülkası onun babasına verilmişdi və indi isə onun ixtiyarına keçmişdi. Əliqulu xan iqtidar sahibi və səltənətin ixtiyar sahibi (moxtarüssəltənə) olduqdan sonra, Əliqulu Sultan istədi ki, cənnətməkan şahın hakimiyyəti dövründə onun atasına və babasına mənsub olmuş möhrdarlıq vəzifəsi Əliqulu xanın vasitəsilə ona verilsin. Bu mənsəb barədə çox xahiş etdi. Əliqulu xan da onun təsəllisinə çalışdı, amına öz atasının yerinə möhrdar vəzifəsi ilə şərəflənən Əsəlməs xan ibn Şahrux xan bu iddianın əleyhinə oldu. Şahrux xanın tərbiyələndirdiyi bir neçə adam da Əsəlməs xanın tərəfini tutdular və İsmayıl xana birləşdilər, nəticədə İsmayıl xanı Əsəlməs xanı himayə etdi. Bu himayədarlıq Əliqulu xanın xoşuna gəlmədi və öz iddiasının yerinə yetirilməsini tələb etdi, arada küdurət yarandı. Fitnəkar adamların fitnəsi ilə

onların aralarında böyük vəhşət başlandı, qızılbaş tayfası iki dəstəyə ayrıldı ki, onların bir hissəsi İsmayılqulu xana birləşdi. [Qızılbaşlar] hər gün İsfahan şəhərində seybə hazırlayıb bir-birinə yaxın düşmədilər. Bu əməl şəhərin və məmləkətin çaxnaşmaya düşməsinə səbəb oldu. Heç kim mülkün, habelə aciz və miskin adamların qorunması barədə düşünmürdü.

Cahillərin və bədxah qızılbaşların sərtlikləri üzündən küçə və bazarlarda gediş-gəliş (tərəddod) çətinləşdi, dükanların qapıları bağlandı, küçə alverləri dayandı.

Amma, [bunun əksinə olaraq] müsadirə və zəbt etmə qapıları açıldı. İsfahanın parçalanması (məqtə) səbəbindən dövlət ərkanının düşüllükatları* ödənilmədi, ərbabların tənxahları* kəsildi, biçarə rəiyyət mühəssillər tərəfindən əzab-əziyyətə giriftar oldu. Sorğu-sual olmadığından, əlində bərat" olan hər adam rəiyyətdən zər qoparmaqda idi.

Xülasə, İsfahan camaatının vəziyyəti olduqca qarışıqdı. Bu əsnada xəbər çatdı ki, özbək padşahı Abdullah xan Xorasanı tutmaq məqsədiylə Herat üzərinə hücuma keçmiş, şəhəri mühasirəyə almışdır, Herat hakimi Əliqulu xan Şamlı qalanı bağlayıb qaladarlıqla məşğul olmaqdadır, Mürşidqulu xan isə əlahəzrət zilləllah şahı Məşhəddən çıxarıb Təbəs yolu ilə İraqa getmək niyyətindədir. Amma Xorasandan İraqa get-gəl az olduğundan, doğru-düzgün məlumat gəlib çatmırdı. Hələ aydın deyildi ki, Mürşidqulu xanın müqəddəs Məşhəddən çıxmağının səbəbi Abdullah xanın qorxusudur, yoxsa İraq üzərinə hücum etmək istəyi? Sözün qısası, bu xəbərdən sonra sülh tərəfdarları olan şəxslər meydana çıxdılar və onlar əzəmətli xanlar arasında bəzi dəyişikliklər apardılar.

Amma xanlar bir-biriləri ilə görüşdən ehtiyat edirdilər. Şamlı tayfası icazə vermirdi ki, İsmayılqulu xan Əliqulu xanın evinə gedib onun şübhəsini aradan qaldırsın. Onlar görüşən gün isə artıq hər iki tərəfdə böyük ləşkər hazır vəziyyətdə dayanmışdı. İsmayılqulu xan tam əzəmət və iqtidarla hüseyniyyəyə gəldi. Bu tərəfdən də [Əliqulu xanın adamları] qapıları qoşunlarla bəzəmiş oralara mühafizəçilər (bəvvab və hoccab) qoymuş, xeyli tüfəngçi ətrafda dayanmış, təntənəli bir məclis qurumuşdu. İsmayılqulu xan onun evinin qapısına çatdıqda, vəziyyəti müşahidə eləyən kimi onda insanlıq hissi baş qaldırdı, bir neçə qardaşı, şamlı və başqa oymaqların əmir və ağsaqqalları ilə birlikdə Əliqulu xanın evinə

daxil oldu. Amma başqa döyüşçüləri evə qoymadılar. İsmayılqulu xan buna əhəmiyyət vermədən bir neçə oyanla Əliqulu xanın məclisinə təşrif gətirdi, hər iki tərəf arasında görüş başlandı, bir-birləri ilə barışdılar. Amma aralarında hələ tam barışıq (elteyam) başlamamışdı ki, Mürtəzaqulu xan Pornakın vəfatı və Mürşidqulu xanın Damğandan İraqa gəlişi xəbəri yayıldı. Əliqulu xanın rəyi belə oldu ki, beş min nəfərədək olan öz əmirləri və dostları ilə hücum edib tiyulu olan Rey ülkasına getsin, oradan isə Xar və Semnana çatıb, İraq əhlindən heç kəsin zilləllah hümayun şahzadəni qarşılamamasından ötrü Damğana qədər bütün yolları bağlasın, Xorasan camaatının çoxluqla İraqa gəlib çatmaq imkanı olmadığından qoy İsmayılqulu xan İsgəndər şanlı nəvvabın məiyyəti tərkibində Əbu Talib Mirzə ilə birgə Qəzvin darülsəltənəsinə gedib, hümayun paytaxda dayansın. Amma, tərəfdarları [Əliqulu xanı] bundan çəkindirib dedilər ki, İsmayılqulu xana etimad olmadığından, padşahı və şahzadəni ona tapşırmaq və uzaqda dayanıb seyr etmək ağıldan uzaq bir məsələdir. Belə buyurdular ki, məbada Mürşidqulu xan Yəzd, Kirman və Şirazdan onların yanına göndərilən və özlərini "abbasi" adlandıran əfşar və zülqədər ləşkəri ilə Yəzd yolundan keçib İsfahana gəlsin.

Onlar elə oradaca dayanıb gözləməyi üstün tutdular. B fikir və xəyalla bir neçə gün keçdi. Allahın iradəsi əlahəzrə şahzadənin səltənət və padşahlığını istədiyindən, onların heç bir tədbiri baş tutmadı. Cahanı tutan ordunun səsi artıq Damğan yolundan eşidilən neçə gün ərzində onlar Qəzvin darüssəltəsinə getməyi qərara aldılar. Bəxtlərinin dönüklüyündən [Əbu Talib Mirzəçilər] öz zülm əllərini açaraq, İsfahanın əksər böyük adamlarını və əhalisini ələ keçirib özləri üçün tarac və müsadirə qapılarını açdılar. Şəhər və ölkə nizamdan düşdü, xalqın heç nəyə ümidi qalmadı.

Xülasə, bir çox ziyankarlıqdan sonra Heydər Sultan Çapuqun oğlu İbrahim xan Türkmanı İsfahanın daruğəsi edib, səltənət paytaxtına tərəf üz tutdular. Quma gedib, öz ləşkəri ilə təyin olunan yerə gəlməsindən ötrü Qum hakimi Əliqulu Sultan Zülqədəri irəli yolladılar. Amma, İlahinin təqdiri ilə şahzadənin zühurunun əlamətləri dövlətin dayağı və Əbu Talib Mirzəçilər səltətinin tərəfdarı olan Məhəmmədi Sarı Solaqa aydın olduqda, xəstələndiyinə görə on günədək İsfahanın Cərbərxar adlı yerində dayanıldı. Elə o əsnada əlahəzrətin və Mürşidqulu xanın Xar və Semnan yolu ilə gəlişləri xəbəri dəqiqləşdi. Ordu köçüb, Vəlican

xanın düşmənçilik etməsi səbəbindən Kaşan yolundan yana dönərək, Cərpadqan yolu ilə rəvan oldu.

XORASANIN VƏZİYYƏTİ, HÜMAYUN ZİLLƏLLAH ŞAH MƏİYYƏTİNİN İRAQAGEDİŞİ VƏ ONUN İRAN SƏLTƏNƏT TAXTINA ÇIXMASININ ZİKRİ

Yuxarıda qələm belə yazmışdı ki, Herat hakimi Əliqulu xan Şamlı və müqəddəs Məşhəd hakimi Mürşidqulu xan arasında cəng olan və Herat ləşkərinin basıldığı ildə əlahəzrət zilləllah şah azyaşlı idi və Əliqulu xan o iqbal bağının sərvinin ələsi olmaq səadəti ilə şərəflənmişdi. Qeyb aləminin köməyi və tezliklə nəticəsi bəlli olacaq gizli sirlərin yardımı ilə həmin döyüş vaxtı [o azyaşlı şahzadə] Mürşidqulu xanın əlinə düşmüş, Əliqulu xan isə məcburiyyət və pərişanlıqla Herata qayıtmışdı. Əliqulu xan o cür qiymətli sərmayəni əldən verdiyi üçün, Mürşidqulu xandan bərk qorxurdu və onun İraqdan başqa bir köməyi ala bilməsi təsəvvürünə belə gəlmirdi. Buna görə də, o, bir nəfəri Qəndəhar mirzələrinin yanına, ikincisini isə Buxaraya, Abdullah xan Özbəyin yanına göndərib dostluq etməyə başladı, onlarla birləşdi, özünü onların hər birinin mənsubu sandı. Abdullah xan bu məsələni özü üçün böyük müvəffəqiyyət (fovz) hesab etdi, onun tərəfindən də zahiri iltifat zahir olsa da, mirzələr rahatlıq və salamatlıq (fərağat və afiyət) baxımından onun bu hərəkətini bəyənmədilər. Həmin tanışlardan Abdullah xanın tamahı hərəkətə gəldi və o, gecə-gündüz fikirləşdiyi cənnətəbənzər Heratı tutmaq barədəki arzu ilə yaşadı, Xorasana hücum etməyi qərara aldı, nəticədə yürüş hazırlığına başladı. Beləliklə doqquz yüz doxsan altıncı donuz ilinin (miladi 1587/88) əvvəllərində saysız-hesabsız özbək döyüşçüləri ilə Xorasana gəldi. Əvvəlcə, Əliqulu xanın yanına adam yollayıb xatırlatdı: "Xan bir neçə vaxt bundan əvvəl adam yollayıb onunla ülfət və dostluq etmiş, öz dostluq və nökərlik təklifini bildirmişdi. Budur, indi Xorasan mülkünü tutmaqdan ötrü [bizim] ali məiyyət həmin tərəfə gəlməkdədir. Xan əgər öz sözünə sadiqdirsə, yubanmadan ali orduya birləşib görüş səadətinə yetişsin, həmin mülkdə xütbə və sikkəni öz adı və xanlıq ləqəbi ilə ziynətləndirilsin ki, bizim lütfkarlığımıza yetişmiş olsun və biz o vilayətin idarə olunmasını fərmanla ona tapşıraq. Əgər o həmin vilayəti [bizim] ali divana verərsə, biz Mavərənnəhr, Türküstan və Bədəxşan məmləkətlərindəki ürəyi

istəyən hər hansı bir yeri ona verərik. Yox, əgər o, öz sözünə sadiq olub bizə mülazimlik etmək istəməzsə, artıq gecdir. Biz o tərəfə yürüşü qərarlaşdırmışıq və məqsədə yetmədən geri qayıtmaq, səltənət namusuna münasib olan bir əməl deyildir. Əgər bu təklifə əksdirsə, qoy Herat şəhərini boşaldıb qızılbaşlara tərəf getsin".

Məsələnin belə hal almasından Əliqulu xan narahat olmuş, zərurət və məcburiyyət (ezterar) üzündən Abdullah xanla etdiyi aşinalıqdan pərişanlanmışdı. Çünki qızılbaş tayfasının özbəklərlə eyş-işrət etməsi və birləşməsinin mümkünsüz oduğunu anlamışdı. Buna görə də o İranın böyük şəhərlərindən olan və cənnət bağının (rövzeye-rizvan) həsəd çəkdiyi Herat mülkünün hakimliyindən ayrılmaq istəmirdi, həmçinin İraq əhalisinə də etimad bəsləmirdi. Buna görə də zərurət üzündən İlahi qəzavü qədərə razılıq verərək, Heratı möhkəmləndirməyə, qaladarlıqla məşğul olub oranı döyüş ləvazimatı ilə təmin etməyə başladı. Abdullah xan da onun itaət və bağlılığından məyus olub, sürətlə Heratın ətrafına yetişdi, oranı mühasirəyə aldı. Onların arasında hər gün hərb və sədəmə baş verməkdə idi ki, o vəziyyətin şərhi uğurlu bəxtin izni ilə bu kitabın ikinci səhifəsində yazılacaqdır. Müqəddəs Məşhəddə bu məsələdən xəbərdar olan Mürşid-qulu xan, Xorasan ləşkərinin Abdullah xana müqavimət gücünün olmadığını bildiyi üçün, habelə mərhum şahzadə Sultan Həmzə Mirzənin İraqda başına gələn dəhşətli hadisəsi səbəbindən İraqa bir adam göndərmişdi ki, İsgəndər şanlı nəvvabın əmirlərindən və dövlət ərkanından bunu öyrənsinlər: Əgər padşah əlahəzrət [şahzadənin] səltənəti və vəliəhdliyinə razı olarsa, o, müxalifət və inadkarlığını vəft və ittifaqla əvəz edəcək, İraqa gəlib oranın ləşkəri ilə din və dövlətə müxalif olanların dəfi ilə məşğul olacaqdır.

Amma, göndərdiyi şəxs geri qayıdıb onun istəyinin əksi olan cavab gətirdi.

Mütrəzaqulu xan Pornak isə İraqdan qayıtdıqdan sonra gəlib Damğana çatdı, qardaşı Kazımqulu Sultanı Bəstam ağa və Məhəmməd xan Türkmanın oğlu Bəktaş bəylə birlikdə Müqəddəs Məşhədə - Mürşidqulu xanın yanına göndərdi, birlik və sədaqət izhar etdi, onu İraqa yürüşə rəğbətləndirdi. Yuxarıda yazıldığı kimi, [buna görə də] Fars, Kirman və Yəzd tərəflərdən daim adamlar gələrək, ona öz itaət və bağlılıqlarını izhar edirdilər.

Ağıllı və işbilən adam olan Mürşidqulu xanın, türkman tayfasının ustaclılara olan inadına görə, Mürtəzaqulu xana qarşı elə

bir etimadı yox idi və o, özünün dövlət sərmayəsi olan əlahəzrəti iki-üç min nəfərdən ibarət olan türkman elinə aparmaq istəmirdi, elə buna görə də, Damğan yolunu üstün tutur, fərasətli adam olduğundan İraqa getməyə də cürət etmir, həmçinin Abdullah xanın qorxusundan dövlət və iqbal bağının o çəmənlər bəzəyini müqəddəs Məşhəddə saxlamaq da istəmirdi. O, gecələri bu fikirlə gündüz edirdi. Belə qərara gəldi ki, Yəzd, Kirman və Şirazda olan əfşar və zülqədər əmirləri dalbadal elçi yollayıb onlara öz bağlılıqlarını bildirdikləri üçün, hümayun zilləllah şah məiyyətini Təbəs və Yəzd yolu ilə aparsın, o camaatı özünə birbşdirib səylə İraq vilayətinə qədəm qoysun, Mürtəzaqulu xan da türkman tayfası ilə Damğandan Kaşana gəlib Vəlican xanı özünə birləşdirərək İraqda hümayun orduya qoşulsun. Qardaşı İbrahim xanı müqəddəs Məşhədə hakim edib, Əsfərayin hakimi Əbu Müslüm xan Cavuşlu, Cam hakimi İğvət Sultan Çavuşlunun oğlu Məhəmməd xan, Xəbuşan hakimi Budaq xan Çekənini onun yanında qoyaraq, sanki Herat səmtinə - özbək qoşununu dəf etməyə yollandı, əslində isə İraqa getmək məqsədi ilə üfüqlər padşahının məiyyətindən müqəddəs Məşhəddən çıxdı. Təbriz yaxınlığına çatdıqda ona bəzi xəbərlər gəlib çatdı və o, düşündü ki, əvvəlki fikrindən əl çəksə, İraqa Damğan və Semnandan getsə daha yaxşı olar.

Əvvəlcə xəbər gəldi ki, Mürtəzaqulu xan Damğanda varlıq paltarını fəna köhləninə bağlayıb dünya evindən iqba sarayına köçmüşdür. Onun ölümü ilə Mürşidqulu xanın türkmanlardan qorzusu və ustaclı camaatının Damğandan keçib-getmə xofu zayil oldu. İkinci xəbər bu idi ki, İraq əmirlərinin İsgəndər şanlı nəvvabın və Əbu Talib Mirzənin ordusunda İsfahana gələrək oradan Fars, Kirman və Yəzd işlərini nizamlamaq üçün gedəcəkləri xəbəri eşidildi. Belə olan surətdə, əfşar və zülqədər əmirlərinin onların qorxusundan gəlib ali məiyyətə birləşməsi təsəvvürə belə sığmazdı və arzu olunan işlər düşünüldüyü kimi baş tuta bilməzdi. Çünki, böyük xilafətin paytaxtı olan Qəzvin darüssəltənəsi boşalmış, İraq əhalisinin əksəriyyəti, xüsusilə hümayun paytaxtı qorumaqla məşğul olan şamlılar Aşur ağaya dövlətxahlıqla belə demişdilər ki, İraqa gəlməyə qoy tələssinlər, tez gəlsinlər ki, görüləsi işlər Allahın köməyi ilə istənilən tərzdə həyata keçməkdədir. Həm də Əbu Talib Mirzə tərəfdarlarından və Əliqulu xan Fəthoğlunun yetirməsi, etibarlı adamı və xeyirxahı olan Simnan hakimi Şahverdi Sultan Beytoğlu Zülqədər artıq ölmüşdür.

Məhz dövlətin böyüməsinə (ezdeyad) və genişlənməsinə yönələn bu vəziyyətin baş verməsi və Damğandan keçib İraq yolu ilə getmək fikri bütün dövlətxahların ürəyincə oldu. Şah dövlətinin tərəfdarları bu təklifi bəyəndilər və dayandıqları yeri tərk edib müqəddəs Məşhədə qayıtdılar. O, bir neçə gün vaxtını qala təmiri və bürc-barıların möhkəmlənməsinə sərf etdi. Nəhayət, Məşhəd qalasının zəruri işlərinin görülməyindən arxayın olub, ondan ötrü canından keçməyə hazır olan beş-altı yüz mülazimi ilə müqəddəs rövzədən və cinlərin və insanların imamı [həzrət Rzanın] - ona və əcdadına Allahın salamı olsun - pak ruhundan mədəd istəyərək, İlahi iltifat qoşununun, xoşbəxt talenin və müzəflər bəxtin köməyi ilə müqəddəs Məşhəddən çıxdı. Aya baxıb sürətlə getməyi istixarə etdilər, buna görə də heç yerdə dayanmadılar. Elə ki, Damğana çatdılar, Mürtəzaqulu xanın orada olan qardaşları və oğlanları bellərinə xidmətkarlıq kəməri bağlayıb şahzadənin qoşununa qoşuldular. Oradan bir adamı Semnan zülqədərlərinin yanına yollayaraq, Şahverdi Sultan Beytoğlunun vəkili, onun vəfatından sonra isə ağsaqqalların məsləhəti və Əliqulu xan Fəthoğlunun icazəsi ilə hakim olan Əhməd Sultanı itaətə dəvət etdilər. O, razılaşmağı münasib bilib öz etibarlı adamlarını hümayun ordunun pişvazına yolladı, Semnan qalasının qapılarını bəxt və dövlət qapıları kimi onun üzünə açdı və təmtəraqlı qoşunu və mülazimət səadəti ilə müşərrəfləndi, şahanə iltifat və şəfqətə yetdi. Oradan Qəzvin darüssəltənəsinə adam yollayaraq Qorxmaz xan Şamlını, şəhərin əhalisini və əyanlarını müzəffər ordunun qarşılanmasına təşviq etdilər. Qorxmaz xan Qəzvin darüssəltənəsində olan İsmayılqulu xanın qardaşını, şamlı ağalarını və tayfa böyüklərini, həmçinin oradan Çərəndab Sultanın oğlu Abbasəli Sultanı və göstərilən şəhərin camaatını toplayıb onlarla itaət və ya müxalifət barədə məsləhətləşdi. İsmayılqulu xanın qardaşları və Vəli Xəlifənin təbəələri və övladları itaətə razı olmadılar, amma sadə qoşun üzvləri və rəiyyət hücum çəkərək şahzadənin mübarək gəlişinədək hədsiz sevinc izhar edərək, şadyanalıqla Abbasi şüarları söyləməyə başladılar.

Xülasə, hamı tabeçilik məqamına gəlib müxalifət qapılarını bağlayaraq, iqbal rəhbərinin (qayede-eqbal) dəlaləti və onları [düzgün yola] yönəltməsinə görə dəstə-dəstə ali məiyyətin istiqbalına tələsdi. Qardaşı tərəfindən Rey hakimi olan Əliqulu xanın qardaşı Hüseynqulu Sultan Fəthoğlu müqəddəs ordunun təşrif

gətirməsi və qorxubilməz əhalinin hücumu xəbərini eşidib, orada dayanmadı, öz var-dövlətinin çoxunu tullayıb, kutvalları fəthoğlu tayfası olan və Təhmasib Mirzənin saxlandığı Ələmut qalasına getdi, məğlubedilməz səltənət havadarları isə ali qoşunla birlikdə əlahəzrətin məiyyətində heç bir maneə görmədən Qəzvin darüssəltənəsinə yollandılar. Şahzadə xoşbəxt bir saatda şəhərə daxil olaraq öz böyük babasının mübarək dövlətxanasında səadətlə nüzul etdi, səltənət və padşahlıq paytaxtı şahənşahlıq taxtının (məsnəd) işığından və [Şah Abbasın] səadətli qədəmlərinin parıltısından rəngarəng (buqələmun) fələyədək yüksəldi. Əhalinin vəziyyət dilləri bu məqamda belə deyirdi:

Şer:

Dövrandan kam alan ey şahi-kamkar,
Dünya sultanları qulamın olar.
Əyləş sevinc ilə şahlıq təxninə,
Dövlətin sikkəsi məxsusdur sənə.[416]

Xülasə, elə ki, hümayun paytaxt Xosrov əzəmətli və yüksək məqamlı həzrətin şərafətli qədəmi ilə şərəfləndi, Mürşüdqulu xan ali divan vəkalətini heç bir etiraz görmədən özünə götürdü və hümayun dövlətin hər bir tərəfindən qızılbaş tayfalarının əmir və ağsaqqalları cahana pənah verən dərgaha axışmağa başladılar. Vəlican xan Kaşandan çıxıb Rey yoluyla sürətlə Qəzvinə gələrək ayaq öpmə şərəfi ilə şərafətləndi. Mürşidqulu xan Əhu Talib Mirzəçilərin əmir və xanlarından qorxur, bir ləhzə də onların [gələcəkdə] görəcəkləri tədbirlərin fikrini başından çıxara bilmir, hər bir məsələdə ehtiyatkarlığı unutmurdu. O, şəhər kənarında və İsfahan yolu üstündə olan Pirəsufiyan kəndində dayanaraq həmin yoldan xəbərdar olmalarından ötrü bütün türkman əmirlərini Pir Qeyb xan Uctaclı və qardaşları ilə birgə [irəli] göndərdi.

Amma Əliqulu xan, İsmayılqulu xan və Əbu Talib Mirzə tərəfdarları olan əzəmətli omirlər İsgəndər şanlı nəvvabın və

[416] Beytin farscası:
K-ey şahe-kamkar ke dövran be kame-tost,
Soltane-çarbaleşe-gərdun qolame-tost.
Xoş təkye zən be məsnəde-şahane-namdar,
K-əndər zəmane sekkeye-dövlət be name-tost.

mirzənin məiyyətində Cərpadqandan keçib darülmöminin olan Quma çatdıqda, əlahəzrət zilləllah şahın hümayun məiyyətinin gəlmə xəbəri onlara çatdı, bərk qorxuya düşərək, Qum hakimi Əliqulu Sultan Zülqədəri çağırmaqdan ötrü adam yolladılar, amma o, gəlməkdən vaz keçib qala qapılarını bağladı, onlara müxalif münasibət bildirdi. Əliqulu xan, Əliqulu Sultanın belə hərəkət edəcəyini təsəvvür etmədiyindən və onu fədəvilərdən biri güman etdiyindən bu məsələni olduqca təəccüblü (estebad) saydı. İsmayılqulu xan və əmirlərlə həzrət Məsumə* əleyhanın - ona və əcdadına salavat və salamlar (təhiyyət) olsun - nurlu məzarını ziyarət etmək bəhanəsilə ordudan ayrıldı və Quma gəldi.

Əmirlər [Əliqulu Sultanın] yanına dilli-dilavər və etibarlı bir adam yollayıb ona müttəfiqlik etməsini və geri qayıtmasını təklif etdilər. Belə məktub yazdılar: "Biz sənin yanına mehman kimi gəlmişik. Belə olan halda mizbanlıq şərtinə əməl et. Bəzi zəruri söhbətlər vardır ki, gərək sənlə üzbəüz danışaq". O, cavabında belə yazdı: "Qoroğlu tayfası mənim gəlməyimə mane olmuşdur və onların başlarında abbasilik havası vardır. Mənim buna ixtiyarım yoxdur". Əmirlər bu haldan məyus olub müqəddəs rövzəni ziyafətdən sonra orduya qayıtdılar.

O vaxtlarda əmirlər elə təkəbbürlü idilər ki, Mürşidqulu xanı və Xorasan camaatını heç saya salmırdılar və həmin günlərdə onların az bir dəstəsi qəflət yuxundan və qürur badəsindən ayrılıb hüşyar ola bildi. Qum yaxınlığındakı Savəyə çatdıqları zaman ailələri Qəzvində olan orta təbəqəli ordu əsgərləri icazə almadan dağılışıb öz evlərinə getməyə başladılar. Əzəmətli xanlar İsmayılqulu xanın qardaşı Mürşidqulu Sultan Şamlıya tapşırdılar ki, öz qoşunu ilə yolu kəssin və icazəsiz şəhərə gedən hər bir kəsi qətl və qarət etsin. Bu tədbirin onlara heç bir xeyri olmadı və gedənlər öz var-yoxlarını yerə tökərək gecələr naməlum yollarla qaçıb getməyə başladılar. İş o yerə çatdı ki, Mürşidqulu Sultan onların qarşısını almaqdan aciz oldu. Qızılbaş əyanları məsələnin üstündən pərdəni götürüb açıq-aşkar əmirlərə dedilər: "Əzəmətli qorçilərin, xasseye-şərifə mülazimlərinin və başqalarının xanəköçləri Qəzvin darüssəltənəsindədir, əgər bu iki dəstə arasında müxalifət başlansa məsələ qırğına səbəb olacaqdır. Əgər elə olarsa, etimal ki, Mürşüdqulu xan və onun adamları bu ordunun xanəköç və alilərinə əl uzadacaqlar. [Adamlar] bu narahatlığı rəf etməkdən ötrü hövsələsizlik edirlər".

Bu iki dəstə arasında başlanacaq qırğının əksər qızılbaşların ürəyindən olmadığını görən əmirlər hər ləhzə bir fikirə və hər dəm bir əndişəyə düşürdülər. Bundan başqa Əliqulu xan İsmayılqulu xanın yekdilliyi və sadiqliyindən xatircəm deyildi və onların bir-birləri ilə münasibətləri razılaşma, birlik və dostluq əsasında qurulmamışdı. Əliqulu xanın hər hansı bir hərəkəti İsmayılqulu xan tərəfindən bəyərilmirdi. Əliqulu xanın iddiası belə idi: "Qızılbaşlar arasında ixtilafların kəskinləşdiyindən camaatın əksəriyyəti Qəzvinə üz tutmuşlar, biz isə belə gərgin bir vaxtda əlahəzrətin mənsubları olan xorasanlılara müqavimət göstərə bilmərik.

Padşah və şahzadə bizim hansımızı istəyərsə, Savədən Həmədana gedib orada da dayanarıq. Bu zaman İraq camaatı bizim Həmədanda olmağımızdan bir nəticə çıxarıb Qəzvinə getməkdən vaz keçərək öz yerlərindən tərpənməyəcək. O zaman belə bir xəbər yayılacaq ki, Xorasandan gələnlər əliboş və pərişanhaldırlar. Amma bizim xəzinəmiz və bütün şeylərimiz öz yanımızdadır. Bunu bilən əsgərlər onlardan üz döndərib bizim ətrafımızda cəm olacaqlar. İndi biz gərək bir neçə gün özümüzü qoruyaq və "Əl-leyl hobla ma təbla sərayere"[417] misrasına uyğun olaraq

[Misra]

"Hamilədir gecə, görək nə doğar"[418]

deyərək, özümüzü bir güşəyə çəkək və gözləyək ki, qeyb pərdəsi arxasından nə görsənəcəkdir".

İsmayılqulu xan bu fikri rədd edib belə söylədi: "Hazırda bu orduda olan camaatın hamısının xanəkiçu və ailəsi Qəzvindədir, buna görə də onlar oraya gedib öz əhl-əyalı başları üstündə olmaq istəyirlər. Əgər Həmədana tərəf getsə bu, məğlubiyyət əlaməti olacaqdır, çünki indi bizimlə yoldaş olanlar bizə mat qalıb bəzi işlərə əl atacaqlar və yanımızda bircə adam da qalmayacaqdır. Əgər elə olarsa, biz tamamilə məhv olarıq. Gərək əvvəlcə, Qəzvinə gedək.

[417] Misranın ərəbcədən təzcüməsi:
"Görək nə dəğacaq hamilə gecə"
[418] Misranın farscası:
"Bebin ta çe zayəd, şəb abestənəst"

Mürşidqulu xanın adamları çox deyil, eşidirik ki, onun adamları zorla ona tabe ediliblər, qoy onda bizim istəyimizlə hərəkət etsin. Bizim gücümüz və qüdrətimiz ondan çox, İraq ləşkəri isə Xorasan ləşkərindən artıqdır. Onu aradan götürüb, ürəyimiz istəyən hörmətli şahzadələrdən birini vəliəhd kimi səltənət taxtına çıxardarıq".

Əliqulu xan isə heç vəchlə onunla razılaşmır və deyirdi: "Əgər Qəzvinə gedib öz ixtiyar cilovumuzu bircə günlüyə də Mürşidqulu xana versək, o, elə həmin gün bizi aradan çıxaracaq, sabahkı günə sağ çıxmayacayıq. Zəruri tədbir və ehtiyat üzündən biz gərək ondan uzaq olaq və bir neçə gün yanına adam yollayıb onunla yazışaq, görək bu şəbədəbaz fələk daha nə kimi şəbədə hazırlayacaq".

Xülasə, onlar tədbirin kökünü əldən vermişdilər, çünki bir-biriləri ilə əlbir deyildilər. Onların arasındakı çaxnaşma hamıya bəlli oldu. Aşağı və orta təbəqədən olan adamların fərar etməyi başqalarına da sirayət etdi. Hər gecə bir dəstə ayıq qızılbaş əyanı fərar edirdi. Onlar səy edirdilər ki, şaha mülazimlik etmək işində bir-birilərini üstələsinlər.

Əmirlərin Qəzvinə getməkdən başqa qeyri fikirləri olmadığından belə qərara gəldilər ki, ordudakı əmirlər, yüzbaşılar, qızılbaş tayfa əyanları və hər oymağın hörmətli adamları və onların əzəmətli başçıları Əliqulu xan Fəthoğlu, İsmayıl qulu xan Şamlı, Şahvcrdi Xolifo Eynalh Şamlı, Əsəlməs xan Zülqədər Möhrdar, Ədhəm xan Türkman, Şahqulu Xəlifə Rumlu, Seyid bəy Kəmunə, İsmayıl Sultan Alplı Əfşar, Şirazın hakimi olmuş Şahqulu Xəlifə Zülqədər, Həmzə Xəlifənin oğlu Mehdiqulu Sultan Talış və başqa ustaclı, şamlı, bayat əmirləri, mosullu türkman əmirzadələri, İsgəndər şanlı nəvvabın anası Sultanım və başqaları bir yerə toplaşıb belə əhd və şərt etdilər ki, qoy hamı bir-biri ilə dəst və əlbir olsun, bir-birilərinin məsləhətindən çıxmasın, özünün istəyi, ya qeyrisinin təhriki ilə bir-birilərinə qəsd etməsinlər və hər kəs onlardan birinin (İsmayılqulu və Əliqulu xanın - Ş.F.) cəzasını versin, bu işdə hamı birləşib onu dəf etsin.

Bütün əmirlər, yüzbaşılar və qızılbaş mötəbərləri vəzir Mirzə Məhəmmədin evinə yığışıb Quranı orlaya gətirdilər yuxarıda zikr olunan tərzdə hamı Allahın kəlamına and içdi.

Hələ Qəzvinə getmək barədə qəti qərara gəlməmişdilər ki, Əliqulu xanla dəst olan və onun etimadını qazanan əmirlərdən əvvəlcə Mehdiqulu Sultan Talış və Allahqulu Sultan Talış Kəngərli

fərar etdilər və heç kimdən icazə almadılar. Ustaclı tayfasının əksəriyyəti də qaçdı və Əliqulu xanla çox az adam qaldı.

Amma şamlı tayfası səbat addımı ataraq İsmayılqulu xanın yanından dağılışmadı. O zamanlar onun çoxlu əyanları və başqa adamları olduğundan, xan onun məsləhətindən çıxa bilmədi. Buna görə də, Mürşidqulu xan adam yollayıb [İsmayılqulu xana] belə yazmışdı: "Sən əziz adama məlumdur ki, şamlı və ustaclı tayfaları arasındakı dostluq qədimdir və onlar həmişə müxtəlif hadisələr baş verərkən birlikdə olmuşlar və heç zaman ayrılmamışlar. Buna görə də, gərəkdir ki, bu dövlətdə şamlı tayfasının əzəmətli əmirlərindən biri və ağsaqqalı dövlət adamlarının başçılarından biri olsun. Bu gün şamlılar arasında seçilən adamların biri Durmuş xanın nəvəsi və Herat hakimi olan Əliqulu xan, ikinci isə sənsən. Onun bizimlə və sənինlə etdiyi ədavət hamıya məlumdur və düşmənin düşməni dost deməkdir. Buna görə də mənimlə sən əziz arasında məhəbbət və dostluq etməkdən başqa çarə yoxdur. Biz ki, Əliqulu xan Fəthoğlu ilə bir oymaqdanıq, o, vəkalət mənsəbini tutmaq və ağsaqqallıq etməkdən ötrü bizim qorxumuzdan bu tərəfə gəlmək istəmir. Belə olan halda, bəs sən əziz nədən qorxursan?"

Xülasə, Mürşidqulu xan şəraitə uyğun olaraq şirin dilini işə salmaqda idi, amma onun sözlərində sədaqət yoxdu. Amma, zahirən doğru sözlər kimi göründüyündən, İsmayılqulu xan ona inanıb, Qəzvinə getməkdən başqa heç nə söyləmirdi. Əliqulu xan isə bunu başa düşürdü, amma belə deyirdi: "Mürşidqulu xan mənim oymağımdandır. Mən onu səndən daha yaxşı tanıyıram. Onun mülayim rəftarına və məsləhətli sözlərinə qətiyyən inanmaq olmaz. Əgər əlinə düşsək, bir gün bizi cəzalandıracaq. Şamlı camaatı arasında iddialı adamlar çoxdur, buna görə də o, başqa bir adama vəzifə verəcəkdir ki, onun özünün yetişdirməsi olsun. O, məndən çox səni dəf etmək istəyəcək. Gərək özümüz haqqında düşünək".

Sözün qısası, əlahəzrətin dövlət büsatını bəzəyən qeyb aləminin iş düzəldənləri tədbir yolunu onların bəsirət gözlərindən gizlətdilər. Onlar da [buna görə] heyrət səhrasında sərgərdən qaldılar. O tayfanın ixtiyar cilovunun təqdir rəhbəri (qayed) onları mətləblərinə müxalif olan və başı göylərə ucalan dövlət övliyalarının məqsədlərinin yerinə yetməsi yoluna sövq etdi.

Xülasə, İsmayılqulu xan istər-istəməz onun yanına getməyi qərara aldı, çünki başqa bir çıxış yolu tapmağa razılıq vermirdi. Çox danışıqdan sonra belə qərara aldılar ki, onların hər biri özünün bir

nəfər ağıllı və etibarlı adamını Qəzvinə göndərsin, şahzədəyə səcdə etsin, Mürşidqulu xanla görüşüb ona desin: "Əmirlər və xanlar əbədi dövlətin səbatı naminə öz mətləblərindən keçib, o iki dəstə arasında dava-dalaş olmasını istəmirlər, xeyirxah adamların sözlərindən çıxmırlar, buna görə də onların vəziyyətlərini bəsirət gözü ilə müşahidə edərək qayıtmağı qərara almışlar ki, oranın vəziyyətini öyrəndikdən sonra Mürşidqulu xanın istədiyi kimi hərəkət etsinlər. Əliqulu xan tərəfindən Əhməd bəy Beyi, İsmayılqulu xan tərəfindənsə Əhməd bəy Begdeli Şamlı Qəzvinə getməyə hazırlaşdı. Onlar yola düşərək, Mürşidqulu xanla görüşüb ağıllı və işgüzar söhbətlər etdikdən sonra ondan mülayim rəftar, yağlı dil və arxayın əhval-ruhiyyə görüb geri qayıtdılar, orada görüb-eşitdiklərini bəyan etdilər.

Xülasə, istər-istəməz Qəzvinə getmək qərarına gələrək Savədən çıxdılar. Xoşkruda çatdıqda, Qəzvindən ustaclı ağsaqqalları cənab Mir Seyid Hüseyn Müctəhid, Abbasəli Sultan Şamlı və Əhməd bəy Eşikağası elçi sifətilə gələrək, Mürşidqulu xanın adından əzəmətli xanlara gəlişlərinin səbəbini bildirdilər. Dedikləri müxtəsər şəkildə belə idi: "Fələyin məsləhəti ilə qızılbaşlar arasında iki tirəlik başlamışdır ki, bunun nəticəsində aralıqda şər və fəsadlı əməllər baş vermişdir. Buna görə də, dinin düşmənləri ürəkləndilər və qızılbaşlara xas neçə məmləkət rumiyyənin əlinə keçdi. Hal-hazırda isə Xorasan səmtində özbəkiyyə qoşunu fürsət tapıb oranı tutmaq üçün hücuma keçmişdir. Əgər qızılbaşların arasındakı ixtilaf aradan götürülməsə, nə Xorasan ləşkərinin özbəklərə qüdrəti, nə də İraq qoşununun rumiyyəyə qüvvəti çatacaqdır. Əgər bu minvalla iki-üç il də ötsə, din və dövlətə böyük xəsarət yetişəcəkdir. Mən, Abdullah xanın Xorasana gəlib çatdığı bu vaxtda dövlətə bunu layiq bilmədim ki, İsgəndər şanlı nəvvabın böyük fərzəndi və qızılbaşlar dövlətinin sərmayəsi olan, hümayunlarında günəş kimi cahandarlıq nurları (ənvar) parlayan bir padşahzadəni Xorasanda saxlayıb özbəkiyyə əsgərlərinin mühasirəsinə rəva bilək. Buna görə də bu vəlayətnişan xanədanın bizə bəxş etdiyi haqqını nəzərdə saxlayıb o həzrəti bura gətirdik. Məqsədimiz birlikdən, dinin qüvvətlənməsindən və düşmənlərin dəfindən başqa heç nə deyildir. Əzəmətli xanlardan və bu qüdrətli dövlətin ağsaqqallarından istəyimiz budur ki, inad və qərəzi tərk etsinlər, [biz də] bir-birilərimizlə birləşib dövlətə layiq olan əməlləri qarşılıqlı məsləhət yolu ilə həyata keçirək. [Mürşidqulu xan] göndərdiyi adamlara belə

demişdi: "Əgər əmirlər və xanlar razılıq və birliyə (vəfaq və ettefaq) razı olarlarsa, onlar mənlə dəst olacaqları və mənə qarşı qərəzkarlığa yol verməyəcəklərinin [sübutu üçün] and içsinlər". Buraya təşrif gətirənlər əvvəlcə Əliqulu xanın evinə getdilər, İsmayılqulu xan və başqa əmirlər və ağsaqqallar da onun evinə yığışıb onlarla görüşdülər. İsmayılqulu xan başqalarından tez öz razılığını bildirib Mürşidqulu xanın təşrif gətirməsini alqışladı. Ağıllı və dərrakəli cavan olan Əliqulu xan bilirdi: "Hər ikisi eyni ustaclı tayfasından və vəkilüssəltənə olduqlarından, onların ikisinin bir evdə yaşaması mümkün deyildir, buna görə də onların hansı qüvvətlənə bilsə, o biri ilə yola getməyəcək". Başqa əlacı olmadığından, habelə İsmayılqulu xanın onunla nifaqı aydın olduğundan tam narazılıqla təklif olunan şərtlə razılaşdı. Buna görə də, başqa bir əlacı olmadığından və İsmayılqulu xan ona qarşı nifaqının aydın olduğundan, ikrah hissi ilə olub-olacaqla razılaşdı və edilən təkliflə əlaqədar and içdilər. Bu qərara gəldilər ki, əzəmətli xanların hər biri onlara öz etibarlı adamlarını qoşub şəhərə getsinlər və Mürşidqulu xana da kini tərk etməsi xüsusunda and içdirsinlər, görüş səadəti ilə müşərrəf olaraq müxalifət qapılarını bağlasınlar.

Bundan sonra əmirlər və xanlar elçilərlə birlikdə İsgəndər şanlı nəvvabın yanına getdilər. Abbasəli Sultan və cənab müctəhidüz-zəmani[419] isə əlahəzrət [Şah Abbas] adından böyük ataya (Şah Məhəmməd Xudabəndəyə - Ş.F.) dua ərz etdilər, mehribanlıq göstərdilər. Onlar Mürşidqulu xanın adından vəziyyətə münasib sədaqət və dövlətxahlıq ifadə edən sözlər ərz etdilər. Belə ikrahlı tərəddüdlər [İsgəndər şanlı nəvvabın] şərafətli xatirinə xoş gəlmirdi. O, artıq səltənət işlərindən yorulub bezmişdi. Buna görə də, İsgəndər şanlı nəvvab əziz fərzəndinin təşrif gətirməsindən şadlandı və Mürşidqulu xanın təklifini bəyəndi. Elçilər öz məqsədlərinə nail olaraq yola düşdülər. Məhəmmədi bəy Sarı Solaq Mürşidqulu xanla görüşüb Əliqulu xanla yaxşı rəftar etməsi və aradakı nifaqın götürülməsi üçün ona and içdirtmək niyyətilə şəhərə getdi. Ordunun bütün əyanları da adam yollayıb şahzadənin mübarək qədəmlərinə "mübarək olsun" dedilər. Elə ki, İraq ləşkərinin biri-birinə dəyməsi, əmirlərdəki dəyişiklik və onlar arasında ittifaqın olmaması xəbəri Mürşidqulu xana məlum oldu, ondan müharibə baş verəcəyi, qan axıdılacağı barədəki qorxu hissi

[419] Müctəhidüz-zəmani, yəni dövrün müctəhidi.

dağıldı, beləliklədə, o, elə böyük işi əlahəzrət zilləllah şahın xəta-bəladan uzaq olan iqbalı sayəsinda asanlıqla həll etdi.

Amma, buraya gələcək adamların böyük bir toplum şəklində yetişəcəklərindən və ona bir sədəmə toxunacağından qorxdu. Gecə-gündüz onların bir yerə toplanmasının qarşısını almaq, əmirləri tək-tək şəhərə gətirmək, Əliqulu xan, İsmayılqulu xan və Məhəmmədi Sarı Solaqla ayrı-ayrı görüşmək, mümkün olduqca, tez bir zamanda onları dəf etmək və özünü onların bəlasından qurtarmaq barədə düşünürdü.

Cənab müctəhidüz-zəmani, Abbasəli Sultan və Əhməd bəy Eşikağası geri qayıdıb İraq əmirlərinin əhvalını və Məhəmmədi Sarı Solağın gəlişini dedilər, Mürşidqulu xan hal-hazırkı saatın bəd olduğunu bəhanə gətirib görüş üçün yaxşı saatın yetişəcəyi vaxta qədər Məhəmmədi bəyin tirə-kaman qorçisi Məhəmməd Şərif bəy Cavuşlunun evində qalması barədə sərəncam verdi. O, sonra ali hümayun möhürünü basıb hər bir əmirin və vəzirin adına ayrı-ayrı məktublar yolladı ki, onlar əlbir ola bilməsinlər, ayrı-ayrılıqda şahzadəyə mülazimət şərəfinə nail olsunlar. Bu halı müşahidə edən Məhəmmədi bəy bildi ki, Mürşidqulu xan və onlar arasında saziş olmayacaqdır.

Amma, İsgəndər şanlı nəvvabın ordusunun vəziyyəti belə idi: Məhəmmədi bəyin getməsindən sonra orduda tam ayrı-seçkilik başlandı. Böyük və kiçik döyüşçü təbəqələri heç kimsənin əmrinə tabe olmayaraq qorxu-hürküsüz qaçdılar. Ordu dağılmağa başladı. Hətta şaha məxsus evlərin əmələləri öz iş yerlərini atıb getdilər. Nağaraxana əmələləri isə kərənay və şah nağaralarını özləri ilə götürüb şəhərə apardılar, orada əlahəzrətin adını nəvazişlə çəkərək bərk səs-küy saldılar.

Oradan çıxıb irəli gəldikləri gün əmir-axurlardan, cilovdarlardan və tövlə əmələlələrindən iki-üç nəfər də qalmamışdı ki, İsgəndər şanlı nəvvab və Əbu Talib Mirzəni ata mindirmək üçün cilov çəkilsin. Xidmət əhlindən Zeynal bəy Şərbətdardan, bir neçə usta şagirdindən və qulamlardan başqa, Əbu Talib Mirzənin xidmətində heç kimsə yox idi. Həmişə səltənət sarayının ətrafında toplaşıb padşah və şahzadənin ata süvar olduqları vaxt kərənayçaları əzəmətli əmirlər bu dəfə dövlətxana qapısına gəlmədilər. Onlar beləliklə bir-birilərindən şübhələnib o köç zamanı bir-biri ilə görüşmədilər, hətta şəhərə gedən Məhəmmədi bəyin onlara nəsə bir xəbər çatdıracağını da gözləmədilər, şəhərə gəlməkdə səbirsizlik

edib dörd fərsəxlikdəki Məntərə adlı yerə çatdıqları gecə əmirlər bir-birilərindən xəbərsiz şaha baş əymək (səcdə) və Mürşidqulu xanla görüşməkdə biri-digərindən qabağa düşmək istəyində oldular. İsmayılqulu xanın qoşununun sayı və adamları çox olduğu üçün Əliqulu xan ondan qorxurdu. O, gecədən bir qədər keçmiş İsmayılqulu xandan xəbərsiz Əhməd Sultan Asayişoğlu, Qənbər bəy Gözüböyüklü və yanında olan bir dəstə adamla şəhərə rəvan oldu. Elə İsmayılqulu xan da bu fikrə düşüb, Şahverdi Xəlifə Eynallı və qardaşı oğlu olan qorçiye-şəmşir Həsən bəy, Piri bəy Eynallının oğlu Rzaqulu bəy Eşikağasıbaşı və beş yüz nəfərə yaxın şamlı camaatı ilə birlikdə atlara süvar olub şəhərə yollandı. Hal-hazırkı vəzir Mirzə Məhəmməd və vəzirlikdən kənar edilmiş Mirzə Lütfi və onun müstövfiəl-məmalik olan oğlu Mirzə Məhəmməd Zaman narahat oldular ki, məbadə Əliqulu xan və İsmayılqulu xan başqa fikrə düşüb tacik olan bu kəslərdə qızıl (zər) ola biləcəyi gümanı ilə onların var-dövlətinə əl uzadaraq başqa səmtə gedərlər düşüncəsi ilə həmin gecə nabələd yollarla şəhərə yollandılar, Qorxmaz xan Şamlının evinə getdilər və ondan xahiş edib özləri ilə dövlətxananın qapısına gətirdilər ki, elə həmin gecə onun vasitəsi ilə şərafətli ayaqöpmə mərasiminə yetib, Mürşidqulu xanla görüşsünlər. Təsadüfən, onların hamısı, yuxarıda yazıldığı kimi, mübarək Qəzvin dövlətxanasında toplaşmışdılar.

"Gördüyün hər kəsi görməkdəsən eyni dərddə"[420]

misrasında deyildiyi kimi orada bir-birilərinin yığışıb gəldiyini gördülər. Mübarək dövlətxana qapılarını möhkəm bağlayan Mürşidqulu xan onların mühafizəsini Xorasandan gələnlərə tapşırmışdı. Elə ki, bu qədər camaatın gəlişindən xəbər tutdu, həqiqi məqsədi o iddialı adamların bir neçəsini aradan götürmək olduğundan, bu beytin məzmununa uyğun olaraq:

Beyt:

Gündüz-gecə dövlət ki, onu arzu edərdim,

[420] Misranın farscası:
Be hər ke bengəri be həmin dərd moblələst.

Yol tapdı evin həndəvərindən özü gəldi.[421]

onun istəyi ali hümayunun gücü ilə asanlıqla həyata keçmiş oldu. [Mürşidqulu xan] onların gəlişini çox böyük qələbə sanıb belə qərara gəldi ki, hər birini bir mülazimi ilə dövlətxanaya gətirib başqa adamlarını saxlamasınlar, onlar qoy öz evlərinə getsinlər və sabah dövlətxanaya təşrif gətirsinlər.

Sarayın qapıçı və mühafizləri dövlətxana qapılarını açıb əzəmətli xanları və onların yoldaşlarını içəri buraxıb, döyüşçülərini isə uzaqlaşdırdılar. Mürşidqulu xan onların yanına adam yollayıb dedi: "Siz həzrətlər, sədaqətli və sufipərəst olduğunuza görə, evlərinizə qayıtmanızdan əvvəl mübarək dövlətxanaya gəlmişsiniz. Sufilik təriqi belədir ki, siz əvvəlcə (şahzadə Abbas Mirzənin – Ş.F.) ayağını öpməklə müşərrəf olasınız. İndi şərafətli nəvvab yatmışdır. Siz bu gün dövlətxanada qalın ki, sabah şaha baş əyməklə müşərrəf olasanız".

Onları dövlətxana və "At meydanı" arasındakı evlərə apardılar və həmin gecə üstlərində göz oldular. Əmirlər anladılar ki, həbs olunublar, ali şahın yanına getmək səadəti ilə şərəflənə bilməyəcəklər, Mürşidqulu xanla görüşmək onlara qismət olmayacaqdır. Sübh açılan kimi mühafizəçilər gəlib onlarda olan bütün silahları yığdılar və beləliklə də həbs əlaməti zahir oldu.

İsgəndər şanlı nəvvabın ordusundakı vəziyyətə gəldikdə isə məsələ belə baş vermişdir: Alişan xanların gedişindən xəbər tutan başqa əmirlərin hər birisi öz adamları ilə birlikdə şəhərə gəlib öz evlərində gecələdilər. Ertəsi gün əmrə müvafiq olaraq Qorxmaz xan Şamlı, Mürşidqulu xanın vəziri Mirzə Şahvəli və bir dəstə ustaclı ağsaqqalı İsgəndər şanlı nəvvabı Əbu Talib Mirzə ilə şəhərə gətirmək üçün onların istiqbalına getdilər. Gördülər ki, İsgəndər şanlı nəvvab və nəvvab şahzadə xeyrnədə əyləşib, İlahinin əməlinə heyran vəziyyətdə qalmışlar. Hər ikisini atlara mindirib şəhərə gətirdilər. Elə ki, dövlətxanaya çatdılar, əşrəf kamyab nəvvab (Abbas Mirzə -Ş.F.) öz böyük atasını istiqbal etdi, onun əlini öpməklə müşərrəf oldu, əziz qardaşını mehribanlıqla qucaqladı. Atasının əlindən tutaraq onu müqəddəs hərəmxanaya gətirdi.

[421] Beytin farscası:
An dövləti ke, mitələbidim ruz-o şəb,
Porside rahe-xane-və xod bər dər amədе.

Fələyin nahamvar vəziyyətindən və fani dünyanın keşməkeşlərindən cana doymuş İsgəndər şanlı nəvvaba elə onsuz da dinc və rahat bir guşə lazım idi. O, öz əziz fərzəndi ilə görüşdən olduqca şadlandı, səltənət və padşahlıqdan əl çəkib, oğlunun humayun başını şahlıq tacı ilə bəzədi, öz ata-babasından ona çatan irşad əmanətini əziz fərzəndinə təhvil verdi, əhali və İraq ləşkəri tərəfindən indiki vaxta qədər "Abbas Mirzə" çağırılan mübarək ad "Şah Abbas" adlanmağa basladı.

Həmin gecə səltənət qadınları, cənnətməkan şahın pak qızı, alilər alisi və İsgəndər şanlı nəvvabın anası olan Zeynəb bəyim başda olmaqla səltənət çadırının qadınları şahzadələrlə birlikdə şəhərə gələrək müqəddəs hərəmxanaya daxil oldular, [yeni şahla] görüşmək şərəfinə yetdilər. Əlahəzrət zilləllah şahın bəxtindən onun güclü düşmənləri belə asanlıqla ələ keçirildiklərindən [Mürşidqulu xan], onları dəf etmək fikrinə düşdü, onları - o dikbaşları təcili olaraq həyatdan aparmağı münasib bildi. İsmayılqulu xanı öldürməklə şamlı tayfasından bir qədər çəkinən Mürşidqulu xan Qorxmaz xana onu şamlıların ağsaqqalı edəcəyi barədə vədə verib özünə müttəfiq etdi.

Ertəsi gün o, "Çehelsütun" sarayına gəlib bəzədilmiş divanxanada, oradakı əmir və dövlət başçılarının hüzurunda əlahəzrət zilləllah şahı hörmətli anasının icazəsi ilə hümayun taxta əyləşdirdi.

O məclisdəki bellərinə dövlətxahlıq kəməri bağlamış olan qızılbaş əmirləri və əyanları Əbu Talib Mirzənin xanlarını şəhid olan şahzadənin (Həmzə Mirzənin - Ş.F.) qanında müqəssir bilib, xüləfalara və ağsaqqallara xitab edərək, qardaş qanının alınmasını tələb etdilər. Bir neçə qızılbaş tayfası razılıq verib, hümayun qərarı təsdiqlədilər. Belə hökm olundu ki, o camaatı "Çehelsütun" sarayına gətirsinlər və bu xanədanın sufiləri və havadarları onlardan qisas alsınlar.

O camaat əmrə əməl edib aşağı düşdükdə, vəziyyət məlum oldu. Onlar tək-tək saraya yaxınlaşdıqca hər tərəfdən onlara qılınclar yönəlirdi. Əvvəlcə İsmayılqulu xanı doğradılar, ondan sonra Əliqulu xana həmin şərbətdən içirdilər. Məhəmməd bəy Sarı Solağı Məhəmməd Şərif bəy Çavuşlunun evindən gətirib yoldaşlarına tay etdilər. Əhməd Sultan Asayişoğlunun öldürülmək ehtimalı yox idi, amma o, qətl olunan xanlarla yaxın olduğundan, paltarının içərisində gizlətdiyi xəncəri çəkib bir-iki nəfəri yaraladı və buna görə də

öldürüldü. Dəllək Xudaverdi ilə birlikdə rəhmətlik şahzadənin qətlində əli olan Rzaqulu bəy Eynallı da qətl olundu.

Qürur səhrasında sərgərdan olan o əmirlərin hamısı qəbahətli əməllərinə görə öz əməl paltarını əcəl paltarı ilə əvəz etdilər, var-dövlətləri isə müsadirə olundu. Başqa əmir, vəzir və mənsəb sahiblərinin günahları əfv edildi, onlar cərimə ödəməklə ölümdən xilas oldular. Hər birindən müəyyən məbləğ tələb olundu və mühəssillər, onlardan alınacaq pulları Xorasandan əşrəf şahzadənin məiyyətində gələnlərə cibxərcliyi və ənam vermək üçün, işə başladılar. Beləliklə, qarmaqarışıqlıq və fitnə-fəsad yeri olan İran torpağı şahın ədalət nuru ilə günəş kimi parladı və bütün camaat (kafeye-ənam) bu haqda belə dedi:

Şer

Səltənət taxtı bu gündən edər sərəfrazlıq
Ki, onun üstünə birpadşah salıb sayə[422]

Yuxarıda qələm bunu bəyan etmişdi ki, [kitabın] bu cildi on iki məqalədən ibarətdir. Allaha həmd olsun ki, (lillahül-həmd), on iki məqalənin birincisi o həzrətin (Şah Abbasın - Ş.F.) kəramətli sələflərinin (əslaf) və ali məqamlı əcdadının uca məqamlarının (məqamat) şərhi-halı kimi yazılmış, zeyli (məzəyyəl) isə onun özünün şərafətli adına, mübarək və uca (sami) isminə istək qələmi və sədaqət hüsnü ilə qələmə alınmışdır. Həmin təəccüblü və qəribə əyyamda baş verən o həzrətin səadətli təvəllüdündən başlayaraq, onun cahanbanlıq və cahangirlik günəşinin dəğum (tülu) vaxtı olan dövlət və kamranlıq taxtına əyləşməsinə qədər üz verən hadisələri [bu müəllif] öz bildiyi və bacardığı səviyyədə bəyan səhifəsinə yazaraq, bu səadət dəftərinin dibaçəsini bəzədisə də, amma hal-hazırda natamam vəziyyətdədir. Əvvəlki vədimə görə, yüyrək yerişli kəhərin (cəvad) yerişinə bənzər qələmimi söz demək meydanında (mezmar) cilvələndirərək, qalan ön iki məqaləni o həzrətin öz zavalsız hökmranlığı zamanındakı zirək hərəkətləri (ətvare-zəkiyye),

[422] Beytin farscası:
Sərire-səltənət əknun konəd sərəfrazi,
Ke saye bər sərəş əfkənd xosrove-ğazi.

bəyənilən müşahidələri (seyəre-mərziyye) və səadət amallı (xəcəsteməal) əhvalatları da ikinci səhifədə Allahın köməyi və bəyəniş hüsnü ilə müfəssəl surətdə şikəstə qələmlə yazılacaqdır. Bu səhifənin sonunda yazılacaq ki, onu mütaliə edən insanlar yazılanlardan tam məlumat əldə etsinlər ki, aləm karxanəsini nizamlayanların, yaradılan (afərineş) bu cahana nəzarət edənlərin, bilik və qayda-qanun icadçılarının (əbda) köməyi sayəsində o dövran yeganəsinin (Şah Abbasın - Ş.F) cahandarlığının düşünülmüş xüsusiyyətlərini və böyüklüyünü (bozorg-vari) seyr edərək onun nə qədər yüksək şəxsiyyət olduğunu bilsinlər ki, zülcəlalın (Allahın - Ş.F.) köməyi, iqbal ulduzunun (əxtər) qüvvəsi və bəxt ulduzunun (kövkəb) yardımı ilə onun tərəfindən nə kimi böyük fəthlər (fotuhat) baş verib, zəmanə o həzrətin dövlət övliyalarının üzünə tərəqqi qapılarını necə açıb, O, Allahın (Xodadad) mədədi ilə əhalinin işlərini öz hüsnü-tədbiri, düzgün rəyi və elmi ilə necə tənzimləyib. Qoy ki, ölkələr tutan (keşvərgir) sultanlar, rəy və tədbir sahibləri bu təqdir divanının dibaçəsinə nəzər saldıqda [o həzrətin] bəyənilmiş qanunlarını özlərinin əməl qanunu [qanune-kerdar] və davranış dəsturül-əməli etsinlər.[423]

BU NƏŞRƏ ARDICIL DÜŞMƏYƏN (OFTADEGİ) HİSSƏLƏR (MƏQALƏLƏR) HAQQINDA

İrəc Mirzə II cildin 1097-ci səhifəsində yazır: "İskəndər bəy Münşi "Tarixi-aləmaraye-Abbasi"nin birinci cildini (birinci səhifə) on iki məqaləyə bölür, amma təəssüf ki, qədim Tehran çapına əsasən həmin səhifənin yalnız birinci məqaləsi dərc olunmuşdur. Hazırkı çap da həmin nəşrin üzündən çapa hazırlandığından on bir məqalədən xali idi. Mən bu kitabın müxtəlif nüsxələrini əldə etdiyimdən çatışmayan hissələr iki əlyazma nüsxəsi əsasında onun bu çapına daxil edildi. Belə ki, Məclis Kitabxanasında saxlanılan və 1084-cü ildə (miladi 1673) üzü köçürülən bir əlyazma nüsxəsi (N2 2111) əsasında, həmçinin

[423] Qeyd: Bu səhifədən sonra "Tarixe-aləmararaye-Abbasi"nin hazırda üzərində işlədiyimiz İrəc Əfşar çapında (üçüncü çapı) əsərin II cildinin birinci yarısı başlanır, lakin I cildin əvvəlində İskəndər bəy Münşinin bu cildin 12 məqalədən ibarət olması qeydi nəzərə yetirildi. Biz buna görə də II cildin birinci yarısının tərcüməsinə başlamadan göstərilən məqalələrin hamısını ardıcıl olaraq tərcüməmizin 674-cü səhifəsindən sonra verəsi olduq - Ş.F.

yazılma tarixi bilinməyən başqa əlyazma nüsxəsinə əsasən həmin on bir məqalə bu çapa salındı və düşünürəm ki, kitabın nöqsanı aradan qaldırıldı. Kitaba düşməyən on bir məqalə birinci məqalənin bitməsindən sonra 373-cü səhifənin on yeddinci sətrindən başlayır".[424]

İrəc Əfşar

Qeyd: Məni bir mütərcim kimi düşündürən də elə budur. Ustad İrəc Mirzə "Tarixe-aləmaraye-Abbasi" əsərinin çapı əsnasında bu nəşrə ardıcıl düşməyən həmin on bir məqaləni 373-cü səhifənin on yeddinci sətrindən sonra öz yerinə qoya bilməzdimi? Mən ustadın o səhvini təkrar etmək istəmədim və onun tərəfindən II kitabın sonunda yer tutmuş məqalələri birinci cildin birinci məqaləsinin bitməsindən sonra verdim.

Şahin Fazil

İKİNCİ MƏQALƏ

O HƏZRƏTİN ALLAH DƏRGAHINA DİQQƏT VƏ HƏDSİZ BAĞLILIĞININ (ESTEĞRAQ) ZİKRİ

Yüksək seyid mənsubiyyətinə (nəsəb), həmçinin ali mənəvi fəqirlik və dərvişlik mərtəbələrinə, əgər bunlara pəhrizkarlıq (riyazət) və cahad (mocahede) də əlavə olunsa, o həzrətin əcdadı təriqət ərbabı, şeyxlər və Allaha tapınan (əhlullah) olduqlarından, onlardan həmişə Allah dərgahı naminə yüksək möcüzələr (adat) həyata keçirilmişdir, eləcə o həzrət də öz əzəməti, yüksək mərhəməti (məvaheb) və əqidə zənginliyi, [həmçinin] etiqad paklığı baxımından "uşaq atasının sirridir"[425] qeybdən gələn ilhamatın və İlahi nurun həyata bəxş etdiyi hərtərəfli mənəviyyat nümayəndəsi kimi özündə zahiri (suri) və mənəvi hökmranlığı birləşdirmiş, irsən (be həsbe-ers) öz əcdadlarının ali məqamlarından bəhrələnmişdir. Hakimiyyət, cahangirlik, dünya işlərinin

[424] Bizim tərcüməmizdə 674-cü səhifədən sonra - Ş.F.
[425] İfadənin ərəbcəsi: "əl-vələdu sirru əbihi.

nizamlanması mənəvi bir rabitə və imtahan olduğundan o həzrətdən çoxlu yüksək adətlər müşahidə olunmuşdur ki, bütün bunların təfsilatla verilməsi uzunçuluğa səbəb ola bilər. O həzrət heç vaxt Allah dərgahına hədsiz bağlılığından (esteğraq) uzaqlaşmamışdır. Tanrıya itaət və dini ehkamların icrası vaxtı vahidlik (əhədiyyət) dərgahının vüsal bəhrinə o elə qərq olur ki, bu vaxt sanki öz varlığını unudur. O, dövlət işlərini yerinə yetirərkən Allahın məsləhəti olmadan hakimiyyətin və dövlətin nizamı və idarə olunmasında fal (tefal) və istixarəsiz* heç bir işə başlamır, Qurane-Məcidin gözəl kəlamlarla (nəs) buyurduğu yoldan dönmür, hər hansı bir işin icrası nə qədər zəruri olsa belə, yenə də Allahın məsləhətindən uzaq olmur, Allahdan ayrılmır.

ÜÇÜNCÜ MƏQALƏ

[O HƏZRƏTDƏ] TƏQDİR SƏHİFƏSİNƏ UYĞUN GƏLƏN İLAHİ MƏSLƏHƏT VƏ BİLİYİN OTURUŞU (ESABƏT), HABELƏ GÖRDÜYÜ İŞLƏRİN GÖZƏLLİYİ HAQQINDA

Biz məddahlıq və söz bəzəmək şivəsindən uzaq olaraq [xatırladırıq ki,] o həzrət fəhm və fərasətinin zənginliyi, ali idrakı, yüksək fitrəti (olovve-fetrət) cəhətincə mükəmməl biliyə malik bir şəxsdir, dünyanın cari işlərində düzgün mülahizə və fikir sahibidir. Hökmranlıq taxtına əyləşən kimi zəmanə sultanları arasında cahandarlıq qaydalarını, cəng etmə və qoşun çəkmə üsullarını, döyüş səfi bəzəmək məharətini, ədalət və səxavət (dad-o dehəş) tərzini yeniləşdirdi, onun bəyənilən fərmanları və qanunları kamkar padşahların cahanı idarə etmək (karnameye-cəhan) düsturüləməlinə çevrildi. Erkən yaşlarından başlayaraq indiyədək onun bu əbədi hakimiyyəti zamanında baş verən böyük hadisələr, müharibələr, qala və şəhərlərin alınmasında ona mülazimlik edən və dövlət işlərini nizamlayan ağıllı və işbilən insanların fikir və mülahizələri olması ilə yanaşı o həzrətin bütün işlərdə uzaqgörənliyi onların hamısından üstün olmuş, hökmranlıq məsələlərində meydana çıxan hər bir çətinlik nəhayət etibarilə onun müşkillər açan fikri ilə öz həllini tapmışdır. Onun hər barədə düşündüyü hər tədbir təqdirə müvafiq olmuş, bəxt oxu qəzavü qədər oxları kimi murad hədəfinə tuş gəlmişdir. Aqil insanların nəzərincə onun düzgün bilinməyən işləri ən nəhayətdə düzgün çıxmışdır. Hamıya bu məna

zahir və aşkar olmuşdur ki, ən cüzi işlər də daxil olmaqla əhalinin bütün məsələləri, cahandarlıq ayinləri, ölkələrin fətholunma qaydaları bilavasitə asimani ilham və Allahın köməkliyi ilə, şübhəsiz ki, o həzrətin düzgün mülahizəsi və düzgün fikri ilə həyata keçmişdir, onun uzaqgörən (durbin) rəyinin nəticəsidir və heç kim onun işinə müdaxilə etməmişdir.

Nurlu hər rəy ki, olmuşdur onun,
Hamısı sirridir ilkin və sonun.
O düyünlər ki, vurub elmi-bəşər,
Bilmədi açmağı heç kim o təhər.
Elə aqil ki, rəyinin fikri
Mat edir ustadı ustad təki.[426]

O həzrət öz nəfis nəfəsi (nəfəse-nəfis) ilə hökmranlıq taxtına əyləşərək aləmi bəzədikdə yaşının azlığına, düşmənlərinin çoxluğuna, yardımçılarının azyaşlı olmalarına baxmayaraq, İlahinin ona iltifatı sayəsində, həmçinin bəxtinin və iqbalının köməyi ilə, dövlət işlərinin nizamlanmasını və səltənət intizamını elə bir şəklə gətirdi ki,

Misra

Ən bəsirətli adamlar ona heyran oldu.[427]

Çünki, on ildən artıq idi ki, İran məmləkətləri güclü və hökm sahibi olan bir padşahdan xali qalmışdı. Bəzi ləşkər cahilləri, qoşun başçıları və tayfa mötədilləri özlərinin cəhalət, nadanlıq və

[426] Beytlərin farscası:
Ançe məxzune-rəye-ənvəre-ust
Həme əsrar məbdəəst-o məad*.
Oqdehaye-cəhane-daneşra
Hiç təbi ço təbe-u nəqoşad.
Tefle-rəyəş ze bəs xurədməndi
Mizənəd təxte bər səre-ostad.
* Qeyd: Məbdə və məad həyatın başlanğıcı və sonun ifadə edən istilahlardır. D-r Moin "məad" sözünü "axirət aləmi" kimi göstənr (Bax: M.Moin. Göst. Lüğət, c. III, s. 4210).

[427] Misranın farscası:
Ke xire mand dər u dideye-ülul-əbsar.

xəbisliklərinə görə xudbinləşmiş və iki dəstəyə ayrılmışdılar. Onların təmiz əqidə ətəyi sədaqətsizlik çirkabına bulaşmış, hər başda bir sevda yaranmışdı. Bu səbəbdən məmləkətə xələl dəymiş, güclü düşmənlər (yəni osmanlılar - Ş.F.) və özbəklər iki yandan İran məmləkətinə tamah salmış, hər il bir məmləkət əldən getmişdi. Belə bir vəziyyətin və möhkəm qarışıqlığın olmasına baxmayaraq, o həzrət İranın vəziyyətinin yaxşılaşmasına iqdam etdi. Əvvəlcə, yüksək xanlıq və sultanlıq rütbələrinə yiyələnən əmirləri və özbaşınalığa adət edərək həmişə el və oymaq arasında ixtilaf yaradan qoşun başçılarını, el-oba arasında düşmənçiliyə rəvac verənləri aradan qaldırmağa başladı, habelə bu zümrələrdən olan şəxsləri öz səyinin çoxluğu və tədbirinin münasibliyi ilə bir-bir ələ keçirib ədəm diyarına yolladı, işə yararlı insanları isə tərbiyələndirib, yüksək məqamlara və əmirlik dərəcələrinə çatdırdı. Get-gedə əvvəlki yolverilməz vəziyyət əhali tərəfindən unuduldu, mövcud ziddiyyət bir qədər azalmağa başladı, ləşkərlər arasında şahın əmrləri və qadağa tədbirlərinin (nəvahi) nüfuzu artdı, əldən çıxmış məmləkətlər geri qaytarıldı, [üstəlik də] bir çox başqa yerlər onlara əlavə olundu. Bu haqda ikinci səhifədə öz məqamında məlumat veriləcəkdir.

DÖRDÜNCÜ MƏQALƏ

[O HƏZRƏTƏ VERİLƏN] SAHİBQRANLIQ* RÜTBƏSİNİN LƏYAQƏTİ, BAŞ VERƏN TƏHLÜKƏLƏRİN VƏ XOŞ SONLUQLA BAŞA ÇATAN SƏADƏTLİ QRANLARIN" ZİKRİ

Bəsirət sahibi olan şəxslərdən gizli deyil ki, hər sabiq padşahın adının əvvəlinə "sahibqran" sözü artırılmışdır. Bu söz əksər halda [müxtəlif] bəzədilmələrlə münşi və katiblər tərəfindən işlədilmişdir, lakin, əlahəzrətin şəninə uyğun olan bu ifadə tamamilə haqlı yazılmışdır, çünki onun səadətli təvəllüdündən hal-hazıra qədər asimani ulduz yaxınlaşma və birləşmələri (qranat) baş vermişdir ki, onların hökmləri (ehkam) həqiqətən də o padşahın əhvalına uyğundur. Nücum elminin isbat etdiyinə görə, müxtəlif asimani qranlar iqtidarlı bir sahibqranın zühur etməsinə dəlalət edir. Mahir ulduzşünaslar əgər bu hadisəyə dərindən nəzər salsalar, görərlər ki, səltənətin zühuru və dövlətin möhkəmliyi o yüksək

sifatlı zata ulduzların qranları nəticəsində inayət olunmuş, onun ləyaqətli xüsusiyyətləri məhz həmin qranların təsiri və hökmü ilə baş vermişdir. Min on ikinci ildə (miladi 1603/04) üç ulduz qövsü (borce-qovse-mosəllesə) bürcündə bir atəş parladı. Sabiq münəccimlər, xüsusilə Mövlana Məhyəddin Ənarpiyazi bu elmə möhür vuran yüksək dərəcəli bir bilici kimi yazmışdı ki, bu hadisə böyük bir dövlat başçısının zühurunun əlamətidir, elə bir başçının ki, onun səadətli zamanında dünyada, müxtəlif məzhəblərdə və dinlərdə dəyişiklik yaranacaq, bəzi məmləkətlər viran olacaq, sürgünlər, qətl-qarətlər, talanlar baş verəcəkdir. Bu deyilənlər o xoşbəxt həzrətin səadətli əyyamında Azərbaycan, Şirvan və Gürcüstanda baş verən hadisələrlə üst-üstə düşür. Dövranın dəyişkənliyi nəticəsində həmin məmləkətlərdə yayılan batil məzhəb və dinlər [o şəhriyarın] məhz iti qılıncı sayəsində zavala uğradı, qiyamət təsirli ləşkərin gediş-gəlişi, fələyin tələbi və qranların təsirindən bəzi islam ölkələrində dağıntılar yarandı. Bır çox müsəlman və qeyri-müsəlmanlardan ibarət xalq kütləsi öz vətənlərindən ayrı düşdülər, ətraf yerlərə səpələndilər, Gürcüstanda qətl-qarətlər baş qaldırdı və bircə dəqiqə də səngimədi, onların minlərlə qızı və qadını islam dinini qəbul etdi. Kütlə əqidəli adamlar böyük təhlükələri "qran" adlandırırlar. O həzrət südəmər vaxtından (reza) bu günədək çox böyük xətərlər və qranlardan qurtulmuşdur ki, elə hal heç bir sahibqranın başına gəlməmişdir. [Məsələn:]

Birincisi: Körpəlikdən ana-atadan ayrılmaq böyük məhrumiyyət (şədayed) və kədərdir ki, həyatının başlanğıcında (bədayət) o həzrətə üz vermişdir.

İkincisi: İsmayıl Mirzənin hakimiyyəti zamanı şahzadələrin qətli həyata keçirilmişdir ki, [o həzrət] bu pis əməli öz gələcək mətləbinə qeyri-müvafiq bilmişdir. Onun lələsi Şahqulu Sultan Yegan da [o vaxt] Heratda qətlə yetirildi, amma Allah o zatın yeganə hamisi olmuş, yüksək məqamlar arzusunda olan dünyapərəst, xudbin, özündənrazı cahillərin gözləri qarşısına hicab pərdəsi tutduğundan [Şah Abbas] düşmənlərin məkr və təhlükələrindən qurtula bildi.

Üçüncüsü: Ən böyük təhlükə [isə] bu olmuşdur: Xalq arasında yayılan söhbətlərə görə Əliqulu xan Şamlı İsmayıl Mirzə tərəfindən bu alçaq işin (Abbas Mirzənin öldürülməsinin - Ş.F.) yerinə yetirilməsi üçün gödərildi. O, mübarək ramazan ayında Herata çatdı, asimani göstərişlərlə

[Misra]

Görək nə dəğacaq hamilə gecə.[428]

[deyiminin] məzmununa əməl edərək, bərk qorxu ilə ramazan ayının bitməsini gözləməyə başladı. O bəyənilməz işin baş verəcəyi gecə ay kimi nurlu bir qasid sürətlə gələrək, İsmayıl Mirzənin vəfatı və [Abbas Mirzənin] nicatı barədə müjdə gətirdi. Həqiqətən də, bu hadisənin baş verməsi sahibqranın qəribə hallarındandır.

Dördüncüsü: Xorasan və İraq əmirləri arasında İlahi təqdirin hökmü ilə başlayan müxalifətə görə, yuxarıda yazıldığı kimi, İskəndər şanlı nəvvab və ali məkanlı şahzadə Sultan Məhəmməd Mirzə Xorasana ləşkər çəkdi, tərəflər arasında Ğuryan [vilayətinin] Tirpol adlanan yerində qızğın hərb baş verdi, nəticədə Xorasan ləşkəri məğlubiyyətə uğradı. Bu vaxt az yaşlı əlahəzrət bir neçə mülazimi ilə həmin xətərli mərəkədən salamat qurtula bildi.

Beşincisi: Əlahəzrət Heratda yaşayırdı. Onun qəza lövhəsində həmin şəhərin özbəklər tərəfindən tutulacağı və mühasirəyə düşəcək adamların qətl və əsir olacaqları haqqında sözlər yazılmışdı. Bir-birləri ilə iki dost olan Əliqulu xan Lələ və Mürşidqulu xan arasında vəhşət və inadkarlıq yarandı, işlər qətllə nəticələndi. [O zaman] İlahinin təqdiri ilə o həzrətin səadətli bayrağının kölgəsi altında olan şamlı tayfası bərk gözə gələrək (çeşme-zəxme-qəvi) qəhrə məruz qaldı. O mərəkədə əlahəzrətin zirehli döyüş libasına (dər) bir neçə yerdən ox və nizə zərbələri dəyməsinə baxmayaraq onun müqəddəs zatına heç bir xətər toxunmadı. O həzrət əl-cinn və-l-ünsün (İmam Rzanın - Ş.F.) müqəddəs ruhunun cazibə qüvvəsib müqəddəs Məşhədə təşrif apardı, beləliklə də, həmin iki böyük xətadan sağ-salamat qurtardı.

Altıncısı: O həzrətə böyük (əzim) xəstəliklərin üz verməsinə baxmayaraq, Allahın inayəti sayəsində şəfa tapdı. Şirazda atdan yıxılıb bir neçə müddət yatağa düşdüsə də İlahinin iltifatı onu qorudu.

Yeddincisi: Müqəddəs məiyyətin mülazimləri Cığaloğlu ilə cəng zamanı bir neçə əsiri şaha göstərmək üçün gətirdikləri vaxt

[428] İfadənin ərəbcəsi:
Əl-leylu hobla.

məkri kürdlərindən iri cüssəli və qüvvəli bir adam öz uzun qılıncı çəkməsindən (muze) iti bir xəncər çıxarıb o həzrətin üstünə cumdu, özünü onun bənzərsiz bədəninə çatdırdı. O həzrət isə İlahi inayətin köməyi və sonsuz mərhəməti ilə həmin bədniyyət adamın əlini öz mübarək əliylə sıxaraq, xəncəri onun əlindən çəkib aldı, böyük məkr şahın mübarək zatına pislik gətirə bilmədi ki, bu əhvalatların hər biri haqqında öz məqamında məlumat veriləcəkdir inşaallah-təala və həddəl-əziz.[429]

BEŞİNCİ MƏQALƏ

[O HƏZRƏT TƏRƏFİNDƏN] ƏDALƏTPƏRVƏRLİYİN, YOLLARIN ƏMNİYYƏTİNİN VƏ İNSANLARIN YAŞAYIŞ ŞƏRAİTİNİN YÜKSƏLDİLMƏSİ BARƏDƏ

Səltənət işlərinin ən əzəmətlisi məmləkətin düzgün istiqamətlə inkişafı və yolların əmniyyətidir. İran məmləkətlərində bu məsələ tamamilə unudulmuş, əhalinin gediş-gəlişləri olduqca çətinləşmişdi. O həzrət, hakimiyyətinin əvvəllərində (bədayete-hal) bu vəziyyətin aradan qaldırılmasına diqqət yetirdi, hər vilayətdə ən məşhur quldurların kimlər olduqlarını öyrəndi, onların zərərsizləşdirilməsinə və edamına başladı, az vaxt ərzində dəstə sərdarlarını öz səyi və tədbiri ilə ələ keçirdi. Bu qəbil dövlət bədxahları olan bəzi şəxsləri isə öz uzaqgörənliyi ilə düzgün yola çəkdi və onları cəzalandırmadı, müxtəlif iltifatlarla arxayınlaşdırdı, həmin adamlar da o iltifat və əfvin (canbəxşi) müqabilində şahın xidmətində dayandılar, xətakarlıq yolundan dönərək, fərmana itaət etməyə başladılar. [Şah] bəzilərini də heç fikirləşmədən cəza (siyasət) səhnəsinə tapşıraraq əhalini onların şərindən qurtardı. Bu hal yollarda əmniyyətin bərpasına səbəb oldu, ətraf ölkələrdən bu qorunan (məhrusə) ölkəyə tacir və sövdəgərlər gəliş-gediş etməyə başladılar. [Beləliklə], rəiyyətin rifah vəziyyətinin yüksəlməsi həmişə o nurlu insanın nəzəri altında oldu. Onun Haqqa niyyət məqsədi [təviyyət] buna yönəldilmişdir ki, hakimiyyətdə olacağı dövrdə insanlar (xəlayeq və ibadullah) əmin-amanlıq yatağında (məhad) asudə dincəlsinlər. Buna görə də o həzrət Allah bəndələrinə

[429] İfadənin ərəbcədən tərcüməsi:
"Əgər yalnız əziz Allah-təala istərsə".

doğru uzanan zülm əllərini ölkələrdən uzaqlaşdırdı, rəiyyəti çoxsaylı divan vergisindən azad etdi. Birincisi, İraq [vilayətindəki] hər sürü üzərinə qoyulan on beş min İraq tüməni məbləğinə yaxın "sərgəlle" vergisini sahibinə bağışladı ki, bu da İranın mərkəzində yerləşən və bu əbədi əsaslı səltənətin mərkəzi olan İraq mülkünün əhalisinə böyük bir töhfə olmaqla başqa yerlərin əhalisinə nisbətən böyük imtiyaz oldu. İkincisi, mübarək ramazan ayında [o həzrət] bütün məmləkətlərin şiələrini divan vergilərindən azad etdi. Divan məmurlarının əməlləri səbəbindən təxminən iyirmi min tümənə çatan bir vergini (male-yekmahe) və bütün ölkələrin ehdas vergisini* (ehdase-cəme-məmalek) rəiyyətlərə bağışladı ki, onlar məhz taət və ibadət ayı olan mübarək ramazan ayında divan işçilərinin tələblərindən azad olundular ki, həqiqi məbuda (Allaha - Ş.F.) öz bəndəlik borclarının yerinə yetirilməsinə başlasınlar. O, həzrətin şərafətli xisləti həmişə yoxsul insanların varlanmalarına meyilli olmuşdur. [Həmçinin] onun diqqəti daim hökmranlığı altında olan ölkələrin bütün əhalisinin sərvət sahibi olmaları və yoxsulluqdan yaxa qurtarmalarına yönəldilmişdir. O həzrət dövrün gərdişindən pis dolanan bir neçə əyan-əşrafın qayğısına qalaraq, onlara xasseye-şərifə sərkarından rəsül-mal[430] köməyi edir ki, həmin məbləği məişətlərinin yaxşılaşmasına yönəltsinlər, güzəranlarını asudəliklə keçirsinlər, sələmçilərin qarşısında məzəmmət altında qalmasınlar. O həzrət kasıb şiələrə dəfələrlə köməklik göstərdi, sədəqə (təsəddəq) payladı, əvəzindəsə savaba çatdı. [Beləliklə də] bu kitabın yazılışı dövründə baş verən [bir sıra] hadisələr qələmə alındı. Bu beyt yazdıqlarımız üçün bir dəlildir:

Beyt:

Heç kim niyyətini bilmir sən təhər,
Yarəb, xeyirxahın xeyrini göndər[431]

İlahinin kərəminə ümidvarıq ki, qoy o həzrət hələ uzun illər şahlıq taxtında əyləşəcək, başqa-başqa xeyratlara, yaxşı-yaxşı

[430] Rəsül-mal: Mal-qaranın sayını hesablayan rəis (bax: M.Moin. Göst. Lüğət. Cild II, səh. 1633).
[431] Beytin farscası:
İlahi, ço bər neyyətəş agəhi,
Ço neyyət bexeyrəst xeyrəş dəhi.

əməllərə (mobərrat) və gözəl-gözəl işlərə (mərziyyat) müvəffəq olsun.

ALTINCI MƏQALƏ

[O HƏZRƏT TƏRƏFİNDƏN] İLAHİ HİKMƏTLƏRDƏN OLAN SƏRT HÖKMLƏRİN İCRASI HAQQINDA

O həzrət xasiyyətinin təşəkkül tapmasından başlayaraq sərtlik (qəhhari) və tündməzaclıq səriştəsini özündə ehtiva etmişdir. Cəzalanmaları zəruri olan qüsur sahiblərinin cəzalandırılmalarına öz mərd xislətinə uyğun tərzdə əməl etmiş, sipəhdarlıq və məmləkət işlərində, həmçinin rəiyyətpərvərlikdə tərkib hissə olan günahkarların və aqibətsiz adamların cəzalandırılmalarında dünyəvi qərəzkarlığı, izzət sahibi olan ərbabları və başqa adamları nəzərə almadan etinasızlığa (mosamehe) və ləngitmələrə yol verməmiş və hal-hazırda da yol vermir. Belə əməl tərzinin hakimiyyətin ilk çağlarında külli faydası olmuş, onun əzəməti (setvət) və sərtliyi (sələbət) hər yana yayılmış, zülmkarların zülm və əzab əlləri aşağı məqamlı adamların (zirdəst) amal yaxasından üzülmüşdür. Onun cəzasının qorxusu və ədalətinin icrası təsirindən qurdla quzu birgə yaşayır, müxalif və müvafiq adamlar eyni fərş üstündə yatır, bir-birlərinə zərər yetirmirlər. Onun iş tapşırdığı şəxsin haqqı yoxdur ki, həmin işi bir an belə təxirə salsın. Məsələn, əgər bir ataya öz oğlunu qətl etmək hökmünü verirsə o hökm elə həmin dəm qəzavü qədərin fərmanı kimi icra olunur. Əgər həmin şəxs rəhmdilliyi üzündən oğlunun qətlini təxirə salırsa hökm oğul tərəfindən əksinə, atanın özünə qarşı çevrilir. Əgər oğul da bu işdə tərəddüd edirsə, hər ikisinin qətli başqa adam tərəfindən icra olunur. Məhz buna görə də əmrinin icrası özünün ən yüksək həllini tapır və heç kəsin cürəti çatmır ki, onun fərmanından bir ləhzə belə yayına bilsin. Şah hələ taxta cülus etməzdən əvvəl yasaq işi qarşıya çıxdıqda qızılbaş tayfaları onu icra etməkdən boyun qaçırır, mülazimlərdən və məvacib sahiblərindən başqa, çox adam evlərində əyləşib yasağa getmirdi. Bu məsələ şahın nurlu vücuduna (zəmir) işıq saçdı və o, məmləkət hərbçilərinin, ellərinin, oymaqlarının bu vəziyyətini təhqiq edərək hökm verdi ki, əgər yasaq elan olunarsa bütün hərbiçilər - istər mülazim olsunlar, istəsə yox - hamı din qeyrəti və namus hifzi ilə öz el və əşirətlərinin qorunmasından ötrü (yasağa)

hazır olsun. Yazsaq vaxtı evlərində qalıb yasağa getməyən şəxs haqqında həmin elin camaatından, əgər kimsə xəbər verər və həqiqəti ərz edirsə, yəni "filan adam yasağa getməyə qadirdir, amma bundan sərfnəzər etmişdir", bu vaxt hökmə əsasən onun qətli yerinə yetirilir, mal-dövləti əlindən almaraq həmin xəbəri verənə verilir. Əgər o elin camaatı həmin şəxsin tərəfini tutub bu işi gizlədərsə və xəbər verməzsə bu zaman həmin tayfa elliklə cəzalandırılır. [Məsələn,] bir neçə dəfə elan olunmuş yasaqda iştirak etməyən şəxslər cəzalandırılmış və onların var-dövlətləri xəbər gətirən şəxslərə verilmişdir. Bu hal əhali arasında qorxu və vahiməyə səbəb oldu, yasaq elan olunan kimi bütün piyadalar və süvarilər təcili surətdə yasağa yollanmağa başladılar. Heç kəsin cürət və qüvvəti yoxdur ki, [yasaqdan yayınıb] evdə qala bilsin.

YEDDİNCİ MƏQALƏ

[O] HƏZRƏTİN CAHANDARLIQ TƏRZİ (AYİN) VƏ HÖKMRANLIQ ETMƏ QAYDALARI HAQQINDA

Əgər bilik sahibi olan alimlər o həzrəti səltənət qanunlarının yaradıcısı (vaze) hesab edilərsə haqlıdırlar. Əgər cahan sultanlarını o həzrətin şagirdi adlandırırlarsa, o buna da layiqdir, çünki hökmranlığın tam ölçülüb-biçilmiş (səncide) qayda-qanunlarını o tətbiq etmişdir. O cümlədən, ixtilaflar vaxtı tayfa məsuliyyətsizliyi üzündən müxtəlif tayfa aqibətsizlərindən xeyli yayınmalar və ixtilaflar baş vermiş, müqəddəs səfəvi dudmanına qarşı onların əqidələri dəyişmişdi. Bu zaman cahanı bəzəyən şahın rəyi belə oldu: Dövlət işlərinin nizamlanmasından ötrü şan-şöhrətli padşahlara xas olan asimani bir ilhamla, həmçinin surət aləmi zahirpərəstlərinin məlumatı olmadığı gizli məsləhətlərlə [qızılbaşlardan qeyri] başqa adamları da hərbiçilər silkinə gətirsin. Buna görə də o, bir çox gürcü qulamlarını, çərkəsləri və başqalarını hərbiçilər silkinə daxil etdi, bu dudmanda mövcud olmayan "qullar ağası" vəzifəsini yaratdı. Həmçinin Xorasanın, Azərbaycanın və Təbəristanın çığatay oymaqlarından, ərəb tayfalarından, əcəm qəbilələrindən bir neçə min tüfəngçini şah ordusunun mülazimi etdi. Hər vilayətdə baş qaldıran quldur və soyğunçular çevik (cəld) insanlar olduqlarından, həmişə həmin vilayətlərin əhalisi onların əllərində aciz qalıb zərərə düşdüklərindən, o həzrət həmin şəxsləri

ordunun tüfəngçilər silkinə daxil etdi ki, rəiyyət və acizlər bundan sonra həmin kəslərin xətasından (şər) nicat tapıb rahat olsunlar, həm də şah məiyyətində xidmət etsinlər, döyüş (karzar) zamanı göstərdikləri bacarığa görə mükafatlandırılsınlar. Şah onların hamısının adını qulamlar cərgəsinə daxil etdi. Həqiqətən də, onların iştirakı şəhər və qala fəthlərində olduqca zəruri idi və bu iş [dövlətə] külli miqdar fayda verdi. Bundan başqa, əmirlərin və əyanların hər birinə layiqli vəzifələr tapşırıldı, yolların mühafizəsinə elə şəxslər təyin edildi ki, həmin şəxslər, zəruri inzibatçılıq yolu ilə, oğrular tərəfindən şəhər sakinlərindən və tacirlərdən qarət olunan malları tapıb öz sahiblərinə çatdırsınlar, əks halda onların elə özləri o insanlara dəyən zərəri ödəsinlər. O bu qayda-qanunu bütün məmləkətlərə tətbiq etdi. Beləliklə də, əhalinin var-dövləti hifz olundu, insanların məhrusə ölkələrə gediş-gəliş qapıları açıldı. Qoşun idarəçiliyi (sepəhdari) və məsləhət-məşvərət tərzi bunu tələb edir ki, əgər o həzrət hər hansı şəxsdən bir məsələ xüsusunda sorğu-sual etdikdə o şəxs öz vəlinemətinə yalan danışarsa, bu böyük bir haramnəməklik sayılsın. Yalançılıq edən və ixtilaf törədən hər kəs hökmən cəzalanmalı, arzuolunmaz (mərdud) sayılmalıdır, əks təqdirdə [elə pis vəziyyətin] nəticəsi sələflərdən xələflərə sirayət edə bilər. Belə işlərdə şahın özü olduqca möhkəm (rosux) və qətiyyətlidir (ğolovv). Əgər kimdənsə hər hansı pis əməl baş verərsə, o adamın mükafatı öldürülməkdən başqa heç nə olmazsa və o həzrət ondan törətdiyi işin həqiqəti haqqında soruşarsa, həmin biçarənin dəğru söyləməkdən başqa bir çarəsi qalmır. Əhali arasında belə fikir vardır ki, əgər hər hansı şəxs ona yalan söylərsə, dərhal qeyb aləminin xəbər gətirənləri (monhiyane-aləme-ğeyb) bu haqda o həzrətə xəbər verirlər. Bundan sonra heç bir oğrunun (tərrar) xəyalına belə gəlmir ki, şahın müqabilində özündən hansısa kiçicik ləkəli yalandan ibarət hekayət uydursun. Belə iş tərzindən gələn faydaların cahandarlıq və ədalət baxımından bəyana ehtiyacı yoxdur.

SƏKKİZİNCİ MƏQALƏ

O HƏZRƏTƏ XAS ANLAŞILMAZ XASİYYƏTİ (BİTƏƏYYONİ), DƏRVİŞANƏ XİSLƏTİ (DƏRVİŞNEHADİ), XUDBİN OLMAMASI (BİTƏKƏLLOFİ) VƏ ONDA İKİ TƏZADLI XÜSUSİYYƏTİN MÖVCUDLUĞU HAQQINDA

Bu kamkar şəhriyar ruzigar əhlinin qayda-qanunlarının əksinə olaraq özündə su ilə atəşi bir-biri ilə qarışdırmış, iki ziddiyyətli xisləti cəmləşdirmişdir. Belə ki kamal təbinin çoxluğu, sərtliyi, rəhmsizliyi, əzəməti, cah-cəlalı və şahanəliyi ilə yanaşı onda olduqca mülayim davranış, düzgünlük (həmvari), dərvişxislətlilik vardır:

Nəzərində onun bərabərdir
Şah taxtıyla dərvişin fərşi[432]

O həzrət yumşaq və sadə məzaclı (kuçekdeli) olduğu vaxtlarda əhali nədimlər, mülazimlər və başqaları ilə elə xüsusi tərzdə davranır və elə qaynayıb qarışır ki, sanki onlar bir-birlərinin dostu və qardaşıdırlar. Əhvalı dəyişəndə isə xüsusilə rəhmsiz, əzəmətli, qüdrətli (setvət) və cah-cəlallı olduğu vaxt onun hümayun çöhrəsində elə qəzəb əlamətləri parlayır ki, onunla həmsöhbət, ünsiyyətli (ənis), həmçinin (cəlis) olan və ondan yaxşı rəftar (yaranə, bəradəranə və bitəkəlləfanə) görən şəxslərin həddi və elə bir cürəti olmur ki, münasibətsiz, azacıq da cürətli, ədəbdən kənar sözləri dilə gətirsinlər. Əmirlər, sultanlar, hətta zarafatcıl və müdrik adamlar (zorəfa) və nədimlər də danışmağa cürət etmirlər, susmaqdan başqa çarə tapmır və əllərindən heç nə gəlmir. O həzrət bu iki rəftarı (şive) özündə yanaşı saxlayır, onları ucalıq tağı (taqe-bələndi) üzərinə qoyur.

BEYT[LƏR]

Məslək sahibi tək gah təvazökar,

[432] Beytin farscası:
Həst yeksan bərəş ze xoşkişi
Təxte-şahi və nəte-dərvişi

Gah da məliklərə hirslə od vurar.
Riyakar xislətdən uzaq olubdur,
Qürurdan, ədadan iraq olubdur.
Təkəbbürü qoymur əsla yaxına,
Yar olmuş ucalıq aləmi ona.[433]

DOQQUZUNCU MƏQALƏ

[O HƏZRƏTİN] XİDMƏTKARLARIN HÜQUQİ HAQLARINI QORUMASI VƏ ONLARIN MÜLKİYYƏTLƏRİNƏ TOXUNMAMASININ ZİKRİ

O həzrətin gözəl xislətlərindən [başqası da] bütün sədaqətli mülazimlərə qarşı olan şəfəqqəti və mərhəməti, eləcə də halalnəmək və doğru ayinli xidmətçilərin və canlarından keçən insanların hüquqi haqlarının qoruması və tərəflərini saxlamasıdır. Bu məsələyə o, əzəl vaxtlardan indiyəcən çox diqqət yetirir. O həzrət bu bəyənilən rəftara o qədər riayət edir ki, ruzigar sultanlarının və mərdanə ərbabların heç biri onunla bərabərlik iddiası edə bilməz. Halalnəməklikdə və düzgünlükdə sabitqədəm olan adamlara qarşı [o şah] öz şahanə diqqətini əsirgəmir. Əgər hər kimdənsə savadsızlıq və qafillik üzündən hər hansı bir xəta, günah (zeləl) və qüsur (təqsir) görünərsə, onu doğru yoldan (menhace-qəvim) yayındırmır, böyük səbrlə şahanə əfvə məruz qoyur, şərafətli xatirini incitmir. Hər hansı bir əqidə sahibi və canfəda mülazim öz ömür əmanətini (vəqiəte-həyat) əcəl qazisinə tapşırdıqda (yəni vəfat etdikdə - Ş.F.), yaxud din və dövlət yolunda gedən hərblərdə (moharebat) öz dəyərli can nəqdini şəhadət yolunda fəda etdikdə, [şah] onun sağ qalan ailə üzvlərinə onların xahiş etdiklərindən də çox mərhəmət göstərir. Əgər vəfat edən şəxslərin ali mənsəbləri olmuşsa, onların fərzəndləri azyaşlı olsalar belə, öz zatındakı mərdanəlik və təbiətindəki mürüvvət ilə onların sülaləsinin kəsilməməsi naminə atalarının

[433] Beytlərin farscası:
Gəhi dər təvazo ço əhle-soluk,
Gəhi əz təfe-qəhr suzəd moluk.
Ze rahe-təkəllof keşide ənan,
Ze kebr-o məni gəşte damənfəşan.
Be ocb-o təkəbbor nədarəd səri,
Əz anəst bər aləməş bərtəri.

daşımış olduqları mənsəbi oğullarına verir. Dünyəvi var-dövlət və ehtiyat mal toplamaq o həzrətə xas gələcəyi görmə (aqibət-bin) nəzərincə olduqca qiymətsiz və az etibarlıdır. Əgər sədaqətli vəfat edənlərdən var-yox (alaf və oluf)[434] qalarsa [şah] əksər şahların əksinə olaraq öz himmətinin çoxluğu, mürüvvət qayda-qanununun zərurəti, şoriot rəsminin qorunub-saxlanılması baxımından həmin mülkiyyətə iltifat nəzəri salmır, onu varislərə verir ki, Allahın istədiyi kimi vərəsəçilər arasında bölünsün. Bu gözəl davranış tərzi həqiqətən də agah adamların nəzərincə bütün gözəl xüsusiyyətlərdən və bəyənilən əməllərdən üstündür. Çünki, yeddi (səbəə) iqlimin əksəriyyətindəki cahan sultanları bu səxavətli xisləti haqqı tanımağın və hüququ qorumağın ən yaxın (ədna) mərtəbəsi hesab edirlər. Elə bu səbəbə görə də, o həzrət rəbbani təsdiq və asimani köməklik (tovfi-qat) sayəsində, görmüş olduğu işləri bəyənilən (moəyyed) və uğur qazanan şəxs olmuşdur.

ONUNCU MƏQALƏ

[O HƏZRƏTİN] XOŞ XİSLƏTİ (ŞEKOFTETƏBİ), ONUN ALƏMDƏKİ VƏZİYYƏT VƏ ÜMMƏT TƏBƏQƏLƏRİ İLƏ TANIŞLIĞI HAQQINDA

[O həzrət] cahandarlıq, səltənət və xilafət karxanasının zəruri məsələlərindən, habelə ədalətin (daddehi) bərpasından rahət olduqdan sonra öz şərafətli vaxtını nişat və şadimanlıqla keçirir, tez-tez eyş-işrət məclisləri qurur, cavanlıq nəşəsinin tələbi və şadyanalıq məclisləri bəzəyən adamların təhriki ilə qurtum-qurtum (təcərro) ləziz şərab içir, ağ bənizli gözəllərdən kam alır, öz həyat və yaşayış çəməninin təravətini artırır. O, bu işləri böyük ağıl, dərrakə və fərasətlə həyata keçirir, [lakin] bir ləhzə də ölkənin idarəçiliyindən və səltənət işlərinin tədbirlərindən qafil olmur. İran məmləkətlərində və dünyada baş verən on kiçik və böyük hadisələr sanki onun daxili aləmində cilvələnir, elə bil ki, hadisələrdən xəbər gətirən münhiləri (xəbərçiləri - Ş.F.) o, baş verən məsələlərdən xəbər tutmaqdan ötrü özünə xidmətə cəlb etmişdir. Belə ki, heç kim öz evində, hətta yaxınlarına da deyilməsi mümkün olmayan bir söz danışmır, sözün

[434] Alaf və oluf: Bu sözlər ələfə və ülufə istilahlarından olmaqla məişət malları mənasını özündə ehtiva edir - Ş.F.

şaha çatacağından qorxur. Bu cür hadisələr dəfələrlə baş vermişdir. İstər müsəlman, istərsə də qeyri-müsəlman olan və dünyanın dörd tərəfində yaşayan cahan şahlarının vəziyyətlərindən, qoşunlarının kəmiyyətindən keyfiyyətindən, bu və ya başqa ölkənin din və ayinlərindən, hər bir diyar yollarının abad, yaxud xarab durumundan ətraflı xəbərdardır. O, dünyanın əksər hökmranları ilə tanışlıq tədbirlərinə başlamış, uzaq (əqsa) avropa, rus və hind padşahları onunla ülfət və dostluq münasibətləri qurmuşlar. Onun məhəbbəti bütün dost-düşmənlərin, tanışların və biganələrin qəlblərində özünə yer tutmuşdur. Uca sarayının qapıları padşah elçilərinin üzünə açıq olmuş, ona dünyanın dörd bir tərəfindən hədiyyə və töhfələr göndərilmişdir. O həzrətin dövründə bu kimi məsələlərlə əlaqədar fəaliyyətlər onun yüksək məqamlı ata-babalarının hakimiyyətləri vaxtı nadir hallarda görünmüşdür. Şah hər təbəqə ilə özünə xas tərzdə rəftar edir, aləmin məlum və qeyri-məlum (motəaref və ğeyre-motearef) bir çox dillərini bilir və hər tayfa ilə onun öz dilində danışır. Fars şerini yaxşı bilən şah şeri yaxşı da başa düşür, ondan bəhrələnir, hətta bəzən özü də şer yazır. Musiqidə, elmi-ədvarda[435] söz verməkdə və ona əməl etməkdə dövrün ən qabaqcıl adamıdır. O həzrətin bəstələdiyi bəzi ahəng və havalar musiqiçilər (əhle-saz) yanında məşhurdur, çalğıçıların dillərinin əzbəridir. Onun ürəyə yatımlı şirin lətifələri (lətayef), rəngarəng məzəli zarafatları, təbiət xoşluğu barədə tez-tez söhbətlər eşidilir.

ON BİRİNCİ MƏQALƏ

HƏZRƏT TƏRƏFİNDƏN XEYRİYYƏ TƏSİSATLARI VƏ İMARƏTLƏR İNŞASININ ZİKRİ

Ruzigarın qoynunda o həzrətdən çoxlu xeyriyyə təsisatı yadigardır. O, təbiətinə uyğun olaraq müxtəlif xeyriyyəçilik işlərinə (xeyrat), yaraşıqlı binalar (məbərrat) tikilişinə, sədəqə ocaqlarına (təsədəqat) və imaərətlər inşasına maildir. Əcdadlarından miras qalmış (mövrusi) və orta dəyəri yüz min tümən olan vəsaiti, həmçinin özünün əldə etdiklərini on dörd məsuma - onlara salam

[435] Elme-ədvar: Bu elm haqqında d-r M.Moin yazır: "Gərdişlər. Zəmanənin (fələyin) gərdişləri. Yeddi z-ul ərbəə (?) və on üç z-ul xoms (?)dan ibarət 91 musiqi növü (Bax: M.Moin. Göst. lüğət, c. I, s. 182).

olsun - vəqf etmişdir. O həzrət öz məsrəflərindən sonra artıq qalan yeddi-səkkiz min tümən məbləğindəki pulu şərafətli məkanların sakinlərinə - üləmalara, xeyirxah insanlara (soləha) və sair xərclərə məsrəf edir. Sərkare-hümayunun bütün mülkiyyəti və əmlakı [o həzrət] tərəfindən vəqf malı (vəqfiyyət) hesab edilmişdir, onların sərf olunmasına məhz özünün məsrəfi kimi diqqət yetirir. Bclə hərəkət padşahlar arasında (beynəs-səlatin) məhz o həzrətin bəyənilmiş (həmide) zatına məxsus sifatına aiddir ki, belə iş sabiq vaxtlarda və ötən qərinələrdə az-az baş vermişdir. O əksər məmləkətlərdə məscid, mədrəsə, xeyriyyə büqələri, fərəhbəxş və ürəkaçan mənzillərdən ibarət ali imarətlər inşa etdirmiş, cənnət kimi gözəl bağ və bostanlar saldırmış və bu işlərin tamamlanmasına nail olmuşdur. Bütün bunların hər biri haqqında müfəssəl məlumat verilmişdirsə də, uzunçuluq etməkdən çəkinməyərək bu dəftərin əvvəlində həmin işlərin xülasəsi bir daha yazılır. Xülasə, səliqə-sahmanlı ali imarətlərin inşasına, şəhər və vilayətlərin (belad) abadlaşdırılmasına o həzrət olduqca hərisdir (şəreh). Müqəddəs Məşhəddə: İmam Rza ziyarətgahı meydanının genişlərdirilməsi, hündür qəsrlərin inşası, ətrafındakı binaların tikilməsi, möhtərəm hərəmxananın rəssamlıq işləri və bəzədilməsi, xiyabanların salınması, xiyaban arası nəhr çəkilməsi, geniş (sodra) rövzə ziyarətçilərinin və sakinlərin daim xeyir-duasına səbəb olan böyük hovuzun inşası, şəhər kənarındakı gözəllik və bər-bəzəkdə tayı-bərabəri olmayan rəbbani arif Xacə Rəbiəl-Xəysəmin* şərafətli gümbəzinin tikilişi, həmçinin Şahpur Kəsra" qədəmgahının binası və ona bitişik imarətlər, uca dağdan çəkilən və suyun fəvvarə vurduğu hovuzun yaradılması, həmin fələk əzəmətli yerdə küçələrin salınması və ağacların əkilməsi o alicənabın gördüyü işlərdəndir. Ərdəbil darülirşadındakı - övliyalar nəhəngi[436], haqq, həqiqət və din səfisi[437] - onun var-dövləti bol olsun[438] - Şeyx Səfiəddinin şərafətli atası və əlahəzrət zilləllah şahın onuncu babası - Allah onun izzətli sirrini müqəddəsləşdirsin[439] - mərhum Seyid Cəbrayılın astanasının (türbəsinin) inşası, Şeyx Səfiəddin məzarı qarşısındakı qızılı zərih, gümüşü məhəccər, mübarək bəst divarına (həzire) vurulan başqa

[436] İfadənin ərəbcəsi: "Qutbu-l-ovliyai"
[437] İfadənin ərəbcəsi: "Şeyx səfiu-l-həqqi və-l-həqiqət və-d-din"
[438] İfadənin ərəbcəsi: "Tabə sərahu"
[439] İfadənin ərəbcəsi: "Qəddəsə-l-lahi sirrəhu-l-əzizə"

bər-bəzəklərin həyata keçirilməsi, rəbbani ariflərdən olan Şeyx Zahid Gilaninin məzarı yerləşən məqbərənin təmiri və həzrət sultanül-övliya Şeyx Şəhabəddin Əhərinin* - onların ikisinin də sirri müqəddəs olsun[440] - türbəsinin bərpası və həmin feyzli məqbərənin behiştə bənzər bağının salınması o həzrət tərəfindən görülən işlərdəndir. Cənnətnişan İsfahanda bu işlər inşa olunmuşdur: Əvvəla, orada, Nəqşe-cahan meydanının cənubunda ali bir came tikilmişdir. Onun ən kiçik tağı (taqe-məqsure) fələyin doqquz qübbəli tağına bənzəyir, sanki hərəman[441] gümbəzlərindən bir nişanədir və onlarla eynilik təşkil edir. Bu məscidə o qədər mərmər işlənmişdir ki, sanki burada ikinci bir beytül-məmur[442] tikilmişdir. Dünyanın səyyahları ona oxşar çox az binanı misal göstərirlər. Xülasə, cənnət görkəmli (firdövsnişan) o məbəd gözəllik, ziynət və yaraşıqda Əqsa məscidinin həsədinə gəlməkdədir. Dövlətxana binası qarşısındakı orduqca yaraşıqlı başqa bir məscid, mədrəsə, xəstəxana (darüş-şəfa), hamamlar, qeysəriyyə, meydan kənarındakı bazargah, həmçinin balaxanələr (müsafirxanalar - Ş.F.) və ali karvansaralar, dövlətxananın beş mərtəbədən ibarət dərgahı, Sərvistan, Nigarıstan, Güldəstə adlanan bər-bəzəkli xəlvətxanalar, beşmərtəbəli imarət, hovuzlar, Çaharbağ adlanan və təqribən bir fərsəx uzunluğu olan xiyaban, onun ətrafında salınmış təsəvvürə sığmaz bağ və bostanlar [o həzrətin işlərindəndir]. Hər bir bağda çox sayda bina tikilmişdir. Bu xiyabanın ortasında Zayəndərud çayı üzərində qırx çeşmədən (?) ibarət bir körpü salınmışdır ki, dünya səyyahları onun bənzərini heç

---

[440] İfadənin ərəbcəsi: "Qəddəsə sirruhumə"

[441] Hərəman ehramı - Misirin on məşhur fironlarının dördüncü sülaləsinin üç padşahı hakimiyyətdə olmuşdur: Keops, Kefren və Mirkinus. Onlar hicri-qəməri tarixlə 28-ci qərinədə yaşamışlar. Onların hər üçünün özləri üçün "daimi məskən" kimi ucaltdıqları möhkəm sərbabələrindən qüdrətlərinin böyüklüyü açıq-aşkar görünür. Həmin üç bina ehram, yaxud "üç ehram" ("ehrame-solase") adı ilə məşhurdur. O ehramlar Menfisin şimalından 10 min zər məsafədə, Cizzə kəndinin yaxınlığında yerləşir. Bunların ən böyüyü Keops ehramıdır ki, hündürlüyü 146 zər olmuşdur (bu gün həmin ehramın ucalığı 137 zərdir). Uzunluğu isə 228 zor ölçüsünə bərabər idi. Kerps ehramı daşlardan inşa olunmuş on böyük ehramdır ki, bütün ehramların dörddə bir hissəsini (rəbe-məskun) təşkil edir. Kefren ehramı Keopsdan kiçikdir və onun hündürlüyü cəmi 66 zərdir. Bu ehramın xarici səthi əhəng daşı ilə örtülüdür, amma hal-hazırda, demək olar ki, tamamilə pis vəziyyətdədir. "Hərəman", yaxud "hərəmeyn" istilahlan üç ehramın iki böyük ehramına aiddir (Bax: M.Mlin. Göst. Lüğət, cild I, səh. 202).

[442] Beytül-məmur: Deyilənə görə, asimanın 4-cü qatında olan və Kəbəyə bərabər bir evdir (Bax: M.Moin. Göst. Lüğət, cild I, səh. 307).

bir vilayətdə görməmişlər. [O həzrət] təbrizlilərdən ötrü İsfahan şəhərinin qərbində Abbasabad şəhərini bina etmişdir. Bu şəhər olduqca səfalı, təmiz və yaşıldır, belə ki, cənnət oraya həsəd aparır və bütün cahanda məşhurdur. Sanki suyu və gülüstanları eyş-işrətdən yoğrulmuş Bağe-Kumə adlı elə bir bağ da yaratmışdır ki, elə bil oraya şadlıq toxumları əkiblər. Bağe-vəhş (heyvanxana - Ş.F.), Gavxani rübati və başqa rübatlar da [onun tikdirdiyi yerlərdəndir]. İsfahanın Bərzənə və Didestan adlı məskənləri ilə Yəzd [vilayətinin] Nəduşən adlanan yeri arasındakı Xərquşi biyabanında inşa olunan başqa bir rübati [da o həzrət tikdirmişdir]. Həmişə yolçuların gediş-gəlişləri zamanı quldur təhlükəsi yaradan bu yerlər hal-hazırda əmin-amanlıqdadır. Qəzvin darüssəltənəsi; Dövlətxana dərgahı, İmarəte-nov adlanan və iki təbəqədən ibarət olan zərnigar bir xəlvətxana, həmçinin ali bir karvansara və Səadət (Səadətabad ?) meydanının şərq və qərb səmtlərindəki imarətləri də [o həzrət] inşa etmişdir. Kaşanda: Bir neçə imarətdən ibarət behiştə bənzər dövlətxananın ev və eyvanları (rəvaq), həmçinin ürəkaçan bağlar, hamamlar və karvansaraların salınması, Qəhrud bəndi, Rübate-Səngin, Rübate-Siyahkuhun tikilməsi, bir neçə fərsəx uzunluğu olan, daş və əhənglə bərkidilən bir yolun çəkilişi, habelə inşasına on min tümənə yaxın pul xərclənən Nəməksar-Siyahkuh yolunun döşənməsi yolçuların xeyir-dualarına səbəb olur. Cənnətnişan Mazandaranda: [O həzrət] orada dərya kənarında cənnət görünüşlü Fərəhabad [adlı şəhər] saldırmışdır ki, Təcinərud adlı çay onun içərisindən keçir. Həmin şəhərdən Sari şəhərinədək uzanan dörd fərsəx uzunluğundakı yolda ali bir körpü və xiyaban inşa etmişdir. [O həzrətin] oradakı hər bağda tikdirdiyi ali imarətlər saysız-hesabsızdır. O cənnətməkan şəhərdə dövlətxana, bazargah, hamamlar inşa olunmuş, cənnətmisal bağlar salınmışdır. O şərafətli şəhərin paklığından əhali [kütlələri], ortabab camaat və neçə min müsəlman və qeyri-müsəlman oraya gələrək, əyyam hadisələrindən qurtulmuş, hümayun ədalət kölgəsi altında zülm və zəlalətdən nicat tapmışdır. Hal-hazırda islam şəhərləri arasında bu cür çoxsaylı əhalisi olan böyük şəhər yoxdur. Amildə və Saridə dəryaçələr, imarətlər və gözəl bağlar, Barforuşdehdə və Əşrəfdə bər-bəzəkli evlər, bağlar, çeşmələr və hovuzxana tikilmiş, balaxanaədə isə, adı çəkilən hovuza qəribə üsullarla su gətirmiş və Nöqrə hovuzuna axıdılmışdır. Bağat adlanan qəsəbənin yüksək yerində, yarım fərsəx sahədə bağlar, hamamlar və imarətlər inşa etdirmişdir. Həmin

məkanda qonaq otaqları, qəsrlər, dəryaçə və fəvvarələr, hamam, behiştə bənzər bağça yaratmışdır ki, görənləri heyrətə gətirir. İsfahandan Əşrəf qəsəbəsinədək hər dörd fərsəxdən bir elə imarətlər inşa etmişdir ki, onların əksəriyyətində hamamı olan gecələmə otaqları, mənzillər, həmçinin bağçalar vardır. Buradakı bütün evlərdə hümayun şahın qalması üçün lazımi hər şərait yaradılmışdır. Astrabad qəsəbəsində: Dövlətxana imarəti, Nətənzdə içərisində dərgah evləri, balaxanələr, hamam və sair olan Tacabad bağını saldırmış, Nətənz ilə Kaşan arasında isə Bağe-Abbasabadı [yaratmışdır]. Təbriz darüssəltənəsində: Məzare-Eynəli və Məzare-Zeynəli adlı məzargahlar salınmış, məscide-şahe-cənnətməkan imarətləri təmir olunmuşdur. Həmədan hüdudunda: Təzə Çəmçal şəhərini salmış, Bistun dağı ətəyində ətəbate-aliyyat ziyarətinə gedən zəvvarların qalmaları üçün bir rübat inşa etdirmişdir. [Bu işlər haqqında] yazdıqlarımız tamamlandı. Ümidvarıq ki, [o həzrətin] inşa etdiyi hər bir xeyriyyə binası uğur səbəbi olacaq, bütün tikililər ruzigarda ondan yadigar qalacaqdır.

ON İKİNCİ MƏQALƏ

O HƏZRƏTİN HUMAYUN HAKİMİYYƏTİ VAXTI BAŞ VERƏN HADİSƏLƏR, MÜHARİBƏLƏR VƏ QƏLƏBƏLƏRİN ZİKRİ

O həzrət bütün işlərini İlahi dərgaha bel bağlayaraq icra edir. Elə buna görə də ona fəth, qalibiyyət və zəfər qismət olur. Səadət qismətli (mənus) cülusunun başlanğıcından (bədayət) bu günədək fütuhat qapıları onun üzünə açıq olubdur. O həzrətin cahandarlığı vaxtı baş verən mühüm hadisələr, qızğın müharibələr və qol gücü ilə ələ keçirdiyi yerlərin hər birisi barədə bu dəftərin zeyl [hissəsində] öz məqamındaca məlumat veriləcəkdir. Bu kitab baş verən hadisələrin icmalıdır. Xülasə, [şahın] taxta cülus etməsinin əvvəlində dövlət gülüstanı çör-çöp ilə dolmuş, öz paklıq və tərafətini itirmişdi. Bəzi aqibətsiz və təkəbbürlü insanlar başlarını günah cibindən çıxarıb (yəni itaətsizlik edib - Ş.F.) təkəbbür və cəbr bayrağını göyə ucaltmışdılar. Buna görə də o həzrət daxili düşmənin (döşməne-xanəgi) aradan qaldırılmasını vacib saymış, paytaxtdan İsfahana, oradan isə Şiraza gedərək Estəxr qalasına sığınan Yaqub xan Zülqədəri və Kirman qalasında daldalanan Yusif

xanı dəf edərək geri döndü, sonra Dövlətyar Siyahmənsurun qalasının alınmasına, o üsyankar zəlilin (məxzul) məğlubiyyətinə başladı, qələbə əldə etdikdən sonra qalanı viran, özünü isə məhv etdi. Rum padşahına üz tutan və onunla qayıdaraq ixtilafa başlayan Lahican Gilanın valisi Xan Əhmədin üstünə həmin vilayəti almaqdan ötrü qoşun göndərdi. Onu o məmləkətdən çıxardı, oranı [da] fəth edərək vilayət torpağına əlavə etdi, bütün Gilanatı tüğyan orbabının üsyan tör-töküntüsündən təmizlədi. Sindan qalasını ələ keçirərək müstəqillikdən dəm vuran Bayandur xanın oğlu Əmir Həmzə xanı öz hüsni-tədbiri və nurlu ağlının sərrast işləməsinə görə məğlubiyyətə uğratdı, həmin qalanı [da] fəth etdi. Öz irsi mülkü olan Mazandaranın və Rüstəmdarın qalalarını ki, həmişə üsyankar məlikləri* arasında bölüşdürülmüş və üsyan məkanı olmuşdur, onların hər birinin qülləsinə himmət kəməndi ataraq iqbal gücü sayəsində tutdu, onları məhsurə məmləkətlərə daxil edib əminlik və amanlıq məkanlarına çevirdi. Luristana qoşun çəkərək, [orada] tüğyan və üsyana başlayan Şahverdi xan Lur Abbasini ələ keçirdi, o dudmanın başından tüstü (dud) çıxardı. Məmləkətlərin və yolların hər tərəfini hər bir tayfa aqibətsizlərinin tör-töküntüsündən təmizlədikdən sonra Xorasan yürüş tədarükünə başladı. AbduUaxan Özbəkin oğlu Əbdülmömin xan bir-iki dəfə Xorasana gəlmiş, Nişapur və İsfərayin qalalarını tutmaq əzmində olmuşdu. Qələbə ayəli qoşun onunla savaşa şığıdı, xanın müqavimət gücü olmadığından müzəffər ləşkərin qarşısına çıxmadı. Nəhayət, vaxtın tələbinə müvafiq[443] və vaxta münasib olaraq cahanı fəth edən ordu Herat darüssəltənəsinə yürüş etdi, Pole-Salar və Robate-Pəryan yaxınlığında Canı bəy Sultanın oğlu, Dinməhəmməd xanınsa bacısı oğlu olan və Əbdülmömin xanın öldürülməsindən sonra Herat darüssəltənəsində hökmdarlıq taxtında qərar tutan Dinməhəmməd xan ilə vuruşdu, ona qələbə çaldı, xan meydanda yaralanaraq axirət dünyasına yollandı. Nəticədə, Xorasan mülkü bu əbədi dövlət övliyalarının əlinə keçdi. O həzrət oradan çıxaraq qiyam qaldırmış Astrabad vilayinə hücuma başladı və "qarageyimlilər dəbini" ("rəsme-siyahpuşi") aradan qaldırdı. Ertəsi il, o həzrətin köməyi ilə öz irsi mülkünə sahiblənən Şahican Mərvinin (Mərve-Şahican) valisi Nurməhəmməd xan üsyana qalxıb müxaliflik əlamətləri zahir etdi. [Buna görə də], müzəffər ordu ona qarşı döyüşə yollanaraq

[443] İfadənin ərəbcəsi: "bi moqtəda əl-ümuri mərhunətuhu bi ovqatihə".

xanı tutdu, Əbivərd, Nisa, Bağbad, Dərun və Mərv qalalarmı Xorasana əlavə etdi. Min onuncu ilə müvafiq gələn pələng ilində (miladi 1601) özbəkləri cəzalandırmaq və onların vilayətini viran etməkdən ötrü Bəlx səmtinə ləşkər göndərdi. Möhkəmlikdə dünya şöhrəti qazanan, əvvəlki sultanların oranı altı aydan az vaxtda ələ keçirə bilmədikləri Əndxod qalasını[444] cəmi bircə gün mühasirədə saxladı, ikinci gün fəth etdi. Bəlxdə iyirmi günədək qalaraq orada iqamət çadırları qurdu (yəni dayandı - Ş.F.), Mavərənnəhr və Türküstanda padşah olan Dinməhəmməd xan Özbəkin qardaşı Baqi xan şəhərə pənah aparıb onunla qarşı-qarşı gəlməyə cürət etmədi, [şah isə] həmin vilayəti hadisələrin taracına verib (yəni qarət edib - Ş.F.) geri döndü. Rumilərin işğalına məruz qalan, amma neçə-neçə illər qızılbaşların məskənləri (gurxanə) olan Azərbaycan və Şirvan torpaqlarının onların əllərində qalmasına o həzrətin şahlıq qeyrəti razılaşa bilmirdi. Həmçinin əmirlər və sərhəd hakimləri də cəlali olmuş, xoşagəlməz hərəkətlərə başlamışdılar ki, bu da əvvəlki əhd-peymanın pozulması demək idi. Min on birinci ilə (miladi 1602/03) bərabər olan dovşan ilinin payız fəslində həmin şəhərləri geri qaytarmaq əzmi ilə yürüşə keçən o həzrət Təbriz şəhərinin kənarında bəylərbəyi Əli paşa ilə savaşıb onu məğlubiyyətə uğratdı və əsir götürdü, qoşununu isə şəmşirə yem etdi, [bir qədər] mühasirədən sonra, Təbriz qalasım tutdu. Oradan Naxçıvana getdi və oranın fəthindən sonra İrəvan qalalarını mühasirəyə aldı, mühasirə müddəti yeddi ay uzandı. Üç qaladan ibarət olan olduqca möhkəm İrəvan qalası nəhayət bəxtin gücü ilə fəth edildi, Çuxur-Səd vilayəti və oranın ətraf yerləri ələ keçirildi. Min on üçüncü ilə (miladi 1604/05) bərabər olan ilan ilində Van bölgəsində iqamət edən rum ordusunun sərdarı Cığaloğlu məğlub olub, fərar vadisinə çəkildi. Yenə həmin ilin payızının sonlarında Cığaloğlu təzədən Rum məmləkətlərinin ləşkərini toplayaraq, Təbrizə doğru hərəkət etdi. Şah ağır ləşkəri olan rum sərdarı ilə Təbriz yaxınlığında döyüşə başladı, həmin hədsiz-hesabsız ləşkər üzərində qələbə çaldı, Cığaloğlu isə məğlub olub pərişan halda Diyarbəkrə qaçdı və orada varlıq libasını yoxluq küləyinə verdi. Bu məşhur fəthin baş verməsindən sonra şah ləşkərini Qarabağ səmtinə çəkərək Gəncə qalasını mühasirəyə aldı. Dörd-beş aydan sonra o, başı göyə çatan

[444] Qeyd: Əndxod qalası hal-hazırda şəhərdir, qalası yoxdur, "Əndxoy" adlanır. Bu sətirlər müəllifi Əfqanıstanda işlədiyi vaxt dəfələrlə orada olmuşdur - Ş.F.

qalanı fəth etdi. Qaladarlıq ctməklə məşğul olan qala hakimi Məhəmməd paşanı qaladakılarla birlikdə öldürdü, oradan çıxıb Tiflis, Tumanus və Lori qalaları üzərinə yollandı. Qiyamət təsirli ləşkərin hücumundan o qalaların paşaları və mühafizləri qorxuya düşərək aman istəmək və qalaları təhvil verməkdən başqa çarə tapmadılar. Həmin qalalardan xatircam olduqdan sonra Şirvan məmləkətinin qalaları üzərinə üz tutdu. Qışın oğlan çağında, yağış və qarın güclü yağdığı bir vaxtda Şamaxı qalalarını mühasirəyə aldı, başı fələklər fələyi ilə yarışan uca Şamaxı qalasını qol gücü və iqbal qüvvəti ilə fəth edərək, qala hakimi Əhməd paşanı mühasirədə olan bütün rumilərlə birlikdə aradan götürdü, həmçinin Dərbənd və Badkubə qalalarını Şirvanın başqa qalaları ilə birlikdə zəbt etdi. Rumiyyələr padşahın bir neçə yol qüvvət və hücumunu müşahidə edərək, ona qarşı heç nə edə bilmədikdə baş vəzir Murad paşa sərdar olub Təbrizə gəldi, amma Təbriz qalasını tuta bilmədi və sülh xahişində oldu. Paşalar, xüsusiylə Nəsuh paşa, elçilər göndərib bu tərəfdən sülh (mosalehe) irəli sürünməsini təmənna etdilər. O həzrət də (Şah Abbas - Ş.F.) əldən getmiş irsi məmləkətləri geri qaytarması, məmləkətdə sabitliyi təmin etməsi, hərbiçilərin və rəiyyətin əhvalının yoluna qoyulması baxımından sülhə meyilləndi, tərəflər arasında gediş-gəliş başlandı və xənnətməkan şahı dövründə olan sülh [sazişi] yenidən bağlandı. Bu vəlayət nişan dudmana mənsub adamlar olan Gürcüstan valisi Luvarsab və Təhmurəs üsyan qaldırdılar. Gürcü kafərlərinin cəzalandırılması zəruri olduğundan, şah qəza və cihad niyyəti ilə Gürcüstana ləşkər çəkdi, Luvarsab və Təhmurəsin oğlanları tutulub cəzalandırıldı, Təhmurəsin özü isə Başıaçığa tərəf qaçdı, Ruma tabe olan gürcü hakimlərinə pənah apardı. Rumilərlə bağlanan və hələ möhkəm olmayan sülh sazişi bir ncçə yol Təhmurəsin fitnəkarları və bəzi Şirvan üsyançılarının təhriki ilə pozuldu. Hümayun məiyyət [Gürcüstan] qayıdışından sonra, Təhmurəsin islam əhalisi ilə olduqca pis davrandığına görə [şah] təzədən qəza və cihad bayrağını qaldırıb o diyara ləşkər çəkdi, Təhmurəsin vilayətindəki gürcü kafərlərini intiqam qılıncından keçirdi. Gürcülərin yüz min nəfərdən çox qız-qadını əsir alınıb islamı qəbul etməklə şərəfləndi [Şah] əhalisi çox olan həmin vilayəti dağıtdı, o diyarın dinən (samet) və dinməyən (nateq) adamlarından nişan qalmadı, oradan küfr və cəng səsləri [bir daha] eşidilmədi. Sözün qısası o dudmanın tüstüsü (dud) başlarından uçdu. Təhmurəs qaçıb idbar diyarında sərgəran oldu. Rumiyyə isə əhd-peymanı

pozaraq "Öküz Məhəmməd" adı ilə məşhur olan baş vəzir Məhəmməd paşanın sərdarlığı ilə qızılbaşlar üzərinə böyük ləşkər göndərdi. İrəvana gələn paşa İrəvan qalasını iki ay mühasirədə saxladı, dəfələrlə böyük hücumlara başladı. Amma, onlar qəhrli döyüşçülərin döyüşləri, qala əhalisinin mərdanə müqavimələri və rumiləri rahat qoymayan iqbal ordusunun igidlikləri səbəbindən heç bir iş görə bilməyərək xəsarətlə geri qayıtdılar, onların bir neçə min əskəri məhv edildi, mötəbər sərdarlar qətlə yetirildi. Abbasın hümayun cülusundan başlayaraq bu kitabın yazıldığı bu min iyirmi beşinci (miladi 1016) ilədək səadətli ulduzların bir-birinə yaxınlaşma (eqteran) dövrü oldu. Bütün bunlar o həzrətin hökmranlığı altında həyata keçirilən hadisələrdir və həmin hadisələr bu kitabın ikinci cildində mükəmməl yalmışdır. O həzrətin hakimiyyətinin ikinci qərninin qəziyyələri isə qarşıya qoyulan məqsəd kimi ikinci cildin ikinci hissəsində yazıldı. İndi isə ikinci qərnin hadisələri bu iqbal dibaçəsinə əlavə olunaraq səhifələri bəzəyən qələm vasitəsilə yazılmağa başladı. Xülasə, [qızılbaşlarla] sülh sazişi bağlayan, əhd-peymanın möhkəmlənməsindən sonra onu pozan rumilər əcəm diyarına Iəşkər çəkərək məqsədə çatmadan İrəvandan geri qayıtdılar. Onlar bununla kifayətlənməyib Qara Qrım tatar qəbiləsinin padşahı Cam bəy Gəray xam özlərinə köməyə çağırdılar və min iyirmi yeddinci ildə (miladi 1618/19) yenidən Rum, Misir, Şam məmləkətlərindən və sərhəd kürdlərindən topladıqları böyük ordunu, baş vəzir Xəlil paşanın sərdarlığı altında iyirmi min tatar döyüşçüləri və adı çəkilən Canı bəy Gəray ilə birlikdə qızılbaşlar üzərinə hücuma göndərdilər. Əzəmətli hümayun Xosrovun (Şah Abbasın - Ş.F.) məiyyəti də İraqdan çıxıb qarşılaşmaq üçün Ərdəbil darülirşadında dayandılar, əlahəzrət qüvvətli döyüşçü dəstələrini İran sipəhsaları Qərçiqay xanın sərdarlığı altında onların qarşısına göndərdi. Məğlubedilməz [qızılbaş] əskərləri həmçinin Ərzrum bəylərbəyi Həsənpaşa və Canı bəy Tatanın əlli min nəfərdən ibarət birləşmiş rum və tatar qoşunları Sərab vilayətinə gəlib çıxdılar, əqbə Şeblinin bu tərəfində döyüş səfləri bəzədilər. Böyük hərb başlandı, qeybdən gələn döyüşçülərin köməyi nəticəsində müxaliflər məğlub edildilər. Həsən paşa Sərdar mötəbər paşalarla birlikdə öldürüldü, həmçinin çoxlu tatar mirzadələri və kürd döyüşçüləri qətlə yetirildi, Canı bəy Gəray isə yaralanıb aradan çıxdı. Belə məlallı vəziyyətin baş verməsindən Xəlil paşa çaş-baş qaldı və yenidən sabiq sülh sazişinin bağlanması

xahişində oldu. Tərəflərin elçiləri və xeyirxah adamları yenidən gediş-gəlişə başladılar, sülh [sazişi] yenidən bağlandı. Qəndəhar vilayəti, habelə Zəmindavər Xorasandan qoparılaraq Hindistan hökmdarının zəbti altındaydı. Aradakı qədim dostluğa görə [hind tərəfinə] hərçənd ki geri qayıtmaq təklif olundusa da, buna əməl olunmadı. Şahanə qeyrət bu etinasızlığa (mosamehe) dözmədi və min otuzuncu ildə (miladi 1620/2 l) o vilayətə qoşun çəkildi, Qəndəhar və Zəmindavər Hindistan hökmdarı olan Şah Səlim ibn Cəlaləddin Əkbərin işğalından qurtuldu. Habelə, o həzrət həmişə İran padşahlarının əlində olmuş Süleyman şanlı xaqan Şah İsmayıl zamanında və cənnətməkan şah [Təhmasibin] hakimiyyətlərinin əvvəllərində də qızılbaşlarm əllərində olan, sonrasa rumilər tərəfindən ələ keçirən İraqi-Ərəb vilayətini də geri aldı. Bağdad qoşunu [isə həmin vaxt] Rum padşahına düşmən kəsildi və qələbə (təğəlləb) çaldı. [O həzrət] Bağdada qoşun çəkərək darüssalam qalasının [rumilərdən] geri aldı, İraqi-Ərəbi öz əlinə keçirdi, Nəcəf torpağındakı həzrət şahənşahın (İmam Əlinin - Ş.F.) müqəddəs rövzəsinin, həmçinin Ale-əbanın beşinci seyyidüş-şühədasının (İmam Hüseynin - Ş.F.), Kazımeynin və Əskəreynin - onların hamısına salam olsun[445] - məzarlarını ziyarət etməklə şərəfləndi. Bu zaman illərlə şahın yanında qalmaqla əziz və mötəbər olan Mouravi adlı aqibətsiz bir gürcü [yağı oldu]. Min otuz üçüncü siçan ilində (miladi 1623/24) Qəceçiqay xan Sipəhsalar Gürcüstanın zəruri nizam-intizamını qaydaya salmaqdan ötrü Şirvan və Qarabağ bəylərbəyiləri və əmirləri ilə birlikdə oraya göndərildi, yuxarıda adı çəkilən o aqibətsiz adamı da (Mouravini - ş.F.) həmin vilayətin işlərinə bələd olan və şahın etimadını qazanan adam kimi onlarla həmrah etdi. Amma o bədbəxt nəməkharamlıq edərək, bir dəstə gürcü fitnəkarı ilə birlikdə Qərçiqay xana və əmirlərə xiyanət etdi, fürsət tapıb qəflətən hücuma keçərək adı çəkilən sipəhsaları və Şirvan bəylərbəyi Yusifxanı qətlə yetirdi, üsyana başladı. Sərhədyanı yerlərdə ondan və onun üsyankar dəstəsi tərəfindən çoxlu azğınlıq zahir oldu. [Mouravi] rumilərə birləşib, Rum padşahına öz itaətini bildirdi. Mesq və Axəsqə Gürcüstanın valiləri nəslindən olan, şahənşahın iti qılıncının şöləsindən qorxaraq fərar edən Təhmurəs Gürcü və Əta bəy Ruma tabe olan gürcülər arasında sərgəran vəziyyətdə yaşamaqdaydılar. [Onlar] Mouravinin çağırışı

[445]İfadənin ərəbcəsi: "Əleyhuməs-səlam".

ilə geri qayıdıb onunla birləşdilər. Rumilər əlahəzrət şah ilə sülh sazişinə gələn Sultan Osman paşanı tutub qətlə yetirdilər, onun kiçik qardaşı Muradı padşah etdilər. Onlar Rum padşahının iqtidar əlindən çıxarılan və üsyançılar tərəfindən zəbt olunan İraqi-Ərəbi... [yenidən] tutmaqdan ötrü[446] baş vəzir Hafiz Əhməd paşanı özlərinə sərdar təyin edərək, oraya getmək məqsədiylə çoxlu qoşunla artıq Diyarbəkr gəlmişdilər. Əlahəzrət şah əvvəlcə qəhrli qoşunların və dərgah mülazimlərinin bir dəstəsinin sonra isə qulam, qorçi, tüfəngçi və başqalarının həmçinin İsa xan Qorçibaşının sərkərdəliyi altında Azərbaycan əmirlərini Mouravinin fitnəkarlığını dəf etmək məqsədilə təyin edib irəli göndərdi. Müzəffər əskərlər Gürcüstana çatdıqda nəməkharam Mouravi, Təhmurəs və Ətabəy xan iyirmi min nəfər güclü süvari və piyadanı toplayıb zəfərli qızılbaş ləşkərinin qarşısına çıxdılar. Tərəflər arasında böyük hərb oldu, iqbalın gücü ilə gürcülər məğlub edildilər, min nəfərədək piyada və süvari gürcü kafiri müzəffər qazilərin iti qılıncı ilə öldürüldü, Mouravi qaçaraq Rum diyarına yollandı, Təhmurəs və Əta bəy isə hərə bir yana gedərək Gürcüstanın meşə və cəngəlliklərində ömür sürməyə, öz hallarının qeydinə qalmağa başladılar. Hafiz Əhməd paşa saysız-hesabsız rum döyüşçüsüylə Mouravinin təhriki və gürcü fitnəkarların təklifi ilə yerindən qalxıb Bağdad darüssalamı üzərinə ləşkər çəkdi, yüz əlli min nəfər döyüşçü ilə oraya çataraq qalanı əhatə etdi, oranı ələ keçirməyə çalışdı. Əlahəzrət zilləllah şah bu böyük hadisənin qarşısını almağa cəhd etdi, hələ müzəffər əskərlərin əksəriyyətinin Gürcüstan yürüşündən geri dönmələrinə baxmayaraq, öz qeyrətinin çoxluğundan aləmi tutan (cahanqoşa) bayrağını qaldırdı. Müzəffər əskərlər hər tərəfdən gələrək hümayun məiyyətə qoşuldular. [O həzrət] təxminən qırx min adamla darüssalama gedib-çatdı və onlar Bəhri çay kənarında dayandılar. Tərəflər arasında bir neçə dəfə güclü hərb oldu. Daxildən qalanı qoruyan mübarizlər, arxadan iqbal döyüşçüləri, xaric tərəfdən (birun) isə şah qoşununun şücaətli əskərləri həmin çoxsaylı ləşkərlə döyüşürdülər. Qalaya toplar düzən rumilər bürclərin dağıdılması və qalatutma vasitələri hazırlığına başladılar və dəfələrlə yürüş etdilər. Mühasirə müddəti doqquz ay çəkdi, rumilər bir iş görməyi bacarmadılar. Onların bir dəstəsinin əksəriyyəti qala çəngində öldürüldü, başqa

[446] Qeyd: Bu cümlədəki nöqtə işarələri ya İskəndər bəy Münşi, ya da İrəc Əfşar tərəfindən qoyulmuşdur - Ş.F.

dəstəsi öldürülmə təhlükəsindən ətraf yerlərə dağılışdı, sağ qalanlar isə döyüşü tərk edib aradan çıxmağı qənimət saydılar. Acizanə yalvarışla [şahın] yanına adam yollayan rumilər bağışlanmalarını (canbəxşi) xahiş etdilər. Şahanə mürüvvət onlara mərhəmət olunması və maneçilik göstərilməməsinə yönəldi, yəni kiçik bir hücumla bütün rumilərin müzəffər əskərlər tərəfindən əziləcəyinə baxmayaraq, [şah] onların geri qayıtmalarına icazə verdi. Rumilər özləriylə aparmaq imkanı olmayan topları öz yerlərində qoyaraq yarımcan halda çıxıb getdilər, İraqi-Ərəb yenidən bu güclü dövlət övliyalarının əlinə keçdi. Əvvəlki əməllərindən peşiman olan Təhmurəs Gürcü günahlarının əfv olunmasını rica edərək xəbər göndərdi: "Bundan sonra bəndəlik sırğası qulağımda, qulamlıq kəməri çiynimdə olacaqdır". Onun barəsində belə, bir əfv hökmü yazıldı: "Əgər öz istək üzünü bu cahanpənah dərgaha gətirib ayaq öpmə şərəfinə yetərsə, şahanə əfvə layiq görüləkdir". Gürcüstana hücum (fetrət) zamanı rumiyyənin əlinə keçmiş Axəsqə qalası İsa xan Qorçibaşının səyi ilə zəbt olunub qaladar mübarizlərə verildi. Özbək sultanları da o həzrət ilə tərəfdarlıq və bağlılıq (həvaxahi və cnqeyad) məqamına galərək ard-ardınca elçilər göndərir, ona öz meyllərini (əqidət) izhar edirdilər. Xülasə, [şahın] dövlət bayrağı gündən-günə ucalmaqda, o həzrətin cahandarlıq qabiliyyəti və böyüklüyünün sorağı bütün dünyaya yayılmaqda idi. İstər dost, yaxud düşmən olmasına baxmayaraq heç kim şahın [fərmanı] qarşısında söz deyə bilmirdi. Hamı onun qəzəbi (qəhhari) və sərtliyi (sələbət) qarşısında qayğıya düşmüşdü. O həzrətin hakimiyyəti dövründə baş verən bütün bu hadisələrin şərhi onları müfəssəl şəkildə ehtiva edən ikinci səhifədə yazılacaqdır.

Allaha həmd və minnətdarlıq[447] olsun ki, bu kitabı yazan [İskəndər Münşi] "Tarixe-aləmaraye-Abbasi"nin birinci səhifəsini tamamlamağa müvəffəq oldu. Qələm bu səhifədə dəfələrlə bəyan etmişdir ki, bu şərafətli kitab min iyirmi beşinci (miladi 1616) ildə yazılmışdır, lakin bundan sonra da həzrət zilləllah [şahın] səadətli hakimiyyəti vaxtı bir sıra vaqiələr baş verdiyindən onlar ikinci cildin ikinci məqsədi kimi qələmə alındı. Buna görə də, müəllif lazım bildi ki, həmin hadisələrin müxtəsər şərhini yazdığı məqalələrə əlavə etsin və beləliklə də, onun hakimiyyətinin (Şah Abbasın -Ş.F.) qırx illik hadisələrinin xülasəsi bu cildin mütaliəsi vaxtı [oxuculara]

[447] İfadənin ərəbcəsi: "əl-həmdu-l-lah və-l minnə" .

məlum olsun və qoy tarix vadisinin təşnə adamları təşnəlikdən qurtulsunlar. Yuxarıda qeyd etdiyimiz bəzi çatışmazlıqları aradan qaldırmaq üçün biz təkrarçılıq barədə düşünməyərək kitabın sonunda da müəyyən məsələləri yazdıq ki, [kitabımız] qoy etiraz edənlər (motəərrezan) tərəfindən etirazla qarşılanmasın. Elmsizlik səhrasının hasili olmuş bu pərakəndə və natamam məqalələr (fəqərat) fəzilət və kamal bəhrlərindən (bəhhar) zühur sahilinə çıxmış mənəviyyat (seyər) və məlumat sahiblərinin yazdıqları kitablarla bərabər tutula bilməsə də, bazar dükanlarında (rəste) alçaq və rəzil (forumaye) saxsı qab satanlar (xəzəffəruşan) öz qiymətsiz və satılmayan mallarını, özlərinin kasıb olmalarına baxmayaraq, heç kəsə havayı verməmişlər, həmçinin onları etibar dükanlarının mayası sanaraq, qiymətli cəvahir də zənn etməmişlər. Xüsusən ki, [bizim kitabımızda] yüksək (səfvətneşan) səfəvi xanədanının qiymətli məlumatları və Cəm qədir-qiymətinə malik olan və məmləkətlər alan xaqanın (Şah Abbasın - Ş.F) xoşbəxt (fərxənde) əhvalatları qələmə alınmışdır. Əgər o iki böyük səadətdən (Cəm qədir-qiymətinə malik olan və məmləkətlər alan Şah Abbasa işarə olunur - Ş.F.) bəhs edən bu kitabı bu dövrün "Mətləüs-sədeyn" bilsələr rəvadır, həmçinin o iki yüksək cəhətinə görə onu dövrün "Zəfərnamə"si** adlandırsalar layiqdir (seza). Fərasət (fetnət) və zəka sahiblərindən xahişimiz budur ki, bu kitaba inayət və iltifat gözü ilə baxsınlar, mütaliə zamanı onun hər hansı bir yerində olur-olsun nəsə səhv və qüsur görsələr, həmin yerləri alicənablığın (fotovvət) lütf pərdəsi ilə örtüb onları islah etsinlər. Onlar qoy

Misra

"Xırdaçılıq etməsin kiçiklərə böyüklər"[448]

Kəlarına əməl edərək, yar və mədədkar kimi himmət göstərsinlər, beləliklə də, izzətli olan həzrət Rəbbin köməyi, habelə ilahi kömək sayəsində bizim xəyal dəftərimizdə (cəridc) yazılan arzu öz çöhrəsini ən yaxşı şəkildə açsın, qoy kitabın həl tamamlanmayan ikinci səhifəsi bəyan qələmi ilə, yuxarıda deyildiyi kimi, göstərilən həmin iki məqsədlə yazılsın. Kamalının vəsfi kitabın "Dibaçə"sində yazılan o səadətmənd şəxsin vasitəsi ilə

[448] Misranm farscası:
Bozorgan xorde bər xordan nəgirənd.

(kimin? - Ş.F.) bizim yazdığımız [bu əsər] Cəm qədir-qiymətli [və] Süleyman İqtidarlı [şahın] xatir əhifəsində yüksək səviyyədə qəbul olma səadətinə yetişsin, məmləkətlər alan, qanun-qayda öyrədən məclislər bəzəyi olan [şah] bu bəlağət şəbistanının tazə gəlini ilə (yəni "Tarixe-Aləmaraye-Abbasi" kitabı ilə - Ş.F.) əqd bağlasın və əbədi olaraq (əbədüd-dəhr) ondan yaxşıca kam alsın.

Biz yazdıq, əbədi qalsınlar barı
Məşhur adamların məşhur adları[449]

İrəc Əfşarın izahatı: İkinci kitabın sonunda verilmiş on bir məqalə 1099-1116-cı səhifələrdə çap olunmuşdur, lakin həmin məqalələr 373-cü səhifənin 17-ci sətrindən əvvəl yazılmalıdır. Əsərin daş basması nüsxəsində o hissə yoxdur.

Qeyd: Biz İrəc Əfşarın məsləhətinə əməl etdik və onun etmədiyi işi yerinə yetirdik. Möhtərəm oxucular, biz beləliklə ustad İrəc Əfşar tərəfindən "Tarixe-aləmaraye Abbasi" əsərinin II kitabının sonunda verilən on bir məqaləni dərc olunduğu yerdən çıxarıb ardıcıllıq naminə birinci cildin sonunda verməli olduq.

Şahin Fazil

[449] Beytin farscası:
Ke bagi bovəd əz səna göstəran
Həmi dər cəhan name-namavəran.

İSGƏNDƏR BƏY MÜNŞİ
TÜRKMAN DÜNYANI BƏZƏYƏN ABBASIN TARİXİ

(Tarixe-aləmaraye-Abbasi)
(İkinci cildin birinci yarısı)

BÖYÜK ŞAH ABBASIN HAKİMİYYƏTİNİN İLK OTUZ İLİ

Bismillahir-rəhmanir-rəhim![450]

Mülk və din, din və dövlət nizamlayıcılarının, habelə mülk və millət taxtını bəzəyənlərin görəcəkləri işlər qoşa-şoşa (toəman) olduğundan kamkar padşahların səltənət və aləm bəzəyən səhifəsi ədalət, ehsan, mehribanlıq (rafət) və inam yaradılmadan qiymətləndirilməyəcəkdir. O əzəmətli işlərin hər biri (yəni mülk və din, din və dövlət, mülk və millət - Ş.F.) Allah əhədiyyət dərgahının ən öncül himməti olduğu üçün "həmin işləri ədalət və ehsanla (xeyrxahlıqla - Ş.F.) həyata keçirərək"[451] xilqətin (xəlqullah) qorunmasında böyük səylər göstərmişdir. [Buna görə də] padşahların yüksək mənsəb dərəcəsi şöhrətlənmiş və hər iki cahanda əbədi və izzətli hökmranlıqla işıqlanmışlar. Xilqət karxanasına bəsirət gözüylə baxan tədqiq aləminin təhqiq ərbabları vahidliyin sifat* və kamalının təzahürünü görən şəxslərdir. Adil zilləllah sultanı onlar peyğəmbərliyin və vəlayətin hissələrindən bir hissəsi saymışlar.

Beyt[lər]

Şəriət sahibi ol, ürəyə gir ədl ilə,
Peyğəmbərlik qapısı döyülsün ədalətlə.
Ədalətin nuruyla cahanı bəzəyir
Haqq, Yeri, göyü qoruyan ədldir, qoruyacaq![452]

Əlhəmdülillah ki, kamil zat (Allah - Ş.F.) cahan padşahı (xədiv) və zaman pəhləvanına xas olan surət və mənan bəzəmiş, kamkar, kambəxş və kamran xosrovun adı bu səhifənin ünvanını

---

[450] Qeyd: Tərcüməmizin bu səhifəsindən başlayaraq 773-cü səhifəsindən haşiyələrdəki rəqəmlərin sıralanmasında dəyişiklik nəzərə çarpır və s. 249 m-dən 274 m-ə qədər davam edir. Bu hal naşir İrəc Əfşarın "Tarixe-Aləmaraye-Abbasi"nin başqa nüsxəsindən istifadə etməsi üzündən baş vermişdir - Ş.F.

[451] Ərəbcə:
"Məmurun əmrun innə-l-lahə yəmuru bi-l-ədli və-l ihsəni".

[452] Beytlərin farscası:
Ədl kon z-anke dər vəlayəte-del Dəre-peyğəmbəri zənəd adel
Həqq cəhanra be nure-ədl arast,
Aseman-o zəmin ze ədl bepast.

gözəlləşdirmişdir. Ədalət və fatehliyin qəsri, sərvərlik taxtının zinətini daha da artıran, ədalət yayan tac (deyhim), əql və elm cahanının hökmranı, yaranış (afərineş) dəryasının yeganə gövhəri hər tərəfin (çahar baleş), dövlət və kamkarlıq sultanı, ədalət (nəsfət) və bəxtiyarlıq taxtı son Peyğəmbərin qohumu[453] [həzrət Əlinin] (şahe-mərdan) sədaqətli qulamı [olan şah] öz əqidə bolluğu və saf etiqadı ilə özünü o həzrətin astanasının iti hesab edir.

Şer

İqbal taxt-tacının dürrü sayılan,
Cah-cəlal şe rinin şahbeyti olan,
Peyğəmbər nəslinin fəxri tək qalan
Abbasdır din şahı, dövr xosrovu.[454]

"Allah-təala onun dövlət və xilafətinin bayrağını uca etsin"[455] kimi kəramətli şivəsi ilə vasil olmuşdur və daxili feyz ilə doludur. Cahanın məskunlaşan hissəsinin dörddə biri (xolaseye-robe - məskun) olan və ən gözəl sahəsinə çevrilən İran məmləkətinin səltənət və şahlıq möhürü bu sülalənin məşhur və yüksək məqamlı zümrəsindən [dünyaya gələn] həmin uca məqamlı şahın adı ilə "İstədiyinin həyata keçirən Rəbbinin"[456] uca rüknlər (ərkan) divanından bəzənmişdir. Aləmin ağıl sahibləri tərəfindən mədh olunmuş İrəmə bənzər bu məmləkət amma zəmanə quraqlığından pərişan (pəymorde) hala düşmüş, o diyar sakinlərinin [xoş] əhvallar gülşəni zəhərli küləyin (səmum) əsməyi nəticəsində öz təravətini itirməmişdir. Amma, bu ölkəni o, (Şah Abbas - Ş.F.) yenidən solğunluqdan qurtararaq, oranın sakinlərini bütün acılıqdan, isti küləklərdən və qəm-qüssədən xilas etmiş və onun xoşbəxtlik və ilahi inayəti sayəsində məmləkət yenidən təravətlənmiş və yaşıllaşmışdır.

---

[453] Qeyd: Peyğəmbərin əmisi oğlu Əli ibn Əbitaleb nəzərdə tutulur.

[454] Bu şer ehtimal ki, İran şairi Ənvəriyə məxsusdur (Bax: Zəhin Səmərqəndi. Sindbadnamə. Seyid Məhəmməd Bağır Kəmaləddının səyi ilə, Yəzd, 1379)
Farscası belədir:
Dorrətot - tace tareke-eqbal
Şahbeyte - qəsideye – eclal
Fəxre-ale-nəbiye-şər əsas
Xosrove-əhd-o şahe-din Əbbas.

[455] Ərəbcəsi: "Ələ Allah-Təalə livaə davlatihi və xilafətihi".

[456] Ərəbcəsi: "Rəbbikə yəfəlu ma yəşaə".

Birinci səhifədə qələm bəyan etdi ki, gündən-günə genişlənən (ruzəfzun) səltənət iqamətgahı və möhkəmlənən bu əbədi xilafət səadətli şahın [hakimiyyətə] gəlişi ilə behiştin (darül-xüludun) qibtəsinə səbəb oldu, o həzrətin əbədi dövlət gülşəninin kol-kosları (xəs-o xar) olan alçaq aqibətli düşmənlər zaman qəhrəmanının qəhr atəşinin alovundan yandılar və ədəm yoluna yollandılar. O həzrət Allahın ədli ilə öz alişan atasını əvəz edərək heç bir maneçilik və münaqişə olmadan İran hökmranlığına və öz aliməkan ata-babasının qələbə bəxtli təxtinə əyləşdi. Heyrət və sahmansızlıq (bisərəncami) səhrasında qalan bütün qızılbaş tayfaları o həzrətin qiymətli vücudunu asiman hədiyyələrinin ən seçilmişi (gəzin) və ilahi ənamlarının (ətaya) ən yaxşısı (behin) bilib, onun səadətli qədəmlərinin atılmasından şadiman oldular, onların şadlıq və mübarəkbadlıq səsləri yenidən qalxaraq mələklər aləminə (mələkut) çatdı. Uca minbərlər, pul və dinarlar onun hümayun adı və ləqəbiylə bəzəndi, ilahinin seçdiyi [o həzrətin] səltənət və padşahlıq səsi, xilafət və şahənşahlıq avazı bütün dünyaya yayıldı. Hər tərəfdən gələn xalqlar (xəlayeq) onun Saturn (Keyvan) bürcünədək ucalan dərgahına üz tutdular, peşkəşlər yağdırdılar. Adamların dilləri belə söyləyirdi:

Şer

Bu dövlətdən, bu mülkdən, ey şah, al kam,
Fələk rəhbər olsun sənə, bəxt ram.
Təxtü tacın olsun sənin mübarək,
Kəyan taxtına vurmusan bər-bəzək.
Bəzə şahlıq taxtını, ey hökmdar,
Şahənşah olmağa ləyaqətin var.
İnayət edərsə Pərvərdigarın,
Qəza zamin olar; qədərsə yarın.
Təbii ömr qismət olsun sənə,
İşıq səpsin həxtin cahan üstünə.
Nəsibin ola səadət, cah-cəlal,
Yüz iyirmi il padşahlıqda qal[457]

[457] Şerin farscası:
Şəha, molk-o dovlət bekame-to bad,
Fələk peyrov-o bəxt rame - to bad.

O həzrətin parlaq (mənus) cülusunun tarixini İraqın istedad sahibləri (mostoedan) "zilləllah" sözündə tapmışlar və cülusun [maddeye-] tarixini nəzm ipinə belə çəkmişlər:

[Maddeye-] tarix

Elə ki, səltənətin taxtında
Gəlib etdi cülus o şahənşah,
Allahın kölgəsi idi sanki,
Gördü ol kölgəni ibadullah*
Qəlb həmin tarixi bilmək dilədi,
Eşidildi bu səda: "Zilləllah ".[458]

O [həzrətin] şərafətli adını ifadə edən "Əbbase-bahadur xan" [ifadəsi] də onun hümayun cülusunun [maddeye-] tarixidir, Allah tərəfindən qeybdən gələn sədadır (elhamate-qeybi), rəmzdir, Rəbbin mütləq buyruğudur:

[Maddeyi-] tarix

Mobarək bovəd bər to tace-şəhan,
Ke bər tost zibənde təxte-Kəyan.
Bər aray ovrənge-fərmandehi,
Ke həsti sezavare-şahənşəhi.
Bovəd əz enayate - Pərvərdigar
Qəza ba to ram-o qədr ba to yar.
Be omre-təbii rəsəd sale-to,
Bovəd gitiəfruz eqbale-to.
Bemani befərxondegi-yo cəlal
Bər ovrənqe-şahi səd-o bist sal.
Qeyd: Bu şerin son misrasındakı "yüz iyirmi il" rəqəmi məni çox düşündürdü. Fikirləşdim və yadıma məşhur ərəb tarixçisi ibn-Xəldunun hansı əsərindəsə oxuduğum bir fikir düşdü. Onun yazdığına görə hər hakimiyyətin ömrü yüz iyirmi il kimi müəyyənləşdirilmişdir - Ş.F.

[458] Maddeyi-tarix
Kərd bər məsnəde-şəhənşahi
Çon colus an şəhe-hümayungah
Bud çon sayeye-xodaye-cəhan,
Saye əndaxt bər ibadullah.
Sale-tarix del tələb mikərd,
Hatefi bang zəd ke "Zilləllah".

İran şahı xaqanlıq taxtında cülus etdi,
Tarix bu kəlam oldu: "Əbbase-bahadurxan".[459]

Ümüdvarıq ki, onun səadət peyvəndli hakimiyyəti həzrət sahibül-əmrin (İmam Mehdinin - Ş.F.) zühur vaxtına qədər davam edəcəkdir. Qoy onun ədalətinin nuru bütün dünyaya yayılsın (gostərde bad). Qoy onun xilafət qəsri dövran hadisələrinin zərbələrindən qorunmuş olsun. Qoy onun dövlət baharına xəzan afəti toxunmasın. İxlas yolunun yolçuları, həmçinin ata-babaları ilə birlikdə bu qiymətli astanənin iradət sırğaları qulaqlarında və xidmətkarlıq köynəkləri əyinlərində olan bu uca ziyarət evinin dövlətxahları bu zamanə padşahının xidmətində yüksək divan vəzarəti vəzifəsi ilə şərbüləng olmuşlar. Bu kitabın iqbal dibaçəsi o səadətmənd [şahın] məşhur adı ilə bəzənmiş və birinci səhifənin yuxarısında onun kamalı vəsf olunmuşdur. Qoy o sultanlar sultanına xas bolluq bağının səmərəli nihalı və ədalət bağçasının səadət meyvəli ağacı barlı-bəhərli olsun o dünya xosrovu izzətlənsin və afiyətdə olsun.

Əmma bəd (amma sonra - Ş.F.), əbədi dövlətin ən kiçik və sədaqətli qulamlarından olan bu kitabın müəllifi həzrət Allah-təalanın köməyi ilə İranda baş verən hadisələri bu vəlayətnişan xanədan hakimiyyətinin zühurunu məna aləminin şəhriyarları olan əlahəzrət zilləllah şahın ali məqamlı əcdadının əhvalatlarını, onun səadətli doğuşu (vəladət) zamanı baş verən hadisələri, həmçinin hicri tarixlə doqquz yüz doxsan altıncı (miladi 1587/88) ilə bərabər olan bu donuz ilindəki hadisələrin qısa icmalını ki, birinci cilddə münşiyanə ibarəsiz və istiarələrsiz deyimlərlə yazılmışdır, başa çatdırdı. Həmçinin birinci səhifədə işarə olunduğu kimi, [bu kitabın müəllifinə] əgər ömür vəfa eləsə və əlinə fürsət düşsə, hekayətlərin rəmzi olan bu kitabı o, şərafətli idarələr və ləyaqətdi istiarələrlə yazı ipinə düzərək qələmə alacaq və kitabın yazılışı vaxtı biixtiyar oraya düşmüş yararsız yazıları (zəvayed) ki, tarix fənni üçün vacib deyildir, atacaq, nəzm və nəsrlə elə bir nüsxə yazacaqdır ki, həmin nüsxə kamil nəzərli (balegnəzər), yetkin təbiətli (sahebtəbiət) və ali

[459] Maddeye-tarixin farscası:
Bər məsnəde-xaqani zəd təkye şəhe-İran,
Tarixe-colusəş şod "Əbbase-bahadur xan".

xasiyyətli (alifetrət) adamlar tərəfindən qəbul olunacaqdır. İndi isə, sabiqdə vəd etdiyimiz kimi bizim məqsədimiz budur: Bu səhifədə bir qərnlik səadətə malik olan, həqiqətən [o həzrətin] hakimiyyətinin başlanğıcı və xilafət taxtına cülusunun birinci ili hesab olunan vaxtdan başlayaraq, onun dövründə İran səltənətində baş vermiş hadisələr əks olunacaqdır. Müəllif öz-özünə belə fikirləşdi: Ərəblərdə ilin başlanğıcı hicri tarixlə məhərrəm ayının birindən başlayır və əcəm əhli bu tarixi başa düşməz. Türklər (ətrak) və əcəm əhli üçün ilin başlanğıcı novruzun başlanmasıdır. Novruzun başlanması isə aləmi bəzəyən baharın əvvəlidir. Yeni novruzun gəlməsindən ötrü gərəkdir ki, dörd fəsl bitmiş olsun və yeni il başlansın. Məhərrəm ayı isə türk ilinin [əvvəlində yox], içərisindədir. İstedad sahiblərinin yazdıqları tarixlər isə türk ilinin [başlanğıcı ilə] uyğun gəlmir, yəni o tarixlərin bəzisi sabiq hicri tarixi ilə düz gəlir, bəzisi isə yox. Yəni ya azdır, ya da çox. Bu həqir zərrə (yəni İsgəndər bəy - Ş.F.) borcludur ki, "Aləmara" kitabı anlaşılmazlıqdan və müşkülatdan uzaq olsun və hamı tərəfindən başa düşülsün. Biz həmin ixtilafın olmamasından ötrü, hamı tərəfindən daha aydın anlaşıları türk ilini əsas götürdük ki, həm hadisələr əhatəli, həm də cahandarlıq yolunun yolçuları üçün aydın olsun.

Qoy bu dövran yeganəsinin (Şah Abbasın - Ş.F.) hakimiyyəti dövründə ilbəil baş verən hadisələr həzrət Allahın köməyi və bu şəhriyarın səyi ilə din və dövlət işlərindəki tərəqqi ilbəil göstərilsin. Baxmayaraq ki, zəfər amallı dövlətin başlanğıcının iki-üç ili dövründə iranlıların bəxt ulduzu hələ parlamamışdı və qəza lövhəsindəki şəriətə görə bəzi bəyənilməz hərəkətlərin qarşısı alındı, amma Allahın köməyi ilə pis dövr keçdi və zəmanə bu zavalsız övliyaların üzünə səadət və iqbal qapılarını açdı, hümayun bəxt və yuxarıdakı himmət qüvvəsinin səadətindən (meymənət) məmləkət bağı ilahi lütfün buludları (səvab) və padşahın hüsni-etinası ilə təzədən yaşıllaşmağa başladı, elə o vaxtdan etibarən də, əgər məsələlərə bəşirət gözü ilə baxılarsa, xoş əməllər göründü. Əlbəttə, bunun səbəbkarı həzrət Yaradan və cahan sultanlarının gördükləri işlər (kar-name) və padşahların dəsturül-əməlləridir.

İndi, söhbətimizin əvvəlinə qayıdaraq, qələmin bundan əvvəl yazdığı hadisə bir də nəzərə çatdırılır: Mürşidqulu xan İran əmirlərindən xatircəm olduqdan sonra vəkalət vəzifəsini müstəqil şəkildə öz əlinə aldı, divanın bütün işlərini idarə etməyə başladı.

Əlahəzrət zilləlah şah səltənət qəsrinin və dövlət məsələlərinin qayda-qanunlarını möhkəmlətmək naminə Mürşidqulu xanı cahandarlıq işlərinin nizamlanması yolunda qüvvətli və mütləq bir şəxs hesab etdiyindən, onun əzəməti və iqtidarı gün-gündən artırdı. O, ilk vaxtlarda mübarək dövlətxanada yaşayırdı və əmirlər, vəzirlər, dövlət başçıları hümayun dövlətxanada onun yanında olur, divanın böyük və kiçik işlərinin hamısını onun məsləhəti ilə idarə edirdilər. Bir neçə gündən sonra o, dövlətxanadan çıxıb, cənnətməkan şahın mərhum qızı Pərixan xanımın dövlətxanaya bitişik olan evində yerləşdi. Ətrafda yaşayan əmirlərdən Kirmandan Vəli xan Əfşar, Əbrquhdan Qulu bəy Qorçibaşı Əfşarın oğlu Yusif xan, Şirazdan Mehdiqulu xan Zülqədər və Mirzə Salmanın oğlu Mirzə Abdulla, Qumdan Şahqulu Xəlifə Zülqədər Möhrdarın nəvəsi Əliqulu Sultan, Astaradan Əmir Həmzə xan Talış, Ərdəbildən Məhəmməd xan Türkman saraya gəlib ayaqöpmə şərəfi ilə müşərrəf oldular. Qızılbaş əyanları hər gün ətraf yerlərdən şövq və məhəbbətlə saraya gəlir, şaha mülazim olmaq istəyir, dünyanı bəzəyən bu yeni gün doğuşundan onların gözləri parlayırdı.

Bu hadisələrin baş verdiyi vaxtlar təbiətin mənəvi şadyanalıq əyyamı idi və bir toy mərasimi də araya çıxdı, şərafətli nəvvaba evlənmək təklif olundu. Bu pak xanədanın şahzadələrindən və hörmətli banulardan olan və indiyədək heç kimə ərə getməyən Sultan Mustafa Mirzənin (Şah Təhmasibin oğlu - Ş.F.) qızını və həmçinin rəhmətlik şahzadə Sultan Həmzə Mirzənin arvadı olmuş Sultan Hüseyn Mirzə (Şah İsmayılın nəvəsi - Ş.F) ibn Bəhram Mirzənin qızını mübarək zata (Şah Abbasa - Ş.F.) münasib gördülər. O, həzrətin icazəsindən sonra əzəmətli üləmalar və möhtərəm fəqihlər gözəl bir saatda səltənət asimanının iki Zəhrasının səadət zirvəsinin Müştərisi (Yupiteri - Ş.F.) ilə kəbinini kəsdilər. Cənnətməkan şahın "Səadətabad bağı" və "At meydanı"nda şahanə bir bayram və padşanə bir məclisi qurub üç gecə-gündüz toy etdilər. Əhalinin üzünə eyş-işrət qapıları açıldı, müəyyən (vəzi) şərafətli insanlar, yaxın və uzaq (xəvas və əvvam) adamlar şadimanlıq etdilər. Üçüncü gecə müqəddəs hərəmxana otağı o iki xanımla bəzəndi və onlar səadətə yetişdilər.

Bu şadmanlıq məclisləri bitdikdən sonra [şah] yüksək qədr-qiyməti olan əmirlərin hər birinə münasib mənsəblər və böyük tiyullar verdi. Yusif xan - qorçibaşı, Əli Sultan Zülqədər isə möhrdar

oldu, Şiraz əyaləti Mehdiqulu xana çatdı, Dəli Budaqın oğlu Kor Qorxmaz xüləfa mənsəbinə layiq görüldü.

Amma, ali divan vəzarətini, məktub göndərərək, Mirzə Salmanın oğlu Mirzə Abdullaya verəcəyini vəd edən şah fikrini dəyişdi və həmin vəzifəni Mürşidqulu xanın vəziri olmuş və qalada öldürülmüş Mirzə Əhmədin oğlu Mirzə Şahvəliyə verdi. Xalq arasında "Nisfi-cahan" ("Cahanın yarısı" - Ş.F.) adlanan gözəl İsfahan vilayətini ki, cənnətməkan şahın xüsusi mülklərinin əksəriyyəti orada idi və İsgəndər şanlı nəvvabın dövründə əvvəlcə rəhmətlik Sultan Həmzə Mirzəyə, sonra iso Əbu Talib Mirzəyə verilmişdi, Mürşidqulu xan özünə götürdü. Bu onun İraqda etdiyi birinci ədəbsizliyi və səhvi idi. Qum ülkası Süleyman Xəlifə Türkmana, Həmədan Qorxmaz xan Şamlıya verildi. Başqa vilayətlər isə Mürşidqulu xanın istəyi və təklifi ilə əzəmətli əmirlər arasında paylandı. Ülka, el və oymaq sahibi olmuş hər bir əmirdən Xorasan səfərinə (yürüşünə - Ş.F.) hazırlaşmaqdan ötrü ləşkər və qoşun yığmaq barədə sənəd aldılar. Belə qərara gəldilər ki, baharın əvvəlində şahın dünyalar alan ordusu Xorasana tərəf hərəkət edib, İraq və Xorasan ləşkərləri ilə birlikdə Abdulla xana hücuma keçərək, Herat darülsəltənəsində mühasirədə olanları azad etsinlər.

DONUZ İLİNDƏ, ALİ HÜMAYUNUN CÜLUS ETMƏSİNİN BİRİNCİ İLİNDƏ (HİCRİ 996, MİLADİ 1587/88) BAŞ VERƏN BAŞQA VAQİƏLƏRİNİN ZİKRİ VƏ ALİ SARAYDA ƏMİRLƏR ARASINDA OLAN VƏ BİR DƏSTƏ ƏMİRİN QƏTLİ İLƏ NƏTİCƏLƏNƏN FİTNƏKARLIĞIN BƏYANI

Əlahəzrət zilləllah şah hələ uşaqlıq əyyamından Herat darülsəltənəsində Əliqulu xan Lələnin və şamlı tayfasının yanında yaşayıb-böyüdüyündən tamamilə onların tərəfində idi. Kitabın birinci səhifəsində yazıldığı kimi Əliqulu xanla Mürşüdqulu xan arasında mübahisə yarandığından məsələ müharibə ilə nəticələndi. O həzrət (Abbas Mirzə - Ş.F.) isə Mürşidqulu xanın ixtiyarına verildi, onlar müqəddəs Məşhədə gəldilər. Mürşidqulu xan ustaclı tayfasından olduğu üçün o həzrətin xoşuna gəlmirdi, amma dövlətin nizamından ötrü onun lələ olmasına razılıq vermişdi. O, varisliyin qələbə bəxtli taxtına cülus etdiyi vaxt Mürşidqulu xanın qədr-qiyməti Keyvan cyvanına (Saturn bürcünə - Ş.F.) qədər ucaldı, şöhrət və iqtidarını xeyli çoxaltdı. Müqəddəs Məşhəddən gələn və

işin incəliklərindən xəbərdar olan əzəmətli əmirlər, xüsusilə Pir Qeyb xan Ustaclı və qardaşları [xanın] şövkət və iqtidar məsələsinə şahın münasibətini əvvəl bilirdilər. Buna görə də onlar onun iqtidarına tab gətirmədilər, ürəklərində həsəd atəşi alovlandı. Hamısı onu dəf etməyə girişdi. Ali divanın vəzarətini ələ keçirtmək həvəsinə düşən, lakin niyyəti həyata keçməyən Mirzə Salman oğlu Mirzə Abdullanın təhriki ilə onlar Şiraz hakimi Mehdiqulu xan, qorçibaşı Yusif xan, möhrdar Əliqulu Sultan Zülqədər, Əbülməsum Türkman və Kor Qorxmaz Xüləfa ilə əlbir olub Mürşidqulu xanı aradan götürmək barədə əhd-peyman bağladılar və fürsət gözləməyə başladılar. Alişan seyidlərdən olan Mirmiran Sədrin oğlu Mirzə Məhəmməd Əmin İsfahandan gələrək Qəzvinə yaxınlaşdığı vaxt Mürşidqulu xan əmirlərlə birlikdə onu istiqbal etmək qərarına gəlmişdi. Əmirlər isə sui-qəsd hazırlayıb belə rəyə gəldilər ki, atını dövrəyə alıb, onu qətlə yetirsinlər.

O günün ertəsi sui-qəsddən xəbərdar olan iki-üç adam Mürşidqulu xanın yanına gələrək onu vəziyyətdən xəbərdar etdi. Mürşidqulu xan da öz havadarlarını toplayıb "At meydanı" yolu ilə hümayun dövlətxanaya gəldi, əlahəzrət şaha əmirlərin fitnə-fəsadı barədə məlumat verdi.

Yusif xan Qorçibaşının evində toplaşan üsyankar əmirlər Mürşüdqulu xanm artıq onların niyyətindən xəbər tutduğunu və indi dövlətxanada şahın yanında olduğunu bilib hamılıqla dövlətxana qapısına gəldilər. Mirzə Məhəmməd Əlini istiqbal etmək bəhanəsi ilə onların əksər mülazimləri və qoşunları yaraqlanmışdılar. Eşikağası və qapıçılar onların döyüşçülərinin içəriyə girişinə mane olmaq istədikdə dərhal hücuma keçdilər, ləngimədən dövlətxananın əndərun hissəsinə, "Çehelsütun" sarayına yar-yaraqla daxil oldular. Onlar belə düşünürdülər ki, bu iş şahın məzacına müvafiq ola bilər və onlar da o həzrətin köməyi ilə Mürşidqulu xanı asanlıqla dəf edərlər. Əlahəzrət, baxmayaraq ki, Mürşidqulu xanın davranışından, onun bir çox məsələlərə qarışdığından və iqtidarından narazı idi, lakin hüsni-tədbirlə Mürşidqulu xanın tərəfini tutaraq, dövlətxanaya icazəsiz gələn, əksəriyyəti qiyam yolu ilə əyalət hakimliyinə və böyük mərtəbəyə qalxan və tayfa başçıları kimi özünəxas rəftara malik olan həmin üsyankar əmirləri aradan götürməyi qərara aldı, çünki o camaatı dəf etməkdən ötrü bundan yaxşı bəhanə ələ düşə bilməzdi.

Xülasə, əlahəzrət əmirlərin "Çehelsütun" qəsrinə gəlişlərindən xəbər tutduqda onların yanına adam yollayıb bu hücumun nə üçün edildiyini və bu qovğaya kimin bais olduğunu soruşdu. Onlar isə ağılsızlıq edib azacıq da olsa qorxmazlıq göstərmədilər, irəli getməyə cürət etmədilər, öz niyyətlərinin həyata keçməsini isə başqa bir vaxta saxladılar. Cavabında ərz edib dedilər ki, Mirzə Məhəmməd Əlini qarşılamaq istəyirik, buna görə də gəlmişik ki, əgər xanın da onu istiqbal etmək meyli varsa, onunla birlikdə pişvaza gedək, əgər şah buna razı deyilsə mürəxxəs olub geri qayıdaq.

Onların başqa sözləri olmadığından şərafətli nəvvab getmələrinə izn verdi və dedi ki, siz gedin, çünki xan şahın hüzurunda vacib işlərlə məşğuldur və gedə bilməyəcək. Əmirlər öz səhvləri üzündən geri qayıdıb, istiqbaldan sonra hamılıqla "Səadətabad" bağına getdilər və anladılar ki, bundan sonra Mürşidqulu xan tərəfindən arxayın ola bilməyəcəklər, çünki artıq işin üstündən pərdə götürülmüş, onların müxalifəti zahirə çıxmışdı. [Buna görə də] əmirlər ləşkər toplamaqla məşğul olmağa başladılar. Beləliklə, vəziyyətin başlanğıcında həlli asanlıqla müyəssər ola biləcək bir məsələni özləri üçün çətinləşdirdilər.

Şah sonradan Qorxmaz xan Şamlını əmirlərin yanına göndərib bu qiyamın səbəbini və onların iddialarını soruşduqda onlar dedilər ki, Mürşidqulu xanın hakimiyyətdə olması və iqtidarı ilə razı deyillər və onun tərəfindən əlahəzrət şahın bəndələrinə, olduqca pis qarşı münasibət görürlər ki, belə hərəkətlə qızılbaşlar razılaşa bilməzlər və biz onunla əlbir ola bilmərik.

Əlahəzrət buyurdu ki, sizlər bu dərgahın mülazimlərisiniz. Əgər dövlətxanə barədə bir fikir xatirinizə düşərsə, yaxud Mürşidqulu xanın, ya başqa adamların iş rəftarından nəsə bir şikayətiniz olarsa, qayda belədir ki, yalnız bizə ərz etdikdən sonra fərmanınıza uyğun olaraq nəyinsə icrasına başlaya bilərsiniz. Özbaşınalıq edib qızılbaşların arasına fitnə-fəsad salmaq və qoşun çəkmək isə üsyan və tüğyan deməkdir. Onların başqa fikirlərə düşüb qeyri bir əmələ əl atmamalarından ötrü [şah] onları dəf etmək fikrinə düşdü. Əmirlərin bir yerə toplanmalarının qarşısını almaq niyy'ti ilə [şah tərəfdarları] "şahsevən" deyə-deyə car etdilər ki, kim ki, şahın mübarək başını sevir, qoy humayun dövlətxanaya gəlih hizə qoşulsun. Qızılbaş tayfalan dəstə-dəstə gəlib dövlətxanaya və "At meydanı"na doldular. Əmirlərin dəstəsi get-gedə azalmağa başladı

və onlar niyyətlərinin baş tutmamasından məyus oldular. Qorxmaz xanı yanlarına çağırıb, onun dili ilə şaha ərz etdilər: "Bizim sədaqət və qulamlığımızda heç bir qüsur ola bilməz, nəvvab şahdan da olduqca razıyıq, amma biz Mürşüdqulu xandan incimişik. O, bizimlə yersiz rəftar etmişdir. Bizim hər birimiz yüksək divanın ali mənsəblərinə münasib adam olduğumuza baxmayaraq, bizi həmin mənsəblərə münasib bilmir və heç birimizə öz işimiz verilməyibdir. Ondan [Mürşidqulu xandan - Ş.F.] çoxlu hörmət-izzət görmək istəyimizə baxmayaraq, bunu az hiss edirik. Xahişimiz budur ki, əlahəzrətin biz bəndələri onun yanına gedək və məğlubedilməz dövlətin ləyaqətinə uyğun olaraq aramızdakı bütün narazılıqlar həll edilsin".

Xahişlərinin hələ şaha ərz olunmasından əvvəl belə əmirlər bu qərara gəldilər ki, Qorxmaz xanın evinə gedib bu gecə onun mehmanı olsunlar, ertəsi gün isə Mürşidqulu xan onları yanına çağırar və hamını hər cəhətdən arxayın edər, beləliklə də Qorxmaz xan sülh bağlanmasından ötrü vasitə olar, onları bir-birləri ilə barışdırar.

Qorxmaz xan əmirləri öz evinə dəvət etdi. Günün sonunda əmirlər talelərinin uğursuzluğundan "Səadətabad bağından çıxaraq onun evinə getdilər, gecəni orada qaldılar, Qorxmaz xan da onlara mehmannəvazlıq etdi.

Amma, dövlətxanaya yığışan şahsevənlər o gecə sübhə qədər gözləyib ehtiyat yolunu tutdular. Ertəsi gün, sabit və səyyar ulduzlar xosrovu [günəş] mina rəngli və dörd payəli fələyin taxtında əyləşdiyi vaxt Qorxmaz xan dövlətxanaya gələrək, zülqədər tayfasının ən ağıllı adamı olan Şiraz hakimi Mehdiqulu xan Zülqədərlə görüşüb özünün və əmirlərin adından baş verən ədəbsizliyə görə üzr istədi. O giley-güzara başlayıb belə ərz etdi: "Mürşüdqulu xan şaha heç nəyi bildirmədən öz xeyri naminə məmləkətin bütün işlərini aparır, şahın mübarək möhürlərini boynundan asıb, hər şeyi öz bildiyi kimi həll edir. Qayda isə belə olmalıdır ki, bundan sonra Mürşidqulu xan möhürləri öz yanında saxlamasın və onları cənnətməkan şahın dövründə olduğu kimi şahın bəndələrinə versin və möhürlər hərəmxanada saxlanılsın, hər həftədə iki gün divan çağırılsın, divanda hər birinin öz mənsəbi olan və öz oymaqlarının ağsaqqallığını edən əzəmətli əmirlər toplaşsınlar, hər tayfanın ülka və qoşun işləri tayfa ağsaqqallarının məsləhəti və təsdiqi ilə həyata keçsin ki, qorçibaşının, əzəmətli

qorçilərin, dövlətin sürunları olan hər bir əmirin öz el və oymaqları içrisində izzəti və ehtiramı olsun". Şahın bəndələri [habelə] dedilər: "İsgəndər şanlı nəvvabın dövründə də əmirlərin iqtidarı, onların işlərə dəxalət etmələri və bir-birilərinə qarşı olan narazılıqlarının qarşısının alınmasından ötrü qızılbaşların arasında bir neçə dəfə fitnə-fəsad törəndi ki, hal-hazırda elə işləri unutmaq lazımdır. Çünki, hər işin ixtiyarı padşahın əlindədir. Biz isə Mürşidqulu xanı etimad sahibi kimi qəbul edib, işlərin icrasını ona tapşırmışıq".
Danışıq zamanı Mehdiqulu xan səsini yuxan qaldırıb Mürşidqulu xana əsəbanə sözlər dedi, buna görə də, əlahəzrətin qəzəb atını şölələndi və belə buyurdu: "Ey fitnə-fəsad sahibi olan kişicığaz, biz səni Şiraz əyalətinə göndərib, xan rütbəsinə layiq görmüşük. Bundan artıq nə istəyirsən ki, qızılbaşlar arasında fitnə-fəsad törədirsən? Özbaşınalıq edən siz kimi adamların vücudları dövlət gülzarının tikanlandırlar.

Misra

Mülkü xərab eyləyən ölsün gərək![460]

Şiraz hakimi Mehdiqulu xanın öldürülməsi:

Əlahəzrət, atası cənnətməkan şahın zamanında Şiraz hakimi olan, özü isə Xorasanda şahzadənin [Abbas Mirzənin - Ş.F.] xidmətində dayanan və sonradan humayun məiyyətlə birgə Xorasandan qayıdan Yaqub bəy İbrahim oğlu Zülqədərə Şiraz hakimliyini vəd edib, Mehdiqulu xanın işini bitirməyi ona həvalə etdi. O da, şahın məclisində Mehdiqulu xanın əllərini bağladı, başındakı tacını çıxardı, şahın işarəsi ilə onu qətl etdi və həmin ləhzə Şiraz əyaləti ona verildi. Mehdiqulu xanın qətlindən sonra əlahəzrət [bir vaxtlar] İsgəndər şanlı nəvvabın möhrdan olan, Əbu Talib Mirzə tərəfdarları tərəfindən vəzifəsindən çıxarılıb cəzalandırılan, var-dövləti müsadirə olunan Əsəlməs xan ibn Şahrux xan Tatioğlu Zülqədərə Əliqulu Sultan Möhdarın möhdarlığının inayət etdi, Xüləfa olmuş Qorxmaz xanın vəzifəsinə dəymədi. İsgəndər xanın

[460] Misranın farscası:
Rəxnegəre-molk sərəfkənde beh!

qardaşı Bədr xan Əfşarı qorçibaşı təyin edib, onu Yusif xanı, Ədhəm xan Türkmanı isə Əbülməsum xanı həbs etməyə göndərdi. Ustaclı əmirləri Pir Qeyb xanı və qardaşlarını dəf etməyə boyun olub, şahsevənlərlə birlikdə Qorxmaz xanın evinə tərəf üz tutdular.

Fitnəkar əmirlərin fərar etmələri və öldürülmələri:

Heç bunu ağıllarına belə gətirməyən qiyamçı əmirlər məsələdən agah olub, adamlarının əksəriyyəti dağılışdığından daha orada qala bilməyib hövlnak halda, hətta bəziləri silahlanmadan atlara minərək, özlərini bəlkə Gilana çatdırmaqdan ötrü, Qəzvin dağının ətəklərinə üz tutdular. Əbülməsum xan Türkmanla türkmanların mirzəsi İmamqulu onlardan ayrılıb, başqa yolla Həmədana tərəf qaçdılar. Qiyamçıların əksər hissəsi dağa tərəf getdiklərindən məğlub edilməz tərəflər onları təqib edərək həmin istiqamətə yollandılar. Heç kim Əbülməsum xanın ardınca getmədi və o sağ - salamat Həmədana çatıb oradan Bağdada getdi. Dağ səmtinə qaçan əmirlər hələ şəhərdən çıxmamışdılar ki, ləşkər onlara çatdı. Cəngə başlayanlar yerlərindəcə öldürüldülər, döyüşməyin mənasız olduğunu anlayanlarsa əsir alındı. Hal-hazırda Rumda olan və Mürşidqulu xanla dostluq edən Qulu bəyin oğlu Yusif xan Qorçibaşının qətlinə Mürşidqulu xan razı olmadı. Şahın şəfqət bəslədiyi Əmiraslan xan Pir Qeyb oğlundan və Yusif xandan başqa əmirlərin hamısı qətl olundu, bu iki nəfər isə öldürülmədilərsə də həbs olunub qalaya salındılar. Qalada bir müddət qaldıqdan sonra Kirmanda hakim olan əmisi oğlu Vəli xanın xahişi ilə Yusif xan nicat tapdı, Əmiraslan xan isə öldürüldü.

Bu fitnəkarlığın baiskarı olan Mirzə Abdulla Mirzə Salman oğlu qardaşı Mirzə Nizamülmülk ilə birlikdə tutuldu. Tacik olduqları üçün onları fəqət cərimə etdilər. Müəyyən məbləğ pul ödəməyə boyun olduqdan sonra onlar həmin pulu ödəmək üçün mühəssillərlə birlikdə Şiraza göndərildilər. Cənnətməkan şahın zamanında Azərbaycanın və Şirvanın vəziri olmuş Mirzə Ətaulla İsfahaninin nəvəsi, Mirzə Əhmədin isə oğlu olan Mirzə Şah Vəli, həmçinin Mirzə Əhməd Mürşidqulu xanın vəziri oldular və Mirzə Əhməd [sonradan] Türbət qalasında öldürüldü. Mürşidqulu xan etdiyi xidmətkarlıq müqabilində Mirzə Əhmədi atasının yerinə vəzir qoymuşdu və o, bu arada şahın şəfqətinə yetişib baş vəzir rütbəsinə çatmış, etimadüddövlə ləqəbinə layiq görülmüşdü. Əbu

Talib Mirzənin vaxtında onun səyi ilə sədr olan Mir Əbülvəli Əncu baş sədr rütbəsi iə şərəfləndi. Möhrdarlıq vəzifəsi isə cənnətməkan şahın vaxtında olduğu kimi Seyid bəy Kəmunəyə verildi.

Bu hadisələrdən sonra Mürşidqulu xanın başı əlahəzrətin şəfqəti və iltifatı ilə göylərə ucaldı və o, ali divanın müstəqil vəkili kimi dövlət işlərinin nizamlanmasına başladı. Əlahəzrət zilləllah şah bu güclü dövlətin məsləhəti ilə onun qüvvətlənməsi və işlərinin nizamlanmasından (ləmsiyət) ötrü daim onu təltiflərə layiq görürdü.

İmamqulu xan Qacarın vəfatı:

Qarabağ bəylərbəyisi İmamqulu xan Qacar Gəncədə təbii ölümlə bu il vəfat etdi. O vilayətin idarə olunması isə cənnətməkan şahın zamanında Qarabağın bəylərbəyi olan Şahverdi Sultan Ziyadoğlu Qacarın nəvəsi Xəlil xanın oğlu Məhəmməd xana tapşırıldı. Qacar tayfasının yəvə oymağından olan İmamqulu xanı İsmayıl Mirzə yetişdirmiş (tərbiyət) və onu Qarabağa hakim göndərmişdi. İsgəndər şanlı nəvvabın və onun əziz oğlu Sultan Həmzə Mirzənin hökmranlığı zamanında, birinci səhifədə yazıldığı kimi, o, rumiyyə ilə döyüşlərdə igidliklər etmişdi. [Sonradan] on il Qarabağın müstəqil əmirülüməraşı oldu.

HUMAYUN CÜLUSUN İKİNCİ İLİ OLAN DOQQUZ YÜZ DOXSAN YEDDİNCİ (MİLADİ 1588/89; SİÇAN İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ, ÖZBƏKLƏRİN GÖZƏL HERAT ŞƏHƏRİNİ İSTİLA ETMƏLƏRİ, ƏLİQULU XAN OVÇUNUN ÖLDÜRÜLMƏSİ, ŞAMLI TAYFASININ CƏZALANDIRILMASI VƏ XORASANIN SAKİTLƏŞMƏSİNİN BƏYANI

Qış sona yetdikdə aləmi işıqlandıran novruz xoşbəxtlik (fərroxi) və mübarəkbadlığa başladı.

Şer

Şadlığa üz tutdu bahar yelləri,
Qızdı hava, etdi sevincək yeri.
Şeh o təhər qondu yerin üstünə,

Bağe-behist oldu çəmənlər yenə.[461]

Mürşüdqulu xan Xorasana yürüş üçün silah tədarükünü edib, hər gününü döyüşçülərin yanında keçirirdi. Qızılbaşların fitnəsindən uzaq olmaq üçün İsgəndər şanlı nəvvabın və Əbu Talib Mirzənin qalına yerini vəziyyətin başlanğıcında Təhmasib Mirzənin də salındığı Ələmut qalasında müəyyənləşdirdilər ki, [şah] Xorasan səfərindən qayıdana qədər qoy orada yaşasınlar. Amma, sonradan, Gilan bu qalaya yaxın olduğu üçün, ora məsləhət görülmədi və onları İraqın ortasında yerləşən və yaxşı evləri olan Reyin Vəramin qalasına apardılar. Ustaclı tayfasının hörmətli adamlarından və etibarlı şəxs olan Əhməd bəy Kərampanı həmin qalanı qorumaq və onlara xidmət etmək üçün Vəraminə göndərdilər. Mürşidqulu xan isə zahirdə Xorasan yasaqı və Herat qalasındakı mühasirədə qalanların xilas olmaları barədə hər gün söhbət etməsinə baxmayaraq, batində isə Herat hakimi olan və şahın ehtiram etdiyi Əliqulu xanın yenidən vəkil və rüknüssəltənə ola bilmək və ondan intiqam almaq ehtimalını düşünüb Xorasan yürüşünü gün-gündən təxirə salırdı.

Bu iş o qədər davam etdi ki, daha taqət tükəndi, Herat qalasında mühasirədə qalanlar azuqə çatışmazlığı, havanın üfunəti və xəstəliklər üzündən tabdan düşdülər, onlarda müqavimət və qaladarlıq imkanı qalmadı, özbəklər qalanı tutdular və o gözəl məkan düşmənlərin əlinə keçdi.

Bu hadisənin yığcam şərhi belədir: Abdulla xan [Özbək] Əliqulu xanın itaət etməsindən məyus olub, Herat qalasının fəthi üçün belinə himmət kəmərini bağladı. Özbək tayfası qalanın mühasirəsinə başlayaraq oranı mərkəz kimi əhatəyə aldı. Əliqulu xan və şamlı tayfası öz səbat ayağını möhkəm şəkildə yerə dirəyib, qaladarlıq ləvazimatının tədarükünə başladılar. Hər gün tərəflər arasında atışma olur, savaş bazarı qızışırdı. Ox və tüfəng səfiri əcəl salamı yetirməkdəydi. Ali hümayunun (yəni Şah Abbasın - Ş.F.) Xorasandan İraqa getməsi və o həzrətin İranda öz irsi səltənət taxtında əyləşməsi xəbəri şamlı tayfasına gəlib yetişdi. Əliqulu xan

[461] Şerin farscası:
Bade-bəhari tərəbəngiz şod,
Ruye-həva ləxləxeamiz şod.
Əz əsəre-jaleye-Kovsərsereşt.
Səhne-çəmən gəst ço bağe-beheşt.

aralarında olan inadkarlıq səbəbindən Mürşidqulu xandan imdad gözləmədiyinə baxmayaraq, bu uca dövlətə mümkün qədər xidmət etdiyinə görə cəhd-cəhd edərək, özbəklərin buraya qədəm basmalarının qarşısını alırdı. Bir neçə dəfə hücuma keçib xəndəqə çatmış, üç-dörd dəfə də üç-dörd yüz özbək şəhərə girə bilmişdi. Amma, qaladakılar müdayiyəyə qalxmış, adlı-sanlı bahadırların bir çoxunu yerə sərərək, şəhəri əldə saxlaya bilmişdilər.

Mühasirə müddəti çox uzandı və heç yandan imdad küləyi əsmədi. Azuqənin çatışmaması və havanın üfunətindən şəhərdə bərk xəstəlik yarandı, mülki adamlar və ləşkər də xəstəliyə yoluxdular. Türk və taciklərdən hər gün dəstə-dəstə adam yoxluq yoluna yollanırdı. Buna görə də qaladakıların arasına çaxnaşma düşdü, savaşa bilmədilər. Qalada olan bəzi xorasanlılar, xüsusilə illərlə bu dövlətin çörəyini yeyən Molla Mir Baxərzi haramnəməklik edərək, qorunması ona tapşırılan şəhər bürclərindən birini boş qoydu, gedib qala eşiyindəkilərə qoşuldu. Qalanın idarə olunması, döyüşçülərin acizlik və iztirabları, qüvvət və qüdrətin yoxluğu onların yadına Abdulla xanı saldı. Onlar özbəklərə dövlətxahlıq izhar etdilər. Qalanın fəth edilməsinə cəhd artdı. Əliqulu xan şamlı tayfası əyanlarından Pirbudaq Sultanı özünə yaxın adam olan müstövfi Əbu Talib bəy Ordubadi və daha bir neçə nəfərlə birlikdə Abdulla xanla sülh bağlamaqdan ötrü qaladan eşiyə çıxardı, qızılbaşlara məmləkətdən çıxmaları üçün yol verməsini və əhl-əyalları ilə çıxıb getmələrini xahiş etdi. Buraya hücumunun ilk vaxtlarında bunu istəyən Abdullah xan indi Molla Mirin və haramnəmək fəsad əhlinin təhriki, xüsusən ərbabların mirzəsi və Əbülhəsən Guryaninin təsiri ilə bu təkliflə razılaşmadı.

Şer

Padşah ayinləri, Kəyan adəti
Yol vermir elçiyə zülm-əziyyəti[462]

Hər zaman elçilərin öldürülməsi yolverilməz sayılmış, şövkətli sərkərdələrin heç biri bu işə baş qoşmamış, bunu edənləri

[462] Beytin farscasr.
Dər ayine-şahan-o rəsme-keyan
Pəyamavəran eymənənd əz zeyan.

məzəmmət etmişlər. Amma, Abdulla xan isə bu qəbahətli əmələ iqdam edərək qaladan yanına göndərilən adamları topun ağzına qoyub, qalaya tərəf atdı, o biçarələrin ömür xərməninə zülm atəşi vurdu, əslində belə hərəkətlə öz namusunu yandırmış oldu.

Xülasə, Əliqulu xan və şamlı əyanları sülhdən məyus olub, xilas qapılarını bağlı gördülər. Daha iki ay həmin qaniçən ləşkərə müqavimət etdilər və qalanı qorudular. Amma, qala bürclərinin əksəriyyəti qoruyucularsız qalmışdı. Ayın on birində, bir gecə, Əliqulu xan öz bürcünü tərk edib evinə getmiş, qızılbaşların əksəriyyəti də elə həmin gecə öz mənzillərinə qayıtmışdı. Adamlardan kimsə bürclərin birindən özbəklərə qışqırdı ki, bu bürcü qoruyan yoxdur. Həmişə hücuma hazır olan özbək bahadırlarının bir neçə nəfəri bürc ayağına çataraq kəndirlə yuxarı dırmaşdılar, başqalarını da yuxarıya çəkdilər.Onlar habelə daha iki bürcün başına bu işi gətirdilər. Əliqulu xan və qızılbaş ləşkəri hələ məsələdən xəbərsiz idilər. Birdən-birə qəfildən bürc və barılardan kərənay səsləri gəlməyə başladı. Özbəklər şəhərə tökülüşdülər. Çaşqınlıq və qüvvətsizlikdən mühafizəçilərin bircəsi də müdafiəyə qalxmadı, çarəsizlikdən bürc və barıların qorunmasından ol üzüb, iztirabla şəhərin orta hissəsindəki Qum məmləkətinin qalası olan İxtiyarəddinə gedib çatdılar, Herat şəhəri özbəklərin əlinə keçdi. Şəhərdə qətl, qarət və tarac başlandı, nə başlandı. Zülmkarlıq atəşi elə alovlandı ki, odun dili fələyə ucaldı.

İxtiyarəddin qalasına pənah aparan Əliqulu xan, şamlı tayfası və başqa adamlar orada pərişanlıq və iztirab içərisində iki gün vaxt keçirdilər. Qalada azuqə və qaladarlıq ləvazimatı qalmadığından bu günlərinə heyran qaldılar. O qalanın vəziyyətindən məlumatı olmayan Abdulla xan elə təsəvvür edirdi ki, onların sayı orada çox, azuqələri isə boldur, buna görə də həmin qalanı ələ gətirmək çətin olacaq, məsələ uzanacaqdır. Atalığı Məhəmməd Baqinin, Qulbaba Kukəltaşın və mötəbər özbək əmirlərinin vasitəçiliyi ilə Əliqulu xana bildirdi: "Əgər qaladarlıqdan əl çəkib qalanı təslim etsə, ona bütün var-yoxunu peşkəş verəcək, qızılbaşlarla birlikdə istədiyi yerə getməsindən ötrü izn almış olacaqdır. Şərt isə budur ki, yanımıza gəlib bizimlə görüşsün".

Əliqulu xan və yoldaşları, hərçənd ki, Abdullah xanın özbək tayfasının sözlərinə inanmırdılar, amma əzəl qüdrətin (Allahın – Ş.F.) istəyi onların şəhadətə yetmələri olduğundan və

azuqənin olmadığından qalanı tərk etməkdən başqa çarə tapmadılar, Yaradanın qəza-qədərinə razılıq verdilər, üçüncü gün qaladan çıxıb Abdulla xanın əmirləriylə birlikdə, Sultan Hüseyn Mirzə mədrəsəsində iqamətgah olan yerə yollandılar və özbəklər İxtiyarəddin qalasını işğal etdilər.

Abdulla xanın oğlu Əbdülmömin xan şəhər bağında (Bağşəhr) idi. Onunla görüş üçün əmirlər Əliqulu xanı oraya apardılar. O peymanı süst olan oğlan, ya öz istəyi, yaxud atasının işarəsi, ya da oğul-uşaqları və qohumları mühasirə zamanı qızılbaşların əlləri ilə öldürülmüş özbək bahadırlarının təhriki nəticəsində qızılbaşlardan intiqam aldılar. Əliqulu xan və adamları Abdulla xanın olduğu yerə çatdıqda əmirlər onlara xanın yanına silahla getməyin məqbul olmadığını bildirib, qılınclarını onların bellərindən açdılar. Elə o əsnada da bir-iki nəfər özbək şəmşirini çıxarıb şamlılara tərəf atdı. Şah Məhəmməd Çəyan əlini Əliqulu xanın məndilinə (çalma - Ş.F.) apardı ki, onu çıxarsın. Qazi Sultan Şamlı onun əliuzunluğuna mane olaraq xəncərini ona çəkdi. Özbəklərin başqa bir dəstəsi də yoldaşlarını himayə etmək niyyəti ilə öz şəmşirlərini ələ götürdü. Vəziyyəti belə görən qızılbaşlar məsələnin nə yerdə olduğunu bildilər, öz kəlmeyi-şəhadətlərini oxuyub fəna qılıncı ilə öldürdülər.

Xülasə, qaladan çölə çıxanların hamısı şirin canlarından əl üzüb həmin vəhşətli hadisə günü şəhadət şərbəti içdilər. Bundan sonra Abdulla xan bütün qızılbaşların qətli xüsusunda hökm verdi. Özbəklər belə qətllərdə elə canfəşanlıq etdilər ki, tazik (tacik - Ş.F.) adamlarının çox hissəsi də qızılbaş övliyalarının məzhəbi ilə razılaşdığına görə öldürüldülər. Özbəklər şamlı tayfasının qız-qadınını əsir götürüb Mavərənnəhrə göndərdilər. Onlar xəzinələri ələ keçirməkdən ötrü əzəmətli şamlı xatunlarına işgəncə verib, bu işdən bir dəqiqə də olsun əl çəkmədilər. Xeyli işgəncədən və çoxlu mal əldə etdikdən sonra onları lüt-üryan etdilər. Bu bəladan çox az adam nicat tapa bildi. Künc-bucaqda gizlənən az miqdar adam gecələr, olduqları yerlərdən çıxaraq, piyada və üryan halda səhraya üz tutub fərar yolunu qət etdilər. Rafezilər (qızılbaşlar - Ş.F.) bir müddət həmin mülkdə adam öldürməyə izn verdikləri üçün, kimin kiməsə qədimdən ədavəti vardısa özbəklər onu rafeziliyə mənsub edir, iki cahil və nadan adamı şahid kimi çağırır, hənəfi məzhəbli din qazisi dərhal o biçarənin yandırılması və qətli xüsusunda hökm çıxarırdı. Azacıq varlı olmağı güman olunan həp kəsin var-dövləti

özbəklər tərəfindən müsadirə edilirdi. Xülasə, rəiyyət və aciz adamlar bir müddət əzab-əziyyətə düçar oldular, o vaxta qədər ki Abdulla xan o vilayətin hakimliyini Səmərqənd əyanlarından olan fəzilətli, qabiliyyətli, xana qarşı köhnə xidmətlərinə görə etibar sahibi olub əmirliyə və ali sədarət vəzifəsinə layiq görülən Mir Qulbaba Kukəltaşa verdi. O da get-getə mülkdarlıq və rəiyyətpərvərlik yolunu davam etdirib zülm və tarac qapılarını bağladı, məzhəb təssübkeşlərini incitməyi və başqa camaata əzab verməyi qadağan etdi, biçarələrin qeydinə qaldı, həmin mülkdə nizam-intizam yaratdı.

Xülasə, Heratın fəthindən sonra Abdulla xan atının yürüş cilovunu müqəddəs Məşhədə tərəf yönəltdi. Mürşidqulu xanın qardaşı olan Məşhəd hakimi İbrahim xan hüsni-tədbirlə özbəklərin şərini bu il o şərif məscidin sakinlərindən uzaqlaşdırmaq məqsədiylə xanın vəkillərinin üzünə ülfət və tanışdıq qapılarını açdı, xana töhfə və hədiyyələr yollayaraq belə ərz etdi: "Özbək ləşkəri uzun müdətdir ki, vətənlərindən uzaq düşmüş və Herat qalasının fəthində çox əziyyət çəkmişdir. Onlar əgər müqəddəs Məşhədin mühasirəsinə başlayarlarsa, bilsinlər ki, bu vilayət adamlarının qaladarlıq istedadları böyükdür. Buna görə də onlar həzrət imamın müqəddəs rövzəsini hifz etməkdən ötrü qaladarlıqda Herat camaatından da çox səy edəcəklər. O zaman gərək sizin ali ordunuz bu vilayətdə uzun müddət dayanmalı olsun. Belə olası halda ləşkərlər xeyli zəhmət çəkməli olacaqlar. Bundan başqa bizim padşahımız artıq irsi səltənət və şahlıq taxtındadır və o, bütün qızılbaş qoşunlarıyla birlikdə hümayun paytaxtdan çıxıb Xorasana gəlməkdədir. Əgər müqəddəs Məşhədin mühasirəsi zamanı o, bu vilayətə qədəm basarsa, hələ məlum deyildir ki, özbək tayfası bu il Xorasana qoşun çəkərək qızılbaşların saysız-hesabsız ləşkərinə müqavimət edə biləcəklər, ya yox? Məsləhət belədir ki, onlar bu il buradan çıxıb öz səltənət paytaxtlarına getsinlər və bizə möhlət versinlər və gələn il əgər bizim padşahımız Xorasanda olarsa, onlar öz dövlətlərinin məsləhətinə uyğun hərəkət etsinlər. Buna görə də ali qoşununuzun buraya yürüşə ehtiyacı yoxdur. Qoy özbək əmirlərindən kimi istəsələr göndərsinlər və biz məmləkəti onlara verib öz yolumuzla gedək".

Bu sözlər Abdulla xanın beyninə batdı. Çünki, artıq hümayun ordunun buraya yürüş xəbəri də gəlib ona çatmışdı. Təkrar-təkrar məsləhətləşmədən (kənqaş) sonra qayıtmağı məsləhət

bilərək, müqəddəs Məşhədin mühasirəsindən əl çəkdi, göndərilən peşkəşlərlə kifayətlənib qayıdış təbilini çaldı, Sərəxsə yollandı. Elə ki, Sərəxs qalasının yanına gəlib çatdı, şəhər darvazalarının yaxınlığında dayandı. O vilayətin hakimi Mir Hüseyn Sultan Firuzcəngin oğlu Mir ibn Hüseyn xan cənnətməkan şahın hakimiyyəti zamanı Xorasanın cığatay əmirləri silkindən idi və elə o vaxtlarda da Sərəxsin hakimi olmuşdu. O, şəhər və qala qapılarını bağlayaraq müdafiəyə başladı. Onun cığatay mülazimləri böyük mərdlik göstərərək özbəkləri şəhər qapılarına yaxın qoymadılar. Abdulla xan orada qırx günədək dayandı və heç nə edə bilmədi. Ara yerdə onun özbək döyüşçülərinin çoxu öldürüldü və onlar döyüşü gələcək vaxta saxladılar. Abdulla xan azacıq peşkəşlə qənaətlənib köç təbilini çaldı.

Onun gedişindən sonra qızılbaş əmirləri o yerləri Ğuryana kimi zəbt etdilər, amma Guryandan Mürğabın yanına qədər olan yerlər özbəklərin əlinə keçdi, Mir Qulbaba hakim və fərmanlar oldu. Abdulla xan müqəddəs şəhərin (Məşhədin - Ş.F.) yanında olan vaxt özbəklər öz adətlərincə məmləkəti qarətə və dağıntıya məruz qoydular. Müqəddəs Məşhədin sülh tərəfdarları və nəqibləri ona nəsihətamiz məktub göndərdilər və ola bilsin ki, elə buna görə də xan dağıntılardan əl çəkdi, əksər hissəsi sərkara və müqəddəs rövzə işçilərinə mənsub olan məhsullara dəymədi. Özbəklərin alim və fazil adamları onların məktubuna cavab olaraq nəqiblərə məktub yollayılar. Mövlana Məhəmməd Müşəkkək Rüstəmdari də cavab naməsi yazdı. Hər iki məktubu bu kitabda dərc edirik ki, ağıllı və pak adamlar onları oxuyub faydalansınlar, kimin haqq, kimin nahaq olması aşkara çıxsın.

MÜQƏDDƏS MƏŞHƏD RÖVZƏSİNİN XADİM VƏ NƏQİBLƏRİNİN MƏKTUBUNA MAVƏRƏNNƏHR ÜLƏMASININ CAVAB MƏKTUBU

"Gizli deyildir ki, gözəl "Lailahə üləl-l-lah və Muhəmmədən rəsuli-l-lah" deyən dünya möminləri başqa yerin var-dövlətinə və əhalisinə zərər yetirməz, onlardan küfrə səbəb ola biləcək əməl baş verməz, öz sələf və imamlarının ləyaqətli işlərini davam etdirərlər. Amma, sünnət əhli məzhəbindən bu gözəl kəlamdan, həmçinin üləmaların sözlərindən kənar düşən kəslərə, möminləri öz ilk imanlarından sapdıranlar, küfrə uyub iyrənc şiə

təriqətini izhar edənlər, gecə-gündüz şərafətli iki şeyxi (yəni həzrət Əbubəkri və Öməri - Ş.F.), həmçinin iki nur sahibini (zi-n-nureyn) yəni xəlifə Osmanı - Ş.F.) və peyğəmbərin bəzi pak zövcələrini yamanlayanlar gərək islam padşahı və başqa möminlər tərəfindən hökmən qətlə məruz qalsınlar. Habelə gərək onların evləri uçumlsun, var-dövləti əllərindən alınsın. Əgər dövrün padşahı və dövranın xəlifəsi cəhad vaxtı üləmaların ittifaqından və həzrət risalətpənahın (Məhəmməd Peyğəmbər - Ş.F.) təriqətindən öz qüdrəti və imkanı ola-ola üz döndərərsə, Allahın (yəni mütəal məlikin) sual-cavabının "Qorxun o gündən ki heç kəs heç kəsin karına gələ bilməsin, heç kəsdən şəfaət qəbul olunmasın, heç kəsdən fidyə alınmasın və onlara heç bir kömək göstərilə bilməsin"[463] və bu şərafətli ayənin "[özlərinə] peyğəmbər göndərilən ümmətləri sorğu-suala çəkəcək"[464] öhdəsindən necə gələ bilər?

Ağlın ardınca gedən ayələrə və hədislərə əməl edən hər bir ağıllı adama bəllidir ki, risalət söhbətini dinləmək şərəfi ilə şərəflənənlər, beyət və xidmət yolunu tutanlar illərlə "haqq" kəlməsi ilə o həzrətin yanında (rikab) kafirlərlə döyüşmüşlər, nöqsansızdırlar və cənnətə (cinan) layiqdirlər, xüsusən bu ayədə - "And olsun ki, ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı qaldı"[465] - işarə olunan insanlar Allahın (məliki-mənnanın) rizvan şərəfi ilə müşərrəf olublar. Xüsusən bu şərafətli ayədə buyurulduğu kimi: "Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir, sən də onların haqq yolunu tutub get"[466]. Şəkk yoxdur ki, həzrət şeyxlər və iki nur sahibi onlardandırlar. O əziz və kəramətli sərvər (yəni Məhəmməd peyğəmbər - Ş.F.) siddiqe-əzəmi (yəni həzrət Əbubəkri - Ş.F.) "kəlam bilicisi və sahib" adlandırmışdır. Necə ki, Quran buyurur: "Hər ikisi mağarada olduğu vaxt və öz dostuna "Qəm yemə, Allah bizimlədir!"[467] dediyi zaman, həmçinin "O, keyfi istəyəni danışmır. Bu, ancaq nazil olan bir vəhydir" ayəsinə əsasən o həzrətin bütün əməl və sözləri vəhy əsasında deyilmişdir. O həzrət

[463] "Yovmun la təcza nəfsun ən-nəfsi şeyən və la yuqbəilu minhə şəfaətən və lə yuxəzu minhə ədlun minhə və la hum yunsərunə".
[464] Ərəbcəsi: "və linəsələnnələ əlləzinə irsilə ileyhim və ğeyruhə"
[465] İfadənin ərəbcəsi: "və ləqəd radiyəllah əni-l-möminina əzibən yənnukə təhtə-l-şəcərəti"
[466] İfadənin ərəbcəsi: "Ulaikə-l-ləzinə hədiyəhum-əl-lahu fə bi hədidihim iqtədəhu".
[467] Ərəbcə: "Kəmə yəqulu iz yəqulu li-sahibihi lə təhzin innə-l-lahu məanə və bi moqtəda və mə yəntiqu əni-l-həva iz həva-l-ovha yuhi əqval və əfal".

onların kəmalı və ehtiramıdır, onların hər birinin vəsfində çoxlu hədislər vardır. Demək, onların kamalını inkar edən kəs tamamilə azğınlıqda və zəiflikdədir, həqiqətən Quranı inkar edir. İns və can sərvərinə (Məhəmməd peyğəmbərə - Ş.F.) naqislik nisbəti verən adam azğındır, onu sevən və ona etiqad bəsləyən isə o sərvərin mütisidir və ondan razı olan şəxsdir. Allah-təalanın - "De, əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və [günahlarınızı] bağışlasın"[468] buyruğuna əsasən ümid vardır ki, Sübhanın (Allahın - Ş.F.) məhbubiyyət şərəfinə yetişsinlər və onun tərəfindən bağışlansınlar. Həmçinin həzrət əmirəl-möminin Əli kərəmullahın - Allah onun üzünü nurlu etsin - Allah məqamınadək yüksəldilməsi hamıya məlum olan məşhur bir əməldir. O, cənab xalqın ona beyəti və tabe olması zamanı xalqla birlikdə idi və elə onun özü də bəyan etmiş və tabe olmuşdur.

O həzrətə naqislik nisbəti verən adamlar o cənabın naqisliyini gərək sübut etsinlər, amma bundan qafildirlər. Həmçinin, hamı tərəfindən qəbul olunmuşdur ki, [Ayişə] Siddiqə - Allah ondan razı olsun - o həzrətin xanımı olmaqla şərəflənmişdi, onun sevimlisi (məhbubə) idi. Eşidilməsi cayiz olan bəzi işlər, Qurani-məciddə deyildiyi kimi "Xəbis qadınlar xəbis kişilər üçün, xəbis kişilər xəbis qadınlar üçün, pak qadınlar pak kişilər üçün, pak kişilər pak qadınlar üçün"dür.[469] Mülahizə etmək lazımdır ki, ona xəbislik nisbəti vermək düzgürdümü? Həmçinin əgər bazar qulunun zövcəsinə "iyrənc iş görən qadın" nisbəti verilsə həmin qul dəhşətə gələr. Belə olan halda necə ola bilər ki, insanların ən yaxşısının zövcəsinə və onun kimi olanlara şiə məzhəbindən olan bəzi adamlar yaxşı fikir söyləmirlər?

[Bu deyilənlərdən] Allaha pənah aparıram. İbrət alın, cy ağıl sahibləri![470] Bəziləri deyirlər ki, bizdən belə iş baş verməyib və verməyəcəkdir də. Şəkk yoxdur ki, onlar bu bihudə danışıqları eşidir və bunu qadağan etmirlər. Yuxarıdakı hökm onlara da şamildir. "Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin"[471] ayəsinin hökmü "müsəlman şəxsin nəfsi paklanmazsa onun malı

---

[468] İfadənin ərəbcəsi: "Qul: İn kuntum tuhibbunə-1-lahə fə-t-təbini yuhibbikum-ul-lahu və yəğfir ləkum".

[469] İfadənin ərəbcəsi: "Əl-xəbisatu l-il-xəbisinə və-l-xəbisunə l-il xəbisati, və-1-təyyibatu l-il-təyyibinə, və-t-təyyibunə l-it-təyyibati"

[470] İfadənin ərəbcəsi: "Nəuzu bi-l-lahi min zalikə fəitəbəru, ya ovlə-l-əlbab!"

[471] İfadənin ərəbcəsi: "Və la təkulu əmvaləkum beynəkum bi-l-batel".

halal olmaz"[472] hədisinə əsasən müqəddəs Məşhədin məhsullarını necə yemək olar? Cavabı budur ki, bu ayə və hədisdə müsəlmanların və möminlərin mallarından söhbət gedir. Geniş şəkildə sübuta yetib ki, rəzil şiələr islam və iman əhli olmaqdan xalidirlər.

Bəzi üləma tərəfindən etibar olunan bu ayə və hədisin müxalif məfhumuna və yazılmasına ehtiyac olmayan başqa hədis və ayələr buna dəlalət edir ki, küfr əhlinin mallarının qarət olunması, onların bağ və əkinlərinin, imarətlərinin yandırılıb viran edilməsi cayizdir və heç kim bunun əleyhinə deyil. Həmçinin islam padşahı və xəlifəsinə beyət etməyən kəslərlə hərb etmək cayizdir. Üləmanın nəzərincə, o camaatın tövhid kəlməsini söyləmələrinə və müsəlman olmalarına baxmayaraq, onlar yuxarıda deyilənlərlə razıdırlar. Allahın qalib şiri (əsədüllahül-ğaleb) olan Əli ibn əbi-Talebin - Allah onun üzünü nurlu etsin - öz xilafəti dövründə etdiyi bəzi müharibələr də bu qəbildəndir. Əlahəzrət xaqanın (yəni Şah Abbasın - Ş.F.) bəzi müsəlmanlarla etdiyi müharibələr [də bu qəbildəndir]. Yazılanlara əsasən, müqəddəs Məşhədin ətrafındakı bağlar və əkin sahələri "faizül-ənvar sahibinə" (İmam Rza əleyhüssalama - Ş.F.) həzrətül-xaqaninin əcdadları tərəfindən vəqf edilmişdir. Bu diyar "darül-hərb" ("hərb diyarı" - Ş.F.) olduğundan və islam ordusunun müəyyən vəqfləri olmadığından o ərazi də başqa bağ və əkin yerlərinin hökmündədir. [O yerlərin] taleyi və imtiyazının təyin olunmasından sonra onların istifadəsi müsəlmanlara aid olacaqdır. Əgər o yerlər istifadə olunmazsa xəlifənin haqqı vardır ki, onları islam ordusuna və döyüşçülərinə halal etsin. Yazılanlara əsasən, bu diyar sakinlərinin əksəriyyəti peyğəmbər (s.) nəslindəndirlər. Onların guya ki, bu ayədən xəbərləri yoxdur: "O, sənin əhlindən deyil və saleh olmayan əməl sahibidir".[473]

Yazılanlara istinadən məlumdur ki, onların hamısı saleh adamlardır və səlah islamın qullarındandırlar. Yazırlar ki, Məkkədə, Mədinədə və Şamda üləma ilə onların söhbətləri olmuşdur.

Şer

[472] İfadənin ərəbcəsi: "La yəhullu-1-malu əl-məru-n-muslinu illə mən təyyibə nəfsəhu".

[473] İfadənin ərəbcəsi: "Ləysə min əhlikə innəhu əməlun ğeyru-salehin".

Hər kimin yaxşılığı yoxsa əgər,
Xeyri varmı o görə peyğəmbər?[474].

Yazılanlara əsasən, üləma qəzavü qədərə əsaslanıb, onların alqışlanmasını qadağan etmişdir. Məlumatsızlığa baxmayaraq, [demək olar ki,] onlar əqidələri puçdur. Yazmışlar ki, rəcəb ayı haram aylardandır və bu ayda hərb etmək vəziyyətində olmayan insanlarla hərb etmək cayiz deyil. Cavabı budur ki, haram ayların haram olunması fikri artıq dəyişilmişdir (mənsux). Məşhur səhih hədislərə əsasən həzrət əmirəl-möminin Əlinin - Allah onun üzünü nurlu etsin - etdiyi bəzi müharibələr və o həzrətin döyüşlərə yollanması bu ayda baş vermişdir. Yazılanlara əsasən, bu ayə - "İnsanlan və cinləri ancaq mənə ibadət etmələri üçün yaratdım"[475] ayəsi möhkəm ayələrdəndir və ona şəkk yoxdur. Lakin [buna da] şəkk yoxdur ki, kafirlərlə cəhad böyük ibadətlərdəndir. Vay o camaata ki, ibadəti tərk edərək böyük səhabələri yamanlayır və küfr və günahı savab sanırlar. [Hətta] məlun şeytanın lənətlənməsində də savab yoxdur. Baymayaraq ki, onlardan bəziləri ayə və hədislərin zahiri mənalarını bilirlər, amma bu batil məzhəbdən dönmürlər, on iki imama və sələfə (Məhəmməd peyğəmbərə - Ş.F.) tabe olmuşlar. "Biz ayələri onları dərk edən tayfalar üçün bəyan edirik"[476]. Əgər bəzi yol azanlar iftira yağdıraraq bəzi imamlardan və sələfdən özlərinin pis etiqadlarının güclənməsi üçün xəbər çatdırsalar, yaxud hər kəsin bu deyilənlərə şəkki olarsa, gərək öz rəisləri Abdullahı (Abdulla xan Özbəki - Ş.F.) kənara göndərsinlər ta aman verilsin ki, hümayun məiyyət mülazimlərinə nəzər yetirsinlər və haqq məzhəb hamıya cayiz olsun. Hidayətə tabe olan hər kəsə salam olsun".[477]

Mövlana Məhəmməd Müşəkkək Rüstəmdarinin yazdığı cavab məktubu Mavərənnəhr dərgahının fazillərinin" Allah onları düzgün yola hidayət etsin və qorusun, bizi də təəssüflənməkdən və inaddan hifz etsin"[478], yazdıqları söz və fikirləri diqqətimizə yetişdi.

---

[474] Beytin farscası:
Hər ke u ruy be behbud nədaşt,
Didəne-ruye-nəbi sud nodaşt.
[475] İfadənin ərəbcəsi: "Və ma xələfəti-l-cinnə və-l-insə illa li yəbudunə".
[476] İfadənin ərəbcəsi: "Qəd bəyyənnə-1-ayati li-qovlin yəqulun".
[477] İfadənin ərəbcəsi: "Və-s-səlamu əla mən il-iəbə-əl-huda".
[478] İfadənin ərəbcəsi: "Hədə hum Allahu ilə səbili rəşadi və həfəzə-humu-l-lahu-təalə".

Əvvəlki məktubda əcz və savaba səbəb olan düzgün yol zikr olunmuşdu və o ali həzrətlərin hikmətli nəzərlərindən gizli qalmadı ki, həzrət seyyidül-mürsəlin (Məhəmməd peyğəmbər - Ş.F.) və əhli-sünnə kitablarında yazıldığı kimi ümmətin Allahın kitabına və [peyğəmbərin] pak ailəsinə riayət etməsi buyurulubdur. Həzrət imaməl-cinn və-l-üns sultan Əbülhəsən Əli ibn Musa Rza - ona Allahın salamı olsun - əcəm ölkəsində qərib olduğu üçün və bu məktubu yazan Məhəmməd Xadim o həzrətin qəribliyinə ehtiram əlaməti kimi, həmçinin o həzrətin pak ruhunun bərəkətindən feyzlənməkdən ötrü onun mülazimətini ixtiyar etmişdir. [Onun] nə qızılbaşlara ülfəti, nə də özbəklərə külfəti (qohumluğu - Ş.F.) vardır. Din məsələsində inadkarlıq etmədən təhqiq və təftişdən sonra yəqin etdim ki, Quran və hədisin lazım bildiyinə və həzrət mələkin əmrinə müvafiq olaraq belə qərara gəlmişəm ki, insaf üzündən bir neçə kəlmə ərz edim. Bu məktub əgər siz həzrətlərə çatarsa və onu oxuyarsınızsa, bu bizim murada yetməyimiz demək olar, yoxsa

Şer

Mən bəlağətlə sanə söyləyirəm sözlərimi,
İstəsən kəlmələrimdənya sevin, ya qamlən.[479]

Bu sözün nə demək olduğunu başa düşən şəxs kamil dərkə və şamil (aidiyyətli - Ş.F.) insafa malik şəxs ola bilər. Mavərənnəhrdən buraya gələn adamlardan eşitdiyimiz fikir belədir ki, bizim ali nəvvab xaqanımız (Şah Abbas - Ş.F.) hər iki gözəl fikirlə bəzənmişdir və həmçinin sizin əmirlərinizdən Kukəltaş bahadır və başqaları da fəzilət fənlərini mənimsəmişlər.

Amma onların indiyədək Mavərənnəhr üləmaları barəsindəki hekayətləri öz təsdiqini tapa bilməmişdir. Belə bir məşhur məsəl var: "Tək qazinin sözü ilə bir razılığa gəlmək kifayət etməz". On iki imam məzhəbinin fazil adamları hələ onların yüksək məclislərinə getməklə müşərrəf olmamışlar, çünki sünni üləmaları xatırladırlar ki, şiə məzhəbi yeni bir məzhəbdir və onun əsası yoxdur. Biz hər iki firqənin nəzər və üsullarının təhqiqindən sonra

[479] Beytin farscası:
Mən ançe şərte-bəlağəst bato miquyəm,
To xah əz söxənəm pənd gir, xah məlal.

bildik ki, hər iki məzhəb rəhbərləri [Allahın] kəlamı ilə hökm etsələr faydalı olar. Bunlar şiə və sünnülərin bir çox hədis kitablarına yığcam şəkildə [möcməl] qeyd olunmuşdur. Hər iki firqənin qəbul etdiyi hədislər etimada layiqdir. Ehtiyatkarlıq odur ki, hər iki firqə tərəfindən qəbul olunanlar müxtəlif hədislərin [düzgün söylənilməməsi üzündən] unudulmasm. Çünki islam əhli bu iki firqə ilə məhdudlaşmır. Əgər peyğəmbərdən (s.) sonra fasiləsiz olaraq Əbubəkri haqq xəlifə bilsələr onlar əhli sünnüdürlər və əgər həzrət əmirəl-möminin Əli ibn əbu Talebi [haqq xəlifə] bilsələr şiədirlər. [Bu barədə] üçüncü fikir yoxdur. Yox, əgər bu iki firqə müştərək bir nöqteyi-nəzərə gələrlərsə, bu islam əhlinin ümumi rəyi olar, onu tərk etmək batil [bir əməl] sayılar. [Bu məktubun] müqəddiməsindən sonra, ərz edirəm ki, ali həzrətlərin araşdırmadan sonra yazdıqları sözlər ale-peyğəmbər şiəsinin küfrünə fitva verməkdir. Müxtəlif dəlillərlə siz buyurursunuz ki, əvvəla həzrət peyğəmbər (s.) üç xəlifəni mədh etmişdir. O həzrətin sözü kəramətli ayəyə əsasən "O, keyfi istəyəni danışmır, bu ancaq [ona] nazil olan bir vəhydir"[480]. Üç xəlifəni məzəmmət edən şiə [belə çıxır ki,] vəhy ilə müxalifət edir, vohy ilə müxalifət etmək isə küfrdür. Cavab budur ki, üç xəlifənin mədhinə və onların xəlifəliklərinin batil olmasına dair dəlil gətirmək lazım gəlir. Əhli-sünnənin böyük alimlərindən olan Amədinin "Şərhe-məvaqef əsərində nəql olunur ki, həzrət peyğəmbərin dünyadan köçməsinə (rehlət) yaxın bir vaxtda islam əhli arasında bir neçə ixtilaf yarandı. Birinci ixtilaf budur ki, o həzrət ölüm ayağında buyurdu: "Mənə bir kağız (qərtas) verin, sizin üçün bir şey yazım ki, məndən sonra yolunuzu azmayasınız"[481]. Ömər buna razı olmayıb dedi: "Bu kişi qızdırmalıdır. Bizə Allahın kitabı (yəni Qurani-Kərim - Ş.F.) kifayət edər"[482]. Səhabələr arasına ixtilaf düşdü, səslər ucaldı, həzrət peyğəmbər (s.) inciyərək buyurdu: "Durun gedin ki, mənim yanımda mübahisə etmək [mənim şənimə] layiq deyil"[483]. Bu hədis Buxarinin "Sihah" kitabının əvvəlində və əhli-sünnə kitablarının əksəriyyətində müxtəlif cür zikr olunmuşdur.

İkinci ixtilaf [isə] budur: "O həzrət ölüm ayağında ikən bir dəstə adamın Usamə bin Zeyd ilə səfərə çıxmasını buyurdu.

[480] İfadənin ərəbcəsi: "və ma yəntiqu əni-l-həva irınə həvan lə vəhyun yuhə".
[481] İfadənin ərəbcəsi: "İtuni bi-qirlasin huaktubu ləkum şeyən lə -n-təzullu bədi".
[482] İfadənin ərəbcəsi: "İnn-əl-rəculə ğələbət-əl-vəcə və indəna ketabullahi həsəbnə".
[483] Cümlənin farscası: "Bər xizid ke, pişe-mən neza səzavar nist".

Yanındakılardan bəziləri bundan boyun qaçırdılar. Bu söhbət [o həzrətə] çatdırıldı və o buyurdu: "Mən Usamənin ordusunu təchiz etmişəm. Sözümdən boyun qaçıranlara Allahın lənəti olsun"[484]. Hər üç xəlifə də Usamənin ordusunda idilər və [peyğəmbərin əmrinə] tabe olmadılar. Mən (yəni Məhəmməd Xadim Ş.F.) deyirəm ki, peyğəmbərin vəsiyyət yazmaq istəyi, qeyd olunmuş kəramətli ayəyə əsasən vəhydir, amma Ömərin etirazı həmin vəhyi rədd etmək oldu, vəhyin rədd olunması isə küfrdür. Bildiyiniz kimi, Allah buyurmuşdur ki, "Hər kim Allahın nazil etdiyinə əsasən hökm etməzsə, o, kafirdir"[485]. Kafir isə xilafət etməyə layiq deyil. Hərçənd Ömərin küfrü və xilafətə layiq olmaması sübut olundu, sizin dəlillərinizə əsasən Əbubəkr və Osmanın da xəlifə olmaları lazım deyildi ki, cəmiyyət parçalanmasın. Əhli-sünnənin bütün məzhəblərinin nöqteyi-nəzərincə onların hər üçü xəlifədir, amma şiə məzhəbinə görə onların heç biri xəlifə deyil. Ömərin xəlifə olmaması və Əbubəkrlə Osmanın [həmçinin] xəlifə olmaları islam əhlinin heç birinin rəyinə uyğun deyildir. Habelə Usamənin ordusundan boyun qaçırmaq [yuxarıda] deyilən dəlilə əsasən küfrdür. Üç xəlifənin Usamə ordusundan boyun qaçırmaları [yuxarıda] zikr olunan iki rəvayətə görə şiə məzhəbində müfəssəl şəkildə isbat olunmuşdur, bu fikrin əksi də gərək [tərəfinizdən] sübut olunsun. Bu məsələnin təfsili bu səhifəyə sığmaz. Şiə əhlinin öz məzhəblərinin isbatında, o camaatın isə təkzibində (nəfy) bir neçə ağlabatan (məqul) və nəql olunan dəlil vardır ki, onu Allah-təala bilir. Bu səhifələrdə yuxarıda deyilən fikirlərə [cavab] yazılması mümkün deyildir, [çünki] "Allah haqqı bərqərar edir və doğru yola yönəldir"[486]. Siz ali həzrət öz şərafətli məktubunuzda etiraf etdiniz ki, həzrət peyğəmbərin əməli də vəhydir. Buna əsasən də biz deyirik ki, həzrət rəsulun Mərvanı* Mədinədən çıxarmağı (ixrac) da vəhydir. Osmanın onu Mədinəyə gətirib böyük vəzifəyə qoyması həzrətin (Məhəmməd peyğəmbərin - Ş. F.) sözünün rədd edilməsidir və küfrdür. Bu da iki dəlilə əsaslanır. Birinci dəlil sizin buyurduğunuz dəlildir. İkinci dəlil isə Allah-təalanın buyurduğu bu ayədir: "Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və

[484] İfadənin ərəbcəsi: "Cəhhəzu ceyşə Usamə lən-əl-lahu mən təxəlləfə ənhu".
[485] [5] İfadənin ərəbcəsi: "Mən ləm yəhkumu bimə ənz-əl-Allahu fəulaikə humu-l-kafərunə"
[486] İfadənin ərəbcəsi: "və Allahu yəhuqqul-həqq və yuhdi ilə səbili-r-rəşad".

onun peyğəmbəri əleyhinə çıxanlarla dostluq etdiyini görməzsən[487]". Bu ayə İmamət məsələsində haqqın öz yerini tapması və batilin aradan getməsində ən tutarlı dəlildir. Sübut və mübahisə çoxdur. Xorasanda məşhur bir məsəl var: "Buse be peyğaməst" (yəni sənin dediyini qəbul edirəm - Ş.F)" Əgər sizin yanınıza gəlmək mənə müyəssər olsa, bu barədə sizə xəbər verərəm.

[Beyt]

Mən sənlə görüş istəsəm əgər,
Ola bilsin bizi Rəbb görüşdürər.[488]

Amma, bu şərtlə ki, bəhsin (mübahisənin - Ş.F.) müqəddiməsi qılınc gücünə deyil, elmi tərzdə olsun, yəni məsələ qələm və qələmtəraşla (bükdə və qələmtəraş) icra edilsin. Və həmçinin bu mənada üç xəlifənin mədh edilməsi hər iki firqənin bunu qəbul etməsi demək deyildir. Bundan şiə kitablarında əsər-əlamət yoxdur. Onların məzəmmətlənməsi üçün qeyd olunan rəvayət xüsusiyyətli dəlillər hər iki firqə kitablarında yazılmışdır. Həmçinin əhli-sünnədən bəziləri məsləhətlə hədis yazmışlar. [Amma] müştərək olmayan hədisə etimad yoxdur. Xüsusilə o vaxt ki, onu nəql edən kəs hədis yaratmağı cayiz bilmişdir, yaxud, onun özü adil adam olmamışdır, yalnız o halda ki, hamının fikri bunun əksinə olmasın. Vahid məlumata əsasən razılaşmamaq, yuxarıda qeyd olunan xüsusiyyətlərə görə küfrdür.

Misra

Gər olsa o cür, Yerdə müsəlman qalmaz.[489]

[Məlumdur ki,] tək-tük müctəhidlər müxalifətə yol vermişlər. Üç xəlifənin müxalifətindən öncə peyğəmbərin onları uca

---

[487] İfadənin ərəbcəsi: "Qəvluhu təalə lə yəcidu qovmən yuminunə li-l-lahi və-l-yovmil-axeri yuəddinə mənhadə-l-lahu və rəsuləhu".
[488] Bu beytin fars və ərəbcə yazılmış misralarının tərcüməsi:
Be hər cəmiyyəti vəsle-to cuyəm,
Ləəllə-lahu-yəcməuni va iyyəkə
[489] Misranın farscası:
Pəs dər həme dəhr yek mosəlman nəbovəd.

tutması onların aqibətlərinin gözəl və sağlam olmasına dəlalət etmir. Cinayətdən əvvəl cəzalandırılma rəva deyildir!

Buna görə də, həzrət Əli (ə.) ibn-Mülcəmin-lənət olsun ona - əməlindən xəbər tutdu, amma onu cəzalandırmadı. Xüsusi bir əməlin düzgün olmasına dəlalət edən rəvayətin faydası yoxdur, necə ki, bu hal "Allah razı qaldı"[490] ayəsində zikr olunmuşdur.

İkinci dəlil budur: "And olsun ki, ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı qaldı[491]" ayəsinə əsasən üç xəlifə Allah-təalanın cənnətini qazandılar və onların yamanlanması küfrdür. Cavab budur ki "uğurun gerçəkləşməsində Allahın razılığı vardır"[492] deyimi həmin ayənin dəlalətidir. Beyət olan o xüsusi əmələ heç kimin etirazı yoxdur. Onların bəzi qəbul olunmuş gözəl işlər görmələrinə heç bir söz ola bilməz, amma etdikləri bəzi qəbahətli əməllər əhdin və beyətin xilafınadır. Necə ki, xilafət işində müxaliflik etmək peyğəmbərin əzminə müxalif olmaqdır ki, bu haqda hər iki firqə kitablarında zikr olunmuşdur. Onlar xilafəti qəsb etdilər və həzrət Fatimə səlamullahi əleyhanı - ona salam olsun - incitdibr. Buxarinin "Səhih" kitabında yazılanlar aşağıdakı rəvayəti tamamlayır: "Çıxdı və öbnədək onunla danışmadı".[493] Bunu mən özüm [adı çəkilən] "Səhih" kitabında oxumuşam. Həmçinin "Səhihe-Buxari"də həzrət Fatimə (s) haqqında belə zikr olunur ki, "onu qəzəbləndirən məni qəzəbləndirmişdir"[494]. "Mişkat" kitabının "Mənaqeb" bölməsində o həzrət haqqında nəql olunur ki, "onu incidən moni incitmişdir və məni incidən Allahı incitmişdir"[495]. Bu məzmunlu düzgün kəlamı "Allahı və peyğəmbərləri incidənlərə dünya və axirətdə Allahın lənəti olsun"[496] ayəsi də ifadə edir. Belə məlumdur ki, elə əməllər vasitəsilə həzrət [peyğəmbərin] vəsiyyətinin yazılmasının qadağan edilməsi, Usamə ordusundan boyun qaçırılması və sair kimi məsələlər saysız-hesabsız (ehsa) baş vermişdir ki, elə bunlar da məzəmmətə səbəb oldu. Onlar bəs

---

[490] İfadənin ərəbcəsi: "Lə qəd radiyə-l-lahu".

[491] İfadənin ərəbcəsi: "Lə qəd radi-l-lahu ənil-möminina əzibən yəunnukə təhtə-ş-şəcərə".

[492] İfadənin ərəbcəsi: "İnd-ə-t-tovfiq ridau-l-lahi"

[493] İfadənin ərəbcəsi: "Fəxərəcəl ənhu və ləm yətukəlləm məəhu hətta matət".

[494] İfadənin ərəbcəsi: "Mən əqzəbəhə fəqəd əqzəbəni"

[495] İfadənin ərəbcəsi: "Mən əzəhə fəqəd əzəzəni və mən əzəni fəqəd əzə-l-lahə"

[496] İfadonin ərəbcəsi: "İnn-əl-ləzinə yuzunə-1-lahə və rəsuləhu lənə-humə-1-lahu fi-d-donya və-1-axirəti".

əməllərinin yaxşı bitməsinə, əhdə vəfa etmələrinə, aqibətlərinin salim olmasına və həzrət rəsula (s.) beyət etmələrinə necə iddia edə bilərlər? Beyətin pozulması və həzrət rəsul ilə müxalifət etmələri üzündən hər kəs aqibətinin salim olması səadətinə yetməzsə cəzalanmalıdır. Necə ki, kəramətli ayə həmin məsələyə dəlalət edir: "Hər kəs beyəti pozsa ancaq öz əleyhinə pozmuş olar. Kim Allahla etdiyi əhdi yerinə yetirsə [Allah] ona böyük mükafat verər"[497].

Üçüncü dəlil budur ki, həzrət Allah-təala Əbubəkri peyğəmbərin dostu adlandırır və dost məzəmmətə layiq deyil. Cavab budur ki, ayənin "[bunu] öz dostuna dediyi zaman o danışırdı"[498] hissəsində deyildiyi kimi bu da ona dəlalət edir ki, söhbət müsəlman və kafir arasında vaq edir, hər iki tərəfin razılığı ilədir. Məlum olduğu kimi, hər bir qardaş başqasına nisbətdə qardaşdır - istər müsəlman olsun, istərsə kafir - qardaşlardan hər biri digəri ilə yoldaş (həmrah) və müsahibdir - istər müsəlman olsun, istərsə kafir. "Ey mənim iki zindan yoldaşım, ayrı-ayrı tanrılar daha yaxşıdır, yoxsa bir olan qadir Allah?"[499] ayəsi deyilən sözlərin məzmunu bildirir. "Kəşşaf kitabının müəllifi, həmçinin Beyzavi bu ayənin təfsirində belə yazmışlar: "Ey mənim zindanda olan iki yoldaşım, Yusif əleyhissəlam peyğəmbər idi və iki bütpərəsti "yoldaş" adlandırırdı, necə ki, zikr olunan bu ayə aşkar surətdə buna dəlalət edir." Buradan məlum olur ki, peyğəmbərin yoldaşı olmaq [heç də] yaxşı dəlil deyil. [Aşağıdakı beyt] həzrətlərin səadətli qələmi ilə necə də gözəl yazılmışdır:

Şer

Hər kimin yaxşılığı yoxsa əgər,
Xeyri varmı o görə peyğəmbər?[500]

---

[497] İfadənin ərəbcəsi: "Fo mən nəkəsə fə innəmə yonkusu ələ-nəfsihi və mən ovfo bimə ahədə əleyhə-1-lahu"
[498] İfadənin ərəbcəsi: "İz qalə li-sahibihi və huva yuhaviruhu".
[499] İfadənin ərəbcəsi: "Ya sahibeyi-s-sicin, ərbabu mutəfərriqunə xəyru-ummil-lahil-l-vahed-əl qəhhar?"
[500] Beytin farscası:
Hər ke u ruy be behbud nədaşt,
Didəne-ruye-nəbi sud nədaşt.

Amma o həzrətlər ki, Quranı dəqiq dərk etmişlər, qeyd olunan bu beytdə "hər ke-ra" əvəzinə "hər ke u" ("hər kimi" əvəzinə "hər keo" - Ş.F.) yazmaqla həmin zikr olunan misraların rabitəsini pozmuşlar və [bununla da] hər iki misranı natəmam qoymuşlar və indiki dəqiqəyədək Molla Caminin (Əbdürrəhman Cami - Ş.F.) hələ soyumamış ruhunu incitmişlər". Lakin bütün Xorasan əhlinə qarət və talan üz verdiyi vaxt evlər viran oldu. Həzrət mövləvi də o camaatdandır. Əgər onun başqa bir beyti də dəyişilərsə, bunun heç bir qorxusu olmaz, çünki bir ərəb şerinin bu misrası da buna bir sübutdur:

Misra

Hamılıqla gələn bəla xoş olur".[501]

Elə ərəb şeirlərində (əşar) belə fikirlər vardır. Amma bu misranı burada zikr etmək məsləhət deyil. Bu məktubu ünvanladığımız həzrətlərdən iltimas olunur ki, hər hansı bir sözün düşünülmədən mənalandırılmasına meyl etməsinlər.

Dördüncü dəlil budur ki, həzrət mürtəza əleyhissalam (yəni İmam Əli - Ş.F.) ona xas şücaətinə baxmayaraq, xalqın üç xəlifəyə beyət etdiyi vaxt orada olmuşdur, amma bu işi qadağan etməmişdir. Bunun özü də beyətin həqiqətinə bir sübutdur. Əgər bu belə deyilsə, o həzrəti məzəmmət etmək lazım gəlir. [Sizin bu fikrinizə] cavab belədir: Həzrət əmir (yəni İmam Əli - Ş.F.) rəsulun təkənlənməsindən əvvəl üç xəlifə "Səqifeye-bəne-Saidə"də səhabələri yığıb, Əbubəkrin xəlifə olmasından ötrü onun haqqı olmadığı beyəti həyata keçirdi. Amma, o əhvalatın şərhi bu səhifəyə yerləşmir. O həzrət bundan xəbər tutduqdan sonra, tərəfdarlarının azlığından, haqq əhlinin həlak ediləcəyi qorxusundan, yaxud da başqa səbəbdən hərbə başlamadı. Bu heç də qarşı tərəfin haqlı olmasının sübutu deyildir. Həzrət əmir böyük şücaətlə həzrət peyğəmbərin mülazimətində dayanmışdı və heç də qüvvət və şücaət baxımından o camaatdan əskik deyildi. Məlumatlar və kitablar buna dəlalət edir ki, həzrət peyğəmbər (s.) və həzrət Əli (ə.) və digər

[501] Misranın ərəbcəsi:
"Əl-bəliyyətu izə ammət tabət".

səhabələr Qüreyş ilə döyüşmədilər və Məkkeye-müəzzimədən hicrət etdilər.

Bir müddət keçdikdən sonra Məkkəyə gələrək onlar Hudeybiyyə sülh sazişini bağlayıb geri qayıtdılar. [O vaxt] həzrət peyğəmbərin (s.) və digər səhabələrin cəng etməmələrinin səbəbini həzrət əmirin (İmam Əlinin - Ş.F.) də cəng etməməsinə şamil etmək olar. [Bu məsələdə] qüreyş kafərlərinin haqlı olmaları mütləq surətdə təsəvvürə gəlmir. Bu nöqsan təhqiq əhlinin nəzəri kimi yuxarıda da qeyd olunmuşdu. Baxmayaraq ki, firon allahlıq iddiası ilə dörd yüz il hakimiyyətdə oldu, [o cümlədən] Şəddad, Nəmrud və başqaları da həmin batil iddiada idilər. [Amma,] həzrət Allah-təala öz kamil qüdrəti ilə onları həlak etmədi, bir çox adamlar isə onların batil iddialarına inandılar. Əgər hər vaxt Allahın düşməni dəf etməsi təxirə salınarsa, bu bəndənin fikrincə, bu əməl elə əvvəlki qayda üzrə həyata keçiriləcəkdir. Necə ki, buyurulubdur, həzrət əmir onlara beyət etdi və həmin beyət ikrah edilmədən oldu, çünki təqiyyə[502] qadağandır ki, təqiyyənin təhqiqi bu səhifəyə sığmaz. Necə ki, Nəcəfi[503] əqidələrinin şərhçisinin dediyinə görə Şeyxeyni (iki şeyxi - Ş.F.) yamanlamaq küfrdür ki, həmin fikrin özü batildir. "Camiətül-üsul" kitabının sahibi şiələri islam firqələrinin kübar adamlarından sayır, "Məvaqif kitabının müəllifi də o yolla gedərək, şiənin təkfirindən ötrü toplanılan məbləği (vocuh) rədd edir. İmam Məhəmməd Qəzali də şeyxeynin yamanlanmasını küfr bilməmişdir. [Siz cənabın isə] şiəni təkfir etməyiniz nə möminlərin xatirinədir, nə də Qurana və hədislərə uyğundur. "Təşəyyə" məfhumu bu məktubun əvvəllində açıqlandı və şiələri yamanlamaq əsaslı sayılmadı. Üç xəlifənin adları heç vaxt [ağıllı] şiənin dilindən cari olmur, amma əgər cahil şiələr lənət oxumağın vacibliyi hökmünü verərlərsə, onların sözləri mötəbər deyildir, necə ki, cahil sünnilər şiələrin öldürülməsinin vacibliyi hökmünü verirlər. Bu hökm mütləq surətdə sələfin (Məhəmməd peyğəmbərin - Ş.F.) və ondan sonrakıların fikirlərinə uyğun gəlmir. Sizin isə buyurduğunuz "bəzi hekayətləri

[502] Təqiyyə - Hər hansı bir şəxsə mali, cani və ərzi zərər dəyə biləcəyi halda əqidə və məzhəb axtarışı (Bax: D-r M.Moin. Göst. Lüğət, c. I, səh. 1123).

[503] Nəcəfi - Adı Ömər ibn Məhəmməd ibn Əhməd Nəcəfi Səmərqəndi Hənəfi (hicri-qəməri tarixlə 461-537) olmuşdur. Ləqəbi Nəcməddin olan Nəcəfi məşhur alim, fəqih, müfəssir (təfsirçi - Ş.F.) və mühəddis (hədisçi - Ş.F.) idi. Fiqh mübahisələrinə dair yüzədək risalə yazmışdır ki, onlara misal olaraq "Əkmələt-lul", "Və-t-təysir fi-t-təfsir", "Əl-əqayed ən-Nəsifə, "Tarix-Səmərqənd" kitablarını göstərmək olar.

eşidib onları qadağan etməyən şəxs kafərdir" fikri şəriət və əql sübutuna müvafiq deyildir. Şeyx ibn Sina buyurmuşdur: "Dəlilsiz bir fikri təsdiq edən kəs insanlıq fitrətindən kənar olmuşdur"[504].

Ayişə barəsində şiəyə nisbət edilən xəbislik və pis söylənilən fikirdən (fəhşa) əlhəzər, əlhəzər! Ayişə xüsusunda qətiyyən elə fikir deyilməmişdir. İnsanları söymək (fəhş) haramdır, illah ki, həzrət rəsulun xanımı ola. Amma Ayişə "Evlərinizdə qərar tutun, ilkin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın"[505] əmrinə itaət etməyərək Bəsrəyə gəldi və həzrət imamla (Əli ilə - Ş.F.) müharibə etdi. "Sənin döyüşün mənim döyüşümdür"[506] hədisinə əsasən hər iki firqədən olanlar o həzrətin hərbini noql etmişlər. Həzrət peyğəmbərlə hərb edən kəs heç vaxt məqbul sayıla bilməz. [Ayişə] buna görə də tənəyə məruz qalmışdır. Bu zəif şəxs (yəni) məktubu yazanın müəllifi - Ş.F) şiə kitabları arasındakı bir hədis kitabında oxumuşdur ki, Ayişə həzrət əmirin yanında müharibədən tövbə etmişdir. Baxmayaraq ki, müharibə hadisəsi mütəvatirdir[507], tövbə hekayəti də vahid xəbərdir.[508] Amma baş verən hadisədən sonra Bəsrənin dağıdılmasından və səhabələrdən qırx min nəfərinin və başqa adamların qətl olunmalarından sonra, əgər o, tövbə qəbul olunarsa, müharibə üçün lənət yağdırmaq lazım gəlmir. "Allah bütün işlərin həqiqətini bilir və sur çalınacağı gün haqq ilə hökm edəcəkdir"[509]. Habelə "Xəbis qadınlar xəbis kişilər üçün, xəbis kişilər xəbis qadınlar üçün, pak qadınlar pak kişilər üçün, pak kişilər pak qadınlar üçündür"[510] ayəsi bu mənada deyil ki, ər-arvad (zövceyn) bütün mədh və məzəmmətlərdə şərikdirlər, yəni əgər onlardan biri cənnətlik və cəhənnəmlik olsa, digəri də elə olmuş olsun. Yoxsa, həzrət Nuh və Lut və onların zövcələri -

---

[504] İfadənin ərəbcəsi: "Mən tuəvvidu ən yusəddiqə min ğeyri dəlilin fəqəd ənsələxə ən-i-l-fitrətil insaniyyəti".

[505] fadənin ərəbcəsi: "və qərrin fi biyutukunnə və lə təbərrəcənnə".

[506] İfadənin ərəbcəsi: "Hərbukə hərbi".

[507] Mütəvatir - hədis istilahı olub hamı tərəfindən eyni cür qəbul edilən fikir mənasındadır (Bax: D-r M.Moin. Göst. Lüğət, cild III, səh. 3842).

[508] Tövbə - Bu da hədis istilahıdır, günahdan əl çəkməkdir ki, hamı bunu "vahid bir xəbər", yəni günahdan əl çəkmək kimi başa düşməlidir. Tövbəni pozmaq olmaz! (Bax: D-r M.Moin. Göst. Lüğət, cild III, səh. 1160).

[509] Ərəbcəsi: "və əl-lahu əiəmu bi həqayeq-əl-ümuri və huvə yəhkumu bi-l-həqqi yövmun yənfəxu fi-s-sur".

[510] Ərəbcəsi: "əl-xəbisatu l-il-xəbisinə və-l-xəbisinə l-il xəbisat, və-l-təyyibatu l-il-təyyibin, və-l təyyibunə l-il-təyyibat".

Asiya[511] və Firon[512] kimi ola bilərlər. Yuxarıda zikr olunan ayə başqa bir ayədə belə şərh olunmuşdur: "Zinakar kişi evlənməz zinakar, ya müşrik qadınla, zinakar qadın isə evlənməz zinakar, ya müşrik kişi ilə"[513]. Seyyidül-ənamın (islam peyğəmbərinin - Ş.F.) övladları olan böyük seyidləri təkfir etmək təəccüblüdür. Hərgah peyğəmbərin xanımı o həzrətin əmri xilafına olaraq səfərə çıxsa və müsəlmanların qəbul etdikləri bir şəxs xəlifə olsa və həmin şəxs də həzrətdən (Məhəmməd peyğəmbərdən - Ş.F) eşidərək nəyisə nəql etsə [və peyğəmbərin xanımı o şəxslə müharibə etsə] hədisin bu hökmünə əsasən peyğəmbərlə müharibə etmiş sayılır. Həmçinin Ayişə qırx min səhabə və tabeinin (səhabələri görən şəxslərin - Ş.F) qətlinə bais olmuş kimidir. Peyğəmbər övladı bəzi müsəlmanlara xəlifə olan bir şəxsi yamanlayarsa və həmin peyğəmbər övladının yanında o şəxsin müxalifəti sübut olunarsa belə görünür ki, həmin şəxs peyğəmbərə müxalif olmuş, o həzrətlə aralarında olan əhdi pozmuşdur. Həmçinin peyğəmbər övladının sözündən kimsəyə mali və cani cəhətdən əziyyət gəlməz və əgər səhv (xəta) olsa haqqında danışılan adam üçün savab hasil olar.

Bu iki əməldən hansı daha pisdir? Birinci əməl qətiyyən tənəyə (qədh) səbəb olmur. İkinci əməl isə əgər küfr olarsa bundan nə kimi hadisə baş verər? Əgər şeyxeyni yamanlamağın küfr olması yalançı hədisə arxalanarsa, bunun savab olması yuxarıda yazıldı. Yox, əgər bundan başqa bir şey ifadə olunursa, [qoy bizə bildirilsin ki,] biz də eşidib ondan faydalanaq. Hər halda, insaf yaxşı şeydir. Şiə kitablarında belə nəql olunur ki, iki gözündən kor olan ibn Əmmi Məktum Əma peyğəmbər salavatullahın yanında idi. Bu vaxt, o həzrətə məhrəm olan ailə üzvlərindən biri (qadın - Ş.F.) onların yanından keçdi. Peyğəmbər (s.) həmin qadına etiraz etdi. Qadın dedi: "Ya rəsulallah, bu şəxs kordur". Peyğəmbər buyurdu: "Sən (ki) kər deyilsən".

---

[511] Asiya - XIII Ramsesin oğlunun xanımı idi və tək Allaha iman gətirmişdi. O, dörd "cənnət xanımı"nın (Asiya, Məryəm, Xədicə və Fatimə) biri idi.

[512] Musa peyğəmbərin müasiri olmuş Misir padşahının vəzifə adıdır və XIII Ramsesin oğludur. Bu padşahın hakimiyyəti dövründə Misirin şöhrət və iqtidarı azalmışdı. Elə buna görə də o, özü üçün tikdirməyə başladığı aramgahın inşasını bitirməyə müvəffəq olmamışdır (Bax: D-r M.Moin. Göst. Lüğət, cild VI, s. 1341-1342).

[513] İfadənin ərəbcəsi: İa yənkəhu-1-əzəniyət ov muşrikətun və-z-zaniyətu lə yənkəkuhə-1-əzənu ov muşrikun".

Əhli sünnə alimləri danışırlar ki, həzrət peyğəmbər küçədə çalıb-oxuyan çalğıçılara tamaşa etsinlər deyə Ayişəni öz çiyni (kətf) üstünə qaldırdı. Bir müddətdən sonra buyurdu: "Ya Homeyra, baxmaqdan doymadın?"[514]. Sünnilərin yazdıqları belə qəbahətli işi (yəni, peyğəmbərin guya Ayişəni çiyni üstünə qaldırmasını - Ş.F.) [nəinki peyğəmbərə, hətta] ən rəzil adama belə aid etmək olmaz. Bu qəbahət elə dərəcədədir ki, onu heç açıq-aşkar danışmaq da olmaz. Bu əhvalatdan hasil olan odur ki, əgər hər bir şəxsin etiqadı olarsa [aləmdə] kafər tapılmaz. Hər halda biz həzrət Allahdan sonra peyğəmbər kimi heç bir şərafətli və kamil varlıq tanımırıq və o həzrətin şərəfinə zidd olan heç nəyi qəbul etmirik. Amma, fəryad ondan ki, o həzrətin etdiyi cürətdən bəzi təəssübkeşlər [yalançı] hədislərə arxalanıb şəriət və din mövzusunu:

Beyt

Qəlbimin qüssəsini az danışıb qorxdum ki,
Səni qəmləndirərəm, yoxsa sözüm az deyil.[515]

Amma haram ayların ehtiramının (hormət) qadağan (nəsx) olunması xüsusunda sizin buyurduğunuzun cavabı belədir: "Əsil [həqiqət] onun əksidir", çünki etimad olunan şey Quranın nüsxələrində zahir olmalıdır. Həzrətin (Əlinin - Ş.F.) həmin ayların bəzisində müharibə etməyi qədərə (təqdir) təslim olmaq və zorakılığı kənarlaşdırmaq üçün idi və o həzrət hərbə ilk başlamırdı. O həzrətin əksər hərbləri belə baş vermişdir. Şiənin küfrü sübut olunmazsa, necə ki, bu cavabdan məlum oldu və Müqəddəs Məşhəd əhalisinin öldürülüb-qarət edilməsini siz halal buyurdunuz ki, bu məsələ natəmamdır. Qədərə təslim olmağınız siz cənabların heç vaxt eşitmədiyiniz xəbər əsasında hasil olmuşdur. "Allah ürəkdə olanları bilir"[516]. Hər halda padşahın məzacı atəş kimidir. Kəramətli üləmalara layiqdir ki, moizə zülalı ilə o atəşin alovunu söndürsünlər ki, Allah məxluqları (xəlqullah) yanmasınlar, elə iş etməsinlər ki, filnə küləyi ilə həmin atəşi yaymış olsunlar, [beləliklə də,] Allah

[514] İfadənin ərəbcəsi: "Ya Homeyra, həll şəniəti?"
[515] Beytin farscası:
Əndəki pişe-to göftəm ğəme-del tərsidəm
Ke delazorde şəvi və-r ne, soxən besyarəst.
[516] İfadənin ərəbcəsi: "və-l-lahu əlimun bi-z-zati-s-suduri eyyihalin".

bəndələrinin əsas və köməkçi (fəri) pöhrələrini yandıraraq onları bu zillət torpağına salsınlar.

Beyt

Tünd olma heç zaman atəş kimi sən,
Tüstü ürəyindən çıxır yananın.[517]

Məlumdur ki, o cür mülahizəsiz fitvalar verməklə və aşinaları aradan götürməklə Allah bəndələri [ölüb] bir-birlərinə qovuşurlar. Onları qırmaq, əgər kafər olsalar belə, ən kamil və həlim zat olan Allah-təalanın istəyinə uyğun deyildir. Məzrət Nuh əleyhissalam qiyamət günündə kafərlərin və [başqa] məxluqların həlak edilmələri üzündən xəcalətli (şərməndegi) olacaqdır. Bizə çatan xəbərlər buna sübutdur və bunun şərhi bu səhifəyə sığmaz. Əgər hər hansı bir qoşun üləmaların fitvası bu işi görərsə, cəza günü etdiyi əməlin cavabı həmin üləmaların boyunlarında qalacaqdır:

Şeir

Əməlin cavabını qiyamətdə sorsalar,
Ülüvvül-əzmlər[518] də titrər, pərişan olar.
Bir halda ki, xəcalət çəkər o peyğəmbərlər,
Günahının üzründən ötrü buyur sən də gəl[519].

Qoy gizli qalmasın ki, ibn Tavus şiə üləmalarını dandı, üsul, füru sahəsində müctəhid idi, fiqhi siniflərə ayırmırdı (təsnif nəfərmude). Allah-təala öz dostu olan və dünyanı ondan ötrü yaratdığı həzrət peyğəmbər barəsində buyurmuşdur: "Əgər o özündən bəzi sözlər uydurub bir istinad etsəydi, biz ondan mütləq

[517] Beytin farscası:
Ço atəş məşov tond — o, sərkeş məbad
Ke dud əz dele-mobtəlayi bərayəd.
[518] Bəzi peyğəmbərlər "ülüvvül-əzm" adlanmışlar - Ş.F.
[519] Şeirin farscası:
Dər an ruz ke, fel porsənd-o qovl,
Ülüvvül-əzm-ra tən lərzəd ze hovl.
Be cayi ke, şərməndeənd ənbiya,
To ozre-gonəh-ra çe dari biya.

şiddətli intiqam alardıq, onun şah damarını qoparardıq və heç biriniz də onu bizim əzabımızdan xilas edə bilməzdiniz"[520]. Hərgah həzrət peyğəmbər haqqında bu qədər təhdid və mübaliğə olarsa, əgər başqa birisi bu məsələdə qəlizliyə (ğəlzət) yol verərsə, onların öhdələrindən gələr. Əgər siz həzərat, peyğəmbərin təqvasını görürsünüzsə, ehtiyatlı olun. Məhşər günü məzlumların, xüsusən uşaqların cavabını vermək çətindir. "Məhşər günü uşaqlar, həddi-büluğa çatmayanlar və divanələr sorğu-sual olunmayacaqlar"[521].

Şer

Məni öldürsən əgər eşq günahım sarıdan,
Bigünah öldürülən kəslərə söylərsən nə?

Mən bu sözlərlə sənə yaxşılıq etmək dilədim,
Qabalıq etməyimin yoxsa nədir mənası?[522]

Aləmin fəsadları dünyanın fəsadlarından yaranmışdır. Münasibdir ki, fəzilət sahibləri bu fəsadlardan uzaq olsunlar (mincəzer). Bəlkə bir ömürdən sonra Mavərənnəhr fazilləri müqəddəs Məşhəde-müəlla tərəfə təşrif gətirsinlə, fəqir-füqəram [da özləri kimi] xalis insan bilsinlər. Əgər Firudin məkanlı xaqanın (özbək hökmdarı Abdulla xanın - Ş.F.) zülmündən (qəhhari) o fəqirlər şəhərdən çıxa bilməsələr, onlar qoy həzrət imame-ənamın (İmam Rzanın - Ş.F.) ehtiramını saxlasınlar, ziyarət səadətinə yetişsinlər və fəqirlər o əzizlərin dövlətlərinin bərəkətindən başıuca olsunlar. [Amma, təəssüf ki,] bu məna meydana gəlmədən [yəni Məşhədi ziyarət etmədən] o fəqirlərin qətlinə fərman verildi. "Barəkəllah, Allah əcrinizi böyük, əməllərinizi islah etsin"[523].

---

[520] İfadənin ərəbcəsi: "və təqulu aleynə bəd-əl əqavili li əxzinə minhu bi-l-yəmini summə ləqətanə minhu əl-vətinə fə mə minkum min əhədin ənhu hazirunə".
[521] İfadənin ərəbcəsi: "Rəfəə əl-qələm ən səbi, hətta bi bəlliğ və-1-mocnun".
[522] Şeirin farscası:
Be corme-eşq məra gər koşi çe xahi goft
Cəvabe-xine-rəfiqan ke bigonahanənd.
Məra morad əz in comle nikxahiye-tost,
Və gər ne z-in həme goslaxiyəm çe məqsudəst?
[523] İfadənin ərəbcəsi: "Barəkəllahu, əzəmə ucurikum və əsləhə umurikum".

Beyt

Qurşanma cövr etməyə, o yolun yoxdur sonu,
Zalım peşman olsa da, tapmaz çarə yolunu.[524]

ZİLLƏLLAH ŞAH MƏİYYƏTİNİN XORASANA YÜRÜŞÜ, MÜRŞİDQULU XANIN QƏTLİ VƏ HƏMİN SƏFƏR ZAMANI BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Qələmin bəyan etdiyi kimi, Xorasanda baş verənlər İraqa çatdıqda, oradan qaçan adamlar bir-bir saraya gəlib, baş vermiş böyük hadisə barədə xəbər çatdırdılar. Əlahəzrət zilləllah şah Əliqulu xanın öldürülməsi və şamlı tayfasının qətl və qarət olunmasını eşidib çox pərişan oldu, onun mübarək xatiri kədərləndi. Elə Mürşidqulu xan da zahirən öz qəmginliyini göstərir, əskəri hekayətlər söyləməklə şahın xatirini kədərləndirirdi, nəticədə o, Xorasana yürüş etməyi qərarlaşdırdı. Xoşbəxt bir saatda böyük səltənət evindən çıxıb hümayun evə gəldi. Cənnətməkan şahın ox və kaman qorçisi Hüseyn bəyin nəvəsi olan Məhəmməd Şərifbəy Çavuşlu inkişaf edib hakimlik və xan rütbəsinə layiq görüldü, Qəzvinə hakim və hümayun paytaxta mühafiz təyin edildi.

Səhra və çölün ot və güllərinin (rəyahin) çoxluğundan bu dəyişkən fələyin həsədinə səbəb olduğu bahar [fəslinin] əvvəlində hümayun məiyyət hərəkətə başlayıb, müzəffər ləşkərin bir yerə toplanmasından ötrü Lar yaylaqlarına getdi. Belə qərara gəldilər ki, məhsulların (əkin məhsullarının - Ş.F.) böyüyüb ucalmasınadək yol getsinlər. Lar yaylağında Rüstəmdar məliklərindən hər ikisinin adı Məlik Cahangir olan və ataları Rüstəmdar dağlarında (cəbal) özbaşına ortaya çıxıb başqa adamları saya almayan Larican valisi Məlik Bəhmən, həmçinin Nur və Kəcur vilayətinin [Məlik Cahangirləri] gələrək qızılbaş əmrləri ilə görüşdülər və onlardan olduqca qorxdular (təhasi). Onlar həmişə düşmənlik mövqeyindədilər (yağı), qızılbaşlara lazımi kimi itaət etmirdilər. Belə bir vaxtda humayın iqbal [sahibinin] buraya gəlməsinə görə

[524] Beytin farscası:
Məkon-məkon ke, rəhe-covr-ra kənare nəbaşəd,
Məkeş-məkeş ke, peşiman şəvi-yo çare nəbaşəd.

həmin vəhşisifət adamlar ram oldular, bəxtlərinin göstərişi ilə qorxu-hürküsüz humayun orduya gələrək şah ilə görüş şərəfinə yetişdilər, qulaqlarına itaət sırğası taxıb bellərinə bəndəlik qayışı bağladılar. Belə vəziyyətin baş verməsi həqiqətən də dünyagörmüş şəxslərin nəzərində iqbalı təsdiq edən hal idi. Hümayun məiyyət bir neçə gün yaylaqlarda qaldı və hər gün əsgərlər gəlib onlara qoşulurdu. Elə həmin yaylaqda da Allah-təalanın bəxşişi kimi kamyab nəvvabın bir oğlu doğuldu, adını Sultan Həsən Mirzə qoydular. Amma az bir vaxtda borc verilmiş həyata vida etdi və əbədi aləmə getdi. Ümidvarıq ki, həzrət Pərvərdiyar onun böyük atasının ömrünü və dövlətini çoxaldacaq, hər iki cahanda murada yetirəcək.

Xülasə, hümayun ordu Firuzkuh yolu ilə Damğana gedib dayandı. Bəzi adamlar [bundan əvvəl] mərhum nəvvab şahzadə [Həmzə Mirzə - Ş.F.] və Fərhad paşa arasında sülh bağlanmasına cəhd edirdilərsə də, Vəli ağa Caşnigirbaşının elə bu məqsədlə gəlişinə baxmayaraq, hümayun cülusun başlanğıcında bu tərəfin bəzi xeyrxah adamları sülh işinə razılıq vermirdilər. Buna görə də, bu məsələ indiyədək təxirə salınmışdı. Zərurət üzündən Xorasana səfər müəyyənləşdirilən belə bir vaxtda Herat şəhərinin Abdulla xan Özbək tərəfindən fəth olunması həyata keçdi. Anıraa, əgər qızılbaş qoşunları Azərbaycan məsələləri və rumilərlə müharibə ilə məşğul olsaydılar, belə olan halda, onlar gərək iki tərəfdən iki düşmənlə vuruşaydılar ki, bu da vaxta münasib bir hal deyildi. Adı çəkilən sülh sazişinə və onun şərtlərinə başlamaq istəyən Mürşidqulu xan belə qərara gəldi ki, bir neçə gün Bəstam çəmənliyində dayanıb sülh danışıqlarının təşkilinə və Vəli ağa ilə birlikdə [Ruma] mahir bir elçinin göndərildməsinə başlasınlar ki, onlar daha Azərbaycandan xatircəm olub, asudəliklə Xorasana getsinlər, Heratı ələ keçirsinlər.

Mürşidqulu xanın qətli səbəbinin zikri:

Damğandan çıxıb Şahrudda dayandıqları vaxt qəzavu qədərin gərdişi və Allahın istəyi ilə Mürşidqulu xanın öldürülmə qəziyyəsi baş verdi və sülh sazişi təxirə salındı. Bu ibrətamiz hadisənin şərhi belədir: Yuxarıda, hadisələr yazan qələm [belə yazmışdı]: Mürşidqulu xan Tərşizdə əlahəzrət zilləllah şahın lələsi Əliqulu xan Şamlıya qalib gələndə, o həzrət fələyin və Allahın məsləhəti ilə müqəddəs Məşhədə təşrif gətirdi və Mürşidqulu xan öz

ata lıq xidmətinə başladı. Onun xasiyyəti şahzadənin ürəyincə deyildi və o, xanın pis rəftarından incik idi. Amma gənclik əyyamında qocalarda olan hövsələyə malik olduğundan əbədi dövlətin möhkəmlənməsi naminə xanla sülh yolu ilə davranırdı. İraqa gələndən sonra elə ki, İran dövlətinin başçılığını əlinə aldı, xanın adamlarının çoxluğundan onun bəzi yerli-yersiz hərəkətlərinə göz yumaraq, dövlət yolundakı səylərini nəzərə aldı, səbr etdi. Xan isə ixtiyar və iqtidar cilovunu əlinə elə götürmüşdü ki, hümayun şah heç bir işə dəxalət edə bilmirdi. Elə ki, Qəzvin darülsəltənəsində Herat hadisəsindən və Əliqulu xanın qətlə yetirilməsindən sonra o, [Mürşidqulu xan - Ş.F.] ayağını ədəb dairəsindən kənara çıxarıb bu dudmanın ən yüksək məqamına yetmək (mosaherət) istədi, bu məsələdə istəyini ifrat sərhədinə çatdırdı. [Başqa] adlı sultanlar və kamkar padşahlardan [elə adamlara qarşı] inayətlər görünmüşdür, onlar vəfalı sadiq şəxslərə elə yüksək rütbə verməklə vəzifələrini ucaltmışlar.

Amma, dərgah bəndələrinin nə həddi ola bilər ki, belə bir iddia edə bilsinlər? Xülasə, [Mürşidqulu xan] çox şəylər etməsinə baxmayaraq, məqsədinə deyil, ədəbsizliyə çata bildi. Xanın ustaclı tayfasından olan bəzi tərəfdarları, xüsusilə Mahmud bəy Sufilər ona açıq-aşkar deyirdilər ki, bu padşah səni dəf etmək barədə düşünür və tezliklə sənin həyatını məhv edib ustaclı oymağını qara torpaqla yeksan edəcəkdir.

Şahrudda Şah Abbasın vəziri Mürşidqulu xanın qətl və Mirzə Məhəmmədin vəzir olması:

Əlahəzrət şah ona Allah-taalanın bəxş etdiyi fərasət və fəhmlə, yaxud bəzi halalnəmək havadarlarının ona verdikləri məlumata əsasən elə hərzə adamların puç xəyallarını və bihudə sözlərini başa düşdü, öz uzaqgörən əqlinin tələbi (moqtəza) ilə şəkkə düşərək, xanın işini bitirmək fikrinə düşdü, çünki belə böyük işlərin həll olunmasında qəflətdə qalmaq ağıllı və ehtiyatlı adamlardan uzaq bir məsələdir. Lakin, irəlidə Xorasan səfəri və böyük işlər olduğundan, o həzrət böyük qorxmazlıqla səbr edib onunla zahirən mülayim davranır, bu məsələdə məhz surət aləmini zahirən görənlərin ona köməyi dəyirdi. O, öz vəziyyətini düşünüb gününü keçirirdi. Elə ki, Mürşidqulu xanın pis rəftarı öz həddini aşaraq ifrat sərhəddinə çatdı, daha bundan artıq səbr etmək öz həddini aşaraq

ifrat sərhəddinə çatmaq deməkdir. Elə bu vaxtlarda [əlahəzrətin] yaşa dolma və onda qəzəb hissinin, hiddətin və tündməzaclığın yaranması dövrü olduğundan o, öz gənclik günlərinə uyğun halətdə idi. Daha bundan artıq səbr etmək onun havadarlarının hövsələsinə yerləşmədi. Bu zaman şahanə namus təri hərəkətə gəldi, Hümayun şahın nurlu ürəyində qəzəb atəşi şölələndi, onun dəf olunmasını zəruri bildi. İraq camaatı onu sevmədiyindən İraqda sakin olan ustaclı tayfasına mənsub Ümmət bəy Qarasarlı Kuşəkoğlu, vardövlətinin Əliqulu xan Fəthoğlu ilə dost olduğuna görə Mürşidqulu xan tərəfindən müsadirə olunmasından incik düşdüyündən, xandan üz çevirmişdi. Sədaqət üzündən şahın mübarək razılığını almaqdan ötrü o, Xorasandan gələnlərdən və hümayun zilləllah şahı sevənlərdən olan tir və kaman qorçisi Qara Həsən Çavuşlu, Allahverdi bəy Zərgərbaşı və Əsəlməs bəy Saruqçibaşının oğlu Məhəmməd bəylə ittifaqa girdi, can-başla xanın qətlini öz boynuna götürüb fürsət gözləməyə başladı. Əbu Talib Mirzənin vaxtında vəzir və etimadüddövlə olmuş savadlı tacik Mirzə Məhəmməd də onlarla əlbir oldu. Belə ki, şahanə dayanacaq Bostamın Şahrud adlı yerində olduğu vaxt, əvvəlki qaydaya görə, keşik çəkməyə gələn və şahın xeyməsinin yanında özünə xeymə quran və orada yuxuya gedən Mürşidqulu xana, keşikçilərin əksəriyyəti yatdıqlarından, adı çəkilən adamlar qılınclarını çəkib hücum etdilər. Əvvəlcə, Ümmət bəy xanı qılıncladı, sonra isə Qara Həsən və yoldaşları işini bitirdilər.

Xülasə, xanın qətlindən sonra, elə həmin gecə şah vəzarətin ona veriləcəyini vəd etdiyi Mirzə Məhəmmədi yanına çağırıb ali divan vəzarətinin başçılığı ilə onu şərəfləndirdi. Mürşidqulu xanın adamlarından olan və onun tərəfini tutaraq şahdan aralanan bəzi adamlar cəzalandırıldı, xanın müqəddəs Məşhədin hakimi olan qardaşı İbrahim xan vəzifəsindən çıxarılıb, cəzalandırıldı. Ümmət bəyə yüksək xanlıq rütbəsi verildi və Mürşidqulu xanın yaraq-yasağı ona inayət olundu, [bəy] bir neçə mülazimə sahib oldu. Əmirlik rütbəsinə yetməklə şərəflənən Allahverdi bəy Zərgərbaşı "sultan" ləqəbinə layiq görüldü, Cərpadqan və oraya tabe yerlər ona şəfqət olundu. Məhəmməd bəy Saruqçi İstahan darülsəltənəsinə daruğə təyin edildi. Qara Həsən tirü kaman qorçisi oldu və əlavə olaraq "xan" rütbəsi də aldı. Xülasə, səltənət və padşahlıq işlərinə o qədər də qarışmayan əlahəzrət zilləllah şahın özü şəxsən din və dövlət işlərinin icrasına başladı.

Mürşidqulunun qətlindən sonra elə həmin gün köçərək Bəstam çəmənində dayandılar. Yadına düşdü ki, özbaşınalıq və xudbinlik edən bir dəstə fitnə-fəsadlı qızılbaşı dəf edərək dövlətin həmişəbahar guşəsini üsyankar adamların vücudunu aradan götürmək zillallah şahın hüsni-tədbirini və təravətini artıra bilər. Hamıya məlum idi ki, İsgəndər şanlı nəvvabın və yeri cənnət olan şahzadə Sultan Həmzə Mirzənin zamanında Məhəmməd xan Türkmandan necə pis əməllər və fitnə-fəsad zahir olmuşdu. O, Əmir xanı öldürməkdən ötrü böyük fərzənd və vəliəhd olan yuxarıda adı çəkilən şahzadəyə qarşı qiyam qaldırmış, Təhmasib Mirzəni özünün əl oyuncağına çevirərək o rəhmətlik şahzadənin gözləri önündə qətllər törətmiş, müharibəyə başlamışdı. O, elə bu hadisələr zamanı yenidən ali orduya gəldi. Mürşidqulu xanın qətli xəbərini eşidib istədi ki, İsgəndər şanlı nəvvabın zamanında olduğu kimi divan işləri üzrə ixtiyar sahibi olsun və mülki işlər onun məşvərət və məsləhəti ilə həll edilsin. Ağılsızlığı üzündən əvvəlki özbaşınalıq və xudpəsəndliklə işləmək fikrinə düşdü.

Məhəmməd xan Türkmanın öldürülməsi:

Şah belə məsləhət gördü ki, oymaqlardakı fitnəkarları aradan götürsünlər ki, qızılbaşlar arasından fitnə-fəsad yığışsın, məşhur qızılbaş tayfaları arasında oymaq təəssübkeşliyi qalmasın, onların hamısı sadiq havadarlar olsunlar, şahla yekdillik etsinlər, onun əmirlərinə müti və bağlı qalsınlar. Yuxarıda yazıldığı kimi, Məhəmməd xanın mənsub olduğu türkman oymağı onun pis hərəkətlərinə görə tənələrə məruz qalaraq gözdən düşmüşdü. Bu məsələ Fərrux xan Türkman Pornaka pis təsir etdiyindən, o, şahın xidmətinə gələrək, Məhəmməd xanın başından tacını çıxardıb onu dövələtxana xeyməsindən kənara çəkmiş, elə oradaca qətlə yetirmişdi. Sonra xanın şərli başını nizəyə keçirərək bütün ali orduda nümayiş etdirdilər. Mürşidqulu xanın qətlindən vahiməyə düşən ustaclı tayfası bu vaqiədən sevinib, şahanə şəfqətə ümidvar oldu. Başqaları da baş vermiş bu iki hadisədən ibrət götürüb şah cəzasından qorxdular və ayaqlarını ədəb ətəyinə doladılar.

Bəstam çəmənində baş verənlərdən biri də budur ki, qorçibaşı mənsəbinə layiq görülən Bədr xan Əfşar Astrabad darülmöminə əmir və hakim təyin edildi, Xar və Semnan hakimi Əhməd Sultan Zülqədər isə ona köməkçi verildi. Ali divanın ən

böyük mənsəblərindən olan qorçibaşılıq Kirman darüləmanının hakimi Vəli xan Əfşara verildi, Kirman hakimliyinə isə onun Yəzddə olan oğlu Bəktaş xan namizəd edildi. Adına belə bir hökm yazıldı ki, o, Yəzddən çıxıb Kirman darülamanına getsin, oranın hakimliyinə başlasın. [Buna görə də] son bir neçə ildə xidmət və yasaqdan uzaqlaşdırılmış əfşar tayfaları öz qoşun və ləşkərlərini bəzəyib Xorasana gəldilər, müzəffər orduya birləşdilər və bu işlərin nizamlanması Mehdiqulu bəy Çobanoğlu Əfşara tapşırıldı. Onlar əsgər toplanması üçün qırx günədək Əsfərayinin Ələngində dayandılar, sonra Əsfərayin yolu ilə müqəddəs Məşhədə gəldilər, həzrət cinlər və insanların imamını ziyarət etmək səadətinə yetişdilər.

Şer

Əli, Cəfər və Musa dərgəhinin torpağını
Səadət tutiyası tək aparır əhli-nəzər[525]

Vəzir Mirzə Məhəmməd öz iqtidar bayrağını ucaldıb əzəmət və iqtidarla ali divan vəzarəti işlərinin icrasına başladı. O, Budaqxan Çekəniyə diqqət yetirib onu şahzadə Sultan Həsən Mirzənin lələ və atabəyi etməklə başıuca və müqəddəs Məşhəd hakimliyinə namizəd etdi, həmçinin Xəbuşan ülkası və oraya aid olan yerləri onun övladları Həsənəli Sultan, Hüseynəli Sultan və başqa qardaşları arasında böldü.

Bu işlər arasında, əmisi Fulad Xəlifənin əvəzinə Qayin hakimi olmuş Sultanəli Xəlifə Şamlı Tərşizin Susfəd döyüşündə Əliqulu xan Şamlının qoşun səfini dağıdıb Mürşidqulu xana birləşmişdi. Bu iş şamlı qoşununun məğlubiyyətinə səbəb oldu. Mürşidqulunun damadı və onunla əlbir olan Süleyman Xəlifə Türkmanla Əli Xəlifə Şamlı - hər ikisi cəzalandırılaraq izzət və etibar ucalığından zillət və zəlalətə yuvarlandılar.

Bu zaman [əvvəllər] Mürşidqulu xanla əlbir və müttəfiq olan Budaq xan Çekəni vahiməyə düşərək, dəyişkən ağla və müxtəlif iddialara malik olan oğlanlarının təhriki ilə sədaqət

[525] Şerin farscası:
Əli, Musa, Cəfər və xake-dərgəhe – u
Ço tutiyaye-səadət bərənd əhli-nəzər.

yolundan döndü, şahzadəni də özü ilə götürüb Xəbuşan qalasına qaçdı. Tun hakimi olan Şah Əli Mirzə Ustaclının oğlu Salman xan ülka sahibinə çevrilən və Əmir xan sima türkmanlarından olan Şahbudaq Sultandan vahiməyə düşüb Tun qalasını bağladı və bir neçə döyüşə başladısa da, fürsət tapıb o vilayəti tərk edərək, İraqa gəldi.

Özbaşına qiyam edib müxalifətə başlayan Şiraz zülqədərləri də Yaqub xanla o cür rəftar edib, müqəddəs Məşhəddən qaçdılar. Onları tutmaq tapşırılan Yaqub xan Şiraza yollandı. Amma sərkərdələri Həmzə bəy Camuslu olan o dəstə Yəzdə çatdıqda Bəktaş xan tərəfindən tutulub qalada saxlanılmalarından ötrü qorçiye-tirə-kaman [dəstəsindən olan] Yəzd daruğəsi Əliqulu bəy Şamlıya tapşırıldı. Onların ardınca gələn Yaqub xanı Bəktaş xan qarşılayıb şəhərə gətirdi.

Amma, Yaqub xan Bəktaş xanın hərəkətlərindən şübhələnib düşündü ki, mirmiranın təhriki ilə onu həbs eləyib yerinə adı çəkilən Həmzə bəyi Şiraz əyaləti əmirliyinə təyin edəcək, zülqədər tayfasını özünə yoldaş edib müxalifət bayrağı qaldıracaqdır. Ehtiyatı əldən verməyən Yaqub xan, elə həmin gecə yüngüldən-ağırdan hər nəyi vardısa hətta özü ilə götürməyib, Yəzddən Şiraza fərar etdi. Bəktaş xan bir dəstə adamı onun ardınca yoladısa da, çatmayıb geri qayıtdılar.

Xülasə, əlahəzrət şah bu məsələlərə o qədər də baş qoşmayıb, müqəddəs Məşhəd hökumətini Ümmət xan Ustaclıya verdi, Mürşidqulu xanın və qardaşı İbrahim xanın ləşkərini ona mülazim etdi. Cahanı fəth edən ordu Herata yola düşərək Cam şəhərinin Bəndi-Fəriman adlı yerinə gəldi.

Bu hadisələr zamanı İraqdan vahiməli xəbərlər gəldiyi üçün şahın bu yürüşdən qayıdıb İraq səmtinə yollanması vacib bilindi. Belə bir xəbər gəldi ki, Ərzrumda olan Rum sərdarı Fərhad paşa saysız-hesabsız ləşkərlə Qarabağa gəlib, o vilayəti qacar əmirlərinin əlindən almış, Gəncədə qala inşa etmiş, oraya mühafizəçi və yeniçəriləri qoymuş və geri qayıtmışdır. Başqa xəbərsə bu idi: Bağdad hakimi olan Cığaloğlu İraqi-Ərəb ləşkəri ilə Həmədana tərəf gəlib, oranın hakimi Qorxmaz xan və o ətrafdakı əmirlərlə müharibə etmiş, Qorxmaz xanı tutmuş, vilayətdə isə qarətkarlıq törətmişdi. Cığaloğlu sonra Həmədandan çıxaraq İraqa yaxın olan Nəhavənddə qala inşa etmiş, orada azuqə və silah saxlayıb geri qayıtmışdı. Qarabağ, Həmədan və o tərəflərdə ailələri

qalan qalibiyyətli əsgərlər və əzəmətli qorçilər bu xəbərləri eşidib təşviş hissi ilə İraqa qayıtmağa başladılar.

Buna görə də, şaha pərişanlıq üz verdi və o, Herata getməkdən imtina etdi, belə düşündü ki, əgər Herat qalasını mühasirə edərsə, mühasirə müddəti uzana bilər.

Baharın əvvəlində Abdulla xan [Özbək] və oğlu Əbdülmömin xan çoxlu qoşunla Xorasana gəldilər. Qalibiyyətli əsgərlərin Xorasan yasaqının uzanması səbəbindən yığışa bilmədiyinə görə [qızılbaşlar] müqavimət göstərə bilmədilər və beləliklə bu dövlətə xeyli ziyan dəydi. Xorasanda ərzaq məhsulları (məkulat) azalmağa başladığından, zəfərli əsgərlərin sayı da get-gedə azalırdı. Bu il, Heratda qalmaqdansa İraqa tərəf getmək və rumilərdən xatircəm olmaq daha mühüm bilindi. Cahanı bəzəyən rəy İraqa tərəf getməyi qərara aldı. Mürşidqulu xan dövründə vəzifələrə təyin olunmuş, amma şahanə etibara layiq olmayan bəzi əmirlər vəzifədən çıxarıldılar və onların yerlərinə başqaları təyin olundular. [Şah] Bəndi - Fərimandan çıxdı. O, əvvəlcə Yəzd yoluyla İraqa getmək istədi, [amma] Yəzdin, Kirmanın və Farsın işləri Kirman hakimi Bəktaş xanın gəlib çıxmaması, onun Yəzddə yubanması və Şiraz ağalarını himayə etməsi səbəbindən pozulmuşdu (moxtəll). Əlahəzrət istədi ki, oradan keçərkən işləri öz yoluna qoysun. [Düşündü ki,] Bəktaş xan əgər bu dövlətin yüksəlişini istərsə, mülazimətə gəlməklə şərəflənərsə, onda bu münasibətlə sevinc müşahidə olunarsa, o zaman Şiraz ağalarını ondan götürüb qoy cəzalandırsınlar və Bəktaş xanı Kirmana göndərərək, Fars və Kirmandan xatircəm olsunlar, sonra Qəzvin darüssəltənəsinə getsinlər. Elə bu fikirlə də Yəzd yolu səmtində olan Duğamaya, Zadəyə və başqa yerlərə tərəf yollandı.

Vəzir Mirzə Məhəmmədin qəzəbə düçar olmasının səbəbi:

Budaq xanın müxalif olma xəbəri eşidiləndə başqalarının da cəsarətə gəlib belə hərəkətlər etməmələrindən ötrü şah ustaclı tayfasının hörmətli adamlarından olan Kor Həsən Ustaclını Budaq xana şahanə vədlər verməkdən və hüzura gətirməkdən ötrü, Xəbuşana göndərdi. Buna görə do, orada bir neçə vaxt dayanıb Budaq xanın gəlişini gözlədilər.

O, vahiməyə düşərək şahın hüzuruna getməkdən imtina etdi. Elə həmin yerdə vəzir Mirzə Məhəmməd şahın qəzəbinə düçar

oldu. Onu Fərhad xan vasitəsilə həbs etdilər. Şahın ondan dönməsinə səbəb başqalarına məlum olmasa da, amma aqil şəxslərə məlum idi və ağıl bunu təsdiq edirdi: [Şah vəziri ona görə həbs etdi ki,] əvvəla o, nəvvab şahzadə Sultan Həmzə Mirzədən sonra Əbu Talib Mirzənin lələsi olmuş və İraq əmirləri tərəfindən əlahəzrətə ədəbsiz sözlər yazıb Xorasana yollamışdı. İkincisi, o da istəyirdi ki, qalibiyyətlə Mürşidqulu xanın yolu ilə gedib məmləkətlərin işlərini, şaha ərz etmədən, öz rəyi və məsləhəti ilə həll etsin. Bundan başqa o, mirmiran ilə görüşüb belə qərara gəlmişdi ki, Yəzdə çatdığı vaxt Bəktaş xanla damad olsun və onu öz hamisinə çevirib əfşar tayfasının köməyi ilə şahanə bir şəxsə çevrilsin. Budaq xan da sonradan təsdiq etmişdi ki, bəs Mirzə Məhəmmədin təhriki və fitnəkarlığı ilə mən də elə bir cəsarətə yol vermişəm.

Xülasə, iti nəfsli, təhrikci (mofsed) və təşəxxüslü (boləndpərvaz) adamdı, lap bu misrada deyildiyi kimi:

Misra

Nəfsin qonan hər bir şeyə meylin vardır.[526]

Mirzə Məhəmməd Vəzirin öldürülməsi:

Xülasə, onun idbar işləri sona çatdı, onu sevməyən və şaha yaxın olanların təhriki ilə həbsə giriftar oldu. Ömür badəsi dolduğundan yoxluq (ədəm) onun vücudunu yox etmək niyyətinə düşdü və o, Fərhad xanın mülazimi Pirəli ağa Ərbatanın (?) əli ilə qətl olundu. Elə həmin məkanda orduda olan Məlik Bəhmən Laricani əsassız yerə qorxuya düşüb Laricana qaçdı.

Bu işlərin baş verməsindən sonra əlahəzrət şah əzəmətli əmirləri yığıb məclis çağırdı və soruşdu ki, hümayun ordunun İraqa getməsi hansı yol ilə daha münasibdir. Bəktaş xanın atası olan Vəli xan Qorçibaşı ərz etdi: "Əgər hümayun ordu Yəzdə tərəf gedərsə, Bəktaş xanın və mirmiranın vahiməyə düşmələrinə səbəb olar və onlar şahın yanına gəlməyə cürət etməzlər və güman ki, [o zaman] böy ük hadisələr törənər. Yaxşısı budur ki, hər biri bu dərgahın mülazimi və yetişdirməsi olan onlann adamlarına güzəşt edək

[526] Misranın farscası:
Həm dər səre-an rəvi ke dər sər dari.

(əğmaz), Tərşiz və Səbzvar yolu ilə İraqa gedib səltənət paytaxtında əyləşək, Azərbaycan sərhədinin nizamlanması ilə məşğul olaq və rumiləri dəf edək. [Əlahəzrət] qoy bu məsələdə şahanə başısoyuqluq (təqofol) edib onların yersiz davranışlarını bağışlasın. Mən qoca qul söz verirəm ki, oğlum Bəktaşın işi xüsusunda əlahəzrətin razılığından sonra onu hüzura gətirim". Şah onun xahişini nəzərə alıb Yəzdə getmək qərarını ləğv etdi, Tərşiz və Səbzvar yolu ilə İraqa yollandı. Onlar Damğana gəldikləri vaxt artıq qış qurtarmışdı. Üç gün Damğanda qalıb novruzu bayram etdilər, sonra oradan Reyə getdilər. Mürşidqulu xan İsgəndər şanlı nəvvabın və şahzadələrin saxlanmalarından ötrü Vəramin qalasını müəyyən etdiyindən və şah öz atasının oraya göndərilməsini istəmədiyindən, belə qərara aldı ki, o həzrəti həmin qaladan çıxarıb öz həmsöhbəti etsin. Kif (Keyf - ?) qəsrində böyük bir bayram və ali bir məclis düzəldib İsgəndər şanlı nəvvabı gətirməkdən ötrü bir adam yolladı. Elə ki, İsgəndər şanlı nəvvab gəlib orduya yaxınlaşdı, əlahəzrət öz məşhur atasının məiyyətini istiqbal etməkdən ötrü ata süvar oldu. Elə ki, nəvvabın ali qoşunu göründü, əlahəzrət atdan düşüb ədəb-ərkanla müqəddəs atasının dizlərini öpdü və İsgəndər şanlı nəvvab alişan oğlunu mehribanlıqla qucaqladı, onlar bir-birlərini gördüklərindən hədsiz sevindilər. Dövlətxana xeyməsindən başlayaraq hümayun ordunun yanınacan yerə payəndaz döşənmişdi. Qapıya çatana qədər bir neçə yerdə camaata qızıl paylandı, günü eyş-işrət və şadyanalıqla başa vurdular. Şah məclisdən çıxıb müqəddəs hərəmxanaya təşrif apardı, öz möhtərəm bacısı Zeynəb bəyimlə və başqa qohum qadınlarla görüşdü. Sonra oradan çıxıb, birlikdə Qəzvin darüssəltənəsinə çatdı, qalibiyyət və iqballa bu əbədi dövlətin paytaxtında əyləşdi.

FƏRHAD PAŞANIN QARABAĞA LƏŞKƏR ÇƏKMƏYİ, HƏMİN VİLAYƏTİ FƏTH ETMƏYİ, CIĞALOĞLUNUN BAĞDADDAN ƏLİŞƏKƏRƏ QƏDƏR GƏLMƏYİ, NƏHAVƏNDDƏ QALA TİKMƏYİ VƏ BAŞQA HADİSƏLƏR

Yuxarıda yazılmışdı ki, hələ mərhum nəvvab şahzadə Sultan Həmzə Mirzənin sağlığında rumilərlə sülh danışığı başlanmış və razılıq alınmışdı. [O zaman] Mürşidqulu xan bu məqsədlə Rumdan gələn Vəli ağa Çaşnigirbaşını orduya çağırıb bu məsələni bitirmək istəyirdi ki, mirzənin qətl qəziyyəsi baş verdi və həmin məsələ həyata keçmədən təxirə salındı. Rumilər zəfərli ordunun

Xorasana yürüşünü fürsət bilib, Ərzrumda dayanan Fərhad paşanın saysız-hesabsız əsgəri ilə Şirvan vəAzərbaycan arasında yerləşən Qarabağı tutmaq üçün yürüşə başladılar.

Həmişə bu tərəfin (qızılbaşların - Ş.F.) tərəfdarlarından olan və rumilərlə dəfələrlə bərk döyüşlər edən gürcü hakimlərindən Səmayun xan onunla mülayim davranan Fərhad paşanın ümidverici vod və qiymətli hədiyyələrinə aldandı. Ağıllı və işgüzar adam olan və qızılbaşların düşündükləri vəziyyəti müşahidə edərək onların köməyindən məyus qalan Səmayun xan rumilərlə ixtilafa girmək istəməyib onlara yol verdi və bir kənarda dayandı. Fərhad paşa ondan xatircəm olub, asanlıqla Gürcüstan torpağını keçərək Qarabağ vilayətinə qədəm basdı. O zaman əyalət əmirliyi rütbəsinə çatan, lakin hələlik doğru-düzgün istiqaməti olmayan Məhəmməd xan pərişan oldu, Qarabağ əmirlərindən Nəzər Sultan Qazaqlar özünün bütün eli ilə [qızılbaşlardan] dönüb rumilərə birləşdi və paşa rütbəsinə layiq görüldü. Qarabağın qacar tayfası və başqa el və oymaqları elə bir-birinə dəydilər ki, nəticədə birləşə bilmədilər, rumi ləşkərinə müqavimət göstərmədilər, öz məmləkətlərindən əl üzüb pərişanlıqla Araz çayını keçdilər, Arasbara gəldilər, onların var-dövləti və başqa malları qarət olundu. Fərhad paşa Gəncə şəhərində bir neçə gün qalıb, orada möhkəm bir qala inşa etdi, bacarıqlı əsgərlər, döyüş ləvazimatı və azuqə qoyub geri qayıtdı. Təbriz qalasında olan Cəfər paşa, həmin vilayətin hər tərəfinin qızılbaşların əllərində olduğu üçün, o yerləri ələ keçirmək məqsədi ilə Təbrizdən çıxıb Ərdəbilə yollandı, amma Səraba çatdıqda özündə irəli getmək qüvvəsi görməyib geri qayıtdı.

Lakin, Qaracadağ hakimi Xəlifə Ənsarın oğlu Şahverdi xan onun itaətinə keçib oğlunu onun yanında [girov qalmaq üçün] Təbrizə göndərdi, talesizliyindən öz dövlət başını tacdan məhrum edib rumilərin papağını başına qoydu. Bu hadisədən sonra qızılbaş əmirləri Təbriz ətrafından əl çəkib, Ordubada, Mərəndə, Dizmara və Zünuza tərəf çəkildilər, ətraf yerlər Cəfər paşanın əlinə keçdi. Cığaloğlu kimi tanınan Bağdad hakimi Sinan paşanın beyninə Əlişəkəri tutmaq fikri düşdüyündən oraya yürüşə keçdi. Həmədan hakimi Qorxmaz xan Şamlı o yerlərin əmirlərinə xəbər göndərib rumilərlə döyüşməyi qərara aldı. Amma, hələ qoşun toplamazdan əvvəl Cığaloğlu o vilayətə gəlib qalibiyyətlə Həmədan yaxınlığına çatdı. Qorxmaz xan qafillik və qürur üzündən ehtiyatsızlıq edərək,

ləşkərin gəlib toplaşmasını gözləmədən özünün az miqdarlı döyüşçüləri ilə düşmənlə döyüşə cumdu.

Qorxmaz xanın yanına gələn Luristan hakimi Şahverdi xan Abbasi döyüşçülərin azlığını görüb onu hərbdən çəkindirməyə çalışdısa da ona etimadı olmayan Qorxmaz xan Şahverdinin təklifini bəyənməyərək ehtiyatı əldən verdi və döyüşə başladı. Şahverdi xan Luristan ləşkəri ilə birlikdə müharibəyə başlamayıb bir kənarda dayandı. Rumilər azsaylı qızılbaş qoşununa həmləyə keçib onları mühasirəyə aldılar. Çərxçiləri cəngə rəğbətləndirməkdən ötrü bir neçə şamlı döyüşçüsü ilə qoşundan ayrılan Qorxmaz xan rumilərin bir dəstəsi ilə qarşılaşdı. O vilayətin rumilərə birləşmiş olan bir neçə döyüşçüsü onu [üzdən] tanıyıb, bu barədə düşmənlərə xəbər verdi. Hər tərəfdən üstünə at sürdülər, qol-qanadını sındırıb onu əsir aldılar. Onun ələ keçirilməsindən sonra qızılbaş döyüşçüləri hərbdən əl çəkib qaçış yolunu önə tutdular. Şahverdi xan Luristana qaçdı. Rumilər qarətə başladılar. Həmədan əhalisi və o vilayət biçarələri bir-birlərinə dəydilər, öz əhl-əyalı ilə birlikdə əlçatmaz yerlərə qaçdılar. Cığaloğlu Həmədandan keçib Nəhavəndə tərəf üz tutdu. Bir tərəfi Luristana birləşən Nəhavənddə bir qala tikməyi qərara aldı ki, həm Əlişəkəri zəbt etsin, həm də Lulistan ülkasını rumibrin itaətində saxlasın.

Xülasə, o, Nəhavənd qəsəbəsində bir, Səd Vəqqasda isə başqa qala inşa etdi, oraya mühafizəçi, azuqə və yaraq-yasaq yığıb geri qayıtdı. Əksəri şiəməzhəb olan Nəhavənd camaatı isə rumilərlə birlikdə olmaq istəmədədiklərindən öz ev-eşiklərini xaraba qoyub ətrafa dağılışdı. Bu gediş-gəliş nəticəsində Əlişəkər böyük bir viranəyə çevrildi, tamamilə qarət olundu. Cığaloğlu Qorxmaz xanı özü ilə Bağdada aparıb vəziyyət barədə xandgara məlumat yolladı, etdiyi əməllər bəyənildi. Bu məqalələrin müəllifi bu vaqiələri Qorxmaz xanın sərkarının katibi olan, döyüşdə vuruşub onunla birlikdə Bağdada gedən və oradan geri qayıdan Xacə Əbdürrəhim Dərmənidən eşidib qələmə aldı.

XORASAN ƏMİRLƏRİNİN VƏZİYYƏTİNİN ZİKRİ VƏ MÜZƏFFƏR ORDUNUN QAYITMASINDAN SONRA BAŞ VERƏN BƏZİ MƏSƏLƏLƏR

Hümayun ordunun Xorasandan qayıtmasından sonra Budaq xan və onun övladları əmirülüməralıq dükanını açaraq vicdan

xəzinələrində olan mətləb əşyalarını satmağa başladılar. Onlar şahzadə Sultan Həsəni özlərinə vasitə seçərək, işdən çıxarılan və Xorasanda qalan bəzi əmirləri öz yanına çağırıb əhaliyə dedilər: "Əlahəzrət zilləllah şah İraqa təşrif aparmışdır və daha onun rumilərin istilası səbəbindən Xorasana gəlmək fürsəti olmayacaqdır. Şahzadə isə əlimizdədir. Onu müqəddəs Məşhədə aparıb dövlət taxtına əyləşdirək, başına Toplaşaq, Xorasan mülkünü zəbt edək, düşməndən qorunaq. Bizə itaət etməyən hər bir kəsi dəf edib, onun ülkasını başqasına verək". Ortada şahzadənin adı hallandığı üçün bir dəstə adam ona tərəf meyllənib Budaq xanın əmirülməralığını və ağsaqqallığını qəbul etdi. Nişapur hakimliyindən çıxarılan Mahmud xan Sufioğlu Ustaclı xan ilə birləşdi, onun razılığı ilə Nişapura gəldi. Ümmət xanın qohumu, Nişapurun hakimi Şahnəzər Sultan Kuşəkoğlunun mülazimləri olan ustaclı qaziləri Mahmud xanın qədim mülazimləri olduqları üçün xana qarşı rəğbətlənərək Nişapur vilayətini onun ixtiyarına verdilər.

Şahnəzər Sultan müqəddəs Məşhədə Ümmət xanın yanına getdi, Mahmud xan isə Nişapur hakimliyinə qayıtdı. Həmçinin özünün pis davranışına və rəiyyətin şikayətinə görə Səbzvar hakimliyindən uzaqlaşdırılan İmamqulu xan ibn Qubad xan Qacar öz yerinə hakim təyin olunmuş Məhəmməd Sultan Çavuşlu ibn Ənut (Ayqut?) Sultanın üzərinə Səbzvara gələrək, o vilayəti adı çəkilən Məhəmməd xanın adamlarından alıb işğal etdi. Əsfərayin hakimi Əli Müslim xan da, onlarla müttəfiq oldu. Müqəddəs Məşhədin hakimi olan və əlahəzrət zilləllah şah tərəfindən əmirülüməra təyin edilən xan adam yollayaraq onların özbaşınalıq və xüdpəsəndliyini qadağan etdi, amma onlar ona tabe olmayıb müqəddəs Məşhədə hücum edərək onu şəhərdən çıxarmaq fikrinə düşdülər. Elə bu məqsədlə bir yerə toplaşdılar ki, Əbdülmömin xanın Xorasana hücumu başlandı, Ümmət xan mühasirəyə alındı. Onların vəziyyətləri barədə gələn il hadisələrin şərhində məlumat veriləcəkdir.

Cəzaya məruz qalmış və vəzifədən çıxarılmış bəzi Xorasan əmirləri, o cümlədən Sultan Əli Xəlifə Şamlı, Süleyman Xəlifə Türkman və bir dəstə fitnə-fəsadlı adam Bəst və Zəmindavər hakimi olan və Qəndəharda öz böyük qardaşı ilə vuruşub ona qalib gələn Rüstəm Mirzə ibn Sultan Hüseyn Mirzənin yanına gəlməyə meylləndilər. Onların bəziləri, xüsusiylə Süleyman Xəlifə Şamlı, Qəndəhara getdilər ki, onu aldadıb Xorasana gətirsinlər. Hər

tayfadan olan Xorasan döyüşçülərinin çoxu adı çəkilən mirzənin mülazimi olmaq istəyi ilə bellərinə himmət kəməri bağladılar və Qəndəhara yollandılar. Onun və qardaşı Müzəffər Hüseyn Mirzənin vəziyyətləri, həmçinin Qəndəharda və Sistanda baş verən məsələlər, habelə Sultan Hüseyn Mirzənin övladları haqqında məlumat əvvəldən axıradək gələcək illərin hadisələrinin şərhində ələhiddə şəkildə veriləcəkdir, inşallah.

TÜRKİCƏ ÖKÜZ İLİNDƏ, DOQQUZ YÜZ DOXSAN SƏKKİZİNCİ İLDƏ (MİLADİ 1589/90), ŞAHIN CÜLUSUNUN ÜÇÜNCÜ İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Yenə yaz gəldi ki, biz bir daha bostanə gedək,
Yenə mey rəngi görək, bağü gülustanə gedək.
Bütləri yad eləyib, gah baxaq sərvə tərəf
Şövqdən gah da ələ almağa peymanə gedək.[527]

Bu il Aləmi bəzəyan novruz səadət ilə doqquz yüz doxsan yeddinci ilin cəmadül-əvvəl ayının 3-də (miladi 1589, 3 mart) gəldi və ulduzlar xosrovu dünya şahı öz məiyyəti arasında əyləşdiyi kimi şərəf bürcündə öz yerini tutdu.

Şer

Yenə gül şövqü ilə naləyə gəlmiş bülbül,
Qoca dünya bu cahan şahı kimi oldu cavan.[528]

---

[527] Beytlərin farscası:
Bəhar şod ke degər rahe-busitan girim,
Ze badeye-ünəba* rənge-golostan girim.
Gəhi be yade-botan sərv-ra nəzare konim,
Gəhi ze şovq ləbe-came-ərğəvan girim.
* Enəb-üzüm; ünəba-üzümlər

[528] Şerin farscası:
Ze şovqe - qol be səd əfgan keşid morğe-səfir,
Ço əhde-şahe-cəhan taze gəşt aləme-pir.

Zilləllah şahın hümayun qoşunu ədəbi olan səltənət paytaxtına çatıb, kamranlıqla dövlət və iqbal taxtında yerləşdi. O, ali divanın qədr-qiyməti yüksək olan vəzarət mənsəbini mərhum nəvvab şahzadənin vəziri olmuş Mirzə Lütfulla Şiraziyə verdi. Mirzə o vaxtlar ali sərkarın vəziri vəzifəsində işləyirdi, amma yeni uca mərtəbəyə yüksəldi, divan işlərinin cilovu onun əlinə tapşırıldı. Əlahəzrət zilləllah şahın zəmanə məkrinin rəf olunması və "həyatın baharı" adlanan yenilik dövrünü başa vurmasından ötrü gedərək bahar əyyamını Qəzvin darülsəstənəsində şadmanlıqla keçirməsinə və bağ-bostanlar içrə gül üzlü gözəllərlə söhbərləşərək kama yetməsinə baxmayaraq, o, agahlıq çöhrəsi üstünə işrət və zahiri (suri) nigab çəkmiş, ağıllı və hüşyar adamlar kimi, olduqca qarışıq hala düşən məmləkət işlərinin nizamlanmasından ötrü çalışır, dövlət işlərinin aparılmasında bir ləhzəni belə əldən vermirdi. Amma, rumilərlə sülhün bağlanması, şahzadənin[529] o ölkəyə göndərilməsi və münaqişənin saxlanılması [bəzi yerlərin] osmanlıların zəbtində olduğu bir vaxtda çətin bir məsələ idi. Belə vəziyyət şah və ordu üçün olduqca ağır idisə də, əlahəzrət öz hədəfə dəyən rəyi və uzaqgörən əqlinə söykənərək bu məsələlərin icrasına öz razılığını verdi, çünki iki yüksək məqamlı padşah iki tərəfdən İran ölkələrinə hücuma keçmişdi, qızılbaş tayfaları arasında hələlik birlik yox idi, Yəzd hakimi Bəktaş xandan müxalifət əlaməti zahir olmuşdu, fars zülqədərləri tayfası Bəktaş xanın təhriki ilə qiyama qalxmışdı, o zamana qədər Kuh-Giluyədə yaşayan və şaha itaət edən bəzi ərəşli əmirləri Kuh-Giluyədə özbaşına hakim vəzifəsini qəsb edən Həsən xan Əfşarın təsiri ilə yenidən cahana pənah verən dərgahdan üz çevirmişdi, qulaqlarında həmişə itaət sırğaları olan İran məmləkətlərinin ətraf yerlərində yaşayan bəzi adamlarının hər biri cənnətməkan şahın vəfatından bu günədək keçən on beş il müddətində öz yerlərində iqtidar bayrağı qaldırıb istiqlal və istibdaddan dəm vururdular. Belə olan halda o iki qüvvətli düşmənə müqavimət göstərmək qorxulu idi və onların biri ilə barışıq etməkdən başqa çarə yoxdu. Zəmanə ilə ayaqlaşmaq məqamı idi. Əgər şaha pərvərdigarı yar, bəxt və iqbal ulduzu mədədkar olarsa, haqq öz yerini tutacaqdır.

Şer

[529] Qeyd: Rum ölkəsinə girov göndəriləcək şahzadənin - Ş.F.

Əql yol göstərdi vəfalı kimi,
"Tək əldən səs çıxmaz " sualı kimi.
Kimləsə döyüşmək bacarıq deyil,
Düşmənlə barışıq əql işidir bil.[530]

Zərurət üzündən əlahəzrət zillallah şah sülhə razılıq verib, şahzadənin özü ilə [Ruma] aparacağı silah və sursatın hazırlanması ilə məşğul olaraq, o zaman Ərdəbil darülirşadının hakimi olan və ağlı, biliyi, fəhmi, bacarığı və həşəməti ilə başqa əmirlərdən fərqlənən Səmayun (?) Sultanın oğlu Mehdiqulu xan Cavuşlunu elçi təyin etdi. O, mirzəni ləyaqətlə yola salaraq həzrət xandgara dostcasına, sədaqətamiz məktub, layiqli töhfələr və hədiyyələr göndərdi. Şah bu işlərin əncamından ötrü gəlib, iki il gözləyən Vəli ağa Çaşnigirbaşıya da inayət nəzəri yetirdi qayıtmasına icazə verdi. Vəli ağa belə deyirdi ki, Cığaloğlunun İraqa qoşun çəkməyi xüsusunda xandgar tərəfindən heç bir hökm verilməmişdir və Cığaloğlu özbaşına gəlib Nəhavənddə qala inşa etmişdir. Buna görə də, şahın nurlu düşüncəsi belə məsləhət bildi ki, həmin qalanı fəth etməkdən ötrü bir dəstə döyüşçü göndərərək, şahzadənin İstanbula çatmasına qədər oranı yerlə yeksan etsin, beləliklə də sülh sazişi bağlanarkən Nəhavənd qalası rumilərin əlində olmasın. O, Həmədan vilayətinin əyalətlərini Təhmasibqulu Sultan Ərəşlıyə inayət edib, onu Nəhavənd qalasını tumağa yolladı, bayat əmirlərini ona köməkçi təyin etdi, onlar da şahın əmrinə müvafiq həmin yerə yollanaraq qalanı mühasirəyə aldılar, və oranı bir neçə gündən sonra fəth etməyə başladılar.

O əsnada Əbdülmömün xanın Xorasana gəlişi xəbəri gəlib çatdı, hümayun ordunun Xorasana yollanması vacib bilindi. Adı çəkilən əmirlər Nəhavənd qalasını ələ keçirə bilmədilər və Cığaloğlu ikinci dəfə Nəhavəndə gəlib, qalanın ehtiyacı olan azuqə və sursatı Bağdaddan gətirdi, orada yeni mühafizəçilər yerləşdirib geri qayıtdı.

---

[530] Şerin farscası:
Xerəd şod be in nokteəş rəhnəmun,
Ke avaz n-ayəd ze yek kəf berun.
Setize bekəs n-əz təvanayi əst,
Modara be doşmən ze danayi əst.

Sülh sazişi bağlandıqdan sonra, bu iş sülh maddələrində əks olunduğundan İraqın ortasında yerləşən həmin qalanın ələ keçirilməsinə cəhd edilmədi və beləliklə qala rumilərin əlində qalmış oldu, onun geri alınması, başqa yerlər kimi, başqa vaxta saxlanıldı ki, tezliklə bu barədə Allahın iltifatı və padşahın qüvvəti ilə öz məqamında yazılacaqdır.

Ağıllı adamlar tərəfindən bəyənilən həmin sülh sazişi bir dəstə nadan, cahil və ağızsız adamın təəssübkeşliyinə səbəb olduğundan, onlar məsələdən uzaq fikirlər söyləyirdilər. Şərafətli kamyab nəvvab, cavanlara xas qəzəbə, tündməzaclığa və hirsə malik olsa da, ağıllı və tədbirli qocalar kimi hərəkət edib, o adamların yersiz sözlərinə əhəmiyyət vermədi. Doğrudan da, həmin sülh və barışıq nəticəsində dinə və dövlətə külli miqdar fayda oldu, çünki artıq rumilər tərəfindən xatircəmlik hasil olundu və şah məmləkətlərinin qarışıqlığını aradan götürməyə başladı, nəticədə bəxtin gücünə, tədbirin gözəlliyinə və ağıllı rəyə uyğun olaraq fitnə-fəsad İran mülkündən uzaqlaşdırıldı, tezliklə üsyankar tayfaların hər biri və ev düşmənləri dəf olundu, inadkar adamların başları elə itaət çənbərinə gətirildi ki, bu əməl bəsirət gözü olan adamların heyrətinə səbəb oldu, həmin qala və düşmənlərin əlinə keçən başqa yerlər geri alındı, onlara bir neçə tutulmuş qala və şəhər də əlavə olundu. Beləliklə, məmləkətlər düşmənlərdən elə təmizləndi ki, hal-hazırda İran mülkünün ərazisi rövzeyi-rizvana çevrilmişdir ki, tezliklə bu barədə yazılacaqdır.

ƏBDÜLMÖMİN XANIN XORASANA QOŞUN ÇƏKMƏYİNİN ZİKRİ, ONUN MÜQƏDDƏS MƏŞHƏDİ MÜHASİRƏ ETMƏSİ VƏ CAHAN PƏRVƏRDİGARININ KÖMƏYİ İLƏ O ŞƏRAFƏTLİ ŞƏHƏR ÜZƏRİNDƏ QƏLƏBƏSİ

Yuxarıda söylənildiyi kimi, keçən il Məşhədə gələn Abdulla xan kiçik irəliləmə (bişkeşi) ilə kifayətlənib Məşhəddən əl çəkdi. O il Məşhədin hakimi İbrahim xan Ustaclı idi və vaxtın tələbinə müvafiq olaraq həmin mülkün əhalisi onun hakimliyi ilə razılaşmışdı. Bu il Abdulla xan eşitdi ki, əlahəzrət zilləllah şah Xorasana gələrək Herat şəhərinə daxil olmadan qayıtmış, İraq istiqamətinə yollanmışdır. Heratı fəth etmək fikrinə düşən xanın həvəsi daha da artdı və onun oğlu Bəlxdən çıxıb Herata yollandı.

"Yetim Sultan" kimi tanınan Abdulla xanı bacısı oğlu Din Məhəmməd Sultan ibn Canı bəy Sultan və Herat hakimi Qulbaba Kukəltaş, Bəlx, Əndxod, Şibirğan, Çiçəknov, Meymənə, Faryab və Qıpçaq həzarələri ilə birlikdə, ona köməyə yollandı. Hələ məhsullar yetişmədən əvvəl Əbdülmömin xan Xorasana yetişdi. Az miqdar adamla tez-tələsik gəldiyindən o, əvvəlcə Nişapurun üzərinə yeridi. Nişapurda olan Mahmudxan Sufioğlu və ustaclı qaziləri özbək sərdarının ləşkərinin vəziyyət, keyfiyyət və kəmiyyətindən xəbərsiz halda qoşun bəzəyib şəhərdən çıxdılar. Qoşunlar bir-birinə qarışdı, arada kiçik bir hərb oldu. Qızılbaşiyyədən igidlik və şücaət əsəri zahirə çıxdı, özbəkiyyənin bir neçə məşhur bahadırı və mötəbər adamı əsir düşdü və məlum oldu ki, onların sərkərdəsi elə Əbdülmömin xandır. Ustaclı qaziləri hərbdən əl çəkib, özlərini qalaya çatdırdılar, qapıları möhkəmləndirdilər, bürc və barıların üstünə qalxdılar. Əbdülmömin xan şəhərin xaricinə gəlib dayandı və özbək qoşunları dəstə-dəstə yetişərək bir yerə toplaşdılar. Qaladarlıq ləvazimatını hələ toplaya bilməyən Mahmud xan əsir düşən özbəklərlə onların şəhər xaricindəki mötəbər qohumlarına bir qədər peşkəş yollayıb, onlara belə ərz etdi: "Nişapur müqəddəs Məşhədin tabeliyindədir. Siz əgər o müqəddəs yeri hərb yoluyla tuta bilsəniz, biz bu vilayəti müharibəsiz sizə verərik".

Xülasə, qohumları əsir düşmüş bir dəstə əmirin səyi ilə sülh təklifinə razılaşıb oradan çıxdı. Mahmud xan da əsir düşmüş özbəklərin hamısını eşiyə buraxaraq yürüş cilovunu Heratdan müqəddəs Məşhədə yönəltdi. Şəhərin xaricinə çatdıqda onun yanında çox az adam vardı. Buna görə də, əhvalatın başlanğıcında mühasirəyə girişmədi, şəhərin yarım fərsəxliyindəki Tuni hovuzunun yanında dayandı. Xorasanda olan Herat hakimi Mir Qulbaba, Yetim Sultan və başqa özbəkiyyə əmirləri onun yanına toplaşıb, oradan şəhərin yaxınlığına gəldilər, qalanı mühasirəyə aldılar və qalatutma alətləri hazırlığına başladılar. Ümmət xan isə ətraf yerlərin əli çatan hər döyüşçüsünü şəhərə gətirib imkan daxilində bacardığı qədər şəhərin bürc, ban və başqa yerlərini möhkəmləndirdi, hər bir bürcə qızılbaşiyyə döyüşçülərini və Məşhədin əhali və əyanlarını təhkim edib, müdafiə və qaladarlığa başladı. Ali saraya bir adam yollayan Ümmət xan mövcud vəziyyəti, azuqə azlığını, Məşhəd əhalisinin sıxıntısını və yoxsulluğunu ərz etdi.

Ali hümayun nəvvab (Şah Abbas - Ş.F.) Ümmət xanın məktubundan xəbərdar olub, düşmənlərin dəf olunması və Məşhəd mühasirəsində qalanların xilası üçün səltənət taxtından hərəkətə başlayıb məqsədinə tərəf yola düşdü.

Şah Abbasın Tehran şəhərində naxoşluğu:

Rey ülkası onların iqbal çadırlarının yeri oldu, bir neçə gün Tehranda dayanıb müzəffər əskərlərin toplanışı ilə məşğul oldular. Amma iranlıların bəxt ulduzu hələ çətinlik (vəbal) zülmətindən çıxmamışdı, amma onların qarmaqarışıq vəziyyət istiqaməti artıq müəyyənləşmişdi. Qəzanın gərdişi ilə havanın üfunəti və hümayun odudakı xəstəliklər çoxaldı, əlahəzrət zilləllah şahın müqəddəs zatına ağır mərəz üz verdi. Bir dəstə əmir və əskəri önə yollayıb, onlara ordunun önündə dayanmalarını, Bəstam çəmənliyinə qədər getmələrini, orada dayanıb iqbal ordusunun gəlişini gözləmələrini tapşırdılar ki, şahın sağalmasından sonra məqsəd istiqamətinə doğru yollansınlar. Təbiblərsə müalicəyə iqdam etdilər. Allahın əzəli istəyi həmin şərafətli büqə sakinlərinin vəziyyətlərinin pisləşməsinə, nurlu müqəddəs Məşhədin Rezəviyyə məscidinin adamlarının şəhadətinə yönəldiyi üçün, şahın xəstəliyi və məzacının pozulması uzun vaxt çəkdi, igid əskərlərin əksəriyyəti həlak oldu. Özbəkiyyə bu xəbərdən şadiman oldular, ürək arxayınlığı ilə şəhəri və qalanı tutmağa çalışdı. Ümmət xan və mühasirəyə alınanlar bu xəbərdən pərişan oldular, günləri dörd ay yas və ehtiyac içərisində keçirdilər, düşmənə müqavimət edərək bacardıqları qədər müdafiə olundular. Get-gedə iş çətinliyə düşdü, mühasirəyə alınanlar azuqə qıtlığından təngə gəldilər, şəhərdən kənardakıların onları mühafizə edəcəklərindən əllərini üzdülər. Onlar qala daxilini də bir neçə vaxt qoruya bildilər. Qala xaricindəkilər onlara gün-gündən kömək yetməsindən qüvvətlənir, qala daxilində olanlarsa daha da zəifləyirdilər. Xəstəliyin uzun sürməsi və şahı mübarək zalının zəifliyi səbəbindən onlar kömək yetişəcəyindən öz ümidlərini üzdülər, heyrət dənizində qərq olan adamlar kimi iztirab burulğanına düşüb müqavimət göstərməkdən aciz oldular, balıq kimi çapaladılar. "Suda batan adam otdan da yapışar"[531] misalına uyğun vəziyyətdən çıxmaq fikrinə düşdülər ki,

[531] İfadənin ərəbcəsi: "Əl-ğəriq yətəşəbbəsu bi kulli həşiş".

Mir Qulbaba və Əbdülmömin xan ilə sülh danışıqlarına başlayaraq şəhəri onlara təslim etsinlər, bəlkə də bu hərəkətlə onlardan aman alıb çıxıb getsinlər. Xudaverdi xan Cəlairi qaladan eşiyə yollayıb sülh xahiş etdilər. Beləliklə, onların aciz qalmaları düşmanlərə zahir oldu, amma Əbdülmömin xan sülhə razılaşmayaraq, Xudaverdi xanı qala önündə qəbahətlə cəzalandırıb öldürdü, özbəkiyyə əmirləri hirs və inadkarlıqla qalanın fəthinə yollanıb gündən-günə bu iş uğrunda çalışdılar. Günlərin bir günü bütün qüvvələrini toplayaraq hər tərəfdən hücuma keçdilər. Qızılbaşiyyə müqavimətə tab etməyib, müdafiə gücündə olmadı.

Əbdülmömin xan Özbəyin müqəddəs Məşhəd əhalisini qətli-am etməsi:

Özbəklər bürclərə qalxaraq şəhərə girdilər. Ustaclı qaziləri və başqa adamlar müqəddəs məsciddə toplaşıb, müqəddəs rövzə hasarını özlərinin pənah yerinə çevirdilər, vuruşmağa başladılar. Müqəddəs Məşhəddə olan bütün seyidlər, üləmalar, müdərrislər, Məşhədin sərkarı, əməlisaleh adamlar və salehlər müqəddəs məscidə üz tutub oraya yığışdılar, dua etməyə başladılar. Amma, döyüşçülərin səyləri və məzlumların dualarının qəzanın önünü ala bilmədi. Özbəklər oranın hər tərəfini əhatəyə aldılar, ox və tüfəng quşları hər iki tərəfdən pərvaza başladı. Əbdülmömin xan və "Yetim Sultan" adlanan Din Məhəmməd Sultan bir dəstə adlı-sanlı bahadırla şəhərə girərək məscid meydanına doldular.

Qızılbaşiyyə qaziləri sinələrini bəla qalxanı edərək, şirin canlarından əl çəkib mərdanə döyüşür, bir-bir bola camından şəhadət şərbəti içirdilər. Müxaliflərin qanlar tökən qılınc zərbələrindən onların cəsədləri müqəddəs məscid meydanında üst-üstə qalaqlandı. Ümmət xan və yaraqlanıb cəngə girən adamların hamısı qətl olundular, özbəkiyyənin əlindən qurtula bilmədilər. Özbəklər döyüşçüləri qırdıqdan sonra əməlisaleh adamlara, üləmalara və seyidlərə əl atdılar. Əbdülmömin xan İbn Ziyad kimi hərəkət etdi, onun qəzəb şöləsi şiə seyid və üləmalarının qanından başqa heç bir şeylə sönmədi. O, "Allah insanlara rəhm etməyənə rəhm etməz"[532] kəlamından çəkinmədən, qəlb qəddarlığı ilə Mir

[532] İfadənin ərəbcəsi:
"lə yərhəmu-l-lahu mən lə yərhəmun-nəsə".

Əlişir səfəsinin (?) kənarında dayandı, zalım özbək dəstələrini müqəddəs rövzənin daxilinə göndərdi, biçarə məzlumları bir-bir mühafizə yeri sayılan came məsciddən kənara çıxarıb şəhadətə yetirdi, hamını mühafizə əlindən qapıb, onlara həmin şərbətdən içirdilər. Düzgün söz danışanlardan eşitdim ki, müqəddəs Məşhədin seyidlərindən olan, sülh, təqva və ibadətdə ali dərəcə əldə edən və Mirbala Sərkə kimi tanınan Mir Məhəmməd Hüseyn həmin hövlnak gün öz adəti üzrə zərihin (məzari dövrəyə alan şəbəkə - Ş.F.) yuxarı başında əyləşib namaz, taət və Quran tilavəti ilə məşğul idi. O, həmin şərafətli yerdən bir az aralandı, adəti (mötad) üzrə həmin qorxulu gündə yenə başda əyləşərək Quran tilavətini davam etdirdi. Allahın yaratdığı özbəklərin biri qəfildən əlini onun kəmərinə aparıb [darta-darta] çölə çıxardı. Biçarə mir canının qorxusundan və çəkhaçək iztirabından əlini İmam Rzanın qəbrinin kənarındakı mübarək şəbəkəyə aparıb oradan bərk yapışdı. Bu vaxt başqa bir özbək qılıncını sıyırıb onun qolunu kəsdi, özünü isə çölə çıxarıb parça-parça etdilər. Xülasə, o qəmgin gün aşuranın ikinci günü idi və müqəddəs məscidin meydanı Kərbəla çölünə bir nümunəydi. Müqəddəs rövzə meydanında öldürənlərin qanı su kimi axır, o adamların ömür gəmiləri fəna bəhrində qərq olurdu. Əcəm vilayətində səhbani (?) mərtəbəsi olan Mövlana Şani bu haqda bir mərsiyə yazmışdı ki, onun bu beyti vəziyyətə münasibdir:

Şer

Məşhədin torpağını indi tutub sıxsan əgər,
Qan çayıyla gəmi üzməklə Kərbəlayə gedər[533]

Onların izzət qadağasının başı örtülü, iffət otağının gizli saxlanan qadınları da meydan və came məscidində toplaşıb, buraya pənah gətirmişdilər. Bu qadınlar ərlərinin, oğlanlarının və qardaşlarının qan dənizində qərq olduqlarını gördükdə özlərinin də möhnət və bəla toruna giriftar olcaqlarını bildilər və bihəya özbəklərin əlində əsarətə giriftar oldular. Özbəklər həmçinin küçə və məhəllələrdə qətlə, əsir tutmağa və talan-taraca başlayaraq, gizlənən

[533] Beytin farscası belədir
"Hənuz əgər befeşarənd xake-Məşhədra,
Səfine əz şəte-xun ta be Kərbəla bedəvəd".

hər bir adamı tapır, onlara işgəncə verdikdən sonra var-dövlətlərini əllərindən alır, sonra onlara da həmin şəhadət şərbətini içirirdilər. Müqəddəs rövzə qarət və tarac küləyinə getdi. Saysız-hesabsız qızıl və gümüş qəndillər, xalılar, boşqablar, çini qab-qacaq, uzun illər ərzində bütün islam ölkələrindən (əqsa) yığılmış kitabları olan feyzli sərkarın (sərkare-feyzasar) kitabxanası [o cümlədən], həzrət məsum imamların öz əlləri ilə şərif xətlərlə üzünü köçürdükləri Quran nüsxələri, Yaqut Mostəsa və başqa ustadlarımızın əlyazmaları, həmçinin başqa elmi və fars dilində yazılan saysız-hesabsız (ehsa) kitab çirkin və nadan özbəklərin əlinə keçdi. Onlar həmin qiymətli dürləri xırım-xırda saxsı qablar kimi ucuz qiymətə bir-birinə satdılar.

Xülasə, o tayfanın zülm atəşi üç günədək alovlandı. Gizli yerlərdə daldalanan az miqdar əskər, seyid və Məşhəd əhalisi gecələr gizləndikləri yerlərdən dağ və səhralara qaçıb özlərini təhlükəsiz yerlərə çatdırdılar. Onların bəziləri İraqa getdi, amma öz övladlarından ayrılmaq istəməyənlər ayrı-ayrı mahallara dağılışdılar. Adamların dağılışmalarından üç-dörd gün sonra özbəklər rəiyyətə rəhm edərək, yerdə qalanlara aman malı (male-əmani) təyin etdilər və özbək döyüşçülərinə qətl, qarət və kimisə əsir götürmək qadağan olundu.

Künc-bucaqlarda (zəvaye) gizlənən əhali bir-bir, iki-iki qayıtdılar və bir yerə toplaşdılar.

Qarət olunmalarına baxmayaraq, onların üzərinə aman malı vergisi də qoyulmuşdur, amma hamının o məbləği ödəmək imkanı yox idi. Buna görə də, özbəklər aman malı əvəzinə əhalinin xırda uşaqlarını özlərinə götürürdülər. Əsir alınan qız-qadının çoxunu Mavərənnəhrə aparıb, onları özlərinə qul etdilər. Əbdülmömin xan Məşhədə hakim təyin etdi və şəhərdən gedərkən mübarək günbəzin üstünə vaxtı ilə cənnətməkan şah tərəfindən çəkilən qızıl örtüyü götürmək meylinə düşdü və onu da qarət etdi. O, müqəddəs Məşhədi ələ keçirdikdən sonra Sərəxs tərəfə yollandı, şəhəri və qalanı mühasirəyə aldı, özbəklər hərbə başladılar. Sərəxs hakimi Mir İbn Hüseynxan özünün çoxdan bəri mülazimi olan cığatay tayfası ilə birlikdə qaladarlığa başladı. Tərəflərin arasında döyüş hər gün davam edirdi. Özbəklər bir neçə yürüş etdilərsə də, müvəffəq olmadılar. Həmin döyüşlərdə mötəbər özbək bahadırlarının böyük hissəsi qətl olundu, əsir

ötürüldü, qala əhlininsə igidlik və mərdanəliyi zahir oldu. Nəhayət Əbdülmömin xan Sərəxsin alına bilməməyindən kədərləndi və oranın işini bitirməyi gələn ilə saxladı, qala ayağından köçüb Bəlx yolunu üzə tutdu.

İbn Hüseynxan da o il öz yerində qaldı, amma Xorasanın əksər mahalları, xüsusən Cam, Xaf, Baxzər, Kusuyə, Ğuryan və Fusənc qızılbaşlar tərəfindən boşaldıldı və özbəklərin əlinə keçdi. Mahmud xan Nişapurdakı mülazimlərin köməyi ilə şəhəri boşaldıb Bəstama gəldi və həmin vilayət də asanlıqla özbəklərin oldu. Gəncəli xan Xafda bir neçə müddət Səlamə qalasını əlində saxlayıb, mərdanəliklər göstərsə də, amma ona kömək gəlmədiyi üçün, düşmənlərin qorxusundan İraqa getdi.

Xülasə, nəvvab əlahəzrət zilləllah şahın səhhəti Tehran şəhərində pisləşdiyi və hələ də sağalmadığı vaxt müqəddəs Məşhədin kədər doğurucu xəbəri orduya yetişdi və bu hadisə Cəm məqamlı həzrət şahın və bütün ordunun pərişanlığına səbəb oldu. Asimandan gələn bəlaların çarəsi səbr olduğundan səbr edən bütün əhali şahın şərafətli canının sağ-salamat olması xəbərini eşidib dualar etdi, həmin müqəddəs yerdə Əbdülmömin xandan və özbəklərdən baş verən əməl və ədəbsizliklərin mükafatı isə tezliklə onun və tayfasının cəzaları kimi verilmiş oldu.

Xülasə, müqəddəs şahın zəifliyi və halsızlığı azadlığı üçün o, Tehrandan gözəl və şərafətli [Şah] Əbdüləzim qəsəbəsinə təşrif gətirərək, həmin müqəddəs məkanda bir neçə gün dua və ziyarətlə məşğul oldu. Elə ki, Əbdülmömin xanın qayıdış xəbərinin düzgünlüyü məlum oldu, müzəffər ordu səltənət paytaxtı istiqamətinə yollandı və şah sağ-salamat Qəzvin darüssəltənəsinə gəlib çatdı.

BUDAQ XAN VƏ ƏMİRLƏRİN NURMƏHƏMMƏD XAN VƏ İMANSIZ ÖZBƏKLƏRLƏ HƏRBİNİN ZİKRİ, CAHAN YARADANININ TƏQDİRİ İLƏ MƏĞLUB OLMALARININ ZİKRİ

Üstüörtülü döyüşlərdən hikmətli sözlər yazan qələm sözlər seyrinin ziyasını Xorasanda baş vermiş hadisələrin təsvirinə yönəltdi. Budaq xan Çekəni onunla müttəfiq olan Əbu Müslim xan Çavuşlu, İmamqulu xan Qacar, Mahmud xan Sufioğlu Ustaclı və başqa əmirlərlə birlikdə şahzadə Sultan Həsəni ələ gətirib bir yerə

toplaşdılar. Onların istəyi müqəddəs Məşhədə gedərək Ümmət xanı oradan çıxarmaq, Xorasan vilayətini ələ və əmirülüməra olan Budaq xana vermək idi. O əsnada Əbdülmömin xan müqəddəs Məşhədə yürüş etdi və Ümmət xan özbəklər tərəfindən mühasirəyə alındı. Xan [müttəfiqlərin] yanına adam yollayaraq onların bir yerə toplanmalarını təqdir etdi və dedi:

"Bir halda ki, özbəklər bu vilayətə qədəm basmışlar, yaxşısı budur ki, gərək əvvəlcə biganə düşməni dəf edək, yoz, əgər onların qüdrətləri olarsa qoy müqəddəs Məşhədədək gəlsinlər ki, biz də onlarla birləşək və müxalifləri dəf etməklə məşğul olaq. Yox əgər müqavimət gücümüz olmazsa, Radkanın hüduduna qədər hərəkot cdərək, İraqdan kömək gəlib çatanadək bir neçə gün o inadkarların başlarını qarışdıraq. Əgər belə etsək, ola bilər ki, həmin şərafətli məkan düşmən şərindən nicat tapsın".

Onların Əbdülmömin xana tab gətirmək qüvvətləri olmasa da, Məşhədi tutmaq məqsədi ilə yerlərindən tərpəndilər.

Bu hadisələr baş verən vaxt Şeyban ibn Cuci ibn Çingiz xan nəslindən olan Mərv, Nisa, Əbivərd və Bağdad valisi Nurməhəmməd xan ibn Əbdülməhəmməd xan, ibn Dinməhəmmədxan ibn Uluşxan Nisa, Bağdad və ətraf yerlərdə yaşayan imansız özbəklərdən və sayinxani türkmanlarından altı-yeddi yüz minədək adam topladı, Xəbuşan yaxınlığınadək gəlib çatdı. Onunla Əbdülmömin xan arasında düşmənçilik yaranmışdı və buna görə də o, xandan çəkinməkdəydi, qorxurdu ki, hücuma keçib onun [da] vilayətini tuta bilər.

Nurməhəmməd xanın gəlişini eşidən Budaq xan və əmirlər Nurməhəmmədin Əbdülməhəmməd xana qoşula bilmək ehtimalını düşündülər. Əgər elə olardısa, həmin döyüşkən ləşkərlə döyüşmək çox çətin olardı. Buna görə də, onların məqsədləri o iki özbək ləşkərinin birləşməsini qabaqlayıb, Nurməhəmməd xanın ləşkərini pozmaq idi. Belə düşündülər ki, əgər onu əzə bilsələr və həmin birləşməyə maneçilik törətsələr, Əbdülmömin xan da zəifləmiş olar. Belə olan halda qələbə əldə olunmaz, Əbdülmömin xan qızılbaş ləşkərindən qorxuya düşər, əvvəlcədən öz işini bilib Məşhədin mühasirəsindən əl çəkər.

Buna görə də, döyüşkən ləşkərlə xan ilə hərb etməyə yollandılar. Nurməhəmməd xan Budaq xanın və əmirlərin yanına bir adam yollayıb dedi:

"Mənim qızılbaş ləşkəri ilə heç bir işim yoxdur. Əksinə, bu yürüşümün məqsədi irsi mülkünüzü qorumaq və Əbdülmömin xanın şərini dəf etməkdir".

Budaq xan və əmirlər Nurməhəmməd xanın sözlərinin kələk və məkr olduğunu düşünərək, qürur üzündən deyilənləri saya almadılar, onun qarşısında döyüş səfi bəzədilər. Qarşı tərəfdən də özbəklər o qürurlu adamların önündə döyüş hazırlığına başladılar və hər iki tərəf cəng alətlərinə əl atdılar. Özbək bahadırları və qızılbaş igidləri bir-birlərinə qarışdılar. Qızılbaş çərxçiləri qorxu bilmədən düşmənə tərəf at sürdülər, onların çərxçi qarovulunu ön hissədən götürüb özlərini səfə çatdırdılar. Nurməhəmməd xanın qoşunu döyüşə başladı və qızılbaş əskərlərinin çoxu ürəktikən oxla yaralandı. Özbək döyüşçüləri bir yerə toplaşıb, əksəriyyəti fəth və zəfər xəyalı ilə pərakəndə düşən qızılbaş səfinə hücum etdilər. Öz vəlinemətlərinin (yəni Allah-təalanın – Ş.F.) razılığına müxalif olmuş qızılbaş ləşkərinin hərəkəti bəyənilmədiyindən qüvvələrinin çox olmasına baxmayaraq, məğlubiyyətə uğradılar, fərar yolunu önə tutdular, Nurməhəmməd xan onlara qalib gəldi. Qızılbaşların işə yararlı altı-yeddi yüz cavanı o meydanda tələf edilib ədəm yoluna tərəf yollandı. Nurməhəmməd xan qızılbaşların məğlubiyyətindən sonra onları təqib etməkdən əl çəkdi və daha irəli getmədi. Sağlam və yüyrək atlara minmiş Budaq xan və əmirlər həmin mərəkədən qurtulub, pərişan halda hərə öz ülkasına qayıtdı və qalalarının möhkəmləndirilməsinə başladı. Budaq xan əlahəzrət zillləlah şahın xidmətçilərinə yalvarışla dolu bir məktub yazıb onu öz böyük oğlu Hüseynəli Sultanla ali dərgaha yolladı, pərişançılığını bildirərək təqsirinin əfv olunmasını xahiş etdi.

Nurməhəmməd xan isə Əbdülmömin xana fəth müjdəsi yollayıb, öz xidmət minnətini onun boynuna qoydu, dövlət paytaxtına qayıtdı. Baxmayaraq ki, öbdülmömin xan həmin il onun ülkasına hücuma keçmədi, amma Məşhəd və Nişapurun fəthindən sonra tamahını onun da vilayətinə saldı. Az bir vaxt ərzində Mərv vilayətini Abdulla xan, Nisa, Əbivərd və başqa mahalları isə Əbdtilmömin xan Nurməhəmməd xanın əlindən çıxarıb onları öz irsi mülklərindən qovdular ki, bu hadisənin şərhi gələcək hadisələrin təsviri zamanı veriləcəkdir, inşallah.

ALLAHIN TƏQDİRİ İLƏ HƏMİN İL BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏR

Bu il, ötən ildə rum qoşununun hücumu nəticəsində Qarabağ vilayətindən ayrılıb öz el və oymaqları ilə birlikdə Arasbara gələn Məhəmməd xan Ziyadoğlu Qacar və Qarabağ əmirləri Gəncə qalasını fəth etmək xəyalı ilə qacar döyüşçüləri, el-oymaqları və Qarabağ türkmanları ilə birlikdə Arasbardan Qarabağa gəldilər, Gəncə qalasının yaxınlığına çatıb oranı mühasirəyə aldılar, hər tayfaya top ləvazimatı verib, qalanı tutmaq hazırlığına başladılar. Onların məqsədləri belə idi: Rumilərlə sülh danışıqları, yuxarıda yazıldığı kimi, Gəncə və Qarabağın fəthindən əvvəl başladığı üçün və rumilər həmin danışıqlardan sonra Qarabağa qoşun çəkdiklərindən, şahzadə və qızılbaş elçiləri Ruma çatan vaxta qədər gərək Gəncə qalasını rumilərdən alıb viran etsinlər və sülh sazişi bağlandığı vaxt artıq Qarabağ qızılbaşların əlinə keçirilmiş olsun. Amma, qarşı tərəfdən o qala mühafizləri Təbriz hakimi Cəfər pasaya təcili xəbər yollayıb onu vəziyyətdən xəbərdar etdilər. O, şaha elçi göndərib belə ərz etdi: "Sülh şərtlərinin hələ tam olaraq möhkəmlənmədiyi bir vaxtda, sizin əsgərlərinizdən belə yolverilməz hərəkətlərin baş verməsi yolverilməz bir əməldir, buna görə də, bu gün Ale-Osman döyüşçülərinin əllərində olan məmləkətlərə toxunulmamalıdır."

Əlahəzrət zilləllah şah o zaman sülh şərtlərinin möhkəmlənməsini dövlət qəsrinin əsası saydığından qorxurdu ki, şahzadənin Rum sultanının yanına çatacağı bir vaxtda qızılbaşların yersiz hərəkətləri sülh işinin pozulmasına səbəb ola bilər. Buna görə də, mühasirəni tərk edib Qarabağdan geri çəkilmələri xüsusunda Məhəmməd xanın və qacar əmirlərinin adına hümayun hökm göndərildi.

O gözəl vilayət öz havasının lətafəti, otunun bolluğu, gül-çiçəyinin çoxluğu, köçərilərin (səhraneşinan) yoxluğu və yaylaq-qışlaqlarının gözəlliyi ilə məşhur olduğundan qacar tayfasına xas el və oymaqlar artıq neçə il idi ki, həmin təmiz vilayətdə məskən salaraq, orada çoxlu əmlaka və mənfəətli bağlara sahiblənmişdilər. Onlar həmin torpaqdan asanlıqla əl çəkmək istəmir, öz qədim vətənlərindən əlaqəni üzmək barədə düşünmürdülər və buna görə də şahın hökmündən narazı qaldılar, mühasirədən əl götürmədilər. Bu xəbər sülh işinin banisi və səbəbkarı olan və o vaxt Ərzrum

sərhədində dayanan Fərhad paşaya çatdıqda, onun tərəfindən danışıq aparmaq üçün elçi göndərildi. Əlahəzrət şahın adamları qacar elinin etibarlı adamı olan "Çolaq" adı ilə tanınan Şahverdi bəyi, Məhəmməd xan Ziyadoğlu və o tayfa ağsaqqalarının yanına yollayıb dedilər: "Sizin atalarınız öz sədaqətlərini bizim xanədana izhar etdiklərindən, bizim ata-babalarımızın ali şəfqətinə nail olmuşlar və biz Qarabağ mülkünü onlara vermişik. Hal-hazırda bizim məsləhətimiz belədir ki, mülk üstündə münaqişə etməyək. Əgər onlar bu dövlətlə əlbirdirlərsə və bizim onlardan razı qalmağımızı istəyirlərsə, dava-dalaşdan əl çəkib bizim yanımıza gəlsinlər ki, onlara Qarabağın əvəzinə başqa torpaqlar verək. Qarabağ mülkü isə, əlbəttə, heç yana gedən deyil. Əgər Allah istəsə yenidən asanlıqla ələ gələr, yox əgər Allah istəməsə, fələklə döyüşmək olmaz. Ümidvarıq ki, İlahinin razılığı ilə yaxın günlərdə haqq iş öz yerini tutacaqdır".

Şahverdi bəy Çolaq bu təklifin əmirlərin narazılığına səbəb olacağından ehtiyat edib, qorxudan özünü qalaya çatdırdı, rumiləri məsələdən xəbərdar etdi, qaladan Məhəmməd xana və əmirlərə məktub yolladı. Məhəmməd xan isə dövlətxah bir sufi olduğundan şahın istəyindən agah olub, qala ayağından qalxdı. Onun əmirləri və ləşkərləri isə pərakəndə oldular. Əksəriyyəti qazaqlar, şəmsəddinli və qaramanlı əmirləri olan döyüşçülər ondan üz döndərib, iki dəstəyə ayrıldılar və öz yer və məskənlərinə doğru getdilər. Qalan hissəsi ilə Arasbar tərəfə qayıtdı, sədaqətli olan başqa el və oymaqlar isə şahın mübarək istəyini mülk və maldan üstün sayıb, o vilayətdən çıxdılar, məhrusə məmləkətə gəldilər, amma sədaqətli olmayanlar isə bu dövlətdən üz çevirib məzəmmətə və alçaqlığa düçar oldular, rumilərin rəiyyətinə çevrildilər. Nəticədə isə, o vilayət sədaqətli adamların məhək daşına çevrildi.

Şer

Araya gəlsə smaq imtaham çox xoşdur,
Üzü qoy qarə ola söyləsə hər kim ki, yalan.[534]

[534] Şerin farscası:
Xoş bovəd gər məhəke-təcrobe ayəd be miyan
Ta siyəhruy şəvəd hər ke dər u ğəşş başəd.

Məhəmməd xan iki tirəli o adamların fitnəsindən çəkinib bu tərəfə gəlmədi, Kür çayını keçib, Aleksandr xanın təklifini qəbul edərək onun yanına getdi. Aleksandr xan isə mürüvvətsizlik edib xanı tutaraq rumilərə verdi, onu İstanbula apardılar. O, bir neçə müddət orada məhbus oldu. Əsirləri azad etmək barədəki sülh şərtinə əməl edərək Sultan Murad onu azad etdi. Məhəmməd xan oradan Bağdada gəldi, sonra isə Şüştərə, Mehdiqulu xan Şamlının yanına getdi. Şüştərdən çıxıb ali dərgaha yetişdi, Ərdəbil darül-irşadında sakin oldu. Belə söyləyirlər ki, Məhəmməd xan Ərdəbildə həmişə [belə] deyərdi: "Gəncə yenə də bu yaxınlarda övliyalar sultanının müqəddəs ruhunun köməyi ilə bu dövlətin (səfəvilərin - Ş.F.) əlinə keçəcək və oranın hökuməti (hakimliyi - Ş.F.) şah tərəfindən mənə veriləcəkdir."

O, sədaqətli adam əlahəzrət zillallah şaha sadiq bir şəxs olduğundan, Gəncə vilayətinin rumiyyənin əlində qalmasından iyirmi il keçəndən sonra xanın dedikləri həyata keçdi və talenin qüvvəti və bəxtin köməyi ilə min on dördüncü ildə (miladi 1605/06) ki, həmin ilin hadisələrinin şərhi vaxtı bu barədə məlumat veriləcəkdir, həmin vilayət əbədi dövlət övliyalarının (səfəvilərin - Ş.F.) əlinə keçdi, müxtəlif əzab-əziyyət və təşviş keçirmiş Məhəmməd xan isə öz sədaqəti üzündən yenidən o vilayətin başçısı olmaqla şərəfləndi, zillət nöqtəsindən izzət ucalığına yetişdi. Öz sədaqətlərini zahirə çıxartmış olan hər tayfa yenidən Gəncədə öz işrət bayraqlarını ucaltdı, amma o vaxtlarda müxalifət ahəngini çalaraq İraqa gəlməyən və vətənlərini tərk edən bəzi sədaqətsiz kəsləri şah məcburən öz diyarlarından kənarlaşdırdı, onları Mazandarana köçürtdü ki, həm oranın abadlığı ilə məşğul olsunlar, həm də nifaq hissindən təmizlənib öz əməllərinin cəzasını çəksinlər.

Qoy bu ifadə məşhur sultanların karnaməsi və dövran xaqanlarının dəsturül-əməli olsun. Bir halda ki, bu haqda öz məqamında danışılacaqdır, buna görə də bu ilin hadisələrinin bəhsində ondan danışmaq münasib deyildir. Amma buna baxmayaraq, əhvalatların yazılışı əsnasında sözlər düzən qələm ixtiyarsız olaraq təkrarçılıq nöqsanı (şayebe) barədə düşünməyərək o baradə yazmağa başladı.

Bu ildə baş vermiş hadisələrdən biri də Məhəmmədşərif xan Cavuşlunun fərar etməsidir. O, cənnətməkan şahın tirü kaman qorçisi olmuş Xəlil bəy ibn Hüseyn bəyin oğlu və Məsum bəy

Səfəvinin qız nəvəsidir. Məhəmmədşərif şahın hümayun xidmətində özünün irsi mənsəbini daşımaqla izzətli və möhtərəm bir şəxs olmuşdu. Cəlal ordusu (qızılbaşlar - Ş.F.) Xorasana yürüş edərkən Mürşidqulu xan ona Qəzvin əyalətinin xanı olacağını vəd etmişdisə də, həmin mənsəbi öz əmisi oğlu Məhəmməd Sultan Kutvalıx verdi. O da, məhz Mürşidqulu xanın razılığı, özününsə boş düşüncəsinə, vəzifəpərəstliyinə qapılıb əlahəzrətə xidməti tərk etdi, irsi mülkündən əl çəkərək hakim və xan oldu. Hümayun ordunun qayıdışına kimi o, Qəzvin hakimi idi. Bu ilin əvvəllərində Məhəmmədşərif xan, iltifatsızlıq etməsinə baxmayaraq, xain olduğu üçün, şahın razılığını almadan xidməti tərk etdi, amma bu əməlindən qorxub özünün bir neçə nəfər yaxın və etibarlı adamıyla birlikdə Qəzvindən qaçaraq Gilana getdi. İsmayılqulu Sultan Şamlının qardaşı Mürşidqulu Sultan da, İsmayılqulunun qardaşı olduğuna və Əbu Talib Mirzənin vaxtında müxalifət etdiyinə görə qayğılanıb fərar etdi və Gilana getdi. Əlahəzrət zilləllah şahdan qorxan bir neçə başqa adam da bu əməli etdi. Gilan valisi Xan Əhməd Gilanda yer verərək onlarla çox yaxşı davrandı. Nəvvab şah buna son qoymaqdan ötrü onları Xan Əhməddən geri istədi. O, bunu etməyib onların əfvi xüsusunda xahişdə oldu. Əlahəzrət isə sorğu-sual vaxtı olmadığından şahanə etinasızlıqla həmin il onların işi ilə məşğul olmadı. Bu il isə, İsfahan hakiminin qulamı Fərhad ağa cəzalandırıldı. O, cənnətməkan şahın və nəvvab Sultan Həmzə Mirzənin bir neçə illik tərbiyə haqqını nəzərə almayaraq, İsfahanın hakimi olmaq firki ilə Mürşid-qulu xan xidmətini seçdi və cəzalandırıldı. Bütün İsfahan işləri və darugəliyi mərhum nəvvab şahzadənin qulamı olan və əlahəzrətin ehtiramı ilə şərəflənən Yolu bəyə verildi.

FARS, KİRMAN VƏ YƏZDDƏ QIZILBAŞ ƏMİRLƏRİ ARASINDA BAŞ VERƏN ƏHVALATLAR VƏ MÜHARİBƏLƏR BARƏDƏ SÖZ

Bədii dilli qələm bundan əvvəl baş vermiş gizli hekayətləri saf-çürük edərək belə yazdı: Fars vilayətinin bir neçə ağası həmin vilayətin əmirülüməra sı olan Yaqub xanla düşmənçilik edib, izn olmadan ordudan fərar etmişdi. Yəzd yaxınlığında Bəktaş xan Əfşar onları ələ gətirib, Yəzdin daruğəsi olan və oranın qalasını qoruyan

tərkeş qərçibaşısı Əliqulu bəy Şamlıya verdi, bu hadisəni özünün dövlətxahlığı adlandırdı.

Amma, hiyləgər və özündən razı olduğundan, belə hərəkət etməklə həmin zülqədər ağaları vasitəsiylə Fars vilayətini özünə ram etmək və orada ixtiyar sahibi olmaq fikrində idi. Qaynatası və fitnəkar bir adam olan mirmiranın təhriki ilə o, bütün Fars, Kirman və Yəzddə özünün iqtidar bayrağını dalğalandırmaq və həmin yerlərdə hökmran olmaq istəyirdi. Buna görə də, qüvvətli padşah dövlətinin başçıları ilə kifayət qədər hesablaşmırdı. Onların hər ikisi qəflət və qürur badəsi ilə məst olduqlarından, bu işin təhlükəli bir iş olduğu barədə düşünmürdü. Yaqub xan onları təqib edərək Yəzdə gəlib çatdıqda onların hərəkətlərində kin və ziddiyyət olduğunu öyrəndi və tutulan ağaları geri qaytarmaq haqda danışığa başladı, elə o dəm Yəzddən çıxaraq Şiraz yolunu önə tutdu. Bəktaş xan onun ardınca bir dəstə adam yolladısa da, onlar heç onun tozuna belə çata bilmədilər. Yaqub xan Şiraza çatan kimi Bəktaş xana imdad edən zülqədər tayfasının fəsadlı adamlarına qarşı çıxdı, istədi ki, Bəktaş xanın şan-şöhrətini aşağı salsın, onun iqtitar şöləsini tədbir zülalı ilə elə söndürsün ki, o, bir daha zülqədərlərdən kömək ala bilməsin. Şah tərəfindən ona Fars vilayətinin tənzimlənməsi üçün, özünün məsləhət bildiyi işləri icra etmək tapşırıldığından, əlahəzrət hümayun padşahın təhrikini Bəktaş xanın əmisi Abbas Sultan Əfşara çatdırdı və Kirmandakı əfşar tayfasına elan etdi ki, Abbas Sultanın ətrafına yığışsınlar, çünki nəvvab şah Bəktaş xanı düz işlərdən sapdığına və özbaşına hərəkətlərinə görə həmin vilayəti Abbas Sultana vermişdir. Həmişə bu arzuda olan Abbas Sultan bu təklifi bərk şadyanalıqla qarşıladı, həmin əyalət və mülklərin idarə olunması tədbirlərini hazırladı və özünün zəbt əlini divan mallarına tərəf uzatdı. Nəqdi faydasız yerə nisyə ilə əvəz etməyin ziyan olduğunu düşünən o vilayətin bütün döyüşçüləri ənamlar almaq və münasib mənsəblərə çatmaq ümüdiylə onun başına toplaşdılar, Abbas xan da vilayətin idarə olunması ilə məşğul olmağa başladı. Bu xəbər Yəzdə çatdıqda Bəktaş xanın canına vəlvələ düşdü, Yəzddə onunla birgə olan ağsaqqallara [daha] heç bir etibarı qalmadı.

Amma, atasının orduda olduğunu və bu məsələ barədə ondan səs-soraq gəlmədiyini görən Bəktaş xan bütün bunların Yaqub xan tərəfindən uydurulduğunu başa düşdü. Məsələnin həqiqətini əfşar ağsaqqalarına söylədi, yanında olan beş yüz adamı

ilə birlikdə Yəzddən Kirmana yollandı. Onun gəlişini eşidən Abbas Sultan həmin vilayətin əfşar tör-töküntüsünü, sərdarlarını, ərəb və həşəmini topladı, üç min süvari ilə Bəktaş xanla döyüşə hazırlaşdı. Bəktaş xan bundan xəbər tutdu, amma əfşar tayfasından və Kirman camaatından heç kim onun yanına gəlmədi. O tayfanın başbilənləri və Bəktaşın yaxşılığını istəyən bəzi şəxslər ona xatırlatdılar: "Abbas Sultanın təbiətinə xəsislik olduqca doğmadır və elə bir alış-verişi də yoxdur, bir halda ki, əfşar camaatı illər boyu bu tayfanın duz-çörəyini yeməkdədir, fəqət zərurət üzündən onun başına toplaşıbdır. Hələ məlum da deyil ki, onlar onun xatirinə xanla mübarizə etməyə meylli olsunlar. Əgər dərhal yola düşməsək, bizim yubanmağımız qorxaqlığımıza, Abbas Sultanın adamlarınınsa qorxmazlığına səbəb olar."

Bəktaş xan şücaətli, igid və himmət sahibi olan bir ada idi. O, rəy sahibi olan ağıllı şəxslərin məsləhətinə əməl edərək, döyüşə hazırlaşdı, şəhərə çatanadək heç yerdə dayanmadı. Abbas Sultan da qarşı tərəfdən yaraq-yasaqlı qoşunla şəhərdən çıxdı. Onun sağ-solunda çoxlu tüfəngçi vardı. Şəhərin xaricindəki qoşunu şəhər və qalanı qorumağa başladı. Bəktaş xan onun qarşısına çıxdı və tərəflər bir-birinə yaxınlaşdılar. Xan öz təbəə və camaatı ilə atını onun üstünə sürdü və cəsarətli bir həmlə ilə Kirman qoşununun səfini dağıtdı. Ağıllı adamların fikirləşdiyi kimi, Abbas Sultanın təbəələri cəngdə süstlük göstərərək, sədəmə almadan arxalarını döyüş meydanına çevirib fərar vadisinə üz tutdular. Bu vəziyyəti müşahidə edən Abbas Sultan fərardan, qalaya sığınmaqdan və müdafiə olunmaqdan başqa heç bir çarə görmədi, oğlanları və etibarlı adamları ilə birgə qalaya getdi, Bəktaş xan isə müzəffər və şad halda şəhərə gəlib qalatutma silahlan tədarükünə başladı. O vaxtlarda münasib məsləhətləri olan, Süleyman Peyğəmbərin vəziri timsallı cənab Hatəm bəy Məlik Bəhram oğlu (məşhur Hatəm bəy Ordubadi - Ş.F.) Bəktaş xanın vəziri idi. O, həmin sülalənin duz-çörəyini unutmayıb belə məsləhət gördü: "Qoy əmi və qardaşoğlu müxvlifətə qayıtmayaraq biri digərinə qarşı inadkarlıq etməsin. Hatəm bəy Bəktaş xandan icazə alıb qalaya getdi, Abbas Sultanı şirin dil və ürəkaçan nəsihətlərlə sülhə rəğbətləndirdi.Abbas Sultan bu fikirlə razılaşdı, amma belə bir şərt qoydu:

"Qoy Bəktaş xan and içsin ki, mənə, oğlanlarıma və bizimlə yoldaşlıq edən başqa adamlara qarşı qəddarlıq

məqamında olmayacaq, pislik barədə düşünməyəcək, bundan əvvəl əlimdə olan ülka və tiyuluma dəyməyib onları özümdə saxlayacaq.

Bəktaş xanın öz əmisi Abbas Sultanı və onun oğlanlarını öldürməsi:

Bəktaş xan əmisinin şərtlərini yalan dolu imanla qəbul etdi. Onun zəif əhd-peymanına arxalanan Abbas Sultan, oğlanları və başqa adamları ilə belə razılaşmadan sonra qaladan çıxdılar. Amma, Bəktaş xan əhd-peymana əməl etməyərək, elə həmin bir neçə gün ərzində əmisi və əmioğlanlarını tutub həbs etdi, bunula kifayətlənməyib onları cəzalandırmaq qərarına gəldi, atası yerində olan əmisini və əmioğlanlarını vəzirin və həmin sülalənin başqa üzvlərinin xəbəri olmadan aradan götürdü.Etdiyi bu əməlin nəticəsi elə Bəktaş xanın özü üçün də yaxşılıqla nəticələnmədi, tezliklə qəddar zəmanə öz idbar tozunu onun sifətinə çırpdı, nakamlıq kasasını həlak şərbəti ilə doldurub üstünə tökdü.

Xülasə, Bəktaş xan Kirman işlərindən xatircam oldu və yenə də Yezdə qayıtdı. Amma Yaqub xan Fars vilayətində öz şövkət və iqtidar bayrağını qaldırıb, fitnəkar zülqədərləri həbs etməyə başladı, ona xilaf olan hər bir adamı tutub qətlə yetirdi. Ağaların Yəzddəki evlərini zaminə götürüb onların əmlak və ləvazimatlarını zəbt etdi. Vəli Xəlifə Şamlının və İsmayılqulu xanın böyükqardaşı Şahverdi Xəlifə, Mürşidqulu xanın vəkilliyi dövründə, Fars vilayətinin İc və Nəyərz (?) adlı yerlərinin hakimi idi və iki-üç yüz şamlı tayfasının üzvü onun qədim mülazimləri kimi həmin yerlərdə yaşayırdılar. Şahın o tayfaya qarşı pis münasibətdə olduğunu billən Yaqub xan onu həmin vilayət hakimliyindən kənarlaşdırdı. Şahverdi Xəlifə onunla razılaşmadı. Yaqub xan öz fikri, yaxud onların hər hansı birinin fikrinə əsaslanıb[535], şikar bəhanəsi ilə Şirazdan çıxaraq qəfildən ona hücum etdi. Şahverdi Xəlifə müqavimət edə bilməyib ələ keçdi. Yaqub xan onun və bir neçə övladının, qohum-əqrabasının qətlinə başlayaraq, qarətkarlıqdan bir dəqiqə də əl çəkmədi, yerdə qalan başqa adamlarını da həmin vilayətdən qovdu. O mərəkədən xilas olan Şahverdi Xəlifənin böyük oğlu Hüseyn bəy bir neçə adamla əliboş və qarət olunmuş bir halda Yəzdə gəldi.

[535] İfadənin ərəbcəsi:
"bi işərəti həmyunin alə eyyi-t-təqdireyn".

Bəktaş xan onlara ehtiram edib, hamısını öz himayəsi altına götürdü, amma Yaqub xanla olan müxalifətindən əl çəkmədi. Onun günü Yaqub xanı cəzalandırmaq fikri ilə keçirdi. O, tərkeş qorçisi Əliqulu bəyin əlində olan və qalada məhbus vəziyyətdə saxlanılan zülqədər ağalarını da hiylə yolu ilə özünə tabe etdi. Habelə, Həmzə bəy Camillini (?) öz tərbiyəsi altına götürüb Şiraz əyalətini ona verəcəyini bildirdi, Həmzə bəyin adından ali saraya bir məktub da yazdı, rəsmi-tərcüman[536] vergisi kimi böyük məbləğ pul boyun oldu, məktubda bu sözləri yazdı: "Yaqub xanla zülqədər tayfası arasında fitnə-fəsad olduğu üçün o tayfa ağsaqqalları onunla yola getmirlər və onun hakimliyini tanımırlar. Əgər padşahın inayəti olarsa, Yaqub xanı Fars hakimliyindən çıxarıb, həmin vəzifəni dərgah qulamlarından birinə verə bibr".

Bəktaş xan beləliklə istəyirdi ki, belə bir yolla arxayınlaşsın və o vilayətin ixtiyar cilovu özünün iqtidar əlində olsun. Baxmayaraq ki, xeyirxah adamlar və məsləhətçilər, xüsusilə vəziri Hatəm bəy onu bu alçaq işdən daşındırmaq istəyir və belə deyirdilər: "Əfşar tayfasından olan cənab xan padşahın hökmü ilə Kirman hakimidir, Yəzd işlərinin və zülqədər tayfasının sizə heç bir dəxli yoxdur. Belə olan halda münasibdir ki, Yəzddən Kirmana gedərək o vilayətin işləri ilə məşğul olub, padşahın və dövlət başçılarının xoşlamadıqları belə alçaq işlərlə məşğul olmasın". Orduda olan atası Vəlixan da tez-tez onun yanına adam göndərib ona həmin hərəkətləri qadağan etməkdəydi.

Amma, sədaqətli adam olduğundan Bəktaş xan heç kimin sözünə qulaq asmadı. Onun bütün hərəkət və əməlləri tüğyan və üsyandan xəbər verirdi. Nəhayət, puç bir xəyala düşüb bu qənaətə gəldi ki, əgər ali divan onun istəyinə özü istəyən kimi razılıq verməzsə, öz bildiyi kimi hərəkət edəcək, bütün Fars və Kirman vilayətini özünə götürəcəkdir.

Bəktaş xan şərab az içirdisə də, tiryəkə adətkərdə olmuşdu. Amma paxıllıq və qürur badəsi ilə elə sərməst idi ki, müstəqillik və məğrurluqdan başqa bir söz dilinə gətirmirdi. O hərdən bir tiryəkin nəşəsi başlayarkən belə deyirdi: "Mən Əmir Məhəmməd Müzəffərdən əskik deyiləm ki, o, şəhnəlikdən səltənət və padşahlığa qədər ucaldı". Bəktaş xan bu qəbildən hədyanlar danışır, onun dediklərini də sədaqətsiz mirmiran təsdiq edirdi.

[536] Rəsmi-tərcüman- cəzadan qurtulmaq vergisi - Ş.F.

Xülasə, Şiraz ağaları onun öhdəsinə qoydular ki, Fars vilayətinə getsin və hər oymaq öz adamlarını toplasın. Çünki, Yaqub xanın istilasından cana doyan o vilayət əhalisi ondan qorxur və Bəktaş xana deyirdilər ki, qoy onu öz yanına çağırsın və o vilayətdən qovsun.

Bəktaş xan onların əməldən uzaq sözlərinə inanıb Fars əyalətini Həmzə bəy Camilliyə vəd etdi, onu ağalar və yüz əlli nəfər əfşar qazisi ilə birlikdə Fars tərəfə yolladı, özü isə Yəzd qalasını Əliqulu bəy Şamlıdan almaq və özünə tabe etmək fikrinə düşdü. Əliqulu bəy ona itaətdən boyun qaçırıb qalanı zəbt etdi. Bəktaş xan qalanı tutmağa israr edərək, bir dəstə adama oranı mühasirəyə almaq əmrini verdi. Onların aralarında hər gün dava getməkdəydi. Nəhayət bu əhvalat padşahın qulağına çatdı, qərara alındı ki, hümayun məiyyət həmin qarışıqlığın dəf olunmasından ötrü Farsa tərəfə yollansın. Onlar Qəzvin darüssəltənəsindən çıxıb İsfahan səmtinə hərəkətə başladılar. Kaşan ölkəsi (xotte) müzəffər ordunun iqamət yeri olan vaxt Bəktaş xanın öldürülməsi xəbəri gəlib orduya yetişdi və onlar cəng fikir-xəyalından rahat oldular. Həmin məsələ belə baş vermişdi: Elə ki, zülqədər ağaları Fars vilayətinə qədəm atdılar, Yaqub xan ömrünü [bir qədər] uzadan dövlətin qüvvəti ilə həmin vilayəti elə zəbt etdi ki zülqədər tayfaları qorxuya düşdülər və heç kim onun əleyhinə söz deməyi heç xəyal səhifəsinə belə gətirə bilmədi. Həmzə bəy ayrı-ayrı hakimlərin hakimiyyəti vaxtı onun və Camillu tayfasının ixtiyarındakı Şulestana getdi və əfşar tayfasının xahişi ilə əlini oranın ətraf yerlərinə uzatdı. O, əvvəlcə Sefid qalasını tutaraq onu Ümmət ağa adlı bir etibarla adama verdi, bu niyyətlə ki, əgər onlara bir hadisə üz verərsə ehtiyac üzündən özlərini həmin qalaya salıb ruzigar bəlalarından qorunsunlar. Qalanı möhkəmlədəndən sonra bir neçə gün orada dayandısa də zülqədər tayfasının üzvləri onun başına toplaşmadılar, beləliklə də, onların istəkləri mətləbləri ilə düz gəlmədi. Onların gəlişindən xəbər tutan Yaqub xan bir dəstə dövlətxah adamı ilə onların üzərinə yürüşə keçdi. Əfşar ağaları özlərinə qarşı onların pis niyyətini müşahidə edərək geri dönməyə əzm etdilər. Yaqub xanın bir dəstə zülqədər adamı gedib onlara çataraq, cəng etməyə başladı, əfşarların adamlarının əksəriyyəti öldürüldü, nicat tapanlarsa Yəzdə gəlib Bəktaş xanı [məsələdən] agah etdilər. Xanda bir qədər xiffət və etibarsızlıq hissi baş qaldırdı.

Xülasə, əfşarlara üz verənlərdən və Yaqub xanın gəlişindən xəbər tutan Həmzə bəy, İshaq Xəlifənin oğlu İsmayıl Xəlifə və yoldaşları yanlarına ürəkləri istəyən qədər adam toplaşmadığı və Yaqub xana müqavimət edə bilməyəcəklərini bildiklərindən, qalaya sığınmağı və qaladarlıqla məşğul olmağı qərara alıb qala ayağına çatdılar. Həmzə bəyin etibarlı adamı olan Ümmət ağa Kutval zəmanəyə uyğun olaraq qala qapılarını bəxt və iqbal qapıları kimi onların üzünə bağladı, gəlmələrinə imkan vermədi.

Yaqub xanın Yəzdi tutmağa gəlməsi:

Həmzə bəy və yoldaşları qalaya sığınmaqdan məyus olub, başqa bir çarə axtarmağa başladılar, çünki qəfil bəla kimi gələn Yaqub xan onların əl-ayaq tərpətmələrinə imkan vermədi. Həmzə bəy və yoldaşları Kuh-Giluyə tərəfə getdilər. Yaqub xan bir adam göndərib onları tələb etdi. Qaçanları himayə edə bilməyən Kuh-Giluyə hakimi onları xana verməli oldu, camilli camaatı pərən-pərən düşdü. Yaqub xanın adamlarına verilən Həmzə bəy və yoldaşlarının hamısı qətl olundu. Öz düşmənlərini bacardığı qədər ələ keçirən Yaqub xan onların hamısını öldürdü, şübhələndiyi hər bir ona zidd olan adamı aradan götürdü. O, düşmənlərindən arxayınlaşdıqdan sonra bütün Fars məmləkətlərində hökm və fərman sahibi oldu, Ümmət ağa qalanı Yaqub xanın ixtiyarına verdi. O bu hadisələrin baş verməsindən sonra Bəktaş xanı dəf etmək istəyi ilə Fars vilayətinin on iki min nəfər əmir, əyan və başqa adamlarını toplayıb, Yəzdə tərəf hərəkətə başladı.

Hümayun cülusdan (Şah Abbasın cülusundan - Ş.F.) əvvəl Əbrquh hakimi olmuş Qulu bəy Qorçibaşının oğlu Yusifxana cülus günlərində qorçibaşı vəzifəsi verildi, lakin sonra üsyankar əmirlərlə birlikdə qalada məhbus oldusa da, Bəktaş xanın atası Vəli xanın xahişi ilə həbsdən nicat tapdı, hümayun məiyyət Xorasanda olan vaxt Yəzdə gəldi, Əbrquhda olan özünün və atasının sabiq mülazimləri onun başına toplaşdılar, Bəktaş xana imdad etmək məqsədiylə Əbrquh qalasını zəbt edərək, vilayətin hakimi oldu. Amma, Bəktaş xanın özünü yüksək tutmaq əzəməti və iqtidarı heç də onun ürəyindən deyildi. Bəktaş xan isə Yusif xanla qohumluq əxlaqəsinə və atası Qulu bəydən tərbiyə aldığına görə onunla dinc münasibətdə idi. Yaqub xan Əbrquha yaxınlaşıb, onun yanına adam yolladı və bildirdi: "Bəktaş xan dövlətin ziddinə olduğu üçün onu

dəf etmək lazımdır. Sədaqət yolu budur ki, oymaq təşəbbüskeşliyinə qapılmayaraq bizim əskərlərimizə qoşulasınız, inşaallah. Əgər birlikdə gedib Bəktaş xanın səfini dəf etsək Kirman hakimliyi o əziz şəxsə (Yusif xana - Ş.F.) veriləcəkdir".

Yusif xan Kirman əyaləti xəbərini muştuluq kimi qarşılayıb öz qoşun – ləşkəri ilə Yaqub xana birləşdi, ona itaətini bildirdi. Yaqub xan əfşar tayfa böyüyünün oğlu olan Yusif xanla hazırlaşıb, böyük qoşun - ləşkərlə Yəzdə rəvan oldu. Bəktaş xan Yəzd qalasını mühasirəyə aldığı zaman onunla qala kutvalı tərkeş qorçisi Əliqulu bəy Şamlı arasında döyüş getməkdəydi və elə o vaxt da Yaqub xan Yəzdə gəlib çatdı. Onun gəlişindən xəbər tutan Bəktaş xan öz qoşun-ləşkərinin əksər hissəsinin Kirmanda olması səbəbindən döyüşə hazır deyildi. Pərişan olub əfşar ağsaqqalları ilə məşvərətə başladı. Həmin xanədanın xeyrxah adamları ona dedilər: "Nə qədər ki, xan Yəzddədir, onun yaxın-uzaq adamlarını gərək üsyan və tüğyana cəlb edəsən və Yəzdi tərk edib Kirmana rəvan olasan.

Misra

Gedib öz şəhrinə olsun özü öz şəhriyarı.[537]

Əgər Bəktaş xan Kirmana gedərsə bədxahlarının cəza vermək imkanı olmayacaq və Yaqub xan Kirmana gəlməyəcəkdir. Əgər o hətta Kirmana qoşun çəksə belə, orada onu dəf etmək asan olacaqdır".

Bəktaş xan qeyrətə qısılıb arxasını düşmənə tərəf çevirmək istəmədi ki, xalq arasında bir fərari kimi töhmətə məruz qalsın. Həmin vilayətdə ona yardım etməklə şövkət və iqtidar bayrağını qaldıran mirmiran da onun getməyinə mane oldu.

Yaqub xanın Bəktaş xan ilə cəngi və Bəktaş xanın məğlub olması:

Xülasə, cahil və nadan adamların təhriki ilə Bəktaş xan yanındakı adamın az olmasına baxmayaraq, Yaqub xanla hərb etməyə hazırlaşıb şəhərdən çıxdı, onun qarşısında döyüş səfi qurdu.

[537] Misranın farscası bebdir:
"Be şəhre-xod rəvəd o şəhriyare-xod başəd".

Hər iki tərəf hərb alətlərinə əl atdı. Şiraz ləşkərinin çərxçiləri aramsız həmləyə keçdilər. Əfşar qoşununun dilavərləri onların sədəmələrinə tab gətirə bildi və Yəzd qoşununa qorxu üz vermədi. Öz ləşkərinin mərkəzi hissəsini (qəlb) və düşmənin çoxluğunu müşahidə edən Bəktaş xan anladı ki, əgər cəng qayda-qanununa riayət edərsə, həmin saysız-hesabsız ləşkərə müqavimət edə bilməyəcəkdir. Abbas Sultanla hərb zamanı əl atdığı üsula əməl edib, qoşununun hamısını hərəkətə gətirdi və onlar bütövlükdə Şiraz ləşkəri üzərinə hücuma keçdilər. Bəktaş xan qoşunun qol hissəsini yürüş üçün öz etibarlı adamlarına tapşıraraq, ləşkərin özünə məxsus şücaətli döyüşçülərini qoldan ayırdı, sürətlə hücuma keçdi, çərxçi döyüşçülərinin səfini dağıtdı, Şiraz əskərinin səbat və dözüm bünövrəsinə zəlzələ saldı. Yaqub xan çaş-baş qalıb, əfşar qazilərinin məharətli bir sədəməsindən sonra öz əskərlərində acizlik və sınıqlıq müşahidə etdi. Elə iztiraba düşdü ki, bayrağının yanından uzaqlaşıb ehtiyatını əldən vermədi. Fars əmirləri zümrəsindən olan Mürtəzaqulu xan Pornakın oğlu Məhəmmədqulu xan ürək-dirək verərək onu səbr və dözümə rəğbətləndirməkdəydi.

Amma, Bəktaş xan təmtəraqla irəliləyərək, Yaqub xan ləşkərinin qoluna yaxınlaşan vaxt əfşar qazilərinin bir dəstəsi onların sayının çoxluğunu görərək döyüş fikrindən döndü, Bəktaş xanın cəsarətlənməsinə mane oldu. Onlar fəqət qol ləşkərinin qarşısında bir ləhzə dayandılar. Zülqədərlər onların dayanacaqlarını müşahidə etdilər, bir qədər inamları artdı, öz səbat qədəmlərini irəli atdılar. Yusif xan mülazimlərinin bir dəstəsi döyüş vaxtı döyüşçülərin arasında olan Bəktaş xanı tanıyıb, Yaqub xana xəbər verərək xanın orada olduğunu bildirdilər. Bəktaş xanın qolda olduğunu güman edən Yaqub xan isə bir qədər təşviş içərisindəydi. Amma, xanın qoldan uzaq düşdüyünü və irəli gəldiyini öyrəndi, döyüşçülərini onu mühasirəyə almağa və qaçış yolunu bağlamağa rəğbətləndirdi. Döyüşçülər Bəktaş xanın hər tərəfindən gəlib onu araya aldılar. Xan vəziyyəti belə görüb özünün artıq bəla dəryasında batacağını başa düşdü, səbəbsiz yerə ləngiməyindən pərt oldu və peşimançılıq barmağını həsrət dişi ilə dişlədi, əgər cəngi davam etdirərsə ələ keçəcəyini anladı, məcbur olub meydandan qaçmaq və qola birləşmək istədi, amma buna fürsət tapa bilmədi. Səflər yaran igidlər müxaliflərin səflərini, Bəktaş xanınsa ön və arxasını dövrələdikləri üçün o, qorxudan şəhər yolunu önə tutdu, döyüşçüləri də onun məğlub olduğunu görüb fərar yoluna rəvan oldular. Bəktaş xan

şəhərə daxil olub, öz etibarlı adamlarına darvazaları bağlamağı tapşırdı, Kirmana getmək, yaxud Yəzddə dayanmaq və qaladarlıqla məşğul olmaq barədə məsləhətləşməkdən ötrü mirmiranın yanına getdi.

Bəktaş xanın şəhərə gələn xeyrxahlarının bir dəstəsi onun gəlişini bəyəndilər və dedilər: "Gərək elə indi Kirman yoluna getmək lazımdır, çünki həqiqətən də əqlin məsləhəti belədir. İndi ləngimək vaxtı deyil və səhərədək ön fərsəx yol getmək olar. Gərək elə bu ləhzə çıxıb gedək". Bəkdaş xan qeyrətləndi, çünki o, mirmiranın qızı olan möhtərəm hərəmini Yəzddə qoyub aradan çıxmaq istəmirdi. Onu özü ilə aparmaq da çətin idi. Başqa yandansa, Yaqub xan böyük bir dəstə adamını Kirman yoluna yollaya bilərdi. Bundan başqa xan öz adamlarından da şübhələnərək, onlara etibar edə bilmirdi.

Amma, Yaqub xan və zülqədər ləşkəri Bəktaş xan ləşkərinin məğlubiyyətini müşahidə etdikdən sonra bir qalib kimi zəfərlə şərəfləndilər. Artıq axşam düşdüyü üçün məğlubiyyətə düçar olanları təqibə başlamadılar, gecə qaranlığı [məşəqqətinə] giriftar olmadılar və elə orada da qaldılar. O gecə Bəktaş xanın şəhərə getdiyi aydınlaşdı. Yaqub xan onu hiyləgərliklə ələ gətirmək fikrinə düşdü, çünki onun elə bu gecə Kirmana gedəcəyindən qorxurdu. Buna görə də o, elə həmin ləhzə özünün iki-üç ağsaqqal adamını elçi sifətlə mirmiranın yanına şəhərə göndərdi. Yaqub xanın məktubunun qısa məzmunu beləydi: "Bəktaş xan dövlətə müxalif olduğu üçün aləmpənah şahın dustağıdır. Biz onu sizə tapşırmışıq. Əgər çıxıb hansı bir tərəfə gedərsə, siz cənab şah tərəfindən cəzalanacaqsınız". Məktub bir qədər təhdidamiz tərzdə yarılmışdı.

Alişan seyid və ehtiramlı adam olan mirmirana qarşı əmir və əyanlar heç vaxt ədəbdən kənar bir hərəkət etməmişdilər. O, bilirdi ki, Yaqub xan cahil bir cavan və məğrur bir şəxsdir, onunla mübahisə məqamında dayanmaq olmaz. Mirmiran onun təhdidindən qayğılandı və elə Bəktaş xanın yanına gələn elçilərə dedi: "Bəktaş gördüyünüz kimi mənim yanımdadır və heç yana getməyəcəkdir, inşaallah. Xeyirli və məsləhət görülən bu təklifə əməl olunacaqdır".

O, Bəktaş xanın aradan çıxacağından, özününsə cəzalandırılacağından qorxub, ona nəzarət etmək, əgər şəhərdən çıxmaq istərsə mane olmaq məqsədiylə bir neçə adama əmr verdi. Bununla kifayətlənməyib, öz adamları tərəfindən qorunan darvaza mühafizəçilərinin yanına adam yollayaraq, Yaqub xanın bir dəstə

adamını şəhərə gətirdi, evinin qapısını onların üzünə açdı. Mirmiranın biməfalığını müşahidə edən Bəktaş xan ona güvənməkdən əlini üzdü və başa düşdü ki, bürc və barıların möhkəmləndirilməsi və qaladarlıq daha mümkün deyildir, bunun heç faydası da yoxdur. Bundan başqa o, öz adamlarından da şübhələnmişdi və onlara etibar etmirdi. İztirab işgəncəsinə qapılıb nə edəcəyini bilmədi. Nə qalmaq fikri, nə də getmək ayağı qalmamışdı. Mirmiranın adamları onun hər tərəfini kəsmişdilər, gediş-gəlişinə göz qoyurdular. Həyat badəsi dolduğundan əcəl onun ətəyindən tutub, heç yana hərəkət etməyə qoymurdu.

Bəktaş xanın öldürülməsi:

Adamlarının hərəsinin öz hayında olduqları o qaranlıq gecə çağı Bəktaş xan bərk iztirab hissi ilə evdən eşiyə çıxır, yenə də içəri qayıdırdı. Hər dəm bir xəyal, hər ləhzə bir fikir edirdi. Var-qəl edə-edə gördü ki, bir neçə nəfər biganə adam yaraqlanıb evin qapısını qorumaqdadır. Onların Yaqub xanın adamları olduqlarını anladı. Başa düşdü ki, onlar mirmiranın işarəsi ilə buraya gəlmişlər. Əlini qılınca atıb onlara tərəf getdi. Elə bu əsnada qoluna bir güllə dəydi və əli hərəkətdən qaldı. Məlum oldu ki, ya onun fikrini bilən kimsə onu yaralamışdır, ya da əli tüfəngli öz xidmətçilərindən birinin əlindən təsadüfən güllə açılmış və onun həyat xırmanını yandırmışdır.

Xülasə, o adamlar onu yaralayaraq özlərini çatdırıb həbs etdilər. Bəktaş xan özünü dost və düşmənə giriftar gördü, qeyrətə sığınıb əli-qolu bağlı halda Yaqub xanın yanına aparılmasını istəmədi. Onları əfşar tayfası ilə qorxudaraq, onu qətl etmələrini xahiş etdi, həmin adamlar da dərhal Bəktaş xanı qətlə yetirib, arxayınlaşdılar. Bu hadisə gecə yarısı baş verdi. Bəktaş xanın qətli xəbəri Yaqub xana çatdıqda, onun şadlığı əndazəyə sığmadı, əzəmət və iqtidarı asimana yüksəldi. Bəktaş xanın başını ali dərgaha yolladı, məsələnin necə baş verdiyini məktubla ərz etdi. Bəktaş xanın mülazimləri və yoldaşları öz hallarının qeydinə qalıb arxayın yerlərdə gizləndilər. Hələ sübhi-sadiq açılmamışdı ki, zülqədər ləşkəri şəhərə tökülüşdü, onların qarət və tarac əlləri əfşarların evlərinə uzatdı. Müxalifətə qarışmayan və dostu düşməni ayırmayan avara adamlar da əl atdıqları hər yeri qarət süpürgəsi ilə süpürürdülər.

Xülasə, bu qəziyyələr zamanı Yəzd camaatını müxtəlif sıxıntılar və təşvişlər bürüdü, qarmaqarışıqlıq və qovğalar iki-üç gün çəkdi. Yəzd əhalisinin çox evi tərac olundu, mir-miranın təbəələri də qarət edildilər. Onun böyük Övladı olan cənab Şah Xəlilullah həmişə atasının ziddinə gedirdi, Bəktaş xana qarşı da müxaliflik edirdi. Onunla Yaqub xan arasında yazışma vardı. O, o zaman Yaqub xanın yanına gəlib izzət və ehtirama layiq görüldü. Amma, Yaqub xan mirmiranı və onun başqa övladını Bəktaş xanla müvafiqət, özünə qarşı ilə üsyankarlıq və müxalifətdə ittiham edib, onlara ehtiram göstərmədi, hətta onlara təhqir məqamında dayandı, Bəktaş xanın xəzinələrinin zəbti üçün göndərdiyi adamlara mirmiranın da evinə göz yetirmlərini tapşırdı. Mirmiranın evində bir-iki qız görən qızılbaşlar onlara qarşı çox da nəzakətsizlik etmədilər, mirmiran xanədanına mənsub olan evlərə çox da əl uzatmadılar. Amma, ona çoxlu xiffət və üzgünlük nəsib oldu. Yaqub xanın təvəqqəsi ilə rəsme-peşkəş və rəsme-tərcüman vergisi adı altında ondan küllü miqdarda pul alındı. Bu sətirlərin müəllifi bu qəziyyələr baş verən zaman orada olmuş cənab Asəfsifət Hatəm bəydən baş verənlər barədə məlumat aldığına görə, ondan eşitdiklərinə və həmçinin sözlərinə şübhə olmayan adamların təsdiqinə əsaslanıb, mətləbi uzatmaq istəməyərək həmin hadisələri qısaca və nöqsansız qələmə aldı. Xülasə, Yaqub xan Yəzd darülibadəsində və cənnət kimi gözəl bağ-bostanlarda bir neçə gün eyş və xürrəmlikdə gün keçirdi. Şah Xəlilullah ona şahanə ziyafəllər verirdi. Yaqub xan təbiətən xəsis bir adamdı. Bəktaş xanın iyirmi il ərzində topladığı xəzinə və mallara göz dikdi, onlara heyran oldu, sədaqət və bəndəlik yolundan dönərək onları özünə götürdü. Nəfis malları özünə ayırdı, onların az bir hisəssini ali dərgaha göndərdi. Əgər sədaqətli adam olsaydı, belə bir xidmət etdiyinə görə iftixar hissi keçirməklə kifayətlənər, dünya xəzinələrini "səadətli adamların ən aşağı mərtəbəsi (ədna) sədaqət mərtəbəsidir" [deyərək], böyük razılıqla öz vəlineməti ilə bərabər bölüşdürməzdi, gözünü onun dirhəm və dinarına dikməzdi. Əgər doğru hərəkət etmiş olsaydı, şahm nəzərində bir zərrə də olmayan Bəktaş xanın sərvətinin hamısını şaha göndərərdi. Onda belə bir səadətli əməlin bəhrəsi olmadığı üçün, dünya malına aldandı, özünü hər cəhətdən təmin etdi və qəflət badəsindən elə məst oldu ki, gözü etmiş oduğu qəbahətli əməlləri görə bilmədi, qürur nəşəsindən sərxoş olmağa başlayıb, hətta cürət edərək bəzi işlərə də baş qoydu. Məsələn, Yusif xanı öz

məsləhəti ilə Kirmana hakim etdi, onunla şərtləşdi ki, sözündən çıxmasın və oranın bütün var-dövlətini ona versin; Əbrquhu öz qardaşı oğlu Bəndər xana verib, şaha xidmət etmək səadətindən uzaqlaşdı; İstiqlal xülyası ilə Şiraz darülmülkünə gedib cəhalət və xudpəsəndlinə görə sultanlardan fərqləndi; Bəktaş xanın zövcəsi olan mirmiranın qızına evlənməyi vəd etdi, onu zorla Şiraza aparıb kəbin kəsdirdi; Əmirlərin ülkalarında dəyişiklik aparıb bütün Fars məmləkətini özünün irsi mülkü güman etdi. Öldürdüyü bütün zülqədərlərin əmlakını təmamən zəbt edib özünə götürdü. Beyni bərk pozulmağa başladı. Cah-cəlalı elə həddə gəlib çatdı ki, Lar valisi üçün xələt yolladı. Adamlar Yaqub xanda şahanə kamal dərəcəsi nıüşahidə edib, onun böyük olduğunu qəbul etdilər və hər fərmanına tabe oldular. Lar valisi özünü onun nökəri kimi təqdim edərək, göndərdiyi xələti əyninə geydi.

Xülasə, Yaqub xan bir neçə vaxt Şirazda kama yetdi, günlərini eyş və şadyanlıqla keçirdi. Elə bir gün gəldi ki, ruzigarın ona gözü dəydi, alçaq əməlləri və ədəbsiz hərəkətləri onun qədrinin bilinməməsinə gətirib çıxardı, cəzasına çatdı. Bu haqda gələn ilin hadisələrinin təsviri zamanı, inşaallah, bəyan ediləcəkdir.

HÜMAYUN ZİLLƏLLAH ŞAH ORDUSUNUN BEHİŞTNİ-ŞAN İSFAHANA YÜRÜŞÜNÜN ZİKRİ, HƏMİN XEYİRLİ SƏFƏR VAXTI BAŞ VERƏN HALLAR VƏ QƏLƏBƏLƏRİN BƏYANININ ZİKRİ

Bundan əvvəl sözümüzün dibaçəsi əhvalatlar yazan qələmlə belə bəzəndi: Bəktaş xanın üsyanı nəticəsində Yəzd və Kirman vilayətlərində baş vermiş qarışıqlıq xəbəri şahın cəlal qulağına gəlib çatdığından, hümayun ordunun oraya yürüşü lazım gəldi. Buna görə də hərəkətə başlayıb, iqbalının həmrahlığıyla səltənət paytaxtından İsfahan darüssəltənəsinə yollandı. Bu xeyirli səfərdə İsgəndər şanlı nəvvaba da yoldaşlıq etmək təklif olundu. O həzrət buna raztlıq verdi və birlikdə yola düşdülər.

Misra

"Ay ilə günəşin yolu bir oldu".[538]

[538] Misranın farscası belədir:

İsfahan hakimi olan xasseyi-şərifə qulamı Yolu bəy həmin vilayətin aqibətini həyacanlı görərək Təbərrük qalasını təmir etdi, bürc və barıları möhkəmlətdi, qaladarlıqdan ötrü qalanın ehtiyacı miqdarında azuqə və yaraq topladı. Səfehliyinin çoxluğu və ağılsızlığının bolluğundan özünü cənnətnişan İsfahanın mülkədarı güman edib, müstəqillikdən dəm vurmağa başladı. Qoşun-ləşkər bəzəyərək onlan özünün müdafiəsindən ötrü nizama saldı, iqtidar bayrağını göyə qaldırdı. Zəfər ayəli xanın öldürülməsi xəbəri, yuxarıdı yazıldığı kimi, gəlib çatdı və dövlətxah adamlarının ürəklərini coşdurdu. Yaqub xan faxir xələt, celdu (?) və başqa gözəl şeylərlə şərəfraz oldu. İsfahana adam yollayaraq Yolu bəyə mehmanların qəbuluna hazırlaşmasını tapşırdılar ki, elə indicə onun mehmannəvazlığından danışılacaqdır. İstimalətnamələr və ardı-ardınca xələtlərin göndərilməsi onu ürəkləndirdi və həmin tərəfə rəvan oldu. Bəktaş xanın öldürülməsindən və müzəffər ordunun yürüşündən xəbərdar olan Yolu bəyin itaətdən başqa yolu qalmamışdı, buna görə də, qalanı etibarlı adamlarına tapşırıb özü tək-tənha hümayun məiyyətin istiqbalına yollandı. Kaşan və İsfahan arasında şahla görüş şərəfinə yetişib hədsiz-hesabsız şəfəqqətlərə layiq görüldü. Elə həmin gün izn alaraq, xasseyi-şərifə sərkarının zəruri mallarının və mehmandarlıq ləvazimatının tədarükündən ötrü İsfahana qayıtdı. Müzəffər ordu isə xoşbəxt bir saatda İsfahana yetişdi və o mülkün əhalisi tərəfindən istiqbal olundu. Şəhərin üç fərsəxliyində yerləşən Dövlətabaddan Nəqşi-cahanın[539] dövlətxanasına qədər xalılar döşənmişdi. Bir neçə yerdə hümayun orduya qızılla dolu tabaqlar səpələyirdilər. Əlahəzrət böyük şadyanlıqla şəhərə daxil olub, dövlətxanada dayandı. O mübarək məkan qürurlanıb hümayun qədəmin oraya dəydiyinə görə cənnətin həsədinə gəldi, eyş və şadyanalıq qapıları bu güclü dövlət adamlarının amal və əmin-amanlıq çöhrəsinə açıldı. Yolu bəy də onlara xidmətkarlıq mərasiminə hazırlaşdı.

"Qran kərde bahəm məh-o afitab"

[539] İsfahanın adlarından biri - Ş.F.

Yolu bəyin Təbərrük qalasına fərar etməsi:

Amma, o, Təbərrük qalasını möhkəmlədərək, oranı öz etibarlı adamlarına tapşırmışdı, heç kimi qalaya qoymurdu. Alnında bəndəlik möhürü (dağ) olan Yolu bəyin bu hərəkəti bəyənilməzdi. Əlahəzrət şah bu barədə ona heç bir söz demir, hər gün ona yeni-yeni lütfkarlıq göstərirdi. Yolu bəy hümayun şahın işarəsi ilə evinə gedib bayram və şadimanlıq mərasimi tərtib etməyə başladı ki, o ali məclisin qonaqlığını ləyaqətlə yerinə yetirsin. Əlahəzrət öz yaxın adamları ilə birlikdə təşrif gətirib, onun evini öz gəlişi ilə işıqlandırdı. Şahanə bayram və padşahanə söhbət başlandı. Şah büsatına və müqəddəs məclisə təşrif gətirən yaxın adamlar Zöhrə hüsnlü saqilərin əllərindən mey alıb onu özlərinin arzu kamına süzürdülər. Yolu bəy xainliyindən şahın ona etdiyi lütfkarlığa baxmayaraq, qorxu hissindən uzaqlaşa bilmirdi. Həmin məclisdə ona bərk vahimə üz verdi və o, iki-üç gündə bir dəstə etibarlı adamı ilə qalaya qaçdı, top-tüfəng gətirərək bürc və barıları möhkəmlətdi, qaladarlıq etməyə başladı. Onun ağılsızlığına dəlalət edən bu yersiz hərəkəti hamının təəccübünə səbəb oldu. Əlahəzrət onun lütfkarlıq və bəndəpərvərliyinə görə bir dəstə əmiri, xüsusən həzrət cənnətməkan şahın vaxtında əzəmətli əmirlərin ən böyüyü olan Seyid bəy Kəmunəni, Yolu bəydən ona üz verən vahimənin səbəbini soruşmaq, xoş nəsihətlərlə müxalifət vadisindən geri qayıtmaq və düzgün sədaqət yoluna gətirməkdən ötrü, qalaya göndərdilər. Yolu bəy qulağına qəflət və nadanlıq pambığı basaraq, həmin xoş nəsihətləri qulağardına vurdu, gələn elçiləri həbs edib, onları etibarlı adamlarına tapşırdı. Elə nadan bir qulamın müxalifət xəbəri cahan şahının iqamət etdiyi İsfahan şəhərində dövlət əleyhinə yönələn nöqsan və fitnəkar bir əməl idi. Onunla hərb etməkdən çəkinmək, şahanə qəflətə qapılmaq, ona şəfəqqət göstərib günahını bağışlamaq dövlətə sərf etməyən bir iş idi. Yaxınlarının arasında öz yaxınlığı ilə seçilən və hələ mərhum Sultan Həmzə Mirzə zamanında Yolu bəylə sədaqət və dostluqdan dəm vuran Fərhad xan Qaramanlı qalaya gedib şahdan onun nəsihət yolu ilə aradan çıxarmasını xahiş etdi. Onun xahişi qəbul olundu və Fərhad xan bir neçə mülazimi və xidmətçisi ilə birlikdə qalaya getdi. Yolu bəy birinci gün Fərhad xanla dostanə söhbət etdi və qonaqpərvərlik qayda-qanununu yerinə yetirdi. Amma, ertəsi gün yanındakı bir dəstə fintəkarın təsiri ilə Fərhad xanı qalada həbs etdi, onun və

mülazimlərinin qılınc və başqa alətlərini bellərindən çıxardı, mülazimlərini hüsyar adamlarının nəzarəti altında saxladı, amma Fərhad xanla onun arasında bir neçə gün görüş davam etdi. Fərhad xanın həbs olunma xəbəri əlahəzrətə gəlib yetişəndə, belə bir cəsarət və ədəbsizlikdən onun şahanə qeyrət məşəli alovlandı. Hökm olundu ki, əzəmətli qorçilər, dərgah mülazimləri və İsfahan əyanları qalanı mühasirəyə alıb qalatutma ləvazimatı hazırlasınlar. Fərmanı alanlar padşah fərmanına əməl edərək qalanın hər tərəfinə əhatəyə aldılar. Hər iki tərəf arasında bir neçə gün hərb qapıları açıldı. Bəsirət gözü xarab (xərabül-bəsrə) olan Yolu bəy çox götür-qoydan sonra öz aqibətini fikirləşib, anladı ki, onun bu rəftarı neməti tapdamaqdır, o, bu dünyada və axirətdə lənətlənəcəkdir. Buna görə də, qalada Fərhad xanla görüşüb dedi: "Əgər əlahəzrət bu qulamın etdiyi rəzalətə əfv qələmi çəkib İsfahan hakimliyini fərmanla mənə verərsə, qaladarlıqdan əl çəkərək qaladan çıxaram". Fərhad xan zəmanəyə uyğun olaraq, onun xahişini qəbul edib, dediyini şaha ərz etdi. Əlahəzrət zilləllah şah Fərhad xanın məsləhətiylə Yolu bəyin iddiası ilə razılaşdı və ona faxir xələt yolladı, cürbəcür şahanə vədlərlə arxayın etdi. Yolu bəy Fərhad xanın onunla etdiyi əhdə etimad göstərib, qaladan çıxdı, şahın yanına gəlmək şərəfi ilə şərəfləndi. Əlahəzrət zahirdə ona diqqət yetirib izzət və ehtiram göstərdisə də, mübarək xatiri batində onun yersiz hərəkətlərindən incik idi. Necə də incik olmasın? Vəlinemətə qarşı üsyana qalxmaq, elə pis əmələ cəsarət etmək, sonra nicat tapmaq [şaha görə] böyük səfehlik və ağılsızlıqdır.

Şer

"Üzünə ağ olmaq vəline mətin
Göydən düşmək kimi bir işdir çətin ".[540]

Nəticədə bu şerin mənası onun vəziyyətinə uyğun gəldi. Yolu bəyin başında bir neçə gün İsfahan hakimliyi havası dolandı, qalanı verməklə şahın incikliyinin rəf olacağına düşündü və qalanı təhvil verdi. Qala zəbt olunduqdan sonra İsfahanın əhalisi

[540] Beytin farscası belədir:
"Ba vəlinemət ər borun ayi,
Gər sepehri ke, sərnegun ayi"

onun hakimliyi ilə razılaşmayaraq deyinməyə başladı. Yolu bəy çarəsizlikdən İsfahan hakimliyindən gözünü çəkdi, özünün sağ-salamat qalması ilə razılaşdı, Fərhad xana ümid etdi, öz aqibətini ona tapşırdı. Fərhad xan bir müddət onunla insan kimi davrandı. Aralarında bərk dostluq da vardı. Amma, bu gün neməti tapdamağı Yolu bəyin vəziyyətinə uyğun oldu və onun həyat ipi fələyin qəhr qılıncı ilə qırıldı.

HİCRİ TARİXLƏ DOQQUZ YÜZ DOXSAN DOQQUZUNCU (MİLADİ 1590/91), TÜRKİ TARİXLƏSƏ PƏLƏNG İLİNDƏ BAŞ VERƏN VƏ ƏLAHƏZRƏT ZİLLƏLLAH ŞAHIN HÜMAYUN CÜLUSUNUN DÖRDÜNCÜ XOŞ AMALLI İLİNƏ TƏSADÜF EDƏN HADİSƏLƏR

Qışın və şaxtanın şiddəti azaldığı üçün bahar şahı (yəni günəş - Ş.F.) cahan gülüzarını öz qədəmləri ilə bəzədi, bahar nəsimi aləmin təravətini artırdı.

Beytlər

Yenə də yetişdi fərvərdin[541] ayı,
Bəzənib-düzəndi eyş sarayı.
Yer üzü qərq oldu açan güllərə,
Novruzun xalısı döşəndi yerə.[542]

Yəni 999-cu ilin cəmadül-əvvəl ayının on dördü (miladi 1591, 6 mart) düşənbə gününün axşamı bütün sabit və səyyar ulduzların padşahı (yəni ay - Ş.F.) hut[543] ayının xəlvətgahından eşiyə çıxdı və həməl[544] taxtına əyləşdi.

Beyt

[541] Hicri-şəmsi ayının birincisidir (20 mart-21 aprel)
[542] Beytlərin farscası belədir:
Baz fərraşe-eyşe-fərvərdin
Bəst eyvane-eyşra ayin,
Dər fəzaye-cəhan befiruzi
Gostəranid fərşe-novruzi
[543] Hut-balıq bürcü (19 fevral-20 mart)
[544] Həməl - qoç bürcü (21 mart - 20 aprel).

Səhərgah xosrovu[545] göstərib hüsnün
Bəzədi taxtını şah ölkəsinin[546]

Həzrət zilləlah şah İsfahan darüssəltənəsində eyş-işrətlə məşğul idi, xoşbəxt günlərini şadyanlıqla keçirirdi.

Bu ildə baş verən hadisələrdən biri Yadigar Sultan Rumlunun elçi kimi Hindistana göndərilməsidir. Hamıya məlumdur ki, səmada Şərqdən doğan günəş kimi[547] bu əbədi dövlətin (yəni dövlətinin - Ş.F.) aləmi işıqlandıran günəşinin doğuşundan (tülu) başlayaraq, Məhəmməd Bahur padşah ibn Ömər Şeyx Mirzə ibn Sultan Əbu Səid Gurəkan özbək qoşununun qorxusundan, həmçinin Məhəmməd xan Şeybani tərəfindən Mavərənnəhr, Əxsi, Əndican və dövlət mərkəzi olan Fərğanənin istila olunmasından sonra öz ölkəsində qala bilməyib, xeyli cəng etdikdən sonra Kabul və Hisari-Şadmanda başını dolandırmaqdaydı. Bu kitabın birinci cildinin həzrət Süleyman şanlı xaqan dövründəki əhvalatların şərhi zamanı yazılmışdır: O, şah dərgahının mülazimləri ilə sədaqət üzündən əlaqə saxladı, Bədəxşan hakimi olan və "Mirzə xan " kimi tanınan əmisi oğlu Sultan Üveys Mirzə ibn Sultan Mahmud Mirzə tərəfindən şahın xidmətinə göndərildi, öz irsi mülkünün qaytarılması üçün o həzrətdən (Şah İsmayıldan - Ş.F.) kömək istədi. Süleyman şanlı xaqan bir dəstə qızılbaş döyüşçüsünü onun köməyinə verdi. Babur padşah o qoşunun köməyi ilə Mavərənnəhri fəth edib, Səmərqənd bölgəsində padşahlıq taxtına əyləşdi. Onunla özbək xanları arasında Mavərənnəhr, Türküstan və Hisari-Şadman uğrunda gedən bir neçə illik mübarizələrdə o, həmişə Süleyman şanlı xaqanın himayəsinə arxalanırdı və onların arasında sədaqət və dostluq davam etməkdəydi. Özbək qoşununun axırıncı hücumu zamanı Babur, Buxara yaxınlığında Abdulla xan və başqa özbək xanları ilə döyüşdü və məğlub edildi. Amma, yenə də adamlarını aləmə pənah verən dərgaha yollayaraq kömək xahişi etdi. Süleyman şanlı xaqan bu dəfə rüknüssəltənə olan Mir Nəcmi - Sani İsfahanini Xorasan

[545] Səhərgah xosrovu - yoni günəş - Ş.F.
[546] Beytin farscası:
Gəşt çon xosrove-səhərgahi Məsnədaraye-keşvəre-şahı.
[547] İfadənin ərəbcəsi: "kə-ş-şəmsi-ş-Şəriqi min-əs-səməi"

əmirləri ilə birlikdə köməyə yolladı. Gəcdovan qalası yaxınlığında özbək xanları ilə baş verən döyüşdə qələbə əldə olunmadı.

Nəhayət Hindistan məmləkətlərini özünə tabe etmək niyyəti ilə Kabuldan yola düşüb kamına çatdı və hökmdar oldu. Babur padşahın səltənət taxtı ilə vidasından sonra onun böyük oğlu Məhəmməd Hümayun padşah öz qiymətli atasının yerinə əyləşdi. O, Hindistanda böyük fəthlər qazandı və bir neçə il hökmranlıq etdi. İlahinin təqdiri, əfqan qoşununun hücumu və Şirxanın ona əl uzatması nəticəsində onun vəziyyəti pisləşdi, dövlət çəməni solmağa başladı, Hindistan məmləkətlərində qalmaq imkanı qalmadı, mülkü Şirxana verib məğlubiyyət və avara halda Tətəh, Sind və Qəndəhara üz tutdu. Orada da bəxtinin tərsliyi və qardaşlarının müxalifəti üzündən qala bilmədi və ümüd üzünü cənnətməkan şahın dərgahına tutdu. Tarix kitablarında, xüsusən "Tarixe - Əkbəri"də yazıldığı kimi, ona kömək xüsusunda cənnətməkan şah tərəfindən bircə dəqiqə də laqeyidlik görünmədi, şah onu ehtiramla yola saldı, bəxtinin gücü vəziyyətinin yaxşılaşmasına səbəb oldu və bütün həyatı boyu o həzrətlə aralarında məhəbbət və dostluq bəraqərar oldu, gediş-gəliş yarandı. O gözəl etiqadlı padşahın vəfatından sonra əziz oğlu Cəlalləddin Məhəmməd Əkbər padşah sərvərlik taxtına əyləşdi. Cənnətməkan şah vəkilüs - səltənə Məsum bəy Səfəvinin oğlu Seyid bəyi layiqli töhfələrlə onun cülusunu təbrik etmək və hörmətli atasının başına gələn qəziyyəni öyrənmək məqsədi ilə Hindistana yolladı. O da həmişə onunla mehribanlıq etməkdəydi. Məhəmməd Əkbər padşahın səltənət və hökmranlığı Hindistanda bərqərar olandan sonra dostluq qapıları bağlandı, onlarm arasındakı yazışma və gediş-gəliş kəsildi. Həzrət cənnətməkan şahın başına gələn vaqiədən sonra İran məmləkətlərində cürbəcür hadisələr baş verdiyi üçün yaxşı dostlara xas olan ülfət, aşinalıq və dostanə hal-əhval tutma ənənəsi yerinə yetirilmədi, uzun müddət aralarında get-gəl yolu bağlandı, o vaxta qədər ki, aləmi bəzəyən hümayun cülus vaxtında əlahəzrət zilləllah şah həmin alicah padşahla ülfət və aşinalıq istəyərək, qədim münasibəti ehya etmək fikrinə düşdü. Həqiqətən də, özünün əcdadları tərəfindən möhkəmlənən məhəbbət və dostluğu axı necə özünün həqiqət mahiyyətli xasiyyəti müqabilində aradan yox edəsən və dostun dostluğundan qaçasan? Xülasə, cahanı bəzəyən fikir belə oldu ki, qızılbaş silkindən olan bir adamı elçi (rəsalət) kimi o həzrətin yanına yollasın. İxtiyar püşkü sufi təbiətli və saf etiqadlı Yadigar Sultan Rumluya düşdü.

Onu layiqli töhfələr və məhəbbət ayinli namə ilə yola saldılar. Həmin məşhur namədə şah ona (Cəlaləddin Əkbər padşaha - Ş.F.) biganəliyin dostluqla əvəz olunmasını, qədim əzəmət və əhd-peymanın dostluğun hərəkət verici qüvvəsi olduğunu izhar edib yazırdı: "Qəza-qədərin tələbi ilə Abdulla xan və özbək qoşunları Xorasanı tutmuşlar. Özbək ləşkərinin dəf olunması və irsi məmləkətimiz olan Xorasanın xilas olma zərurəti hamıya məlumdur. Siz əgər bizə zahiri imdad edə bilməsəniz belə, batini mərdlikdən (himmət) və diqqətdən kənar olmayın.

Misra

"Himməti mərdin yetişər imdada".[548]

Yadigar Sultan Rumlunun yeddi ildən sonra geri qayıtmağının şərhi gələcəkdə öz məqamında veriləcəkdir.

Bu ilin hadisələrindən biri də budur ki, vəzir və etimadüddövlə olan Mirzə Lütfulla Şirazı şahın iltifatına nail olaraq, vəzarətə layiq görüldü, ona adlı-sanlı əmirlərə xas olan xələt, tac, qızıl kəmər, yəhərli at, qızıl üzəngi, qızıl sapla tikilən araxçın, bayraq və nağara verildi, qədr-qiyməti Keyvan bürcünə qədər yüksəldi.

Başqa hadisələrdən biri də budur ki, mirmiran və böyük övladı şahın ayağını öpməkdən ötrü Yəzddən İsfahana gəldi. O, (yəni mirmiran - Ş.F.) pis işlər gördüyündən və Bəktaş xana kömək etdiyindən şahın lütfünə məruz qalmadı və ondan elə bir ehtiram görmədi. Amma, Yaqub xanla müttəfiq və şahsevən olan onun oğlu Şah Xəlilullah müxtəlif şəfqətlərə çatdı və Yəzd mülkü ona verildi.

Bu hadisələrin baş verdiyi vaxt Mir Musanın oğlu Şah Neymətullahın evində olan cənnətməkan şahın qızı Xanış bəyim təbii əcəllə İsfahanda öldü və əlahəzrət onun təziyəsində iştirak etdi.

Baş verən hadisələrdən biri də budur ki, bu il cahanı fəth edən ordunun Farsa yollanacağı qərara alındığından əlahəzrət şah şahzadələrin saxlandığı yerin Gilana yaxın olmasından və bəzi fitnəkar adamların onların yanına Vəramin qalasına gələ biləcəklərindən ehtiyat edib, onları İsfahana gətirdi, Təbərrük

[548] Misranın farscası:
"Hər çe konəd himməte-mərdan konəd".

qalasında yerləşdirdi, Əhməd bəy Kərampanı qalanın kütvalı və şahzadələrin mühafizi təyin etdi.

HÜMAYUN MƏİYYƏTİN FARS DARÜLMÜLKÜNƏ YÜRÜŞÜ, ŞAHIN KİRMANA LƏŞKƏR GÖNDƏRMƏSİ, O VİLAYƏT İŞLƏRİNİN NİZAMLANMASINDAN SONRA SƏADƏTLİ SƏLTƏNƏT PAYTAXTINA DÖNMƏSİNİN ZİKRİ

Yuxarıda yazıldığı kimi, Yaqub xan Yəzddən Şiraza yollandı. O, qəflət və qürur badəsindən məst və şüursuz olmuşdu. Onun hümayun şahın iqbal köməyi sayəsində qazandığı kiçik uğur və zəfəri təkcə Bəktaş xanla etdiyi cəng olmuşdu ki, bunu da özünün müvəffəqiyyəti sanaraq, lovğalıq və qürura qapıldı. Öz etdiklərindən xəbərdar olan və müxtəlif səbəblər üzündən əlahəzrət şahın şübhələnməsindən qorxan bəzi divanəxislət qızılbaş əmirləri, xüsusilə Budaq Qəraku Xəbuşlu, Muxtar Sultan Təkəli, Vəli İxtiyar Türkmanın oğlu Türabi bəy, əmiraxur Fulad bəyin oğlu Əbülfəth bəy Şamlı ordudan qaçaraq Şiraza - Yaqub xanın yanına yollandılar.

Xan isə vəlinemət şahın fikrini soruşmadan onları yaxşı qarşıladı, onlarla söhbətləşməyə başladı. Onlar badə nəşəsinin tüğyan etdiyi vaxtda bir-birlərinə sağlıqlar söyləyir, Bəktaş xanın bədməstliyinin və bihuşluğunun daha da artmasına səbəb olur, onun xəzinə və var-dövlətinin oldən çıxacağı qorxusu ilə onu şaha xidmət etməkdən çəkindirir və qəm-qüssəyə salırdılar. Bu da onu qayğılandırdı, nəhayət üsyan və tüğyan etməsinə gətirib çıxardı. Fars əmirlərini özünə tabe etdi, ona itaət etməyənləri isə vəzifədən götürərək, özünə yeni əmirlər təyin etdi. Əlahəzrət şah ona dəfələrlə səfqətamiz məktub göndərib, etdiyi alçaqlıq və bədnamlığın aydınlaşdırılmasından ötrü ali orduya və öz yanına gəlməsini təklif etdisə də bunun heç bir faydası olmadı. Melonxoliyasının (malixulya) həddini aşdığı vaxt əmirlərin məclisində deyirdi ki, İran məmləkətlərindən Fars mülkü mənə çatır. O, belə bədyanlar və mənasız sözlər dilinə gətirir və onu dinləyənlər də təsdiqləyirdilər.

Xülasə, padşah fərmanına boyun əyməyib hərdən müstəqillik xəyalına düşür, gah da qalanın möhkəmləndirilməsinə çalışır, qaladarlıq barədə fikirləşirdi. Onun belə əməlləri təəccübə səbəb olurdu. Şahın Yaqub xana olan şəfəqqətini görən zülqədər tayfası və Fars əmirləri ona qarşı elə müti olmuşdular ki, qarşı

çıxmağı xəyallarına belə gətirmirdilər. Bu vəziyyət o vaxtadək davam etdi ki, bəzi əmirlər onun hərəkətlərində get-gedə üsyan əsəri görməyə başladılar, Kuşkzərd (?) yaylağında Yaqub xanın ordusundan ayrılıb, şahın hüzuruna gəldilər və vəziyyəti ona ərz etdilər. Ona qarşı hücuma keçmək və onu dəf etmək hümayun orduya layiq iş olmasa da, [şah] ov edə-edə Kuşkzərd və məşhur Şiraz şəhərinə, həmçinin Fars işləri ilə məşğul olmaqdan ötrü yürüş cilovunu o istiqamətə döndərdi. Hümayun ordunun gəlmə xəbərini eşidən və əmirlərin ona qarşı çıxdığını bilən Yaqub xan öz ağır-yüngül şeylərini Estəxr qalasına göndərdi və bir neçə etibarlı adamı ilə gedərək qalaya sığındı. Zülqədər əyanları dəstə-dəstə hümayun orduya gəlib Yaqub xanın qalaya getdiyini ərz etdilər. Kuşkzərd yaylağı iqbal çadırları ilə dolduqda Əsəlməs xan Möhrdarı zülqədər yüzbaşıları və qorçiləri, həmçinin Fars camaatı ilə birlikdə qalanı mühasirə etməyə göndərdilər. Hümayun məiyyət isə havanın hərarətindən hələ bir neçə vaxt o yaylaqda qaldı, sonra Şiraz şəhərinə getdilər, Cəmşidin, Süleymanın və dünyada məşhur bir çox söz adamlarının məskəni olmuş həmin fəxarətli şəhərə hümayun qədəmlərlə cənnət zinəti bəxş etdilər. Vəzir Mirzə Lütfulla əsl Şirazlı olduğundan onlara xidmət etməyə başladı. Fars vilayətinin bütün əhalisi və əyanları gəlib öz sədaqətlərini bildirərək layiqli peşkəşlər təqdim etdilər.

Lar valisi İbrahim xan layiqli tövhə və hədiyyələr göndərib, şaha öz bəndəlik və sədaqətini izhar etdi. Yaqub xandan belə səfeh əməllərin baş verməsinə baxmayaraq, yenə də nəvvab şah ona öz diqqətini əsirgəmədi. Yaqub xandan qorxuya düşən zülqədərlərin inamlarını qaytarmaqdan ötrü, Şiraz vilayətinin idarə olunması və Fars əmirülüməralığı zülqədər yüzbaşıları silkinə məxsus olan Bünyad xana verildi, əlahəzrət qalibiyyət və iqbal dincliyi ilə həmin cənnət (firdovs) timsallı mənzərələri seyr etmək və gəzməklə məşğul olmağa başladı.

Misra

"Onu saflaşdırar Xızrın zülalı".[549]

[549] Misranın farscası belədir:
"Ke abe-Xezr mibəxşəd zolaləş" yəni, onu Xızr peyğəmbərin suyu saflaşdıra bilər - Ş.F.

Bu hadisələr baş verən vaxt bədnəzər adamların o xoşbəxt zata (Şah Abbasa - Ş.F.) gözü dəydi. Belə ki, ata süvar olub gedərkən yıxıldı və mübarək qıçı əzildi. Cərrahlar müalicəyə başladılar və Allahın inayəti ilə əzik yer sağaldı. Elə o vaxt da Yusif xan Əfşarın üsyan və tüğyan etməsi xəbəri gəldi. O, divan işlərinin icrası üçün Kirmanda olan ali divanın qorçi və mülazimlərini şəhərdən çıxarıb, qalanı möhkəmləndirdi, Yaqub xanla razılıq və havadarlıqdan dəm vurmağa başladı. Əlahəzrət onun fitnəsini dəf etməkdən ötrü Fərhad xanı Kirmanarəvan etdi.

Şahqulu xanın öldürülməyi:

Kirman ləşkərinin əksəriyyəti Vəlixan və Bəktaş xanın qədim mülazimləri idilər. [Əlahəzrət] sülhpərvər, xeyrxah şəxs kimi tanınan və həmişə oğlunun əməllərinə və hərəkətlərinə qarşı çıxan Vəlixana o vilayətlərin bəzi əyalətlərinin idarə olunmasını tapşırdı, oranın başqa yerlərini isə İsmayıl xan Alplı Əfşara verdi, onların hər ikisini qulam Yolu bəylə Fərhad xana qoşub göndərdi. Şirazda baş verən hadisələrdən biri də, hər ikisi əfşarlardan olan Əbdüllətif bəyin oğlu Həsən xanın əli ilə Xəlil xan Əfşarın oğlu Şahqulu xanın öldürülməyi oldu. Bu kitabın birinci cildində (səhifə) yazılıb ki, hər başda bir sevda yaranmış qızılbaş tayfalarının üsyana və inqilaba qurşandıqları vaxt, həmçinin qələndərin zühuru və nəvvab İsgəndər xanın (Şah Məhəmməd Xudabəndə - Ş.F.) hakimiyyəti zamanında Kuh-Giluyədə divan tərəfindən vəzifəyə təyin edilən hakim yox idi. Xəlil xanın kiçik oğlu Şahqulu bəy də özbaşına olaraq özünə "xan" adı qoyub, özünü Kuh-Giluyə hakimi adlandırdı.

Amma Əbdüllətifbəyin oğlu Həsən bəy[550] bu vəzifəyə özünü Şahqulu bəy Əfşardan daha layiqli bilib, onunla düşmənçilik etməyə başladı, bir dəstə əfşarı və luru[551] öz ətrafına yığaraq hakimlikdə ona müddəi oldu. Onların hər biri bacardıqları kimi oranın bəzi mallarını zəbt etdi. Hümayun şahın cahanı fəth edən məiyətinin gəlişinə qədər bir-birləri ilə barışıq və sülhlə rəftar

[550] Bir qədər yuxarıda Əbdüllətif bəyin oğlunun adı Həsən xan yazılmışdı. Görünür ki, bu ya İskəndər bəy Münşinin, ya da kitabı çapa hazırlayan İrəc Əfşarın səhvidir - Ş.F.
[551] Lur tayfası - Ş.F.

etdilər, amma elə həmin vaxtlarda onların hər ikisi gələrək səadətli taxta mülazim olmaqla şərəfləndilər. Onların hər biri o vilayətin tələbində idi. Özbaşnalığa adət etdiklərindən rəftarları tərbiyəsizliklərinə dəlalət edirdi. Amma, Xəlil xanın oğlu olması və özündən razılığı Şahverdi xanın beynini dumanlandırdı. Onda xidmət və fərmana tabe olmaq şivəsi yox idisə də, Həsən xan bir qədər xidmətçilik mərhələsini keçmişdi və ondan daha sadədil adam idi. Bir dəstə adamla hücuma keçib onun həyat gövdəsini öz iti qılıncı ilə zir-zəbər etdi, inayət və iltifata yetdi və Kuh-Giluyə onun adına yazıldı.

Hüseynəli Sultan Çekəninin öldürülməyi:

Baş verən ibrətli hadisələrdən biri də şahın xidmətində yaxın və xüsusi yeri olan Budaq xanın oğlu Hüseynəli Sultan Çekəninin öldürülməsidir. Bu əhvalatın bizə məlum olan səbəbi bu idi: Əvvəla, o, dili və ürəyi bir olmayan fitnəkar bir adamdı. İddia tələbdi. İkincisi, yuxarıda yazıldığı kimi Budaq xan və onun övladı Xorasanda yersiz hərəkət etdilər və Budaq xan lələsi olduğu üçün şahzadəni özü ilə götürüb Xəbişan qalasına aparmış və bir müddət dövlətə qarşı müxalifət yoluna düşmüşdü, oğlu Hüseynəli xan da bu səbəbdən etibarlı adam sayılmırdı. Özü gəlib öz idarə üzünü yüksək taxt ayağına sürtdü, şahzadə ələ keçirildi. Atası isə o vaxt öz tayfası, qohumları və övladları ilə Xorasandaydı. Hüseynəli xan bir müddət şaha xidmət etmək və ona yaxın olmaqla şərəfləndi.

Amma, batini xəbisliyi üzündən haramzadə işləri zahir oldu və bu da onun cəzalandırılmasına və cəza (siyasət) şəhnəsinin qılıncına layiq görülməsinə gətirib çıxardı.

Xülasə, Kor Həsən Ustaclı və şahın izzət büsatının bəzi yaxın adamları onu hümayun xəlvətxanaya salıb cəzasına yetirdilər. Ali əmrə görə Qum hakimi Hüseyn xan Şamlı Reydə olan Budaq xanın sərdarlığı ilə onun yanına getdi və nəşini Quma gətirdi, ordusunun bütün varı və silahları qarət olundu.

Budaq xan Xorasan idarəçiliyini yaxşı bilən adam olduğu üçün bir müddətdən sonra özü və övladı yenidən şahın şəfəqqətinə yetişdi və Həmədan əyaləti böyük oğlu Həsənəliyə verildi. Özü isə başqa övladları ilə yenə şaha mülazimlik etməkdəydi.

Xülasə, Fərhad xanın getməsindən və Hüseynəli Çekəninin öldürülməsindən sonra, Firidun və Cəm tərəfindən əsası qoyulan və

möhkəmliyə görə aləmdə məşhur olan Estəxr qalasının fəthi hələ də müyəssər olmurdu. Şahda hələ Yaqub xana qarşı mərhəmət hissi qalmışdı. Qeyb aləminin verdiyi ilham nəticəsində şahın müqəddəs yadına düşdü ki, gedib o qaçağan ahunu (Yaqub xanı - Ş.F.) hüsnitədbirlə şikar etsin. Kirman ovuna çıxmaq əmrini verdi, bir dəstə xüsusi adamı və nədimləri ilə ova yollandı. Estəxr yaxınlığından keçərək, Yaqub xana

Misra

"Reyhani şərabla dolu bir qədəh"[552]

göndərib onunla söhbət etmək istədiyini bildirdi, dedi: "Mən həmişə öz behişt ayinli məclisimdə səni xatırlayıram. Son əbəs yerə özünü qorxuya (vəhşət) giriftar etmisən. Əgər öz puç xəyallarım ürəyindən çıxarıb mülazimətə gəlsən, yenidən sədaqətlə iltifat nəzərinə yetişə bilərsən".

Bu xəbərdən sevincək və şadiman olan Yaqub xan, qalaya sığınmaqdan və qaladarlıq etməkdən təngə gəldiyi üçün dövlət məsləhətinin müxalifət büsatından üstün olduğunu görüb, şahın yanına gəlməyə və behişt ayinli məclisdə olmağa rəğbətləndi, itaətlə dolu sözlərini bir məktuba yazıb, şaha göndərdi.

Amma, sədaqətsizliyinin çoxluğundan və xasiyyətinin codluğundan [Yaqub xan] əvvəlcə öz vəziri Mirzəcan bəyi Vəli İxtiyar Türkman və qardaşı oğlu Mürtəzaqulu bəylə birlikdə şəhərə göndərdi ki, şahın yanına gedərək bunu öyrənsin: Əgər Fars hökuməti bütünlükdə ona verilərsə və o yenidən həmin mülkdə mütləq ixtiar sahibi olarsa, qaladan çıxar və şahın ayağını öpmək şərəfi ilə şərəflənər. Nə boyda səfehlik və sədaqətsizlikdir ki, dünya işlərindən ötrü öz vəlinemətini belə işlər görməkdən çəkindirəsən və dünya malında və kama yetişməkdə gözün olmuş ola!

Amma, Mirzəcan bəy Vəzir şahın yanına gəlməklə şərəfləndikdə əlahəzrət Yaqub xana qarşı əvvəllərdə oduğu kimi böyük şəfqət və iltifatını bildirdi. Mirzəcan bəy boyun oldu ki, qalaya qayıdıb Yaqub xanı şahın yanına gətirsin, lakin Mirzəcan

[552] Misranın farscası belədir:
"Yek sorahi ze-rahe-reyhani".

bəyin danışığından sonra məlum oldu ki, Yaqub xanın etdiyi hərəkətlər onun sədaqətsizliyindən xəbər verir.

Xülasə, Mirzəcan bəy və Türabi bəy qalaya dönərək görüb-eşitdiklərini Yaqub xana danışdılar, onu qaladan çıxmağa rəğbətləndirdilər. Yaqub xan qalanı etibarlı adamlarının birinə tapşırıb, hömsöhbətləri və xüsusi adamları ilə birlikdə qaladan çıxaraq izzətlə şəhərə rəvan oldu. Haşa! Haşa! İdbar rəhbər və nemətə xor baxan bir adam! Onun yaxasından tutub çəkə-çəkə fələk əzəmətli saraya gətirdilər. Yaqub xanın haqqı görən gözü olmadığından etdiyi əməllərə göz yumaraq yenə də ağılsızlıqla özünün Farsın müstəqil hakimi olduğunu təsəvvür edirdi.

Misra

Necə təsəvvore-batil, necə xəyale-məhal![553]

Belə əmərləri, hərəkətləri və sədaqətsizliyi olan bir adam məgər öz canlarını şaha fəda edən və sadiq dövlətxahlardan olan başqa şəxslər kimi özü barədə xahiş və təvəqqə edə bilərmi? Məgər duz-çörək haqqını itirən səfeh bir adam kama yetən adam ola bilərmi?

Xülasə, Yaqub xanın gəlmə xəbəri gələndə əlahəzrət öz məiyyəti ilə birlikdə ata süvar olub seyrlə məşğul idi. Xiyabanın başında Yaqub xan hümayun məiyyətə yaxınlaşıb onunla görüşmək səadətinə yetişdi, zahiri diqqətə layiq görüldü. Amma, ondan heç bir sədaqət əsəri və xəcalət hissi zahir olmurdu. Beləliklə, onun başında əvvəlki puç xəyalların qalması məlum oldu. Fars vilayətinin əhali və əyanı, habelə zülqədər tayfaları adət etdikləri kimi yenə də ona mülazimlik edirdilər. Onlar üç gün tam şövkət və əzəmətlə onu gəlib yoluxdular. Üçüncü gün bu hal ali divan adamlarınm etirazına səbəb oldu və şahın [divanda] olmadığı vaxt xanın Fars vilayətindəki əməlləri barədə onu sorğu-suala tutdular. Bu xüsusda belə deyilmişdir:

Beyt

[553] Misranın farscası belədir:
Zehi təsəvvore-batel, zehi xəyale-məhal!

Küləyin əsdiyi vaxt qalxsa göyə çör-çöplər
Qayıdıb bir-ikisi bir daha torpağə düşər[554]

Batinində xəbislik olduğundan

Misra

Kuzədən axsa yerə mey axacaqdır əlbət![555]

yenə də yava-yava sözlər danışırdı. O, qalanı hələ də özündə saxlayıb vermədi. Məmləkət işlərinin nizamlanmasına kömək etmək lazım idi. Qarşıda böyük fəaliyyət dururdu. Əgər o həzrətin (şahın - Ş.F.) irəli çəkib tərbiyələndirdiyi bir adam özünü belə aparırsa, belə adamların əməllərini müşahidə edən başqa adamlar xudpəsəndliyi tərk edib necə itaətə gəlmiş olarlar?

Xülasə, Yaqub xan nemətə xor baxan bir adam kimi cəzalanmağa layiq görüldü və ona qarşı qəzəb atəşi alovlandı. Dördüncü gün hümayun dövlətxana Bayazid bəy Qapıçıbaşı Ustaclıya tapşırıldı və ona buyuruldu ki, çağırılmadan heç kim xəlvətxanaya girib-çıxmamalıdır. Yaqub xan adəti üzrə gəlib məclisdə qürürla əyləşdi, şahın yanında ali divanın vəziri Mirzə Şükrullahla xeyli tünd və acı danışıb ona dedi: "Mənim ülkamda sənin apardığın alış-veriş mühasibəsinin hesabatını mənim özümə verin". Mirzə Şükrullah cavab verdi: "Bu haqda əgər hümayun şah mənə işarə edərsə, elə həmin dəm onu sənə verərəm". Elə bu vaxt mötəbər əmirlərdən və şaha yaxın adamlardan olan Hüseyn bəy Ziyadoğlu Qacar şahın işarəsi ilə əlini onun belinə uzadıb, yuxarı qaldırdı və yerə vurdu.

Məsələnin başlanğıcında o elə təsəvvür etdi ki, bu hərəkət məclis nədimlərinin hərdən bir-birləri ilə etdikləri güləşmə (dəstbazi) və zarafatdır. Öz mərtəbəsini Hüseyn xandan üstün bilən Yaqub xan dedi: "Mən burada söz danışmaqdayam, bu nə zarafatdır?". Hüseyn xan onu söyüb dedi: "Ey haramzadə, səndən zahir olan əməl və hərəkətlərinin müqabilində sən mənə nə deyə

[554] Beytin varscası:
Əgər xəsi behəva rəft əz keşakeşi-bad
Beyekdəmi do-se naçar bər zəmin oftəd.
[555] Misranın farscası:
K-əz kuze həman borun təravəd ke dər u-st!

bilərsən ki?". Yaqub xan məsələnin nə yerdə olduğunu başa düşdü, dərhal yalvarmağa başladı. Hüseyn xan onun əlini bağlayıb başıyarıq və başıaçıq vəziyyətdə qəsrin qarşısında günəşin altında saxladı. Onun dostlarını bir-bir çağırırdılar və gələn kimi qulamlar və şah fədailəri onları qılınc ilə para-para edirdilər. İçəri girən hər bir adam sabiq sərxoşluğunun xumarını sındıran bu badə ilə (ölüm ilə - Ş.F.) məst və bişüur olurdu. Baş verən hadisədən çöldə heç kəsin xəbəri yox idi və elə təsəvvür edirdilər ki, xəlvətxanədə xüsusi məclis qurulmuş, eyş-işrət düzənlənmiş və onlar söhbət etməklə məşğuldurlar.

Şiraz hakimi Yaqub xanın
və onun fitnəkar adamlarının öldürülməsi:

Xülasə, qalanı tutmaq xatirinə Yaqub xana hələlik dəymədilər və o, həmin gün qətl olunmadı. Vaxtı ilə günahsız zülqədərləri özünün qazdığı quyuda həbs edən Yaqub xan bu dəfə quyuya özü düşdü. Ona bir kağız yazdırıb qalaya göndərdilər ki, etibarlı adamları qalanı qoy şah dərgahının mülazimlərinə təhvil versinlər. Amma, qaladakılar həmin yazıya əməl etməyib qalanı vermədilər, belə məlum oldu ki, belə hərəkət etməyi Yaqub xanın özü onlara tapşırıbmış. Qaladakılar bir neçə gün müxalifət və qaladarlıq etməkdə qaldılar. Həmin günlər ərzində Yaqub xanın qəhr qılıncı ilə öldürdüyü zülqədərlərin varisləri onu hər gün quyudan çıxarır, quyu başında başı aşağı asıb cəzalandırırdılar. Onun nalə və nifrini fələyə ucalırdı. Qalanın təhvil verilməsi xəbəri onun israrlı mülazimlərinə çatdırıldıqdan bir neçə gün sonra zülqədər ağsaqqalları öldürülməsinə boyun olub xanın qətlini tələsdirdilər. Əlahəzrət şah Yaqub xanı zülqədərlərə verdi, onlar da günahsız adamlarının qisasını almaqdan ötrü onun işini bitirdilər.

Yaqub xanın öldürülməsindən sonra bir dəstə Fars camaatı, xüsusiylə Hüseynqulu Sultan Siyahmənsur dağa üz tutdu, oraya çıxmağın çətin iş olduğunu bilən adamların gözləri qarşısında cəldliklə dağa dırmaşdı, özünü onun zirvəsinə çatdırdı. Qaladakılardan bixəbər şeypur və bərqu (?) çalıb qalanı tutdular və bəd işlər görənlər öz əməllərinin cəzasını çəkdilər.

Bu hadisə baş verən vaxt Kirmandan - Fərhad xanın yanından bir adam gəlib Kirman işlərinin lazimi qaydada bitdiyini və qalanın fəth olunma xəbərini gətirdi. Məsələ belə baş vermişdi:

Fərhad xan Kirmana yaxınlaşarkən, əfşar tayfalarına istimalətnamələr yollayaraq, qədim vaxtlardan Vəlixanın mülazimləri olmuş kirmanlıların indi də mülazimlik etmələri haqda tapşırıq vermişdi. Fərhad xanın və Vəlixanın gəlmələrindən xəbər tutan əfşar tayfası qorxuya düşdü, özlərinin dincliklərini və sağ-salamat qalmalarını Yusif xandan (Kirman hakimi - Ş.F.) əl üzüb şahsevənlik izhar etməkdə gördülər və dəstə-dəstə gələnlərin qarşısına çıxıb onların əllərini öpməklə şərəfləndilər.

Əy alət və istiqlal taxtında əyləşən Yusifxan camaatın onlara tərəf üz tutduqlarından və Fərhad xana birləşmələrindən xəbər tutdu. O, həmin adamlardan inciyərək özünün iki-üç yüz qədim mülazimi ilə qalaya gedib, oraya sığınmağı və qaladarlıq etməyi qərara aldı. Fərhad xan isə şəhərə gəlib qalanı mühasirə etdi, Yusif xanın yanına adam yollayaraq xoş sözlərlə onu itaət yoluna dəvət etdi və boyun oldu ki, onun qüsurunun əfv olunmasını şahdan xahiş edəcəkdir. Məktublaşma, əhd-peyman və təkrar-təkrar gedişgəlişdən sonra Yusif xan etdiyi əməldən peşiman olub sülhə tərəf rəğbətləndi, qaladarlığı tərk edib oradan çıxdı, Kirmanın hakimi olmaq həvəsini başından çıxardı, əlini acizlik və biçarəlik ətəyinə uzatdı, fəqət canının sağ-salamat qalması ilə kifayətləndi, inzivaya çəkilərək dua oxumaqla məşğul olmağı qərara aldı. Fərhad xan onun bu ağıllı çıxış yolundan razı qaldı, vəd etdi ki, ağlının azlığı, nadanlığı və Yaqub xanın təhriki ilə etdiyi taxsırlarının bağışlanması xüsusunda şahdan təvəqqe edəcəkdir. Xülasə, qala güclü qazilər tərəfindən zəbt olundu. Vəlixanı və İsmayıl xanı Kirmanda qoyan Fərhad xan həmin vilayətin işlərini ürəyi istəyən kimi qaydaya salıb, Şiraza qayıtdı. Əlahəzrət Fars vilayətini nizamladıqdan sonra Yəzd yoluyla İsfahana yollandığı vaxt Fərhad xan gəlib çatdı, şəhər yaxınlığında onun ayağını öpməklə şərəfləndi, Yusif xanı boynu qılınclı, əyni kəfənli halda ali dərgaha gətirərək onun cəzalandırılmasını xahiş etdi. Yusif xan şahanə mürüvvətə arxalandığı, yersiz hərəkətlərindən çəkindiyi, boynundan qılınc asıb gəldiyi üçün şahanə tərzdə əfv olundu, canı əmin-amanlıq tapdı. Amma, Yolu bəy Kirmanda Fərhad xanla düşmənçilik vəziyyətinə düşdüyü gün Yusif xanın köməyi ilə yenidən üsyana başlamaq istəmişdi.

Yolu bəyin öldürülməsi:

Amma, məsələdən xəbərdar olan bir şəxs bu xəbəri Fərhad xana çatdırdı və Yolu bəy onun bir mülaziminin əli ilə öldürüldü.

Elə o günlərdə, adlı-şanlı şahzadə Sultan Heydər Mirzə ilə birlikdə Rum elçiliyinə getmiş Mehdiqulu xan Çavuşlunun mülazimləri geri qayıdıb bildirdilər ki, rum hökmdarı məşhur şahzadəni ləyaqətlə qarşılamış və sülh müqaviləsi isdədikləri kimi də imzalanmışdır, Mehdiqulu xanın özü isə tezliklə sultandan izn alıb məhəbbət ayinli məktubla qayıdacaqdır. Bu xəbər hamının (kafeye-xəlayeq və ibadullah) ürəyindən olduğundan, dövlətin qüdrətinin daha da artmasına səbəb oldu.

Xülasə, Fərhad xanın gəlişindən sonra əlahəzrət hümayun ordunu Şirazdan İsfahana rəvan etdi, özü isə Təbrizə tərəf təşrif apardı. Fərhad xan da müqəddəs hümayun ordu ilə birlikdə yola düşdü. Elə ki, o ürəkaçan yer şahın hümayun qədəmlərindən yaraşıq tapdı, mirmiranın oğlu Şah Xəlilullahın yaşadığı Bağgülşən din xosrovunun dincəlməsindən ötrü onun aramgahına çevrildi. Şah Xəlilullah mizbanlıq fəaliyyətinə başlayıb layiqli xidmət göstərdi. Elə oradaca, Vəlixanın sabiq vəziri olan və Kirmanda cidd-cəhdlə çalışan cənab Hatəm bəyə şahanə bir şəfəqqət edildi, ona uca mənsəbli dövlətin baş vəziri vəzifəsi (mənsəbe-rəfiülqədre-məmalike-məhruse) verildi. Əlahəzrət həmin gözəl yerdə bir neçə gün eyş-işrətə qurşandı, mülk əhalisinin işlərini yola qoymaqla məşğul oldu, ürəyi sınıq adamların yaralarını sağaltdı, rəiyyətin və kasıb-kusubun mətləb və iddialarını həll etdi və atının yürüş cilovunu İsfahan darüssəltənəsinə tərəf çevirdi, Nəqşi-cahan mübarək dövlətxanası bir daha dünyanı tutan şəhriyarın (şəhriyare-gitisetan) iqamət yerinə çevrildi. Şalı bir ayadək cənnətnişan İsfahandakı adamların mətləblərinin həlli ilə məşğul oldu.

Təbərrük qalasının dağıdılması əmri:

Həmin ilin tale hadisələrindən biri də budur: Təbərrük qalasının kutvalı Əhməd bəy Kərampa humayun şahın [İsfahanda] olmadığı vaxtda qalaya çoxlu azuqə və başqa zəruri şeylər toplayaraq, işlərini ləyaqətlə idarə edirdi və şahzadələr o qalada yaşayırdılar. [Amma] Əhməd bəy sözbaz adamların tənəsinə məruz qaldı və onu əsassız yerə günahlandırdılar. Əlahəzrət bu sözlərin

düzgün olmadığını bilirdisə də, amma ehtiyatı əldən vermirdi. İsfahan əhalisi bu qalanın məmləkətin narahatlığına və rəiyyətin əvvali-ruhiyyəsinə təsir edəcəyini düşünüb oranın dağıldılmasında təkid edirdi. [Buna görə də] nəvvab şah İsfahan əhalisinin fikri əleyhinə getməyərək, qalanın dağıldılmasını əmr etdisə də, lakin şahzadələrin gələcəyi və onların yerləşdirilmə yeri barədə tərəddüd içində idi. Amma, dövlətxah adamların hamısı beyinlərində hökmranlıq havası olan şahzadələrin öldürülməsini tələb edirdi. Şah isə mərhəmət göstərib şahzadələrin öldürülmələrinə razılıq vermirdi. Nəhayət hamının razılığı və onlardan gələ biləcək fitnəkarlığın önünü almaq məqsədi ilə onların fitnə çıqarları olan iki gözlərini görmək işığından məhrum etdilər, şahzadələr də bir neçə günlük fani həyata ümidvar oldular, "ara-sıra"[556] onların beyinlərini çulğulayan fikirlərdən bir qədər asudələşdilər. Onları Ələmut qalasına göndərdilər, əmrə müvafiq olaraq şahzadələrin yaşamaları üçün zəruru olan şeylər müəyyənləşdirildi və Təbərrük qalası dağıdıldı.

Beyt

Fələyin birinci işi deyil bu,
Belə iş çox görüb fələk doğrusu.[557]

Kor Həsən Ustaclunun öldürülməsi:

Şah İsfahandan çıxıb Qəvzin darüssətənəsinə doğru yönəldi Kaşanda ustaclı tayfasının böyüklərindən və şahın xidmətində duranlardan biri olan Kor Həsən Ustaclı, Mürşidqulu xan dövrünün tərbiyət görənlərindən olduğu üçün etibarsız çıxdı, çətr qorçisi Həsən bəy Qorçinin əli ilə öldürüldü. Əlahəzrət Qəzvin darüssəltənəsinə təşrif apardı, adlı-sanlı atası ilə birlikdə səltənət paytaxtında məkan etdi. O vaxtlarda cənnətməkan şahın mötəbər əmirlərindən və Çuxur-Sədin əmirülüməraşı olan Məhəmmədi xan Toxmaq bir neçə müddət rumilərin əlində qaldıqdan sonra Rumdan qayıdıb Ərdəbil və Muğanda yaşayırdı. O, şahın yanına gələrək lütfkarlıqla qarşılandı. Əlahəzrət şah qış fəslini Qəzvin

[556] İfadənin ərəbcəsi: "ənən fəənən".
[557] Beytin tərcüməsi:
Fələk-ra nəxostin nə inəst kar, Bəsi yad darəd əz in ruzigar

darüssətlənəsində şadlıqla keçirdi, istirahət və kamranlıqla məşğul oldu.

XOŞBƏXTLİK VƏ SƏADƏT İLİ OLAN HİCRİ TARİXLƏ MİNİNCİ (MİLADİ 1591/92), TÜRKİCƏ İSƏ DOVŞAN İLİ VƏ HÜMAYUN CÜLUSUN BEŞİNCİ İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR

Qış fəsli sona çatdı və bahar küləyi paklıq və yaşıllıq çağırışına (səla) başladı, bağ və bostanların işrət yerləri (eşrətsəra) güllərlə bəzəndi.

Şer

Cahan içrə elə oldu havanın təsiri ki,
Qoca dünya bu cahan şahı kimi oldu cavan.[558]

Cahanı işıqlandıran novruz cəmadül-əvvəl ayının iyirmi beşində çaharşənbə günü başlandı. Dünya xosrovu (günəş - Ş.F.) həməl şərəfxanasında yerləşib cahanı bəzədi. Cəm məqamlı hümayun şah Qəzvinin Səadətabad bağında şahanə bir bayram məclisi bəzədi, bir neçə gününü həmin kövsər bağında işrət və şadyanalıqla keçirdi. Şahın nurlu xatiri vəziri Mirzə Lütfüllahdan, oğlunun nalayiq hərəkətlərinə görə incidiyi üçün, onu vəzirlikdən kənar edib, ağıllı tədbirli, əxlaqlı və müstovfülməmalik olan Hatəm həy Ordubadini həmin yüksək mənsəbə təyin etdi və o etimadüd-dövlə ləqəbinə layiq görüldü. Həmçinin hümayun cülusdan əvvəl əzəmətli qorçilər silkinə daxil olan, sonra isə yüzbaşılıq rütbəsinə qədər yüksələn Allahqulu bəy Qapanoğlu Qaçarı şah bu il şahanə lütflə şərəfləndirib, qədri böyük və səltənət işlərində mühüm, əzəmətli yeri və ehtiramı olan uca qorçibaşı mənsəbinə layiq gördü. Elə o günlərdə də, sərhəd paşaları tərəfindən göndərilən Rum elçiləri gələrək, sülh sazişinin daha da möhkəmlənməsi xəbərini gətirdilər. Onlardan sonra Ruma elçilik qayda-qanunu üzrə gedən Mehdiqulu xan sülh sazişini lazimi kimi hazırlayıb, hakim olduğu Ərdəbildən

[558] Şerin farscası:
Ze etedale həva, ya ze dovre-çərxe-əsir,
Ço əhde-şahe-cəhan tazə gəşt aləme-pir.

şahın ayağını öpməyə gəldi, töhfə və hədiyyələrini təqdim edərək, xandgardan gətirdiyi sülh şərtlərinin təzələnməsi xüsusundakı məktubu hümayun nəzərə çatdırdı. Rumun müsbət fikirli şəxsləri bu ili xoşbəxt bir il kimi yadda saxladılar. O məktubda abbasi qələmlə (xame) ən yaxşı (xame) sözlər yazılmışdı.[559]

Mehdiqulu xanın öldürülməsi:

Həmin əyyamda baş verən hadisələrdən biri də budur: Mehdiqulu xan otuz - qırx gün şahın xidmətində qaldı. O, çavuşlu oymağından həmçinin Mürşüdqulu xanla Məhəmmədşərif xanın qohumu olduğundan, Məhəmmədşərif xanın Gilana qaçıb bəzi xətalara yol verməsi səbəbindən şahın mübarək xatiri bütün çavuşlulardan incik idi və o çavuşluları iddiaçı adamlar kimi tanıyırdı.

Buna görə də şah Mehdiqulu xandan döndü. Xan isə ağıllı və hüşyar adam olduğundan bunu anladı. Şah xanın məsələdən agah olduğunu bilib ehtiyatkarlıq edərək onu həbs etdi. Qəza qəhrəmanı onun həyatının kəsilməsi xüsusda fərman verdiyi üçün öldürüldü. Qardaşlarından dəvatdar olan Muradxan bəy fərar edib Rum ülkasına getdi. Buna görə, başqa qardaşı Əhməd bəy də öldürüldü.

Onların cəzalandırılmasından sonra ustaclı oymağından olan və şahın şəfqətinə yetişən "Caharğav" ləqəbli Mürşidqulu Sultan Qoçulunu, Məhəmmədşərif xanı və başqa fərar edənləri tutub ali dərgaha gətirilməsi üçün Gilana yollandılar.

[Mürşidqulu xana dedilər ki,] əgər Xan Əhməd onları himayə edərək ələ verməzsə, orada qalıb, məsələni ərz etsinlər.

Xan Əhməd fərariləri geri qaytarmaq barədə şahın fikrini bildiyindən, onlan mənasız himayə etməkdən əl çəkdi, Mürşidqulu xan da onları tutub ali saraya gətirdi. Fərarilərin cəzalanmalarını ləngitməyin böyük fitnə - fəsada səbəb olacağını bilən şah dərhal onları qətlə yetirdi. Buna görə də şah Xan Əhməd tərəfindən göstərilən diqqətə və xanın onun möhtərəm anası ilə qohumluğuna, həmçinin bu xanədana münasibətinə görə bəzi xoşagəlməz rəftarını bağışlayıb şahanə nəvazişlərlə mükafatlandırdı, qiymətli xələtlərlə şərəfləndirdi.

[559] Qeyd: İskəndər bəy Münşi müxtəlif mənalı iki "xame", yəni, "qələm" və "ən yaxşı" mənasını verən sözü işlətməklə öz məharətini göstərmişdir.

Bu il Həmədan hakimliyi və Bağdadın sərhədinə qədər bütün Əlişəkər vilayətinin əmirəlüməralığı şahzadə Məhəmməd Bağır Mirzəyə verildi, bayat eli isə onun mülazimlərinə təyin olundu, Uğurlu Sultan Bayat bu şahzadənin vəkili kimi Həmədana yollandı. Rumillərlə sülh sazişi hər iki tərəfin əsir götürülən adamlarına da aid olduğundan, bir neçə paşa Təbriz döyüşlərində giriftar olub Qəhqəhə qalasında saxlanmış Sima Murad paşanı ordan çıxarıb Ruma rəvan etdilər. Rum tərəfindən isə Şahrux xan Möhrdar Mehdiqulu xan Şamlı, Qorxmaz xan Şamlı və yoldaşlarını bir-birinə qoşub bu tərəfə yolladılar. Şahrux xan yolda xəstələnib vəfat ctdi, başqaları gəlib çatdılar.

Qorxmaz xanın Şah Abbasın əli ilə öldürülməsi:

Amma Qorxmaz xan keçmişdə sədaqətsizliyi, yaxud dövlətxahsızlığı üzündən etdiyi bəzi əməllərinə görə, həmçinin onun Mərziyyə bəyim ilə əhvalatı, Mehdiqulu xanın atası Hüseyn quli Sultanın Təbrizdə Əmir xanın təhriki və vəzifəyə gətirilməsi (təcviz), əlahəzrətin lələsi olmuş Əliqulu xanın atası Sultan Hüseyn xana qarşı müxtəlif alçaq əməllərə giriftar olması səbəbindən, "Çehelsütun" qəsrinin qabağında şahın hümayun gözünə dəydiyi ləhzə, şahanə qəzəb şöləsi alovlandı və əlahəzrət onu öz mübarək əli ilə cəzasına çatdırdı. Mehdiqulu xan isə iltifata yetib irsi eşikağası mənsəbinə layiq görüldü.

Qara Dövlətyar xanın öldürülməsinin səbəbi:

Başqa hadisələrdən biri Dövlətyar xan Siyahmənsurun üsyanıdır. O, cənnətməkam şahın vaxtındakı əmirlərdən idi və mərhum şahzadə Sultan Həmzə Mirzənin xidmətində dururdu. Türkmanlar Qorxmaz xanın və təkəlilər arasındakı münaqişələr zamanı onun tərəfindən yaxşı xidmətlər baş verdiyindən əmirlik mərtəbəsinə yüksəliş Sultaniyyə və Səncas tərəflərdə ona ulka və tiyul verilmişdi. Mərhum şahzadənin vəfatı qəziyyəsindən sonra ayağını həddindən çox geniş atmış, Səcasda qala tikmiş, çoxlu azuqə yığaraq həmin vilayətdə müstəqillik təbili döymüşdu. Əbu Talıb Mirzə ona əhəmiyyət vermirdi, amma əlahəzrət şahın cülusundan sonra öndə Xorasan səfəri olan Mürşidqulu xan onun işçilərini görüb, xanı dəf etmək fikrinə düşdü. Bundan sonra əlahəzrət

zilləllah şah Hüseynəli Sultanı onun üstünə göndərdi. O, qalanı bir neçə müddət mühasirədə saxladısa da, bir iş görə bilməyib geri qayıtdı. İraq, Fars və Kirman işlərini yoluna qoymaq kimi böyük işlərlə məşğul olan şah xırda işlərə baş qoşmayıb Şiraza və İsfahana yollandı. Dövlətyar xan hümayun ordunun oralardan uzaqlaşması səbəbindən üsyan etmək fikrinə düşdü, yaxın vilayətlərə əl uzatmağa başladı. Bir dəstə talesiz kürd onun ətrafında toplaşıb, yolkəsən quldurlar kimi müsəlmanların var-dövlətini qarət etdi və xan toplanmış malları qalaya gətirib öz mülazimlərinə payladı.

Dövlətyar xanın qətli:

Əlahəzrətin Qəzvin darüssəltənəsində olduğu bu ildə Dövlətyar ona mülazimlik etməkdən boyun qaçırıb cahana pənah verən dərgaha gəlmədi, hələ üstəlik də ona heç bir aidiyyəti olmayan Sultaniyyə, Əbhər, Zəncan, Tarom, Dərczin və ətrafdakı başqa yerlərə öz qarət əlini uzadıb, rəiyyətə və aciz adamlara əzab-əziyyət verməklə məşğul oldu.

Xülasə, xanın yöndəmsiz hərəkətləri həddini açdı və şahanə qərar onun dəf olunmasını zəruri sandı. Vəziyyətin başlanğıcında Mehdiqulu xan Şamlını, ardınca isə Qum hakimi Hüsyen xan Qorçiye-şəmşire-Şamlını onun ardınca yolladılar və onlar gedərək qalanı mühasirəyə aldılar. Nəhayət, Dövlətyarın vəziyyəti çıxılmaz oldu və o, Hüseyn xan Şamlıya dedi: "Qızılbaşlarla, xüsusilə də şamlılarla qan düşməni olduğum üçün saraya gedə bilmərəm. Əgər hümayun ordu bu tərəfə gələrsə, mənim barəmdə hər hansı bir hümayun fikrin yerinə yetirilməsindən ötrü özümü hümayun şahın ayağı altına ataram".

Hüseyn xan onun sözlərini şaha ərz etdi. Əlahəzrət Gözəldərəni seyr etmək və ov ovlamaq məqsədilə o tərəfə yollandı və qalanın yaxınlığına gəlib çatdı. Qalanı müdafiə etməkdən təkgə gəlmiş Dövlətyar xan ona oluna biləcək kömək və mədəddən məyus oldu, qəflət badəsinin bihuşluğu və özünün özbaşınalığından azacıq huşa gəldi, qaladan çıxmaqdan başqa bir çarə görməyib, əlahəzrətin qala yaxınlığına çatdığı elə həmin gün qaladan çıxdı. Şahın cahandarlığının əvvəli olduğundan və düşmənlərin cəzalandırılması vacib bilindiyindən, onun qəzəb tonqalı elə şölələnmişdi ki, həmin tonqalı qılınc zülalından başqa heç nə söndürə bilməzdi. Dövlətyar əfv xüsusunda şöhbətə başlayan ləhzə həbs olundu və qala

məğlubedilməz dövlətin əlinə keçdi, fələyin hökmü ilə viran edildi. Dövlətyarı Qəzvinə gətirdilər və Səadətabad meydanında onun xırmanını yoxluq küləyi ilə söndürdülər.

Əmir Həmzə xan Talışın yağı olması:

Həmçinin ağıllı və xoşrəftar şah zamanında ali dərəcəli əmirlərdən və bu xanədanın sadiq bəndələrindən Bayandur xan Talışın oğlu Əmir Həmzə xan özünü atasından daha böyük və ağıllı bilib, Azərbaycanda hakimiyyətin zəif olduğu və Əbu Talib Mirzəçilərin iqtidarı günlərində atasını öz irsi ülkasından məhrum etdi. O, habelə onun torpaqlarına yaxın məsafədə yerləşən Gilanata və Kəskərə də dəxalət edirdi. Bütün Talışın və o ərazilərdə olan başqa yerlərin hakimləri ona tabe olub istər-istəməz öz istəklərini bildirmişdilər. Şahın dövlətgünəşi Xorasan üfüqündən göründüyü vaxt hələ Mürşidqulu xanın vəkalət əyyamı davam edirdi və hələlik səltənət qəsrinin qayda-qanunu zəif idi. Əmir Həmzə xan başqalarından fərqlənib, o ətrafın bütün əmirlərindən tez ali saraya gəldi. Bütün işləri öz əlində cəmləşdirən Mürşidqulu xan onu istəyinə uyğun olaraq (məqziül-məram) yenidən öz yerinə təyin edib geri göndərdi. Əlahəzrət ölkə işlərinin cilovunu artıq iqtidar əlinə aldığı günlərdə qoşunun və rəiyyətin vəziyyətini yaxşılaşdırmağa başladı, öz tərəfdarlarını bir-bir ələ gətirdi və məmləkətin hər yerini fitnəkar adamlardan təmizləməyə başladı. Əmir Həmzə xan isə ixtiyarındakı Sindan qalasının möhkəmliyinə arxalanıb onu özünün əmniyyət yeri sandı, əvvəlki xasiyyətinə uyğun olaraq ali saraya gəlmədi. Elə o günlərdə Azərbaycan vilayətindəki işlərin nizamlanması Fərhadxanın qardaşı Zülfüqarxana, Əmir Həmzə xanın özbaşına zəbt etdiyi Lənkəran (Ləngərkonan) ülkası isə Fərhad xanın [başqa] qardaşı Əlvənd Sultana verildi.

Əmir Həmzə xanın Əlvənd Sultanla cəng etməsi və məğlubiyyəti:

Əmir Həmzə xan ona tabe olmayıb, müstəqilliyini öz əlində saxladı. Şah Ərdəbil darülirşadında əyalət hakimi olan Məhəmmədi xan Toxmağı Sədrəddin xan Səfəvinin övladları, şeyxavənd tayfası və şahsevənlərlə birlikdə Əlvənd Sultanı, o yerlərin hakimi kimi bərqərar etməkdən ötrü, həmin istiqamətə

göndərdi. Məhəmmədi xan və adı çokibn o camaat hümayun fərmanı icra etmək məqsədlə yola düşdülər. Əmir Həmzə xan isə qürur hissinə qapılıb üç-dörd min talış süvarisini toplayaraq savaş məqsədilə irəli çıxdı. Hər iki tərəf arasında başlanan hərb məğlubedilməz dövlətin Əmir Həmzə xan üzərində qələbəsi ilə başa çatdı və onun adamlarının böyük hissəsi qılınca yem, oxa hədəf oldu. Əmir Həmzə məğlubiyyətlə özünü Sindan qalasına atdı, oranı möhkəmlətdi, eşiyə çıxmaqdan boyun qaçırdı. Cahanı bəzəyən rəy belə oldu ki, gərək qalanı onun əlindən alsınlar, əgər ondan sədaqət, birüzlülük və peşimançılıq zahir olarsa, qalibiyyət və sadiqliyinə münasib şəfqətlənsin, yox əgər başında yenə əvvəlki qürur tüstüsü dolanarsa, həmçinin ondan üsyankarlıq əlamətləri zahir olarsa, cəzalandırılsın. Tirü kaman qorçisi Həsən xan Çavuşlunu bu təklifi yerinə yetirməkdən ötrü göndərdilər. Əmir Həmzə qorxub Həsən xan və yoldaşlarının yanına getmədi.

Sindan qalası böyük bir dağın yüksəkliyində yerləşdiyindən öz ucalıq və genişliyinə görə fələklər fələyi ilə yarışmaq iddiası edirdi. Qalanın hündür bürclərində qərar tutan adamları səma şahlığının bürcərində dayananlarla dəmsaz, gecələr oyaq qalan gözətçiləri isə asiman qalasının mühafizəçiləri ilə həmavaz idilər.

Beyt

Uçan daş o dağın mançağından
Bir qərndən sonra çatar Keyvana[560]

Həqiqətən də böyük bir qaladır. O hündür dağın və qalanın ətəyi meşə və cəngəllikdir ki, fəqət bircə yolu vardır. Elə dar yoldur ki, hətta bir nəfər piyada adamın belə gediş-gəlişi olduqca çətindir. Əmirlər qala ətrafindakı münasib bir yerdə dayandılar, gediş-gəliş yollarını bağlayıb, həmin ülkanı zəbt etdilər. Talış camaatı öz dövlətxahlıqlarını izhar edib əmirlərin yanına gələrək, onlara tapşırılan işləri yerinə yetirməyə başladılar. Əmir Həmzə xan öz xudfəsəndliyi və dəyişkən hərəkətlərindən peşiman oldu şahın xidmətinə yalvarışla dolu bir ərizə yollayıb ərz etdi: "Hal-hazırda

[560] Beytin farscası:
Ze səngəndaze-u səngi ke cəsti,
Pəs əz qərni səre-Keyvan şekəsti.

Azərbaycanın müstəqil hakimi olan Hüsam bəy Qaramanlı övladı ilə bizim xanədan arasında düşmənçilik vardır və qanlar axıdılmışdır, buna görə də onlar məndən intiqam almaq istəyirlər, elə bu səbəbdən qaladan kənara çıxa bilmirəm. Xahiş edirəm ki, qalanı təhvil verməyimdən və əlahəzrəti ziyarət etməyimdən ötrü mənə icazə versinlər".

Əmir Həmzə xanın bu xahişi qəbul olundu və Qum hakimi Hüseyn xan Şamlını onun yanına göndərdilər. Hüseyn xan qala ayağına çatdıqda, Əmir Həmzə xanı arxayın etməkdən ötrü Zülfüqar xanı və qaramanlı camaatını qala yaxınlığından uzaqlaşdırdı. Əmir Həmzə xan öz vədinə əməl edib qaladan çıxdı, oğlanlarını mülazim yollayaraq, özü arvad və qızları ilə birlikdə Şirvan yolu ilə aradan çıxdı. Hüseyn xan fərmana müvafiq olaraq qalanı Zülfüqar xana verib ali saraya gəldi.

Əmir Həmzə xanın Rum ölkəsində öldürülməsi:

Əmir Həmzə xan imamların qəbrini (ətəbate-aliyyat) ziyarət etdikdən sonra Şirvana qayıdıb, qədim vaxtlardan etibarən Hüsam bəy övladları ilə özlərinin arasındakı düşmənçilikdən qorxdu, bu tərəfə gəlməyə cürət etmədi, Şirvanda rumilərin arasında qaldı. Nəhayət, Əmir Həmzə xanın yoldaşı olan talış sufilərindən biri onun uzun müddət rumiyyə arasında dostcasına yaşadığını əldə əsas tutaraq, fürsət tapıb boynunu baş ağırlığından yüngülləşdirdi, aradan çıxıb Əmir Həmzə xanın başını ali saraya gətirdi. Amma, şah onun xanədanının sabiq xidmətlərini və qədim sadiqliyini nəzərə alıb, Əmir Həmzənin oğlanlarını şəfqətləndirdi, onları saray qulamları silkinə mənsub etdi.

Xülasə, bu məsələlərin baş verməsindən sonra Həsən xan Cavuşluya hökm olundu ki, ağsaqqal, huşyar və işbilən adam olan hümayun dəftərxana darüğəsi Bəstam ağa Türkmanı, Azərbaycanın sərhədlərini təyin etmək üçün, yollasın. Bostam ağa fərmanı yerinə yetirməkdən ötrü o istiqamətə gedib, Rum xandgarı tərəfindən Naxçıvan hakimi olan Xızr paşa ilə birlikdə o zamanın tələbi çərçivəsində sərhədləri müəyyənləşdirərək geri döndü.

Bu il, neçə illərdən bəri istiqlaliyyətdən dəm vuran və Əlişəkər sərhəddində yaşayan çoxlu el, ulus və qəbilələri köçürüb öz vilayətinə aparan və özünü Ruma tabe adam hesab edən Lurkuçek hakimi Şahverdi xan Əbayi Məhəmmədi xan oğlu qızılbaşlar və

Rum dövləti arasında sülh bağlandığını eşidərək ali dərgaha adam yollayıb, belə əhd etdi: "Əgər onun keşmişdə etdiyi zillətlər üzərindən əfv qələmi çəkilərsə, bundan sonra bəndəlik və [şaha] bağlılıq yolunda möhkəm dayanacaqdır." Adı çəkilən Lur sülaləsi və Lur abbasiləri qədim dövrdən bəri şiə və əhli-beyti sevən adamlar olduqlarından əlahəzrət Şahverdi xanın keçmiş əməllərini əfv etdi və ona lütfkarlıq göstərdi. Maqsud bəy Nazir onun ürəyini sakitləşdirməkdən ötrü Luristana gedib, ona növbənöv şahanə mükafatlar verərək geri döndü, Şahverdi xan isə qəbul olunmuş qaydadan daha artıq təltiflərlə şərəfləndi.

FƏRHAD XANIN XORASANA GETMƏYİ, QAYITMAĞI, ƏBDÜLMÖMİN XANIN XORASANA GƏLİŞİ, ƏSFƏRAYİN QALASININ FƏTHİ VƏ ALLAHIN İRADƏSİ İLƏ BAŞ VERMİŞ BƏZİ HADİSƏLƏRİN ZİKRİ

Xorasan padşahı Hacı Məhəmməd xan həmişə bu xanədanla dostluq və birlik etdiyi üçün cənnətməkan şahın hakimiyyəti zamanı oğlu Məhəmmədqulu Sultanı cahana pənah verən dərgaha [girov] göndərmişdi. Tərəflər arasında yazışma və get-gəl davam etməkdəydi. Hər il baş verən hadisələrin şərhi zamanı yazdığımız kimi, son bu iki il ərzində Mavərənnəhr padşahı Ahdullah xan və onun oğlu Əbdülmömin xan Xorasan vilayətinin işğalına bel bağlayaraq oranı Məşhəd və Nişapura kimi ələ keçirdilər. Sədaqətli və qədim dostluğun təzələnməsinə səy edən Hacı Məhəmməd xan öz elçilərini dəfələrlə ali dərgaha göndərdi, elə bu tərəfdən də Məhəmmədqulu həy Ərəhgirli onun yanına elçi sifətiylə getmişdi. Bu ərəfədə ondan bu məzmunda məktublar gəldi: "Siz əgər özünüzün bir məşhur əmrini şüarları zəfər olan əsgərlərlə Xorasana göndərsəniz, mən dövlətxahınız da onlarla birlikdə gedib düşmənlərin şərinin dəf olunmasına çalışaram. Yoxsa, əgər Xorasan onların əllərinə keçərsə, onlar öz tamahlarını Xorasana bitişik olan Urgənc və Xarəzm vilayətlərinə də salacaqlar".

Buna görə də, bu ilin əvvəlində cahanı bəzəyən rəy belə oldu ki, özü Qəzvin darüssəstənəsində qalıb din və dövlətin zəruri işlərinin həlli ilə məşğul olsun, Fərhadxanı isə bir dəstə müzəffər əsgərlə Xorasana tərəf yollasın. Novruzun əvvəlində, xoş bir saat müəyyən olundu və Fərhad xanı yola saldılar. Dünyagörmüş və təcrübəli adam olan Məhəmmədi xan Toxmaq Əsəlməs xan

Möhrdar və bir neçə əmirlə onun köməyinə yollandı. Xorasan əmirlərinə bu məzmunlu bir məktub (yərlığ) yazıldı: "Onlar qoy Fərhad xanın ətrafında toplaşıb, onun məsləhətindən çıxmasınlar". Fərhad xana isə sifariş verib dedilər: "Əgər Abdulla xanın və Əbdülmömin xanın özləri Xorasana gələrlərsə, qəbul olunmuş qaydaya görə əmirlərin padşah qarısına çıxıb onunla cəng etmək səlahiyyətləri olmadığı üçün, cəngə girməsinlər, bir kənara çəkilsinlər, bu barədə dövlətə məlumat versinlər. Özbəklərin əlindən torpaqların geri alınması və bu güclü dövlət övliyalarının əlindəki yerlərin məsələsi zamanın tələbi və dövlətin məsləhəti ilə həll olunmalıdır. Bu işdə [Fərhad xan] qoy ciddi say etsin". Fərhad xan hümayun fərmana əməl edib məqsəd istiqamətinə rəvan oldu, öz gəlişindən Xarəzm padşahı Hacı Məhəmməd xanı agah etdi. Bəstam çəmənliyinə yetişəndə Hacı Məhəmməd xan artıq Nisə və Bağdad üstündə özü və Nurməhəmməd xan ibn Əbülməhəmməd xan ibn Din Məhəmməd xan arasındakı cəngə görə Bəstam hüduduna gəlmişdi.

Xarəzm padşahı Hacı Məhəmməd xanın Fərhad xan ilə görüşü:

O Fərhad xanın gəlişindən xəbər tutub Bəstama yaxınlaşdı. Fərhad xan münasib bir yerdə xeymə və çadır (xərgah) qurmuş, şahanə bir ziyafət hazırlığı görmüşdü. O, bir-iki fərsəx yol gedib xanı qarşıladı. Onlar görüşdülər va Fərhad xanın dayandığı yerə gəldilər. Rəsmi ziyafət va mərasimdən sonra bir-birlərinə töhfələr və hədiyyələr verdilər. Hacı Məhəmməd xan bu dövlətin mülazimləri ilə Abdulla xanın və oğlu Məhəmmədin dəf olunması xüsusunda əhd-peyman etdilər ki, bir-birlərinə
bu işdə köməklik göstərsinlər. Sonra ayrıldılar və hər biri öz ordusuna qayıtdı.

Fərhad xan oradan çıxıb Nişapura tərəf üz tutdu. Ox və kaman qorçisi Həsən xanın qardaşı Əbu Müslim xan Çavuşlu Əsfərayin hakimi idi. O hüdudda olan bayat və başqa tayfa əmirləri onun başına toplaşıb Nişapur qalasını mühasirə etdilər. Fərhad xanın gəlişi və onun Hacı Məhəmməd xanla ittifaq etməsi xəbəri Əbdülmömin xana Bəlxda çatdı. O, Bəlx, Bədəxşan, Hisari-Şadman, Əndxod və Sibirqan ləşkərləriylə Xorasana gəldi, ətrafa belə bir səs yaydı: "Abdulla xan Mavərənnəhr və Türküstan ləşkəri ila Xarəzmə hücum etmişdir". Bu xəbəri eşidən Hacı Məhəmməd xan Xarəzmə

tərəf qayıtdı. Fərhad xan da Əbdülmömin xanın gəlməsi xəbərini eşidərək bir qədər tərəddüd etdi, yanındakı əmirlər və ağsaqqallarla məclis keçirtdi. Bəziləri cəng etməyi söyləyir, başqa aqil və ağsaqqal adamlarsa cəngi məsləhət bilmirdilər. Fərhad xan fikirlərə qərq olmuşdu. Elə bu vaxt onun ətraf yerlərə xəbər-ətər tutmaqdan ötrü göndərdiyi xəbər tutanlar (xəbərgiran) geri qayıtdılar və bu xəbəri çatdırdılar: "Əbdülmömin xan hücumla gedib müqəddəs Məşhədə çatmışdır və hal-hazırda işıq və külək sürəti ilə buraya gəlməkdədir".

Bayat tayfa başçılarının Əbdülmömin xanın əmri ilə öldürülmələri:

Qızılbaş ləşkərinə qorxu üz verdi. Fərhad xana əlahəzrət tərəfdən Əbdülmömin xanla hərb etmək əmri ilə tapşığı verilmədiyindən o, cəngdən daşındı, şahın əmrinə qarşı çıxmağa cürət etmədi, Xorasan əmirlərinin hər birini öz qalalarını qorumaqdan ötrü ülkalarına göndərdi, Nişapura qayıtdı, bircə nəfər də qızılbaşı əldən vermədən Bəstama gəldi, vəziyyəti şaha ərz etdi. Şahın işarəsi ilə oradan Qəzvinə varid oldu.

Əbdülmömin xan isə, o iki gün ərzində Nişapura yaxınlaşdı və qızılbaşların oradan çıxıb-getmələrini böyük qələbə sandı, hücumla tez-tələsik gəldiyindən onun yanında çox adam yox idi. Özbəklərin gəlib toplaşdıqları bir neçə gündən sonra dərhal ləşkərini Nişapur və Bölükmədən ətrafında yaşayan bayat elləri üzərinə yolladı. Bayat ağsaqqalları Əbdülmömin xana itaət etməyi məsləhət bildilər və onların bir dəstəsi xanın yanına yollandı. Keçən ildən bəri ürəyində kin saxlayan və bir çox özbəyi qətl edən xan onların öldürülməyinə fərman verdi. Baba İlyasın oğlu Mahmud Sultan və bayat tayfasının əksər ağsaqqalı orada qətl olundu, qalanları isə qarət olunub pərişan vəziyyətdə ətraf yerlərə dağılışdılar. Mahmud Sultanın qardaşı cahana pənah verən dərgaha gəlib müzəffər orduya qoşuldu.

Əbdülmömin xanın Əsfərayin qalasını işğal etməsi və Əbu Müslim xanın öldürülməsi:

Xülasə Əbdülmömin xan bu il başqa Xorasanın mahallarını da tutmaq fikri və döyüşkən ləşkəri ilə Əsfərayin qalası

üzərinə gedib oranı mühasirəyə aldı. Əbu Müslim xan o qaladakı ustaclı, kürd və başqa qazilərlə birlikdə qalanın bürc və barılarının möhkəmləndirilməsinə başlayıb qaladarlıq ləvazimatı tədarükü ilə məşğul oldu. Əbdülmömin xan isə Əsfərayin qalasının fəthi üçün böyük səylər etdi, toplar gətirdi və qalanın mühasirə vəziyyəti dörd ayadək uzandı. Bir neçə yol şiddətli yürüş oldu. Qala camaatı mərdanəlik göstərdi. Hər bir yürüş vaxtı özbək bahadırlarının böyük hissəsi qətl edildi və qalanın xandağı öldürülənlərin cəsədləri ilə doldu. O qala cəngində təxminən dörd minədək özbək yox oldu. Hər dəfə də Əbdülmömin xanın qəzəb şöləsi artmaqdaydı. O, qalanın fəthi üçün öz səyini daha da çoxaldırdı. Yuxarıda yazıldığı kimi, əlahəzrət başqa zəruri işlərlə məşğul olduğundan bir neçə gün Xorasana getmək fürsəti tapa bilmədi. İşlərini görüb qurtardıqdan sonra Əsfərayin qalasını xilas etmək fikrinə düşdükdəsə, gec oldu və ona qalanın tutulması xəbəri gəlib çatdı.

Xülasə, Əbu Müslim xanın vuruşub qalanı saxlamaq cəhdindən dörd ay sonra, mühasirodokilərin vəziyyəti gərginləşdi. Onların taqətlərinin tükəndiyi axırıncı yürüş zamanı özbəklər bürclərə dırmaşıb qalanı aldılar, nəfəs belə dərmədən qətl-qarətə başladılar.

Əbu Müslim xan bir neçə cavanla bürclərin birində özünü hifz edərək üç gün döyüşdü. Kamanda oxu, yanında güllə və barıtı qalana qədər heç bir özbəkdə onun olduğu bürcü tutmaq cürəti olmadı. Tüfəng səsləri kəsiləndən sonra ox səfiri atılmaq səfərindən qaldı. Özbəklər onların daha hərb etmək hallarının olmadığını başa düşdülər, hücuma keçərək bürcü ələ keçirdilər. O şir kimi mərd insanlar öz qiymətli can matahlarını sədaqət, qeyrət və kişilik bazarında satıb, iti xəncər və qantökən qılıncla özbəklərlə əlbəyaxa oldular, mərdanəliklə qaçılmaz ölüm şərbəti içdilər. Həmin bürcün mühasirəyə düşənlərindən Keçəl Qubad Kolhəri onu tanıyan bir özbək bahadırı öldürmək istəmədi və qorudu. O, buna görə də özbək ordusu içərisindən sağ-salamat çıxıb İraqa gəldi, baş verənləri olduğu kimi mənə (İsgəndər bəy Münşiyə - Ş.F.) danışdı. Yuxarıda tərəfimizdən rəvayət olunduğu kimi, Tərşizin Susefid cəngindəki əbədsizliyinə göbə əlahəzrət şah Əbu Müslim xanın qətlindən çox da təəssüflənmədi.

Əbdülmömin xan Əsfərayinin fəthindən sonra Səbzvarı, Məzinanı, Cacərmi, Şəğanı, Curbədi və o hüduddakı başqa yerləri əlinə keçirərək, oralara hakimlər təyin etdi və Bəlxə qayıtdı.

İlin axırı olduğu, vilayətin dağınıq hala düşməsi və azuqə çatışmazlığına görə dünyanı bəzəyən şah Xorasana getməyi təxirə saldı ki, baharın əvvəllərində məmləkətlərin ləşkərlərini toplayıb mülklər alan bayrağı Xorasana tərəf dalğalandırsın. Əlahəzrət o qışda İsfahan darüssəstənəsinə təşrif apardı, oradan Yəzd darülibadəsinin seyrinə getdi, yenidən İsfahana döndü və qışın ardını həmin cənnətnişan yerdə keçirdərək, əhaliyə qayğı göstərmək və onları kama yetirməklə məşğul oldu, qışın sonunda Qəzvin darüssəltənəsinə qayıtdı.

SONU SƏADƏTLƏ NƏTİCƏLƏNƏN MİN BİRİNCİ (MİLADİ 1592/93) BALIQ İLİNDƏ BAŞ VERƏN VƏ HÜMAYUN CÜLUSUN ALTINCI İLİNƏ TƏSADÜF EDƏN HADİSƏLƏR

Tazəhdi hər yanı bir də bahar yelləri,
Ruzigarın seyqəli eylədi rahət canı.
Yağdı yağış, tərtəmiz oldu çəmən büsbütün,
Bayrağı xoş novruzun sayələdi dünyanı
Bimar o nərgiz gülü öldü baxıb güllərə,
Oldu o azad süsən zülfi-yazın heyranı.[561]

Bu ilin xoş amallı novruzu cəmadüs-sani ayının üçündə, şeşənbə gününə təsadüf etdi. Cəm məqamlı əlahəzrətin və ulduz sanlı qoşunu olan şahın mübarək fikri həmişə düşmənləri dəf etmək və Xorasan ölkəsini geri almağa yönəlmişdi. İranda hümayun cülusu və həzrət cənnətməkan şahın taxtına əyləşməsindən bu vaxta qədərki dövrdə o övliyalar sultanı, pak adamların seçilmişi, haqq, həqiqət və din qütbü mərhum Şeyx Səftnin və o həzrətin əcdadı olan uca məqamlı şeyxlərin ziyarəti şərəfinə hələ yetişməmişdi. Əlahəzrət bu vaxtadək Azərbaycanın süst vəziyyətdə olması və rumilərin müxalifət etmələrinə görə həmin səadəti ləngitmişdi.

[561] Misraların farscası:
Gəşt təravətfəza baz nəsime-bəhar,
Zəng ze delha zodud seyqəliye-ruzgar.
Rayəte-novruz gəşt sayefekən dər cəhan,
Şost ze əbre-bəhar səhne-çəmən əz ğobar.
Nərgese-bimar gəşt məhve-tamasaye-gol,
Susəne-azade gəst şifteye-zolfe-yar.

Şeyx Səfinin və başqa əzəmətli şeyxlərin ziyarətindən ötrü Şah Abbasın Ərdəbilə getməyi:

Yuxarıda yazıldığı kimi, sülh sazişinin bağlanması həyata keçdi və hamı o tərəfdən arxayınlaşdı. Şahın işıqlı fikrinə əzəmətli şeyxlərin pak məzarlarını təvaf etmək düşdü, səltənət taxtından çıxıb xoş bir vaxtda həmin müqəddəs yerə çatdı, ziyarətini təqdim etdi, oranın sakinlərinə sədəqələr verdi, şeyxlərin müqəddəs ruhlarından kömək istədi və Xorasana tərəf yola düşdü. Bu iki-üç il müddətində Azərbaycan vilayəti padşah fərmanlarından xali olduğu üçün, Qaracadağ hakimi Xəlifə Ənsarın oğlu Şahverdi xan özünün şövkət və iqtidar bayrağını orada dalğalandıraraq, iman və sədaqətdən uzaq işlər görməkdəydi və onun başında hələ də özbaşnalıq havası qalmaqdaydı. O, bundan əvvəl rumilərlə də münasibətdə olmuş və oğlunu Təbrizə Cəfər paşanın yanına göndərmişdi. Şahverdi xan tacını başından çıxarıb rumiyyəyə tabe olmuşdu. Sülh müqaviləsi bağlanandan sonra sərhədlər müəyyənləşdirildi və Qaracadağ ülkası bu tərəfin əlində qaldı. Gərək, ata-babadan bu xanədanın sufilərindən və sülalənin müstəqim tərəfdarlarından olan Şahverdi xan, özünün üsyan və qiyam çirkabına bulaşmış sədaqət ətəyini peşimançılıq suyu ilə yuyub, bu dudmanın səmimiyyət tacının qüdrəti ilə təmizlənmiş kamil mürşidin (qızılbaş şahlarına verilən "mürşidi-kamil" ifadəsi - Ş.F.) xidmətinə gələydi, rumilərlə etdiyi münasibətə vaxt ötdükcə "təqiyyə" (dini əqidəsini gizlətmə - Ş.F.) adı qoyaraq sabiq əməllərindən peşiman olaydı. Amma, o, bu səadətin uğurlu nəticəsini görmədi və ələpmə (ütbəbusi - Ş.F.) izzətinə yetməklə şərəflənmədi. Elə bu vaxtlarda da

Şer

İllərlə həmin dövləti ki, arzu edərdik,
Tapdı özü öz məqsədimə doğru gedib yol.[562]

əlahəzrət Ərdəbil darülirşadına gedərək sultanül-övliyanın (Şeyx Səfiəddin İshaqın - Ş.F.) şərafətli türbətini ziyarət etdi, amma

[562] Beytin farscası:
An dövləti ke mitələbidim salha,
Porside rahe-xane-vo xod bər dər amədе.

Şahverdi xandan səmimiyyət əsəri görünmədi və o, bu dərgahın torpağını öpməyə gəlmədi.

Şahanə himmət qısaca olaraq bu qayda üzrədir: bütün kafərlər (kafərnemətan - kafər çörəyi yeyənlər - Ş.F.) öz əməllərinə yetməlidirlər! Özlərinin özbaşınalıq çöllərində hava udub təmiz su içmiş olan bütün qızılbaş əmirləri gərək İran torpağından təmizlənsinlər! Əlahəzrət bir dəstə qulamla Allahverdi xanı, Şahverdi Sultanı ali dərgaha gətirməkdən ötrü göndərdi. O, isə bu xanədanın mülazimlərinə üz tutmayaraq fərar yolunu tutdu, özünü rumiyyə sərhədinə daxil olan yerə çatdırdı. Əlahəzrət onun vilayətinə başqa bir hakim təyin etdi və o sərhədin ilərini öz istəyinə uyğun şəkildə tənzimlədi. Bu xoşbəxt ildə baş vermiş hadisələrdən biri də budur: Hümayun Xorasan yürüşü qərara alınanda hamının fikri həmin yürüşə yollanmaq oldu və bu vaxt istər-istəməz (biixtiyar) bu hadisə baş verdi:

Aləmlər Pərvərdigarının köməyi ilə Gilan məmləkətinin fəthinin zikri

Ruzigar hadisələrinin eniş-yoxuş mərhələlərindən keçənlərə və gecə-gündüz yol gedən təcrübəli adamlara aşikardır ki, əgər bir insanın dövlət bəxtinin ulduzu iqbal övcünə ucalarsa vo o, bütün işlərdə möhkəm olarsa, dünyəvi işlərdə qəflətə uyub xəta etsə də, ona bəxt və səadət yar və mədadkar olar, aşağı enərsə dünya aqillərinin gözündə savab görünən əməlləri nəticə etibarilə xəta olar.

Şer

Həyatı qaralsa hir kəsin əgər,
Hər nə iş görsə də görünməz səmər.[563]

Belə bir vəziyyətə misal Xan Əhməd Gilanidir ki, fəzilət və bilikdə iddialı olmasına, qəddar zəmanənin dalğalanan bəhr burulğanında ona nəsib olan ağil və müdrikliyinin çoxluğuna baxmayaraq, İsgəndər şanlı nəvvabın ona olan ehsan və tərbiyətinin,

[563] Beytin farscası:
Ço tire şəvəd mərd-ra ruzigar
Həme an konəd keş nəyayəd bekar.

Gilanda mövcud əmin-amanlıq guşəsindəki rahatlığının qədrini bilmədi, bu dudmanla hiyləgərlik və fırıldaqlıqla (heyəl və tərrari) davranmaq fikrinə düşdü, istədi ki, sədaqət və əməlin müstəqim yolundan çıxsın. Amma, bilmədi ki, sədaqət bazarında satışa getməyən bu mal (məta) olduqca dəyərsizdir.

Misra

Sadiq ol ki, nə gətirsən apararsan onu da.[564]

Əvvəldə qələm [lelə] bəyan etmişdi: Üsyankar əmirlərin himayəsi ilə Xan Əhmədin yersiz hərəkətləri və bəyənilməz rəftarından şah incimişdi. O, xana qarşı şahanə diqqətsizlik göstərir, padşahanə etinasızlıq edir, xanı mükafatlandırmırdı. Son vaxtlar xandan iki-üç əməl baş verdi ki, hümayun kin-küdurətə səbəb oldu.

Əvvəla budur ki, asi əmirlər Gilana (Gilan!) gedib xanın himayə kölgəsinə sığınmışdılar. Xan Əhməd hümayun şahın razılığını almadan buna göz yummuş, asi əmirlərə hörmət göstərmiş, sədaqət yolundan dönmüş və vəkili Xacə Hüsaməddini Şirvan yoluyla İstanbula - Rum xandgarının yanına yollamış və ona ərz etmişdi: "Gilan vilayəti (Gilan!) mənim irsi mülkümdür. Mən onu açıq ürəklə ale-Osman dudmanına peşkəş verirəm. Sultan əgər rumiyyə əskərlərini dərya yoluyla Lahicana yollarsa, Lahican qalasını onlara təslim edərəm. Oradansa Qəzvinə qısa bir məsafə vardır və İraqın fəthi asanlıqla baş verəcəkdir". Bu xəbər hümayun şaha çatdıqda onun təəccübünə səbəb oldu. Şah məclislərinin iştirakçılarından bir nəfər hümayun şahın işarəsi ilə Xan Əhməd xana belə dedi: "Əgər o, səhv və xətasını boynuna alıb, etdiyi hərəkətdən əl çəkərək, deyərsə ki, şahanə heysiyyətin qorxusu və şahın mənə iltifatsızlığına görə belə bir xəta məndən üz vermişdir, əfv oluna bilər". Xan Əhməd xan isə düzgün yol tutmaqdan sərf-nəzər edib həmin sözdən boyun qaçırmış və belə demişdi: "Xacə Hüsaməddin Məkkeyi-müəzziməyə getməyi məndən xahiş etmişdi, mən onu Ruma göndərməmişdim və bundan heç xəbərim də yoxdur". Amma, rumiyyə ilə sülh müqaviləsinin bağlandığı bu günlərdə etibarlı bir şəxs İstanbuldan gələrək Xacə Hüsaməddinin

[564] Misranın farscası:
Sedq piş avər ke, inca hər çe arənd an bərənd.

səfərinin səbəbi və onun Xan Əhməddən apardığı məktub barədə olduğu kimi məlumat verdi. Şah belə bir haramzadəlikdən olduqca incidi və onun qəzəb alovu elə şölələndi ki, həmin alov Xan Əhməd sülaləsinin qırılmasından başqa heç nə ilə söndürüb bilməzdi. Bir daha aydın oldu ki, o dudmanın üzvləri şahla hiyləgərlik və yalançılıq yolu ilə davranmaqdadır, buna görə də, daha xanın tənbeh olunub cəzalandırılmasından çəkilmək olmaz. Əlahəzrət zilləllah şah xana qulaqburma verməyi vacib bilərək, məmləkət sərhədinin daxili düşməndən (dosmənhaye-xanəgi) qorunmasının əhəmiyyətli və əsas bir iş olduğunu anladı. Ərdəbildən Fərhad xanı və qardaşı Zülfüqar xanı Azərbaycan və Təvaleş ləşkərlərini ilə Qızılağac yolu və dərya kənarı ilə xanın üstünə yolladı, Kəskər hakimi Əmirə Səyavuşa, həmçinin Biyəpəs Gilanın hakimi Əlixana belə bir şah hökmü yolladı: "Qoy onlar Fərhad xan əskərlərinə qoşulub [bu hücumda], onunla yoldaş və həmrah olsunlar". Hümayun ordu Qəzvin darüssəstənəsinə qayıdaraq, Qəzvin hakimi olan xasseyi-şərifə qulamı Cəmşid bəyi də bir dəstə adamla Deyləman yoluyla yola saldı. Xan Əhməd xandan baş vermiş bu qədər savabsız əməllərin hələ də şahın rəhm silləsi ilə islah olunması, onunla bu dudman arasında hələ də rabitənin qalması padşahın alicənablığına dəlabt edirdi. Müzəffər döyüşçülərin xan üzərinə yürüşünə izn verildiyindən, səltənətin adından Xan Əhmədin adına bu məzmunda bir məktub inayət olundu: "Ali şah himməti Xorasan işləri ilə məşğuldur və yəqin ki, bu iş o vilayətdə hələ iki-üç il davam edəcəkdir. Aramızda sərhəd qonşuluğu və qohumluq mövcud olduğu üçün bu dudmanın hüququ belə tələb edir ki, o cənab (Xan Əhməd - Ş.F.) da bizə köməklik göstərsə, bizimlə razılaşsa, Qəzvində qalan mənim möhtərəm atam və bu dudmanın üzvləri ilə səmimiyyət və mehribanlıqla davransa, bizim ona qarşı etimadımız kamilləşər. Yox, əgər o rumiyyə düşmənləriylə razılıq yoluna düşsə və istəsi ki, bu vilayət onların əllərinə keçsin, bu halda biz ondan necə razı qala bilərik? Hər halda, sənin bu işlərinin xıbəri bizə yetişmiş və yaxın-uzaq yerlərə gedib çatmışdır. Münasibdir ki, indi sən öz sədaqətinin sübutundan və şahanə mürüvvətə yetməkdən ötrü bizim əlimizi öpməklə sərəfraz olasan. Sizin bu dudmanla yenidən razılaşmağınızın sədası qoy gedib rumilərə çatsın. Əgər xan indi yanımıza gəlmək istəməzsə, qarşıda Xorasana hücum məsələsi durduğundan, qoy anasının bizim sülaləyə mənsub olan fərzəndini Ruma getmiş Xacə Hüsaməddinin qardaşı ilə şəfa rəsmiylə

(toxunulmazlıq - Ş.F.) şahın xidmətinə göndərsin və biz ona hörmətlə yanaşıb təqsirini bağışlayaq, onlara şahanə iltifat göstərərək geri qaytaraq. O cənabın (Xan Əhmədin - Ş.F) yanımıza gəlişi isə qoy bizim Xorasan səfərindən geriyə dönməyimizə qalsın".

Fərhad xanın Xan Əhmədin qoşunu ilə cəng etməsi və onun qoşununa məğlub olması:

Fərhad xan Astara və Təvaleşdən keçdi Kəskərdə Əmirə Səyavuş və Füməndə Əlixan, habelə belə o vilayətin başqa adamları gəlib ona qoşuldular. Fərhad xan Xan Əhmədin adına yazılan mərhəmət ayinli məktubu ona göndərdi. Söz qulağı bağlı olan Xan Əhməd yazılan sözləri razılıq qulağı ilə dinləmədi. O, elə qorxu və təşvişə düşmüşdü ki, nə gəlmək üzü, nə də getmək fikri qalmışdı. Əhali arasında belə söz gəzirdi: Xan Əhməd nücum elmini yaxşı bildiyi üçün öz tale zicinə baxdı. Zicdə ona göstərildi ki, bu il onun məmləkəti başqalarına veriləcək və onu irsi mülkündən qovacaqlar. Buna görə də xan gərək gəmiyə oturub Şirvana, oradan da Rum xandgarının yanına getsin.

Gilan əhalisi əlahəzrət zilləllah şahı qəlbən elə istəyirdi ki, Xan Əhməd ürəyindəki istəyini heç cür həyata keçirə bilməzdi. O, Gilan əmirlərinin onun xondgarın yanına gedəcəyi xəbərini şaha xəbər verəcəyindən qorxurdu. Buna görə də, hərb etmək və qoşun çəkmək qərarına gəldi və ordu yaratmağa başladı. Cik sülaləsindən və Gilanın böyük əmirlərindən olan əmir Abbas Ləştə Nişayini, Deyləman sipəhsaları Kiya Rüstəmin oğlu Kiya Cəlaləddin Məhəmmədi vo Lahıcan sipəhsaları Talişə Kulini ləşkər sərdar[ları] edib, iyirmi min nəfərlik süvari və piyadalardan ibarət bir ordu ilə güclü əsgərlərin (qızılbaş ordusunun - Ş.F) qarşısına yolladı. Hər iki tərəf Sefidrud çayı kənarına gələrək bir-birinin qarşısına səf bəzədi. Xan Əhməd qoşunları yola saldıqdan sonra, əli çatan gümüş, cəvahirat, xəzinə malları, qızıl və gümüş alətləri toplayıb Ləngəruda və Rudsərə tərəf göndərdi ki, gəmiyə əyləşib fərara hazır vəziyyətdə olsun. Hərəmxana qadınlarını Gilanın mötəbər əmirlərindən və hərəmxananın başçısı (dərgahsalan) olan Kiya Fəriduna tapşırıb, onları Lahicandan kənara göndərdi. Özü isə hələlik qeyb pərdəsinin nə təhər açılacağı və buranı tərk edəcəyi günü gözləməyə başladı.

Fərhad xan bir-iki gün Sefidrud çayı kənarında əyləşib çayın keçid yerlərini öyrənərək, ləşkərin münasib keçid yolunu

müəyyən etdi, əskərlərə çayı keçmə əmrini verdi. Bu vəziyyəti müşahidə edən Gilan əmirləri döyüşə hazırlaşdılar və tərəflər arasında hərb başlandı. Padşahın xüsusi (xasse) tüfəngçilərinin tüfənglərindən çıxan tüstüdən cəngəllik və meşələr görünməz oldu. Hərbə başladıqdan az sonra Gilan əmirlərinin əlləri qızılbaşların qüvvət və qüdrətini, həmçinin tüfəngçilərin çoxluğunu, özlərininsə zəif və süst vəziyyətdə olduqlarını müşahidə edərək, hərbdən soyudu. Ordu sərdarı və öz qoşununun başçısı olan Əmir Abbas qaçdı, hərbdə inadkarlıq etməyib Talişə Kuli və başqaları məğlub olaraq əzildilər.

Ləşkərin məğlubiyyət xəbəri Xan Əhmədə çatan kimi, o, özünün az miqdar xidmətçiləri ilə birlikdə atlara minərək dərya kənarına getdi, Kiya Fəriduna tapşırdı ki, möhtərəm hərəmini və qızını buraya gətirsin, gəmi ilə onları Şirvana aparsın. Kiya Fəridun isə, cənnətməkan şahın qızının və o həzrətin nəvəsinin Rum vilayətinə getməsini layiq bilməyərək, hər iki tərəfin haqq və namusunun qorunmasını düşündü, şahzadəni (I Şah Təhmasibin qızını, Xan Əhmədin arvadını - Ş.F.) gizli yolla aparıb şahın yanına gətirdi. Xan Əhməd dərya kənarında çox gözlədi, adamlarının gəlib ona çatmadığından, daha orada qalmaq macalı olmadığı üçün cənnətməkan şahın qız nəvəsi olan Cəmşid xanın oğlu Məhəmməd Əmin xanla birlikdə Şirvana rəvan oldu.

Şah Abbasın Gilana yollanması:

Əlahəzrət zilləllah şahın hümayun istəyi Gilanı seyr etmək fikrinə qondu və Deyləman yoluyla Lahıcana yollandı. Gilan ləşkərinin məğlubiyyətindən sonra Fərhadxan da Lahicana getmişdi. Xan Əhmədin getməyi və hümayun ordunun gəlməyini eşidən Gilan əmirlərinin hamısı şahın yanına yollandılar və Lahicanda onun ayağını öpməklə şərəfləndilər. Əlahəzrət şah gilanlıların ürəklərini ələ almaq üçün Gilan əmirlərinə lütfkarlıqla nəzər saldı, onların hamısını özünün iltifat və ehsanına layiq gördü, qiymətli xələtlər verməklə onları şərəfraz etdi. O, həmçinin şahzadə [xanımı] gətirdiyinə görə Kiya Fəridunu öz diqqətinə layiq görməklə başqalarından uca tutdu. Hümayun xidmətə yararlı olan Gilan ləşkərinin bir dəstə əyanını siyahıya alıb onlar üçün yaxşı məvacib və mərsum (rusum, mükəlləfiyyət, vergi - Ş.F.) müəyyənləşdirdi, onları qalibiyyətli əskərlər silkinə daxil etdi.

Şahın bütün səfər və yasaqları müddətində sübhdən axşama kimi qızılbaşlarla birlikdə olan və yaşadıqları yerləri tərk etmək halında olmayan başqa yığma adamlar (mötəcənde və ləyam) canbaşla öz rəiyyətçilik etmələrində qaldılar. Zəfər ayəli ordu bir neçə gün Lahicanda dayandı, [şah] gilanlıların mətləb və iddialarını onların istəklərinə uyğun şəkildə həll etdi, seyidlərin, üləmaların, zahidlərin, məzarıstan müttəvəllilərinin hərbi qulluqdan azad olma sənədlərini (məafiyyat) imzaladı, Lahican ülkasını və Gilan əmirülüməralığını Mehdiqulu xan Şamlıya, Gilan vəzarətini Xacə Məsih Gilaniyə, Ləştə Nişa ülkasını Mir Abbasa, Lahıcan sərkərdəliyini (sepahsalari) Talişə Kuliyə, bütün Gilanın ağsaqqallığını sadiq, doğru danışan və xeyirxah adam olan Kiya Fəriduna, Deyləman ülkasını Kiya Cəlaləddin Məhəmmədə, Vərankuhu isə Buli Sultan Sufiyə verdi. Başqa mahallara[da] qızılbaş hakim və daruğələri təyin olunduqdan sonra, şah səltənət paytaxtına qayıtmaq əmrini verdi. Biyəpəs Gilanının hakimliyi ilə Əlixan sərəfraz oldu, illik (hame sale) peşkəş kimi min tümən pul verməyi qəbul etdi. Azərbaycana tabe olan və Kəskərə bitişən Xəlxal ülkası etdiyi xidmətə görə Əmirə Səyavuşa inayət olundu. Gilan işlərini tənzimlədikdən sonra Xorasan istiqamətinə yollandılar.

ZƏFƏR AYƏLİ ORDUNUN XORASANA TƏRƏF YOLA DÜŞMƏSİ, HƏMİN XEYİRLİ SƏFƏRDƏ BAŞ VERMİŞ FƏTHLƏR VƏ ÖZBƏKLƏRİN BƏZİ ƏHVALATLARININ ZİKRİ

Bu il əlahəzrət şah mübarək baharın əvvəlində, Gilan işlərini qaydaya saldıqdan sonra Xorasana tərəf üz tutdu. Hökm olundu ki, ətrafdakı qızılbaşlar Xorasan yasaqına getmək üçün dünyanı tutan (keyhanpuy) orduya yollanaraq Bəstam çəmənliyində müzəffər əskərlər düşərgəsinə (məəskər) qoşulsunlar. Gilan əmir və əyanlarından Mir Abbas, Talişə Kuli, Kiya Cəlaləddin Məhəmməd və başqa adamlar bu xeyirli səfərdə hümayun orduya həmrah oldular. Zəfər ayəli ordu Lar və Firuzkuh yaylaqlarından hərəkətə başladı və Bəstam çəmənliyi iqbil çadırları ilə doldu. Müzəffər əskərlərin bir yerə yığılmasından ötrü bir ayadək orada dayandılar.

Bu il Mərv və Şahican valisi Nurməhəmməd xan ibn Əbülməhəmməd xan ilə onun qohumu olan Xarəzm padşahı Hacı

Məhəmməd xan arasında narazılıq və savaş baş verdi. Hacı Məhəmməd xan Nisa vilayətini, Dərunu və Bağdadı Nurməhəmməd xanın əlindən alıb öz etibarlı adamlarına tapşırdı. Nurməhəmməd xanın ona müqavimət tabı olmadığından Abdulla xana üz tutub onunla birləşdi, xahiş etdi ki, əgər xan Dərun və Nisanı Həcəm xanın əlindən geri alıb ona verərsə, Buxaraya bitişik Mərv və Çəharcu ülkalarını peşkəş olaraq ona bağışlayacaqdır. Həmişə Mərvin arzusunda olan Abdulla xan bu təklifi böyük uğur bildi, Nurməhəmməd xanın xahişini yerinə yetirməkdən və Mərvi zəbt etməkdən ötrü Ceyhun çayını keçdi, Mərvə yaxınlaşdı. Nurməhəmməd xan səfehlik və ağılsızlıq etdi, çünki o, Nisa və Dəruna bərk bağlandığı üçün, Abdulla xanla etdiyi mətləbin hələ yerinə yetirilməsindən əvvəl Mərvi ona peşkəş edərək adamlarının ixtiyarına verdi, xan da Mərvi möhkəmlədib bir-iki mənzil irəlilədi.

Bu əsnada hümayun şah ordusunun gəlişi xəbərini eşitdi. Xarəzm tərəfdən də xəbər gəldi ki, əlahəzrət zilləllah şah ilə dostluq edən Hacı Məhəmməd xan bu tərəfə gəlməkdədir.

İstəyinə asanlıqla çatıb Mərv vilayətini zəbt edən Abdulla xan bu xəbəri özünün geriyə qayıtmasından ötrü bəhanə edərək Murməhəmməd xana dedi: "Biz əgər qalanın mühasirəsi ilə məşğul olarsaq, mühasirə müddətinin uzanma ehtimalı vardır. Budur, qızılbaş padşahı və Xarəzm valisi bizimlə hərb etmək əzmi ilə iki tərəfdən hərəkət edirlər ki, bizim onlarla döyüşmək bacarığımız yoxdur. Sən bu il mənə möhlət ver və Buxaraya qayıdım. Gələn il tam hazırlıqla gəlib Nisa və Dəruni alaram və sənə verərəm". Bu sözlər Nurməhəmməd xana təsəlli oldu, o, köç təbilini döyərək Buxaraya yollandı.

Əbdülmömin xan Nurməhəmməd xanı tutmaq fikrində idi. Buna görə də, Abdulla xanın ordusundan icazəsiz ayrılıb Bayburda gəldi. Əbdülmömin xan da atasından ayrılaraq Qarapalçıq yoluyla Xorasana üz tütdü və hümayun zilləllah şahın Bəstamda dayanması xəbərini eşitdi. Buna görə də, Nişapurda gözləyərək, ədəbdən uzaq müxtəsər bir məktub yazdı və onu məchul bir piyada vasitəsilə şaha yolladı.

Əbdülmömin xanın Şah Abbasa naməsi və onun cavabı:

Məktubun xülasəsi belə idi: "Padşahların arasında ya sülh olur, ya da cəng. Biz bunun hər ikisinə hazırıq. Əgər o həzrət sülhə

razıdırsa, qoy Xorasanı bizə verib İraqa getsin, qədim vaxtlarda İraq və Azərbaycan padşahı Həsən padşah Türkmanla (Uzun Həsən Ağqoyunlu - Ş.F.) Bəlx və Xorasan padşahı Sultan Hüseyn Mirzə arasındakı sülh qayda-qanununa əməl etsin. Yox, əgər hərb etmək istərsə, tez gəlsin, çünki fəth və qələbə Allah-taalanın istəyi ilədir və ləşkərin azlığı və çoxluğunun buna dəxli yoxdur".

Əbdülmömin xanın Nişapura gəlib çatması xəbəri hümayun şaha çatdı. O, həmin məktubun yetişməsindən əvvəl Bəstam çəmənliyindən çıxıb Honək (?), Müəzz (?) və Cacərm yoluyla rəvan oldu. Orada məktub humayun şahın nəzərinə dəydi. Məktubun cavabı yüksək ləqəblər və sultanlara xas ədəb tərzində yazılaraq göndərildi. Məzmunu belədir: "Biz İlahinin lütfi ilə bu dudmanın yüz illik irsi mülkü olan Xorasanı taqətimiz olduqca qoruyacağıq, ondan əl çəkməyəcəyik. Cığatay sultanlarından olan Sultan Hüseyn Mirzənin və türkman padşahlarından Həsən padşahın sülhnamələrinin bizə və sizə dəxli yoxdur. O ki, qaldı Bəlx valisi Kəskən Qara Sultan Özbək və bizim hümayun babamız mərhum cənnətməkan şah arasındakı sülh [müqaviləsinə, orada yazılmışdı ki, özbəklər] Xorasandan əl çəksinlər və oranı bizə versinlər. Elə biz özümüz də sülhə razıyıq, əks təqdirdə cəngə də hazırıq. Biz elə bu arzu və şövq ilə İraqdan bu vilayətə gəlmişik. Harada istəsəniz orada da qarşılaşa bilərik. Qoy qeyb aləminin istəyi həyata keçsin".

Məktubu göndərib, yola çıxdılar. Cacərmə çatdıqda Əbdülmömin xanın yanından başqa bir adam gələrək, başqa bir məktub gətirdi, ki, onun başqa məktublarla heç bir oxşayışı yoxdu, məzmunu ziddiyyətliydi (tənaqiz). Məsələn məktubun ünvanında yazılmışdır:

Ale-Əli ilə döyüşən kəs öləcəkdir.[565]

Məktubun məzmunu beləydi: "Biz məsləhətləşərək Cama tərəf getdik. Qoy onlar da (Şah Abbas - Ş.F.) oraya gəlsinlər ki, orada görüş baş tutsun". Bu məktubun gəlib çatmasından sonra aydınlaşdı ki, [Əbdülmömin xan] Camda da dayanmayaraq Bəlxə getmişdir.

[565] Misranın farscası:
Ba ale-Əli hər ke dəroftad bəroftad.

Məzinan camaatının özbək olan öz hakimlərini ödürmələri:

Bu işlər baş verən vaxt Pirə seyidləri və Səbzvar Mərinanının əyanları birləşərək [qızılbaşlara olan] sədaqət və dövlətxanlıqlarına görə Əbdülmömin xan tərəfindən Məzinana hakim qoyulmuş Quvaydaş bahadır Özbəki tutub qətlə yetirdilər, başını kəsib cahan pənah dərgaha gətirdilər, onlara şahanə inayət olundu, soyurqallar və başqa şahanə hədiyyələr almaqla şərəfraz oldular. Cacərm hakimi müzəffər ordunun gəlişindən qorxaraq vilayəti atıb getdi. Cahanlar fəlh edən şah ordusunun təntənəsindən və iqballı şahənşah məiyyətinin gəlişindən özbək hakimləri arasına çaxnaşma düşdü. Əsfərayin, Şəğan, Curbəd, Cəhan, Əyan və Səbzvar hakimləri də qaçış yolunu üzə tutdular. Əsfərayin şəhəri iqbal çadırlarına məskən olduqları vaxt Allahverdi xanı bir dəstə qulamla Nişapurun üstünə yolladılar. Nişapur hakimi qızılbaş ləşkərinin gəlişini görüb səbatdan düşdü, qorxudan əsdi, burada dayanmaq və qaladarlıq etməyə tab gətirməyərək şəhərdən qaçdı. Nişapur qalasına daxil olan Allahverdi xan və qulamlar şaha fəth və qələbə müjdəsi gətirdilər. Əzəmətli ordu Əsfərayin Ələngində bir ayadək qaldı. Nişapurun hakimliyi İsgəndər şanlı nəvvabın dövründə oranın hakimi olmuş Dərviş Məhəmməd xan Rumluya verildi. O qaladarlıqda oduqca mahir adamdı. [Sonra] üç yüz nəfər İsfahan tüfəngçisini İsfahan tüfəngçilərinin başçısı Mir Fəttah Minbasının sərkərdəliyi ilə həmin qalada saxladılar. Əsfərayin ülkası Baba İlyas Bayatın oğlu Məhəmməd Sultana verildi, o sülalənin mülk və başqa torpaqları illərlə qətl və qarətlərə məruz qalmış ağsaqqallara, əyanlara və onların el və ulusuna soyurqal kimi mərhəmət olundu. Səbzvar hakimliyi isə müxtarülhüseyni* olan Mir Şəmsəddin Əli Sultanın nəvəsi Məhəmməd Sultanla əvəzləndi. [Həmçinin] ələ keçirilən başqa mahallara da hakimlər təyin edildi, habelə o vilayətlərin dövlətxahlıq göstərmiş hər bir ərbab və əyanına da ənamlar və soyurqallarla bağışlandı, onlar qiymətli xələtlər almaqla şərəfləndilər.

Şah Abbasın Xorasandan qayıdışı və Darüssəltənə olan Qəzvinə gəlişi:

Müzəffər ordu qələbə və iqballa Əsfərayindən çıxıb, Cəhan və Əyan yoluyla müqəddəs Məşhədin Sultan Meydanı (!) adlı

yerinə təşrif gətirdi, həmin ürəkaçan çəmənlikdə zəfər çadırları quruldu. O yerdə Gəncəli xan Özbək tərəfindən əsir alınmış olan bir neçə özbəyin sözlərindən məlum belə oldu ki, bu vilayətdəki özbək camaatı gedib müqəddəs Məşhəddə toplaşmış, qaladarlıq etmək barədə qərar vermişlər.

Payız fəsli sona çatdığı və qiyamət təhdidli (nəhib) şaxta qoşunu göründüyü üçün, habelə özbəklərin gediş-gəlişlərinə görə vilayətə dağıntılar üz verdiyindən, heç yerdə ərzaq və başqa məhsullar qalmamışdı. Müzəffər əskərlər korluq çəkirdilər. Buna görə də, həmin qış fəslində müqəddəs Məşhədin mühasirəsinə başlamaq əskərlərin pərişan hala düşmələrinə səbə ola bilərdi. Həmçinin, o şərafətli büqəni hərb evinə (darülhərb) çevirmək və səkkizinci həzrət imamın pak rövzəsi yerləşən həmin şəhərə top-tüfəng yığıb-gətirmək, hal-hazırda [hərçənd ki, qızılbaşlara] batil yer kimi olsa da, şahın ürəyindən deyildi və özbəklərin inadkarlıqlarından o şərəfətli şəhər əhalisinə xeyli zərər deyə bilərdi.

Kiyan Cəlaləddin Məhəmmədin əsassız yerə Gilan əmirlərindən fərar etməsi:

Allah divanında müəyyənləşən hər işin yerinə yetirilməsi zəruridir. Buna görə də, zamanın məsləhətinə və oranın rifahı naminə İraqa tərəf qayıdış qərara alındı. Onlar Sultan Meydanından çıxdılar. Ordudakı hər kəsdə olan azuqə Nişapur qalasındakılara kömək məqsədiylə Dərviş Məhəmməd xana verildi. [Qızılbaşlar] bir neçə mənzil və mərhələ yol qət etdilər. Müzəffər ordunun günəşi qələbə və iqballa İraq üfüqündə parladı və onlar xoş bir saatda gəlib Qəzvin darüssəltənəsinə yetişdilər. Bu xeyirli səfərdə Gilan əmirlərindən Kiya Cəlaləddin Məhəmməd təriqət silkinə xas heç bir səbəb olmadan fərar etdi, başqa gilanlılarsa onun bu əməlindən xəcalət çəkdilər. Amma şəhriyar öz inayətinə görə onu bağışladı, xosrovanə nəvazişlər etdi. Yasaqdan qayıtdıqdan sonra Mir Abbas, Talişə Kuli və yoldaşları izn alıb özlərinin hakim olduqları yerlərinə getdilər.

Amma, Kiya Cəlaləddin Məhəmmədə əcəl yapışdığı və həyat badəsi dolduğu üçün gedib torpağ altına girdi.

Bu il Azərbaycan vilayətinin əmirülüməralığı və o yerin işlərinin tənzimlənməsi, həmçinin həzrət sultanül-övliya rövzəsinin (Ərdəbil Şeyx Səfi ziyarətgahının – Ş.F.) sərkarının tövliyyəti*

Fərhad xana verildi, o vilayətin bütün işlərinin ixtiyar cilovu onun iqtidar qəbzisinə və ixtiyar pəncəsinə keçdi, o, Ərdəbil darülirşadına getdi. Etimalüddövlə Hatəm bəyə, qorçibaşı və mənsəb sahibi olan ərbablarla birlikdə Qəzvin darüssəltənəsində ləşkərin qayğısına qalmaq, onların ülufə, mərsumat və başqa ehtiyaclarını ödəmək tapşırıldı. Qərara alındı ki, qızılbaş tayfaları, döyüşçülərin el və oymaqlarının təhqiqi ilə məşğul olsunlar, məvacib alan hər bir mülazim və başqa adam müəyyənləşsin ki, onlar süvarilik və yasaq işlərinə cəlb edilə bilsinlər, Xorasan yasağında xəyanət edib gəlməyənlərsə cəzalandırılsınlar, bu dəfə onları tənbeh etmək məqsədiylə cəriməyə məruz qoysunlar, yığılan vəsait ənam şəklində yasaq və səfər əziyyəti çəkmiş dərgah qorçilərinə və mülazimlərinə verilsin ki, [bu tədbir] camaat üçün xəbərdarlıq və tənbeh sayılmış olsun, əgər bu gündən sonra yasaq elan olunarsa heç kəs ondan yayına bilməsin, yoxsa bu işdə onlar müxtəlif təqiblərə məruz qalacaqlar.

Fərmanı alanlar bu ali əmri dərhal yerinə yetirdilər. Həqiqətən də bu qərar ona səbəb oldu ki, yasaq əmri alınan kimi bütün qızılbaş tayfaları və el-oymaq əhalisi padşahın cəzasının qorxusundan həm piyadalar, həm də süvarilər çağırış hökmü olmadan yola düşərək səy etdilər ki, müzəffər orduya çağırış zamanı bir-birlərindən geri qalmasınlar [və yasaq əmrinə əməl etsinlər]. Birinci səhifədə hümayun şahın davranış və hərəkətlərindən qısa şəkildə bəhs olunarkən söylənildi ki, bu qayda-qanun hümayun şahın hakimiyyəti zamanından ləşkər arasında yerinə yetirilir (estemrar), padşah qəzəbinin qorxusundan heç kim onun ziddinə gedə bilmirdi.

Xülasə, əlahəzrət bu güclü dövlət ərkanını belə işlərə yönəltdi, özü isə bir neçə nədimi, yaxın adamı və xassə mülazimi ilə İsfahan darüssəltənəsinə təşrif apardı, qışı həmin cənnətməkan şəhərdə eyş-işrətlə keçirdi. Bu sətirlərin müəllifi də bu il bu astanəyə xidmət etmək səadətinə çatdı və əzəmətli münşilər silkinə daxil edildi. Qəzvində münasib ərbablar olduğundan, bu həqir zərrə ali əmrə əsasən müqəddəs məiyyətin tərkibində İsfahana getdi, inşa xidmətlərinə (kitab yazma, məktub hazırlama - Ş.F.) başladı. O, həmin tarixdən etibarən o həzrətə qulamlıq etməklə şərəfrazdır.

KİRMAN LƏŞKƏRİNİN ƏFŞAR ƏMİRLƏRİNİN ÖZBƏK ƏMİRLƏRİYLƏ XORASANIN TUN ADLI YERİNDƏ HƏRB ETMƏSİ VƏ ALLAH-TƏALANIN KÖMƏYİ İLƏ QALİB GƏLMƏSİ HAQQINDA SÖHBƏT

Zəfər ayəli ordu bu ilin əvvəlində Gilan fəthindən sonra Xorasana tərəf hərəkət etdi və qorçilər ölkələrdən əskər çağırışına təyin olundular. Vəli xana və hmayıl xana Kirman əmrlərinin o vilayətin bütün əfşar tayfası ilə birlikdə Yəzd və Təbəs yoluyla Xorasana gəlib müzəffər orduya birləşmələri üçün hökm göndərildi. Adları çəkilən əmirlər Kirman əskərləri ilə birlikdə fərmana əməl edərək rəvan oldular və Təbəsə çatdılar. Ali əmrə görə Mustafa bəy Kənqərli Tun və Təbəs hakimiydi, özbəklərsə o yerlərin hüdudunu ələ keçirib Tun vilayətini və onun qalasını işğal etmişdilər. Hümayun şah ordusunun gəlişi xəbəri bu il Xorasanda eşidiləndə Mustafa xan azı-çoxu iki yüz əlli nəfər ustaclı qazisi ilə və özünün başqa igid mülazimləri ilə Təbəsdan Tuna hücuma keçdi, Tun qalasının şəhərbəndini özbəklərdən alıb, Tun Hakimi olan Quzi Mirzəni qalada mühasirəyə saldı. Qalada mühasirədə qalanlar Herata adam göndərib [kömək] xahiş etdilər. Yetim Sultan kimi məşhur olan Din Məhəmməd Sultan-Abdulla xanın bacısı oğlu, özbək qoşununun nıin nəfərədək adlı-sanlı bahadırlarını Naculi bahadırın sərkərdəliyi ilə qızılbaş ləşkərinin dəfinə və Quzi Mirzə və Tun qalası mühasirəçilərinin köməyinə yolladı. İgid, şücaətli və mərdanə adam olan Mustafaxan təzədən azsaylı adamıyla özbəklərin çoxsaylı döyüşçülərinə qarşı qızğın hərblər etdi, həmin ağır qoşunun gəlişi xəbərindən qorxmayaraq, səbat ayağını möhkəm saxladı. Amma, xan dəstəyə qarşı gedərək müharibəyə başlamasından sonra anladı ki, onun müqavimət taqəti yoxdur və əskərləri tələf olmaq üzrədir. O, hərbi qaydaya əməl edib, atdan düşdü, heyvanı özünə qalxan etdi, ox və tüfəng gülləsi atmaqla özbəklərin şərini özündən kənar elədi, piyada halda qayıdış vadisinə yollandı. Elə həmin gün ərzində dörd fərsəxədək yolu özbəklərlə döyüşə-döyüşə Tunun Aysək adlı bir yerinə gəlib çatdı, kəndə girib oranın bəstində əyləşdi. Özbəklər eşikdən gəlib çıxdılar və o gecə tərəflər istirahət etdilər. Mustafa xanın getməyindən Təbəsdə xəbər tutan əfşar əmirləri və Kirman ləşkəri təcili halda onun ardınca yola düşdülər. Mustafa xanın Aysəkdə bəstə əyləşdiyi ikinci gün onlar gəlib həmin yerə çatdılar. Gözə altı-yeddi min nəfərədək döyüşçü dəyən qızılbaş

qoşununun qaraltısı uzaqdan görsəndi. İztiraba düşən özbəklər fərar qərarına gələrək geri çəkildilər. Bəstdən eşiyə çıxan Mustafa xan əfşar dilavərlərinin münqəlayında döyüşə başladı. Onun qol hissəsi döyüş meydanına çatdıqda cəng başlandı. Özbəklərin o döyüşkən ləşkərə müqavimət etmək taqətləri yox idi, buna görə də, onlar elə birinci həmlədə məğlub oldular, böyük bir dəstə özbək əskəri ox və şəmşir yeminə çevrildi.

Canməhəmməd Divanbəyi özbəklərin böyüklərindəndi və Yetim Sultanın divanbəyisi idi. O, bir neçə mötəbər bahadırla təqdir pəncəsinin əlində əsir oldu. Özbəklərin az hissəsi qaçıb qurtula bilsə də, əksəriyyəti ədəm yoluna yollandı. Bu xəbər Tun qalasındakı özbəklərə çatdıqda onların iqamət ayaqları sustaladı və müqavimət edə bilmədilər, qalanı boşaldıb fərar yolunu önə tutdular. Özbəklərin qəhrindən və əzəmətli əmirlərin zəfərindən sonra onlara məlum oldu ki, müzəffər şah ordusu İlahi kömək nəticəsində fəthdən sonra Xorasandan İraqa tərəf geri qayıtmış, Mustafa xan Tun və Cənabəddə qalmış, əfşar əmirləri Tərşiz və Səbzvar yoluyla İraqa gəlmiş və İsfahan darüssəltənəsində cahangir şəhriyarın ayağını öpməklə şərəflənmişlər. Onlar Canməhəmməd Divanbəyini və bir neçə titulları özbəyi başqa əmirlərin başları ilə birlikdə şahın nəzərinə yetirdilər, Canməhəmməd Divanbəyini xasseyi-şərifə qulamı Bicən bəyə tapşırıb sağ saxladılar. Başqalarının isə vəziyyətləri bu misrada deyildiyi kimi oldu:

Misra

Ondan ki, xəbər vardı, xəbər gəlmədi bir də.[566]

Bu işlər baş verərkən, Yetim Sultan öz qardaşları və özbək döyüşçüləri ilə birgə Sultanəli Xəlifə Şamlının üstünə hücum edib, onu Derəxş qalasında mühasirəyə almışdı. Bu məsələnin qısa şərhi belədir: Qələm bundan əvvəl yazmışdı ki, Sultanəli Xəlifə qəzəbə tuş olmuşdu, çünki o icazəsiz Qayin tərəfə getmişdi. Əmir Həmzə xan Ustaclının oğlu Əliqulu xan hökmə əsasən Qayin hakimi idi, amma özbək qoşunu gələndən sonra qaladan çıxmış və əmələləriylə birlikdə Cur qalasında qalmaqdaydı. Sultanəli Xəlifə Qayin

[566] Misranın farscası:
An-ra ke xəbər şod xəbəri baz nəyaməd.

hüduduna yaxınlaşanda, nəslinin qədim mülazimləri olan bir çox şamlı tayfa üzvləri onun başına toplaşdılar. Cah-cəlal ordusunun Xorasana tərəf gəlməsi xəbərini eşidən Əliqulu xan bir az xəstə olduğu üçün öz əğrəqini qalada qoyub, kəcavəyə əyləşdi və hümayun orduya tərəf getmək istədi. Sultanəli Xəlifə və şamlı tayfası Qayinə hakimlik etmək və var-dövlət toplamaq niyyəti ilə onun yolunu kəsdi və onlar cəng etmək məqamına gəldilər. Ustaclı qaziləri onları dəf etmək istədilər, aralarında qızğın hərb başlandı, qələbə ustaclılara qismət oldu. Bu əsnada kəcavədə olan Əliqulu xana bir güllə dəydi və onu yaraladı, günün sonunda isə xan keçindi. Onun ölümü ilə məmləkəti xali görən Sultanəli Xəlifə o vilayətin dövlət taxtına əyləşdi. Bu il isə, Yetim Sultan Sultanəli Xəlifənin üzərinə qoşun çəkdi. Sultanəli Xəlifə şahın razılığı olmadan həmin vilayətin saxta (təğəllob) hakimi olduğundan o yerin əhalisi bir o qədər də ona kömək etmək diləyində olmadı.

Xülasə, o yerin əskər və rəiyyətindən min nəfərə qədər adam toplayan xəlifə onun qarşısına tərəf yollandı, Qayinin Derəxş adlanan yerində tərəflər bir-birbrinə yaxınlaşdılar və güclü savaş başlandı. Yetim Sultan qələbə çaldı və qızılbaşlardan dörd-beş yüz adam o mərəkədə qətb yetirildi, qalanları isə Derəxşdə bəstə oturdular, sonra döyüşə-döyüşə özlərini qalaya çatdırdılar. Sultanəli Xəlifəni bərk mühasirəyə salan Yetim Sultan onun işini çətinliyə düçar etdiyi vaxt qızılbaş ləşkərinin gəlişi, əfşar əmirlərinin cəngi, Naculi Bahadırın, Quzi Mirzənin və Şəğan Mirzənin məğlubiyyətləri xəbəri, yuxarıda yazıldığı kimi, gəlib yetişdi və o, Derəxş qalasından kədərb çıxıb Xaf və Baxərzə tərəf getdi. [Beləliklə də,] Sultanəli Xəlifə mühasirə əziyyətindən xilas olub Qayinə tərəf yollandı. Onun əhvalatı bu dəftərin zeyl hissəsindən öz məqamında yazılacaqdır, əgər əziz Allah istərsə.[567]

BU İL ƏRZİNDƏ BAŞ VERMİŞ MÜXTƏLİF HADİSƏLƏR

Bu ilin hadisələrindən biri də budur: Şahverdi xan Qaradağlı [şahın] Ərdəbilə gəlişi və Allahverdi xanın onun üzərinə göndərilməsindən sonra fərar edib rumiyyə sinirinə daxil olduğu vaxt sərhəd paşaları sülhün elə başlanğıcında sülh şərtlərinin icrasını pozmamaqdan ötrü ona imdad etmədilər. Xan rumilərin ona

[567] İfadənin ərəbcə: "vəə-l-lahu-l-əəzzu".

köməklik göstərməmələrindən məyus olub ali hümayun çətirin kölgəsi altına sığınmaqdan özgə çarə tapa bilməyərək [şaha] peşimanlıq məktubu yolladı ki, məzmunu belədir: "Müzəffər ordunun gəlişi zamanı bu qulam şah qəzəbinin qorxusundan elə dəhşətə gəldi ki, hətta mülazimətə gələ bilmədi. Əgər, indi şahanə mürüvvət bu bəndənin günahları üzərindən əfv qələmi çəksə başımı ayaq edib ali dərgaha gələrəm". Şahın adından ona əfv olunması barədə bir iqbal məktub yazıldı və əlahəzrət onun günahını bağışladı, Şahverdi xan əyninə müqəddəs imam libası geyib Xorasanda müzəffər orduya gəldi. O, bir müddət müqəddəs orduda qaldı, amma hələ də başında özbaşınalıq havası olmasına və canında sədaqət olmamasına görə, ordu Bəstam çəmənliyində dayanarkən, özünün daxilindəki xəbisliyini biruzə çıxardı və əmllərinə görə vəzifədən çıxarılıb həsrət və nakamlıq içində gün keçirərək, türkman piyadası Şahqulu Sultan, Nədr xan Əfşar, o vaxtlar abrı-həyası olmayan Atilandilli İmamverdi xan kimi əmirlərlə [gizli] söhbətə başladı. Onlar vaxtlarının çoxunu birlikdə keçirir və düşmənçilik hisslərini özlərində saxlayırdılar. Onların söhbətlərindən agah olan sədaqətli adamların biri məsələdən şahı xəbardar etdi. Əmirlər bunu bilərək, köç zamanı ordudan geri qalıb fərar etdilər, arxada qaldılar.

Şahverdi xanın öldürülməsi:

İmamverdi Atılandilli ələ keçib cəzalandırıldıqdan sonra öz günahını boynuna aldı və nicat tapdı. Amma, o biri səadətsiz üç əmir isə öz cəzalarına çataraq qətl olundular. Baş vermiş hadisələrin biri də budur:

Cah-cəlal ordusu Xorasan səfərində olarkən və əfşar əmirləri hələ geri dönməmişkən, yasaqdan yayındıqlarına görə cəzalandırıldılar, Kirman hakimliyi onlardan geri alındı və bu vəzifəyə ox və qılınc qorçisi Həsən xan Ustaclı namizəd oldu. Şah fikirləşdi ki, başlarında özbaşınalıq sevdası olan əfşar döyüşçüləri hələ də özlərinin əvvəlki adətlərindən əl çəkməmişlər. Buna görə də onların hamısını cəzalandırdı. Həsən xan Kirmana gedərkən əfşar əmirləri gəlib ona çatdılar və özbəklərlə müharibədə etdikləri məradanəlik bir daha özünü göstərdi.

Amma, əlahəzrət zilləllah şah böyük bir padşah kimi əfşar tayfasının təqsirləndirilməsindən keçdi və onları bağışladı. Həm də Özbəklərlə döyüşdə onlar göstərdikləri mərdanəliyə görə əfv

olundular. Bu il adı çəkilən ülka Həsən xana verildiyi üçün onlar bunun əvəzində təşəkkür əlaməti kimi peşkəş adı ilə müəyyən məbləğ pul ödəməyi qəbul etdilər və öz məramlarına doğru Kirmana getdilər, ödənilən məbləğsə Xorasan yasağının məşəqqətlərini görmüş müqəddəs ordu mülazimlərinə verildi. İllərlə Fars vilayətinin hakimi olmuş zülqədər tayfaları [yasaq vaxtı] az miqdar əskər gətirdiklərinə görə cəzalandırıldılar və onların adı çəkilən ülkası Bünyad xan və başqa zülqədər əmirlərindən alındı və Şiraz hakimliyi Hüseyn xan Müsahib Qaçara verildi. Təqsirlərinin əfv olunmasını istəyən zülqədər tayfası boyun oldu ki, əgər onların qüsurları bu dəfə bağışlanarsa və o vilayət onlara verilərsə, növbəti yasaqlarda günahlarını yuyacaqlar. Zülqədərlərin xahişləri yerinə yetirildi və Şiraz vilayəti elə bu il Hüseyn xana verildiyi üçün qorara alındı ki, bu vilayət yalnız gələn il onlara verilsin. Amma, onların hakimliyi bir ildən artıq olmadı, çünki onlar öz zülm illərini o məmləkətin rəiyyətinə uzatdıqlarından aciz adamların və rəiyyətin şikayətlərinə səbəb oldular və gələn il hər iki tayfa öz bəd rəftarları üzündən Fars və Kirman hakimliyindən uzaqlaşdırıldı.

Əmir Seyid Hüseyn əl-Hüseyni Kərəki Amelinin vəba xəstəliyindən vəfatı:

Başqa hadisələrdən biri də budur: Bu il Qəzvin darüssəltənəsində taun və vəba xəstəliyi yayıldı, şəhər əhalisinin əksəriyyəti başqa yer və bölgələrə getdi. Hümayun ordu Xorasanda olduğu vaxt vəba gün-gündən çoxaldı və çoxlu adam ədəm yoluna yolandı. O hadisədən ölənlərin biri də xatəmül-müctəhidin* olan Əmir Seyid Hüseyn əl-Hüseyni Kərəki Ameli idi ki, o cənab barədə birinci səhifənin əvvəlində cənnətməkan şah dövrünün seyid və üləmaları bəhsində yazılmışdır. O şəxs, həqiqətən də alişan seyid, doğulduğu məkanın ən üstün adamı və mərhum müctəhid Şeyx Əli Əbdülalın qız nəvəsi idi, ərəb və əcəm üləmaları arasında öz dil və bəyan fəsahətinə görə məşhur idi, əcəm vilayətində onun icdihad nağarası bərkdən çalınırdı. Üsul elmində**, imamiyyə haqq məzhəbinin şöbələrində çoxlu risalələri vardır. Hümayun ordunun ərəb və əcəm üləma və füzələsı*** ilə dolu olduğu cənnətməkan şahın dövründə mərhum müctəhid Şeyx Əli əleyhirrəhmənin oğlu Şeyx Əbdülal olduqca uca oldu və bütün üləmalar ona ictihad etdilər.

Cənab Mir Seyid Hüseyn onun mərtəbəsindən də yuxarı qalxdı özünə "seyyidəl-mühəqqeqin, seyyidəl-müdəqqeqin, vareseülumül-ənbiya və-l mürsəlin" ləqəbi verdi. Onun möhrü ilə imzalanan sənədlərdə məhz belə yazılırdı. Baxmayaraq ki, üləmalar onun arxasınca bu ləqəbin əleyhinə danışırdılar, amma heç kim açıq şəkildə bu barədə bir kəlmə də deyə bilmir, onunla mübahisəyə tab gətirməyi bacarmadılar. Ölən anadək onu "xatəmül-müctəhidin" adlandırdılar.

Əlahəzrət onun nəşini müqəddəs Məşhədə göndərdi və o, həmin şərafətli yerdə dəfn olundu.

SEVİNC AMALLI MİN İKİNCİ (MİLADİ) İLAN İLİNƏ TƏSADÜF EDƏN VƏ ŞAHƏNŞAHLIQ TAXTINA EDİLƏN ŞAH CÜLUSUNUN YEDDİNCİ İLİNİN HADİSƏLƏRİ

Bu ilin hümayun fallı novruzu... (kitabda boş saxlanılıb - Ş.F.) başlandı. Cəm məqamlı həzrət şah keçən ilin qışını, yuxarıda yazıldığı kimi, İsfahan darüssəltənəsində işrət və kamranlıqla keçirərək, aləmi işıqlandıran novruza yaxın Qəzvin darüssəltənəsinə yollandı, mübarək dövlətxanaya düşdü və müxtəlif tayfaların ürək torpağında ədalət toxumları əkməyə başladı.

Dey ayının şaxtası azalmağa başladığından ruzigarın məcazi təbii yüksəlişə başladı, yəni aləmi bəzəyən bahar havanı dəyişdi, adamların burunlarına bahar güllərinin ətri və ruzigar gülzarının müşk ənbər qoxulu nəsimi doldu, cahan bostanları paklandı və təravətləndi.

Şer

Bahar novruz ilə gəldi cahana,
Döndərdi aləmi bir gülüstana.

Bülbül nəvaları tutdu hər yeri, Başlandı eyş-işrət tərənələri.[568]

[568] Misraların farscası:
Bahar-o celveye-novruz soltan
Degər rəh kərd aləm-ra golestan.
Səfire-bolbolane-nəğmepərdaz
Nəvaye eyş-o eşrət kərde ağaz.

Fələk xosrovunun dördüncü dəfə işrət və kamranlıq bayrağını həməl şərəfxanəsinə qaldırdığı və cahanı irəm gülzarına döndərdiyi bu bahar fəslinin əvvəlində kamkar şəhriyarda Qızıl Ağacda seyr və şikar nəşəsinə dalmaq istəyi baş qaldırdı, səltənət paytaxtından çıxdı və Tarom ülkasına hümayun məiyyətin qədəmlərindən rəngarəng asiman qibtə etməyə başladı. Orada o cəlallı şahın qulağına çatdı ki, gilanlılar Mehdiqulu xanın bəd rəftarından narazıdırlar.

Şah Abbasın Ərdəbilə getməyi və Qızıl Ağacda seyr və şikarla məşğul olmağı:

Əlahəzrət gilanlıların qəlblərini ələ almaq məqsədiylə onu hakimlikdən kənar edərək Əhməd bəy Begdelini Lahicana daruğə təyin etdi.

Əhməd bəyə ona tapşırılan işin icrası üçün bir dəstə şamlı qorçisini həmrah etilər və Asəf sifətli etimadüddövləni (Hatəm bəy Ordubadini - Ş.F.) müstöfvilər, qələm ərbabı və hümayun dəftərxananın daruğəsi Bəstam ağa ilə birlikdə Gilana göndərdilər ki, o vilayətin mal və divan hüquqlarını ədalət qanununa müvafiq tənzimləsin, əgər Xan Əhmədin və sabiq hakimlərin vaxtında mövcud olan haqq-hesabsızlıq işləri və pul çatışmazlıqları aşkarlanarsa, onların üstündən batillik qələmi çəkilsin, o vilayətin işləri bu güclü dövlətin məsləhətinə müvafiq, rəiyyət vəziyyətinin yaxşılaşmasına rəğmən və acizlərin işlərinin tənzimi kimi həyata keçirilsin.

Şahın özü isə Ərdəbil darülirşadına və Qızıl Ağac seyrü-şikarına yollandı. Onu istiqbal edən Fərhad xan müqəddəs məiyyətin tərkimində ona aid olan xidmətləri yerinə yetirirdi. Əlixanı Biyəpəsdən, Əmirə Səyavuşu isə Kəskərdən çağırıb onlara şikar təklifi etdilər. Onlar da fərmana əməl edərək Qızıl Ağacda görüşə yetməklə səadətləndilər. Hər iki hakim daim şahın müqəddəs məiyyətində idilər. Cənab Asəfi yoldaşlarıyla birlikdə Gilana gedərək, az vaxt içərisində qanuni haqq-hesab işlərini ədalət və rəiyyətpərvərliklə elə nizama saldı ki, o vilayətin binası indiyəcən məhz o cənabın sayəsində möhkəm qanunla yoluna qoyulmuşdur.

Bu işlər baş verərkən o cənabın (etimadüddövlənin - Ş.F.) adına çağırış məktubu sadir oldu. Onunla yoldaş olan bu sətirlər

müəllifi öz yoldaşlıq şərtinə əməl edərək, Qızıl Ağacda hümayun ayağ öpməklə müşərrəf oldu. Gilanın Biyəpəs vilayəti bu güclü dövlət övliyalarının əlinə keçdiyindən, şahın niyyəti bu idi ki, sərhədyanı vilayətlərin hamısı, o cümlədən Təbəristan da üsyankar adamların işğal tikanından təmizlənsin. O vilayətlər zamanın tələbinə müvafiq olaraq, qədim varislər tərəfindən idarə olunurdular. Onlar da tayfa məliklərinin yolu ilə gedərək, qarışıqlıq və inqilablar əyyamında ayaqlarını nökərlik mərtəbəsindən kənara çəkib, heç bir dəxli olmayan işlərə əl uzatdılar, özbaşınalıq bayrağı qaldırdılar. O cümlədən Biyəpəs təxtgahı, yuxarıda yazıldığı kimi, ishaqi sultanları, cənnətməkan şahın damadı Cəmşid xan və o mülkün varisi olan və Xan Əhməd xanla Şirvana gedib orada qara çiçək (ablə) xəstəliyindən ölən Məhəmməd Əmin tərəfindən idarə olunurdu.

O sülalə mülazimlərindən olan Əlixan ibn Karkiya Əhməd, Cəmşid xanın oğlanlarıyla dalaşaraq, onları mülklərindən qovdu, özü isə saxtakarlıqla həmin vilayəti istila edərək hakimlik bayrağı ucaltdı. Onun buna heç bir xidmət və dövlətxahlıq haqqı yoxdu ki, belə bir məmləkət ona verilmiş olsun. Şahın ilhamlı xatiri istədi ki, Biyəpəs Gilanını da, Biyəpiş Gilanına birləşdirib dövlət övliyalarının ixtiyarına versin. Xan Əhmədin üzərinə hücum edən Fərhad xan, şaha bu haqda müxtəldif vədlər verməsinə baxmayaraq, bu işin təxirə salınmasını daha münasib bilirdi.

Amma, Əmir Səyavuş xanın Əmir Həmzə xan Talışla aralarındakı birlik və dostluğa görə etibarı yox idi, buna görə də şahın fikri onu dəf etmək, Təvaleş və Astaraya bitişik olan Kəskər ölkəsini ələ keçirmək və Əlixanın işləri ilə məşğul olmağı isə başqa bir vaxta saxlamaq idi. Amma, olduqca ağır bir haldır ki, onun tərəfdarı olan Biyəpəs əhalisi fitnəkarlıq həyəcanına düşərək itaətə gəlməyə və onların fitnəsi Biyəpiş Gilanına da sirayət eləyə!

Məsləhələşmədən sonra məsləhət gördülər ki, əgər biz onların hər birinin cəzalandırılması ilə məşğul olarıqsa, başqalarını da ürküdüb qorxuya salarıq. Amma cahanı bəzəyən rəy bütün sərhədyanı torpaqları ələ keçirmək olduğundan onların işləriylə məşğul olmağı ləngitmək istəmədi və hümayun göstərişə görə hər ikisi cəzalandırıldı, Əlixanın qohumlarından Əmir Şahməlik adlı bir şəxsi, baxmayaraq ki, onun əlahəzrət şahla heç bir tanışlığı yox idi və etibarsız bir adamdı, gilanlıları sınamaqdan ötrü bütün Biyəpəs sipəhsalarlığının başçısı etdi.

Ad-sansız bir neçə Biyəpəs adamı da xasseye-şərifənin xüsusi qulamlar silkinə daxil edildilər, onlara qəbul olunmuş qaydadan artıq məvacib və tiyul verildi, Rəştə və Fumənə daruğələr təyin edildi, onları adı çəkilən gilanlılarla birlikdə yola saldılar.

GİLANLILARIN ÜSYANLARININ ZİKRİ, MÜZƏFFƏR ƏSGƏRLƏRİN ONLARIN CƏZALANDIRILMALARINDAN ÖTRÜ VÜRÜŞÜ VƏ ALLAHIN KÖMƏVİ İLƏ QALİB GƏLMƏLƏRİ

Gilan işləri, yuxarıda yazıldığı kimi nəzərdə tutulduğundan, Əmir Şahməlik və yoldaşları hədsiz səfəqqətlərlə yola rəvan oldular.

Onlar amma həqşünaslıq və əql cövhərinin bəhrəsini görmədilər, bütün Gilan əhalisinin batinlərində gizlətdikləri xəbisliyi aşkara çıxardaraq üsyana başladılar. Biyəpəsin avara adamlarını toplayıb Fumənin daruğəsi üzərinə gedərək onu qətlə yetirdilər. Bu xəbəri eşidən Rəşt daruğəsi oranın əhalisindən də müxaliflik əlamətləri görüb Rəştdən çıxdı. Əmir Şahməlik isə fitnəkarlıq edərək biyəpişliləri də üsyana qaldırdı. Biyəpişlilər də şah şəfqətlərinin qədir-qiymətini bilməyib özlərini üsyan təhlükəsinə (məhləke) saldılar.

Biyəpiş Gilanının hərbçilərindən həmişə orada vəkilüs-səltənə və Gilan sultanları dövlətinin sahib-ixtiyarı olmuş əjdər və çəpək adlı iki tayfa vardır. Onların aralarında sipəhsalarlıq və padşahın vəkalət mənsəbi uğrunda qədimdən ədavət olmuşdur və o tayfaların heç biri fürsət düşdükcə həmin mənsəbləri biri-digərinə güzəştə getmir.

Bu vaxt çəpək tayfasından və Gilan hərbçilərinin ən böyük adamı olan Əmir Abbas fərmanla Ləştənəşa hakimi təyin olunmuşdu. Əjdər tayfasının Bu Səid adlı bır adamı isə meşə və cəngəlliklərə girərək, qızılbaşlara tabe olmur və Mir Abbasa qarşı xainlik edirdi. O, elə o günlərdə Əmir Şahməlikin düşmənçiliyini eşidərək onun yanına getdi, Xan Əhmədə istək və qızılbaşlara müxalifət izhar etdi. Gilanın ağılsız səfehləri onun ətrafına toplaşaraq Əmir Şahməliklə əhd-peyman bağlayıb dedilər: "Şirvanda olan Xan Əhmədin və bu mülkün varisi Məhəmməd xan Əmin ibn Cəmşid xanın gəlişinədək, bundan sonra biz qədimdən bizi bu dövlət əhalisi arasında mövcud olan Biyəpişlik və Biyəpəslik ədavətini ülfət və dostluqla əvəz edək, Biyəpişi Xan Əhməd,

Biyəpəsi isə Məhəmməd Əmin xan üçün saxlayaraq və qızılbaşların [bu yerlərə] dəxalətinə imkan verməyək"

Amma, gilanlılar heç bilmirdilər ki, Məhəmməd Əmin Şirvanda vəfat etmişdir və o vaxtadək onu bütün Gilanın ağsaqqalı bilirdilər.

Bu xəbər Lahicana çatdı. Əhməd bəy Darüğə, qızılbaş hakimləri və Talişə Kuli, həmçinin Kiya Fəridun Gilan başıpozuqlarını toplayaraq onların qarşılarına - Sefidrud kənarına getdilər. Talişə Kulinin hərəkətlərindən müxalifət meyli hiss edən Əhməd bəy ehtiyatla qızılbaşlarla birlikdə gilanlılardan aralandı. Talişə Kuli də ondan şübhələndi və onlar bir-birlərindən çəkinməyə başladılar. Bu iki dəstə arasında qarşıdurma başlayan gün düz əqidəli və xeyirxah adam olan Kiya Fəridun Əhməd bəyi və qızılbaşları Talişə Kulinin gizli xəbisliyindən və onun Şahməlik və başqa düşmənlərlə əlbirliyindən xəbərdar etdi, belə məsləhət gördü ki, o əsnada sərfəli olmayan cəngə girişməsinlər və özlərini xətadan kənar etsinlər, çünki qızılbaş tayfaları heç vaxt gilanlı olmamışlar.

Onlar, buna görə də, mərəkəyədək çəkinərək Kiya Fəridunun məsləhətinə əsasən Deyləman yolu ilə hərəkət etməyə başladılar, Əhməd bəyin və qızılbaşların gedişlərindən xəbərdar olan Talişə Kuli bir adamını Əmirə Şahməlikin və Bu Səidin yanına göndərdi. Onlar Sefidrud çayını keçərək Mizrarın Seyid Əşrəf adlı yerinə gəldilər, bir-birilərilə əhd-peymanı təzələyərək, qızılbaşlara qarşı birləşdilər.

Əmir Şahməlik Biyəpişə qayıtdı. Talişə Kuli və Bu Səid isə adamlarıyla Lahicana gəldi, Biyəpəs camaatlarından yardım almaqdan (estezhar) ötrü Xan Əhmədin yanına Şirvana adam göndərdi. O, Lahicanda səltənətə çıxaraq, münasib adamlara vəzifələr verdi. Onlar hər gün Xan Əhmədin evinə yığışıb onun divanxanasında işlərin nizama salınmasına çalışır, qəlyan çəkir, iki günlük hakimiyyəti qənimət bilir və gələcək vəziyyətləri barədə qətiyyən fikirləşmirdilər. Bu xəbərlər Qəzvində hümayun şahın qulağına çatdıqda, onun qiyamət zəbanəli qəzəb şöləsi alovlanmağa başladı. O, əvvəl istədi ki, şəxsən özü bu hadisənin dəf olunmasından ötrü gedib o puç təbiətli adamları elə cəzalandırsın ki, qəflət yuxusundan bidar olsunlar və bundan sonra "fitnə" sözü onların heç birisinin dilindən çıxa bilməsin. Şahın hümayun ordu ilə bu vaxt getmək imkanı olmadığından, o zatın möbidlər möbidi olan ağlı onu o niyyətdən çəkindirdi. [Əlahəzrət] Fərhad xana tapşırdı ki,

Biyəpəs və Biyəpiş arasındakı Kuhdəm yoluyla oraya yollansın. Allahqulu bəy Qorçibaşıya Deyləmana gedərək Əhməd bəyə və Kiya Fəridunə birləşmək və Şeymə yoluyla getmək tapşırıldı. Onlara həvalə olundu ki, Gilana gedərək birlikdə hər iki Gilan düşmənlərini öz əməllərinin cəzasına yetirsinlər, o torpağı tüğyan ərbablarının dəxalət tikanından təmizləsinlər. Fərhad xan [belə] ərz etdi: "Biyəpiş əhalisindən görünmüş bu cürət və cəsarət Biyəpəs camaatının çağırışı ilə olmuşdur. Əgər şahın inayəti Əlixana olarsa və bu dəfə onun təqsirindən keçərsə, o zaman Biyəpəs hakimliyi fərmanla ona verilər, o, bu dövlətxah şahın tərəfində durar, müxalif kütlə isə bir-birindən ayrılar, Biyəpişin işləri ürək istəyincə asanlıqla öz yoluna düşər. Əgər Əlixandan şaha itaətə xilaf olan bəyənilməz hər hansı bir əməl müşahidə olunarsa, bunun dəf olunması çətin deyildir". Fərhad xan bu barədə xeyli danışdı. Əlahəzrət istər-istəməz onun məsləhətinə əməl edib Əli xanı həbsdən çıxardı, ona qiymətli xələtlər verərərək Fərhad xana tapşırdı, onunla yoldaş etdi, Biyəpiş Gilanının hakimliyi və əmirülüməralığı isə Fərhad xana verildi. O, bu il öz yar-yoldaşları arasında "fərzənd" sözü ilə xitab olundu və tam şövkət və əzəmətlə Kuhdəm yolu, qorçibaşı isə Deyləman yoluyla rəvan oldular. İqbal əskərlərinin gəlişi xəbəri Gilan üsyankarlarını bərk narahat etdi, Bu Səidi və Talişə Kulini düşmənlərin biri olan Mənsur Mənkal ilə Deyləman ləşkərinin qarşısına yolladılar ki, Deyləman-Lahican yolunun arasındakı Şeymə yoluyla hərəkət etsinlər. Bu yol olduqca çətin yoldur. Onun dar və palçıqlı olması, habelə sıx meşələri bircə nəfərdən artıq süvarinin keçib-getməsini olduqca çətinləşdirir. Bu Səid, Talişə Kuli və Mənsur Mənkala tapşırıldı ki, onlar həmin yolu bağlayaraq qızılbaşların dəfinə başlasınlar. Əmir Şahməliklə birləşib Biyəpəs camaatı ilə birlikdə Kuhdəm yolunu möhkəmləndirsinlər, Fərhad xanın və onun adamlarının Gilana daxil olmalarına maneçilik törətsinlər.

Talisə Kulinin Şeyməyə getdiyini, yol keçidlərinin keçilməz etdiyini və gilanlıların "bənə" adlandırdıqları böyük ağaclarla Şeymə yolunu bağladıqlarını eşitdikdə, Deyləman qorçiləri irəliləyib, düşmən ləşkərinin qarovullarına çatdılar və cəngə başladılar. Fərhad xan isə hələ Kuhdəmdə idi. [Gilanlılar] məğlubiyyətə uğradılar. Bənə ilə doldurulmuş birinci keçiddə onların saxladıqları tüfəngçiləri yağıların əllərindən alıb irəli getdilər. Qorçibaşı irəli gedərək bu, güclü dövlətin qüvvəsi ilə bəd

niyyətli o ləşkərin qalan əskərlərini də məğlub etdi, başqaları isə meşə və çəngəlliklərə dağılışdılar. Mənsur Mənkal öldürüldü, Talişə Kuli isə qaçıb özünü çətin yerlərə çatdırdı. Müzəffər əskərlər o yolların çətinliyini hərbiçilərə xas bacarıqla keçərək, Lahicana çatanadək heç yerdə dayanmadılar, günün sonunda şəhərə çatdılar. Talisə Kulinin məğlub olmasını, Gilan ləşkərinin dağınıq düşməsini və qorçilərin gəlişini eşidən Səid çaşqın halda özünü Lahicandan Gilan meşələrinə çatdırdı və gizləndi. Bütün şəhərdə çaxnaşma başlandı və şəhər boşaldı. O, Lahicandan Fərhad xanın yanına bir adam göndərərək, ona Lahicanın fəth olunma xəbərini çatdırdı. Əskərlərə qarətkarlığa qurşanmalarını qadağan edən qorçibaşı rəiyyətin nəvazişləndirilməsi ilə məşğul oldu, nəticədə şəhər əhalisi bir-bir, iki-iki qayıdıb cəm oldular. Fərhad xan isə qorçilərin onu qabaqlamaları və Lahicanı fəth etmələrinə görə onlardan incimişdi, çünki istəyirdi ki, bu fəth məhz onun özü tərəfindən həyata keçirilmiş olaydı. O, zahirdə özünü şadiman kimi göstərirdisə də, Əlixanı bir dəstə adamla Biyəpəsə göndərdi. Şahın yanında olarkən qulağını qorçibaşının yaxşı-pis xüsusiyyətləri barədə qiymətli nəsihətlərlə doldurub, özünün əhd-peymanının sabitliyi haqqında, həmrəyliyinin (yekcəhəti) və sədaqətinin möhkəmliyi (rosux) barədə yüksək sözlər danışmışdı.

Misra

Qəlbi qarə adama varmı xeyri mövizədən?[569]

Xan Lahicana yollandı, müzəffər əskərlərə qoşuldu, məsələni şaha ərz etdi. Qorçibaşı və qorçilər bir müddət Lahicanda qalaraq düşmənlərin axtarışı ilə məşğul oldular, dövlətin faydası naminə böyük səy və çalışqanlıq göstərdilər. O yerlərin işləri sarıdan xatircəm olduqdan sonra qorçibaşı və qorçilər Qəzvinə qayıtdılar. Fərhad xan isə Gilan işlərinin nizamlanması və gilanlıların cazalandırılmalarına aşlayaraq ədalət və məmləkətdarlıq bayrağını qaldırdı.

Biyəpəsə gedən Əlixanı bütün Biyəpəs camaatı istədiyi üçün, hamı onun ətrafına toplaşıb Əmir Şahməlikdən ayrıldı. Öz

[569] Misranın farscası:
Ba siyəhdel çe sud goftəne-vəz.

halını belə müşahidə edən Əmir Şahməlik, Əlixanı xilas etməsinə baxmayaraq, yenə də əvvəlki etimadla onun yanına gəldi. Əlixanın isə onu tutub öldürməkdən başqa çarəsi yox idi. Bu işi yerinə yetirməmək camaatın gözündə itaətsizlik və qeyri-səmimilik əlaməti kimi görünə bilərdi. [Buna görə də] onu qətl edib, başını Lahicana Fərhad xana göndərdi.

O, (Əlixan - Ş.F.) ilin sonuna qədər Fərhad xanla sülh və barışıq yoluyla davrandı. Xanla bircə dəfədən artıq görüşə bilməməsinə baxmayaraq, ona xidmət etməkdə idi. İlin sonlarındasa etimadsızlığı daha da möhkəmləndi, gizli xəbisliyi və nəməkharamlığı zahir oldu, xana qarşı davranışı dəyişildi, ona qarşı üsyan məqamına gəldi, nəticədə Əlixanın fitnəkarlığının dəf olunması vacib bilindi. Onun, Talişə Kulinin və Bu Səidin əhvalatının ardı barədə gələn ilin hadisələrinin şərhində məlumat veriləcəkdir.

ABDULLA XANIN XARƏZMƏ LƏŞKƏR ÇƏKMƏSİ, ƏBDÜLMÖMİN XAN VƏ OĞLUNUN XORASANA GƏLMƏLƏRİ, ÜRGƏNC VƏ XORASANDA BAŞ VERMİŞ HADİSƏLƏRİN ZİKRİ

Özbək sultanları haqqında söz deməyin İran tarixinin yazılmasından ötrü münasib olmamasına baxmayaraq, söhbətin qırılmaması naminə, onlar haqda yazmamaq mümkün olmadı. Qələm yuxarıda belə bəyan etmişdi: Özbək sultanlarının eyni sülaləsinə mənsub və Şeyban ibn Cuci ibn Çingiz xan nəslindən olan Ürgənc valisi Nurməhəmmədxan ibn Əbülməhəmməd xan və Xarəzm padşahı Hacı Məhəmməd xan ibn Əta xan Nisa vilayəti üstündə düşmənçiliyə başladılar. Nurməhəmməd xan Abdulla xana pənah apardı, Nisa vilayətini ondan almaqdan ötrü kömək əvəzinə Mərvi peşkəş kimi verəcəyini boyun oldu. Abdulla xan, Mərvi artıq özünə götürdüyünə baxmayaraq, Nurməhəmməd xanın istəyinin icrasından ötrü vaxtı uzatdı, çünki Nurməhəmməd xanla Hacı Məhəmməd xanın arasındakı düşmənçilik Abdulla xanın məqsədinə müvafiq idi.

Abdulla xanın ona imdad etmədiyinə görə Nurməhəmməd məyus idi, hətta ondan daha çox oğlu Əbdülmömin xandan çəkinirdi. Buna görə də, o, izn almadan Abdulla xanın ordusundan ayrılıb öz vilayətinə üz tutdu.

Ürgənc valisi Nurməhəmməd xanın Şah Abbasın yanına gəlməyi:

Bütün niyyəti Xorasan vilayətini və Xarəzmi ələ keçirtmək olan Abdulla xan Ürgənc sultanlarının həzrət zillallah şahla birlik və dostluq etmələrindən narazı idi. O, həmin sultanların bir-birləriylə çəkişmələrini qənimət sanıb, bu il əlahəzrətin sərhədyanı işlərlə məşğul olmasını fürsət bildi və [oğlu] Əbdülmömin xanı Əbivərd, Nisa və Nişapur [şəhərlərini] fəth etməkdən ötrü Xorasana göndərdi, özü isə Xarəzmə qoşun çəkdi. Əbdülmömin xan Mərvə çatdıqda, Nurməhəmməd xanın xidmətində olan özbəklər canlarının qorxusu və mallarının qarətə gedəcəyindən qorxub, bivəfalıq etdilər və qala açarını ona göndərdilər. Ləşkərin bivəfalığını və düşmənin fəthini görən Nurməhəmməd xanın daha həmin vilayətdə qalmaq imkanı qalmadı, Hafizək Sultan Xəbuşaninin köməyi ilə həmin vilayətdən çıxaraq özünü şah [dərgahının] astanəsinə çatdırdı. Əlahəzrət də onun gəlişini qiymətləndirib adlı-sanlı şahzadə Məhəmməd Bağır Mirzəni xani qarşılamaqdan ötrü cənab etimadüddövlə, bəzi əmirlər, xüsusi adamlar və yaxın şəxslərlə birlikdə bir fərsəx məsafəyə göndərdi. Məhəmməd Bağır Mirzəyə gəlib-çatan Nurməhəmməd xan atdan yerə endi və şahzadə ilə rəsmi görüş qaydasını yerinə yetirdi, hümayun dövlətxanaya gəldi, Çehelsütun qəsrində hümayun nəvvabla görüşməklə şərəfləndi. Əlahəzrət onunla mehribalıqla və qardaşcasına davrandı, fərmana əməl edən divan vəkilləri onun zəruri ehtiyacını yüksək səviyyədə təmin etdilər, xan hümayun şahın xüsusi məclisində iştirak etdi və onunla həmsöhbət oldu.

Amma, Əbivərd, Çəhcə, Mehnə, Nisa, Bağdad, Dərun və ətraf yerlərdən xatircam olan Əbdülmömin xan Nişapur qalası üzərinə qoşun çəkdi. Hələ məhsulların yetişmədiyi dövr olduğundan qalada ərzaq çox azalmışdı və belə bir məqamda o, qalanı mühasirə etdi. İsfahan qalasının mühafizəsindən olan Dərviş Məhəmməd xan rumlu qaziləri və İsfahan tüfəngçiləri ilə birlikdə bürcləri, divarları və darvazaları müdafiə etməklə məşğul oldular, qalanın mühasirə olunma xəbəri gəlib şaha çatdı.

Fərhad xan, qorçibaşı və müzəffər əskərlərin əksəriyyəti Gilanda düşmənlərin işləri ilə məşğul olduqlarından, onların Xorasan yürüşləri bir neçə gün yubandı. Əbdülmömin xan isə adı çəkilən qalanın alınmasından ötrü bir neçə uğursuz yürüş etsə də,

qala dilavərləri üzlərinə müxalifət qalxanı tutub mərdanəliklə qalanı qorudular, heç kimi oraya girməyə qoymadılar, özbək bahadırlarının bir çoxu isə həmin yürüşlər zamanı ölüm torpağına sərildi. [Amma] bürclərin birinin altına lağım ataraq, oranı barıtla doldurdular və gecə düşən kimi onu odladılar. Barıt bürcü dağıtdı və keçid yolu yarandı. Hücuma keçən özbəklərin üç-dörd yüz nəfəri yuxarı qalxıb şəhərə daxil oldular.

Bürcün dağılmasını və özbəklərin qalaya daxil olma xəbərini eşidən Dərviş Məhəmməd xan elə həmin ləhzə rumlu igidləri, Mir Fəttah və İsfahan tüfəngçiləri ilə birlikdə məşəllər yandıraraq, özünü həmin viran olmuş bürcə çatdırdı. Onlar özlərinə kömək yetənə qədər tüfəng güllələrini özbəklərin üstünə dolu kimi yağdırmağa başladılar, o viranlıqda möhkəm sədd kimi dayanıb mərdanəliklə vuruşdular. Daha bir nəfər də Özbək içəri daxil ola bilmədi. Amma, şəhərə daxil olmuş bir dəstə özbək arxadan kömək gəlmədiyinə görə küçələrdə sərgərdan qaldılar. Rumlu qaziləri, tüfəngçi və Nişapur camaatı küçə başlarını tutaraq, onları bir-bir ayaqdan saldılar. Aralarındakı cəng gecə yarısınadək davam etdi. Bir-ikisi sultan övladlarından və mötəbər özbəklərdən olan iyirmi-otuz nəfər məşhur bahadırı diri-diri əsir götürdülər, yerdə qalanlar isə qətlə yetirildilər. [Qızılbaşlar] o gecə sübhədək işlədilər və bürcü təmir edib möhkəmləndirdilər. Abdulla xan bu vaqiədən narahat oldu. Dost-düşmənlər isə Dərviş Məhəmməd xanın və isfahanlıların mərdanəliklərinə və qaladarlıqlarına "afərin" dedilər. Həqiqətən də, qədim vaxtlardan indiyənəcən baş vermiş az hadisələrdəndir ki, dörd ay müddətində qalanı mühasirəyə alan və onun bürcünü yıxıb yürüşə hazır olan bir padşah üç yüz nəfərlə həmin qalaya daxil ola, hücuma keçənlər oranı yenidən ələ keçirə, mühafizə etməyə və o böyüklükdə şəhəri yenidən düşmən şərindən qorumağa başlaya.

Xülasə, fəth və zəfərdən məyus olan özbəklər Əbdülmömin xanın işarəsi və təhrikiylə qala ayağına gəlib qışqıra-qışqıra dedilər: "Əgər filan sultan və filan bahadır hələ öldürülməyibsə, onları sağ saxlayıb tələf etməyin. Belə halda mümkün ola bilər ki, [gələcəkdə] qala əhli nicat tapsın və xanın qəzəbindən qurtarsın".

Bir neçə rumlu qazisi, o cümlədən Dərviş Məhəmməd xanla yaxın olan rumlu qazisinin biri əhvalatın başlanğıcında özbəklər tərəfindən əsir tutulub sağ-salamat saxlanılmışdı. Dərviş Məhəmməd xan da vaxtında işə yaraya biləcəklərini düşünərək tutulan özbəkləri öldürməmişdi. Bu işlər baş verən vaxtlarda

Şahverdi Abbasi tərəfindən şahın məhrusə məmləkətlərinə təcavüz olundu və o, Bərucərddə olan Uğurlu Sultan Bayatın üstünə yürüşə keçərək hərbə başladı, onu qətlə yetirdi. Bu məsələdən qəzəb atəşi alovlanan padşah öz məmləkətlərinin yaxınlığanda yaşayan və həqiqətən daxili düşmən (doşməne-xanəgi) olan Şahverdi Abbasini cəzalandırmaqdan ötrü şahanə qərara gəldi, Luristana tərəf hümayun yürüş vacib bilindi. Dərviş Məhəmməd xana şah məktubu sadir olunub, baş verənlərdən onu hali etdilər və belə yazdılar: "Bizim Xorasana gəlib-çıxmağımız məlum deyildir. Rumlu qazilərinin, isfahanlıların və qızılbaşların ailə üzvləri və namusları Nişapurda qalmışdır. Öz ağıl və düşüncən ilə hərəkət edib Əbdülmömin xanla barışaraq, sülh yarat, hansı yolla olur-olsun özünü İraqa çatdır, əhl-əyalları oradan çıxar, Nişapurla [hələlik] işin olmasın, o yer, Allahın köməyi ilə, yenidən asanlıqla əlimizə geri qayıdar". Dərviş Məhəmməd xanın qardaşı Şahqulu Xəlifəni yanıma çağıran şah bu məktubu Nişapura aparmaqdan ötrü ona verdi.

Şahqulu Xəlifə isə bu fikri qəbul etməyərək, məktubun göndərilməsini istəmədi, dedi: "Biz sədaqət və sufilik yolu ilə gedərək, hətta canımızı da siz vəlinemətin və mürşidi-kamilin yolunda verərik. Nə qədər ki, bədənində can və canında damar var, mənim qardaşım çalışıb qalanı qoruyacaqdır. Əgər zəifləşərək qalanı hifz etməkdən aciz qalarsa, din və dövlot yolunda şəhadət şərbəti içəcək və cahanda yaxşı ad qoyub gedəcəkdir". Nəvvab şah öz gövhərlər yağdıran dili ilə dedi: "Əgər bu səylər məni razı salmaqdan ötrüdürsə və əgər mən elə bir iş etsəm, bilin ki, vəlinemətin razılığını almaq ən yüksək səadət yoludur. Xorasan paytaxtı Herat darüssəltənəsi, müqəddəs Məşhəd isə həzrət səkkizinci İmam Rzanın (ə) aramgahıdır, amma [o yerlərin] mahallarının əksəriyyəti özbəklərin işğalı altındadır. Buna görə də, Nişapurdan ötrü bu qədər təlaşa düşmək və əhl-əyalı bada verməkdən nə çıxa bilər? Əgər Allah-təala istəsə, bütün Xorasan məmləkətləri asanlıqla, özü də heç kimin əqlinə gəlməyən bir şəkildə bizim əlimizə gələ bilər. Əksinə, faydasız səy fələklə dava-dalaş etmək deməkdir". Nəticədə, o həzrətin ilham bəyanlı dili ilə sözlər yerinə yetirilmiş oldu. Xülasə, çox danışıqdan sonra can-fəda sadiq adamların biri həmin iqbal məktubunu Səbzvara apardı, orada onu məchul bir şəxsə verərək, Nişapura göndərdi, Dərviş Məhəmməd xan məsələdən ağah oldusa da, qalada azuqə qalana qədər var qüvvəsi ilə döyüşdü. Azuqə qıtlığından qala əhlinə çətinlik

üz verdikdən sonra o, sülh barədə danışığa başlayaraq, əsir götürülmüş özbək bahadırlarını həmin danışıqdan ötrü vasitə etdi. Qala mühasirəsinin uzun çəkməyindən və çoxlu özbək tələfatından təngə gələn Əbdülmömin xan qələbə çöhrəsini görməyərək sülhü böyük qənimət bilib, belə bir əhdnamə yazdı: "Əgər Dərviş Məhəmməd xan Nişapur qalasından əl çəkib İraqa qayıdarsa, özbək qoşunundan qoy arxayın olsun, özbəklər qızılbaşların mal, can və namuslarına toxunmayacaqlar, onun özü də (Əbdülmömin xanın - Ş.F.) əsir götürülmüş rumlu qazilərini sülh üçün bir vasitəçi biləcəkdir". Belə şərtləşdilər ki, tərflərin əsirləri bir-birləri ilə dəyişdirilsin.

Bir neçə gün bu danışığa sərf olundu. [Amma] Dərviş Məhəmməd xan və qala əhli özbəklərin əhd-peymanına etibar etmirdilər, çünki bu iki il ərzində onların iki min nəfərə yaxın adamı qətlə yetirilmiş, bütün özbəklər qanlı (xuni) olmuşdular. Buna görə də, qızılbaşlar Əbdülmömin xanın qəddarlıq və məkrindən arxayın deyildilər. Nəhayət, imana güvənib peyman bağladılar və tərəflər arasında əhd və peyman şərtləri imzalandı, Dərviş Məhəmməd xan və adamları öz xanəköçləri və əhd-əyalları ilə birlikdə İraq qapısından çıxdılar. Əbdülmömin xan bütün qoşununu bəzəyib o gün qızılbaş ləşkərini müşahidə etmək üçün atlandı. Qızılbaşlar onun qoşun bəzədiyini görərək əllərini canlarından üzdülər və döyüşə hazır vəziyyətdə dayandılar. [Dərviş Məhəmməd xanla] birlikdə olan üç yüz nəfər isfahanlı tüfəngçi tüfəng fitillərini (fətilə) yandırıb hərbə hazırlaşmağa başladı. Bu tərəfdən də, əksəriyyətinin oğlu, qardaşı və qohumları mühasirə vaxtı qətlə yetirilmiş özbəklər sülh əhdini pozmaq və qızılbaşlardan intiqam almaq istədilər. Əbdülmömin xan ağsaqqallarla məşvərət keçirdi. Onların aqil adamları dedilər: "O camaat min nəfərdir və onların hamısı candan əl çəkdikləri üçün, nə qədər ki, sağdırlar, döyüşəcəklər. Onların arasında mahir bəndəkəndazlar (tüfəngçilər - Ş.F.) da vardır ki, onlar bizim iki-üç min adamımızı öldürməyənədək öldürülməyəcəklor. Bundan başqa, əhd və peymanı pozmaq sultanlıq rütbəsinə layiq əməl deyildir. Yaxşısı budur ki, əhd-peymana vəfa edərək, onların getmələrinə mane olmayaq".

Bu fikir Əbdülmömin xanın xoşuna gəldi, qəddarlıq fikrini ürəyindən çıxardı. Amma, adanı yollayıb Dərviş Məhəmməd xanın ata süvar olub gəlməsini və onunla görüşməsini xahiş etdi. Rumlu camaatı və tüfəngçilər onun gedişinə mane oldularsa da xan belə

düşündü: "Onun [özbək padşahının çağırışına] getməməyi birdən onlar tərəfindən qorxaqlıq kimi qiymətləndirilə bilər". Buna görə də, şahın zavalsız iqbalına bel bağlayıb üç-dörd nəfər adamla qoşun və ləşkərdən ayrıldı və Əbdülmömin xanın qarşısına yollandı. Əmirlər onu [müəyyən olunan yerə] çatdırdılar və görüş başlandı. Öz əhsən və afərin dilini açan Əbdülmömin xan dedi: " Vəlinemətinin duzçörəyi sənə halal olsun ki, ixlas, nökərlik və mərdanəlikdən əl çəkmədin [və yanımıza gəldin]". Amma, Dərviş Məhəmməd xanın atının daş-qaşlarla bəzənmiş yəhərinə tamah saldı, [əvəzindəsə] öz yabılarından birini ona verdi. Dərviş Məhəmməd xan izn alaraq, o gün axşamacan yol getdi və özünü Səbzvar hüduduna çatdırdı. Oradan çıxıb İraq yolunu önə tutdu, zəfər ayəli ordu Luristandan qayıdan vaxt o da gəlib Qəzvinə çatdı, şahın xidmətinə getməklə şərəfləndi, göstərdiyi xidmət müqabilində Gilan əyaləti, Lahican və oranın əmirülüməralığı ona verildi.

Dərviş Məhəmməd xanın gedişindən sonra Əbdülmömin xan Səbzvarı tutmaq fikrinə düşdü. Qış gəldiyi üçün onun özü müqəddəs Məşhədə getdi, bir dəstə özbək əmirini isə Səbzvar üzərinə yolladı. O vilayətin hakimi olan Məhəmmədmömin Sultan - Mir Şəmsəddin Əli Sultan Səbzvarinin nəvəsi şəhərə yaxın mahallardan azacıq azuqə toplayaraq, qalanı (ərk) möhkəmləndirdi və bir neçə gün şəhəri qorudu. Səbzvarlılar bacardıqları qədər qaladarlıq etdilər. Amma, Əbdülmömin xan Xorasanda gözləməkdən bezib Bəlxə tərəf üz tutdu, əmirlərin yanına bir adam yollayıb onlara belə yazdı: "Qızılbaş padşahı bu il Xorasana gəlib-çıxmadı. Qantökən (səffak) və qorxubilməz (bibak) bir adam olan Əbdülmömin xan isə müqəddəs Məşhəddə əyləşmişdir. Əgər səbzvarilər ona qarşı çıxarlarsa, o da həmin səmtə hücuma keçəcək, həmin vilayətdə zülm atəşi yandıracaqdır. Sizə məsləhət belədir ki, bu il onunla (Əbülmömin xanla - Ş.F.) yola gedin". Sonra belə qərara alındı ki, Əbdülmömin xanın Səbzvara təyin etdiyi hakim qoy onların yanına gedərək altı ay orada qonaq qalsın, məmləkət işlərinə dəxalət etməsin. Bu müddət bitdikdən sonra qoy oraya qızılbaş ləşkəri gəlsin və özbək hakimi öz yerinə qayılsın. İndi isə indiki hakimi qoy özbək daruğəsi əvəz etsin.

Səbzvarlılar özlərini mühasirə əziyyətindən xilas etmək naminə həmin sülh şərtləri ilə razılaşdılar və tərəflər arasında əhd-peyman sazişi bağlandı. Səbzvarın hakimi və daruğəsi təyin olunmuş özbək əyanlarından Nədr bahadır Musa Mirzə ilə birlikdə

əlli nəfər adamla şəhərə gəlib-çıxdı, özbək ləşkəri isə köçüb Əbdülmömin xanın dalınca getdi, Cam hüdudunda ona çatdı. Onlar Səbzvarda baş verənləri ona ərz etdilər. Belə deyirlər ki, Əbdülmömin xan əmirlərə öz etirazını bildirib bu sülh sazişini rədd etdi.

Xülasə, Məhəmmədmömin Sultan onların yaşamalarından ötrü mənzillər hazırladı, aybaay onlardan ötrü savəri təyin etdi. Aralarında bir-iki görüş də baş verdi. Hakimin mülazimləri azacıq savəri yığmaqdan ötrü rəiyyətə əziyyət verirdilər, istəyirdilər ki, öz iqtidarlarını bildirsinlər. Buna görə də, onlar hər kəsdən inciyib hədələyir, öz vaxtlarının bitməsini gözləyirdilər. Batinən şiə olan səbzvarlılar küçə və bazarda özbəklərə, sünni olduqlarına görə, tənələr edir, onların cahilləri məzhəb təssübkeşliyinə qapılıb onlara rədd cavabı (rəfz) verir, söyür, şəmşirlərini çıxarıb sərtlik göstərirdilər. Məhəmməd Mömin Sultan Nədr bahadırın yanına iki-üç dəfə adam göndərərək, ona öz adamlarına belə rəftarı qadağan etməsini, küçə və bazarlarda gəzməmələrini, səbzvarlıları incitməməyi tapşırdı. O isə, üzr istəyərək elə sərt rəftarın səbzvarlı avam camaat tərəfindən edildiyini bildirdi.

Xülasə, onların işğal və bəd rəftarlarından səbzvarlılar təngə gəlmişdilər və buna görə də tərəflər arasında fəsad yarandı. Onlar heç cür bir-birlərinə qaynayıb-qarışmırdılar. Özbəklər bir neçə vaxtdan sonra şəhərdən çıxaraq, şəhərlə Səng Kəlidər arasındakı dörd fərsəx məsafədə yerləşən bir kənddə məskən saldılar, oranı qala şəklinə gətirib özlərini hifz etməyə başladılar. Mirzə Məhəmmədmömin Sultan və səbzvarlılar onların orada olmalarını məsləhət bilməyib, gah yumşaqlıq və insani tərzlə, gah da əzab-əziyyət verməklə onları şəhərə gəlməyə rəğbətləndirdilər və çəkib gətirdilər. Amma, özbək cahilləri yenə də əvvəlki kimi kobudluq və təhdid məqamında idilər. Ağsaqqallar isə barışıq yolunu tutmuşdular. Belə bir vaxtda səbzvarlılar o camaatı dəf etmək qərarına gəldilər, onlarsa təngə gəlib fərar yolu axtarmağa başladılar, hücum edərək Musa Mirzəni tutdular və ixtiyarını əlindən aldılar. Özbəklərin tutulmaları başlandı. Özbəklər yaraqlanaraq bir qədər əl-qol atdılar, amma bir yerə toplaşıb hücum edə bilmədiklərindən onların hamısı tutuldu. Məhəmmədmömin Sultan bu vəziyyəti şaha ərz etdi, Nədr bahadırı saxlayıb, Musa Mirzəni əsirlərlə birlikdə ali saraya yolladı. Nəvvab şah səbzvarlıların əhd-peymanı sındırdıqlarını bəyənmədi. Buyurdu ki,

əgər sizinlə onlar arasında yaxşı münasibət (təəyyoş) olmasaydı onlara üzrxahlıq edib öz vilayətinə göndərərdiniz.

Xülasə, o, Musa Mirzəni xeyli nəvazişləndirib ona və yoldaşlarına qayıtma icazəsi verdi. Əzəmətli qorçilərin birinə tapşırıq verildi ki, onunla gedərək məhrusə məmləkətlərindən onlara ülufə və iqamət yeri versin və onu ehtiramla yola salsın. Həmin qorçi ali əmrə əməl edib onları müqəddəs Məşhədə apardı, o vaxt oranın hakimi olan Xodaynəzər bahadıra təhvil verdi, ondan kağız (qəbz) alıb şaha gətirdi. Amma, səbzvarlıların qızılbaşlara olan münasibətinə qarşı kini olan Əbdülmömin xanın [əvvəlki] kininin üstünə köhnəsi də əlavə olundu və o, aşağıda yazılacağı kimi, gələn il onlardan intiqam alıb, dünya və axirətin cəzasına giriftar oldu. Amma, Xarəzmə qoşun çəkmiş Abdulla xan, təfsilatla yazılmasının İran tarixinə aidiyyəti olmayan müharibədən sonra, Hacı Məhəmməd xana qalib gəldi. Ürgənc özbəkləri onlardan ötrü candan əziz olan mallarının qarət olunacağı qorxusundan, öz padşahlarına bivəfalıq edərək, cəng zamanı heç də böyük səy göstərmədilər, Abdulla xana məğlub olub, əksəriyyəti onun itaəti altına girdilər.

Xarəzm padşahı Hacı Məhəmməd xanın Şah Abbasdan kömək xahişi ilə Qəzvinə gəlməyi:

O vilayətin əskər və rəiyyətindən məyus olmuş Hacı Məhəmməd xan fərardan başqa çarə görmədi, hiyləgərliklə özünün böyük oğlu Ərəb Məhəmməd Sultanı, kiçik oğlu Sevinc Məhəmməd Sultanı, nəvəsi Bərənduq Sultanı, qardaşı oğlu Babacan Sultanı və Astrabad hüdudunda türkmanların sayinxanı eli içərisində yaşayan qırx-əlli nəfər etibarlı mülazimini ataraq, oradan şahın mülazimət ehramına bürünüb ali paytaxta tərəf üz tutdu. O, hümayun şah ordusu Luristan səfərində olduğu vaxt gəlib Qəzvin darüssəltənəsinə çatdı. Nəvvab şah onun gəlişindən xəbərdar olub, Qəzvində ondan ötrü münasib mənzillər hazırlatdı, savəri təyin etdi ki, bir neçə günlük yol yorğunluğundan və gecə-gündüz at sürmək məşəqqətindən asudə olub istirahət etsin. Hacı Məhəmməd xan bir neçə gün dincələrək, hümayun ordunun gəlişini gözləməkdəydi. Şah qələbə və iqballa şəhərə təşrif gətirdiyi gün Hacı Məhəmmədi görməkdən ötrü onun evinə gəldi və onlar ata-oğul kimi görüşdülər, bir-birlərinə qarşı dostanə və mehriban ehtiramlar göstərdilər. Şah

buyurdu ki, əgər ilahinin razılığı olarsa, bir daha onu və Nurməhəmməd xanı Xarəzm və Ürgənc taxtına əyləşdirərəm. Şahın bu arzusu İlahi tərəfindən qəbul olundu, nəhayət onların hər ikisi bu dudmanın yardım və imdadı sayəsində özlərinin irsi mülklərində yenidən taxta oturdu ki, bu haqda öz məqamında yazılacaqdır, bunu onların istədikləri kimi elə Allah da istəyir[570].

ZƏFƏR NİŞANLI ORDUNUN LURİSTANA YÜRÜŞÜNÜN ZİKRİ VƏ BƏŞƏR XALİQİNİN TƏQDİRİ İLƏ HƏMİN UĞURLU SƏFƏR VAXTI BAŞ VERƏN HADİSƏRƏRİN BƏYANI

Hadisə və xəbərlərdən xəbərdar olmaq istəyənlərə həmçinin müşahidə məclislərini bəzəyən adamlara məlum olsun: Bu vərəqlərin yazılmasından məqsəd, hərçənd ki, əlahəzrətin səadət nişanlı dövründə baş verən hadisələrdir, amma burada sözlər arasındakı rabitələrin qırılmamasından ötrü Luristan valilərinin vəziyyətlərinin qısa şərhi də [tərəfimizdən] bəyan olunmaqdadır.

Luristan hakimlərinin zikri:

Xorrəmabad, Xavə, Əlşətr, Sədmərə və Həzmeyn vilayət[lər]ində yaşayan Lurkuçek tayfaları qədim əyyamdan bəri batinən şiə (təşəyyö) olmaları və əhli-beyti uca tutmaları ilə fərqlənmişlər. "Nüzhətül-qülub"* əsərinin müəllifi Lurkuçekin qəsəbələri və başqa yerləri barədə müfəssəl məlumat vermişdir. Bu həqir zərrəyə (İsgəndər bəy Münşiyə - Ş.F.) məlum olanlarsa bunlardır: Adı çəkilən vilayət İraqın cənubundadır. Onun torpaqları bir tərəfdən Həmədan vilayətinə və Əlişəkərə birləşir, digər tərəfdənsə Xuzistan ülkası ilə hüdudlanır. Uzunluğu Bərucerd qəsəbəsindən başlayıb İraqi-Ərəbin Bağdad və son mahallarınadək uzanır və təxminən yüz fərsəxdir. "Tarixe-cəhanara" kitabının müəllifi yazmışdır ki, Lurkuçek tayfası o torpaqlarda toplaşmış müxtəlif qəbilələrdən ibarətdir. Onların maliyyə məsələləri Bağdad darürlxilafəsinə bağlı olmuşdu və beş yüz səksəninci ildə[571] onların

[570] İfadənin ərəbcəsi:
"və mə təşəunə-l-ənə yəşəu-l-lahu".
[571] Ərəbcəsi: "səməninə uə xəmsə miətin".

aralarında başçı olmadığına görə bir-birləri ilə məsləhətləşərək, gözəl rəftarlı Həkrədi (?) qəbiləsindən olan Sücaəddin Xorşid ibn Əbubəkr ibn Məhəmməd Xorşidi özlərinə vali və əmir etdilər. O, həmin vilayəti yaxşı rəftar və bacarıqla idarə edərək əlvar (lurlar) arasında hakim və hökmran oldu. Əlvar əhalisi onun dövlətini qəbul edib, ədalətinin çoxluğu və rəftarının gözəlliyinə görə onun ailəsinə müridanə pirlər kimi yanaşdılar. Onlar Sücaəddin övladını "Abbasi" adlandırdılar, amma şərhi məlum deyildir ki, onlar özlərini nə üçün belə (yəni "Abbasi") adlandırmışlar. Abbasi lurları özlərini həzrət Abbas ibn Əli ibn Əbi Talib əleyhüs-səlama mənsub etmişlər və əlvarların etiqadına görə o həzrətin övladlarıdırlar. Lurların maliyyə işləri darül-xilafəyə xas olduğundan ola bilər ki, həmin tayfa elə buna görə də "Abbasi" adlandırılmışdır.

Xülasə, o təbəqədən olan Şah Rüstəm adlı bir şəxs ixtilaf üzündən, birinci səhifədə yazıldığı kimi, sultanlar sultanı həzrət Süleyman şanlı xaqanın dövründə hümayun saraya gəlmiş, tərbiyət və nəvaziş görmüş, irsi mülkü ona verilmişdi. Uzunsaqqallı (təvilül-ləhye) adam olduğu üçün Süleyman şanlı xaqan onun saqqalını dürrlərlə bəzəmişdi və o həmin qiyafədə həzrət hümayun şahın yanına gələrdi. Şah Rüstəmdən başlayaraq onun övladları bu xanədana bəzi vaxtlarda itaət yolu ilə sədaqət və bəndəliklərini bildirmiş, bəzənsə üsyana qalxaraq Əlişəkərə yaxın yerlərə əl uzatmışlar. Cənnətməkan şah zamanı Şah Rüstəmin oğlu Əmir Cahangir hədsiz mülayimsizliyi üzündən cəzaya məruz qaldı. O vaxtlarda həmin sərhədin əmirülümərası olan Abdulla xan Ustaclını şah onun tənbeh olunması üçün göndərdi və xan doqquz yüz qırx doqquzuncu ildə (miladi 1542/43) Əmir Cahangirin üstünə gedərək, dövlət və iqbalın gücü ilə onu tutub öldürdü. Abdulla xan onları elə cəzalandırdı ki, Əmir Cahangirin bütün ailəsi qarət və tarac küləyi ilə silinib-süpürüldü, onlara qarşı tez-tez hörmətsizliklər zahir oldu. Övladları Şah Rüstəm və Məhəmmədi Bağdada qaçdılar. [O vaxt] onların vilayətinə yaxın yerdə məskəni olan Əmir Cahangirin qızının əri yüksək dərəcəli Seyid Əmirşah Qasim [şahdan] o sülalənin əfvi xüsusunda xahiş etdi və buna görə də cənnətməkan şah onların əməl səhifəsi üzərindən əfv qələmi çəkdi, onlar əfv olunub padşahın iqbal kölgəsinə sığındılar. Cənnətməkan şah Luristan ülkasını hər iki qardaşın arasında böldü və qardaşlar birlikdə öz irsi mülklərini idarə etməyə başladılar. Sədaqət yolunda Şah Rüstəm müstəqim hərəkət edir [və ondan kənara çıxmırdı].

Amma, Məhəmmədi öz cəhalət və nadanlığından üsyankar adam kimi hərəkət etməyə başladı. Fərmana əsasən, Həmədan hakimi Əmir xan Mosullu onun üzərinə gedib tutdu və ali saraya göndərdi. O, uzun müddət Ələmut qalasında saxlanıldı. Cənnətməkan şah həyatının axırlarında onu qaladan azad etdi, çünki istəyirdi ki, onu yenidən öz vilayətinə göndərsin. Amma, Məhəmmədi qorxuya düşərək, icazə almadan ali dərgahdan fərar etdi və Luristana getdi. Luristandan əfv [xüsusunda] məktub göndərib şaha öz bəndəliyini izhar etdi. Cənnətməkan şah onun üzrünü qəbul edib onu öz qəzəbi tərəfdən arxayınlaşdırdı. Həmin hadisələr, cənnətməkan şah zamanı baş vermiş hadisələrin şərhi zamanı şəhvən işıqlandırılmadığı üçün, onlar barədə burada yazmaq münasib bilindi. Xülasə, cənnətməkan şahın vəfatından sonra rumilər əhdi pozub əcəm vilayətinə ləşkər çəkdikdə adı çəkilən Məhəmmədinin övladları zamana görə hərəkət edib, rumiyyə ilə barışıq yolu tutaraq, əlvar qəbilə və tayfalarını qoruyub-saxlayırdılar. Məhəmmədinin oğlu Şahverdi mərhum nəvvab şahzadə Sultan Həmzə Mirzənin son vaxtlarında və əlahəzrət zilləllah şahın cülusu zamanı öz irsi vilayətini bacarıqla idarə etməkdəydi və ata-babalarından artıq şövkət və iqtidara malik idi. Cığaloğlu Bağdaddan Nəhavəndə qoşun çəkdiyi il orada qala inşa etdi və həmin vilayətdə qarət atəşini alovlandırdı. Əlişəkərin yeri olan Qara Ulusun qəbilələri özlərini Luristan dağlarına çatdırıb Şahverdiyə pənah apardılar, o da Qara Ulus qəbilələrinin əksəriyyətini öz ülkasında yerləşdirərək, onları öz rəiyyəti etdi, rumiyyəyə birləşdi, Bağdad bəylərbəyinə itaət və bağlılığını bildirdi, bir daha ali saraya tərəf dönmədi. Ali nəvvabla rumiyyə arasında sülh yarandıqdan sonra, Şahverdi bir neçə il özbaşına hərəkət etdiyindən, bir tərəfə xidmət etməkdə çətinlik çəkir, hiylə və məkr qapılarını açaraq, hər iki tərəfə baxırdı. O, vaxta görə hərəkət edərək, başında həm şahlıq, həm də rumiyyə [sultanlıq] tacını gəzdirirdi. Hümayun Abbas cülusunun beşinci ilində - dovşan ilinə bərabər olan hicri mininci ildə (miladi 1591) məmləkətin müxtəlif yerlərində öz üsyan başlarını qaldıran və ədəbsizliklər edən Dövlətyar Siyahmənsur və başqa dövlətsiz kafəmemətlər bir-bir törətdikləri əməlin cəzasını çəkirdilər. Əlahəzrətdən qorxan və rumilərdən imdad görməyən bu Şahverdi, istər-istəməz, cənnətməkan şahın dövründə olduğu kimi bu dudmana itaət izhar etdi, ali saraya qayıtdı. Öz dayısı oğlu (pesəre-xal) Hüseyn bəy

Səlunərini (?) şahın yanına yollayıb qulamlığını bildirdi, təqsirlərinin əfv olunmasını xahiş etdi. Əlahəzrət zilləllah şah o sülalənin abbasiliyi və onlarda şiəliyin zühurunu görərək, onu nəvazişlədirdi və Şahverdi şahın tərbiyəti altına düşəsi oldu. Həmin ildə baş vermiş hadisələrin yazılışı zamanı bildirildiyi kimi, ona yüksək xan ləqəbi verildi, ali səfəviyyə sülaləsilə qohum oldu və bacısı hərəmxana pərdəsi altında əyləşən xanımlar silkinə daxil edildi. Bu şərafətli qohumluqdan Şahverdi xanın iftixarı Keyvan bürcünədək ucaldı, onun əzəmət və iqtidan yüksəldi, ata-babasından artıq həmin vilayətin hakimi kimi qüdrətə malik oldu. O, Qara Ulus rəiyyətini yenə də Luristanda saxladı və onları qızılbaş hakimlərinə vermədi. Şahverdi xan, arabir ali saraya azacıq peşkəş göndərirdi. Nəvvab şah da onu öz tərbiyəsi altına aldığı üçün [əməllərinə] göz yumur və həmin rəiyyəti ondan geri almırdı. Şahverdi xan özbaşına ortaya çıxdığı, üsyan və lovğalıq meyli ilə böyüyüb-yetişdiyi və hiylə-yalan yolunu tutduğu üçün get-gedə onun batini xəbisliyi şahın sədaqət aynası olan işıqlı qəlbində aşkar görünməyə başladı. Şahverdi xan Əlişəkər sərhəd hakimlərinə qarşı çıxaraq Bərucerdə və onun ətraf yerlərinə əl uzatdısa da, ali nəvvab onunla [hələ də] yoldaşlıq və barışıq hissi ilə davranmaqdadı. Bu vəziyyət o qədər davam etdi ki, bu il Abdulla xan Özbəkin oğlu Əbdülmömin xan Xorasana gələrək, Nişapur qalasını mühasirə etdi. Hümayun ordu Gilanat işlərindən azad olub Xorasana yürüş etməyi qərara aldı və bundan ötrü yasaq haqqında fikirləşməyə başladı.

Uğurlu Sultan Bayatın Luristan hakimi Şahverdi xanla cəngi:

Ləşkər toplamaq və yasaq tədarükü görməkdən ötrü Uğurlu Sultan Bayat Bərucerdə gəldi, amma hələ bayat ləşkəri gəlib onun başına yığışmamışdı ki, Şahverdi qəfildən onun üstünə ləşkər çəkərək döyüşə gəldi. Bu iki-üç ildə əlahəzrət şahla heç bir ziddiyyətə olmayan Uğurlu Sultan bunu müşahidə etdikdə çaşğınlıq içərisində qaldı, belə ki, nə irəli getməyə qüvvəti, nə də geri çəkilməyə qeyrəti qalmadı. Bayat qazilərindən birini onun hücumunun səbəbini öyrənmək və etdiyi aqibəti pis olacaq belə bir yaramaz hərəkətin səbəbini bilmək üçün Şahverdinin qarşısına göndərmək istədi. Bu fikir hələ həyata keçməmişdi ki, əlvar ləşkərinin qaraltısı göründü. Uğurlu Sultan zərurət üzündən irəli yürüdü, amma döyüşdə bir o qədər də cidd-cəhd göstərmədi. Qarşı

tərəfdənsə, Şahverdi xanın yoldaşları qorxu-hürkü bilmədən cəngə başladılar. Bayat ləşkərindən zəif olan əlvar ləşkəri onları məğlub etməyə başladı. Səbat ayağını yerə möhkəm dirəyən Uğurlu Sultan mərdanə döyüşdü və şəhid oldu, bayat camaatı isə dağılışaraq, öz vətənlərinə qayıtdı. Şahverdi xan qələbə çalmasına baxmayaraq, məğlub olan qoşundan qayğılandı, özünün aqibətini fikirləşməyə başladı, öz yersiz hərəkətindən peşiman olub Xürrəmabada getdi, dayısı oğlu Hüseyn bəyi təzədən şahın yanına yollayıb, ağlabatmaz üzrxahlıq etdi. Amma, elə ki, Uğurlu Sultanın öldürülməyi və Şahverdinin cəsarəti şahın qulağına çatdı, şahanə qəzəb odu alovlandı və o, Xorasan səfəri fikrini ürəyindən çıxarıb, qonşuluqda elə yersiz hərəkət edən Şahverdini cəzalandırmağı vacib bildi, özbəklərin dəfini təxirə saldı, hələlik Nişapur məsələsindən vaz keçdi.

Şah Abbasın Şahverdi xanı cəzalandırmaqdan ötrü Luristana yürüşü:

Yuxarıda yazıldığı kimi, Dərviş Məhəmməd [Şahverdi] xana yazmışdı: "Özünü bəla girdabına atma. Əgər vəziyyət pisləşərsə sülh barədə fikirləş və özünü İraqa çatdır".

Dərviş Məhəmməd xan müzəffər qoşunda hazır vəziyyətdə olan bir dəstə müzəffər əsgərlə dövlət ordusuna gəlib çatdı və onlar Luristana yürüşə başladılar. Hümayun ordunun hücumu xəbəri Şahverdi xana çatdıqda, məskəni olan Xürrəmabaddan fərar etdi, Sədmərəyə tərəf getdi. Luristan əmirlərinin və tayfa başçılarının bəziləri ondan ayrılıb, hümayun məiyyətə birləşdilər, Xürrəmabad qalası bu güclü dövlət övliyalarının əlinə keçdi. Adı çəkilən ülkə Mehdiqulu xan Şamlıya inayət olundu, şah qalanı ona tapşırdı.

Şahverdi xanın Luristandan fərar edib Rum [diyarına] getməsi:

Oradan atının cilovunu Sədmərəyə tərəf döndərib, istinin şiddətli, vaxtında, sərətan [bürcünün] ortasında - hüt [ayındakı] balığın fələk tavasında qıpqırmızı yandığı bir vaxtda Luristanın ən isti və lurların qışlaq yeri olan Sədmərəyə çatdılar. Şahverdi buradan fərar edərək, Luristan və Bağdad sərhədi arasında yerləşən Kurkuha yollandı ki, oradan Bağdada getsin. Luristanın mötəbər əmrlərindən və iki min evin sərdarı olan Mir Qeysər Xamə Bidel ondan dönüb,

hümayun orduya qoşuldu. Sədmərədə Şahverdinin Kurkuha getməsi xəbəri eşidildikdə, cahanı bəzəyən rəy belə oldu ki, Sədmərədən orayacan olan iyirmi fərsəx yolu gedib, onu ya tutsunlar, ya da Luristandan birdəfəlik qovsunlar. Ali ordunu və humayun agrəqi Sədmərədə qoyub, Bəhram intiqamlı qazilər başdan-başa dağlarla dolu olan həmin uzaq məsafəni bir gecə-gündüz ərzində qət etdilər. Kurkuhun ətəyinə gəlib-çatdıqda

Şer

Eşqin yolu kimi qorxulu bir yol,
Elə bir yoldur ki, xətərlərlə bol.
Dağı asimanın ətəklərində,
Dərəsi bəxtimdən daha dərində.[572]

Belə məlum oldu ki, [Şahverdi] Luristandan qaçıb, özünü rumilərin ölkəsinə çatdırmışdır. Sülh şərtlərinə görə rumiyyəyə mənsub olan ölkəyə daxil olmaq qadağandır və buna görə də [qazilər] ayaq saxladılar və əzəmətli orduya qayıtdılar. Qara Ulus uluslarını və qəbilələrini köçürüb onların əvvəlki yerlərinə aparmaq və qızılbaş hakimlərinin rəiyyəti etməkdən ötrü əzmətli qorçilər və yasovullar müəyyən olundu.

Şah Rüstəmin oğlu Sultanhüseyn Şahverdinin qorxusundan fərar etmişdi və Kəlhərdə yaşayırdı. O, cahanpənah dərgaha üz tutdu və şahanə şəfəqqətlərə layiq görüldü. Mehdiqulu xana verilən Xürrəmabad və oraya tabe olan yerlərdən başqa bütün Luristan Sultanhüseynə inayət olundu. Şah əlvar ağsaqqallarını şahanə inayətlərlə razı salıb, onları Sultanhüseynin xidmətinə göndərdi, onlar da yüz min baş qoyun peşkəş etdilər, ali divan məmurları şahın əmrinə görə qoyunları müzəffər əskərlər arasında böldülər. Oradan geriyə qayıtmaq qərara alındı. Hələ Əbdülmömin xanın Nişapur qalasını almağı və mühasirədə qalanların artıq xilas olmaları xəbəri gəlib şaha yetişməmişdi. Şahın şərafətli xatiri istəyirdi ki, Qəzvin darüssəltənəsinə daxil olmayıb, Dərçzin yoluyla gedərək

[572] Şerin farscası:
Rəhi çon rəhe-eşq dər piş aməd,
Kəsir-ol məxater, xətir-ol əvaqeb.
Fərarəş ço qədrəş boləənd-o neşibəş
Ze bəxtəm neguntər beçəndin məarateb.

Əbdülmömin xanın şərini dəf eldikdən və Nişapur qalasında mühasirəyə alınanlara nicat verdikdən sonra Xorasana tərəf rəvan olsun. Elə ki, Bəruçerdə çatdılar, Xorasan hadisələri, Dərviş Məhəmməd xanın oraya gedişi, Nişapur qalasını sülh təriqi ilə özbəklərə verməsi, yuxarıda yazıldığı kimi, Xarəzm padşahı Hacı Məhəmməd xanın ali saraya gəlib-yetişməyi haqqında xəbərlər gəlib-yetişdi. Şah oradan çıxıb bayat eli içərisinə gəldi, onları Şahverdi xan cəngində etdikləri cürbəcür xətalarına görə cəzalandırdı, qardaşı Uğurlu Sultanın əvəzinə o camaatın hakimi olmuş Şahqulu Sultanın bayatların əfvi xüsusunda xahişini qəbul etdi, Şahqulu Sultan xosrovanə inayətlərə layiq görüldü. Bayat eli isə şəhriyarın etdiyi iltifatın əvəzində qızılbaşlar arasında yaxşılığı ilə seçilən üç min ayğır at və madyan, üç min tümən nəğd qızılı peşkəş və tərcüman sifətilə ali divana verdi. Oradan Qəzvin darüssəltənəsinə doğru yola düşərək, məhərrəm ayının onunda şəhərə çatdılar.

Şah Abbasın Luristandan Qəzvinə qayıdışı:

Şah öz mehmannəvazlığının bolluğundan, yuxarıda yazıldığı kimi, əvvəlcə Hacı Məhəmməd xanın qaldığı mənzilə getdi, xosrovanə sorğu-suallarla onun pərişan ovqatını sevindirdi. Luristan səfərində humayun orduda olan Nurməhəmməd xan, əlahəzrətin Hacı Məhəmməd xanla görüşdüyü bu gün gəlib və Çingiz xan qayda-qanununa əməl edib, Hacı Məhəmməd xanın qabağında mülazimlər kimi ədəblə ayaq üstdə dayandı, icazə aldıqdan sonra irəli gəlib onunla görüşdü, Hacı Məhəmməd xan da onunla qucaqlaşma (rəsme-moaneqe) rəsmini yerinə yetirdi.

Xülasə, əlahəzrət Qəzvin darüssəltənəsində bir müddət qaldı, padşahanə məclislər qurdu və adları çəkilən sultanlarla mehriban söhbətlər etdi. O, Hacı Məhəmməd xanla söhbətə həzrət İsgəndər şanlı nəvvabı da dəvət edir, hər ikisi bir yerdə əyləşib söhbətləşirdilər. Nəvvab şah çox vaxt sadəliklə onlara mizbanlıq edirdi. Qədim vaxtlardan indiyədək iki aliməqam padşah bir yerdə əyləşib məclis qurmaları ruzigarın nadir hadisələrindəndir.

Xülasə, əlahəzrət mehmannəvazlıq şəraitini yerinə yetirdikdən sonra, o sultanların ehtiyaclarının təmin olunmasına göstəriş verdi və dərhal əməl olundu. O, payız fəslində cənnətməkan İsfahanın seyrinə yetdi, həmişə onun xüsusi məclisinin dostu (ənis)

və ziyafət yoldaşı olan Nurməhəmməd xanı da özü ilə apardı. Həmçinin, Hacı Məhəmməd xanın qəlbini incitməməkdon ötrü onun oğlu Ərəb Məhəmməd Sultanı da özüylə həmsöhbət etdi. Amma, Ərəb Məhəmməd şahın hümayun zatının bağlı olduğu əhli-beytə bağlı olmadığından onunla şah arasında xüsusi söhbətlər az baş verirdi. Onlar qışı həmin cənnət nişanlı şəhərdə işrət və kamranlıqla keçirərək hut ayının sonlarında paytaxta tərəf üz tutdular, Qəzvin darüssəltənəsi şahın hümayun qədəmləri ilə bir daha ziynətləndi.

BU İL, ŞƏRİƏTİN QÜVVƏTLƏNMƏSİNDƏN ÖTRÜ, QADAĞAN OLUNMUŞ (ZALE) DİNSİZ ADAMLARIN (MOLAHEDE) DƏF OLUNMALARININ ZİKRİ

Bu il baş verən hadisələrdən biri dinsiz kimi məşhur olan Dərviş Xosrov Qəzvininin və onun bir neçə müridinin qətl olunmalarıdır. Məsələ müxtəsər şəkildə belə olmuşdur: Dərviş Xosrov Qəzvinin alçaq tinətli Dərb Kuşək (?) məhəllə adamlarındandır. Onun ata-babası quyu qazmaq (çahxuyi) və qəmşiliklə (qəmşi)[573] məşğul idilər. Dərviş Xosrov isə atalarının sənətini tərk edərək qələndərlik və dərvişlik libası geyindi. Uzun müddət səyahətlərdə oldu, nöqtəvilərlə* qaynayıb-qarışdı. Öz yoluna can-başla davam etdi və içkiyə aludə oldu. Qəzvinə dönüb bir məscidin kənarında özünə yer tutdu. Yanına bir dəstə dərviş gəlib-gedirdi. Dərviş Xosrov mərifəf* dükanı açaraq, orada qızğın "alver" etməyə başladı. Üləma və möhtəsiblər onun hərəkətlərini inkara başlayıb, məscidə girməsini qadağan etdilər. Dərviş barədə cənnətməkan şaha məlumat verildi, şah onu çağırıb, sorğu- suala çəkdi, islam şəriəti və imamiyyə həqq məzhəbindən o həzrətin yanında bəhs etməyə başladılar, dərviş isə onların sübuta dediklərini inkar etdi. Dərvişdən şəriətə xilaf bir əməl müşahidə olmadığı üçün cənnətməkan şah şəriətə riayət edərək onunla danışmadı, əmr etdi ki, qoy məsciddə yaşamasın və ağlı gödək adamları yanına yığmasın.

Bu vaqiədən sonra Dərviş Xosrov öz qiymətini qaldırmaq məqsədiylə üləmaların yanına gedib-gəlməyə başladı və fiqh* elmini öyrənməyə girişdi. Cümə günləri came məscidinə gedərdi və heç kimin onunla işi yox idi. Cənnətməkan şahın vəfatından sonra,

[573] Qeyd: Mənaları bizə məlum olmadı - Ş.F.

evinin yanındakı məscidə köçdü və öz təvəkkül süfrəsini açdı. Aqibətsiz və avara bir dəstə türk-tacik adam onun yanına gəlməyə başladı. Dərviş, əlahəzrətin hümayun cülusuna qədər bir neçə il həmin məsciddə vaxt keçirdi. Onun və yanındakı dərvişlərin [sərf etdikləri] məişət malları maneəsiz onlara çatdırılırdı. Məscid onların yığıncağını dağıtmırdı. Dərviş o məscidin yaxınlığında bir təkyə* tikməyə başlayaraq, onun binasını qaldırdı. O məhəllənin camaatı - türk və tacik ona kömək etdilər, olduqca gözəl və yaşıl təkyə və bağça yaradıldı, dərviş oraya köçdü. Onun evində hər gün növbənöv xörəklər bişirilirdi. Vaxtının çoxunu küçə və məhəllələri seyr edib müxtəlif təbəqələrdən olan əhali ilə tanışlıq edən əlahəzrət hərdənbir dərvişin də yanına gedib onunla söhbət edirdi. O bəzən dərvişin əqidəsini öyrənmək üçün onunla bir söz sahibi kimi məntiqi danışıqlar edir, dərvişanə tərzdə allahşünaslığı (xodasenasi) onun nəzərində cilvələndirməyə çalışırdı. Dərviş isə şah ilə olduqca ehtiyatla davranır, şəriətin xilafına danışmırdı. Amma, onun təkyəsində bir dəstə dərviş, xüsusiylə Ustad Yusifi Tərkeşdüz** və Dərviş Kiçik Qələndər böyük iddia və yüksək çıxışla Dərviş Xosrovun boş əqidəsini çəkinmədən o həzrətə söyləyirdilər. Onların dinsiz olmaları ali məqamlı şahın xoşuna gəlmirdi. Buna görə də, həmin adamların dəf olmaları və parlaq şəriəl rəsmlərinin icrası şəriətpərvər padşah tərəfindən vacib bilindi. Şah Luristan səfərində olan vaxt Xosrov Dərvişin və yoldaşlarının tutulmaları haqda əmr etdi. Bu işi yerinə yetirməkdən ötrü tacıböyük camaatı göndərildi və onların hamısını zəncirlədilər (qeyde – səlasel), kömək Allahdandır[574]. Bu il münəccimlər şahı inandırdılar (elqa) ki, ulduzların və böyük-kiçik səyyarələrin (qiranat) dəlaləti ilə sultanla məxsus olan günəş mənsublarından (mənsubane-afitab) bir şan-şöhrətli adamın edam olunması vacibdir və ehtimal ki, o adam İrandadır. Münəccimlər hümayun şahın tale zicindən məlum etmişdilər ki, onun tale xanəsində iki ulduzun dörd yerə parçalanması (tərbi) baş verəcəkdir çünki şahın tale ulduzu ən aşağı nöqtəyə (həziz) zaval və vəbal nöqtəsinə enmişdir.

Bu şərafətli fənn (nücum elmi - Ş.F.) üzrə zaman adamlarının ən üstünü və ulduz ehkamlarının sübuta yetirilməsində başqalarını üstələyən Müvlana Cəlaləddin Məhəmməd Münnəcim Yəzdi belə müəyyən etdi ki, gərək əlahəzrət səyyarələrin böyük

[574] İfadənin ərəbcəsi: "və-l-iyazi bi-l-lahi".

təsiri və iki ulduzun dörd yerə parçalanması baş verəcəyi o üç gün müddətində özünü səltənət və padşahlıqdan kənar edib, qətli vacib olan günahkar adamlardan birini padşah qoysun. Həmin üç gündə qoy bütün hərbçilər və rəiyyət həmin şəxsin fərmanına tabe olsunlar, o isə öz padşahlıq işini yerinə yetirsin. Üç gün keçdikdən sonra qətl olunması üçün qoy o günahkar adamı böyük ulduzun nəhs işlər üzrə şəhnəsinə və dövran hadisələrinin cəlladına tapşırsınlar ki.

Bu fikir hamının xoşuna gəldi, püşk (qore) Ustad Yusifi Tərkeşduza düşdü. O, dinsizlikdə bütün yoldaşlarından irəlidə gedirdi. Buna görə də, həmin dinsizlər zümrəsindən adı çəkilən Yusifini orduya gətirdilər, əlahəzrət özünü səltənət və padşahlıqdan kənar etdi və padşahlıq ismini o qan tutmuş adama yazdılar, başına şahlıq tacı qoyub, əyninə gözəl libaslar geydirdilər. Hakimiyyətə gəlişi günü onu qiymətli daş-qaşlarla bəzənmiş yəhər və üzəngili bərdəi bir ata mindirdilər və onun padşah olması elanını başı üstündən asdılar. Bütün əmirlər, saraya yaxın adamlar, xidmətçi məmurlar ləşkər və qoşunlarla gələrək, müəyyən olunmuş şəkildə xidmətində dayanıb onu mənzilinə gətirdilər, hümayun divanxanada atdan düşürüb, yemək-içmək məclisi qurdular. Gecələr əzəmətli qorçilər və müzəffər əskərlər onun keşiyini çəkirdilər. O biçarə də öz əməlinin aqibətini anlayıb, həmin üç günü asudəliklə (fərağət) keçirdi. Bəli:

Misra

Bircə an da hamı şah olsa, qənimətdir ki![575]

Və əlahəzrət həmin üç gün müddətində özünün iki-üç cilovdarı və xidmətkarı ilə ata süvar olub səltənət işlərinə qətiyyən dəxalət etmədi.

Mövlana Yusifi (Yusif Tərkeşduz - Ş.F.) at sürərkən Mövlana Cəlaləddin Münəccimi görüb demişdi: "Ey həzrət molla, nə üçün mənim qanımın tökülməsini istəyirsən?" Zarayfatcıl adamların biri cənab mövlanaya (Cəlaləddin Münəccimə - Ş.F.) zarafatla belə demişdi: "Padşahlığın əlamətlərindən biri hökmün icra olunmasıdır, amma bu süni padşahdan indiyəcən heç bir hökm sadir

[575] Misranın farscası:
Səltənət gər həme yek ləhze bovəd, moğtənəməst.

olmamışdır. O, sizi öz [gələcək] qətlinin günahkarı bilir. O, öldürülməzdən əvvəl sizin qətlinizə fərman verə bilər. Padşahın əmri yerinə yetirilməzdən əvvəl gərək siz də iki-üç gün tam ehtiyatlı olasınız". Mövlana sadəlövh adam olduğu üçün bərk iztirab keçirdi və həmin iki - üç gündə çox narahat oldu. Həkim Roknaye-Kaşi bu barədə bir qitə yazmışdı ki, onu burada yeririk:

Beyt

Təkcə sənsən ki, qılıncınla, şəha, islamda
Yusifi tək neçə bidini müsəlman elədin.
Yusifi barədə, həm səltənəti haqqında
İki beyt qitəni yazmağıma imkan elədin.
Hamı yollandı onun səcdəsinə aləmdə
Həmin andan ki, onu sən şəhe-İran elədin.
Deməyib Rəbb ki, edə adəmə şeytan səcdə,
Amma ki, adəmi sən bəndeyi-şeytin elədin.[576]

Həqiqətən də Yusifi olduqca şeytansifət bir adamdı. "Səyatinən nas" ("İnsan şeytanlar") deyimi (kəlam) ona yaraşırdı və xarici görünüşündən və batinindən şeytanlıq (şeytənət) zahir idi.

Xülasə, üç gündən sonra o, həyatın süni libasından üryan olub, taxt üstündən düşdü, taxta üstündə uzandı. Baş verən bu hadisədən sonra əlahəzrət yenidən hökmranlıq taxtına əyləşdi və surət aləmini görən adamların etiqadı və tədbiri ilə həmin bəla dəf olundu. Amma, məna aləminin tərki-dünya adamlarının (xəlvətgəzinan) və batini aləmlərdən xəbərdar olanların nəzərində elə bir parıltı (celve) göründü ki, belə bəlanın aradan götürülməsi şəhriyarın iqbal köməyi olmadan mümkün ola bilməzdi.

---

[576] Qitənin farscası:
Şəha, toyi ke dər eslam tiğe-xunxarət
Hezar molhed çon "Yusefi" mosəlman kərd.
Fetad dər deləm əz Yusefi-yo səltənətəş
Do beyt qete mesali ke şərh nətvan kərd.
Cəhaniyan həme rəftənd pişe-u besocud,
Dəmi ke hokme - toəş padşahe-İran kərd.
Nəkərd səcdeye-adəm be hokme Həqq şeytan,
Vəli be hokme-to adəm socude-şeytan kərd

Şer

O şəxsin ki, Tanrı ola yavəri,
Daim onun şö lə saçar ülkəri.[577]

Həmişə böyüklük iddiasında olan Dərviş Kiçik Qələndər çoxlu tiryək ataraq, başını xirqəsi ilə örtüb, mühafizəçilərə qorxu içərisində belə demişdi: "Getdik ki, başqa bir vaxt gələk".

Misra

Getdi, getdi, getdi, getdi hər gedən[578]

[Əlahəzrət] Luristan səfərindən qayıtdıqdan sonra cənab Dərviş Xosrovu hüzuruna çağırdı, üləmaları topladı, onun haqqında məlumat toplamağa başladılar. Dərvişin təkyəsində şərab küpləri tapıldı. Məlum oldu ki, o, çox şərab içdiyi üçün şəriət qaydalarına etiqad etmir. [Həmçinin] onun nöqtəvi olması şahın mübarək batini məhkəməsində sübuta yetdi, o, işıqlı (ğorra) şəriətin rəvacı üçün dərvişin qətl olunması üçün hökm verdi: Onu dəvənin boynundan (cehaz) asıb Qəzvin şəhərinin bütün yerlərində dolandırdılar.

Dinsizlərdən olan Süleyman Təbib Savecinin qətli:

Onlardan biri də o təbəqənin alimlərdən olan Mövlana Süleyman Təbib Savəcidir ki, məşhur adam idi. Onu da tutub gətirdilər. Nəvvab şah onun işinə baxılmasını üləmalara tapşırdı. Üləmalar şəriətə əməl edərək məhəllədəki cahil adamları həyacanlandırmamaqdan ötrü həbs qərarı çıxardılar. Bir neçə gün həbsdə qaldı. Əlahəzrət etiqadı və şəriətpərvərliyi möhkəmləndirməkdən ötrü (rosux) onun qətlini məsləhət bildi və o da gedərək öz yar-yoldaşına qoşuldu.

---

[577] Şerin farscası:
Kəsi-ra ke izəd bovəd yavərəş,
Həmişe derəxşan bovəd əxtərəş.
[578] Misranın farscası:
Rəf-o rəft-o rəft-o rəft anəst ke rəft.

Mir Seyid Əhməd Kaşinin və başqa dinsizlərin cəzalandırılmaları:

O tayfanın böyüklərindən biri də alçaq təbiətli nadanların çoxunu zəlalət tiyəsinə düçar etmiş Mir Seyid Əhməd Kaşi idi. Pak nejadlı, saf etiqadlı padşah Kaşanın Nəsrabad adlı yerində öz mübarək əli ilə onun bədənini iki yerə böldü. Onun kilablarının arasında nöqtə elminə dair yazdığı risalələr tapıldı. Nöqtəvilər* hükəmaya (hikmət sahiblərinə - Ş.F.) əsaslanıb, dünyanı qədim dünya sayırlar və qətiyyən məhşər gününə və qiyamətdə ölülərin diriləcəklərinə inanmırlar, yaxşı və pis əməllərinin mükafatını dünyanın rifahında (afiyət) və pis günündə (məzəllət) görür, behişt və cəhənnəmi də öz dünyaları ilə əlaqələndirirlər. Bu puç etiqadlarına görə həmin təbəqə üzvlərindən olan Dərviş Kamal Əqlidini və Dərviş Binyanini İsfahanda fəaliyyət göstərən üç-dörd nəfər müridləri ilə birlikdə Xorasan yolunda ədəm yoluna göndərdilər. Fars [vilayətinin] o təbəqədən olan bir neçə alimini də gətirib, öz yoldaşlarına yoldaş etdilər. Həmçinin, dinsizlikdə şübhələndikləri hər kəs cəzalandırıldı. O təbəqə türklərindən Dərviş Xosrovun müridi Budaq bəy Dinoğlu Ustaclı da qətlə yetirildi. Bu zaman məlum oldu ki, məhrusə məmləkətlərində onların sayı olduqca çoxdur və zəlalət törədirlər. Hind diyarının Vardin adlı yerindən xəbər gəldi ki, hind vilayətində ali məqamlı padşah Cəlaləddin Məhəmməd Əkbərin xidmətində çalışan və padşah yanında tam yaxınlığa və etibara malik olan Şeyx Əbülfəzl ibn Şeyx Mübarək də həmin məzhəbin üzvlərindəndir. O, padşahı da öz vahiməli söhbətləri ilə şərabı çox içməyə şirnikləndirilmiş və şəriət yolundan döndərmişdi. [Əkbər şahın] Mir Seyid Əhməd Kaşiyə ünvanladığı bir məktubunun onun risalələrinin içərisindən tapılması buna sübutdur.

Bu tayfa böyüklərindən olan və cəfəngiyyatla dolu məqalələr yazan Şərəf Ameli dövr fəqihlərindən qorxub fərar etdi və Hind[istan]a getdi. Həzrət padşah (Əkbər şah - Ş.F.), onun əmirləri və əyanları, Şərif Ameliyə böyük hörmət edir və onunla müridanə bir adam kimi rəftar edirdilər.

Xülasə, o camaatın cəzalandırılmasından sonra onların təbəqəsindən olan adamlar ya bu diyardan qaçdılar, ya da bədnamlıq (xəmul) güşəsinə çəkilib özlərini şöhrətdən saldılar. İranda tənasüx cərəyanı* cərəyan etməyə başladı.

XORASANDA BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏR

Bu il baş vermiş hadisələrdən biri Süleyman Xəlifə və qızılbaş əmirləri ilə Yetim Sultan və özbək döyüşçüləri arasında Xorasanın Tərşiz mahalının Ərğənd adlanan yerində olmuş cəngdir. Bütün dünya adamlarına məlumdur ki, müqəddəs səfəviyyə xanədanına qarşı iradət yolunun yolçuları və hüsni-etiqad bəsləyən uca qızılbaş tayfalarının şüarı və rəftarı belədir: Vəlinemət tərəfindən [özlərinə qarşı] inayətsizlik müşahidə edən hər hansı tayfa üzvləri əgər mürşide-kamilə (Şah Abbasa - Ş.F.) qarşı qəhr edər və uzaqlaşarsa (səxət) bu zaman irşad təriqətinə meyl edənlər (taleban) və pak etiqadlı sufilər sədaqətli adamların yolu ilə gedərək, həmin adamları nöqsan sahibləri (nəqs) bilir, onları nəfs təmizliyinə (təzkiyə) və əxlaq paklığına çağırırlar. Bu şerdə deyildiyi kimi:

Şer

Kəssən də başımı xəncərinlə sən,
Başımdan keçərəm, keçmərəm səndən.[579]

[qızılbaşlar] hər cür zahiri və mənəvi əziyyətlər və qəm-qüssə çəksələr də, dözmüşlər, etdikləri səhvi xəcalət və zülal təri axıdaraq pak xidmətlərini artırmış və mürşidi-kamil dərgahından əl üzməmişlər. Onlar etdikləri nöqsanları xəcalət təri ilə yumuş, özlərini zahiri və batini diqqətə amadə etmişlər. Söhrab Xəlifə Türkmanın oğlu Süleyman Xəlifə və Fulad Xəlifə Şamlının qardaşı oğlu Sultanəli Xəlifə xəlifə və xəlifəzadə olduqlarına və illərlə cənnətməkan şah tərəfindən tərbiyələndiklərinə görə, bəzən dünyəvi tələbatlarının bir neçə günlüyə təxirə salınmasına baxmayaraq, şaha öz yaxınlıqlarını itirməmək naminə ayaqlarını sədaqət dairəsində saxlamış, azacıq da olsa, bu astanədən üz döndərməmiş, batil xəyal və boş istəklərlə Rüstəm Mirzə ibn Sultanhüseyn Mirzə ibn Bəhram Mirzə səmtinə yönəlməmişlər. Onu gətirmək və bir neçə gün şadlıq bayrağını göyə qaldırmaqdan ötrü Süleyman Xəlifə bir neçə nəfərlə

[579] Şerin farscası:
Əgər gərdəd sərəm bər xəncər əz to,
Be sər gərdəm, nə gərdanəm sər əz to.

Qəndəhara getdi. Heç bir lüzum olmadan (bi rahə) [tərki-vətən olub] getdiklərinə görə öz niyyətlərinə çatmadılar və özbəklərlə cəng zamanı əcəlin cənginə keçdilər. Buradan yuxarıda yazılmışdı ki, Sultanhüseyn Mirzənin əhvalatı və Sistan vaqiələri əvvəldən-axıradək əlahiddə şəkildə yazılacaqdır, buna görə də, vəd etdiyimiz kimi, münasib bilindi ki, əvvəlcə onlar haqqında yazılsın və onların əmirlərlə etdikləri hərb bəyan olunsun.

Buna görə də, söz-söhbətli qələm onların əhvalatını yazmağa başladı.

BƏHRAM MİRZƏNİN OĞLU SULTANHÜSEYN MİRZƏ ÖVLADLARININ QƏNDƏHARDA VƏ ZƏMİNDAVƏRDƏ HAKİMİYYƏTLƏRİNDƏN BAŞLAYARAQ, O MƏRHUM ATANIN VƏFATI, XORASANIN ZƏİFLİYƏ DÜÇAR OLMASI, ÖVLADLARININ HİNDİSTANAGETMƏLƏRİ, ORADA GÖRDÜKLƏRİ İŞLƏR VƏ SİSTAN VAQİƏLƏRİNİN ŞƏRHİ

Müşahidəçi agah adamlardan və xəbərlərə meyl edənlərdən [bu məsələlər] qoy gizli qalmasın: Cənnətməkan şahın dövründə Sultanhüseyn Mirzə fərman alıb Qəndahar, Zəmindavər və Hirmənd kənarındakı Gərmsirat vilayətlərinin valisi olub, uzun müddət həmin mülklərdə öz əmirlərinin tərbiyət uğuru [yəni] sayəsində, kamranlıqla hökm sürmüş, yuxarıda işarə olunduğu kimi, İsmayıl Mirzənin hakimiyyəti zamanı fani cahana əlvida etmişdi. Ondan həyatda beş qiymətli oğul qaldı: Birincisi, Məhəmmədhüseyn Mirzədir ki, cənnətməkan şahın dövründə bacısı ilə birlikdə onun xidmətinə gəlmişdi. Şahzadələrin qətl günü İsmayıl Mirzə onu da axirət aləminə göndərdi ki, [bu haqda] onun cülus etmə hadisələrinin şərhində yazılmışdı. İkincisi, Müzəffər Hüseyn Mirzə, üçüncüsü Rüstəm Mirzə, dördüncüsü Əbu Səid Mirzə, beşincisi [isə] Səncər Mirzədir. Sultanhüseyn Mirzənin vəfatından sonra İsmayıl Mirzənin məqsədi səfəvi nejadlı şahzadələri məhv etmək olduğundan əhali arasında belə danışılırdı ki, İsmayıl Mirzə başqa şahzadələrin də qətl olunmaları hökmünü vermişdi, Elə o vaxt İsmayıl Mirzənin özü axirət aləminə yollandı.

Sultanhüseyn Mirzənin o zaman ali orduda olan gurxani eli mülazimlərindən Qərayi adlı bir şəxs işıq və külək sürəti ilə Qəzvindən Qəndəhara gələrək, İsmayıl Mirzənin vəfatı xəbərini

gətirdi və adları çəkilən mirzələr fəna girdabından nicat sahilinə çıxdılar. İsgəndər şanlı nəvvab İran hökmdarlığı taxtına cülus etdikdə Qəndəhan [Bəhram Mirzənin] böyük oğlu Müzəffər Hüseyn Mirzəyə, Gərmsiratla Zəmindaveri isə Rüstəm Mirzəyə verdi. Belə qərara alındı ki, Rüstəm Mirzənin ana bir qardaşları olan Əbu Səid Mirzə və Səncər Mirzə onunla birlikdə Zəmindavərdə yaşasınlar. Sultanhüseyn Mirzənin vəkili olan, Kor Həmzə kimi tanınan və Məhəmməd Hüseyn Mirzə ilə ali dərgaha gələn Həmzə bəy Zülqədəri fərmanla kiçik mirzələrin vəkili və lələsi vəzifəsinə qoydular, onu şahanə şəfəqqətli hökm və padşahanə xələtlrlə Qəndəhara göndərdilər. Adı çəkilən Həmzə bəy hümayun hökmə əməl edərək Rüstəm Mirzəni kiçik qardaşlarıyla Zəmirdavərə ararıb, özünü onların lələsi və vəkili etdi. O, Müzəffər Hüseyn Mirzəni Qəndəharda saxlayaraq, hökumət və məmləkət işlərinin nizamlanmasına başladı, mütləq sahib-ixtiyar oldu. Həmzə bəy Zülqədər hər iki vilayəti elə ələ almışdı ki, mirzələrin hakimlikdə fəqət adları qalmışdı. Onların heç birinin xəyalına belə gəlmirdi ki, onun işlərinə qarışsınlar. Oturub padşah əmrlərini gözləməkdəydilər. Sistanın qədim nəslindən olan və nəsəb etibarilə Səffarilərə* gedib çatan Məlik Mahmud, İsmayıl Mirzənin vəfatından sonra Sistan vilayətini qızılbaş əmirlərindən xali görüb, bu dəftərin səhifəsində yazıldığı kimi, Sistanın məlik və mirzələrinin təhriki ilə istiqlaldan dəm vurdu, Sistan hökumətini tələb etdi. O, ali dərgah tərəfindən Sistan hakimi olan Cəfər Sultan Əfşarla cəng edib qələbə çaldı və o mülk hakimliyində müstəqil oldu. Məlik Mahmud öz qol gücü və böyük-kiçik ehsanlarla Sistan vilayətini özünə elə tabe etdi ki, həmin mülkün heç bir güşəsindən müxalifət səsi eşidilmədi. Bu xəbər İsgəndər şanlı nəvvabın nurlu qəlbinə gəlib çatdıqda, o, qədim sülaləni yenidən bərpa etmək və başqa mülki işlərlə məşğul olmaq fikrinə düşüb, Sistan əyalətinin idarə olunması barədə hökm verdi, Məhəmməd xan Türkmanın səyilə oranı Məlik Mahmudun adına yazdı.

Amma, onun hakim olması xəbəri Qəndəhara çatdıqda, hələ ali dərgahın dövlət məktubu gəlib onlara çatmamışdı ki, Həmzə bəyin üzündən qeyrət təri axmağa başladı. Elə mirzələrin özləri də öz əmiləri Bədiüzzaman Mirzəni məliklərin mülazimətində dayandığı üçün görmək istəmirdilər. Onlar Qəndəharın və ətraf yerlərin ləşkərini toplayıb, ağır qoşunla Sistana yollandılar. Sistanın Köhnə Şəhr adlı yerinə gəlib çatdıqda, Mahmudun, məlikzadələrin

və Sistan əmirlərinin sığnaq yeri olan Poştzərə adasında dayandılar, adaların möhkəmliyini və Nimruz vilayətinin igid adamlarını müşahidə etdilər. Həmzə bəy onlara tərəflərarası pis vəziyyətin islah olunması və münaqişənin həlli xüsusunda bir məktub yazdı.

Məliklər zümrəsindən Məlik Mahmudun əmisi Məlik Qiyasəddin Məhəmməd o mirzələrin yanına gəldi, çoxlu qiylü-qaldan sonra belə qərara gəldilər: Müzəffər Hüseyn Mirzə, Məlik Mahmudun izzət sarayında yaşayıb boya-başa çatan qızını öz nikahına gətirsin, Həmzə bəyin qızı isə Məlik Mahmudun oğlu Məlik Cəlaləddinə verilsin, Sistanı Məlik Mahmuda verib geriyə dönsünlər və [bundan sonra] Məlik Mahmud qoy mirzələrə qarşı razılıq və tabeçilik yolunu tutsun. Məlik Mahmud bu məsləhətə əməl etdi və tərəflər arasında anlaşma yarandı. Müzəffər Hüseyn Mirzə şad-şadiman Sistandan Qəndəhara qayıtdı.

Amma, bu işə görə Rüstəm Mirzə qardaşından narazı oldu. O, istəyirdi ki, öz ölkəsi qardaşının ölkəsinə nisbətən olduqca kiçik olduğundan, habelə onun və qardaşlarının məişətini ödəyə bilmədiyindən, Sistanı işğal edib özünə götürsün. Həqiqətən də, bu fikrə əsasən, həmçinin mülkün itaətə gətirilməsindən ötrü Sistan məmləkəti də Qəndəhara əlavə olundu.

Beləliklə də, qardaşlar arasındakı ziddiyyət aradan götürüldü. Bu əsnada bir neçə qızılbaş və kürd oymağı Müzəffər Hüseyn Mirzəyə təsir etdilər və o, Həmzə bəyə qəsd etdi. Cənab mirzə Həmzə bəyin böyük iqtidar və istiqbala malik olması, özününsə onun işlərinə dəxalət edə bilməməsi səbəbindən, həmin oymaq adamlarının sözləri ilə razılaşdı, onun qətlinə qərar verdi. Bundan agah olan Həmzə bəy özünü Qəndəhardan Zəmindavərə çatdırdı, Rüstəm Mirzəni özü ilə götürüb Qəndəhara yollandı. Qarşı tərəfdən də Müzəffər Hüseyn Mirzə bəzənmiş ləşkərlə qardaşı ilə cəngə əzm etdi. Ərğəndab çayının kənarında aralarında bərk döyüş baş verdi. Cəng vaxtı Həmzə bəylə müttəfiq olan Müzəffər Hüseyn Mirzə ləşkərinin bir dəstə adamı Rüstəm Mirzənin mərdanə həmləsindən qorxub, fərar etdi. Buna görə də, Zəmindavər ləşkərindən zəif olan Müzəffər Hüseyn Mirzə qoşunu qorxuya düşərək az miqdar döyüşçü tərəfindən məğlubiyyətə uğradıldı və o, Qəndəhara qayıtdı. Rüstəm Mirzə və Həmzə bəy isə şəhərin yaxınlığına çataraq Maşur qapısında ləşgərgah qurdular. [Bu zaman] bir neçə oymaq ağsaqqalı mirzə və Həmzə bəy ziddiyyətinin aradan qaldırılmasından ötrü bir yerə yığışdı. Onlar arada xeyli ucalmış kin

və qorxunu əhd-peyman suyu ilə yudular və aralarında anlaşma yarandı. Rüstəm Mirzə istər-istəməz həmin sülh əhd-peymanı ilə razılaşdı, öz ülkasına qayıtdı, Həmzə bəysə şəhərə gedərək, əvvəlki qaydada mirzənin vəkalət və Qəndəharın mülkiyyət işləri ilə məşğul oldu. O, bir ilədək cənab mirzənin yanında mülk və mal işlərinin müstəqil icraçısı oldu. Amma, bir dəstə qızılbaş cahili və Qəndəharın fitnəkar adamları gizlicə olaraq mirzə ilə tanışlığa yol tapdılar, Həmzə bəyin qətlini məsləhət gördülər. Həmzə bəy də gizlicə Rüstəm Mirzənin yanına adam yolladı və Rüstəm Mirzə sübh vaxtı qəfildən şəhərə daxil oldu. Bir dəstə əmir və Qəndəhar camaatı Həmzə bəylə birlikdə onun yanına cumub, Qəndəhar hökumətinin gəlinini onun nəzərində cilvələndirdi və onların məsləhəti ilə Qəndəharın hakimliyi Rüstəm Mirzəyə keçdi. Həmzə bəyin damadı və bayat tayfasının ağsaqalı olan Məhəmməd bəy Bayatı Müzəffər Hüseyn Mirzəyə lələ təyin edərək, mirzəni həmin vilayətin və Qəndəharın Həzarecat mahalının ən məşhur qalası olan Qollaha yolladılar. Qollahın və Həzarəcatın məhsullarını mirzənin məişətinin ödənilməsi üçün yığıb, qərara aldılar ki, həmin qalada qalanlar rahatlıqla ömür sürsünlər. Bayat camaatının beş yüz nəfər döyüşçüsü həmişə mirzənin yanında qalmaqdaydı.

Beləliklə, altı ay ötdü. Mirzə və Məhəmməd bəy arasında tam bağlantı yarandı, bayat tayfası mirzənin hökmranlığı uğrunda canfəşanlıq etdilər. Onlar belə qərara gəldilər ki, Qollah qalasını iki yüz bayata tapşırsınlar və yerdə qalan üç yüz nəfərlə biyaban yolunu keçib, Sistana yollansınlar. Bu məqsədlə də hərəkətə başlayıb bir neçə məsafə yol qət etdikdən sonra Sistana yaxınlaşdılar. Cənab mirzənin gəlişindən agah olan Məlik Mahmud istiqbal mərasimi qurdu, mizbanlıq və xidmətkarlığa başlayaraq, bir neçə gün eyş-işrət və layiqli toy mərasimi hazırladı. Bundan bir qədər əvvəl Məlikin qızını mirzəyə nikah etdikləri üçün gəlini bəyə tapşırdılar və mirzə ilə Məlik Mahmud arasında altı ay yaxınlıq oldu. Nəhayət, həmişə fitnəkar və düşmənçilik atəşi yandırmaqla məşğul olan Sistan əmirləri mirzəni məlikdən döndərdilər. [Belə ki,] günlərin bir günü, şikar əzmi ilə məlikin evindən atlara süvar olub, Pəştərə adasına - Sistanın böyük əmirlərinin yaşadıqları və məlikin həsəd dairəsində olan Tağrun qalasına getdilər və bir həftə müddətində Zərə və Əmrudun mir və nəqibləri, həmçinin Sistanın qəbilə başçıları onların yanına yığışdılar. Dəyişkən xasiyyətli və hər sözə qulaq asan adam olan o nadan mirzə Fərah və ətraf yerlərdən mirzənin

köməyinə gələn xüsusi mülazimlərinin, sistanlıların və qızılbaşların təhriki ilə məlikin dəf olunması və məlik təbəqəsinin cəzalandırılması məqsədiylə istiqlal xəyalına düşdü. Onlar əvvəlcə Carunək qalasında olan Məlik Mahmudun əmisi Məlik Nəsirəddinin üstünə hücüm etdilər, bir ay həmin qalanı mühasirədə saxladılar. O müddət ərzində Hirmənd çayı kənarındakı Daslək adlı yerdə yaşayan və mirzənin gedişindən sonra yanında bir adamı da qalmayan Məlik Mahmud tezliklə zor, silah, at və yaraq bağışlamaqla böyük bir ləşkər hazırladı, öz qohumlarına kömək etmək əzmi ilə Carunək qalasına yollandı. O, oğlu Məlik Cəlaləddini əmisi oğlanları Məlik Mahmudi Məlik Şahhüseyn və başqa qohumlarıyla birlikdə irəli göndərdi, özü isə qalın qoşunla onların arxasınca hərəkət etdi. Məlik Mahmud doqquz yüz doxsanıncı ilin səfər ayının onunda (miladi 1582, 16 mart), pəncşənbə günü qala ayağına çatdı və aralarında cəng başlandı. O günün sonunda cənab mirzənin yoldaşları döyüşdən əl çəkərək, mirlərlə birgə meşələrə və adaya tərəf qayıtdılar, qələbə Məlik Mahmuda çatdı. Bir həftədən sonra o diyarın bir dəstə seyid, sülhsevər və xeyrxah adamı mirzənin yanına gələrək və tərəflər arasındakı xoşagəlməz işlərdən ötrü bir-birindən üzr istəyərək, xahiş etdilər ki, qoy düşmənçilik büsatı göz nuru ilə, söz-sov (dəğdəğə) və vahimə isə görüşlə aradan silinsin və bir-birlərini sevindirsinlər. Xahiş müqabilində cənab mirzə öz mənzil və məqamına getdi. Bir neçə gündən sonra söhbətə və eyş-işrətə başladılar. Məlik Mahmud Sistanın bir nəfər mötəbər adamını Həmzə bəyin yanına elçi sifəti ilə yola saldı, onu mirzənin xoşuna gəlməyən rəftar lərzindən əl çəkməyə çağırdı, nəsihətlər etdi.

Müzəffər Hüseyn Mirzənin əmri ilə Həmzə bəyin qətl olunması:

Qarşı tərəfdən də adamlar gəldilər və mirzə və Həmzə bəy arasında yenidən əhd-peyman bağlandı. Bir neçə qızılbaş ağsaqqalı mirzəni gətirməkdən ötrü Qəndəhardan Sistana gedərək, o cənabın razılığını aldı. Məlik Mahmud isə Sistanın üç min döyüşçüsünə bir dəstə qohumunu da əlavə edib mirzəni Qəndəhara yolladı. Həmzə bəyin məsləhətindən çıxa bilməyən Rüstəm Mirzə böyük qardaşının və ağsaqqalların məsləhətini nəzərə aldı və təzədən Zəmindavərə tərəf getdi. Cənab Müzəffər Hüseyn Mirzə isə Qəndəhara çatdı, Sistan camaatı geri qayıtmaqdan ötrü ondan rüxsət aldı. Mirzənin

Qəndəharda qalmağından altı ay keçdi və o, Həmzə bəyin iqtidarından və özünün müstəqilliyinin olmamasından təngə gəldi, Mahmud bəy Bayata Həmzə bəyin əvəzinə vəkalət və canişinlik təklif etdi, onu Həmzə bəyin qətli üçün rəğbətləndirdi. Məhəmməd bəy də cənab Mirzənin əmri ilə Həmzə bəyi öldürərək, vəkalət taxtına çıxdı, mülk və mal işlərində tam müstəqilliyə malik oldu. Rüstəm Mirzə Həmzə bəyin qətlindən istifadə edib öz qardaşı ilə savaşa ürəkləndi, ləşkər yığdı, Qəndəhar üzərinə getdi. Qəndəhar qoşununun Zəmindavər ləşkərindən zəif olmasına baxmayaraq, Müzəffər Hüseyn Mirzə üzbəüz döyüşdən ehtiyat etdi, bürc və barıları möhkəmləndirməyə başladı. Rüstəm Mirzə şəhər kənarına çatıb Maşur dərvazəsində dayandı. Onların arasında iki ay müddətində döyüş davam etdi. Bu hadisədən agah olan Məlik Mahmud üç min döyüşçünün köməyi və Sistandan Qəndəhara imdad göndərən əmisi oğlu Məlik Qəribin sərkərdəliyi altında vuruşa yollandı. Sistan ləşkəri Qəndəhara çatan gün Qəndəhar ləşkəri də qaladan çıxdı və tərəflər arasında böyük cəng başlandı. Sistanlı ox atanlar, mərəkə zamanı Rüstəm Mirzənin atını vurduqları üçün, mirzə səflər arasına düşüb piyada döyüşürdü. Cəng səhərdən axşamadək davam etdi. Ox və qılıncdan qopan atəş hər böyük-kiçiyin ömür xırmanını yandırıb-yaxırdı. Nəhayət, Rüstəm Mirzə Sistan ləşkərinin Qəndəhar ləşkərindən üstün olduğunu gördü, döyüşdən əl çəkdi və öz məqsədinə yetmədən Zəmindavərə qayıtdı.

Məhəmməd bəy bir müddət Həmzə bəyin əvəzinə mülk və malın sahib-ixtiyarı oldu. İstiqlalı həddən artıqdı. Müzəffər Hüseyn Mirzə də ondan məyus oldu, onu dəf etmək gücü olmadığından Sistana qayıtmaq qərarına gəlib bir neçə xüsusi mülazimi ilə oraya yollandı. Mahmud bəy isə məmləkətin hər işini öz əlinə aldı və heç kimə dəxalət imkanı vermədi.

Cənab mirzə Sistana çatdıqda, Məlik Mahmud, onunla razılaşdığı kimi, onun yanına gələrək, mehribanlıq vəzifəsini yerinə yetirməyə başladı, bir dəqiqə belə onun xidmətindən yayınmadı, malını və ülkasını da ondan müzayiqə etmədi. Amma, Sistan fitnəkarları mirzəni yenidən fəsada sürüklədilər və o, məlikin böyük adamlarını dəf etməyə başlayaraq, düşmənçilik və savaş qapılarını açdı. Cənab mirzə öz xasiyyətinin dəyişikliyindən (tələvvon) etdiyi işi heç düşünmürdü də. O yenidən məlikin adamlarına arxa çevirərək, əvvəllər də getmiş olduğu həmin qalanın üstünə yürüş etdi. Məlik Mahmud oğlu Məlik Cəlaləddini və qohumlarını qala

camaatının köməyinə yolladı. Mirzənin də adamları cəng əzmi ilə onları qarşıladılar və Deh Əli kəndində aralarında böyük hərb başlandı. Birinci gün məlikin ləşkəri basıldı və onlar kəndin evlərinə doluşub, özlərini müdafiə etməklə məşğul oldular. Günorta namazı vaxtı Məlik Mahmudun özü çoxsaylı ləşkərlə gəlib mərəkə meydanına girdi. Onun əmisi Məlik Nəsirəddin də oğlanları və min nəfər igid əskərlə Carunək qalasından çıxıb onun imdadına yetişdi, cəngə hazırlaşdı. Onlar mirzənin və sistanlıların ləşkərini araya aldılar, böyük hərb başlandı. Məlikin ləşkərindən üç yüz, Sistan mirlərindən min nəfərədək, mirzənin mülazimlərindən isə xeyli adam qətlə yetirildi.

Nəhayət, döyüşməkdən təngə gələn mirlər mirzəni meydanda qoyub, özlərini uca dağlara və meşələrə çatdırdılar. Məlik Mahmud cəng əsnasında mirzənin yanına adam yollayıb ona bu sözləri çatdırdı: "Aralıqda fəsada bizi təhrik edən adamlar basılıb qaçdılar. İndi siz hər iki ləşkərin sahibisiniz. Biz isə

Misra

Dost ilə etdiyimiz mehrü vəfadə qalırıq.[580]

Əgər düşmənçilik və savaş büsatını pozub dostların mənzilinə vüsal kölgəsi salsan, belə əməl sən cənabın vəziyyətinə daha münasib olar". Mirzə etdiyindən xəcil və qayınatasından utanmış (monfəel) halda hərbi davam etdirmədi, öz xüsusi mülazimləri ilə mülkün ləşkərinə tərəf üz tutdu. Məlik dostluq və sədaqət məqamına gəldi. O gecə məlikin evinə [vəsaq] gələn mirzə öz arvadının otağında gecələdi. Bu minvalla o, iki ay Sistanda qaldı. Məhəmməd bəy Bayat isə Mirzənin tərəfində olan bir dəstə qızılbaş oyan və Qəndəhar böyüyünü onun yanına üzrxahlığa göndərdi. Onlar mirzəni [Qəndəhara] dəvət etdilər. Cənab mirzə onların üzrünü qəbul edib zövcəsi ilə birlikdə yola rəvan oldu. Cənab məlik əlində olan bütün var-dövlətini onlara verdi, elə mərdanəlik göstərdi ki, cənab mirzə xəcalət çəkdi, Özünün bütün əskərlərini götürüb Qəndəhara yollandı. Qarşı tərəfdənsə, Məhəmməd bəy Bayat qılıncını boynundan asaraq, Gərmsir yaxınlığında onları qarşıladı,

[580] Misranın farscası:
Be həman mehr-o vəfayim ke bəstim bedust.

cənab mirzə gedib sağ-salamat yenidən Qəndəhara çatdı, öz böyük atasının sarayında (hökumətgah) iqamət etdi. Məhəmməd bəy mirzəni razı salmaqdan ötrü çalışır, cənab mirzə isə eyş-işrət, istirahət, şikar və söhbətlərlə məşğul olur, dövlət işlərinə qətiyyən qarışmırdı. Amma, həmişə Məhəmməd bəyin dəf olunması xüsusunda düşünür, onun qətli barədə fikirləşirdi. Nəhayət bəzi qızılbaş əyanını bu işdə özünə müttəfiq etdi, fürsət tapıb onu aradan götürdü, mülk və mal işlərində müstəqil oldu.

Buna baxmayaraq, Qəndəhar işlərindən narazı olan mirzə bir neçə vaxt Zəmindavərdə yaşadı. Onun Sistan mülkü üstündə Müzəffər Hüseyn Mirzəyə qarşı qəlbində bəslədiyi kin daha da çoxaldı və o, daim fürsət gözləməyə başladı. Və elə o vaxtlarda, əlahəzrət zilləlah şahın səadətli cülusu zamanı, qələmin yazdığı kimi, özbəklərin işğalı başlandı, Xorasanın əksər şəhərləri tutuldu və o diyarın torpaqlarının əksəriyyəti hadisələrin tapdağı altına düşdü. Herat darüssəltənəsinə yaxın olan Fərahın əhalisi özbəklərin mütəmadi hücumlarından təngə gəldi. Fərahda olan əfşar tayfası torpaqların geri qaytarılmasından və özbək şərinin dəfindən aciz oldu. Onların hakimi Yegan xan mal və əhli-əyalın hifzindən ötrü əfşar ağalarının məsləhətinə görə Rüstəm Mirzəni çağırmaqdan ötrü adam göndərdi, onu dəvət etdi. Xorasandakı hərc-mərclikdən, əlahəzrət zilləllah şahın İraqa gedişindən və qızılbaş əmirlərinin arasındakı çaxnaşmadan agah olan mirzə bu təklifi qənimət saydı, dərhal Fəraha yollandı. Oraya daxil olduqda, sadədil bir türk olan Yegan xan Hakim onu qarşıladı və əfşar tayfa üzvləri xidmət kəmərlərini bellərinə bağladılar.

Cənab mirzə ertəsi gün Yegan xanı tutub, malına sahiblənməkdən ötrü onu qətl etdi, əfşar tayfasının bütün əyan və böyüklərini cəzalandırdı, onların sərkarında olan hər şeyi özünə götürdü. Onlar daxilən mirzədən incidilərsə də, özbəklərin istilasına görə və onların şərini dəf etmək naminə əllərini mirzədən üzmədilər, itaətdən başqa çarə tapmadılar. Bu əsnada özbəklər ona tərəf üz tutub hücuma keçdilər və mirzə ilə özbəklər arasında bir neçə hərb baş verdi. Hərblərin birində o, bir dəstə qızılbaş igidi ilə Səmərqənddən gəlmiş min nəfər məşhur bahadıra qarşı döyüşdü və qalib gəldi.

Düzgün danışan adamlardan eşitdim ki, o gün qızılbaşlardan cürbəcür mərdanəliklər göründü, səkkiz yüz özbək qətlə yetirildi, qalanlarsa fərar etdilər.

Xülasə, mirzə bir müddət Fərahda yaşadı. Əlahəzrət zilləllah şahın qəzəbinə gəlmiş bir dəstə adam, xüsusilə onların başçıları Süleyman Xəlifə Türkman və şamlı tayfasından İslam bəy, həmçinin başqa cahillər və aqibətsiz adamlar Xorasandan onun yanına gələrək, Xorasan mülkünün gəlinini onun nəzərində cilvələndirdilər, mirzəni həmin vilayəti tutmağa təhrik etdilər. Rüstəm Mirzənin yenə də ondan döndüyünü bilən Məlik Mahmud onun Fəraha gəlişi, qızılbaşların toplaşmaları və mirzənin qüdrət və istiqbalından vahiməyə düşdü, yaşadığı yerdən çıxıb hər tərəfdə məşhur yer olan Məhkəməyə getdi, Nimruz tör-töküntülərini ətrafına toplamağa başladı, başına on minədək adam yığıldı və o, yeddi ay orada qaldı. Havanın üfunətindən onun adamlarına böyük bəla üz verdi, buna görə də, adamlarının çoxu dağılışıb öz vətənlərinə qayıtdı.

[Yenidən] Rüstəm Mirzə Sistan hakimliyinə həvəs göstərdi. Sistan məliki ilə qohumluğu olan, amma mirzə ilə yaxın münasibət yaradan Məlik Abdulla Fərahi boyun oldu ki, Sistana gedib Məlik Mahmudun qohumlarını aldadaraq ondan döndərəcək, onları mirzə ilə müttəfiq edəcək. Dərrakədən zay və ağıldan xali, iddialı adam olan Məlik Mahmudun əmisi oğlu Məlik Nasirəddinin oğlu Məlik Zərif Rüstəm Mirzənin gözəl vədlərinə aldanaraq, Məlik Mahmuda qarşı hiyləgərlik (ğədr) yoluna düşdü. Su və havanın dəyişikliyi nəticəsində vəba yarandığı vaxt o, məliki özünün yaşadığı yer olan Carunəg qalasına dəvət etdi, məlik də onu incitməməkdən ötrü təklifi ilə razılaşdı.

Amma, onun oğlu Məlik Cəlaləddin və qohumlarını sadiqlikdən uzaq görüb, fikrindən daşındı, Fəth qalasına getdi. Məlik Mahmud qardaşı oğlu Məlik Əli, Məlik Mahmudi və Məlik Şahhüseyn öz qohumlarının ziyafətində iştirak etməkdən ötrü Carunəg qalasına yollandılar. Onlar bahar fəslinin əvvəllərində bağ və gülşənin seyri ilə məşğul idilər ki, Rüstəm Mirzə adı çəkilən Məlik Zərif və Məlik Mahmudun bəzi mötəbər mülazimləri ilə, həmçinin Xorasandan gəlmiş və onun başına toplaşmış əfşar və başqa tayfalardan olan döyüşçülərlə Fərahdan Sistana hücuma keçdi, gəlib Carunəg qalasının bir fərsəxliyində dayandı. Məliki mehribanlıq libasına bürüyən Məlik Zərif onu aldadırdı, amma o, Rüstəm Mirzə tərəfdarlarından qorxuya düşərək, öz yalanından (xode) peşiman oldu, qaladarlıq etmək fikrinə düşdü. Övladının,

qohumlarının və onun xeyrini istəyən xeyirxahlarının sözünə əməl etməyən Məlik Mahmud qəflət yuxusundan oyandı.

Xülasə, Rüstəm Mirzə Carunəg qalasını mühasirəyə aldı, Məlik Zərif və qardaşları isə etdikləri peymana xilaf olaraq on altı gün hərb və qaladarlıqla məşğul oldular. Rüstəm Mirzə Süleyman Xəlifə Türkmanı elçi sifətilə o qalaya yolladı. Məlik Abdulla Fərahi də gəlib Məlik Zərifi aldatdı, [nəticədə] özü və qardaşları ertəsi gün Məlik Mahmudla məsləhətləşmədən mirzənin yanına getdilər. Vəziyyəti belə görən Məlik Mahmud qala darvazalarını qohumlarına tapşırıb, istər-istəməz Rüstəm Mirzənin yana getdi. Onun gəlişini eşidən mirzə zahirdə yumşaq rəftar etdi və bir dəqiqə də olsun ondan ehtiramını əsirgəmədi. [Hətta] onu xatircəm etməkdən ötrü, ona qarşı düşmənçilik eləyən Məlik Zərif və qardaşları ilə hörmətsizcəsinə davrandı. Elə həmin gün o, ləşkər bəzəyərək atlandı və onlar qalaya daxil oldular, Məlik Mahmud da insanlıq qapılarını açıb mehmannəvazlığa başladı.

Amma, qürur və qəflət badəsindən məst və cənab mirzə ilə hömsöhbət olan bir dəstə cahil və nadan qızılbaş şərab nuş etdikləri vaxt məstliyə qapıhb, mirzə ilə belə qərara gəldilər ki, Məlik Mahmudu Sistan hökmranlığının dadını görüb təkəbbürlənən, həmçinin Müzəffər Hüseyn Mirzə ilə yaxınlıq edən bir neçə məlikzadə ilə birlikdə aradan götürsünlər və o vilayətə sahiblənsinlər. Mirzə də onların məsləhətinə əməl edərək, gəldiklərinin ikinci günü Məlik Mahmudu Məlik Nasirəddin, Məlik Zərif və başqa məliklərlə birlikdə həbs etdi. O, Məlik Nasirəddini, Məlik Zərifi, onun qardaşlarını və əksər məlikzadələri qətlə yetirdi, amma Məlik Mahmudu bir-iki qohumu ilə birlikdə zindana saldı. Mirzə bir dəstə döyüşçünü Məlik Mahmudun oğlu Məlik Cəlaləddin ilə Fəth qalasının üstünə göndərdi. Amma, bir gecə Məlik Şahhüseyn və onun qardaşı Məlik Əli zənciri qırıb həbsdən fərar etdilər, bəxtləri gətirdiyindən onların yanına gəlməkdə olan bir dəstə sistanlı ilə birləşib Sistan adasına gəldilər, oradan da zərəhi tayfasına doğru yollandılar. Rüstəm Mirzə başlarına on min nəfərədək adam toplaşmış vəhşisifət sistanlıları insaniyyət və ehsan təriqi ilə özünə ram etmək əvəzinə, özündən ürkütmüşdü. Onlar da qohumlarından birini min nəfər döyüşçü ilə Mahmudun oğlu Məlik Cəlaləddinin köməyinə Fəth qalasına göndərdilər. Həmin qalanın mühasirəsi ilə məşğul olan Rüstəm Mirzənin bir dəstə mülazimi [sistanlılarla] döyüşüb məğlub oldular və fərar etdilər. Bu xəbər Rüstəm Mirzəyə

yetişəcək o, Məlik Mahmudun qətlinə fərman verdi, səadətli və xoşəxlaq məliki aradan götürdü. Ertəsi gün Məlik Cəlaləddin və Sistan məlikləri zerəh tayfası ilə birlikdə gəlib çatdılar. Mirzə onlara müqavimət göstərə bilməyib, Hirmənd çayını keçərək, Sərayana tərəf getdi ki, oradan Zəmindavərə yollansın. Lakin onun ardınca gələn ləşkər Zerəh təpəsi yaxınlığında gəlib ona çatdı.

Rüstəm Mirzənin Hindistana getməyi:

Sistan qoşununun yaxınlaşdığını müşahidə edən mirzə məcbur olub gedişini saxladı və aralarında hərb başlandı. Çoxlu savaşdan sonra, Sistan ləşkərinin çoxluğuna görə mirzənin qoşunu məğlub olub, Sərayana tərəf getdi, amma sistanlılar onları təqibdən qalmadılar və ertəsi gün cəng Sərayanda oldu. Bu dəfə də məğlub olan mirzə pis halda Zəmindavərə tərəf götürüldü. Məlik Cəlaləddin hökuməti ələ almaq istəyən başqa məliklərlə Sistan işlərini tənzimləməklə məşğul oldu. Rüstəm Mirzənin Sistan fəaliyyəti bitdiyindən, onun başına toplaşmış xorasanlıların əksəriyyəti onu Xorasanı tutmağa rəğbətləndirdi. Onlar onda bilik cövhərinin, uca himmətin və hökmranlıq iddiasının daha qalmadığını görərək, məyus oldular və bir çoxu ondan aralandı. Mirzə tamamilə sındı, gözlərə görsənmədi. [Vəziyyəti görən] özbək ləşkəri yenidən Zəmindavər qalasını tarac elməyə gəldi. Mirzəyə heç bir kömək etməyən Müzəffər Hüseyn Mirzə qalanı bir dəstə adama tapşırıb Qəllat və Hezarecata tərəf getdi, Qəllatda altı ay dayandı. Orada olan bayat qaziləri, mirzənin şikara getdiyi vaxt, qalanı Müzəffər Hüseyn Mirzənin yoldaşlığı ilə zəbt etmək istədilər, amma bunu bilən mirzənin anası qalanın giriş qapılarını bağlayaraq xacəsəralar və büyutat* əmələləri ilə birlikdə qalanı qorumağa başladılar.

Bu əsnada bayat camaatından bir nəfər o zəif məxluqa bir güllə atdı və mirzənin əziz anası bəqa aləminə yollandı.

Bu hadisələrin baş verdiyi və cənglərin vaqe olduğu bir zamanda şikardan qayıdan mirzə hiyləgərliklə özünü qalaya saldı. Onun gəlişindən xəbər tutan bayat camaatı qaladarlıqdan əl çəkib öz peşmanlıqlarını izhar etdilər. Onlara əl uzadan Rüstəm Mirzə bu yersiz qətlə görə və anasının qanını almaqdan ötrü, başlarını üsyan ciblərindən çıxarmış bayat tayfasının əksər üzvlərini intiqam qılıncından keçirdi.

Amma, öz gələcəyinə nəzər salan mirzə, ləşkərindəki dağınıqlığı gördü və bildi ki, onun ətrafında artıq heç kimsə yoxdur. O, [həmçinin] özbəklərin iqtidarını müşahidə edərək daha həmin vilayətdəki mühitin onun istədiyi kimi olmadığını gördü. Habelə, Müzəffər Hüseyn Mirzə tərəfdən də çoxlu cəncal görünməkdəydi. [Buna görə də] məcbur olub Hindistan diyarına doğru üz tutdu. Əvvəlcə Bikar vilayətinə gəldi. Orada, hind hökmdarına layiqli itaət etməyən və o vaxtlarda ətrafına padşah əmirləri toplaşmış Bikar valisi Mirzə Canı bəy Ərğunla görüşdü. Mirzə onu da itaətə rəğbətləndirərək, onunla birlikdə Hindistana tərəf irəlilədi.

Mirzə o diyara gəlib çatdıqdan sonra, kamkar və uca məqamlı padşah Cəlaləddin Məhəmməd Əkbərlə görüş izzətinə yetişdi və o uca məqamlı padşah onu ehtiramla qəbul etdi, məsələnin elə başlanğıcında mirzəyə Multan tərəfdə yer verdi. O ali məqamlı xosrovun şəfəqqətinə layiq görülən mirzə bir müddət Hindistan məmləkətlərində qaldı. Müzəffər Hüseyn Mirzəni də özünə cəlb etmək istəyən o müdrik padşah (Cəlaləddin Məhəmməd Əkbər - Ş.F.) Zəmindavəri və Hindistanı tutmaqdan ötrü Rüstəm Mirzəyə elə çox insaniyyət və ehsan lütf etdi ki, Müzəffər Hüseyn Mirzə də Hindistana getməyə meylləndi. Çünki, Xorasandakı özbək əmirləri xüsusilə Dinməhəmməd Sultan, Baqi Sultan, yərliğlə* o vilayəti fəth etmək əmri alan Canı bəy Sultanın bacısı oğlu Turan valisi Abdulla xan o diyarın (Xorasanın - Ş.F.) hər yerini öz tapdağına çevirdikdən sonra yenidən Qəndəhar və Sistan hüduduna ləşkər göndərmişdilər. [Buna görə də,] onlarla Müzəffər Hüseyn Mirzə arasında güclü müharibələr baş verdi. Həmin hərblərin əksəriyyətində qızılbaş tayfaları zəfər çaldılar, özbək döyüşçüləri isə əzildilər. Məhz buna görə də, o ölkənin ətraf yerləri (həvaşi) heç vaxt o tayfanın (özbəklərin – Ş.F.) qarət və taracından xali deyildi, asayiş və əmin-amanlıq o camaatdan uzaqdı. Qızılbaşların böyük adamlarının əksəriyyəti və Sultan Hüseyn Mirzənin etibarlı və bacarıqlı mülazimləri, yuxarıda yazıldığı kimi, həmin mərəkələrdə qətlə yetirildi, dövlət çəməni tamamilə solmağa başladı.

Müzəffər Hüseyn Mirzə də öz vəziyyətinə münasib Hindistana getməyi məsləhət görüb, bundan başqa heç bir fürsət (məfərr) görə bilmədi. Baxmayaraq ki, Rüstəm Mirzənin gedişindən sonra, Turan elçisi Abdulla xan ona töhfə və hədiyyələrlə elçi göndərmiş və belə bir nəvazişnamə (estemalətnamə) də yazmışdı: "Özbəklərin və qızılbaşların dava-dalaşının, habeh turanlılar və

iranlılar arasındakı ədavətin çox qədim olmasına baxmayaraq, qoy o möhtəşəm sülalə sahibi rahət olsun ki, bizim onunla məhəbbət və dostluqdan başqa heç bir fikrimiz yoxdur. Siz Hindistana getmək xəyalını ürəyinizdən çıxarıb xatircəmliklə Qəndəharda qalın, çünki cığatayların sizin ata məskəninizi tutmaq fikri yoxdur".

Qəndəhar və özbək ləşkərləri arasında dəfələrlə müharibələr olub qanlar töküldüyündən, Mirzə Abdulla xanın sözlərinin yalan olduğunu düşünən Müzəffər Hüseyn özbəklərə inanmadı, vahimə ona üstün gəldi və türklərə (torkan) meyl etmədi. Mirzənin səyi (hemmət) hind qumaşına və qızıl toplamağa yönəldiyi üçün, o, məmləkətdarlıq və Qəndəhar vilayətini zəbt etməkdən tamamilə əl çəkdi, Hindistan məmləkətlərini öz rahətliyindən ötrü pənah bildi. Müzəffər Hüseyn Mirzədən əvvəl Hindistana gedib orada əmirlik və quşbəyişik (quşbəyigəri) mənsəbinə çatan və Sultan Hüseyn Mirzənin qədim nökəri olan Qara bəy Kurçayi ali məqamlı Hindistan hökmranına boyun olmuşdu ki, mirzəni (Müzəffər Hüseyn Mirzəni - Ş.F.) Hindistana gətirəcək və Qəndəharı o ali məqamlı padşahın işğalı üçün hazırlayacaqdır.

Qara bəy Kurçayi xoşxahlıq və halalnəməklik libasına büründü, mirzə ilə həmfikir olan bir dəstə adamı da özünə birləşdirdi. Xülasə, onun hiyləgərlik (dəmdəme) və əfsungərliyi bir səbəb oldu və mirzə Hindistana getmək fikrinə düşdü. O, əvvəlcə anasını və böyük oğlunu [oraya] yolladı, sonra isə özü bir neçə yazışmadan və əhd-peyman etdikdən sonra Hindistana doğru yola düşdü. Ali məqamlı padşahsa Qəndəhar hakimliyini o vaxtlarda Multanda olan böyük əmirlərdən birinə-pənehezari (?) vəzifəsini daşıyan Bəngeş hakimi Şahibəyxan Kabuliyə namizəd etdi. Qəndəhar məsələsini ürək istəyincə həll etdiyindən və mirzəni Hindistana getməyə həvəsləndirdiyindən xəbər tutan Şahibəy xan Kabuli özünün on min nəfərlik ləşkəri və tabeliyindəki adamlarla Qəndəhara gəldi, padşahın adından mirzəyə ehtiram göstərdi, ona yaxşı-yaxşı vədlər verdi. Cənab mirzə də öz adamlarıyla birgə qaladan yola düşdü.

Müzəffər Hüseyn Mirzənin Hindistana getməsi:

Şahibəy xan və cığatay ləşkəri hicri birinci[581] ildə (miladi 1592/93) Qəndəhara daxil oldu. Cənab mirzə və onun yoldaşları artıq çöldə xeymə və xərgah quran qızılbaşları müşahidə etdilər. Sultan Hüseyn Mirzənin vəfatından on iki ilə yaxın bir vaxt ötmüşdü və bu illər ərzində həmin qoşun zəifləmiş, işə yararlı əmirlər və başqa adamların sayı çox azalmışdı. Cənab mirzə öz qarşısında [özbək qoşunlarından ibarət] möhkəm bir ordu və saysız-hesabsız ləşkər gördü. Elə o ləhzə də etdiyindən peşman olub təəssüfləndi. Ona olduqca çətin gəldi ki, həmin gözəl vilayətdən, Tibetin, Çinin (Xəta) qibtə etdiyi və özünün də yaşadığı və böyüyüb boya-başa çatdığı bir yerdən əl çəksin, səltənət və hökmranlığı biganələrə mülazimət və nökərliklə əvəz etsin.

İş əldən, ox kamandan çıxdığı üçün onun peşmançılığının heç bir faydası olmadı. Lakin mirzə öz batil gələcəyini düşünüb, Şahibəy xan və cığatay əmirlərindən ötrü mehman ləvazimatı, qiymətli xələtlər və başqa şeylər hazırladı, onlara bir adam yollayıb, bir günlüyə mirzənin qonaqları olmalarını və bəzi məsələləri həll etmələrini xahiş etdi. Rəyinin zəifliyi və ağlının nöqsanlı olması üzündən belə düşüncülərə dalmışdı: "Şahibəy xan gələn kimi ondan üzrxahlıq edəcəyəm və necə olur-olsun özümü qalaya salıb [Qəndəharı] qorumağa başlayacağam". Şahibəy xan da köhnə və bacarıqlı hərbiçi olduğu üçün asanlıqla düzüb-qoşduğu bir işi çətinlik kələfinə salmaq istəmədi, mirzənin sözünə etibar etmədi, gəlməyəcəyi üçün üzrxahlıq edib bildirdi: "Mən uğurlu bir saatda qalaya daxil olduğum üçün, indi mənim oradan çıxmağım münasib olmaz. Əgər sizin zəruri bir sözünüz varsa, onu yazışma yolu ilə bizə bildirin". Mirzə başını əldən tam verdiyinə görə Qəndəhar hakimliyindən əl üzdü, qarşılıqlı hədiyyələr təqdimatından sonra oradan çıxıb böyük dəstə ilə Hindistana rəvan oldu. Padşahın yanına gələn mirzə onun tərəfindən şəfqətlə qarşılandı, "fərzənd" adlandırıldı, ali yerlərdə qərar tutdu. Elə onun özü də padşaha şahanə peşkəşlər nəfis cəvahirlər, daş-qaşlarla bəzədilmiş əşyalar, alətlər təqdim etdi.

Amma, Hindistanın vəziyyəti və o bostandan gül dərmək mirzənin xoşuna gəlmədi. Heç bir şeydən xoşlanmırdı. Nəhayət

[581] Hicri 1001-ci il tarixi yazılmalıdır - Ş.F.

onunla padşah arasında pis münasibət yarandı. Padşah ona başqa şahzadələrdən az diqqət yetirməyə başladı. Get-gedə o, ona verilən şeylərdən əl üzdü, onda padşaha qarşı ikrah hissi baş qaldırdı, o alişan xosrov da ondan incidi, hətta onu təhqir etmək (estexfaf) məqamına gəldi. Aralarındakı küdurət əlamətləri gün-gündən artırdı. Mirzə [orada] bir neçə belə qara il keçirdi.

O, həmişə İranı arzulayır, təzədən Səfəvi şahənşahının ali sarayının mülazimi olmağını istəyirdi. Hərdənbir də Həcc beytullahülhəramına getmək fikrinə düşürdü, amma bunun üçün ona icazə verilmirdi. Nəhayət ona nəfsani qəm-kədər üz verdi, natəvanlıq yatağına düşdü, min səkkizinci ildə Həqqin dəvətini qəbul edərək təbii əcəli ilə vəfat etdi. Hindistanda onun üç oğlu qaldı: Sultan Heydər Mirzə, İsmayıl Mirzə, Bəhram Mirzə.

Amma, Rüstəm Mirzə dünyəvi (donyadar) adam olduğundan özünə yaxşı həyat qurdu, padşaha mülazimlik və nökərlik yolu ilə hərəkət etdi. O, bütün qohumları qızılbaşların arasında yaşayan Bayram xan Türkmanın oğlu Xanxanan ilə yaxınlıq edir, onun köməyi ilə vaxtaşın hansısa bir vilayətin hakimi olurdu. Əkbər padşahın vəfatından və onun oğlu Səlim şahın cülusundan sonra da o, ehtiramlı adam idi. Rüstəm Mirzənin kiçik qardaşları Əbu Səid Mirzə min beşinci ildə (miladi 1596/97) rəhmətə qovuşdu və həmin ilin sonunda isə Səncər Mirzə vəfat etdi. Oğlu Murad Mirzə (Rüstəm Mirzənin oğlu - Ş.F.) hal-hazırda Xanxananın damadıdır. İndi min on beşinci (miladi 1606/07) ildir. Rüstəm Mirzə və Müzəffər Hüseyn Mirzənin oğlanları, onların bir neçə nəfər kişi və qadın cinsindən olan övladları hazırda Hind vilayətində yaşayırlar. Bundan sonra onların vəziyyətləri haqqında yazmaq İran hadisələri tarixi üçün münasib deyildir.

Rüstəm Mirzənin gedişindən sonra Sistanın və Məlik Cəlaləddinin vəziyyəti pisləşdi, həmin vilayətə özbəklərin dəxaləti daha da çoxaldı. Əksər vaxtlarda özbəklər və Sistan əhalisi arasında müharibə gedirdi. Onun (Məlik Cəlaləddinin - Ş.F.) qohumları olan məliklər hələ bir müddət da özlərini həmin vilayətdə saxlayaraq, qalanı və özlərinin yaşadıqları yerləri möhkəmləndirə bildilər. Bəzi məmləkətləri işğal edən özbəklər onun da qalasını tutmağa girişdilər. O, çox cidd-cəhddən sonra, adamlarını qalada qoyaraq, Kirman yoluyla şahın sarayına yollandı, İsfahan darüssəltənəsində onun xidmətinə yetişdi, xüsusi məclislərdə şaha yaxın şəxslərdən biri oldu. Həmin ilin hadisələrinin şərhində yazılmışdı ki, hümayun

nəvvab onunla dost kimi rəftar edirdi. Bir müddət şahın yanında qaldıqdan sonra, onda Sistana getmək və fərzəndlərini görmək həvəsi baş qaldırdı, getmək üçün izn aldı. Sistana gəlib-çatdıqda, orada Abdulla xan tərəfindən Sistan əyalətinə və Nimruz vilayətinin alınmasına göndərilən Canı bəy Sultanın övladları artıq tam iqtidar sahibləri idilər. Özündə onlarla döyüşməyə güc görməyən Məlik Cəlaləddin zilbllah şahın Xorasana gəlişinədək Sistanda qala bilmədi, öz fərzəndlərini də götürüb Qəndəhara getdi, bir neçə vaxt orada qaldı, sonra Hindistana getmək və Əkbər padşaha mülazim olmaq fikrinə düşdü. Elə bu zaman da əlahəzrət zilləllah şah məiyyətinin Xorasanda ildırım ahəngli nağarası çalınmağa başladı. Xorasan məmləkətləri fəth olundu, [qızılbaşlar] Herat darüssəltənəsində iqamət etdilər. Məlik Cəlaləddin Qəndəhardan gələrək, Heratda şahla görüş şərəfinə yetişdi, uca xan ləqəbi ilə sərbüləvd oldu və Sistan vilayəti ona verildi, indiyə qədər də həmin mülkdə kamranlıqla yaşamaqdadır.

Bu sətirlər müəllifi, yazdığı bu hadisələrin təfsilatını elə həmin vilayətin adamlarının söhbətlərindən[582] eşitmişdir.

QIZILBAŞ ƏMİRLƏRİNİN TƏBRİZİN ƏRĞƏND ADLI YERİNDƏ YETİM SULTAN ÖZBƏK VƏ ONUN QARDAŞLARIİLƏ ETDİYİ HƏRBİN ZİKRİ VƏ QIZILBAŞLARIN MƏĞLUB OLMALARI

Məlum olmayan (mezmar) hadisələri yazmaq meydanında gərdiş edən müşk qoxulu qələm sirr səhifəsini belə yazmışdı: Öz günahkar əməllərinə görə şahın diqqətindən və şahənşahlıq inayətindən mərhum olan bəzi Xorasan əmirləri, xüsusən Süleyman Xəlifə Türkman və Sultanəli Xəlifə Şamlı eşidəndə ki, Rüstəm Mirzə öz böyük qardaşı Müzəffər Hüseyn Mirzə ilə hərb etmiş, ona qalib gəlmiş və Qəndəharda səltənət bayrağını ucaldaraq, özü-özünün sədaqət və etiqadını gücsüzlük əli ilə yox etmişdir, dərhal mürşide-kamildən üz çevirib ona (Rüstəm Mirzəyə - Ş.F.) meyl etdilər. Sultanəli Xəlifə özbaşınalıq edib, şahın hökmüylə Əliqulu xan Ustaclıya verilən Qayin ülkasına getdi, cəng etdi və onu qətlə yetirdi, saxtakarlıqla Qayin ülkasını tutub, Rüstəm Mirzəyə tərəfdarlığını izhar etdi. Bundan əvvəl söylənilmişdi ki, Süleyman

[582] İfadənin ərəbcəsi: "əl-uhdətu alə-r-ruvat".

Xəlifə öz adamlarıyla Qəndəhar və Zəmindavərə tərəf yollandılar. Qızılbaş əyanlarından isə özbəklərin törətdikləri həyəcan (aşub) və fitnəkarlıqdan vəziyyətləri pisləşən İslam bəy Şamlı və hər təbəqədən olan başqa Xorasan camaatı əmirlərin getmələrindən agah olub Rüstəm Mirzənin yanında əminlik olacağını düşündülər, o tərəfə üz tutdular. Mirzənin ətrafında çox adam toplaşdı. Amma hələ onlar gedənədək qardaşlar arasında sülh yarandı və Qəndəhar əvvəllər olduğu kimi Müzəffər Hüseyn Mirzəyə verildi. [Buna baxmayaraq] Zəmindavərdən başqa onun əlində heç bir vilayət yox idi. Adları çəkilən əmirlər isə onu Xorasan səltənəlini ələ keçirib oraya gəlməyə rəğbətləndirirdilər. O, əfşar camaatının xahişi ilə Fəraha gədi və oradan Sistana yürüş etdisə də, yuxarıda onun və qardaşının barəsində yazılacağı kimi, onun işləri yoluna düşmədi, Xorasandan qayıtdı və ətrafına yığışan adamlar məyus oldular. Nəhayət Süleyman Xəlifə Xorasan əyanlarının adına məktublar və nəvazişnamələr yazıb, hərəni bir vilayətə hakim təyin etdi, Xorasana üz tutaraq, özü isə ülkası olan Tun və Cənabəd vilayətinə yollandı. Sultanəli Xəlifə Şamlı artıq Qayini tutmuşdu. Onların Xorasanda qalmış qədim mülazimləri və qızılbaş təbəqəsinin çox hissəsi də gəlib onun ətrafına yığıldı və onların hər biri özünə qoşun düzəltdi. Ali hümayun fərmanla Təbəs hakimi olmuş Mustafa xanı yanına çağırdı, indiyədək özbəklər tərəfindən hələ tam surətdə tutulmayan və yerli əhali və əyanlar tərəfindən idarə olunan bəzi Xorasan mahallarını ələ keçirməkdən ötrü hərəkətə başlayıb Tərşizə gəldi. Orada şamlı, ustaclı, türkman, qacar və Qubad xanın övladlarından ibarət dörd min nəfərədək adam toplaşdı. [Həmçinin] onun köməyinə kəmər bağlayan və qızılbaşların tərəfdarı olan Xorasan əhalisi də gəlib-yetişdi, birlikdə Tərşirin Kərat qalasına getdilər, orada Seyid Məhəmməd Sultan Özbəki mühasirə etdilər. Qırx gün keçdikdən sonra əhd-peyman bağlayıb onu qaladan çıxardılarsa da, əhdlərinə vəfa etməyərək arxasınca gedib, bir çox adamını qətlə yetirdilər. Onun (Seyid Məhəmməd Sultan Özbəkin - Ş.F.) özü isə həmin mərəkədən sağ-salamat qurtulub, Abdulla xanın əmri ilə Xorasanda olan Yetim Sultana və qardaşlarına qoşuldu. Əmirlər isə oradan çıxıb Mir Məhəmməd Qasim Ərğəndinin əlindəki Ərğənd qalasını tutmaqdan ötrü hərəkətə başladılar. Bu əhvalatdan xəbər tutan Yetim Sultan və qardaşları onları dəf etmək məqsədilə, Herat hakimi Mir Qulbaba Kukəltaşdan da kömək alaraq, qalın qoşunla

qızılbaşlara hücum etdilər. Vəziyyətin belə halda olmasına baxmayaraq qızılbaşlar yenə də bir-birləri ilə nifaq etməkdəydilər.

Təbrizin Ərğəndində qızılbaşların özbək döyüşçüləri ilə müharibəsi:

Onlar özbək tayfasının canavar kimi tamah dişlərini itilədikləri məmləkətin hər ülkasını utmaqdan ötrü pusquda durmuş və bu barədə danışıq aparmaqdaydılar.

Xülasə, elə ki, özbəklərin gəlişindən agah oldular, Yetim Sultanın əskərlərinin sayının iki min nəfərdən artıq olmadığını güman etdilər. [Buna görə də] hamı hərbə ürək bağlayaraq, özbək döyüşçülərinə hücuma keçdilər. Tərşizin Ərğəndində tərəflər qarşılaşdılar və döyüş səflərini bəzəməyə başladılar. Özbək bahadırları igidliklə döyüş meydanına qədəm basdılar və hərb atəşi şölələndi. Qızılbaş ləşkərinin çərxçiləri özbəklərin hücumlarına tab edə bilmədilər. Sol qol ləşkəri hələ cəng etdikləri halda, sağ qol məğlub oldu və (özbəklər) özlərini [hər iki] qola vurdular. Qol əskərlərinə hədsiz qorxu üz verdi və onlar zəiflik göstərərək müdafiə oluna bilmədilər, ixtiyarsız məğlub olub qaçış yoluna düşdülər.

Qızılbaş ləşkərinin sərdarı Süleyman Xəlifənin öldürülməyi:

Sol qolun döyüşçüləri sağ qolun məğlubiyyətindən xəbərdar olduqda, onların da səbat və qərar ayaqları sustaldı, cəng etmək və müdafiə olunmaq fürsəti tapmayaraq fərar etdilər. Ləşkərin sərdarı olan iri cüssəli Süleyman Xəlifə də qaçmaqda ikən meydanın kənarında atdan yıxıldı və özbəklərin əlinə keçdi, qətl olundu. Sultanəli Xəlifə [isə] meydandan çıxıb Qayinə gəldisə də, özbəklərin qorxusundan orada dayana bilmədi. Onun ağrəqi (ağruq) Təbəs vilayətində olduğundan, az miqdar adamla Qayindən Təbəsə getmək istədi, [amma] yolda bir dəstə özbək döyüşçüsü ona çatdı və Aviz kəndinin qalasında onların arasında cəng oldu, Sultanəli Xəlifə məğlubiyyətə uğrayaraq qətlə yetişdi. Həmin döyüş meydanında döyüşənlərdən biri olan Şahbudaq Sultan Türkman meydandan çıxaraq, heç bir yerdə dayanmadan Təbəs yoluyla Yəzd darülibadına gəldi. Xorasanda ondan bir neçə xilaf əməl baş verdiyindən, o, əlahəzrət zilləllah şahdan qorxurdu, buna görə də Yəzddə dayana

bilmədi, özbəklərin yanına getmək məqsədilə yenidən Xorasana üz tutdu, yolda özbək döyüşçülərinə gəlib çatdı.

Mərəkədə Mehdiqulu Sultan Fənadəmli Ustaclı və Süleyman Xəlifənin qardaşı Məhəmməd Sultan qətl olundular, Əliqulu Sultan Asayişoğlu məğlubiyyətdən sonra Hindistana tərəf getdi, Mustafa xan [isə] öz adamlarının əksəriyyəti ilə sağ-salamat Təbəsə çatdı.

Mustafa xanın Yetim Sultan Özbəkin əmriylə öldürülməyi:

Amma, o, Təbəsdə olduğu və o sərhədi qoruduğu bir qədər vaxtdan sonra Tuna getdi. Həmin sərhəd yerlərində əl-ayaq atdığı üçün özbəklər onunla haqq-hesablaşmaq istəyirdilər. Onun Tunda olduğunu eşidən Yetim Sultan dörd min nəfər özbəklə hücuma keçdi. O, şəhrbənddə idi və özü ilə tüfəngli Xorasan bənduqçiləri də vardı. Özbək ləşkərinin münqəlayı Mustafa xanı şəhrbənddən eşiyə çıxarmaq istədi, amma şəhər hüdudundan fərar edərək geri qayıtdılar. Özbək sərdarının başçılıq etdiyi ləşkərin kəmiyyət və keyfiyyətindən xəbərdar olan Mustafa xan, münqəlayın geri dönməsindən ürəkləndi, onların arxasınca şəhrbənddən çıxdı. Özbəklər geri qayıdaraq cəngə başladılar. Yanında az miqdar döyüşçüsü olan Mustafa xan mərdanəliklə sinə gərib, düşmənlə hərbə girişdi, amma Yetim Sultan ordusu mütəşəkkil halda döyüşdə göründü. Xülasə, Mustafa xan hərb dəryasında batmağa başladı, özbəklərin əlinə keçdi və Yetim Sultanın əmri ilə qətl olundu. Yuxarıda yazıldığı kimi, bu mərəkədə qızılbaşların çoxu, o əhd-peymanı pozan və xainlik edən düşmənlər tərəfindən ədəm yoluna qədəm basdılar.

Elə ki, bu xəbər Qəzvin darüssəltənəsində padşaha yetişdi, qızılbaşların döyüşə iznsiz başlamaları bəyənilmədi. Qızılbaşlar, həqiqətən də, öz günahlarına görə özbəklərə giriftar olaraq qeybdən gələn döyüşçülər tərəfindən öz cəzalarına çatdılar.

Amma, əlahəzrət şah mərd, igid və sadiq adam olan Mustafa xanın qəziyyəsindən, onun həmin cəngdə mərdanəlik və qeyrətlə qızılbaşlara yoldaşlıq edərək məhv olmasından təəssüfləndi, Təbəs əyalətini ali dərgahda olan qohumu Teymur Sultan Kəngərliyə verdi və onu oraya yolladı. Amma, özbəklərin o sərhədlərdə əliuzunluq etmələrinə görə, Teymur Sultan həmin yerləri əlinə keçirə bilmədi. [Buna görə də,] əlahəzrət Təbəs ülkasını

ikinci dəfə, mərdanə, ağıllı və təcrübəli adam olan Söhrab xan Qacara verdi, oraya göndərdi. O Xorasanın fəthinədək o sərhədi lazım olduğu kimi qorudu və elə igidliklər göstərdi ki, bu haqda gələcəkdə qələmə alınacaqdır. Bu sətirlər müəllifi yazılan bu hadisələri o mərəkə iştirakçılarından (həzzar) eşitmiş və yazmışdır.

Bu il, cənnətməkan şahın möhtərəm hərəmi, İsgəndər şanlı nəvvabın və İsmayıl Mirzənin anası, eləcə də Musa Sultan Mosullunun bacısı olan Sultan Xanım* ki, əlahəzrət zilləllah şah o nənəyə (cədde) ehtiram edir və onunla nəzakətlə davranırdı, Qəzvin dövlətxanasında xəstələndi və bəqa aləminə yollandı. Şərafətli yaşı yetmişi keçmiş və həştad yaş mərhələsinə daxil olmuşdu ki, üqbanı seçdi. Xeyrxah, abid, zahid və aqil bir qadın idi. Cənnətməkan şahın həyatının sonlarında Həcc ziyarətinə getdi. İnşa etdiyi yer: Möhtərəm fərzəndi Sultan Məhəmməd padşahın hakimiyyəti vaxtı bina etdiyi və Qəzvinin yaxınlığında olan Xoşkrud karvansarayıdır (robat) ki, onu tamamlamağa müvəffəq oldu.

HİCRİ TARİXLƏ SƏADƏT AMALLI AT İLİNƏ BƏRABƏR OLAN XOŞBƏXT AMALLI MİN ÜÇÜNCÜ İLDƏ (MİLADİ 1594/95), ƏLAHƏZRƏT ZİLLƏLLAH HÜMAYUN ŞAHIN CÜLUSUNUN SƏKKİZİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

Məclis bəzədi aləmə dövran yenə də,
Novruz çəməni etdi gülüstan yenə də.[583]

Qış fəsli qurtardığından cahanın solğunluğu (əfsordegi) şadimanlıqla əvəz olundu.

Şer

Göylər üzü şəffaf olandan bəri,
Şənliyi artırdı bahar yelləri.[584]

[583] Beytin farscası:
Əyyam degər əncümənəfruzi kərd,
Soltane-cəmən celveye-novruzi kərd.
[584] Şerin farscası:
Ruye-həva ləxləxeamiz şod,
Bade-bəhari tərəbəngiz şod.

Həqiqətən də bahar fəslində havasının xoş, gül-çiçəyinin bol olmasına görə başqa məmləkətlərdən seçilən Gilanda seyr və şikarla məşğul olmaq meyli əlahəzrət zilləlah şahda baş qaldırdı və belə bir fikirlə səltənət paytaxtından çıxdı, atının cilovunu o tərəfə istiqamətləndirdi. O vaxtlarda Gilan hakimi olan Fərhad xan şahı orada qarşılamaq və ziyafət tədarükü görməkdən ötrü izn alaraq ondan əvvəl yola rəvan oldu. Tarom ülkasına çatan əlahəzrət dağ ətəyində yerləşən, evləri bir-birinə bitişən, kəndləri bağlarla əhatələnən, dağının çeşməsindən saf çeşmələr axıb bir yerdə çari olan belə bir bahar fəslində bağlarının hər qarışı cənnət bağından xəbər verən Tarom vilayətinin Məncil və Xəzrəvil (?) adlı kəndlərində dayanıb eyş-işrət büsatı qurdu, səhərdən axşamacan onun behişt ayinli məclisi İrəm məclisinin munisləri ilə bəzəndi, Zöhrə çöhrəli saqilər əllərdə şərab camları gəzdirməyə başladılar, nuşanuş sədaları atlasla bəzənmiş asiman (fələk) sakinlərinin qulaqlarına gedib çatdı. Xoş ahəngli çalğıçılar və mahir müğənnilər bir ləhzə belə öz oxuyub-çalmaqlarından qalmadılar. Həmçinin o zaman müzəffər orduda olan bütün adamlar, istər yaxın olsun, istərsə də ağa, ya qulam, müdam içki içməklə məşğul məiyyətin və həmin bir neçə gün ərzində şadyanalıq etdilər. Sonra əzəmətli bayraqlar qaldırıldı və Gilanın Kuhdəm ülkası cahan şəhriyarının atının dırnaqları ilə ətirləndi, Fərhad xan Gilan əhalisi ilə birlikdə şahın istiqbalına çıxdı və xoşbəxt fallı bu ilin novruz axşamlarında gəlib Kuhdəm yurdunda hümayun məiyyətə çaldı, Gilan əhalisi şahın ayağı altındakı torpağı öpməklə şərəfləndi və onun iltifat nəzərinə layiq görüldü. Kuhdəm valisi Hüseyn xan onunla görüşməklə şərəfləndi, imkanı müqabilində öz xidməti vəzifəsini icra etdi, müzəffər əskərlərə çoxlu savəri* verildi. Ertəsi gün, ulduzlar padşahının Hüt ətəyindən ümid əlini üzüb həməlin boynundan asdığı gün əlahəzrət öz cahanı ayaqlayan (gərdünxoram) atını Gukə ülkasına tərəf yönəltdi və oradan sonra cənnətnişan Lahicana gəldi, hümayun ordunun qədəmləri cənnət bağının həsədinə səbəb oldu. O diyarın bütün əhalisi əlahəzrətin cahangəzən atının tozundan işıqlandı və onların gözləri açıldı. Fərhad xan öz peşkəş təqdim etmək vəzifəsini icra etdi, o həzrətin bütün əmələləri, dövlət başçıları və əyanlarına ziyafət verdi. Amma, Fərhad xanın xahişi ilə əlahəzrət tərəfindən yenidən vəzifəyə təyin edilmiş Biyəpəs Gilanının hakimi Əlixan səadətli məiyyətin təşrif

gətirməyindən əvvəl özünə xas keçmiş üsyankarlığına başladı, Fərhad xanla bağladığı əhd-peyman şərtlərini pozdu, Gilan avaralarından ibarət böyük bir dəstə yaratdı ki, onun bu hərəkəti anlaşma və qayda-qanundan uzaq olan bir qədəm idi. Buna görə də, ondan bac və xərac almaq üçün göndərilən mühəssillər öz məqsədlərinə çatmadan geri döndülər.

Gilan əhalisinin cəzalandırılması:

Müzəffər məiyyətin gəlişindən sonra [gilanlılar] özlərinin əvvəlki hərəkətlərini təkrar etdilər, tikanları elə özlərinə əngəl törətdi (daməndir) ki, onlar əlahəzrətin tərbiyət haqqını unudub səadət yuvası olan şah astanasından üz döndərdilər, onlara şərəf gətirən ələpmə mərasiminə gəlmədilər. Kəskərdə də, Əmir Səyavuşun qardaşı Əmirə Müzəffər üsyana başladı, tüğyan meydanına atıldı. Buna görə də şahanə cəza (siyasət) burulğanı dalğalandı, o zaman orada olan və zəfər ayəli bayrağın kölgəsi altında toplaşan bütün müzəffər əskərlər onun dəfinə yollandılar. Əli xanın xilas olunub vəzifəyə gətirilməsinə səbəbkar olan Fərhad xan bu vaxt xahiş etdi ki, həmin bəxti dönmüşün və haqqtanımazın dəfi üçün bü iş ona həvalə olunsun. Onun xahişi qəbul olundu və Fərhad xan müzəffər ləşkərin sərkərdəsi təyin edilərək, o tərəfə yollandı. Əmrə görə İsfahandan gələn min nəfər piyada tüfəngçi ona yardım etməyə təhkim olundu. Hökmə görə həmin piyadalara qaçaqların söhbət yasovulu Əlpan bəyin məsləhətindən çıxmamaq tapşırıldı və qiymətli hökm belə olundu ki, Azərbaycan əmirülümərası Zülqədər xan Qaramanlı o vilayətin bütün çərxçiləri ilə birgə Astara və Təvaleş yoluyla hərəkət etsinlər, əvvəlcə Kəskər ülkasını həmin üsyançıların natəmiz vücudlarından təmizləsinlər və müxalifət yolunu bağlasınlar, Əmir Səyavuşun qardaşı Əmirə Müzəffəri tutub, Əli xanın fitnəsinin dəf olunmasına başlasınlar. Əlahəzrətin özü isə Lahican şəhərində dayandı, bahar fəslini həmin vilayətdə seyr və şikarla keçirdi. O, həmişə eyş-işrətlə məşğul olmaqdaydı. Gilan əhalisindən Ləstəneşa hakimi Mir Abbas və Kuhdəm hakmi Hüseynxan Fərhad xanla birlikdə Biyəpəsə getdilər. Düzgün əqidəli və səmimi adam olan Kiya Fəridun şahın xidmətində dayanıb öz vəzifəsini yerinə yetirməkdəydi. Hümayun şahın könlünə bir neçə gün dəryanı seyr etmək və qaban (xuk) ovlamaq düşdü. Gilan meşəsində bol qaban olan bir yer vardır ki, Gilan hakimləri həmişə

bahar fəslində şikar məqsədiylə həmin dağlıq yerə gedərək qaban ovlamaqla məşğul olurlar və belə ov "zəngül şikarı" adlanır. Həqiqətən də, qəribə bir tamaşadır. Bu sətirlərin müəllifi ovlaqda şahın yanındaydı. Mən müşahidə etdim ki, əlahəzrət hər biri öküz böyüklüyündə olan on-on beş böyük qabanı oxla ovladı. O gün o həzrətdən elə cəsarət və mərdanəlik göründü ki, heç nəyi gözdən yayındırmayan adamların heyrət barmaqları təəccüb dişlərinin arasında qaldı. Məsələ belə baş vermişdir: Məlumdur ki, Gilan adamları olduqca dayaz ağıllı, qara fikirli və aqibətsiz adamlardır. Onların qamət nihalları zülmət arxından dikəlmiş, gilanlılara əzəli qüdrət süfrəsindən hiylə və bivəfalıqdan başqa heç nə düşməmişdir. Mürüvvət və insanlıq onlarda yoxdur. Hamısı fitnəkarlıqla məşğuldurlar. Belə ki, əgər har hansı bir əkinçi (bərzigər) ovladı müstəqil sultan olmaq niyyəti ilə müxalifət meşəsinə üz tutarsa, oranın bütün camaatı yubanmadan ona mülazimlik edəcək və elə ilk gündən onun ətrafında tərbiyəsiz adamlar toplaşacaqlar. Yaxud, elə həmin gün onlar özlərindən bixəbər halda hər hansı asan (səhl) bir işin ardınca gedərlərsə, o aqibətsizlər dərhal bir-birlərindən ayrılıb həmin işdən əl çəkməzlər. Lap əgər ertəsi gün də elə bir məsələ baş verərsə, onlar yenə də həmin hərəkəti icra edərlər. Sabah başlarına nə gələcəklərini bilsələr belə o adamlar fəqət bu günü özlərinə qənimət sayıb qətiyyən məsələnin aqibətini fikirləşməzlər, bircə gün artıq yaşamaqdan ötrü özlərini həlak meydanına atmağa hazırdılar. Duz-çörək qazanmaqdan ötrü çalışan iki dostun biri o birisindən şübhələnməkdədir. O bədəməl (bədkerdar) tayfanın belə yersiz hərəkətləri elə həmin mülkün suyu və havası ilə həmahəngdir.

Neçə gündən bir o diyarda bir hakim istiqlaldan dəm vurur. Onların sərdarlarını əgər öldürülsələr, yerbəyerdən fitnə və üsyana başlayırlar. Elə adamlardan çəkinmək bilikli imamlar məzhəbinə görə olduqca vacibdən də vacib bir əməldir:

Şer

Onların işləri bütün fənadır,
Onlara inanmaq səhvü xətadır.[585]

[585] Beytin farscası:
Həme kare-işan sərasər hobast,
Be qovme-çenin təkye kərdən xətast.

Xülasə, kamkar şəhriyarın şikarda iştirakının hazırlanmasından ötrü belə qərara gəlmişdilər ki, xasiyyətləri barədə yuxarıda sizə bir qədər məlumat verdiyimiz Gilan adamlarından on min nəfərə yaxın adam gərək həmin dağda cərgə[586] düzəltsin, şikarı hər iki tərəfdən çəpərlənmiş yerə qovub, heyvanların çıxış yolunu bağlasın, başqa adamlar isə onları qovub dərəyə doldursunlar və ov təbillərinin avazı və güllə səsləri altında ov başlansın.

Yığcam halda qeyd olunsun ki, Cəm məqamlı həzrət şah Allahın köməyi ilə bir neçə saraya yaxın adam və Gilanın çoxlu böyükləri və əhalisi ilə şikargaha gəldi, gecə Gilan sultanlarının dayanacaq yeri (dəxmə) olan və dağ ətəyində yerləşən Məlat adlanan bir yerdə dayandı.

Orada çoxlu narınc [meyvəsi] yetişir. Həqiqətən də bu yer Gilanın gözəl yerlərindəndir.

Ertəsi gün şikargah Cəm məqamlı padşahın qədəmlərindən yaraşıq tapdı. Dərənin ortasına çatan şah əmr etdi ki, tüfəngçilər öz işləri ilə məşğul olsunlar. Qulaqlar təbil səsləri və tüfəng atəşlərindən kar oldu, barıt tüstüsündən meşə qap-qara qaraldı. O həzrət ona böyük əcdadlarından, xüsusən Seyid Əbrardan yadigar qalan məharət və şücaətlə o adamlardan (gilanlılardan - Ş.F.) qətiyyən qorxub-çəkinmədən orada gərdiş etməyə başladı. Baxmayaraq ki, ağıllı adamlar şahın bu hərəkətini ehtiyatsızlıq saydılar, amma kamkar sultanlarının [bəzən] ehtiyatlanmamaları səltənət karxanəsinə aid olan işlərdən sayılır.

Amma ulu padşah (Allah-təala - Ş.F.) o həzrətə dost və düşmən olan adamların ürəklərində ona qarşı elə hiss yaratmışdı ki, onlar onun əleyhinə yönələn başqa bir fikrə düşə bilməzdilər. Axı, aydındır ki, ulduzlar qoşunu aləmi işıqlandıran günəşə nə kimi nöqsan yetirə bilər? Axı aləmlər Pərvərdigarı bu gözəl xislətli padşahın qayğısına qalırdı. Şah [buna görə də,] rəbbani himayəyə təkyələndi və o adamların çoxluğundan qətiyyən tələşə düşmədi. Onun belə hərəkətləri həmişə bu kitabda öz əksini tapmışdır:

Şer

Gərçi min düşmən edərsə məni öldürməyə cəhd,

[586] "Cərgə ovu" haqqında yuxanda məlumat verilmişdi - Ş.F.

Sən ki, yarsan, mənə yox qorxu-təlaş düşməndən.[587]

Şah sonra dərya kənarında iki nədim* ilə bir gəmiyə əyləşdi, gəminin sükanını bir dəstə aqibətsiz güləkin** əllərinə tapşırdı, Sefidrud çayının o biri sahilinə keçməyə meyl etdi. Çayın qarşı tərəfində isə o kamyab xosrovun yaxın adamlarından heç kəs yox idi. Buna baxmayaraq, şah xeyli vaxt çaydan ətrafı seyr etdi və nəhayət onun yaxınları və xüsusi xidmətçiləri gələrək sükanı gilək kəştibanından* aldılar və çayı keçdilər.

Xülasə, hümayun nəvvab seyr və şikar yeri olan dərya kənarında qaldıqdan sonra yenidən Lahicanı səadətləndirdi və ora onun qədəmlərindən behiştə döndü. Bu hadisələr baş verən vaxt, hələ də məhbus olan Kəskər valisi Əmirə Səyavuşun etibarlı adamlarından biri Kəskərdən çıxıb cahanpənah dərgaha gəldi və öz dövlətxahlığını bildirib şahənşaha dedi:

"Əmirə Səyavuş özünün həbs olunması səbəbini şaha müxalifətində gördüyü üçün öz qardaş və övladlarını üsyana təhrik edir və qardaşına gizli məktublar yollayır". [Kəskərdən gələn adam] o məktubların birini şaha verdi. Bu hərəkətdən qəzəblənən şahın Əmrə Səyavuş xüsusundakı mülayimləşməkdə olan qəzəb atəşi yenidən alovlandı və onun qətlinə fərman verdi. Baxmayaraq ki, bu xəbəri gətirən şəxs bu hərəkəti öz dövlətxahlığı naminə etmişdi, amma, şah özünə xas xislətə sadiq qalaraq, Gilan əhalisi haqqında yuxarıda dediyimiz mülahizələrdən çıxış etdi, bu pak etiqadlı padşah Əmirə Səyavuşun haqqı tapdadığına və öz vəlinemətinə qarşı çıxdığına görə onun da qətlinə fərman verdi, onların hər ikisi (qardaşlar Müzəffər və Əmirə Səyavuş (?) - Ş.F.) eyni bir vaxtda bir-birinin gözləri qarşısında əcəl saqisinin əlindən fəna şərbəti içdilər, hər ikisi nemətə ağ olan kafərlər kimi özlərinin cəzalarına çatdılar.

Novruzdan iki aya yaxın vaxt keçdi. Hava istiləşməyə başladı. Qalibiyyətli ordu geri dönməyə əzm etdi. Şah Gilanın böyüklərini, xüsusiylə Kiya Fəridunu nəvazişləndirdi və onu qiymətli xələtlər, tac və daş-qaşlarla bəzənmiş kəmərlə sərəfraz etdi, dövlət paytaxtına doğru üz tutdu, vahid Allaha inanan adamlar evi

[587] Beytin farscası:
Hezar doşmənəm ər mikonənd qəsde-həlak
Gərəm to dusti, əz doşmənəm nədarəm bak.

(movəhhedan) olan Qəzvin o gözəl şəhriyarın qədəmləri ilə yaraşıq tapdı.

GİLANDA ƏLİXANIN ÜSYAN VƏ TÜĞYANI, ƏBƏDİ DÖVLƏTİN QÜVVƏSİ İLƏ ONUN ÜZƏRİNƏ LƏŞKƏR GÖNDƏRİLMƏSİ, O ALÇAQ ADAMIN VƏ BİR DƏSTƏ FİTNƏKARIN HƏBS OLUNMALARININ ZİKRİ

Fərhad xanın səyi və təşəbbüsü ilə yenidən Biyəpəs Gilanının hakimi olan Əlixan öz istiqlal bayrağını dalğalandırdı. Sücaətlərinə görə bütün Gilan adamlarından üstün olan o vilayət hərbçiləri onun başına yığıldı. Saxta adam olduğu və başına özbaşınalıq havası dolduğu üçün, az vaxt içərisində onun tifaqı dağıldı, qəddar gilanlılardan malı və mülkü (əqar) çox olduğundan qürurlanıb, qədəmini itaət dairəsindən kənara çıxardı, Fərhad xanla etdiyi əhd-peymanı unutdu, dili "üsyan" kəlməsi ilə açılmağa başladı. Biyəpəs Gilanı pak hümayun şəhriyarın qədəmləri ilə cənnət meydanına çevrilən vaxt o, öz bəxtinin yoxluğundan və iqbalının dönüklüyündən o, amal qibləsinin (Şah Abbasın -Ş.F.) ayağı altındakı torpağı öpmək şərəfinə yetmədi, boş xəyallara qapılıb qalibiyyətli ləşkərlə qarşılaşmaq üçün özünə ləşkər və yaraq hazırlamağa başladı. Yollarda və keçildlərdə çəpərlər dikəltdi, bütün əsas yolları bağladı. Amma, bunu bilmədi ki, balaca bir alacəhrə quşu (səvə) ənginliyə uçan şahinin qabağında tab gətirə bilməz. Nəticədə, özünün bu cürətinə görə zavala uğradı.

Xülasə, elə ki, hümayun fallı şəhriyarın Gilan diyarına gəlişi zahir oldu və Əlixanın üsyanı xəbəri eşidildi, padşahın qəzəb bəhrinin dalğaları tələtümə gəldi, yuxarıda yazıldığı kimi, müzəffər əskərlər Fərhad xanın sərkərdəliyi ilə onun üstünə şığıdılar. Onlar Sefidrudu keçib Biyəpəs ülkasına üz tutduqda, Əlixan, qalibiyyətli əskərlər hələ gəlib çatmazdan əvvəl, bərk həyacana düşdü, onun ətrafına yığışan adamlar dağılışmağa üz tutdular. Dəstə-dəstə həmin nadan və cahildən aralananlar, xanın yanına gəlməyə başladılar. Biyəpəsin əksər mahalları qiyamətəsər ləşkər atlarının ayaqları altında döyəcləndi, heç kim onun köməyinə yetmədi, var-dövləti qarət olundu. Canında zəiflik və halında halsızlıq görən Əlixanın yaxın adamlarının əksəriyyəti fərar yolunu önə tutdular, Əlixan isə böyük qəm-qüssə ilə qədim ata-baba yurdu olan Fumən ülkasına gəldi. Oranın da camaatı ona itaətdən boyun qaçırdı və onunla

razılıq yolundan döndü. Əlixan Azərbaycan ləşkərinin hücumundan öz hayında olan Əmirə Müzəffərdən də kömək ala bilməyərək məyus oldu və fikirləşdi ki, artıq məmləkət gəlinini əlindən çıxarmışdır. Var-dövlətini dərya kənarına aparıb gəmiyə mindi və yarımcan halda həlak burulğanından nicat sahilinə çıxa bildi. Fərhad xanın dərya kənarına yolladığı qorxmazlıq meşəsinin igidləri məqsədə yetişə bilmədilər.

Şer

Elə ki, olmadı bəxti onayar,
Üzünə hər yandan bağlandı yollar.
"Etdiyim əməldən peşmanam" dedi,
Amma, peşmançılıq fayda vermədi.[588]

Axırda naəlac qalıb özünün və əcdadının doğulub boya-başa çatdığı Fumənin Zərmex adlı yerinə pənah apardı. O yerin adamlarının əksəriyyəti qorxusundan ona kömək etməyə başladı. Əlixan Zərmexdən olan bir neçə tərəfdarı ilə sərt dağlara və keçilməz meşələrə üz tutdu. Həmin meşələrə ağacların sıxlığından günəş şüaları çətinliklə düşür, yarpaqlarının çoxluğundan külək onları tərpədə bilmirdi. Əlixan həmin yerə sığındı, ehtiyat tədbirləri görməyə başladı. Biyəpəs sərdarları isə aldıqları əmrə görə onun axtarışına çıxdılar.

Bir neçə gündən sonra məlum oldu ki, Əlixan Zərmexə getmiş, qorxulu və hündür yolları olan həmin yerlərdə aram tutmuşdur. Fərhad xan bu xəbəri eşidib əmr etdi ki, şücaətli qazilər o dağ və meşəni muhasirəyə alsınlar, oranın hər tərəfini müşahidə etməyə başlasınlar. [Buna görə də] piyadalar dəstə ilə həmin yerləri gəzib-dolaşmağa başladılar. Ağacların çoxluğu, gil və laylarının çətinliyi üzündən xəyal qoşununun belə keçə bilmədiyi ağır yolları qət edən adamlar yüksəkliklərə qalxaraq şücaət göstərirdilər. O biri

[588] Beytlərin farscası:
Ço şod bəxte-bidare-u coflxab,
Bər u bəste şod rah-o rəye-səvab.
Pəşiman şod əz hər çe xod kərde bud
Və leykən nədamət nəmidaşt sud.

tərəfdən də Əlixan, başçıları Kamran Lulmey olan tərəfdarları ilə birlikdə, müqavimət qalxanın üzünə tutub, imkan olduqca, canım qorumağa çalışdı. Tərəflər çox vaxt cəngəlliklərdə bir-birlərinə çatıb vuruşur və hərb atəşi şölələnirdi. Əlixan hər gecə bir yerdə, hər ləhzə başqa məkanda olur, nəzərlərində dağ və çöl bərabər olan müzəffər döyüşçülərin qorxusundan bir an da bir yerdə qala bilmir, rahat olmurdu. O, bu minvalla iki ay gün keçirdi. Baxmayaraq ki, qazilər bir neçə dəfə meşədə Əlixana çatıb cəng etmiş və adamlarının çoxunu qətlə yetirmişdilər, amma o, yenə qaçıb bir guşədə gizlənmişdi. Azərbaycan vilayətindən on min nəfərədək piyada və süvari adam toplayan Zülfüqar xan fərman alıb Gilana rəvan oldu, Astara və Təvaleş yoluyla Kəskər üzərinə hücum etdi, dərya kənarındakı və başqa yolları zəbt etdi, həmin vilayətdə həmlə və qarət atəşi şölələndi. Əmirə Müzəffər Kəskər camaatı və Əmirə Səyavuşun oğlanları ilə gələrək istər-istəməz Əlixanla ittifaq etdilər, öz yurdlarında təmkin göstərib onunla birlikdə cəngə yollandılar. Zülfüqar xan Azərbaycan ləşkəri ilə onlara hücum etdi, böyük hərb oldu, Kəskər camaatından bir miqdar adam qətlə yetirildi, onların var-dövlətləri tarac olundu. Adı çəkilən əmirə öz yoldaşları ilə məğlub edildi və Əlixan fərar yolunun üzünə bağlanmış olduğunu gördü. Özünün bəla girdabına qərq olduğunu bilib sərgərdan qaldı və cəngəlistana qədəm qoydu, Kəskərin çox qadını və uşaqları əsir götürüldü, yerdə qalan adamlar isə öz əhl-əyallarını qorumaqdan ötəri itaətə gəlib Zülfuqar xan ordusuna qoşuldular, can və mallarını qorudular. Sir ovlayan qazilər Əmirə Müzəffərin və onun qardaşı oğlanlarının tələbiylə meşə və dağa qədəm basdılar, [Əlixanı] axtarmaqla məşğul oldular. Nəhayət, bir yerdə onu tapıb üzərinə hücuma keçdilər, onu yoldaşları ilə birlikdə mühasirəyə aldılar. Onlar canlarından keçərək, taqətləri çatana qədər döyüşdülər, amma özlərini aciz, fərar yolunu isə bağlı gördülər, əsir düşməkdən başqa heç bir çarə tapmadılar. Müzəffər qazilər adı çəkilən əmiräni onun qardaşı oğlanları ilə birlikdə tutub gətirdilər. Onların həbsindən sonra, Zülfüqar xan Fərhad xanın ordusuna tərəf yollandı, gəlib ona birləşdi. Bu tərəfdən də, müzəffər əsgərlər dağ və meşənin eniş-yoxuşunu tutub, Əlixanın tutulmasından ötrü cəhd edirdilər. Əlixanın vəziyyəti get-gedə çətinləşirdi. Haraya gedirdisə orada döyüş meşəsinin sirlərini döyüşə hazır görürdü. Naçar qalıb gecənin zülmətində ləşkər və qoşuna xəbər vermədən, özünün Kamran və Kamranla yekdil olan tərəfdarları ilə meşədən çıxdı. Müzəffər

ləşkərin qarovulları o hüdudun hər tərəfini əhatələyib çıxış yolunu qapadıqlarından, o, bir ev taparaq, oranın adamlarına sığındı. O evin sahibi, gilanlıların xislətinə uyğun olmayan mərdanəliklə, onu yaxşı qarşıladı və mühafizə etməyə başladı, imkanı olduqca xidmətində dayanıb onu gizlətdi. O meşəni şir ovlayan qazilər yenə də axtarırdılarsa da, ondan əsər-əlamət tapmırdılar. Heç kimin ağlına gəlmirdi ki, Əlixan evlərin birində gizlənmiş olsun, çünki evlərin əksəriyyətində əzəmətli qazilər yerləşmişdilər və inanmırdılar ki, bu kəndin adamları həmin işə cürət etmiş olalar.

Xülasə, bu iş çox uzandı. Məqsəd çöhrəsi hicab altından heç bir vəchlə görünmürdü. Buna görə də müzəffər əsgərlər məlala düşdülər, bir ləhzə də gözlərinə yuxu gəlmədi. Amma, nəhayət murad küləyi arzu cinahından əsməyə başladı və o düşmənin tutulması xəbəri gəlib müzəffər əsgərlərə yetişdi. Məsələ belə olmuşdu: O ətrafda olan bir dəstə qazi Əlixanın gizlənməsini anlamış və axtarışa başlamışdılar. Ev sahibi mehmanlarını bu vəziyyətdən xəbərdar etdi və onlar məcbur olaraq gizləndikləri yerdən çıxıb cəngəlliyə üz tutdular. Bunu bilən qazilərin bir dəstəsi onların arxasınca getdilər, meşənin kənarına çatdılar, aralarında savaş oldu, hərb atəşi şölələndi. Həmin müxalif adamlar qazilərin şərini uzaqlaşdırmağa çalışdılar, onların bəziləri yaralandı, bəziləri isə qətlə yetirildi. Cəngavər igidlər isə onların atdığı oxlardan qətiyyən çəkinməyərək, Əlixandan əl çəkmirdilər. Türkman qorçilərindən biri olan Heydər bəy Dəvəlioğlu gəlib ona çatdı. Əlixanın yoldaşı Kamranın atdığı iki oxun ona dəyməsinə baxmayaraq, Heydər bəy atdan piyada olub Əlixanın üstünə cumdu, bəxti gətirdi, onun kəmərinə əl ataraq tutub saxladı. Əlixanı onun əlindən xilas etmək istəyən Kamran yalın şəmşirlə onun üstünə yüyürdü və bir neçə yerdən onu yaraladı. Heydər bəy öz qeyrət və mərdanəliyindən yenə də Əlixandan əl çəkmədi, amma yaraları ağır olduğumdan əli gücdən düşmüşdü və daha Əlixanı tutub saxlaya bilmirdi. O qədər saxladı ki, qazilərin biri arxadan gəlib Əlixanı, başqa bir qazi isə Kamranı qucaqlarına çəkdilər. Habelə, onların yoldaşları bir-bir tutuldular. Bu işdən xəbər tutan müzəffər əsgərlərin və amalları zəfər olan qazilərin hücumu nəticəsində müxaliflər tutuldular və cənab xanın yanına gətirildilər. Onları da Əmirə Müzəffər və qardaşı oğlanları kimi zəncirləndilər. Müxaliflərin tutulmaları baradə paytaxta məktub göndərildi. Əlahəzrət zilləllah şah Fərhad xanı həddindən artıq təltiflərlə

nəvazişləndirildi, Əlixanı tutan şəxsə isə qiymətli xələtlər, daş-qaşlarla bəzənmiş kəmər və ciqqə verdi, onu əlli İraq tüməni məbləğinə bərabər olan əlli min kəpəki pul ilə də sərəfraz etdi. İgidlik və şücaət göstərib şəhadət dərəcəsinə çatan Heydər bəyin ailəsinə də nəvaziş göstərdi, xosrovanə inayət göstərərək onları şahanə xələtlərlə mükafatlandırdı. Kəskər vilayətinin hakimliyi Abdal Sultan Qacara verildi.

Xülasə, Fərhad xan dünyanı tutan şəhriyarın fərmanı ilə Gilan işlərini və rəiyyətin şəraitini lazımi kimi yoluna qoydu. Zülfüqar xan, zəfər nişanlı əsgərlər və Gilanın əzəmətli adamları olan Müzəffər və Kamranla birlikdə səadətli astanaya üz tutdu. Elə ki, Qəzvin darüssəltənəsinə gəlib çatdılar, ali əmrə görə şəhərin başıpozuqları, oğruları, məsxərəbazları, əclaf və dalaşqan adamları qaval, nağara və dümbək (tonbək) ilə Əlixanı qarşılamağa yollandılar, onu tam həşəmətlə şəhərə gətirdilər. O, Çehelsütun qəsrində kamkar şəhriyarın hüzuruna gəldi. Bu şer onun vəziyyətini ifadə edir:

Şer

O kəs ki, çıxdı sözündən sənin inad ilə,
Onu gətirdilər çəkərək asitanına, ey şah.[589]

Həzrət padşah əsirlərə töhmət və məzəmmətlə xitab etdi, onlar isə öz xəcalətli başlarını aşağı dikib dayandılar. Hökmə görə, onları Qəzvin daruğəsi Şeyx Əhməd ağanın evinə apardılar. Bir neçə gündən sonra qərara alındı ki, qoy Şeyx Əhməd ağa onları Ələmut qalasına aparıb qala mühafizlərinə təhvil versin. Şeyx deyilən sözə əməl etdi və bundan sonra onlardan heç bir xəbər eşidilmədi. Tutulub gətirilənlərdən Gilan fitnə-fəsadının baiskarı olan Kamran şücaətli gənc olduğu üçün Əlixana səmimiyyət, vəfadarlıq və layiqli xidmət etdiyinə görə həzrət Cəm məqamlı şah onun qanından keçdi, o, iltifata layiq görüldü və elə həmin gün onun zəncirlərini açdılar, başdan-ayağa şahanə xələtlər geyindirdilər, Kamran xasseye-şərifə mülazimləri silkinə layiq görüldü. Sübhanallah, necə də qəribə işlər

[589] Beytin farscası:
Səri ke gərdən əz əmrət keşid gərdunəş,
Bər asitane-tə inək keşan-keşan avərd.

baş verir və qeyb pərdəsinin arxasından nələr görünür. Əhali belə güman edirdi ki, Əlixanm üsyanına və Gilan fəsadına əsas səbəbkar olan Kamran [başqa] düşmənlərə ibrət [dərsi], olsun deyə dünya tutan padşahın cəzasına və qəzəbinə məruz qalacaqdır ki, qoy bütün adamlar bundan xəbərdar olsunlar. Hamı gözləyirdi ki, cah-cəlallı şah ona nə kimi cəza verəcəkdir. Xaliqin istəyi o xəlayiqin istəyinə xilaf olduğuna görə iş belə alındı.

Şer

Çəkilsə cahanda bütün qılınclar,
Allah isləməzsə kəsilməz damar.[590]

GİLANIN BAŞQA DÜŞMƏNLƏRİNİN DƏ ƏLƏ KEÇİRİLMƏLƏRİ VƏ ONLARIN AQİBƏTLƏRİNİN ZİKRİ

Əlixanın həbsindən sonra Gilandakı fitnə sakitləşdi. O fitnə-fəsadın baiskarları olan Bu Səid və Talişə Kuli meşə və cəngəlliklərdə sərgərdan olub hər gün bir məkanda, hər gecə bir yerdə (məqam) gün keçirirdilər. Ali nəvvab tərəfindən onlara "Əgər etdiklərindən peşiman olub bu astanəyə gələrlərsə, onların təqsirləri əfv olunacaq və şahanə şəfəqqətə layiq görüləcəklər" məzmununda dəfələrlə istimalətnamələr göndərilməsinə baxmayaraq onlar bu səadəti əldən qaçırmırdılar. Bir müddət sonra Bu Səid Lahicana - Kiya Fəridunun evinə gəldi ki, onu ali saraya aparıb, təqsirinin əfv olunmasını şahdan xahiş etsin. Əlahəzrət şah qeybdən gələn bir ilhamla Kiya Fəriduna məktub göndərib Bu Səidə inanmamağı və onun tezliklə ali saraya göndərilməsini tapşırdı.

Bu Səid bir neçə gün Kiya Fəridunun mehmanı oldu. Kiya onun üçün səfər ləvazimatı hazırladı və onu arxayınlaşdırmaqdan ötrü istədi ki, özü də onunla birlikdə yola düşsün.

Bu əsnada, şahın söylədiyi kimi də oldu. Belə ki, Bu Səid Kiya Fəriduna etibar etmədi, fürsət taparaq qəflətən evindən eşikdə namərdcəsinə qılınc çəkib, Kiryanı şəhid etdi, yanındakı bir neçə nəfər aqibətsiz düşmənlə meşə və cəngəlliyə üz tutdu.

---

[590] Beytin farscası:
Əgər tiğe-aləm becənbəd ze cay
Nəbərrəd rəgi ta nxahəd xoday.

Kiya Fəridunun öldürülməsi xəbəri cah-cəlallı şaha çatdıqda, Qəzvin hakimi Şeyx Əhməd ağanı Gilana göndərdi ki, Gilan camaatına Bu Səidin və Talişə Kulinin axtarışını tapşırsın, ülka-ülka gəzib o mülkün sahiblərini xəbərdar etsin ki, heç kəs gecələr onlara öz evlərində yer verməsin, harada olursa-olsunlar tutaraq onları o yerin hakiminə təhvil versinlər. Həmçinin Qənbər bəy Gözüböyüklünün bir dəstə əsgərlə Kuhdəm yoluyla gedərək Talişə Kulini tutmaları haqqında belə bir hökm olundu: "Azərbaycan, Kəskər, Təvalis və Biyərəs adamları hücuma keçib harada olursa-olsun onu tapsınlar".

Bu Səidin və Talişə Kulinin öldürülmələri:

Fərmanı alanlar onlara buyurulan hökmə əməl etdilər. Çoxlu səylərdən sonra Bu Səidi sun qaziləri və Rankuh hakimi Vəli Sultanın mülazimləri, Talişə Kulini isə bir neçə qardaşı oğlanları və qohumlarıyla birlikdə Kuhdəm adamlarından olan Hüseyn xan Kuhdəminin mülazimləri tutub şahın yanına gətirdilər.

Bu Səid şücaətli bir cavan idi. O, Kiya Fəriduna qarşı qəddarlıqla namərdlik etdiyi üçün ağır cəzaya məruz qaldı, çünki etibarını itirmişdi. Cəza şəhnəsi onun qətli ilə məşğul oldu, [amma] Talişə Kuli və qohumlarının günahı bağışlanıldı. Azacıq sonrasa onun xəyanəti zahirə çıxdı. Talişə Kuli indiyədək ələ keçməyən öz yoldaşlarına yazmışdı ki, düşmənçilikdən geri çəkilməsinlər və qızıldaşlara itaət etməsinlər.

Bu xəyanət aşkar olunduqdan sonra onu Mir Abbasın səyi ilə qətl etdilər və Gilan əmirlərindən Mir Abbasdan başqa heç kim sağ qalmadı.

Bu hadisələrdən sonra, elə Mir Abbas da ağılsızlığının çoxluğundan Lahicanın sipəhsaları olub, Gilan işləri ilə məşğul olmaq iddiasında oldu və bu istək onun qətli ilə nəticələndi. Əlahəzrətin gecələrin birində Qəzvinin Səadətabad meydanında seyr və tamaşada olduğu vaxt o zaman şahın izzət büsatının yaxın adamlarından olan Məlik Cahangir Kəcun sərxoşluq nəticəsində məst olduqdan sonra qılıncını qınından sıyırıb, özünü göstərmək, ya da zarafat etmək fikri ilə yanındakılara həmlə etdi. O, bu əsnada özünü Mir Abbasa yetirərək ardıcıl zərbələrlə onu ayaqdan saldı. Onu qətl etdikdən sonra, İstanbula gedərək Gilanda fitnə yaradan Xan Əhmədin vəkili Xacə Hüsaməddinin qardaşı Xacə Sultan

Mahmudu ədəm yoluna yolladı. Hamı onun sərxoşluğuna və divanəliyinə dözməkdəydi. Amma, hər şeyin xırdalığına varan adamlar başa düşdülər ki, bunlar cahandarlıq işlərini tənzimləyən adamın (yəni Şah Abbasın - Ş.F.) işarəsi olmadan baş verə bilməzdi. Mir Abbasın qətlindən sonra başqa gilanlılar da etibarsızlıq etdilər və Gilan hərbiçilərindən heç kim sağ qalmadı.

ƏLİXANIN VƏ GİLAN ÜSYANKARLARININ HƏBS OLUNMALARINDAN SONRA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Elə ki, ölkələr tutan şəhriyar Gilan işlərindən xatircəm oldu, bir neçə gün Qəzvin darüssəltənəsində eyş-işrət bayrığını göyə qaldırdı. [Sonra] belə bir hökm etdi ki, Səadəğabad meydanını bəzəyib oranı çırağban etsinlər. Bu vəzifə söhbət yasovulu Əlpan bəy Qacara tapşırıldı. Bundan ötrü meydanın ətrafındakı dükanlar bu güclü dövlətin əmirləri, dövlət başçıları, yüzbaşılar, qorçilər, saray mülazimləri, şəhər və ordu-bazar əhalisi arasında bölüşdürüldü, hökm olundu ki, onların hər biri qarşısına çıxan dükanı qoy on iki zər (bir zər 104 sm-dir - Ş.F.) irəli çəksin, oraya tirlər və sütunlar bağlasın, hər mərtəbə üzərində çardaq (çəhartaq) inşa etsin və binalar üçün çıraq hazırlasın (təbiye), fənər (fanus) assın, belə ki, hər bir dükanın min ədəddən çox fənəri olsun.

Şer

Şamlar və fənərlər yandı o qədər
Yerə qibtə etdi göydə fələklər.[591]

Sözün qısası, Qəzvinin Səadətabad meydanının ətrafı abadlaşdarıldı, şam və çıraqların çoxluğuna göylər qibtə etdilər. Əlahəzrət şah şərq və qərb tərəflərində inşa olunmuş gözəl imarətlərdə bir neçə gecə-gündüzünü başa vurdu, şərafətli vaxtını eyş, şadyanalıq, çovkan oyunu, qəbəq* tullamaq (qəbəqəndazi)

[591] Beytlərin farscası:
Ze bəs şəm-o fanus k-əfruxtənd,
Dele-rövşənane fələk suxtənd.

oyunu ilə keçirdi. Meydandakı məclis və söhbətlərdən yorulduqdan sonra səltənətin zəruri işlərinin icrasına başladı.

Lahicanın idarə olunması və Biyəpiş Çilanın əmirəl üməralığı Dərviş Məhəmməd xan Rumluya inayət olunduğu üçün, bunun əvəzində Şiraz əyaləti Fərhad xana verildi. Məmləkətlərin əksər işləri bu uzun ömürlü (ruzəfzun) dövlət tərəfindən aparıldığından, belə qərara alınmışdı ki, özbaşınalıq edən hakimlər gərək işdən kənar olunsunlar və onların yerinə dövlət tərəfindən tərbiyət olunub öz canlarından keçməyi bacaran adamlar təyin edilsinlər. Əfşar əmirlərinin əlində olan Kuh-Giluyə və Xuzistanın işləri indiyədək nizama düşməmişdi. Qarışıqlıq başlayan vaxt özbaşına olaraq həmin mülkü işğal edən adamlar hakimlik etməyə başlamışdılar. Onların hamısı cahanpənah dərgaha qayıtmaq istəyirdilərsə də, amma şah onlardan, xüsusilə möhkəmlikdə dünyada məşhur olan Şüştərə məxsus Səlasel qalasının kutvallarından xatircəm deyildi. Onlar padşahın əmrlərinə şahın mübarək istəyincə əməl etmirdilər. Ərəbistan valisi Mir Mübarəkdən ədəbsiz hərəkətlər baş verirdi. Buna görə də, şah Xuzistan, Ərəbistan sərhədi və Kuh-Giluyə işlərinin nizamlanmasından ötrü həmin yerlərə hümayun yürüş etmək qərarına gəldi. Özlərinin qəbahətli əməllərini başa düşən əfşar qəbilələri vəziyyətləri barədə düşünməyə başladılar, Seyid Mülarəklə danışdılar, Ərəbistanı özlərinə sığınacaq yeri (molca) etdilər. Buna görə də, şahanə etibara layiq Murad bəy Cilovdarbaşı* Şamlını hümayun yürüşün müjdəsini çatdırmaqdan, o sərhədin vəziyyətini təhqiq etməkdən və Şüstər qalasını tutmaqdan ötrü yolladı. O yerin hakimi Şahverdi xan Əfşar ləşkər əyanlarının fikrinin əksinə olaraq dövlətxahlıq və dövlətə bağlılığını nümayiş etdirdi, Muradbəyə izzət və ehtiram göstərib onu qalaya apardı, qalanın açarını ona verdi və istədi ki, özü çıxıb qalanı tərk etsin. Murad bəy buna mane olub onu şahanə inayətdən arxayın etdi, başqa adamları isə qaladan çıxardı.

Amma, o, nəhayət əfşar tayfasının hücumundan qorxub, onlarla birgə olan Şahverdi xanı qalada tutaraq qətlə yetirdi, beləliklə də əfşar tayfasını özünə qarşı qaldırdı, onların arasında fitnə və çaxnaşma yüksəldi. Qalanı əlində saxlayan Murad bəy oranı tüfəngçilər vasitəsiylə qorumaqda davam edirdi. Əfşar ləşkərinin əyanları Seyid Mübarəkin yanına gedərək, ondan kömək istədilər. Seyid Mübarək bu dudmana sədaqətdən dəm vurmasına və oğlu Seyid Naziri sədaqətlə ali saraya, şahın xidmətinə göndərməsinə

baxmayaraq, əfşarların təhriki ilə Ərəbistandan Xüzistana ləşkər çəkdi, Dizfulu ələ keçirdi, Şüstər qalasının üstünə gələrək, oranı mühasirəyə aldı. Bu məsələ cah-cəlal bargahının başçılarına (haceb) gəlib yetişdi. Ondan əvvəl Şahverdi xan Abbasi də onunla birlikdə olan bir dəstə əlvar camaatı ilə Luristana gəldi, oranın hakimi olan əmisi oğlu Sultanhüseynə hücum etdi, onu tutdu, qətlə yetirdi və istədi ki, Luristanda bir də öz istila və iqtidar bayrağını qaldırsın, amma qəhr qəhrəmanı olan padşahdan qorxub öz fikrini həyata keçirə bilmədi. O, Luristan hüdudunda heyvanlar kimi (hərəkətül-məzbuh) hərəkət edirdi. Cahanı bəzəyən rəy belə oldu ki, bu vəziyyəti yoluna qoymaqdan ötrü cah-cəlal qoşunu o səmtə hərəkət etsin. Bu güclü dövlətin yaxşılığını istəyən kəslər belə ərz etdilər: "Əgər o vilayətin işləri dərgah qulamlarının birinə tapşırılsa kifayət olar və daha hümayun məiyyətin yürüşünə ehtiyac yeri qalmaz." Buna görə də, sərhəd işlərinin nizamlanması Luristan Bərucərdindən Ərəbistanın Əqsasına qədər bəyənilən rəy sahibi olan vəzir Hatəm bəyə və Fərhad xana tapşırıldı və onlar o tərəfə yollandılar. Bir dəstə əzəmətli əmir də, o cümlədən Hüseyn xan Şamlı, Nədr xan Möhrdar və başqaları onlara həmrah oldular, yola düşdülər. Əlahəzrət şah əzəmət və kamranlıqla Kaşan və İsfahanın seyrinə getdi və bir müddət orada eyş-işrət etdi. O, oradan Qəzvin darüssəltənəsinə qayıdıb qış fəslini eyş və kamranlıqla başa vurdu.

ETİMADÜDDÖVLƏNİN VƏ FƏRHAD XANIN SƏRKƏRDƏLİYİ İLƏ XUZİSTAN VƏ ƏRƏBİSTANA LƏŞKƏR GÖNDƏRİLMƏSİ VƏ CAHAN ŞƏHRİYARININ FƏRMANI İLƏ HƏMİN YER İŞLƏRİNİN TƏNZİMLƏNMƏSİNİN ZİKRİ

Qəzvində şahın yanından ayrılan etimadüddövlə və Fərhad xan Luristan yoluyla məqsədlərinə doğru rəvan oldular və gəlib Xürrəmabada çatdılar. O hüdudda sərgərdan halda olan Şahverdi xan Abbasi öz qorxusundan etibarlı adamlarını onların və əzəmətli əmirlərin yanına yollayıb, şah dərgahına bəndəlik edəcəyini və öz keçmiş əməllərindən peşiman olduğunu bildirdi, əlini acizlik və biçarəlik ətəyinə atdı, onların vasitəsiylə əfv olunmasını xahiş etdi. Onlar da Ərəbistan valisi və Kuh-Giluyə hakimlərinin qəlblərinin alınması və onların xatircəm olmalarından ötrü belə məsləhət gördülər ki, onu şahın inayəti ilə nəvazişləndirsinlər və yenidən

Luristan hakimliyini verməklə başıuca etsinlər. Buna görə də, adına istimalət hökmü yazıldı və onu xosrovanə əfv sarıdan xatircəm etdilər, görüşmək istədilər, [amma] Şahverdi xan qorxusundan görüşə curət etmədi. Arada elçilər gediş-gəlişi başlandı. Onun xatircəmliyi üçün Fərhad xan və etimadüddövlə bir neçə adamlarıyla, o hüduda yerləşən Allah əhli (əhlüllah) olan böyük bir şəxsin məzarı üstünə getdilər və Şahverdi xan da iki yüz nəfərlə gəlib onlarla görüşdü, şaha öz bəndəliyini izhar etdi, and içib dedi: "Əgər şah onun üsyan yazısını əfv qələmi ilə pozarsa, bütün ömrüm boyu xidmətkarlıq yolundan çıxmayacağam". Onun, sözünün sədaqətdən uzaq olduğunu bilən Fərhad xan və etimadüddövlə vaxtın məsləhətinə qulaq asdılar, onu xosrovanə dostluqdan ümüdvar etdilər, həmin vilayətin idarəsi yenidən onun adma yazıldı, ona qiymətli şah xələti geydirildi, Xürrəmabad qalasını boşaldıb ona verdilər. Şahverdi xan da şahanə dostluğa şükr edib ali divana min tümən peşkəş verməyə boyun oldu, dövlət başçılarına layiqli xidmətlər göstərdi. Onunla bu məsələnin bitməsindən sonra onlara Şüştərin mühasirəsi barədə ardı-ardınca xəbər gəlib çatmaqdaydı. Onlar buna görə də oradan çıxaraq, gedəcəkləri uzaq məsafəni yaxın etməkdən ötrü olduqca çətin keçilən bir yol olan Kiyalan aşırımından (kutəl) keçməyi qərara alıb rəvan oldular. Hələ sabiq vaxtlardan oradan ləşkərlər az keçirdilər. [Buna baxmayaraq,] güclü dövlətin qüvvəti ilə həmin aşırımı sağ-salamat arxada qoyub Xuzistana və Ərəbistana qədəm basdılar. Qızılbaş ləşkərinin gəliş xəbərini eşidən Seyid Mübarəkin canına titrəmə düşdü, Dizfulda olan adamların bir hissəsi isə qızılbaşların uzaqdan gələn qaraltısını görüb onlara birləşdilər. Qalibiyyətli əskərlər Şüştərə yaxınlaşdıqları vaxt Mübarək qəm-kədərə qərq olub qala ayağından ayağını çəkdi, özünün iqamət yerləri olan Həvizəyə və Kəmalabada getdi, müzəffər əskərlərsə gəlib Şüştərə çatdılar, orada dayandılar. Fərmana görə o vilayətin idarə olunması Mehdiqulu xan Şamlıya tapşırıldı. Şəhəri və qalanı ona tapşıran dövlət başçıları həmin yerin işlərini qaydaya saldılar. Seyid Mübarək bərk vahiməyə düşərək, əmirlərin yanına bir adam göndərib, üzrxahlıq məqamına gəldi, qulamlıq və sədaqət izhar etdi, bir-iki il bundan əvvəl ali saraya göndərdiyi oğlu Seyid Nazirin oraya gəlişini özünün bəndəliyinin və qulamlığının sübutu (dəlil) olduğunu dedi, Murad ağa Cilovdarın Şüştər üzərinə hücumunu tərbiyəsizlik adlandırdı, bu hərəkətin onun sərtliyi (bietedali) olduğunu bildirdi, üzrlər istədi.

Əlahəzrət [etimadüddövləyə və Fərhad xana] demişdi ki, əgər Seyid Mübarək üzrxahlıq və bəndəlik məqamına gələrsə, onun seyidliyi (seyadət) və şiəliyi elə onun əfv olunmasına bərabərdir, çünki dövlət istəmir ki, onun etdiyi işin üstündən pərdə götürülsün, o, müxaliflər silkindən sayılsın və bu dövlətdən inciyib məyus olsun. Göndərilən fərmana görə Seyid Mübarəkin üzrxahlığı qəbul olundu və o, şahın inayət və nəvazişinə layiq görüldü. Ona məktubla bildirildi ki, əgər gəlib əzəmətli şah əmirləri ilə görüşərsə, üzrü qəbul olunacaqdır. Seyid Mübarək gəlməkdə böyük təşviş (dəğdəğe) hissi keçirirdi. Çoxlu danışıq və elçi gediş-gəlişlərindən sonra etimadüddövlə, Fərhad xan və əzəmətli əmirlər şahın qüdrətinə (setvət) arxayın olub, ərəb əskərlərindən qorxmadan, Seyid Mübarəkin xatircəm olmasından ötrü bir neçə adamlarıyla qızılbaş ordusundan ayrılaraq Həvizəyə doğru bir neçə fərsəx yol getdilər. Seyid Mübarək çoxlu döyüşçü ilə oraya gəldi və bərk qorxu içində onlarla görüşdü. Etdiyi ədəbsizlikləri xatırladan əmirlər ona dedilər: "Əlahəzrət sənin seyid olmağına, Peyğəmbər dudmanına yaxınlığına və şiəliyinin xatirinə etdiyin əməllərin üzərindən əfv qələmi çəkmişdir. Sən əgər sədaqət yolu ilə düz getsən və vergilərdən yayınmasan, gərək bundan sonra elə hərəkət edəsən ki, səndən səmimiyyət, istək və sədaqət əlamətləri görünsün. Ərəbistan hökuməti sabiqdə olduğu kimi sənə veriləcək. Əgər bəndəlik etməkdən bir tük qədər kənar olsan, bu dəfə öz dudmanının cəzalandırılacağından arxayın ola bilərsən". Seyid Mübarək qüsurlarını etiraf edərək təqsirinin əfvinə şükür izhar etdi və dedi: "Mən bundan sonra bəndəlik yəhərini çiynimə qoyub, itaət sırğasını qulağına taxıb, heç vaxt şahın mübarək razılığı olmayan bir işlə məşğul olmayacağam, bu dövlətin dostu ilə dost, düşməni ilə düşmən olacağam". O, əhd-peyman sözünü ortaya gətirib onları arxayınlaşdırdı. Şahın ona göndərdiyi hədiyyələrdən izzət və şərəf duydu, asudəliklə öz məkanına, əzəmətli əmirlər isə öz ordularına qayıtdılar. O vilayətdən xatircəm olan [qızılbaşlar] Şüştərdən çıxıb Kuh-Giluyə istiqamətinə rəvan oldular. Yağışın çoxluğu və Şüştər çayının tüğyan etməsinə görə, bir aya qədər yol gedə bilmədilər. Ordunun azuqəsi azaldı, ərzaq və heyvan yemi tapılmadı, şüarları zəfər olan əsgərlərə böyük ziyan dəydi. Yağış dayanandan sonra əmir və əsgərlərin bəziləri izn alıb getdilər. Fərhad xan və etimadüddövlə dərgahın bəzi əmir, qorçi və mülazimləri ilə Kuh-Giluyəyə rəvan oldular. Oraya gəlib çatdıqda,

Kuh-Giliyə hakimi Həsən xan və əfşar tayfaları onların istiqbalına çıxaraq, əmirlərlə görüş izzətinə yetişdilər. Qarışıqlıq baş verən vaxtlarda saxtakarlıq və özbaşınalıqla o vilayəti istila etmiş Həsən xanı oranın idarəçiliyindən kənar edib onu bin neçə üsyançı yoldaşları ilə birlikdə tutdular, müvəkkillərə tapşırdılar ki, onlan ali dərgaha aparsınlar. Elə hümayun cülus zamanı da Həsən xandan yersiz hərəkətlər baş vermişdi. O vilayətin idarəçiliyi Kazerun hakimi Əmir xan Əfşara, Kazerun ülkası isə İsmayıl xan Alplı Əfşara verildi. Bu bir neçə ildə rəiyyət olmaqdan baş qaçırıb ləyaqətsiz işlərə qurşanmış bəxtiyari lurları (əlvar), caki, cəvanəki, bondaki, fəhbənd, məmsəni və başqa rəiyyətlər on min tümən cəriməyə və tərcüman vergisinə* məruz qaldılar, yığılan vəsait qorçilərin və saray mülazimlərinin maaşı kimi ödənildi. O vilayətin işlərinə də istənilən kimi əncam edildi. Onlar oradan çıxıb gözəl Şiraz məskəninə (xotte) gəldilər, Fars [vilayətinin] işlərini tənzimlədilər və oradan əyinlərinə mülazimlik ehramları geyib köç-köç ali saraya rəvan oldular, Qəzvin darüssəltənəsində nəvvab şahın ayağını öpməklə şərəfləndilər.

BU İL BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏRİN BƏYANI

Bu il baş vermiş haisələrdən [biri] Kəcur və Rüstəmdar hakimi Məlik Cahangir Rüstəmdari ibn Məlik Sultan Məhəmmədin fərar etməsidir. Onun atası Məlik Sultan Mahmud (Mahmud yox, Məhəmməd olmalıdır - Ş.F.) din və dövlət işlərində olduqca süst etiqadlı adam idi, bəlkə də onda allahsızlıq (əlhad) daha güclü idi. Cənnətməkan şahın dövründə ondan şəriət qanununa xilaf olan bəzi əməllər zahir oldu, o cümlədən o, öz bacısı qızını öz oğluna namizəd etdiyi halda tamahkarlıq edib qızı özünə aldı, uzun müddət onunla yaşadı. [Məlik Mahmudun] vəfatından sonra onun oğlu Məlik Cahangir atasının bu arvadını aldı. Ondan və onun adamlarından belə qəbahətli əməllər tez-tez baş verdiyi üçün onların ölkəsində oruc tutma (sovm), namaz qılma və dua oxumaq (sələvat) kimi işlər yoxa çıxmışdı (məfqud). Buna görə də cənnətməkan şah ona iltifatsızlıq məqamında oldu, Nədrxanın oğlu İmamqulu xan Ustaclını çoxlu əsgərlə onun dəf olunması üçün yolladı. Məlik Cahangir ona qarşı xəyanət və amansızlıq etdi, güya öz itaətini bildirdi, xəlvəti görüşmək istədi. O sadəlövh türk də buna razılıq verdi, vədələşdiyi yerə getdi, görüşdü və onun adamlarının əli ilə

öldürüldü, əsgərlərsə orada qala bilməyərək dağılışdılar. Bu xəbər cənnətməkan şaha çatdıqda onun üzərinə bir də ləşkər göndərmək istədi, amma İlahi qəzavü-qədərin istəyi ilə hümayun zata xəstəlik üz verdi, zəifləşdi və buna görə də onun xəstəliyi (nəqahət) uzanmış oldu. Ortaya başqa işlər çıxdığından, cənnətməkan şah iki il həmin işə baş qoşmadı. Sonra, onun bir də tənbeh olunması və cəzalanması üçün Sultan Heydərçilərin əzəmətli adamlarından olan Murad xan Ustaclunu bu işin yerinə yetirilməsinə namizəd etdi.

Murad xan oraya yollandı. Məlik Cahangiri Kəcur qalasında mühasirəyə aldı, qalatutma ləvazimatı hazırladı və ona dörd ay vaxt sərf etdi. Qalanın fəthi yaxınlaşan vaxt Allahın təqdiri ilə cənnətməkan şahın vəfatı hadisəsi baş verdi. Qala ayağından çıxan Murad xan Gilana - Pirə Məhəmməd xanın yanına getdi və orada İsmayıl Mirzənin əmri ilə kor edildi (məkhul). İskəndər şanlı nəvvabın zamanında elə bir çaxnaşma (şureş) və fitnə-fəsad başlandı ki, bu güclü qızılbaş dövlətinin bircə nəfər dövlət başçısı da Məlik Sultan Məhəmmədlə maraqlanmadı və o, ali hümayun şahın cülusunun əvvəllərində axirət evinə səfərə yollandı. Oğlu olan Məlik Cahangir Nur hakimi Məlik Əzizin Cahangir adlı oğlu ilə, yuxarıda yazıldığı kimi, Lar yaylağından çıxaraq, Allahın hidayəti ilə ali saraya gəldi və hümayun məiyyət ilə İraqa yollandı. Nəvvab şah öz himmət kəməndini sərhəd yerlərin ələ keçirilməsi üçün atdığından, Gilanları (Gilanat - yəni Biyəpəs və Biyəpiş Gilanları - Ş.F.) artıq almışdı. Nurun məlikzadəsi bu işdən xəbər tutaraq öz irsi mülkü hakimliyindən əl çəkdi və xahiş etdi ki, ona qoy İraqda məskən yeri və maaş təyin olunsun. [Buna görə də] ona Savədə yer verdilər. Amma, Kəcur məlikzadəsi olduqca divanə və sərxoş bir adam idi. Nəvvab şah bəzi məsləhətlər verməklə ona şəfəqqət və iltifat etdi.

Kəcur hakimi Məlik Cahangirin fərar etməsi:

Məlik Cahangir şahın xüsusi məclisinin dostu (ənis) və xüsusi qonaqlıqlarının iştirakçısı (hərif) oldu, şah Kəcur vilayətini fərmanla ona verdi.

Bu vaxt Fərhad xan və etimadüddövlə Ərəbistan səfərindən qayıdaraq gəlib Qəzvinə çatdılar. Məlik Cahangir bərk qorxuya düşdü. Ordu əyanları etimadüddövlə və Fərhad xanı qarşılamağa yollandıqda, o, müxalifət və üsyan fikri ilə şahın ona bağışladığı tazı ata suvar olub, onları istiqbal etmək bəhanəsi ilə Kəcur və

Rüstəmdar yolunu önə tutdu, Kəcura gedəndən azacıq sonra Məlik Cahangirin fərar etməsi xəbəri eşidildi və bir dəstə əsgər onun ardınca göndərildi, amma gedib çata bilmədilər. Məlik Cahangir Kəcura getdi, üsyandan dəm vurub qalaya sığındı. [Bu zaman] əzəmətli qorçilər qorçibaşının sərkərdəliyi ilə onun qalasını fəth etməyə təyin olunub oraya getdilər və onu tutdular, ülkası şah məmləkətlərinə əlavə olundu ki, bu haqda öz məqamında məlumat veriləcəkdir.

Bu ildə baş verən hadisələrdən biri də rus elçilərinin gəlişidir. Onlar rus padşahı tərəfindən şahın yanına gələrək, layiqli töhfə və hədiyyələr gətirdilər. Elçi bir mötəbər rus əmiri idi. [Rus dövləti] məhəbbətamiz bir məktub yazaraq çoxlu məsələlərdən söhbət açmışdı. Əlahəzrət zilləllah şah elçinin qədəmini alqışladı, kafər olsa belə qonağa[592] ehtiram göstərdi.

Bu il Rum padşahı Sultan Murad ibn Sultan Səlim ibn Sultan Süleyman axirət səfərinə yollandı və min üçüncü ilin cəmadüləvvəl ayının dördündə (miladi 1595, 15 yanvar) köç təbilini döydü. O, it ilində, doqquz yüz həştad ikinci ildə (miladi 1574) padşah olub, iyirmi bir il hökmdarlıq etdi. Onun zamanında bir çox məmləkət rumiyyə tərəfindən fəth olundu. Ale-Osman padşahlarından özünün şövkəti, əzəməti və müstəqilliyi baxımından üstün idi, amma hakimiyyəti zamanı ondn bəzi layiq olmayan işlər göründü.

Əvvəla, sultanlara layiq olmayan əhd-peymanı pozdu, cənnətməkan şah və atası Sultan Süleyman arasındakı qüvvədə olan sazişi sındırdı ki, bu haqda birinci səhifədə məlumat verilmişdir. Nəticədə, aram aləminə fitnə və çaxnaşma salıb, müsəlmanların rahatlığını pozdu.

İkincisi, heç vaxt baş verməyən müsəlman qız-qadınının əsir götürülmələridir ki, islam sultanlarından heç bir şöhrətli palşah belə alçaq iş görməmişdir. Onun hakimiyyəti vaxtı məlum oldu ki, Azərbaycan və Şirvanda müsəlmanların çoxlu qadın və qızı əsir tutularaq kafər (gebr), yəhudi və xristanlara satıldı. Belə ki, [fətta] seyidlərin əsir qadınlarını da (zürriyyət) satışa çıxartdılar və bu pis əməl (fele-məzmum) Rumdan Mavərənnəhrə də siyərət etdi. Abdulla xan və oğlu da Xorasanda həmin işi etdilər. Bu qəbahətli əməl onun zamanında sultanlar arasında yayıldı. Məhz bu Rum

[592] İfadənin ərəbcəsi: "Əkramu-d-dayfə və lan kənə kəfirən".

sultanı belə iyrənc işi etdi və buna görə də əməli onu üqba evinə apardı. Nəticədə, onun övladı da belə alçaq işə giriftar oldu və ruzigar onlardan intiqam aldı. Əlahəzrət zilləllah şahın cahanı tutan qılıncından qopan qığılcımlar onların zülm və düşmənçiliyini (ədvan) ədalət nuru ilə işıqlandırdı, onlar tərəfindən tutulan şəhərlər uğurla geri alındı, onların dövründə baş vermiş hadisələrə beləliklə Allaha şükür ki[593], xitam verildi.

Sözün qısası, Sultan Murad xandan iyirmi oğul və bir neçə qız qaldı. Böyük oğlu Sultan Məhəmməd Sənəqdə, başqa övladları isə İstanbulda padşahlıq sarayında idilər. Vəfatından sonra onun cəsədini on gün buz içində, saraydan kənarda saxladılar. Bostançıbaşının səyi ilə hərəmxanada olduqca əzəmətli, möhtərəm və sahib-ixtiyar olan anası Sultan Məhəmmədxanın yanına adam yolladı və o, on birinci gün Sənəqdən İstanbula gəldi, naməlum bir qapıdan (dərgah) keçib padşahlıq sarayına daxil oldu. Ertəsi gün padşahın dəfninə başladılar. Onun dəfnindən sonra on bir oğluna elə həmin gecə şəhadət şərbəti içirərək boğdular, həlak etdilər və onların hamısı həmin ayın on yeddisində atalarının yanında dəfn olundu.

HİCRİ TARİXİYLƏ TÜRKCƏ QOYUN İLİNƏ BƏRABƏR OLAN XOŞBƏXT FALLI MİN DÖRDÜNCÜ İLDƏ (MİLADİ 1595/96) - ƏLAHƏZRƏT HÜMAYUN ŞAHIN CÜLUSUNUN DOQQUZUNCU İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR

Elə ki, işıqlı novruz göründü,
Hər qaranlıq gecə gündüzə döndü.
Hər yanda Xosrov ki, deyirlər ona,
Fərəhlə əyləşdi həməl taxtına.
Aləmi bəzədi yenə gələrək
Dünya məşşatəsi yarın hüsnü tək.
Elə ki, göründü hər tərəfdə gül,
Nəğmə qoşdu ona şövq ilə bülbül.[594]

[593] İfadənin ərəbcəsi: "əl-həmdu-l-lahi alə zəlikə".
[594] Beytlərin farscası:
Novruz ço gəşt aləməfruz
Tarike-şəbe-zəmane şod ruz.
Keyxosrove-in çəhar eyvan
Bər təxte-həməl neşəst şadan.

Bu cahanı bəzəyən ilin novruzu bu ilin rəcəb ayının onuna (10 mart) təsadüf etdi. Dördüncü fələyin ulduzları və günəşi həmələin şadlıq taxtını (ovrəng) öz işıqlarına qərq etdi, bahar nəsimi çəmənin cürbəcür güllərini (rəyahin) oxşamağa başladı. Əlahəzrət zillələh şah Qəzvin darüssəltənəsində və cənnət ayinli dövlətxananın Çehelsütun qəsrində xosrovanə məclis və padşahanə bayram bəzədi. Xarəzm padşahı Hacı Məhəmməd xan, Şahican Mərvinin valisi Nurməhəmməd xan, Ərəbistan valisi Seyid Mübarəkin oğlu, Gürcüstan sultanzadələri, rus elçiləri və başqa yerlərin sultanları və sultanzadələri [o zaman] ali sarayda idilər. Onlar behişt ayinli məclisə dəvət olundular, ilin və novruzun gəlişini təbrik etməkdən ötrü bir neçə gün eyş və şadyanalıqla məşğul oldular. Şəhərin bazarlarını bəzədilər, Səadətabad meydanında çovkan və qəbəq atmaq oyunlarını nümayiş etdirdilər. Bütün əhali on-on iki gündə seyr, söhbət və istirahət etdilər. Nişat və şadyanalıq [günləri] bitdi. Nişat və bayram məclislərinin bitməsindən sonra, Xorasanın böyük vilayətlərini işğal etmiş özbək hökmranlığı (təsəllot) zamanı onların soyğunçuları (yəğmayi) və hərcayi almançıları qəddarlıqla (bietedalane) məmləkətlərin əhalisinə hücum edirdilər.

Fərhad xanın Xorasana getməyi:

Onlar Xorasandan İraq yaxınlığına qədərki yerləri darmadağın etdilər. Qarşıya çıxan cürbəcür böyük işlər isə özbəklərin şərini dəf etməyə imkan vermirdi. Bu il cahanı bəzəyən rəy belə oldu ki, hal-hazırda bu dövlətin ali qədirli əmirlərindən olan və şahanə tərbiyət əsasında yüksək məqama sahiblənən, etibar və iqtidarının avazı yaxın-uzaq hər yerdə yayılan Fərhad xanı Xorasan şəhərinə göndərsin ki, o, mülkü dağıdanların önündə möhkəm sədd kimi dayansın, özbək dəstələrinin şərini dəf etməklə məşğul olsun, əgər özbəklərin əlləri yenə də başqa məmləkətlərə uzanarsa, onların fitnə atəşini kəskin qılıncı ilə söndürsün. Fərhad xan uğurlu bir saatda bu xidmətə layiq görüldü. Onun sabiq ülkasına Xar, Semnan,

---

Arast zəmane-ra degər bar
Məşşateye dəhr çon roxe-yar.
Əz bəhre-qodume-şahede-qol
Şod nəğmesəray sövqe-bolbol.

Damğan, Bəstam, Firuzguh, Biyaremənd və Hezarcərib də əlavə olundu. Keçən il talan məqsədiylə gələn özbəklərin dəf olunması zamanı igidlik və mərdanəlik göstərməyən Damğan və Bəstam hakimi Fərrux xan Pornakı vəzifədən kənar edərək, onun qoşun və ləşkərini Fərhad xana təslim etdilər. [Həmçinin] Xorasanın bütün işlərinin din və dövlətin məsləhəti ilə tənzimlənməsindən ötrü iqtidar qundağını (qəbze) onun əlinə verdilər.

Fərhad xan şahm inayətlərinə qərq olub, müqəddəs məiyyətdən ayrıldı, həmin səmtə rəvan oldu. Onun göndərilməsindən sonra rus elçilərinə qayıdış rüxsəti verildi və onlara layiqli ənamlar təqdim olundu. Türkmən qorçisi İmamqulu bəy Pakizəni rus padşahına elçi təyin edib, onu ləyaqətli töfhə və hədiyyələrlə rus elçilərinə həmrah etdilər. Onlar Gilanda gəmiyə oturub dərya yoluyla rəvan oldular.

Novruzdan üç ay keçdi. Fərhad xan Firuzkuh yaylaqlarında olarkən Əhdülmömin xanın Xorasana gəlməsi xəbəri yayıldı. Xəbər aparanların (monhiyan) sözlərindən və Fərhad xanın məktublarından məlum oldu ki, Əbdülmömin xan özbək dəstələri ilə, Mirzə Məhəmməd Sultan və bayat camaatının əlində olan Əsfərayin qalasını mühasirəyə almış və hazırda böyük cidd-cəhd ilə oranı tutmağa çalışır.

Buna görə də, əlahəzrət zilləllah şah tez-tələsik Xorasana yürüş üçün ləşkər çağırışına əmr etdi.

ZƏFƏR AYƏLİ ORDUNUN XORASANA HÜCUMU, ƏBDÜLMÖMİN XANIN MÜZƏFFƏR MƏİYYƏTİN YÜRÜŞÜ NƏTİCƏSİNDƏ ƏSFƏRAYİN VƏ SƏBZVAR QALALARINDAN FƏRAR ETMƏSİNİN ZİKRİ

Xorasana yürüş qərarından sonra şah bir ayadək ləşkər toplanışından ötrü Qəzvin darüssəltənəsində gözlədi. Bir aydan sonra isə hümayun pişxanə şəhərdən çıxdı, Zülfüqar xan dörd min nəfərlik Azərbaycan ləşkəri ilə gəlib hümayun məiyyətə qoşuldu. Xorasan tərəfdən ard-ardınca adamlar gələrək belə xəbərlər gətirdilər ki, Əbdülmömin xan Əsfərayin qalasında mühasirədə qalanların işlərini pis hala salmışdır, əgər hümayun məiyyət bir neçə gün ərzində köməyə gəlməzsə, qalanın özbəklərin əlinə keçmə qorxusu vardır. Əlahəzrət zilləllah şah məcbur olub müzəffər əskərlərin toplanmalarını gözləmədən ali sarayda olan bir neçə əmir,

qorçi, qulam və başqa qələbə nişanlı əskərlərlə atının cilovunu Xorasana döndərdi və səltənət paytaxtından çıxdı. O, köç-köç gələrək Firuzkuh yaylağına çatdı. Orada Fərhad xan münəzzəm qoşunla gəlib hümayun məiyyətə qoşuldu. Şah Damğanın "Əli bulağı" yolu ilə Bəstam çəməninə yetişdi, həmin ürəkaçan meydanda dayandı. Müzəffər ləşkərin rəsmi-keçidi üçün Bəstam çəmənində üç gün qaldı. Hümayun məiyyətin qarşısında dayanan əskərlərin sayı iyirmi min nəfərə çatdı. Əbdülmömin xanın əvvəlki kimi cah-cəlallı şahın gəlişini eşidib fərar etməməsindən və tərəflərin qarşılaşmalarından ötrü xana məktub yazıldı. Məzmunu belədir: "O ali nəsilli xanzadə artıq bir neçə dəfədir ki, Xorasanı və o hüduddakı məmləkətləri tutmaq diləyi ilə gəlmişdir. O, rəiyyəti və əlsiz-ayaqsız adamları öz atlarının ayaqları altında əzmiş, qətl-qarətə başlamışdır. Hümayun ordu Xorasana gələn kimi o, qarşıya çıxmır, fərardan ar etmir və hərb etmədən çıxıb gedir. Bu il humayun şaha xəbər gəldi ki, o cənab özbək döyüşçüləri ilə Əsfərayinə gəlib oranın qalasını tutmağa yollanmışdır. Biz, onunla görüş arzusu ilə müzəffər əsgərlərin toplanışını gözləmədən, saraydakı azacıq adamla döyüş əzmi ilə gəlib Bəstama çatmışıq və kamkar xanla döyüş intizarındayıq. Mərdanəliyin qanun-qaydası belədir ki, ali nəsilli o xan bu dəfə fərarı özünə ar bilib qaçmasın, səbat ayağını yerə dirəsin, döyüş meydanına igidliklə qədəm bassın ki, İlahinin istəyi ilə nə olacaqsa-olsun, Allah bəndələri hər iki tərəfin gediş-gəlişlərindən dəyən ziyandan qurtulsun".

Məktubu çekəni tayfasından olan Qütbəddin ağa adlı bir şəxs apardı, onun ardınca isə döyüşkən hümayun ordu coşaraq hərəkətə gəldi. Onların qala ayağına çatmalarına yeddi mənzil qalmışdı ki, Əsfərayin hakiminə belə [əmr] çatdırdılar: "Qoy çalışıb qalanı yeddi gün də əldə saxlasınlar ki, biz gəlib çatmaqdayıq!".

Qütbəddin ağa Əbdülmömin xan ordusuna yetişib əmirlər vasitəsilə məktubu xana çatdırdı. [Məktubu oxuyan] xanın qeyrət atəşi şölələndi və boş-boş danışmağa başladı.

Amma, özbək qoşununa bərk təşviş və iztirab üz vermişdi, çünki onlara hələlik hümayun ordunun gəlişi xəbən gəlib-çatmadığından elə güman etdilər ki, məkrub saxtadır və bu iş sərhəddə olan Fərhad xanın hoqqasıdır, o, belə hərəkət etməklə ləşkəri qaladan uzaqdaşdırmaq istəyir. Özbəklər Qütbəddin ağanı yalan danışmaqda töhmətləndirib qətlə yetirdilər.

Amma, Əbdülmömin xan iztirab şəbəkəsinə düşüb tərəddüd etməkdəydi. [Düşünürdü ki,] əgər bu xəbər həqiqi olarsa gərək şahın qarşısına çıxıb döyüşsün, yaxud mühasirədən əl çəkib özünü bir guşəyə çəksin. Özbək əmirləri və atalıqları, xüsusilə Əbdülmömin xanın əzəmətli əmiri, dövlətin olduqca mötəbər və etibarlı adamı olan Şahməhəmməd İləçiyan ikinci yolu seçdi, çünki qorxurdu ki, Abdulla xanın yanındakı əmirlər buna etiraz edərlər, o isə qarşılaşmağa və hərb etməyə razı deyildi. Nəhayət, belə məsləhət gördülər ki, etibarlı bir adamı bu məsələni öyrənməkdən ötrü göndərsinlər, özləri isə əvvəl olduğu kimi qalanı əllərində saxlasınlar və xəbər [ətraflı] öyrəniləndən sonra vaxtın tələbinə görə hərəkət etsinlər. Əzəmətli əmirlərindən bir neçəsini, o cümlədən Məhəmmədqulu Durməni, Bədəxşan hakimi Canməhəmməd Qarovulu, Nisa və Əbivərd hakimi "Seyinc Türkman" adı ilə məşhur olan Sevinc Məhəmmədi üç yüz nəfər təcrübəli və döyüşkən bahadırla Bəstama tərəf göndərdilər ki, qızılbaş ordusunun yaxınlığına qədər gedib öyrənsinlər və düzgün (cəzm) xəbər gətirsinlər. Onlar özbək döyüşçülərini qalanın fəthinə rəğbətləndirərək, tam cidd-cəhdlə qalatutma ləvazimatı hazırlamağa başladılar. Qala əhalisi təşvişə düşdü. Şahın cah-cəlal ordusunun gəlişi və Bəstam çəmənində dayanması xəbəri Məhəmməd Sultana və mühasirədə olanlara gəlib çatdığı üçün bir nəfəri çölə göndərib, bir həftə möhlət istədilər ki, [qızılbaşlar] hərb etməkdən və top atmaqdan əl çəksinlər, qala əhli öz işlərini səhmana salsın və bir həftədən sonra çıxıb qalanı təhvil versinlər. Özbəklər bu təkliflə razılaşaraq günlərini sayırdılar.

Amma, müzəffər şah ordusu ləşkərə baxış (san) keçiriləndən üç gün sonra Bəstamdan çıxıb Cəngməğz yoluyla hərəkətə gəldi. Qərara aldılar ki, Fərhad xan və Zülfüqar xan müzəffər ləşkərin öncülləri kimi yarım fərsəx irəli getsinlər. Üçüncü gün hümayun şahın pişxanəsi Cacərmə çatdıqda fərraş şagirdləri çay kənarında onlara xeymə və otaq qurmaqla məşğul oldular. Xəbər tutmağa gələn özbək əmirləri gecə Cacərm çayının başında dayandılar, sübh oradan atlanıb ehtiyat üçün köhnə yolla getməyərək, dağın ətəyi ilə iki fərsəx irəliləmişdilər ki, [qızılbaş] qoşununun qaldırdığı tozanaq uzaqdan göründü. Onlar Cacərmə gəlmək üçün sıralanıb köhnə yolla gedirdilər. Geri dönən özbəklər artıq qurulmuş olan bir neçə xeymə və otaq gördülər. Özbəklər irəli göndərilən qızılbaşların önünə çıxıb, onların yeddi-səkkiz adamını

dil (zəbangiri) götürdülər. Geri qayıtmaqdaydılar ki, bəzi çərxçi əmirlərinin mülazimlərinin qalanın və bağların arxasından onları müşahidə etdiklərini gördülər. Bu mülazimlərin sayının çoxluğundan qorxmayıb hücuma keçdilər və qazilərlə cəngə başladılar. Qızılbaş ləşkərinin çərxçiləri saatbasaat dəstə-dəstə gəlib çatır, hərb meydanı daha da qızışırdı. Qızılbaş əskərlərinin get-gedə çoxaldığını görən özbəklər, daha orada qalmağı məsləhət bilməyərək, cəngdən aralanmağı qərara alıb istədilər ki, bu xətərdən özlərini qurtarsınlar. İrəlidə gələn qoşunla həmrah olan qızılbaş qaziləri və onların qulluqçuları ürəklənib hücüma keçdilər, onlann hər biri bir özbəklə əlbəyaxa oldu. Sözün qısası, özbəklər məğlubiyyətə uğradılar. Onlar tutmuş olduqları bir neçə nəfər ordu adamını əllərindən çıxardılar, çünki öz haylarına qaldıqları üçün onları öldürməyə imkan tapa bilməmişdilər. Səhrada çaxnaşmaya düşən özbəklər dağa tərəf üz tutdular. Qızılbaş ləşkərinin mübarizləri isə təqibdən qalmayıb, onların sərdarlarından Məhəmmədqulu Durməni və Sevinc Türkmanı diri halda əsir götürdülər. Bədəxşan hakimi Canməhəmməd Qarovul "Tərakəmə şallağı" ("Tərakəmə sollağ") adıyla məşhur olan Ulıtq xanın əliylə tutulub qətl olundu. Döyüşdə özbəklərin əksəriyyəti öldürüldü, osirbri isə hümayun orduya gətirib, baş verənləri ərz etdilər. Belə vəziyyətin fəth və zəfərin başlanğıcı olduğunu bilən kamyab nəvvab ali orduya gələrək, əsirlərin birini elə həmin gecə azad etdi, qarovulların əllərindən sağ-salamat qurtulmaq üçün ona bir adam da qoşdular ki, Əsfərayinə gedib, Əbdülmömin xana iqbal ordusunun gəlişini və onlarla döyüşə amadə olmasını bildirsinlər. Həmin gecə oradan çıxaraq, səkkiz fərsəx yol olan Səthu kəndinə qədər getdilər. Belə qərara gəldilər ki, Əsfərayinlə dörd fərsəxlik yol olan Eyrə və Fərimana çatsınlar, üçüncü günün sabahı isə özbək döyüşüləri ilə döyüşmək üçün atlara süvar olsunlar, qeyb qüvvələrinin köməyi ilə Əsfərayinə çataraq, iqbal gücüylə döyüş səfi bəzəsinlər. Eyrə və Fərimanda müzəffər ordunun çadırları quruldu.

Əbdülmömin xanın fərar etməsi:

Onlar gecə yarısınadək cəngin təşkili barədə düşünüb-daşındılar, iqbal ordusunun mülazimlərinə at və silah payladılar. Özbəklərin mühasirə etdikləri qalada olan Mirzə Məhəmməd Sultan Bayat qızılbaş qoşunları ilə birlikdə həmin gecə hümayun orduya

gəlib-çatdı, şahın ayağını öpməklə şərəfləndi. O, özbəklərin fərar xəbərini çatdırdı, baş verənlərdən belə danışdı: Cacərm meydanından qaçan bir neçə nəfər adam piyada halda dağlara gedərək, çılpaq və ayaqları qabarlı vəziyyətdə orduya çatdılar, ləşkərin məğlubiyyəti və əmirlərin əsir tutulduqları xəbərini Əbdülmömin xana çatdırdıldar. Ləşkər əyanları [bunu bilib] bir-birilərinə dəydilər, onların arasına bərk çaxnaşma düşdü. Verilən möhlət vaxtından altı gün keçmişdi ki, Şahməhəmməd İləçiyan ata süvar olub qala ayağına gəldi və Mirzə Məhəmməd Sultanın yanına adam yollayaraq, qalanın təhvil veriləcəyi möhlətin sabah bitəcəyini bildirdi, dedi: "Yaxşısı budur ki, qalanı bir gün də əvvəl təhvil verək ki, padşahın inayətinə layiq görülək". Mirzə Məhəmməd Sultan dedi: "Ümidvarıq ki, sabah müzəffər şah ordusunun günəşi bu vilayəin üfüqündən tülu edəcəkdir. Əgər nəvvab xan burada qalarsa, biz vədimizə vəfa edib qalanı verərik". Özbəklər anladılar ki, Mirzə Məhəmməd Sultan qızılbaş padşahının buraya gələcəyi gün üçün yeddi gün möhlət qoymuşdu. [Buna görə də] qalanın fəthinə məyus olub, məsələni Əbdülmömin xana ərz etdilər: "Ləngimədən çıxıb getmək lazımdır". Elə həmin gün çıxıb Radkan yoluyla müqəddəs Məşhədə gəldilər.

Ertəsi gün zəfər ayəli şahın ordusu gələrək qalaya çatdı, orada dayandı. Bəzi tədbirli adamlar belə məsləhət gördülər: "Əbdülmömin xanı təqib edib müqəddəs Məşhədə getmək lazımdır, çünki, əgər onun qüvvəti olsaydı Əsfərayində qarşıya çıxardı. Məlumdur ki, o, yenə də bizimlə qarşılaşmadan çıxıb gedəcəkdir. Ehtimal edirik ki, özbəklərin müqəddəs Məşhəddə qaladarlıq etmək gücləri yoxdur, orada [da] dayana bilməyib gedəcəklər, müqəddəs Məşhədin fəthi bizə nəsib olacaqdır".

Bu fikrin əleyhinə olan Fərhad xan iki səbəbə görə bu məsələni məsləhət bilmirdi. O, dedi: "Biri budur ki, bu yürüşdən mətləb Əsfərayində mühasirədə qalanların xilas olunmaları idi ki, bu iş yerinə yetirildi, özbəklər böyük məğlubiyyətə uğradılar, onların əzəmətli əmirləri əsir düşdülər, padşahları isə bədnamlıqla qaçdı. Gərək bir neçə gün burada gözləyərək bu vilayətin işlərini yoluna qoyaq və sonra geri qayıdaq. İkincisi isə budur ki, qarşıdan çıxıb getməyin din və dövlətə nöqsan gətirən başqa görüntüsü ola bilər. Fərz edək ki, Əbdülmömin xan Məşhədi boşaldıb oradan fərar etdi. [O, belə olan halda] bizə abadan bir şəhər verməyəcəkdir. Çünki, Məşhəddə çoxlu qətl və qarətkarlıq törədəcək, bizim olmamağımıza

görə müqəddəs Məşhəd şiələri cürbəcür əzab-əziyyətə düçar olacaqlar. Amma, getməyimizdən dinə və dövlətə heç bir nöqsan yetişməyəcəkdir".

Bu haqda hərə öz fikrini bildirirdi. Nəhayət, Fərhad xanın fikrinə əməl olundu, təqibdən əl çəkdilər, bir neçə gün Əsfərayində gözləyib, o vilayət işlərinin tənzimlənməsi ilə məşğul oldular. Mirzə Məhəmməd Sultan və bayat tayfası mühasirə əziyyəti çəkdiklərindən və qaladarlıq səriştəsinə malik olmadıqlarından [şah] Əsfərayin hakimliyini Budaq xan Çekəniyə verdi, həmin yerin işlərini onun öhdəsinə qoydu. Orada, qalanın möhkəmləndirilməsi və xandaq qazılması üçün çalışıb, şəhərin nizam-intizama gətirilməsinə on gün vaxt sərf etdikdən sonra, çıxıb getdilər. Hümayun orduda olan Xarəzm padşahı Hacı Məhəmməd istədi ki, Astrabadda yerləşən və özünə mənsub olan türkman sayinxani eli (il) içərisinə gedib, onlardan kömək alsın və özünü öz ülkasına çatdırsın. Əlahəzrət isə bilirdi ki, Abdulla xanın işğalı və iqtidarına baxmayaraq, onun istəyi yerinə yetməyəcəkdir, çünki hələlik onun getmək vaxtı gəlib-yetişməmişdir. Amma, Hacı Məhəmmədin bu məsələdə təkid etməsinə görə razılıq verib, onu mürəxxəs etdi, imkan daxilində mümkün olan hər cür şahanə silahda ona verdi. Hacı Məhəmməd oğlu Ərəb Məhəmməd Sultan və Babacanla birlikdə yola rəvan oldu. Onun gedişi və yenidən ali saraya geri qayıdışı haqqında gələn ilin hadisələrində yazılacaqdır.

Əlixan Gəraylı bu yürüşdən yayınıb hümayun məiyyətə qoşulmadığı üçün şahın qərarı belə oldu ki, gəraylı [eli] içərisinə getsin, əgər Əlixan sədaqət iddiası edib üzr istəsə, onu özü ilə götürsün, Astrabada getsin, neçə vaxtdan bəri qızılbaşların əlindən çıxan, sayinxani və qara geyimli Aymurd (Aymurd (?) - Ş.F.) (Aymurde-siyahpuş) tayfalarına bölünən o vilayətin işlərini tənzimləsin, yox, əgər Əlixandan üsyan və tüğyan əlaməti görünərsə, əvvəlcə, onu dəf etməkdən ötrü Astrabada yollansın.

Şah bu məqsədlə Əsfərayindən çıxdı. Bəhryan çölü (Dəşte-Bəhryan) ordunun məkanına çevriləndə qərara alındı ki, əzəmətli əmirlər öz ağruqlarını və yüngül-ağır şeylərini, əllərində zəif (zəbun) atlar olan əsgərlərə verib, onları İraqa tərəf yollasınlar, işə yararlı subay (cəride və subay) adamlar isə humayun orduda qalsınlar. Elə bu yerdə gəraylı ağsaqqalları ali taxt ayağına, gələrək dedilər ki, Əlixan qala ayağındadır, gəlməyə cürəti yoxdur və üzrxahlıq edir. Hüseyn xan şamlı tayfası ilə Payhəsar qalasının

fəthinə yollanıldı. Şahın zavalsız iqbal gücü ilə Payhəsar qalası Hüseyn xan tərəfindən alındı, Əlixan isə Ruğd qalasına qaçdı. Şah istəyirdi ki, bu qalanın üstünə də adam yollayıb Əlixanı tutsun, onun işini tamamilə bitirib Astrabada getsin. Elə bu əsnada Əbdülmömin xanın Səbzvara tərəf gəlişi və oranın qalasını mühasirəyə alma xəbəri gəlib çatdı.

Əbdülmömin xanın Səbzvara gəlişi:

Əsgərlərin çoxu rüxsət alıb İraqa tərəf getdiklərindən, şahın ordusunda az adam qalmışdı. Bu da məlum idi ki, Əbdülmömin xana Bəlxdən və Mavərənnəhrdən kömək gəlmiş və o, təzə ləşkər hazırlayıb cürətə gəlmişdir.

Rəy və tədbir sahiblərinin bir hissəsi qızılbaş ləşkərinin dağınıq olmasına və Əbdülmömin xanın qüvvət və qüdrətinə görə hümayun ordunun Səbzvara yürüşünü məsləhət bilmirdi. Bu vaxt xəbər çatdı ki, Əbdülmömin xan Səbzvar şəhərini tutmuş və orada qətliam törətmişdir. Şəhərin hakimi Mirzə Məhəmməd Mömin Sultan qalaya sığınmışdır, amma onun qaladarlıq istedadı yoxdur, özbəklər isə qalanı mühasirəyə alıb, onun fəthi üçün çalışırlar və qala tezliklə alınacaqdır.

Əlahəzrət Gəraylı hakimliyinin bir yarısını Mənsur xan Gəraylıya, o biri yarısını isə Təvəkkül xana verib Əlixanın fitnəkarlığının dəf olunmasını onların öhdəsinə qoydu. O, qazi və bir neçə nəfər gəraylı əyanını müqəddəs ordunun mülazimi edərək, Səbzvara getməyi və o qaladakı mühasirəyə düşənləri xilas etməyi qərara aldı, yanında olub-qalan adamlarla birlikdə "Allaha təvəkkül"[595] deyib müzəffər bayrağını o səmtə tərəf dalğalandırdı ki, qoy Allahın təqdiri nə isə o da yerinə yetsin. Əsfərayin qalasından qaçan, Müqəddəs Məşhəd yaxınlığına gedən, [sonra] Bəlxə yollanan Əbdülmömin xan eşitdi ki, əlahəzrət məhz Məşhəd sakinlərinin dinc olmaları xatirinə onun təqibindən vaz keçmiş və Astrabada tərəf getmişdir. Əbdülmömin xan özünü fərar arından xilas etmək istəyirdi. O, [həm də] bilirdi ki, Əsfərayin qalası yaxşıca möhkəmləndirilmiş, təcrübəli adamlara tapşırılmış, oraya ehtiyat azuqə və silah toplanmışdır. Anladı ki, hal-hazırda o qalaya hücuma keçmək məsləhət deyildir. [Həm də] Musa Mirzə və

[595] İfadənin ərəbcəsi: "mutəvəkkilən alə-l-ləhi.

yoldaşlarının tutulmaları vaxtı Səbzvar əhalisində olan fitri təşəyyö istəyi və cürətini o, unuda bilmirdi. Səbzvarın özbək əyanlarından birinə çevrilmiş və Əbdülmömin xanın xidmətinə keçmiş Mir Məhəmməd Kəskəninin oğlu Mir Əli Əsgərin Səbzvar hakimi Məhəmməd Mömin Sultan və Mir Şəmsəddin Əli Sultanın övladları ilə irsi ədavəti olduğundan o, Əbdülmömin xanı Səbzvarın fəthinə təhrik etdi.

Artıq əlahəzrətin Astrabad hüduduna yürüş etməsi məlum olmuşdu. Əlahəzrətin bir daha Xorasana qayıtmasına Əbdülmömin xanın gümanı yox idi. O, Səbzvara yürüşə keçdi. Adı yuxarıda çəkilən Mir Əli Əsgər çərxçi olub Səbzvar üzərinə yollandı və qəflətən şəhər xaricində göründü, hər tərəfdən şeypur çaldıraraq hücuma başladı.

Əbdülmömin xanın Səbzvar əhalisini qətli-am etməsi:

Yürüşdən xəbərsiz olan səbzvarlılar təşvişə düşmüşdülər və müdafiə oluna bilmədilər. Mirzə Məhəmməd Mömin Sultan bir dəstə əyan və yüz həyacan ilə özünü qalaya saldı, qalanı və öz əhli-əyalını qorumağa başladı, şəhərdən əl çəkməli oldu. Şəhəri tutan özbəklər əhalinin üstünə tökülüşdülər. Allahdan bixəbər olan o tayfa, müsəlmanları qırmağa başladı. Əbdülmömin xan öz fərarının və arının əvəzini Səbzvarın fəqir və zəif adamlarının qətlində gördü, şəhəri qətli-ama məruz qoydu. O, hətta südəmər uşaqları öldürməkdən də əl çəkmədi. Bu sətirlərin müəllifi hümayun şah məiyyətinin tərkibində həmin şəhərə gəlib-yetişdi. Gördü ki, südəmər balaları anaları ilə birlikdə qətlə yetirib iki hissəyə bölmüşdülər. Əbdülmömin xan şəhəri qətli-am və tarac etdikdən sonra qalanı tutmağa yollandı, onun fəthindən ötrü bərk cidd-cəhd etdi. O, əmirlərin birini üç-dörd min qaniçən özbəklə Sədəxrəv (?) qalası üzərinə yolladı. İgid, mərdanə və bu dövlətin tərəfdarı olan Xacə Məhəmməd Sədəxrəvi isə üzünə müqavimət qalxanı tutaraq, qalasını mərdliklə müdafiə etməyə başladı və bu vəziyyəti bildirməkdən ötrü ali saraya adam göndərdi.

Şah Abbasın qorxusundan Əbdülmömin xanın fərar etməsi:

Xülasə, özbəklər vuruşmaqda idilər ki, başı fələyə uclan hümayun çətir qələbə və iqballa Səbzvar diyarı üzərinə gəliş kölgəsi

saldı. Məsud şah məiyyətinin gəlişi xəbəri Sədəxrəvdə olan özbəklərə yetişdikdə onların səbat ayaqları sustaldı və əsməyə başladı, orada dayana bilməyərək, Əbdülmömin xana qoşuldular. Humayun məiyyət Azad və Əzfərivməd (?) kəndlərinə çatdıqda, Əbdülmömin xan bu dəfə də fərar arından çəkinmədi, əvvəllər etdiyi kimi qayıdış təbilini çaldı, Şah Məhəmməd İləçiyam Nişapur qalasına göndərdi ki, gedib oranı qorusun, özu isə Təbriz yoluyla Bəlxə tərəf yollandı, heç yanda bir an da dayanmadı, sürətlə aradan çıxdı. Səbzvar şəhərinə gələn qalibiyyətli ordu Səbzvar əhalisinin sağ qalan adamlarının qayğısına qaldı, öldürülələrin dəfni ilə məşğul oldu, o məzlum adamların intiqamını almağı həqiqi intiqamçıya (Allaha - Ş.F.) həvalə etdi ki, bu haqda öz məqamında məlumat veriləcəkdir. Əbdülmömin xan həyatdan ləzzət ala bilmədi.

Sözün qısası, əlahəzrət o şəhərin hakimliyini təcrübəli və qaladar adam olan, özbəklərə müqavimət göstərib Estena qalasını qoruyan o qalanın hakimi Budaq Sultan Qacara verdi. Oradan hərəkət edib Nişapura tərəf getdi.

Şah Abbas Qəzvinə qayıdışı:

[Əlahəzrət] Nişapura məxsus Bəhrabad yaxınlığında dayandı. Orada məlum oldu ki, Əbdülmömin xan çıxıb getmişdir. Onu təqib etməyin mənası olmadığından və qışın yaxınlaşması səbəbindən, həmçinin şaxtanın şiddəti, azuqənin isə yoxluğuna görə Xorasanda qalmaq və Nişapur qalasını mühasirəyə almaq məsləhət görülmədi. [Buna görə də] əlahəzrət geri qayıtmağı qərara aldı, Astrabadın intiqamını almağı gələcək vaxta saxladı, qayıdış cilovunu İraq səmtinə yönəltdi.

At yeminin qıtlığı və azuqənin çatışmazlığına görə bu səfər zamanı çoxlu at, qatır və dəvə tələf olmuşdu. Cah-cəlal ordusu zəfər və iqlal ilə Qəzvin darüssəltənəsinə qayıtdı və ona etdiyi yaxşılıqlara (məhamed) görə İlahiyə dualar etdi.

ZÜLFÜQAR XANIN ELÇİ SİFƏTİLƏ RUMA GÖNDƏRİLMƏSİ VƏ O DİYARIN VƏZİYYƏTİNİN ZİKRİ

Cah-cəlal ordusunun yürüşündən əvvəl [şah] Lahican hakimi Dərviş Məhəmməd xan Rumlunu Ruma elçi təyin edib, mərhum Sultan Murad xanın təziyəsi və oğlu Sultan Məhəmməd

xanın cülusu münasibətilə sədaqət məzmunlu məktub, habelə layiqli töhfə və hədiyyələr də hazırlamışdı. Dərviş Məhəmməd xan hələ həmin səfərə yollanmamışdı ki, əlahəzrət şah məcbur olub Xorasan səfərinə yollandı və buna görə də Dərvişin səfəri təxirə salındı.

Zülfüqar xanın Rum eliçiliyinə getməsi:

Xeyirli Xorasan səfərindən geri qayıdıb bu ədəbi səltənətin paytaxtı Qəzvinə çatdığı vaxt şah Ruma elçi rəvan etmək fikrinə düşdü. Fərhad xan iltimas edib dedi: "Cənnətməkan şahın hakimiyyəti vaxtı elçilik xidməti sərhəd bəylərbəyinə tapşırıldığı üçün, indi həmin qaydaya əməl edib bu vəzifəni [mənim qardaşım] Zülfuqar xana vermək lazımdır". Şah, Fərhad xanın xahişinə görə, bu xidməti Zülfüqar xana tapşırdı və xan tam hazırlıqla Ruma yollandı, həqiqətən də öz vəzifəsini ləyaqətlə yerinə yetirdi.

Zülfüqar xan ləşkərin ən seçilmiş adamlarından olan üç yüz mülazimini təmtəraqla bəzəyib özü ilə apardı və həmin səfərdə çox məsələni [lazımi kimi] başa çatdırdı. Belə ki, rumiyyənin bəzi alçaq xislətli adamları xanı səfehlik və israfda günahlandırsalar da, Rum padşahı, vəzirlər və paşalar xana cənnətməkan şahın vaxtında olduğundan da böyük ehtiramla yanaşmışdılar. Bu il Avropa [ölkələri] (firəngiyye) hücüm edib saysız-hesabsız ləşkərlə Rum məmləkətlərinə qoşun çəkdilər, Sultan Murad xanın hakimiyyəti zamanı [osmanlıların] avropalılardan aldıqları qala və başqa yerləri geri almaq istədilər. Sultan Məhəmməd xan özü şəxsən onlara qarşı yollandı. Zülfüqar xan İstanbula çatdıqda xandgar həmin səfərdəydi. [Buna görə də, Zülfüqar xan] Sultan Muradın gəlişinədək İstanbulda gözlədi.

Sözün qısası, onunla (Sultan Məhəmməd xanla - Ş.F.) Avropa sultanları arasında qarşılaşma oldu. Əvvəlcə, rumilər məğlub edildilər. Firənglər əzəmətli orduya qarşı dəstə-dəstə hücuma keçib qarətkarlıqla məşğul olurdular. İsa Peyğəmbər əleyhüssalam millətinin başçısı (xəlife) və Avropa padşahlarının itaət etdikləri (mota) şəxs olan Roma (Rim) papasının adamları ilə macar padşahı arasında xandgarın xəzinəsi üstündə savaş başladı, çünki onların hər biri özünü həmin xəzinənin sahibi hesab edir, onu öz haqqı bilirdi. Bu vaxt İlahinin inayət nəsimi islam qoşunu üzərində əsməyə başladı, kafirlərin küfr və zülm bayraqları yerə endi. Rum ordusunun süvari üzvləri hücuma keçib, dəyənək

(mətraq) və çomaqlarla o qəddarları (ərbabe-şeqaq) qovub qələbə çaldılar, o qarabəxtlərin çoxu o biri dünyaya yollandı. Firəng padşahları əzildilər və onların cəmiyyətləri parçalandı, hər tayfaları öz vilayətlərinə çəkildilər. Sultan Məhəmməd xan zəfərlə İstanbula qayıtdı və Zülfuqar xan, padşahla görüşdü. Həzrət xandgar o qələbə barədə əlahəzrətə məktub yazaraq, onu hələ Zülfüqar xanın [İstanbula] gəlişindən əvvəl göndərmiş, bu tərəfdən də sultana dostluq və məhəbbət [hissləri ilə] dolu məktub yola salınmışdı. Zülfüqar xana izzət və ehtiram göstərildi və o, layiqli töhfə və hədiyyələrlə geri döndü, gələn il [Qəzvinə] çatdı, xandgar tərəfindən əlahəzrətə məhəbbət üslublu və ədəbli müraciətlərlə dolu sözlərlə yazılan məktubu, həmçinin töhfə və hədiyyələri təqdim etdi.

LAHİCAN GİLANININ BİR DƏSTƏ FİTNƏKARININ DÜŞMƏNÇİLİKLƏRİN, HƏMZƏNİN ÜZƏ ÇIXMASI, ZAMANIN TƏLƏBİNƏ GÖRƏ ONUN VƏ BƏZİ DÜŞMƏNLƏRİN QƏTLƏ YETİRİLMƏLƏRİNİN ZİKRİ

Bu ilin hadisələrindən biri də budur ki, Gilan cahilləri onlara xas fikir süstlüyü, ağıl zəifliyi və fitnəkarlıqları səbəbindən özlərini məhvə doğru sürüklədilər. Bu hadisənin təfərrüatı belə olmuşdur: Zəfər ayəli ordu Xorasana yollanıb Əbdülmömin xanın dəf olunması ilə məşğul olan vaxt, keçən il bu dövlətdən üz çevirmiş, üsyana qalxmış və fərar etmiş Kəcur hakimi Məlik Cahangir xan bir dəstə alçaq təbiətli rüstəmdarlılarla birlikdə Tənkabon hüduduna gələrək acizlərə və rəiyyətlərə qarşı əliuzunluluq etməkdə idilər. Lahican hakimi Dərviş Məhəmməd xan onun fitnəsini dəf etmək üçün qoşun bəzəyib Rüstəmdara rəvan oldu. Gəpək qəbiləsindən və Mir Abbasın qohumlarından olan Həmzə adlı birisi, əlahəzrətin bir neçə gün səltənət paytaxtında olmamasından istifadə etdi. Xorasandan zidiyyətli xəbərlər gəlməkdəydi. Gilanın paytaxtı olan Lahican hakimsiz qalmışdı. Həmzə iki günlük hakimiyyəti qənimət bilib, işin gerisinə göz yumdu, özünü Sultan Həmzə adlandırdı, üsyandan dəm vurmağa başladı. Ləştəneşanın bir dəstə aqibətsiz adamı da onunla birləşdi və Lahicana gəldilər. O vilayətin böyük kəndlərindən olan Simaastanə və Kəmaçalın fitnəkar və aqibətsiz adamları da Həmzə ilə həmrah olub, qəflətən şəhərə girdilər. Onlar əvvəlcə karvansaraların üstünə tökülüşüb tacirlərin və ətraf yerlərin, həmçinin Dərviş Məhəmməd

xan mülazimlərinin mallarını qarət etdilər və Lahicanda çoxlu dağıntı törətdilər. [Sonra] onların hamısı birlikdə qalaya yaxınlaşıb, onun fəthindən ötrü oranı mühasirəyə aldılar. Dərviş Məhəmməd xanın mülazimlərindən onun evini və qohum-qardaşını qorumaqdan ötrü orada qalmış bir dəstə adam çaş-baş olub, qala qapılarını bağladılar və onlara müqavimət göstərməyə başladılar, bu xəbəri çatdırmaqdan ötrü iti sürətli bir qasidi Tənkabona göndərdilər. Lahican qalasının mühasirədə olduğu neçə gün ərzində qala əhalisi, qaladarlıqda təcrübəsiz olmalarına baxmayaraq, müdafiə olunmağa və onlara qarşı çıxmağa başlayıb, müxaliflərin qalaya girmələrinə yol vermədilər. Düşmənlər isə, qaladakıların təcrübəsizliyindən xəbərdar olub, tam cidd-cəhdlə qalanı tutmağa çalışırdılar.

Amma, bu xəbər Biyəpəsə çatdıqda xasseye-şərifə qulamlarından Rəşt daruğəsi olan Xosrov həy Çəharyar və Fumən hakimi Uğurlu Sultan Çəyəni (?) oranın bir dəstə adamı ilə hücumla Lahicana gəldilər, tərəflər arasında güclü cəng oldu. Qüdrətli dövlətin qüvvəti ilə düşmənlər əzildilər və Həmzə bəy bir dəstə adamla qətlə yetirildi, qalan adamları isə dağılışdılar. Rüstəmdar hüdudunda olan Dərviş Məhəmməd xan bu xəbəri eşidib hücumla Lahicana gəldi. Hələ onun gəlişindən iki gün əvvəl Həmzənin işi bitdiyindən, o, qalan düşmənləri axtarmağa başladı, həmin tayfanın ələ keçirdiyi hər bir adamını ədəm yoluna yolladı. Məktub yazaraq ulduzu nəhs olan Həmzənin başını, bu xəbəri bildirməkdən ötrü, iqbal ordusuna göndərdi. Cah-cəlal ordusu Savucbulağa çatdığı vaxt baş da gəlib çatdı. Bu işi yerinə yetirmiş olan Xosrov bəy Çəharyar "əhsən" və "afərin"ə layıq görüldü. Allah göstərişindən bir nümunə olan padşahın qəzəb atəşi üsyan və qovğa məhəli olan Ləştəneşanın fitnəkar adamlarına qarşı alovlandı və o, qətli-am hökmü verdi.

Dərviş Məhəmməd xan hökmə əməl edib Ləştəneşaya yollandı, rumlu tayfası orada qətl və qarətə əl uzatdı, çoxlu günahsız adam günahkarların oduna yandı. Allahtanıyan və düşüncəli adam olan Dərviş Məhəmməd xan [bu barədə] çox düşündü, çünki o, çoxlu adamın qətlə yetirilməsini istəmirdi. Amma, həmin hadisə münasibətilə bir çox adam öldürüldü, amma bundan sonra o tayfadan heç kəs üsyn və tüğyana ürək etmədi.

XALİQİN TƏQDİRİ İLƏ BU İL BAŞ VERMİŞ MÜXTƏLİF HADİSƏLƏR

Həmzənin fitnəkarlıq atəşinin yatırılması və Ləstəneşanın qətli-amından sonra o vilayətin idarə olunması Fümən hakimi Uğurlu Sultan Çəgəniyə verildi, bütün Biyəpəs ülkası isə Fərhad xana şəfqət olundu, Şiraz ülkası ondan geri alındı və bütün Fars vilayəti Allahverdi xan Qullarağasıya* tapşırıldı, Farsın bütün divan müamiləri onun öhdəsinə qoyuldu. Qərara alındı ki, o, hər il xasseye-şərifə qulamlarından üç yüz nəfərini Farsa aparıb, onları hər bir vilayətin xidmətlərində saxlasın, əldə olunan mənfəət isə silah və yasaq ləvazimatı xərclərinə yönəlsin.

Bu il Nəhavəndə məxsus Səd Vəqqas əhalisi rumilərə qarşı çıxıb, onların Səd Vəqqasda inşa etdikləri qalanı ələ keçirdi, sonra isə onu dağıtdı. O vilayətin lur və kürdlərindən ibarət başıpozuq adamları onlarla birləşərək Nəhavənd qalası üzərinə gəldilər. Nəhavənd qalasının mühafizəçiləri şahın yanına bir adam yollayıb, bu xəbəri ona çatdırdılar. O vaxt Həmədan hakimi olan Həsənəli xan Çegəninin bu işin baiskarı olduğunu bildrib, ondan şikayətləndilər.

Əlahəzrət zilləllah şah sülh şəraiti və əhd-peyman qaydasına əməl edərək qorçilər göndərdi və həmin adamları cəzalandırdı, fitnəkarların bir neçəsini qətlə yetirib onların başlarını Bağdada yolladılar, Həsənəli xan isə Həmədan əyalətindən çıxarıldı.

Başqa hadisə isə belə olmuşdur: Abdulla xanın tərbiyətləndirdiyi və onun fədəvilərindən biri olan Herat hakimi Mir Qulbaba Kukəltaş ya öz fikri, yaxud da o xanın işarəsi ilə əlahəzrətlə yaxşı münasibət və dostluqda oldu. O, öz etibarlı elçilərini layiqli töhfə və hədiyyələrlə ali saraya göndərib, sədaqət izharı etdikdən sonra şaha bildirdi: "Tərəflərimiz arasındakı düşmənçilik və cəng üzündən Mavərənnəhr camaatı möhtərəm ziyarətgahları ziyarət etməkdən məhrumdurlar, qorxudan Hicaz yoluna sədd olan İran vilayətindən keçib Həcc beytüllahül-həramına gedə bilmirlər". Qulbaba şahdan belə xahiş etdi: "Həccə getmək istəyən özbək tayfasına və Mavənnəhr əhalisinə qoy izn verilsin ki, onlar qorxusuz-hürküsüz oraya gedib-gəlsinlər, bunun savabı, əlbəttə, böyük olar". Elçilər Qəzvin darüssəltənəsinə gəlib şah ilə görüş səadətinə yetdilər, onunla görüşdülər, ənam və ehsanlarla geri qayıtdılar. [Şah] İslam bəy Yüzbaşı Şamlını onlarla birlikdə Herata göndərdi, Mir Qulbaba Kukəltaşa inayət və iltifatla dolu bir məktub

yazıb, Mavərənnəhr Özbəklərinin Həccə gctmələri üçün icazə xüsusunda hökm sadir etdi.

Bu ilin başqa bir hadisəsi isə budur: Əcəm [ölkələrində] məşhur olan şirin sözlü şair Mövlana Şəni səadətinin çoxluğu və etiqadının təmizliyinə görə şah məclisinin nədim və məclis adamları arasında qədir-qiymətli adam idi. O həzrət İmam Əlinin (həzrət vəlayətpənah) mədhi xüsusunda bir neçə beytdən idarət bir məsnəvi yazdı. Məsnəvinin

Şer

Əgər düşmən verə badə, ya da dost,
Onun mərdanə qaşları çatdmaz.[596]

Beytinə çatdıqda şahın müqəddəs məzacı duruldu, belə [gözəl] bir məddahlıq və beytin məzmunu onun alovlu (vəqqad) təbini coşdurdu, mövlanaya qarşı şahın xislət bəhrinin alicənablığı (hemət) dalğalandı, əmr etdi ki, tərəzinin bir gözünə çoxlu zər, o biri gözünə isə mövlananı qoyub həmin miqdar pul bu beytə görə ona əta olunsun. Bu hadisədən dövrün başqa şairləri də ümidvar olub, onların hamısı cahan şəhriyarını bu məzmunda şerlə mədh etməyə başladılar:

Beyt

Yol torpağına bərabərdi bir şair,
Qaldırdın onu, zərə bərabər elədin.[597]

Amma, şair tayfası kin [həqd] və həsəd sahiblərinin ən üstünü olduğu üçün, [Mövlana Şəninin] bu yüksək mükafata layiq görülməsinə görə, başqa şairlərin ürəklərində ona kin yarandı. Bu məsələ uzun müddət nifaq məclislərində söhbət mövzusu oldu. Zarafatcıl (həzzal) və şirin kəlam bir adam olan və məzhəkə tərzində

[596] Beytin farscası:
Əgər doşmən keşəd sağər və gər dust
Be taqe-əbruye-mərdaneye-ust.
[597] Beytin farscası:
Şaer ke bexake-rəh bərabər şode bud,
Bərdaşti-yo be zər bərabər kərdi.

zarafatyana şerlər yazan Mövlana Həsən Vəhməddin Qum vəziri üçün yazdığı bir qitəsinin bir beytində belə demişdir:

Şer

Həsəne-Vəhme-din, bu müflis kəs,
Şahı da zərlə öldürər, Şəni.[598]

Amma, [əlbəttə] onun bu şeri padşaha ərz olunmadı.

İri bədənli və uca boylu adam olan Mövlana Əczi Təbrizi qəzəl deməkdə özünü bənzərsiz şair sayırdı. O, iki-üç aşiqanə beyt yazıb, Mövlana Əli Rza Xosnevisin vasitəsilə bir neçə gün hümayun məclisə ayaq açdı. O, zarafatla, lakin ədəbsiz sözlərlə (gostaxane) yazdığı misralarını ürək edib məclisdə oxuyurdu. Buna görə də, [mövlana] izzət büsatından uzaqlaşdırıldı və şah məclisinə gəlmək səadətindən məhrum oldu. Bir gün Qəzvin tövləsi meydanında Mövlana Şəniyə zər verilməsi barədə söhbət düşdü. Mövlana Əczi ədəbsizcəsinə dedi: "Niyə elə padşah iltifatı mənə nəsib olmur?". Əlahəzrət zilləllah şah zarafatla (motayebe) buyurdu: "Biz tövlədə olduğumuz üçün, əgər məsləhət görülsə sizi peyinlə (sərgin) mükafatlandırarıq". Müqəddəs məclisdə olanlar gülüşdülər və bu mükalimə uzun müddət dillər əzbəri oldu. Söz düzəldən şairlər və hazırcavab (noktepərdaz) zarafatcıl adamlar bu söhbəti bəzəyərək məclislərdə hallandırdılar, bundan sonra Mövlana Şənidən əl çəkildi və Mövlana Əczidən danışmağa başladılar.

İSGƏNDƏR ŞANLI NƏVVABIN BAŞINA GƏLƏN QAÇILMAZ HADİSƏNİN ZİKRİ

Bu il, hümayun yürüş Əsfərayinə tərəf başladıqda hümayun Qəzvin dövlətxanasında İsgəndər şanlı nəvvab xəstələndi və xəstəlik ishala səbəb oldu. Əcəl gəlib yetişdiyi üçün təbiblərin (hokəma) müalicələrinin faydası olmadı və o, mərhəmətli (ğəfur) Allahın rəhmətinə qovuşdu, təzimə layiq pak İmamzadə Hüseyn astanasında dəfn olundu. Oradansa onun vücudu ətəbate-aliyyata, yəni

[598] Beytin farscası:
Həsəne-Vəhme-din, çenin mofles
Padşəh mikoşəd bezər, Şəni.

müqəddəs şəxslərin məzargahına [İraqda yerləşən imamların məzarlarının yanına -Ş.F.] aparıldı. Biz Allaha məxsusuq və ona da qayıdacağıq.[599]

Şer

Yüz il də yaşasan, bircə gün də şən,
Bu xoş mülkdən gərək çıxıb gedəsən.[600]

O ali moqamlı padşahın layiqli vəsfi barədə birinci dəftərdə bir qədər yazıldığı üçün bu məqamda ənbər qoxyan qələm sözdən qaldı.

HİCRİ TARİXLƏ TÜRKİCƏ MEYMUN İLİNİN - MİN BEŞİNCİ İLİN (MİLADİ 1596/97), ƏLAHƏZRƏT HÜMAYUN ŞAHIN SƏADƏTLİ CÜLUSUNUN HÜMAYUN FALLI ONUNCU İLİNİN BAŞLANMASI

Bu il də oldu novruz ərzə sultan,
Ətirləndi çəmən gül çoxluğundan.
Bahar naz ilə bir də gəldi-yetdi,
Qışın zülmü yenə yan oldu-getdi.
Bu il də tapdı bağ-bostan təravət
Və gülləndi, çiçəkləndi təbiət.[601]

Bu xoşbəxt ilin aləmi bəzəyən novruzu rəcəb ayının iyirmi birinə (10 mart), düşənbə gününə təsadüf etdi, ürəkaçan bahar qocalan və cavanları sevindirdi, təzə gəlinlər gəzintiyə çıxdılar, işrət və şadkamlıq məclislərini bəzədilər. Ətirli güllərin (rəyahin)

---

[599] İfadənin ərəbcəsi: "innənə li-l-ləhi və innənə ileyhi raciunə".
[600] Beytin farscası:
Əgər səd sal mani və-z yeki ruz,
Bebayəd rəft əz in kaxe-deləfruz.
[601] Beytlərin farscası:
Ço şod novruz soltane-gitiaray,
Çəmən şod əz rəyahin ənbərasay.
Bəhare-aləmara çilvəgər gəşt,
Əsase-zolme-dey zir-o zəbər gəşt.
Təravət yaft əz nov bağ-o bostan,
Şod əz lotfe-həva aləm golestan.

üzərindən bahar nəsimi əsməyə başladı, bir küncə qapılıb-qalmış ürəyisınıq adamlar cahan gülşənlərində bülbüllər kimi nəğmə oxumağa başladılar.

Əlahəzrət zilləllah şah əvvəlki kimi, Qəzvin darüssəltənəsinin Çehelsütun qəsrində novruz bayramı şənliyinə başlayıb malikanə və xosrovanə məclis bəzədi, bir neçə gününü yeni ilin mübarəkbadlığı və zəfərli novruzun qədəmini o bayram eyş-işrətinə sərf etdi. Şənlik əyyamı bitdikdən sonra onun hümayun ürəyində Gilanın və Qızılağacın seyirinə getmək və şikarla məşğul olmaq istəyi baş qaldırdı, Qəzvin darüssəltənəsindən çıxdı. O, əvvəlcə Kuhdəm yoluyla Rəştə təşrif gətirdi, sonra isə Fumən və Kəskər qiymətli şəhriyarın gəliş məkanına çevrildi. Fumənin Əlyabad adlı yerində, qəribəlikləri və cazibəsi ilə yuxarıda məlumat verdiyimiz qaban (zəngul) ovuna başladı, sonra Qızılağac o taxt-tac sahibi üçün məclis bəzədi, bir neçə gününü dərya sahilində keçirtdi. Seyr və şikardan sonra Ərdəbil darülirşadına təşrif apardı, sultanül-övliyanın və qiymətli səfəvi şeyxlərinin məzarlarını ziyarət etdi, sonrasa geri qayıtdı, Qəzvin darüssəltənəsi yenidən o ədalət ayinli xosrovun iqamət məkanı oldu.

PƏRVƏRDİGARIN KÖMƏYİ İLƏ BEHİŞTNİŞAN MAZANDARAN VİLAYƏTİNİN FƏTHİ VƏ HƏMİN PAK VƏ TƏRAVƏTLİ DİYAR HAKİMLİYİNİN FƏRHAD XANA VERİLMƏSİNİN ZİKRİ

Əlahəzrət zilləllah şahın ana babası Mir Abdulla xanın övlad və əcdadının irsi mülkü olan Təbəristan vilayəti behişt-nişan Mazandarandan ibarətdir. Mir Abdullanın əsl-nəsəbi, birinci səhifənin əvvəlində yazıldığı kimi, Təbəristandan qılıncla çıxıb o məmləkətin sahibi olan "Mirbozorg" ləqəbli Seyid Qəvaməddinə çalır. Bu vaxt isə, o uca sülalənin kişi övladından bu irsi mülkü öz əlində saxlamağa layiq olan adam yox idi. O yaraşıqlı məkan irsən bu səadətli şəhriyara layiq olduğuna baxmayaraq, Seyid Müzəffər Mürtəzayi, Əlvənd Div və Məlik Bəhmən Laricani arasında bölüşdürülmüşdü. Onlardan tez-tez Mirbozorg sülaləsinə qarşı ədəbsizlik və yedikləri çörəyi unutmaq əlamətləri baş verirdi. Hərəsi həmin vilayətin bir yerini özünə götürüb, saxtakarlıqla əldə saxlamaqdaydı. Onlar ali divana ödənilməli olan bac və xəracdan da hərdən yayınırdılar və onların hərəkətlərindən hiylə, yalan və nifaq

əlamətləri büruzə çıxmaqdaydı. [Buna görə də,] o ədalətli şahın fikrinə həmişə həmin mülkün fəthi və o vilayətin onların əllərindən çıxarılması gəlirdi. Bu il cahanı bəzəyən şahın fikri o camaatın saxtakarlıq əllərini həmin irsi mülkdən uzaqlaşdırmağa və oranı məhrusə məmləkətlərə qatmağa yönəldi. Fərhad xanın xahişinə görə, Mazandaran vilayətinin idarəsi ona tapşırıldı və o, ləşkər və qoşun bəzəyib məqsədinə doğru rəvan oldu. Əmirlər və sərdarlara istimalətnamələr yollayan Fərhad xan onların hamısını elliklə tabeçiliyə dəvət etdi. Həmin vilayətin əhalisi, xüsusilə başında özbaşınalıq sevdası olan Seyid Müzəffər qaibanə şəkildə öz tabeçiliyini bildirirdisə də, amma vəhşi kimi, Fərhad xanın yanına gəlməkdən yayınır, qətiyyən ram olmurdu. Təkrar yazışma və elçi gediş-gəlişindən sonra yağlı dilləri olan kəslər görüşə razı oldular, Seyid Müzəffər və başqa sərdar və əyanlar Fərhad xanın yanına gəldilər. Xan seyidə çoxlu təzim etdi, ehtiram göstərdisə də, onun geri qayıtmasına razılıq verməyib, ali saraya getməyini təklif etdi. Seyid Müzəffər buna bu şərtlə razı oldu ki, qoy Fərhad xan da onunla birlikdə gedib şahdan onun təqsirinin əfv olunmasını xahiş etsin, Mazandaran barədə şahın gövhərlər səpən dilindən nə kimi sözlər çıxarsa, ona da əməl etsinlər. Bu təklifi etməkdən onun məqsədi, nə yolla olur-olsun, bac və xəracı qəbul etməklə Mazandaran işlərinə rəng verib, elə özü əvvəlki kimi orada hakim və hökmran olmaq idi.

Vaxtın tələbinə görə, Fərhad xan onun xahişini qəbul etdi, seyidi özü ilə götürüb ali saraya gətirdi və seyid Qəzvin darüssəltənəsində şahın yanında olmaqla şərəfləndi. Əlahəzrət, mülk və dövlətin mənafeini nəzərə alıb zahirən onun barəsində bəzi xoş sözlər dedisə də, batinən səfəvi sülaləsi ilə üsyan və küfranda olan və Mirbozorg ailəsinə qarşı ədəbsizlik edən bu seyidə qarşı şahda lütfkarlıq yox idi. Seyid Müzəffər Fərhad xanın evində qalırdı. Xain adam olduğundan bərk qorxu içərisində yaşayırdı. Ona çatdırdılar ki, zilləllah şahın uca himməti o mülkün bütün ərazisini çör-çöpdən təmizləmək, oranı özbaşına və saxtakarlıqla ələ keçirən adamlardan geri almaqdır. Seyid zərurət üzündən hökümətdən məyus olub, bu qərara gəldi ki, bu dəfə Fərhad xanla Mazandarana gedib, oranın əhalisini özünə tabe etsin, oradan öz ailəsi və adamları ilə İraqa getsin, ömrünün qalan hissəsini şahla razılıq şəraitində başa vursun. Amma [Əlvənd] Divin başında hökmranlıq sevdası elə yer tutmuşdu ki, ürəyinin sözünü eşidə bilmirdi.

Xülasə, [Seyid Müzəffər] şahın xidmətindən mürəxxəs olub, Fərhad xanla birlikdə Mazandarana rəvan oldu. Cənab xan isə Mazandaranın başqa vəhşisifət adamlarının ürəklərini ələ almaq üçün seyidlə banş mövqeyində durdu və o, yenə də xanın yanında izzətli və möhtərəm adam sayıldı. Onlar Təbəristanın qədim şəhərlərindən olan və Məlik Bəhmənin əlində qalan Amel şəhərinə çatdıqda, məlikin mülazim və adamları qalanı möhkəmlədib, qaladarlıq məqamında durdular. Fərhad xan qalatutma işlərinə başladı. Lahicanda olan Məlik Bəhmən xasiyyətindəki məkr və hiyləgərliklə (xədiət) zahirən sədaqət, qulamlıq və itaət nümayiş etdirdi. O, qala xüsusunda deyirdi ki: "[Onu sizə vermək] ixtiyarım yoxdur, çünki Amelin inadkar camaatı qızılbaş hakimiyyətini istəmədiyi üçün qaladarlıq etməkdədirlər". Amma, batinən müxalifət və üsyan yolunu tutub, əksəriyyəti onun müvazimləri olan qala əhlini nəvazişləndirir, onları qaladarlıqda mərdanə olmağa və qızılbaşların buraya gəlmələrinə yol verməməyə rəğbətləndirirdi.

Sözün qısası, Fərhad xanın o qala ayağında dayanması uzun çəkdi. Məlik Bəhmənin adamları, o cümlədən məlikin mülaziminə çevrilmiş bir neçə təkəli tayfasının adamları qaladaydılar və qaladarlıqda israr edirdilər. Elə bu vəziyyətdə Seyid Müzəffər öz ixtilafını zahirə çıxanb Fərhad xanın ordusundan fərar etdi, öz adamlarının əlindəki Sari vilayətinə getdi, Əzdarə Kələ qalasının möhkəmlədib orada yerləşdi, ondan ixtilaf və üsyan əlamətləri görünməyə başladı. Fərhad xanın yanına gəlmiş bir neçə nəfər Mazandaran böyüyü Seyid Müzəffərə arxalanaraq, hər biri xandan uzaqlaşıb öz hökümətgahına getdi, onlarla qızılbaş[lar] arasında gediş-gəliş kəsildi.

Bu hadisələrdən cənab xan qətiyyən qorxub-çəkinmədi, əvvəlkindən də artıq o qalanı almağa girişdi. O, öz səy və alış-verişi ilə Amelin vəhşisifət adamarını ehsan və ənamlarla şirnikləndirdi və nəhayət İlahinin təqdiri və şah iqbalının köməyi ilə həmin qalanı tutdu, qaladakı fitnəkarları aradan götürdü, Amelə hakim təyin etdi, başqa mahalları fəth etməyə yollandı. Fərar etmiş olan əzəmətli adamlar bir-bir gəlib üzrxahlıq etməyə başladılar. Onlarm üzrxahlığını qəbul edən cənab xan qüdrət və iqtidarla Əzdarə Kələ qalasının fəthindən sonra Sariyə tərəf yollandı. Bərk qorxuya düşən Seyid Müzəffər daha özündə qaladarlıq qüdrəti görmədi, iztirab və qorxuya düşüb dağınıq halda qalanı tərk etdi, cəngəlliyə qaçdı. Tiryək çəkməkdən pis hala düşmüş Seyid Müzəffər [hər gün] yarım

misqal[602] tiryək qəbul edirdi. Bir gün mülazimləri ona həmin tiryəki çatdıra bilmədilər və seyid meşədə tiryəkin ona çatmaması səbəbindən iki-üç gecə narahat oldu və buna görə də xəstələndi, bu vəziyyətdə meşədə qala bilmədi, nəticədə zərurət üzündən olduqca zəiflədi, bimar oldu və ümidsiz qalıb xanın yanına getdi. Üzərində qələbə çalmış nəfsani tamahkarlığına görə əldən düşdü, başını natəvanlıq yatağına qoydu, heç bir müalicə və dava-dərman xeyri olmadı, onda gün-gündən ishal xəstəliyi şiddətləndi və bu xəstəlikdən də keçindi. Onun vəfatından sonra Fərhad xanın adamları Mazandaranda istiqlala nail oldular və oranın əksər mahallarını zəbt ctdilər. [Scyid Müzəffərin] qardaşı Əlvənd Sultanı Mazandaranda özünün naibi vəzifəsində qoyan Fərhad xan əlahəzrətin yanına gəlib məsələni ona ərz etdi.

Amma Səvadkuh hakimi olan Əlvənd Div [qardaşı] Müzəffərin ölüm xəbərini eşidərək elə zənn etdi ki, onu qəsdən aradan götürmüşlər, buna görə də qızılbaşlara qarşı etimadını itirdi, canına bərk qorxu və təşviş düşdü. Fitnəkar və dalaşqan adam olan Məlik Bəhmən isə Mazandaranı Əlvənd Sultana qarşı qaldırır, fəsad törədirdi. O istəmirdi ki, Əlvənd Div və Mazandaranın əzəmətli adamları qızılbaş ləşkəri ilə barışığa gəlsinlər. Başında hakim olmaq sevdası dolaşan Əlvənd Divə bu istəkdən asanlıqla əl çəkmək mümkün olmurdu. O, Məlik Bəhmənin təhriki və fəsadı üzündən heç cür itaətə gələ bilmirdi. Məsələni belə görən şah bildi ki, əgər Məlik Bəhmən dəf olunmasa, Təbəristan ölkələri bu əbədi əsaslı dövlət övliyalarının əlinə keçməyəcək, Div öz pislik və fitnə-fəsadından əl çəkməyəcəkdir. Buna görə də şahın düyünlər açan məsləhəti belə oldu ki, onu aradan götürsün. Əlahəzrət Fərhad xanı Məlik Bəhmənin üzərinə yolladı.

FƏRHAD XANIN LAHİCANA GETMƏYİ VƏ MƏLİK BƏHMƏNİN ZAMAN KEYXOSROVUNUN QÜVVƏSİ İLƏ ƏLƏ KEÇİRİLMƏYİNİN ZİKRİ

Məlik Bəhmən Məlik Kəyumərsinin oğlu Kavnsun oğludur. Onun nəslindən olan Kəymərs ibn Bistun Göstəhəm Əmir Teymur Gurəkanın hakimiyyəti vaxtı bütün Rüstəmdarın valisi və Nur qalasının kutvalı idi. Kəyumərsin vəfatından sonra Rüstəmdar

[602] Təxminən 2,5 qram - Ş.F.

vilayəti onun Cahangir və İsgəndər adlı iki oğlu arasında bölündü. Bir hissəsi Nur və ətrafı, ikinci hissəsi Kəcur və ona tabe olan yerlər indi Məlik Bəhmənindir və bu yerlər Kəyumərs övladları arasında bölünmüş ən yaxşı torpaqlardır.

Amma, cənnətməkan şahın dövründə onların əmioğulları olan üç təbəqəsi hakimliyə və məlikliyə başladı. Nur valisi Məlik Əziz, Kəcur valisi Məlik Sultan ibn Cahangir və yuxarıda adı çəkilən Lahican valisi Məlik Bəhmən. Lahican qədimdən bəri Kəcura daxil olan torpaqlardandır ki, Nur və Kəcur məlikləri haqqında Rüstəmdarın fəthi xüsusda verəcəyimiz məlumatlarda yazılacaqdır.

Ülka və vilayət baxımından Məlik Bəhmən onlardan kiçik olmasına baxmayaraq əqlinin çoxluğu, inkişafı, bacarığı və hakimiyyətinin uzun müddətli olması səbəbindən, həmçinin əzəmət və sərvətinə (məknət) görə onlardan üstün olmuşdur. Əlahəzrət zilləlah şahın İraqa yürüşü vaxtı o, cah-cəlalı ordunun istiqbalına gəlmiş, həmçinin bir-iki dəfə də Lar yaylağında şahın astanasını öpmək səadətinə çatmaqla səadətlənmiş, öz sədaqətini şaha izhar etmiş, şəfəqqət və iltifata yetmişdi. Amma, hiyləgər, fitnəkar və üsyankar adam idi. Hiylə və yalançılıqda tay-tuşlarından baş və hamıdan irəli idi. Əlahəzrətin dəfələrlə onu sınamasına baxmayaraq Məlik Bəhmənin sədaqət nəqdi imtahan məhəkində tam əyara malik ola bilməmişdi. O həmişə Təbəristanda fitnəkarlığa səbəb olmuşdu. Həmin vilayət adamlarından kimsə dərgaha gedib-gəlirdisə Məlik Bəhmən o adamla ədavətə başlayır onu sıradan çıxarır (qəl), yaxud cəzalandırırdı. O cümlədən onunla yaxınlığı olan Məlik Sultanhüseyn Ləvasani şahın yanına getmiş və ona öz sədaqətini bildirirmişdi. Məlik Sultanhüseynin qardaşı da şahın mülazimətində olması ilə sərəfraz olmuşdu. Bunları bilən Məlik Bəhmən inada düşmüş, Ləvasan qalasına hücuma keçərək Məlik Sultanhüseynin qardaşını ələ keçirib qətlə yetirmiş, onun nəslindən olan başqa uşaqları və qadınları Lahicana aparmış, bütün adamlarına qarşı cürbəcür rüsvayçı hərəkətlər (fəzihət) etmişdi. Elə buna görə də, tezliklə etdiklərinin bəlasını çəkməli oldu, kimə qarşı nə etmişdisə elə özünün də başına gəldi.

Əlahəzrət ardı-ardınca adam yollayıb Məlik Sultanhüseynin yetim-yesirlərini ondan istəmişdisə də, Məlik Bəhmən buna əməl etməmiş və onları saraya göndərməmişdi. Mazandaranın tayfa məlikləri olan adamlarının hərəsi özlərini bir

yerə hakim etmişdi. Onlar Məlik Bəhməni, özlərinə yaxın olduğu üçün, öz hakimləri etmiş, Təbəristanın məşhur şəhərlərindən və onun ülkasına yaxın olan Amel vilayətini ona vermişdilər. Əlahəzrətin öz himmət kəməndini irsi mülk olan Mazandaranın fəth zirvəsinə atdığı bu vaxtlarda Məlik Bəhmən Amelə olan tamahkarlığı səbəbindən əql və səvab yolundan çıxmış, yuxarıda deyildiyi kimi, gündən-günə ömrü çoxalan (ruzəfzun) bu dövlətin övliyaları ilə məkr və hiyləgərliklə rəftar etmiş, ondan nifaq xislətli əməllər baş vermişdi. Buna görə də, şahanə qəzəb tonqalı daha da şölələndi və Məlik Bəhmən öz irsi mülkünü də Amelə olan xam tamahına qurban verdi.

Şer

İstədi şəkərə bata çörəyi,
Dilədi bal-şəkər ola yeməyi.
Amma ki, qarışdı işinə rüzgar,
Məkriylə hiyləsi etdi onu zar.
Dövləti, iqbalı ondan yan durdu,
Fələk əməlini cəzalandırdı.
Onun xam tamah və bəxtinə rəğmən
Bişmiş çörəyi də çıxdı əlindən.[603]

Xülasə, onun sürtülmüş qəlbi (zərəndud), yəni nifaqlı və yalançı sözlərlə dolu ürəyi şahın hümayun parlaq istək məhək daşı müqabilində az əyarlı olduğu üçün, Fərhad xanı onun üstünə yolladılar.

[603] Şerin farscası:
Xast ta nan beşəkkər alayəd,
Bəd əz in şəhd ba şəkər xayəd.
Dəhr əsbabe-dovlətəş pərdaxt,
Aqibət məkr o hiyle karəş saxt.
Dovlət-o bəxt ruy əz-u bərtaft
Ke, cəzaye-əməl ze giti yaft.
Təməe-xam-o bəxte-xofteye-u
Z-u gereftənd nane-poxteye-u.

Lahican hakimi Məlik Bəhmənin qətli:

Xan fərmana əməl edərək Lahicana yollandı, qalatutma ləvazimatı hazırlamağa başladı. Ali dərgahdan da topçular və tüfəngçilər göndərildi, qaladöyən topları sıra ilə düzdülər. Onlar qalanı tutmağa və mühasirəyə düşənlərə cidd-cəhdlə təzyiq göstərməyə başladılar. Lahican əskərlərinə başçılıq edən bir əmirin adamları Fərhad xanla əlbir olub, savaşda tərəddüd etməyə başladılar. Onlara etimadını itirən Məlik Bəhmən onların Əmir Vərdan adlı ağsaqqalını tutub, [əvvəlcə] quyuya saldı, sonrasa qətlə yetirdi. Buna görə də, əmirin tayfasının üzvləri Məlik Bəhmənə qarşı müxalifətə başladılar və qalanın məxfi keçid yerlərini axtarmağa başladılar. Tezliklə qala divarının aşağı hissəsinə seybələr gətirildi. Qəmginləşən Məlik Bəhmən itaəti izhar etdi. Məliki şahın inayətinə həvəsləndirən Fərhad xan onunla görüşmək istədi. Əhd-peymandan sonra qaladan çıxan Məlik Bəhmən ona xas hiyləgərlik və yağlı dillərlə qızılbaşların şərini özündən uzaqlaşdırmaq diləyib, dünya barədə sözlər danışdı və heç vaxt əməl etməyəcəyi vədlər verməklə qızılbaşları qala ayağından qaytarmaq fikrinə düşdü, Fərhad xanın qalaya gəlməsini və ona mehman olmasını təklif etdi, amma Fərhad xan buna razı olmadı. O, tora düşmüş ovu tordan buraxmaq istəmədi, ona ali dərgaha getməyi və şahın mülazimətinə yetməyi təklif etdi. Qaladan çölə çıxmağından peşman və qəmgin olan Məlik Bəhmən sözü keçmədiyi üçün istər-istəməz şahın yanına getməyə razılıq bildirdi. Fərhad xan zəmanəyə uyğun hərəkət edərək, qalanı yenə də onun adamlarının ixtiyarına verib, onları qalada saxladı, məliki isə özü ilə götürüb ali saraya gətirdi, İsfahan darüssəltənəsindəki behişt ayinli şah məclislərində toplaşmış hər tərəfdən gələn adamların yanında onu şahın xoşbəxt nəzərinə çatdırdı. Əlahəzrət şah məliklə məzəmmət (etab) və danlaq (sərzəneş) diliylə danışığa başlayıb bu əbədi ömürlü dövlətə qarşı etdiyi qüsur və xəyanətlərini bir-bir saydı. Öz xəcalət və peşmançılıq başını aşağı salıb şahı dinləyən Məlik Bəhmən onun qəzəb və məzəmmət şöləsinin alovlanmağını (əfruxtegi) görmək əlini həyatdan üzdü.

Amma əlahəzrət, Fərhad xanın Məlik Bəhmənə söz verdiyi kimi, onun işini hələlik bitirmədi və məlik bir neçə gün xanın evində qaldı. Min altıncı (miladi 1597/98) toyuq (təxaquy) ilində cah-cəlal ordusu İsfahandan Qəzvinə qayıdanda isə, şah məliki dövlətxananın

təzə binasına tələb etdi, söhbət və məzəmmət vaxtı onu Məlik Sultanhüseyn Ləvasaniyə verdi ki, qardaşının qan qisası kimi qətlə yetirsin. O da məlikin işini bilirdi. Məlikin övladlarının vəziyyətləri və onun qalasının fəthi barədə gələcəkdə yazılacaqdır, inşallah.

XARƏZM VİLAYƏTİNDƏ HƏMİN VİLAYƏT VALİSİ HACI MƏHƏMMƏD XANIN VƏ QOHUMLARININ VƏZİYYƏTİ, XANIN İKİNCİ DƏFƏ ƏCƏM ŞƏHRİYARININ DƏRGAHINA GƏLİŞİNİN ZİKRİ

Sabiqdə baş vermiş hadisələr barədə vaqiələr yazan qələm belə yazmışdı: Keçən il Əbdülmömin xanın fitnəsini dəf etməkdən ötrü qələbə ayəli ordu Xorasana yürüşə keçəndə Xarəzm valisi Hacı Məhəmməd xan, onun oğlu Ərəb Məhəmməd Sultan və qardaşı oğlu Babaxan şahın xidmətindən mürəxxəs olub öz məmləkətlərinə qayıtdılar. Onlar əvvəlcə yəqə türkman sayinxani el və oymaqlarına getdilər və o tayfanın bir dəstə adamı həmin sultanlara yoldaş kimi Xarəzm vilayətinə daxil oldular. Onların qədəmlərindən sevinən xarəzmlilər itaət və bağlılıq məqamında dayandılar. Lakin, Abdulla xanın adamları və daruğələrinin hər biri öz yerlərini boş qoyaraq Mavərənnəhrə getdilər, Xarəzm vilayəti biganə ləşkərdən boşaldı, Hacı Məhəmməd xan müstəqil hakim oldu. Amma, onun ətrafına yığılmış adamların əksəriyyəti rəiyyət və əkinçilər (ehşam) idilər, çünki, o vilayətin ələ keçirilməsindən sonra Abdulla xan Hacəm xanın (Hacı Məhəmməd xanın - Ş.F.) əsgərləri olan özbək qəbilələrini oradan köçürüb, başqa vilayətə göndərmişdi və onun adamlarından heç kim Xarəzmdə qalmamışdı.

Sözün qısası, Hacəm xanın gəlişini eşidən Abdulla xan özünün bir neçə mötəbər əmirini böyük qoşunla onun üstünə Xarəzmə göndərdi. Hələ bununla da kifayətlənməyib özü də onların ardınca o istiqamətə hərəkət etdi. Abdulla xan ləşkərinin gəlişindən xəbər tutan Hacəm xan həmin vilayətin qara camaatını toplayıb, onların qarşısına yolladı. Aralarında qızğın döyüş oldu. Abdulla xan ordusunun [da] gəlmə xəbəri gəlib çatdığından, xarəzmlilərin səbat və qərar köklərinə zəlzələ düşdü və bu hərbdə onlar məğlub edildilər, Hacəm xanın daha o vilayətdə qalmaq imkanı olmadı. O, qalada mühasirəyə düşməyi istəmədiyi üçün, məcbur olub, oğlu Ərəb Məhəmməd Sultanla birlikdə məğlubiyyətlə və pərişan bir halda özünü Xarəzm vilayətindən eşiyə atdı, Astrabada tərəf üz

tutdu. Oradan da, çıxıb özlərini sayinxani yəqə türkmanlarının köməyi ilə qızılbaş məmləkətinin sərhədinə çatdırdılar. Əlahəzrət zilləllah şah onun gəlişindən xəbər tutub qarşısına bir adam göndərdi və onu ali dərgaha çağırdı. Xan yenidən şahın yanına gələrək, Qəzvin darüssəltənəsində hümayun görüş izzətinə yetişdi, ona şah tərəfindən şahanə iltifat (təfəqqod) və mülayimlik göstərildi. Amma, şəhərdə (Xarəzimdə - Ş.F.) vəzir olan qardaşı oğlu Babaxan oranın qalasını möhkəmləndirərək şəhərdə qaldı, bilirdi ki, əgər mühasirəyə alınarsa heç bir yerdən ona kömək gəlməyəcəkdir, düşmənlərə giriftar olacaqdır. Babaxan yaxşı adla ölməyi həyatı zillətlə keçirməkdən üstün tutub, qeyrət və məradənəlik aləminə qapıldı, qalada mərdanəlik dayandı. Qalanı mühasirəyə alan Abdulla xan ləşkəri çoxlu əsgərlə şəhər qalasını və vəziri dörd aya yaxın bir müddətdə mühasirədə saxladı. Nəhayət onun əsgərləri, həmçinin şəhər və qala adamları qaladarlıq etməkdən vahiyəmə düşərək, vəzirə bivəfalıq etdilər, Abdulla xana tərəf meylləndilər.

Hacı Məhəmməd xanın qardaşı oğlu
Baba xan Vəzirin öldürülməsi:

Babaxan bunu bilərək, ona vəfalı olan bır dəstə adamla qala darvazasını açıb, özünü fədai kimi müxaliflərə vurdu, hərb dəryasında üzməyə başladı. Abdulla xanın özbəkləri onu hər tərəfdən əhatə etdilər. Döyüş meydanı hər ləhzə onun üçün daralmaqdaydı. Vəzirin heç yana çıxış yolu yox idi. Nəticədə döyüş meydanında öldürüldü, qoşunun qalıqları isə dağılışdı. Baba - xanın şücaət və dilavərliklə döyüşməsi indiyəcən Xarəzmdə dillər əzbəridir.

Abdulla xan yenidən Xarəzmi fəth etdi, o vilayətdə müxalifət gümanında olduğu hər adamı aradan götürdü, qalaları möhkəmləndirərək Mavərənnəhrə qayıtdı.

BU İL ŞÜŞTƏR HAKİMİ MEHDİQULU XAN ŞAMLI, ƏFŞAR TAYFASI VƏ HƏVİZƏ ƏRƏBİSTANIN VALİSİ MİR MÜBARƏK ARASINDA BAŞ VERƏN VURUŞMA, PƏRVƏRDİGARIN TƏQDİRİ VƏ QƏZANIN FƏRMANI İLƏ ALLAHVERDİ XANIN KUH-GİLUYƏYƏ GEDİŞİ VƏ BƏXTLƏRİ DÖNMÜŞ ƏFŞARLARIN VƏZİYYƏTİNİN ZİKRİ

Bu il, Kuh-Giluyənin bir dəstə əfşar fitnəkarı, xüsusilə Əraşlı (?) və Kəndurlu (?) tayfa üzvləri həmin vilayətin hakimi Əmir xana yağı oldular, Kuh-Giluyə qəsəbələrindən olan Ramhörmüzdə toplaşıb Xəlil xanın nəvəsi Əbülfət bəyi öz aralarında xan seçdilər, müxalifət və üsyan məqamında dayandılar. Şüştər hakimi Mehdiquluxan sədaqət və sufiliyinə görə bu yaramaz halı qəbul etmədi, aralarında yaxın məsafə olan onların fitnəsini dəf etməyə yollandı, azacıq miqdar şamlı qaziləri ilə onların üstünə yürüdü, Şüştər və Ram hörmüzün arasında hərb başlandı. Əfşar tayfası o məhdud saylı şamlılar tərəfindən əzilərək, Ərəbistan valisi Seyid Mübarəkə pənah apardılar. Seyid Mübarəki həmişə bu güclü dövlətin müxaliflərindən biri hesab edən Mehdiqulu xan [hərdərbir] Həvizə ərəblərinə qarşı hücuma keçir, Seyid Mübarəklə bir o qədər də hesablaşmır, onunla qalib tərzdə davranırdı. Seyid Mübarək də Mehdiqulu xanın pis rəftarından şəkkə düşmüşdü. O, dəfələrlə ali dərgaha ərizələr yazıb onlan şikayətlənir, istəyirdi ki, Mehdiqulu xana qulaqburması verilsin və o, təkəbbür və qürur badəsinin məstliyindən ayılsın. Bu vaxt əfşar tayfası bu vəziyyəti qızışdıraraq onu Mehdiqulu xanla hərb etməyə rəğbətləndirdi. O da əfşarlara kömək üçün bir dəstə ərəb döyüşçüsü ilə Mehdiqulu xan üzərinə hücuma keçdi. Xan Ram hörmüzdən qayıdıb Şüştərə gələn vaxt ərəblər onun yolunu kəsdilər, aralarında kiçik bir cəng oldu. Ərəblər Mehdiqulu xanm zəif ləşkərindən də zəif olduqları halda, xan səhra döyüşünü sərfəsiz zənn edib, özünü yaxınlıqdakı bir qalaya çaldı, ərəblər də gəlib oranı mühasirə etdilər. O qala bir o qədər də möhkəm olmadığından, həmçinin ərzaq ehtiyatının yoxluğundan, xan məcbur olaraq Seyid Mübarəklə sülh bağlamaq istədi. Əlahəzrət zilləllah şahdan bərk qorxan Seyid Mübarək də sülhə meylləndi və aralarında sülh bağlandı. Belə qərara gəldilər ki, Seyid Mübarək oradan qayıdıb Həvizəyə, Mehdiqulu xan isə qaladan çıxıb Şüştərə getsin.

Bəzi adamlardan belə xəbər eşidildi ki, ürəyində Mehdiqulu xana qarşı kini olan Seyid Mübarək ərəblərlə belə bir qərara gəlmişdi: Mehdiqulu xan qaladan eşiyə çıxanda atların cilovlarını döndərib xana hücuma keçsinlər və onu cəzalandırsınlar.

Bu astanəyə öz sədaqətini izhar etmiş Seyid Bədr - Seyid Mübarəkin oğlu, ərəblərin bu kələyindən (keyd) Mehdiqulu xanı xəbərdar etdi. Buna görə də, xan özünü daha bir neçə gün həmin qalada qoruyub eşiyə çıxmadı. Seyid Mübarəkə elə gəldi ki, xan özünə qarşı ondan kin hiss etdiyi üçün belə ehtiyatkarlıq edir. Buna görə də, orada dayanmayaraq Həvizəyə getdi. Luristanda bu xəbəri eşidən Şahverdi xan Abbasi dövlətxahlıq izhar edib, Mehdiqulu xana kömək etməkdən ötrü o tərəfə yollandı. Şahverdi xan gəlib çatanadək artıq onların aralarında barəsində danışılan sülh baş tutmuşdu.

Sözün qısası, Mehdiqulu xan ərəblərin hiyləsindən xatircəm olaraq qaladan çıxdı, Şüştərə yollandı. O, baş verən hadisələri yazıb ali saraya məktub göndərdi. Seyid Mübarəki bu dövlətdən incik salmaq istəməyən əlahəzrət onun etdiyi sabiq əməlləri bağışladığı üçün Mehdiqulu xana belə bir hökm yolladı: Qoy bundan sonra Seyid Mübarəklə yaxşı rəftar etsin, onun məmləkət ülkasına əlini uzatmasın, xanın seyidə aid olan ərəb qəbilə və tayfaları ilə işi olmasın.

Amma, əfşar fitnəkarlarına qarşı şahın qəzəb atəşi şölələndi, Kuh-Giluyə hakimliyini Fars vilayətinə əlavə edərək, Allahverdi xana verdi, sözə baxmayan əfşarları cəzalandırmağı və onlarla hesablaşmağı onun öhdəsinə qoydu. Xan həmin vilayətə gedərək, əfşar fitnəkarlarının böyük bir hissəsini, o cümlədən o fitnəkarlığın mayası olan Əraşlı və Kəndərli (Kəndurlu ?) tayfa üzvlərini qətlə yetirdi, itaətə gəlməyən və həmişə o vilayətdə fitnə-fəsad törədən xanəki, cəvanəki, bəndani və başqa lurları fəna küləyinə verdi, başqalarını da töhmətləndirdi. Bədbəxt aqibətsizlərə, itaətsiz əfşar və lurlara elə bir qulaqburması verildi ki, bundan sonra fitnə-fəsad xəyalına düşmədilər, o vilayətin işləri öz qaydasına düşdü. Xan Kuh-Giluyəyə xasseye-şərifə qulamlarından bir nəfəri hakim təyin edib geri qayıtdı, baş verənləri ali saraya ərz etdi, onun göstərdiyi xidmətlər yüksək qarşılandı, şahanə nəvaziş və iltifatlarla şərəfləndi.

YƏZD DARÜLİBADINI QARƏT ETMƏKDƏN ÖTRÜ XORASANDAN ÖZBƏK DÖYÜŞÇÜLƏRİNİN GƏLİŞİ, ƏLİQULU XAN ŞAMLI VƏ QIZILBAŞLARIN ONLARLA CƏNG ETMƏLƏRİ, CAHAN ƏRVƏRDİGARININ KÖMƏYİ İLƏ ÖZBƏKLƏRİN MƏĞLUB EDİLMƏLƏRİNİN ZİKRİ

Bu il bir dəstə özbək döyüşçüsü ayaqlarını mötədillik (etedal) dairəsindən kənara çıxarıb, Yəzd darülibadəsini qarət etmək niyyəti ilə Təbəs, həmçinin Məfazə və Cəndəq yolunu keçib gəldilər. Tərkeş qorçisi Əliqulu xan Şamlı Yəzdin hakimiydi. Təbəs hakimi Mehrab xan Qaçar adam yollayıb özbək əskərlərinin gəlişindən onu agah etdi. Əliqulu xan şəhəri möhkəmləndirdi, o hüdudun dörd yüz, beş yüz əskər və qızılbaş tüfəngçisini topladı, cəng əzmi ilə özbəklərin qarşısına getdi. Özbək döyüşçüləri isə başqa yolla gəlib şəhərin ətrafına çatdılar.

Səkkiz fərsəx[604] yol keçib gələn Əliqulu xan qayıdıb şəhər yaxınlığına çatdı. Ertəsi gün müxalif qoşunun min iki yüz nəfərədək bahadırı və bahadırların iki-üç min döyüşçüsü göründü, onlar gəlib şəhər kənarında dayandılar. Özbəklər əlləri çatan hər yeri qarətkarlığa başladılar, gözlərinə dəyən hər şeyi zəbt etdilər və çoxlu mal topladılar.

Əliqulu xan işin başlanğıcında təriqət sahibi olan yəzdlərin məsləhəti ilə ehtiyatlandı, şəhər, qala və qapıların mühafizəsinə başladı. Yəzd əhalisi özbəklərin çox olmaları səbəbindən cəngə razılıq vermirdi. Amma, Əliqulu xan Xorasan ləşkərinin kəmiyyət və keyfiyyətindən xəbərdar olduğuna baxmayaraq, şahın zavalsız iqbalına arxalanıb, yanındakı şamlı qorçiləri, tüfəngçiləri və başqa əskərlərindən ibarət az miqdar döyüşçü ilə birlikdə mərdanəliklə döyüş meydanına ayaq basdı, döyüşməyə qərar verdi, qızılbaş dilavərləri, tüfəngçiləri və başqa adamları qorxmazlıqla düşmənin üstünə şığıdılar.

Özbəklərin bu gəlişdən məqsədləri qarətkarlıq olduğundan, istədilər ki, geri qayıdıb yığdıqları malları aradan çıxarsınlar. [Amma,] Əliqulu xan şamlı qaziləriylə atını irəli sürüb onların üstünə cumdu, aralarında cəng başlandı. Şamlı qaziləri şücaətli həmlələrlə onların dəstələrini pozdular, üç yüz nəfərini öldürdülər, bir çoxunu isə əsir götürdülər. Özbəklərin qalan hissəsi isə

[604] 48-km-rə bərabərdir - Ş.F.

məğlubiyyət və pərişanlıqla fərar vadisinə tərəf yollandılar, mallardan göz çəkib, can qayğısına qalmağı qənimət bildilər. Əliqulu xan qələbə çaldı. Şamlı qaziləri özbəkləri bir neçə fərsəx təqib edərək, onların bir dəstəsini malları ilə birlikdə ələ keçirdilər, zəfərlə geri döndülər. Mehrab xan isə bacarıqlı cavanların bir dəstəsi ilə Təbəsdən Yəzd darülibadəsinə gəlməkdəydi. O, Xoranuq kəndində geri qayıtmış özbək döyüşçülərinə çatıb cəngə başladı. Bu dəfə də biyabırçı məğlubiyyət özbəklərə yol tapdı, bir çoxu qətlə yetirildi, qalanları isə dağılışaraq susuz dağ və biyabanlara doğru yola düşdülər. Mövlana Fəxrəddin Bafqı bir dəstə Bafq və Behabad tüfəngçisi ilə onların ardınca gedib, çoxlarını ələ keçirdi. Can qorxusundan dağ və biyabana üz tutanların əksəriyyəti susuzluqdan həlak olub, canlarını oradan səlamət çıxara bilmədilər.

Xülasə, gələn özbəklərin az hissəsi qayıda bildi. Bu il yenə də Əbdülmömin xan ləşkərinin bir dəstə özbəyi Əlixan Gəraylının üzərinə hücum edib, onun bir neçə adamını qətlə yetirdi. Ruğd (?) qalasına gələn Əli xan, oraya sığındı, bərk xəcalət və peşimanlıqla orada yaşamağa başladı, axırda da öz cəzasına çatdı.

GÜNAHLARI BAĞIŞLANMIŞ HƏZRƏT CƏNNƏTMƏKAN ŞAHIN MÜBARƏK NƏŞİNİN MÜQƏDDƏS MƏŞHƏDDƏN İSFAHAN DARÜSSƏLTƏNƏSİNƏ APARILMASI VƏ ALLAHIN İNAYƏTİ İLƏ MÜQƏDDƏS ŞƏXSLƏRİN YANINDA DƏFN OLUNMASININ ZİKRİ

Birinci səhifənin əvvəlində belə yazılmışdı: İsmayıl Mirzə öz hakimiyyəti zamanı cənnətməkan şahın mübarək nəşini müqəddəs Məşhədə aparmış və bu xidməti Məşhəd hakimi Mürtəzaqulu xan Pornak Herat bəylərbəyi Əliqulu xan Şamlı ilə birlikdə yerinə yetirmişdi. [Şah Təhmasib] həzrət İmam Rzanın müqəddəs rövzəsinə dəfn olunmuşdu. Oranın mütəvəlli və xidmətçilərinin məsləhəti ilə onu düşmənlərdən qorumaq üçün üç-dörd yerdə qəbir qazıldı. Əhali bir neçə gün həmin qəbirlərə göz oldu. Həmin axşamı Mir Seyid Əli Mofzəl Astrabadi və Mir Seyid Əli Sədr Şüştərinin arasındakı ixtilafı görən Şeyx Həsən Həffar* Məşhədin müqəddəs hərəminin qapısını bağlayıb, mübarək zərihin yanında başqa bir qəbir qazaraq, həmin qiymətli gövhəri o pak torpağın sədəfində gizlətdi. Başqa qəbirlər torpaqla doldurulduldu, (şahın mübarək ayağının) aşağı tərəfində baş daşı ucaldıldı.

Mübarək qəbrin hafizləri** həmişə orada tilavət oxuyurdular. Cənnətməkan şahın qəbrinə xidmət edən xadim qəbrin üstündə şamlar yandırırdı. Əhali arasında həmin yer cənnətməkan şahın qəbir yeri kimi şöhrət tapmışdı. Əbdülmömin xan müqəddəs Məşhədi tutan vaxt həmin şərafətli büqə özbəklərin əlinə keçdi. O aqibətsiz cahil adam, təəssübünün çoxluğundan həmin səfdə dəfn olunmuş cənnətməkan şahın və səfəvi nejadından olan şahzadələrin cəsədlərini qəbirlərindən çıxarıb onlara qarşı hörmətsizlik etmək istədi və özbəklər həmin qəbirləri qazıb o əzəmətli şəxslərin bir neçə çürük (zəmim) sümüyünü çıxardılar. Amma bir neçə ildən sonra o azğın (zəlal) adamların biri Abdulla xana və Əbdülmömin xana belə xəbər verdilər ki, bəs cənnətməkan şahın nəşi başqa bir yerdə dəfn olunmuşdur. Mənim[605] isə məlumatım var ki, onlar bir təəssübkeşin[606] təhriki ilə Dostum bahadır adlı bir özbəyi göndərdilər ki, həmin yeri qazıb [cənnətməkan şahın] nəşini [qəbindən] çıxarsınlar və Buxaraya aparsınlar, [mərhum şaha qarşı] ürəklərindən keçən hər cür həqarəti (estexfaf) yerinə yetirsinlər.

Dostum bahadır əmr alaraq, həmin azğın (məxzul) adamla birlikdə [qəbirdəki] nəşi o məkandan çıxarıb bir kisəyə qoydu və kisənin ağzını müqəddəs Məşhəd hakimi Xudaynəzər bəy möhürlədi. Həmin kisə bir müddət müqəddəs Məşhədin Cənabək adlanan bir yerində saxlanıldı, sonra nəşi götürüb Mavərənnəhrə getdilər. Əsl isfahanlı olan sərkarın ambardarı Pəhləvan Şahəlinin oğlu Rzaqulu bəy [o vaxt] həmin yerdə idi. Dostum bahadır onun evində mehman oldu. Rzaqulu bəy həmin nəşin aparılmasından xəbər tutub Dostum bahadırı bir neçə gün də [öz yanında] saxladı, onunla insani tərzdə davrandı. Bir gün söhbət zamanı Rzaqulu bəy zarafatla dedi ki, əgər bu nəşi Tun və Təbəs yoluyla qızılbaşlara aparsan, bu xidmətə görə Abdulla xan və Əbdülmömin xandan onun on misli qədər pul ala bilərsən. Ənam və ehsan sözünü eşidən Dostum bahadır dedi: "Mənim Mavvərənnəhrdə qohum-qardaşım yoxdur və ora ilə elə bir bağlılığını da mövcud deyil. Əgər düz deyirsənsə və dediyin sözün yerinə yetiriləcəyinə söz verirsənsə, elə də edərəm". Dostum bahadır onunla əhd etdi, nəşi götürərək tez-tələsik Təbəsə gətirdilər.

---

[605] Yəni tarixçi İsgəndər Münşinin - Ş.F.
[606] Yəni özbək sünnisinin - Ş.F.

Amma, Dostum bahadırsa belə deyirdi: "Mən bir yuxu gördüm. Yuxuda həmin nəşin Mavərənnəhrə aparılması qadağan olunur və onun İrana gətirilməsi tapşırılırdı. Mən bu hadisəni Rzaqulu bəyə deyib, ondan kömək xahiş etdim, onunla birlikdə nəşi götürüb yola düşdük". Təbəsə çatdıqları vaxt Təbəs hakimi Mehrab xan Qacar onlara çoxlu hörmət edib, məsələni şaha çatdırdı. Əlahəzrət zilləlah şah bu xoş xəbərdən şadiman oldu və belə bir hümayun hökm sadir oldu: Təbəsdən İsfahan darüssəltənəsinədək nəşi aparıb ehtiramla çatdırsınlar. Ali əmrə görə, gedib çatdıqları hər vilayətdə onları qarşıladılar, piyada halda nəşi çiyinlərinə qaldırıb mənzil başına çatdırdılar, həmin pak cəsədi gətirmiş Rzaqulu bəyə və Dostum bahadıra layiqli xidmətlər göstərildi. Beləliklə, onlar elə ki, İsfahana yaxınlaşdılar, əlahəzrət [şah] bütün əmirlər, dövlət başçıları və əyanlarla piyada halda onları qarşıladı, həmin cənazani çiyninə götürüb şəhərə çatdırdı, onu iki ali qədir-qiymətli imamzadənin dəfn olunduğu İmame-sacedin və qiblətül-arifin olan İmam Əli Zeynalabdin əleyhüssalamın şərafətli büqəsində yerə qoydular. Əhali o cənazənin ziyarətinə axışdı. Doğru və yalan ehtimal olunan bu xoş xəbər məmləkətlərin hər yerinə yayıldı. Amma, vaxtm məsləhətinə görə, həqiqət olub-olmamasından asılı olmayaraq cəsədin şaha məxsus olması təsdiqləndi. Çünki, Əbdülmömin xan müqəddəs Məşhədi tutduqdan sonra, aşağı səfdə dəfn olunmuş cənnətməkan şahın və şahzadələrin bir neçə çürük sümüyünü qəbirdən çıxarıb, onları həqarət altına qoymuşdu. Buna görə də, əzəli istək belə oldu ki, o bədnamlığın əvəzi gərək o həzrətin pak cəsədi üstündən götürülsün, çünki həmin dindar və pak etiqadlı seyid bir padşahın ehtiramsızlığına yönələn hər hərəkət İlahinin dərgahında bəyənilən hərəkət deyildir, qoy bütün insanlara aydın olsun ki, o mübarək cəsədə qarşı təhqirə yol vermək ədəbdən kənar bir əməldir.

Sözün qısası, Dostum bahadır və Rzaqulu bəy, dərgah mülazimləri silkinə daxil edildilər, həddən artıq ənamlarla mükafatlandırıldılar. Hökm olundu ki, bütün əmirlər, qızılbaş əyanları və bu sülalənin tərəfdarları onlara ehtiram etsinlər. [Beləliklə,] xidmətləri layiqincə qiymətləndirildi. Həmin pak nəşi isə müqəddəs adamların məzarları olan, lakin gizli məsləhətlərə görə məxfi saxlanılan yerə aparıb, şərafətli bir məkanda dəfn etdilər.

Amma, Xorasanın fəthindən sonra mən, [yəni] bu sətirlərin müəllifi, Şeyx Həsən Həffardan eşitdim ki, belə deyirdi:

"Cənnətməkan şahın mübarək qəbrinə (həriminə) naməhrəm əli dəymədi".

Misra

Dəfn olundu və möhürləndi qəbir.[607]

Buraya (Məşhədə - Ş.F.) gətirilən həmin nəş isə müqəddəs rövzənin nurlu və ətirli seyidlərinin birinin nəşi idi ki, cənnətməkan şahın pak ruhunun sayəsində düşmənlərin fitnə və şərindən uzaq oldu və elə bir şərafətli məkanda dəfn olundu.

Misra

Nə xoş səadəte-dünyavü din, nə xoş yardım![608]

ALLAHIN TƏQDİRİ İLƏ BU İL BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏRİN BƏYANI

Bu il aləmpənah dərgaha aləmin hər yerindən elçilər gəldilər, onların bəzisi Qəzvində, bəzisi isə İsfahanda şahla görüş səadətinə yetişdilər. Ali dərgahda o elçi və mehmanlarla birlikdə elə bir məclis təşkil olundu ki, keçmiş vaxtlarda elə məclislər az keçirilərdi. Hər diyardan gətirilən töhfə və hədiyyələr [şaha] təqdim olundu. Onlardan Hindistan məmləkətlərinin uca məqamlı, Firidun* bargahlı hökmdan Cəlaləddin Məhəmməd Əkbər padşahın elçiləri Mirzə Ziyaəddin Kaşi və Əbu Nəsr Xafi idilər ki, onlar yeddi il bundan əvvəl Hindistana göndərilən Yadigar Sultan Rumlu ilə gələrək həmin darüssəltənədə şahla görüş səadətinə çatdılar. Kaşan qazisi Mir Rəfiəddinin oğlu olan Mirzə Ziyaəddin iyirmi beş ilə yaxın idi ki, Hind vilayətinə getmiş, o əzəmətli padşahın (Hindistan padşahının - Ş.F.) mülazimləri silkinə daxil edilmiş və orada tam ixtiyar sahibi olmuşdu. Əbu Nəsr isə Xaf vilayəti əhalisindəndir. Bu yaxınlarda onların hər ikisi Yadigar Sultan Rumlu ilə birlikdə

[607] Misranın farscasr.
Be həman mohr-o neşanəst ke bud.
[608] Misranın farscası:
Zəhi səadəte-donya vo din, zəhi tovfiq!

[Hindistandan] İran elçiliyinə göndərildilər, Kələç-Mükran yoluyla Kirmana və oradan da bu səadət aşiyanlı dərgaha gəldilər.

Fərmana əsasən Qəzvinin Səadətabad meydanı çırağban olundu, bazarları bəzədilər. Əlahəzrət elçilərə bir neçə gün [həmin] meydanda ziyafət (tuy) verib, izzət və ehtiram göstərdi. Onlar Şeyx Mübarəkin oğlu Şeyx Əbülfəzl tərəfindən ürəkaçan böyuk məhəbbət və dostluqla yazılmış bəlağət üslublu məktubu şahın nurlu nəzərinə yetirdilər, dağ peykərli dəvələrlə gətirdikləri töhfə və hədiyyələri Səadətabad meydanında hümayun şaha göstərdilər.

Meydandakı seyr və söhbətlərdən sonra şahın xatirinə İsfahanın seyrini etmək və Nəqşi-cahanın* işrətli saraylarını görmək düşdü və işrət və kamranlıqla o istiqamətə rəvan oldu.* Həmin behişt nişanlı məkanda, ətraf yerlərə göndərilmiş elçilər bir-bir gələrək, şahla görüşməklə müşərrəf oldular. Onların biri Əsəd bəy Kürqıraq (?) Təbrizidir ki, bir neçə il bundan əvvəl elçi sifətilə Hindistanın Dekən vilayətinin əzəmətli sultanlarının yanına getmişdi. O, oradan bu il qayıtdı, özü ilə hind malları dolu yüklər (barxane) və layiqli peşkəşlər gətirdi. Herat hakimi Mir Qulbaba Kukəltaşın yanına elçi gedən İslam bəy Yüzbaşı Şamlı [da] gəlib çıxdı. Şahla görüşə gəmiş yüzbaşının elçiləri də gətirdikləri töhfə və hədiyyələri ona göstərdilər və şahanə nəvazişlərlə sərəfraz oldular. Aydın idi ki, Mir Qul-babanın əlahəzrətlə ülfət və dostluğu Abdulla xanın əmri və işarəsi ilə yerinə yetirilmişdi. Abdulla xan dostluq qapılarını açdığı üçün əlahəzrət də, zamanın qayda-qanununa riayət edib, xan ilə yazışma qapılarını açdı. Məhəmmədqulu bəy Əreykərlini (?)[609] oraya elçi təyin etdi və onu Mir Qulbabanın buraya göndərilən adamlarıyla oraya göndərdi. Həmçinin əzəmətli Gürcüstan sultanlarının elçiləri gələrək, şahın sonsuz nəvaziş və iltifatına yetişdilər və geri döndülər.

Bu ildə baş verən hadisələrdən biri də budur: Bağdad darüssalamının bəylərbəyisi tərəfindən söz-söhbətli bir elçi də gəldi, öz bağlılığını və sədaqətini ərz etdikdən sonra Gilan valisi Xan Əhməd xanın vəfatı xəbərini çatdırdı. O, İstanbulda təbii əcəllə dünyadan köçmüşdü.

Bəxtiyarı lurlarının ata-babadan mir və mirzadələrindən olan Əmir Tacmir Bəxtiyari indiyədək xilaf səhrasının vəhşisifət məxluqları kimi heç kim tərəfindən hələ ram edilməmişdi. O,

[609] Bəlkə də "Ərəbgirli" olmalıdır - Ş.F.

səmimiyyət və sədaqətlə dərgaha gələrək ləyaqətli peşkəşlər təqdim etdi, keçən əyyamda etdiyi qüsurlara görə üzr istədi, bundan sonra [şaha] xidmət edəcəyini boyun oldu, faxir xələtlərlə mükafatlandırıldı, istəyinə yetdikdən sonra geri qayıtmağa rüxsət aldı.

Bu ilin başqa bir əhvalatı [isə] təkəli tayfasının şah qəzəbinə düçar olması və qətl edilmələridir. Cənnətməkan şahın dövründə Üləma və Qazi xan bu dövlətdən üz çevirib Ruma getdilər. Onlar öz hakimləri olan Məhəmməd xan Şərəfəddinoğluya qarşı müxalifət edərək İraqi-Ərəb vilayətini və Bağdadı Rum xandgarı Sultan Süleymana verdilər. Onlara nəvvab Sultan Həmzə Mirzənin də diqqət və hörməti yox idi. Fərhad xan bu il fəth üçün göndəriləndə, şaha ərz etdilər ki, təkəli tayfasından bir neçə adam Məlik Bəhmənin mülazimi olmuş və Amel qalasını əllərində saxlamaqdadırdar. Bu xəbər şahın qəzəb atəşini şöləndirdi və o, həmin tayfanın qətli-am olunmasına fərman verdi. Qərara alındı ki, o tayfanın hər bir üzvü, harada olursa-olsun, o yerin hakimi tərəfindən qətlə yetirilsin və əmlakları müsadirə olunsun. Onların əksəriyyəti Həmədanda və Əlişəkərdə yaşadığından, bu barədə şərafətli hökm Həsənəli xan Çekəninin adına sadir olundu, o da həmin tayfanın çox üzvünü ədəm yoluna yolladı. Bu hadisə zamanı ədəm yolunu qət edən o tayfanın əzəmətli adamlarından biri Müseyib xan Şərəfəddinoğlunun oğlu Mustafa xandır. Şahın qəzəb atəşi yatdıqdan sonra Vəli bəyə və başqa təkəlilərə rəhm olundu və sağ qalmış təkəli qorçiləri yenə də əvvəlki kimi qorçi oldular.

Ölümlər

Bu il baş vermiş iqbal hadisələrindən biri də Sultan Heydər Mirzə ibn Sultan Həmzə Mirzənin vəfatıdır. O, bu diyar müsəlmanlarının vəziyyətinin qayğısına qalaraq İstanbula göndərildi. Sultan Heydər Mirzə bu dövlətin çöhrəsinin xalı olduğundan, layiq deyil ki, səfəvi şahzadələrinin və pak etiqadlı şiə seyidzadələrinin biri Rum ölkəsindəki məzhəb müxalifləri arasında övlad və nəsil (əqab) sahibi olsun, yaxud olmasın[610] [Heydər Mirzə] hələ övlad və nəsil dünyaya gətirməzdən əvvəl İstanbulda taun xəstəliyindən vəfat etdi: Bu müqəddəs dudmanın tərəfdarları və

[610] İfadənin ərəbcəsi: "ləm yəzəl lə yəzəl".

bütün İran əhalisi bu hadisəni bu kəramətli xanədanın dövlət və iqbalının sonu kimi dəyərləndirdi, həmin mərhum şahzadənin qəziyyəsindən kədərləndi.

Bu ildə baş vermiş hadisələrindən biri də Əliyar xan Əymurun Astrabad yaxınlığında vəfatıdır. Astrabadın kuklən (?), oxlu və siyahpuşlar tayfaları içərisində ən gözəl çöhrəli (səbihül-vəch) cavan olan Əliyar xanın oğlu Məhəmmədyar atasından üz döndərib (xayef), Astrabadın əzəmətli seyidləri zümrəsindən olan Mir Ziyaəddinin oğlu Mirzə bəy Fendereskinin vasitəsi ilə bu vəlayət nişanlı dudmanın tərəfdar və xeyirxahları içərisində hamıdan baş oldu. O, ali dərgaha üz tutub, İsfahan darüssəltəsində şahla görüş şərəfinə yetdi. Birinci səhifənin əvvəlində cənnətməkan şah dövründə baş vermiş hadisələrdən yazılarkən deyilmişdi ki, sayinxani türkmanları Xarəzm sultanlarına aid idilər və Astrabad hüdudunda, Ətrək və Gərgan çayları arasında yaşayırdılar. O təbəqə zümrəsindən olan əymur tayfası sayinxani qəbilələri arasında başqalarından az olmalarına baxmayaraq, Əliyar xan öz əqli, biliyi, inkişafı və bacarığına görə xeyli irəli getmişdi və başqa qəbilələr də onu böyük kimi tanımışdılar. Bu tayfanın bir neçə üzvü cənnətməkan şahın dövründə Gərgan çayı kənarına gəlmiş və orada əkinçiliklə bərk məşğul olmuşdular. Onların bəziləri bəzi vaxtlarda Astrabad hakimlərinə tabe olub onlara əkinçilik məhsulları vermiş, bəzi vaxtlardasa üsyana qalxmışdılar. Onların cahil və azğın adamları bu məmləkət adamlarına qarşı əliuzunluq da edirdilər. Cənnətməkan şahın vəfatından sonra qarışıqlıq düşən vaxt qızılbaşlardan heç kim Astrabadda qala bilmədi. Oranın hər bir bölüyündən (bəluk) əyanların hər biri siyahpuşluq qaydasına əməl edib, sayinxani türkmanlarını dəf etmək və öz mallarını qorumaqdan ötrü qala inşa etmiş, çoxlu tüfəngçi və kamandar toplamışdılar. Onların mənəm-mənəmlik sədaları başqalarının qulaqlarına da çatmışdı. Adı çəkilən Əliyar o tayfa ilə aqilanə tərzdə davranaraq, ona verilən azacıq hədiyyə və kiçik xidmətlərlə razılaşır, onlarla qarşıdurma yaratmırdı. Ali hümayunun hakimiyyəti vaxtı özbəklər Xorasanda iqtidar bayrağı qaldırdılar, Astrabada bitişik olan Xarəzm vilayəti də daxili fitnə-fəsad nəticəsində Mavərənnəhr özbəklərinin əlinə kcçdi. Əlahəzrət, özbəklərlə həməqidə və həmməzhəb olan yəqə türkmanlarının onların istəyi ilə Astrabada yol tapmalarından ehtiyatlandı. Buna görə də o, Mirzə bəyin vasitəçiliyi ilə ali dərgaha gedib-gələn Əliyarla zəmanəyə uyğun hərəkət edib, Astrabad əyaləti

idarəçiliyini ona verilməsi hökmünü çıxardı, onunla sülh təriqi ilə davrandı. Əliyar buna sevinib şəhərə darulğə yolladı, özü isə Gorgan hüdudunda iqamət edərək siyahpuşlarla yaxşı münasibətdə yaşamaqda davam etdi. Məhz onun bacarığına görə Astrabad əhalisi başqa sayinxani qəbilələrinin şərindən mühafizə olunurdu. Bu minvalla bir neçə il keçdi. Onun bu tədbiri ümumiyyətlə təqva əhli olan, hamısı taət və ibadətə bağlı Astrabad əhalisini razı salır, münasibətlərini yaxşılaşdırırdı.

Xülasə, Əliyar xan vəfat etdiyi vaxt onun oğlu ali dərgaha gəldi, şah yenə də ehtiyatı əlində əsas tutaraq Astrabadın idarə olunması hökmünü elə atası [Əliyar kimi] Məhəmmədyar xanın adına sadir etdi, ona çoxlu nəvaziş iltifat edərək həmin məkana rəvan etdi.

Bu ildə baş vermiş ölüm hadisəsindən biri də Ağa Şahəli Dövlətabadi İsfahaninin vəfatıdır. O, mustovfiülməmalik idi. Cah-cəlal ordusu İsfahana gəldiyi vaxt mustovfi zatul-cənb* xəstəliyindən dünyadan köçdü. O pəhrizkar, nəfsitox adamdı. Orada işlədiyi vaxtlarda əhali ilə yaxşı davranırdı. Soyaq elmində və yazı yazmaqda misilsiz bir mühasiblər ustadı (üstadül-mühasebin) idi. İstedad sahiblərinin birisi bu qitəni onun [maddeyi-]tarixi kimi demişdir:

Qitə

Mustovfisi İranın şahının
Düzgünlük olan məkanə getdi.

Xəlq ağladı, zar-zar sədası
Yeddinci o asimanə getdi.

Əhd eylədi qəlbi ki, yox olsun
Və meyli onun o yanə getdi

Bir nöqtəni “qaf” itirdi, dindi:
"Qanune-hesab talanə" getdi.[611]

[611] Qitənin farscası
Mustovfiye-padşahe-İran
Əz dəhr becaye-rastan rəft.

Bu [maddeyi-]tarixdən məqsəd "qaf" sözündəki iki nöqtədən birinin yox olmasıdır ki, bunu [əbcəd hesabı ilə] hesabladıqda alınan ədəddən "iyirmi" rəqəmi azalır və mustofinin ölüm tarixinə müvafiq olan "min beşinci" il alınır. Şah onun ailəsinin qayğısına qaldı və mustovfilik mənsəbini onun qardaşı Ağa Mirzə Əliyə verdi.

ƏLAHƏZRƏT ZİLLƏLAH ŞAHIN CÜLUSUNUN ON BİRİNCİ İLİNƏ TƏSADÜF EDƏN TÜRKİ XORUZ İLİNƏ BƏRABƏR MİN ALTINCI (MİLADİ 1597/98) XOŞ AMALLI İLİN BAŞLANMASI

Bu hümayun fallı sevinc ilinin novruzu səban ayının ikisinə, (miladi 1598, 10 mart) cümə gününə təsadüf etdi. Fələk iqtidarlı kamkar şəhriyar, yəni əlahəzrət zilləllah şah Qəzvin darüssəltənəsindəydi. Hava baharın istəyinə xilaf çıxıb, bəzi adamların qara bəxti kimi qaraldı, buludun gözü bir ləhzə belə ağlamağını saxlamadı. Şaxta qış fəslində olduğu kimi şiddətləndi. Asimandan davamsız yağan qarın çoxluğundan əhali bir neçə gün novruzu bayram edə bilmədi. Şaxta qoşunu məğlub olandan sonra güllərin qalibiyyətli ləşkəri baharın işrət mülkünə toplaşdı və şadmanlıq iqliminin hökmranı oldu. Dünya şəhriyarının fərmanı ilə mübarək dövlətxananın Çehelsütun sarayında behiştə bənzər məclis quruldu, ətraf yerlərin sultanları və sultanzadələri, həmçinin ali sarayda olan elçilər həmin məclisə gəldilər, şahanə söhbətlər başlandı. Səadət əyyamının müxtəlif təbəqədən olan insanları görüşə gələrək novruzu təbrik etdilər.

Belə bir vəziyyətdə, bu xoş fallı ilin əvvəlində, tale və iqbal səadətinin şərqində parlaq bir ulduz göründü, yəni Allah-təala Cəm məqamlı şaha "ləm yəlid və ləm yuləd"[612] evindən əziz (ərcoməd)

Z-in vaqee şivəne xəlayeq
Əz qosse be həftom asiman rəft.
Del mitələbid sale-fovtəş,
Dər bəhre-soxən be fekre an rəft.
Yek noqte ze qaf sər zəd-o qoft:
"Qanune-hesab əz miyan rəft".

[612] Quranın bir surəsindən. Tərcüməsi belədir: "O doğmamış və doğulmamışdır" - Ş.F.

bir fərzənd əta etdi və həmin səadətli uşaq Mirzə Sultan Məhəmməd adlandı. Bu xoş xəbəri bildirməkdən ötrü məmləkətlərin hər yerinə carçı (monhi) göndərildi, bir neçə gün şadimanlıq nağaraları çalındı, böyük-kiçik, cavan-qoca adamlar o xoşbəxt mövludun səadətli qədəmlərini təbrikə başladılar, eyş və şadimanlıqla məşğul oldular. Əlahəzrət hər gün öz şərif vaxtını Səadətabad meydanında çovkan və qəbəqəndazi oyunlarına sərf etdi, dincəldi və sevindi. Bu işlər bitdikdən sonra özünün gözəl rəyi və uzaqgörən fikri ilə din və dövlət işlərini nizamlamağa, habelə mülk və millət işlərini tənzimləməyə davam etdi, səltənətin zəruri məsələləri ilə məşğul oldu.

Bu ilin əvvəllərində özbəklər ayaqlarını mötədillik dairəsindən kənara çıxarıb, iki tərəfdən məmləkətlər üzərinə soyğunçuluğa keçdilər. Onların talanları Xorasandan İraqa qədər uzandı. Özbək döyüşçülərinin bir neçəsi Bəstama və Damğana gəldilər, onların bəziləri qarətdən ötrü müxtəlif mahallara dağılışdılar, bəziləri isə yoldaşlarına kömək pusqusunda durdular. Həmədanın idarəsindən çıxarılandan sonra Bəstamın hakimi olmuş Hüseyn xan Çekəni, həmçinin o zaman Bəstamda olub yollara nəzarət edən Amir Mirzə Əli bəy Ərəb ehtiyat ipinin ucunu əldən verdi, onlar qarətgər özbək ləşkəri gəldikdən sonra özlərinə ləşkər toplamaq əvəzinə bir neçə adamla onlardan müdafiə olunmaqdan ötrü atlarını irəli sürdülər. Pusquda dayanan özbəklərin bir hissəsi onların dəstəsini parçaladılar, bir çoxlarının həyatına son qoydular.

Xeyli döyüşən Həsənəli xan və Mirzə Əli Ərəb qaçılmaz ölüm şərbəti içib ədəm yoluna yollandılar. O qarətgərlərin başqa bir dəstəsi isə Damğanın Kuhərz biyabanı yoluyla Tərşiz yolunu kəsdilər. Onların qarətkarlıqları Arana və bir yanı Kaşanın Bilgelinə bitişik olan yerlərə də yayıldı. Semnan daruğəsi də Həsənəli xan kimi ibrət dərsi ala bilməyərək, əksəriyyəti Semnan taciklərindən (tazik) ibarət bir neçə adamla onların dallarınca atlanıb səhraya yollandı. Geri dönən özbəklərlə onların arasında bərk vuruş oldu. Daruğə heç bir iş görə bilmədi və semnanlılar məğlub olub pis hala düşdülər.

Amma, Çeşmqəzək əmiri Şahəli xan Xar ülkasında bundan xəbər tutub Çeşmqəzək qaziləri ilə onların təqibinə yollandı, səhrada onlara çatdı və cəngə başladılar, bir neçə özbək bahadırını atdan salıb həlak torpağına endirdilər. Özbəklər müqavimətə tab gətirməyərək məğlubiyyətə uğradılar, halları pisləşdi, qarət etdikləri

mallardan əl çəkdilər, fərar yoluna düşdülər. Onların qənimətlərini geri qaytaran Şahəli xan zəfərlə geri qayıtdı, qətl olunanlarm başlarını və əsir götürülən özbəkləri aləmpənah dərgaha gətirdi.

Bu hadisədən sonra özbəklər ayaqlarını ətəklərinə yığıb, başqa yerlərə əliuzunluq etmədilər. Amma, ehtiyatkarlığı əldən verməməkdən, habelə özbəklərin əlini bu yerlərdən çəkməkdən, həmçinin həmin sərhəddə fitnə-fəsadla məşğul olan Əlixan Gəraylının üsyanının qarşısını almaqdan ötrü gərək bir dəstə müzəffər qızılbaşı Bəstama tərəf göndərəydilər ki, Xorasan hüdudundan xəbərdar olsunlar, Əlixanın fitnəsini dəf etməyə başlasınlar. Bəstam əyaləti Həsənəli Çəkəninin qardaşı Bayraməli Sultana, Gəraylı elinin əmirliyi isə o tayfanın köhnə mirzadələrindən olan Mirzə Əli Xəlifənin oğlu Dərviş Əli Xəlifəyə verildi.

Qum hakimi Hüseyn xan Şamlı, Durmuş xan Şamlunun nəvvadəsi Vəlixan Mirzə və Rey hakimi Hüseyn xan Müsahib Qacari qoşun bəzəyərək Bəstama göndərdilər. Belə qərara alındı ki, Xorasanın Qəllat qalasınadək gedib, Bəstam çəmənində dayansınlar, əgər özbəklər əliuzunluq etsələr müdafiəyə başlasınlar, Xorasanın hər tərofindən xəbordar olsunlar. Məhsullar yığılıb, qalalara ərzaq ehtiyatı daşındıqdan və müxaliflərin zərərindən xətircəm olduqdan sonra qərar belə oldu ki, Hüseyn xan Qacar öz ülkasına, Qum hakimi Hüseyn xan isə şamlı camaatı ilə Gəraylı elinə getsin, oranı Əlixanın əlindən alsın, Dərviş Əli Xəlifəni o vilayətin hakimliyi taxtına əyləşdirsinlər. Əzəmətli əmirlər əmrə əməl edib o yerdən xətircəm oldular. Hüseyn xan Qacar geri qayıtdı, Hüseyn xan Şamlı isə fərman alıb həmin qalaya yollandı, bu qüvvətli dövlətin gücü ilə oranı alaraq Dərviş Əli Xəlifəyə verdi, məramına yetərək ali saraya qayıtdı, şahanə nəvazişə layiq görüldü. Əlixan Gəraylı isə iztirabla qaladan əl üzüb həmin hüdudda çaşqınlıqla dolaşırdı. Gəraylı bəyləri və ağsaqqalları şahsevənlik elan edərək ondan ayrılıb Dərviş Əli Xəlifənin xidmətinə gəldilər. Əlixan Gəraylı bu dövlətlə müxalifət etməkdən peşiman olub, nəsə bir çarə axtarmaqdaydı. Öz etibar ipini əlindən verdiyi üçün haramnəməkliyə qurşandı, əməlinin cəzasına giriftar oldu. Hümayun cülusdan bu günədək İlahinin istəyi şaha tərəf olduğundan fəthlərin qapıları bu əbədi dövlət övliyalarının üzünə açılmış oldu.

Amma, bu mübarək ildə bir neçə qələbə üz verdi, keçmiş illərdəkilərdən də çox İlahi lütf küləkləri hərəkətə gəldi, bütün Təbəristan vilayəti, Mazandaranın uca qalaları, həmçinin Rüstəmdar

və Luristan ülkası bu qüvvətli dövlət övliyalarının əlinə keçdi, üsyan ohli olanlar, xüsusib Əlixan Gəraylı, Kəcur və Lahican məlikləri, Luristan hakimi Şahverdi xan giriftar oldular ki, bu il hadisələrin sonunda yazılacaqdır, inşaallah.

RÜSTƏMDAR VİLAYƏTİNİN FƏTH OLUNMASI, HƏZRƏT YARADANIN İNAYƏTİ İLƏ O VİLAYƏT QALALARININ VƏ MƏLİKLƏRİNİN TUTULMALARININ ZİKRİ

Gilan və Mazandaran arasında yerləşən Rüstəmdar vilayəti Mazandaranın Amelindən Gilanın Tənkabonuna qədərki ərazini əhatə edir. Eni Dəmavənd dağından Xəzər dəryasının kənarına qədərdir. Abbasiyyə xəlifələrinin dövründə* bütün Rüstəmdar vilayəti ətraf yerləriylə birlikdə Məlik Kəyumərs ibn Bistun ibn Göstəhəmin əcdadının zəbti altındaydı, onların nəsəbi Camasb Nuşirəvanın əmisi ibn Firuz ibn Qubad Sasaniyə çatırdı. Zaman ötdükcə oranın bəzi mahallarına, xüsusiylə qədim vaxtlarda Rüstəmdarın hakimneşini və paytaxtı olmuş Ruyan şəhərinə dağıntılar yol tapmış, bu vilayətin bəzi yerləri isə, İran sultanlarının işğalı altına keçərək, İraqa daxil olmuşdu. Rüstəmdarların əllərindəsə Lahican, Nur və Kəcur qalmışdı ki, onlar da məliklərin övladları arasında, yuxarıda yazıldığı kimi, bölüşdürüldü.

Cənnətməkan şahın dövründə onların üç təbəqəsi hökümət və mülk işlərində oldu. Qədimdən Kəcurun tabeliyindəki Lahican valisi Məlik Bəhmən, Nur valisi Məlik Əziz, Kəcur valisi Məlik Sultan Məhəmməd. Əlahəzrət hümayun zilləllah şahın cülusu zamanı Məlik Sultan Məhəmməd və Məlik Əziz artıq ölmüşdülər, hər iki məlikin adları Cahangir olan oğlanlarının hər biri özlərinin irsi mülklərinə sahibləndilər, hümayun ordu Lar yaylağında olanda onların hər ikisi ali saraya gələrək mülazimətə yetişdilər vo padşahhq sənədi aldılar. Nur valisi əmin-amanlıq xoşlayan bir dərviş idi. O öz ülkasını peşkəş etdi və xahişinə görə Savənin bir məhəli ona iqta kimi verildi, elə orda da öz təbii əcəli ilə öldü. Kəcur hakimi Məlik Cahangir şahın xüsusi yaxınları və məclis iştirakçıları silkinə daxil idi. Yaxın adamlarının həsədinə tuş gələn məlik hələ öz irsi mülkündə əyləşmişdi. Onun vəziyyəti haqqında Məlik Bəhmən övladının təsvirindən sonra məlumat veriləcəkdir, inşaallah.

Xülasə, yuxarıda yazıldığı kimi, Məlik Bəhmən öz savabsız əməllərinin cəzasına gəldikdə onun on yeddi yaşlı böyük oğlu Məlik

Keyxosrov öz qardaşları və ev adamlarıyla (əhli-beyt) Doşmənkur qalasındaydılar. Onlar öz xəzinə və dəfinələrini oraya aparmışdılar və düşünürdülər ki, qala onun və övladının əlində qaldıqca onlara hcç bir sədəmə yetməyəcəkdir.

Amma, Məlik Keyxosrov atasının vaqiəsindən sonra padşah qəzəbi barədə çox düşündü. Onun şahla müxalifət etmək qüvvəsi yox idi. Məlik Bəhmənin mülazim və təbəələri onun yaramaz əməllərindən və zülmkarlığından elə incik idilər ki, məlikin yoxluğunu özlərinin rahatlıqları bilib, qalanı mühafizə etmək və onun fərzəndlərini qorumaq istəyində olmadılar. Sözün qısası, Məlik Keyxosrov çarəni ali saraya getməkdə görüb, öz sülaləsinin bir neçə ağsaqqalı ilə cahanpənah dərgaha gəldi, şahla görüş səadətinə yetişdi. Boyun oldu ki, qalalarını ali divana təhvil versin. Şamlı tayfasının böyüklərindən və şaha yaxın adamlardan olan Məhəmməd bəy Biqdeli Məlik Bəhmənin malının zəbtinə, onun qalalarının və fərzəndlərinin həbs edilməsinə rəvan oldu, qüvvətli dövlətin qüvvəti ilə möhkəmlikdə dünyada məşhur olan Lahican və Doşmənkur qalalarını tutdu, Məlik Bəhmənin pullarını, qiymətli mallarını, tüfəng və başqa silahlarını, qala ləvazimatlarını, amirlik və böyüklük rəmzi olan başqa yaraqlarını zəbt edərək, onları onun təbəələri və fərzəndləri ilə birlikdə Qəzvin darüssəltənəsinə gətirdi.

Əlahəzrət şah Məlik Sultanhüseynə vəd etmişdi ki, əgər Allahın inayəti və istəyi ilə Məlik Bəhmən ələ keçərsə, həmçinin onun qalaları və fərzəndləri tutularsa, onların hamısı ona veriləcəkdir. Allahın istəyi sayəsində elə də oldu, Məlik Bəhmənin savabsız əmməllərinin mükafatı onun iki oğluna da yetişdi, onlar padşahın qəzəbinə giriftar oldular, bütün kişi və qadınlarını Məlik Sultanhüseynə verdilər, o da Allahm təqdiri ilə öz lazımi qisasını aldı. Ləvasan ülkası Məlik Sultanhüseynə verildi, Lahican isə qızılbaş hakiminin tiyulunu çevrildi və beləliklə, həmin sülalənin hakimiyyəti bitdi, əməllərinin mükafatı kimi ailə üzvləri fənaya uğradı. Məlik Bəhmən qəddar adamdı, az günah müqabilində çoxlu cəza verirdi. Onun zindanında elə adamlar vardı ki, kiçik bir xətaya görə iyirmi il, otuz il həbsdə saxlanırdılar. Bir şəxs belə danışırdı ki, atasının və qardaşının intiqamını almaqdan ötrü bir qadını bir neçə il zindanda saxladı və o qadının ömrü zindanda da tamam oldu.

KƏCUR VİLAYƏTİNİN FƏTHİ VƏ MƏLİK CAHANGİRİN ƏLƏ KEÇMƏSİNİN ZİKRİ

Bundan əvvəl yazılmışdı ki, Məlik Cahangir şahın mülazimətinə gedib izzət və ehtiramla qarşılanmış, əlahəzrət məlikdə divanə bir sadəlövhlük gördüyü üçün ona böyük şəfəqqətlə yanaşmışdı. Amma, cəhalət və divanəliyi ona üstün gəldiyindən boş vahiməyə düşərək, izzət və etibara nail olduğuna baxmayaraq, şah astanasından dəli kimi üz çevirdi, saraydan fərar edib Kəcura getdi, qalalarını möhkəmlədib üsyan yolunun yolçusu oldu. Hümayun hökmdar Lahican qalalarının fəthindən və Məlik Bəhmən övladlarının tutulmalarından xatircəm olduğu üçün, Kəcuru almaq və o aqibətsiz sərxoşu ələ keçirmək qərarına gəldi, Allahqulu bəy Qorçibaşının sərkərdəliyi ilə əzəmətli qorçilərə bu işi yerinə yetirmələrini tapşırdı, onlar da Qəzvin darüssəltənəsindən çıxaraq həmin istiqamətə yollandılar. Məlik Cahangir "Marankuh"[613] adı ilə məşhur olan Kəcur qalasına sığındı, əzəmətli qorçilər həmin qalanı mühasirəyə aldılar, qalatutma işlərinə başladılar. Xasseyi-şərifə topçuları qala ayağında böyük top töküb, onu qalaya tuşladılar. Tərəflər arasında hər gün savaş gedirdi. Mühasirə müddəti dörd aya qədər uzandı. Bu əsnada təəccüblü bir hadisə baş verdi. Rüstəmdarlar [qızılbaşlara qarşı] hiyləgərliyə (ğədr) başladılar, onların bu niyyəti gizli qalmadı. Məsələ belə olmuşdur: O yerin qalalarının birində bir neçə əzəmətli məliklər məsləhətləşdilər və belə xəyala düşdülər: [Qorçilər] ləşkərinin sərdarı olan qorçibaşını hiylə qılıncı ilə öldürüb, Marankuh qalasında mühasirədə qalanları mühasirə əziyyətindən azad etsinlər.

[Beləliklə] onlar itaət və şahsevənlik izhar edərək əlli nəfərədək adamlarıyla birgə qalalarından çıxıb qorçibaşının yanına gəldilər və Marankuh qalasının fəthi xüsusunda ona vəd verdilər. Qorçibaşı məsələni ali saraya ərz etdi və onlara gözəl libaslar inayət olundu, şahanə nəvazişlərlə şərəfləndilər.

Amma, əlahəzrət qeyb aləminin ruh verən ilhamı (elhame-molhəm) ilə qorçibaşıya tapşırdı ki, rüstəmdarlıların məkr və hiyləsinə inanmayıb ehtiyatkarlığını əldən verməsin.

Qalalardan gələnlər əyinlərinə dövlətxahlıq libasları geyinərək bir neçə vaxt qızılbaş ordusunda qaldılar. Onlar hər gün

[613] Marankuh-farsca "İlanlar dağı" deməkdir - Ş.F.

qorçibaşının çadırına (xərgah) gəlib, qalanın işinin bitməsi xüsusunda tədbir tökür, fürsət gözləyirdilər. Qorçibaşı əql və biliyinin çox olmasına baxmayaraq onlara aldanıb, sözlərinə inanmaqdaydı. O hamama getdiyi gün qalalardan gələnlər qala barədə zəruri söhbətləri olduğunu bildirib, yaraq-əsləhə ilə hamama gəldilər. Məlumatlı bir şəxs elə o vaxt qorçibaşını vəziyyətdən xəbərdar etdi. Qorçibaşı da hamamdan çıxmazdan əvvəl yüzbaşıları çağırmaqdan ötrü bir adam yolladı və onların həbs olunmalarına işarə etdi. Bir göz qırpımında (torfətül-eyn) onların hamısı zəncirləndi (səlasel). Məsələ aydınlaşandan sonra başqalarını yox etmək istəyən qaladan gələnlərin hamısı yox edildilər. Əzəmətli qazilər iti qılınclarını o hiyləgərlərin üzərinə qaldıraraq, onların nifaqlı vücudlarını varlıq lövhəsindən sildilər. O adamların qətl olunmalarından və qalaların alınmasından sonra qaladarlıqdan bezən Məlik Cahangir qardaşlarını Marankuhda qoyub özü bir gecə başqa qalaya getdi. O, orada da qala bilmədi, meşə və cəngəlliklərə gəldi. Hər gün bir məkanda, hər gecə başqa bir yerdə gününü başa vururdu. Bir neçə gündən sonra əzəmətli qazilər xəbər tutdular ki, Məlik Cahangir qalanı tərk etmişdir. Qaladakılar qala divarının yanına çoxlu ağac yığmışdılar. Top atəşi ilə kərpic bürclərin birini yıxdılar və odunlar görsəndi. İki-üç qorçi qara libas geyinib gizlicə bürcün divarına çıxdılar, özləri ilə gətirdikləri neft və kibritlə həmin ağacları odladılar, bürc yanmağa başladı. Mühasirədəkilər həmin atəşdən üzərrik kimi (sepəndvar) qovruldular, müqavimət və qaladarlıqdan aciz qalıb "əl-aman" fəryadını göyə qaldırdılar. Beləliklə, qala qapıları qüvvətli dövlət övliyalarının üzünə açıldı və əzəmətli qorçilər qalaya girərək Məlik Cahangirin qardaşlarından Məlik Kəyumərsi ələ keçirdilər. Amma, Hərsin (Hərseyn ? - Ş.F.) qalasında olan başqa qardaşı Məlik Əşrəfi o zaman Tənkabonun hakimi olan İbn Hüseynxan Firuzcəng tutub qorçibaşının yanına gətirdi və Kəcur hərbçilərinin başçıları öz cəzalarına çatdılar, başqa adamlar isə rəiyyət silkinə daxil oldular.

Bu qalanın fəthindən sonra əzəmətli qazilər dəstə-dəstə meşələrə dağılıb Məlik Cahangirin axtarışı ilə məşğul oldular. İlahi təsadüf nəticəsində, şahın hökmüylə qorçibaşıya köməyə gələn Gilanın Rankuh şəhərinin hakimi Vəli Sultanın mülazimləri yolla gedərkən, libasını dəyişib öz adamları ilə meşədə daldalanan Məlik Cahangirlə qarşılaşdılar. Həmin sufiləri görən Məlik Cahangir yoldaşlarının başını onlarla cəngə qatıb, özü qaçdı, adamları isə

sufilər tərəfindən məğlub edildilər. Onların biri məliki tanıyaraq, yoldaşlarını bundan agah etdi. Sufilər təqibdən əl çəkməyib qüvvətli dövlətin gücü və iqbalın düşərliliyi sayəsində darısqal bir keçiddə ona çatdılar, atlardan enərək cəngə başladılar.

Sözün qısası, məlik və yoldaşları ələ keçdilər. Sufilər məliki qorçibaşının ordusundan keçirib ali dərgaha apardılar. Qorçibaşı isə bu qələbəni olduğu kimi ali saraya yazdı. Müzəffər ordu Luristandan qayıdan vaxt Şahverdi xan Abbasini də ələ keçirmişdilər. Bu xəbər hümayun qulağa yetişdikdə əlahəzrət [şah] qapılar açan həzrətə (Allah-təalaya - Ş.F.) minnnətdarlığını bildirdi, təşəkkürünü izhar etdi. Bu fəth zaman İbn Hüseynxan və onun adamlarından layiqli xidmətlər zahir olduğu üçün ona əvvəlcə Kəcur ülkası və celdu* şəfqət olundu. Xorasanın fəthindən sonra ibn Hüseynxan Sərəxs hakimi oldu və Kəcur qorçibaşıya verildi.

Qorçibaşı Məlik Cahangirin qardaşlarını və başqa əsir alınanları özüylə götürüb ali dərgaha rəvan oldu. Fərmana görə Savucbulaqda bu məliklərin və onların adamlarının vücudları padşahın qəzəb qılıncı ilə həyat səhnəsindən silindi. Rüstəmdarın hər üç təbəqəsi ilə dövlət hesablaşıb qurtardı və vilayət bütünlüklə əzəmotli qızılbaş əmirlərinin əlinə keçdi.

ƏLA HƏZRƏT ZİLLLƏLAH ŞAHIN LURİSTAN HAKİMİ ŞAHVERDİ XANA HÜCUMU, ONUN ƏLƏ KEÇMƏSİ, HƏMÇİNİN VİLAYƏTİN ONUN DAYISI OĞLU HÜSEYN XANA VERİLMƏSİNİN ZİKRİ

Ruzigar hadisələrini zərifliklə yazan qələm öz söz səhifəsində belə yazmışdı: Cahan şəhriyarının (Şah Abbasın - Ş.F.) fərmanı ilə Fərhad xan və cənab Asəf xislətli etimaddüddövlə (Hatəm bəy Ordubadi - Ş.F.) Luristanın Xürrəmabad yoluyla Ərəbistana göndərilmişdilər. Onlara qoşulan Şahverdi xan Abbasi özünün sabiq hərəkətlərinin əfv olunmasını istədi, öhdəçiliklər boyun oldu və Fərhad xan və etimadüddövlə vasitəsi ilə təqsirinin bağışlanmasını şahdan xahiş etdi, onlar da, zamanın təbbinə əsaslanıb, onu şah inayətindən arxayınlaşdırdılar, Luristan ülkasının yenidən ona veriləcəyini vəd etdilər. Baxmayaraq ki, Uğurlu Sultan Bayatın Şahverdi xan tərəfindən öldürülməsinə, həmçinin sonra da etdiyi başqa əməllərinə görə şahın nurlu qəlbi ondan incimişdi və şahanə qeyrət bu xahişin yerinə yetirilməsinə izn vermirdi, amma

Fərhad xanın və etimadüddövlənin məsləhətini rədd etmədi, lakin həmin xahişi bir müddət ləngitdi. Amma, Şahverdi xanın hərəkətlərindən bu dövlət tərəfdarlarının burunlarına əsla sədaqət qoxusu gəlmirdi. Dünyadakı torpaq sahibləri (zəmindaran) kimi, o da [öz mənafeyini qoruyub] rumiyyə camaatı, Bağdad hakimləri ilə yazışmanı və gediş-gəlişi kəsmədi, hiyləgərlik və fitnəkarlıqdan əl çəkə bilmədi, elə buna görə də belə hərəkət şahın mübarək məzacına xoş gəlmədi və tərəfindən bəyənilmədi. Şahverdi xan da özünün sabiqdəki haqsız əməlləri barədə düşündüyündən həmişə vahimə, qorxu içərisindəydi, əlahəzrətin ona hücum edəcəyindən vahiməyə düşmüşdü. Elə buna görə də, Bərucərdə və Silaxura yaxın məsafədə yerləşən Xürrəmabada gəlmirdi. Bu il istiliyin şiddətlənməsindən və qəbilə ağsaqqallarının təkliflərini nəzərə alaraq Xürrəmabada gəldi. Elə bu əsnada Seyid Mübarəkin oğlu Seyid Bədr izn almadan ali ordudan Ərəbistana getdi, Luristan hüdudunda Şahverdi xan adamlarının əlinə keçdi. Əlahəzrət Əbülqasim bəy Qorçi Evoğlunu onu gətirməkdən ötrü yolladı. Şahverdi xan bir neçə gün o qorçinin başını söz-söhbətlə aldadıb Bədr xanın [dərgaha] göndərilməsini ləngitdi, vaxtı hiyləgərliklə uzatdı. Buna görə də, onunla Əbülqasim bəy arasında təhdidamiz söhbətlər başlandı. Axırda başqa çarə tapmadı və xanı istər-istəməz yola saldı.

Qorçi [geri qayıdaraq] Şahverdi xanın düşmən münasibəti və bədxahlığı barədə ərz etdi. Bu məsələ şahın məzacını bir daha pozdu və onu dəf etmək qərarına gəldi. Elə xanm özü də həmişə deyirdi ki, həzrət şah yaxın vaxtlarda mənim üzərimə hücuma keçəcəkdir. Bircə gecə də rahat olmurdu. Münhilər təyin etmişdi ki, hümayun ordu Qəzvin darüssəltənəsindən çıxıb hansı bir tərəfə gedərsə, onun keçdiyi yol barədə mənzil-mənzil xana məlumat versinlər.

Bu vaxt, şahın qulağına çatdı ki, Şahverdi xan Xürrəmabada gedib orada özünə xeymə qurmuşdur. Buna görə də, ona hücum etmək meylinə düşdü, öz xüsusi adamları və yaxınlarıyla məsləhətləşdi. Amma, başqa hərbçilərin şahın bu istəyindən xəbərləri olmadı. O həzrət isə uzaqgörən əqli ilə bilirdi ki, agah, tədbirli və hüşyar adam olan Şahverdi xan özünün mühafizəsi barədə düşünməyə bilməz. Xanı aldatmaqdan ötrü guya İsfahana gedəcəyini izhar etdi və o səmtə yola düşdü. Savəyə qədər gedib Savədən Avəyə təşrif apardı, Avədənsə Luristana tərəf yollandı. İyirmi fərsəxlik yol olan Bərucərdə çatanadək gecə-gündüz yol

getdi, fələklər fələyi kimi (fələkül-əflak) bircə ləhzə belə hərəkətdən qalmadı. Müqəddəs ordu mülazimlərinin əksəriyyətinin atları taqətdən düşdüşdü. Bərucərd yaxınlığına çatana qədər müqəddəs məiyyətdə beş yüz başdan çox at qalmamışdı. Şah, müzəffər döyüşçülərin gəlib-çatmalarından ötrü orada bir az gözlədi, sonra yenidən atlanaraq sübhədək səkkiz fərsəx yol getdi, günortaya yaxın Xürrəmabad qəsəbəsinə yetişdi. O vaxt şahın yanında qırx-əllidən artıq qorçi, qulam və başqa yaxın adamı yox idi. Xülasə, bu qəsəbənin kənarından ötüb, xanın qala yaxınlığında yerləşən evinə tərəf yollandılar ki, oranı mühasirəyə alaraq, Allahın köməyi ilə xanı ələ keçirsinlər.

Amma, onun münhilərinin yanından hər gün bir qasid gəlib cah-cəlal ordusunun İsfahana gedişindən xəbər gətirirdisə də, o, buna inanmayaraq deyirdi ki, Savə şəhərindən sonra mümkündür ki, şah atın cilovunu Luristana tərəf döndərsin.

Xan ehtiyatını əldən vermir, çay kənarındakı Bəlaymərdan adı ilə məşhur olan Sədmərə Xeymələri adlanan yerə gedib orada qalmaqda idi. Bir neçə imtahandan çıxmış qaçaraq atını yəhərləyib yanında saxlayırdı. Bu vaxt Savədən başqa bir qasid gəlib ona dedi ki, Avəyə qədər hümayun ordu ilə gəlirdim, şah oradan İsfahana yollandı.

Xan bu dəfə tamamilə xatircəm oldu. Amma, əlahəzrətin Xürrəmabada gəlib çatdığı gün bir adam xana belə dedi: "Bərucərd tərəfdən hücumla [buraya] gələn adamlar gördüm". Xan lurların ona qarşı hiyləgərlik və bivəfalıq edərək buraya gəldiklərini güman edib ehtiyatı əldən vermədi, qoşunundan xəbərsiz halda cəld atlandı, fərzənd və övrətlərini də atlara mindirdi, pullarını, qızıl-gümüşünü və qiymətli alətlərini götürüb, bir neçə nəfər etibarlı xidmətçiləri ilə Sədmərəyə tərəf rəvan oldu. O, gəlib bir qədər Laymərdanda dayandı. Arxadan gələn bir neçə xasseyi-şərifə qulamı bağların yanında yolu səhv salıb, Şahverdi xanın iqamət yeri olan çay kənarına gəldilər. Uzaqdan süvarilərin gəldiklərini görən Şahverdi xan fərar yolunu önə tutdu. Qulamlarsa gedib onu yarım fərsəx təqib etdilər, amma arxadan kömək gəlmədiyi üçün əlacsızlıqdan geri qayıtdılar.

Əlahəzrət onun evinə çatdığı zaman məlum oldu ki, xan öz xeyməsində gecələmişdir. Bağların arasından kəçib xeyməyə çatdılar. Yarım fərsəx yol keçmişdilər və arxadan gələnlərin gəlib onlara çatmalarını gözləyirdilər. Gəldilər, amma gec gəldilər.

Müqəddəs şah ordu mülazimlərinin atlan elə taqətsiz olmuşdu ki, daha irəli gedə bilmirdilər. Onun şahın şəxsən özü tərəfindən təqib edilməsi o zaman uzaqgörən əqldən kənar bir iş idi və ehtiyatkarlıqdan uzaq bir hərəkətdi.

Onlar üç günəcən Xürrəmabadda dayandılar. Orada lur tayfalarının əksəriyyəti gəlib şahı görməklə şərəfləndilər. Əlahəzrət Mənsur bəy Səlvizinin oğlu Hüseyn xanı el və ülusu ilə birlikdə Şahverdi xanın ardınca yolladı. Mənsur bəyin atası Şahverdi xanın dayası idi. Bu il dövlətə müxalif olan və üsyan edən iki nəfər - biri Əlixan Gəraylı, o biri isə Kəcur valisi Məlik Cahangir dövlətin sədaqətli tərəfdarları olan adamların vasitəsilə artıq tutulmuşdu. Əlahəzrət indi isə Şahverdi xanın tutulmasına başlayaraq, İlahinin lütfü və iqbalın köməyi ilə yürüşə çıxıb Sədmərəyə tərəf yollandı. Sədmərədə məlum oldu ki, Şahverdi xan orada da dayana bilməyib özünü Luristandan kənara çıxarmışdır. Əlahəzrət Sədmərədə qaldı, xasseye-şərifə qulamlarını Allahverdi xan Qullarağasının sərkərdəliyi, müqəddəs ordunun başqa mülazimlərini isə Qənbər bəy Səlihdarbaşı (?) Ustaclının başçılığı altında xanı tapmağa yolladı, onların hər biri təyin olunduqları yerə getdi.

Şahverdi xan, rumiyyə tərəfindən Bağdada tabe Cəngələ-Səncəqqalanı idarə edən qolumu Şahrux adlı bir adamın yanına pənah apardı, qızılbaş ayağının rumiyyə sərhədinə daxil olan torpaqlara dəyməyəcəyi etiqadı ilə həmin qalaya gəldi. İşinin nəhsliyindən, ardınca göndərilən iqbal rəhbərləri (qayedan) onu axtarmaqdaydılar. Allahverdi xanın müzəffər döyüşçüləri və qulamların yolu, rəbbani qəzavü-qədər sayəsində həmin qala istiqamətindən keçdi. Bir maldardan öyrəndilər ki, Şahverdi xan öz xanəköçü və fərzəndləri ilə birlikdə bu qalaya gəlmişdir. Elə həmin ləhzə o qalaya tərəf götürüldülər. Bir dəstə şücaətli və təcrübəli döyüşçü qala divanının yanında atlardan enib taxta körpünü keçdilər və qalanın darvazasına cumdular.

Şahverdi xanın tutulması:

Bundan agah olan qala camaatı bürc və barılara yaxınlaşıb müdafiə ilə məşğul oldular, tərəflər arasında oxlar və qılınclar işə düşdü. Qala darvazasına çatan qulamların padşahın və ləşkər sərdarının qorxusundan geri qayıtmaq cürətləri yox idi. Onlar

darvazanı odladılar, qalxanlarını üzlərinə tutub fürsət gözləyirdilər ki, özlərini qalaya atsınlar.

Atəş şöləsi zəbanə çəkdiyindən qala içərisində olanların irəli gəlib atəşi söndürmək gücləri olmadı. Elə ki, qapının yarısı yandı, fürsət ələ düşdü. Üzlərində qalxanları, bədənlərində isə dilavərlik geyimləri olan qulamlar atəş arasından keçərək hasara daxil oldular. Qala adamları, bəzisi barıların üstünə çıxıb, bəzisi isə evlərin damları üzərində dayanıb cənglə məşğul olmağa başladılar.

Şahverdi xan da, yaşadığı evin damına çıxaraq, əlindəki tüfəngdən qulamlara güllə atmağa çalışdığına baxmayaraq tüfəng açılmadı. Qeyrətinin və tündməzaclığının təsiri ilə cürətlənib tüfəngini yerə atdı, ox və kamanından yapışdı. Doğru danışan adamların biri onun sözü ilə belə dedi: "Elə ki, birinci oxu atdım kamanın ipi qırıldı, anladım ki, mənim dövlət ipim qırılmış, bəxtim üz döndərmiş, işim bitmişdir. Hərb iqbalımın [göstərişi ilə] kamanı da əlimdən atdım, hərbdən əl çəkdim və qışqırdım ki, tərəflər cəngi saxlasınlar.

Şer

Heç zaman qəzadan qurtulmaq olmaz,
Qədərdən qaçmaqsa mümkün deyildir.[614]

Bir adam yollayıb Allahverdi xandan belə hökm etməsini xahiş etdim: "Mənim övliyalarımdan heç kim bu qala camaatına dəyməsin".

Sözün qısası, qulamlar bir-birinin ardınca səmənd atlar kimi atəşdən keçib qalaya daxil oldular. Lurlar cəngdən əl çəkdikləri üçün, qulamlar da Allahverdi xanın əmrinə əsasən heç kəsə dəymədilər, Şahverdi xanı tutub çölə çıxardılar.

Şahverdi xanın öldürülməsi:

Allahverdi xan onunla insanpərvərliklə davrandı, bir neçə adamı onun hərəm əhli və fərzəndlərinin mühafizəsinə təyin

[614] Şerin farscası:
Ba qəza bər nəmitəvan amәd,
Ba qədər dər nəmitəvan amixt.

etdi. Rumilərin mirsəncəqi və bu qalanın hakimi olan yuxarıda adı çəkilən Şahrux cəng zamanı ağır yara aldığından, onu orduya gətirdilər ki, cərrahlar müalicəsinə başlasınlar. Orduya gəlib çatdıqda vəfat etdi, Şahverdi xanla həmin qalaya gələn adamların bir hissəsi isə cəngdə öldürüldü.

Allahverdi Xan Şahverdi xanı qardaşları, yaxın adamları və əsirlərlə birlikdə özü ilə orduya gətirdi. Sədmərə çayının kənarında Şahverdi xanın boynuna zəncir saldılar, Allahverdi xan zəncirin ucunu əlinə götürüb hümayun dövlətxananın qapısına gətirdi, iqbal münhilərinin vəziyyətlərinin təsviri bu sözlərlə tərənnüm olundu:

Şer

Ayrılıq səmtinə cəhd eləyən kəs
Başını zəncirdən qurtara bilməz[615].

Şahverdi xan xoş simalı və gözəl görkəmli bir adamdı. O, əgər bu vaxtlar dəbdə olan kimi, azacıq belə yaltaqlıq edib (təməlloq) yalvanşa başlasaydı, cəzalandırılmazdı, amma, xan müqəddəs padşahlar tərəfindən məzəmmətlənən qürur və təəkəbbürlə hərəkət etdi. Onun hərəkətlərində [hələ də] nifaq əlaməti görünürdü. Tərəzidə yoxluq çəkisi varlıq çəkisindən ağır gəldi və o bir neçə tərəfdarı ilə birlikdə elə oradaca cəzalandırıldı. Qənbər həy Ustaclunun sərkərdəliyi ilə Şahverdi xanın axtarışına gedən müzəffər əsgərlərin bir dəstəsi isə Badray tərəfə gedib orada Bağdad ülkasının rəiyyətinə qarşı əliuzunluq etmiş, oradan çoxlu heyvan və qənimət götürmüşdülər. Onlar geri qayıdıb orduya gəldikləri vaxt bu qarətkarlıq şahın məzacına uyğun gəlmədi. O, həmin malları bir yerə yığıb əzəmətli bir qorçiyə verərək, sahiblərinə qaytarmaqdan ötrü Bağdad hakiminə göndardi, Sədmərədən çıxıb Xürrəmabada gəldi, Mənsur bəy Səlvizinin oğlu Hüseynxanın adına sənəd hazırlayıb, Təhmasibqulu Sultan İnanlıya tapşırılan Sədmərə, Həndəməs (?) və Bağdada yaxın yerlərdən başqa bütün Luristan hakimliyini ona verdi. [O vaxtlarda] Xaməbidel

[615] Beytin farscası:
Səri k-əz tovge-su cuyəd cedayi,
Məbad əz bənde bidadəş rəhayi.

camaatı səlvizilərlə yola getmirdilər. Şahverdi xanın və Şücaəddinin övladları səlvizilərə itaət etməyib Hüseynxanın hakimliyinə qarşı çıxdılar. [Buna görə də,] həmin tayfa şahanə qəzəbə gəldi, fitnə mayası olan o təbəqənin və başqa lurların fitnəkarları Xürrəmabadda öz cəzalarına çatdılar, Sücaəddinin bayat tayfası içərisindəki Cahangir adlı oğlu kor edildi, Şahverdi xanın iki oğlunu isə Ələmut qalasına göndərdilər, lakin onların hər ikisi unudulmuşlar (fəramuşan) zindanına gəldilər və xəbər gəldi ki, bir daha onlardan xəbər gəlmədi (söz oyunudur - Ş.F.).

Xülasə, məcazi Abbasilərin Luristan hakimiyyəti bitdi, həqiqi Abbasilərin, yəni əlahəzrət zilləllah şaha tabe olanların müstəqil hakimiyyəti yarandı, başqa lurlar Hüseyn xanım mülazimliyinə göndərildilər, cah-cəlal ordusu zəfərlə səltənət paytaxtına qayıtdı.

Şahanə təlimə uyğun hərəkət edən Hüseynxan o vilayətdə müstəqil oldu, onun qədir-qiyməti gün-gündən çoxaldı. Bu "Aləmara" kitabının yazmaqda olduğu hicri tarix indi min on birinci (miladi 1602/03) ildir. Hüseynxan böyük şövkət və iqtidarla lurların hakimidir və heç vaxt Şücaəddin övladı nəsilbənəsil belə qüdrətə sahib olmamışdı.

ƏLİXAN GƏRAYLININ TUTULMASI VƏ ONUN ÖZ VƏLİNEMƏTİNİN NEMƏTİNİ UNUTDUĞU ÜÇÜN CƏZALANDIRILMASININ ZİKRİ

Qələm əvvəllər belə bəyan etmişdi ki, Əlixan Gəraylı sədaqət və birlik yolundan yayınıb üsyan və tüğyan yolunu tutdu. Əlahəzrət onun ülkasından Cacərmi və bəzi malları Təvəkkül xan Gəraylıya, Qəleyi-Payhesar, Ruğd və başqa mahalları isə Dərviş Xəlifəyə verdi, Hüseyn xan Şamlı şahın əmri ilə Əlixanın yaşadığı Qəleyi-Payhesarı tutub Dərviş Əli Xəlifəni orada yerləşdirdi, əzəmətli adamlarının və ağsaqqallarının əksəriyyəti Əlixandan dönüb şaha tərəf meylləndilər, Dərviş Əli xanın və Təvəkkül xanın xidmətinə gəldilər. Əlixan isə yasa qərq olaraq həmin hüdudlarda sərgərdan dolaşmaqdaydı. O, bir dəfə özbəklərin yanına getmiş, lakin Əbdülmömin xandan vahiməyə düşüb qaçmış və şahın xidmətinə gəlmişdi. Onun özbəklərə heç bir etibarı yox idi və daha onların yanına gedə bilməzdi. [Buna görə də,] qohumu olan Mənsurxan bəy Gəraylının yanına bir adam göndərdi, görüş xahişi

etdi. O şahsevənlərdəndi və onlar bir-birilərilə inad məqamında durmuşdularsa da, Mənsurxan bəy görüşə razılıq verdi. Əlixan Gəraylı bir neçə mülazim və xidmətçiylə birlikdə Mənsurxan bəyin evninə gələrək, onu hiyləgərliklə özünə müttofiq etmək istədi ki, fitnə-fəsad yoluyla o vilayətdə öz hakimiyyətlərini davam etdirsinlər. Həmişə fitnəkarlıqdan qaçan Mənsurxan bəy onun fitnəli sözlərinə əhəmiyyət və razılıq vermədi. O özünün aqibətini, həmçinin gəraylı el və əşirətinin gələcəyini düşünərək şahanə qəzəb və cəzadan qorxdu və buna görə də Əlixanı həbs etdi, məsələni ali saraya bildirdi. Əlahəzrət Əlixanı saraya gətirməkdən ötrü Hüseyn bəy Əmakeşi göndərdi və o gəraylıların yanına gələrək Əlixanı onlardan qopardı, qələbə ayətli ordu Luristan səfərindən zəfərlə qayıdıb Bərucərbə çatdığı vaxt onu şahın nəzərinə yetirdi.

Əlixan Gəraylının qətli:

Əlixana qarşı şahanə qəzəb atəşi artıq alovlanmışdı. Həqiqətən də xan, ona olan şəfəqqətlərin qədrini bilməmiş, on pis hal sayılan nəməkharamlıq etmiş və o cəzaya məruz qalmışdı. Buna görə də cəza şəhnəsi onu cəzalandırmağa başladı, bəsirət gözünü şahın iltifatından bağladığı üçün gözlərini çıxardı, onu görmək nemətindən məhrum etdi, bəzi başqa bədən üzvlərini də kəsdi, başqalarına da ibrət dərsi olmaqdan ötrü həmin biyabanda Əlixanı nümayiş etdirdilər və ordu oradan çıxdı. Bundan sonra padşahın qəzəbindən qorxan rəiyyət və əskərlərdən bir nəfər belə, axirətin savabını qazanmaqdan ötrü, öz cızığından çıxmadı.

Şer

Çörəyi tapdayıb çəkdi cəzanı,
Çıxdı əziyyətlə bədəndən canı.[616]

Padşaha yaxın olan adamların hal-əhvalları xoş olsun ki, ibrət görən gözlərini açıb öz hallarının axırına və əhvallarının aqibətinə nəzər salırlar, afiyətin qədrini bilərək özlərini

[616] Şerin farscası:
Bekafərne'məti gərdid məşhur,
Besəxti kərd can əz kalbod dur

nemətharamlıqla dünya və axirətdə bədnam etmirlər, amma təəssüf ki,

Misra

Söz eşidən qulaq varmı, etibarlı göz hanı?[617]

CAHANIN MƏŞHUR QALALARINDAN OLAN MAZANDARANDAKI ÖVLAD QALASININ FƏTH OLUNMASININ ZİKRİ

İqbal hadisələrdən biri də, Mazandaran qalalarının məşhuru olan Övlad qalası fəthinin uğurla baş tutmasıdur. Məsələ belə olmuşdur: Fərhad xanın Mazandarana getdiyi keçən il o, Mazandaran mahallarının əksəriyyətini tutmuş və qardaşı Əlvənd Sultanı orada saxlamışdı. Qədim fars (fors) padşahlarından yadigar qalan və Təbəristanın ən möhkəm qalalarından olan Övlad qalası Əlvənd Divin əlindəydi ki, o da itaətə gəlmirdi. Bəzi divə bənzər mazandaranlılar [Fərhad xanın qardaşı] Əlvənd tərəfindən üsyana təhrik olunurdular. Başlarında hakimlik xülyası olan o vilayət fitnəkarları onunla əlbir idilər, Əlvənd Sultana düşmən çıxıb ona lazımi kimi itaət təqdim etmirdilər. Zəmanənin məsləhətinə uyğun olaraq Əlvənd Sultan, Əlvənd Div və o adamlarla barışıq yolunu tutmuşdu. Buna görə də bəzi qərəzkar adamlar onu qardaşına müxalif və Mazandaran düşmənləri ilə müvafiq olmaqda iddiham edirdilər. Baxmayaraq ki, Əlvənd Sultanda bir azacıq divanəlik (conun) vardı və əməlləri əql qanunlarından uzaqdı, amma tam divanəlik xisləti ondan kənar idi.

Xülasə, əzəmətli ordu Luristan səfərindən qayıdaraq, səltənət paytaxtında olarkən şah Əlvənd Divi və Övlad qalasını ələ gətirib o vilayəti üsyankarların müqavimət tikanından təmizləməkdən ötrü Fərhad xana Mazandarana getmək izni verdi. Xan da şahın zavalsız iqbalına arxalanıb o tərəfə rəvan oldu. Əvvəlcə, satqınlıqda ittiham olunan qardaşı [Əlvənd Sultanı] ali saraya göndərdi. Şaha aydın idi ki, danışılan sözlər [Fərhad xanın qardaşına qarşı] töhmət və iftiradır, ondan baş verən bəzi müxalif

[617] Misranın farscası:
Guşe-soxənşenov koca, dideye-etibar ku?

işlər isə onun səfehliyi, ağılsızlığı və divanəliyindən baş vermişdir, həmçinin elə də ola bilər ki, məcburiyyət üzündən düşmənlə bir neçə günlüyə barışmışdır. Bunları nəzərə alıb onu azad (motləqülənan) etdi.

Fərhad xan isə şövkət və iqtidarla bütün Təbəristan işlərini tənzimləməyə yollandı və onunla Əlvənd Div arasında əvvəlcə yazışma başladı. Əlvənd Div Məlik Bəhmənin düşdüyü vəziyyəti öz vəziyyəti ilə müqayisə edərək, Fərhad xanla qətiyyən görüşmək istəmirdi.

Əlvənd Divin itaətsizliyindən məyus olan Fərhad xan Övlad qalasının mühasirəsinə yollandı. Div isə onu qızılbaşların mühasirəsindən xilas edə biləcək köməkçi (moin) və xilaskar (naser) görmədiyi üçün özünü mühasirədən çıxardı, övlad, yar-yoldaş və fərzəndlərini qalada qoyub, bir neçə adamı ilə cəngəlistana üz tutdu. Qalanın mühasirəsinə başlayan Fərhad xan qətiyyətli işi və tədbiri ilə mühasirədə qalan adamların vəziyyətlərini pisləşdirdi, bir dəstə qala əhlinə ənam və ehsan verməklə özünə ram etdi, başqaları isə çölə çıxıb qalanı təhvil verməkdən başqa çarə tapmadılar. Şahın zavalsız iqbalı ilə qalanın fəthi müyəssər oldu, Əlvənd Divin, övladının və təbəələrinin bütün var-yoxları ələ keçdi. Xan bu aşkar (mobin) fəthin təfsilatını şaha ərz etdi. Əzəmətli ordu Qəzvindən çıxıb seyr və söhbət edə-edə İsfahana gedərkən, Kaşana çatdığı zaman Övlad qalasının fəthi xəbəri gəlib yetişdi, Fərhad xan faxir xələtlər, hədiyyələr və çoxlu mükafatlarla sərəfraz oldu. Əlvənd Div isə cəngəllik və meşələrdə avara sərgərdan gəzib-dolaşır, hər gecə bir yerdə, hər gündüz bir məkanda narahatlıqla gün keçiridi. Onun vəziyyətinin sonrasını qələm gələn il bəyan edəcəkdir, inşaallah.

Dəyişkən fələyin tələbi ilə bu il baş verən müxtəlif hadisələrin zikri

Bu ilin əvvəllərində Rum [ölkəsinə] elçiliyə getmiş Zülfüqarxan məramına yetərək geri qayıtdı, həzrət xandgardan sülhün möhkəmləndirilməsi xüsusunda məhəbbətamiz bir məktub gətirdi.

Yenə də bu il, Hindistan hökmdarı həzrət Cəlaləddin Məhəmməd Əkbərin elçiləri Mirzə Ziyaəddin Qəzvini və Xacə Əbu Nəsr Xafi geri qayıtmaq izni alaraq faxir xələtlər və bol ənamlar almaqla da sərəfraz oldular.

Xasseyi-şərifənin qulamı Mənuçöhr bəy Eşikağasıbaşı Hindistan elçiliyinə təyin edildi və Mirzə Ziyaəddinlə birlikdə oraya rəvan oldu, şah onunla layiqli töhfə və hədiyyələr, həmçinin ən yaxşı tənsuqat* göndərdi. O cümlədən yüz baş əhilləşmiş və pak cinsli at yola salındı ki, onlar məşhur Ərəbistan, Gürcüstan və bəyati" atları, həmçinin hər biri bir aləmə bərabər tazi cinsli madyanlar idilər. Habelə İranın müqayisə olunmaz başqa nəfis töfhə və hədiyyələri yola salındı, o həzrətin məktubuna cavab olaraq, məhəbbətamiz bir məktub da yazıldı. Həmin namədə sədaqət tərzində belə yazılmışdı: "Bizim uca himmətimiz Xorasanı və irsi mülkümüzü geri qaytarmaqdır. Bu ildə İran hökmdarlığı və səltənəti taxtına cülus baş verdi və biz daxili düşmənlərin dəf olunması ilə yanaşı biganələrin dəfinə də başladıq. Xorasana etdiyimiz bir-iki səfər zamanı ruzigarın işi elə gətirirdi ki, istəyimizə rəğmən o vilayəti özbəklərin əlindən ala bilmədik. İndi isə bu işlərdən arxayın olmuşuq. Rum hökmdarı məhəbbət və dostluq məqamına gəlmiş və tərəflər arasında razılıq yaranmışdır, gərək düşmənlərə qarşı belimizə himmət kəməri bağlayıb, özbək müxaliflərinin dəf olunması üçün yollanaq, rəbbani qəzavü-qədərdən qorxmadan müzəffər qızılbaş döyüşçüləriylə və bir neçə ildə topladığımız yaraq-yasaqla o vilayətə rəvan olaq, bəxtin gücü, iqbalın köməyi ilə öz irsi mülkümüzü ala bilməsək, səltənət paytaxtımıza qayıtmayaq. [Siz də], arzu edirəm ki, öz padşahanə himmətinizi, atalıq imdad və şəffəqqətinizi əsirgəməyəsiniz, yar himməti və batini mədədkar (Allah - Ş.F.) diqqəti altında olasınız".

Misra

Himməte-mərdan bacarar hər şeyi.[618]

[Əlahəzrət] elçiləri izzət və ehtiramla Kirman, Kəbəç (?) və Mokran yoluyla rəvan etdi. İndiyəcən Qəzvin darüssəltənəsi bu əbədi dövlətin paytaxtı olduğundan, şah bəzən dincəlmək, seyr, nişat və şikar etməkdən ötrü dünya səyyahlarının elm, şöhrət (təməyyəz) və gözəllikdə "Nisfi-cahan" adlandırdıqları İsfahan darüssəltənəsinə gedər, həmin ürəkaçan yerdə dincələrdi.

[618] Misranın farscası:
Hər çe konəd hemməte-mərdan konəd.

Şer

Dedilər İsfahana "Yarısıdır cahanın ",
Şairlər söz qoşdular şəninə İsfahanın.[619]

Həmin cənnətnişan şəhərin xüsusiyyətləri, yəni, yerləşdiyi məkanın yararlı olması, Zayendərud çayının bol suyu, o çaydan mənşəyini alan və hər yana axan Kövsərmisal arxları şahın xoşuna gəlmişdi. Əlahəzrət həmişə istəyirdi ki, həmin şərafətli şəhərdə iqamət etsin, oranın abadlığına diqqət yetirsin. [Elə buna görə də,] hicri tarixlə min altıncı il (miladi 1597/98) olan bu ildə cahanı bəzəyən rəy belə qərara gəldi ki, o darüssəltənəni bu əbədiyaşar dövlətin paytaxtı edib, orada ali imarətlər ucaltsın. [Əlahəzrət] belə bir inamlı niyyət və ləyaqətli əzm ilə o tərəfə yollandı, qış fəslini mübarək Nəqşi-cahan dövlətxanasında eyş-işrət və şadimanlıqla keçirdi, vaxtının çox hissəsini seyrə və ova həsr etdi.

İsfahanın "Çaharbağ" adlı yerinin inşası:

Gecələr gözəl məclislər (beheştasa) təşkil olunur, işrət busatları qurulurdu. O, baharda Nəqşi-cahanda ali imarətlər inşasına başlandı və bu işlər memarlar və mühəndislər tərəfindən məharətlə apanldı. Şəhər darvazalarından biri Nəqşi-cahan bağının hərəmxanasındaydı ki, "Dövlət qapısı" ("Dərbe-dövlət") adlanır. Oradan başlayaraq Zayendərud çayının kənarınadək bir xiyaban çəkildi, xiyabanın hər iki tərəfində dörd bağ salındı, hər bağda isə ali imarətlər ucaldıldı. Çayın kənarından dağa qədərki məsafədə - şəhərin cənub hissəsində də xiyaban salındı, onun ətrafları isə bu güclü dövlətin əmirləri arasında bölündü ki, onların hər birində bağ vaqe oldu. Bağın girişində (dərgah) münasib imarət, imarətdə eyvan tikildi, yuxarı mərtəbə (balaxane) otaqları inşa olundu, gözəl şəkilli rəsm əsərləri, qızıl və qiymətli daşlarla (lacivərd) işlənmiş nəqqaşlıq nümunələri hazırlandı. Xiyabanın qurtaracağında padşah üçün

[619] Misranın farscası:
Esfəhan nimeye-cəhan goftənd,
Nimi əz vəsfe-Esfəhan qoftənd.

xüsusi eniş-yoxuşlu və doqquz təbəqədən ibarət böyük və geniş bir bağ mövcud oldu və "Abbasabad bağı" adlandı. Xüsusi görkəmli və qırx çeşməli ali bir körpü də çəkildi ki, çaydakı su tüğyan edərkən həmin çeşmələr bir çeşmə kimi nəzərə dəyirdi. Belə qərara aldılar ki, həmin körpü Zayəndərudun hər iki xiyabanını bir-birinə birləşdirsin və yol Abbasabada qədər bir xiyabandan ibarət olsun, şəri bir fərsəx uzunluğunda xiyabanın hər iki tərəfindən arxlar axsın, sərv, çinar, şam ağacı (kac), Çin göyrüşü, gərş (?) və ərər ağacları əkilsin, xiyaban[lar]ın ortasında üstü daşla örtülmüş bir nəhr də çəkilsin ki, su xiyabanın ortasından da axmış olsun, Çaharbağ imarətinin ön tərəfindəsə gölə oxşar bir böyük hovuz da düzəldilsin.

Xülasə, əmir, əyan və sərkarların hər biri bacarıqlı memarlar və mühəndislərlə işə başlayaraq, bu işlərin bitməsi üçün səy göstərdilər. Həmin vaxtdan başlayaraq hicri tarixlə bu kitabın yazıldığı min on beşinci il (miladi 1606/07) olan indiki tarixə qədər şahın mübarək düşüncəsi ilə inşa olunmuş gözəl imarətlər və ürəkaçan bağlar ərsəyə gəldi və olduqca qəşəng şəkildə başa çatdı. Çaharbağdakı ağacların başı fələyə ucalmaqdadır, meyvəli agaclarsa sanki cənnətin tuba ağacından peyvənd olunmuşlar. Sözün müxtəsəri, Çaharbağın hər bağı cənnət bağının qibtəsinə gələ bilər, rəssamlar tərəfindən gözəl naxışlarla işlənmiş geniş imarətlərinin isə, bəlkə də, bütün dünyada tayı-bərabəri yoxdur. Çaharbağın qərb hissəsində, aşağıda məlumat verəcəyimiz kimi, Abbasabad şəhərində təbrizlilərdən ötrü binalar tikilib başa çatdı. Xülasə, əlahəzrət zilləllah şahın himmət memarı İsfahanın inşası və bəzədilməsinə bir neçə il vaxt sərf etdi. Həmin gözəl şəhərdə cürbəcür imarətlər, bağlar, ürəkaçan mənzillər, bazar (qeysəriyyə), çaharbazar, məscidlər, hamamlar inşa olundu və bu şəhərə hal-hazırda behişt möhürü vurulmuşdur ki, bu haqda Kamal İsmayıl belə demişdir:

Şer

İsfahan şadimandı, millət şən,
Varmı heç böylə hir əyyamı görən?[620]

[620] Beytin farscası:
Esfəhan xorrəməst-o mərdom şad,
İnçenin əhd kəs nədarəd yad.

Çaharbağın [maddeyi-] tarixi barədə yazılanı [bu kitaba] səbt etdim:

[Madeye-]tarix

Əcəb Çaharbağdır - hər yanı göyçək!
"İkinci cənnətdir " deyilsə gerçək!
Tarixi barədə yazdım ki: "Burda
Şahın qoy kamınca açsın gül-çiçək".[621]

Baş vermiş hadisələrdən: Gürcüstan sultanlarından Aleksandr xan və Səmayun xan tərəfindən ali saraya elçilər və aznaurlar gəlib öz sədaqət və bəndəliklərini izhar etdilər. Onlar misilsiz (bihemal) şəhriyarın iqbal hərəmxanasına layiq və behiştə bənzər məclislərdə xidmət etməyə münasib olan Gürcüstanın böyük adamlarının Yusif görünüşlü oğlanlarını və Huri camallı qızlarını da göndərərək, öz ixlas və tərəfdarlıqlarını bildirdilər. Həmin elçilər izzət və ehtiramla ənam ümmanına qərq olduqdan sonra geri qayıtdılar. Qazəvü qədərin iş icraçıları isə ardıcıl olaraq (peşvəste) o həzrətin işrət ləvazimatını hazırlamaqdaydılar.

Bu ildə baş vermiş hadisələrdən biri də budur: Əliyarxan Eymurun oğlu Məhəmmədyar xan atasının vəfatından sonra hakim rütbəsi və "xan" ləqəbi ilə sərəfraz olmuş, Astrabad hakimliyi atasından sonra ona verilmişdi, [amma], o, oxlu tayfası tərəfindən qətlə yetirildi. Onun öldürülməsindən sonra ən kiçik qardaşı Qılınc bəy (Qılıc bəy) əyninə xidmət ehramı geyərək Astrabaddan bu astanəyə üz tutdu. Əlahəzrət zilləllah şah onu öz şahanə mərhəmət və iltifat qanadı (kənf) altına alıb Astrabad hakimliyini Qılınc bəyə verdi, töhfə və hədiyyələrlə [öz məkanına] rəvan etdi, qış fəslini həmin cənnətə bənzər şəhərdə istirahət və kamranlıqla keçirdi. O, amma dövlət işlərindən heç vaxt bixəbər olmur, daim Xorasan məmləkətini müxaliflərin əllərindən geri almaq barədə düşünür, bu istəyinin həyata keçməsindən ötrü Allahın dərgahından xahişlər edir,

[621] Madeyi-tarixi farscası:
Əcəb çəharbağəst behcətfaza,
Gərəş saniye-xold guyənd şayəd.
Ço tarixe-an del tələb kərd, goftəm:
Nehaləş be kame-dele-şəh bərayəd.

həmişə imaməl-cin və-n-nasın (İmam Rzanın - Ş.F.) müqəddəs ruhundan kömək istəyirdi. Nəticədə, onun sidq-niyyəti və mətləbi hasil oldu, türki it ilinin əvvəlindən başlayaraq fəth və zəfər qapıları aman və amal çöhrəsinin üzünə açıldı, qələbə küləkləri əsməyə başladı. Bu dastanın şərhi gələn il hadisələrinin bəyanı zamanı yazılacaqdır, qoy Allahdan kömək və hidayət olsun.[622]

HİCRİ TARİXLƏ MİN YEDDİNCİ (MİLADİ 1598/99) İLƏ BƏRABƏR OLAN TÜRKİCƏ MÜBARƏK İT İLİNDƏ, [YƏNİ] HÜMAYUN CÜLUSUN ON İKİNCİ İLİNDƏ BAŞ VERƏN SƏADƏTBƏXŞ HADİSƏLƏRİN ZİKRİ

Məclislər bəzədi yenə dəfələk,
Növbəti novruz da yetişdi gerçək.
Şöhrəti ərşəcən şahın ucaldı,
Mavi asimana gurultu saldı.
Çəmənin sinəsi behiştə döndü,
Ordibehişt ayı yenə göründü.
Qoşunu gül qədər sonsuz olan şah,
Yaşıl ot üstündə qurdu barigah.[623]

Səadətlə başlayan bu ilin dövləti işıqlandıran novruzunun gəlişi əzəmətli şəban (şəbanül-müəzzəm) ayının on birinə (9 mart), düşənbə gününə düşdü. Əlahəzrət zilləllah şah İsfahan darüssəltənəsində işrət [məclisi] qurdu. Ruzigarın köksü ənbər ətirli nəsimlərdən ənbər qoxulu güllərlə doldu, [o həzrət] böyük şadyanalıqla seyr və söhbətlə məşğul oldu.

Bu ilin əvvəllərində, özbəklərin yanına elçi kimi göndərilən və Heratda Abdulla xanla görüşən Məhəmmədqulu bəy Eşikağası Ərəbgirli geri qayıtdı, onunla birlikdə Abdulla xanın göndərdiyi

---

[622] İfadənin ərəbcəsi: "minhu-l ianə va-t-tavfiq".

[623] Beytlərin farscası:
Baz fələk əncomənəfruz şod,
Novbətiye xosrove-novruz şod.
Kovkəbeye-xosrove-gərdunsəmənd
Qolğole dər gonbəde-mina fekənd.
Səhne-çəmən baz ço səhne-beheşt,
Taze şod əz məqdəme-ordibeheşt.
Xosrove-gol gəst-rəyahinsepah,
Zəd besəd ayin beçəmən bargah.

Tatlıq bahadır da gəlib ülfət və tanışlıq qapılarını açdı, Mir Qulbaba Kukəltaşın şaha yazdığı sədaqət ayinli məktubunu gətirdi. O, Heratda kədxuda təyin etdiyi oğlunun ulus toyu hədiyyəsini də göndərmişdi. Mavərənnəhrin böyük nəqiblərindən olan Mirzə bəy, həmçinin nəqşbəndiyyə* təbəqəsindən oaln xacələr Kasğər sultanlarının möhtərəm qadınlarından ibarət öz xanəköçləri ilə birlikdə islamın dini mərasimini (höccətül-islam) icra etməkdən ötrü Məhəmmədqulu bəy və Tatlıq bahadırla birlikdə bu vilayətə gəldilər. Əlahəzrət zilləllah şah çoxlu izzət və ehtiram göstərdi və onlar öz məramlarının icrası üçün faydalı (xeyrəsər) Beytullahülhərama rəvan oldular, amma yolda ikən (Mirzə bəy) təbii əcəllə vəfat etdi, öz məqsədinə çata bilmədi. Zamanın istəyi ilə söz ustadlarının vətəni olan Xorasan özbəklərin əlinə keçmişdisə də, əlahəzrət daim oranın geri alınması barədə düşünür, heç vaxt bu fikir və əndişədən əl çəkə bilmirdi, çünki İran məmləkətlərinin ziynətini artıran və bu dudman hökmranlığının bəzəyi olan müqəddəs Məşhəddə imaməl-cin və-n-nasın mələk aşiyanlı məzarı, həmçinin o həzrətin (Şah Abbasın - Ş.F.) doğulub boya-başa çatdığı Herat darüssəltənəsi də vardı.

Amma, "zəmanənin istəyinə müvafiq olaraq"[624] əlahəzrətin istəyinin sirrli (xəfa) qapısı [hələ] bağlı idi. Ümumiyyətlə, zəruri işlərin yerinə yetirildiyi və məmləkətlərin tüğyançıların törtöküntülərindən təmizləndiyi bu vaxtlarda Əbdülmömin xanla atası arasında daim küdurət və dava-dalaş olması barədə xəbərlər gəlməkdəydi. Qeybdən gələn bir səda şaha xatırlatdı: "Abdulla xanın tərbiyətləndirdiyi və dövlətin etimadlı adamı olan Herat hakimi Mir Qulbaba Kukəltaş Əbdülmömin xanın qorxusundan bir gün cahanpənah dərgaha gələcək, öz sədaqətini göstərmək istəyəcəkdir. Abdulla xanla onun ülfət və dostluğu pozulduğuna görə də o, məhz öz məhəbbət və dostluğunun izharı üçün ali saraya elçi göndərmişdir. Abdulla xan ilə oğlu arasındakı vəziyyət qorxulu hal aldığı və aralarında dava-dalaş olduğu bir vaxtda biz də gərək, ruzigarın məsləhəti ilə, bu tərəfdən Abdulla xanla dostluğa başlayaq, onun elçisi ilə elçi[mizi] göndərək və naxələf oğlunun atasına qarşı etdiyi cürət və cəsarətini pisləyək, Əbdülmömin xanın zəbtindəki müqəddəs Məşhədi və başqa yerləri almaqdan ötrü Xorasana üz tutaq. Ata və oğulun bir-biriləri ilə məşğul olduqları bu əyyamda,

[624] İfadənin ərəbcəsi: "Əmmə bi-muqtədayi-l-umur mərhumətun bi ovqatinə".

[təbii ki,] üsyan etdiyinə görə oğlunun şövkət və qüdrətinin azalmasına çalışan Abdulla xan [hücuma keçdiyimiz vaxt] oğluna kömək etməyəcəkdir. Nəticədə, Allahın köməyi ilə, o vilayətin fəthi asanlıqla baş verər. [Buna görə də, hal-hazırda] Abdulla xana elçi göndərməyimizin bizim dövlət qəsrimiz üçün heç bir qüsuru yoxdur". Əlahəzrət, dilli-dilavər bir adam olan Məhəmmədqulu bəyi bu niyyət ilə elçi təyin etdi, töhfə və hədiyyələr tədarük edərək, bəyi bu səfərə hazırladı, Xorasana aparılacaq şeyləri müəyyənləşdirdi. Qərara aldı ki, məhrusə məmləkətlərdən on min nəfər tüfəngçi toplanıb hümayun orduya gətirilsin. Şahın belə bir qərarı vardı ki, bu elçi gedəndən sonra Mir Qulbaba Kukəltaşa hümayun yürüş haqda xəbər yollasın və müqəddəs Məşhədə tərəf yola düşsün.

Elə bu əsnada, Xorasanın hər tərəfindən gələn qasidlər belə xəbər gətirdilər ki, Abdulla xan bu fani aləmlə vidalaşıb üqba aləminə yollanmış, xanın divanbəyisi və dövlətinin ən ümdə adamı (ümdətülməmalük) olan Məhəmməd Baqi bəy və əksər özbək əmirləri istər-istəməz Əbdülmömin xanın səltənət və padşahlığı xüsusunda onunla ittifaq etmiş, dövlətin ipini onun ixtiyar və iqtidar əlinə vermişlər.

Amma, Abdulla xanın Səmərqənd və Daşkənddə olan qardaşı oğlu Hezarə Sultan, həmçinin Dostum Sultan, Özbək Sultan və xanın başqa qohum-qardaşları, ya Əbdülmömin xana etibar etmədiklərindən, yaxud özlərinin istiqlalından ötrü bu məsələ ilə razılaşmayaraq, ona qarşı müxalifətə qərar verdilər, Əbdülmömin xandan qorxan hər özbək əmir və əyam həmin dəstənin ətrafında toplaşdılar, xan da onların fitnəsini dəf etməkdən ötrü yola düşdü və indi özbəklər arasındakı çaxnaşma davam etməkdədir. Bu xəbərləri öyrəndikdən sonra şah yubanmadan Xorasana getməyi qərara aldı və bu yürüşə hazırlaşmağa başladı.

Birinci səhifədə göstərilmişdi ki, İranın vəziyyəti və kambəxş şəhriyarın, yəni əlahəzrət zilləllah şahın səltənəti əyyamında baş verən hadisələr zamanı, kəlamın və məqamın yerinə görə, özbəklərin və rumilərin bəzi məsələlərinə də toxunulacaqdır. Gərək Abdulla xan və Əbdülmömin xanın vəziyyətləri, eləcə də onların arasında tədricən başlayan vəhşət və savaş, həmçinin Abdulla xanın vəfatı qəziyyəsi, oğlunun taxta cülusu, şahın Xorasan səfəri zamanı Əbdülmömin xanın əhvalatı zirək qələm (kelke noktəpərdaz) vasitəsilə icmal şəklində yazılsın. Buna görə də gözəl yerişli qələm baş verən bu hadisələr meydanında cövlana gəldi.

MAVƏRƏNNƏHR HADİSƏLƏRİNİN MÜXTƏSƏRZİKRİ, HABELƏ ABDULLA XANLA ÖZBƏK SULTANLARININ MÜNASİBƏTLƏRİNİN BƏYANI

Müşahidə edənlər və hadisələri öyrənmək istəyən dövr adamları (şahedan) sözü bədii tərzdə yazan qələmin köməyi ilə agahlıq məclisinin açıq söz (zəmir) meydanında belə söylədilər: Abdulla xanın yeganə oğlu olan Əbdülmömin xana qarşı ifrat məhəbbəti vardı, onu "baba" ("babayi") adlandırır və tərbiyəsi ilə ciddi məşğul olurdu. Çingiz sultanları dövründə padşaha "xan" deyilir, uca səltənət məqamına hələ yetişməyən padşahzadəni isə "sultan" adlandırırdılar.

Amma, Əbdülmömin xan hələ atasının sağlığında uca "xan" ləqəbi ilə izzətlənmişdi. Belə ki, Mavərənnəhr camaatı və özbəklər Abdulla xana "böyük xan" ("xani-kəlan"), ona isə "kiçik xan" ("xane-xord") deyirdilər. Atası Bəlxin və ətrafının hakimliyini ona vermişdi. Əbdülmömin xan atasının və özünün səyi ilə Bədəxşan vilayətini də cığatay sultanzadələrinin əlindən çıxardı, Bəlx və Bədəxşan hakimi oldu. Yuxarıda yazıldığı kimi, on bir aylıq mühasirədən sonra Abdulla xan gözəl Herat şəhərini doqquz yüz doxsan dördüncü (miladi 1585/86) donuz ilində fəth edən vaxt, Əbdülmömin xan o şəhərin alınması və qızılbaşların qətl olunmasında çox çalışqanlıq etdiyinə görə, hakimi olduğu yerlərə yaxınlıqda yerləşən Herata da göz dikmişdi və istəyirdi ki, atası bu şəhəri də bəlkə ona verər. Yaşının və təcrübəsinin az olmasına görə atası onun xahişini qəbul etmədi, Heratı öz dövlətinin sınanmış, tədbirli və təcrübəli adamı olan Qulbaba Kukəltaşa verdi, Xorasan məmləkətlərindən fəth etdiyi yerləri özbək əmirləri arasında böldü. O, Canı bəy Sultanın oğlu Dinməhəmməd Sultana-Yetim Sultan adı ilə məşhur olan öz bacısı oğluna qardaşları ilə birlikdə Xorasanda ülkalar payladı və onu orada saxladı, amma Xorasanın fəth olunmuş vilayətlərindən heç birini oğluna vermədi. Abdulla xan oğlu Əbdülmömin xana bu sözlərlə təsəlli verirdi: "Sən vəliəhd olduğun üçün mənim hər vilayətim sənindir". Bu sözlərdən inciyən Əbdülmömin xanın o vaxt ona etiraz etmək qüdrəti yox idi. Amma, iki ildən sonra atasından xahiş etdi ki, bundan sonra öz səyi ilə ələ keçirilən Xorasan məmləkətləri onun olacaqdır. Abdulla xan bu xahişlə razılaşdı. Öküz ilində, [Əbdülmömin xan] müqəddəs Məşhədə ləşkər çəkdi və oranı mühasirəyə aldı. Bu hadisə zamanı,

Xorasanda olan Yetim Sultan və Abdulla xanın əmirləri əmr alaraq, onun köməyinə gəldilər. Həmin şərafətli şəhər Əbdülmömin xan tərəfindən fəth edildikdən sonra onun özü oraya hakim göndərdi, həmçinin Nişapur, Tərşiz və başqa Xorasan mahalları tədriclə onun əlinə keçdi və o yerlərə də öz tərəfindən hakimlər təyin etdi. Bu hadisədən sonra, Nurməhəmməd xan ibn Əbülməhəmməd xan ibn Dinməhəmməd xan və başqa imansız özbəklərin irsi mülkləri olan Nisa, Əbivərd, Dərun, Bağbad və sair yerlərə tamah salaraq, yuxarıda yazıldığı kimi, o vilayətləri də öz işğal əlinə keçirdi, Nurməhəmməd xanı irsi mülkündən çıxardı. Ona nəsib olmuş bu fəthlərdən sonra özü səltənətə gəlmək istədi ki, qüdrət və şövkət sahibi olsun, ölümündən sonra heç bir bəndə və hal-hazırda ona tabe edilən özbək sultanları öz gələcək oğlu ilə dava-dalaşa qalxmasınlar, onun tərbiyəti altında olsunlar. Beləliklə, Əbdülmömin xan ordusunun kölgəsi altında iyirmi min bacarıqlı cavan toplaşdı və o tam istiqlala malik oldu, başına həsəd və qürur havası doldu, atası əleyhinə üsyan məqamına gəldi, ayağını ədəb dairəsindən kənara çıxardı.

Abdulla xan Buxara şəhərini tutub səltənətə yetdiyi vaxt, atası İsgəndər xan hələ sağ idi. Xan, Çingiz nəslinə xas padşahlıq rəsmini atasında saxlayıb, xütbə və sikkəni onun adına vurdursa da, bütün işlərin həllini öz əlinə aldı, İsgəndər xanın isə padşahlıqdan quru adı qaldı. Əbdülmömin xan öz qüruru və cəhaləti üzündən deyirdi: "Atam qocalmışdır. Yaxşısı budur ki, o [da] İsgəndər xan kimi bir küncdə oturub, səltənət işlərini mənə versin". Xorasanın əzəmətli şəhərlərini tutduqdan sonra istəyirdi ki, bütün Xorasan ölkəsini Bəlxə və Ceyhun çayınadək özünə tabe etsin. Buna görə də atasından Heratı tələb etdi, amma istəyi yerinə yetmədi. İnciyərək belə deyirdi: "Əgər atam Heratı mənə verməsə, özüm Mir Qulbabanın üstünə gedib oranı qəhrlə ondan alaram". Belə sözlər Abdulla xana çatdı və oğluna qarşı onun münasibəti dəyişdi. Onun, hərçənd ki, vəliəhdi olan bircə oğlu vardı, amma oğlunun cəhalət və qüruru barədə düşünüb [öz-özünə] deyirdi: "Məbadə oğlum səbrsizlik edib, mənim ixtiyarımı əlimdən ala və mən sağ ola-ola səltənət və padşahlıqdan əl çəkəm". Elə buna görə də, oğlunun şövkət və iqtidarının azalmasına (kəsr) çalışırdı və nəticədə oğluna mülklər tutmağı qadağan etdi, Xorasan əmirlərinə məktublarında yazdı ki, bir daha oğlunun əmrlərinə qulaq asmasınlar, ləşkər çəkəcəyi yerlərdə onunla yoldaşlıq etməsinlər. Buna görə də,

Əbdülmömin xan, qızılbaşların əllərindəki Səbzvara və başqa torpaqlara bir neçə dəfə hücum edəndə Xorasanda olan Yetim Sultan və Abdulla xanın qardaşları onunla həmrah olmadılar.

Atası razılaşmadığı üçün o da başqa bir iş görə bilmirdi. Abdulla xan ona yazmışdı ki, acgözlük edib heç yerə göz dikməsin, Bəlxdə yaşayıb öz işi ilə məşğul olsun, ona verilən ülka ilə kifayətlənsin, ayağını ədəb dairəsində yığsın, mənim və atam İsgəndər xanın işinə qarışmasın, çünki o, mən ola bilməz, necə ki, mən də İsgəndər xan deyiləm.

Amma Əbdülmömin xan Herat mülkü arzusundan əl çəkə bilmir, Mir Qulbaba haqda atasına tez-tez məktublar göndərirdisə də, Abdulla xan oğlunun qərəzkarlıq etdiyini düşünərək onun sözlərinə əhəmiyyət vermirdi. Elə buna görə də ata-oğul arasında nifaq tozu ucalmaqdaydı. Lakin, aralarında pərdə [də] vardı, bir-birilərinə xilaf olsalar da bunu üzə vurmurdular. Min altınıncı xoruz ilində (miladi 1597/98) Abdulla xan öz əmir, nədim və yaxın adamlarıyla Çəharcu yolu ilə Mərvə gələrək şikarla məşğul olarkən, Mir Qulbaba Heratdan gəlib xana Herata qayıtmağı təklif etdi. Elə bu vaxt Əbdülmömin xan iki-üç min adamla Bəlxdən çıxıb atası ilə görüşməkdən ötrü Mərvə gəldi. Əmirlərin miqdarca az olduqlarını və Əbdülmömin xana etibar olmadığını söyləyən əmirlər Mərv qalasına gedərək, oğlunun əsgərlərini qalaya buraxmamağı, qalada oğlu və onun az adamı ilə görüşməyi məsləhət gördülər. Abdulla xan bu sözlərə bir elə də əhəmiyyət vermədi, Şahım bəy bağına gəldi, oğlu ilə orada görüşdü. Əbdülmömin xan da zəmanəyə müvafiq olaraq atasına qarşı itaətsizlik göstərmədi, ədəb məqamında durub etdiyi qüsurlarına görə üzr istədi, onlar bir neçə gün Mərv və Sərəxstdə seyr və ov ilə məşğul oldular. Xanın əmriylə Mir Qulbaba Heratın seyrinə getməyi Əbdülmömin xana da təklif etdi, ata-oğul birlikdə Herata gəldilər. Mizbanlıq işinə başlayan Mir Qulbaba böyük ziyafətlər (tuyha) təşkil edərək "böyük xana" və "kiçik xana" layiqli hədiyyələr verdi. Amma, Əbdülmömin xan Qulbaba xana qarşı hələ də incik olduğu üçün ona qarşı nəsihətamiz və hirsli (xoşunətəngiz) sözlər söylədi, onu saxtakarlıqda və divan mallarını mənimsəməkdə ittiham etdi. Abdulla xan tərəfindən sözləri eşidilən Məhəmməd Baqi Divanbəyini və başqa adamları Mir Qulbabanın qızılbaşlarla dostluq etməsi barədə xan ilə danışmağa təhrik etməsinə baxmayaraq, mirə hədsiz etibarı olan xan həmin qərəz sahiblərinin sözlərinə qulaq asmadı.

Xülasə Heratda Əbdülmömin xan atasından xahiş etdi ki, öz səltənət paytaxtına Bəlx yoluyla getsin və bir neçə gün Bəlxdə ona mehman olsun. Oğlunun xahişinin qəbul edən Abdulla xan Bəlxə getmək və ziyafət hazırlığı ilə məşğul olmaqdan ötrü oğluna izn verdi, tez gələcəyini söylədi. İnandığım şəxslər (seqqat) belə danışdılar: Əbdülmömin xan Xorasan və Bədəxşandan gətirdiyi qızıl-gümüşlərlə bəzənmiş taxtı və o taxta oturmaqdan ötrü düzəltdiyi üç pilləli gümüş nərdivanı sarayına qoyub belə deyirdi: "Bunu mən atamdan ötrü hazırlamışam. Elə ki, gəlib mənim mehmanım oldu onu taxta əyləşdirəcəyəm, özüm isə taxtın ayağında ayaq üstə dayanacağam, sonra bu taxt və nərdivanı başqa hədiyyə və ləvazimatla atama peşkəş edəcəyəm".

Amma, ondan şübhələnən və qorxan bir dəstə adam, xüsusən Mir Qulbaba belə deyirdi: "Hiyləgərlik edir. Onun sözlərində sədaqət işığı görünmür. Məqsədi budur ki, padşah onun evinə qorxu-hürküsüz daxil olsun və o, atasını Bəlx qalasına salıb ixtiyarını əlindən alsın, Mavərənnəhr, Türküstan, Xarəzm, Bəlx, Bədəxşan və Xorasan səltənətinə sahiblənsin".

Xülasə, Abdulla xan Mir Qulbaba və bəzi əmirlərin təhriki ilə yuxarıda söylənilən qonaqlıq ziyafətində iştirak üçün Bəlxə getmədi, elə həmin Çaharcu yoluyla böyük sürətlə qayıdıb Buxaraya gəldi. Bu xəbəri eşidən Əbdülmömin xana atasının artıq ona etibar etmədiyi aydın oldu, belə vəziyyətin Mir Qulbaba tərəfindən törədildiyini anladı, Heratı tutmaq istədi və çoxsaylı ləşkərlə Xorasana gəldi. Əvvəlcə, müqəddəs Məşhədi ziyarət etdi. Herat yoluyla qayıdıb bu şəhərin yaxınlığına yetişdi, Mir Qulbabanın yanına adam yolladı, onu yanına çağırdı. Əbdülmömin xan istəyirdi ki, hiyləgərliklə miri tutsun və Heratı zəbt etsin. Ağıllı və dünyagörmüş bar adam olan Mir Qulbaba məsələni başa düşüb onunla görüşməkdən imtina etdi, kiçik bir hədiyyə göndərib şəhər və qala qapılarını bağladı, qaladarlığa başladı. Mülayimlik, hiylə və yalan vasitəsiylə əlini məqsəd ətəyinə çatdırmaq istəyən Əbdülmömin xan özü yaxın adamlarından beş-altı adamla qala ayağına gəldi, Mir Qulbaba ilə təkcə görüşmək və onu aldatmaq istəsə də, müyəssər olmadı.

Herat qalasını asanlıqla tutmaq mümkün olmayacağı üçün Əbdülmömin xan oranı mühasirəyə almağı məsləhət görməyərək, qəm-kədərlə Bəlxə qayıtdı, Mir Qulbaba isə Buxaraya adam

yollayıb məsələni Abdulla xan ərz etdi. Miri alqışlayan Abdulla xan onun üçün hədiyyə və sovqat yolladı.

Xalq arasında belə söyləyirlər: Abdulla xan Mir Qulbabaya bir dəstə ox və oxatan göndərib tapşırdı ki, əgər Əbdülmömin icazəsiz Herata, qala ayağına gələrsə, oxçular qoy onun gözünü nişan alsınlar və bu oxları bir-bir ona yağdırsınlar.

Bu məsələ ata və oğul arasında inciyliyin çoxalmasına səbəb oldu. Onların arasındakı gərginlik günbəgün artmaqdaydı. Əbdülmömin xan bir gün eşitdi ki, Abdulla xan bir dəstə mirşikar, quşçu*, nədim, yaxın adamları və çalğıçılarla (ərbabe-tərəb) Buxaradan seyr və şikar üçün çıxıb Qərşi yaxınlığındakı böyük bir bağda əylənməklə məşğuldur, seyr və şikardan sonra vaxtının çoxunu həmin bağda istirahət etməklə keçirir. Əbdülmömin belə qərara gəldi ki, Bəlxdən hücumla gəlib külək və ildırım kimi özünü oraya çatdırsın, xanın və adamlarının işrətgahı olan o bağı mühasirə etsin və öz məqsədinə çatsın. Özünün yaxın etibarlı əmiri və müşiri** olan Şahməhəmməd İləciyana bu sirri açdı, Bədəxşana yürüş bəhanəsiylə ləşkər topladı və beş min nəfər yararlı adam seçdi, Termez keçidindən keçərək sürətlə o tərəfə yollandı. Abdulla xan Şahməhəmməd İləciyanı oğlu ilə dostluq etməkdə və ona pis əməllər öyrətməkdə taxsırlı bilir, məzəmmətləyirdi. Xan deyirdi ki, oğlundan Şahməhəmmədin təhriki ilə pis əməllər baş verir.

Şahməhəmməd "böyük xan"ın ona qarşı olan şübhəsini rəf etməkdən ötrü etibarlı bir adamını göndərib oğlunun məqsədini xana agah etdi. Abdulla xan şahanə bir məclis qurub nədim və musiqiçilərlə söhbət və şadyanalıq edən bir vaxtda oğlunun hücumla gəldiyi xəbərini eşitdi. O, az miqdar adamla istirahətdən ötrü gəldiyindən yanında ləşkəri yox idi və müdafiə oluna, yaxud cəng edə bilməzdi. Xan öz yarağını, xeymə və xərgahını atıb, külək sürətli atlarla Buxaraya üz tutdu. Üç fərsəx yol getmişdi ki, Əbdülmömin xan gəlib həmin bağa çatdı. Oradakı yaraqlara və başqa şeylərə etina etməyərək, yolda atasını tutmaq məqsədiylə yola düşdü, lakin heç onun tozuna da çata bilmədi. İldırım və külək sürətiylə Buxaraya çatan Abdulla xan şəhər qapılarını qapadı, Əbdülmömin xan atasının səba yeli kimi çıxıb getdiyini bildi və başa düşdü ki, ona çatmaq mümkün olmayacaqdır, hücumdan əl çəkib oğruncasına Buxaraya gəldi. Onun iddia oxu hədəfə dəymədiyi üçtin şəhərin kənarında dayanaraq, atasının yanına adam yollayıb dedi: "Sənə mülazimət etmək şövqüm mənə qalib gəldiyi

üçün Qərşiyə təşrif gətirib Bəlxə yaxınlaşdım, sənin iznini gözləmədən fəqət ayağını öpmək əzmi ilə gəlib-çıxmışam. İndi isə xahiş edirəm ki, şəhərə daxil olmağım və görüşməyimdən ötrü mənə imkan verəsən". O, hər gün ondan görüş xahişi edirdisə də, Abdulla xan ona inanmır, görüşə icazə vermirdi. Sözü düz danışan bir adam söylədi ki, bu hadisədə Abdulla xanın oğluna qarşı qəzəbi elə şölələnmişdi ki, təkrar-təkrar özünə xəbərdarlıq edirdi: "Ey Əbdülmömin, əgər ömürdən aman tapa bilsəm və sənə öz atını yəhərləməyə imkan versəm kişi deyiləm". Atasına qarşı nifrət (eraz) bəsləyən Əbdülmömin xan əlini başına döyür və öz-özünə belə xitab edirdi: "Ey Abdulla, cahan meydanında kişilik topunu (kuy)* oğurladığın vaxtdan altımış beş il keçir. İndi öz sidiyindən qaçıb adəmdə bədnam oldun". Abdulla xan Səmərqənd, Daşkənd və ətraf məmləkətlərə yərliğ** göndərib ləşkərlər çağırdı, Əbdülmömin xanın səylərinə, habelə "sənin öz övladına qarşı şübhən səhvdir" yazıb atasına andnamələr (qəsəmnamə) göndərməsinə baxmayaraq Abdulla xan ona iltifat etmədi.

Sözün qısası, Əbdülmömin xan öz mətləbinə yetmədi. O, Şahməhəmməd İləciyanı onun sirrini faş etməyinə görə elə oradaca cəzalandırdı. Məlum oldu ki, Abdulla xanın əmri ilə böyük bir ləşkər toplanmışdır və hər tərəfdən Buxaraya gəlməkdədir. Qorxub Bəlxə tərəf üz tutdu. Onun qaçışından sonra hər yandan gələn ləşkərlər Buxaraya çatıb xan ordusuna birləşdilər. Abdulla xan qüdrət və istiqlalla oğlunu cəzalandırmaqdan ötrü Buxaradan çıxıb Bəlxə yollandı.

Əbdülmömin xan isə pərişan halda çay kənarına çatıb, oranı adlamaq istədi. O vaxtlarda Mərv hakimi olan Şahım bəyin Abdulla xandan incikliyi vardı. O, Mərvdən çıxaraq Əbdülmömin xanın xidmətinə getmək məqsədiylə gəlib ona çatdı, onu Bəlxə getməkdən saxladı, dedi ki, Bəlxdə olan ləşkərlərini toplayıb çay kənarında döyüşə hazırlaşsın. Onun məsləhətinə əməl edən Əbdülmömin xan öz səbat ayağını çay kənarında yerə dirədi və dayanıb gözlədi.

Abdulla xan isə qoşun-qoşun onun üstünə gəlməkdəydi. Oğlunun hərb etmək fikrini bilib, buraya gəldiyi üçün fikirlərə daldı (motəəmel). Mavərənnəhrin ağsaqqalları və şeyxləri islah meydanına qədəm basaraq, onların hər ikisini məsləhətli sözlərlə bu fikirdən əl çəkməyə çalışdılar. Abdulla xan fitnə-fəsad sahibləri kirni tanıdığı Şahım bəyin və daha iki nəfərin yanına gəlmələrini

tələb etdi. Əbdülmömin xan onları atasının yanına göndərdi və Abdulla xan onları cəzalandırdı. Ata və oğulun hər biri isə öz dövlət paytaxtlarına döndülər. Abdulla xan haqqında danışan doğruçu adamlar belə deyirlər: "Abdulla xan bu hadisədən sonra tez-tez deyirdi ki, bütün ömrüm boyu etdiyim böyük-böyük müharibələrdə çox vaxt düşmənə arxa çevirməmişəm, amma ömründən və dövlətindən ləzzət görə bilməyəcək Əbdülmömin xan məni ömrümün sonunda fərar arına giriftar etdi". Həqiqətən də Əbdülmömin xan atasma qarşı üsyan etməyinə görə axırda atasının qarğışına gəldi, gələcəkdə yazacağımız kimi, ömür və dövlətdən kam ala bilmədi. Xülasə, ata və oğulun müxalifət xəbəri Türküstana yayıldıqda, Abdulla xanın əzəməti sayəsində ədəb-ərkanla yaşayan qazax sultanları üsyana qalxdılar. O cümlədən Təvəkkül Sultan Qazax özünə "xan" ismi qoyub böyük qoşunla Daşkənd üzərinə yürüş etdi. Amma, Abdulla xan ona məqabil durmağı özünə layiq bilməyib, qohumları olan sultanları, məmləkətlərin sərhəd əmirlərini (məmaleke-soğur) və öz ləşkərini onunla hərbə namizəd etdi, Daşkəndlə Səmərqənd arasında o iki dəstə arasında böyük cəng baş verdi. Cülusundan indiyədək bütün cənglərdə qalib gələn Abdulla xanın ləşkərləri bu dəfə məğlub oldular, onun əmirlərinin əksəriyyəti, qoşununun tanınmış (məarif) adamları və öz əqrabasından olan bir neçə sultanı qətlə yetirildi, sağ qalanlarsa məğlubiyyət və pərişanlıqla Buxaraya gəldilər. Bu iş onun oğluna qarşı olan küdurət və pərişanlığını bir qədər də artırdı, məsələni bitirmək qərarına gəldi. Mir Qulbabanı çağırmaqdan ötrü Herata adam yolladı. O, belə fikirdəydi ki, ləşkərlər toplayıb bu məğlubiyyətin əvəzini çıxsın. Bundan sonra Mir Qulbaba və toplanmış əmirlər Təvəkkül xanı dəf etmək və intiqam almaqdan ötrü yola düşdülər, Abdulla xan Səmərqəndə tərəf yollandı. Elə orada da oğlunun müxalifəti və qazax ləşkərinin qələbəsi (çirəgi) səbəbindən məzacı pozuldu, natəvanlıq yatağına düşdü, nəticədə həyatını, ömrünü əcələ təslim etdi.

ABDULLA XANIN VƏFATI, OĞLU ƏBDÜLMÖMİN XANIN TAXTA CÜLUSU VƏ ABDULLA XANDAN SONRA DÖVLƏT TAXTINA ÇIXMIŞ ÖZBƏK SULTANLARI HAKİMİYYƏTİNƏ SON QOYULMASININ ZİKRİ

Abdulla xanın Səmərqənd yaxınlığında xəstələnib əcəli gözlədiyi min altıncı (miladi 1598) xoruz ilinin axırlarında təbiblərin onun müalicəsi ilə məşğul olmalarına baxmayaraq, bunun heç bir faydası olmadı. Abdulla xanın başqa əmirlərinin hamısından şövkət və iqtidarlı olan atalığı Məhəmməd Baqi Divanbəyi Əbdülmömin xandan qorxduğuna və ona etibarı olmadığına baxmayaraq, bilirdi ki, doğma (solbi) oğul sağ ola-ola səllənəti xanın qardaşı oğullarına vermək əhalinin əqidəsinə xilafdır və qəbulolunmazdır. [Buna görə də] istər-istəməz Əbdülmömin xanın padşahlığı ilə razılaşıb, dövlətxahlıq məqamına gəldi, gizlicə adam yollayıb, ona atasının əlacsız xəstəliyə düçar olmasını xəbər verdi, Səmərqəndə dəvət etdi. O vaxt Mir Qulbaba Səmərqəndə idi. Xorasan və Mavərənnəhr hadisələrinin şərhi zamanı Mir Qulbaba adı tez-tez çəkildiyi üçün, lazım bilindi ki, o vilayətin sözləri etibarlı şəxsləri tərəfindən mir barədə deyilən fikirlər bu kitabın yazı ipinə düzülsün.

Mir Qulbabanın vəziyyəti:

Mir Qulbaba əslən Səmərqənddən idi. Onun anası Abdulla xanın dayəsi olmuş və xanı öz südü ilə böyütmüşdü. Özbək və cığatayların adətinə görə süd qardaşı "kukəltaş" adlanır. Elə buna görə də o, Abdulla xanın kukəltaşı oldu. Mir fəzilət və kəmalata yiyələndi, dilini şer yazmağa də açdı. Abdulla xan Mavərənnəhdə səltənət və cahandarlıq bayrağı qaldırdığı zaman Mir Qulbaba ona müxtəlif xidmətlər etdi, fədakarlıq (canseparı) göstərdi. İnkişaf, bacarıq və xidməti müqabilində xan tərəfindən nəvazişlənən və tərbiyət olunan bu seyid mirin etibarı gün-gündən artmaqdaydı. Sədarət və əmarət mənsəbinə yetdikdən sonra bir neçə il əzəmət və iqtidarla Heratda hakim oldu. O, həmin vilayətin əhalisiylə ölçülüb-biçilmiş və bəyənilən tərzdə rəftar edir, cənab xanın iltifatını qazandığı üçün daim bütün əmirlərin və dövlət başçılarının həsədinə səbəb olurdu.

Mavərənnəhr padşahı Abdulla xanın vəfatı:

Xülasə, Abdulla xan xəstələndiyi vaxt öz bimarlığından məyus idi və Mir Qulbabaya qarşı olan böyük məhəbbət və iltifatına görə, Əbdülmömin xanın mirə olan ədavətini bildiyi üçün, onun buranı tərk edib-getməsini məsləhət bildi və dedi: "Nə qədər ki, mənim həyat ipim qırılmamışdır, yola rəvan ol, Əbdülmömin xanın qəzəb və bəlasından qorunmaqdan ötrü özünü Herat qalasına çatdır, orada nəyi məsləhət görsən, onu da et". Mir Qulbaba padşahın yanından mürəxxəs olub [hamıya] belə dedi: "Xan məni [mühüm] bir xidməti icra etməyə göndərir". O, yanındakı oğlanları və mülazimləri ilə atlanıb [Herata] rəvan oldu. Məsələdən agah olan Məhəmməd Baqi Atalıq Divanbəyi, mir Qulbabanın getməyinə görə Abdulla xanın onu cəzalandıra biləcəyindən qorxub, ona mane olmaq istədi. Mir Qulbaba gördü ki, adamlar artıq Abdulla xanın bu ağır vəziyyətindən məyus olmuşlar, belə bir vaxtda Məhəmməd Baqi ilə mübahisə edə bilməyəcəkdir. Əvvəlcə, kömək istəməkdən ötrü xanın yanına getdi. Onun balışının yanında olarkən vəziyyətinin pozulduğunu gördü, müşahidə etdi ki, təbiblər artıq onun müalicəsindən əllərini üzmüşlər, çünki xanın şüuru qalmamışdı. Məcbur olub Məhəmməd Baqi Atalıq ilə mülayim söhbətə başladı, yağlı dili və aqilanə sözləri ilə onu fikrindən döndərdi və belə söylədi: "Mənim və sənin - hər ikimizin məqsədəuyğun vəziyyətimiz [səlah] mənim getməyimdən asılıdır, çünki Əbdülmömin xan mənim kimi sənə qarşı da iltifatsızdır. Bizim hər ikimizin yaxasının ona verilməsi ağıldan uzaq bir məsələdir. Mənin Herat qalasında olacağım təqdirdə sən və Abdulla xan tərəfdarlarının heç biri Əbdülmömin xan tərəfindən tutula bilməz. Sən əgər mənimlə razılaşsan biz nicat tapa bilərik". Məhəmməd Baqi Divanbəyi mirin getməyinə razı oldu və onlar bir-biriləri ilə əhd edib şərtləşdikdən sonra mir eşiyə çıxıb ata süvar oldu. Mir Qulbaba yola düşən vaxt Abdulla xan artıq keçinmişdisə də, o, bunu heç kimə demədi və bu hadisədən onun mülazimlərindən heç kəsin xəbəri olmadı. Amma, xanın vəfatını böyük etimad etdiyi və tərbiyətləndirdiyi əmirlərindən olan Mövlana Qaraya bildirmişdi. Onlar Ceyhun çayı kənarına çatıb, bir az dayandılar və gəmiləri gözləməyə başladılar. Gəmi sahiblərindən iki-üç nəfər salam verərək, xanın əhvalını ondan xəbər aldılar. Mir Qulbaba biixtiyar ağlamağa başladı, vəziyyət hamıya məlum oldu. Mövlana

Qara bəzi mülazimlərlə söhbətləşib dedi: "Bu adam padşahdan (Əbdülmömin xanıdan - Ş.F.) qaçır. O, ya qızılbaşların, yaxud da cığatayların yanına gedəcəkdir. Görəsən biz niyə onunla gedirik?". Mir Qulbaba gəmiyə daxil olmaq istərkən Mövlana Qara dedi: "Abdulla xan dünyadan getmişdir və indi özbəklərin padşahı onun oğlu Əbdülmömin xandır. Əgər siz onun xidmətinə getməsəniz, əlinizdə təyinat məktubu olmasa, sizi Herat qalasına qoymayacaqlar. Yaxşısı budur ki, Bəlx istiqamətinə rəvan olub, [yeni] padşahla görüşmək şərəfinə yetək". Mir Qulbaba istədi ki, onun ağıllı təklifinə cavab olaraq "hal-hazırda [Əbdülmömin] xanın yanına getmək məsləhət deyildir" söyləsin, amma məlum oldu ki, bütün mülazimlər bir-birilərilə əlbir olaraq Mövlana Qaranın dediyini deyirlər. Mövlana Qara açıq-aydın bildirdi: "Siz əgər bu fikrə xilaf olsanız, bu camaat sizi tutub xanın yanına aparacaq". Mir Qulbaba onların bu məsələ xüsusunda birliyini görüb, nə qədər çalışdısa da, bunun faydası olmadı, camaat onu getməyə məcbur etdi və hamı Əbdülmömin xanın dərgahına yollandı. Mir Qulbaba da, məcbur olub mülkdən, maldan, bəlkə də həyatdan əlini üzüb məhbus kimi o istiqamətə rəvan oldu. Əbdülmömin xan Bəlxdən çıxıb Səmərqəndə gedən vaxt Mir Qulbabanı [onun yanına] apardılar. İşin əvvəlində xan miri görməkdən (guya) sevinc izhar etdi, [hətta] ona müxtəlif iltifatlar göstərdi.

Əbdülmömin xanın əmriylə
Mir Qulbabanın iki oğlunun öldürülməsi:

Mir Qulbaba xana ərz etdi: "Bu vaxta qədərki xidmətimdə olan xanın əmriylə təqsirlərim duz-çörəyə hörmətim və vəlinemətin haqqını tapdamamağımla əlaqədardır. Bundan sonra vəlinemət-həzrət xandır. Daha əlimdən gələn qədər xidmət etmək və fədakarlıq göstərməkdə qüsurum olmayacaqdır". Amma, Mövlana Qara öz xidmətini xana bildirməkdən ötrü belə dedi: "O istəyirdi ki, Herata gedib, oranı möhkəmləndirsin və müxalifət bayrağı qaldırsın. Biz onu zorla buraya gətirmişik". Sözün qısası, Əbdülmömin xan intiqam məqamına gələrək, onu həbs etdi. Əvvəlcə onun mal və əşyalarının ələ gətirilməsinə başlandı. Xorasan camaatı ona demişdi ki, Mir Qulbaba Xorasan və Mavərənnəhrdən əlli min tümən pul toplamışdır. Xan onun bu vəsaitini aldıqdan sonra cəzaya başladı. Onun əmriylə mirin iki oğlunu yerə yıxıb atasının gözü önündə

qoyun kimi başlarını kəsdilər. Xan dedi: "Oğulların qətli atalarından ötrü acıdırmı, ya yox?

Mir Qulbabanın qətli:

Bəs sən mənlə atam arasında fəsad yaradıb, məgər istəmirdinmi ki, atamı məhv edəsən?" Mir Qulbabanın oğlanlarının qətlindən sonra belə eşidildi ki, xanın özü onun sinəsinə bir ox vurdu və başqaları isə işini bitirdilər, mir böyük əziyyətlə öldürüldü.

Xan məsələnin başlanğıcında Süleyman Yasavulu Herata göndərdi, ondan sonrasa o vilayətin hakimliyi xanın dövlətxah adamlarından olan Hacı bəyə verildi, Hacı bəy tez-tələsik Herata çatıb hökumət işlərinə başladı.

İndi isə Əbdülmömin xanın [sonrakı] vəziyyətinin şərhinə qayıdaq. Məhəmməd Baqi Atalığın bir-birinin ardınca Bəlxə göndərdiyi adamlar oraya çatıb, atasının xəstələnərək vəziyyətinin pisləşməsi haqda xana xəbər çatdırdıqları vaxt, o, Məhəmməd Baqinin tez gəlib özünü çatdırmaq barədəki təklifini yubatdı. Çünki, atasının sağlığında Abdulla xan əmirlərinin bəziləri ona qarşı müxalifət etdiklərinə görə Əbdülmömin xan onlara etibar etmir, buna görə də Səmərqəndə getməyini ləngidirdi.

Xülasə, xan öz əsgərlərinin çağırılmaları haqda fərman verdi. O, çoxlu adamla Bəlxdən çıxıb yavaş-yavaş getməkdə və bəzi adamlarını irəli yollayıb hər mənzildə vəziyyəti öyrənməkdəydi. Hər yerə belə xəbər yaymışdı: "Atam bimardır və mən onu yoluxmağa gedirəm". Abdulla xanın vəfatı xəbəri Səmərqənddə yayılan gün, bir neçə nəfər bu xəbəri Əbdülmömin xana çatdırıb, göz aydınlığı almaqdan ötrü onun ordusuna doğru rəvan oldu. Müjdə gətirən birinci adamı tutub, dilinin boğazından çıxarılması barədə əmr etməsinə baxmayaraq bu əmrini icra etmədi.

Müjdə verməkdən ötrü ikinci adamın da gəlişindən sonra atasının ölümünün həqiqət olduğunu bildi, amma ona da etirazla dedi: "Ataların ölümünü oğullara belə asanlıqla demək olmaz, bəs siz niyə bu xəbəri mənə bu cür asan söylədiniz və məni pərişan etdiniz?" Xan gözlərindən şadimanlıq yağışı axırdı, sevincindən dərisinə sığışmırdı.

Gəlib bu xəbəri çatdıran üçüncü şəxs Məhəmməd Baqi Divanbəyi və başqa əmirlərin onu padşah elan etmələri barədəki

xəbəri söylədikdə, şahanə ali bir məclis quraraq səltənət taxtına cülus etdi, onun şərəfinə şadimanlıq nağaraları çalındı.

Amma, yenə də [Səmərqəndə] yavaş-yavaş getməkdəydi. Hər gün əmirlər və əsgərlər hər tərəfdən axışıb onunla görüşürdülər. Yolda eşitdi ki, Abdulla xanın Səmərqənd və Daşkənddə olan qardaşı oğlu Hezarə özünə xan ləqəbi götürmüş, Əbdülmömin xanla müxalifətə başlamış, Hezarənin qohumlarından olan Dostum Sultan və Özbək Sultan da ona itaət etmişlər, Daşkəndin və Səmərqəndin ləşkərləri də onun dövlət bayratı altına toplaşmışlar. Əbdülmömin xan zalım, qaniçən və daşürəkli bir padşah kimi məşhur idi, qohumlarına və əmisi oğlanlarına qarşı diqqətsizdi. Xan onları dövlət gülzarının tikanları sanırdı. Onun xasiyyətini bilən Hezarə xan və qohumları onunla atası arasındakı vəziyyətdən nəticə çıxararaq, özlərinin və fərzəndlərinin sağ qalmalarından ötrü onunla müxalifət məqamına gəlmişdilər.

Xülasə, Əbdülmömin xan tam əzəmət və iqtidarla Səmərqəndə gəlib cahanbanlıq taxtına qədəm basdı. O, Bəlx, Buxara, Qərşi, Səmərqənd və ətraf yerlərin ləşkərlərini torlayıb, Hezarə xanın fitnəsini yatırmaqdan ötrü Daşkənbə yollandı. Elə onlar da xanın qarşısında çıxdılar. Aralarında ağır cəng başlandı. Əhalinin çoxu Əbdülmömin xana meylli olduğundan müxaliflər məğlubiyyətə uğradılar və ələ keçdilər. Əbdülmömin xan onları kişi cinsindən olan fərzəndləri ilə məhv etdi, bir dəqiqə də olsa rəhmsizliyindən qalmadı. Səmərqənd hakimliyini Məhəmməd Baqi Divanbəyiyə verib, hər mahala hakimlər təyin edən Əbdülmömin xan zəfərlə Buxaraya qayıtdı. Qazax sultanzadələri və ətraf yerlərin hakimləri xanın yanına adam yollayıb, ona öz itaət və bağlılıqlarını izhar etdilər. Xan Buxarada da, sağlam, qabiliyyətli və dünya işlərinə maraqları olan qohumlarının və əmi oğlanlarının həyatına son qoydu.

Xülasə, o, öz dudmanının tüstüsünü (dud), Pir Məhəmməd Sultan adlı küçələrdə dolaşan bir şəxsdən başqa, göyə ucaltdı. Pir Məhəmməd ev-eşiksiz bir dərviş idi, həmişə kasıbçılığı və talesizliyi üzündən küçələrdə yaşayırdı. Xan onu öldürmədi, amma iki-üç uşaqdan başqa Abdulla xanın bircə qohumunu da sağ qoymadı, ağır qoşunla Xorasana yürüş etməkdən ötrü Buxaradan çıxıb, Bəlxə rəvan oldu.

ƏBDÜLMÖMİN XANIN ÖLDÜRÜLMƏYİ, PİRƏ MƏHƏMMƏD XANIN BUXARADA, ƏBDÜLƏMİN XANIN İSƏ BƏLXDƏ TAXTA CÜLUS ETMƏLƏRİ, MİNA RƏNGLİ ÇƏRXİN GƏRDİŞİ İLƏ O ZAMAN BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Əbdülmömin xan hakimiyyətə gələn kimi, bəzən Abdulla xanın əmirləri ilə tənəli söhbətlər edir, onlara kinayəli kəlmələr deyirdi. Xanın onlara qarşı ədavəti olduğunu güman edən bir neçə adam öz hallarının qayğısına qalıb, xanın Bəlxə gəlib-çatacağı vaxt onlarla haqq-hesab cürüdəcəyini xəyal edirdi. [Buna görə də,] şücaətli yekə[625] cavanlardan Abdulla xanın əmiaxuru olan Əbdülsəməd bahadır və Məhəmmədqulu bahadır Səxtkəman onun qətlini vacib bilərək, bir-biriləri ilə qərara gəldilər və fürsət gözləməyə başladılar.

Havanın isti olması səbəbindən Əbdülmömin xan gecələr yol gedirdi. Eşşəkağasılar, şəqavullar* və xidmətçilər bir ox gedişi məsafəsində ondan əvvəldə, əmirlər, qoruyucular (çehregan) və başqa hərbiçilər isə bir ox gedişi məsafəsində ondan axırda yol getməkdəydilər. Onun özü isə bacludarlar (?), iki-üç xidmətkarlar və bir neçə nəfər nədim və çalğıçılarla yol qət edirdi. Bir gecə bir kənd kənarından keçərkən, Əbdülsəməd bahadır və Məhəmmədqulu bahadır yol kənarındakı divarın arxasında əyləşib kamanlarına ox qoydular və xanı gözləməyə başladılar. İrəlidə gələnlər keçib-getdikdən sonra Əbdülmömin xan yanındakı bir neçə adamla pusqu yerinə (kəmingah) gəlib çatdı. Məşəl işığı altında bahadırların hər ikisi kamanı çəkdilər və ilahinin qəzavü qədəri sayəsində hər iki ox məqsəd hədəfinə çatdı və hədəfdən yayınmadı. Xan atdan yıxıldı. Bahadırlar isə şəmşirlərini qınından çıxarıb ona hücuma keçdilər, məşəldarlarsa məşəlləri atıb qaçdılar. Tacik olan nədimlər və çalğıçılar da şəmşir qorxusundan öz başlarının hayına qaldılar. Bahadırlar dərhal xanın başını kəsdilər, onu qoruyan və yanında dayanan qoruyucunu da para-para doğradılar, ata süvar olub Buxaraya üz tutdular.

Bir ləhzədən sonra arxadan gələnlər yetişib, onu yol üstündə ölmüş gördülər. Baş verən hadisədən xəbərdar olan miraxur Əbdülsəmi bahadır və bəzi başqa əmirlər elə həmin gecə Buxaraya

[625] Mətndə elə belə də yazılıb: Yekə! – Ş.F.

rəvan oldularsa da, adamların əksəriyyəti o gecə baş vermiş hadisəni hələ bilmədi. Sübh orduya çatıb xanı görmədikdə elə təsəvvür etdilər ki, o, ova çıxmışdır. Arxadan gələnlər məsələni sonradan bildikdə, ordu arasında çaxnaşma düşdü, əmirlər və döyüşçülər iki hissəyə ayrıldılar. Əbdülmömin xanın köhnə mülazimləri və Bəlx əmirləri onun xəzinə və başqa ağır-yüngül mallarını bacardıqları qədər qarət edib Bəlxə yollandılar, Abdulla xanın əmirləri və Buxara ləşkəri də xanın əksər çadır və mallarını qarət edərək, Buxaraya qayıtdılar. Orada padşahlığa layiq bircə adam da yox idi. Çarəsiz qalaraq Əbdülmömin xanın qəzəb bəhri dalğalarının tələtümü nəticəsində küçələrə atılmış Pir Məhəmməd xan işə yaradı və ona padşah və xan ləqəbi verərək xütbə və sikkəni adı ilə bəzədilər, məsələni Səmərqənddə olan Məhəmməd Baqi Divanbəyiyə çatdırdılar.

Bəlxə gəlib çatan Əbdülmömin xan əmirlərinin bəziləri istədilər ki xanın iki yaşlı oğlunu atasının yerinə Bəlxdə padşah edib, atasının Ceyhun çayından qızılbaş dövlətinin sərhədinə qədər zəbt etdiyi yerləri ona versinlər. Başqaları bu fikrə etiraz edib dedilər ki, iki yaşlı bir tifil bizim səltənətimizə layiq deyildir, çünki bizə təcrübəli bir cavan lazımdır ki, düşmənlərə müqavimət göstərməyi bacarsın.

Dinməhəmməd xanın və Baqi xanın ataları olan Abdulla xanın bacısı oğlu Cam bəy Sultan isə Əbdülmömin xan tərəfindən tutulub həbsə salınmışdı. Onun oğlanları Xorasanın bəzi mahallarının hakimləri olduğundan, istədilər ki, Canı bəyi [həbsxanadan] çıxarıb Bəlx və Xorasanın padşahlıq ipini onun iqtidarı altına versinlər. Bu məsləhətlə hamı razılaşdı, Canı bəyin səltənətə gətirilməsinin tərəfdarı oldu.

Allahın təqdiri ilə, Abdulla xanın qardaşı İbadulla Sultanın arvadı, İbadullanın vəfatından sonra, Abdullanın zövcəsi olmuşdu. İbadulla Sultanın bir qızı isə Əbdülmömin xanın arvadı idi ki, onun evində də öldü. Canı bəy Sultan Bəlxə gəldi, Adil bəy, Yarməhəmməd Mirzə və bəzi ağsaqqallar onun yanına gedərək, Canı bəyi öz qərarlarından agah etdilər. Amma, o bu qərarla razılaşmadı. Ağsaqqallar belə ərz etdilər: "Əbdülmömin xanın oğlu tifil bir uşaqdır və onun dudmanından padşah olası başqa adam yoxdur. Biz də əlacsız qalıb səni, Abdulla xanın bacısı oğlu olduğun üçün, onun yerinə padşah etməyə razı olmuşuq".

O əzəmətli qadın (İbadulla xanın arvadı - Ş.F.) dedi: "Padşahlıq dudmanından padşahlığa layiq bir padşahzadə vardır". Əmirlər o padşahzadənin [kim olduğunu] soruşduqda cavab verdi: "Ərim İbadulla Sultanın cariyədən doğulmuş Əbdüləmin adlı bir oğlu var. Ərimdən sonra onun anası da öldü və mən onu [Əbdülmömin xandan] hifz etdim. Öz qohumlarının və əmisi oğlanlarının qətlinə ürək bağlayan Əbdülmömin xanın qorxusundan mən indiyədək ona qız paltarı geydirib böyütmüşəm". Hamı təəccübləndi, çünki İbadulla Sultanın oğlu olduğunu heç vaxt eşitməmişdilər.

O qadın Əbdüləminə xətər yetirməyəcəkləri haqda əmirlərə and içirəndən sonra, dərhal onun qadın libasını çıxarıb oğlanı onlara göstərdi. Bu hekayətin doğruluqdan uzaq olmasını bilmələrinə baxmayaraq, Əbdüləmin boya-başa çatmış qabiliyyətli bir cavan kimi gözə dəydiyindən və Abdulla xanın qardaşı oğlu olması adı onun üstündə olduğundan, əmirlər razılaşdılar, elə həmin gün onu hamama aparıb, hörük qədər uzun olan saçlarını qırxdılar, kişi geyimi geydirdilər, xan adı verərək səltənət taxtına əyləşdirdilər, Bəlxin bütün əmirləri onun görüşünə gəldilər. Əbdülmömin xanın səltənət və padşahlıq ləvazimatları və Bəlxdə olan bütün şeyləri Əbdüləminin əlinə keçdi. Həmin əzəmətli "qadın" bütün işlərin həllini öz iqtidar əlinə aldı, belə ki, ağsaqqallar onun məsləhəti və məşvərəti olmadan heç bir işə qarışmırdılar. Sübhanallah, bunlar oyunbaz fələyin necə də şəbədaləri və nə təhər qəribə işləridir ki, qeyb pərdəsinin arxasında baş verməkdədir?

Xülasə, elə ki, Buxara xəbərləri və Pir Məhəmməd Sultanın taxta cülusu hadisəsi Bəlx özbəklərinə gəlib yetişdi, həmin xanımın rəyi və məsləhəti ilə onlar Buxara əmirləriylə müxalifətdən əl çəkdilər, Əbdüləmin xan tərəfindən Pir Məhəmməd xana sədaqətamiz bir məktub yazıldı, onu taxta cülus etməsi və xan olması münasibətiylə təbrik etdilər, xahişləri belə oldu ki, qoy Əbdüləmini Əbdülmömin xanın fərzəndi bilsinlər, Abdulla xan vaxtında olduğu kimi onların hər biri öz yerində əyləşib, biganələrin qarşısını almaq naminə məmləkətin mülki işlərində biri-digərinə yardımçı olsunlar. Buxara əmirləri səltənətin başqa qadınlarından Abdulla xan dudmanı barədə sorğu-sual apardılar, hamı bir ağızdan dedi ki, İbadulla xanın heç bir oğlu olmamışdır, Əbdüləmin xanın varlığı haqqında nə birunda, nə əndərunda, nə məhrəmdən, nə naməhrəmdən heç kim, heç nə eşitməmişdir, bütün bunlar İbadulla

xanın zövcəsinin hiyləgərliyinin nəticəsidir. Amma əhalini özlərinə ram etməkdən ötrü aqil adamlar və ağsaqqallar bu məsələni təsdiq edir, vaxtın məsləhətinə uyğun olaraq onları inkar etmirdilər. Pir Məhəmməd xan tərəfindən Məhəmmədəminə yərliğ yazıldı və Pir Məhəmməd ona "fərzənd" sözü ilə xitab etdi. Belə bir sovqata (ətiyye) şükr edərək, öz sevinclərini izhar etdilər, Əbdülmömin xanın məmləkətini Əbdüləmin xana təhvil verdilər, amma bu şərtlə ki, Bəlxdə Pir Məhəmməd xanın adına sikkə zərb olunmasın və xütbədə onun adını öz adından əvvəl yazsın.

Onların dövlət məktubu "məlikin istəyinə baxmayaraq"[626] qayda-qanuna uyğun yazılmadığı üçün heç birinin işi sahmana düşmədi və qurduqları dövlətin büsatı bir neçə gün davam etdi ki, bu haqda gələcəkdə yazılacaqdır.

XORASANIN VƏZİYYƏTİ, DİNMƏHƏMMƏD XANIN HERATDA SƏLTƏNƏT TAXTINA CÜLUS ETMƏSİ, ONUN VƏZİYYƏTİNİN SONU VƏ QARDAŞI BAQİ XANIN DÖVLƏT BAYRAĞININ MAVƏRƏNNƏHRDƏ QALDIRMASININ ZİKRİ

Yuxarıda yazılmışdı ki, Abdulla xanın bacısı oğlu Yetim Sultan ibn Canı bəy Sultan öz qardaşları ilə hökümət yərliğinin hökmüylə hakimlik edirdilər. Əbdülmömin xanla onlar arasında vəhşət və dava-dalaş yarandığı üçün, Abdulla xandan aldıqları tərbiyətə əsasən Əbdülmöminə itaət etmir, onun əmr və qadağalarına (nəhy) o qədər də iltifat göstərmirdilər.

Abdulla xanın vəfatından sonra Əbdülmömin xan səltənət və padşahlıqda istiqlal əldə edib, qohum-əqrabasının və əmisi oğlanlarının həyat ipini kəsdikdə və onların ataları Canı bəy Sultanı zindana saldıqda, onlara qorxu üz verdi və əlahəzrət zilləllah şahın dövlətinə pənah apardılar. Yetim Sultan Kirman hakimi Gəncəli xan vasitəsiylə qızılbaşların kömək və imdadına yetişdi.

O öz quşbəyisi Yusif bahadırı sədaqətini şaha ərz etməkdən ötrü onun yanına göndərdi, qüvvətli şah dövlətinin adamlarının köməyi sayəsində Xorasanda Əbdülmömin xana qarşı müxalifət təbilini döydü, Xorasan paytaxtı olan Herat qalasını əlinə almaq istədi. Bu məqsədlə də az adamla golib Herat yaxınlığına çatdı.

[626] İfadənin ərəbcəsi: "Bi rağmi təvətuyi-l-məliki min təşa."

Heratda olan özbək əmirləri güclü döyüşçülərinin azlığı üzündən eşiyə çıxmayıb qalaya sığındılar, onu içəri buraxmadılar. Qalaya yol tapa bilməyən Yetim Sultan oranın ətraf yerlərini qarət edərək geri döndü.

Elə həmin vaxtlarda, o, iki min nəfərlə Fərah üzərinə yürüş etdi, Fərah qalasını tutdu, Esfezar qalasını da zəbt etdikdən sonra Herata doğru gəldi. Herat vilayətinin hakimi Hacı bəyin özü şəhərdə qalıb, Molla Qaranı və Seyid Məhəmməd Sultanı iki min nəfər adamla onun qarşısına yolladı. Onlar Pole-Malana qədər gəlib, o zaman Esfezarda olan Yetim Sultanın yanına adam göndərdilər və belə dedilər: "Sərt rəftarını tərk et və geri dön, əks təqdirdə hərbə hazır ol!". Yetim Sultan bu sözlərə etina etməyərək, Esfezardan çıxıb Herat ziyarətgahına gəldi, onlarla döyüşə hazırlaşdı. Molla Qara və Seyid Məhəmməd Sultan qoşun səflərini bəzəyərək, onun qarşısına yollandılar. Tərəflər hələ silaha əl atmamışdılar ki, Bəlx və Buxaradan etibarlı qasidlər gəlib, Əbdülmömin xanın öldürülmə xəbərini Herata çatdırdılar. Hacı bəy heyrət və əndişə bəhrinə qərq oldu. Əlahəzrət zilləllah şahın hümayun ordusunun [Xorasana] yürüş xəbəri və güclü qızılbaş əsgərlərinin gəlmələrinin sədası da gəlib yetişdi. Mavərənnəhrdə padşahlığa namizəd sultanlar nəslindən kiminsə qaldığına güman yox idi, buna görə də, Hacı bəy Yetim Sultanla müxalifət edə bilməzdi.

Adı Din Məhəmməd Sultan olan Yetim Sultanın Herat taxtına cülus etməsi:

Heratın özbək əyanları pərişan olub belə qərara gəldilər kı, şücaətli və dilavər adam olan Yetim Sultanı Herata gətirsinlər və ona uca “xan” ləqəbi versinlər, bütün Xorasan əmirləri onun ətrafına toplaşsınlar və məmləkəti qorumaqla məşğul olsunlar. Hamının məsləhəti ona itaət etmək oldu. Elə həmin gün Hacı bəy onun yanına adam yollayıb məsələni bildirdi. Bundan belə "Dinməhəmməd xan" adlandırılacaq Yetim Sultan bu şad xəbərin doğru olub-olmadığını müəyyənləşdirdikdən sonra, şadimanlıq papağını öz iqbal başına əyri qoydu, beyin sarayına qürur havası doldu, səltənət və padşahlıq etmək qərarına gəldi. Ona qarşı inadkarlıq etmiş Molla Qara və Məhəmməd Sultan qorxudan qaçdılar və əsgərlər Dinməhəmməd xana birləşdilər. Şəhərin özbək əyan-əşrafı ilə orada olan Hacı bəy silahsız halda onu qarşılamağa

çıxdı və Pole-Malanda onun mülazimətinə yetişdi, qarşısında diz çökdü və xanın ali ordusu ilə birlikdə şəhərə gəldi.

Amma, həmin gün bəd bir saatda başlamışdı və ay (qəmər) alovlanma yolunda (təriqeye-mohtəreqe) idi. Nəsə başqa bir əməlin başlanmasından qorxan Dinməhəmməd xan saatın yaxşı, ya pis olmasının fərqinə varmayıb, həmin nəhs saatda şəhərə daxil oldu, sultanların iqamət yeri olan "Bağe-şəhr"də dayandı, səltənət işləri tədbirlərinə başladı, Xorasanda yaşayan seyidlərə, varlı adamlara, əhaliyə, qala və şəhər mühafizlərinə nəvazişanə yərliğlər yolladı. Həcc səfərindən qayıdıb onun yanına gələn babası Yarməhəmməd xan çingizilərə xas qaydaya rəğmən onu "padşah" adlandırdı, xütbə və sikkəni onun adıyla bəzədi. Xorasan əmirləri də itaət qədəmlərini irəli atıb Dinməhəmməd xanın ətrafında toplaşdılar. O isə, əhaəzrət zilləllah şah ilə başladığı dostluğu unudub (nesyan) Xorasan məmləkətlərini zəbt etmək məqamına gəldi. Özbək əmir və əyanlarının hər birini öz istəyinə uyğun olaraq ali mənsəblərə təyin etdi, asudəliklə səltənət balışına baş qoydu.

Şer

Saqinin zülfünü tutmuş o həriflər necə xoş!..
Yaxşıdır qoysa fələk onları bu halətdə.[627]

Əbdülmömin xan və qızılbaş ləşkərinin Xorasana gəlişi xəbərinin yayıldığı ilk gün bu xəbər Xorasan özbəklərini elə tələşə salmışdı ki, onların hamısı savab yolu itirib boş əndişələrə və mənasız fikirlərə dalaraq, öz vəziyyətləri barədə düşünməkdəydilər. O cümlədən, o vaxt Əbdülmömin xanın fərmanı ilə Mərvin Şahican adlı mahalının hakimi olan mötəbər özbək əmiri Süleyman Yasovul, deyildiyinə görə, Canı bəy xanın nəslindən və Abdulla xanın qohumu olan və dərvişlik libası geyib homin vilayətdə avaralanan Qasım Sultan adlı bir şəxsi yanına gətirib, ona hakimlik verərək Mərv Şahicanına, Çaharsuya, Nisaya, Xorasana Bavərdə və o hüduddakı yerlərə göndərdi. Dinməhəmməd xanın Xorasanda xəbəri eşidiləndən sonra Süleyman Yasovul etdiyi bu cürətdən

[627] Şerin farscası:
Xoş qereftənd hərifan səre-zolfe-saqi,
Gər fələkşan begözarəd ke qərari girənd.

peşiman oldu, xana sədaqət və fədakarlıq izhar edən bir məktub göndərdi, Qasım Sultana da, xana məktub yazaraq, öz itaətini və sədaqətini bildirməyi təklif etdi.

Mülk və mal işlərində fərasəti və hakimlikdə adından başqa heç nəyi olmayan Qasım Sultan, Süleyman Yasovulun davranışından özünə qarşı peşimançılıq hissi olduğunu güman edib, onu aradan götürmək və müstəqil olmaq qərarına gəldi. Mərv hadisələrindən xəbərdar olan Dinməhəmməd xana Süleyman Yasovuldan sədaqət məktubları gəldiyi üçün Vəli Məhəmməd Sultan öz kiçik qardaşını Mərvə göndərib Süleyman Yasovulun adına istimalət məktubu yazdı, oranın pis-yaxşı bülün işlərini öz istədiyi kimi həll etmək üçün onun iqtidar əlinə tapşırdı və bildirdi ki, Mərvdə sikkə babası Yarməhəmməd xanın adına kəsilsin. [Buna görə də,] Vəli Məhəmməd Sultan gedib Mərvə çatdıqda, Süleyman Yasovul onu qarşıladı, Qasım Sultanı da Vəli Məhəmmədin istiqbalı üçün zorla onun yanına apardı. Amma, şəhər darvazasına gedib çatdıqda, "on dərviş bir xalça üstündə otura bilər, iki padşah isə bir ölkəyə yerləşə bilməz" misalına uyğun hərəkət etdi, mülazimləri onun işarəsi ilə o günahsız biçarənin boynunu Taxta körpünün üstündə vurdular, Vəli Məhəmməd Sultanı isə izzət və ehtiramla şəhərə gətirdilər, ona xidmət etməyə başladılar. Vəli Məhəmməd Sultan hələ Mərvdə rahatlana bilməmişdi ki, həmin bir neçə gün ərzində, əlahəzrət zilləllah şahın zəfər ayəli ordusunun təntənə ilə Xorasana gəlişi, həmçinin ata-babadan Mərv Şahicanının varisi Nurməhəmməd xanın oraya gəlib çatması xəbəri həmin vilayətdə eşidildi. Onlar orada qalmağa macal tapa bilməyib, bu dəftərin zeyl hissəsində yazılacağı kimi, mülk və maldan keçərək Çəharcu yoluyla Mavərənnəhrə getdilər. Müqəddəs Məşhədin hakimi olan Əbülməhəmməd bəy qızılbaş ləşkərinin gəlişi və Nişapurun tutulmasından xəbərdar olub, qala silahı hazırlamaq və qaladarlıqla məşğul olmaq fikrində ikən, elə həmin gecə Əbdülmömin xanın öldürülməsi xəbəri gəlib yetişdi və bu xəbər təsdiqləndi.

Əbülməhəmməd bəy balıq kimi iztirab burulğanına düşüb, belə fikrə düşdü: Əgər məmləkətin ərbabları və əhalisi dövlətxahlıq məqamında durub qaladarlıq işlərində kömək edərlərsə, özbək qoşununun padşahının kim olacağı bilinənədək şəhəri hifz etməyə çalışmaq olar. O elə bu fikirdəydi ki, Dəstcerd qalasından belə bir xəbər gəldi: On iki min qızılbaşla Fərhad xan Dəstcerdə gəlib-çatdı.

Bu xəbərdən çaşıb-qalan Əbülməhəmməd bəyin ləngimək və qaladarlıq etmək macalı olmadı və bütün özbəklər pərişan olub dedilər: "Fələyin hökmü ilə hakimiyyət özbək dudmanından kənar olmuş, bu tayfaya bəla üz tutmuşdur. Bizim müstəqil padşahımız yoxdur. Belə bir vəziyyətdə, qızılbaşların yüz illik ülkası olmuş, bizim əlimizə isə təzəliklə düşmüş məmləkətdə qalmaq ağıldan uzaq bir haldır. Nə qədər ki, fürsət var və hələlik mühasirəyə düşməmişik, gərək öz əhli-əyalimizi qəm-qüssə bəhrinin təlatümlü dalğalarından qoparıb nicat sahilinə çatdıraq, xətərsiz bir yerə gedək".

Bəzi cahillərsə dedilər: "Nə üçün biz abad bir şəhəri qızılbaşlara verək? Oranı qarət edək, həzrət imaməl-cinn və-n-naşın zərihinin qızıl məhəccərini qoparaq, mübarək gümbəzin üstündəki qiymətli daş-qaşlarla bəzənmiş mili və rövzədə mövcud olan bütün zər-zivəri götürüb yolumuza rəvan olaq".

O zaman müqəddəs Məşhəddə olan sey idlər və ağıllı şəxslər [özbəklərin] bu fikirlərindən xəbər tutub, Əbülməhəmməd bəyi o quldurların fitnəsindən və bədnamlıq qorxusundan, habelə dargöz özbəklərin meylini bu fikirdən daşındırdılar. Bəy bu istəyi tərk edib, aşiqanə dəlillərlə özbək cahillərinə belə bir iş görməyi qadağan etdi [və dedi]: "Siz on ildir ki, bu mülkün çörəyini yeyirsiniz. Gərək duz-çörəyi unutmayıb, böyük fitnə-fəsad ehtimalı görünən bu şəhər əhalisinin torpağı, namusu və qarəti barədə düşünməyəsiniz, sağ-salamat buradan çıxasınız", O, şəhər seyidlərinə və böyük adamlarına isə belə xitab etdi: "Sizdən xahişimiz belədir: Məhəllə ağsaqqallarına deyin ki, qoy qarətçi və avara adamlar heç bir özbəyə və əhl-əyala hücum etməsinlər, üç gün müddəti bitməyənədək qızılbaşların yanına adam yollamayın və bu vəziyyət barədə onlara məlumat verməyin ki, özbəklər arxayınlıqla buradan çıxıb özlərini əmin-amanlıq olan yerələrə çatdırsınlar". Elə həmin gecə köç təbilini döyərək, süvari, yaxud da piyada olan bütün özbəklər şəhəri tərk etməyə hazırlaşdılar, "Mir Əli Amu" darvazasından çıxaraq, Sərəxs yoluna rəvan oldular.

Özbəklərin çıxıb-getmələrindən sonra elə həmin gün seyidlər, əhali və müqəddəs şəxslər Dəstcerddə olan Fərhad xanın və əmirlərin yanına adam yollayıb, onları vəziyyətdən hali etdilər. O saat Dəstcerddən çıxan Fərhad xan müqəddəs Məşhədə gəldi, həzrət imaməl-cinn və-l-ünsün mələk aşiyanlı astanasını ziyarət etməklə şərəfləndi, şaha baş verən əhvalatı əks etdirən və müqəddəs Məşhədin fəthini xəbər verən bir məktub və ziyarətnamə göndərdi.

Hümayun şah Əsbahi, Şəqan və Cürbəda çatan vaxt Fərhad xanın yolladığı adam və müqəddəs Məşhəd əhalisi də gəlib şaha çatdılar, bu şad xəbəri ona bildirdilər. Əbülməhəmməd bəy və yoldaşları Sərəxsdən keçib Zurabada gəldikdən sonra eşitdilər ki, Dinməhəmməd xan Herat darüssəltənəsində səltənət taxtına cülus etmişdir və Xorasan əmirləri onun dərgahına gedərək ona tabe olmuşlar. Əbülməhəmməd bəyin Məşhəddən çıxmasını və o müqəddəs şəhəri əldən verməsi xəbərini eşidən Dinməhəmməd xəbər yollayaraq, onu öz əskərləri və yoldaşları ilə birlikdə Herata aparmış, Əbülməhəmmədi yərğu* məzəmmətinə tutmuş və danlamağa başlamışdı: "Sən nə üçün müqəddəs Məşhədi tərk edib oradan çıxdın?" Əbülməhəmməd xanın üzrxahlıq etməsinə və ağılabatan dəlillər gətirməsinə baxmayaraq Dinməhəmməd xan heç nə eşitmək istəmədi. Xan hətta bəylə görüşə üç gün icazə vermədi və yalnız üç gündən sonra dövlət başçılarının vasitəçiliyi və səyi ilə görüş icazəsi hasil oldu. Dinməhəmməd xan özünün əmisi oğlu olan Seyid Məhəmməd Sultanı dərhal müqəddəs Məşhədə hakim təyin etdi, dörd yüz bacarıqlı bahadırla onu təcili olaraq həmin istiqamətə yolladı ki, qızılbaş ləşkərindən əvvəl özünü müqəddəs Məşhədə çatdırıb o mübarək şəhəri zəbt etsin. Xan həmçinin Şahım kəltəni" bir dəstə əskərlə Guryan qalasını qorumağa göndərdi və bu kəltə qalaya daxil olaraq, o vilayətin zəbtinə başladı.

Amma, Seyid Məhəmməd xan və yoldaşları Cam türbətinə gəlib çatdıqları vaxt qızılbaşların artıq gedib müqəddəs Məşhədə girdiklərindən xəbərsiz idilər. Cam şəhərinin kələntəri iti sürətli bir qasidi müqəddəs Məşhədə yollayıb o camaatın gəlişindən xəbərdar etdi. Fərhad xan elə o saat qardaşı Zülfüqar xanı bəzi əmirlərlə onların dəfinə namizəd etdi və o, hücumla yola düşdü. Qızılbaş ləşkərinin qaraltısını görən özbəklər pis hala düşdülər, səf bəzəməyə və hərb etməyə macal tapmadılar, fərar etdilər. Qızılbaş ləşkəri isə onlara çatdı, əksəriyyətini qətlə yetirdi, həştad nəfərə yaxın özbəyi isə tutub, müqəddəs Məşhədə qayıtdı.

Məğlubiyyət və pərişanlıqla Herata gəlib çatan Seyid Məhəmməd Sultan Dinməhəmməd Sultanı qızılbaş ləşkərinin gəlişindən xəbərdar etdi. Özbəklər arasında bu xəbərlər də eşidildi: "Fərhad xan və Kirman hakimi Gəncəli xan Abdulla xanın vəfatını, Əbdülmömin xanın isə öldürülməsini eşidərək Xorasana gəlmişlər. Xorasanın bəzi mahallarında qalan Budaq xan və qızılbaş əmirləri

onlara qoşulub Xorasanı zəbt etmək məqamındadırlar, özbəklər qalibiyyətli şah ordusunun gəlişindən bixəbər olmuşlar".

Amma əmirlər, ağsaqqallar və atalıqlar qızılbaşlarla müharibə etməyi düşünürdülər. Dəfələrlə məsləhət püşkü atdılar. Aqil adamlar və ağsaqqallar, xüsusilə mənqət tayfasından olan sultanzadələrdən dünyagörmüş fikir sahibi və tədbirli adam olan Hacı bəy və Əbülməhəmməd bəy dedilər: "Xorasan vilayəti qızılbaşların yüzillik yurd və məskəni olmuşdur və özbəklər heç vaxt orada tam üstünlüyə malik olmamışlar. Bizim isə yurdumuz və məskənimiz Mavərənnəhrdir. Qədim yurdumuzu qoyub, Xorasan üstündə tələş etmək məsləhət deyildir. Mavərənnəhrdəsə padşahlığa layiqli adam olmadığı üçün hər şeydən üstün budur ki, o tərəfə üz tutaq və o vilayətdə yaşayaq. Yox əgər Xorasandan tamam əl çəkmək istəmirsinizsə, qoy Dinməhəmməd xan öz qardaşı Baqi Sultanı iki-üç min nəfər və bir illik azuqə ehtiyatı ilə Herat qalasında saxlasın, həmçinin Tun, Qayin, Sistan qalalarını və Heratın bu tərəfindəki başqa mahalları öz etibarlı adamlarına versin. Qızılbaşların əzəmətli padşahı ilə dostluq və səadət izhan edib, yenidən məhəbbət üslublu bir məktub yazsınlar, onu bir adam vasitəsilə göndərsinlər və elan etsinlər ki, Allah-təalanın köməyi və əlahəzrətin razılığı ilə Əbdülmömin xanın istilası bitmiş, rahatlıq yaranmışdır, özbək əmirləri artıq öz boyunlarına itaət boyunduruğu salmışlar. İndi ərz etdiyimiz kimi, sözümüz sözdür və Xorasan sizin mülazimlərinizindir. Biz isə bu sülalənin dövlət mərkəzi olan Mavərənnəhrə üz tutmuşuq. Biz müqəddəs Məşhəd, Nişapur, Tərşiz və bəzi mahalların qalalarını boşaldaraq sizin mülazimlərinizə vermişik. Öz xanəköçümüzü buradan aparmaq zərurəti olduğundan sizin inayətinizə, lütfünüzə və fitri (cəbəli) mürüvvətinizə arxalanıb öz fərzəndlərimizi, əhl-əyalımızı, həmçinin qardaşım Baqi ilə Herat qalasında saxladığımız özbək əmir və əyanını və namusumuzu siz həzrətin mülazimlərinə tapşırırıq. Himmətinizi əsirgəməyin. İnşaallah öz əsl yurdumuzu ələ keçirdikdən sonra bizim səltənət kökümüz möhkəmlənəcəkdir və Heratın və Xorasanın başqa mahallarını da o tərəfin fərmanı altına verəcəyik. İndi isə böyük güman hissi ilə düşünürük ki, qızılbaşların padşahı öz comərdliyinə (fotovvət) sadiq qalıb bizim bu səmimi xahişimizi razılıq qulağı ilə dinləyəcək, müvafiqət və dostluğun üstünü müxalifət dırnaqı ilə qaşımayacaq, bu yürüş zamanı müqəddəs Məşhəd və özbəklər tərəfindən boşaldılan sair mahallarla kifayətlənəcək, Herat və onun

ətrafına hücum etməyəcəkdir. Bizim işlərimiz Mavərənnəhrdə, Türküstanda, Bəlxdə və Bədəxşanda istədiyimiz kimi yoluna qoyulduqdan və səltənət işləri qaydaya salındıqdan sonra, əgər Xorasanın meylində olsanız, iqtidarla oraya gələrək, həmin yerin fəthi, işlərinin tənzimlənməsi və yoluna qoyulması ilə məşğul olarıq, yox, əgər belə olmazsa zəmanəyə müvafiq hərəkət edərik".

Aqil adamların və ağsaqqalların əksəriyyəti bu fikri bəyəndilər, qərarnamə yazmağa və qaladarlıq ləvazimatı hazırlamağa başladılar. Onlara qarşı olan bir neçə Herat əhlini və qəbilə başçılarını tuıub həbs etdilər. Amma, bəzi cahillər və dava axtaranlar bu məsləhətlə razılaşmayıb dedilər: "Hal-hazırda qızılbaş padşahından xəbər-ətər yoxdur, onların qarşımıza gələn adamlarının sayı isə on-on iki min nəfərdən artıq deyil. Onların çox yaxına gəlmələrinə baxmayaraq on-on beş min qızılbaşa arxa çevirib [geri çəkilməyimiz] zəifliyimiz və məğlubiyyətimiz deməkdir. Əgər, beləliklə, Mavərənnəhrə qayıdıb Xorasanı əldən verərsək, bədnam olarıq və şücaətli bahadırların tənəsinə məruz qalarıq. Belə olan halda, məlumdur ki, əlimizdən nələr çıxacaqdır. Bizim hələ Mavərənnəhrin vəziyyətindən və oranın əmirlərinin qərarlarından xəbərimiz yoxdur. Xorasan məmləkətlərindən əl çəkmək və nəğdi nisyəyə vermək ağıl və mərdanəliyə dəlalət etməz. Bu camaatın hərb kəmərini belimizə bağlayaraq, gərək mərdliklə onların dəf olunmasına başlayaq. Əgər qalib gəlsək, xanlıq iqtidarının səsi ucalar və bütün işlər məqsədimizə uyğun qaydaya düşər, yox, əgər, Allah eləməsin, başqa cür olarsa, onlardan bir daha üzr istəyərik".

Dinməhəmməd xan ikinci fikrə meyl etdi. Xorasandakı hakimliyin ləzzəti başlarından getməyən dalaşqan cahillərin əksəriyyəti də bu məsləhəti üstün tutdular. Abdulla xanın sağlığında Xorasanda baş vermiş hərc-mərclik zamanı bəzi tədbirsiz qızılbaş əmirləri ilə vuruşub qalib gələn Dinməhəmməd xan qızılbaşlarla hərbi asan anlayıb, qüruru üzündən müharibə etmək qərarına gəldi. Çıxıb buradan getmək istəyən bəzi adamlar qorxaq (cobn) kimi görünmək istəmədikləri üçün sakit dayandılar. Aqil və bacarıqlı adam olan Əbülməhəmməd bəy, xanın qızılbaşlarla hərbini istəmədiyindən və onun vəziyyətinin ürək istəyincə olmayacağını müşahidə etdiyindən, bir gecə çoxlu özbəklə ondan ayrılıb fərar yoluna düşdü. Bu məsələdən agah olan Dinməhəmməd xan artıq bəyin uzun məsafə qət etdiyini bilib əlini ondan üzdü.

Bu əsnada İraqdan qorxulu məlumat gəldiyi üçün qızılbaşların geriyə qayıtma xəbəri gəlib çatdı. [Özbəklər] qaladarlıq etmək fikrini başlarından atıb, onları təqib etmək əzmi ilə Xacə Nur bağçasından çıxaraq irəli gəldilər. Dinməhəmməd xan ürəkləndi və onunla əlahəzrət arasında Heratın Robate-Pəryan adlı yerində qarşılaşma vaqe oldu ki, onun şərhi [bu kitabın] Xorasanın fəthi, Dinməhəmməd xanın itkisi (təzyi) və Mavərənnəhrin başqa hadisələri hissəsi yazılarkən veriləcəkdir, əgər tək olan Allah istərsə.[628]

XORASAN FƏTHİNİN BAŞLANMASI VƏ BU HADİSƏLƏRİN BAŞ VERMƏSİ VAXTIALLAH-TƏALANIN İSTƏYİ İLƏ OLMUŞ BƏZİ MƏSƏLƏLƏRİN BƏYANI

Bundan əvvəl, zirək qələm belə yazmışdı: Bu il əlahəzrət zilləllah şahın ilhamlı başına Xorasana yürüş etmək fikri düşdü. O həzrət səfər ləvazimatı hazırlamaqdaydı ki, Abdulla xan özbəyin vəfatı xəbəri gəlib çatdı. Şahın istəyi daha da şiddətləndi, öz düzgün əzmi və xoşbəxt taleyinə rəğmən min altıncı ilin mübarək ramazan ayının üçündə (miladi 1598, 9 aprel) uğurlu bir saatda İsfahan darüssəltənəsindən çıxıb, bir neçə gün qalibiyyətli əskərlərin məvaciblərinin ödənilməsi və qarşıdakı səfərin zəruri işlərinin təşkili ilə bağlı Kaşanda dayandı. Əlahəzrət irsi mülkü olan behiştnişan Mazandaranda seyr və şikar etmək meylinə düşdü, çünki o mülkün ələ keçirilməsindən sonra hələ oranı görməmişdi. Fərhad xanın orada olduğu həmin vilayətə Siyahkuh yoluyla rəvan oldu ki, qoşun yığılanadək bir neçə gün həmin ürəkaçan yerdə qalsın, seyr və şikardan sonra həmin yolla Bəstama getsin. Əlahəzrət sərhəd əmirlərinin və hümayün əsgərlərin çağırışı xüsusunda hökmlər göndərib qərara aldı ki, qorçibaşı əzəmətli qorçilərlə gəlib müzəffər orduya birləşsin, Allahverdi xan Fars [vilayətinin] qulam və əsgərləri ilə, Gəncəli xan isə Kirman ləşkəriylə Yəzd və Biyabanək yoluyla Xorasana gələrək, cah-cəlal ordusunun dayanacağı hər yerdə müzəffər ordu ilə birlikdə olsun.

Xülasə, qızılbaş əmir və əskərləri qəza fərmanına uyğun olaraq, dəstə-dəstə Xorasan səfərinə üz tutdular, gəlib Bəstam çəmənliyində toplaşdılar. Əlahəzrət də bir neçə gün behiştnişan

[628] İfadənin ərəbcə: "in şəə-l-lahi təalə vahdəhu-l-aziz".

Mazandaranın gözəl yerlərində seyr və şikara başladı, əsgərlərinin cəmləşmələrindən sonra Fərhad xanla birlikdə Savə və Çəhardeh yoluyla Astrabada gəldi, orduya birləşdi. Xarəzm vilayətinin padşahı Hacı Məhəmmədlə oğlu Ərəb Məhəmməd, habelə Şahican Mərvinin, Nisanın və Əbivərdin valisi Nurməhəmmədxan ibn Əbülməhəmməd, yuxarıda yazıldığı kimi, Abdulla xanın hücumuna görə öz irsi məmləkətlərindən çıxıb hümayun dövlətin kölgəsi altına sığınmışdılar və indi şah ordusunun tərkibindəydilər. Bəstam çəmənliyi bir neçə gün müzəffər əsgərlərin dayandıqları yer oldu. Şah orada qalibiyyətli əsgərlərin rəsmi-keçidinə (san) baxdı, [amma] Fars və Kirman əsgərləri gəlməmişdilər.

Belə bir vaxtda Əbdülmömin xanın, yuxarıda, Mavərənnəhrin vəziyyəti bəhsində söylənildiyi kimi, Mir Qulbaba Kukəltaşı cəzalandırması, onun Bəlx, Buxara, Səmərqənd və Daşkənddən ləşkər çəkib Hezarə xan və özbək xanla cəng etməsi, onlara qalib gəlməsi, fitnəkarlığa qurşanan hər bir sultanzadəni aradan götürməsi, bütün özbəklərin onun hakimiyyəti altına keçmələri və hal-hazırda isə tam şan-şöhrət, istiqlal, qələbə və ağır qoşunla Bəlxə və Xorasana yollanması barədə xəbərlər yayıldı. Dar düşüncəli bəzi şəxslər [şaha] bu il Xorasana getməyi məsləhət görmədilər və dedilər ki, bu yürüşdə Astrabad işlərinin tənzimlənməsi ilə məşğul olub bu məmləkətin zəbtindən xatircəm olduqdan sonra geri qayıtmaq lazımdır ki, qoy Əbdülmömin xanın gəldiyi qərar məlum olsun və gələn il, vaxta uyğun olaraq, [Xorasan yürüşünə başlanılsın]. Əlahəzrət zilləllah şahın ucalarda uçan şahin quşu artıq Xorasan məmləkətlərinin qartalını ovlamaq olduğundan, şah elə dar düşüncəli şəxslərin səhv fikirlərinə iltifat göstərmədi.

Xülasə, onlar bir neçə gün göylərə ucalan çadır və bargahlarda qaldıqdan sonra Astrabad işlərinin nizamlanmasından ötrü oraya yollandılar. Mazandaran hakimliyi Fərhad xana aid olduğundan, bu məkana yaxın olan Astrabadı da Mazandarana əlavə edib ona tapşırdılar. Əhalinin, əyanların və hərəsi bir bölüyü (bölük) özbaşına olaraq özünə tabe etmiş Astabad siyahpuşlarına nəvaziş hökmləri göndərildi. Fərhad xan özünün Qaraman bəy adlı bir qohumunu daruğə təyin edərək, onu üç yüz nəfər qaramanlı və başqa adamlarla oraya yolladı. Astrabadın siyahpuş sərdarları bir-biriləri ilə düşmənçilik etdiklərindən və hümayun ordu artıq qızılbaş əsgərləriylə təmtəraqla Bəstama gəldiyi üçün, itaət etməkdən başqa çarə tapmadılar və adı çəkilən daruğəyə tabe oldular.

Bu işlərin baş verdiyi vaxt, Əbdülmömin xanın sağlığında hələ xan rütbəsi olmayan Yetim Sultanın Yusif Quşbəyi adlı bir adamı elçi sifətilə [şahın yanına] gəldi. Yetim Sutanın göndərdiyi məktub bu məzmunda idi: "Abdulla xan dövlətinin yetişdirdiyi biz dövlətxah qardaşlar, atasından dönmüş Əbdülmömin xandan dönərək onunla əlaqəni kəsdik və o, elə buna görə də ürəyində bizə qarşı kin saxlayıb ədavət izhar etdi. Hal-hazırda səltənətdə müstəqil olan xan, Abdulla xanın sağ olduğu vaxtlarda onunla müttəfiq olan adamlardan intiqam almaqdadır. Buna görə də, mənim məslək aşiyanlı astanadan (qızılbaş sarayından - Ş.F.) başqa heç bir pənahım yoxdur. Əgər hümayun məiyyət günəşi Xorasana vüsal kölgəsi salarsa, mən şahın tərəfdarları silsiləsinə girib belimə itaət qayışı bağlayacağam".

Əlahəzrət şah bu xəbərdən sevindi, Herata gedərək Yetim Sultana Yusif Quşbəyi ilə bir neçə baş tazı at və layiqli hədiyyələr göndərdi.

Xülasə, Bəstam çəmənliyində müzəffər əsgərlərin toplanmaları başa çatdıqdan sonra şah Hacı Məhəmməd xanı Astrabad yoluyla Xarəzmə tərəf rəvan etdi, qədim vaxtlardan Xarəzm sultanlarına tabe olan, Gürqan və Ətrək çayları kənarında yaşayan yəqə ürkmanlarının sayinxani qəbilələrinə nəvaziş məktubları göndərdi, onlan Hacı Məhəmməd xana itaət və yoldaşlığa dəvət etdi. Hacı Məhəmməd xan da öz nəvələri Bərəndəq Sultanı və Uluq Mirzəni şahın mülazimətində saxladı ki, qoy həmişə müqəddəs şah məiyyətinin mülazimləri olsunlar.

Xan özünün ən böyük oğlu Ərəb Məhəmməd Sultan və başqa övladları ilə [Xarəzmə tərəf] rəvan olduğu vaxt əlahəzrət də zəfər və iqballa Bəstamdan çıxıb Cacərm yoluyla getdi. Fərhad xan, Azərbaycan bəylərbəyi Zülfüqar xan və əsgərlərinin sayı on min nəfərədək olan bəzi əmirləri şah çərxçisi və öndə gedən dəstə (moqəddemətol - ceyş) şəklində bir mənzil irəli yolladı.

Şah Abbasın Əbdülmömin xana məktubu:

Bu hadisələrin baş verdiyi vaxt şahın nurlu xatiri istədi ki, müqəddəs məiyətin canfəda mülazimlərinin birini elçi sifətilə Əbdülmömin xanın yanına göndərib, ona şəfəqqətli nəsihətlər, padşahanə kəlmələr, vədlərlə dolu bir məktub yazsın. Söhbət yasovulu Ruhulla bəy Zülqədər bu xidməti qəbul etdi və həmin

məktub yazıldı. Məktubun xülasəsi belədir: "Əbdülmömin xan bir neçə ildir ki, mülklər tutmaqdan ötrü hər il Xorasana tərəf yürüşlər edir. Mənim başım İraqda və sərhəd yerlərində bəzi işlərə qarışdığı üçün o, fürsət tapıb müqəddəs Məşhədi və Xorasanın bəzi mahallarını işğal edib və daha bir neçə yeri əlinə keçirdi. Mənim, onunla qarşılaşmaqdan ötrü, hər dəfə uzaq yol qət edib İraqdan Xorasana gəldiyim vaxt o, müzəffər əskərlərimin önünə çıxmayır və özünə fərar qərarı verirdi. O, belə bəhanə edirdi ki, onun padşah olan atası (Abdulla xan -Ş.E) qızılbaş padşahı ilə müharibə etməyə icazə vermirmiş. Həmin get-gəllər nəticəsində Xorasan vilayəti hər iki tərəf ləşkərlərinin at təpikləri altında qalmış, rəiyyət və yoxsul əhali didərgin və ev-eşiksiz olmuşlar. İndi, sizin möhtərəm atanız fani dünyaya vida etmişdir və Mavərənnəhr, Türküstan, Bəlx və Bədəxşan səltənəti siz böyük nəsildən olan şəxsin əlinə keçmişdir. Siz artıq sizə qarşı olanları və əmi oğlanlarınızı dəf etmişsiniz və başqa düşməniniz qalmamışdır. Artıq taxta tam əyləşmiş və müstəqil olmuşunuz. Bütün özbək qoşunları sizin əmrinizə tabedirlər. Biz isə, indi irsi mülkümüz olan Xorasanın xilası üçün gəlmişik və bundan ötrü belimizə himmət kəməri bağlamışıq. Əgər, inşallah, bu dəfə oranı tutmaq bizə müyəssər olmazsa, dövlət mərkəzimizə qayıtmaq imkammız olmayacaqdır. Siz əgər bizim şəfəqqətli nəsihətlərimizi razılıq qulağı ilə dinləsəniz, yaxşısı budur ki, qədimdən bəri İrana daxil olan və bu xanədanın irsi mülkü kimi tanınan Xorasandan əl çəkib birlik, ülfət və üzrxahlıq məqamına gələsiniz ki, biz də didərginlərin geri qayıtmaları və Xorasan diyarındakı biçarələrin asudəliyindən ötrü "uzaq keçmişdə olduğu kimi"[629], hərb və intiqam büsatı qurmayaq, sizinb məhəbbət, dostluq və ülfət edək, dövlətinizin düz yola düşməsinə çalışaq, malımıza və ləşkərimizə köməkçi olaq. Siz indi məsləhət qulağınıza qəflət pambığı salmayın, dostluq qapılarını bağlamayın, müxalifət və inadkarlıqda israr etməyin, keçən illərdə olduğu kimi məkr və hiylə məqamında olmayın. İstiqlal və iqtidar mövcud olduğu bir vaxtda fərar etmək aləm tərəfindən bəyənilməz bir işdir. Bu barədə fikirləşərək, yubanmadan döyüş meydanına mərdanəlik qədəmi at ki, daha bəhanəyə yer qalmamışdır. Haranı məsləhəl bilsən, oranı da, illərdən bəri bütün aləmin intizar gözü ilə gözlədiyi tərəflərimizin qarşılaşmasına qərar ver ki, İlahinin istəyi örtülü

[629] İfadənin ərəbcəsi: "əl-madi və yuzkəru".

pərdədən çıxıb cilvələnmiş olsun, xalqlar hər iki ləşkərin get-gəlindən xilas olsunlar. Yoxsa, bunu[da] bil ki, biz Xorasanın viranəyə çevrilməsinə dözməyib, Allah-təalanın köməyi ilə öz iti fikrimizi son ali-nejadla hərəkətə gətirərək, Bəlxə və Buxaraya qədər atımızın cilovunu çəkməyəcəyik. Allah özü bilir ki, qiyamətəsər ləşkərin zərbəsindən o diyarda bəla tufanı necə [şiddətlə] qalxacaqdır!". Bu beytlər də həmin məktuba əlavə olundu:

Şer

Kərəm dudmanının ey nihalı, sən
Dinlə aqilanə sözü ürəkdən:
Nə Bəlxə təmənnam var hücum edəm,
Nə də Buxaranı tutmaq istərəm.
Ləşkərimdən azdır səhradakı qum,
Sənin diyarına edərsəm hücum
Xalqın əsir düşər, yoxalar malı,
Boynuna götürmə belə vəbalı.
Eşit sözlərimi, vaxtı yubatma,
Daha macəram belə uzatma,
Torpaqlar Bəlxədək sənindi olsun,
O gözəl Bəlx gərək sənindi olsun.[630]

Məktubu aparan söhbət yasovulu Ruhulla bəy Zülqədəri yola salandan sonra müzəffər məiyyət müqəddəs Məşhədə tərəf hərəkət etdi. Əlahəzrət zilləllah şah əzəmətli əmirləri böyük bir işin əncamına yolladısa da, elə özü böyük bir xətər vadisinə öz təvəkkül qədəmini basmış oldu. O, başqa adamların xəbərləri olmayan, yalnız padşahların ürəklərində (zəmir) və ilahi dərgahın seçdiyi şəxslərdə

[630] Şerin farscası:
Ke ey duheye-xanədane-kərəm,
Ze mən guş kon aqilane soxən.
Nədarəm tomənnaye-an mərz-o bum,
Ke arəm be Bəlx-o Boxara hocum.
Gər in kinevər ləşkəre-bişomar
Gozər avarəd canebe-an diyar,
Şəvəd mal tarac-o mərdom əsir,
Vəbale-çenin-ra be gərdən məgir. Soxən beşno, əz qofte-mən sər məpiç,
Bedin macəra biş əz in dər məpiç Ke ta Bəlx payənde manəd be to,
Çenan molke-fərxonde manəd be to.

cilvələnən gizli məsləhətlərin səsinə qulaq asıb, belə qərara gəldi ki, azyaşlı şahzadə Məhəmməd Bağır Mirzəni özü ilə bu səfərə aparmasın və şahzadə qoy bu xətərli meydandan uzaq olsun. Elə orada da Məhəmməd Bağır Mirzəni hərəm eşikağası Şeyx Əhməd bəyə tapşırdı və onu İsfahan darüssəltənəsinə rəvan etdi.

Hümayun ordu qurban bayramından sonra (eyde-əzha*) oradan çıxdı. Kalpuş mahalı dərya təlatümlü ordu ilə dolduqda fəth və zəfər bayraqları dalğalandı, qələbə və xoş gün əlamətləri göründü, iqbalın doğuşundan hümayun fallı ulduz parlamağa başladı və əvvəlcə Nişapur vilayəti bu güclü dövlət övliyalarının əlinə keçdi.

Məsələ belə olmuşdur: O vilayətin hakimliyi özbək sultanlarının nəslindən olan Əhməd Sultan adlı bir şəxsə verilmişdi.

Abdulla xanın vəfatı və hümayun fallı şah ordusunun gəlişi xəbəri Əhməd Sultana yetişdikdə, həmin diyar əhalisinin qızılbaşlara tərəfdar olduğunu görüb, özündə qaladarlıq qüvvəsi görmədi, [amma] Əbdülmömin xanın cəzasından qorxaraq özbəklərin yanına da gedə bilmədi. Fikirləşdi ki, Nişapurun quldur-qaçaqları özbəklərin mallarına əl uzada bilərlər, buna görə də, beytül-hərama (Həcc ziyarətinə - Ş.F.) getmək diləyi ilə şəhərdən çıxdı, şah dərgahının mülazimi olmaq ehramını* əyninə geyib bir neçə adamla öz məqsədinə doğru rəvan oldu, Nişapurun özbəkləri isə bəzisi müqəddəs Məşhəd, bəziləri Herat iqamətinə getdilər.

Əhməd Sultan hələ şəhər darvazasından çıxmamışdı ki, Nişapurun əhalisi hümayun şahın adı şərəfinə şadimanlıq nağaralarını çalmağa başladı. Bu xəbər Kalpuşa yetişəndə, o mülkün ali məqamlı seyidlərindən, böyüklərindən və qiymətli adamlarından olan Əmir Əbülməalı Nişapuri ki, özbəklərin vaxtında onda dövlətxahlıq hissi baş qaldırdığına görə müzəffər orduya gəlmişdi, Nişapuru zəbt etməkdən ötrü o səmtə rəvan oldu, həmin vilayət hakimliyini o vaxt Səbzvar hakimi olan Mirzə Məhəmməd Sultan Bayata verdi. Əhməd Sultan özbək isə Həccə rüsxət alıb oraya yollandı, amma onun sonrakı vəziyyəti məlum olmadı. Kalpuşdan çıxan iqbal ordusu Şəqan və Curbod yolu ilə, ordunun önündə gedən Fərhad xanın və əmirlərin ardınca Məşhədə tərəf hərəkətə başladı. Onlar Şəqan mahallarından Əsbahi adlanan yerə çatdıqda müzəffər ordu orada dayandı. Bu vaxt Fərhad xanın yanından və müqəddəs Məşhəddən münhilər gələrək Əbdülmömin xanın öldürülməsini və yuxarıda yazıldığı kimi, müqəddəs Məşhədin fəth olunma müjdəsini

gətirdilər. Əlahəzrət zilləllah şah Allahın ətası kimi gələn bu gözəl xəbərə görə, habelə bu hümayun və xeyrli yürüşün səbabkarı olan mələk aşiyanlı İmaməl-cinn və-l-ünsüə səcdələr və şükürlər etdi. Bütün döyüşçülərin şadlıq və mübarəkbadlıq sədaları günəşə və ayadək ucaldı. Zilhəccə ayının iyirmi dördündə (miladi 1598, 28 iyul) şah Tus şəhərinin çayı kənarına gəlib orada dayandı.

Fərhad xan, əmirlər və Məşhədin əyanları hümayun məiyyəti istiqbala çıxaraq Tusda ona səcdə etməklə şərəfləndilər, dua, səna və təbriklərini çatdırdılar. Hökm olundu ki, Fərhad xan və çərxçi əmirləri Heratın fəthinə rəvan olsunlar və o fəxarətli şəhəri tutsunlar. Hələliksə Dinməhəmməd xanın padşahlığı, özbəklərin bir yerə toplaşmaları və xanın fikri, olduğu kimi, gəlib onlara çatmamışdı. Ertəsi gün, həmin ayın iyirmi beşində [şah] mələklərin səcdəgahı olan səkkisinci imamın rövzəsinin təvaf ehramını əyninə geyinib, rəvan oldu. İlahi nurunun təcəlla etdiyi mübarək günbəzin aləmi işıqlandıran şüaları parlamağa başlayanda əlahəzrət zilləllah şah atdan düşdü, Allahm bu töhfəsinə şükranlıq əlaməli kimi alnını onun torpağına sürtdü, gözlərindən şadimanlıq yaşları axıtdı. Oradan cahan-cahan sədaqət və aləm-aləm ehtiyacla, ayaqyalın alnıaçıq halda rövzəyə məsafə qət etdi. O vaxt şahın və ordunun vəziyyətinin tərifi belə tərənümə gəldi:

Beytlər

Allaha şükür ki, bəxtim oldu yar,
Xudadan diləyim yerinə yetdi.
Ondan istədiyim o dövlət ki, var,
Haqq onu lütfüylə qismətim etdi.[631]

Bütün əhali bu ayin ilə yola qədəm basdı, onların ayaqlarının altı tikanlardan güllər açdı, sanki gül-çiçəklər sadiq qazilərin sipərinin arxasınca boylanmaqdaydılar.

Xülasə, [şah] böyük sövq ilə pak rövzəyə gəlib çatdı, müqəddəs məzarı ziyarət edib öz ixlas üzvünü həmin pak torpağa

[631] Beytlərin farscası:
Şokr Xoda ke, əz mədəde-bəxte-kamsaz
Kami ke, xastəm ze Xoda şod moyəssərəm.
An dövləti ke, mitələbidəm ze salha
İnəst əz enayəte - Həqq dər bərabərəm.

sürtdü, dua və ziyarət ləvazimatı hazırlığına başlayaraq o müqəddəs astananı olduqca səliqəsiz və qızıl-gümüş qəndillərdən xali gördü. Orada qızılbaş əyyamındakı ziynət və zivərlərdən fəqət qızıl məhəccərdən başqa heç nə qalmamışdı. [Şah] elə oradaca Budaq xan Çekənini müqəddəs Məşhəd hakimliyi ilə sərəfraz etdi. Əlahəzrət müqəddəs astanadan Çəharbağa təşrif apardı. Orada, qana susayan qazilər tərəfindən Camda əsir götürülən özbəklərə öz müqəddəs nəzərini yetirdi, onların sözlərindən, həmçinin vəziyyəti təhqiq etmək üçün göndərilən Seyid Məhəmməd Sultanın dediklərindən məlum oldu ki, Dinməhəmməd xan Heratda taxta çıxmış, Xorasan vilayətini qorumaq qərarına gəlmiş, deyilənə görə, əskərinin sayı iyirmi min nəfərə çatmışdır. Amma, Xorasan əhli olanlar bu rəqəmi təkzib edərək onların sayının altı-yeddi min nəfərdən çox olmadığını söyləyirlər ki, aqil adamlar son rəqəmə üstünlük verirlər.

Sözün qısası, [əlahəzrət] Fərhad xanı çərxçi əmirləri ilə birlikdə elə həmin gün Herata tərəf rəvan etdi ki, özbəklər hələ bir fikrə gəlib qaladarlıq ləvazimatı hazırlamadıqlarına görə həmin vilayəti onlardan boşaltsınlar. Dinməhəmməd xanın mülazimlərindən olan bir neçə əsiri müqəddəs Məşhədən yola saldılar ki, xana [bu mətləbi] çatdırsınlar: "Sən mənimlə sədaqət iddiası etdiyin halda üstümə adamlar göndərdin. Əgər öz sözünə sadiq qalsan, biz sənin mülazimlərinə xələt və yaraq verib, sən harada olsan, onları oraya göndərərik". Başqa əsir özbəklərsə qətl olundular.

Xülasə, ali hümayun məiyyət sərkarın işlərinin nizama salınmasından ötrü üç gün müqəddəs Məşhəddə qaldı və sərkarın tövliyyət vəzifəsini [məsələlərin mütəvəllisi kimi] Xorasanın Türbəte-Heydəriyyə" seyidlərindən olan, özbək işğalı zamanı İraqa gələn və İsfahanın daruğəsi işləyən Qazi Sultan Türbətiyə inayət etdi, "Türbəte-Heydəriyyə"ni tiyul kimi ona tapşırdı. [Əlahəzrət] Budaq xan Çekəni və Şahqulu Sultan Bayatı müqəddəs ordunun beş yüz nəfər qorçi və mülazimi ilə Nurməhəmmədxanla birlikdə Nisa, Əbivərd və Mərvə göndərdi ki, xanın irsi məmləkətini ələ keçirib ona versinlər.

[Şah] zilhəccə ayının iyirmi səkkisində müqəddəs Məşhəddən çıxdı, Camın Fərhadçerd adlı yerinə çatdıqda, orada özbək işğalı vaxtı Hindistana gedən, elə bu vaxtlarda oradan qayıdıb Herata gələn, şəhərin bütün işlərindən hali olan İslam bəy Yüzbaşının qardaşı Mahmudbəy Şamlı gəlib çatdı, Herat barədə

məlumat verib bildirdi: "Dinməhəmməd xan Xorasan səltənətinə elə ürəkdən bağlanmışdır ki, oradan asanlıqla əl çəkməyəcəkdir. Hazırda onun on iki min döyüşkən özbəyi və iki-üç min nəfər də hezarecat qəbilələrindən olan adamı vardır. Amma, o, hümayun şah məiyyətinin buraya gəlməyindən hələlik xəbərsizdir, heç gümanı da yoxdur ki, siz Bəstam hüdudundasınız və onunla qarşılışmaqdan ötrü Fərhad xanı və əzəmətli əmirləri irəli göndərmisiniz. Hümayun məiyyətin gəlişi xəbəri ona çatdıqdan sonra əgər qarşı çıxmaq qüdrəti olmazsa, o, qardaşı Baqi Sultanı iki-üç min nəfərlə Herat qalasında saxlayacaq, özü isə ləşkər toplamaqdan ötrü Mavərənnəhrə gedəcəkdir ki, Xorasana qayıtsın. [Dinməhəmməd xan] heç vəchlə Xorasanla əlaqəni kəsməyəcəkdir, çünki o, məmləkətin asanlıqla əldən çıxmasını istəmir".

Mahmud bəy Şamlının sözləri əsaslı və inandırıcı olduğu üçün, əlahəzrət məqsədinə yetməkdən ötrü nə edəcəyini bilməkdən ötrü bir qədər tərəddüdlə fikrə daldı, Rəbbani ilham tədbiri ilə belə düşündü: Gərək təqdir kitabında yazılana bel bağlanılsın ki, onun mətləbi istəyinə uyğn yerinə yetirilsin.

Məsələ belə baş verdi: [Əlahəzrət] Heratdakı vəziyyətdən xəbərdar olduqdan sonra qüvvətli dövlət adamlarını çağırıb ilham dili ilə belə bəyan etdi: "Özbək ləşkərinin böyük hissəsi Heratdadır. Əgər irəliyə getmiş Fərhad xan və əmirlərlə özbəklər qorxmazcasına döyüşərlərsə, bu bizim dövlətimizə layiq iş olmaz, çünki onların padşahı onlarla birlikdədir. Özbək döyüşçülərinin müharibəsi və padşahla birgə döyüş meydanına qədəm basmalarına heç də əmir və sərdarların müharibəsi demək olmaz. Elə olan halda qızılbaş qoşununa böyük zərər dəyə bilər, düşmən isə ürəklənər. Əgər müzəffər ordu [gedib Fərhad xan və əmirlərə çatan vaxta qədər] onları ləngidə bilsə, özbəklər qaladırlıq ləvazimatı hazırlığına başlayaraq, qalada ləşkər saxlayıb Mavərənnəhrə gedəcəklər. Yox, əgər qala mühasirəyə məruz qalarsa, qalanın möhkəmliyinə və qaladarlıq məharətinə görə, ehtimal ki, məsələ çox uzana bilər. Buna görə də, gərək Fərhad xanın yanına adam göndərib ona bir mənzil geriyə çəkilməsini tapşıraq, qoy o, belə söz yaysın ki, guya rumilərin əlinə fürsət düşdüyü və onların bizim məhrusə məmləkətlərimizə gəldikləri barədə İraq və Azərbaycandan qorxulu xəbərlər gəldiyindən, hümayun şah məiyyəti pərişan olub İraqa tərəf qayıtmışdır. Əgər qızılbaşların məcburiyyət üzündən geri qayıtma xəbəri özbəklərə çatarsa, qaladarlıq etmək fikrindən daşınarlar, heç

şübhəsiz onlar əmirləri təqib etmək, Məşhədi və ətraf yerləri tutmaq əzmi ilə tez-tələsik Heratdan çıxarlar, biz də yorğun atları olan əğrəq qoşununu orada saxlayıb, kutəl* atları olan dəstə ilə hücuma keçərək Fərhad xana birləşərik, Fars və Kirman ləşkərinin gəlib-çatmasını gözləmədən hücuma keçərik, onlara qaladarlıq etmək imkanı vermərik, inşallah, əgər Allah-təala istərsə və bizim tədbirimiz baş tutarsa, ehtimal ki, işlər istədiyimiz kimi yerinə yetər".

Bütün aqil adamlar və fikir sahibləri bu fikri bəyəndilər, dərhal Fərhad xana məktub (rəqəm) yazıb, yuxarıda söylənilən qayda üzrə, bir mənzil geri çəkilmələrini və hümayun məiyyətin gəlişini gözləməyi buyurdular. Onlar əmrə əməl edib bir mənzil geriyə döndülər, Fars və Kirman ləşkərləri ilə gəlib artıq Xorasan ülkasına daxil olan Allahverdixan və Gəncəlixanın yanına adam yolladılar ki, buraya ləşkər gətirməklə məşğul olmasınlar, bir dəstə adamla gələrək Guryan yaxınlığında özlərini hümayun məiyyətə çatdırsınlar. Sonra cənab etimadüddövlə Hatəm bəy Vəziri, habelə Çeşmgəzək əmiri (mir) Şahəli Sultanla başqa əskərləri əğrəq qoşununda saxladılar ki, yavaş-yavaş gələrək özlərini çatdırsınlar. Məhərrəm ayının ğorresində" yekşənbə günü isə Camın Fərhadcerdindən atlara süvar olub, iqbala bel bağladılar və hücuma yollandılar. Yolda, Bağənd qalasından bir mənzil məsafə geri qayıdan Fərhad xan və əmirlər hümayun məiyyətə birləşdilər, habelə Allahverdi xan və Gəncəli xan da öz ordularından ayrılıb, yaxşı yürüş atları olan bir dəstə ilə gələrək, Herat körpüsü üstündə hümayun məiyyətə qoşuldular.

Xülasə, hümayun məiyyət on günlük məsafəni dörd gün yanına keçib məhərrəm ayının beşində (miladi 1602, 25 iyun) pəncşənbə günü, şəhərdən dörd fərsəx aralı olan Pole-Salar yaxınlığında müxaliflərə çatdılar. Ertəsi gün, ayın altısında (miladi 1602,26 iyun) cəng səflərini bəzədilər, Rübate-Poryan adlanan yerdə hərb başlandı.

CƏM MƏQAMLI HƏZRƏT ŞAHIN DİNMƏHƏMMƏD ÖZBƏKLƏ HƏRBİ VƏ HƏZRƏT ALLAHIN KÖMƏYİ İLƏ ZƏFƏR ÇALMAĞININ ZİKRİ

Yuxarıda qələm belə yazmışdı ki, Dinməhəmməd xanın şah məiyyətinin gəlişindən xəbəri yox idi. O, Fərhad xan və əmirlərin gəlişini eşidib şəhərdən təzəcə çıxmışdı ki, yuxarıda deyildiyi kimi,

qızılbaş əmirlərinin geri qayıtma xəbəri özbəklər arasında yayıldı. Xan qala və qaladarlıq ləvazimatı hazırlamaq fikrindən əl çəkib, onlan cəzalandırmaq əzmi ilə getməyə başladı. Pole-Salarda dayanarkən, gecə vaxtı əlahəzrət şahı tanıyan və onu körpü üstündə (Səre-pol)[632] görən Mişməst ərəblərindən bir nəfər gəlib hümayun şah məiyyətinin gəlişindən xəbər yetirdi. Ondan şah ləşkərinin keyfiyyət və kəmiyyəti barədə soruşulduqda dedi: "O həzrətin yanında az adam vardı, amma qızılbaş ləşkəri arxadan gəlməkdədir". Əmirlər və ağsaqqallar məsləhətləşərək qızılbaşlarla hərb etməyə razı olmadıqları üçün belə məsləhət gördülər: "Qayıdıb Herata gedək, əvvəl yazdığımız tərzdə şaha bir dostanə məktub yazaq, onu dilli-dilavər bir adamla göndərib sülh danışığına başlayaq, sonra isə Baqi xanı qalada qoyub Mavərənnəhrə gedək. Biz qızılbaş padşahı ilə müharibə etməyi qətiyyən dövlətimizə layiq bilmirik".

Dinməhəmməd əmirlər və ağsaqqallara cavabında belə demişdi: "Bu fikir tərəfimizdən bəyənilir, amma vaxt olduqca azdır. Qızılbaşlar çox yaxınlaşmışlar. Əgər bu gecə buradan çıxıb şəhərə üz tutsaq, ləşkərimizin yarısı dağılacaq, biz cəng etmədən fərar arına giriftar olacağıq. Yaxşısı budur ki, mərd-mərdanə halda döyüş meydanına gedək. Əgər qalib gəlsək mətləbimiz yerinə yetmiş olar, yox, əgər məğlub olsaq, elə bir alişan padşah tərəfindən məğlubiyyətimizin heç bir eybi olmaz".

[Beləliklə] özbək bahadırları bədbinliyə qapılmamaqdan ötrü naçar halda hərbə razı oldular.

Şah Abbasın Dinməhəmməd xanla hərbi və qələbəsi:

Xülasə, Dinməhəmməd xan öz cəhalət və qürurunun çoxluğundan qızılbaşlarla müharibənin asan olacağını güman etdi. Daxilindəki kin və qürur şöləsi elə zəbanə çəkdi ki, onu iti qılıncdan başqa heç nə ilə söndürmək olmazdı. O günün ertəsi, məhərrəm ayının altısında (miladi 1603, 16 iyun) qızılbaş ləşkərinin qaraltısı göründü. Dinməhəmməd xan çərxçi cinahım, habelə bərənğar və cəvanğan bəzəyib, qardaşı Baqi Sultanı Mirzə Abdulla Mənqət və

[632] Bu sətirlər müəllifi Əfqanıstanda bir neçə Səre-pol adlı yer tanıyır ki, həmin yerlərin birində - Bədəxşan vilayətinin Səre-pol şəhərində üç il (1963-1966) işləmişdir - Ş.F.

Herat hakimi Hacı bəylə birlikdə sağ qola, bəzi əmirləri isə sol qola təyin etdi. Qərara aldı ki, qızılbaş ləşkərinin çoxluğu görünərsə, təxirə salmadan qol ləşkəri ilə irəli gedib, onları məğlub etməyə çalışmaq lazımdır. Xanın özü isə özü ilə götürdüyü etibarlı və seçkin min nəfər cavanla sol qolda dayandı. Bu qərara gəlmişdi ki, əgər özbək ləşkəri qalib gələrsə, yaxud məğlub olarsa, o min nəfər cavan adamın əksəriyyəti qoy ondan aralanmasın. Cah-cəlal ordusu Pole-Salara çatdıqda havanın hərarətindən və hücumdan atların çoxu gücdən düşmüşdü, müqəddəs ordunun mülazimlərindən isə hümayun məiyyətə fəqət üç-dörd min adam gəlib çata bilmişdi. Onlar Fərhad xanın qoşunu və çərxçi əmirləri ilə Hezar kəndinə çatar-çatmaz şah Allahın inayətinə və padşah iqbalına güvənib Fərhad xanı, Zülfüqar xanı və çərxçi əmirlərini dörd-beş min nəfər döyüşçü ilə irəli göndərdi, hümayun qol isə şahın müqəddəs vücudu ilə bəzəndi, əmirlər, qorçilər və qulamlar isə sağ və sol qollarda hərə öz yerində qərar tutdu.

Robate-Pəryanda tərəflər bir-birilərinə yaxınlaşdılar və hər iki dəstənin çərxçiləri bir-birilərinə qarışdılar. Əzəmətli qazilər atları tez sürərək, toplum halda özlərini müxalif dəstələrə vurdular, özbək çərxçilərini məğlub etdilər. Bütün ləşkər mərdanəlik şövqü ilə baş və əxtərmə gətirməkdən ötrü* müxaliflərə üz tutdu. Belə ki, Fərhad xanın yanında o qədər də çox adam qalmamışdı.

Çərxçi ləşkərinin basıldığını müşahidə edən Baqi xan öz atını cəvanğar qoşunu ilə birlikdə irəli sürdü. Qızılbaşların çərxçi döyüşçüləri isə o ləşkərin hücumuna tab gətirməyərək geri qayıtdılar. Ləşkər sərdarının əlaməti olan bayraq (ələm) Fərhad xanın yanında olmadığı üçün, çərxçi əsgərləri o mərəkədə Fərhad xanı tapmadılar ki, onun başına toplaşsınlar. Bu vaxt, özbəklər hücuma keçdiklərindən, qızılbaş [çərxçiləri] böyük məğlubiyyətə uğradılar. Onların məğlub edilmələri xəbəri hümayun qola gəlib çatdıqda bu məsələ az qalmışdı ki, qolun çaxnaşmaya düşməsinə səbəb olsun.

Döyüş meydanında bir neçə nəfərlə qalan Fərhad xan hərbə başladı, tutuşma zamanı yaralandı, məğlub edildi, həmkarları arasında fərar və məğlubiyyət damğası ilə töhmətləndirildi, üzünə fərar tozu qondu. Fərhad xanın, çərxçi əmirlərinin və Azərbaycan ləşkərinin məğlub olduqlarını müşahidə edən əlahəzrət Allahverdi xan Qorçibaşıya, əzəmətli əmirlərə, qorçilərə və sağ və sol qulamlarına hərbə başlama icazəsi verdi. Onlar ali əmrə əməl

edərək, düşmən ləşkərinə hücuma keçdilər. Qarşı tərəfdən də cəvanğar və bəranğar ləşkərləri cəng meydanına tərəf cumdular. Hər iki qoşun bir-birinə qarışdı, döyüş meydanının toz-torpağı iti fırlanan fələyədək ucaldı. O gün özbəklərin əksəriyyətinin müzəffər şah məiyyətinin buraya gəlişini bilərək məyus olmalarına baxmayaraq, onlar irəli çıxaraq mərdanə cənglər etdilər. Nəhayət hümayun qol və müqəddəs məiyyət tərəfindən cəngə çıxarılan dilavərlərin qorxunc zərbələrindən özbəklərin arasına çaxnaşma düşdü, döyüşdən aciz olub məğlubiyyətə məruz qaldılar, fəth və zəfər küləyi isə canfəda qazilər tərəfə əsməyə başladı.

Özbək ləşkərinin basıldığını müşahidə edən Dinməhəmməd xan yanındakı min nəfər adlı-sanlı bahadırla, hümayun qolun sağ əli tərəfindəki öz sol qolu ilə birgə döyüşməkdən ötrü atını irəli sürdü. Toz-torpağın çoxluğundan onlar qaziləri görə bilmirdilər. Əlahəzrət, təxminən iki yüz nəfər olan bəzi yaxın adamları və mülazimləri ilə birlikdə meydanda dayanmışdı. Hümayun məiyyətin önündə duran Budaq xanın oğlu Sultanəli Sultan Çekəni o yaxınlıqdakı qamışlıqdan (neyzar) papaq və paltarları parıldayan bir ləşkərin göründüyünü müşahidə etdi və bunu əlahəzrətə söylədi. Müqəddəs ordu mülazimləri müxalif qoşunun çoxluğundan və bu məsud döyüşçülərin azlığından bir qədər kədərlənmişdilər. Məsələdən hali olan əlahəzrət öz fərasət nuruna əsasən başa düşdü ki, bu gələn Dinməhəmməd xandır və hümayun şahla döyüşməkdən ötrü çəkinmədən mərdanəliklə gəlməkdədir. Müzəffər ordu mülazimlərinə xitab edərək dedi: "Nə durmusunuz? Fəraın arı barədə düşünün və döyüş meydanına mərdanəliklə qədəm atın. Mərdanəliklə öldürülmək binamus yaşamaqdan yaxşıdır".

Yaxşısı budur ki, hamımız ölək,
Məbadə düşmənə biz fürsət verək.[633]

[633] Beyitin farscası:
Biya ta həme tən bekoşton dehim,
Məbada ke, forsət be doşmən dehim.

Özbək ləşkərinin basılması vgə məğlubiyyəti:

Belə deyirlər ki, qızılbaş cavanlarının at oynadıb özbək bahadırlıqlarını əllərindən alan birinci döyüşçü Əhməd ağa Kərampa Ustaclının oğlu Əli bəy Mirşikar olmuşdur. Həmçinin hümayun məiyyətin önündə gedən xristian əsilli (nəsirimənеş) cavanların hər biri özbək düşmənlərini bircə-bircə igidlik atından torpağa salaraq, qırx-əlli nəfər bahadırı həlak etdi. Qəzavü qədər Dinməhəmməd xanın başına idbarlıq tozu tökdüyü üçün o, atının cilovundan tutub irəli gəlməyə ürək etmədi. Özbəklərə qorxu üz verdi və onlar döyüşdən əl çəkdilər. Əlahəzrətin Dinməhəmməd xanla şəxsən qarşılaşıb, onu iqbal gücü ilə necə olur-olsun öz əlinə keçirmək istəyinə baxmayaraq, Gəncəli xanm mülazimi gələrək, xandan belə bir xəbər gətirdi ki, bəs Dinməhəmməd xanın qol cinahı hələ arxadadır. Buna görə də, əlahəzrət bu istəyindən əl çəkdi, həmin qol cinahının gəlib çıxmasını gözlədi. Amma qazilər təqibdən əl çəkməyib bir çox adlı-sanlı bahadırı torpağa yıxdılar. Dinməhəmməd xan isə nizə ilə yaralanıb mərəkədən çıxası oldu.

Xasseyyi-şərifə qulamlarından olan Kəlul bəy Gürcü deyirdi: "Mən Dinməhəmməd xanı nizə ilə yaraladım və papağı başından düşdü. Gördüm ki, bahadırların biri öz papağını başından çıxarıb onun başına qoydu və özü başıaçıq halda getməyə başladı. Bildim ki, o, xanın ləşkərinin bir sərdarıdır. Xanın papağınısa qazilərin biri götürmüşdü. Bir neçə nəfər özbək təsdiq edib dedi ki, bu xanın papağıdır". Qeyri bir neçə nəfər isə bunu inkar edir, Kəlul bəyin etdiyi iddianı qəbul etmirdilər. Onunla arası olmayan talış pirzadəsi Abdal bəy isə deyirdi: "Dinməhəmməd xanı mən yaraladım".

Mən isə Əbu Taleb Rezəvi sülaləsindən olan, özbəklərin hakimiyyəti zamanı Herata düşərək əvvəlcə Mir Qulbaba Kukəltaşın, sonra isə Dinməhəmməd xanın münşisi olub, onun məclislərinə yol tapan kitablar müəllifi Mövlana İbrahim Məşhədidən Dinməhəmməd xan əhvalatı və onun bu döyüşünün təfşilatı barədə eşitdiklərimə əsasən bu hadisəni yazmışam. O, belə deyirdi: "Mən xan ilə həmrah idim. O, hümayun qol cilahına çatmaq məqsədiylə qamışlıqdan çıxdıqda, yanında az adamın qaldığını gördü. Uzaqdansa onun nəzərinə bir qaraltı dəydi. Özbək bahadırlarının hamısı elə təsəvvür edirdilər ki, həmin qaraltı hümayun şahın dəstəsinin gəlişi əlamətidir. Qızılbaş camaatının

cəsarətli həmləsinin gözə görünən bu qaraltısından özbəklərə bərk qorxu üz verdi. Dinməhəmməd xanla birgə olan özbək əyan və atalıqları onun atının cilovundan tutub ərz etdilər: "Bizim camaat məğlub olmuşdur. Məğlub ləşkər isə artıq gedib şəhərə çatmaqdadır. Qızılbaş qoşunu bizi dövrələmişdir. Əgər biz bu azsaylı dəstə ilə məşğul olsaq, uzaqdan qaraltı qaldıran şah dəstəsi irəli gələrək bizi aradan götürəcək. Heç kimin nicat ümüdü yoxdur. İş daha səy və cəhd-cəhd etməkdən keçmişdir. Nə qədər ki, xanın vücudu sağ-salamatdır, nə qədər ki, ona heç bir sədəmə hələ toxunmamışdır, [xan] gərək aradan çıxsın". Onların ürəklərində hərbin kəramətini və cəngin qorxusunu görən həzrət xan anladı ki, fərar etmək niyyətindədirlər. Çarəsiz qalıb meydandan çıxdı.

Amma, atın cilovunu çevirib heç on addım getməmişdi ki, araya bərk çaxnaşma düşdü və Dinməhəmməd xanın yanında iyirmi nəfərdən çox adam qalmadı. Arxadansa qızılbaşlar gəlirdilər. Onlar iki-üç dəfə gəlib bizim aramıza girdilər. Fərar zamanı xanı nizə ilə yaralamışdılarsa da, o, bunu yoldaşlarından gizlətdi. "Çehel doxtəran" [adlı yerin] yaxınlığında xanın cibindən və böyründən bərk qan axmağa başladı və bu vaxt o, mənə rüxsət verib dedi: "Şəhərdə sənin əhl-əyalın qalıbdır. Niyə gəlirsən? Geri qayıt". Mən oradan qayıdıb özümü şəhərə çatdırdım və şəhərdə vəziyyət məlum olana qədər gizləndim. Otuz-qırx nəfərlə meydandan çıxan Baqi xan Kəhdestan (?) tərəfə çatdı, Əndxod və Şibirğan yolunu önə tutdu, Kərki keçidindən keçərək, Buxaraya getdi. İlahinin təqdiri ilə o, Mavərənnəhrdə elə çox yüksəldi ki, bu haqda tezliklə məlumat veriləcəkdir.

Xülasə, həmin cəngdə qoşunun çox məşhur şəxsi öldürüldü. Özbək əmirlərinin əksəriyyəti, xüsusiylə Herat hakimi Hacı bəy, Naculi bahadur, Mirzə Abdulla Mənqət, Məhəmməd Muradbəy, Məhəmmədyar oğlan və sair əmirlərin bəzisi qətlə yetirildi, bəziləri isə əsir alındılar. Mötəbər sərdarların biri də sağ qalmadı. Şüarları igidlik olan qazilər Sərxiyaban və Gazərgahdan başlayıb Kəhdestana çatana qədər müxalifləri təqib etdilər və olduqca çox adam öldürdülər. Öldürülənlərin sayı dörd minə çatdı. Amma, bir neçə gün davam edən yürüş, döyüş meydanının savaşı, havanın istiliyi, əskərlərin atlarının çoxunun yorğunluğu səbəbindən Kəhdestandan o yana gedə bilmədilər. Özbəklərin təqibinin davamına gecənin başlanması da səbəb oldu. Mərəkədən sağ-salamat qurtulan və şəhərdə əhl-əyalı qalan özbəklərsə şəhərə

gəldilər, arvad-uşaqlarının əllərindən tutdular, var-yoxlarından imkanları olan qədərini götürdülər, Meymənə və Faryab yolunu üzə tutdular, amma şəhərlə əlaqələri olmayan başqa özbəklərsə, elə döyüş meydanından fərar edib aradan çıxdılar.

Ğuryan hakimi Şahın Kəltənin öldürülməsi:

Əlahəzrət zilləllah şah zəfər və iqballa Herat torpağına mənsub Pəryan karvansarasına çatdı, bu böyük qələbə münasibətilə Allahın iltifatına şükr etdi, zəif adamlardan, qadınlardan və uşaqlardan ibarət ailələri olan əksər özbək əskərlərini cəzalandırmadı.

Qızılbaş döyüşçüləri Sərxiyabanda atlardan yerə endilər. Bu mərəkədə, adlı-sanlı adamlar olan Vəli bəy Yüzbaşı Ustaclı və Qasım bəy Cilovdar Şamlıdan başqa heç kəs öldürülmədi. Cəmisi yüz nəfərədək adam öldürülmüşdü. Etimadüddövlə Hatəm bəy Vəzirin ağrəq ordusu və ləşkərin qalan hissəsi Baxərz kəhrizinə (karız) [yenicə] çatmışdılar ki, söhbət yasovulu Şahverdi bəy Bayburdlu şah tərəfindən gələrək fəth və zəfər müjdəsi gətirdi. Onlar hamılıqla yollanıb Heratın Sərxiyabanına çataraq, bir-birlərinə birləşdilər. Herat əhalisi, qəbilə mirləri, qıpçaq həzarələri, teymurilər, tahirilər və cəmşidilər şahın xidmətinə yetişməklə sərəfraz oldular, şah tərəfindən iltifatlandılar. Ğuryan camaatından Xacə Cəlaləddin Əkbər bir dəstə adamı özünə müvafiq edib, hümayun məiyyət gəlməzdən əvəl Guryan qalasına gələrək, oranın hakimi Şahım Kəltəni mühasirəyə aldı. Gəncəli xanın mülazimləri olan bir dəstə qızılbaş da əmrə əsasən bu əməliyyata təyin edilmişdi. Şahım Kəltə və onun bahadır yoldaşları Herat hadisələrindən xəbər tutduqları üçün fərar etməkdən başqa bir çarə tapmadılar, özlərini adamları az olan bir yerdən keçirərək aradan çıxara bildilər, fərar yoluna düşdülər. Amma, başqa adamlar bundan xəbərdar olub, onları təqib etməyə başladılar. Nəticədə özbəklərin böyük bir dəstəsi öldürüldü, yaxud əsir alındı, Şahım Kəltə isə bir neçə nəfərlə aradan çıxa bildi. Amma, onlara bədbəxtlik üz verdiyindən Şahım Kəltə Zurabad hüdudunda bir bostana (faliz) çatıb istədi ki, özünü bu aclıqdan kam almaq şirinliyinə yetirsin, amma çöldə dolaşan bir adam gələrək onun başına elə bir zərbə endirdi ki, atından yuvarlanıb zillət torpağına düşdü, bir neçə saat bihuş vəziyyətdə

qaldı. Bostan sahibləri onu görüb tamdılar, həbs edib Heratda şahın yanına gətirdilər.

Padşah Dinməhəmməd xanın öldürülməsi:

Bu əsnada Dinməhəmməd xanın öldürülmə xəbəri də gəlib çatdı və xəbər düzgün çıxdı. Amma, onun necə öldürülməsi məlum deyildi. Bəzi adamlar dedilər ki, atdan yıxılıb ölüb. Yuxarıda adını çəkdiyimiz Mövlana İbrahim Münşi isə belə söyləmişdi: "Çehel doxtəran"a qədər onunla həmrah idim. Atdan yıxılması barədə deyilənlər düz deyil, səhih olansa budur: Xan elə ki, Maruçaq yaxınlığındakı Qaqçi eli adamlarının yanına gəlib-yetişdi, çoxda qan itirdiyi üçün olduqca zəifləmişdi. Yanındakı adamlar onu bir qədər dincəlməkdən ötrü bir tərəfdə atdan düşürdülər, özləri isə xan üçün xörək gətirmək məqsədi ilə qaqçilərin yanına getdilər. Həmin camaat ondan xəbər tutub üstünə tökülüşdü və işini bitirdi".

Xülasə, xan elə oradaca axirət sarayına yollandı və yoldaşları onun cəsədini elə o yaxınlıqda torpağa tapşırdılar. Bu haqda başqa bir fikir də vardır: "Qaqçi camaatı onun cəsədini Murğab çayına tullamışdır".

Sözün qısası əlahəzrət bir neçə gün şəhər xaricində dayanıb öz şərafətli vaxtını kəsilmiş başlara və ələ keçirilən axtərmələrə baxmaqla keçirdi. O hər kəsi göstərmiş olduğu mərdanəliyə görə mükafatlandırırdı. İraqda Herat işləri barədə Fərhad xana muştuluq yolladı. Həmin cəng zamanı öz tədbirsizliyi üzündən məğlubiyyətə uğradığına görə şah daxilən xandan incimişdisə də, amma dediyi sözə əməl edib Heratın əyalət və mülkiyyət ipini və Xorasan əmirəlüməralığını ona verdi. Xanın vəkilləri Xorasan məmləkətinin sahmana salınmasına başladılar və onun adamlarının əksəriyyəti şəhərdə yerləşdi. Elə o əsnada fələyin qəzası və asimanın qədərinə uyğun olaraq Fərhad xanın qəribə bir şəkildə qətli baş verdi, Herat hakimliyi və bütün Xorasanın əmirülüməralığı şəmşir qorçisi Hüseyn xan Şamlıya verildi.

FƏRHAD XANIN QƏTLİNİN ZİKRİ, O VAXTLARDA BAŞ VERƏN BƏZİ HADİSƏLƏRİN BƏYANI VƏ ALLAHIN KÖMƏYİ İLƏ XORASAN İŞLƏRİNİN TƏNZİMLƏNMƏSİ

Dünyanın aqil adamlarına və bilik sahiblərinə aşkardır ki, sultanlarla yaxınlıq etməyin mənəvi ünsürü qanla qarışmışdır və padşahların qəlb aləmi başqa bir aləmdir. Ayıq ürəkli, hüşyar başlı adam gərək böyüklük badəsinin nəşəsindən məst olmasın, sultanlara yaxın cövlangahda onun fikir və əndişə ayağı sürüşməsin. Sultanların xidmətində o qədər rəy və tədbir sahibləri olmuşlar ki, onlar ali rütbələrə çatmış, sonradan yaxınlıq şəraitində ikən sədaqət yolundan dönmüş, dövranın şilləsinə tuş olmuş, onun savadsızlıq ətəyi yaxınlıq atəşi ilə odlanmış və nəticədə həmin odla da yanmışdır. Xoş o adamın halına ki, elə vəziyyətdə ona İlahinin köməyi yetişmiş, bu sətirlər müəllifinin rübaisində deyildiyi kimi, özünə sultanla yaxınlıq sərmayəsi qazanmışdır.

Rübai

Etsən də yaxınlıq şaha, bihuş olma,
Vəslin meyini nuş eylə, mədhuş olma.
Hərçənd ki, dostdan sənə çox naz gəlir,
Öz meylini ərz eylə ki, xamuş olma.[634]

Fərhad xanın qətlinin səbəbi:

Bir neçə il kamkar şəhriyarın diqqəti ilə cürbəcür inayətə yetişib başqalarından üstün olan Fərhad xanın acınacaqlı vəziyyəti barədə həqiqət belədir: O, ifrat nəfsin ucbatından öz sədaqət ipini əlindən verdi və nəticədə ipə keçdi. Fərhad xan qətlinin zahiri səbəbi budur: O həmişə şahın yanında boş söhbətlər edir və deyirdi: "Arzum budur ki, həzrət şahın da olduğu bir döyüşdə öz canımı hümayun şaha qurban edim".

---

[634] Rübainin farscası:
Ey del, ze şərabe-qorb bihuş məşov,
Və-z badeye-vəsl məst-o mədhuş məsov.
Hərçənd ze dust biştər bini naz,
Dər ərze-niyaz quş-o xamuş məşov.

Fərhad xanın qürur badəsi onun güman (pendar) badəsindən [daha çox] aşıb-daşdığına görə o, həmin qəflət badəsinin bir sərxoşuna çevrildi və Dinməhəmməd xanla baş verən cəngdə zəiflik göstərərək məğlub oldu. Bu məğlubiyyət nəticəsində az qalmışdı ki, bu əbədi dövlətə və müzəffər müqəddəs zata (Şah Abbasa - Ş.F.) göz (çeşme-zəxm) dəysin. Buna görə də Fərhad xan başqalarına ibrət olsun və [dilindən] "öz canımı döyüş meydanında vəlinemətimdən ötrü qurban verərəm" kimi yalan sözlər bir daha çıxmasın deyə, gərək cəzalandırılaydı. Bu qətlin başqa bir səbəbi isə budur: Vaxt ötdükcə əlahəzrətin xana qarşı şəkk-şübhəsi artır və şah onu sınayırdı. Xanın hərəkətlərini müşahidə etdikcə həmin şəkk get-gedə çoxalıb, yəqinlik sərhədinə çatdı. Elə Fərhad xanın özü də bunu hiss etmişdi.

Öz rəyi, hüşyarlığı, əqli olan xan hadisələr burulğanında ruzigar tərəfindən cəzaya məruz qaldı. Şahın sayəsində bu qədər cah-cəlala və ucalığa yetən xan şahanə şəfəqqətlərin qədrini bilmədi, şeytan onu öz yolundan döndərdi, ona qismət olan nemətin qədr-qiymətini anlamadı.

Fərhad xanın qətli:

Açıq-aşkar görünən sübutlar hümayun şahın xan barəsindəki fikrini qətiləşdirdi, onun şüurunun işığı bu məqsədə yönəldi və xan şaha olan etibarı əldən verdi. Nəticədə, qəzavü qədər icraçıları onun qətlinə hazır oldular, Allahverdixana, bəzi əmirlərə və qulamlara bu işin yerinə yetirilməsi tapşırıldı, onlar da onun evinə gedərək işini bitirdilər. Allahverdi xan əlini uzadıb onun xəncərini belindən çıxararkən, xan, artıq məsələnin nə yerdə olduğunu anladı. Fərhad xan türk ibarəsi ilə təkcə belə deyə bildi: "Beləmi oldu?" Yəni "Mənim işim beləmi oldu?" ("Karema çenin şod?"). Azərbaycan əmirülüməra sı olan onun qardaşı Zülfüqar xan qardaşının qətli ilə əlaqədar özünün də öldürüləcəyini güman edib, özünü hümayun dövlətxanaya çatdıraraq bu qətlə mane olmaq istəmişdi. Amma, əlahəzrət... (kitabda ərəbcə yazılan ifadə anlaşılmır – Ş.F.) sözlərinə əməl edib, Zülfüqar xana qarşı lütfkarlıq və şəfəqqətdən başqa heç nə etmədi. O, elə həmin gün Zülfüqar xanı qiymətli xələtlərlə sərəfraz etdi və onun pərişan əhvalı xatircəm oldu. Xan istək və sufi heysiyyəti ilə (sufigəri) mürşidi-kamilin (Şah Abbasın - Ş.F.) mübarək fikrinə təşəkkür edərək belə dedi:

"Qardaşım öz cəzasına görə qətl olundu, amma nə üçün bu iş mənim də başıma gətirilmədi?" Əlahəzrət bu hadisədən sonra həmişə iki cəhətdən öz kədərini izhar edir və heyfsilənirdi: Birincisi, neçə il Fərhad xanı yetişdirib bu uca mərtəbəyə qaldırdığına görə, ikincisi isə ona görə ki, izzət büsatından (yəni şah məclisindən - Ş.F.) uzaqda olan adamlar şaha yaxın adamların etdikləri hərəkətlərdən bixəbər olub, məbadə başqa hərəkətlərə yol verə bilərlər.

Xülasə, şah Fərhad xanın öldürülməsindən sonra Herat hakimliyini şəmşir qorçisi Hüseyn xan Şamlıya verdi, ağalar zümrəsindən olan Bəktaş Sultan Ustaclıya əmirlik rütbəsi verərək şərəfləndirdi və onu Maruçaq qalasının və Murğabın zəbti üçün göndərdi. Bəktaş Sultan Maruçaq qalasını təmir edib Murğabı tutdu və həmin yerləri abalaşdırmağa səy göstərdi, Xorasan vilayətlərinin hər birisinin hakimliyi sədaqətli əmirlərə tapşırıldı.

Bu vaxt, özbək ləşkərinin vurduğu sədəmələrdən, habelə Yetim Sultan və qardaşlarının talançılığından Sistan vilayətini tərk edib cahanpənah dərgaha gəlmiş Məlik Cəlaləddin xan Sistani, o zaman Qəndəharda olan şahın xidmətinə yetişdi və [əlahəzrət] Gəncəli xana verdiyi Sistan hakimliyini yenidən məlikə qaytardı.

Təbəs hakimi olan Mehrab xan Qacar həmin yolla hümayun ordu ilə gedib Tunda oranın hakimi olan Allahyar Oğlanı mühasirəyə aldı. Günün isti vaxtında, qazilərin yorulub istirahət etdikləri zaman Mehrab xan şəhərdən çıxdı. Tunda olan özbək dəstəsi fərar etməyə başladıqda bundan xəbər tutan xan onları təqibə başladı, Allahyar Oğlanı ələ keçirərək, başqa özbəkləri intiqam qılıncı ilə qətlə yetirdi, Allahyarı isə ali saraya gətirib şahın inayət və iltifatına layiq görüldü, Xaf və Baxərz hakimliyi ona verildi.

NURMƏHƏMMƏD XANIN QIZILBAŞ DÖYÜŞÇÜLƏRİ İLƏ MƏRVƏ GETMƏSİ, ONUN VƏ XARƏZM VALİSİ HACI MƏHƏMMƏD XANIN ÖZ İRSİ MÜLKLƏRİNİN TAXTINDA OTURMALARI, BÖYÜK ŞAHƏNŞAHIN İQBALININ GÜCÜ İLƏ MƏHƏMMƏD İBRAHİM SULTANIN ƏLƏ KEÇİRİLMƏSİ VƏ MÜZƏFFƏR MƏİYYƏTİN İRAQA TƏRƏF QAYITMASININ ŞƏRHİ

Xorasanın fəth olunması əhvalatının əvvəlində Budaq xanın bir dəstə əzəmətli qorçi ilə Nurməhəmməd xanla birlikdə Sahican Mərvinə göndərilməsi barədə məlumat verilmişdi. Onlar

sağ-salamat o tərəfə yola düşdülər. Bağdada çatdıqda, Abdulla xanın əmisi oğlu, Əbdülmömin xanınsa dayısı oğlu, on səkkiz yaşlı yaraşıqlı bir cavan olan Bağdad hakimi Tursun Məhəmməd Sultanın oğlu Məhəmməd İbrahim Sultan bir-birinin ardınca gələn xəbərlərdən, yəni Mavərənnəhrdəki qarma-qarışıqlıq, müzəffər şah məiyyətinin yürüş yerinə yetişməyi, Nurməhəmməd xanın qızılbaş ləşkəri ilə gəlib-çatmağı barədəki xəbərlərdan hali olduqda, canına brzə düşdü, istədi ki, özünü tez-tələsik Mərvə çatdırsın və Çəharcu* yoluyla Buxaraya getsin. Əzəmətli qorçilər və çekəni qaziləri dərhal onun ardınca yola düşdülər və ay haləsi kimi onu dövrəyə aldılar. Onun xidmətində olan özbəklər qızılbaş ləşkərinin hücumuna tab gətirməyib, cəngdən sonra qaçış yoluna düşdülər. Məhəmməd İbrahim Sultan müzəffər qazilərin əlinə keçdi. Onlar həmçinin Nisa və Əbivərd vilayətini zəbt cdib, Şahican Mərvinə doğru yola düşdülər.

Mərvdə olan Süleyman Yasovul və Dinməhəmməd xanın qardaşı Vəli Məhəmməd Sultan hümayun məiyyətin gəlişi və Nurməhəmməd xanın buraya varid olması xəbərini eşidərək pərişan oldular, amma Mərv vilayətində yaşayan qəbilələrin əksəriyyətini və o diyarın bütün əhalisini bu mülkün varisi olan Nurməhəmməd xanın tərəfdarı gördülər. Çarəsiz qalaraq, daha burada qalmağın çətin olacağını düşünərək, qəm-kədərlə əllərini mülkdən və maldan üzdülər, arxayın bir yerə getmək istədilər.

Məlum oldu ki, şahın zəfər ayəli ordusu müqəddəs Məşhəddən Herata yollanmış və qiyamətəsər qızılbaş ləşkəri Xorasanın hər tərəfini bürümüşdür. Buna görə də, onlar Herata gedə bilməyərək, Dinməhəmməd xana qoşulmadılar, məcburiyyət üzündən Çəharcu yoluyla Buxaraya tələsdilər. Nurməhəmməd xana sədaqət şüarını irəli sürən Mərv əhalisi onun istiqbalına çıxdı, o hüdudun əhalisi, cəlayir qəbilələrinin başçıları və həmin yerlərin başqa türkmanları Nurməhəmməd xanın başına toplaşılar, hamısı birlikdə zəfər və iqballa Mərvə gəldilər.

Bu işlər baş verən vaxt Heratın fəthi və özbək ləşkərinin cəzaya məruz qalma xəbəri gəlib onlara yetişdi, şadimanlıq nağaraları səslənməyə başladı, bu vilayətdə xütbə və sikkə hümayun şahın adı və ləqəbi ilə bəzəndi. Budaq xan və bu ədəbiyaşar dövlətin əmir və qorçiləri Nurməhəmməd xanı öz irsi mülkünün səltənət taxtına əyləşdirib, Məhəmməd İbrahim xanı bir dəstə qızılbaş qazisi ilə şahın yanına yolladılar. Məhəmməd İbrahim xan Herat

darüssəltənəsində [şahın] irəm məclisinə yetişməklə izzətləndi, şahın nəzərinə və iltifatına layiq görüldü. Əlahəzrət, xanı öz xosrovanə diqqəti sarıdan xatircəm etdi və o, əvvəlkindən də artıq diqqətə məruz qaldı. Xanın izzət və ehtiramla qorunmasını xasseye-şərifə qulamı Təhmasibqulu bəy Gürcüyə tapşırdılar. Həmçinin Hacı Məhəmməd xan tərəfindən belə bir sədaqət ayinli məktub gəldi: "Şahın diqqəti və iltifatı sayəsində Xarəzm məmləkətləri, əvvəllərdə olduğu kimi, bizim əlimizə keçdi, bu vilayətin torpağı müxalifət əhlinin tör-töküntüsündən təmizləndi, bu dövlətxah adam izzət və ucalıq taxtında əyləşdi. Bu beytlər onun halına münasibdir:

Beytlər

Əgər hər tükümün olsa bir dili,
Səndən ötrü dua etməsi bəlli.
Hələ şükür dili açmamışam mən,
Hələ deməmişəm sənə şükrümdən.[635]

Sözün qısası, bu hadisələrdən sonra Bağşəhr Bəhram qəhrli xosrovun iqamət yeri oldu, [şah] orada Xorasan işlərinin nizamlanmasına, ehtiyac sahiblərinin və dövlətxah adamların mətləblərinin həllinə başladı. Özbəklərin hakimiyyətləri vaxtı dövlətxahlıq izhar edən, din və dövlət yolunda çalışan, öz qalalarını qoruyan, vətənlərindən çıxıb İraqa gələn bütün Xorasan əhlinə ənamlar, soyurğallar və yaxşı xələtlər verildi, onlar imtiyazlara layiq görüldülər.

Şah Abbasın Heratdan müqəddəs Məşhədə qayıdışı:

Məmləkət işlərini gördükdən, əskər və rəiyyətin dərdinə çarə etdikdən sonra müzəffər məiyyət müqəddəs Məşhədə tərəf hərəkətə başladı, oraya çatıb bir ayadək həmin cənnətnişan yerdə dayandı, müqəddəs astana sərkarının işlərinə əl yetirdi, oranın xidmətçilərinə, müdərrişlərinə*, heffazlarına**, başqa əmələ və

[635] Beytlərin farscası:
Əgər hər muye-mən gərdəd zəbani,
Şəvəd hər yek to-ra təsbihxani.
Hənuz əz bizəbani xofte başəm,
Ze səd şokrət yeki nagofte başəm.

xidmətkarlarına, kasıblara və təqaüdçülərə (ratebexar) cənnətməkan şahın hakimiyyəti vaxtında olduğu kimi kömək olundu. Sərkar üçün zəruri olan hər şeyi onun sərəncamına tapşırdı, ona qiymətli daş-qaşlar, qızıl və gümüşlə işlənmiş qəndillər, şamdanlar, gözəl Kirman xalıları və qab-qacaq verildi, müqəddəs rövzənin gözəlləşməsinə çalışdı. O, müqəddəs Məşhəddə olduğu hər gün ərzində həmişə ziyarət səadətinə yetişdi, istəyi və etiqadı hədsiz olduğu üçün vaxtının çoxunu şəxsən xadimlik, fərraşlıq və sair işlərdə iştirakını əsirgəmədi, bu işləri görməklə iftixar etdi. Xorasanda daha heç bir görüləsi iş qalmadığından, müqəddəs rövzəyə əlvida dedi və zəfər ayəli ordu Radkan və Xəbuşan yoluyla Astrabada getməkdən ötrü Dəşte-Bəhryana doğru hərəkətə başladı.

UCA QƏDİR-QİYMƏTLİ XAQANIN ÜRƏKAÇAN RADKAN SƏHRASINDA ŞİKARA ÇIXMASININ ZİKRİ

Zərəfnişan məiyyətin gəlib çatdığı Radkanda hümayun şahda şikar nişatına başlamaq meyli baş qaldırdı. Qəmərğə*, yəni şikarcərgə hazırlandı, müzəffər əsgərlər fərmana əməl edərək, bir neçə gün ərzində ov heyvanlarını artıq müəyyən bir yerə cəmləşdirmişdilər. Cərgə dairəsi qapanan vaxt, bu cərgəyə o qədər heyvan yığılmışdı ki, qorxu (vəhm) mühasibi onların sayını hesablamaqda aciz qaldığını etiraf edirdi. Cərgə meydanının hələ bir fərsəx[636] sahəni əhatə etdiyi vaxt əlahəzrət meydana girdi və onun nəzəri bir neçə çöl eşşəyinə (xərgur) sataşdı. O, hər addımı fələyin sürətindən iti olan külək sürətli atını həmin nişat artıran meydanda çövlana gətirərək cilovu o gurxərlərə[637] tərəf çevirdi, onları bir qədər qovduqdan sonra ox və qılınc ilə hamısını yaralayıb yerə yıxdı. Döyüş meydanının get-gedə genişləndiyi sübh çağından axşama qədər şah at sürməkdə və ov ovlamaqda oldu. İzzət büsatının cəmisi iki-üç yaxın adamı şahın yanında şikara çıxmışdısa da, onlara ov ovlamaq icazəsi verilməmişdi. O həzrət bəhrami[638] kamanı hər dəfə işə saldıqca cilovdarlar iti qanadlı qartallar kimi ona dəstə-dəstə iti oxlar gətirirdilər. Qanadlarını geniş açmış o həzrətin çəkdiyi yayın

[636] 6 km.
[637] Müəllif bu dəfə "xərgur" əvəzinə "gurxər" yazır - Ş.F.
[638] Bəhram Gurun kamanına işarədir.

səsindən ahular və başqa heyvanlar çaxnaşmaya düşürdülər. Əlahəzrətin ovladığı hər bir heyvan ona yaxın olan adamlar tərəfindən sayılırdı.

O gün əlahəzrətin atdığı oxlarla yüz altmış iki heyvan həlak torpağına sərildi. Şikar dairəsi daraldıqda, bəzi əmirlər və şaha yaxın adamlar rüxsət alıb cərgəyə daxil oldular. Az sonra müqəddəs ordunun mülazimlərinin, yaxın adamlarının, qorçilərin, qulamların əksəriyyəti də izn alaraq şikara başladılar. Nəhayət, bütün döyüşçülərə rüxsət verildi. İş o yerə çatdı ki, iti qaçışlı ahular yorulub hərəkətdən qaldılar, belə ki, piyadalar cərgəyə girib onları əlləri ilə tuturdular. Heyvanlar o qədər çoxdular ki, hesaba gəlmədilər, amma:

Misra

Bircə kəs də qalmadı əlinə ov keçməsin[639]

Hələ də cərgədə iki-üç min ahu heyrət içində və sərgərdan halda vurnuxur, özlərini əziyyət tələsinə düşən görüb, çıxış yolu tapa bilmirdilər. Nadir hadisələrdəndir ki, bir neçə heyvanda qəribə hallar müşahidə olundu. Belə ki, həmin biçarələr başqa çarə tapmayıb qeybdən onlara gələn bir istək (elham) hissi ilə özlərini əlahəzrət dayanan yerə çatdırıb, oranı təhlükəsiz yer sandılar, o həzrətin dövrəsində dayandılar. Sonra bir neçə dövrə hərlənərək, hamısı o izzət və məqam sahibinə pənah gətirib, elə oradaca dizləri üstə çökdülər. Onların belə hərəkəti qoyunların "yataq" ("yətaq") etmələrinə bənzədi. Əlahəzrət bunu müşahidə edib ovu dayandırdı və hamıya bir daha heyvanlara toxunmağı qadağan etdi.

Bir qədər uzun sürən (momtəd) vaxtdan sonra, günəş qürub edərkən ahular bir qədər dincəldilər və əhahəzrət onları azad etmək qərarına gəldi, əmr etdi ki, cərgənin çöl tərəfini açıb heyvanlara yol versinlər. Artıq heç kimin onları ovlamaq cürəti yox idi. Təxminən iki-üç min heyvan bəla girdabından qurtuldu və çölə tərəf götürüldü.

Ertəsi gün hökm olundu ki, ovu olan hər adam ovunu şaha göstərsin. Bütün şikarları bir yerə yığdılar və onlar məzəffər əsgərlər arasında bölüşdürüldü. Sonra oradan ov edə-edə çıxıb Xobuşan və

[639] Misranın farscası:
Kəsi nəmand ke, seydi nəyamədəş dər dam.

Səməlğan yoluyla Bəhryan çölünə çatıb dayandılar. Əlahəzrətin fikrinə Astrabada getmək və həmişə o vilayətə zərər vuran oxlu və kuklən üsyançılarını cəzalandırmaq, sonrasa Astrabadın işlərini tənzimləmək düşdü. Buna görə də yürüş cilovu o tərəfə istiqamətləndi.

HÜMAYIN ŞAH MƏİYYƏTİNİN ASTRABAD SƏMTİNƏ YÜRÜŞÜ, BƏDNİYYƏT DÜŞMƏNLƏRİN CƏZALANMALARI VƏ MÖHTƏŞƏM MÜBARƏKABAD QALASININ TƏMİRİNİN ZİKRİ

[Bu kitabın] birinci səhifəsinin "Hər ildə baş verən hadisələr" hissəsində Astrabad və oradakı qarışıqlıq barədə bir qədər məlumat verildiyinə baxmayaraq, yenidən o haqda danışmaq təkrarçılıq, ətalət və yazılanı yenidən yazmaq olsa da, burada münasib görüldü ki, oxucuların tam məlumata malik olmalarından ötrü bir daha o vilayətin vəziyyətindən yığcam şəkildə bəhs edilsin.

Xülasə, Astrabad darülmülkü İran torpağının gözəl və ürəkaçan yerlərindəndir. Bu vilayət bir tərəfdən Xəzər dəryasına birləşir, olduqca gözəldir, oranın bahar (rəbi) və payız (xərif) fəsilləri eynidir, cənnətin bir parçasıdır. Əhalisi iman bəzəyi (həliyye) ilə bəzənmişdir, zöhd və təqvada ali dərəcəli adamlardandır. Amma, yolkəsən adamlardan da xali yer deyildir, Təbəristanın başqa yerləri kimi onların başlarında hərdənbir üsyan havası olur ki, o təbəqədən olanlan "siyahpuş" adlandırırlar.

İran mülkünün əmniyyət və istiqlalının həzrət cənnətməkan şah dövründə, həmin yerin hakimləri siyahpuşluq havasını başlarından çıxarıb şaha rəiyyətlik edirdilər, lakin "Xarəzm valisinin təbəələri (ətobba)" və "yəqə türkmanları" kimi tanınan sayınxani, oxlu, kuklən, eylur ("eymur" olmalıdır - Ş.F.), salur və başqa uluslar Cürcan və Xarəzm vilayətləri arasında, Ətrək çayı kənarında yaşayırdılar. Onlar sonra Gürgan çayınadək gəlib həmin sonsuz səhrada əkinçiliklə məşğul olaraq Cürcan hakimlərinə əkin vergisi (male-məzrui) verməyə başladılar. Amma, hakimləri məmləkətin abadlaşdırılması qane etmədi. Get-gedə həmin təbəqədən olan adamlar tüğyana qalxıb Astrabad məmləkətinə əliuzunluq etməyə başladılar. Astrabad hakimləri də, onların fitnələrini dəf etməyə çalışdılar və buna görə də, Astrabad hüdudu çox vaxt fitnəkarlıqdan xali ola bilmədi. Cənnətməkan şah onların

fitnəsini aradan qaldırmaqdan ötrü Gürgan çayı kənarındakı Mübarəkabad qalasını hazırlayıb, belə qərara aldı ki, hakimlər şəhərdən çıxaraq, yəqə türkmanlarından qorunmaq və məmləkətin təhlükəsizliyini təmin etməkdən ötrü həmin qalada iqamət etsinlər. O vaxtlarda baş vermiş hadisələrin təfsilatı [bu kitabın] birinci səhifəsində, cənnətməkan şahın bəhsi hissəsində qələmə alınmışdır.

Yeri cənnət asiyanlı şahın vəfatından sonra İsgəndər şanlı nəvvab və İraq Azərbaycanın ləşkəri rum hücumunu dəf etməklə məşğul idi. Xorasan əmirləri [isə] iki dəstəyə bölünüb bir-birləri ilə savaş məqamına gəldilər. Qızılbaş tayfalarının başı elə qarışdı ki, onlar bir neçə il Astrabadın zəbt olunma məsələsi ilə məşğul ola bilmədilər, bu məmləkətin müstəqil bir hakimi olmadı. Yəqə türkmanları, xüsusilə Əliyar bəy Eymur ürəklənib Zərrabxanə və Mübarəkabad qalasınadək şəhərin üç fərsəxliyinə gəlib çatdı, türkmanlar orada dayandılar, qalanı dağıtdılar və rahatlandılar. Astrabad əhalisi onların hücumunu dəf etmək məqsədiylə bir qədər dözdülər. Nəhayət, türkmanlarda düşmənçilik və üsyan duyğusu baş qaldırdı. Hər bölgədə bir saxtakar (motəqəlleb) adam ortaya çıxdı və siyahpuşluq qaydası təzələndi. Onlar o torpaqda qala tikdilər, oraya çoxsaylı tüfəngçi və kamandar topladılar, biri-digərinə tabe olmamağa başladılar. Vaxt ötdükcə, o saxtakarların və siyahpuş sərdarlarının başlarına hakimlik və müstəqillik havası doldu, yolların darısqallığı, çətinliyi, meşə və cəngəlliklərin keçilməzliyinə arxalandılar, nəhayət qızılbaşlara itaətdən boyun qaçırdılar, yəqə türkmanları Gürgan çayı ilə çöl-səhra arasındakı yerlərə qayıtdılar. Onlar bununla kifayətlənərək, Gürganın gözəl səhralarında öz yaylaq və qışlaqlarını keçirməkdəydilər, siyahpuşların qorxusundan şəhərə, meşələrə, cəngəlliklərə və çətin keçilən yerlərə gedə bilmirdilər. Bəzən onların aralarında anlaşma şəraiti də yaranırdı. Vəziyyətləri bir neçə il belə oldu, amma İsgəndər şanlı nəvvabın hakimiyyətinin sonu və əlahəzrət zilləllah şahın taxta cülusunun əvvəlində bəzən Müztəzaqulu xan Pornak, bəzən də İsgəndər xanın qardaşı Bədr xan Əfşar o vilayət hakimliyinə təyin olunub Astrabad şəhərinə getdilər.

Hər biri bir bölgədə hakimlik və istiqlaldan dəm vuran siyahpuş sərdarları yəqə türkmanları tayfasını öz hamiləri bilərək üsyana qalxdılar və [qızılbaş] hakimini saya salmadılar. Hakimin mülazimləri şəhərdən bir fərsəx məsafədən artıq kənara getmir, o

vilayətdən heç bir həzz ala bilmirdilər. Buna görə də, onlar yəqə türkmanlarının qorxusu və siyahpuşların tüğyanı üzndən həmin vilayətdə qala bilməyərək pis vəziyyətdə oranı tərk etdilər. Siyahpuş sərdarlarından Xacə Şərəfəddin Savəri başqalarından daha çox yaramaz hərəkətlər edirdi. Mürtəzaqulu xanın bütün var-yoxunu qarət etdilər, qazilərin at və yaraqlarını əllərindən aldılar və onlar hər şeydən məhrum oldular. Nəhayət, Xorasanda özbəklərin tüğyanı başlandı, Astrabad vilayətinin Kəbudcame adlı mahalına bitişən Nisa, Əbivərd, Dərun və Bağdad vilayətləri özbək əmirlərinin əllərinə keçdi, Abdulla xan isə Xarəzm vilayətini tutub, oranın valisi Hacı Məhəmmədxanı qovdu.

Əlahəzrət, sayinxani ulus başçılarının özbəklərə itaət edəcəklərini, özbəklərin vasitəçiliyi ilə Astrabad vilayətini tutacaqlarını, siyahpuşların fitnəsinin Mazandarana da yayılacağını düşünüb, zamanın tələbinə uyğun olaraq, onlarla tədbirlə davranmağa başladı. Şah həmin dəstə zümrəsindən olan və başqa sayinxani qəbələlərindən etibarına görə on çox etibar imtiyazı əldə edən, o vaxtlarda Mübarəkabad [qalası] yaxınlığında dayanan Əliyar bəy Eymura, Ziyaəddin Fendereskinin oğlu Mirzə bəyin - bu dövlətxah şəxsin, bu şah astanası xidmətçilərinə sədaqət izhar edən adamın vasitəçiliyi ilə "xan" rütbəsi verməklə, onu sərəfraz etdi, Astrabad hakimliyi Əliyar bəyin adına yazıldı, amma siyahpuş sərdarları bu bəyə çox da arxalanmırdılar. Əliyar bəy onlarla barışıq yolu ilə davranır və istəyirdi ki, öz naibini şəhərdə saxlayaraq hakimliyi ona tapşırsın, özü isə gedib Gürgan çayı kənarında, öz eli içərisində yaşasın.

Bəyin vəfatından sonra onun oğlu Məhəmmədyar xan cahanpənah dərgaha gedərək, atasının yerinə təyin edildisə də, oxlu təbəqəsi ona qarşı xilaf məqamında durdu. Nəticədə, Məhəmmədyar xan oxlu camaatı tərəfindən qətlə yetirildi. [Bu dəfə] onun ən kiçik qardaşı Qılıc xan ali saraya gələrək, Astrabadı idarə etmək sənədini aldısa da, oxlu tayfasının tüğyanı və narazılığı nəticəsində bu qardaş da hakimlik edə bilmədi. Şahın qələbə ayəli ordusunun Xorasanı fəth etməkdən ötrü hərəkət edərək Bəstam çəmənliyində dayandığı il əlahəzrət Cürcan vilayətinin zəbti üçün getdi və o vilayət hakimliyini Mazandaran hakimi olan Fərhad xana verdi. Xan isə, yuxarıda yazıldığı kimi, həmin mülkə öz daruğəsini yolladı.

O ətrafda şahın təntənəli gəlişi xəbəri yayılanda özləri özlərinə aludə olan düşmənlərin səbat kökünə zəlzələ düşdü,

Astrabad vilayətinə bitişik olan bütün Mazandaran qızılbaşların əlinə keçdi. [Vəziyyəti belə görən] siyahpuş sərdarları öz hallarını fikirləşdilər və itaət etməkdən başqa çarə tapa bilmədilər, cahanpənah dərgaha gələrək, xeyrli Xorasan səfərində şaha yoldaş oldular. Fərhad xanın qətlindən sonra isə, Astrabad vilayətinin hakimliyi Hüseyn xan Ziyadoğlu Qacara verildi.

Oxlu və yəqə türkmanlarının fitnəsini yatırmaq və Astrabadda qayda-qanun yaratmaqdan ötrü hümayun məiyyətin o səmtə getməyi lazım görüldü. Səadət nişanlı ordu gəlib Dəşte-Bəhryanda dayandıqda, ordunun əksər ağrəqini və ləşkərin bəzi mallarını Bəstam yoluyla İraqa göndərdilər, müqəddəs ordunun bütün mülazimləri əzəmətli əmirlərlə o istiqamətə üz tutdular, Yəqə türkmanlarını arxayınlaşdırmaqdan ötrü şahın izzət büsatının yaxın adamlarından olan Məhəmmədqulu bəy Əmiraxurbaşı Cığatayı həmin yol üstündə yaşayan Qazı xan Mir Oxlunun yanına göndərib, türkman qəbilələrinin adına bir nəvazişnamə yazdılar: "Sizlər qədim dövrlərdən bəri Xarəzm sultanlarının təbəələri olmusunuz. Hal-hazırda dövran hadisələrinin təsiri ilə şah dövlətinin kölgəsi altına pənah gətirən və bir müddət hümayun şahın iqbal kölgəsi altında yaşayan Xarəzm padşahı və onun övladları bizim yardım və köməyimizlə yenidən öz irsi məmləkətini tutmuşlar, özlərini bizim hümayun adamlarından sayırlar. Həqiqətən də, Hacı Məhəmməd xana mənsub olan adamlar elə bizim adamlarımızdırlar. Gərək, Məhəmmədqulu bəylə birlikdə hümayun məiyyəti qarşılamağa çıxasınız və bizimlə görüşməklə sərəfraz olasınız. Siz qətiyyən hümayun məiyyətin gəlişindən həyəcanlanmayın. Əgər öz qədim yerinizdə sakin olub ayağınızı ədəb dairəsində saxlasanız, tərəfimizdən sizə qarşı iltifat və şəfəqqətdən başqa heç bir əməl zahir olmayacaqdır."

Sonra hümayun məiyyət iqbalın qəlavuzluğu* və siyahpuş sərdarlarının bələdçiliyi ilə Kobudcamə dərəsi yoluyla hərəkətə başladı.

Qari xan Oxlu əvvəlcə Məhəmmədqulu bəyə izzət və ehtiram göstərdi, başqa ulusların mir və ağsaqqalları məsləhətləşərək, hamını itaətə, birliyə və ali hümayun şaha bağlı olmağa rəğbətləndirdi, təklif etdi ki, onunla birlikdə şah astanasını öpməyə getsinlər. Amma, neçə ildən bəri özlərini Xarəzmdən ayırıb özbaşınalığa başlayan [oxluların] bəzi cahilləri o vaxtlarda öz valilərinə itaət etmirdilər. Onlar izzət və cah-calal məiyyətinin

yaxınlaşmasından əndişələndilər, bərk çaxnaşmaya düşdülər, ali saraya getməkdən çəkinib fərar məqamına gəldilər, Ətrək tərəfə yollandılar. İllərlə üsyan səhrasında müstəqillik edən oxlular qorxmadan Məhəmmədqulu bəyin yaşadığı evə hücuma keçdilər. Bəyin mülazimləri müdafiəyə başladılar və onların arasında savaş başlandı. Bir neçə yerdən Məhəmməqulu bayi ağır yaraladılar, onun bir neçə mülazimini qətlə yetirdilər və var-dövlətini qarət edib öz tayfalarının yanına getdilər.

Bu xəbəri eşidən əlahəzrət elə həmin gün Kəbudcamədən çıxaraq o aqibətsizlərin ardınca yollandı. Gecə vaxtı oxluların yurduna gəlib çatdılar. Onlar isə öz xeymə, xərgah və alaçıqlarını (əlaçuq) atıb fərar etdilər. Olduqca qaranlıq (mozlem) bir gecə idi. Zülmət cəhənnəmdəki quyudan (çahe-vil) xəbər verirdi. Buludun gözləri ağlamağını saxlaya bilmirdi.

Beytlər

Gecə qıvrılırdı başda saç kimi,
Babil quyusundan fərqli idimi?
Hava - qır rənginə "bəyaz " deyirdi,
Qara - yar zülfünü üstələyirdi.
Gecə - soyunmadı sübhədək donu,
Əl - tapa bilmədi ağız yolunu.[640]

Əlahəzrət zilləllah şah istəyirdi ki, Qari xana çatana və onu tutanadək hücumu dayandırmasın və heç yerdə dayanmasın. Ruzigarın təcrübəsinə çox yaxşı yiyələnmiş yaxşı düşüncəli dövlətxah adamlar belə ərz etdilər: "Zülmət gecə vaxtı padşahların şəxsən gedib yağını təqib etməsi barədə heç bir yerdə fərman (dəstur) yoxdur. Əgər əlahəzrət öz camal aynasında qeybdən gələn hadisələr pərdəsini dəlib keçən fikir nurunu müşahidə edərək, səltənət və hökmranlıq məsələlərində məsləhətlərə qulaq asır və

[640] Beytlərin farscası:
Şəbi əz tiregi çon cəde - kakol,
Şəbi tariktər əz çahe - Babol.
Həvaye qirgune - an şəbe-tar
Səbəq borde ze cəde - sonbole-yar.
Çenan tire bod an şəb ta səhərgah
Nəbordi dəstha suye-dəhən rah.

[böyük] işlər (karnameha) görürdüsə, onun gördüyü işlər ruzigar sultanlarının düsturül-əməllərinə müvafiq olubdur." Şah həmin yaxşı düşüncə sahiblərinin fikri ilə razılaşdı və Qari xanın yurdunda atından yerə endi. Onun Astrabada gəlişinin əsl məqsədi o gözəl vilayəti üsyankarlardan xilas etmək olduğundan, ağrəq qoşununu orada qoyub, Bərxurdar bəy Ənis Topçubaşını bir dəstə tüfəngçi ilə ağrəq [mallarının] mühafizəsi üçün saxladı. Sobhe-sadiqin işartısı göründükdə, zəfər və iqbal ilə ata süvar oldu və gedib Ətrək çayının sahilində oxlu qəbilələrinin köçünə çatdı. Təşvişə düşən Qari xan öz qoşunundan ayrıldı, bir neçə adamla Ətrək çayını keçdi, çöl yoluna düşdü, onun qoşunu isə müzəffər qazilərin basqınına məruz qaldı. Kişilər iti şəmşirlərə yem, qadınlar və uşaqlar əsir, mal-dövlət, heyvanlar və qənimətlər isə qarət və tarac küləyinə giriftar oldular. Qari xanın hansı tərəfə qaçdığı məlum olmadığı üçün həmən susuz çöldən geri döndülər, Gürgan çayı kənarında olan və Şəmsül-məali Qabus ibn Vəşmgirin gümbəzi yaxınlığında orduya birləşdilər, sonra oradan çıxaraq Mübarəkabad qalasının yanında dayandılar.

Sayinxanilərin eymur, kuklən, salur və başqa qəbilə ağsaqqalları şahın qəzəbindən qorxub ali taxt ayağına gəldilər və şah tərəfindən nəvazişləndilər. Əlahəzrət Mübarəkabad qalasının təmir olunması qərarına gəldi. Qalanın hər tərəfini əmir və əskərlər arasında böldülər və bu iş başlandı. Olduqca hündür olan qala divarı on iki gün ərzində ucaldıldı.

Bu vaxt şah belə fikirləşdi: Siyahpuşlar arasında onların bu mülkdə hakimiyyət etdikləri vaxt qızılbaşlara xidmət edən heç kəs sağ qalmamışdır, bu dövrdə doğulan cavanların da yaşları iyirmi-iyirmi beş yaşdan çox deyildir ki, onlar da hakim görməyərək, özlərini hakim təsəvvür etmiş, başlarına qürur havası dolmuşdur. Gərək ehtiyat naminə o tayfaya qarşı tədbir görülsün ki, onlar qəflət yuxusundan oyansınlar.

Qalanın təmiri qurtardıqdan sonra, şah bütün siyahpuş sərdarlarını [yanına] tələb etdi və onlara öz gövhərlər səpən dili ilə dedi: "Bu məmləkət artıq neçə ildir ki, layiqli hakimdən xali olmuş, buranı hiyləgərliklə zəbt etmişlər. Siz öz qayğınıza qalıb, rəiyyət olmaq yolundan uzaqlaşmış, döyüşkənlik meydanına qədəm atmısınız. Bir-birinizin qorxusundan və türkmanların basqınından qorunmaqdan ötrü siyahpuşları toplayaraq, qızılbaş əmirlərinə qarşı hörmətsiz hərəkətlər etmisiniz. İndi isə, öz keçmiş əməllərinizdən peşman olub üzrxahlıq və bizə bağlılıq məqamına gəlmisiniz. Biz

sizin hərc-mərclik zamanı vaqe olmuş, ya olmamış[641] əməllərinizi əfv etmişik. Hal-hazırda İlahinin inayəti və şahın qüvvəti sayəsində bu məmləkətin hər tərəfi (həvaşi) əmin-amanlıq içərisindədir və Təbəristan, Cürcan və Xorasan Murğab çayınadək bu güclü dövlət övliyalarının əlindədir. Xarəzm və Ürgənc sultanları bizə itaət edirlər. Sayinxani ulus düşmənləri öz cəzalarını almış, qalanlar isə boyunlarını bizə bəndəlik həlqəsinə salmışlar. Məmləkəti idarə edən bir hakim lazımdır. Bundan sonra adamlar ərbabların cövr və zülmündən azaddırlar. Elə buna görə də, onların artıq [burada] qala saxlamaq ehtiyacı yoxdur. Siz gərək öz qalalarınızı dağıdıb, bütün silah-sursatınızı hakimin sərkarına verəsiniz ki, həmin silahlar Mübarəkabad qalasında işə yarayacaqdır. Siz özünüz isə xanəköçünüzü bu qalaya gətirib orada yaşayacaqsınız. Qədim vaxtlarda olduğu kimi gərək əkinçilik və rəiyyət işləri ilə məşğul olasınız, siyahpuşluğu tərk edəsiniz. Belə olan halda bu məmləkətin hakimi sizdən, siz isə hakimdən qorxmadan etibarlı şəkildə yaşayacaqsınız."

Sərdarların tabe olmaqdan başqa çarələri qalmadığı üçün bu təklifi qəbul etdilər. Əlahəzrət işləri qaydaya salmağı etibarlı bir qızılbaşa həvalə etdi və dedi ki, əgər bundan sonra bircə şəmsir, hətta bir ədəd nizə də evlərinizdə olarsa onları saxlayan adamın qanı hədər yerə axacaqdır.

Xülasə, bu günlərə qədər Astrabad vilayətində yaşayan və "yalnız mən", yaxud da heç kim"[642] təbilini çalan siyahpuş təbəqəsi özlərini heç vaxt təsəvvür etmədikləri qəribə vəziyyətdə gördülər, ikrah hissi ilə fərmana boyun əydilər. Amma, onlar biri-digərini ağılsızlıqda töhmətləndirirdilər, hərəkətlərindən müxalifət və nifaq əlamətləri müşahidə olunurdu.

Xülasə, qərara alındığı kimi, onların qalaları dağıdıldı. Mübarəkabad qalasına bir neçə min tüfəng, zireh, ox ucu (kiş) və kaman gətirildi, sərdarların ailələri qalada yerləşdirildi. Bu hadisələr baş verən vaxt, əlahəzrət zilləllah şah bir gün şəhərə təşrif aparmışdı. Qadın və uşaqların nalə səslərini eşitdi. Siyahpuşların zülmü göyə yüksəlirdi. Hərc-mərclik dövründə olduğu kimi, elə indi də, əksəriyyəti zahid, abid və xeyrxah (saleh) olan Astrabad şəhərinin camaatına qarşı zülm olunur, siyahpuşlar şeytancasına

[641] İfadənin ərəbcəsi: "Kənə ləm yəkun".
[642] İfadənin ərəbcəsi: "Ənə va la ğeqru".

(hezbe-şeytan) azacıq varı olan adamın evinə gedir, onu qətl edəcəkləri ilə hədələyir, sakinlərin var-yoxlarını əllərindən alırdılar. Onlar namuslu adamların üzə duracaqlarından (hətk) qorxmayaraq namussuzluqlar edirdilər. Məsələn, Xacə Şərəfəddin Savəri iki dəfə özünün çoxlu siyahpuşu ilə qadın hamamına getmiş, qadınların mülazimlərini hamamdan çölə çıxarmış, lüt-üryan qadınları qəddarlıqla (onf) kafir və firənglər kimi əsir etmiş, az vaxt keçdikdən sonra onları bir-bir yenə öz sahiblərinə satmışdılar. Elə pis əməlli adamların cəzalarını verməmək, hərc-mərclik günlərində olsa belə, ülviyyətin (robubiyyət) zülalı olan sultanların ədalət tərəzisi ilə ölçülməlidir, çünki əgər zəiflər, məzlumlar və bəd adamlar cəzalanmazlarsa, rahat ola bilməzlər. Buna görə də, [əlahəzrət] məmləkəti qorxu-hürkü bilməyən adamlardan təmizləməyi lazım bildi.

Beyt

Fələkdən mükafat almaq istəsən,
Gərək bəd işlərdən yan olasan sən.[643]

Sözün qısası, cahanı bəzəyən (cəhanpira) ədalətli rəy sahibi olan şah xudpəsənd zülmkarları öz cəzalarına yetirmək qərarına gəldi. Seyidlərin, üləmanın, din adamlarının və soyurğal sahiblərinin işləri ilə məşğul olduğu bir gün, onların və övladlarının öz keçmiş xasiyyətlərini tərk edib-etməyəcəkləri, yaxud yenə də quldurlar kimi siyahpuşlarla əlaqədar olub-olmadıqları barədə məlumat almaqdan ötrü siyahpuş sərdarlarını da hümayun məclisə gətirdilər.

Bu günün işini görüb qutardıqdan sonra əlahəzrət, Xacə Şərəfəddin Savəridən Mürtəzaqulu xan Pornak barədə məlumat soruşdu: "O, Astrabada necə gəlmiş və necə də buranı tərk etmişdir?". Nadan xacə bu sorğu-sual vaxtı, özünün hərc-mərclik vaxtı etdiyi zülmlərin artıq əlahəzrət tərəfindən bağışlandığına ümid edərək, camaata və qızılbaş qazilərinə qarşı öz ağılsızlığı üzündən etmiş olduğu zülm və namussuzluqdan da danışdı ki, bəlkə şahanə qəzəb bəhrindən qurtula bilsin. Amma məzlumların çəkdikləri ahın

[643] Beytin tərcüməsi:
Ço bəd kərdi məbaş eymən ze afat
Ke xahi yaft əz gordun mokafat.

oxları və acizlərin duaları ulduzlar (əqtəran) tərəfindən artıq qəbul olunduğundan və belə zalımların cəzalanmaları Allahın təqdir səhifəsində müsbət qarşılandığından, xacənin bu yaltaqlığı və şirin dili onu qəzadan yayındırmadı. Onların hamısını tutdular, zəmanə qəhrəmanının qəhr şəhnəsi onları cəzalandırmağa başladı. Xacə Şərəfəddin Savərini parça-parça doğrayıb, onun hər parçasını o məhəllədə və o hamamın qapılarından asdılar, bəzi siyahpuşları zülmlə öldürüb, onların xəbis cəsədlərini, baxanlara ibrət olsun deyə,[644] şəhər darvazalarından başıaşağı asdılar, başqa bir neçə nəfərinsə, adamlara dərs olsun deyə, gözlərini çıxardılar.

Xülasə, o zülmkarların hər biri, öz əməllərinin heç kimin hələ görmədiyi cəzasına çatdılar. Camaatın fərəh sədaları, sevinc və şadlıqlarının avazı Keyvan səyyarəsinədək ucaldı və onlar gündən-günə böyüyən bu dövlətə dua etməyə başladılar, hürkmüş ürəklər yenidən aram oldu, ürəklərin yaraları tamamilə sağaldı. Cah-cəlal ordusu İraqa getdikdən sonra Astrabad hakimi Hüseyn xan da hümayun işarə alaraq, üsyankarların axtarışı ilə məşğul oldu, dövlətə qarşı çıxanların hamısını aradan götürdü. Elə cəza üsullarına əl atdı ki, bundan sonra heç kim qarşı çıxmağa cürət edə bilmədi. Siyahpuşlar təbəqəsi qorxunun şiddətindən siyahpuşluq havasını başlarından çıxarıb, ayaqlarını salamatlıq və rəiyyət olmaq ətəyində saxladılar, Astrabad vilayəti başqa İran məmləkətləri kimi əmin-amanlıqda oldu.

ƏLVƏND DİV MAZANDARANİNİN ƏLƏ KEÇİRİLMƏSİ, MÜZƏFFƏR MƏİYYƏTİN MAZANDARANA YÜRÜŞÜ VƏ HƏMİN BEHİŞTNİŞAN VİLAYƏTİN NİZAMA DÜŞMƏSİNİN ZİKRİ

Əlahəzrət zilləllah şah Astrabad işlərindən azad olduqdan sonra, hələ də meşədə müxalifət və tuğyanda olan Əlvənd Divi və div timsallı adamları ələ keçirməkdən ötrü onların olduqları yerə yürüş etdi. Şahın qərarı beləydi ki, əgər bu qış Mazandaranda qışlamaq belə lazım olarsa, orada qalıb, meşə və cəngəlliklər özlərini yarpaq yükündən təmizləyən vaxtlarda, başında düşmənçilik və tuğyan olan hər bir kəsi tutsun ki, həmin behiştnişan vilayət üsyançılardan və saxtakar adamlardan təmizlənsin və o, İraqa tərəf

[644] İfadənin ərəbcəsi: "Ebrətun-lin-nazerinə".

getməyə başlasın. [Şah] Mazandaran əyanlarına da bol vədlər verərək, onları da Əlvənd Divi və başqa düşmənləri tapmağa cəlb eylədi, bir dəstə adamı hələ hümayun məiyyət yollanmazdan əvvəl onların axtarışına rəvan etdi.

Əlvənd Divin Şah Abbas dərgahına pənah gətirməsi:

Bu xəbər Əlvənd Divə çatdıqda o, nicat yolunu fələknişan dərgaha gəlib aman istəməkdə gördü. Əvvəlcə, bir adamını alı dərgaha yollayıb ona pak xislətli, gözəl təbiətli şahzadə, yəni əlahəzrətin bibisinin (əmmə) əziz oğlu (nəvvabe-mostətab) oğlu ilə görüşməyi və belə deməsini tapşırdı: "Əgər [şahzadə] aləmin ən mərhəmətli adamı olan[645] şahdan bu günahkar [bəndənin] günahlarının bağışlanmasını xahiş edərsə və mən əfv olunaramsa, başımı ayaq edib aləmpənah dərgaha gələrəm." Əlahəzrət vəziyyətdən agah olub söz verdi ki, əgər Əlvənd Div sədaqətlə xalqlara pənah verən dərgaha gələrsə, öz canı, malı, torpağı və namusu ilə amanda olacaqdır, yoxsa bunu bilsin ki, inşallah, onun dəf olunmasınadək Mazandarandan başqa bir yerə getmək mümkün olmayacaqdır.

Əlvənd Div bu iltiqat və mehribanlıq müjdəsi xəbərini eşitdi, şahın mürüvvətinə söykənərək, ümid üzünü cahanpənah dərgaha tutdu, özünü hümayun dövlətxana qapısına çatdırdı. Həzrət də, vəd etdiyi kimi, onu nəvazişləndirərək, etdiyi əməllərə əfv qələmi çəkdi. Divin qarşısına belə şərt qoyuldu ki, o, [Mazandaranda] hakim olmaq havasını başından çıxarsın, öz fərzəndləri və əhl-əyalı ilə İraqa gəlsin, hala münasib olaraq, bu uzunömürlü dövlətin kölgəsi altında ömür sürsün, bəla və qorxu (məxavət) sarıdan arxayın olsun. Əlvənd Div bu xeyirxahlığa və canına zərər yetirilmədiyinə görə başına şadimanlıq papağı qoydu, bir neçə günlük ömrü qənimət bildi, fərzəndləri və yaxın adamlarıyla İraqa gəldi, Şiraz darülmülkündə yaşamaq istədi və həmin tərəfə də yollandı. Şah artıq onun tüğyan etməyəcəyindən arxayın olaraq, bir neçə gün Mazandaranda seyr və şikarla məşğul oldu. Fitnəkar və üsyançı adamların bəzisi cəzalandırıldı, bəzisi isə köçüb İraqa gəldi.

[645] İfadənin ərəbcəsi: "rəhmətun li-l-aləminə".

Xülasə, irsən əlahəzrətə mənsub olan cənnətnişan Mazandaran torpağı da Cürcan kimi, üsyankarların tör-töküntülərindən təmizləndi, bütün sərhədyanı məmləkətlər, o cümlədən Təbəristan, Cürcan, Mazandaran, Rüstəmdar, Gilanat, Kəskər və Təvaleş qədim dövrlərdən bəri ehtişamlı hakimlər arasında bölünmüş Şirvanın sərhədinədək [düşmənlərdən] təmizləndi. Həmişə hakimlərin üsyanı, fitnə-fəsadı və dava-dalaşı nəticəsində gözəl qadınların zülfü kimi qarışıq və pərişan olan bütün vilayətlər güclü şahın hakimiyyəti altına keçərək, əmin-amanhq evinə (darül-əman) çevrildi, əsirlər və asılı rəiyyət rahatlanmış ürəklər kimi təskinlik tapdı. Hümayun fallı bayraqlar (rayat) dalğalandı, zəfər və iqballa, çətin yollarına görə şərh və bəyanına ehtiyac olmayan və o günlərdə bir nizə uzunluğunda qarla örtülmüş Dəmavənd dağının ətəyi ilə İraqa qayıtdı. Bu beyt [Dəmavənd dağının] görünüşünə uyğundur:

Beyt

Haqqın qüdrəti kimi onun zirvəsi uca,
Enişi neçə dəfə mənim bəxtimdən alçaq[646]

Şah Abbasın Xorasan səfərindən qayıdışı və səltənət paytaxtına gəlişi:

Müzəffər ləşkər o dağda çox əziyyətə düçar oldu. Belə ki, əlahəzrət atdan düşdü, atın cilovunu öz mübarək əlinə alıb, qarın olduqca daraltdığı və adamların yalnız bir-bir keçməsi mümkün olan bir yol ilə piyada getdi, səadət və iqlalla oradan Dəmavənd qəsəbəsinə gəlib-çatdı, sonrasa Qəzvin darüssəltənətinə rəvan oldu, səltənət paytaxtı yenidən zəfərnişan məiyyətin gəlişindən gözəlləşib şadlandı, əhali hümayun məiyyətin istiqbalına çıxdı, şadimanlıq nağaraları ucadan səsləndi, Xorasan fəthinin səs-sorağı, dünyanı tutan şəhriyarın cahangirlik üsulları haqqında deyilənlər hər tərəfə gedib-çatdı, işrət əsaslı o şəhərdə abadlıq işləri başlandı, şəhər sevinc aləminin ziynətini daha da artırdı. [Əlahəzrət] müzəffər əsgərlərə özlərinin məskən və vətənlərinə getmək icazəsi verdi, səfər

[646] Beytin farscası:
Fərazəş ço qodrət boləndo nəşibəş
Ze bəxtəm nequntər be çəndin məratebə.

cilovunu Qəzvindən İsfahan darüssəltənəsinə tərəf çevirdi, iki ulduz parıltısının (neyreyn) iki xoşbəxt ulduzla qarşı-qarşıya gəlib eyniləşəcək (məqarene) dörd hissəyə bölünməkdən (tərbi) uzaq olduğu bir saatda Nəqşe-cahanın "Bağe-cəhanara"sı dünyanı gəzən şah atının dirnaqlarından qopan tozlardan təmizlənib, ətirlənməyə başlayanda qışı olduqca böyük şadyanalıqla həmin cənnətnişan şəhərdə başa vurdu.

ALLAHIN TƏQDİRİ VƏ İSTƏYİ İLƏ FAYDALI XORASAN SƏFƏRİ ZAMANI BAŞ VERƏN BƏZİ HADİSƏLƏRİN ZİKRİ

Bu il Xorasan səfərində baş vermiş hadisələrdən [biri də] budur: Herat darüssəltənəsində şamlı yüzbaşılan silkinə məxsus olan Mirzə Əli bəy Kəramili elçi sifətilə Hindistana göndərildi, ali məqamlı padşah Cəlaləddin Məhəmməd Əkbərə Xorasan fəthinin necə baş verməsi və Dinməhəmməd xanla müharibənin nə təhər olması barədə ənbər qoxulu qələmlə yazılmış məktub apardı. [Həmçinin] qeysər məmləkətlərinin (Rum ölkəsi - Ş.F.) hökmranı Sultan Məhəmmədxan ibn Sultan Murada [da] məklub yazılıb baş verənlər haqda məlumat verildi. Bu faydalı səfər zamanı bütün İraqın rəiyyətinə və başqa kasıb əhalisinə şahanə iltifat edilərək, onlara yüz min İraq tüməni məbləğində bir sıra həmesale* güzəştləri edildi və təsdiqlədi.

[Məbləği azaldılan] vergilərdən biri çobanbəyi" vergisidir ki, qoyunların sayına görə yığılır. Bu vergidən iyirmi min İraq tüməni [pul] hər il ələ gətirilirdi. Xorasana hücümun başlanmasından bu günədək, Xorasan əhalisinin öz malları və canları bahasına müzəffər əskərlərə, xorasanlılara və hər təbəqədən olan mehmanlara etdikləri çoxlu köməyə görə əlahəzrət həmin xidmətlərin müqabilində qanun-qayda üzrə onlardan yığılan həmin vergini ləğv etmək qərarına gəldi və əmr etdi ki, bundan sonra heç kimdən bircə dinar belə çobanbəyi vergisi yığılmasın.

Ləğv olan ikinci vergi [növü] hakimlərin səlahiyyətində olan "beşdə bir dinar" ("dinari-pənc-dinar") vergisidir ki, onun yığılması zaman ötdükcə İraqda qanuna çevrilmişdi. "Dinari-pənc dinar" tiyuldara və daruğəyə çatası vergi kimi beş rəiyyətin birindən alınırdı. Bu vergi yığımı qədim qanunlar və cənnətməkan şahın dosturüləməlinə xilaf olduğundan aradan götürüldü. "Dinari-pənc dinar" vergisinin məbləği əlli-altmış min tüməndən artıq olurdu.

Başqa vergi növü isə İsgahan əhalisindən toplanan bir illik (yeksale) mal vergisi idi ki, onu da ərbablara və rəiyyətə bağışladılar. Həqiqətən də, o vergilərin ləğvi rəhmdillik (rafət) və rəiyyətpərlikdən irəli gələn böyük şəfəqqət və mərhəmətdir. Ümidvarıq ki, bu uca məqamlı, mübarək sifatlı, Allah dərgahının bəyəndiyi zat bütün bəlalardan uzaq olacaq və onun ədalət nurunun işığı daim aciz və kasıb bəndələrin başları üzərində parlayacaq, davamlı olacaqdır.

Səfər vaxtı baş vermiş başqa bir əhvalat isə Durmuş xan Şamlının nəvəsi Əliqulu xanın oğlu Vəlixan Mirzənin behişt ayinli məclis xidmətçisi olan Saleh adlı təbrizli bir gənc tərəfindən öldürülməsidir ki, o, öz yaxınları arasında bu dudmanın şərafətli şəxslərindən sayılırdı. Dövranın ağıllı adamlarından gizli deyildir ki, duz-çörəyin qədrini bilən hər təbəqə adamlarına vəlinemət [şah] tərəfindən göstərilən kömək və verilən nemətin səbəblərindən biri budur ki, gərək hər şəxs biri-digərinin xacədaşı (xacətaş) olan ağaları özlərinin fərzəndi, dostu və qardaşı bilsin, biri-digərinin namusunun qorunmasına çalışsın, əgər onların biri başqasına xəyanət gözüylə baxarsa, qeyrətli adamların məzhəbinə görə, cəzalanmalıdır. Adı çəkilən Vəlixan cəhalətinin, cavanlığının və şüursuzluğunun çoxluğu üzündən adı çəkilən Salehə bir-iki dəfə məhəbbət və xüsusi dilbirlik izhar etmişdi. Xorasana səfər vaxtı, Cacərm yaxınlığında bir gecə Vəlixan behişt ayinli məclisdən çölə çıxdıqda, Saleh onun arxasınca gedərək, özünün iti və qanlar tökən qılıncı ilə onu öldürdü və elə o saat da geri qayıdıb məsələni şaha ərz etdi. Onun bu hərəkəti qeyrət baxımından bəyəniləsi bir əməl olduğundan, şah tərəfindən bəyənildi. Vəlixanın cəsədi sübhədək elə həmin yerdə atılıb qaldı, çünki onun qardaş və mülazimlərinin [bu gecə vaxtı] onu dəfn etmək imkanı olmadı. Gündüz isə, mülazimlər dəfn izni aldılar, Vəlixanın qoşunu və ləşkəri isə onun kiçik qardaşı və həmdamadı (bacanağı - ?) olan Hüseynxan Mirzəyə verildi. Baş vermiş başqa hadisə isə budur: Bu ilin əvvələrində oxlu və yəqə türkman camaatı atasından sonra Astrabada hakim təyin edilmiş Əliyar xan Eymurun oğlu Məhəmmədyar xanla xilaf məqamına gəldilər, hiyləgərliklə ona yaxınlaşdılar, hələ iyirmi yaşına yetişməyən o cavanın ömür ağacını cavanlığının başlanğıcında iti qılıncla üzdülər. Onun kiçik qardaşı Qılıc bəy ali saraya pənah gətirib, şahla görüş şərəfinə yetişdi, şahanə iltifata layiq görüldü və Astrabad hakimliyi rütbəsi ilə sərbüləND oldu. Buna baxmayaraq, o,

orada öz hakimlik işinə əməlli-başlı başlaya bilmədi və vəzifəsində çox qalmadı. Çünki, Xocasan səfərindən qayıdan zəfər bayraqlı ordu Astrabadı nizamlamağa başladı, yuxarıda yazıldığı kimi, oxlu tayfası özünün savabsız əməllərinin cəzasına çatdı və Qılıc xan da ali əmrə görə öz ata-qardaşlarının xanəköç və adamlarını götürüb İraqa gəldi. Başqa eymur və salur ağsaqqalları, həmçinin "Kor Nəzər" ləqəbi ilə məşhur olan Sima Nəzər bəy və başqaları Astrabad hakimi Hüseyn xanın yanına getmək üçün öz xanəköçlərini qalaya gətirdilər.

Cah-cəlal ordusu Astrabadda olarkən Fərhad xanm qardaşı Zülfüqar xan sonsuz nəvazişə layiq görülərək, sabiqdə olduğu kimi, Azərbaycan hakimliyinə təyin edildi və oraya getməkdən ötrü rüxsət aldı.

İti yerişlə gəzən qələm söz yazmaqda elə lütfkarlıqla çalışdı ki, bu xoşbəxt fallı il hadisələrinin bəyan səhifəsini yazıb-doldurdu. Bizim hədsiz ricamız (recaye-vaseq) budur ki, dövr alimlərinin və bidar bəxtimizin köməyi ilə qələmimiz gələn il hadisələrini də yazmağa başlasın, həmin mərhələni də arzuya uyğun şəkildə keçib süstlük etməsin. Allahın köməyi ilə!

HİCRİ TARİXLƏ MİN SƏKKİZİNCİ (MİLADİ 1599/1600) İLƏ BƏRABƏR OLAN TÜRKİCƏ SƏADƏT FALLI QABAN İLİNİN, YƏNİ HÜMAYUN ZİLLƏLLAH ŞAH CÜLUSUNUN ON ÜÇÜNCÜ İLİNİN BAŞLANMASI

Yenə bu xoş novruz yetişdi gerçək,
Yaxşı başlayıbdır, yaxşı bitəcək.
"Dövrün hökmdarı xoş olsun" dedi,
Üstü gül-çiçəkli xalı bəzədi.
Baharda badənin təsirimi var,
Şadlıq bəxş eləyir hamıya bahar.[647]

[647] Beytlərin farscası:
Baz novruze- meymənətfərcam
Fərroxağaz gəşt-o xoşəncam.
Əz bəraye-neşate-xosrove-əhd
Çostəranid fərşe-zərrin məhd.
Gəşt feyze-bəhar çon dele-cam,
Xorrəmibəxş xatere-əyyam.

Bu mübarək fallı ilin aləmi işıqlandıran novruzu əzəmətli şəban ayının iyirmi üçünə, yekşənbə gününə düşdü, yəni şərqin xaqanı olan günəş şərəf xanəsində taxta çıxdı. Bütün cahanı qarətçi ləşkər kimi bürüdü, onun şadlığını artırdı, aləmi cənnət gülzarının qibtə etdiyi bir məkana döndərdi. Dünyanı tutan xosrov (Şah Abbas - Ş.F.) güllərinin ətrindən ənbər qoxusu verən Nəqşe-cahanın "Bağe-cahanara"sında ali bayram [keçirilməsi] barədə fərman verdi, uca saraydakı əmirlər, yaxınlar, bu güclü dövlətin başçıları, İsfahan camaatı və başqa təbəqədən olanlar həmin ürəkaçan bağda, bağm dəryaçəsi kənarında behiştə bənzər bir məclis bəzədilər, evlərin tağ və alaqapılarını (çəhartaq) qəribə ustalıqla bəzədilər, onların üzərində çıraqlar yandırdılar.

Beyt

Şamın çoxluğundan, çıraq nurundan
Fələyin ağuşu qızardı həman.
Elə işıqlandı su üstü, əllət
Günəş öz nurundan çəkdi xəcalət
Elə nurlandı ki, çayın aynası
Yanaşı dayandı atəş ilə su.[648]

Döyüşkən və məclislər bəzəyən şəhriyar, möhtəşəm ordunun bütün mülazimləri və ümumiyyətlə bütün əhali üçün üç gecə-gündüz işrət və şadimanlıq büsatı qurdu:

Bütün gecə badə götürdü ələ
Qənd tək şirin olan gözəllər ilə.
Həmin şadimanlıq məclisində şah
Dostlarla əyləşdi, qurdu dəstgah.[649]

---

[648] Beytlərin farscası:
Ze besyariye-şəm-o nure-çerağ
Dele-rövşənane-fələk bud dağ.
Ço əkse-çerağan nəmudi dər ab
Xəcel gəçti əz pərtovəş afitab.
Ze əkse-çerağan dor abe-rəvan
Nəmud atəş-o ab bahəm qeran.

[649] Beytlərin farscası:

Şah Abbasın Xorasan səmtinə yollanması:

Bayramı keçirdikdən sonra aləmi bəzəyən şahın fikri məmləkət işləri ilə məşğul olmağa yönəldi, səkkizinci həzrət imamın ziyarətindən ötrü bir daha pak rövzəyə getmək, Xorasan işlərini daha da möhkəmləndirmək, Mavərənnəhrin və Özbəklərin vəziyyətlərindən xəbərdar olmaqdan ötrü xeyrli səfərə çıxmağı buyurdu. Deyildiyi kimi, qədimdən bəri Nurməhəmməd xan əcdadının mülazimləri olan və xanın çörəyi ilə dolanan imansız özbəklər Abdulla xanın işğalı zamanı Nurməhəmməd xana vəfasız çıxıb Əbdülmömin xana birləşdilər və Nurməhəmmədi öz irsi mülkündən məhrum etdilər. Həmin vaxtlarda da şah iqbalının köməyi və padşah məiyyəti mülazimlərinin gücü ilə o, öz irsi məmləkətini tutdu, bir daha o təbəqəyə (özbəklərə - Ş.F.) etibar etmədi. Özbəklər Nurməhəmməd xanın hərəkətində qızılbaşlıq [əlaməti] müşahidə edərək, onunla nifaq məqamına gəldilər. Həqiqətən də, Nurməhəmməd xana kömək edən, onun işlərini tənzimləyən, xam taxta çıxaran hümayun nəvvab olmuşdu. Şah bu niyyətlə də yürüşə çıxmaq qərarına gəldi, məhsulların yetişdiyi bahar əyyamının sonunda yürüş cilovunu Xorasana tərəf çevirdi. O, müqəddəs orduda olan mülazimlərdən başqa məmləkətlərin sair əmir və əskərlərini səfərbər etmədi. Bu xeyrli səfərin əvvəlində [isə], Pirməhəmməd xan və Buxara əmirləri tərəfindən Nurməhəmməd xanın mülazimi ilə birlikdə ali saraya bir elçi gəldi və sədaqət üslubunda yazılmış məktub gətirdi.

Salam və dua rəsmindən sonra həmin məktubun qısa məzmunu belədir: "Mərhum padşah Canı bəy Sultanın nəbirələrindən, əmim Abdulla xanın və mənim nəslimdən olan izzətli fərzənd Məhəmməd İbrahim Bağdadda şahın mülazimləri tərəfindən tutulmuşdur. Bu yaxın vaxtlarda belə eşidildi ki, onunla, məsum əcdadlardan miras qalmış mürüvvətlə davranılmışdır və o şahın şəfəqqət nəzərinə yetişmişdir. Bu vilayət səltənəti irsən mənə çatdığından və [Məhəmməd İbrahim] mənim üçün də fərzənd məqamında olduğundan, əgər şəhriyarlıq inayəti onun geri

---

Həme şəb ba botane-mahsima
Ço şirin-o şəkkər hurane-ziba. Dər an eşrətsəraye-şadimani
Keşide badehaye-dustkani.

qayıtmasına rüxsət verərsə, bu [sizin tərəfinizdən] olduqca böyük mərhəmət və sədaqətin ifadəsi olar.

Amma, Buxara əmirləri mənə qarşı bir-birləri ilə birləşmişlər və əhd-peyman bağlamışlar, biz də məcburiyyət üzündən Pirməhəmməd xanın padşahlığı ilə razılaşmışıq. Baxmayaraq ki, o, səltənət dudmanından və ləyaqətli padşah irsindən olan bir dərvişdir, asudəlik (fərağət) və qənaət* küncündə əyləşərək bu məşğuliyyəti məmləkəti əldə saxlamaq işindən üstün tutmuşdur. Elə bu səbəbdən də mülk və dövlət işlərində zəiflik yaranmışdır, Baqi Sultan isə Səmərqənd vilayətini istila edərək, müxalifət nağarası çalmaqdadır və Bəlxdə başqa bir iş görmək niyyətindədir. Hal-hazırda Mavərənnəhr səltənəti və padşahlıq məqamı mənə qismət olmuşdursa da, irsilik və hüquq baxımından Məhəmməd İbrahim sultandan daha layiqli bir adam yoxdur. Xahişim budur ki, qoy o həzrət vasitəçi olub hümayun həzrət zilləllah şahdan onun bu diyara gəlməsi xahişini etsin. [Şah] belə edərsə, bu vilayət xalqının minnətdarlığına səbəb olar, bütün ömür boyu şah dərgahının adamlarına qarşı qardaşcasına və səmimiyyətlə hərəkət edər, bundan sonra özbəklərlə qızılbaşlar birlik və dostluq münasibətində olarlar".

Elə ki, Məhəmməd İbrahim Sultanı Bağdaddan şahın yanına gətirdilər, şah belə fikirləşdi: Əgər o, Mavərinnəhr səltənətində taxta əyləşərsə bu iş məqbul olar. [Şah] belə qərara gəldi ki, müqəddəs Məşhəddən əzəmətli əmirlərin birini Məhəmməd İbrahim Sultana həmrah edərək Mərvə-Nurməhəmməd xanın yanına göndərsinlər, əgər Buxara əmirləri öz sözlərinə sadiqdirlərsə onu qarşılamaq üçün Mərvə və Çəharcuya gəlsinlər, Nurməhəmməd xan onlardan vəd alıb nifaq [qorxusundan] xatircəm olsun.

Amma, zəfər ayəli ordu Semnana çatdıqda, Nurməhəmməd xanın yanından adamlar gəlib Mavərənnəhr barədə belə ərz etdilər: "Pirməhəmməd xanla Baqi Sultan arasında müharibə olmuş və xan sultanın əli ilə qətlə yetirilmişdir. Əmirlərin əksəriyyəti də öldürülmüşdür. Pirməhəmməd xan dövlətinin təsisçisi və oradakı işlərin tənzimləyicisi olan Xudaynəzər bəy döyüşdən qurtulub Mərvə gəlmişdir. Baqi Sultan isə Buxara şəhərini tutmuş, özbəklər də istər-istəməz ona tabe olmuşlar. Bütün Mavərənnəhr məmləkəti hazırda onun zəbti altındadır.

Əlahəzrət bu xəbəri eşitdikdən sonra belə qərara gəldi ki, qoy Nurməhəmməd xan Xudarnəzər bəyi cahanpənah dərgaha

göndərsin, özbəklərin düşdükləri vəziyyət onun dilindən eşidilsin və tam məlumat əldə olunsun, Məhəmməd İbrahim Sultan xüsusunda isə zamanın məsləhətinə görə müvafiq iş icra olunsun.

İndi isə, sözün rabitəsi qırılmasın deyə, Mavərənnəhrdə baş verən bəzi hadisələr və Baqi Sultanın səltənət taxtına neçə əyləşməsi barədə yazmaq yaxşı olar.

MAVƏRƏNNƏHRDƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ, BAQİ SULTAN ƏHVALATININ BƏYANI, ONUN DÖVLƏT VƏ KAMRANLIQ BAYRAĞININ UCALMASI

Sözlər yazan qələm yuxarıda yazmışdı: Əbdülmömin xanın qətlindən sonra Buxaranın əmirləri və özbək əyanları Abdulla xanın qohumlarından və Canı bəy dudumanının sultanzadələrindən olan Pirməhəmməd xanı padşah etdilər. Əbdülmömin xanın qətli xəbəri Türküstan ölkəsinə yayıldıqda Təvəkkül xan Qəzaq Mavərənnəhri sağ-salamat vücud sahibi olan bir padşahdan xali görərək, Türküstan qəbilələrindən və səhraneşin özbəklərdən ibarat saysız-hesabsız ləşkərlə o məmləkəti fəth etmək əzmi ilə həmin səmtə yürüş etdi. O vilayətin əksər camaatı özlərində belə əzəmətli bir ləşkərlə qarşılaşmaq və müqavimət göstərmək qüvvəti görməyib, istər-istəməz tabe oldular. Təvəkkül xan Türküstan və Mavərənnəhr vilayətinin Sima Əxsikəs, Əndican, Daşkənd, Səmərqənd [adlı yerlərindən] Miyankala qədərki yerlərini zəbt edib, qardaşı Eyşəm Sultanı iyirmi min döyüşçü ilə Səmərqənddə saxladı, özü yetmiş-həştad min adamla Buxaranı tutmağa yollandı. O vaxt Buxarada on-on beş min nəfərdən başqa adam yox idi. Pirməhəmməd xan və Buxara əmirləri şəhərdən çıxıb döyüş səfl bəzəməyi məsləhət görmədilər, şəhərin bürc və barılarını möhkəmləndirdilər, o ağır qoşunun hücumunu dəf etmək niyyətinə düşdülər. Təvəkkül xan o böyük şəhəri mühasirəyə aldı. Ləşkərlər bir-birlərindən ayrılaraq şəhərin hər tərəfinə səpələndilər. Buxara mübarizləri hər gün bir darvazadan çıxıb hərb atəsini alovlandırırdılar. Onlar bir dəstə müxalifin ömür xırmanını iti qılınc şöləsi ilə yandırdılar.

Hərb alovu tərəflər arasında on bir gün şölələndi. On ikinci gün Buxara əskərləri, igidlik sahibləri və bahadırlar birlikdə şəhərdən çıxdılar və günəşin doğuşundan qurub etməsinədək hər iki dəstə arasında böyük hərb oldu. O gün buxaralılar qalib, qəzaq

ləşkəri isə məğlub oldu. Təvəkkül xan dayandığı yerdən qalxdı və əzilmiş halda öz ordusuna tərəf getdi, əskərlərinin əksəri pərakəndə olub fərara tərəf üz tutdu. Gecə düşəndə Buxara camaatı zəfərlə geri dönüb şəhərə qayıtdı, şadmanlıq nağaraları çalınmağa başladı. Qorxuya düşmüş Təvəkkül xan orada dayana bilməyərək, orduda məşəllər yandırdı, gecənin zülmətində Səmərqəndə qayıtdı. Onlar Səmərqəndə çatıb vəziyyətdən və xanın geri qayıtmağından Eyşəm Sultanı agah etdilər.

Bu məsələdən əzilən Eyşəm Sultan qardaşının yanına bir adam yollayıb ona bu sözləri çatdırdı: "Sənə ar olsun ki, yanında olan saysız-hesabsız ali bir ləşkərlə Buxaranın sayca çox az olan dəstəsinə məğlub oldun və geriyə qaçdın. Əgər sən belə məğlubiyyətlə Səmərqəndə gəlsən, mümkündür ki, səmərqəndlilər müxalifət qapılarını açıb müvafiqət qapılarını üzümüzə bağlayalar. Dövlətin məsləhəti belədir ki, qoy xan geri dönsün, mən də öz ali ordumla gedib ona qoşulum".

Təvəkkül xan qardaşının məsləhətinə əməl edərək geri qayıtdı, Eyşəm Sultan da gəlib ona qoşuldu və onlar ikinci dəfə cəngə amadə oldular.

Təvəkkül xanın fərar etməsindən sonra Pirməhəmməd xan və təbəələri onu təqib edib, tutduğu mahalları geri almaq məqsədi ilə Buxaradan çıxdılar, Mavərənnəhrin hər tərəfindən gəlib onlara çoxlu adam qoşuldu, biganə ləşkəri dəf etmək niyyətinə düşdülər. Onlar Miyankalın Uzunsaqqal adlı yerində müxaliflərə çatdılar və aralarında hərb atəşi alovlandı. Bu vaxt, Pole-Salar döyüşündə müzəffər qızılbaş ləşkərindən zərbə görən və fərar edən Dinməhəmməd xanın qardaşı Baqi Sultan Pirməhəmməd xanın yanına gəldi. Onun bu gəlişinin şərhi belədir: Qardaşı Dinməhəmməd xan az miqdar əskərlə cəng meydanından çıxıb Əndxoda çatdıqdan sonra Gorgi keçidindən keçərək Buxaraya gəldi. O zaman, Pirməhəmməd xan Buxaradan çıxıb Təvəkkül xanın təqibinə getdiyi üçün, Buxara əhalisi onun icazəsi olmadan Baqi Sultanın şəhərə daxil olmasına yol vermədi. [Buna görə də] Baqi Sultan Xacə Bəhaəddin məzarından keçib Pirməhəmməd xanın ordusuna tərəf getdi, Uzunsaqqalda onun ordusuna birləşdi və əmirlərin vasitəsilə xanla görüşmək şərəfinə yetişdi, çingiziyyə qanun-qaydasına görə ona kurneş* etdi.

Pirməhəmməd xan əmirləri Baqi Sultanın gəlişini qənimət bilərək, bu gəlişi şad əlamət (estebşar) kimi başa düşdülər, xanın

qədəmini alqışladılar, onun da müxaliflərə qarşı hərbə getməyinə tərəfdar oldular. Beləliklə, Baqi Sultan, Təvəkkülün adamlarıyla bir neçə hərbə başlayıb, əksər savaşlarda qələbə çaldı. [Vaxti ilə] Abdulla xanın mötəbər əmirlərindən və Əbdülmömin xanın qətlində şərik olan Əbdülvase bəy bu sülaləyə qarşı çıxaraq Təvəkkül xanın yanına getmiş və xanı Mavərənnəhri tutmağa rəğbətləndirmişdi. O, Baqi Sultanın əliylə qətlə yetirildi. Bu iki dəstə arasında başlayan hərb atəşindən iki aya qədər vaxt keçdi. Pirməhəmməd xanın tərəfdarlığı ilə Baqi Sultandan igidlik və səmimiyyət zahir oldu. Nəhayət Təvəkkül xan müharibədən bezərək, bir gün Pirməhəmməd xanın ləşkərinə güclü bir gecə basqını (şəbxun) etdi, bu tərəfdən də Pirməhəmməd xanın adamları maneçilik qalxanını üzlərinə tutub, özlərinin igidlik qollarını Təvəkkül xana qarşı uzatdılar, aralarında güclü bir hərb oldu. Həmin şəbxunda Pirməhəmməd xanm qohumu Seyid Məhəmməd Sultanın və Məhəmməd Baqi Atalıq Divanbəyinin Təvəkkül xanın döyüşçüləri tərəfindən öldürülmələrinə baxmayaraq, elə Təvəkkülün özü də yaralandı və heç bir iş görə bilmədi, qayıdış cilovunu tutub Daşkəndə getdi, elə orada da xəstələndi, bəqa aləminə yollandı.

Baqi Sultanın ona etdiyi yaxşılıqlara görə Pirməhəmməd xan xeyirxah adamların məsləhətiylə Səmərqənd vilayətinin ixtiyar ipini Baqi Sultanın iqtidar qəbzəsinə tapşırdı, onu o tərəfə rəvan etdi, özü isə Buxaraya qayıtdı. Baqi Sultan kamyab və kamranlıqla Səmərqəndə çatdıqda, biganə döyüşçülərin hökmranlığından (təsəllot) təngə gəlmiş səmərqəndlilər xanın qədəmini qənimət bilərək, öz hallarının mühafizəsi və mallarının qorunmasından ötrü şövqlə onun görüşünə tələsdilər, hakimiyyətinə tərəfdar oldular. Nəqsbəndiyyə şeyxlərinin düzgün məsləhəti (estesvab) ilə Baqi xan və Daşkənddə olan qəzaq tayfasının valisi arasında bir sülh sazişi (solhgune) imzalandı və şərtləşdilər ki, Səmərqənd ləşkəri Daşkəndə hücüm (motəərrez) etməyəcəkdir.

Xülasə, Baqi Sultan tam iqtidarla Səmərqənd vilayəti hakimliyi taxtına əyləşdi, sikkə və xütbə isə Pirməhəmməd xanın adı ilə bəzəndi və o, məmləkətin hər tərəfini zəbt etdi. Baqi Sultan həmin il öz itaət və bağlılığını izhar etsə də, get-gedə qürur badəsindən sərməst oldu, bədməstliyə başladı. O, özünü səltənət və hökümranlıq işində Pirməhəmməd xandan daha layiqli sanır, Səmərqənd kimi bir məmləkəti heç bir maneçilik və savaş olmadan idarə edir, o vilayət meydanında başqa kimsəni görmürdü. [Buna

görə də] onun başına səltənət və padşahlıq havası doldu, beyninə isə qürur buxarı yol tapdı. Baqi xan öz səxavət (bəzl) və əta əlini açaraq, vilayətin məhsulunu ənam kimi avara adamlara və əskərlərə paylayırdı, elə bunun üçün də özbək tayfalarının böyük bir hissəsi onun başına toplaşdı və çoxlu adamı oldu. Baqi Sultanın əmiləri Rəhmanqulu Sultan və Abbas Sultan, qardaşı Tursun Məhəmməd Sultan, həmçinin başqa qohum-qardaşı və əyan-əşrafı Səmərqəndə gəlib ayaqlarını ona itaət dairəsinə qoydular. Gün-gündən onun dövlət bayrağı ucalmaqdaydı. "Xan" ləqəbi ilə ləqəbləndirilən Baqi Sultanın adamlarından məmləkətin hər yerinə əliuzunluq vaqe olmaqda idi.

Pirməhəmməd xanın əmir və dövlət başçıları xanı iki-üç dəfə Baqi xana üz verməkdə və mülayimlikdə taxsırlandırmışdılarsa da, bunun heç bir təsiri olmadı. Nəhayət, xan Baqini cəzalandırmaq məqamına gələrək, böyük bir ləşkər topladı və Səmərqəndə getmək niyyətinə düşdü. Bundan sonra Baqi xan adlandırılacaq Baqi Sultan məsələdən xəbərdar olub, məsləhəti onunla tovəzökarlıq (frutəni) və mülayimliklə davranmaqda gördü, dili yağlı adamlar yollayıb üzrxahlıq etdi. Bu vaxtadək sikkəni öz adına vurmadığını özünün xana itaət və bağlılığına dəlil kimi göstərdi və söylədi ki, bundan sonra ayağını ədəb ətəyinə büküb, ona verilmiş Səmərqənd vilayəti ilə kifayətlənəcəkdir. Buxara əmirləri də sülh olmasını istədilər və onların arasında barışıq yarandı. Cəng şöləsi bir neçə günlüyə yatsa da, amma Baqi xanın hərəkətlərində müxalifət əlaməti görünməkdəydi. O, özbək əyanlarına məxfi hökm və məktublar yollayıb, onları özünə tabe olmağa səsləyirdi. Pirməhəmməd xan dövlətinin ağıllı adamlarına məlum oldu ki, Baqi xan heç vəchlə başını itaət doğanağına (çənbər) salmayacaqdır. Səltənət və padşahlıq xəyalı beynində möhkəm yerləşdiyi üçün, Səmərqənd məhsullarından ülufə və başqa rüsumları (mərsumat) az yığırdı. Baqi xan bu dəfə ürəyindəki fikri gizlətməyərək, müxalifətə başladı, Miyankal vilayətini tutmağdan ötrü ağır ləşkələ Səmərqənddən çıxdı. O, əvvəlcə Miyankalın Dəbus qalasını mühasirəyə aldı. Miyankalın hakimi Şahkuçek Durmən "Qəleye-kohne"dən (Köhnə qaladan - Ş.F.) çıxaraq Baqi xanın yanına getdi, ona tabe oldu. Buna görə də, xan Dəbus qalasına əlini uzadıb oranı fəth etdi. Həmin qalada olan Pirməhəmməd xanın qohumu Məhəmməd Şərəf Sultanı qətlə yetirib fəth və iqtidar bayrağını qaldırdı və məmləkət ətrafındakı yerlərdən tutmağı bacardığı hər yeri zəbt etdi.

Bu vəhşətli xəbərləri Buxarada eşidən Pirməhəmməd xan tərəfdarları narahat olub öz əskər və təbəələrini toplayaraq xanı cəzalandırmaq fikrinə düşdülər, Bəlxə-Əbdüləmin xanın və oranın əmirlərinin yanına adam yollayıb, onları Baqi xanın hücumundan xəbərdar edərək, kömək istədilər. Bəlxin atalıqları və ağsaqqalları Baqi xanın işğal və iqtidarı nəticəsində öz dövlətlərinin əldən gedəcəyini bildiklərindən və əvvəllər onun padşahlığından agah olduqlarından, [bir-birləri ilə] məsləhət və kənqaş etdikdən sonra Pirməhəmməd xana kömək etmək qərarına gəldilər, o vilayətin ali dərəcəli seyidlərindən olan Şah Xacə Nəqibin sərkərdəliyi və başqa etibarlı sərdarların köməyi ilə on min nəfərə yaxın süvari və piyada topladılar və onları [irəliyə] rəvan etdilər. Pirməhəmməd xan, sayları qırx min, bəlkə də, ondan da çox əskər topladıqdan sonra tam hamiliklə (eztezhar) Səmərqənd üzərinə ləşkər çəkdi. O, həmin şəhərə yaxınlaşan vaxt Baqi xan yenə əvvəlki kimi üzrxahlıq və alçaqlıq məqamına gəldi, hiyləgərlik və yaltaqlıqla bu hadisənin qarşısını almaq istədisə də, faydası olmadı. Pirməhəmməd xan və dövlət başçıları Baqi xanın öz sözü üstündə durmadığını bildiklərindən, onun əhd və şərtinə etibar etmədilər və xanı cəzalandırmaq fikrindən daşınmadılar. Sülhün baş tutmamasından məyus olan Baqi xan özündə səhra cəngi* etməkdən ötrü qüvvət və qüdrət görmədi, çarəsiz qalaraq qaladarlıq etmək, bürc və barıları möhkəmləndirmək üçün hərb ləvazimatı hazırlamağa başladı. Bəlx və Buxara əskərləri Səmərqəndin ətrafına gəlib çatdılar, qalanın hər tərəfini mühasirəyə aldılar və hərb hazırlığı gördülər. Bəlx əskərləri Pirməhəmməd xana kömək etməkdən ötrü gəldiklərinə baxmayaraq, amma onların əmirləri Buxara əmirlərindən qorxduqlarından, ləşkərə qoşulmadılar, əlahiddə bir yerdə toplaşdılar. Səmərqənd camaatı darvazadan çıxaraq, arxalarını qalaya çevirib hərb alətlərinə əl atdı və o gün tərəflər arasında böyük döyüşlər baş verdi. Ertəsi gün Baqi xan böyük bir qoşun dəstəsini "Dərbe-Boxara" ("Buxara qapısı" - Ş.F.) adlanan darvazadan çölə göndərdi və onlar Bəlx ləşkərinin müqabilində döyüş səfi bəzədilər, cəsurluqla savaşdılar. Pirməhəmməd xan da öz ordu səfini döyüşə hazırladı və onun əskərləri səmərqəndliləri dəf etməkdən ötrü Buxara darvazası tərəfinə getdilər. O gün, Abdulla xanın böyük mirlərindən olan Dostum Ərğun haramnəməklik edərək Pirməhəmməd xandan üz döndərdi, Baqi xana birləşdi, belə hərəkəti ilə Baqi xanın qüvvəsini artırdı və onun adamları hərbdə öz səbat ayaqlarını möhkəm ataraq

qələbə əldə etdilər, igidlik və mərdanəlik göstərdilər. Buxara və bütün Bəlx ləşkəri biri-digərinin köməyinə bel bağlayıb savaşmağa başladı. Get-gedə o ləşkər əskərlərinin əksəriyyəti düşmənləri qırmaqdan ötrü Pirməhəmməd xanın qol cinahından döyüşə qoşuldu, ehtiyatkarlıqdan qafil oldular.

Bu əsnada Baqi xan yanındakı bütün əskərlərlə birlikdə əmisi Rəhmanqulu Sultanı çərxçi təyin etdi, özü isə bir qolda min, ikinci qolda isə beş yüz nəfər fədaisi olan döyüşçülərlə şimal darvazasından çıxaraq gözqamaşdıran (lame) işiq kimi Pirməhəmməd xanın qoluna tərəf yollandı. Dostum Ərğunun fərar etməsindən sonra Pirməhəmməd xanın ləşkərinə bərk qorxu üz vermişdi. Rəhmanqulu Sultanın etdiyi ilk həmlə nəticəsində qol ləşkəri bir-birinə dəydi, müdafiə fürsəti tapmadı, məğlub olub dağılışdı. [Bu vaxt], Pirməhəmməd xanın döyüşçüsü olan məchul bir adam gələrək, xanı tanımadan bərk yaraladı, tanıdıqdan sonra onu Baqi xanın yanına apardı və elə həmin ləhzə də xan qətl olundu. Pirməhəmməd xanın öldürülməsi və qol döyüşçülərinin fərar etmələri xəbəri döyüş meydanına çatdıqda bütün döyüşçülər pərt olaraq, yanlarında olan mal və başqa şeylərdən əl çəkib məğlubiyyət yoluna üz tutdular.

Bəlx camaatı Buxara ləşkərindən ayrıldı, onlara bir o qədər də xəsarət dəymədi, meydandan çıxıb Qərşiyə gəldilər, Pirməhəmməd xanın azyaşlı oğlu olan və Qərşidə yaşayan Məhəmməd Səlim Sultanı özləri ilə götürüb Bəlxə gətirdilər. Baqi xan isə zəfər və qalibiyyətlə ağır qoşunla yubanmadan Buxaraya tərəf üz tutdu. Meydandan qaçmaqla canlarını qurtaran bəzi Buxara əmirləri, xüsusən o tayfanın mötəbər adamlarından olan Xudaynəzər bəy Buxaraya gəlib çatdı. Onların padşahları olmadığından və qaladarlıq etməkdə özlərində qüvvə görmədiklərindən, elə həmin gecə özləri ilə heç nə götürmədən şəhərdən çıxdılar. Xudaynəzər bəy Çəharcu keçidindən keçərək Mərvə - Nurməhəmməd xanın yanına gəldi. Baqi xan isə üçüncü gün Buxara darüssəltənəsinə gəlib çatdı, şəhərin əyan-əşrafı onun istiqbalına tələsib kurneş və təbrik rəsminə əməl etdilər. Xanın özü isə əzəmət və kamranlıqla Buxara şəhərinə qədəm basaraq, Abdulla xanın cahangirlik taxtında cülus etdi, özbək tayfaları ayaqlarını onun tabeçilik dairəsinə atdılar. Baqi xan Pirməhəmməd xanın ələ keçən və özünə xilaf olan adamlarının hamısını, o cümlədən Kukəltaşı və qardaşını, Çöhrə ağası olan Dustu və başqalarını qətlə yetirsə də, başqa adamlarla barışıq yolu

ilə davrandı, onları incitmədi, xütbə və sikkə onun adı və ləqəbiylə bəzəndi.

Daşkənd, Türküstan, Bəlx, Həsare - Şadiman, Bədəxşan və başqa ətraf yerlərin sultanları elçilər göndərib, onu təbrik etdilər, şəninə mübarikbad dedilər, Baqi xanın iqtidar və cahangirliyi xəbəri ətrafa yayıldı.

Baqi xan, həqiqətən də, igid və mərdanə bir cavan idi. Səltənət və padşahlıq işlərində əzmkar və bacarıqlıydı. Öz bəxtinin köməyi, hüsni-tədbiri və igidliyi sayəsində nökərlik və pənahsızlıq (yekəsəvari) dərəcəsindən uca səltənət və hökmranlıq mərtəbəsinədək yüksəldi. Nəticədə, Bəlx, Bədəxşan və Həsarı da tutaraq, öz dövlət bayraqlarını cövza bürcünədək qaldırdı, onun parlaq iqbal günəşi şüalanmağa başladı və məmləkətlərin hər yerini işıqlandırdı. Belə ki, onun şüaları barədə [bizim] yeniliklərdən bəhs edən və söz yazmaq məclisini şam kimi işıqlandıran aydın dilli qələmimiz qələcək hadisələrin bütün mütaliəçilərinə məlumat verəcəkdir.

HÜMAYUN MƏİYYƏTİN MÜQƏDDƏS MƏŞHƏDƏ TƏRƏF GEDİŞİ VƏ O VAXTLARDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Səadət silkinə (selk) mənsub qələm (kelk) belə yazmışdı: Xorasan səfəri zamanı, yuxarıda yazıldığı kimi, Mavərənnəhr [hadisələri] və Baqi xan əhvalatı Semnan məmləkətinə (xotte) gəlib çatdı. Buna görə də Məhəmməd İbrahim Sultanın [Mavərənnəhrə] göndərilməsi yubandı. [Əlahəzrət] oradan çıxaraq Kalpuş yoluyla müqəddəs Məşhədə rəvan oldu. Kalpuşa tabe olan Xəbas adlı yerin bir dərəsi cah-cəlal çadırları ilə dolduğu zaman şahın səhhəti (məzac-o hac) mötədillik yolundan döndü və humayun zata qızdırma üz verdi. Xəstəlik [müddəti] uzandı və şah bir ayadək yatası oldu. Məsiha* nəfəsli təbiblər (ətobbaye - Məsihadəm) müalicəyə başladılar, onu sağaltmaq üçün çox səylər etdilər, ordunun yaxşı-yaman (vəzi və şərif) bütün adamları kasıblara nəzir və sədəqələr payladılar. Adamların hər biri xoşladığı hər nəyi varsa onu hümayun şahdan ötrü təsəddiq edirdi. Nəhayət İlahinin lütfü

adamların halına yandı, Quranın kəraməti ilə şəfa nazil oldu[650] Allahın şəfaxanəsindən tez vaxtda kəramətli şəfa yetişdi, şah sağalmağa başladı. Dövran (zəmane) şadimanlıq bayrağını qaldırdı, adamların üzünə şadlıq qapılan açıldı. [Əlahəzrət] zəiflik əyyamını (nəqahət) orada keçirdi və tamamələ sağaldıqdan sonra oradan çıxaraq Şəqan və Curbod (?) yoluyla Əsfərayinə təşrif apardı, orada uyurmi gün qaldı, təbiblərin məsləhəti ilə imalə (tənqiye) olundu.

Şahın xəstəliyi günlərində baş verən hadisələrdən biri Xudaynəzər bəyin gəlişidir. O, Mərvdən ali ordunun dayandığı Xəbasa gəlib çatdı, amma müqəddəs zatın xəstələnməsi səbəbindən bir neçə gün onun səcdəsinə yetişməklə şərəflənə bilmədi. Şahın mübarək məzacının səhhət tapmasından sonra onunla görüş səadətinə yetişərək, qələmin yuxarıda yazdığı kimi, Mavərənnəhrdəki vəziyyəti ərz etdi.

Əlahəzrət Bəlxdə baş vermiş hadisələri ondan öyrəndi, Xudaynəzər bəyin və özbəklərin söylədiklərindən məlum oldu ki, İbadulla Sultanın oğlu kimi qələmə verilən Əbdüləmin xan İbadullanın zövcəsinin səyi ilə Bəlx səltənətinə yetişmişdi. Həmin əzəmətli qadının əlində oyuncağa çevirdiyi Əbdüləmin xan Bəlxdə iqtidar bayrağı qaldırdıqdan sonra özbəklər arasında belə söz-söhbət yarandı: O qadın məcburən bu hekayəti özündən uydurmuşdur. Hər əşyanın həqiqət güzgüsü və dünyanı göstərən ayna olan aləmi bəzəyən hümayun şah belə fikirləşdi: "Bəlx özbəkləri Əbdüləmin xan haqqında deyilən sözlərə şübhə edirlər. Belə olan halda o mülkün (Bəlxin - Ş.F.) həqiqi mələkəsi İbadulla Sultanın zövcəsidir. Onun qardaşı oğlu olan İbrahim Sultanı biz əgər Bəlxə göndərsək, çətin ki, hamı ona meyl edə bilsin. Bir halda ki, onun işləri Bəlxdə öz qaydasına düşmüşdür, gərək biz var qüvvəmizlə Mavərənnəhrin fəth olunmasına çalışaq və mətləb yerinə yetmiş olsun. Yox, əgər həmin qadın öz qardaşı oğlunun tərəfini tutub, Əbdüləmin xanın dövlət qəsrinə xələl gəlməsini istəmirsə, mümkündür ki, onunla ittifaqa girib Mavərənnəhrə ləşkər çəkək və irsi məmləkəti biganələrin zəbtindən qurtaraq".

Xudaynəzər bəy bu gəzəl fikri bəyəndi. Yaxşı təsadüflərdəndir ki, bu hadisənin baş verdiyi vaxt Bəlxdən xilafət aşıyanlı saraya (Şah Abbas sarayına - Ş.F.) həmin əzəmətli qadın və

[650] İfadənin ərəbcə: Və tənzilu min-əl-qurani mə huva şəfaun və rahmətun li-l-aləmiə".

Bəlx əmir və ağsaqqalları tərəfində elçilər gələrək məktublar gətirdilər. Belə məlum oldu ki, Mavərənnəhrin Baqi xan tərəfindən istila olunduğu bu zamanda onlar öz qorxularından cahanpənah şah dərgahına yaxınlıq arzusunda olub, Məhəmməd İbrahim Sultanın gəlişini xahiş edirlər. Bunu bilən şahın aydın beyninə onların iddiaları yol tapdı və o, Məhəmməd İbrahim Sultanı "fərzənd" adlandıraraq uca "xan" ləqəbi verməklə onu izzətləndirdi və Xudaynəzər bəyin ixtiyarına tapşırdı, bəyi xanın atalığı və divanbəyisi etdi, onun Bəlxə göndərilməsinə qərar verdi, Əbdüləmin xana nəvazişlə dolu (otufətamiz) məktub yazaraq, zamanın tələbinə görə, onun da tərəfini tutub "fərzənd" adlandırdı. Şahın yazdığı inayətnamənin məzmunu belədir: Mavərənnəhr məmləkəti mərhum padşah Canı bəy xan övladının qədimdən bəri irsi yurdu və məskənidir. Hazırda onun adlı-sanlı övladından uca nejadlı Məhəmməd İbrahim [sağ] qalmışdır, və o, bizim hər ikimiz üçün izzətli fərzənd kimidir. Bizim qüdsnişan xanədanımız vəlayət və kəramət dudmanından olduğu üçün Məhəmməd İbrahim xan Allahın təqdirinə görə bu dudmana gəlmişdir. O uca nejadlı [Əbdüləmin xan] da biz hümayun nəvvaba (Şah Abbasa - Ş.F.) qarşı sədaqət və dostluq məqamındadır və bu dudmanla birlikdədir. Elə biz də yaxşılıqdan ötrü sabiq kobudluğu öz yaddaş aynamızdan silib, onlann ailəsinin (Canı bəy xan ailəsinin - Ş.F.) ehya olunması ilə məşğuluq, sizə imdad və həmrahlıq etməkdə mümkün qədər (həsəbül-məqdur) diqqət yetirib, yaxamızı bu məsələdən kənara çəkməyəcəyik. Bizim yaxşılıq etməkdən başqa mətləbimiz yoxdur. Qeyrət və mərdanəlik bunu tələb edir ki, bir-birimizlə qardaşlıq ittifaqına girərək, irsi mülkü geri qaytarmağa çalışaq, məmləkəti tutan biganələrin saxtakarlıq əllərini ata-babaların yurd və məskənlərindən uzaqlaşdıraq.

[Həmçinin] Bəlxin əmirlərinə və mötəbər adamlarına da ehkam və fərmanlar sadir edildi [və belə yazıldı:]: "O silsilənin bir neçə illik duz-çörəyini unutmayıb, o vəlinemətzadələrin yolunda canınızdan keçin, biganələrə ixtiyar verməyin ki, yenidən bivəfalıq etsinlər və yedikləri duz-çörəyi unutsunlar".

Məhəmməd İbrahim xan bütün Mavərənnəhr və Türküstanın öz adına yazılması barədə şahdan hümayun nişan (məktub, hökm - Ş.F.) xahiş etdi və onun xahişi qəbul olundu. Bu sətirlərin müəllifi (İsgəndər bəy Münşi - Ş.F.) ali əmrə əməl edib, münasib bir dibaçə (giriş - Ş.F.) sözü ilə hümayun nişanı yazdı, onu

mehrli bir möhürlə bəzədi və Məhəmməd İbrahim xana təhvil verdi. Xan Əsfərayində [şahdan] rüxsət aldı, müqəddəs Məşhəd hakimi Budaq xan öz qoşun və ləşkəri ilə ona yoldaş kimi yola salındı. Lakin onların gedişindən sonra asimani bir nida şaha xatırlatdı ki, əgər Bəlx əhalisindən soruşub (estemzac) onun barəsində fikirlərini mükəmməl şəkildə öyrənə bilsələr və təkrar sorğu-sual və gediş-gəliş nəticəsində dəqiq (kəmahi) məlumat əldə olunsa, özbəklərin fitnəsindən xatircəm olmaq olar. Belə bir halda, fəqət cah-cəlal ordusu Bəlxə yaxın olan (əqrəb) Herat darüssəltənəsinə gəlib orada dayandıqda onu (Məhəmməd İbrahim xanı - Ş.F) göndərsək daha yaxşı olar.

Ehtiyatkarlıq etmək bunu tələb etdiyinə görə də bu bəyənilən rəyə əməl olundu və xanı müqəddəs Məşhəddə saxladılar. [Sonra] söhbət yasovulu Ruhulla bəy Zülqədərə məktub və lazimi hökmlər verib, Bəlx elçiləri ilə birlikdə o tərəfə yollandılar. [Şah isə] Əsfərayindən müqəddəs Məşhədə doğru yolu düşdü, həzrət imaməl-cenn və-n-nasin nurlu məqbərəsini təvaf etmək şərəfi ilə şərəfləndi. O, qışı həmin mübarək büqədə dua və ziyarətlə başa vurdu, həmin müqəddəs rövzədə fəqət müqəddəs hümayun zata mənsub olan xadimbaşıgəri xidmətləri ilə məşğul olmaqda ikən, baharın ənbər qoxulu nəsimi əsməyə başladı, təbiəti ətirləndirdi.

[HİCRİ TARİXLƏ] MÜBARƏK MİN DOQQUZUNCU İLƏ (MİLADİ 1600/01) BƏRABƏR SİÇAN İLİNİN, YƏNİ HÜMAYUN ŞAHIN SƏADƏTİLİ CÜLUSUNUN ON DÖRDÜNCÜ İLİNİN BAŞLANMASI

Səadət amallı bu ilin aləmi bəzəyən novruzu mübarək ramazan ayının beşinə (10 mart), çəharşənbə gününə düşdü, yəni insanlara işıq bəxş edən səyyarələr sultanı (yəni günəş - Ş.F.) iqballı əzəmətlə şəfəq taxtına çıxıb öz yüksək bayrağını qaldırdı, ordibehişt [ayının] nəsimi bahar güllərinin qoxusundan ətirlənməyə başladı, təbiəti rayihələndirdi, ürəkaçan baharın gülləri gözəllik bülbülləri (hezaran) ilə qış yatağından (hecle) özlərini göstərərək, insanların şadlığını artırdı, [soyuğun] qarətgər ləşkərinin gəlişi ilə torpağın gizli ağuşuna (nihanxane) girib, ayaglarını təvazökarlıq (xəmul) ətəyinə yığan güllərin (rəyahın)şux gözləri cilvəgərliyə və şuxluq etməyə (şuxi) başladı:

Beytlər

Gün ayinli novruz gəldi yenə də,
Bənzətdi qoynunu yerin cənnətə.
Bahar nəsimləri ətirli oldu,
Cahanın hər yanı sevinclə doldu.
Bahar bir tərəfdən, gün başqa yandan,
Hər biri bədənə vermədədir can.
Bahardan elə bir lütf yüksəlir
Ki ondan zövq ətri, yar ətiri gəlir[651]

Əlahəzrət müqəddəs Məşhəddə dövlət kamina çatdı və şadimanlıq bayrağı ucaltdı, behiştnişan şəhərin meydanında çovkan və qəbəq (qəbəqəndazi) oyunları onun nurlu eyş-işrətini artırmaqdaydı. Novruz günlərinin sevinc və nişatından sonra o, yürüş cilovunu Herat darüssəltnəsinə tərəf döndərdi, zəfər və iqballa həmin cənnətmisal yerə gəlib çatdı, "Baqe-şəhr"də dayandı. Hüseynxan Şamlı əhali və əyanlarla onu qarşılayaraq, ləyaqətli xidmətlər göstərdi. [Şah] Xarəzm valisi Hacı Məhəmməd xana və Şahican Mərvinin valisi Nurməhəmməd xana Mavərənnəhr məsələləri xüsusunda məsləhətləşməkdən və qərar çıxartmaqdan ötrü məktub yazaraq, onları yanına dəvət etdi və məktubları şah ordusunun mülazimləri apardılar. Hacı Məhəmməd xan fərmana əməl edib Xarəzmdən çıxdı. O, yol getməkdə idi ki, xəstələndi, yolun bir neçə mərhələsini kəcavədə (məhəffe) gəldi, lakin xəstəliyi şiddətləndiyi üçün [Herata] çata bilmədi, üzr istədi və əlahəzrət onun üzrünü qəbul etdi, amma Nurməhəmməd xan əsassız səbəblər irəli sürdü və gəlməkdən imtina etdi.

Herat darüssəltənəsi hadisələrindən biri də budur: Bəlxə göndərilmiş Ruhulla bəy qayıdıb belə ərz etdi: "Bəlx əhalisinin bir

[651] Beytlərin farscası:
Baz novruz gəşt mehrayin,
Kərd səhne-cəmən ço xoldbərin.
Şod nəsime-bəhar ənbərbiz,
Dər-o bame-cəhan neşatəngiz.
Dər nəsime-bəhar-o feyze-səbuh
Hər dəmi can dəməd be qalebe-ruh.
Be məşame-cəhan ze lotfe-bəhar
Mirəsəd buye-zovq-o nekhəte-yar

hissəsi İbrahim Məhəmməd xanı istəyir, amma başqa hissəsi isə, hal-hazırda da onların hakimi olan Əbdüləmin xan tərəfdarıdır. İkinci hissə İbrahim Məhəmməd xanın oraya göndərilməsinin əksinədir və onlar qorxurlar ki, xanın gəlişi ilə Əbdüləmin xan dövlətinə sədəmə toxuna bilər." Bir neçə kəngaş məclisi çağırıldıqdan sonra əlahəzrət zilləllah şah istəmədən bu fikirlə razılaşdı. Şərt belə oldu ki, Məhəmməd İbrahim xan Əbdüləmin xanı özünün böyük qardaşı bilsin, onunla görüşsün, əmr və tapşırıqlarına əməl etsin, Əbdüləmin xanın rəsmi hökmü (yərliğ) ilə ona verdiyi məmləkətlərlə kifayətlənsin və Mavərənnəhrin fəthinə qədər bununla qənaətlənsin, amma, Allahın köməyi ilə Mavərənnəhr ələ alındıqdan sonra onların biri Buxarada, o birisi isə Bəlxdə yerləşər.

Şah tərəfindən Məhəmməd İbrahim xana istimalət kağızı yazıldı ki, orada xana "izzətli qardaş" ifadəsi ilə müraciət olunmuşdu. Bu iş şahın ürəyindən olmasa da, zamanın məsləhətinə uyğun olaraq belə dedi:

Beyt

Dövlət işi ittifaq iləndir,
Amma süqutu nifaq iləndir.[652]

Xudaynəzər bəyin fikir və hüsni-tədbirinə tam etimadı olan şah Məhəmməd İbrahim bəyin huşyarlıq qulağına (guşe-huş) öz qiymətli nəsihətbrini çatdırıb ona lazimi tapşırıqlar (sefareşate-bəliğ) verdi, bidirdi ki, Nəzər bəyin məsbhət və razılığı ilə hərəkət etsin, zamanın da məsləhətini nəzərə alaraq Əbdüləmin xanla da mülayimlik və məhəbbət izharı şəraitində dolansın, əqlin və biliyin göstərişinə əməl etsin. Şah ona şahanə yaraqlar verib, müqəddəs Məşhəd hakimi Budaq xanı və ibn Hüseynxan Firuzcəngi də ona həmrah edərək yola rəvan etdi. Sonra İmamqulu xan Pakizə Türkmanı Bəlxə Əbdüləmin xan və özbək böyüklərinin yanına yollayıb, onlarla ülfət məktubları göndərdi. O, həmrəylik və ittifaq barədə öz ürək sözlərini yazaraq belə buyurmuşdu: "İrsi mülkün ələ

[652] Beytin farscası:
Dovlət həme z-ettefaq xizəd,
Bidovləti əz nefaq xizəd.

keçirilməsinə çalışın. Əgər qızılbaşların köməyinə ehtiyac olarsa, bizə bildirin ki, onları yollayaq".

Məhəmməd İbrahim xan xoş bir saatda şahın yanından ayrılaraq qızılbaş döyüşçüləri və Xudaynəzər bəylə yola rəvan oldu. O, Pakizə İmamqulunu irəli göndərdi ki, onun gəlişini əmisinə çatdırsın, əhalinin istiqbala çıxmasını təşkil etsin. Pakizə də Bəlxə gedərək özünün bu elçilik xidmətini yerinə yetirdi.

Amma, Bəlx böyükləri hazırda səltənət taxtında əyləşən Əbdüləmin xanın xatirinə Pakizə İmamqulunun xahişinə əməl etməyərək, xanın izni olmadan Məhəmməd İbrahim xanı qarşılamağa cürət etmirdilər. Nəhayət bəzi ağsaqqalların məsləhəti ilə onlar xanı qarşılamağa yollandılar və Meymənə hüdudunda aralarında görüş oldu. Onlar hər məsələ xüsusunda xeyli danışdılar. Bəlxlilər Məhəmməd İbrahim xanın hərəkətlərindən anladılar ki, o, məchul bir övlada baş əyməyəcəkdir. Əbdüləmin xan tərəfindən iş başına keçirilən və onun tərəfdarı olan bəzi adamlar səltənət iddiası izhar edərək, oradan geri qayıtdılar, şəhərə gəldilər. Başqaları isə belə dedilər: "Qızılbaş ləşkərinin gəlişinə ehtiyac yoxdur. Öz padşahzadəmizi bizim ixtiyarımızda saxlayın ki, özbəklər necə istəyirlərsə, eləcə də hərəkət etsinlər".

Bulaq xan və Xudaynəzər bəy özbaşına tərzdə bu təkliflə razılaşmadılar və qərara aldılar ki, qoy hər iki tərəf məsələni şaha ərz etsin və şah tərəfindən söyləniləcək təklifə əməl olunsun. Həmin adamlara etibarı olmayan Məhəmməd İbrahim xan və yoldaşlrı ehtiyatkarlıqla bir neçə mənzil geri çəkildilər ki, qızılbaşların köməyinə yaxın olsunlar. Onlar şahın yanına adam yollayıb ona məktub göndərdilər, həmin ağsaqqallar isə Bəlxə qayıtdılar. Əlahəzrətdən bərk qorxduqları üçün onlar da bir adamlarını ali saraya göndərib [belə] ərz etdilər: "Bizim cidd-cəhdimiz (hemmət) buna yönəlmişdir ki, qoy Məhəmməd İbrahim xan Buxaraya ləşkər çəkib Mavərənnəhr məmləkətini saxta adamların (motəgəl-lebe) əlindən alsın. Bizim Əbdüləmin xan və Bəlxin əmir və əyanlarından təvəqqəmiz yoldaşlıq və həmrahlıqdır, biz əsla Bəlx məmləkətini və Əbdüləmin xanın zəbtində olan yerləri ondan geri istəmirik. Qızılbaş ləşkərinin buraya gəlməyini istəmədiyimiz üçün, əgər [Əbdüləmin] xanın toxunulmazlığı xüsusunda əhd-peyman bağlanılarsa və həmin əhd-peyman imanla möhürlənərsə, şah [özbəklərin] nifaq etməyəcəklərindən arxayın ola bilər".

Əhd-peyman bağlandıqdan sonra Budaq xan və İbn Hüseynxan geri qayıtdılar və [Məhəmməd İbrahim bəyi] özbək döyüşçüləri ilə sağ-salamat Bəlxə rəvan etdilər. Bu məqsədlə Pakizə İmamqulu ikinci dəfə Bəlxə getdi. Zahirən Əbdüləmin xandan razı qalmalarından ötrü bəlxlilərə bu sözləri çatdırdı.

Amma, özbək böyükləri batinən onunla belə əhd etdilər: "Əgər Məhəmməd İbrahim xan buraya təşrif gətirərsə, biz özümüzün əsil-nəsəbi məlum olan o padşahzadəmizin tərəfini tutacaq, zərurət üzündən qəbul etdiyimiz məchul nəsəbli [Əbdüləmin] xanı qəbul etməyəcəyik" Onlar məxfi əhdnamələr yazıb, onları Pakizə İmamquluya verdilər, xan da onların razılıq və itaətindən xatircəm olub qeri qayıtdı, qorxu-hürküsüz halda və hərbi mülahizələrlə Məhəmməd İbrahim xanı Xudaynəzər bəylə Bəlxə apardı və qızılbaşlar geri döndülər.

Bəlxin kənarına gəlib-çatan Məhəmməd İbrahim xanın gəlişindən xəbər tutan Əbdüləmin xan bir neçə adamı onun istiqbalına yolladı. Həmin adamlar onunla görüş səadətinə yetişərək, Məhəmməd İbrahim xanda nəcabət və padşahlıq əlaməti müşahidə etdikləri üçün, ona mülazim olmaq qərarına gəldilər. O, Bəlxə yollandığı gün, şəhərdə qalmış əmirlər və əyanlar Əbdüləmin xanı Məhəmməd İbrahim xanın istiqbalına getməyə rəğbətləndirdilər. Amma o, özünün səltənət və böyüklük rütbəsinin hifzi üçün oraya getmək istəmirdi. [Buna görə də] onlar həmin böyük xanıma (Əbdüləmin xanın himayəçisinə - Ş.F.) belə dedilər: "Əgər nəvvab xan Məhəmməd İbrahim xanı qarşılamağa getməzsə və ona öz qardaşlıq ülfətini bildirməzsə, bütün özbəklər sizi öz qardaşınız oğluna (Məhəmməd İbrahim xana - Ş.F.) qarşı mehribansızlığda ittiham edəcəklər."

Xülasə, həmin böyük banu istiqbala razılıq verdi və Əbdüləmin xan əmirlər və əyanlarla istər-istəməz xanı qarşılamaqdan ötrü atlara süvar oldular. Onlar şəhərdən çıxanda və Məhəmməd İbrahim xan görünəndə adamların əksəriyyəti onu görməkdən ötrü irəli gəldilər və onunla kurneş etdilər. Adamların sayı get-gedə azaldı. İstiqbala gələnlərlə görüş bitdiyi vaxt özbək əyanları belə qərara gəldilər: "Görüş zamanı Məhəmməd İbrahim xan əgər atından düşərsə, gərək cənab xan da piyada olub onu öz mehribanlıq ağuşuna çəksin, qardaşcasına görüşsün, öz isti münasibətini bildirsin".

Əbdüləmin xan razılaşdı. Onlar gəlib bir-birlərinə çatdıqda əvvəlcə həmin sadəlövh biçarə nadan xan atdan düşdü. Əbdüləmin xanın atından endiyini müşahidə edən Məhəmməd İbrahim xanın özü isə ata süvar halda qaldı və öz tərəfdarlarına dedi ki, Əbdüləmini irəli gətirsinlər və onunla görüşdürsünlər. Bu fərmanı alan adamlar elə də etdilər. Vaxt get-gedə azalır və əhali nəsə təzə bir əhvalat gözləyirdi. Əbdüləmin xan tərəfdarlarından heç kim danışmağa macal tapmadı, xan isə pərişan və heyranlıqla kurneş mərasimini yerinə yetirdi. Məhəmməd İbrahim xan öz mülazimlərinə onun minik atlarını götürmələrinə işarə etdi. Görüşdən sonra o biçarənin atlanmaqdan ötrü cilov tələb etməsinə baxmayaraq, ona cilov gətirmədilər. Xan heyranlıqla əskər atlarının əl-ayaqları altında qalmışdı. Nəhayət, Məhəmməd İbrahim xan yanında saxlayıb şəhərə gətirməyindən ötrü onu etibarlı bir adamına tapşırdı, özü isə dövlət, iqbal, əzəmət və cah-calal ilə Bəlx qübbətül-islamına daxil olub səltənət sarayında dayandı.

Möhtərəm bibi öz qardaşı oğlunun görüşünə gəldi, iş artıq əlindən çıxdığı üçün ona öz bağlılıq və mehribanlığını izhar etdi, onun Əbdüləmin xanla mürüvvət və hüsn-rəğbətlə (ehsan) davranması və ona pislik etməməsi xüsusunda xahişini bildirdi. Amma, elə həmin gecə Yarməhəmməd Mirzə öz dövlətxahlığını bildirərək Əbdüləmin xanı aradan götürdü, Məhəmməd İbrahim xan isə arxayınlıqla səltənət taxtına əyləşdi, özbək tayfaları ayaqlarını ona itaət dairəsinə qoydular. Həsare-Şadiman hakimləri də Məhəmməd İbrahim xana öz bağlılıqlarını izhar etdilər və onun dövlət bayrağı göyə ucaldı. Məhəmməd İbrahim xanın hakimiyyətə gəlişi və Əbdüləmin xanın öldürülməsindən sonra belə xəbər eşidildi: Xanın bibisi məsələnin üstündən pərdəni açıb [Məhəmməd İbrahimə] belə söyləmişdir ki, Bəlx əhalisi Baqi xanın atası Canı bəy Sultanın padşahlığını istədikləri və Canı bəyin ailə üzvləri isə tamamilə qırıldığı üçün bu məsələni məmləkəti [məhz] səndən ötrü qorumaqdan ötrü mən düşünmüşəm.

Amma, Məhəmməd İbrahim xan bibisi xüsusunda yalan - doğru danışılan söhbətlərə görə, doğrusunu Allah bilir, ona qarşı çox da iltifat göstərmədi, bibisindən ötrü Həcc səfəri hazırlığını görərək, germəyinə izn verdi, bibi isə yolda ikən axirət aləminə getdi. Məhəmməd İbrahim xan baş verən məsələlər barədə sədaqət üslublu bir məktub yazaraq, ali saraya göndərdi. Bu xəbərdən şadiman olan

əlahəzrət, Məhəmməd İbrahim xanın təbriki üçün etimadlı adamlarla ona cürbəcür ənam və hədiyyələr yolladı.

Məhəmməd İbrahim xanın səltənət və iqtidar xəbəri Mavərənnəhrə çatdıqda bu məsələ Baqi xanın təşvişinə səbəb oldu. Meyməndvilayəti, Faryab, Əndxod, Sibirğan, Bəlx və bu yerlərə məxsus başqa yerlər Bədəxşana qədər Məhəmməd İbrahim xana çatdı. Xan, cah-cəlal ordusunun Xorasandan olduğu vaxtlarda həmişə ali saraya qasidlər göndərərək, baş verən gündəlik hadisələri şaha ərz edirdi. Xudaynəzər bəy onun divanbəyisi və bütün işlərinin icraçısı oldu.

ZƏFƏR AYƏLİ MÜZƏFFƏR ORDUNUN ƏBİ VƏRDƏ VƏ ŞAHİCAN MƏRVİNƏ YÜRÜŞÜ, O VİLAYƏTİN FƏTHİ VƏ NURMƏHƏMMƏD XAN ÖZBƏKİN ƏLƏ KEÇİRİLMƏSİNİN ZİKRİ

Yuxarıda yazılmışdı ki, Nurməhəmməd xan fələk əzəmətli dərgaha gəlməyərək, əsassız və həqiqətdən uzaq üzrxahlıqlar etmiş, buna görə də şah ondan incimişdi. Amma, yenə də əvvəlki kimi ona öz iltifatını izhar etməkdəydi. Əlahəzrət, izzətbüsatının yaxın adamlarından olan behişt ayinli məclisin "Çaryar" ləqəbli yasovulu Xosrov bəyi Nurməhəmməd xanın yanına yollayıb, ona şahanə diqqətlə dolu bir fərman göndərdi, ali saraya gəlmədiyi barədəki üzrxahlığını qəbul etdi və təqsirindən keçdi.

Amma, şah Nurməhəmməd xana məxfi göndərdiyi məktubunda yazırdı: "Hümayun məiyyətin Xorasana bu dəfəki yürüşü o qardaşa (yəni Baqi xan Özbəkin qardaşı Nurməhəmməd xana - Ş.F.) yardım etmək idi. Bizim aramızda daim mövcud olan bir neçə illik yaxınlaşma (məaşirət və həmsöhbəti) tələb edirdi ki, bizim tərəfimizdən görüş xahişi olunan kimi gərək o qardaş dərhal hümayun məiyyəti Damğan və Bəstamda qarşılayaydı. Sən əgər indiyəcən Baqi xanın qəzəbindən qorxursansa [bu qorxu əbəsdir], çünki, biz hazırda dövlət və iqbalın gücü ilə Xorasandayıq, Bəlxdə hakimiyyətə çıxmış Məhəmməd İbrahim xandan isə sənə heç bir zərər dəyməz. Əgər [bu dəfə] aramızda görüş baş tutmazsa, adamlar bizim əlaqəmizin kəsilməsini düşünərlər və başqa fikrə düşərlər. Özlərini sənin tərəfdarın kimi göstərən və səni bizim yanımıza gəlməyə qoymayan adamlar isə, həqiqətdə sənin tərəfdarın deyillər və sənin pisliyinə çalışırlar. Belə bir vəziyyətdə, yaxşısı budur ki, bu

məsələ xüsusunda heç kimə qulaq asmayıb, sədaqətli bir dost kimi yanımıza gələsən, bir neçə günlük görüşdən sonra izzət və ehtirama layiq olub geri qayıdasan. Xülasə, biz sizinlə hökmən görüşmək istəyirik. Əgər sən gəlməsən, bizi tezliklə qarşıla ki, şikar edə-edə Mərvə gəlib sənlə görüşəcəyik. Bu iki şərtdən hansını qəbul etsən, biz ona əməl edəcəyik".

Xosrov bəy Çaryar fələk iqtidarlı şəhriyarın əmriylə Nurməhəmməd xanın yanına gedib, hümayun şahın səadətli fikrinin yerinə yetirilməsini təklif etdi. Xosrov bəyin xanı şah hüzuruna getməyə tərğib etməsinə baxmayaraq, o, gedəcəyini dəfələrlə söylədiyinə baxmayaraq, özünün məsləhətçisi (moşir) və etibarlı adamı olan Qazi Nədr və vəziri Mir Qiyasın məsləhətləri ilə verdiyi vədə peşman olub, mənasız üzrxahlıq edirdi. Xosrov bəy məqsədinə yetişmədən geri qayıtdı. Evlər yıxan xoşxəbərlər[653] xana belə deyirdilər: "Əlahəzrət zilləllah şahın bu vilayətə tamahı düşüb. Əgər o, səni tutsa, bu dəfə İraqa aparacaq və bu vilayəti qızılbaşlara verəcəkdir". Nurməhəmməd xanın sülaləsinə qədimdən bəri xidmət edən və xanla İraqa getmiş olan Hafizək Sultan Xəbuşani isə şahın məsləhətinə qulaq asmağı məsləhət bildi: "Əgər hümayun kamyab nəvvabın bu balaca vilayətə tamahı vardısa, elə Xorasan fəthinin birinci ilində buranı qızılbaş əmirlərinə verərdi və sənə saxlamazdı. Elə səhv fikirlərə yol vermə". Xan isə Hafizək Sultanın dövlətxahlıq sözlərinə etina etməyərək, nəhayət onu qətlə yetirdi.

Sözün qısası, Nurməhəmməd xanın tuğyanı və nəməkharamlığı məlum oldu. Bu əsnada Məhəmməd İbrahim xan onun Əbdüləmin xana yazdığı bir neçə məktubu ələ keçirərək şaha göndərdi. Nurməhəmməd xan həmin məktublarda Əbdüləmin xanla əhd-peyman edib yazırdı: "Sən Məhəmməd İbrahim xanın oraya gəlişinə razı olma, qızılbaşları da gəlməyə qoyma. Məhəmməd İbrahim xanı oraya göndərməkdən şahın məqsədi Bəlxi ələ keçirməkdir". Həmin məktublarda şaha qarşı müxalifət və etinasızlıq vardı. [Buna görə də] Nurməhəmməd xanın elə yersiz hərəkətləri şahın ona qarşı kininin artmasına səbəb oldusa da, amma hövsələsinin çoxluğundan, o, yenə də xanla həmin əlaqəsini kəsmirdi. Nəhayət, Nurməhəmməd xan öz tərəfindən Əbivərdin hakimi təyin edilən və həmişə əlahəzrət zilləllah şaha sədaqətini izhar edən Mirzə Xacə Kəlan Cığataydan şübhələnərək, onu da dəf

[653] İsgəndər bəy Münşi burada xəbərçi adamları eyhamla "xoşxəbər" adlandırır.

etmək qərarına gəldi. Xandan şübhələnən Xacə Kəlan Əbivərdə yaxın olan və müqəddəs Məşhədin Pəsakuh adlı yerində yaşayan Xudaverdi xanın oğlu Mürşidqulu Sultan Cəlayiri yanına çağırıb, Əbivərd qalasını ona tapşırdı, özü isə gedib fələk əzəmətli şah dərgahına sığınmaq fikrinə düşdü.

Şahın şahanə diqqət və iltifatının Nurməhəmməd xana qarşı son dərəcə yüksək olduğunu düşünən Mürşidqulu Sultan isə Əbivərd qalasına şahdan icazə almadan getməyə cürət etmirdi. Xacə Kəlan yenidən ona məktub göndərdi. Xülasə, xacənin cahanpənah saraya hələ getməməsi və bu məsələnin uzanması xəbəri ətrafa yayıldı və xacə oraya getməyə cürət etdi, Əbivərd qalasını Mürşidquluya tapşırıb, cahanpənah dərgaha rəvan oldu, Herat darüssəltənəsində hümayun şahla görüş səadəti ilə şərəfləndi. O, orada Nurməhəmməd xanın üsyan və tüğyanı barədə xəbər çatdırdı və əlahəzrəti hücuma rəğbətləndirdi, həmin xanın işləri üzərindən pərdəni açdı.

Bu xəbərlər Mərvdə Nurməhəmməd xana çatdıqda, o, həyacanlanaraq Əbivərd qalasına tərəf hərəkət etdi, gəlib qala ayağında dayandı, Mürşidqulu Sultanın yanına adam yolayıb ondan soruşdu: "Sən niyə mənim vilayətimə dəxalət etmisən, əgər bu məsələ xüsusunda şahın hökmü varsa mənə göstər, yoxsa qaladan çıx". Mürşidqulu Sultan öz cavabında dedi: "Hələ şahın hökmü gəlib mənə çatmamışdır və mən buraya özbaşına gəlmişəm, amma məsələni şaha ərz etmişəm. Ondan cavab gəlməyənəcən qaladan çıxan deyiləm. Bir neçə gün gözlə".

Mirzə Xacə Kəlanın gəlişindən bir neçə gün əvvəl Şirazdan sərkara bəzi şeylər (barxane) göndərilmişdi. Əlahəzrət, qəbul olunmuş qayda üzrə, həmin şeylərə bir qatar qatır (əstər) da əlavə edərək onları qorçi Vəli bəy Evoğlu ilə Nurməhəmməd xana yolladı. Həmin şeylər Xacə Kəlanlə Mürşidqulu Sultan arasında başlayan yazışma zamanı gəlib çatdı.

Şahın göndərdiyi şeyləri özü üçün böyük nicat (fovz) əlamətinin izharı olduğunu düşünən Nurməhəmməd xan sadəlövh bir türk olan Vəli bəyi aldadıb dedi: "Bir halda ki, mənə belə bir şahanə iltifaq izhar olunmuşdur, Mürşidqulu Sultanı mənə qarşı etdiyi hərəkətdən daşındırsın". Cahil və nadan adam olan Mürşidqulu Sultan onun sözlərindən və şahanə qəzəbdən qorxaraq qalanı xana verdi, Pəsakuha getdi.

Xülasə, Nurməhəmməd xanın adamları cəlayir döyüşçülərinə (ğazi) qarşı ləyaqətsiz hərəkət edərək, onların bir neçə nəfərini qətlə yetirdilər. Nurməhəmməd xan Əbivərd qalasını öz etibarlı hərbiçilərindən olan Məhəmməd Sadiq bəy Çəni (?) Cığataya və məşhur göyərçinbaz (kəbutərbaz) olan Qasım bəyə tapşırdı, özü isə əlahəzrət zilləllah şahdan qorxduğu üçün (xayef) hümayun məiyyətdən uzaq olmaq istədi, yanındakı səkkiz min adamla Nisa və Bağdada yollandı.

Amma, əlahəzrət, Nurməhəmməd xana bildirdiyi kimi, onunla görüş əzmi ilə Herat darüssəltənətindən səadət və iqballa çıxaraq Sərəxs yolu ilə rəvan oldu. Onlar Çəhcəhə qəsəbəsinə çatdıqda məlum oldu ki, Nurməhəmməd xan adamlıq etməyib (namərdəmi), mehmanların mizbanı olmaqdan yayınmış, Mərv və Əbivərd qalalarını etibarlı adamlarına tapşırmış, [həmin] qalalarda qaladarlıq ləvazimatları hazırlatmış, özü isə möhkəm qalaları olan Nisa və Əbivərdə tərəf getmişdir.

Bu yürüşdən əlahəzrətin məqsədi xanı sınamaq idi. Belə ki, əgər xan vəfadarlıq yolunu tutub xilaf yola düşməsəydi, hümayun məiyyəti istiqbal etsəydi və mülazimlik səadətinə yetişsəydi, onlar həmin yerlərdə bir neçə gün şikar edə-edə Əbivərd yoluyla müqəddəs Məşhədə qayıdar və oradan İraqa gedərdilər, yox əgər xan öz ehtiram aynasını xilaf tozuna aludə cdib qəflət və qürur badəsindən məst olsaydı, o zaman onu gərək qəflət yuxusundan oyadaydı. Amma, Nurməhəmməd xan müxalifət və qaladarlıq qədəmi ataraq yolsuzluğa (birahə) doğru getdi, buna görə də ona qulaqburması vermək üçün şahanə bir cid-cəhd ehtiyacını doğurdu.

Xorasan bəylərbəyi Hüseynxan Şamlını, Maruçaq hakimi Bəktaş Sultan, Guryan hakimi Qənbər xan Şamlı, Sərəxs hakimi İbn Hüseynxan və Herat hakiminə tabe qəbilə mirləri ilə birlikdə Çəhcəhədən Mərvə göndərdilər ki, gedib qalanı mühasirəyə alsınlar, şahın özü isə ov etmək əzmi ilə müqəddəs ordu mülazimləri və yanında olan dörd yüz alt-mış nəfərlə Əbivord tərəfə təşrif apardı və qalanı mühasirə etdi. Müzəffər qoşunun yaxınlaşma xəbəri Mərvdə olan Nurməhəmməd xana çatdıqda, o, öz döyüşçülərinin sayının hümayun məiyyət adamlarının sayından çox olmasına baxmayaraq vahiməyə düşdü, adamları isə dağılmağa başladılar. Nisa, Dərun və Bağdadda yurd və məskənləri olan və Nurməhəmməd xana mülazimlik edən beş min cəlayir. Əli eli və sayinxani oymaq adamları ilə oradaca ondan ayrılıb öz yerlərinə getdilər, xan isə iki-

üç min adamla Çul yolu (bəlkə "çöl yolu"? - Ş.F.) ilə Mərvə yollandı. Yolda ikən o adamlar da xandan dönüb fərar etməkdəydilər. Xan az müqdar adamla Mərvə gəlib-çatdı və gecə vaxtı Urgənc darvazasından şəhərə daxil oldu. Onun gəlmə xəbəri artıq Mərvdəki əzəmətli əmirlərə gəlib-çatmışdı.

Nurməhəmməd xanı yolda tutmaqdan ötrü Bəktaş Sultan Ustaclı və İbn Hüsenxan bir dəstə qazi ilə onun qarşısına yollandılar. Yolda onlara məlum oldu ki, xan [artıq] Çul yoluyla gəlib-keçmişdir.

Əbivərd qalasının tutulması:

Əmirlər geri qayıdaraq, onun arxasınca yollandılar, amma Nurməhəmməd xan əmirlər gəlib-çatana qədər özünü qalaya çatdıra bilmişdi. Əmirlər onun rikabxanəsinin [bir neçə atını] və yaraqlarını, ələ keçirdilər. Əbivərd qalasının mühasirəsinə başlayan əlahəzrət İraq, Fars və Xorasan ləşkərlərini çağırmaqdan ötrü məktublar yollayaraq, belə qərara gəldi ki, müqəddəs Məşhəd hakimi Budaq xan və Nişapur hakimi Mirzə Məhəmməd Sultan Bayat gərək Hüseynxanın köməyinə - Mərvə getsin. Astrabad hakimi Hüseyn xan Qacara əmr olundu ki, Nisa qalasına yollansın. İsfərayinin və bəzi yerlərin hakimləri onun köməyinə təyin olundular.

Müqəddəs ordu mülazimləri Əbivərd qalasının fəthi ilə məşğul olmağa başladılar. İqbal əskərləri hər gün hümayun orduya gəlib çatır, şeybələri irəli aparır, lağimlar atır, çuvalları üst-üstə yığır və qalatutma vəsaitləri hazırlayırdılar. Mühasirədə qalanların vəziyyəti ağırlaşdı. Onlar ləşkərin dağılışmasını və Nurməhəmməd xanın vəziyyətinin pisləşməsini eşidib [şahdan] əfv və aman xahiş etdilər, mühasirənin iyirmi dördüncü günü qalanı təhvil verdilər, Məhəmməd Sadiq bəy və Qasim bəy [əyinlərinə] aman xalatı geyərək [gəldilər və] şahın mülazimləri silkinə daxil olundular.

Mülazimlik şərəfinə yetən və şaha xidmət edən Hafizək Sultanın qardaşı İbrahim bəy əmarət rütbəsi ilə sərəfraz oldu və Xorasanın Cahan Ərğəban ülkası ona verildi. Əbivərd qalasının fəthindən sonra cah-cəlal ordusu zəfər və iqballa Şahican Mərvinə yollandı və müzəffər əskərlərlə gəlib qala ayağında dayandı. Qələbə nişanlı məiyyətin gəlişindən və Əbivərd qalasının fəth olunmasından xəbər tutan Nurməhəmməd xan fikir dəryasına qərq oldu, heyrət barmağını dişlədi, peşimançılıq, acizlik və fağırlıq (məskənət)

göstərməkdən başqa heç bir çarəsi qalmadı, çölə adam yollayıb etimadüddövlə Hatəm bəyi və Bəstam ağa Türkmanı yanına çağırdı. Onlar getmək üçün rüxsət alaraq, qalada onunla görüşdülər, şahın mübarək xatirini öz yersiz əməl və hərəkətləri ilə incitdiyinə görə onu xeyli məzəmmət (nekuheş) etdilər, əlahəzrətdən xanın təqsirinin ərv olunmasını xahiş edəcəklərini boyun oldular, onu şahın yanına getməyə rəğbətləndirdilər. Nurməhəmməd xanın fitnəkar adamları, xüsusilə Mir Qiyas Vəzir və xanın rüknüddövləsi və bədrəl-mülkü (?) olan Qazi Nədr şahanə qəzəbdən qorxaraq, qalanı tərk etməyə və təhvil verməyə qətiyyən razı deyildilər, amma şahın zəhmi və qüdrəti onları qəflət yuxusundan oyatdı və istər-istəməz qaladan çıxmağa razı oldular. Xan həmin gün xəcalət və utancaqlıqla qaladan çıxdı, etimadüddövlə və Bəstam ağa ilə birlikdə şahın yanına getmək şərəfi ilə şərəfləndi, xəcalət və utanc (enfeal) səcdəsinə başladı. Əlahəzrət ondan baş vermiş yersiz hərəkətlərə və Bəlx valisi Əbdüləmin xana yazdığı məktublara baxmayaraq,

"Əfv eyləməyin ləzzəti yox intiqamdə"[654]

deyimini nəzərə aldı və xana müxtəlif hədiyyələr verib ürəyini aldı, onu padşahanə cəza sarıdan xatircəm etdi, həmin gecə, qəbul olunmuş qayda üzrə onunla açıq söhbət etdi və yuxunun gəldiyi vaxt qalaya getməsinə icazə verdi.

Nurməhəmməd xan qəflət məstliyindən bir az özünə gəlmişdi ki, ağıllı xeyirxahlarının təhriki və təlimi ilə qalaya getməkdən imtina etdi və getmədi. O günün ertəsi cümə günü idi. Əlahəzrət Mərvin came məscidinə təşrif apardı. Orada hümayun şahın adına on iki imam - onlara dünyanın sahibi Allahın salavatı olsun – xütbəsi[655] oxundu və Süleyman şanlı xaqan mərhum Şah İsmayılın həştad il öncə baş vermiş vəfatından həştad il keçməsinə baxmayaraq, ilk dəfə həzrət imamlar xatırlandı, İlahinin inayəti və həzrət şahın iqbalının gücü ilə əlahəzrətin şöhrəti daha da yüksəldi ki, buna Allahın həmdi olsun.[656] Amma, mərvlilər və o diyarın əhalisi qeyri məzhəbdən olduqları üçün qızılbaş tayfasından

[654] Misranın farscası:
"Dər əfv ləzzətist ke, dər enteqam nist".
[655] İfadənin ərəbcəsi: "əleyhim sələvatul-l-lahil-mulk-əl-əkbər".
[656] İfadənin ərəbcəsi: "əl-həmdu li-l-ləhi alə zəlikə".

qorxurdular. Ədalət və rəiyyətpərvərlik qaydalarına uyğun olaraq onları hümayun şah tərəfdən arxayın etdilər, məzhəb ixtilafına görə heç kimə toxunmamaq barədə hökm verildi, həmin vilayətin idarə olunması və mülkiyyəti Maruçaq hakimi Bəktaş xan Ustaclıya tapşırıldı, şəhərin və qalanın sakinlərinin can və mallarına aman verildi. Qərara alındı ki, hərbiçi olan və dövlətdən məvacib alan (məvacibxar) hər kəs öz silahını təhvil verib istədiyi yerə gedə bilər, amma bundan sonra qalada qala bilməz, rəiyyətlərsə azaddırlar və asudəliklə öz işləri ilə məşğul olsunlar.

Sonra şah qalanı möhkəmlətməyə yollandı, qalanın ətrafını müzəffər əmir və əskərlər arasında böldülər və orada dərin xəndəq qazdılar, bürc və barıların təmirini bitirərək, oraya kifayət qədər ehtiyat ərzaq və qaladarlıq silahları yığdılar, Nurməhəmməd xanı isə fərzəndləri və başqa adamları ilə birlikdə köçürüb İraqa yolladılar. Qərara alındı ki, o, oradan Fars [vilayətinə] getsin, gözəl şəhər olan Şirazda qalsın və cənnət misallı həmin şəhərdə yaşasın. Xanın hər günlük məsrəfi üçün əcəm əhlinin bir Tabriz tüməninə bərabər olan on min İraq dinan təyin olundu. Həqiqətən də, əgər vəziyyətdən xəbərdar olan adamlar işlərə dərindən nəzər salsalar görərlər ki, [Nurməhəmməd xanın] bəyənilməz hərəkətləri müqabilində ona qarşı olduqca mürüvvət və iltifaqla hərəkət olunmuşdur.

Nurməhəmməd xan şahanə ülfət və iltifaq nəticəsində dünyəvi və mənəvi səltənət baxımından üstünlük əldə etdi. Bəzi əmirlərlə Nisa qalasının fəthinə yollanmış Hüseyn xan Ziyadoğlu Qacar həmin qalanı ələ keçirdi, Nisa, Əbivərd və Bağbad vilayəti isə Bəktaş xanın oğlu Mülkəş Sultana inayət olundu. Mərvin işlərini tənzimlədikdən sonra qayıdış cilovunu geriyə döndərib Pəsakuh yoluyla müqəddəs Məşhədə təşrif aparan şah orada mələk aşiyanlı imaməl-cinn və-n-nasın məzarını təvaf etdi və İraqa yollandı, qalibiyyət və iqballa Qəzvin darüssəltənəsinə çatdı, bir ay orada dayandı, oradan İsgahan darüssəltənəsinə getdi və həmin cənnətnişan şəhər yenidən zəfər nişanlı məiyyətin qədəmlərindən təravət və tazəlik (nəzahət) tapdı. [Əlahəzrət] qışı eyş-işrət və şadkamlıqla başa vurdu. Bu hadisələr baş verən vaxtlarda Məhəmməd İbrahim xanın vəfat etməsi və Baqi xanın Bəlx vilayətinə gələrək oranı tutması xəbəri əlahəzrətə gəlib-çatdı.

BƏLX HADİSƏLƏRİ, MƏHƏMMƏD İBRAHİM XANIN VƏFATI, BAQİ XANIN O VİLAYƏTİ ZƏBT ETMƏSİ VƏ

ÖZBƏK SULTANZADƏLƏRİNİN MƏİYYƏTİNDƏ YARMƏHƏMMƏD MİRZƏ VƏ YOLDAŞLARININ ALİ DƏRGAHAGƏLMƏLƏRİNİN ZİKRİ

Elə ki, yuxarıda yazıldığı kimi, Məhəmməd İbrahim xanın Bəlxdəki işləri onun ürəyi istəyincə yerinə yetdi və Xudaynəzər bəy xanın atalığı, divanbəyisi, mali və mülkü məsələlərinin ixtiyar sahibi oldu, Bəlxin böyük özbəkləri, xüsusən Məhəmməd İbrahim xanın işlərinin qaydaya düşməsində (təmşiyət) səylər etmiş olan Yarməhəmməd Mirzə Xudaynəzər bəyin hökmranlıq (təsəllot) və iqtidarına tab gətirə bilməyərək, böhtançılıq (səayət) etməyə başladı, xanı öz cahilanə sözləri ilə Xudaynəzərə qarşı döndərdi. O, xana xatırlatdı ki, Xudaynəzər bəyin aradan götürülməsi cənab xanın ixtiyar, şövkət və iqtidarının artmasına səbəb olar. Məhəmməd İbrahim xan da həsədkar adamların qərəzli sözlərini ürəyində saxlayıb, Xudaynəzərin dəf olunması üçün fikrə daldı, ali saraya bu barədə ard-ardınca məxfi məktublar göndərib bu işin yerinə yetirilməsi üçün icazə istədi. Amma, əlahəzrət buna razılıq vermirdi. Məhəmməd İbrahim xan nəhayət təkrar məktub və elçilər yollayıb [şaha] ərz etdi ki, onun və bu vilayətin özbək əyanları arasında birlik (elteyam) mümkün deyildir. [Belə olan halda] əgər Xudaynəzərin dəf olunması ləngiyərsə, ehtimal ki, işlər fəsadla nəticələnər və böyük zərər baş verər.

Nəvvab şah onun cavabında belə yazdı: "Bizim əsl məqsədimiz o səadətli fərzəndin (yəni. Məhəmməd İbrahim xanın - Ş.F.) dövlət çırağını yandırmaqdır ki, qoy həmin çıraq iş bilən adamların səyi ilə kamkarlıq məclisinin işığını artırsın. İş adamı olan o şəxsi (Xudaynəzər bəyi - Ş.F.) biz o fərzəndin dövləti naminə zəruri bilmişdik. Bu haqda yaxşı-yaxşı fikirləş. Dövlətin əmin-amanlığı naminə yol seçməkdə müstəqilsən".

Bəlx padşahı Məhəmməd İbrahim xanın vəfatı:

Həqiqətdə yox cavabı kimi yazılan məktubun gəlib-çatmasından sonra Məhəmməd İbrahim xan o işə ürək edərək Xudaynəzər bəyin qətlinə iqdam etdi, amma, əslində özünün hakimiyyət ayağına balta çaldı. Xan yaxşı-yaman günlərdə yanında olan həmin hüşyar, tədbirli, döyüş meydanının bəzəyi olan bir adamı ayaqdan saldı və onun dövlət işlərinin ipi cahil nadanların və

özündən razı qatil cahillərin əlinə keçdi, Yarməhəmməd Mirzə divanbəyi və dövlətin bütün işlərinin sahibinə çevrildi, özündən razı çevik adamların hər biri müxtəlif istəklərlə həsəd və ziddiyyət qapılarını açdı, bir-birləri ilə nifaq bazarını qızışdırdı. Məhəmməd İbrahim xan isə cəhalət badəsinin məstləri olan bir neçə adamla həmməclis olub, cavanlıq əyyamının tələbi ilə, bütün vaxtını eyş-işrətə sərf edərək, dövlət işlərinin nizamlanmasına az əhəmiyyət verirdi.

Allahın köməyi ilə qələm yuxarıda yazmışdı ki, özbəklərin dövlət işlərinin ipi Baqi xanın ixtiyarına keçdi və ilahi qüdrət karxanəsinin tamaşaları daha da artdı. Məhəmməd İbrahim xan içkiyə ifrat qurşandığından onun səhhəti daim pisləşməkdə idi. Xanı qızdırma tutdu, onda güclü yatalaq (həsbe) və qara çiçək (able) xəstəliyi zahir oldu, yüz həsrətlə öz cavanlıq ömrü ilə vidalaşdı. O vaxt Hisare-Şadimana ləşkər çəkən və qalanı mühasirəyə alan Baqi xan bu hadisəni eşidib şadiman oldu, fürsəti qənimət bilərək qalanın mühasirəsini saxladı, Bəlxin fəthinin daha üstün olduğunu düşündü, sürətlə Bəlxə tərəf rəvan oldu. O, qardaşı Vəli Məhəmməd xanı ləşkərə münqəlay edərək irəli yolladı.

Məhəmməd İbrahim xanın vəfatından sonra Baqi xanın Bəlxi fəth etməsi:

Yarməhəmməd Mirzə və Bəlxin özbək böyüklərinin bu böyük məsələdən təşvişləri artdı və çarə axtarmağa başladılar. Baqi xana etimad etməyən, əvvəlcə Hisari - Şadimanda qalan, Məhəmməd İbrahim xan istilasından sonra bu xana itaət etməyi özləri üçün [hakimiyyətə çatmaq naminə] bir vasitə (dəstaviz) bilib, bilib Bəlxə gələn Canibəyi sultanlarının qohum-əqrabaları, habelə bəzi yaxın və mötəbər adamlar, xüsusilə Yarməhəmməd Mirzə, Şirəfkən Mirzə, Übeydulla Sultanın nəqibi Şah Xacə öz aralarında məsləhətləşərək Bəlxin müdafiəsindən ötrü şəhərdən çölə çıxdılar. Amma, Yarməhəmməd Mirzənin yersiz hərəkət və davranışından incik olan ləşkərin əksəriyyəti və başqa arif adamları Baqi xana müxalif olmağı vaxta görə münasib bilməyib, batinən ona itaətdə olduqları üçün, [yuxarıda adı çəkilən mötəbərlərin] tərəfini tutmadılar. [Buna görə də,] Übeydulla Sultanla şəhərdən çölə çıxan az miqdar adam Baqi xan ləşkərinin hücumuna tab gətirməyib, özbəklərin münqəlay qoşununun gəlib-çatmasından sonra bir-

birlərindən ayrılaraq məğlubiyyət yoluna düşdülər, Übeydulla Sultan isə döyüş meydanında yoxa çıxdı, bəlkə də öldürüldü.

Xorasana getmək və dünyanı tutan şəhriyarın (Şah Abbasın - Ş.F.) iqbal kölgəsi altına pənah aparmaqdan başqa çarə görməyən Yarməhəmməd Mirzə və yoldaşları pərişan halda fərar yoluna düşdülər. Onlar Şibirğanda olan Məhəmməd İbrahim xan qohumlarından Seyid Məhəmməd Sultanın oğlu Cahangir Mirzəni, habelə Əndxodda yaşayan Məhəmməd Səlim Sultanı - Pirməhəmməd xanın oğlunu -Ərəb Məhəmməd Atalıqla birlikdə Xorasana yolladılar və Vəli Məhəmməd xan zəfər və qələbə ilə qardaşına fəth və qalibiyyət müjdəsi yolladı, Baqi xan tam əzəmət və kamranlıqla Bəlxə daxil oldu. O, ləşkərin qalan hissəsini padşahanə ülfət və xeyirxahlıq sarıdan ümidvar edərək, onları öz tərəfindən də arxayın etdi. Beləliklə, həmin vilayətin bütün özbəkləri qədəmlərini onun itaət və bağlılıq dairəsinə daxil etdilər və Bəlx, Əndxod, Şibirğan, Meymənə, Faryab və Murğab çayınadək bu yerlərə yaxın olan torpaqlar Baqi xan tərəfindən zəbt olundu. Həmin vilayətin fəthi nəticəsində bütün Qunduz, Bəqlan, Xetlan, Hisari - Şadiman ta Bədəxşan hüdudunadək Mavərənnəhrə və başqa məmləkətlərə əlavə olundu, Baqi xanın şöhrəti Sürəyya bürcünə qədər ucaldı.

Amma, Şah Xacə, Yarməhəmməd Mirzə, Ərəb Məhəmməd Atalıq və sultanzadələr məiyyətinin adamları Herata çataraq, özlərinin yol yorğunluqlarını cahanpənah dərgahda aldıqdan sonra İsfahan darüssəltənəsində şahın astanasını öpmək səadətinə yetişdilər və şahanə iltifat və nəvazişə çatdılar, bir neçə gün bu təhlükəsiz (biməhal) dövlətin və hümayun fallı şah çətirinin kölgəsi altında hadisələr günəşinin və ruzigar möhnətinin bəlasından (asib) qorundular ki, onların gələcək vəziyyətləri öz məqamında gələcəkdə qələmimizlə bəyan olunacaqdır.

Şərq – Qərb
1986-cı ildən

Şərq-Qərb" Nəşriyyat evində çapa
hazırlanmışdır

Buraxılışa məsul: Rasim Müzəffərli
Texniki redaktor: Rövşən Ağayev
Kompyuter səhifələnməsi: Allahverdi Kərimov
Üz qabığının dizaynı: Nərgiz Əliyeva
Korrektor: Nazilə Fazil

Çapa imzalanmışdır 30.06.2011
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 71,5
Sifariş N 023.Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat evinin
mətbəəsində çap olunmuşdur

AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17 Tel.:
(+99412) 370 68 03; 374 83 43 Faks: (+99412)
370 68 03; 370 18 49

www.eastwest.az